Bir kərə yüksələn bayraq
bir daha enməz!



İnsanlara hürriyət,
millətlərə istiqlal!

Nəsiman YAQUBLU
AZƏRBAYCAN MİLLİ AZADLIQ HƏRƏKATI ENSİKLOPEDİYASI

Nəsiman YAQUBLU

# AZƏRBAYCAN

## MİLLİ AZADLIQ HƏRƏKATI

# ENSİKLOPEDİYASI

NƏSİMAN YAQUBLU

# AZƏRBAYCAN MİLLİ AZADLIQ HƏRƏKATI ENSİKLOPEDİYASI

*(Sovet rejiminə qarşı mübarizə: 1920-1991)*

Bakı – 2018

**Azərbaycan Cümhuriyyətinin 100 illiyinə**

**Azərbaycanın azadlığı uğrunda mücadilə aparmış və Qarabağı işğaldan azad edəcək insanlara həsr olunur!**


Elmi məsləhətçi: ***Rafiq İsmayıl***
*tarix üzrə elmlər doktoru*

Redaktor: ***İradə Quliyeva***
Operator: ***Nəzakət Muradova***
Korrektor: ***Fəridə Ələsgərli***
Rəssam: ***Rəis Rəsulzadə***
N/Direktoru: ***Sevda Mikayılqızı***
Dizayn: ***Şamil Qurbanov***

**Nəsiman YAQUBLU.**
**AZƏRBAYCAN MİLLİ AZADLIQ HƏRƏKATI ENSİKLOPEDİYASI**
Bakı, "Ziya" NPM, 2018. 836 səh.



*Bu ensiklopediya Azərbaycan xalqının 1920-1991-ci illərdə sovet rejiminə qarşı apardığı mübarizə haqqındadır. Ensiklopediyada Sovetlər Birliyi dövründə Azərbaycanda yaradılmış gizli təşkilatların, dissidentlərin, milli mücadilədə böyük fəallıq göstərmiş insanların fəaliyyəti araşdırılmış, eyni zamanda, "samizdat" olaraq çap edilən nəşrlərlə bağlı geniş məlumatlar verilmişdir.*

*Ensiklopediyada xalqımızın Qarabağ uğrunda apardığı mübarizə də yeni arxiv faktları ilə oxuculara təqdim edilmişdir.*

*Ensiklopediya hazırlanarkən milli azadlıq hərəkatının fəallarından sənədlər toplanılmış, onların şəxsi arxivlərindən istifadə olunmuşdur.*



**© Nəsiman YAQUBLU**

# Mündəricat

1. Azərbaycan xalqı sovet rejiminə qarşı
mücadilədə (müəllifdən)........................................................................ 5
2. 1920-ci ilin 27 aprelində Azərbaycanın işğal edilməsi......................... 17
3. Erməni terrorları ..................................................................................... 65
4. Sovet rejiminə qarşı mücadilənin başlanması........................................ 68
5. Sovet qətliamları.....................................................................................114
6. Mühacirətdə sovet rejiminə qarşı fəaliyyət.......................................... 125
7. Azərbaycanda gizli təşkilatlar, fəal ziyalılar (1940-1950-ci illər)........ 150
8. Sovet rejiminə qarşı mübarizə aparan beynəlxalq təşkilatlar .............. 169
9. Sovet rejimindən narazı insanlar. Onların apardığı
təbliğat (1950-1960-cı illər)................................................................ 194
10. Ermənilərin fəallığı (1960-cı illər).................................................... 221
11. Şıxəli Qurbanovun müəmmalı ölümü................................................ 226
12. Qaranquş təşkilatı .............................................................................. 231
13. Ölüm hökmünə məhkum edilən Şərif Sultanov................................. 234
14. Milli kinomuzun rejissoru Hüseyin Seyidzadə.................................. 237
15. Dissidentlər, milli mücahidlər, təqiblər (1960-1970 ci illər) ............. 241
16. Asif Ata. Ocaq klubu. 1970-1980-ci illərdə fəaliyyətlər.................... 320
17. İlk cəmiyyətlər.................................................................................... 346
18. Çənlibelin yaranması ......................................................................... 368
19. Yurd Birliyinin yaranması və fəaliyyəti............................................. 384
20. Tərəqqi Cəmiyyəti ............................................................................. 398
21. Bakı Alimlər Klubu............................................................................. 401
22. Birlik Cəmiyyəti ................................................................................ 403
23. Bakı və Kəndlər Birliyi....................................................................... 409
24. Varlıq Mərkəzi ................................................................................... 415
25. Müstəqil Azərbaycan Təşkilatı .......................................................... 425
26. Boz Qurd ictimai-siyasi cəmiyyəti ..................................................... 427
27. 1988-1992 –ci illərdə Azərbaycanda ilk siyasi partiyanın
yaradıcısı-Azər Qasımzadə.................................................................. 432
28. Cümhuriyyət Partiyası ........................................................................ 441
29. Azərbaycan Sosial Demokrat Partiyası............................................... 446

30. Azərbaycan Milli Demokrat Partiyası – Yeni Müsavat ...................... 451
31. Azərbaycan Xalq Partiyası................................................................. 468
32. Xalq Azadlıq Partiyası ...................................................................... 472
33. Birlik Partiyası.................................................................................. 482
34. ŞADP-nin – Şimali Azərbaycan Demokrat Partiyasının yaranması................................................................................................ 486
35. Müstəqil Respublika Partiyası .......................................................... 489
36. Azərbaycan Milli İstiqlal Partiyası .................................................... 491
37. Ana Vətən Partiyası ........................................................................... 493
38. İslam İnkişaf Partiyası ...................................................................... 494
39. Məhəmməd Hatəmi Tantəkin............................................................. 497
40. Azərbaycan qadınlarının fəallığı....................................................... 509
41. Bakı Dövlət Universitetinə M.Ə.Rəsulzadənin adı verilir................. 522
42. Sovet rejiminə qarşı fəallar (bayrağımızı, himnimizi yaşadanlar)...... 524
43. Kommunist Partiyasından imtina ..................................................... 539
44. ”Meydan” filmi.................................................................................. 544
45. Azadlıq marşı.................................................................................... 545
46. Azərbaycan Kommunist Partiyası fəaliyyətini dayandırır................. 557
47. Fəal ziyalılar ..................................................................................... 564
49. Naxçıvanda gizli təşkilatlar .............................................................. 571
50. 20 Yanvar faciəsi.............................................................................. 584
51. Xəlil Rza Ulutürk.............................................................................. 590
52. İlk yaradılan qəzetlər, nəşr edilən “samizdatlar” .............................. 595
53. ”Əliyevçilik” hərəkatının başlanması................................................ 616
54. Azərbaycan Xalq Cəbhəsinin yaradılması......................................... 618
55. Qarabağ mübarizəsi .......................................................................... 727
56. Milli Özünü Müdafiə Qüvvələrinin yaranması.................................. 798
57. Müstəqilliyə doğru gedən yolun qısa xronikası................................ 822
58. Azərbaycan tarixi haqqında həqiqətləri əks etdirən ilk kitablar............................................................................................. 825
59. Müəllifin şəxsən görüşdüyü, arxiv və sənədlərindən faydalandığı insanlar ............................................................................ 828

# AZƏRBAYCAN XALQI SOVET REJİMİNƏ QARŞI MÜCADİLƏDƏ

## (Müəllifdən)

1920-ci ilin 27 aprel gecəsindən - Azərbaycanın bolşeviklər tərəfindən işğal edildiyi dövrdən xalqımız milli müstəqilliyi uğrunda mübarizəyə başladı. Lakin həm daxili, həm də xarici səbəblərdən bu mübarizədə qələbə qazanmaq mümkün olmadı. Bolşeviklərin fövqəladə amansız rejim tətbiq etmələrinə baxmayaraq, xalqı susdurmaq da asanlıqla başa gəlmədi. Diqqət edək ki, yalnız 10 il müddətində (1920-ci ildən 1930-cu ilə qədər) Azərbaycanda 150 silahlı üsyan baş verdi. Sovet rejimini ciddi narahat edən bu üsyanlarda bolşeviklər böyük itkilər verdi. Bu dövrdə Azərbaycanın tanınmış ziyalıları da rejim əleyhinə gizli mübarizə aparır, xalqı bolşevik işğalından xilasa çalışırdılar.

**Bu illərdə sovet işğalına qarşı mübarizənin ideoloji əsasını qoyan Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu Məhəmməd Əmin Rəsulzadə idi.**

M. Ə. Rəsulzadə “Stalinlə ixtilal xatirələri” kitabında yazırdı (o, bu sözləri həbsxanada olarkən İ.V.Stalinə söyləmişdi): “Siz demokratiyanın müqəddəs saydığı böyük haqqı, milli istiqlal haqqını tapdalayaraq sərhədimizi keçdiniz. Buna gücümüzün yetdiyi qədər müqavimət göstərdik. Üstün qüvvə ilə yurdumuzu işğal etdiniz. Dağıdıcı qüvvələrinizə müqaviməti bundan sonra davam etdirməyə bizim qüvvələrimiz çatmırdı. Millətlərarası daha böyük qüvvəyə istinad etməyimiz lazım gəlirdi. Halbuki yaşadığımız şərtlər daxilində istinad edəcəyimiz böyük qüvvələr şərqdəki milli istiqlal hərəkatları ilə, xüsusən, Milli Türkiyə hərəkatı ilə düşmən vəziyyətindədirlər. Siz də bu vəziyyətdən istifadə edərək, Türkiyəyə yardım üçün Azərbaycandan keçid istəmək şüarı altında məmləkətə soxulurdunuz, bu məqsədlə burada olan macəraçı bir qrup ünsürdən də istifadə

edir və ümumi-əfkarı aldadırdınız. Yaranmış bu şərtlər daxilində biz iki od arasında qalan bir adam vəziyyətində idik. Bu vəziyyətdə bizə əlverişli vaxt gəlincəyə qədər gözləmək lazım gəlirdi. Müstəntiqinizin anlamadığı şey bir "ətalət" deyil, bir "intizar" idi. Sovet işğalını tanımayaraq, yenidən fəal mübarizəyə başlamaq haqqını saxlamaqla əlverişli bir şərait yaranana qədər gözləyəcəkdik".

Bu sözlərdən aydın olur ki, sovet işğalı ilə Azərbaycan xalqı barışmır və mücadilə aparırdı.

1920 və 1930-cu illərdə, 1940-1950-ci illərdə, 1960, 1970, 1980-ci illərdə də müxtəlif formalarda mövcud rejim əleyhinə mübarizə davam etdirilib. Sovet rejiminə qarşı mübarizənin əsasını qoyan, böyük ideoloq M.Ə.Rəsulzadə bu savaşı **"Azərbaycan davası"** olaraq xarakterizə edirdi. Yazırdı ki, bu dava (yəni mücadilə) nəsildən-nəsilə ötürülən bir davadır. Yəni, bir nəsil onu başlayar, digəri isə davam etdirər.

Bu, sonrakı illərdə həqiqətən öz təsdiqini tapdı. Sovet işğalına qarşı aparılan mücadilədə yeniyetmə gənclərimizlə yanaşı, qadınları da, yaşlı insanları da gördük. Şairlərimiz, yazıçılarımız bu mücadiləni gizli vasitələrlə əsərlərində tərənnüm etdi, müğənnilərimiz, aşıqlarımız mahnı və dastanlarında yaşatdı. Elm xadimlərimiz, digər peşə sahibi olan insanlarımız işğalla barışmayaraq, bəzən etiraz səslərini də ucaltdılar.

Başda M.Ə.Rəsulzadə olmaqla azərbaycanlı mühacirlər Azərbaycanın azadlığı mübarizəsini müxtəlif xarici ölkələrdə davam etdirdilər. Ə.M.Topçubaşovun, C.Hacıbəylinin, X.Xasməmmədovun, M.Y.Mehdizadə və digərlərinin çalışmaları heç zaman unudulmayacaq.

Onlar Türkiyədə, Fransada, Almaniyada, Polşada müxtəlif təşkilatlar yaradır, qəzetlər, jurnallar, kitablar nəşr edir, sovet rejiminə qarşı mübarizə aparırdılar.

Azərbaycanlı mühacirlərin "Prometey" təşkilatında, ABŞ-ın yaratdığı "SSRİ-ni Öyrənmə İnstitutu"ndakı fəaliyyətləri çox önəmli idi. Beynəlxalq tədbirlərdə iştirak edən siyasi xadimlər öz fəaliyyətləri, çıxışları, rəsmi müraciətləri ilə Azərbaycanın müstəqil bir dövlət olaraq yaşamaq haqqını dünya ictimaiyyətinə çatdırırdılar.

Azərbaycanlı mühacirlər "Azadlıq", "Amerikanın səsi" radioları ilə xalqımıza müraciətlər edir, mübarizəni davam etdirməyə çağırırdılar.

Sovet rejiminə qarşı aparılan mübarizənin 1920-1930-cu illərdən sonra ən coşqun dövrü 1980-ci illərə təsadüf etdi. Xalq yenidən ayağa qalxdı, azadlığı, istiqlaliyyəti uğrunda ağır savaşa başladı. Çökməkdə, tarix səhnəsindən silinib getməkdə olan sovet imperiyası bu dəfə öz "libasını" Rusiyaya verirdi. İndi Rusiya əbədi müttəfiqi olan ermənilərdən istifadə edərək, mübarizəmizin qarşısına "Qarabağ" adlı maneə yaradırdı. Bununla da o, Azərbaycan xalqını müstəqillik mücadiləsindən yayındırıb, daxili problemləri ilə məşğul etmək istəyirdi.

Bu illərdə Qərb dövlətləri də ermənipərəst mövqe göstərirdi. Onlar xalqımızın sovet rejiminə qarşı fəallığını dəyərləndirsə də, "Qarabağ məsələsi"ndə fərqli münasibət sərgiləyirdi.

Həmin dövrdə isə Qərb dövlətlərinin yalnız bir marağı var idi: SSRİ-ni dağıtmaq! Başda ABŞ dövləti olmaqla Qərb dövlətlərini yalnız bu məqsəd düşündürürdü. İndi belə məqam yetişirdi. Burada onlar erməni amilindən ciddi bəhrələnirdi. Xarici ölkələrdəki erməni lobbisinin də dəstəkverici qüvvələri məhz onlar idi.

ABŞ dövləti "soyuq müharibə"nin əsası qoyulandan, yəni 1946-cı ildən Çörçilin Fultondakı çıxışından etibarən sovet rejimini çökdürmək mübarizəsi aparırdı. Bu planın reallaşmasına böyük miqdarda vəsait ayrılmışdı. Yalnız "Azadlıq" radiosunun 1950-ci illərdəki büdcəsi 200 milyon dollardan çox idi. ABŞ dövləti 1949-cu ildə general Duayt Eyzenhauerin başçılığı altında "SSRİ-yə qarşı psixoloji müharibə" proqramı hazırlamışdı. "Amerikanın səsi", "Azadlıq" radiolarının fəaliyyəti bu məqsədə yönəldilmişdi. ABŞ dövləti Almaniyanın Münhen şəhərində "SSRİ-ni Öyrənmə İnstitutu" yaradır, elmi konfranslar keçirir, "Dərgi" adlı ayrıca bir jurnalı müxtəlif dillərdə nəşr edib yayınlayırdı.

Qərb dövlətlərini ermənilərin "Qarabağ" istəkləri yox, SSRİ-nin dağılması daha çox maraqlandırırdı. Ermənilərin "Qarabağ Komitəsi"nin liderlərindən olan və 1990-cı ildə Ermənistan prezidenti seçilmiş Levon Ter-Petrosyan yazırdı ki, bizim mübarizəmizdə ilk öncə "Dağlıq Qarabağı" Sovetlər Birliyinin sərhədləri çərçivəsində Ermənistana birləşdirmək vəzifəsi dururdu. Lakin biz mübarizəmizdə yenilik edib, Qərb dövlətlərinin dəstəyini qazanmaq üçün həm də Sovet İttifaqının dağılması xəttinə də üstünlük verdik.

Qərb dövlətləri isə Sovet dövlətinin rəhbərliyində ciddi mövqeyə sahib olan ermənilərdən (Sov. İKP MK-nın yüksək rəhbər orqanlarında 50-yə qədər erməni çalışırdı), onların SSRİ prezidenti M. S. Qorbaçovu öz təsirlərində saxlaya bilmək imkanlarından faydalanırdı.

Bu mənada erməni separatçıları da Qərbin, eləcə də Moskvanın ermənilərə olan bu "rəğbət"indən istifadə edir, "Dağlıq Qarabağ"ın Ermənistana birləşdirilməsini sürətləndirirdilər.

Qeyd edək ki, bu illərdə erməni fəalları, ziyalıları separatçı mövqedən çıxış edən bütün qüvvələr "Qarabağ hərəkatı"nı ehtiyatla, təmkinlə və "planla", "mərhələlərlə" aparırdı. Faktlara diqqət edin: onlar Qarabağın Ermənistana birləşdirilməsi ideyasını xalq arasında gizli və güclü təbliğat apardıqdan sonra, xüsusən Şahnazaryan, Qdlyan kimi ermənilərin SSRİ-nin dövlət başçısı M.S.Qorbaçova təsir imkanlarını öyrəndikdən sonra reallaşdırmağa başladılar. SSRİ-nin ermənipərəst dövlət başçısı mövcud sovet quruluşunu qorumaq cəhdi ilə əslində bu bölgənin Azərbaycanın tərkib hissəsi olduğunu təsdiqləyən qərarlar qəbul edirdi. O, yaxşı bilirdi ki, Dağlıq Qarabağın Ermənistana verilməsinin Moskva tərəfindən açıq dəstəklənməsi SSRİ-nin taleyini həll edəcək və dağılmasını sürətləndirəcək. Çünki SSRİ-nin digər respublikalarında da belə problemlər yox deyildi (bunu sonrakı proseslər də göstərdi: Gürcüstanda - Abxaziya, Osetiya, Mordoviyada – Dnestryanı bölgə, Rusiyanın öz tərkibində yaşayan çeçenlərin mübarizəsi və s.).

Dağlıq Qarabağ məsələsi həmin mövcud problemlərə uyğun gəlmirdi. Çünki ermənilərin 1918-ci ildə yaranmış dövləti var idi və say çoxluğuna görə toplum halında yaşayan ermənilərin Ermənistana birləşmək istəklərindən danışılırsa, onda digər qonşu dövlətlərdə – İranda, Gürcüstanda (Türkiyədə onların bu istəkləri XIX-XX əsrlərdə reallaşmayıb) kifayət qədər sayda erməni yaşayıb və bu gün də yaşamaqdadır. Onda bu bölgələrin də Ermənistana birləşməsinə cəhd edilə bilər. Burada vəziyyət başqadır.

Ermənilərin Qarabağ məsələsini öz xeyirlərinə həll etməkdə ehtiyatlandığı başlıca problemlərdən biri – orada yaşayan 210 minə yaxın azərbaycanlı idi. Əslində ciddi siyasi təşkilatlanmayan, Azərbaycandan böyük dəstək almayan bu azərbaycanlılar ermənilərə problem yaratmırdı. Onlar bu sahədə işlərini görmüşdülər. Ermənilər keçmiş Azərbaycan rəhbərlə-

rinin vasitəsi ilə bu bölgədəki savadlı, bacarıqlı kadrları Ermənistandan uzaqlaşdırmışdılar. Ermənilər azərbaycanlılara məxsus qədim yer adlarının əksəriyyətini (mənbələrdə iki minə qədər göstərilir) erməni adları ilə əvəz etmişdilər.

Ermənilər çox ehtiyatlı və hiyləgər xalqdır. Onlar başa düşürdü ki, burada yaşayan azərbaycanlılara muxtariyyət verilməsi və hüquqlarının qorunması uğrunda mübarizənin başlanması "Dağlıq Qarabağ problemi"nin həllində problem yaradacaq. Odur ki, onlar əsas güclərini həm də azərbaycanlıların Ermənistandan zorla, güclə, qətllə, qarətlə köçürdülməsinə yönəltdilər. Demək olar ki, bir neçə ay ərzində (1988-ci ildə) bu problemi həll etdilər. Qeyd edək ki, ermənilər hələ 1948-1953-cü illərdə də 100 mindən çox azərbaycanlını Ermənistandan deportasiya etməklə bu problemin birinci mərhələsini uğurla bitirmişdilər. İndi onlara mane olacaq daxili problem yox idi. Odur ki, bütün güclərini Qarabağa yönəltdilər.

**Bizdə isə hadisələrə yanaşmalarda fərqlər var idi. Biz ermənilərin xarici və daxili güclərini yetərincə hesablamamışdıq. Onların Stepanakertdə (Xankəndində) "barıt çəlləyi" kimi hazırlaşdıqlarını unudurduq.** Stepanakertdə və ətraf rayonlarda ermənilər sanki ikinci erməni dövləti yaratmışdı. Bütün yazışmalar erməni və qismən rus dilində aparılır, küçə, məktəb və digər rəsmi yer adları yenə erməni və rus dillərində olurdu. Bu bölgənin Azərbaycana aidiyyatı getdikcə az hiss edilirdi. Bəs hara baxırdı Azərbaycana rəhbərlik etmiş birinci katiblər?!.. 1977-ci ildə SSRİ Konstitusiyasından sonra 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında edilən dəyişiklliklərdən ermənilər faydalandı.

Ermənilərdə rəhbərlikdə olan şəxslərlə "Qarabağ" mübarizəsi aparan insanlar və təşkilatlar arasında mənəvi, ideoloji bağlantılar vardı.

**Bizdə isə əksinə. Xalqımızın apardığı mübarizədə rəhbərliklə anlaşmaq qeyri-mümkün olurdu. Azərbaycan rəhbərliyi hər bir dövrdə (1920-ci illərdən başlayaraq) Moskvanın xoşuna gəlməyə, ondan bir "malades" və "spasibo" ("əhsən" və "sağ ol") sözlərini eşitməyə çalışıb. Bu yolda öz millətindən kimləri qurban verməkdən çəkinməyib?..**

Elə məqamlar da olub ki, (bu, çox az olub) hərəkatımızın fəalları rəh-

bərliklə yaxınlaşmaq imkanından faydalanmayıb. Hansısa güclü əl onları bir-birindən kənara itələyib. Bu əl həm xaricdən, həm də daxildən olub. Bəzi hallarda isə əsas rəqib kənarda qalır, biz "birinci katib"lər uğrunda mübarizəyə önəm verirdik. Diqqət edin ki, 1988-1992-ci illərdə bizdə dörd rəhbər (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov, Y.Məmmədov) dəyişdi, ermənilərdə iki nəfər.

Hər dəfə ölkə rəhbərinin dəyişilməsi isə yeni situasiyaların yaranması demək idi.

Biz ermənilərdən fərqli olaraq 1980-ci illərdə iki istiqamətdə (qismən də üçüncü istiqamət – Güneylə Quzeyin birləşdirilməsi) mübarizə aparmışıq: birinci istiqamət – milli müstəqilliyimiz uğrunda; ikincisi Qarabağ uğrunda.

Ermənilər isə müstəqillik məsələsində çox ehtiyatla davranaraq (yəni Moskvanı çox qıcıqlandırmamaq) əsas güclərini Qarabağ savaşına yönəltdilər. Nəticədə onsuz da Moskvadan aldıqları dəstək onlara qarşı bir az da artdı. Biz isə çox zaman ayrı-ayrı fərdlərin, yəni mücadiləmizə və kütləyə təsir edə biləcək şəxslərin səhvləri ucbatından (bilərəkdən, qəsdən, bəzən də bilmədən və siyasi səbatsızlıqdan) gerçəkliyi dəyərləndirə bilmədik. Digər tərəfdən apardığımız mübarizənin də sərhədlərini çox genişləndirirdik. Yəni buraya Güney Azərbaycan məsələsini və iki Azərbaycanın birləşməsi kimi müqəddəs ideyanı da əlavə etsək, onda İranı da narahat edirdik. Bizim isə qısa zaman müddətində bu problemləri həll etməyə gücümüz, imkanlarımız və beynəlxalq güclər tərəfindən dəstəyimiz yox idi. Hər halda, Sovetlər Birliyinin də, İranın da sərhədlərin sökülməsinə laqeyd qalmasının gizli səbəbləri vardı.

Eyni zamanda, Sovetlər Birliyinə qarşı aparılan mübarizədə Güneydən olan soydaşlarımızın fədakarlığı da inkaredilməzdir və bu da tariximizin dəyərli səhifələridir.

**Unutmamalıyıq ki, apardığımız mübarizə çox çətin və ağırdır, mürəkkəbliklərlə doludur.**

Böyük bir Sovet imperiyasına qarşı (Çar Rusiyasının başqa formada mövcudluğu kimi qəbul edək bunu) mücadilə etmək asan olmayıb. Bu mücadiləmizdə Sovet imperiyasının hər zaman dəstəklədiyi (məhz Azərbaycan

torpaqlarını işğal etmək baxımından) erməni amilini da unutmamalıyıq.

Bu, çətin və şərəfli mücadilədir. İşğal edilmiş torpaqlarımızı, Qarabağ bölgələrini (başda gözəl Şuşamız olmaqla) azad etməklə bütün xalqımıza qürur duyğuları verə bilərik.

Bu şərəfli mücadiləyə qoşulan gənclərimiz dünənimizdə baş verən hadisələri diqqətlə öyrənib, savaşlarda canlarını fəda etmiş insanları heç zaman unutmamalıdır!

Azərbaycan xalqının apardığı mübarizədə Azərbaycan Xalq Cəbhəsi təşkilatının böyük rolu vardır. AXC həmin dövrdə mövcud olan təşkilatların çoxunu öz sıralarına daxil edib daha da gücləndi. O illərdə fəaliyyət göstərən heç bir təşkilat AXC qədər gücə və təsirə malik deyildi. Nəticə etibarı ilə sonda AXC-nin namizədi 1992-ci ilin iyununda seçkilərdə qalib gəldi və Azərbaycanın prezidenti oldu.

Azərbaycan Xalq Cəbhəsi təşkilatı qısa zaman müddətində geniş kütləni əhatə etdi. Prosesin belə sürətlə getməyinin müəyyən səbəbləri olsa da, başlıcası "Qarabağ" hadisələri idi. AXC-nin hakimiyyətə olan sərt mövqeyi, təşkilatın rəhbərliyindəki şəxslərin radikal çıxışları, "Vətən, millət, müstəqillik, Qarabağ" çağırışlarını mitinqlərdə, mətbuat orqanlarında ucadan səsləndirməsi insanların böyük toplumunu təsiri altına salırdı. Beləliklə, AXC kütlənin düşüncəsində "xilaskar" obrazına çevrilir və bu təşkilatın "Qarabağ" problemini tezliklə həll edəcəyinə inam yaradırdı.

AXC-nin belə formada inkişafı onun əsasını qoyan bəzi siyasi xadimlərdə narazılıq yaradırdı. Xüsusən, mitinqlərdə səsləndirilən "Türkçülük, millətçilik" şüarlarını, "Türkün türkdən başqa dostu yoxdur!", "Oturmayan erməni", "Güney Quzeylə birləşməlidir!" şüarları, Rusiya əleyhinə çağırışlar və s. Onlar (əsasən sosial-demokratlar və müəyyən qrup ziyalılar) düşünürdü ki, bu yanaşmalar AXC-yə və bütövlükdə Azərbaycana ciddi problemlər yaradacaq.

Onların fikrincə Təşəbbüs Mərkəzinə "Varlığ"ın daxil olmasından sonra (1989-cu ilin fevralından) çoxlu sayda naməlum şəxslər AXC-yə qoşulmağa başladı və bu da sonradan idarəetmədə problemlərə çevrildi (yaranmasından az sonra İdarə Heyətinin buraxılması vacibliyi, hadisələrə nəzarətin itirilməsi, müəyyən qüvvələrin təşkilata təsir imkanlarının artması, bəzi hallarda strateji uzaqgörənliyin olmaması, kütlə psixologiya-

sına üstünlük verilməsi və digər məqamlar AXC-də ciddi problemlərin olduğunu göstərdi).

AXC Azərbaycan cəmiyyətinin geniş ziyalı təbəqəsini də əhatə etməkdə, onların elmindən, biliyindən faydalanmaqda çətinlik çəkirdi. Odur ki, elm adamları, ziyalı təbəqə sonradan AXC-dən uzaqlaşmağa başladı. Həmin təbəqənin böyük bir hissəsi ya keçmiş "partnomenklatura" liderlərin ətrafına toplaşdı, digərləri isə kənara çəkilib fəaliyyətsiz oldu.

Sovet rejimini yaşamış ziyalı insanlarımızın geniş şəkildə AXC təşkilatına qoşulmaması, təbii olaraq, buraya başqa qüvvələrin daxil olmasına şərait yaratdı. Bəzi hallarda isə müəyyən kənar, lakin hadisələrin qarışmasında maraqlı qüvvələr AXC-nin gücündən öz maraqları naminə faydalana bildi.

AXC-də demokratiya, insan haqları prinsipləri ilə çalışmaq istəyənlərin fəaliyyəti zəiflədi.

AXC liderləri Azərbaycan hökuməti rəhbərliyi ilə də effektli münasibətlər yarada bilmədi (bu nə qədər çətin olsa da).

AXC mitinqlərində Azərbaycanın az qala 100 illik, 200 illik problemləri (onun istismarı, azadlıqdan məhrum edilməsi, ikiyə bölünməsi və s.) sadalanır, insanlarda həssas duyğular yaşadılır və sanki AXC-nin bunu qısa müddətdə həll edə biləcəyi görüntüsü yaranırdı.

AXC liderləri daha çox nəzəriyyəçilər idi, nəinki icraçılar( funksionerlər).

AXC-ni çətin duruma salan bir məqamı isə onun qurucularından biri belə izah edir: "Məsələn deyək ki, mənim ağıllı rəhbər olan professor atam niyə mitinqə gəlib o tribunaya çıxmır? Hanı bizim ağıllı atalarımız? Hanı bizim akademiklərimiz?..".

Bəzi ziyalılar isə hakimiyyətin "tapşırığı" ilə hərəkata qoşulur, mitinqlərdə çıxışlar edir, müəyyən məqama qədər "irəli" gedir, sonradan "yuxarı"nın göstərişlərini yerinə yetirirdi. Mərkəzi Komitənin hələ sovet dövründə belə hazırlanmış "təbliğatçılar" qrupu vardı. Yəni dünən Lenindən, Şaumyandan, partiyadan yazan və təbliğat aparanlar indi Azərbaycan Xalq Cümhuriyyətindən danışır, yazır, Cəbhəni tərifləyir və kütləni bu yolla özlərinə inandırırdılar. Əslində, bu siyasətin əsası Sovet hökumətinin mövcudluğu dövründə başladı.Yəni bu rejim onu qəbul etməyənləri

1920-1930-cu illərdə aradan götürdükdən sonra, ona tərif yazanları qoruyub saxladı. Xüsusən, N.S.Xruşşov dövründə (1954-1964-cü illər), əsasən də L.İ.Brejnevin hakimiyyəti illərində (1964-1982) onlara daha "diqqətli" oldu. Sovet dövlətinin L.İ.Brejnev dövründəki ideoloji katibi M.A.Suslov respublikaların rəhbərlərinə belə göstəriş vermişdi: "Süni dissidentlər yaratmayın,onları şirnikləndirin".Və onları həqiqətən də şirnikləndirdilər: ev vermək, maşın bağışlamaq, bağ şəraiti ilə təmin etmək, kitablarını çap edib yüksək qonorar yazmaq, orden və medallarla təltif etmək, digər problemlərini aradan qaldırmaq və s. İndi bu "şirnikləndirilən" ziyalılar hərəkata yaxınlaşır və "fəaliyyətə" başlayırdı.

Bir dəstə ziyalı isə məqsədli şəkildə kimlərinsə hakimiyyətə gəlməyinə çalışır və mitinqlərdən bəhrələnmək istəyirdi. Digər ziyalılar isə (təəssüflər ki, onların sayı digərləri ilə müqayisədə az idi) həqiqi mənada vətənpərvərlik hissləri ilə hərəkata qoşulub bu yolda mücadilə aparır, lazım gələndə savaşır, özünü şəhid edirdi.

Azərbaycan Xalq Hərəkatının Meydan dövründə AXC Təşəbbüs Qrupu ilə "Varlıq" Mərkəzi rəhbərləri arasında da ziddiyyətlər mövcud idi. M.Hatəminin başçılıq etdiyi "Xalq Hərəkatı Cəbhəsi"nin hər iki qrupa qarşı (eyni zamanda ikincinin də sonuncuya qarşı) əks təbliğatı artırdı. Meydan hərəkatı dövründə AXC Təşəbbüs Qrupu Proqram və Nizamnamə layihələrini xalq arasında yayarkən, "Varlıq" Mərkəzi də öz Əsasnaməsini yayır, AXC yaradacaqlarını bəyan edirdilər. Noyabr hadisələrində əsası qoyulan bu ziddiyyətlər sonradan AXC-də parçalanmalara səbəb oldu.

Bəzi hərəkatçılar isə AXC-yə Xudu Məmmədovun (müəyyən şəxslər hərəkatda onu lider olaraq görmək istəyirdi) başçılıq etməsi şəraitində Azərbaycanda başqa situasiyanın yarana biləcəyini vurğulayır. Yəni belə izah edirlər ki, Ə.Elçibəy daha çox millətçi mövqedən çıxış edir, Rusiyanı, İranı qıcıqlandıran fikirlər səsləndirir, idarəçilikdə təcrübəsizdir və s. Bəziləri isə Təsis konfransında namizədliyi irəli sürülən yazıçı Yusif Səmədoğlunun AXC sədri olduğu təqdirdə hadisələrə başqa yanaşma və təsir imkanlarının olacağını qeyd edirlər.

Bəzi hallarda isə hərəkata qoşulanlar geniş strateji yanaşmalara sahib ola bilmirdi. Onların çoxu "Arazın o tayı, Arazın bu tayı" fikrindən və "Qarabağ bizimdir" şüarından kənara çıxmağı bacarmırdı. Bu, müqəddəs

ideya və təsirli şüar olsa da, Azərbaycan problemінin daha geniş və ciddiliyi unudulur, böyük dövlətlərin, xüsusən, Rusiyanın maraqları nəzərə alınmırdı (bu nə qədər çətin olsa da acı bir reallıqdır. Sonrakı baş verən hadisələr və torpaqlarımızın işğalı, 25 ilə yaxın müddətdə ərazilərimizi gerı qaytara bilməməyimiz bunu sübut etmirmi?). Qarşı tərəfdə isə ermənilər məharətlə Rusiyanın gücündən faydalanıb, Azərbaycanın torpaqlarını işğal edirdi.

Müəyyən məqamlarda isə AXC-nin gücündən bəzi siyasi qüvvələr hakimiyyətə gəlmək üçün faydalanırdı. O dövrdə SSRİ DTK-sı, onun casusluq və təxribatçılıq şəbəkəsi hələ güclü idi, fəaliyyətdə idi. Odur ki, həqiqətən ehtiyatlı davranışa ehtiyac var idi (buraya əlavə etsək Rusiyanın, İranın Azərbaycan maraqlarını, ermənilərin ərazi iddialarını, onda məsələ daha da aydın olar). Hər bir mübarizənin və fəaliyyətin sonunu dəyərləndirən nəticədir. Unudulmamalıdır ki, həmin güclü AXC hakimiyyətdə bir ildən artıq qala bilmədi və təbii ki, yuxarıdakı səbəblər onun məğlubiyyətinə gətirib çıxardı. Müqəddəs ideyalarla onların gerçəkləşə bilməməsi reallığı bəzən uğursuzluğa səbəb olur.

Lakin bu da bir həqiqətdir ki, AXC-nin güclü təşkilata çevrilməsində o dövrdəki ayrı-ayrı qurumların, şəxslərin ciddi rolu olmuşdu.Yəni AXC-yə qədərki təşkilatların və ictimai-siyasi sahədə fəallıq göstərən insanların çalışmalarına diqqət yetirmək bu faktın doğruluğunu ortaya qoyur. AXC-yə qədərki fəaliyyətləri milli azadlıq mücadiləsi tariximizdən kənara qoymaq,insanların fədakarlığını qeyd etməmək mümkün deyildir.

AXC yuxarıdan yox, aşağıdan formalaşırdı. Yuxarılar (Azərbaycan rəhbərliyi) Moskvaya hər mənada bağlı idi. Odur ki, hansı məqamdasa xalqın bu böyük təşkilatına yaxınlaşır, sonra kənara çəkilirdilər. Yəni bu rəhbərləri lazım olanda Moskva vəzifə kreslosunda əyləşdirir, lazım olmayanda o stuldan uzaqlaşdırırdı. Lakin sonrakı proseslər sübut etdi ki, o kreslodan hər kəsin uzaqlaşdırılıb, yenisinin gətirilməsi problemi həll etmir. Və hər belə “yerdəyişmədə” mütləq bir ağır itki ilə üzləşirik: Sumqayıt hadisələri baş verir, az sonra K.Bağırov vəzifədən gedir, 20 Yanvar hadisələri ərəfəsi Ə.Vəzirov hakimiyyətdən uzaqlaşdırılır, Xocalı hadisəsi baş verir və A. Mütəllibov istefa verir, Şuşa işğal olunur və Ali Sovet sədri Yaqub Məmmədov vəzifədən uzaqlaşır və s. Nəticədə “yaxşı birinci

katib", yaxud "yaxşı prezident" xalqın rəhbərliyinə gətirilmir. Bütün bu proseslərdə isə torpaqlarımız işğal olunur.

Sonrakı illərdə - yəni AXC-nin hakimiyyətdə olduğu dövrdə də bu proseslər fərqli formada davam etdi. AXC daxili və xarici səbəblərdən asılı olaraq bir ildən artıq hakimiyyətdə qala bilmədi. Ölkə Prezidentinin öz izahına görə məcburi olaraq Bakıdan getməsi (bu gedişə haqq qazandıranlarla yanaşı, əks fikirdə olub razılaşmayanlar da var) beş rayonun itirilməsi ilə sonuclandı. Yəni burada da "hesablamalar" özünü doğrultmadı. Dəvət edilib gətirilən şəxslə üç aya qədər danışıqlar aparıldı. Moskva öz kadrının olmasını istəyirdi. Onun istəyincə olmayan, hakimiyyətə gətirilən şəxsdən isə təminatlar tələb edirdi (yəni MDB-yə daxil olmaq, Moskvanın maraqlarına qarşı çıxmamaq və s.). Nəticədə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan işğal olunurdu. Yəni Moskva problemi yalnız özünün həll edə biləcəyini sübut edirdi və atılan addımın – daha təcrübəli şəxsin problemi həll edə bilmək düşüncəsinin yanlış olduğunu ortaya qoyurdu.

1988-1992-ci illər haqqında araşdırma aparanlar SSRİ dağıldıqdan sonra bu ittifaqın tərkibində olan bütün on beş respublikanın müstəqillik əldə etdiyi fikrini irəli sürür. Əsaslandırmağa çalışırlar ki, o respublikaların çoxu mübarizə aparmadı, itkilərə də məruz qalmadı, lakin müstəqil oldular (Qazaxıstan, Belorusiya, Türkmənistan, Ukrayna və s (sonrakı proseslər istisnadır), ərazilərinin bütövlüyünü də saxladılar. Bu da problemin geniş izahını tələb edən yanaşmadır.

Lakin problemə hansı mövqedən yanaşmadan asılı olmadan, ortalıqda bir həqiqət var: Azərbaycan xalqının fədakarlığı! Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda apardığı şərəfli Mücadilə!

AXC-nin isə tariximizdəki rolu inkaredilməzdir. AXC-nin müəyyən məqamlarda diqqətli ola bilməməsi sonrakı illərdə təsdiqlənsə də, unudulmamalıdır ki, AXC xalqın böyük kütləsini bir araya gətirib onlara həm də milli ruh verdi. Meydanlarda, tədbirlərdə maarifləndirdi, vətən sevgisini artırdı, insanları torpaqlarımızı qorumağa səslədi, onları səfərbər etdi. AXC adı ilə insanlar Qarabağ savaşına qatıldı, bu adla canlarını Vətən yolunda şəhid edənlər oldu.

**AXC-nin gücü həm də onun M.Ə.Rəsulzadə ideyalarına dayanıq-**

**lı olmasında, ondan bəhrələnmək cəhdində idi. Milyonlarla insanın toplaşdığı mitinqlərdə Azərbaycanın azadlığı mücadiləsinin ideoloji əsaslarını hazırlamış, Milli Qurtuluş Hərəkatımızın banisi və ideoloqu M.Ə.Rəsulzadənin portreti, onun yaratdığı Üçrəngli Bayraq dalğalanırdı. Bu nəsildən-nəsilə ötürülən bir mücadilə idi: bizdən əvvəlki nəsil bu mücadiləni başlamış, digəri isə davam etdirirdi.**

Mübarizəmiz bu gün də davam etməkdədir. Doğma torpaqlarımız düşmən işğalından azad olunana qədər hər bir Azərbaycan insanının mücadilə edəcəyi, bu müqəddəs vəzifəni yerinə yetirəcəyi şübhəsizdir.

**Bu, tarixi  mücadilədir. Bu, Azərbaycanın Azadlıq mücadiləsidir! Bu, Azərbaycan davasıdır!**

# 1920-ci İLİN 27 APRELİNDƏ AZƏRBAYCANIN İŞĞAL EDİLMƏSİ

## 27 APREL, YOXSA 28 APREL?

1920-ci ilin 27 aprelində Bolşevik Rusiyasının silahlı qüvvələri – başda XI Ordu olmaqla Azərbaycan sərhədlərini keçib müstəqil bir dövlətin ərazisini işğal etdilər. Həmin dövrdə Azərbaycan – Rusiya sərhədlərində olan azsaylı silahlı dəstələrimiz müəyyən qədər müqavimət göstərsələr də bu, nəticəsiz oldu. Bəzi mənbələrdə 60 (altmış), bəzi mənbələrdə isə 70 (yetmiş) min rus – bolşevik silahlı dəstələrinin Azərbaycana hücum etdiyi qeyd olunur. Əslində "sovet hakimiyyətinin, fəhlə-kəndli hakimiyyətinin qurulması və Türkiyəyə yardım" adı altında Azərbaycanın Rusiya tərəfindən yeni işğalı baş verirdi. Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə yazırdı**: "Nikolay Rusiyası ilə Lenin Rusiyası arasında heç bir fərq yoxdur. O zamankı zəncirlərin rəngi ağ, indiki zəncirlərin rəngi qırmızıdır**" (burada ağ və qara, Rusiyanın o dövrlərdəki bayraqlarına işarədir).

Azərbaycanda Sovet hakimiyyətinin mövcudluğu dövründə (1920-1991-ci illər) dövlətin təbliğat sistemində, nəşr etdiyi kitablarda, "27 Aprel" yox, "28 Aprel" tarixinə üstünlük verilib. Bəs nə üçün?

Azərbaycan Xalq Cümhuriyyətinin mühacirətdə yaşayan liderləri (başda M. Ə. Rəsulzadə, Ə. Topçubaşov və d.) öz yazılarında, rəsmi sənədlərdə 1920-ci ilin 27 Aprelini Azərbaycanın işğalı olaraq qeyd ediblər. Bu, onunla izah edilib ki, Azərbaycan dövlətinin sərhədləri Rusiya bolşeviklərinin XI Ordusu tərəfindən aprelin 26-dan 27-nə keçən gecə pozulub və işğalçı qüvvələr Yalama-Xaçmaz tərəfdən ərazimizə daxil olublar.

Yəni, hələ 1920-ci ilin 21 və 23 aprel tarixlərində Qafqaz Cəbhəsi İnqilab Hərbi Şurası S.Q.Orconikidzenin başçılığı ilə XI Orduya Aprelin



*XI işğalçı ordu Bakıda, 28 aprel 1920-ci il*

27-də Azərbaycan sərhədini keçib, bütün ərazini tutmaq əmrini vermişdi. Aprelin 26-da XI Ordu qərargahı hücuma rəhbərlik etmək üçün Dərbəndə köçmüşdü. XI Ordunun hücumu aprelin 26-dan 27-nə keçən gecə saat 12-də başladı. İrəlidə dəstə komandiri M.Q.Yefremovun yerləşdiyi "III İnternasional" qatarı gedirdi. Yalama stansiyasında Azərbaycan Ordusu əsgərləri ilə qısa döyüşdən sonra Milli Orduya məxsus zirehli qatar geri çəkilməyə məcbur oldu. Xudat və Xaçmaz stansiyalarında da Milli Ordu əsgərləri döyüşüb müqavimət göstərdilər (bəzi mənbələrdə 1000-ə qədər əsgərin döyüşdə həlak olduğu söylənilir). Lakin onların sayı işğalçı bolşevik ordusundan olduqca az idi. Azərbaycan sərhədlərini keçən bolşevik ordusunda 60-70 min əsgər var idi. **Bizim 25-30 minlik ordumuzun böyük bir hissəsi bolşeviklərin göstərişi ilə Qarabağda qiyam qaldırmış ermənilərlə savaşa göndərilmişdi.** Generallarımızdan S.Mehmandarov və Ə.Şıxlinski körpünü partladıb XI Orduya mane olmadılar. 1920-ci ilin Aprelin 28-də saat 5-də "III İnternasional" zirehli qatarı 23 saatlıq Yalama-Bakı məsafəsini qət edərək Bakı Vağzalına çatdı.

**Beləliklə, bolşeviklər məhz 28 Apreli Azərbaycanda Sovet Hakimiyyətinin yaradılması günü elan edərək "28 Aprel İnqilabı" olaraq dünya ictimaiyyətinə yaydılar. Yəni 27 Aprel işğalı yox, yalan və saxta bir təqvim yaratdılar –28 Aprel inqilabı.**

**27 Aprel işğalı ilə əlaqədar M.Ə.Rəsulzadə yazırdı: "Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Beləliklə, azadlıq istiqlalımız qızıl istilaçıların ayaqları altına əyildi".**

---

*Qaynaq:*

*1. N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997.*

*2. N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). B., 1996.*

## SOVET İŞĞALI –"QRAB NEDELYA" ("YAĞMALAMA" HƏFTƏSİ)

27 aprel 1920-ci ildə bolşeviklər Azərbaycanda "Qrob nedelya" ("Yağmalama həftəsi") elan edərək ticarətxanaları,dükanları, evlərin uşaq oyuncaqlarına qədər hər şeyi talan edib 60 vaqon dolu əşyanı "Yoldaş Leninə Azərbaycandan hədiyyə" adı altında Moskvaya yolladılar. Ərzaq anbarları müsadirə edildi, Moskva proletariatına göndərildi. Azərbaycanlı ailələr küçələrə atıldı, evləri mənimsənildi. Seçmə ziyalılar, hökumət adamları, məmurlar, tanınmış pedaqoqlar öldürüldü, ya həbs edildi. İki gün ərzində Bayıl həbsxanasında 300 nəfər güllələndi, 10 minə qədər insan Sibirə sürgünə göndərildi.



***Azərbaycanı işğal etmiş rus bolşevikləri: Azərbaycan Kommunist Partiyasına Moskvadan ilk rəhbər təyin edilmiş S.M.Kirov*** *(indiki Şəhidlər Xiyabanında onun heykəli ucaldılmışdı)*

Bolşeviklər neft və neft məhsulları olmaqla, Azərbaycanın bütün yeraltı və yerüstü sərvətlərini Sovet Rusiyasına daşıdılar.

Azərbaycan talan edilir, sərvəti Rusiyaya daşınırdı. Yalnız 1920-ci ilin mayın 1-də Rusiyaya "Buniyad" gəmisi ilə 67, 528 pud neft; "Rus" gəmisi ilə 76697 pud mazut yola salınmışdı.

Sovetlər Birliyi dövründə 800 min slavyan əsilli əcnəbi Azərbaycana gətirilərək burada əbədi məskunlaşdılar.

---

***Qaynaq:***

*Məmməd Sadıq Aran. Azərbaycan və Rusiya.*
*"Dərgi" jurnalı, Münhen-10, yıl 1964, №37, səh.32-40.*

## İŞĞALÇI XI ORDU BAKIDA





***Azərbaycanın işğalında rus bolşeviklərinə kömək etmiş azərbaycanlı bolşeviklər: Əliheydər Qarayev, Çingiz İldırım, Mirzə Davud Hüseynov və b. (1937-ci ildə onların əksəriyyəti sovet rejiminin qurbanı olub güllələnir)***



## 26 BAKI KOMİSSARLARININ ABİDƏSİ – İDEOLOJİ İŞĞALIN BAŞLANMASI



1920-ci ilin sentyabrında Bakını azad etmiş Türk şəhidlərinə qoyulacaq abidənin açılış mərasimi olmalı idi. 1920-ci ilin 27 aprelində Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra həmin abidənin açılışı mümkün olmadı (abidənin müəllifi Zivər bəy Əhmədbəyov idi).

Azərbaycan işğal edildikdən sonra 1920-ci ilin sentyabrında Bakıda Azərbaycanın azadlığına əks mövqedə dayanmış, 31 Mart soyqırımında bilavasitə iştirak etmiş 26 Bakı Komissarlarının dəfn mərasimi oldu. İlk olaraq 1920-ci ilin sentyabrın 8-də onların təntənəli şəkildə dəfn mərasimi keçirildi. 1924-26-cı illərdə isə "26 Bakı Komissarlarının güllələnməsi" qorelyefi (qranit, heykəltəraş S.D.Merkurov idi) və 26 Bakı Komissarları xatirə ansamblı (1968, memarlar H.Ələsgərov, Ə.Hüseynov, heykəltəraşlar İ.Zeynalov, N.Məmmədov) yaradılmışdır.




***Bolşeviklərin Bakıda qoyduqları abidə: 31 Mart soyqırımının səbəbkarı olan 26 Bakı Komissarları***

Sovetlər Birliyi dövründə insanları 1918-ci ilin 31 Mart soyqırımında minlərlə günahsız azərbaycanlının qətlində iştirak etmiş 26-ların − S.Şaumyanın, S.Osepyanın, A.Əmiryanın, A.Boryanın, B.Avakyanın, A.Kostanyanın, T.Əmirovun və digərlərinin qəbri üzərinə gül-çiçək dəstələri gətirməyə məcbur edir, buranı "müqəddəs" bir and yerinə çevirirdilər.

---

***Qaynaq:***
*Azərbaycan Sovet Ensiklopediyası, I cild. Bakı, 1976, səh. 557, 362.*



***1918-ci ilin sentyabrın 15-də Bakını azad etmiş türk şəhidlərinin xatirəsinə qoyulacaq abidənin açılışı 1920-ci ildə mümkün olmadı. (memarı Z.Əhmədbəyov idi)***

## BOLŞEVİK QƏTLİAMLARI
## (İlk qurbanlar)

1920-ci ilin aprelin 27-dən 28-nə keçən gecədən bolşeviklər Azərbaycanda amansız qətliama başladılar.

Sənədlərdən məlum olur ki, 1920-ci ilin Aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min nəfər qırmızı terrorun qurbanı olmuşdu. 1921-ci ilə qədər ancaq hərbçilərdən 12 general, 27 polkovnik (albay) və podpolkovnik, leytenant və baş leytenant, 146 zabit, 266 nəfər başqa işçilər güllələnmişdi. Yalnız 1920-ci ilin mayın 26-dan iyunun 4-nə qədər Gəncədə baş verən üsyanda 10 minədək Azərbaycan insanı həlak olmuşdu.

***Qaynaq:***
*Ə.Kəngərlinski Əsgərov. Azərbaycan faciəsi. "Xəzər" jurnalı, N3, 1990 (rus dilində).*

## AXC-NİN BAŞ NAZİRİ NƏSİB BƏY YUSİFBƏYLİ (1881-1920) YEVLAX - KÜRDƏMİR ARASINDA QƏTL EDİLİR

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə Baş Nazir olmuş Nəsib bəy Yusifbəyli** Rusiyanın Odessa şəhərindəki universitetdə təhsil almış, Krımda – Bağçasarayda olmuş və tanınmış maarifçi İ.Qaspiralının qızı Şəfiqə xanımla ailə həyatı qurmuşdu. Gəncədə isə Türk Ədəmi-Mərkəziyyət adlı partiya yaratmışdı. 1917-ci ilin iyun ayında N.Yusifbəylinin yaratdığı partiya ilə M.Ə.Rəsulzadənin başçılıq etdiyi Müsavat Partiyası birləşir və Azərbaycan istiqlalı uğrunda mübarizənin yeni mərhələsi başlayır.



***Nəsib bəy Yusifbəyli***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) N.Yusifbəyli Azərbaycanın Baş Naziri və Maarif naziri vəzifələrində çalışır.

1920-ci ilin aprelində bolşeviklər Azərbaycanı işğal etdikdən sonra o, sürücüsü ilə Bakıdan çıxır (çox güman ki, Gürcüstan istiqamətinə getmək üçün) və Kürdəmir-Yevlax arasında quldurluq edən Qarxunlu Əşrəf tərəfindən öldürülür. Lakin onun öldürülməsində bolşeviklərin iştirakının olduğu təsdiqlənir.

***Qaynaq:***

*N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.*

## GƏNCƏ QUBERNATORU XUDADAT BƏY RƏFİBƏYLİNİN QƏTLİ

Bolşeviklərin ikinci qətlə yetirdikləri dövlət xadimi, Gəncənin qubernatoru olmuş **Xudadat bəy Rəfibəylidir.**

**Xudadat bəy Rəfibəyli** (1878-1920) Gəncədə anadan olub. Xarkov Tibb Universitetini bitirib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti



*Xudadat bəy Rəfibəyli*

dövründə Xalq Səhiyyəsi və Himayədarlığı Naziri vəzifəsində çalışıb.

X.Rəfibəylinin Gəncə camaatı arasında böyük nüfuzu var idi. Bu da bolşevikləri narahat edirdi. Gəncə üsyanının başçısı C.Kazımbəy də xatirələrində yazır ki, üsyanın başlanmasının bir səbəbi də Xudadat bəyin bolşeviklər tərəfindən güllələnməsi oldu.

Bolşeviklər X.Rəfibəylini 1920-ci ilin mayın 20-də güllələdilər.

***Qaynaq:***

*N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

## TANINMIŞ PEDAQOQ FİRUDİN BƏY KÖÇƏRLİNİN QƏTLİ

**Firudin bəy Köçərli** (1863-1920). Bolşeviklərin 1920-ci ildə qətlə yetirdiyi Azərbaycan vətəndaşı, tanınmış pedaqoq, maarifçi xadim. Azərbaycan ədəbiyyatının inkişafında, yazıçı və şairlərimizin əsərlərinin toplanılıb sistemləşdirilməsində, uşaq ədəbiyyatımızın yaranmasında, 1918-ci ilin noyabrın 10-dan fəaliyyətə başlayan Qazax Müəllimlər Seminariyasının açılıb fəaliyyət göstərməsində (direktor olaraq əmri oktyabrın 1-də verilmişdi) onun böyük xidmətləri olmuşdu.



*Firudin bəy Köçərli*

Firudin bəy Köçərli böyük ədəbiyyat tarixçisi kimi də tanınmışdır. Ona qədər

Azərbaycan ədəbiyyatının tarixi geniş tədqiq edilməmişdi. F.Köçərli 129 ədəbi şəxsiyyət haqqında topladığı materiallar əsasında "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı ikicildlik əsərini hazırlamışdı.

1920-ci ildə Gəncədə başlanan qiyamdan istifadə edən Gəncə Hərbi Tribunalının "Xüsusi şöbəsi"nin əməkdaşları Gəncə çayı sahilində onu güllələdilər.

F.Köçərli həm də Müsavat Partiyasının üzvü idi, bu da mövcud hökumətin diqqətində idi.

***Qaynaq:***
*1. N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997.*
*2. Əsgərov Kəngərlinski A. Azərbaycan faciəsi (rusca). "Xəzər" jurnalı, 1990, N3.*
*3. P.Mikayılqızı (Muradova). F.Köçərli: "Ümmətdən -Millətə doğru". B., 2016.*



***Murad Gəray Tlexas***



***Firudin bəy Vəzirov***



***Əmir Mirzə Qacar***



***Feyzulla Mirzə Qacar***



***Əbdülhəmid bəy Qaytabaşı***



***İbrahim ağa Usubov***



***Həbib bəy Səlimov***

## GENERAL MASEY SULKEVİÇİN (1865-1920) QƏTLİ. "FƏXR EDİRƏM Kİ, MÜSƏLMAN ORDUSUNUN ZABİTİ KİMİ GÜLLƏLƏNİRƏM"



***Masey Sulkeviç***

Tanınmış general-leytenant Masey Sulkeviç Polşa tatarlarındandır. İlk hərbi təhsilini Voronej  Kadet korpusunda və Mixaylovsk Artilleriya məktəblərində alıb. 1894-cü ildə Rusiya imperiyasının Baş Qərargah Akademiyasını bitirib. Çar Rusiyası Ordusunda hərbi xidmətə 1883-cü ildə başlamış, 1910-cu ildə general-mayor, Birinci Dünya müharibəsində –1915-ci ildə isə general-leytenant rütbəsi almışdır. 1900-1901-ci illərdə Rusiya-Çin, 1904-1905-ci illərdə isə rus-yapon müharibələrinin iştirakçısı olub. Birinci Dünya müharibəsi dövründə Rusiya imperiyasının şimal cəbhəsindəki 37-ci piyada korpusunun komandiri olub.

M. Sulkeviç Azərbaycan ordusunun formalaşmasında böyük xidmətlər göstərib.  1919-cu ilin iyunun 9-da Azərbaycan Parlamentinin tövsiyəsi ilə yaradılan Dövlət Müdafiə Komitəsinin tərkibinə Ümumi Qərargah rəisi kimi M. Sulkeviç də daxil idi. Həmin ilin iyunun 16-da Azərbaycanla Gürcüstan arasındakı hərbi müdafiə sahəsindəki sənədi hökumət adından imzalayanlardan biri də M.Sulkeviç olmuşdu.  M.Sulkeviç Azərbaycanın münaqişə olan bölgələrində – Ermənistanla sərhəd ərazilərdə, Naxçıvanda, Dağlıq Qarabağda, eləcə də Muğan zonasında hərbi əməliyyatların hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak edib. Peşəkar hərbçi olan M.Sulkeviç Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova yazdığı "şəxsən özünə" və "məxfi" qrifli 7 sentyabr 1919-cu il tarixli məktubunda erməni separatçılarının müqavimətinin tam dayandırılana kimi Qarabağ ərazisində daha çox hərbi qüvvələr saxlamağı lazım bilirdi.


Военная

ГАНДЖА

Начальнику Артиллерійскаго Управленія

Сообщается для зависящихъ распоряженій по вашей части, что Денкоранскій отрядъ долженъ сосредоточиться 12 августа въ Аджикабулѣ а 3 августа выступить на Сальяны для дальнѣйшаго слѣдованія предѣлы энкоранскаго уѣзда 3536

Начгенштаб СУЛЬКЕВИЧЪ


Военная

САЛЬЯНЫ и вслѣдъ
Командиру Денкоранскаго отряда
Генералу САЛИМОВУ

Англійскимъ командованіемъ отказано въ оставленіи представителя англійской арміи при Вашемъ отрядѣ 3689

Начгенштаб Сулькевичъ

***M. Sulkeviçin 1919-1920-ci illərdə (AXC dövründə) imzaladığı sənədlər***

**1920-ci ilin 27 Aprel işğalından sonra bolşeviklərin ilk güllələdiyi generallarımızdan biri Masey Sulkeviç oldu. Həmin ilin iyulunda o, qətlə yetirilərkən özünü çox cəsarətli və qorxmaz aparmış, bu sözləri söyləmişdir: "Fəxr edirəm ki, müsəlman ordusunun zabiti kimi güllələnirəm".**


***Qaynaq:***

1. *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində. "515-ci qəzet", 13 yanvar, 2007-ci il.*
2. *N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində Məhəmməd Əmin Rəsulzadənin rolu. Bakı, 2007.*


## BAKININ BAŞ ARXİTEKTORU İNTİHAR EDİR

Tanınmış arxitektor Zivər bəy Əhmədbəyov 1873-cü ildə Bakıda anadan olmuşdur. 1902-ci ildə Rusiyada Mühəndislər İnstitutunu bitirmişdir. 1918-1922-ci illərdə Bakı şəhərinin Baş arxitektoru olmuşdur. Onun layihəsi ilə Bakıda və onun ətrafında çoxlu binalar tikilmişdir: "Cümə" məscidi, Mixail xəstəxanası (sonradan M. Əzizbəyov adına doğum evi), "Səadət" məktəbinin binası, Uşaq xəstəxanası (indiki Ana və Uşaqları Müdafiə Elmi-Tədqiqat İnstitutunun binası).



***Zivər bəy Əhmədbəyov***

Eyni zamanda o, **1918-ci ildə Nuru Paşanın başçılığı altında Bakını azad etmiş Qafqaz İslam Ordusunun şərəfinə qoyulacaq abidənin layihə müəllifi idi.**

Qeyd edək ki, həmin abidənin təməlqoyma mərasimi Bakının azad edilməsinin bir illiyində – 1919-cu ilin sentyabrın 15-də olub. Keçmiş Çəmbərəkənd (sonradan Dağüstü parkda, indiki Şəhidlər xiyabanında) adlı yerdə keçirilən tədbirdə **M.Ə.Rəsulzadə abidənin ilk təməl daşını ataraq, bu müraciəti etmişdi: “Ey hürr Azərbaycanın hürr vətəndaşları!”**

Nəzərdə tutulmuşdu ki, abidənin açılış mərasimi 1920-ci ilin sentyabrın 15-də olsun. Təəssüflər ki, baş tutmadı. 1920-ci ilin aprelində Azərbaycan işğal edildi.

Azərbaycanı işğal edən bolşeviklər, ermənilərin ciddi fəallığı ilə Azərbaycan xalqından qisas alaraq, 1920-ci ilin sentyabrında Bakıda bu şəhəri azad edənlərə yox, 31 Mart soyqırımını törədənlərə abidə qoydular – onları burada dəfn etdilər.

Baş arxitektor Z.Əhmədbəyovu isə bolşevik müstəntiqləri istintaqa cəlb etdilər, sorğu-suala tutdular, incitdilər. Sonda bu əziyyətlərə dözə bilməyən Z.Əhmədbəyov özünü asıb intihar etdi.

---

***Qaynaq:***

1. *N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı, 2013.*
2. *M.Ə.Rəsulzadə ilə Ə.M.Topçubaşovun məktublaşması. 1923-1926-cı illər. Moskva 2012 (rus dilində).*

## AXC DÖVRÜNÜN XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD HƏSƏN HACINSKİ (1876-1931) TİFLİSDƏ ÖZÜNÜ ASDI. "PİANİNONU SATIN, AC QALMAYIN"



*Məhəmməd Həsən Hacınski*

Azərbaycanın görkəmli dövlət xadimi, ilk **Xarici İşlər naziri Məhəmməd Həsən Hacınski** ölkəyə böyük faydalar vermişdi. O, Sankt-Peterburq Universitetinin I Nikolay adına Texnoloji İnstitutunda tikinti mühəndisliyi fakultəsində təhsil alıb. Bakı şəhərinin abadlaşdırılmasında, Dənizkənarı bulvarın tikintisi ilə də bağlı onun fəaliyyəti olub. 1918-ci ilin fevralında yaradılan Zaqafqaziya Seyminin 44 azərbaycanlı deputatdan ibarət olan Müsəlman fraksiyasında M.H.Hacınski də var idi. 1918-ci ildə 28 May İstiqlalı elan edildikdən sonra M.H.Hacınski F.Xoyskinin Hökumət kabinəsində Xarici İşlər naziri vəzifəsini tutur. 1918-ci ilin iyunun 4-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı hökuməti arasında imzalanan beynəlxalq müqaviləni M.Ə.Rəsulzadə ilə birlikdə o da imzaladı.

1919-cu ilin 12 aprelində M.H.Hacınskinin də Azərbaycan Nümayəndə Heyətinin tərkibində Azərbaycanı tanıtmaq üçün Parisə getməsinə icazə verilir. İlk aylarda Azərbaycanın dünya dövlətlərinə tanıdılmasında onun da böyük xidmətləri olub. 1919-cu ilin 27 oktyabrında Parisi tərk edən M.H.Hacınski 1919-cu ilin 24 dekabrında N.Yusifbəylinin hökumət kabinəsində Daxili İşlər naziri vəzifəsində çalışır. 1920-ci ilin aprelində növbəti hökumət kabinetinin yaradılması M.H.Hacınskiyə tapşırılsa da, o, aprelin 22-də Parlamentdə bunu təşkil edə bilmədiyini bildirdi. 1920-ci ilin 27 Aprel bolşevik işğalından sonra M.H.Hacınski 1922-ci ildə ailəsi ilə Tiflisə köçmüş, 1924-cü ilədək Zaqafqaziya Xalq Komissarlığı Xarici Ticarət Komissarının, 1927-ci ildən Dövlət Plan Komissarının müavini

vəzifələrində çalışıb. 1930-cu ilin 3 dekabrında M.H.Hacınski həbs edilir. İttihamda göstərilirdi ki, o, 1928-ci ildə Bakıya gəldikdə Dövlət Plan Komitəsi sədrinin kabinetində İngiltərə və Fransanın Bakıya olan marağının Əlimərdan bəy Topçubaşovla bağlanmış gizli müqavilədə əksini tapması xəbərini söyləmişdi. Bunun əsasında o, fasiləsiz dindirmələrdən tamamilə üzülür ((təbii ki, həbsxanada işgəncələrə də məruz qalır). 1931-ci ilin fevralın 8-də təkadamlıq həbsxana kamerasında mələfədən doğrayıb hazırladığı kəndirlə özünü asır. Ailəsinə yazdığı son məktubların birində qeyd edirdi: "Mənim yazıq yetimlərim. Mənə heç nə göndərməyin. Pianinonu satın, ac qalmayın".

***Qaynaq:***
*1. A.Dadaşov. Məhəmməd Həsən Hacınski. Bakı, 2004.*

## BAKI MİLYONÇUSU MURTUZA MUXTAROV (1855- 1920) İŞĞALÇI RUS ƏSGƏRİNİ GÜLLƏLƏYİR, SONRA ÖZÜNƏ QƏSD EDİR

Murtuza Muxtarov Bakının Əmircan kəndində anadan olub. Adi fəhlədən neft maqnatı səviyyəsinə yüksəlib. Onun adı daha çox Bakıda neft çıxarma texnologiyasının inkişafı ilə bağlıdır. O, diplomsuz neft mühəndisi kimi şöhrət qazanıb. 1890-cı ildə onun yaratdığı "Podrat qazma" kontoru Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu rayonlarında neft quyularının qazılmasında böyük rol oynayıb.



***Murtuza Muxtarov***

1911-1912-ci illərdə isə Bakıda məşhur olan Səadət Sarayını polşalı mühəndis Ploşkonun layihəsi əsasında inşa etdirib. 1905-1911-ci illərdə Cənubi Azərbaycanda davam edən milli-azadlıq hərəkatına – onun başçıları olan Səttar xana və Bağır xana öz rəğbətini bildirib, onlara gizli yollarla kömək edib.

1920-ci ilin 27 aprelindən sonra Bakını talan edən hərbçi bolşeviklərdən iki nəfəri M.Muxtarovun evinə hücum edir. M.Muxtarov onlardan birini silahla vurub öldürür. Sonra da əsəbi vəziyyətdə özünü güllə ilə vurur.

---

***Qaynaq:***

*1. Azərbaycanın ilk qeyri-hökumət təşkilatları (Hazırlayan N. Yaqublu). Bakı, 2013.*

## İNSANLARI MƏHKƏMƏSİZ QƏTLƏ YETİRƏN "TROYKA"LAR ("ÜÇLÜK"LƏR)

1920-ci illərdə Sovetlər Birliyində mövcud olan **"Troyka"lar ("Üçlük"lər)** minlərlə günahsız insanı sorğu-sualsız, heç bir istintaq işi aparılmadan güllələmək hüququna malik idi.

VÇK-nın (Ümumrusiya Fövqəladə Komissiyası) tərkibində ilk dəfə belə "Üçlük" 1918-ci ilin əvvəllərində yaradılmışdı. "Üçlüy"ün tərkibinə aşağıdakılar daxil idi: F. E. Dzerjinski, V. A. Aleksandroviç və Y. X. Peterso. Bu "Üçlük" 1938-ci ilin sonlarına qədər mövcud olub.

Bu "Üçlüy"ü yaratmaqda məqsəd: 1920-ci illərdəki cinayətkarlıq hallarının operativ şəkildə qarşısını almaq idi. Bundan ötrü formal məhkəmə proseduru olur və güllələmə hökmü yerinə yetirilirdi.

1929-cu ildən isə onlar sosializm düşmənlərini, qolçomaqları, kollektivləşməyə mane olanları ölüm hökmünə məhkum edir, öldürülmələrini tezləşdirirdilər.

1937-1938-ci illərdə belə "Üçlük"lərə daha çox səlahiyyətlər verilmişdi.

Əslində bu qətliamlar Sovet dövlətinin banisi V. İ. Lenindən başlayırdı. **Leninin dostlarına yazdığı məktublarda qeyd edilirdi: "Məsləhət görürəm ki, müvəqqəti olaraq öz içərinizdən rəislər təyin edəsiniz, heç kimdən soruşmadan və səfehcəsinə süründürməçiliyə yol vermədən qəsdçiləri və tərəddüd edənləri güllələyəsiniz".**

---

***Qaynaq:***

*1. N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.*

## AZƏRBAYCANDA RUSLAŞDIRMA SİYASƏTİ (1920-1930-CU İLLƏR)

M. Ə. Rəsulzadə yazırdı: "Sovetlərdə indi müdhiş bir rus-bolşevik şovinizmi zühur etmişdir. Rus mədəniyyət ölçülərini mütləq surətdə qəbul etməyənlər, buna müqabil millətlərarası mədəniyyət dəyərlərini qiymətləndirməyənlər kosmopolitizm ilə ittiham olunur və yaxanı NKVD-nin əlinə verirlər".

**Azərbaycanı Azərbaycan türklərindən təmizləmək siyasətini yürüdən Sovet hökuməti digər tərəfdən də ermənilərin Qafqaza qayıtmasına 1931-ci ildə qərar vermişdi.** Bu, ermənipərəst siyasətin davamı idi. Tbilisidə çap olunan "Zarya Vostoka" qəzetinin 140-cı sayında bildirilirdi ki, Muxtar Dağlıq Qarabağ Vilayətində erməni kommunistlər daşnakları daim müdafiə etmiş, hətta Qarabağda çıxan ermənicə qəzet daşnaklarla mübarizədən imtina etmişdi.

Azərbaycan türklərinə qarşı isə Sovet dövlətindəki rəhbərliyin münasibəti fərqli idi. Sovet hakimiyyəti Azərbaycanı ruslaşdırır və milli kadrları mühüm vəzifələrə yaxın buraxmırdı. Aşağıdakı məlumatlar Sovet hökumətinin ruslaşma siyasətinə əyani bir sübutdur:

**Azərbaycan türklərinin ümumilikdə nisbəti:**

1. Azərbaycan Baş İqtisad Şurasında - 1928-ci ildə Azərbaycan türkləri yüzdə 31, 1931-ci ildə isə yüzdə 22 olmuşdur.
2. Sığorta İdarəsində – 1928-ci ildə Azərbaycan türkləri yüzdə 12, 1929-cu ildə yüzdə 16, 1931-ci ildə yüzdə 14.
3. Azərbaycan Neft Komitəsində – 1928-ci ildə Azərbaycan türkləri yüzdə 9, 1929-cu ildə yüzdə 7, 1931-ci ildə yüzdə 5.
4. Dövlət Plan İdarəsində –1928-ci ildə Azərbaycan türkləri yüzdə 67, 1931-ci ildə yüzdə 39-a enmişdir.
5. Baş Dövlət Məhkəməsində – 1928-ci ildə Azərbaycan türkləri yüzdə 66, 1937-ci ildə yüzdə 46.
6. Maarif Vəkalətində – 1928-ci ildə Azərbaycan türkləri yüzdə 65 ikən, 1931-ci ildə 104 məmurdan 50-ni ermənilər təşkil edirdi.
7. Azərbaycan Dövlət Nəşriyyat İdarəsində – 1928-ci ildə Azərbaycan türkləri yüzdə 51, 1931-ci ildə yüzdə 43.

Bakıda ruslaşmanın daha güclü aparıldığını “Zarya Vostoka” qəzetinin 1931-ci il 11 iyun sayındakı məlumatdan görmək mümkündür: “Bakı Sovetinin məsul işçilərinin 45 faizi ruslar, 17 faizi ermənilər, 16 faizi isə türklərdir (*azərbaycanlılardır* - red.).

Yenə həmin ildə Azərbaycanda mövcud olan 12 ali məktəbdən ancaq birində – yeni Pedaqoji İnstitutda tədris türkcə, qalanında isə rusca aparılırdı.

Qeyd edək ki, sonrakı dövrdə də Azərbaycanda müdhiş bir ruslaşdırma siyasəti aparıldı. Xüsusən, dövlət idarələrində yazışmalar, sənədləşmələr rus dilində olurdu. Hətta ruslarla ailə quranların ön vəzifələrə çəkilməsi daha asan olurdu. Erməni millətindən olanlar isə (xüsusən qadınlar) mütləq idarə rəhbərinin katibəsi, köməkçisi funksiyasını daşıyırdı.

Bu ruslaşdırma siyasətini ilk dəyişdirmək istəyənlərdən biri 1954-1959-cu illərdə Azərbaycana başçılıq etmiş İmam Mustafayev oldu. Onun Azərbaycan idarəçilik sistemində ana dilini müdafiə etməsi sonradan vəzifədən uzaqlaşdırılması ilə nəticələndi.

---

***Qaynaq:***

*1. N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997.*
*2. “Bildiriş” qəzeti, 1931-ci il, N48.*
*3. M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. B., 1994, s. 129.*

## BOLŞEVİKLƏRİN MİLLİ MƏDƏNİYYƏTƏ MƏNFİ MÜNASİBƏTLƏRİ:

## OXUMA, TAR, OXUMA, TAR, SƏNİ SEVMİR PROLETAR!

Azərbaycanda qurulmuş Sovet rejimi yalnız siyasi həyatda deyil, milli mədəniyyətdə, ədəbiyyatda, musiqidə “sosializm realizmi” prinsiplərinə əməl olunmasını tələb edirdi. Ədəbiyyat, incəsənət, teatr dövlətin siyasətinin ifadəçisinə çevrilirdi. Sovetlər Birliyində yaradılan PYİA-nı (Proletar Yazıçılarının İnqilabi Assosiasiyası) bolşeviklərin liderlərindən olan Kamenev “inqilabi avanqardçılığın qurbanları” adlandırırdı. 1934-cü ildə isə İ.V.Stalin yazıçı M.Qorkinin irəli sürdüyü “Sosializm realizmi” prinsipini dəstəklədiyini bildirdi. Həmin prinsipə görə, Sovet insanlarının xarakterinin təsviri bütün ədəbiyyat, dramaturgiya və incəsənət növlərində əksini tapmalı və xoşbəxt gələcəyə inanan müsbət qəhrəman obrazı yaradılmalı idi. Əslində, bolşeviklər öz hakimiyyətlərini möhkəmləndirmək üçün mədəniyyət sahəsindən və incəsənət, ədəbiyyat adamlarından, onların əsərlərindən bəhrələnirdilər.

**Bolşeviklər,** xüsusən, gənc yaşlı ədəbiyyat və mədəniyyət adamlarını təsir altına salır, onları milli ruhda olan yazıçıların, şairlərin əleyhinə təbliğata yönəldirdilər. Onların fikrincə, hər yeni texniki maşından, hər yeni dəzgahdan yazmaq əsl şeir nümunəsidir. Çoxları üçün ədəbiyyat, mədəniyyət yalnız şüar xarakteri daşıyırdı. Yeni həyatı alqışlamaq, yeni həyatı müdafiə etmək işində sənət əsərinin, musiqinin başlıca rolunu dəmiri, texnikanı, pambığı, nefti tərifdə görürdülər. Yüksək istedadın məhsulu olan, xalqın çox ağrılarını özündə əks etdirən şeir, sənət nümunələrini qəbul etmirdilər. Xalqın keçmişindən, tarixindən tamamilə üz döndərirdilər.

**1920-ci illərdə “yenilikçi”** ruhda olan şairlərin belə misralarına çox rast gəlmək mümkün idi:

Varlıqdan yaz bizə, yoxluqdan yazma,
Xalqımıza dərin bir quyu qazma.
Ətrafına bir bax, yolunu azma
Ki, baharın sənin xəzanə bənzər!

Dövrün tənqidçiləri isə belə yazılarla mətbuatda çıxış edir, milli ruhlu şairləri ittiham edirdilər: **"İndi bu bayquşlar uzaq guşəyə çəkilmişlər, onları elekrtik stansiyaları işıqlandırmır".**

Bolşevik şairlər isə yazırdı:

Əgər mənim əlimdə olsaydı bir kəlbətin,
Keçmiş əsrin atının çıxarardım nalını.

Belə münasibət o dövrdə Azərbaycanın gözəl musiqi aləti olan tara da yönəlmişdi. Tarı bir musiqi aləti olaraq sıradan çıxarmağa və bununla da milli mədəniyyəti unutdurmağa çalışan bolşevik rejiminin ideoloqları gənc şairlərə tar əleyhinə fikirlər ifadə edən şeirlər yazmağa da şərait yaradırdılar.Süleyman Rüstəm yazırdı:

Kəs səsini, ötmə dedim. Ötmə dedim, ötmə, tar!
İstəməyir proletar səndə çalınsın "Qatar".

***Qeyd:*** *sonralar bu şeir "oxuma tar,oxuma tar, səni sevmir proletar" formasında xalq arasında yayılmışdı.*

Milli ruhlu Azərbaycan şairi Mikayıl Müşfiq isə tara olan bu hücumlara cavab olaraq məşhur bir şeir yazmışdı:

**Oxu, tar, bir qadar!..**
**Oxu, tar!**
**Səni kim unudar?**

1928-1929-cu illərdə Azərbaycana erməni Levon Mirzoyan rəhbərlik edən dövrdə "mədəni inqilab" şüarı altında milli musiqi alətlərimiz olan tara, kamançaya qarşı da hücum kampaniyası oldu. Həmin dövrdə Mərkəzi Komitədə tarın xalqa yad olduğu söylənilirdi.

Xalq Maarif Komissarı Mustafa Quliyev isə bu işin icraçısına çevrilir, tarın əleyhinə göstəriş verir və bu sözləri söyləyirdi: "... İşlətdiyimiz tar da İran musiqi alətidir... Tar bir el aləti olaraq, Azərbaycanda inkişaf edə bilərmi? Tar İrandan gəlmişdir".

**Maraqlıdır ki, tara qarşı kəskin mübarizə aparılan 1938-ci ildə, repressiyalar başlayanda Mustafa Quliyevi də güllələdilər.**

1929-cu ilin yanvarın 11-də "Kommunist" qəzetində Ə.Bədəlbəyli-nin "Tarın üzərində mühakimə" məqaləsi çap edilir. Hətta qəzetdə élan da verilir ki, D.Bünyadzadə adına Dövlət Türk Teatrında "tarın müzakirə-si-məhkəməsi" olacaq.

Bu kampaniyaya ilk qoşulanlardan biri - **Mikayıl Rəfili** olub. O, tarın əleyhinə yazırdı:

Bizi yormuş kar qulaqları qıdıqlayan
Keçi səsi,
Sədəfli tarın mələməsi (Bax: M.Rəfili. "Pəncərə" kitabı. B., 1929).

Digər **şair Məmməd Rahim** isə yazırdı:

İçindəki inləyəni
Deyirlər Şərqə məxsusdur.
Madam sıxır dinləyəni
Ağlatma, gəl onu susdur (Bax: M.Rahim. "Arzular" kitabı. B., 1930).

**Süleyman Rüstəmin** tarın əleyhinə yazdığı şeirdə bu misralar var idi:

İstəməyir səni bizim yeni həyat, dinlə, tar.
Get şahların, get xanların məzarında inlə, tar.

Həmin dövrdə çətinliklə də olsa, bəstəkarlardan A.Zeynallı, Ə.Bədəl-bəyli tarı müdafiə edirdilər. Tanınmış bəstəkarlar Ü.Hacıbəyli (Hacıbəyov) və M.Maqomayev də tara yönəlmiş kampaniyanın qarşısını almağa çalı-şırdılar.

Belə bir vaxtda erməni tarçalanı S.Kasparov isə Azərbaycan tarzənlə-rini hətta yarışa çağırır, tarı özəlləşdirməyə çalışan Şərq Konservatoriyası və onun professoru S.Ohanezaşvili Ü.Hacıbəyliyə qarşı etikadan uzaq bir tərzdə hücum edirdi.



TAR SƏSƏ KOJYLYR

Qəs səsini ɵtmə dedim. Ɵtmə dedim ɵtmə tar!
Istəməjir proletar səndə çalъnsъn katar.
Kaldъrarak kabar çalmъş əlindəqi çəqici.
Çəliq zindanlara vyran meşin doşluqlu işçi
Dejir: «jetər Jetim səqah jetər katar, şiqəstə
Çunqu dejil bizim həjat, muhit jetim və xəstə».
Istəməjir səni bizim jeni həjat dinlə tar.
Qet şahlarъn, qet xanlarъn məzarъnda inlə tar;
Sənin səsin canlandъrъr ɵnumuzdə hər zaman:
Hərəmxana və mejxana... Ejşu işrət məclisi.
Səhnəmizdə jaşamakda hala səsinlə inan:
Ərəbistan çɵllərinin Məcmyny və Lejilisi.
Sən bizimlə ɵtəməzsin bəlli bizdən dejilsən.
Səndən yzak jeni həjat səndən yzak inkilab
Jeni coşgyn nəgmələrə sən etməzsən əsla tab.
Bir zevk almaz by cəmijjət ɵlqun aglar səsin-
dən.
Biz atъrъz səni ɵmrun ancak by son dəkikə
Simlərini kъrъb səni myzelərə atmasak
Sosializmə qeciqəriz bəlqə beş on dəkikə
Mərd dejiliz o mənzilə vaktъndan tez çatma-
sak.

47

**S.Rüstəmin tar əleyhinə yazdığı şeir. 1930-cu il**



SULEJMAN RUSTƏM

ATƏŞ!

Qim nə dejirsə dəsin mən dəjuş şairijəm,
Ej əxlak mudərrisi mən səjuş şairijəm
Silahdъr əlimizdə şejrimiz və nəsrimiz
Alicənablъk əsri dejil bizim əsrimiz
Daloj bitərəf sənət, daloj bitərəf şair,
Daloj bitərəf nəgmə, daloj bitərəf şeir.

AZƏRNƏŞR

BAQЬ—1932

334.362-1
P91
336384
М. Ф. Ахундов адына
Азәрбајҹан Республика
КИТАБХАНАСЫ

**S.Rüstəmin tar əleyhinə yazdığı şeir bu kitabda çap edilib. Bakı, "Azərnəşr", 1932-ci il**

## SÜLEYMAN RÜSTƏM

### TAR SƏSƏ QOYULUR

Kəs səsini, ötmə dedim. Ötmə dedim, ötmə, tar!
İstəməyir proletar səndə çalınsın "Qatar".
Qaldıraraq qabar çalmış əlindəki çəkici,
Çəliq zindanlara vuran meşin döşlüklü işçi,
Deyir: "yetər "Yetim segah", yetər "Qatar", "Şikəstə",
Çünki deyil bizim həyat, mühit yetim və xəstə".
İstəməyir səni bizim yeni həyat, dinlə, tar.
Get şahların, get xanların məzarında inlə, tar;
Sənin səsin canlandırır önümüzdə hər zaman:
Hərəmxana və meyxana... Eyşu-işrət məclisi.
Səhnəmizdə yaşamaqda hələ səsinlə inan:
Ərəbistan çöllərinin Məcnunu və Leylisi.
Sən bizimlə ötməzsən, bəlli bizdən deyilsən,
Səndən uzaq yeni həyat, səndən uzaq inqilab.
Yeni coşğun nəğmələrə sən etməzsən əsla tab.
Bir zövq almaz bu cəmiyyət ölgün, ağlar səsindən.

Biz atırız səni ömrün ancaq bu son dəqiqə,
Simlərini qırıb səni muzeylərə atmasaq,
Sosializmə gecikəriz, bəlkə beş-on dəqiqə.
Mərd deyiliz, o mənzilə vaxtından tez çatmasaq,
Bu həyatla danışamaz tar bu işdə lal kimi,
O, bu saat bizim üçün qurumuş bir dal kimi.
Sosializmin təranəsi əsla tarda çalınmaz.
Tarda vermək olmaz bizim zavodların səsini.
Qavrayamaz bu ölkənin ahəngini dərdli tar,
Tarla bizim inqilablar ola bilməz həm avaz.
Biz eşitmək istəmiriz dərdli tarın səsini,
Sənə ölüm, sənə ölüm! Budur bizim son qərar.
Ey tar çalan komsomolçu, öncə bu ilk addım,
Biz atalım, biz olalım bu axının önündə.
Təzə nəğmə oxuyalım onun öldüyü gündə.
Əgər tar lal olmasa, mən dəyişərəm adımı.
Müğənninin ilk sözü bu: dalay, dalay dalay lay!
Mənimsə ilk və son sözüm daloy bu tar və ah-vay.
Hamı bilir gecə-gündüz sən ağlarsan, o ağlar.
Xırıldayan səsinizdə Şərqin göz yaşı çağlar.
Qızarmadan soxulmusan hətta bizim vuzlara.
O yer sənin yerin deyil, haydı ordan bayıra.
Mən qoyuram tarı səsə. Kim lehinə?! Sayıram:
Bir, iki, üç, daha yoxmu?!
- lehinə,budur ancaq...
- əl qaldırsın, kim bu tarın əleyhinə, sayıram:
- bir, iki, üç, on, yüz, bu on – min,
Olmayır heç saymaq!
-Yox, mən buna dözə bilməm, mən bu dərddən partlaram,
Mən əməkdar bir alətəm, bir söz əməkdar taram.
Yoldaş şair! Məni səsə qoymaq neçin! Bu nədir?!
-Vətəndaş tar, mən nə edim, sənin əleyhinədir:
Fabrikalar və zavodlar, bu vışkalar, bu həyat,
Yorulmuşsan, bir az da get uzan muzeylərdə yat.

**Moskva, 18 aprel 1930.**

---

***Qaynaq:***
*Süleyman Rüstəm. Atəş. Bakı, Azərnəşr, 1932, 82 səh.*

**MİKAYIL MÜŞFİQ**

## TAR

Oxu, tar, oxu, tar!..
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar!..
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin acısı, şərbəti –
Alovlu sənəti!

Gözləri qibləyə açılan hasarlı binalar
Dinləmiş əzəldən səsini.
Papaqlı atalar, çadralı analar
Ötürmüş sayəndə köksünü.
Düşmüşlər gah şirin, gah acı toruna,
Sevinə-sevinə, qoruna-qoruna.

Çarparaq çargahın  divardan divara,
Yolçunu yolundan eyləmiş avara.
Çalxanmış dərələr, təpələr,
Səs vermiş səsinə ləpələr.
Oxu tar, fikrimdə oyansın
Baharın, Seyidin qəzəli;
Oxu, tar, ruhlansın
Şirvanın, Gəncənin mehriban gözəli!
Damağdan düşənlər,
Ürəyi şişənlər,
İlk bahar seyrinə çıxmayan,
Özünü dağların döşünə yıxmayan
Sinəsi dağlılar.
Vəfasız bir eşqin dağınıq zülfünə bağlılar,
Dəxilin olmuşlar,

Qapında təsəlli bulmuşlar.
Zilin var, vəsətin, bəmin var;
Sənin də quşların dəmindən ayrılan
Bir özgə dəmin var.
Səni də avara eyləmiş
Dağınıq telli bir "zərəfşan".
Onunçun segahın danışır
Pərişan-pərişan.

Səsini dinləmiş
Şahların, xanların sarayı;
Səninlə birlikdə inləmiş
Əsirlər alayı.
Bəzən də simlərin qəmləri ovudar,
Olardın onların sirdaşı
Sən ey tar!..
Gülləri əməkçi barmaqlar qanından
Rəng alan xalçalar,
Xalçalar üstündə uzanmış –
Dodağı qönçələr,
"- Hey, saqi, mədəd qıl soğudu şərabın,
İncitmə könlünü bu xanə-xərabın!" –
Söyləyən tox sözlü şairlər.
Həvəsdən doymayan ac gözlü şairlər:
Nədimlər, Vaqiflər,
Gözəllik sirrinə vaqiflər
Həp səni dinləmiş;
Oxumuş, inləmiş.
İndi də bizimçin oxu, tar!
Səni kim unudar?

Sən qulluq etmədin məscidə, axunda.
Çalışdın həyatı sevməyin uğrunda.
Çoxları üzünə durdular.
Könlünü qırdılar,
Nə deyim o yekəbaşlara?!

Çaldılar ruhunu daşlara.
Üstündən bir qara yel kimi əsdilər.
Səsini kəsdilər.
Daşlandı çəkənlər nazını,
Böyləcə qırdılar aşığın sazını.
Sən xalqa "gül!" dedin,
"Ey qüssə, öl!" dedin.
Başladı məsciddə mərsiyə.
Sarıqlı çıxınca ərsəyə,
Qüssəmiz ölmədi,
Xalqımız gülmədi.
Ağladıq daima, ağladıq,
Ey qədim aşina, ağladıq.
Oxu, tar! Dəyişdi zamana,
Bax, indi radio səsini
                    Dağıdır cahana.
Ey tarçı, çal, oxu!
Könlümü al, oxu!
Vur sazı döşünə, ey aşıq!
Qalmamış nə aba, nə qəba, nə sarıq.

Oxu, tar! Alovlu izlərin
Əcəba, neçə şux dilbərin
Yasəmən üzünü pul kimi qızartmış?
O sarı simlərin lisanı
Salmazmı heyrətə insanı?

Oxu, tar! Mən səndə
İstənən havanı çala da bilərəm.

Mən səndən bu günün zövqünü
                    Ala da bilərəm.
Sən bu gün silahsan əlimdə,
Səni mən hansı bir hədəfə

İstəsəm, çevirə bilərəm,
Qəlblərdə gizlənən keçmişi
Bir yeni nəğmənin əlilə
Devirə bilərəm!

Oxu, tar!
Fabrikdə, zavodda.
Traktor başında.
Bu saat qarşında
Nə qədər adam var!
Utanma, oxu, tar!
Mədənli Bakının,
Pambıqlı Gəncənin,
İpəkli Şəkinin
Acısı, şərbəti,
Alovlu sənəti!

Oxu, tar, oxu, tar!
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar!..
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin şirini, şərbəti,
Alovlu sənəti!.

***( 1932-1933-cü illər).***

*Qaynaq:*
*1. M.Müşfiq. Seçilmiş əsərləri. Bakı, 2004.*
*2. M.Rəfili. "Pəncərə" kitabı. B., 1929*
*3. M.Rahim. "Arzular" kitabı. B., 1930*

## ÜZEYİR HACIBƏYLİYƏ VƏ ONUN MUSİQİSİNƏ OLAN MƏNFİ MÜNASİBƏT


*Üzeyir Hacıbəyli*

Bolşeviklər böyük bəstəkar **Üzeyir Hacıbəylinin** musiqisini də xalqa unutdurmaq istədilər. Bundan ötrü bəstəkar **Qliyeri** Azərbaycana dəvət edib bəstəkar Zülfüqar Hacıbəylinin "Açıq Qərib" operası əsasında **"Şahsənəm" operasını** yazdırdılar. Ü.Hacıbəylinin əsərlərini kölgədə saxlamaq istəyən bolşevik ideoloqları buna nail olmadı. Qliyer kimi bəstəkarlar Ü.Hacıbəyli musiqisinin dəyərini əvəz edə bilmədi.

Ü.Hacıbəylini Azərbaycan Sovet dövlətinin himnini yazmağa cəlb etsələr də, onu SSRİ-nin orden və medalları ilə təltif etsələr də, xalqa bağlılıq ruhunda olan əsərlərini inkar etdirə bilmədilər. Sanki bu Qliyerlərə, "Şahsənəm"lərə cavab olaraq Ü. Hacıbəyli 1937-ci ildə özünün növbəti bir ölməz əsərini – "Koroğlu"nu yazdı.

Yenə maraqlıdır ki, 1920-ci ilə qədər (1904-cü ildə "Kaspi" qəzetində nəşr edilən ilk məqaləsindən başlayaraq) 600-ə qədər müxtəlif məzmunlu məqalələr yazan Ü.Hacıbəyli 1920-1948-ci illərdə, yəni sovet dövründə ümumilikdə 30-a qədər yazı çap etdirdi. Sovet dövründə yazdığı bu yazılar isə yalnız musiqi ilə bağlı idi. İctimai-siyasi mövzuda Ü.Hacıbəyli bir daha heç nə yazmadı. Sovet dövründəki bütün həyatını o, yalnız musiqinin inkişafına həsr etdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət himnini bəstələyən, "Azərbaycan" adlı qəzetin həm yazarı, həm də müvəqqəti redaktoru olan Ü.Hacıbəyli bolşevik rejimini sevmirdi. Təsadüfi deyil ki, bolşeviklərin Azərbaycanda törədəcəyi qətliamları sanki əvvəlcədən hiss edərək, AXC-nin süqutu ərəfəsində "Azərbaycan" qəzetində yazırdı ki, Çar Rusiyası



***Ü.Hacıbəylinin dəfni*** *(M.C.Bağırov dəfn mərasimində)*

dövründə ruslar bizim atamızı söyürdüsə, indi gələn bolşeviklər bizim anamızı söyəcəklər.

**M.Ə.Rəsulzadə Ü.Hacıbəyli haqqında yazırdı: "...Fəqət beyhudə, dəmir pərdənin arxasında özünə süni marşlar yazdırılsa da, Moskvada çiyni diktatorun əliylə oxşadılsa da, tabutu başında Azərbaycan mənəviyyatı ilə ilgiləri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültüründən və Azəri-türk tarixindən kimsə ayıramaz! O, milli Azərbaycan varlığının məsnədləri (dayaqları) arasında qalacaq ayrılmaz bir dəyərdir!"**

Sovet rejimində Ü.Hacıbəyli 1938-ci ilə qədər böyük həcmli əsər də yazmadı. Tanınmış mühacir Ə.F.Düdənginski Münhendə nəşr edilən "Azərbaycan" jurnalında yazırdı: "Bu qaynar yaradıcı fəaliyyət birdən-birə kəsilir. Sovet istilasından ta 1938-ci ilə qədər bəstəkarımız susmağa məcbur olur. Sovet hökuməti öz "socialist ismarlamaları" ilə Üzeyir bəyi yaradıcılıq böhranına məruz qoyur və musiqi fəaliyyətini davam etdirmək üçün bir açıq qapı da buraxmır. Şübhəsiz ki, sovetlərin ismarlamaları və əmrləri ilə Hacıbəyli yarada bilməzdi".

Ü.Hacıbəyli bu illərdə fəaliyyətsiz dayanmadı. Gənc musiqiçilər yetişdirdi, Azərbaycan xalq musiqisini nota köçürdü, Azərbaycan Musiqi Məktəbinin direktorluğunu etdi, Azərbaycan Konservatoriyasının rektoru oldu, Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etdi, böyük bir xor heyəti yaratdı.

Bu dövrdə Üzeyir bəysiz opera sənəti inkişaf etmədi. Azərbaycan SSR-nin Xalq Maarif Komissarı Mustafa Quliyev və başqaları Üzeyir bəyin əsərlərini aşağılayaraq "Quba meydanı" kimi adlandırmışdılar (yəni təhqiramiz münasibət).

**Ü.Hacıbəyli 1937-ci ildə "Koroğlu" operasını yazmaqla əvəzsiz bəstəkar olduğunu bir daha sübut etdi.**

1908-ci ildən 1920-ci ilə qədər 10-a qədər opera yazan Ü.Hacıbəyli Azərbaycanın sovetləşməsindən keçən 17 ildə heç bir opera əsəri yazmadı. Əslində, ona bu imkanı heç yaratmadılar da.

**1920-ci illərdə Ü.Hacıbəyliyə qarşı mənəvi terror və ittihamlar davam edirdi.** 1920-ci illərdə Ü.Hacıbəylinin əsərləri haqqında mətbuatda nəşr edilən yazılardan:

- "Onun (Ü. Hacıbəylinin) bütün operaları və operettaları mistik və idealist motivlər ilə doldurulmuşdur. Əsərlərinin əsasında fatalist dünyagörüşü hakimdir".

- "Varlı tacirləri, insaflı mülkədar məişətini təsvir edən Nuh əyyamından qalma "Arşın mal alan" operettasının sosializm mədəniyyəti ilə nə kimi əlaqəsi ola bilər?"

- "Truppa utanmadan bu yaxınlarda "Leyli və Məcnun" kimi lüzumsuz, mənasız və zərərli operanı oynadı".

Bu basqı və təzyiqlər Ü.Hacıbəylini bütün ömrü müddətində izlədi. Qardaşı C. Hacıbəylinin mühacirətdə - Fransada yaşayıb, sovet rejimi əleyhinə fəaliyyət göstərməsi Ü. Hacıbəyliyə qarşı sovetlərin bir təzyiq vasitəsinə çevrildi.

Ü.Hacıbəylinin ev muzeyinin direktoru işləmiş, onun həm də qohumu olan Ramazan Xəlilov qeyd edirdi ki, Üzeyir bəyin 1920-ci illərdə güllələnmək təhlükəsi olub. Lakin həyat yoldaşı Məleykə xanımın o zamankı güc strukturlarında çalışan uzaq qohumlarından olan Terequlov familiyalı bir şəxsin ona köməyi dəyib, hətta siyahıdan Üzeyir bəyin adını çıxarıb.

**Ü. Hacıbəyli bu sıxıntılara baxmayaraq 1937-ci ildə "Koroğlu" operasını yazdı.** Sanki bu əsəri ilə o, xalqı bolşevik rejiminə qarşı üsyana çağırdı. "Koroğlu" üvertürası isə sanki 1918-1920-ci illərdə mövcud olmuş azad dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin ruhunu yaşadırdı. Bu, Ü.Hacıbəylinin qanlı bir bolşevik diktaturasına qarşı 17 illik susmağından sonra barışmazlığı və etirazı idi.

***Qaynaq:***

*1. N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

*2. N.Yaqublu. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. B., 2008.*

*3. Ə.Fətəlibəyli. Azərbaycan xalqının böyük oğlu. "Azərbaycan" jurnalı, 1952-ci il, N6-7.*

## GÖRKƏMLİ AKTYOR ABBAS MİRZƏ ŞƏRİFZADƏ (1893-1938)

**(Böyük aktyor güllələnməmişdən öncə intihara cəhd etmişdir)**

1930-cu illərin Azərbaycan teatrından söhbət düşəndə əsasən üç böyük dramaturqun adı çəkilir: **H.Cavid, C.Cabbarlı, V. Şekspir** Hər üç sənətkarın yaratdığı obrazları parladan bir böyük aktyor isə – **Abbas Mirzə Şərifzadə** idi.



***Abbas Mirzə Şərifzadə***

1893-cü ildə Şamaxıda doğulan A.M.Şərifzadə Azərbaycan teatr səhnəsində təkrarsız obrazlar yaratmışdı: Otello, Hamlet, Maqbet, İblis, Şeyx Sənan.

Onun böyük səhnəyə gəlişi isə 1908-ci ildən – Molyerin "Zorən təbib" tamaşasında oynadığı roldan başlanır.

Azərbaycan teatrının səhnəsində Abbas Mirzənin ifasında səslənən qısqanc Otellonun iztirabları təkrarsız idi:

...**Qəzəbim bir ilan olmuş, sürünür,**
**Şübhəsiz, burda cinayət görünür.**
**Titrədən söz deyil, əlbəttə, məni...**

**Of ya rəbbi! Bu mümkün yəni?..**
**O qulaqlar, o dodaqlar, dəsmal...**
**Ah, iblis qadın!.. Al, boynuna al!**

1937-ci ilin dekabr ayında Abbas Mirzə Şərifzadəni həbs edirlər. Həbsxanada ağır və üzüntülü istintaq prosesi başlanır. İlk istintaq prosesində onu 1920-ci ildə İrana köçüb getmiş qardaşı Qulammirzəyə görə ittiham edirlər. Burada məqsəd A.M.Şərifzadəni İran casusu kimi etiraf etdirməkdir.

Sonrakı istintaqlarda suallar başqalaşır: "Müsavat hökuməti ilə hansı əlaqələrin olub?", "Həbsdə olan Ruhulla Axundovla hansı əlaqələrin olub?", "Hüseyn Cavidin millətçi əsərlərində niyə oynayırdın?", "Əksinqilabi söhbətləri kimlərlə aparırdın?", "İran səfiri ilə hansı əlaqələrin vardı?".

**1938-ci ilin noyabrında, "2839" saylı məhbus, Azərbaycan səhnəsinin böyük aktyoru, 45 yaşlı A.M.Şərifzadə ölüm cəzasına məhkum edilərək güllələnir.**

A.M.Şərifzadə ilə həbsxanada olmuş bir şəxs sonradan bu məqamı qeyd edirmiş: "Abbas Mirzəni vəhşicəsinə döyüb kameraya gətirdilər. O, bir qədər sonra gücünü toplayıb ayağa qalxdı, hamını heyrətə salan bir səslə "Hamlet" əsərindəki məşhur "Olum, ya ölüm" monoloqunu söylədi. Bu monoloqdan sonra o, dişləri ilə əlinin damarlarını dişləyib qoparmağa başladı. Biz onu çətinliklə saxladıq. Bir neçə gün sonra aktyoru güllələdilər".

---

***Qaynaq:***
*N.Yaqublu. Ağrılı ömürlər. Bakı, 1990.*

## NOVRUZ BAYRAMI QADAĞAN EDİLİR. "DƏMİRÇİ GAVƏ" ƏSƏRİ SƏHNƏDƏ OYNANILMIR

Azərbaycan xalqı tarixən Novruz bayramına böyük önəm verərək geniş şəkildə qeyd etmişdir. "Yeni gün" mənasını verən Novruz hər il mart ayının 21-də bayram edilirdi. Bu, həm də baharın gəlişi anlamını verirdi.

Klassik Şərq ədəbiyyatında böyük sevgi ilə tərənnüm olunan Novruz İran rəvayətinə görə yüksək bir təpədə taxta oturan Cəmşidin parlaq tacı doğan günəşin şəfəqlərinə qərq olunca hər tərəf nura bürünür. Bunu xeyrə yozan xalq da "yeni gün" adı ilə hər il mərasim keçirir.

1918-1920-ci illərdə isə Azərbaycanda Novruz məşhur Ərgənəkon əfsanəsi ilə əlaqələndirilmişdir və bir "Qurtuluş Bayramı" mənasına gəlmişdi. Bu əfsanəyə görə Böyük Türküstanın Ərgənəkon dağları bölgəsində əsir qalan türklər bir dəmirçinin hazırladığı silahların yardımı və Boz Qurdun köməyi ilə mart ayının köhnə təqvimlə 9-da, yeni təqvimlə 21-də təkrar bu dünyaya qovuşublar.

Novruz Bayramı sovet işğalı dövründə digər milli və dini ənənələr kimi qadağan edilmişdi.

Bu xalq bayramının ciddi önəm və dəyərini, onun qurtuluş rəmzi olduğunu göstərən və sovet işğalına qədər Azərbaycan səhnəsində böyük coşqu ilə oynanılan və xalq tərəfindən sevilən məşhur türk yazarı mərhum Şəmsəddin Saminin yazdığı "Dəmirçi Gavə" əsəri də qadağan edilmişdi.

---

***Qaynaq:***
*S.Təkinər. Yeni sovet gələnək, mif və törənləri üzərinə.*
*Dərgi, 1968, №91, səh. 3-31.*

## SOVETLƏR BİRLİYİNDƏ SENZURA "QLAVLİT"İN FƏALİYYƏTİ

Sovetlər Birliyi dövründə mətbuat senzorları yazıçı və şairlərə belə göstəriş verirdilər: "Biz tələb edirik, israr edirik, istəyirik!"

Stalinin ölümündən sonra cəmiyyətdə senzura sistemində müəyyən "yumşalma" prosesi getdi və "məcburi əmrlər, göstərişlər" "tövsiyyələr"lə əvəz olundu. Bu prosesə daha çox 1960-1970-ci illərdə Sov.İKP Mərkəzi Komitəsi İdeoloji şöbəsinin müdiri Demiçev, əsasən də MK-nın İdeologiya üzrə katibi Suslov başçılıq edirdi.

Bəs "Qlavlit" necə qurum idi? SSRİ dövlətində mətbuata nəzarət sistemi "Qlavlit" təşkilatı tərəfindən həyata keçirilirdi. "Qlavlit" sözünün tam açımı (bu söz ruscanın qısa formasıdır) belədir: "Sovetlər Birliyi Nazirlər Sovetinin yanında Mətbuatda Dövlət Sirlərini Mühafizə Baş İdarəsi". Bu sahəyə uzun müddət Sov.İKP MK-da Ağır Sənaye şöbəsini idarə edən P.K.Romanov başçılıq edib.

"Qlavlit"in qadağanları: "Jurnalistlərin terminində (arqosunda) "talmud" deyə adlandırılan və məzmununda hər il dəyişikliklər edilən, ancaq senzorların faydalandığı böyük həcmli kitabda qadağanlar qeyd edilir. Bu kitabda məxfi "qadağanlar" senzorların fəaliyyətində əsas götürülürdü.

Senzorları tez-tez seminarlara çağırır, onlara yeni təlimatlar verirdilər.

Senzura orqanlarında o dövrdə 70 (yetmiş) min insan çalışırdı.

Sovet kino sistemində isə senzura işinə redaksiyalar, redaktorlar, Kinematoqrafçılar Birliyi, hərbi senzorlar, DTK orqanları, "Qlavlit", Sov. İKP MK və s. qurumlar nəzarət edirdi.

"Qlavlit"də nəzarət daha güclü idi.

---

***Qaynaq:***
*Herman. F.F.Asininov. Sovetlər Birliyində senzor.*
*"Dərgi", Münhen, 1970, №59, səh.70-71.*

## SOVET DÖVLƏTİNİN TƏBLİĞAT SİSTEMLƏRİ İDEOLOJİ TƏLƏLƏR: (OKTYABRYAT, PİONER, KOMSOMOL, KOMMUNİST PARTİYASI)

Azərbaycanın Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə Sovet rejimindəki siyasi və ideoloji təşkilatları ideoloji tələlər adlandırırdı. O, yazırdı ki, məhz bu tələlər Sovet rejiminin qorunub saxlanılmasına xidmət edir.

Maraqlı idi ki, tam hüquqlu sovet vətəndaşı olmaq üçün dörd mərhələni mütləq keçmək lazım idi: oktyabryat, pioner, komsomol, partiya.

Bəs bu təşkilatlar nə məqsədlə yaranmışdı?


***Oktyabryat nişanı***

**OKTYABRYAT:** Sovet İttifaqında 7-9 yaşlı şagirdləri birləşdirən dəstə. Bu dəstələrə komsomol və pionerlərdən ibarət olan rəhbərlər başçılıq edirdilər. Bu dəstələrdə uşaqlar V.İ.Lenin adına Ümumittifaq pioner təşkilatına daxil olmağa hazırlaşırdılar.

**Əsası 1923-cü ildə qoyulub. 1991-ci ilin 28 noyabrında buraxılıb.**

"Oktyabryat" termini. 1923-1924-cü illərdə Moskvada Oktyabr Sosialist İnqilabının həmyaşıdları olan uşaq dəstələri yaranmağa başlayanda bu termin formalaşdı. Oktyabyatlar qrupu 1-ci sinifdən formalaşırdı və sinələrində Leninin uşaqlıq portreti olan beşulduzlu nişanı taxırdılar. Dəstənin rəmzi oktyabr simvolu olan qırmızı bayraq idi. Oktyabryatlar, adətən, beşulduzlu nişanın simvolu olaraq 5 nəfərlik dəstələrdən ibarət olurdu.

ÜLKGİ MK Oktyabryat qaydalarını müəyyənləşdirmişdi:

Oktyabryatlar – gələcək pionerlərdir.

Oktyabryatlar – məktəbi sevirlər, yaşlılara hörmət edirlər.

Oktyabryatlar – doğruçudurlar və qorxmazdırlar, bacarıqlıdırlar.

Oktyabryatlar – mehriban uşaqlardır, oxuyurlar və çəkirlər, oynayırlar, şən yaşayırlar.

Hər ilin 22 aprelində təyin edilmiş yuxarı sinif şagirdi sinfə daxil olub oktyabryatlara Lenin haqqında hekayələr oxuyardı (Leninin anadan olduğu gündə – 1870-ci il 22 aprel).

***Qaynaq:***

*https://ru.wikipedia.org/wiki/Октябрята*

**PİONER:** məqsədi gəncləri partiya işinə bağlılıq ruhunda böyütmək olub.

Pioner – fransız mənşəli sözdür, "ilk yol açan, cığır açan" deməkdir.



***Pioner nişanı***

**V.İ.Lenin adına Ümumittifaq Pioner Təşkilatı. 1922-ci ilin 19 mayında Ümumrusiya Kommunist Gənclər İttifaqının II konfransında yaradılıb.**

1991-ci ilin 28 sentyabrında ÜLKGİ-nin XXII fövqəladə qurultayında ləğv edilib.

ÜLKGİ yanında V.İ.Lenin adına Ümumittifaq Pioner Təşkilatı adlanıb.

SSRİ-də kütləvi uşaq təşkilatı olub. 19 May – Pioner günü kimi qeyd olunmuşdu. 1924-cü ilə qədər Spartakın, Leninin ölümündən sonra isə onun adını daşıyıb. İlk sədri Nikolay Pavloviç Çaplin olub.

Pioner təşkilatının kökü Skautinq hərəkatından başlayır. 1917-ci ildə

Rusiyada belə yayılmış uşaq skaut şəbəkələri yayılmışdı. Pionerlər simvol olaraq qırmızı qalstuk taxır, "Hazır ol!" şüarı ilə fəaliyyət göstərirdilər. Pioner təşkilatına 9-14 yaşlı uşaqlar daxil olurdu. Könüllülük əsasında "Həmişə hazır!" sözləri yazılmış, Leninin şəkli olan döş nişanı gəzdirirdilər (böyük pionerlər).

Təntənəli pioner andı. And içirdilər: "Mən (familiyası - soyadı, adı) V.İ.Lenin adına Ümumittifaq Pioner Təşkilatına daxil olarkən yoldaşlarım qarşısında təntənəli şəkildə söz verirəm: "Vətənimi sevib qorumaq, yaşamaq, böyük Leninin vəsiyyət etdiyi, Kommunist Partiyasının öyrətdiyi kimi həmişə Sovet İttifaqının pioner qanunlarını yerinə yetirəcəyəm!" .

Pioner geyimi belə olurdu: pioner nişanı, pioner qalstuku, qırmızı pilot papaqları, dəstə bayrağı. Tədbirlərdə şeypur, baraban çalınırdı.

***Qaynaq***

*https://ru.wikipedia.org/.../Всесоюзная_пионерская_организация_имени_В.И.Ленина*




***Komsomol nişanı***

**KOMSOMOL: 1918-ci ilin 29 oktyabrında yaranıb.** 1991-ci ilin 28 sentyabrında buraxılıb.

Komsomol (rusca: Kommunistiçeskiy Soyuz Molodyoji – Kommunist Gənclər İttifaqı). Tam adı rusca: VLKSM – Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı). 1924-cü ildə V. İ. Leninin adı verilib – Rusiya Lenin Kommunist Gənclər İttifaqı.1926-cı ilin martında – Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı adlanıb.

1977-ci ildə SSRİ-də 14-28 yaşlılar arasında olan 36 milyon adam komsomolun üzvü idi. Komsomol təşkilatının yaradılması təşəbbüsü Leninə məxsusdur.ÜLKGİ – İttifaq LKGİ-lərdən, LKGİ-lər respublika, vilayət təşkilatlarından ibarət idi.

Ali orqanı – ÜLKGİ-nin qurultayı. Qurultaylararası dövrdə Mərkəzi Komitə - qurultayın seçdiyi qurum idarə edirdi. MK-nın iclaslararası dövründə ÜLKGİ Mərkəzi Komitəsinin Bürosu. Ali vəzifə – ÜLKGİ Mərkəzi

Komitəsinin 1-ci katibi.

ÜLKGİ üzvlərinin döş nişanı qırmızı rəngdə – Leninin şəkli, rus dilində VLKSM sözü yazılmış döş nişanı.

Komsomol şüarları:

1. Əgər partiya deyirsə "lazımdır", komsomolçular cavab verir "oldu!".
2. Burjuaziya stol altına! Komsomol gəlir!
3. Komsomol - döyüşən bolşevizm məktəbidir!

***Qaynaq:***

*https://ru.wikipedia.org/wiki/Комсомол*

## SOVET İTTİFAQI KOMMUNİST PARTİYASI

**Sovet İttifaqı Kommunist Partiyası** (qısaca **Sov.İKP**) Sovet İttifaqında yeganə, hakim siyasi partiya olub. Fəaliyyəti ilk qurucularından olan Vladimir İliç Leninin(1870-1924) adı ilə bağlıdır.




***Kommunist Partiyası nişanı***

Partiya Rusiya imperiyasında XIX əsrin axırında bir neçə sosial-demokrat ("Fəhlə sinfinin azadlığı uğrunda mübarizə ittifaqı", "Fəhlə qəzeti", "Bund") və marksist dərnəkləri əsasında yaranıb. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının I qurultayı Minskdə 13-15 mart 1898-ci ildə keçirilib. **1917-ci ilin oktyabrında Rusiyada hakimiyyətə gələn bolşeviklər mənsub olduqları partiyanın adını müxtəlif zamanlarda dəyişdirmişdilər:** Partiya faktiki olaraq 1903-cü ildə, RSDFP-nin ikinci qurultayında yaranıb, 1912-ci ildə isə partiya bolşevik və menşeviklər fraksiyasına parçalanıb və RSDF(b)P adını götürüb. 1918-ci ildə o RK(b)P (Rusiya Kommunist (bolşeviklər)Partiyası), 1925-cü ildə ÜİK(b)P (Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası), 1952-ci ildə Sov.İKP (Sovet İttifaqı Kommunist Partiyası) adını qəbul edib.

***Qaynaq:***

*https://az.wikipedia.org/.../Sovet_İttifaqı_Kommunist_Partiyası*

## AZƏRBAYCAN KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASI

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b) P əslində Rusiya Kommunist (bolşeviklər) Partiyasının – RK(b)P-nın tərkib hissəsi idi. 1920-ci ilin 28 aprelindən 1991-ci ilə qədər Azərbaycan Sovet Sosialist Respublikasının yeganə siyasi partiyası olub. 1991-ci ilin sentyabrın 16-da fəaliyyəti dayandırılıb.

Qeyd edək ki, 1920-ci ilin fevralında Bakıda Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının birinci qurultayı keçirildi və qurultay Rusiya Kommunist (bolşeviklər) Partiyasının Bakı Komitəsi, bolşevik "Hümmət" və iranlı fəhlələrin Kommunist təşkilatı "Ədalət"in vahid təşkilat şəklində birləşməsi haqqında qərar qəbul etdi. Qurultayın qərarında "Kommunizm uğrunda" mübarizənin birliyi xatirinə birləşmənin zərurəti bildirilirdi.

Qurultay Bakıda dövlət çevrilişinə hazırlıq xətti götürdü. **(Təbii ki, Rusiyanın köməyi ilə Azərbaycan Xalq Cümhuriyyətini devirmək).** Bu xəttə uyğun olaraq fevralın 17-də yenicə yaranmış AK(b)P MK-sı RSFSR-in Xarici İşlər Naziri Çiçerinin təkrar sorğusunu müzakirə edərək, Azərbaycanın müstəqilliyinin tanınmasına heç bir ehtiyacın olmadığı qərarını verdi.

Azərbaycanlı bolşeviklərin liderlərindən olan N.Nərimanov isə hələ 1920-ci ilin yanvarında Azərbaycan Nazirlər Şurasının Sədri N.Yusifbəyliyə Rusiya bolşeviklərinin əmrinə tabeçiliklərini əks etdirən məktub göndərmişdi: **"Möhtərəm Nəsib bəy Yusifbəyov cənabları!** Bütöv bir xalqın həyatı ilə, qızıl əsgərləri xarüqələr yaradan bütöv bir dövlətin həyatı ilə oynamaq olmaz, amma Siz cinayətkarcasına bu cür oynayırsınız!"

1920-ci ilin 24 aprelində AK(b)P MK və Bakı Komitəsinin orqanı kimi "Novıy Mir" qəzeti gizli olaraq bu şüarlarla çap olundu: "Məhv olsun müsavatçıların bəy-xan hökuməti!", "Yaşasın sovet hakimiyyəti!"

Azərbaycan Kommunist (bolşeviklər) Partiyası 1991-ci ilin sentyabrın 14-nə qədər Azərbaycanda hakimiyyətdə oldu. 1991-ci ilin sentyabr ayında Partiyanın Bakıda keçirilən sonuncu –XXXIII qurultayında təşkilatın rəsmi

olaraq buraxıldığı və fəaliyyətini dayandırdığı haqda qərar qəbul edildi.

Həmin dövrdə Azərbaycan Kommunist Partiyasının sıralarında 300 minə qədər təşkilat üzvü var idi. Onların çoxu kütləvi şəkildə partiyadan çıxdı, müəyyən bir hissəsi isə partiya biletlərini Bakıdakı Azadlıq (keçmiş Lenin) meydanında nümayişkaranə şəkildə yandırdılar.

**Azərbaycana süngülər, silahlar və zor gücünə işğalla gətirilən bir ideyanın (kommunist ideyası) sonu belə faciə ilə yekunlaşdı.**

***Qaynaq:***

*https://az.wikipedia.org/.../Azərbaycan_Kommunist_(bolşeviklər) Partiyası*

## SAXTA SOVET BAYRAMLARI

7 oktyabr – 1977-ci ildə SSRİ Konstitusiyasının qəbul edilməsi. SSRİ Konstitusiyası günü.

7 və 8 noyabr – Böyük Oktyabr Sosialist İnqilabının ildönümü.

5 dekabr – SSRİ Konstitusiya günü (iş günü deyildi, 1936-1976-cı illərdə bayram edilib. Stalin Konstitusiyası).

23 fevral – Sovet Ordusu və Hərbi Dəniz Donanmasının yaranması günü.

22 Aprel – V. İ. Leninin anadan olduğu gün.

28 Aprel – Azərbaycanda Sovet Hakimiyyətinin qurulduğu gün.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1980-ci ilin martın 1-də qəbul etdiyi “Bayramlar və xatirə günləri” haqqında sərəncam əsasında keçirilən bayramlar Sovet rejiminin son tədbirləri oldu.

## SOVET DÖVLƏTİNİN RƏHBƏRLƏRİ

1. **Vladimir İliç Lenin (1870 - 1924) -** Rusiyanın və Sovet dövlətinin görkəmli xadimi, Bolşeviklər Partiyasının yaradıcısı. Böyük Oktyabr Sosialist İnqilabının təşkilatçılarından və rəhbərlərindən biri. Xalq Komissarları Sovetinin ilk sədri.
2. **İosif Vissarionoviç Stalin - Cuqaşvili (1879 - 1953) -** Sovet dövlətinin görkəmli partiya və siyasi xadimi, generalissimus. 1922- 1953-cü illərdə Sov. İKP-nin Baş Katibi olmuş, Sovet dövlətinə başılıq etmişdir.

## SOVET DÖVLƏTİNİN TƏBLİĞAT VASİTƏLƏRİ - QƏZETLƏR


ПРАВДА
Орган Центрального Комитета и МК ВКП(б)
СОВЕТСКИЙ ПАТРИОТИЗМ— ВЕЛИКАЯ РЕВОЛЮЦИОННАЯ СИЛА
На фронтах в Испа

1. **"Pravda" qəzeti -** 1905-ci ilin mayın 12-dən V. İ. Lenin tərəfindən nəşr edilib. Bolşeviklərin ictimai - siyasi qəzeti olub. 1917 - 1990-cı illərdə Kommunist Partiyası MK-nın, SSRİ Nazirlər Soveti və Ali Sovetinin orqanı olub.


ИЗВЕСТИЯ
На областных съездах советов

2. **"İzvestiya"(xəbərlər) qəzeti**-Rusiyanın və Sovetlər Birliyinin bu ictimai-siyasi qəzeti 1917-ci ilin martında təsis edilib. Sovetlər Birliyi dövründə isə SSRİ Ali Sovetinin orqanı olub. 1991-ci ildə Rusiyada baş verən avqust hadisələrindən sonra müstəqil qəzet olaraq fəaliyyətə başladı və hazırda nəşrini davam etdirir.


ЗАРЯ ВОСТОКА

3. **"Zarya Vostoka" -** Gürcüstanda gündəlik olaraq nəşr edilən rusdilli qəzet. 1921-ci ildən ZSFSR-nın, 1936-cı ildən isə Gürcüstan SSR MK-nın, Nazirlər Sovetinin və Ali Sovetin orqanı olaraq çap edilib.


БАКИНСКИЙ РАБОЧИЙ
№ 15 (149)
Среда, 19 января 1921 года.
Не сдали.
Последние новости
Электрофицируют Урал.
Герой труда.

4. **"Bakinski Raboçi" ("Bakı fəhləsi")** qəzeti – 1906-cı ilin mayından rus dilində çap edilir.Birinci Rus inqilabından sonra bu qəzet bolşevik ideyalarını yayırdı.Müxtəlif dövrlərdə N.Nərimanov,S.M.Kirov,Q.Orcenikidze kimi bolşeviklər bu qəzetlə əməkdaşlıq ediblər.Hazırda bu qəzet Bakıda fəaliyyətini davam etdirir.


KOMMYNIST

MƏDƏNI INKILAB

**5. "Kommunist" qəzeti -** Azərbaycanın ictimai-siyasi qəzeti. Azərbaycan KP MK-nın, Nazirlər Sovetinin və Azərbaycan Ali Sovetinin orqanı olub. 1919-cu ildən ildən nəşr edilib.

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASININ SOVET DÖVRÜNDƏKİ RƏHBƏRLƏRİ

## (*Moskvadan təyin edilən qeyri-azərbaycanlılar kimlər idi?)*

1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra respublikaya əsas rəhbərlər qeyri-Azərbaycan türklərindən seçilib Moskvadan göndərilməyə başladı. Doğrudur, Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov olsa da, lakin qərarı verən və idarəçiliyə rəhbərlik edən başqaları idi.

Aşağıda təqdim etdiyimiz materiallarda faktlar bir daha sübut edir ki, Moskva, xüsusən, 1920-ci illərdə (R.Axundovun qısa müddətə rəhbərliyi istisna olmaqla) Azərbaycanı müstəmləkə bir rejimlə idarə etmiş, qeyri-azərbaycanlıları əsas aparıcı ideoloji qurum olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təyin etmişdir.

1920-ci ildə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasına rəhbərlik aşağıdakı formada həyata keçirilib:

Rəhbərlik əvvəl Azərbaycan KP MK Rəyasət Heyətinin sədrləri strukturunda olub:

1. Mirzə Davud Hüseynov (28 aprel 1920 - 23 iyul 1920).
2. Viktor Makeyşvili (23 iyul 1920 - 9 sentyabr 1920).
3. Yelena Stasova (9 sentyabr 1920 - 15 sentyabr 1920).
4. Vladimir Dumbadze (15 sentyabr 1920 - 24 oktyabr 1920). Sonradan Azərbaycan KP (b) MK-nın məsul katibi statusunda.
5. Qriqori Kaminski (24 oktyabr 1920 - 24 iyul 1921).

**Sonradan isə Birinci katiblər statusunda belə təyinatlar oldu:**

1. **Sergey Mironoviç Kirov**: 24 iyul 1921-ci il - yanvar 1925-ci illərdə Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmişdir.

1886-cı ildə Rusiyanın Vyatski quberniyasının Yrjim şəhərində anadan olub. Rus inqilabçısıdır. 1927-1934-cü illərdə Leninqrad (indiki Sankt-Peterburq) Vilayəti Ümumittifaq Kommunist (b) Partiyasının Birinci katibi olub. **1934-cü ilin dekabrın 1-də suiqəsd nəticəsində öldürülüb.**

2. **Ruhulla Axundov**: 1925-1926-cı illərdə Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmişdir.

   1897-ci ildə Bakının Şüvəlan kəndində doğulub. Azərbaycan inqilabçısıdır. "Kommunist" qəzetinin redaktoru olub. Azərbaycan SSR Xalq Maarif Komissarı vəzifəsində çalışıb (1927-1930). K. Marksın, F.Engelsin və V.İ.Leninin əsərlərini Azərbaycan dilinə ilk dəfə tərcümə edib. 1936-cı ildə həbs edilib, **1938-ci ildə güllələnib.**

3. **Levon İsayeviç Mirzoyan:** 21 yanvar 1925 - 5 avqust 1929-cu illərdə Azərbaycan Kommunist Partiyasına başçılıq etmişdir.

   1897-ci ildə Elizavetpol quberniyasının Şuşa qəzasında anadan olub. Milliyyətcə ermənidir. SSRİ NKVD (XDİK)-nin "üçlüyü"nə daxil idi və azərbaycanlıların qətlə yetirilməsində xüsusi rolu olub. Bir müddət Bakı Şəhər Partiya Komitəsinə də başçılıq edib. 1937-1938-ci illərdə Qazaxıstan Ümumittifaq Kommunist (b) Partiyası Mərkəzi Komitəsinin Birinci katibi olub. **1939-cu ildə güllələnib.**

4. **Nikolay Qikalo:** 5 avqust 1929-cu il - 5 avqust 1930-cu illərdə Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmişdir.

   1897-ci ildə anadan olub. Milliyyətcə ukraynalıdır. Ali təhsili olmayıb. Tiflisdə hərbi-feldşer məktəbini bitirib. Azərbaycandan sonra Belorusiya (1932-1937-ci illərdə) və Özbəkistan (1929-cu ildə) Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi olub. **1938-ci ildə güllələnib.**

5. **Vladimir Polonski:** 5 avqust 1930-cu il - yanvar 1933-cü illərdə Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmişdir.

   1893-cü ildə Rusiyanın Tobolsk quberniyasında anadan olub. Matros və elektrik ustası olub. Moskvada Metallistlər İttifaqı Mərkəzi Komitəsinin Katibi olub. Ümumittifaq KP(b) Zaqafqaziya Diyar Komitəsinin Katibi olub. 1937-ci ildə SSRİ Xalq Rabitə Komissarının müavini olub. **1937-ci ildə güllələnib.**

6. **Ruben Qukasoviç Rubenov:** 7 fevral 1933-cü il - 10 dekabr 1933-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik etmişdir.

1893-cü ildə Tiflisdə erməni ailəsində doğulub. 1914-cü ildən RSDFP-nin üzvü olub. 1918-ci ildən partiya və dövlət işində çalışıb. **1937-ci ildə güllələnib.**

7. **Mir Cəfər Bağırov:** 1896-cı ildə Bakı Quberniyasının Quba bölgəsində doğulub. Hər iki həyat yoldaşı rus millətindən olub. Bir oğlunun adı Cahangir (Vladimir), digərinin adı Cen olub. Ali təhsil almayıb. Petrovskidə (Mahaç-Qalada) ikillik Pedaqoji kursda oxuyub. 1918-1920-ci illərdə Həştərxanda yaşayıb. XI Ordunun Hərbi İnqilab Şurasında çalışıb. 1921-ci ildə Azərbaycan Fövqəladə Komissiyasının sədri, sonra da Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olub.
8. **Mir Teymur Yaqubov:** 6 aprel 1953-cü il - 12 fevral 1954-cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik edib.

   1904-cü ildə Bakıda anadan olub. 1936-cı ildə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin Birinci katibi olub. 1938-1941-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri, 1941-1943-cü illərdə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı olub. **1970-ci ildə vəfat edib.**
9. **İmam Mustafayev:** 16 fevral 1954-cü il - 8 iyul 1959-cu illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik edib.

   1910-cu ildə Zaqatalanın Qax bölgəsində anadan olub. 1947-ci ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Naziri olub. 1952-ci ildə Azərbaycan KP MK-nın katibi olub. Onun Azərbaycana rəhbərliyi dövründə Azərbaycan dilinin müəssisələrdə və təşkilatlarda işlədilməsi məsələsi qaldırılıb. Millətçilikdə günahlandırılaraq vəzifədən uzaqlaşdırılıb. **1997-ci ildə vəfat edib.**
10. **Vəli Axundov:** 10 iyul 1959-cu il - 14 iyul 1969-cu illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik edib.

    1916-cı ildə Bakının Saray kəndində anadan olub. Azərbaycan Tibb İnstitutunu bitirib. 1954-cü ildə Azərbaycan SSR Səhiyyə Naziri olub. 1958-ci ilin yanvarından Azərbaycan KP MK-nın katibi, sonradan Azərbaycan SSR Nazirlər Sovetinin sədri olub. **1986-cı ildə vəfat edib.**
11. **Heydər Əliyev:** 14 iyul 1969-cu il - 3 dekabr 1982-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq edib.

1923-cü ildə Naxçıvanda dəmiryolçu ailəsində anadan olub. Naxçıvan Pedaqoji Texnikumunda, Azərbaycan Sənaye İnstitutunda təhsil alıb. 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında, 1944-cü ilin mayından isə Dövlət Təhlükəsizliyi orqanında işə başlayıb. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olub. 1982-ci ilin dekabrında SSRİ Nazirlər Sovetinin birinci müavini olub və Siyasi Büronun üzvü seçilib. 1993-cü ilin oktyabrın 3-də Azərbaycanın Prezidenti seçilib. **2003-cü ildə vəfat edib.**

12. **Kamran Bağırov:** 3 dekabr 1982 - 21 may 1988-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq edib.

    1933-cü ildə anadan olub. Bakı Politexnik İnstitutunu bitirib. 1974-cü ildə Sumqayıt şəhər Partiya Komitəsinin Birinci katibi olub. **2000-ci ildə vəfat edib.**

13. **Əbdürrəhman Vəzirov:** 21 may 1988 - 20 yanvar 1990-cı illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq edib.

    1930-cu ildə Bakıda anadan olub. Azərbaycan Sənaye İnstitutunu bitirib. SSRİ-nin Nepalda (1979-1985) və Pakistanda (1985-1988) səfiri olub. **Hazırda Moskvada yaşayır.**

14. **Ayaz Mütəllibov:** 25 yanvar 1990-cı il - 14 sentyabr 1990-cı illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq edib.

    1938-ci ildə Bakıda anadan olub. Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 1966-cı ildə Bakı Soyuducular və Məişət Maşınları zavodunun direktoru olub. 1979-1982-ci illərdə Azərbaycan SSR-nin Yerli Sənaye Naziri, 1982-ci ildən Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədri olub. 1989-1990-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri olub. 1991-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti seçilib. **Uzun müddət Moskvada yaşadıqdan sonra o, Bakıya qayıtmış və hazırda təqaüddədir.**

Sovet dövlətinin Kremldən idarə olunma qaydalarına görə isə **ikinci katiblər mütləq rus millətindən** olmalı idi (bu, həm də etibarlılığın, Moskvanın onlara daha çox inanmağının təzahürü idi).

Sovet dövründə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibləri: 1) Vladimir Semiçastnıy; 2) Pyotr Yelistarov; 3) Sergey Kozlov; 4) Yuriy Nikolayeviç Puqaçov; 5) Vasiliy Konovalov; 6) Viktor Polyaniçko.

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QURUCULARI OLAN BOLŞEVİKLƏRİN ARADAN GÖTÜRÜLMƏSİ, GÜLLƏLƏNMƏSİ

**Nəriman Nərimanov (14 aprel 1870-ci il - 19 mart 1925-ci il).** Tanınmış ictimai-siyasi xadim, yazıçı, publisist, həkim. Azərbaycan SSR-nin 1-ci Xalq Xarici İşlər Komissarı, Azərbaycan SSR İnqilab Komitəsinin Sədri, Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri, ZSFSR İttifaq Sovetinin 1-ci Sədri.

1870-ci ildə Tiflisdə anadan olub. 1908-ci ildə Novorossiysk (Odessa) Universitetinin Tibb fakultəsini bitirən N. Nərimanov 1905-ci ildə Sosial-Demokrat "Hümmət" təşkilatının rəhbərliyinə daxil olmuş, 1917-ci ildə onun Mərkəzi Komitəsinin sədri olmuşdur. 1918-ci ilin mart ayında Bakı Sovetində Şəhər Təsərrüfatı üzrə Xalq Komissarı olub.

1920-1922-ci illərdə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında böyük fəallıq göstərib. 1922-1925-ci illərdə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri kimi Moskvada yaşayıb. **1925-ci ilin martında müəmmalı şəkildə vəfat edib (bəzi məlumatlara görə zəhərlənib).**

N.Nərimanovun vəzifəsi yüksək olsa da, Azərbaycandakı Moskvadan idarə olunan qurumlar və şəxslər onunla hesablaşmırdı. 1922-ci ildə isə həmin qüvvələr onu Azərbaycandan uzaqlaşdırdılar. Özünün də qurbanı olduğu bolşeviklərdən narazılığını o, sonradan – 1925-ci ilin yanvar ayının 28-də oğlu Nəcəfə yazdığı məktubda belə ifadə etmişdi: "Mən sosial-demokrat olmuşam, ancaq bu təşkilat getdikcə idealdan daha çox uzaqlaşır. Mən böyük məmnuniyyətlə bolşeviklərin proqramını qəbul etdim və bunda tezliklə öz arzumun – yer üzündə istismarın məhv ediləcəyinin həyata keçiriləcəyini görürəm. Olsun ki, sən bu sətirləri oxuyanda bolşevizm də olmayacaq. Ancaq bu, o demək deyildir

ki, bolşevizm yaramır; bu, o deməkdir ki, biz onu saxlaya bilmədik, lazımınca qiymətləndirmədik, işdən pis yapışdıq. **Açıq desək, hakimiyyətdən o qədər təkəbbürlü olduq ki, boş şeylərlə, çəkişmələrlə məşğul olub, əsas məsələni nəzərdən qaçırdıq. Hakimiyyət çoxlarını korlayır. Belə də oldu: hakimiyyət nəhəng bir dövlətin taleyini əlinə almaq qərarına gələn, diktatorluq eləyən bir çox yaxşı, görkəmli xadimləri tamamilə pozdu…"**

**Mirzə Davud Hüseynov (mart 1894-cü il - 21 mart 1938-ci il).**

Azərbaycan İnqilab Komitəsinin sədr müavini, Azərbaycanın Xarici İşlər Naziri (05.1921-12.1921), Azərbaycan SSR Xalq Maliyyə Komissarı, Ali İqtisadi Şurasının sədri, ZSFSR Xalq Komissarları Sovetinin sədr müavini, ZSFSR Xalq Maliyyə Komissarı, Tacikistan KP MK-nın Birinci katibi (1930-1933).

Moskvada Kommersiya İnstitutunda təhsil alıb. 1918-ci ildə Rusiya Kommunist (bolşeviklər) Partiyasının üzvü olub.

**1938-ci ildə güllələnib.**

**Əliheydər Qarayev (20 iyun 1896-cı il - 24 aprel 1938-ci il).**

1916-cı ildə Don (Novoçerkassk) Politexnik İnstitutuna daxil olub. Tələbələrin inqilabi çıxışlarında iştirak edib. Azərbaycan Parlamentinin üzvü, "Zəhmət", "Oktyabr inqilabı", qəzetlərinin, "Məşəl" jurnalının redaktoru olub. Sol radikal sosialistlərin lideri idi.

1920-1931-ci illərdə Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin üzvü, Bakı Müvəqqəti İnqilab Komitəsinin sədri, Xalq Əmək Komissarı, Xalq Hərbi Dəniz İşləri Komissarı, Bakı Sovetinin sədri işləyib. **1938-ci ildə güllələnib.**

**Çingiz İldırım (10 iyul 1890-cı il - 25 sentyabr 1938-ci il).**

1910-1916-cı illərdə Peterburq Politexnik İnstitutunda təhsil alıb. AXC dövründə Hərbi Dəniz Donanmasına rəhbərlik edib. Azərbaycan SSR-də Hərbi Dəniz İşləri üzrə Komissar, Xalq Poçt və Teleqraf Komissarı, Xalq Yollar Komissarı vəzifələrində çalışıb. **1938-ci ildə güllələnib.**

**Həmid Sultanov (26 may 1889-cu il - 3 iyul 1938-ci il).**

1 iyun 1921-ci illərdə Azərbaycan SSR-nin ilk Xalq Daxili İşləri Komissarı, Azərbaycan Hərbi İnqilab Komitəsinin üzvü olub. 1925-1929-cu illərdə Naxçıvan MR SSR-nin Xalq Komissarlar Sovetinin sədri vəzifəsin-

də işləyib. 1907-ci ildə RSDFP(b)-nin üzvü olub. **1938-ci ildə güllələnib.**

**Qəzənfər Musabəyov (14 (26) iyul 1888-ci il - 9 fevral 1938-ci il).**

1919-cu ildə Kiyev Universitetinin Tibb fakultəsini bitirib. SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-dən 2-ci sədri (21 may 1925-ci il - 12 yanvar 1938-ci il), Azərbaycan SSR Xalq Komissarları Sovetinin 2-ci sədri (6 may 1922-ci il - 14 mart 1930-cu il), Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin sədri (14 mart 1930-cu il - 15 dekabr 1931-ci il), Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin Sədri (28 iyun 1932-ci il - 5 dekabr 1936-cı il). **1938-ci ildə güllələnib.**

**Dadaş Bünyadzadə (1888-1938).**

Bakıda rus-tatar məktəbində təhsil alıb. 28 aprel 1920-ci il - 6 may 1922-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarı, 28 Aprel 1920-ci il - 1921-ci illərdə, eyni zamanda, Azərbaycan SSR Xalq Fəhlə - Kəndli Müfəttişliyi Komissarı vəzifələrində çalışıb. 1922-1923-cü illərdə o, Azərbaycan SSR Xalq Ərzaq Komissarı olub. 1930-1932-ci illərdə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri, 1932-1936-cı illərdə isə ZSFSR Xalq Torpaq Komissarı olaraq fəaliyyət göstərib. **1938-ci ildə güllələnib.**

**Ruhulla Axundov (1 (13) yanvar 1897-ci il - 21 aprel 1938-ci il).**

Mədrəsədə və Realnı məktəbdə, Ticarət məktəbində təhsil alıb. Bir neçə Şərq və Avropa dillərini bilirdi. "Kommunist" qəzetinin və bir neçə nəşrlərin redaktoru olub. Azərbaycan SSR Xalq Maarif Komissarı vəzifəsində işləyib. K. Marksın, F. Engelsin və V. İ. Leninin əsərlərini Azərbaycan dilinə ilk dəfə o, tərcümə edib. 1925-1926-cı illərdə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışıb. **1938-ci ildə güllələnib**.

**Mir Cəfər Bağırov (17 sentyabr 1896-cı il - 26 may 1956-cı il).**

1921-ci ilin aprelin 2-də Azərbaycan Fövqəladə Komissiyasının sədri olub. O, bu vəzifədə çalışmaqla yanaşı Azərbaycan Xalq Daxili İşlər Komissarı olmuşdur. 1927-1928-ci illərdə Tiflisdə Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin, 1928-1929-cu illərdə Zaqafqaziya Kənd Təsərrüfatı İdarəsinin sədri vəzifəsində çalışıb. 1932-ci ilin oktyabrından 1933-cü ilin dekabrına qədər Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olub. 1933-cü ilin dekabrın 15-dən 1953-cü ilin aprelin 18-nə qədər Azərbaycan KP MK-

nın Birinci katibi vəzifəsində çalışıb. 1953-1955-ci illərdə Kuybışev Neft İdarəsi rəisinin müavini işləyib. **1955-ci ildə həbs edilib. 26 may 1956-cı ildə güllələnib.**

***Qeyd:*** *Azərbaycan xalqının yaratdığı ilk müstəqil Azərbaycan Xalq Cümhuriyyətini devirmiş və Azərbaycanı rus bolşeviklərinə – XI Orduya təslim etmiş çoxlu sayda azərbaycanlı bolşeviklərin taleyi də acı sonluqla – güllələnmə və Sibirə, Qazaxıstana sürgünə göndərilməklə yekunlaşdı.*

***Qaynaq:***

1. *XX əsr Azərbaycan tarixi, II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev. Bakı, 2004.*
2. *Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə. (XIX –XXI əsrin əvvəli). A.Ə.Rzayevin redaktəsiilə. Bakı, 2010.*
3. *Azərbaycan tarixi (ən qədim zamanlardan -XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. M.Q.Abdullayevin redaktəsi ilə. Bakı, 2014.*
4. *Qafqazda Sovet totalitarizmi (1920-30-cu illərdə). Elmi konfrans. Xəzər Universitəsi, 1998.*

## ERMƏNİ TERRORLARI

**(*Terror qurbanları: Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Behbud xan Cavanşir*)**

Ermənilərin Türkiyə türklərinə və Azərbaycan türklərinə qarşı apardıqları terror əməliyyatları haqqında geniş məlumatlar vardır. Onlar Türkiyənin dinc əhalisinə XX əsrin əvvəllərində soyqırım siyasəti yürütmüş, 1970-ci illərdə çoxlu sayda türkiyəli diplomatı terror yolu ilə qətlə yetirmişlər.

Azərbaycan türklərinə qarşı 1918-ci ilin martında soyqırım törədən ermənilər yalnız Bakı şəhərində 15 minə qədər, digər rayonlarda (Şamaxı, Quba və s.) isə 30 mindən çox insanımızı qətlə yetirmişlər.



*Həsən bəy Ağayev*

Ermənilər 1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra görkəmli dövlət xadimlərimizə qarşı da terror əməliyyatları aparmışlar.

**İlk olaraq 1920-ci ilin iyulunda Tiflisdə Azərbaycanın görkəmli dövlət xadimi Həsən bəy Ağayev erməni terrorçusu tərəfindən qətlə yetirildi.**

**Həsən bəy Ağayev** (1875-1920) – Moskva Dövlət Universitetini bitirib. Azərbaycan Milli Şurasının sədr müavini olub. O, eyni zamanda, Müsavat Partiyasının rəhbərliyində təmsil olunaraq Azərbaycan Parlamentinin sədr müavini vəzifəsində çalışıb.



*Fətəli xan Xoyski*

**Azərbaycanın görkəmli dövlət xadimi Fətəli xan Xoyski** (1875-1920) də iyun ayında Tiflisdə erməni terrorçusu tərəfindən qətlə yetirilib. F. Xoyski Azərbaycanın ilk Baş Naziri olub. O, Moskva Dövlət Universitetinin hüquq fakultəsini bitirmişdi.



*Behbud xan Cavanşir*

**Behbud xan Cavanşir** (1886-(1877)-1921).

Behbud xan Cavanşir 1918-ci ilin 17 iyununda Fətəli xan Xoyskinin Baş Nazirliyi ilə qurulan ikinci kabinədə Daxili İşlər naziri vəzifəsində çalışıb. Almaniyanın Freyburq şəhərindəki Universitetdə Mədən mühəndisliyi sahəsi üzrə təhsil alıb. Beş xarici dil bilirdi (rus, gürcü, alman, fransız, ingilis). Bakıda ilk polis məktəbini açdırıb. Gəncədə də ilk milli polis orqanlarını yaradıb. 1920-ci ildə bolşeviklər tərəfindən həbs edilsə də, sonradan azad olunub. 1921-ci ilin iyulun 18-də İstanbulda "Pera Palas" otelinin qarşısında qardaşı ilə gedərkən Daşnaksütun Partiyasının üzvlərindən olan Misaq Torlakyan tərəfindən arxadan vurulan odlu silahla qətlə yetirilib. Qatil M.Torlakyan həbs edilsə də, İstanbuldakı (o zaman İstanbul ingilislərin işğalı altında idi) İngilis işğal məhkəməsi tərəfindən azad edilərək Yunanıstan gəmisi ilə Pirə şəhərinə göndərilir.

---

***Qaynaq:***


1. *Azərbaycan Demokratik Respublikası. B., 1990.*
2. *N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.*
3. *Ermənistan Respublikası: terrorizm dövlət siyasətinin tərkib hissəsi kimi. Faktlar və rəqəmlər. B., 2001.*
4. *A.Cəmaləddin. Torlakyan davası: Behbud xan Cavanşirin qətli. B., 2007.*


***Qeyd:***

*Sonrakı illərdə də ermənilər Azərbaycana qarşı qanlı terror aksiyalarını daha da genişləndirdilər. 1992-ci ilin yanvarın 8-də "Krasnovodsk-Bakı" dəniz sərnişin bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər ağır yaralandı. Həmin il fevralın 28-də Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarının partladılması zamanı 11 nəfər həlak oldu, 18 nəfər yaralandı.*

## SOVET AZƏRBAYCANINDA İNSANLARI QƏTLƏ YETİRƏN - ERMƏNİ GEORGİ ATARBEKYAN (1891-1925)

Onun əsl ad-familiyası belədir: **Georgiy Aleksandroviç Atarbəyov (Atarbekyan).**

İrəvan quberniyasında anadan olub, Bakıda və İrəvanda təhsil alıb.

1920-ci ildə Azərbaycanın Sovet rejimi tərəfindən işğalından sonra Ümum Rusiya Fövqəladə Komissiyasının Bakıda səlahiyyətli nümayəndəsi olub. Eyni zamanda o, Qafqaz Cəbhəsinin Hərbi İnqilabi Şurasının Xüsusi Şöbəsinin rəisi kimi də fəaliyyət göstərib. Qafqazda, xüsusən Bakıda çoxlu sayda dinc və günahsız insanların qətlə yetirilməsinin təşkilatçısı olub.

G. Atarbekyanın adına Stepanakertdə (Xankəndində) və Moskvada küçələr vardır.

---

***Qaynaq:***

*1. Böyük Sovet Ensiklopediyası. II cild, Moskva 1970. 368 s. (rus dilində)*

*2. Georgiy Aleksandroviç Atarbəyov (Atarbekyan) - Vikipediya.*

## SSRİ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ KOMİSSARI – VSEVOLOD NİKOLAYEVİÇ MERKULOV (1895- 1953)

***(O, Azərbaycanın Zaqatala rayonundan idi)***

V.N.Merkulov 1895-ci ildə Azərbaycanın Zaqatala rayonunda anadan olmuşdu. 1941-1946-cı illərdə SSRİ Dövlət Təhlükəsizliyi komissarı vəzifəsində çalışmışdı. Ordu generalı idi. O, həm də yazıçı və dramaturq idi. L.Beriyanın yaxın silahdaşlarından idi. İki dəfə SSRİ Ali Sovetinin deputatı olmuşdu. 1950-1953-cü illərdə SSRİ Dövlət Nəzarəti Naziri vəzifəsində da çalışmışdı. L.Beriyanın həbsindən sonra 1953-cü ilin dekabrında həbs olunur və SSRİ Ali Məhkəməsi Hərbi kollegiyası tərəfindən RSFSR cinayət məcəlləsinin 58-ci maddəsinə əsasən vətənə xəyanət adı ilə güllələnir.

V.N.Merkulovun sənədlərində gürcü yazılsa da onun erməni əsilli olduğu söylənilir. Bəzi məlumatlara görə o, hakimiyyətdə olan gürcü klanına (Stalin, Beriya vəs.) yaxın olmaq üçün özünü gürcü millətinə mənsub kimi göstərmişdir. Onun yüksək vəzifədə olduğu illərdə azərbaycanlılara münasibəti ermənilərdən heç nə ilə fərqlənməmişdir.

***Qaynaq:***

*https://ru.wikipedia.org/wiki/Меркулов,_Всеволод_Николаевич*

# SOVET REJİMİNƏ QARŞI MÜCADİLƏNİN BAŞLANMASI

## SOVET REJİMİNƏ QARŞI MÜBARİZƏNİN İDEOLOQU VƏ TƏŞKİLATÇISI - M.Ə.RƏSULZADƏ



*Məhəmməd Əmin Rəsulzadə*

***M.Ə.RƏSULZADƏ: "Sonuncu rus əskəri Poylu körpüsündən çıxana qədər mübarizə aparacağam".***

***Onun dünyadan köçərkən dediyi son sözlər "Azərbaycan, Azərbaycan, Azərbaycan" oldu.***

1920-ci ilin aprelin 27-də baş verən hadisələrdən–Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra M.Ə.Rəsulzadə yaxın əqidə dostları ilə birgə gizli fəaliyyətə başladı.

Parlamentdə hökumət təhvil verildikdən sonra M.B.Məmmədzadə ilə Ə.V.Yurdsevər M.Ə.Rəsulzadənin qaldığı mənzilə gedib, partiya liderindən məsləhətlər aldılar. M.Ə.Rəsulzadə ilə görüşdən sonra onlar Cəfər Cabbarlının (böyük yazıçı və dramaturq – *N. Y.*) şəhər kənarındakı evinə getdilər. M.Ə.Rəsulzadənin göstərişlərinə uyğun olaraq Cəfər Cabbarlı, Mirzə Bala Məmmədzadə, Əbdül Vahab Yurdsevər, Məmməd Sadiq Quluzadə və Məmməd Həsən Baharlıdan ibarət **Müsavatın "Gizli Ümumi Mərkəzi"** yaradıldı. Ə.V.Yurdsevər bununla bağlı yazırdı: "Partiya mərkəzi qurulduqdan sonra vəzifə bölgüsünə başlanılmış və komissiyaların təşkilinə keçilmişdi. Əmin bəyin də razılığı ilə gizli təşkilatın başına M.B.Məmmədzadə gətirilmişdi. Müavini sifətilə Bakı Komitəsinin təşkili mənə tapşırılmışdı. Ümumi mərkəzin Baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi".

Azərbaycanın işğalının ilk günündən bolşeviklər qanlı üsullara əl atdı. Bu dövr Azərbaycanda bolşevik rejiminin ən təhlükəli zamanı idi. Yalnız:

"1921-ci ilə ancaq hərbçilərdən 12 general, 27 albay və yarımalbay, 46 kapitan, ştabskapitan, leytenant və baş leytenant, 146 zabit, 266 nəfər başqa işçilər güllələnmişdi. 1920-ci ilin aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 000 (qırx səkkiz min) adam qırmızı terrorun qurbanı oldu".

**M.Ə.Rəsulzadə yazırdı:** "Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Pankratovun əmri fövqündə bir əmr yox idi". Pankratov XI Ordunun Siyasi şöbəsinin rəisi idi. Ümumiyyətlə isə bu dövrdə Azərbaycanda üç qanlı təşkilat fəaliyyət göstərirdi: 1) XI Ordunun Pankratovun başçılığında olan Xüsusi Şöbəsi – "Osobıy otdel"; 2) Azərbaycan Çekası; 3) XI Ordunun inqilabi tribunalı.

Bu təşkilatların içərisində ən qorxulusu "Osobıy otdel" idi. Çünki "Osobıy otdel" sorğusuz-sualsız istədiyi adamı güllələmək, öldürmək hüququna malik idi. Yalnız 1920-ci ilin avqustunda AK(b)PMK Siyasi Bürosunun iclasında XI Ordunun Xüsusi Şöbəsinə AK(b)MK Siyasi Bürosunun xəbəri olmadan heç bir ölüm hökmü çıxarmamaq təklifi verilmişdi.

**Azərbaycanda Pankratovun** başçılığı altında olan "Osobıy otdel"də isə çox sayda erməni fəaliyyət göstərir və imkandan istifadə edib azərbaycanlılardan qisas alırdılar.

Lakin Sovet hakimiyyətinin basqı və təzyiqlərinə baxmayaraq M.Ə.Rəsulzadənin rəhbərliyində olan **"Gizli Müsavat"** təşkilatı xalq arasında ciddi fəaliyyət göstərirdi. Partiyanın Bakı təşkilatından sonra Gəncə, Qarabağ, Qazax və digər bölgələrdə güclü bölmələr vardı. Həmin dövrdə "Müsavat"ın gizli fəaliyyətinə rəhbərlik edənlərdən biri, tanınmış müsavatçı Ə.V.Məmmədzadə (Yurdsevər) yazırdı ki, Qızıl Ordu qüvvələri olmasa idi, "Gizli Müsavat" Azərbaycanın istənilən yerində sovet idarəsini devirə bilərdi.

Bolşeviklərin işğalçı mahiyyətini anladıqca, xalqın etiraz müqaviməti artırdı. Tezliklə Azərbaycanı bürüyən silahlı üsyanlar bolşeviklərin ölkədə asanlıqla qala bilməyəcəyini sübut etdi. 1920-ci ilin mayın 21-də Tərtərdə başlanan **ilk üsyan mayın 25-də Gəncədə daha böyük miqyas aldı.** Bir həftəyə yaxın müddətdə Gəncədə sovet hökumətinin fəaliyyəti dayandırıldı. XI Ordunun güclü hərbi müdaxiləsindən sonra bolşevik əsgərlərindən 8500, Milli Ordumuzdan və mülki əhalidən isə

8000-13000-ə qədər adam həlak oldu. Hələ o zaman Bakını tərk etməyib Ramanada gizli yaşayan **M.Ə.Rəsulzadə sonralar yazırdı:** "Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərirdi".

Azərbaycanın digər bölgələrində də bolşeviklərə qarşı ciddi müqavimət göstərilirdi. Getdikcə M.Ə.Rəsulzadənin gizli fəaliyyəti də qeyri-mümkün olurdu.

Bakıda qalmağın təhlükəli olduğunu və daim axtarıldığını hiss edərək M.Ə.Rəsulzadə şəhəri tərk etməyi qərara aldı. Münasib yer olaraq Lahıcda qalmağa üstünlük verdi. Lahıca müsavatçı dostu Abbasqulu Kazımzadə ilə getdi. Əslən Lahıcdan olan digər dostu Ağabala Qasımov ona bu işdə böyük köməklik göstərdi.

**Lahıcda** olduğu müddətdə M.Ə.Rəsulzadə istiqlal tariximizin öyrənilməsinə əvəzsiz bir töhvə bəxş edir: **"Əsrimizin Səyavuşu"**nu yazır.

Lakin Lahıcda vəziyyət getdikcə gərginləşirdi. Onun ciddi izlənilməsi haqqında məlumatlar da çatdırılırdı. Təhlükədən sovuşmaq üçün müxtəlif evlərdə, əsasən də Məşədi Salman deyilən birisinin evində qalırdı. Tezliklə Lahıcdan çıxmaq məcburiyyətində qaldı.

**1920-ci il avqustun 17-də** M.Ə.Rəsulzadəni Lahıc yaxınlığındakı Qaraməryəmdə həbs edib Bakıya apardılar .

M.Ə.Rəsulzadə həbsxanada olarkən keçmiş mübarizə dostu Stalin Bakıda onunla görüşdü və həbsxanadan azad etdirib, özü ilə birgə Moskvaya apardı. Moskvada o, bir müddət RSFSR Millətlər Komissarlığında çalışdı, sonra oradan Sankt-Peterburqa, Sankt-Peterburqdan Finlandiyaya, Finlandiyadan Türkiyəyə getdi.

---

***Qaynaq:***

*1. M.Ə.Rəsulzadə. Stalinlə ixtilal xatirələri. B.1991.*

*2. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. B.1992.*

*3. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti. İstanbul, 1990.*

*4. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.*

*5. N.Yaqublu. Müsavat Partiyasının tarixi. Bakı, 1997.*

## M.Ə.RƏSULZADƏNİN SOVET REJİMİNƏ QARŞI YARATDIĞI VƏ YARADILMASINDA İŞTİRAK ETDİYİ TƏŞKİLATLAR

1. **Gizli Müsavat təşkilatı.** Bakı, 1920-ci il.
2. **Azərbaycan Milli Mərkəzi (**sədr). İstanbul, 1924-cü il.
3. **Müsavat Partiyası Xarici Əlaqələr Bürosu**. (sədr).İstanbul, 1923-cü il.
4. **Prometey təşkilatı.** Varşava. 1928-ci il.
5. **Qafqaz İstiqlal Komitəsi.** Paris, 1926-cı il.
6. **Azərbaycan Milli Nəşriyyatı.** İstanbul, 1923-cü il.
7. **Milli Azərbaycan Komitəsi** (sədr). Berlin, 1942-ci il.
8. **Azərbaycan Milli Komissiyası** (sədr). Berlin, 1942-ci il.
9. **Azərbaycan Demokrat Birliyi** (sədr). Münhen, 1946-cı il.
10. **Azərbaycan-Türkiyə Cəmiyyəti** (sədr). 1947-ci il.
11. **Azərbaycan Kültür Dərnəyi** (Fəxri Başqan). Ankara, 1949-cu il.

## M.Ə.RƏSULZADƏNİN REDAKTORLUĞU VƏ FƏALLIĞI İLƏ NƏŞR EDİLƏN MƏTBUAT ORQANLARI

*(Bu mətbuatda sovet rejiminə qarşı təbliğat)*



**1. "Yeni Qafqasiya"** – jurnal. Türkiyənin İstanbul şəhərində ayda iki dəfə nəşr edilən bu jurnalın Baş redaktoru M.Ə.Rəsulzadə idi. Bu jurnalın nəşri ilə Azərbaycan mühacirət mətbuatının əsası qoyulub.1923-cü ilin sentyabrın 26-dan 1927-ci ilin sentyabr ayının 15-nə qədər nəşr edilən jurnalda M.Ə.Rəsulzadənin imzalı və ya imzasız olaraq 215-dək yazısının çap olunduğu müəyyənləşib.




**2. "Azəri Türk"** – jurnal. Türkiyənin İstanbul şəhərində ayda iki dəfə çap edilib. 1928-ci ilin fevralın 1-dən nəşrə başlayan bu jurnal 1928-ci iln 15



noyabrına qədər çap olunub. M.Ə.Rəsulzadənin ümumi rəhbərliyi ilə çıxan bu jurnalın məsul redaktoru Məmməd Sadiq Aran idi.

3. **“Odlu Yurd”** – jurnal. İstanbulda ayda iki dəfə nəşr edilirdi. 1929-cu ilin martın 1-dən 1931-ci ilin sentyabr ayına qədər çap olunan bu jurnalın Baş redaktoru M.Ə.Rəsulzadə idi.



“Odlu yurd” bülleteni

4. **“Odlu Yurd” bülleteni –** “Odlu Yurd” bülleteni Abbasqulu Kazımzadənin sahibi, Kamalın isə məsul müdir olduğu gündəlik yayın orqanıdır. Başlığın altında “Sovet Rusiyası ilə Yaxın Şərq əhvalından, buralardakı siyasi-ictimai və milli-istiqlal hərəkətlərindən bəhs edən gündəlik orqan” məlumatı verilib. Bülletenin redaksiyası olaraq “Pangaltı, Şəfəq Sok. №60, İstanbul” ünvanı qeyd edilib. Bülleten 1929-cu ilin 27 dekabrından gündəlik çıxmağa başlayıb, 2 səhifədən ibarət olub. Əldə edilmiş sonuncu 54-cü sayı 1930-cu ilin 17 martında çıxıb. Bülletenin ilk sayında verilən “İdarədən” başlıqlı yazıda nəşrin məqsədi belə açıqlanırdı: “Məqsəd “Odlu Yurd” məcmuəsinin məşğul olduğu sahə və hadisələr haqqında daha çabuq (operativ) və müntəzəm informasiya vermək surətilə əlaqədarları təsvir etmək və hadisələrin cərəyanını günü-gününə bildirməkdir”.



BİLDİRİŞ

İran ve biz

Azerbaycanda bolşevik vahşeti

Tarihciye karşı siyasi

5. **“Bildiriş”** – qəzet. 1930-cu ilin avqustun 7-dən İstanbulda nəşrə başlayan və 1931-ci ilə qədər nəşr edilən bu qəzetin imtiyaz sahibi A. Kazımzadə, redaktoru M.B. Məmmədzadə olub. Qəzetin fəaliyyət göstərməsində M.Ə.Rəsulzadənin də xüsusi rolu olub.



İSTİKLAL

6. **“İstiqlal” qəzeti** – 1932-ci ilin yanvarın 10-dan Almaniyada nəşr edilməyə başlayıb. Hər 10 gündən bir çap edilən bu qəzetin Baş redaktoru M.Ə. Rəsulzadə idi. “İstiqlal” qəzeti 1933-cü ilin 18 dekabrına qədər nəşr edilib.



İnsanlara Hürriyet, Milletlere İstiklâl!

KURTULUŞ

AYLIK MECMUA

Sayı 1

7. **“Qurtuluş”** – jurnal. 1934-cü ilin noyabrından Berlində nəşr edilib. Ayda iki dəfə nəşr edilən bu



MİLLİ AZERB. „MÜSAVAT" HALK FIRKASI
BÜLTENİ
FIRKA DİVANI TARAFINDAN NEŞROLUNUR
Yıl 1 Eylûl 1936 Nr. 1
İÇİNDEKİLER:
1—Yazı Hey'etinden . . . . . 1
2—Milli Azerbaycan „Müsavat" Halk Fırkası Konfransı . . . . . 2
3—Yeni program esasları . . . . 9
4—Dahildeki vaz'iyet bakımından Fırka taktiki . . . . . . 12
5—Beynelmilel dünya vaz'iyeti bakımından günün vazifeleri . . 16
6—Azerb. vatandaşlara beyanname . 20

Yazı Hey'etinden

Milli Azerbaycan „Müsavat" Halk Fırkasının konfransı toplandı.
Konfrans program, taktik ve teşkilat mes'elelerine aid mühim kararlar aldı ve yeni Fırka Divanını kurdu
daşlar ve gerekse Fırka yolgösterenliği ile daimî suretle temas ve fikir degiştirme imkânını bulacaklardır.
Şöyleki „Bülten" Divan'ın Fırka, ideoloji ve fırkacılar karşısındaki vazifelerinin



AZERBAYCAN
AYLIK KÜLTÜR DERGİSİ
Yıl : 3 MAYIS - HAZİRAN/1954 Sayı : 2 - 3 (26 - 27)
İÇİNDEKİLER

| | |
|---|---|
| 28 Mayısın Sahhar Tesiri | * |
| Azerbaycan Dâvâsı | M. Emin Resulzade |
| İstiklâlin Diplomasi Cephesi | Mirza Bala |
| 28 Mayısın Kutlanması | V. Aranlı |
| Azerbaycan İstiklâli (Şiir) | M. Akçaylı |
| İstiklâl Yıldönümümüzün matbuattaki akisleri | * |
| İstanbul'da Azerbaycan Kültür Faaliyeti | M. Akçaylı |
| Tebriz'in Kameri (Destan) | Cafer Handan |
| Haberler | * |

jurnalın fəaliyyəti 1939-cu ilin sonlarına qədər davam edib. Baş redaktoru M.Ə.Rəsulzadə idi.

**8. "Müsavat" Bülleteni** – 1936-cı ilin sentyabrında Almaniyanın Berlin şəhərində nəşr edilib. Daha çox partiyanın nəzəri problemləri, ideoloji istiqamətləri ilə bağlı yazılara üstünlük verilib. M.Ə.Rəsulzadənin ümumi redaktorluğu ilə çap olunub. Jurnalın ümumilikdə 4 sayı nəşr edilib.Sonuncu sayı 1962- ci ildə Münhendə işıq üzü görüb.

**9. "Azərbaycan"** – jurnal. 1952-ci ilin aprelindən Türkiyənin Ankara şəhərində nəşrə başlayıb. M.Ə.Rəsulzadənin yaratdığı "Azərbaycan Kültür Dərnəyi"nin orqanı olaraq ayda bir dəfə yayımlanan "Azərbaycan" jurnalının Baş yazarı Feyzi Aküzüm, məsul redaktoru Əhməd Yaşad olsa da, jurnala ümumi rəhbərliyi M.Ə.Rəsulzadə edib. Jurnal bu gün də nəşrini Ankara şəhərində davam etdirir.

## TÜRKİYƏDƏ NƏŞR EDİLMİŞ KİTABLARI




1. "Azərbaycan Cümhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti)". İstanbul, 1923-cü il.
2. "Əsrimizin Siyavuşu." İstanbul, 1923-cü il.
3. "İstiqlal məfkurəsi və gənclik." İstanbul, 1925-ci il.
4. "Rusiyada siyasi vəziyyət." İstanbul, 1925-ci il.
5. "İxtilalçı sosializmin iflası və demokratiyanın gələcəyi." İstanbul, 1928-ci il.
6. "Milliyyət və bolşevizm." Məqalələr məcmuəsi. İstanbul, 1928-ci il (M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunub və onun buraya aşağıdakı əsərləri daxildir: 1) "Bolşeviklərin Şərq siyasəti." 2) "Milliyyət məsələsində bolşevik nəzəriyyələri").
7. "Şəfibəyçilik." İstanbul, 1934-cü il.
8. "Azərbaycan Kültür ənənələri." Ankara, 1949-cu il.
9. "Çağdaş Azərbaycan ədəbiyyatı." Ankara, 1950-ci il.
10. "Çağdaş Azərbaycan tarixi." Ankara, 1951-ci il.

**AVROPADA NƏŞR EDİLƏN KİTABLARI**




**1) Polşa**

1. “Pantürkizm və Qafkasya problemi”. Rusca, Varşava, 1930.
2. “Azərbaycan müstəqillik uğrunda mübarizədə”. Polyakca, Varşava, 1938.

**2) Almaniya**




1. “Çağdaş Azərbaycan ədəbiyyatı”. Yeni hərflərlə, Berlin, 1936.

2. Resulzade M.E. Das Problem Azerbaidshan. Berlin, 1938.

**3) Fransa**




1. “Çağdaş Azərbaycan ədəbiyyatı”. Rusca, Paris, 1936.
2. “Panturanizm haqqında”. Rusca, Paris, 1930.
3. Resulzade M. E. l’ Azerbaidjan en lutte pour lindependance, Paris, 1930.
4. Resulzade M.E. Azerbaidjan. Paris, 1936.

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu, Müsəlman Şərqində ilk demokratik dövlətin qurucusu M. Ə. Rəsulzadə 1884-cü ilin 31 yanvarında Bakının Novxanı kəndində anadan olub. İlk təhsilini 2-ci “Müsəlman və Rusi” məktəbində, sonradan isə Bakı Texniki Məktəbində alıb.

1903-cü ildə “Azərbaycanlı Gənc İnqilabçılar Dərnəyi”ni yaradıb. Həmin ilin may ayından başlayaraq “Şərqi-Rus” qəzeti ilə əməkdaşlıq edib. Sonrakı illərdə onun dövrün aparıcı qəzetləri olan “İrşad”, “Təkamül”, “Tərəqqi”, “Dirilik”, “İqbal”, “Yeni İqbal”, “Açıq Söz”, “Azərbaycan” qəzetlərində çoxlu sayda yazıları çap edilib.

M. Ə. Rəsulzadə 1908-1911-ci illərdə İranda olmuş, Səttar xanın başçılığı ilə aparılan “Məşrutə” inqilabını yaxından izləmiş, bu ölkədə yara-

dılan "İran Demokrat Partiyası"nın əsasını qoyan siyasi xadimlərdən olub. Həmin illərdə İranda ilk dəfə olaraq Avropa tipli "İrani-Nov" ("Yeni İran") adlı qəzet nəşr etmişdir.

1911-1913-cü illərdə Türkiyədə yaşamaq məcburiyyətində qalan M. Ə. Rəsulzadə burada "Türk Ocaqları" ilə əməkdaşlıq etmiş, "Türk Yurdu" jurnalında "İran Türkləri" əsərini çap etdirmişdir.

1913-cü ildən sonra çar hökuməti tərəfindən Bakıya qayıtmasına icazə verilən M.Ə.Rəsulzadə mətbu fəaliyyətlə yanaşı siyasi fəaliyyətini də genişləndirir. Başqanı olduğu "Müsavat" Partiyasının çar rejiminə qarşı mübarizəsini gücləndirir.

M.Ə.Rəsulzadə 1917-ci ilin aprelində Bakıda Qafqaz Müsəlmanları Qurultayında, həmin ilin mayında Moskvada keçirilən Rusiya Müsəlmanları Qurultayında isə "ərazi muxtariyyatı" ideyasını irəli sürür və böyük dəstək qazanır.

1918-ci ilin 28 Mayında Azərbaycan İstiqlalının qazanılmasında M.Ə.Rəsulzadənin müstəsna xidmətləri vardır.

1918-1920-ci illərdə Azərbaycanda demokratik dövlət quruculuğu prosesində M.Ə.Rəsulzadə əvəzsiz rol oynamışdır.

1955-ci ilin martın 6-da Ankara şəhərində vəfat etmişdir. Dünyasını dəyişən zaman son söylədiyi sözlər "Azərbaycan, Azərbaycan, Azərbaycan" olub.

---

***Qaynaq:***

1. *N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991.*
2. *N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

## SOVET REJİMİNƏ QARŞI MÜQAVİMƏT:

## YALAMA

İşğalçı bolşevik ordusuna qarşı sərhəddə ilk müqaviməti Azərbaycan Milli Ordusunun Yalama qarnizonu göstərir. İki saata qədər hücuma davam gətirən üç yüz əlli döyüşçü müəyyən müddətə qədər stansiyanı qoruya bilirlər. Sağ qalanlar isə partizan dəstələrinə qoşulmaq üçün geri çəkilir. Ruslar da döyüşdə itki verir. XI Ordunun komandirlərindən biri, 28-ci diviziyanın veteranı Nemikin bu döyüşdə öldürülür.

Azərbaycan Milli Ordusuna məxsus bu qəhrəman döyüşçülərin son müqavimətini əks etdirən bir neçə dəqiqənin təsirli görüntüləri Rusiyanın Krasnoyarskdakı "Kino-Foto-Sənədlər" arxivində saxlanılır.

---

***Qaynaq:***

*1. A.Əliyev. "Yalama". Bakı, 2017.*

*2. XI Orduya qarşı Azərbaycan əsgərlərinin müqaviməti (Görüntülər Rusiya Dövlət "Kino-Foto-Sənədlər" Arxivindədir).*

## XI ORDUYA QARŞI AZƏRBAYCAN ƏSGƏRLƏRİNİN DÖYÜŞÜ (1920-ci il, 27-28 aprel)





---

***Qaynaq:***

*XI Orduya qarşı Azərbaycan əsgərlərinin müqaviməti (Görüntülər Rusiya Dövlət Kinofoto Sənədlər Arxivindədir).*

## MÜSAVATIN SOVET REJİMİNƏ QARŞI FƏALİYYƏT SXEMİ




***Qaynaq:***

*1. N.Yaqublu. Musavat Partiyasının tarixi. B. 1997*

*2. X.İbrahimli, R.Zeynalov. Musavt Partiyasının 1920-ci il 27 aprel istilasından sonrakı fəaliyyəti tarixindən. "Musavat" jurnalı, Bakı 1993. №1 (5)*

## ÜSYANLAR

Azərbaycanda Sovet hökumətinə qarşı ən güclü silahlı üsyan 1920-ci ilin mayında Gəncədə baş verdi. Qeyd edək ki, Gəncə üsyanına qədər Milli ordumuzla Qızıl ordu əsgərləri arasında Tərtərdə toqquşmalar olmuşdu.

**Tərtər üsyanı.** 1920-ci ilin mayın 21-də Tərtərdə olan 32-ci piyada diviziyasının 282-ci alayı yerini Qızıl ordu hissələrinə verərkən özləri ilə birgə 3-cü süvari Şəki alayına məxsus atları aparmaq istəmiş, nəticədə əsgərlər müqavimət göstərmişlər. Qızıl ordu döyüşçüləri top atəşindən istifadə etmişlər. Şəki süvariləri alayın əsgərlərini qırmışlar. Qızıl ordu əsgərlərinin dəfnində iştirak edən azərbaycanlı bolşeviklər "müsavatçılar"dan qisas alacaqlarını bildirmişlər.

XI ordu hər vasitə ilə Şəki alayını məhv etmək istəyirdi. Alay Bərdədən Yevlağa gedərkən yolda Gəncə üsyanının başlandığını eşidir. Komandir Ehsan xan Naxçıvanski bir neçə hərbçi ilə Yevlağa gedib məlumatı öyrənmək istəyərkən tutulub XI ordu qərargahına gətirilir və orada güllələnir. Qalan əsgərlər Qızıl ordunun onları təqib etdiyini duyub dağılışırlar. Lakin 32 nəfər – 4 zabit, 28 əsgər son nəfəsədək vuruşacaqlarını bildirərək, Bərdənin sağ sahilində böyük sayda yerli partizan dəstələri ilə birləşə bilirlər.

**Gəncə üsyanı.** M.Ə.Rəsulzadə yazırdı: "Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı knyaz Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi".

1920-ci ilin mayın ortalarından vəziyyət kəskinləşmiş və Qızıl ordu hissələri ilə əhali arasında toqquşma baş verəcəyi gözlənilirdi. Vəziyyəti gərginləşdirən bir səbəb də Gəncə qubernatoru Xudadat bəy Rəfibəylinin həbs edilərək Bakıya gətirilməsi və mayın 20-də güllələnməsi idi. X.Rəfibəylinin istintaqını ermənilər aparmışdı. Mayın 25-dən 26-na keçən gecə üsyan başlanmış, qırmızıların bütün komandir heyəti, eləcə də şəhərdəki "şəriət polku" tərksilah edilmişdir. Mayın 28-də İstiqlal bayramı münasibəti ilə şəhər dairə məhkəməsi qarşısına toplaşan nüfuzlu şəxslər mübarizəni axıradək davam etdirəcəklərini bildirmişlər. Üsyana başçılıq edən, Azərbaycan milli ordusunun keçmiş 3-cü piyada Gəncə polkunun komandiri polkovnik C.Kazımbəy xatirələrində xalqın üsyana rəğbətini belə ifadə edirdi: "Uzun müddət küçələrdə sevinc qışqırtıları eşidilirdi". Şəhər on günədək üsyançıların əlində qaldı. Ruslar ağır itkilər verməsinə baxmayaraq əlavə qüvvələrlə 2-ci ordunu gücləndirərək şəhəri ələ keçirə bildilər. Bu işdə Gəncədə yaşa-

yan ermənilər də onlaraköməklik göstərdilər. Üsyana rəhbərlikdə polkovnik C. Kazımbəylə yanaşı, generallardan Cavad bəy Şıxlinski, Məmmədrza Qacarın da böyük xidmətləri vardı.

Mayın 31-də axşam şəhəri ələ keçirən XI Qızıl Ordudan 8500, Milli ordumuzdan və mülki əhalidən isə 8000 – 13000-ə qədər adam həlak oldu.

Gəncə üsyanının şahidlərindən olan, sonradan qaçıb Türkiyədə yaşamaq məcburiyyətində qalan Məhəmməd Altunbəy "Hürriyyətə uçan türk" adlı xatirələr kitabında (kitab 1989-cu ildə Ankarada nəşr edilib) Gəncə üsyanı zamanı baş verən hadisələri, üsyandan sonra yerli əhaliyə verilən zülmü təsvir edir. M. Altunbəyin xatirələrindən: "Küçələri belə gül-çiçək qoxuyan gözəl şəhərimiz Gəncəyə ayaq basdığımız andan etibarən küçələrin hamısı minlərcə insan cəsədləri ilə dolmuşdu. Haraya baxsaydın insan cəsədi görünürdü. Şəhərin iç mənzərəsi məzarlıqdan fərqlənmirdi. Küçələrdə cəsədlərin üzərindən adlayıb keçirdik. Yüzlərlə insanın başı kəsilmişdi. Gözləri çıxarılmış, qulaqları, burunları kəsilmiş, lüt soyundurulmuşdu insanlar! Qarınları süngülərlə dəlik-deşik edilmiş, başları daşa vurularaq beyinləri çölə çıxmışdı adamların! Yüzlərlə uşağı, gənci gah daşlarla parçalamış, gah da güllə ilə öldürmüşdülər!".

**Qeyd:** Gəncə üsyanından sonrakı illərdə də bu bölgədə milli müqavimət hərəkatı zəifləmədi. 20-ci illərdə burada Sovet hökuməti əleyhinə "İttihad"çıların Təbriz Komitəsinin yaratdığı hərbi mərkəz, "Allahlılar İttifaqı və Milləti İslam", "Əzrayıl firqəsi", "Həqiqət ordusu", "Gədəbəy orqanı" kimi təşkilatlarla yanaşı Müsavat da güclü fəaliyyət göstərirdi. Gəncə müsavatçıları əhali arasında gizli yaydıqları vərəqələrdə yazırdılar: "Yaşasın Müsavat! Rədd olsun Sovet hökuməti!". 1929-cu ildə Gəncə müsavatçılarına qarşı böyük əməliyyat aparılmış, 234-ə qədər müsavatçı həbs edilmişdir.

**Şuşa üsyanı.** 1920-ci ilin iyunun 3-dən 4-nə keçən gecə Nuru Paşa öz hərbi birlikləri ilə Şuşaya girmiş inqilabi komitənin üzvlərini və fəal kommunistləri həbs etmişdir. Nuru Paşanın ətrafında Azərbaycan ordusu zabitlərindən də bir çoxları vardı.

Nuru Paşa on günədək Şuşada qaldı. İyunun 15-də XI ordu hissələri Levondovskinin başçılığı altında Şuşanı tutdular. Nuru Paşa silahlı mübarizəni genişləndirə bilmədi. Dağıstandan gəlib Şuşaya keçən, bərabər olmayan döyüşlərdə məğlub olan Nuru Paşa sonradan İrana keçmişdir.

**Zaqatala üsyanı.** 1920-ci ilin iyunun 9-da Zaqatalada silahlı üsyan oldu. Üsyana molla Hafiz Əfəndiyev başçılıq edirdi. Zaqatala qalasını ələ keçirən üsyançılardan bolşeviklər qorxuya düşmüşdülər. Üsyanı yatırmaq məqsədi ilə Levondovskinin əmrinə əsasən əlavə qüvvələr göndərildi. Taman diviziyasının və 58-ci briqadanın hücumları Zaqatala üsyanını yatırdı.

**Lənkəran üsyanı.** Yusif Camal Paşanın başçılığı altında davam edən bu üsyan bolşeviklərə qarşı olan ən böyük müqavimətlərdən biri idi. Camal Paşa bolşeviklər tərəfindən həbs edilmiş, həbsdən azad olunduqdan sonra Lənkəran qəzasına qaçıb, orada üsyana başlamışdır. Astara və Şahağacı ələ keçirən Camal Paşa Lənkərana yaxınlaşanda üsyan alovu hər yanı bürümüşdü. Üsyançıların arasına atılan naməlum şəxslərin Camal Paşanı qətlə yetirməsindən sonra üsyan dağıdıldı .

M.Ə. Rəsulzadə Camal Paşa haqqında yazırdı: "Xatireyi-ehtiramı azərilərin qəlbində mədfundur".

***Qaynaq:***

1. *M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı. 1990. s.70.*
2. *M.B.Məmmədzadə. 32-lərin dastanı."Qurtuluş". Berlin, N9, 1935, s. 241-244*
3. *"Azərbaycan" qəzeti, 1993,N123-124(639-640).*
4. *C.Kazımbəyli. Gəncə üsyanı haqqında xatirələr. "Azərbaycan" qəzeti, N123-124(639-6400, 1993.*
5. *M.Altunbəy. Hürriyyətə uçan türk. Ankara.1989. "Kommunist", 1920. N43.*
6. *R.Zeynalov, X.İbrahimli. Müsavat Partiyasının 1920-ci il 27 Aprel işğalından sonrakı fəaliyyəti tarixindən. Müsavat" jurnalı, N3, (7), 1995, s.30-31.*
7. *"Qurtuluş" jurnalı, Berlin, N10, 1935, s.275-276.*

## SOVET REJİMİNƏ QARŞI XALQ ARASINDA GİZLİ YAYILAN BƏYANNAMƏLƏR

"Gizli Müsavat" təşkilatı tərəfindən Azərbaycanda kommunist və rus işğalına etiraz xarakteri daşıyan 1920-1937-ci illər tarixləri arasında müxtəlif zamanlarda yayınlanan və xalqa gizlicə dağıdılan bəyannamələr böyük həyəcanlara səbəb olur, sovet idarələrini qorxuya salırdı.

Müsavat Partiyası 28 May, 27 Aprel günlərində xalq arasında bəyannamələr yayır, xalqın milli mübarizə ruhunu ölməyə qoymurdu. 1923-cü ildə Müsavatın 27 Aprel işğalının üç illiyi münasibətilə yayınladığı bir bəyannamə tarixçilik baxımından çox qiymətlidir. Bu bəyannamə 1923-cü ildə gizli yolla çap olunaraq xalq arasında yayınlanmışdır.

**Müsavatın 1923-cü ildə xalq arasında yaydığı bəyannamə:** "Vətəndaşlar! Millətdaşlar! Bu gün 27 Apreldən üç il keçir. Üç il bundan əvvəl rus ordusu "inqilab" və "kommunizm" şüarıyla Vətənimizə soxulmuşdur. Onlar yerli Azərbaycan türklərindən əldə etdikləri ajanların yardımı ilə məmləkətə girmişlərdir. Bu gün hər kəsə aydın və açıqdır ki, 27 Nisan (Aprel) faciəsi kommunistlərin hər yerdə bağırdıqları kimi Azərbaycan köylü (kəndli) və işçilərinin inqilabı deyil, sadə rus ordusunun vəhşicə bir istilasıdır. Yüz il bundan əvvəl çarlıq Rusiyası eyni vəhşətlə Azərbaycan xanlıqlarını işğal və bir-birinin ardınca Rusiyaya ilhaq edirdi. O zaman Azərbaycan türk xalqı Sisyanovların kirli çəkmələri altında inləyirdi.

27 Nisan faciəsi ilə Azərbaycan ikinci dəfə olaraq rus ordusunun yeni Sisyanovu olan Orconikidzenin idarəsi altına girirdi. Nəticə hər iki halda eyni idi. O zaman Azərbaycan türk xalqının arzu və iradəsi qanlara qərq edilirdi. Bu dəfə isə müqəddəs istiqlal haqqından vaz keçmək istəməyən Azərbaycanın dəyərli övladları Gəncə, Qarabağ, Zaqatala, Şamaxı, Göyçay və başqa qəzalarda on minlərlə qurşuna düzülürdü. O zaman Azərbaycan türk xalqı bütün hürriyyət və haqqını qeyb etdi, bu dəfə isə Azərbaycan türk xalqı üçün hürriyyət və haqq deyilən şeylərdən bir əsər qalmışmıdır? O zaman Azərbaycan Rusiyanın sadəcə vilayətləri sırasına keçdi, bu dəfə də Azərbaycan haqdan və hüquqdan məhrum bir-iki vilayətdən başqa bir şeymidir? O dəfə bütün Qafqaziyanın mütləq hakimi Voroşilov-Daşkov idi. Bu gün isə bütün Şimali Qafqaziya yeni Vorontsov-Daşkovun (Orconikidze və Kirovun) əsiridir. Bütün sərvətimiz Rusiyaya axır. Qəzalarda kommunist

firqəsinin hücrələri birər jandarma vəzifəsini yapır və xalqın başına hər kiçik fürsətdən istifadə ilə minbir bəla açır. Qəzalardakı idarəsizlik son dərəcəyə çatmışdır. Hər tərəfdə rüşvətalma, pozuq vəziyyət xalqı büsbütün həyatından usandırmışdır. Müxtəlif vergilər köylünün mal və davarını, vasitələrini zorla əlindən alır və özünü zorla hökumət işlərində çalışdırmağa məcbur edir. Bilirmisiniz, 17 Nisan faciəsindən sonra nə qədər oxumuşlarımız, çalışanlarımız, gənclərimiz, subay və əsgərlərimiz, köylü və işçilərimiz Xəzər dalğalarına qurban olmuşlardır... 27 Nisandan sonra edamlar, həbslər son günlərə qədər davam edir, qurbanlar eyni vətənsevərlərdir.

Nikolay Rusiyası ilə Lenin Rusiyası arasında fərq yalnız bundadır ki, o zaman cahangirlik siyasəti başçısının adı Nikolay, indiki cahangirlik siyasəti başçısının adı isə Lenindir. O zamankı zəncirlərin rəngi qara, indiki zəncirlərin rəngi isə qırmızıdır.

Azərbaycan türk xalqının fikri və arzusu ilə hesablaşan varmıdır? İndiki "Şuralar hökuməti" Azərbaycan türk xalqını təmsil edirmi? Buradakıların yüzdə yetmişi yabançılardan ibarət deyilmidir? İndiki Şuralar hökuməti, Azərbaycan türk xalqı adına hansı haqda söz söyləyir? Oradakıların yalnız yüzdə otuzu türk və müsəlmandır ki, onlar da çoxluca Azərbaycan türk xalqı ilə əsla əlaqədar olmayan, vicdanlarını, namuslarını, vətən və millətlərini Rusiyaya satmış alçaqlardan ibarətdir.

Bu süni şəkildə qurulan şuralar hökuməti nə üçündür? Yalnız Şərq millətlərinin və Avropa xalqının gözlərini qapamaq üçün deyilmidir? Bundan sonra artıq kimi aldadacaqlar? Bütün dünya həqiqəti görməkdədir. Rusiya əski hüdudlarında həmən-həmən tamamiylə qurulmuşdur. Vətənimizin Muğan kimi bol məhsullu çölləri və çəmənləri ayrılıb rus köylülərinə verilir. Öz geniş torpaqlarını yabançılara imtiyaz surətiylə verən Rusiya, Azərbaycanın Muğan çöllərinə yüz minlərlə rus köylüsünü doldurub, yurdumuzu hər zaman üçün rus ölkəsi halına gətirmək istəyir. Bütün dünyanın həsrətlə baxdığı Azərbaycan petrolu (nefti) Rusiyaya götürülür və bu gün kəndi petrolu ilə bütün dünya qarşısında iftixar edən Od Yurdunun paytaxtı Bakı, Moskvadan izn almadan bir pud petrola belə sahib olmayır. Təsəvvür ediniz. Bakı petrola möhtacdır. Petrol Moskvada daha ucuz fiyatla (qiymətlə – *N. Y.)* satılmaqdadır. 28 Mayıs Azərbaycan türk xalqı istiqlalını elan etməklə öz sevimli və şövkətli anasının qoynunda hürr bir türk mədəniyyəti qurmaq, hürr bir sənət, türk ədəbiyyatı, türk həyatı yaratmaq istəyirdi. Buna əngəl olmaq istəyən Rusiyanın

yeni üsul çar hökumətidir. Azəri türkləri yaxşı bilirlər ki, rus bayrağını qırmızı rəngə boyayan, türk xalqının axıtdığı qanlardır. Azərbaycan türk xalqının məsumanə axan qanından yüksələn milli intibah, rus ağalığının son məzar daşı olacaqdır.

Ey Türk xalqı, səni hürriyyətə qovuşduracaq və bəxtiyar yaşadacaq qanlı mücadiləyə bütün qüvvətinlə hazırlan. Səni bu mücadilə qurtaracaqdır. Azərbaycan istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına sahibsən. Düşmənini tanı, milli intibahını yüksəlt, Haqq səninlədir!.. Yaşasın Azərbaycan İstiqlalı! Yaşasın üç rəngli Bayrağımız! Məhv olsun rus cahangirliyi! **Heyəti mərkəziyyə**

27 nisan 1923"

---

***Qaynaq:***

*1. Ə.Qaraca.Azərbaycanın yaxın tarixinə qısa bir baxış. Ankara. 1982.*
*2."Yeni Qafqasiya" №15,1924.*
*3. "Müsavat"Bülleteni(Berlin), №4,1962.*

## SOVET ORDUSUNDA XİDMƏTDƏ OLAN AZƏRBAYCAN ƏSGƏRLƏRİNƏ MÜRACİƏT

***"Buraxınız o bayrağı, bir neçə il əvvələ qədər vətənimiz üzərində yüksəlmiş olan üçrəngli Azərbaycan Bayrağını yüksəldiniz!"***

1927-ci ildə "Gizli Müsavat" təşkilatı Sovet ordusunda xidmətdə olan Azərbaycan əsgərlərinə müraciət edib, onları qırmızı ordunun və bu orduya başçılıq edən bolşeviklərin istismarçı məqsədi ilə tanış edirdi. Tarixçilik baxımından əhəmiyyətli bu **bəyannamədə** deyilirdi: "Azərbaycanın qəhrəman əsgərləri! Sizin Vətəniniz artıq müstəqil deyildir. Siz artıq Azərbaycan istiqlalını və Azərbaycan bayrağını müdafiə etmirsiniz. Azərbaycan Rusiyanın müstəmləkəsi, siz də onlara hizmət edən bir əsirsiniz. Sizin istiqlal və hürriyyətiniz rus və Qızıl ordunun çəkmələri altında inləməkdədir. Onlar sizin Vətəninizi istila, millətinizi əsir etdilər. Azərbaycanın həqiqi və əsl əsgərləri olan yüzlərlə qardaşlarınız Azərbaycan üçün Qarabağ və Lənkəran üsyanlarında canlarını verirkən ümidvar idilər ki, siz on-

lardan sonra Azərbaycanın namusunu və şərəfini müdafiə edə biləcəksiniz. Azərbaycan əsgərləri! Daşımaqda olduğunuz bayraq, türk millətinin əbədi düşməni və vətənimizi istila edən yabançı bir qüvvənin bayrağıdır. Buraxınız o bayrağı, bir neçə il əvvələ qədər Vətənimiz üzərində yüksəlmiş olan üçrəngli Azərbaycan bayrağını yüksəldiniz!".

***Qaynaq:***
*"Bildiriş" qəzeti (İstanbul), 1930, №3,*

## KƏNDLİ QİYAMLARI, PARTİZAN HƏRƏKATI

Azərbaycanda mövcud qaydalardan narazılıq artırdı. Tez-tez baş verən kəndli qiyamları, partizan hərəkatı davam edirdi. Bu illərdəki partizan hərəkatlarının bəziləri əhalinin daha çox sayını özündə birləşdirirdi.

**Gəncəbasarda** – Molla Əhmədin partizan qrupu, başda siyasi büro rəisi Əliyev olmaq üzrə Gəncədən Zəyəmə gedən səkkiz məsul kommunisti öldürmüşdülər.

**Cəbrayıl** qəzasında da vəziyyət gərgin olaraq qalırdı. Burada sabiq milli ordu zabitlərindən Cabbar bəyin komandasında olan 70 partizan ciddi qüvvəyə çevrilmişdi.



***Bəhram bəy Nəbibəyov***

**Ağdam** qəzasında isə Ağa Mir Fəttahın 400 nəfərlik bir qrupu Qızıl ordu qüvvələrinə və sovet hökumətinə qarşı mübarizə aparmışlar.

**Şəki** partizanlarına isə Bəhram bəy Nəsibəyli başçılıq edirdi. Onun həlakından sonra dəstəni zabit İsmayıl Əfəndi ilə qəssab Hüseyn Əfəndi idarə edirdilər.

**Qazax-Borçalı** partizanlarına başçılıq edən İsa xan bir hiylə ilə qətlə yetirilmişdi.

**Culfa** dəmiryolunda üsyançılar Qızıl orduya böyük tələfat vermişlər.

**Naxçıvan.** 1930-cu ilin martın 18-də Naxçıvanın "Qızıl Boğaz" mahalında Qasım və Əli bəylərin idarə etdikləri partizanlarla Qızıl ordu arasında iki gün davam edən qanlı bir hərb cərəyan etmişdir. Rus əsgərləri sonradan günahsız insanları qılıncdan keçirmişdilər.

**Quba** partizanları. Quba vilayətində də partizanların mübarizəsi güclənmişdir. Vəziyyəti belə görən Gəncə və Zaqatala partizanlarının bir dəstəsi Quba mücahidlərinə köməyə gəlmişlər. Birləşən bu qüvvələr Bakı üzərinə hücum etmək istəmişlərsə də, müvəffəq ola bilməmişlər. Qızıl ordu hissələri zəhərli qaz, top və təyyarələrin köməyi ilə partizanları geri çəkilməyə məcbur etmişlər.

Məhəmməd Qasım bəyin başçılığında 500, Əsəd Koxanın isə 300 nəfərdən ibarət **Samux** partizan qrupları da sovetlərə qarşı mübarizələrini davam etdirirdilər. Kür sahilində Samux və Şəki partizanları 1930-cu ilin noyabrında Yevlax stansiyasına hücum edib, Qızıl ordu hissələri ilə döyüşürdülər. Bunun nəticəsində dəmir yolu dağıdılmış, Bakı – Tiflis qatarının hərəkəti üç gün dayanmışdı.

1930-cu ildə Azərbaycan partizanları böyük qəhrəmanlıq göstərərək Rusiyaya sürgün edilən 50 vaqon üsyançı kəndlini xilasa çalışmışlar. Partizanlar 5 vaqon kəndlini xilas edib, özləri dağlara çəkilmişdilər.

Sovet hökumətinin üsyançılara, partizanlara qarşı amansız cəzalara əl atmasına baxmayaraq, milli mücadilə böyük coşğunluqla davam edirdi.

---

***Qaynaq:***
*1. "Bildiriş" qəzeti (İstanbul), 1930, №12,*
*2. "Bildiriş" qəzeti (İstanbul), 1931, №56,*

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASINDA MÜXALİFƏTÇİLİK

1924-cü ildə başda Azərbaycan Kommunist Partiyasının Katibi Eyyub Xanbudaqov olmaq üzrə Kommunist Partiyası içərisində yenidən milli hərəkat baş qaldırmış və bu hərəkat Azərbaycanın tam müstəqilliyini,

Azərbaycana gələn qeyri-türk rus mühacirətinə və Dağlıq Qarabağın ermənilərə verilməsinə mane olunmasını tələb edirdi.

Lakin E. Xanbudaqov tezliklə tutduğu vəzifədən azad edildi və 1927-ci ildə Kommunist firqəsində yeni bir müxalifət - "Mahmud Xanbudaqov müxalifəti" adlı bir cərəyan yaradıldı. Bu cərəyan 1927-ci ilin "Kommunist" qəzetində öz platformasını da nəşr etdirə bilmişdi. Həmin platformadan: "1) Moskva millətlərə komanda etməsindən və milli respublikaların bütün problemlərinə qarışmaqdan əl çəkməlidir... 5) Həmkarlar İttifaqının, kooperativlərin, dövlət müəssisələrinin mütləq türkləşdirilməsi... 6) ... İttifaq respublikalarının milli-mədəni quruculuq sahəsində normal inkişafının təmini. 7) Sovetlər İttifaqındakı əhalinin, xüsusən, rus kəndlilərinin Azərbaycana köçürülməsi siyasətinin qarşısını almaq.

"Xanbudaqovçular"ın bu mövqeyi tezliklə tənqid edilmiş və digər kommunist M.Əfəndiyev isə demişdi: "Bunların hamısına vaqifik. Bunlar hamısı köhnə şeylərdir. Çünki İstanbuldakı "Müsavatçılar" da belə deyirlər".

Bu hadisədən sonra Azərbaycanda Kommunist Partiyasının rəhbərliyinə daha çox qeyri-azərbaycanlılr təyin olunmağa başladı və Rusiyadan gətirilən Polonski daha amansız mübarizəyə başladı.

Əslində milli tərkibinə görə də Azərbaycan Kommunist Partiyasının Azərbaycana aidiyyatı yox idi. 1926-cı ilin statistikasına görə, AKP Bakı Təşkilatının üzvləri arasında azərbaycanlıların sayı 30%, rusların sayı isə 60% idi. Bakı təşkilatı katiblərinin 20%-i azərbaycanlı, 70%-i isə ruslar idi.

---

***Qaynaq:***

*1. "Bildiriş" qəzeti (İstanbul), 1931, №33,*

*2. "Kommunist" qəzeti, Bakı, №265.1927.*

## GİZLİ TƏŞKİLATIN RƏHBƏRLƏRİ - ƏBDÜLVAHAB YURDSEVƏR (1898-1976)

***On bir il həbs cəzasına məhkum edilmiş vətənpərvər Yaroslavl düşərgəsindən qaçır***



***Əbdülvahab Məmmədzadə (Yurdsevər)***

**Əbdülvahab Məmmədzadə (Yurdsevər)** 1898-ci ildə Bakıda doğulub. "Rus-tatar" məktəbində oxuyub. Rus litseyində təhsil alıb. 1918-ci ildə AXC dövründə Nazirlər Şurasının dəftərxanasında tərcüməçi-dilmanc vəzifəsində çalışıb. 1920-ci ilin 27 Aprelindən – Azərbaycan işğal edildiyi gündən M.Ə.Rəsulzadənin başçılığı ilə yaradılan Müsavatın gizli ümumi mərkəzinin ("İstiqlal Komitəsi") sədr müavini olub və Müsavatın Bakı Komitəsinin təşkili işləri Ə.Yurdsevərə tapşırılıb. O, eyni zamanda Bakı Dövlət Universitetinin fəlsəfə fakultəsində mədəniyyət tarixi və coğrafiyadan dərs deyib.

1923-cü ildə o, həbs edilib və 1926-cı ildə həbsdən sonra Bakıya qayıdıb. Bir müddət sonra yenidən həbs edilib on bir il azadlıqdan məhrum olunaraq Yaroslavl şəhərinə göndərilib. Sonradan məxfi yolla o, həbsdən qaçıb Aşqabada, oradan isə İrana, Türkiyəyə, Polşaya gedib. 1939-cu ildə Polşa işğal edildikdən sonra Türkiyəyə qayıdıb və Türkiyə Baş Nəşriyyat İdarəsində çalışıb. Eyni zamanda o, Türk radiosunun fars dilində verilişlərinə də rəhbərlik edib. Ankara Universitetinin hüquq fakultəsində oxuyub. O bir müddət "Azərbaycan" jurnalının Baş redaktoru vəzifəsini də icra edib. 1976-cı ilin oktyabrın 7-də Ankarada vəfat edib.

***Qaynaq:***

*1. N.Yaqublu. Müsavat Partiyasının tarixi. Bakı, 2012.*

*2. N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı, 2013*

## SOVET REJİMİNƏ QARŞI "GİZLİ MÜSAVAT" TƏŞKİLATININ RƏHBƏRİ – MİRZƏ BALA MƏMMƏDZADƏ (1898-1959)

### *"Məni üçrəngli bayrağımıza bürüyüb dəfn edərsiniz"*



*Mirzə Bala Məmmədzadə*

M.B.Məmmədzadə 1898-ci ildə Bakının Zirə kəndində anadan olub. 7-ci "rus-tatar" məktəbini, Alekseyev adına 3-cü Ali ibtidai məktəbi bitirdikdən sonra təhsilini Bakı Texniki Sənaye məktəbində davam etdirib. 1919-cu ilin sentyabrında "Bakı uğrunda mübarizə" əsəri Dövlət Teatrında tamaşaya qoyulub.

1920-ci ilin 27 Aprelindən – Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra M.Ə.Rəsulzadənin (onun həyatı təhlükədə idi) göstərişinə əsasən Mirzə Bala Məmmədzadə Müsavatın gizli ümumi Mərkəzinin (bəzi mənbələrdə "İstiqlal Komitəsi" də adlanır) başçısı təyin edilir. Bu Mərkəz sovet rejiminə qarşı çox kəskin fəaliyyət göstərir. İlk öncə "İstiqlal" mətbəəsi yaradılır, sonra "İstiqlal" qəzeti nəşr edilməyə başlayır, xalq arasında gizli bəyannamələr yayılır.

M.B.Məmmədzadə gizli olaraq çap edilən "İstiqlal" qəzetinin həm qurucusu, həm baş yazarı, həm də yayınlayıcısı idi. Onun ümumi rəhbərliyi ilə "İstiqlal"ın 18 sayı nəşr edilib yayınlandı və 19-cu sayı müsadirə olundu. Onun və yazıçı C. Cabbarlının hazırladığı, "İstiqlal"da çap olunan bəyannamə belə çağırışlarla bitirdi: "Yaşasın Azərbaycan İstiqlalı! Yaşasın Üçrəngli Bayrağımız! Məhv olsun rus imperializmi!"

1922-ci ildə M. B. Məmmədzadə "Azərbaycan Türk Mətbuatı" kitabını yazıb "İstiqlal" mətbəəsində çap etdirdi və burada Azərbaycanda çıxan 91 qəzet və dərgi haqqında məlumat verdi. Lakin müəllif təqibdə olduğu üçün kitabın geniş yayımı mümkün olmadı.

M. B. Məmmədzadə ciddi təqiblərdə olmasına baxmayaraq mükəmməl təşkilatçılığı, mövcud siyasi və sosial vəziyyəti dəyərləndirmək bacarığı ilə fərqlənirdi. Bir müddət sonra onu da həbs etdilər. Bayıl həbsxanasında işgəncələr altında saxlanılan M.B.Məmmədzadə oradan qaçmağa müvəffəq olur. Əvvəl İrana – Ənzəliyə, oradan İstanbula gəlir. İstanbul Universitetinin hüquq fakultəsində təhsil alır. O, mühacirətdə keçən həyat və fəaliyyətini sovet rejiminə qarşı ideoloji mübarizəyə həsr edir. Türkiyədə, Polşada, Almaniyada fəaliyyət göstərir. İstanbulda olarkən o, M.Ə.Rəsulzadənin Baş redaktorluğu ilə nəşr edilən "Yeni Qafqasiya", "Odlu Yurd" jurnallarında yazılar çap etdirir, "Bildiriş" qəzetinin isə redaktoru olur. 1938-ci ildə onun Berlində Türkiyə türkcəsində "Qurtuluş" jurnalının mətbəəsində "Milli Azərbaycan hərəkatı" kitabı nəşr edilir. Buna qədər isə "Ermənilər və İran" kitabı da İstanbulda çap olunmuşdu. Bundan əlavə o, Türkiyədə çap edilən "İslam Ensiklopediyası"na 50-yə qədər məqalə-izah yazıb təqdim etmişdir.

M.B.Məmmədzadənin 1951-ci ildə "Qafqaz Albaniyası tarixinə dair" kitabı nəşr edilib.

M.B.Məmmədzadə 1954-cü ildən Münhendəki SSRİ-ni Öyrənmə İnstitutunda çalışmış, burada iki il elmi şuranın sədri, iki il isə sədr müavini olmuşdur.

1959-cu ilin mart ayının 8-də İstanbulda vəfat edib. Qəbri Qaracaəhməd məzarıstanlığındadır. M.B.Məmmədzadə dünyadan köçərkən bu sözləri söyləyib: "Məni üçrəngli bayrağımıza bürüyüb dəfn edərsiniz".




**M.B.Məmmədzadənin "Milli Azərbaycan Hərəkatı" kitabı**

***Qaynaq:***

1. *A.Rüstəmli. (Cəfər Cabbarlı. (Həyatı, sənəti və mücadiləsi). Əlazəğ, 2011.*
2. *N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. B., 2018.*
3. *Azərbaycan Mühacirət İrsi (tərtib edəni: N. Yaqublu). Bakı, 2011.*

## GƏNCƏ ÜSYANININ QƏHRƏMANI - CAHANGİR BƏY KAZIMBƏYLİ (1888-1955)

***Sovet hökumətinin 10 gün devrilməsi, milli qüvvələrin qələbəsi. C.Kazımbəylinin DTK casusu tərəfindən zəhərlənib öldürülməsi***



*Cahangir bəy Kazımbəyli*

1920-ci ilin mayın **25-i gecəsindən iyunun 4-nə qədər** davam edən Gəncə üsyanında səkkiz mindən çox bolşevik əsgərinin öldürüldüyü, üçrəngli bayrağımızın isə şəhərdə dalğalandığı qeyd olunur.

Üsyana başçılıq edən Cahangir bəy Kazımbəyli 1888-ci ildə Gəncə şəhərində anadan olub. İlk təhsilini Gəncə gimnaziyasında aldıqdan sonra Sankt-Peterburqdakı Hərbi Məktəbdə oxumuşdur. Çar Rusiyası ordusu sıralarında Birinci Dünya müharibəsində (1914-1918) iştirak edib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə 3-cü Şəki Süvari Alayının komandiri olub. Gəncə üsyanına başçılıq edən C.Kazımbəyli döyüşlərdə şəxsən iştirak etmiş, yaralanmış, sonra Türkiyəyə getmişdir. Sonra o, Polşaya –Varşavaya köçmüş, marşal Pilsudskinin yaratdığı orduda müqavilə əsasında xidmət etmişdir. İkinci Dünya müharibəsində almanlarla əməkdaşlıq edən C.Kazımbəyli 1943-cü ildə Berlində yaradılan "Azərbaycan Milli Birlik Məclisi"nin rəhbərlərindən olur (bu təşkilatın əsas yaradıcıları Ceyhun Hacıbəyli, Əbdürrəhman Fətəlibəyli-Düdənginski idi). 1943-cü ildə Berlində keçirilən Milli Azərbaycan Qurultayının da açılışını o edib.

İkinci Dünya müharibəsindən sonra C.Kazımbəyli bir müddət Romada yaşamış, 1954-cü ildə isə Münhendə "Azadlıq" radiosu ilə əməkdaşlıq etmişdir. Onun fəaliyyəti, Sovet dövlətinə qarşı çıxışları, azərbaycanlıları yenidən bu rejimə qarşı mübarizəyə çağırması sovet rəhbərliyini narahat etməyə bilməzdi. 1955-ci ilin yanvarında bir qadının sifarişi ilə Berlinə getmiş, orada müəmmalı şəkildə vəfat etmişdir. Müəyyən faktlara görə həmin qadın sovet DTK casusu olmuş və onun içki badəsinə zəhər qatıb öldürmüşdür.

***Qaynaq:***
*1. N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007.*
*2. X.Bayramov. Gəncə qiyamı. Bakı, 2010, səh. 93.*
*3. AXC Ensiklopediyası, II cild. Bakı, 2005, səh. 78.*
*4. Ş.Nəzirli. Arxivlərin sirri açılır. Bakı, 1999, səh. 156.*
*5. N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005.*

## SOVET REJİMİNƏ QARŞI GƏNCƏ ÜSYANININ QƏHRƏMANLARINDAN BİRİ – SARI ƏLƏKBƏR (1874-1938)



***Sarı Ələkbər***

Gəncə üsyanının təşkilatçılarından və iştirakçılarından biri olan **Sarı Ələkbər** 1874-cü ildə Gəncədə anadan olub. Üsyana qədər Gəncə Polis İdarəsinin rəis müavini, Milli Müsəlman Komitəsinin tağım komandiri olub. O, həm də “Difai” təşkilatının əsas üzvlərindən biri olub.

Üsyanda böyük fədakarlıqlar göstərən Sarı Ələkbər hadisədən sonra Türkiyəyə keçmiş, 1938-ci ildə orada vəfat etmişdir.

1924-cü ildə Qazaxıstanda sürgündə olan ailəsini dostlarının köməyi ilə Türkiyəyə gətirib. Oğlu İsmayıl Türkiyədə millət vəkili, qız nəvəsi İlham Ağüzüm isə Turizm və Mədəniyyət naziri olub, qızı Brilyant həkim işləmişdir.

***Qaynaq:***
*1. A.Turan, C.Bayramlı. On yeddi illik mücadilə (Azərbaycanda sovet işğalına qarşı Milli Müqavimət hərəkatı. 1920-1937). Bakı, 2016, səh. 149.*
*2. X.Bayramov. Gəncə üsyanı. Bakı, 2010, səh. 97.*

## GƏNCƏ ÜSYANININ QƏHRƏMANLARINDAN BİRİ – CAVAD BƏY ŞIXLİNSKİ (1875-1959)



***Cavad Şıxlinski***

Sankt-Peterburqda Mixail Topçu məktəbini bitirən Cavad bəy Çar Ordusu sıralarında bir sıra vəzifələrdə xidmət etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə Qarnizonunun rəisi olmuşdur.

Sovet rejiminə qarşı olan Gəncə üsyanında fədakarlıqlar göstərmiş, döyüşlərdə ağır yaralandığından gizli olaraq kəndi Salahlıya gətirilmiş, oradan Tiflisə və Türkiyəyə getmişdir. 84 yaşında Türkiyədə vəfat etmişdir.

***Qaynaq:***

*1. İ.Umudlu. Şıxlinskilər. Etno-tarixi və geneoloji rakurs. Bakı, 2015, s. 88.*

*2. AXC Ensiklopediyası. II cild, səh. 459.*

## İTTİHAD PARTİYASININ MÜBARİZƏSİ

1917-ci ildən "Rusiyada müsəlmanlıq" adı ilə mövcud olmuş İttihad (Birlik) Partiyası 1920-ci ilin aprelin 27-dən, yəni bolşeviklərin Azərbaycanı işğalından etibarən fəaliyyətini dayandırmışdı. Onlar bunu belə izah edirdilər ki, bolşeviklərlə prinsipial fikir ayrılıqları yoxdur. Partiyanın buraxılması haqqında olan aktda isə iddia olunurdu ki, burjua "azadlığı" çərçivəsində Müsavatla açıq mübarizə aparan İttihad açıq hesab edir ki, Qırmızı Sovet hissələrinin gəlməsi müsavatçılarla mübarizədə müsbət həllini tapır. Və öz məqsədinə çatmış "İttihad" səhnədən gedir.

Bir qədər sonra bolşeviklərin törətdikləri cinayətləri açıq görən İttihad yenidən fəaliyyətə başlayır. İttihadın rəhbəri doktor Qarabəy Qarabəyova sonradan yönəldilən ittihamda onun Paris Konfransına göndərilmiş Mir Yaqub Mehdiyevdən təlimat-məktub alması da göstərilir. Qeyd edilir ki, həmin məktubda mübarizə metodu kimi təbliğatdan, silahlı üsyandan istifadə olunmalı idi.



**Qarabəy Qarabəyov**

1920-ci ilin iyul ayında fəaliyyətə başlayan İttihad üç müstəqil qrupa bölünür: "Vətən və ya ölüm", "Mərkəzi İttihad", "Quranın əmin-amanlığı". Bu qruplar ideya və təşkilati cəhətdən müstəqil çalışsalar da, Q. Qarabəyovun "Məhv olsun sovet hakimiyyəti!", "Bolşeviklərə ölüm!", "Başda milli hökumətlər olmaqla Şərqdə müsəlmanlığa eşq olsun!" şüarları ətrafında birləşirdilər.

İttihadın 1920-ci ilin oktyabr ayında hazırladığı üsyan planı genişlənə bilmir. Əsas məqsəd fəaliyyəti Lənkəran qəzasındakı silahlı dəstələri və Dağıstanda İmam Qotçinski, Əlixanov tərəfindən başçılıq edilən Dağıstan qiyamçıları ilə əlaqələndirmək, Zəngəzurda qalxmış üsyanı nəzərdə tutub, hərbi qüvvələrin diqqətini oraya yayındırmaqdan istifadə etmək idi. Həştərxanla su rabitəsinin kəsilməsi ilə əlaqədar İttihad Bakıda silahlı üsyan qaldırmaq qərarına gəlir. Onlar XI Ordunu təchizat bazasından məhrum etməyə çalışırlar. Dağıstan üsyançıları Vladiqafqaz dəmiryolunu kəsirlər. Həştərxanla da rabitə kəsilir. Bakıdan verilən siqnalla Abşeron kəndlərində üsyan qalxır. Abşeron üsyançılarının bir hissəsi Zığa toplaşır. Təşkilatın Bakıdakı üzvləri gecə şəhərdə nizamsız atəş açır, Bakı qarnizonunda çaxnaşma yaradıb, diqqəti Zığdan yayındıra bilirlər.

Lakin üsyan tezliklə yatırılır və həbslər başlayır.

1921-ci ilin yanvarın 25-də XI Ordunun Xüsusi Şöbəsi aşağıdakı tərkibdə: XI Ordunun Xüsusi Şöbəsinin rəisi Pankratov, Fəal hissənin rəisi Aşukin və Baş Hərbi Müstəntiq Qubinin hazırladığı qərar əsasında başda Qarabəy Qarabəyov olmaqla 155 (yüz əlli beş) nəfər haqqında cinayət işi qaldırılıdı və təşkilat üzvlərinin əksəriyyəti Rusiyanın Xolmoqor, Ryazan, Nijni-Novqorod şəhərlərindəki həbs düşərgələrinə göndərildi. Qarabəy Qarabəyov isə Moskvada Butırski həbsxanasına salındı.

---

***Qaynaq:***

*Z.Bünyadov. Qırmızı Terror. Bakı, 1993.*

## AZADİS PARTİYASININ YARANMASI



*Xanbala Xanlarov*

Sovet işğalı ilə barışmayan insanlar müxtəlif formalarda mübarizələrini davam etdirirdilər. Bəzi vətənpərvərlər silahlı üsyanlar və partizan hərəkatı yolu ilə, bəziləri fərdi üsullarla, bəziləri də partiyalar yaradıb siyasi vasitələrlə işğalçı rejimə müqavimət göstərirdilər.

1924-cü ildə Bakıda Xanbala Xanlarov adlı bir şəxsin "Azadis" adlı bir partiya yaratması ilə bağlı Dövlət Təhlükəsizliyi arxivində məlumatlar vardır. Azadis – yəni azad olmaq mənasında yaradılan partiyaya verilən addır.

Partiyanın yaradıcısı olan X.Xanlarovun məlumatlarından aydın olur ki, mövcud hakimiyyət fəhlələrin tələblərini yerinə yetirmədiyindən belə təşkilatın yaranmasına ehtiyac var. Məlum olur ki, partiyanın fəaliyyət proqramı ilə bağlı X.Xanlarov bir sənəd də hazırlamışdır. Sonradan başda X.Xanlarov olmaqla təşkilatın üzvləri Mirzəbəy, Əsgər, Ağa Rəhim həbs edilirlər. Onlar həbsdən çıxdıqdan sonra yenidən fəallaşırlar. Və bu fəaliyyətlərində yalnız aşağıdakı maddələrdə kommunistlərlə fikir ayrılıqlarında olduqlarını bildirirlər: 1) Ticarəti İttifaqa vermək; 2) Seçkiləri ümumi sovetlərə keçirmək; 3) Fabrik və zavodlara İttifaq rəhbərlik etməlidir.

Onların sonradan maliyyə vəsaiti əldə etmək üçün güc qrupları (istintaqda terrorçu qruplar yazılıb) yaratmaq cəhdlərinin olduğu bildirilir. Partiya fəalları həbs edildiyindən təşkilatın fəaliyyəti dayanır.

---

***Qaynaq:***
*Ədalət Tahirzadənin şəxsi arxivindən. DTK materialları əsasında.*

## GƏNC AZƏR TƏŞKİLATININ FƏALİYYƏTİ

1920-ci illərdə müsavatçıların fəallığı ilə Bakıda gizli şəraitdə aşağıdakı təşkilat, dərnək və qruplar fəaliyyət göstərirdi:

1. Gənc müsavatçıların "Gənc Azər" təşkilatı. Təşkilat Bakı Pedaqoji Texnikumunda 1927-ci ilin yayında yaradılmışdır.
2. Nərimanov adına Texnikumda gizli qruplaşma. Qrupun rəhbəri Səid Qafarov olub. Qrup 1930-cu ildə dağıdılıb.
3. "Gənc Türkçülər Birliyi", 1926-cı ildə BK-nın üzvü Əbdül Həsən Rəhimov tərəfindən yaradılıb.
4. Ağamalıoğlu adına Texnikumda tələbə qruplaşması. Qrup 1930-cu ildə yaradılmışdı, rəhbəri Mir Qiyas Ağalarov və Heydər İsmayılov idi. Təşkilat 1931-ci ildə dağıdılıb.
5. Bakı şəhəri 5 saylı məktəbin müəllimi Əli Abbas Talıbovun rəhbərlik etdiyi tələbələrdən ibarət "Türkçülər" qrupu. Bu qrupda tanınmış şair Mikayıl Müşfiq də vardı.

Bu dərnək və qruplar içərisində "Gənc Azər" təşkilatı daha çox seçilirdi. Həsənağa Axundzadə, Haşım Aslanov və Əliağa Aslanovun rəhbərliyi ilə 1927-ci ildə yaranan "Gənc Azər"in məram və vəzifələrinə diqqət yetirək. Təşkilatın məqsədi – təhsil alan gənclərdən "Gənc Azər" təşkilatında gənc kadrlar – müsavatçılar hazırlamaq, onları Müsavat Partiyasına vermək və bu partiya ilə birgə Azərbaycan SSR-də Sovet hakimiyyətini devirmək, Azərbaycanın Rusiyadan ayrılması, onun təkcə türk, tatar xalqlarının deyil, müsəlman Şərqinin siyasi və mənəvi mərkəzi olan Türkiyəyə birləşməsi işində fəaliyyət göstərmək.

"Gənc Azər"in əməli vəzifələri:

1. İşdə zəruri göstərişlər və həm ciddi, həm də mənəvi yardım almaq məqsədi ilə Müsavat Partiyası ilə əlaqə yaradılması.
2. Sosial vəziyyət, partiya mənsubiyyəti nəzərə alınmadan millətçi əhvali-ruhiyyəli gənclərin təşkilata cəlb edilməsi.
3. Bakıda və təşkilatın genişləndiyi hallarda isə Azərbaycanın qəzalarında təhsil alan gənclər arasında fəal millətçilik təşviqatının aparılması.

Gənc Azər təşkilatı öz təbliğatında M. Ə. Rəsulzadənin Türkiyədə nəşr etdiyi "Yeni Qafqasiya", Gənc Azər dərgilərindən faydalanırdı.

Gənc Azərin fəaliyyəti hökumət dairələrini qorxuya salırdı. AK(b)P MK məxfi şöbəsinin müdiri Qlebovun Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri N. Rizayevə yazdığı 1929-cu ilin may tarixli məktubunda göstərilirdi ki, MK katibi yoldaş Mirzoyanın dərkənarı icra üçün göndərilir – "Təmizləmə yox, düşmən ünsürlərin tədricən kənar edilməsi, Azərbaycan DSİ Türk müəllimlərinin siyahısını AK(b)P MK-ya təqdim etməlidir".

***Qaynaq:***

*1. "Gənc Azər" (istintaq materialları üzrə). B., 1993.*

*2. İbrahimli X. Zeynalov R. Müsavat Partiyasının 1920-ci il 27 Aprel istilasından sonrakı fəaliyyəti tarixindən. "Müsavat" jurnalı, Bakı, 1994, N2 (6).*

## MÜSTƏQİL AZƏRBAYCAN TƏŞKİLATI

1928-ci ilin təxminən mayında köhnə müsavatçı və ittihadçılar (Mirzə Cəmil Yusifzadə, Əliheydər Babayev, Əhməd Hacıyev, Yusif Əli Əliyev, Yusif Nəcəfov, Məmməd Salayev və b.) yeni təşkilat yaratdılar". Təşkilat Müstəqil Azərbaycan adlanırdı. Təşkilatın qarşısına qoyduğu başlıca vəzifə bu idi: "Xarici Büro ilə əlaqələr yaratmaq, oradan beynəlxalq vəziyyəti və Azərbaycan emiqrasiyasının fəaliyyəti barədə informasiya almaq və s. Müstəqil Azərbaycan öz üzvlərinin köməyi ilə Bakıdakı türk konsulluğunun vitse konsulu ilə əlaqə yarada bilmişdi. Bundan əlavə, Bakıda iki kommunistlə əlaqə yaratmaq mümkün olmuşdu ki, onlar da respublika rəhbərliyinin işi, münasibəti, planları haqda məlumatlar verirdilər. Lakin az keçməmiş həmin kommunistlərdən biri Təşkilatın mövcudluğu haqqında dövlətə məlumat verildiyini bildirdi. Vəziyyətin ağırlaşdığını görən müstəqil "Azərbaycançılar" fəaliyyətlərini dayandırdılar.

***Qaynaq:***

*İbrahimli X. Zeynalov R. Müsavat Partiyasının 1920-ci il 27 Aprel istilasından sonrakı fəaliyyəti tarixindən. "Müsavat" jurnalı, Bakı, 1995, N3(7), səh. 60*

## SOVET REJİMİNƏ QARŞI ƏZRAYIL FİRQƏSİ



*Carçı Carçıyev*



*Musa Carçıyev*



*Hacı Kərim Sanılı*

1920-ci ilin 28 aprelindən sonra Qazax rayonunda sovet rejiminə qarşı ən kəskin mübarizə aparan iki təşkilat var idi: **Həqiqət Ordusu, Əzrayıl Firqəsi**. Bu təşkilatın 33 nəfər üzvü 1931-ci il 19 aprel tarixli qərarla tutulub həbs edilir. İstintaqdan məlum olur ki, təşkilatın mərkəzi Qazax rayonunun Çaylı kəndində imiş.

Əzrayıl Firqəsinin müsavatçıların və ittihatçıların yaratdıqları bir təşkilat olduğu göstərilməkdədir. Əzrayıl Firqəsi 1930-cu ilin sonunda aşkara çıxarılıb, 1931-ci ilin əvvəlində ləğv edilib. Bu təşkilatın yaradıcılarından biri, Qazaxın Çaylı kəndində anadan olmuş məşhur şair, ictimai xadim Hacı Kərim Sanılıdır.

Dövlət Təhlükəsizlik Xidmətindəki cinayət işi qovluğundakı sənədlərdən məlum olur ki, təşkilat H.Sanılı vasitəsi ilə M.Ə.Rəsulzadə ilə əlaqədə olub.

---

***Qaynaq:***

*Sərxan Carçının şəxsi arxivi.*

## AZƏRBAYCANI ÖYRƏNƏN CƏMİYYƏT

1920-30-cu illərdə müsavatçılar "Azərbaycanı Öyrənən Cəmiyyət" də yaratmışdılar. Cəmiyyətin Rəyasət Heyətinin katibi Ələsgər Ələkbərov olmuş, sonradan Solovkiyə sürgün edilmişdir. Cəmiyyətin üzvləri arasında Dostu xanım Səfərova, Cavad Axundov, İdris Axundzadə, Əmin Abid kimi müsavatçılar vardı. Bu müsavatçılar o dövrdə yeni əlifba ilə nəşrə mane olmaq üçün ciddi iş aparırdılar".

***Qaynaq:***

*İbrahimli X. Zeynalov R. Müsavat Partiyasının 1920-ci il 27 Aprel istilasından sonrakı fəaliyyəti tarixindən. "Müsavat" jurnalı, Bakı, 1994, N2(6),səh.61.*

## AZƏRBAYCAN MİLLƏTÇİ PARTİYASI

Belə bir təşkilatın mövcudluğu haqqında məlumatlara 1930-cu illərin istintaq materiallarında rast gəlinir. **Belə məlumat verilir ki, bu təşkilat 1933-cü ildə yaradılıb.** Təşkilatın başlıca məqsədi – əks-inqilabi əhval-ruhiyyəli adamları millətçi təşkilata cəlb edərək, silahlı üsyanın hazırlanması sahəsində fəal iş aparmaq, əhali arasında üsyançı əhval-ruhiyyəsi formalaşdırmaq, SSRİ-dən tam ayrılmaq şərti ilə Azərbaycan SSR-ni yaratmaq.

Bu təşkilatın rəhbərlərindən biri kimi **tanınmış bolşevik Ruhulla Axundov**un adı qeyd olunur. Təşkilatın üzvləri arasında Həmid Sultanovun (Xalq Kommunal Təsərrüfatı Komissarı), Dadaş Bünyadzadənin (Zaqafqaziya Xalq Torpaq Komissarı), Mirzə Davud Hüseynovun (Zaqafqaziya Xalq Maarif Komissarı), Əhməd Triniçin (Azərnəşrin direktoru), Vəli Xuluflunun (Azərbaycan Sovet Ensiklopediyasının direktor müavini), Hənəfi Zeynallının (SSRİ EA Azərbaycan filialının əməkdaşı), Həmid Yaqubovun (Respublika prokuroru) və digər partiya, dövlət, elm xadimlərinin olduğu bildirilir.

---

***Qaynaq:***

*Z.Bünyadov. Qırmızı Terror. Bakı, 1993.*

## GİZLİ "İSTİQLAL" QƏZETİ (1923)




***"İstiqlal" qəzetinin gizli nəşri***

Sovet rejiminə qarşı ideoloji mücadilənin aparılmasında gizli nəşr edilən "İstiqlal"qəzetinin böyük əhəmiyyəti oldu.

"İstiqlal" qəzetinin qurucusu, baş yazarı və yayanı Mirzə Bala Məmmədzadə idi. **"İstiqlal" qəzetinin ilk sayı 1922-ci ilin aprelində nəşr edildi.** Qəzetin ilk sayı 30-40 nüsxədən ibarət idi. Bu da gizli İstiqlal Komitəsi bölgə təmsilçilərinə göndərilir, oxunduqdan sonra yox edilirdi. Digər nüsxələrin isə kimə göndəriləcəyi M. B. Məmmədzadə tərəfindən müəyyənləşirdi. Sovet rejiminin təzyiqi və ciddi nəzarət sistemini qurması səbəbi ilə "İstiqlal"ın ayda iki dəfə nəşri qeyri-mümkün olurdu. Odur ki, 1922-ci ilin aprelindən 1923-cü ilin 5 dekabrına qədər qəzetin 18 sayı yayınlanmış, 19-cu sayı isə AzÇekanın çalışanları tərəfindən ələ keçirilmişdi.

"İstiqlal" qəzetinin 1923-cü ildə 26 apreldə nəşr edilən 15-ci sayında "28 Aprel faciəsi münasibəti ilə" başlıqlı bir yazı-müraciət yayınlanmışdı. Bu yazının müəllifləri olaraq M. B. Məmmədzadə və C.Cabbarlı olduğu ehtimal edilməkdədir.

"İstiqlal"ın 17-ci sayında isə Dağlıq Qarabağda yaşayan ermənilərə muxtariyyət verilməsinə qarşı M.B.Məmmədzadə İstiqlal Komitəsinin Mərkəzi Heyəti  adından sərt bəyanat hazırlayıb çap etdirmişdi. Bəyanatda Dağlıq Qarabağ Muxtar Vilayətinin qurulmasının Azəri Türk

xalqına qarşı bolşeviklərin etdiyi xəyanət və cinayət olaraq dəyərləndirilirdi.

Bir müddət sonra "İstiqlal" qəzeti keçmiş ünvandan Suraxanı (indiki Çingiz Mustafayev) küçəsində məscidlə qarşı-qarşıya 174 saylı evdən Çadrovı 62 (Mirzəağa Əliyev küçəsi) ünvandakı evə köçürülür. Evin sahibi 52 yaşlı, əslən güney Azərbaycanlı, cümhuriyyət dönəmində milli istiqlalımızı qoruyan, müsavatçı Hacı Baba Kərbəlayı Hüseyn oğlu Cəbiyev idi.

Bu ünvanda "İstiqlal"ın 2 sayı hazırlandı: 18-ci sayı oxucuların ünvanlarına çatdırılsa da, 19-cu sayı AzÇekanın çalışanları tərəfindən 1923-cü ilin 5 oktyabrında müsadirə edilmişdi.

Qəzeti çap edən Ağa Səlim Rəhimov və Qurban Musayev orada həbs edilmişlər.

Qəzetdəki baş məqalələrin yazılmasında Mirzə Bala Məmmədzadə, Əbdülvahab Yurdsevər, Cəfər Cabbarlı fəallıq göstərmişlər. Bundan əlavə qəzetdə Rəhim bəy Vəkilovun, Kərbəlayı Vəli Mikayılovun, Qurban Musayevin, Nəsrulla İsrafilovun, Əbdülrəhman Dainin məqalələri çap edilib.

**Qəzetin 1-ci** sayının əsas mövzusu Müsavat Partiyasının yenidən gücləndirilməsi ilə bağlı yazılar, 2-ci sayında mart faciəsi haqqında yazılar yer almışdır. Sonrakı saylarda isə Aprel "inqilabından", 28 May İstiqlalından, Bakının 15 sentyabrda Qafqaz İslam Ordusu tərəfindən Qurtuluşundan, beynəlxalq vəziyyətdən, Ə.M.Topçubaşovun Parisdəki fəaliyyətindən, Mirzə Balanın Avropada vəziyyət haqqındakı çıxışlarından, Zaqafqaziyanın, SSRİ-nin qurulmasından, Dağlıq Qarabağa muxtariyyət verilməsindən, Azərbaycandan ayrılmasından, tarixi hadisələrdən bəhs edən yazılar verilmişdi.

Qeyd edək ki, bu qəzetdən əvvəl gizli olaraq "İstiqlal" adlı mətbəə fəaliyyət göstərmiş və orada sovet rejimi əleyhinə bəyannamələr çap edilib yayılmışdı.

---

***Qaynaq:***

*1. A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009.*

*2. A.Rüstəmli. Cəfər Cabbarlı (Həyatı, sənəti və mücadiləsi). Əlazığ, 2011.*

## AZƏRBAYCAN ŞAİR VƏ YAZIÇILARININ GİZLİ ETİRAZLARI

## "GÜNƏŞ ŞİMALDAN DEYİL, ŞƏRQDƏN DOĞACAQDIR. ŞİMAL ŞƏRQİN QANINI İÇƏNDİR".

### Şairə Nigar Rəfibəyli Sovet rejimi əleyhinə çalışır.



*N.Rəfibəyli*

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncənin Qubernatoru (Valisi) olmuş Xudadat bəy Rəfibəylinin həyat yoldaşının evi axtarılarkən oradan qızı Nigar xanımın 1928-ci ilin iyun ayında yazdığı bir şeir tapılmışdır. Şeir belə adlanırdı: "Şimaldan günəşin doğmasını gözləyənlərə". Şeirdə deyilirdi: "Başında şimal rüzgarları əsən şair, sən İsa şəklini Lenin şəkli ilə əvəz edib, bizi rus mujiki ruhunda tərbiyə edir, ona baş əyməyə məcbur edirsən. Lakin bunu bil ki, şimaldan günəş doğmamış və doğmayacaqdır. Şimal Şərqin qanını içəndir. Sənin al bayrağın Şərqin qanına boyanmışdır. Qızıl bayraq altında "internasional" bağırırsan. Fəqət mənim daha hüquqlarım var. Şərq daha inləməkdədir. Oradan zəncir səsləri gəlir. Bu səsi eşidənlər anlayırlar ki, heç bir zaman şimaldan günəş doğmamış, heç bir zaman günəş doğmayacaqdır".

Dövrün istintaq materiallarında Nigar Rəfibəyovanı (Rəfibəylini) təbliğ edən sənədlər vardır. Onun türk doktor Rza Nuribəyin kitabını yaydığı qeyd edilir. Həmin kitabda müəllif Azərbaycanın Rusiyanın müstəmləkəsi altında olduğunu yazır.

Nigar Rəfibəylinin atası X.Rəfibəylini 1920-ci ilin mayın 20-də bolşeviklər qətlə yetirmişdi. O, həm də məşhur Gəncə üsyanının şahidi olmuşdur. Bu da N.Rəfibəylidə Sovet rejiminə nifrət yaratmışdı.

O dövrdə şair Süleyman Rüstəm (çox güman ki, partiya tapşırığı ilə) ona belə bir şeir yazmışdı:

**Bağlamışşan ümidini Şərqdən doğan günəşə,**
**Fəqət sənin duymadığın bir günəş var, ey Nigar!**
**Biz günəşiz, günəş biz,**
**O günlərdən başlayır mübarizəmiz!**

Başqa bir şeirdə isə yazılmışdı:

**Sən atanın yolunu izləyirsən, deyilmi?**
**Sən Müsavat yolunu gözləyirsən, deyilmi?**

Qeyd 1: Əliheydər Qarayev bu şeirinə görə Pedaqoji İnstitutun tələbəsi olan Nigar xanımın bütün işlərdən azad edilməsini tələb etmişdi.

Qeyd 2: Yazıçı Anar bu şeirin müəllifinin şair Mikayıl Rzaquluzadə olduğunu bildirir. O vaxt M.Rzaquluzadə Moskvada oxuyurdu və N.Rəfibəyli onu ələ vermək istəməyib. Hadisədən xəbər tutan M.Rzaquluzadə şeirin ona məxsusluğu ilə bağlı Bakıya məktub göndərib.

Sonradan N.Rəfibəyli Rusiyaya - Moskvada oxumağa getməyə üstünlük verib.

---

***Qaynaq:***

*1. N. Yaqublu. Müsavat Partiyasının tarixi. B.,1997.*
*2. "Bildiriş" qəzeti. İstanbul, 1931, №27.*
*3. Anar. Sizsiz. Bakı, 1992.*

## YAZIÇI-DRAMATURQ CƏFƏR CABBARLININ (1899-1934) SOVET REJİMİNDƏN NARAZILIĞI

***"Yurdumu taladı Şimalın ağ ayıları"***

C.Cabbarlının həm siyasi fəaliyyətində (O, "Gizli Müsavat" təşkilatının üzvü idi), həm də yaradıcılığında sovet rejimindən ciddi narazılıq məqamları var idi. Sovet rejimi əleyhinə gizli olaraq "İstqlal" qəzeti nəşr edən, xalqa müraciətlər, bəyannamələr yazan C.Cabbarlının bədii əsərlərində də haqsızlığa, istismara etiraz nümunələri olduqca çox idi.



***Cəfər Cabbarlı***

M.Ə.Rəsulzadə də yazılarında C.Cabbarlının bolşevik ideyalarından uzaq bir sənətkar olduğunu qeyd edirdi: "Kommunist olmadığını göstərən hadisələrdən biri də onun Moskvada toplanan Ədiblər Qurultayında söylədiyi məşhur nitqidir. Bu nitqində o, "həqiqi sənətkar və yazıçının şanına yaraşmayan sosial sifariş üsulunun, yəni şairləri hökumət tərəfindən müəyyən mövzularda yazmağa məcbur edilmənin əleyhinə çıxmışdı".

1923-cü ilin 14 iyununda Azərbaycanın 15 (on beş) ziyalısı həbs edilmişdi və onlardan biri də Cəfər Cabbarlı idi. Azərbaycan Fövqəladə Komissiyasının sədri Mir Cəfər Bağırovun imzaladığı 202 saylı əmrə əsasən komissarlar Danilyan və Jukov onu həbsə aldılar. Həbsxanada olarkən dövrə, haqsızlığa, ədalətsizliyə və zorakılığa etiraz olaraq bu misraları yazmışdı:

**Mən bir güldüm, açılmadan**
**budağımdan dərdilər,**
**Yaşıl ikən yarpaqlarım**
**əldən-ələ verdilər.**
**Çox çəkmədən yazıq soldum,**

**torpaqlara sərdilər,**
**İştə budur təbiətin sarsılmayan**
**dövranı.**

Cəfər Cabbarlı Müsavat Partiyasında təbliğat sahəsinə rəhbərlik etməkdə, Gürcüstan menşevikləri ilə əlaqədə günahlandırılırdı. C. Cabbarlı 1923-cü ilin avqustunda azadlığa buraxılmışdı.

C. Cabbarlı bolşeviklərin işğalçı siyasətinə qarşı özünün bu günə qədər tapılmayan bir şeirini yazmışdı: **"Yurdumu taladı Şimalın ağ ayıları".**

Yazdığı əsərlərdə elə o dövrü, 1918-1920-ci illərdəki Azərbaycanı xatırlayıb yazırdı:

**Azad bir quşdum,**
**Yuvamdan uçdum.**
**Bir bağa düşdüm,**
**Bu gənc yaşımda.**

**"1905-ci ildə"** pyesində isə o, Salamovun dili ilə o dövrdə "millət" sözünü işlətməyin necə təhlükəli olduğunu özünəməxsus istehza ilə deyir**: "Yenə saldı bu zəhrimar milliyəni ortalığa".**

Yazıçının "Firuzə" hekayəsi də çox diqqətlidir: "Bəlkə iki gün içində köhnə evi sökmək, yeri düzəltmək, hətta asfaltlamaq və ağac əkmək o qədər təəccüblü deyildir. Təəccüblü orasıdır ki, dünən əkilən ağaclar bu gün çiçəkləmişdir". Bu cümlələrdə yazıçı fantastikasından daha çox, saxta, yapma bir cəmiyyətin istəklərinə qarşı bir ironiya duyulmaqdadır.

Yaxud **"Od gəlini"** əsərində Elxanın monoloqundakı: "Rədd olsun bütün dünyada ingilislərin ağalığı" cümləsində "ingilislərin" yerinə "rusların", yaxud "bolşeviklərin" sözünü yazsaq, məna dəyişməyəcək - "Rədd olsun bütün dünyada bolşeviklərin ağalığı!"

C. Cabbarlının sovet dövründə əsərlərinə qarşı da çox hücumlar olub. Əsərlərinin bəzi yerlərini hətta dəyişmək məcburiyyətində qalıb.

C. Cabbarlını həyatının sonlarında hüquq-mühafizə orqanları izləyirdi. 1934-cü ildə 35 yaşında ürək partlamasından vəfat etdi.

---

***Qaynaq:***

*1. M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991, s. 72.*

*2. A.Rüstəmli. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı, 2009.*

## BÖYÜK ŞAİR HÜSEYN CAVİDİN (1882-1941) DÖVRDƏN NARAZILIĞI

Öylə bir əsr içindəyəm ki, cahan
Zülmü vəhşətlə qovrulub yanıyor.
(**“Peyğəmbər”** əsərindən)

**“Siyavuş”** əsərində isə şair yazırdı:
Zülmə qarşı dikbaş və məğrur olun!
Hürriyyət uğrunda çox cəsur olun!

H.Cavidin **“Topal Teymur”, “Şeyx Sənan”** əsərləri də hökumət dairələrini ciddi narahat etmişdi.



***Hüseyn Cavid***

Dövrün qəzetləri isə onun əleyhinə belə yazılar çap edirdi: “Bir az da əski şairlərdən bəhs edək. Biz güman etmirik ki, Cavad Axundov və Hüseyn Cavid kimi şairlərdə bu yaxın zamanlarda bir dönüş əmələ gələcəkdir… Mündəricə etibarı ilə bu şairlərin yazıları yeni cəmiyyətin və yeni Azərbaycan mədəniyyətinin əleyhinədir”.

1937-ci ildə H. Cavid müsavatçılarla əksinqilabi əlaqələr yaratdığına, onlarla milli söhbətlər apardığına görə, qanunsuz əks-inqilabi, millətçi təşkilatda iştirak etdiyinə görə həbs olunur, sürgünə göndərilir və 1941-ci ildə orada vəfat edir.

***Ədəbyyat:***

*1. M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991.*

*2. R.Hüseynov. Vaxtdan uca. B., 1987.*

## TANINMIŞ ŞAİR ƏHMƏD CAVADIN (1892-1938) BAYRAQ HƏSRƏTİ


*Əhməd Cavad*

Tanınmış şair, Azərbaycan istiqlal bayrağına mənalı misralar qoşan **Əhməd Cavad** vətəni işğal edildəndən sonra həsrətlə yazırdı:

**Çoxdandır ayrı düşdüm**
**Üçboyalı bayraqdan.**
**A dostlar, mən yoruldum,**
**Bu gizli ağlamaqdan.**

Ə.Cavadın **"Göy-göl"** şeiri isə o dövrün ən çox səs-küy qoparan əsərlərindən idi. Şair yazırdı:

**Sənin gözəlliyin gəlməz ki, saya,**
**Qoynunda yer vardır ulduza, aya.**
**Oldun sən onlara mehriban daya,**
**Fələk büsatını quralı, Göygöl.**

Bu sətiraltı ifadələr diqqətdən yayınmamış və Ə.Cavada hücumlar başlanmışdı. Şeirdə işlədilən "ulduz", "ay", "yaşıl" sözlərinə görə şairi ittiham edirdilər (yəni üçrəngli bayrağımızın rənglərinə görə).

Şairin sovet cəmiyyətindən narazılıq ruhu əsərlərində əks olunurdu:

**"Əyil Kürüm, əyil keç,**
**Dövran sənin deyil, keç!"**
(**"Kür"** əsərində)

Böyük şairin əleyhinə sifarişli hücumlar, yazılar, şeirlər yazılır, mətbuatda çap edilirdi:

**Şeirinə ağuş açıb Türkiyə Əhməd Cavadın,**
**Bicliyi oldu əyan cümləyə Əhməd Cavadın.**
**Başını əyməkdədir üçrəngli gözəl bayrağına,**
**Qədəm atmaq diləyir Türkiyənin torpağına...**

**Əhməd Cavad 1938-ci ildə güllələndi.** Həyat yoldaşı Şükriyyə xanımı isə həbs etdilər və 10 illik sürgünə göndərdilər. Ailənin üç kiçik övladı atasız-anasız qaldı.

---

***Qaynaq:***
*N.Yaqublu. Ağrılı ömürlər. B., 1990, s. 238.*

## MİKAYIL MÜŞFİQ (1908-1938) REJİM ƏLEYHİNƏ YAZIR



*Mikayıl Müşfiq*

Tanınmış şair **Mikayıl Müşfiq**in də yaradıcılığında sovet istila rejimindən narazılıq motivləri güclüdür. Bu illərdə Müşfiqin Azərbaycan Milli hərəkatına həsr edilmiş **"Tozanaq"** və Nuxa üsyanında (1930-cu ildə bolşeviklərə qarşı məşhur Şəki üsyanı – *N. Y.*) həlak olmuş qəhrəmanların xatirəsinə həsr olunan **"Üsyan"** poemaları xalq arasında geniş yayılmışdı.

**1937-ci ilin iyun ayında həbs edilən M. Müşfiq "Müsavat" gənclər təşkilatı ilə əlaqədə, "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" kimi qızışdırıcı sözləri ilə xalq arasında narazılıq yaratmaqda, millətçi fikirlərlə, əksinqilabi düşüncələri ilə ədəbiyyat sahəsində bu yöndə iş aparmaqda ittiham edilir. Buna görə də Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 70, 73 maddələri ilə təqsirli bilinir. SSRİ Ali Məhkəməsinin Səyyar Hərbi Kollegiyasının 5 yanvar 1938-ci il, 11:20 dəqiqədə başlanan məhkəməsi 11:40 dəqiqədə İsmayılzadə Mikayıl Müşfiq Qədir oğlunun güllələnməsi hökmü ilə başa çatır. Hökm yanvar ayının 6-na keçən gecə həyata keçirilir.**

M. Müşfiqə verilən ağır işgəncələrdən sonra o, əks-inqilabi təşkilatın bütün qərarlarını yerinə yetirdiyini söyləmişdi. M. Müşfiqi sorğu-suala tutan, arayış tərtib edən Dövlət Təhlükəsizlik kapitanı Çinman olub.

1937-ci ilin noyabrında isə M. Müşfiqin həyat yoldaşı Dilbər Axundzadə həbs edildi. Təhlükəsizlik leytenantı, erməni millətindən olan Q.B.Avanesov D.Axundzadəni sorğu-suala çəkir. Əzab-əziyyətlərə, işgəncələrə dözməyən D.Axundzadə psixi gərginliklər keçirir və onu 1 saylı Əsəb xəstəlikləri xəstəxanasına göndərirlər.



Секретно.

СПРАВКА.

Приговор о расстреле ... Мушфик Кадыр Оглу ... в гор. Баку "6" I 1938 г. Акт о ... хранится в Особом архиве 1-го спецотдела НКВД СССР том №-8 лист №-40

НАЧ. 12 ОТД 1 СПЕЦОТДЕЛА НКВД
Лейтенант Госбезопасности (...)

*Mikayıl Müşfiqin güllələnmə sənədi*

***Qaynaq:***

*A.Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. B., 2011.*

## GETDİ YURDUM YAD ƏLLƏRƏ

***Mikayıl Müşfiqin 1930-cu illərdə Sovet rejimi əleyhinə yazdığı və heç yerdə çap olunmayan əsərindən bir hissə***

Dərə dedi: - Balqanlardan yuvarlandım,
Qolum qırıq, nəyim artıq...
Bir hıçqırıq.
Bu hicranı duyan anlar,
Göz yaşı çağlayanlar.
Ağla dərə, ağla dərə,
Getdi yurdum yad əllərə.

**Qeyd*: Bu şeir yazıçı Əzizə Cəfərzadənin şəxsi arxivindəndir. Şeiri Ə.Cəfərzadənin baçısı qızı Kəmalə Cəfərzadə təqdim edib.***

## ALMAS İLDIRIM (1907-1952) AZƏRBAYCANDAN SÜRGÜN OLUNUR



***Almas İldırım***

Azərbaycanın işğalı ilə barışmayan şairlərdən biri də **Almas İldırım** idi. 1930-cu ildə onun **"Dağlar səslənirkən"** şeiri çap olundu və az keçməmiş "Kommunist" qəzetinin 1931-ci il 2 mart tarixli sayında kitabın əleyhinə yazı çap edildi. Bununla da A. İldırım təqib olunmağa başladı: "Almas yoldaş sənətcə bir çox gənclərimizdən qüvvətli olsa da belə, məfkurə cəbhəsində çoxlarından geridədir.".

Bu təqiblərdən sonra A. İldırım Dağıstana sürgün edilir. 1931-ci ildə isə 24 yaşlı şair buradan Türküstana sürgün edilir. Onu izləmək üçün bir şairi də Türküstana göndərirlər. Bu "izləmə"lərdən yaxa qurtarmaq üçün o, gizli olaraq İrana, oradan

isə Türkiyəyə qaçır.

O, Türkiyədə 1952-ci ildə, 45 yaşında vəfat etdi.

Almas İldırımın Azərbaycan sevgili, vətən ruhlu, azadlıq həsrətli şeirləri çox məşhurdur.

Könlümə tək Kəbə yapdım səni mən,
Sənsiz neyləm qürbət eldə günü mən.
Sənsiz neyləm Allahı mən, dini mən,
Azərbaycan, mənim tacım, taxtım, oy!
Oyanmazmı kor olası baxtım, oy!




***Ədəbyyat:***

*M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991.*

## ŞAİR GÜLTƏKİNİN (ƏMİN ABİD) (1898-1937) SOVET REJİMİ ƏLEYHİNƏ ŞEİRLƏRİ

Bir müddət Türkiyədə yaşayan, sonradan Azərbaycana qayıdan, sovet məhbəslərində canını fəda edən Gültəkinin şeirlərində azadlıq və istiqlal sevgisinin odu-alovu ilə bərabər, mövcud istila rejiminə, Azərbaycanı işğalda saxlayan sovetlərə qarşı kəskin bir nifrət vardır. Bu şeirlərin çoxu o zaman “Yeni Qafqasiya”, “Azəri Türk”, “Odlu Yurd” jurnallarında nəşr edilmiş, 1948-ci ildə isə tanınmış mühacir Mirzə Bala Məmmədzadə tərəfindən toplanıb, **“Buzlu cəhənnəm”** adı ilə kitab olaraq çap edilib.



***Gültəkin (Əmin Abid)***

Gültəkin 1924-cü ildə **“Bayrağım və İstiqlalım”** şeirində yazırdı:

**Qurtuluş, ey nazlı, sevimli pəri,**
**Könüldən vurğundur sənə Azəri.**
**Dişimlə qıraram bir gün gələr də,**
**Bağrına saplanan qanlı xəncəri.**
**Yaşa, ey həsrətlə doğan istiqlal!**
**Yaşa, ey türk, yaşa ey gözəl hilal!**

Onun 1926-cı ildə yazdığı **“Azəri kommunistinə”** şeiri də diqqəti cəlb edir:

**Düşün hər addımda getdiyin yolu,**
**Zavallı babamın ey nankor oğlu.**
**Öylə bir yabançı yerdə qaldın ki,**
**Gözlərdə sən o qədər alçaldın ki...**

**“Çeka”** şeirində isə Gültəkin bolşeviklərin həbsxana rejimini nifrətləyir:

**İçində zəhərdən bir hava əsən,**
**Yoxluğun zəhərli bir diyarıdır.**
**Yolçu, içərisinə girmək istəsən,**
**Həyatından ümid kəs də, öylə gir.**

---

***Ədəbyyat:***

*M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991.*

## ÜÇRƏNGLİ BAYRAĞIMIZIN ENDİRİLMƏSİNƏ İLK ETİRAZ ŞEİRİ YAZAN ŞAİRƏ ÜMMÜGÜLSÜM (1899-1945)

**1920-ci ilin mayın 3-də** (işğal aprelin 27-də olmuşdu) Azərbaycanı işğal etmiş bolşeviklər üçrəngli bayrağımızı parlament binası üzərindən endirib, öz qırmızı istila bayraqlarını asdılar. Tanınmış Azərbaycan şairəsi **Ümmügülsüm xanım** böyük ağrı ilə, həm də bir etiraz ruhu ilə **“Bayrağım enərkən”** şeirini yazdı:

**Sən bayrağım! O yüksək şanlarınla enərkən,**
**Mavi göyə bir duman gəldiyini sezdim mən.**
**Qoynundakı ağ nurlu ay-yıldızım sönərkən,**
**Üzərimə doğacaq günəşlərdən bezdim mən.**

**Al-yaşıllı bağında çiçəklərin solarkən,**
**Ürəyimdə pək acı bir inilti yüksəldi.**
**Hıçqırıqlar içində bayılarkən, düşərkən,**
**Məni tutub qaldıran xain, murdar bir əldi.**

**Yazıq, səni bayrağım, endirdilər öyləmi?**
**Səni yıxıb devirən o zəhərli ruzigar.**
**O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar,**
**Yanar ocağımı da söndürdülər, öyləmi?**

**Bir röyamı oldu, o gördüklərim, həpisi?**
**Bağlandımı üzümə türk elinin qapısı?**
**(1920-ci il)**

İlk şeirini 1908-ci ildə yazan, "İqbal", "Açıq Söz", "İstiqlal", "Azərbaycan" qəzetlərində, "Dirilik", "Qurtuluş" jurnallarında maraqlı poetik yazıları ilə çıxış edən Ümmügülsüm xanım **yazıçı Seyid Hüseynin** həyat yoldaşı idi. Həyat yoldaşı yazıçı Seyid Hüseyn 1937-ci ildə həbs edildikdən sonra, həmin ilin noyabrın 2-də onu da həbsə alıb, Bayıl həbsxanasına saldılar. Ona **səkkiz il həbs cəzası** kəsib, Mordva Muxtar Respublikasının Yavas qəsəbəsindəki İslah-əmək düşərgəsinə göndərirlər (MTN sənədlərində isə onun Temlaq İslah-əmək düşərgəsinə göndərildiyi qeyd edilib).



*Ümmügülsüm xanım*

1945-ci ildə sürgündən azadlığa buraxılan Ümmügülsüm xanıma Bakıda yaşamağa icazə verilmir və o, Şamaxıya köçür. Burada bir neçə ay yaşadıqdan sonra vəfat edir.

Sovet rejiminə imkan daxilində müqavimət göstərən çoxlu sayda ziyalılarımız amansız bir rejimin – bolşevizmin qurbanı oldular: **S.Mümtaz, S.Hüseyn, T.Şahbazi, Y.V.Çəmənzəminli, Ə.Nazim, A.M.Şərifzadə, V.Xuluflu, B.Çobanzadə, M.Baharlı və b.**

**Qeyd:** Ümmügülsüm xanım M.Ə.Rəsulzadənin həyat yoldaşı Ümmülbanu xanımın bacısı idi. 1938-ci ildə sürgünə göndərilən Ümmülbanu xanım 1941-ci ildə Qazaxıstanda vəfat edib.

---

***Qaynaq:***

1. *A.Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. B., 2011.*
2. *M.Ə.Rəsulzadə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991.*
3. *Gültəkin. Buzlu cəhənnəm. İstanbul, 1938.*
4. *Ümmügülsüm. Gözümüz yaşlıdır, sinəmiz dağlı. B., 1992.*

## QƏTLƏ YETİRİLMİŞ AZƏRBAYCAN ŞAİR VƏ YAZIÇILARI



***Hüseyn Cavid***



***Əhməd Cavad***




***Mikayıl Müşfiq***




***Salman Mümtaz***




***Yusif Vəzir Çəmənzəminli***




***Ümmügülsüm***

# SOVET QƏTLİAMLARI

## M.Ə.RƏSULZADƏNİN OĞLU RƏSUL RƏSULOV – SOVET REJİMİ TƏRƏFİNDƏN İTTİHAM OLUNARAQ GÜLLƏLƏNİR



***Rəsul Rəsulov***

1937-ci ildə yeni və daha güclü formada (əslində bu repressiya 1920-ci ilin aprelindən – Azərbaycan işğal edildiyi ilk gündən başlamışdı) sovet repressiyaları başladı. Həbs edilən minlərlə insanın sırasında M.Ə.Rəsulzadənin ailəsi də var idi. M.Ə.Rəsulzadənin həyat yoldaşı Ümbülbanu xanım, oğlu Azər, qızları Lətifə, Xalidə, M.Ə.Rəsulzadənin analığı Maral xanım Qazaxıstana sürgün edildi. Ailənin yaxın qohumları – Ümbülbanu xanımın bacısı, şairə Ümmügülsüm, onun həyat yoldaşı, yazıçı Seyid Hüseyn həbs edilir. M.Ə.Rəsulzadənin qızı Lətifənin həyat yoldaşı Mir Damədi 1941-ci ildə həbs etdilər.

M. Ə. Rəsulzadənin oğlu Rəsulu isə həbs edib 1938-ci ilin martında güllələdilər.

Rəsul çox istedadlı bir gənc idi. Onun şeir yazmağı və məharətlə tar çalmağı var idi. Tar çalmağı o, içərişəhərli kor Hüseynağadan öyrənmişdi.

Rəsulun həbsinin və güllələnməsinin başlıca səbəbi ittihamda onun "Müsavat qrupu üzvləri ilə sovet hökuməti əleyhinə fəaliyyəti" və "Müsavat" təşkilatı lideri M. Ə. Rəsulzadənin oğlu" olmasıdır.

Rəsul Rəsulov Məhəmməd Əmin oğlu, 1914-cü ildə Bakı şəhərində doğulub. Yaşadığı ünvan – Qasım İsmayılov küçəsi – 129. Xızı rayonunda maliyyə şöbəsində rayon büdcə təşkilatının təlimatçısı işləyib. 1938-ci ilin

15 yanvarında 120 saylı həbs və ya axtarış orderi əsasında həbs edilib. Məhkumun anketi 892 göstərilib.


**Ölüm hökmü (Ölüm haqqında)**
**Aktdan çıxarış 2266**
XDİK (NKVD) xüsusi "Üçlüy"ün qərarı ilə 01 mart 1938 ci ildə güllələnmə haqqında Rəsulov Rəsul Məmməd Əmin oğlu, 24 yaş, 05.03-06.03.1938 (martın 5-dən 6-na keçən gecə) keçən gecə hökm yerinə yetirilib.
Daxili həbsxananın rəisi-(ad-soyadı yazılmayıb) karandaşla imzası var
Xüsusi 1-ci şöbənin rəisi-Savçenko

***Rəsul Rəsulovun güllələnmə sənədi***

Rəsula məxsus ittihamnamədə yazılıb: "**2266 saylı istintaq işi üzrə** 21, 64, 73, Azərbaycan Cinayət Məcəlləsi üzrə məhkum **Rəsulov Rəsul Məhəmməd Əmin oğlu Müsavat təşkilatında fəaliyyətinə görə həbs edilib.** Onun istintaqı aparılarkən məlum olmuşdur ki, 1937-ci ildə Xızı Müsavat təşkilatının üzvləri 3 nəfər bildirdilər ki, Rəsulov Rəsul emiqrasiya olunmuş Müsavat təşkilatı lideri M.Ə.Rəsulzadənin oğludur və onunla birləşib əksinqilabi fəaliyyət yaradıblar.

Rəsul Rəsulovun əksinqilabi düşüncəsindən əmin olan Müsavat qrupunun üzvləri onu sovet hökuməti əleyhinə plan və metodların hazırlandığı yığıncaqlarda əməli əksinqilabi fəaliyyətə cəlb eləyiblər və qrupun rəhbəri tərəfindən öz xidməti vəzifəsindən istifadə eləyib, fəhlə və kəndlilər arasında sovet hökumətinə qarşı narazılıq yaratmaq tapşırığı alıb.

**R.Rəsulovun istintaqa verdiyi ifadələr:**

**1.** "Sovet hökuməti ilə mübarizə metodları ilə bağlı bir neçə yığıncaq çağırıldı. Təklif etdi ki: a) Kolxozçular arasında anti-sovet təbliğatı aparmaq, milli hisslərini qıcıqlandırmaq, sovet hakimiyyətinə qarşı üsyana çağırmaq; b) Öz xidməti vəzifəsindən istifadə edərək, geniş kütlələr arasında mövcud quruluşa qarşı çıxmaq məqsədi ilə.

**2.** Mənə tapşırılmışdır ki, maliyyə cəbhəsində sovet fəhlələri və kəndliləri arasında əksinqilabi iş aparmaq və böyük narazılıqlar yaratmaq".

İstintaq prosesinin 1938-ci ilin 1 mart tarixli protokolundakı çıxarışda yazılıb: "Az.SSR Xalq Daxili İşlər Komissarlığı "Üçlük" iclasının protokoluna əsasən Cinayət işi 2266 – Rəsulov Rəsul Məhəmməd Əmin oğlu – 24 yaşı var. Əksinqilabi fəaliyyətinə görə güllələnsin. Əmlakı müsadirə olunmaqla. Partiya mənsubiyyəti yoxdur. Üçlüyün katibi Savçenko".

**“Ölüm hökmü”** (ölüm haqda) Aktdan çıxarış – 2266.

XDIK (Xalq Daxili İşlər Komissarlığı ) xüsusi üçlüyün qərarı ilə 01 mart 1938-ci ildə güllələnmə haqqında. **Rəsulov Rəsul Məhəmməd Əmin oğlu, 24 yaş, 05.03-06.03.1938 (martın 5-dən 6-na keçən gecə) hökm yerinə yetirilib.** Xüsusi 1-ci şöbənin rəisi Savçenko”.

M.Ə.Rəsulzadənin həyat yoldaşı Ümbülbanu xanım (1888-ci il təvəllüdlü) 1941-ci ildə sürgündə – Qazaxıstanın Taldı-Kurqan şəhərində vəfat etdi. Qızı Lətifə (1910-cu il təvəllüdlü) sürgündə – Qazaxıstanın Semipalatinsk vilayətində soyuqdan və acından öldü. Digər qızı Xalidə (1916-cı il təvəllüdlü) sürgündən qaçıb Azərbaycana gəlmiş və itkin düşmüşdür. Digər oğlu Azər (1920-ci il təvəllüdlü) ömrünün sonuna – 1993-cü ilə qədər sürgündə – Qazaxıstanda – Karaqanda şəhərində yaşadı.

---

***Qaynaq:***

*1. N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.*

*2. N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

*3. N.Bağırzadə. Rəsul Rəsulzadəyə məktub. B., 2017.*

***Qeyd:*** Rəsulun istintaq materiallarından məlum olur ki, o da sovet rejiminə qarşı mübarizə aparıb və atası M.Ə.Rəsulzadənin inamla yürütdüyü Azərbaycan Milli Istiqlal Mücadiləsinə qoşulub, bu yolda qətlə yetirilib.

M.Ə.Rəsulzadənin digər oğlu Azər Rəsulzadə isə Rəsulun ölümündən sonra anası Ümbülbanu xanımın (oğlunun güllələnməsini bilmirdi, düşünürdü ki, onu yalnız həbs ediblər) oğlunun və bütün ailəsinin acı taleyinə dözə bilməyib, “Rəsul, Rəsul” deyərək dünyadan köçdüyünü söyləyirdi. Lakin bu ağrılı anlarda belə Ümbülbanu xanım həyat yoldaşı M. Ə. Rəsulzadəni günahlandırmır, onun apardığı mübarizənin düzgün olduğunu qəbul edirdi.

## GÜLLƏLƏNMİŞ AZƏRBAYCAN QADINLARI (1930-CU İLLƏR)

Sovet rejimi yalnız ona qarşı mübarizə aparanları deyil, eləcə də narazı olan insanları da amansızcasına qətlə yetirirdi. Bu sırada kişilərə də, qadınlara da, qoca və cavanlara da yanaşma üsulu eyni idi. 1930-cu illərdə sovet rejiminin qurbanı olmuş, ən ağır cəzaya – güllənməyə məhkum edilmiş bəzi Azərbaycan qadınlarını təqdim edirik.



***Mədinə xanım Qiyasbəyli***

**1. Mədinə xanım Mehdi qızı Qiyasbəyli.**

1889-cu ildə Qazaxda məşhur bəy ailəsində anadan olub. İxtisasca müəllimdir. 1906-cı ildən müəllim kimi arası kəsilmədən fəaliyyət göstərib. Bakı Qadın Pedaqoji Texnikumunun müdiri və müəlliməsi (1920-1926), Tiflis şəhərində Türk Pedaqoji Texnikumunun müdiri (1927) vəzifələrində çalışıb. 1930-1931-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, sonradan isə Azərbaycan Dövlət Tibb İnstitutunda assisent olaraq çalışıb. 1936-cı ilin dekabrın 8-də Azərbaycan SSR CM 72/73 maddələrinə əsasən həbs edilib. Əsas ittiham olaraq, onun qeyri-leqal əksinqilabi müsavatçı təşkilatının üzvü olması, dayısı oğlanları – AXC Parlamentinin üzvü, müsavatçı Rəhim Vəkilovla cümhuriyyət rəhbərlərindən Mustafa Vəkilovla əlaqələri, həbs düşərgəsində aclıq edən müsavatçılar, onlara verilən işgəncələr haqqında yazıçı Maksim Qorkiyə məktub vermələri, Əhməd Cavad, Seyid Hüseynlə bağlı münasibətləri, Sovet hökuməti ilə mübarizə mövqeyində olması səbəb gətirilərək ittiham edilir.

1937-ci ilin sentyabrın 28-də, gecə saat 1.25-də 45 yaşlı Mədinə Qiyasbəyli güllələndi.

**2. Xədicə xanım Osman qızı Qayıbova.**

1893-cü ildə Tiflisdə anadan olub. Azərbaycan Dövlət Konservatoriyasının müəllimi və onun yaradıcılarından olub. Həyat yoldaşı Rəşid Qa-



Xədicə xanım Qayıbova

yıbov əks-inqilabi millətçi təşkilatın üzvü kimi həbs edilib. X.Qayıbova 1933-cü ildə həbs edilir, lakin ittiham sübut edilmədiyi üçün azad olunur. 1938-ci ilin martın 17-də Dövlət Təhlükəsizlik İdarəsinin 4390 saylı orderinə əsasən yenidən həbs edilir (bu zaman onun 23 yaşlı oğlu və 12 yaşlı qızı var idi).

İttihamlarda onun əks-inqilabi fəaliyyətlə məşğul olması, müsavatçı Mustafa Vəkilovun onların mənzilində gizlənib, sonra Türkiyəyə qaçması, Bakıda olmuş Türk zabitlərindən Xəlil Paşanın, Əşrəf Təmuçinin tanış kimi onlara gəlməsi, guya xarici dövlətin kəşfiyyatı ilə Dadaş Bünyadzadənin onun vasitəsi ilə əlaqə saxlaması və s. qeyd olunurdu. Xədicə xanım həm də xarici dövlətin kəşfiyyat agenti kimi saxta ittihamlarla üzləşsə də, bunları inkar edir.

1938-ci ilin oktyabr ayında erməni millətindən olan müstəntiq Tevosyanın hazırladığı, DTK zabiti - rus leytenantı Sovçenkonun qol çəkdiyi ittihamnamə əsasında Xədicə Qayıbova güllələnir.

**_Qaynaq:_**

*Z.Bünyadov. Qırmızı Terror. Bakı, 1993.*

## VALİYYƏ XANIM KAZIMBƏYLİ
## (1900 GƏNCƏ – 1947 İSTANBUL)

### *Gəncə üsyanının rəhbəri, Cahangir bəy Kazımbəylinin həyat yoldaşı*

V.Kazımbəyli istər vətənində, istərsə xarici ölkələrdə (Polşa, Almaniya, İtaliya) yaşadığı dövrlərdə öz qonaqpərvərliyi, alicənablığı, vətənpərvərliyi ilə mühacir azərbaycanlılar arasında nüfuz qazanıb.



Valiyyə xanım

İkinci Dünya müharibəsi illərində gecə-gündüz hərbi qospitallardakı azərbaycanlı hərbçilərə ana nəvazişi göstərib.

"Milli Birlik" Məclisinin fəal üzvlərindən biri olan Valiyyə xanım 1947-ci ildə mühüm bir tapşırıqla Romadan Türkiyəyə göndərilib. O, İkinci Dünya müharibəsindən sonra qardaş ölkədə sığınacaq tapıb gizlənən yüksək rütbəli azərbaycanlı hərbçiləri sovet əks-kəşfiyyatının caynağından qurtarmaq üçün Romaya aparmalıydı. Artıq həmin vaxt Türkiyədə sığınacaq tapan 80 nəfər hərbçi, Milli ordumuzun cəsur sərkərdəsi, Gəncə üsyanının iştirakçısı, polkovnik İsrafil İsrafilovla birlikdə həbs edilib Naxçıvan - Türkiyə sərhədindən SSRİ-yə təhvil verilmişdi. Həmin hərbçilərin xeyli hissəsi İsrafil İsrafilovla bir yerdə Nargin adasında güllələnir.

Valiyyə xanım atası Hüseynqulu xanın və qardaşı İsgəndər xanın köməyi ilə hərbçi azərbaycanlılara saxta sənədlər düzəldərək, onlarla birgə 1947-ci il aprelin 26-da təyyarə ilə İstanbuldan Romaya gedir. Həmin təyyarə Afina şəhərində qəzaya uğradığından Valiyyə xanım 12 yüksək rütbəli azərbaycanlı ilə birlikdə həlak olur. Valiyyə xanım İstanbul şəhərinin "Fəriköy" qəbirstanlığında dəfn olunmuşdur.

***Qaynaq:***

*X.Bayramov. Gəncə üsyanı - 1920. (Sənədlər və materiallar). Bakı, 2010.*

## ANTİSOVET BİRLİYİ – TƏLƏBƏ TƏŞKİLATLARI (1940-CI İLLƏR)

Qeyd edək ki, 1940-cı illərin əvvəllərində gənclər və xüsusən də tələbələr sovet hökuməti əleyhinə fəaliyyət göstərirdilər. Onlar əks-inqilabi vərəqələrin çapına və yayılmasına hazırlaşır, antisovet yığıncaqlar təşkil edir, təşkilatın ehtiyacları üçün pul yığır və sistematik olaraq antisovet millətçi söhbətlər keçirirdilər. İstintaq prosesindən məlum olur ki, bu təşkilat qarşısına aşağıdakı məqsədləri qoymuşdu: 1) Antisovet ruhlu gənc azərbaycanlıları antisovet millətçi təşkilatına cəlb edərək, təşkilat üzvlərinin sayını artırmaq. 2) Şrift, kağız və sairə materialları əldə edib antisovet vərəqə və proklamasıyaları çap edərək, əhali arasında yaymaq. 3) Kəmalist Türkiyəni nümunə götürərək, Azərbaycanda müstəqil dövlət yaratmaq. 4) Xaricdə cərəyan edən hadisələri bilmək üçün radioqəbuledici alıb, ayrıca otaq taparaq, orada verilişləri dinləmək. 5) Sovet hakimiyyətini yıxıb, Azərbaycanda müstəqil dövlət qurmaq.

Bu təşkilatın fəalları arasında aşağıdakılar var idi: 1) **Süleyman Əli Abbas oğlu İsgəndərov** – 1922-ci ildə anadan olub, Azərbaycan Sənaye İnstitutunun II kurs tələbəsi idi. 1942-ci ilin avqustunda həbs edilib. 2) **Ələsgər Səttar oğlu Tağıyev** – 1921-ci ildə Bakıda anadan olub, elektrik ustası idi. 1942-ci ilin fevral ayının 28-də həbs edilib. 3) **Çingiz Seyfulla oğlu Mustafayev** – 1923-cü ildə Bakıda anadan olub, Bakı Dəmiryolu Texnikumunun tələbəsi idi. 1942-ci ilin iyul ayının 7-də həbs edilib. 4) **Məhəmmədhüseyn Həbib oğlu Rzayev** – 1921-ci ildə Göyçayda anadan olub, Azərbaycan Dövlət Universitetinin III kurs tələbəsi idi. 1942-ci ilin iyul ayının 8-də həbs edilib. 5) **Hüseynağa Mirhaşım oğlu Ağayev** – 1921-ci ildə Bakıda anadan olub, Azərbaycan Sənaye İnstitutunun tələbəsi idi. 1942-ci ilin iyulun 7-də həbs edilib. 6) **Ağa Ələsgərrza oğlu Məmmədov** – 1921-ci ildə Bakıda anadan olub, ADU-nun IV kurs tələbəsi idi. 1942-ci ilin sentyabr ayının 5-də həbs edilib. 7) **Saleh Əbdülhüseyn oğlu Rzayev** –1921-ci ildə Bakıda anadan olub, ADU-nun IV kurs tələbəsi idi. 1942-ci ilin sentyabrın 5-də həbs edilib. 8) **Zaman Zeynal oğlu Mehdiyev** – 1923-cü ildə Bakıda anadan olub, Azərbaycan Sənaye İnstitutunun II kurs tələbəsi idi. 1942-ci ilin sentyabrında həbs edilib.

1942-ci ildə keçirilən əməliyyat nəticəsində təşkilat üzvləri həbs edildi. Onlardan üçü – **S. İsgəndərov, Ə. Tağıyev, M. Rzayev** güllələnməyə məhkum olundu, beşi isə 10 il azadlıqdan məhrum edildi.

---

***Qaynaq:***
*Z.Bünyadov. Qırmızı Terror. Bakı, 1993.*

## QƏTL EDİLMIŞ AZƏRBAYCANLI TƏLƏBƏLƏR (1940-CI İLLƏR)


*Ələsgər Tağıyev*

Onlar gənc olmalarına baxmayaraq, sovet rejiminə qarşı mübarizə aparır, Azərbaycanin işğal edilməsi faktı ilə barışmırdılar.

**Süleyman Əli Abbas oğlu İsgəndərov** da belə tələbə gənclərdən biri idi. Onu və dostlarını əksinqilabi təşkilatın rəhbərləri kimi ittiham edirdilər. Onların verdiyi ümumi cavab isə bu idi: **“Bizim təşkilat qarşısına belə məsələlər qoyurdu: şifahi və nəşr edilmiş vərəqələr vasitəsi ilə geniş azərbaycanlı kütlələr arasında sovet quruluşu əleyhinə aktiv mübarizə aparmaq və Azərbaycanda müstəqil milli dövlət qurmaq”.**

Tələbələrin içdikləri andın mətni belə idi: **“Mən... məsləkimə and içirəm. Vətənimin azadlığı uğrunda öz həyatımı, əmlakımı əsirgəməyəcəyəm. Mən Ana Vətənə and içirəm: yüksək idealın – millətimin şərəfi uğrunda, onun xoşbəxtliyi uğrunda, onun şərəfinə və namusuna toxunmağa cəhd edən düşmənlərə qarşı son damla qanımadək Vətən qəhrəmanlarının sırasında olacaq və lazım gələrsə öz həyatımı bu yüksək milli idealın həyata keçməsi işinə həsr edəcəyəm!**

**Mənim idealım millətimi əsirlik zülmündən xilas etməkdir. Mənim məsləkim milli-sosialist, milli xoşbəxtlik cəmiyyətinin yaradılması üçün yeganə vasitə olan Kəmalizmdir. Yaşasın Kəmalizm!**

**Mən and içirəm ki, firqə (partiya) tapşırıqlarını sözsüz yerinə ye-**

**tirəcək və bu işdə ən dəhşətli ölüm olsa belə, əlim titrəməyəcək, könlüm əsməyəcəkdir. Mən millətimin xoşbəxtliyinə zərər verəsi hərəkət etməyə cəhd edərəmsə, qoy tarix və onu yaradan parlaq məni lənətləsin, xain deyə damğalasın, ən şiddətli cəzaya məhkum etsin. Mən xain çıxaramsa, qoy məzarım qanqallıqlarla örtülü olsun!"**



*Məmmədhüseyn Rzayev*



*Süleyman İsgəndərov*

Bu andın mətnini tələbə Süleyman İsgəndərov yazmışdı. Bu andı içən tələbə gənclərin çoxu həbs edildi, bəziləri isə güllələndi.

Vətən azadlığı uğrunda sovet rejiminə qarşı mübarizə aparıb güllələnən tələbələrdən:

1. **İsgəndərli (İsgəndərov) Süleyman Əli Abbas oğlu** –1922-ci ildə Bakıda anadan olub. Azərbaycan Sənaye İnstitutunun II kurs tələbəsi idi. 1942-ci ilin avqust ayının 22-də həbs edilib. Azərbaycan SSR CM 72 m. 11 h. əsasında ən ağır cəzaya – güllələnməyə məhkum edilib. **1942-ci ilin dekabrın 24-də hökm yerinə yetirilib.**
2. **Tağıyev Ələsgər Səttar oğlu** – 1921-ci ildə Bakıda anadan olub. Elektrik ustası idi. 1942-ci ilin fevralın 28-də həbs edilib. Azərbaycan SSR CM 72 m. 11 h. əsasında ən ağır cəzaya – güllələnməyə məhkum edilib. **1942-ci ilin dekabrın 24-də hökm yerinə yetirilib.**
3. **Rzayev Məhəmmədhüseyn Həbib oğlu** – 1921-ci ildə Göyçayda anadan olub. ADU-nun III kurs tələbəsi idi. 1942-ci ilin iyul ayının 8-də həbs edilib.

Azərbaycan SSR CM 72 m. 11 h. əsasında ən ağır cəzaya – güllələnməyə məhkum edilib. **1942-ci ilin dekabrın 24-də hökm yerinə yetirilib.**

Təşkilatın üzvü olan digər tələbələr isə 8-10 il müddətinə azadlıqdan məhrum ediliblər.

---

***Qaynaq:***

*Z.Bünyadov. Qırmızı Terror. Bakı, 1993.*

## SOVET İTTİFAQINDA ÖLÜM CƏZASININ YENİDƏN TƏTBİQ OLUNMASI HAQQINDA

Sovet-Alman müharibəsi başa çatdıqdan sonra Sovet dövlətində yenidən insanlar ciddi nəzarətə alınır. Bunun əsas səbəblərindən biri də müharibədə Avropa ölkələrində olub, azad fikirli insanları, azad cəmiyyəti görmüş sovet əsgərlərinin davranışları idi. Digər tərəfdən bu əsgər və zabitlərin müəyyən ölkələrin təsir dairəsində olması da mümkün idi. Sovet rejimindən insanların narazı qalması faktı isə müharibə dövründə özünü açıq göstərmişdi: Stalin rejimindən narazı qalan minlərlə insan könüllü olaraq almanların tərəfinə keçmişdi. Sovet İttifaqının bəzi bölgələrində almanları duz-çörəklə, xilaskar olaraq qarşılamışdılar.

Bu məlumatlara əsasən sovet rəhbərliyi insanları yenidən qorxu altında saxlamaq üçün ölüm cəzasının tətbiq edilməsi haqqında fərman verdi. Həmin fərmanın mətni belə idi: “Vətən xainlərinə, casuslara, pozucu-təxribatçılara qarşı ölüm cəzasının tətbiq edilməsi haqqında SSRİ Ali Sovet Rəyasət Heyətinin Fərmanı: “Ölüm cəzasının ləğv edilməsi haqqındakı fərmanın dəyişdirilərək, bu fərmanın Vətən xainlərinə, casuslara və pozucu-təxribatçılara şamil edilməməsi lüzumu haqqında milli respublikalardan, həmkarlar ittifaqlarından, kəndli təşkilatlarından, habelə mədəniyyət xadimlərindən alınan ərizələri nəzərdə tutaraq SSRİ Ali Sovetinin Rəyasət Heyəti qərara alır: 1. Ölüm cəzasının ləğv edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 1947-ci il 26 May tarixli fərmanından istisna olaraq, Vətən xainlərinə, casuslara, pozucu-təxribatçılara qarşı ən yüksək cəza olaraq ölüm cəzasının tətbiq olunmasına yol verilsin; 2. Həmin fərman élan edildiyi gündən qüvvəyə minsin.

***SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri: N. Şvernik***

***SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi: A. Qorkin***

***Moskva, Kreml, 12 yanvar, 1950-ci il”***

---

***Qaynaq:***
*1. “Kommunist” qəzeti, 13 yanvar, 1950-ci il.*
*2. N.Yaqublu. Ağrılı ömürlər. Bakı, 1990.*

## QEYD: 1937-Cİ İLİN REPRESSİYALARINA BAŞLAMAQ GÖSTƏRİŞİ

1937-ci ilin martın 3-də Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Plenumunda İ.V. Stalin demişdi: “İzah edilməlidir ki, hazırkı Trotskisizmə qarşı mübarizədə indi köhnə metodlar deyil, diskussiyalar üsulu deyil, yeni üsullar – kökünü kəsmək və darmadağın etmək üsulları lazımdır”.

# MUHACİRƏTDƏ SOVET REJİMİNƏ QARŞI FƏALİYYƏT

## POLŞA ORDUSUNDA AZƏRBAYCANLI HƏRBÇİLƏR

### Albay İsrafil bəy: ”Ya hamımız bərabər hürriyyətə qovuşuruq, yaxud da bərabər ölürük!”



A SON EXCELLENCE MARECHAL PILSUDSKY ,
Cehf de l'Etat Majore Polonais .

Monsieur le Maréchal ,

Après l'occupation forcée de l'Azerbaïdjan par l'armée soviétique en Avril 1920 et l'éloignement "manu militari" de son gouvernement national ,une grande partie des officiers reguliers de l'armée d'Azerbaïdjan fut obligé de quitter le pays et de se transporter dans les pays limitrophes pour éviter la vengeance féroce des usurpateurs rouges .

Dix de ces officiers,qui avaient occupé des postes de confiance dans l'armée nationale et avaient opposé une résistance armée à l'invasion de l'armée rouge et , plus tard , avaient pris part à une série de soulevements populaires en vue de l'émancipation du joug détestable des russes , se trouvent actuellement à Constantinople dans des conditions de vie des émigrés .

Ayant appris par Mr. Djafer Seïdamet , Président et Délégué du Parlement Tatare de Crimée , que vous avez eu la bonté d'acceuillir très favorablement la déclaration faite par lui pendant son dernier séjour à Varsovie à propos du désir des officiers d'Azerbaïdjan de servir dans les rangs de la vaillante Armée Polonaise afin d'approfondire leur connaissance militaires , et même que vous avez eu l'obligence de donner en principe



55

votre consentement à leur admission , je me permets de profiter de cette circonstance favorable et de venir prier par la présente Votre Excellence de vouloir bien prendre les dispositions necéssaires à ce sujet . Le service rendu par la noble Nation Polonaise dans cette période difficile de notre histoire recevra , j'en suis certain , toute son appréciation de la part des Turcs d'Azerbaïdjan et servira de preuve éclatante des relations amicales qui depuis des longues années existent entre nos deux nations .

En vous présentant ma plus profonde reconnaissance , je vous prie , Excellence , de vouloir bien agréer les très sincères assurances de ma haute considération .

M. E. Rassoul-zade
Président du Conseil National d'Azerbaïdjan .

Constantinople,le 31 Mars 1923 .

Annexe : la liste des officiers .



A Son Excellence
Monsieur M.E.RASSOUL-Zade
Président du Conseil National d'Azerbaidjan,
à
Constantinople

Monsieur le Président,
J'accuse la reception de Vôtre lettre du 31 mars 1923 concérnant les officiers de l'armée azerbaidjane qui ont manifesté leur désir de ~~servir dans les rangs de l'armée polonaise.~~
Quoi que c'est mon désir le plus profond de pouvoir assurer aux officiers de la vaillante armée azerbaidjane l'immédiate possibilité de ~~servir dans rangs de notre armée~~ ,je suis obligé de remettre la solution définitive de cette question jusqu'au temps de l'automne 1923 ~~xxxxxx~~ ne pouvant pas leurs assurer actuellement un nombre suffisant des places dans nos écoles ~~militaires~~.
Veuillez agréer,Monsieur le Président,l'assurance de ma considération la plus profonde.

Chef de l'Etat Major de l'A.P.

Pilsudski
maréchal

*M.Ə.Rəsulzadənin Marşal Pilsudski ilə yazışmaları*

Qeyd edək ki, marşal Pilsudski Qafqazdan olan hərbçilərlə əlaqələri möhkəmləndirməyə xüsusi diqqət yetirirdi. Bundan ötrü o, bolşevik işğalına məruz qalmış Qafqazın hərbçilərini müqavilə əsasında Polşa ordusuna qəbul edirdi. İlkin olaraq bu zabitlərin müəyyən hərbi təhsilinə şərait yaradılırdı. Sonradan isə mövcud müqavilə şərtləri əsasında mühacir zabitlərin fəaliyyətləri təmin olunurdu. İlk dəfə olaraq 1921-ci ildə Türkiyənin İstanbul şəhərində Polşanın bu ölkədəki hərbi attaşesi pan Balitski gürcülərlə hərbi və siyasi əməkdaşlığı müzakirə etdi.

1923-1924-cü illərdən başlayaraq azərbaycanlı zabitlər də müqavilə əsasında Polşa ordusunda xidmətə başladılar. İlk olaraq 5 azərbaycanlı zabit Polşa ordusuna qəbul edildi.

Azərbaycanın görkəmli dövlət xadimi M. Ə. Rəsulzadənin Marşal Pilsudski ilə məktublaşmasında da bu problemə ciddi toxunulurdu. ***M.Ə.Rəsulzadə 1923-cü ilin martın 31-də İstanbuldan Varşavaya fransız dilində***



Rok: 1930-32.

rtm. Jedigar Veli

Przydział: 10. p. s. k.

Odznaczenia: /

Powołany do Szkoły na podstawie egzaminu przedwstępnego: /.

wstępnego: /.

Kursu Próbnego: 15.X.-13.XII.1930r. -lok. 41/136.

Jako hospitant: hospitant – z dniem

Rozkazem:

Staże przed powołaniem do Szkoły: /. /.

Podróże letnie I. Kursu:

23. VI. — 25. VI. 31 – Ćwicz. btw. w Dęblinie

8. VII. — 20. VII. 31. – Takt. Piech. i Art. – Ołyka-Równe

29. VII. — 31. VII. 31. – Zwiedz. zagł. naft. Drohobycz

1. VIII. — 10. VIII. 31. – Takt. Ogól. i Takt. Kaw. – Ołyka

11. VIII. — 18. VIII. 31. – Wycieczka w góry

***Vəli bəy Yadigara məxsus sənəd***

***göndərdiyi məktubda yazırdı: "Zati-aliləri Marşal Pilsudski, Polşa Ali Baş Komandanı, cənab Marşal!***

1920-ci ilin aprel ayında sovet ordusu tərəfindən Azərbaycanın işğal edilməsindən və milli hökumətin hakimiyyətdən uzaqlaşdırılmasından sonra Azərbaycan ordusunun intizamlı zabitlərinin böyük bir hissəsi qırmızı qəsbkarların vəhşi intiqamından xilas olmaq üçün ölkəni tərk etmək məcburiyyətində qalmış və həmsərhəd ölkələrə köçürülmüşlər.

Bunlardan milli orduda mühüm vəzifələr tutmuş 10 nəfər zabit düşmən qızıl orduya qarşı vuruşmuş daha sonra isə qızıl ordunun dözülməz özününküləşdirmə boyunduruğuna qarşı bir sıra kütləvi üsyanlarda çıxış etmişdilər. Həmin şəxslər hazırda Konstantinopolda mühacir kimi yaşayırlar.



*Albay İsrafil bəy*

Krım Tatar Parlamentinin təmsilçisi və prezidenti cənab Cəfər Seyidəhməd öyrənmişdir ki, Siz onun başçılığı ilə nümayəndə heyətinin Varşavada sonuncu səfərində azərbaycanlı zabitlərin cəsur Polşa ordusu sıralarında xidmət etmək təklifini, onların hərbi biliklərini genişləndirmək arzusunu çox səmimiyyətlə qəbul etmisiniz. Onların təmənnasız qəbuluna Sizin razılığınlz mənə bu lütfkar vəziyyətdən istifadə etmək və Sizin şəxsinizdə zati-alilərindən bu mövzuda lazımi müsbət qərarların əldə olunması xahişini etmək icazəsini verir.

Mən əminəm ki, nəcib Polşa xalqı tərəfindən göstərilən xidmət bizim tarixin bu çətin dövründə qəbul ediləcək və Türkiyə tərəfindən Azərbaycanın qiymətləndirilməsi, çox illərdən bəri bizim iki millətimiz arasında mövcud olan parlaq dostluq əlaqələrinin sübutuna xidmət edəcəkdir.

Sizə dərin təşəkkürümü bildirərək, Sizə bəslədiyim yüksək ehtiramımı Zati-alilərindən qəbul etməyinizi xahiş edirəm.

**M.Ə.Rəsulzadə, Azərbaycan Milli Mərkəzinin sədri. Konstontinopol, 31 mart 1923. Əlavə: zabitlərin siyahısı".**

M.Ə.Rəsulzadənin məktubuna cavab olaraq **Marşal Pilsudski yazırdı:** "Zati-aliləri cənab M. Ə. Rəsulzadəyə, Azərbaycan Milli Mərkəzinin prezidentinə, Konstontinopola

**Cənab Prezident!** Mən Sizin 31 mart 1923-cü il tarixli Azərbaycan ordusunun öz istəklərini nümayiş etdirən zabitlərinə aid olan məktubunuzu təsdiq edirəm.

Mənim ən böyük arzum Azərbaycan ordusunun igid zabitlərini qoruya bilmək və eyni zamanda onları bizim orduya qəbul etməkdir.

Hazırda hərbi məktəblərimizdə kifayət sayda yer olmadığından bu sualın qəti həllinə 1923-cü ilin payızına qədər cavab verməmək məcburiyyətindəyəm.

Cənab Prezident! Sizə olan dərin ehtiramımı qəbul etmənizi arzu edirəm.

**Polşa Ordusunun Ali Baş Komandanı Marşal Pilsudski”**.

Polşa ordusunda xidmətə qəbul edilən ilk azərbaycanlı zabitlər aşağıdakılar olmuşlar:

“1) Vəli bəy Yadigar; 2) İsrafil bəy Məhəmməd; 3) Cahangir bəy Kazım; 4) Həmid bəy Məmmədzadə; 5) Kazım bəy Səfər oğlu.

**Mayor Vəli bəy Yadigarovun şəxsi vərəqəsində belə məlumatlar vardır:**

“Adı, soyadı – Yadigarov Vəli bəy; Rütbəsi – mayor; sonuncu iş yeri – 1921-ci il, Rus ordusunda podpolkovnik (1917-ci ildən); Dini və milləti – müsəlman, gürcü (sənəddə belə səhv olaraq göstərilmişdir – *red.*); anadan olan il – 20 avqust, 1888-ci il, Tiflis, Gürcüstan; ailə vəziyyəti – evli, 1 uşağı var; hərbi təhsili – kadet korpusu, Petroqrad; ixtisası – ixtisaslı zabit; xarici dil bilməsi – rus, türk; ölkələri tanıması – Rusiya, İran, Türkiyə, Qafqaz; Polşa ordusunda hazırlaşdırılıb tədris keçib; ordu – rus -gürcü; dəstənin adı – süvari; orduya daxil olduğu il – 1908”.

Mayor Vəli bəy Yadigar 1924-cü ildə Polşa ordusuna qəbulu zamanı yazdığı tərcümeyi-halda özünün Gürcüstanın Tiflis şəhərində 1888-ci ilin avqustun 7-də doğulduğunu göstərir. 1898-ci ildə, 10 yaşında olarkən o, Tiflisdəki Kadetlər korpusuna oxumağa göndərilir. 1910-cu ilin avqustunda I kateqoriyalı korpusu tamamlayaraq, II çar Nikolayın Nijeqoroddakı 17 saylı polkunda podporuçik rütbəsini alır. 1911-ci ildə çarın icazəsi ilə Ədilə xanım Atabəyova – Koblanskaya ilə evlənir. 1912-ci ildə oğlu Ənvər dünyaya gəlir. 1913-cü ildə poruçik rütbəsini alır. I Dünya müharibəsində tabeliyində olan polkla Varşava yaxınlığında olur. Bir müddət qospitalda müalicə aldıqdan sonra 2-ci eskadrona başçılıq edir. 1915-ci ilin yanvarında Qafqaz-Türk cəbhəsinə göndərilir. 1915-ci ildə ona qərargah-rotmistr rütbəsi verilir. Bir müddət sonra Odessa ətrafına köçürülür və Bolqarıstana desant üçün hazırlığa başlayır. Lakin sonradan fars körfəzinə - ingilislərə köməyə göndərilir. 1916-cı ilin noyabrında rotmistr rütbəsini alaraq Qafqaz-tatar süvari diviziyasına köçürülür və rumın cəbhəsinə göndərilir. 1917-ci ilin yanvarında podpolkovnik rütbəsi alaraq Qafqaza diviziya rəisi təyin olunur və 2-ci tatar polkunun ehtiyat briqadasını təşkil etmək tapşırığını alır. 1917-ci ilin sonunadək orduda qalır və sonra tərxis olunub öz malikanəsinə qayıdır. 1918-ci ilin dekabrında gürcülərin ordusunda

cəbhədə Ermənistana qarşı döyüşür. 1919-cu ildə ordudan uzaqlaşır və öz kəndində yaşayır. 1921-ci ildə fevralda Sovet Rusiyası ilə müharibə başlanarkən orduya cəlb edilir və tatar partizanları dəstəsinə başçılıq edir. Həmin ilin martında döyüşlərdə məğlub olur və Konstantinopola (İstanbula) köçürülür. Burada ağır maddi durumda qalır. Məcbur olub fransız-ingilis işğal ordusunda dəmirçilik edir. 1922-ci ilin noyabrında Polşaya gedənə qədər həmin işdə çalışır. 1922-ci ilin sentyabrında isə o, 4 il əvvəl həyat yoldaşından ayrıldığından Züleyxa xanımla evlənir. Polşaya gələrkən onu zabitlər məktəbinə - gürcü zabitləri üçün təşkil edilmiş mərkəzə göndərirlər. Məktəbi bitirdikdən sonra Qrodnoda təhsilini davam etdirməyə göndərilir və 1924-cü ilin oktyabrın 10-da tamamlayır".

**Qeyd edək ki, azərbaycanlı zabit Vəli bəy Yadigar 1932-ci ildə Polşa Silahlı Qüvvələrinin Ali Hərbi Akademiyasını bitirmişdir**. İkinci Dünya müharibəsi illərində Xalq Ordusunun (Armiya Krayova) tərkibində süvari briqadanın qərargah rəisi və Lyubesk süvari alayının komandiri kimi hərbi əməliyyatlarda iştirak etmişdir. Polşada Tatar süvari alaylarının tarixindən bəhs edən kitabçanın (Varşava, 1925) və 1956-cı ildə Londonda çap olunmuş "Xalq ordusu tərkibindəki süvarilər" tədqiqatının müəllifidir. O, İkinci Dünya müharibəsindən sonra Argentinaya mühacirət etmiş, buradakı Xalq Ordusu döyüşçüləri mühacirət hərəkatının başçısı olmuşdur. Argentinada vəfat edən Vəlibəy Yadigarın nəşi 1991-ci ildə qohumları və dostları tərəfindən Polşaya gətirilərək Varşavadakı Tatar qəbirstanlığında dəfn edilib.

**Arxiv sənədlərində İsrafil bəy haqqında da məlumatlar çoxdur.** Polşanın Qrodno şəhərindəki 29-cu piyada diviziyada xidmət edən İsrafil bəy Azərbaycanın bolşevik işğalından sonra Türkiyəyə sığınmış, buradan isə Polşaya keçmiş, orduda xidmətə başlamışdır. İkinci Dünya müharibəsi illərində Azərbaycan legionerlərinin döyüşlərində iştirak edən İsrafil bəy 1943-cü ildə Berlində keçirilən Milli Azərbaycan Qurultayında çox diqqətli bir çıxış etmişdir. O, demişdir: "Əziz qardaşlar! Öz xalqının vətən azadlığı uğrundakı mübarizə tarixini bilməyənlər, ata-anasını tanımayan cocuqlara bənzərlər.

... Xalqımızda bolşeviklərə qarşı nifrət və barışmazlıq hissləri o qədər böyük olmuşdur ki, bunun nəticəsində 20 il içərisində – yəni 1920-1940-cı illər arasında 40-dan çox qanlı üsyanlar baş vermişdir.

Bolşeviklərin ölkəmizi şərəfsizləndirdiklərinə, ailələrimizi dağıtdıqlarına, səfərbərliyə alaraq Almaniyaya qarşı etdiklərinə və Azərbay-

canın ən yaxşı oğullarını güllələdiklərinə bizim xalq soyuqqanlılıqla baxa bilməz".

İkinci Dünya müharibəsi qurtardıqdan sonra Amerika-İngilis qoşunları legionerləri sovet ordusuna təhvil verməyə başladılar. Bu zaman tanınmış azərbaycanlı zabit albay İsrafil bəy əsl hünər və əsgərlərinə sədaqət nümunəsi göstərdi. Belə ki, müttəfiq orduların rəhbərliyi İsrafil bəyin yox, onun əsgərlərinin sovetlərə təhvil veriləcəyini bildirdikdə cəsur zabit demişdi**: "Mən yaşadığım müddətdə heç bir qüvvət başçılığım altında olanları barbar bir rejimə təslim edə bilməz. Ya hamımız bərabər hürriyyətə qovuşuruq, yaxud da bərabər ölürük!** Mənim birliyim əsir Vətənimizin hürriyyəti uğrunda çarpışmış və gözlərimin önündə on minlərlə qurban vermiş olan azərbaycanlılardan təşkil olunub. Mən bir komandan olaraq onları yalqız başına kommunizmin qanlı xəncərinə necə təslim edə bilərəm? Mən heç bir zaman övladlarımı yalqız buraxmaram. Onlarla bərabər ölmək mənim üçün ən böyük bir şərəfdir".

İngiltərə-Amerika qoşunları İsrafil bəyi sovetlərə təslim etdilər. Sovetlərdə İsrafil bəyi "vətən xaini" adı ilə güllələdilər. İsrafil bəyin digər bir qardaşı isə Amerikaya getmiş, Nyu-York yaxınlığındakı Nevada şəhərində yaşamışdır.

Qeyd edək ki, İsrafil bəyin həyat yoldaşı Fatma xanımın vəfatı ilə əlaqədar M.Ə.Rəsulzadənin Baş redaktoru olan "Qurtuluş" jurnalında da məlumat çap edilmişdi. 1937-ci ildə rəhmətə gedən bu xanıma yalnız azərbaycanlıların deyil, eləcə də bütün qafqazlıların xüsusi hörməti olduğu göstərilirdi. Bildirilirdi ki, Fatma xanım ana babasının olduğu Varşavadan kənarda olan Slonimə aparılmış və orada dəfn edilmişdir. Tabutun üzərinə isə üç rəngli Azərbaycan Bayrağını əks etdirən əklil də qoyulmuşdu.

**Polşanın Hərbi Qüvvələr Arxivində tanınmış Azərbaycan zabiti, 1920-ci ildə Gəncə üsyanına başçılıq etmiş polkovnik *Cahangir bəy Kazımoğlu* haqqında da məlumatlar vardır.**

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurulmasında yaxından iştirak etmiş C. Kazımoğlu həmin illərdə 3-cü Gəncə alayının komandiri olmuşdur. 1920-ci ilin aprelində Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra mayın 25-dən iyunun 4-dək Gəncə üsyanına başçılıq etmiş, müvəqqəti olaraq sovet hakimiyyətini devirmişdir.

Gəncə üsyanı yatırıldıqdan sonra o, Türkiyəyə getmiş, hərbi sahədə çalışmışdır. Bir müddət sonra Polşaya getmiş, bu ölkənin ordusunda müqavilə əsasında xidmətə başlamışdır. İkinci Dünya müharibəsində Azərbaycan legionunun təşkilatçılarından olmuş, tabur komandiri kimi döyüşlərdə

iştirak etmişdir. Uğurlu döyüş əməliyyatlarına görə o, Azərbaycan legionunun ordeni ilə də təltif edilmişdir. İkinci Dünya müharibəsindən sonra əvvəlcə İtaliyada, sonralar isə Türkiyədə yaşamışdır. 1955-ci ilin yanvarın 17-də bir qadın tərəfindən bileti alınmaqla təyyarə ilə Münhenə dəvət edilmiş və elə həmin görüşdə o, müəmmalı şəkildə vəfat etmişdir. Mətbuatda onun ölümünün sovet hökumətinin sifarişi olduğu, qadının isə DTK casusu olduğu və onun içki qədəhinə zəhər qatıldığı vurğulanıb.

Polşanın Hərbi Qüvvələrinin Mərkəzi Arxivindəki sənədlərdə qeyd olunur ki, Cahangir bəy Kazımbəyli 1885-ci ilin martın 15-də Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Müsəlman dininə mənsubdur. 8 sinifli gimnaziyanı bitirmişdir. Türk və rus dillərini bilir. İlk dəfə olaraq 1902-ci ilin yanvarın 5-də orduya daxil olmuşdur. 1918-ci ilin dekabrın 25-dək xidmətdə olmuş, həmin vaxtdan isə Azərbaycan Ordusunda xidmətə başlamışdır. Döyüşlərdə bir dəfə yaralanmış, iki dəfə kontuziya olmuşdur.

**Polşanın hərbi arxivlərində azərbaycanlı zabit *Hüseynqulu xan Xoyski* haqqında isə aşağıdakı məlumatlar vardır:**

“Adı, soyadı, rütbəsi – Hüseynqulu xan Xoyski, polkovnik.Anadan olduğu il – 22 sentyabr 1871. Anadan olduğu yer – Gəncə. Ölkə - Azərbaycan. Dini mənşəyi – Müsəlman. Milliyyəti – Azərbaycanlı. Valideynlərinin soyadı – İsgəndər xan Zeynal. Ailə vəziyyəti – Evli. Arvadının soyadı – Ziyat Xan. Uşaqlarının adı və anadan olan il – Valiyə – 17.XI.1905, İsgəndər – 15. IV.1907, Sima – 18. III. 1911, Zahid – 06.XI.19__.Təhsil – Kadetlər korpusu. Polyak ordusuna daxil olan il – 10.III.1924. Xarici orduya daxil olan il – 15.VIII.1989. Hərbi təhsil – Süvari zabitlər məktəbi. Yelizavetpolda ştab zabitləri üçün kurslar. Dilləri bilməsi – yazılı – fars, türk, rus.Şifahi – fars, türk, rus. Ölkələri bilməsi – İran, Türkiyə, Rusiya.

01.XI.1918-ci ilə qədər hesablanmış hərbi qulluğunun stajı – 29 il, 2 ay, 15 gün”.

***Qaynaq:***

1. *N.Yaqublu. M.Ə.Rəsulzadənin Azərbaycan- Polşa əlaqələrində rolu. B..2007*
2. *Polşa Respublikası, Varşava, Hərbi Qüvvələrin Mərkəzi Arxivi, məxfi sənədlər: 3180; 1939, v. 8,9,10,19,27,37,39.*
3. *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. “525-ci qəzet”, 9 dekabr 2006-cı il.*

## AVROPADAKI MÜHACİRLƏRİN FƏALLIĞI
## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV (1863-1934)

***“Bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır”.***



*Ə.M.Topçubaşov*

Azərbaycanın görkəmli siyasi xadimi, diplomat, hüquqşünas, çar Rusiyasında Birinci Dövlət Dumasının üzvü (1905) və Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin Sədri (1918-1920) olan Əlimərdan bəy Topçubaşov 1863-cü ildə Tiflis şəhərində qulluqçu ailəsində dünyaya gəlmişdir. İlk təhsilini I Tiflis gimnaziyasında almış və 1884-cü ildə oranı müvəffəqiyyətlə bitirərək Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuşdur. Lakin birinci semestrdən sonra o, hüquq fakültəsinə keçmiş və 1888-ci ildə oranı müvəffəqiyyətlə bitirərək hüquq elmləri namizədi adını almışdır.

Ə.M.Topçubaşov sonra Tiflisə gələrək məhkəmədə, vəkil vəzifələrində çalışmış, Tiflis geodeziya məktəbində hüquqdan dərs demişdir.

1918-ci ilin dekabrın 7-də Ə.M.Topçubaşov Azərbaycan Parlamentinin sədri seçildi.

1918-ci ilin dekabrın 28-də isə Azərbaycan Parlamenti Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini seçdi. Bu tərkibə Ə. Topçubaşov (sədr), Məmmədhəsən Hacınski (sədr müavini), Ə.Şeyxülislamov, Əhməd bəy Ağayev, M.Məhərrəmov, C.Hacıbəyli və M.Mehdiyev daxil oldu. 1919-ci il yanvarın 20-də Paris Sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyəti İstanbula gəldi. Lakin Fransa hökuməti onların Parisə gəlməsinə viza vermədi. Bu zaman Ə.M.Topçubaşov Türkiyə, İran, Rusiya, ABŞ, Böyük Britaniya, Fransa diplomatları və nümayəndələri ilə görüşlər keçirmiş, onlara Azərbaycanın siyasi və iqtisadi vəziyyəti haqqında məlumat vermiş, Azərbaycanın bir müstəqil dövlət kimi öz ölkələri tərəfindən tanınmasına köməklik göstərmələrini xahiş etmişdir.

1920-ci il yanvarın 15-də Azərbaycan nümayəndələrindən Ə.Topçubaşov və M.Məhərrəmov, Gürcüstan nümayəndələrindən İ.Sereteli və Z.Avalov Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Nazirliyin birinci katibi Jül Kambon Azərbaycanın yanvarın 11-də Ali Şura üzvləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanındığını bildirdi və Ə.M.Topçubaşova Paris Sülh konfransının rəsmi sənədini verdi. Ə.M.Topçubaşov Azərbaycanın siyasi vəziyyəti haqqında qısa məlumat verib böyük dövlətlər tərəfindən tanınma üçün təşəkkürünü bildirdi. Eyni zamanda bildirdi ki, Azərbaycan Respublikası böyük dövlətlər tərəfindən həm kömək, həm də müstəqilliyinin de-yure tanınmasını gözləyir. Azərbaycan Respublikasının dünyanın böyük dövlətləri tərəfindən tanınması Ə.M.Topçubaşovun başçılığı ilə Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi. Çətin və gərgin əməyin nəticəsində əldə edilmiş qələbə münasibətilə Ə.Topçubaşov Parisdən Azərbaycan Respublikasının baş naziri Nəsib bəy Yusifbəyova yazırdı: “Siyasət qədər çox elastik və dəyişkən heç nə yoxdur... bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır. Biz heç vaxt ümidimizi itirmirdik... Ona görə də belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla olursa-olsun müstəqillik əldə edəcəyimizə inanırdıq... Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq”.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimi Ə.M.Topçubaşov 1920-1934-cü illərdə Parisdə yaşamış, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, AXC-nin yaranması, ədəbi xadimlər haqqında kitab, qəzet və jurnallarda məqalələr yazmışdır. Siyasi mühacirətin görkəmli xadimlərindən biri kimi Ə.M.Topçubaşov Fransa rəsmi dairələrinin nümayəndələri ilə görüşərək Azərbaycanın işğalına son qoyulması uğrunda mübarizədə milli qüvvələrə yardım edilməsi məsələsini qaldırmış, ikitərəfli əlaqələrə dair problemləri müzakirə etmişdir. O,1920-ci il iyulun 5-16-da Spa (Belçika), 1921-ci il fevralın 21-dən martın 14-ə kimi keçirilən London (Böyük Britaniya), 1922-ci ilin aprel-may aylarında keçirilən Genuya (İtaliya) konfranslarında və b. iştirak etmişdir.

Ə.M.Topçubaşov 1934-cü ilin 5 noyabrında Parisin Sen-Deni rayonunda vəfat etmiş və Müqəddəs Kloud qəbristanlığında dəfn olunmuşdur.

---

***Qaynaq:***
*1.https://ru.wikipedia.org/wiki/Топчибашев,_Алимардан-бек*

*2. Cəmil Həsənli, Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, "ADA", 2013*

*3. Vilayət Quliyev (2013-04-15). "Əlimərdan bəy Topçubaşovun təvəllüd tarixi haqda" ( (azərb.)). 525.az. Arxivləşdirilib: saytından 2017-06-17 tarixində.*

*4. Ramiz Abutalıbov.Qodı i vstreçi v Parije(rus dilində), Moskva, 2007.*

## CEYHUN HACIBƏYLİ (1891-1962)



***Ceyhun Hacıbəyli***

Görkəmli mətbuat xadimi olan Ceyhun Hacıbəyli 1891-ci ildə fevral ayının 3-də Şuşada anadan olmuşdur. İlk təhsilini Şuşada N.Vəzirovun müdir olduğu məktəbdə, orta təhsilini isə Bakıda almışdır.

1908-ci ildə, yanvarın 12-də qardaşı Ü.Hacıbəyli ilə birlikdə yazdığı "Leyli və Məcnun" operası H.Z.Tağıyev teatrında tamaşaya qoyulmuşdur.

C.Hacıbəyli bir müddət Əlibəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində çalışmış, sonradan təhsilini davam etdirmək üçün Peterburqa getmiş, universitetin hüquq fakultəsinə daxil olmuşdur. Sonradan o, Fransaya getmiş və Sorbon universitetində oxumuşdur.

Azərbaycana qayıtdıqdan sonra o, müxtəlif qəzetlərdə Azərbaycan və rus dillərində məqalələrlə çıxış etmişdi.

C.Hacıbəyli, eyni zamanda, "Müsəlmanlıq", "İzvestiya", "İttihad", "Azərbaycan" qəzetlərinin redaktoru olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) o, bir müddət "Azərbaycan" qəzetində redaktor vəzifəsində çalışmış, sonradan isə Azərbaycan nümayəndə heyətinin tərkibində Parisə getmiş, orada ciddi fəaliyyət göstərmişdir. 1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər

tərəfindən işğal edildikdən sonra bir daha geri qayıtmamış, Fransada mühacirət həyatı yaşamışdır.

Avropada o, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, Azərbaycanın qədim tarixi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti ilə Qərb oxucularını tanış etmişdir. C.Hacıbəyli Parisdə nəşr olunan müxtəlif jurnallarda çıxış edərək, çoxlu sayda yazılarını nəşr etdirmişdir.

Bu yazılarında o, sovet totalitarizminin, Stalin rejiminin antidemokratik olmasını tənqid etmiş və ölkənin nəhəng bir həbs düşərgəsinə çevrildiyini pisləmişdir.

Eyni zamanda o, filoloji və tarixi mövzularda – xüsusən Azərbaycanın Rusiya tərəfindən işğalına aid və qədim Azərbaycan şəhərləri ilə də bağlı yazılar çap etdirmişdir.

Mühacirət illərində C. Hacıbəyli aşağıdakı əsərlərini yazıb nəşr etdirmişdir: 1) "İlk müsəlman respublikası Azərbaycan". 2) "Azərbaycanın mətbuat tarixi". 3) "İslam əleyhinə təbliğat və onun Azərbaycandakı metodları". 4) "Qarabağın dialekti və folkloru".

Eyni zamanda, o, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasını fransızcaya tərcümə edərək Parisdə tamaşaya qoymuşdur. C. Hacıbəylinin Parisdə fransız dilində nəşr edilən mətbuat orqanlarında da müxtəlif məqalələri nəşr edilmişdir.

C.Hacıbəyli 1962-ci ilin oktyabr ayının 2-də vəfat etmiş, Parisin Sen-Klu məzarlığında dəfn edilmişdir.

---

***Qaynaq:***

*Д.Гаджибейли. Избранное. Б. Азернешр, 1993, 128 с.*

## SOVET TƏYYARƏSİNİ QAÇIRAN AZƏRBAYCANLI. HÜRRİYYƏTƏ UÇAN TÜRK-MEHMET ALTUNBAY



***Mehmet Altunbay***

1911-ci ildə Gəncədə doğulan Mehmet Altunbay 1939-cu ildə dostları Cəlal (o, kommunistlər tərəfindən şəhid edildi) və Həsən Zeynallı ilə birlikdə Sovet İttifaqından təyyarə ilə qaçan ilk insanlar oldular. Kommunist rejimində yaşamaq istəməyən bu insanlar (onların sayı 22 idi və 14-ü şəhid oldu, qohumları ayrı-ayrı yerlərə sığındı, 3-ü isə təyyarəyə minib Sovetlər Birliyini tərk etdilər) əvvəlcə İran ərazisinə məcburi eniş etdilər. Çünki, sərhəddə sovet əsgərləri atəşlə təyyarəyə ciddi zədə yetirmişdilər. İran hökuməti isə onları Türkiyəyə göndərmədi və doqquz ay Təbriz həbsxanasında, Tehranda polis nəzarətində saxladı. Sovetlər Birliyi isə onların geriyə qaytarılması üçün İrana nota da vermişdi. Onlar çox çətinliklə 1941-ci ildə İrandakı türk elçiliyi vasitəsi ilə Tehrandan Türkiyəyə qaça bildilər. Bu hadisədən sonra onların Azərbaycandakı əksər qohumlarını həbs edib, Sibirə sürgünə göndərdilər.

Mehmet Altunbay Türkiyəyə gəldikdən sonra, 1945-1960-cı illərdə Türkiyə Hava yollarında pilotluq etmiş, 1960-1963-cü illərdə “Azadlıq” radiosunda çalışmışdır.

Sonrakı illərdə o, türk dünyasına aid kültür və sənət fəaliyyətlərini Türkiyə ictimaiyyətinə çatdırmaqla məşğul olub.

M.Altunbay 180-dən çox konfranslarda kommunizm rejimi əleyhinə çıxışlar edib.

Ömrünün sonlarında “Hürriyyətə uçan türk” adlı əsərini yazdı. Lakin o, bu əsərin nəşrini görə bilmədi. Həmin kitab 1989-cu ildə Azərbaycan Kültür Dərnəyi yayınları olaraq (№36) Ankarada nəşr edildi.

M.Altunbay 1987-ci ilin 28 dekabrında vəfat etmişdir.

Qeyd: Mehmet Altunbay 1911-ci ildə Gəncədə doğulub. Neft və Kimya İnstitutunun 1-ci kursundan ayrılıb, Hərbi Hava Məktəbində oxuyub. 1933-cü ildə Odessa Əsgəri Hava Məktəbini bitirib. 1939-cu ildə Bakıda Hava Məktəbi Uçuş Birliyi komandiri olub və oradan sovet təyyarəsini qaçırıb.




***"Hürriyyətə uçan türk" kitabı***

---

***Qaynaq:***

*1. "Hürriyyətə uçan türk" (Mehmet Altunbayın xatirələri). Ankara, 1989-cu il.*

*2. Həsən Zeynallının şəxsi arxivi.*

## SSRİ-ALMANİYA MÜHARİBƏSİ: 1941-1945-ci illərdə SOVET DÖVLƏTİNİN MÜHARİBƏ CİNAYƏTLƏRİ

1941-ci ilin iyunun 22-də SSRİ dövləti ilə Almaniya arasında müharibə başladı. Əslində sovet tarixi kitablarında bu müharibənin "Böyük Vətən müharibəsi" kimi təqdim olunması yanlış təbliğatdır. Bu, əslində iki ideologiyanın (bolşevizmin və faşizmin) toqquşması, dünyaya ağalıq etməsi uğrunda apardıqları bir savaş idi.

Bundan əvvəl isə hər iki dövlət 1939-cu ilin avqustun 23-də Moskvada Molotov-Ribbentrop paktını imzalamış, Avropa ölkələrini öz maraqları dairəsində bölmüşdülər. Sual olunur: Sovet dövləti Pribaltika ərazilərini niyə işğal etmişdi? Yaxud sovet əsgəri müstəqil bir dövlət olan Polşanın ərazisinə niyə daxil olur və Xatında 12 mindən çox polyak zabit və əsgərini güllələyirdi? Sovet qoşunlarının işğalçı məqsədlə 1939-cu ildə Finlandiyaya hücum etməsi də anlaşılmayandır.

1941-ci ildə Almaniya-SSRİ müharibəsi başlayanda əsgər paltarı geyinən 32 milyon nəfərin 5 milyon 734 min 528-i əsir düşərək (bəzən də könüllü) almanların tərəfinə keçmişdi.

Müharibə başlayanda Azərbaycanda əhalinin sayı 3 milyon 301 min 100 nəfər idi. Müharibə dövründə 600 minə qədər insan orduya aparılıb.

Azərbaycan Xalq Daxili İşlər Komissarlığının Komissar müavini, Dövlət Təhlükəsizliyi albayı (polkovniki) Qriqoryanın 1944-cü ilin 15 yanvarına olan məlumatına görə, Azərbaycanda həbs edilmiş və sürgün edilmişlərin ümumi sayı - 48 min 385 nəfər idi.

Müharibə ərəfəsində, 1939-cu ilin siyahıya alınmasına görə, Azərbaycanda yaşayan əhalinin milli tərkibi belə idi: 1) Azərbaycanlılar: 1.870.471 min; 2) Ruslar: 528 min 318; 3) Ermənilər: 388 min 025; 4) Ləzgilər: 111 min 666; 5) Talışlar: 87 min 506; 6) Yəhudilər: 41 min 245; 7) Tatarlar: 27 min 591; 8) Ukraynalılar: 23 min 643; 9) Almanlar: 23.133; 10) Avarlar: 15.740; 11) Gürcülər: 10 min 196; 12) Kürdlər: 6.005; 13) Mordovalılar: 5.008; 14) Osetinlər: 2700; 15) İranlılar: 2289; 16) və başqaları: 61610; **ümumi say: 3.205.150".**

Sovet İttifaqının siyasətindən narazı qalan azərbaycanlıların, eyni zamanda digər sovet xalqlarının da çoxlu sayda almanların tərəfinə keçdiyi aydın olduqda, Azərbaycan K(b)P MK-nın qərarı ilə hətta 17 yaşı tamam olmayanları da döyüş bölgələrinə göndərirdilər: "323 saylı protokol. Azərbaycan K(b)P MK bürosunun 22.X-1.XI-1943-cü il, "Azərbaycan K(b)P MK və Xalq Komissarları Sovetinin 1926-cı ildə anadan olanların hərbi xidmətə çağırılması haqqında". Qərarda oktyabrın 25-dən noyabrın 15-nə qədər 1926-cı il təvəllüdlü bütün kişi cinsinə mənsub olanların hərbi xidmətə çağırılması göstərilirdi.

Məxfi sənədlərdə isə əsgərlərin çoxunun rus dilini bilmədiyindən əmri düzgün yerinə yetirə bilməmələri və komandirlər tərəfindən ağır cəzalandırıldıqları qeyd olunur.

Sovet ordusunda vəziyyətin dözülməzliyindən döyüşqabağı əsgərlərin özünü güllələmə halları çoxalırdı. Bununla əlaqədar Qızıl ordunun Baş prokuroru Nosov bütün cəbhə və ayrı-ayrı ordu bölmələrindəki hərbi prokurorluqlara özünü güllələmə hallarına qarşı ölüm hökmü çıxarmağı əmr etmişdi.

Stalinin məxfi olaraq 1941-ci ilin avqustun 16-da verdiyi 270 saylı əmrdə əsir düşən insanın "Vətən xaini" élan edilməsi göstərilirdi.

Məlumdur ki, müharibə şəraitində insanların müxtəlif səbəblərdən (yaralanmaq, huşunu itirmək, mühasirəyə düşmək və s.) əsir düşməsi mümkündür. Keçmiş sovet hərbçisi V.Suvorov sonradan mühacirətə gedərək, sovet vətəndaşlığından imtina etmiş və oradakı fəaliyyətinə, yazıb çap etdirdiyi "Buzqıran" kitabına görə (o, bu kitabda sovet hərbi sirlərini açıqlamışdı və bu kitab xaricdə 18 dəfə yenidən çap edilmişdi) ona sovet dövləti ölüm hökmü kəsmişdi.

V. Suvorov həmin kitabda yazırdı: "Sənədlər sübut edir ki, müharibənin hər üç günü ərzində 92 hərbi xidmətçi güllələnirdi. Yəni hər gün 30 nəfəri hərbi bölmənin və hərbi hissənin sırası qarşısında güllələyirdilər".

V. Suvorovun açıqlamasından məlum olur ki, SSRİ XDİK-nin Xüsusi Şöbəsinin rəis müavini, Dövlət Təhlükəsizliyi Komissarı, 3-cü ranqlı Milşteynin SSRİ XDİK-nin Xalq Komissarı Beriyaya göndərdiyi məxfi arayışda öldürülənlərin sayı olduqca çoxdur. Arayışda yazılmışdı: "Müha-

ribə başlayandan oktyabrın 10-na qədər XDİK Xüsusi bölmələri və sərhəd qoşunları tərəfindən öz hərbi hissəsindən və cəbhədən qaçmış 657 min 364 nəfər hərbi xidmətçi saxlanılıb. Xüsusi şöbələrin qərarı ilə, Hərbi Tribunalın hökmü ilə 10 min 201 nəfər güllələnib. Onlardan 3 min 321 nəfər hərbi hissə qarşısında güllələnib".

Alman statistikası təsdiqləyirdi ki, 1941-ci ilin noyabrından dekabrına qədər alman əsirliyində olan 400 min sovet əsiri həlak oldu.

Qərb tədqiqatçıları sübut edirdilər ki, sovet əsirlərinin belə çox sayda həlak olmasının səbəbi faşizmdə deyil, Stalin sisteminin özündə idi. Əsirlərin çoxu aclıqdan həlak olurdular və onları xilas etmək mümkün idi. Lakin Stalin onları "Vətən xaini" adlandırmış və Beynəlxalq Qırmızı Xaç vasitəsi ilə ərzaq göndərməkdən imtina etmişdi.

Həqiqətən də Sovet dövləti hərbi əsirlərin hüquqi statusunu müəyyənləşdirən Cenevrə Konstitusiyasını imzalamamışdı.

Cəbhə bölgələrində, hərbi hissələrdə və döyüş yerlərində isə azərbaycanlı əsgərlərə qarşı kobud münasibətlər, nifrətli yanaşmalar var idi.

1941-1945-ci il müharibəsində 300 minə qədər Azərbaycan vətəndaşı həlak oldu.

---

***Qaynaq:***
*1. N.Yaqublu. Azərbaycan legionerləri. B., 2005.*
*2. Azərbaycan Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi.*
*Fond 1, siy. 154, i. 1, v. 16.*
*3. V. Suvorov. Buzqıran (rus dilində). M., 2000-ci il.*

## AZƏRBAYCAN LEGİONERLƏRİ: "BİZ YALNIZ AZƏRBAYCANIN AZADLIĞI UĞRUNDA MÜBARİZƏ APARIRIQ"



***Ə.Fətəlibəyli -Düdənginski Milli Azərbaycan Qurultayında çıxış edir. Berlin, 1943-cü il***

**Alman-sovet müharibəsi dövründə 70 minə** qədər (bəzi mənbələrdə 35-40 min göstərilir) azərbaycanlının almanlara əsir düşdüyü və onların tərəfinə keçdiyi qeyd olunur. Onları əvvəlcə **"Xivi"** (almancanın qısaldılmış forması "Nilvsvilige" - "könüllü köməkçilər") adlandırırdılar. Sonradan "Xivi"lərin hüququ artdıqca, onlar "legionerlər" (latın mənşəli sözdür: könüllülər, könüllü döyüşənlər) adlandırırdılar.

Almanlar hərbi əsirlərlə iş aparmaq məqsədi ilə ayrı-ayrı xalqların mühacirətdəki liderləri ilə də əlaqələr qururdular. Bundan ötrü **Şərq Nazirliyi** tərkibində müvafiq komissiyalar yaradıldı. Komissiyaların məqsədi əsirlərin siyahısını tərtib edərək, onları gələcək günlər üçün işlərə hazırlamaq idi. Həmin dövrdə İdil-Ural türkləri komissiyasına Əhməd Teymur, Şimali Qafqazlılar üzrə komissiyaya Əli xan Qantəmir, azərbaycanlılarla bağlı komissiyaya isə M.Ə.Rəsulzadə məsul idi.

Qeyd edək ki, almanlar bəzən azərbaycanlıları yəhudilərlə eyniləşdirib güllələyirdilər. Krımda isə 1500-ə qədər azərbaycanlı səhvən yəhudi bilinərək güllələnmişdi. Odur ki, azərbaycanlı əsirlərin xilas edilməsində M.Ə.Rəsulzadənin böyük xidmətləri var idi.

Ümumiyyətlə isə türk-tatar əsirlərinə almanların müsbət münasibətinin formalaşmasında, onlardan milli legionerlər yaradılmasında Türkiyə hərbçilərindən **general Nuru Paşa Killigilin, general Hüsnü Əmir Ərkilət Paşanın və Əli Fuad Ərdanın** adları qeyd olunur.

Legionerlərin ideoloji cəhətdən hazırlığında aparıcı rolu, əsasən, keçmiş mühacirlər oynayırdılar. Müsəlman legionerlərin düşərgələrinə


AZƏRBAJÇAN

№ 46 (74) | Azərbajçan legionunun həftəlik qəzetəsı | 14. Nojabr 1943

Biz jalnız və jalnız istiqlalımız ycyn hərb edirik. Bizi bu myqəddəs məfkurədən vaz keçirəçək hec bir bəşəri qyvvət joqdur

DER STAATSMINISTER
UND CHEF DER PRÄSIDIALKANZLEI
DES FÜHRERS UND REICHSKANZLERS

BERLIN W 8,
Voßstraße 1
den 7. 11. 1943.

Sehr geehrter Herr Major!

Der Führer hat mich beauftragt, Ihnen für die ihm namens der Teilnehmer an der Tagung der Freiwilligen-Legion und der Patrioten Aserbeidschans telegrafisch übermittelten Grüße, die er herzlich erwidert, seinen besten Dank zum Ausdruck zu bringen.

Der Staatsminister
und Chef der Präsidialkanzlei des
Führers und Reichskanzlers

Berlin W 8
Vosstr. 1
7. XI. 43

Məhtərəm Baj major

Legionerlər və Azərbajçan vətənsevərləri adından göndərdijiniz təbrik teleqramına qarşı təşəkkyr izhar etməji və həmçinin sizi qəlbən təbrik etməji Fyhrer mənə tapşırdı.

Sizə sadiq — Hörmətlərlə!

Baj major Fətəlibəjli Dydənginsqijə — (Fyhrerin adı ilə) Meissner, Kaiserhof oteli Berlin

Bəjyk Almanja xalqının Fyhrerinə

An den Führer des
Grossdeutschen Reiches

Azərbajçanlı legioner və vətənsevərləri sizə, Bəjyk Almanja dövlətinin Fyhrerinə, bəşərijjət qulturunun ən qorqunç dyşməni olan bolşe-...

AZƏRBAJÇAN

№ 32 (60) | Azərbajçan legionunun həftəlik qəzetəsı | 8 Avqust 1943

Qatında azəri qurbanı

Bir neçə həftə bundan əvvəl verilən xəbərlərdən, Qatında əldyrylən Polsa ...

Dyşmənlə qəhrəmançasına vuruşan Aslan taburunun dəjyş ili avqustun 6-da tamam old

* * *

*Legionerlərin "Azərbaycan" qəzeti*

isə Yerusəlim müftisi **Hacı Əmin Əl-Hüseyn** dəfələrlə gəlmiş və Almaniya ilə müttəfiq olmayanlara qarşı müqəddəs savaş élan etmişdi.

Legionerlərin hərbi və siyasi hazırlığı ümumi andiçmə və milli bayrağın təqdim edilməsi ilə yekunlaşırdı. Bu mərasimdən sonra taburlar cəbhəyə göndərilirdi.

Legionerlərin fəaliyyəti ilə Almaniyanın Şərq Nazirliyində **professor Fon Mendenin** başçılıq etdiyi SSRİ Millətləri üzrə Baş İdarə fəaliyyət göstərirdi. Bu idarənin nəzdində Qafqaz İşləri üzrə idarə yaradılmışdı. Burada Qafqazdan olan ayrı-ayrı xalqları əhatə edən – azərbaycanlı, gürcü, erməni Şimali Qafqaz və Kalmık şöbələri var idi.

Lakin mühacirlər öz ölkələrinin müstəqilliyini irəli sürdüyündən almanlar tərəfindən qəbul edilmirdilər. Belə olduqda, Azərbaycan təmsilçisi M.Ə.Rəsulzadə və Şimali Qafqaziyalı Səid Şamil Almaniyadan çıxıb getmək məcburiyyətində qalmışdılar.

Qeyd edək ki, həmin dövrdə Almaniyada M.Ə.Rəsulzadənin başçılığı ilə **Milli Azərbaycan Komitəsi** də yaradılmışdı.

**M.Ə.Rəsulzadə Almaniyadan getmək səbəbini belə açıqlayırdı: "Milli haqlarımızı tanımayan və İstiqlal davamızı tanımayan bir hökumətlə birgə fəaliyyətin baş tutmayacağını təsdiq edərək meydandan çıxmağı qərara aldı. Elə də etdik. 1943-cü il 5 avqust tarixli bir memorandum imzalayaraq Berlini tərk etdik".**

Almanları "Milli Komitələr" maraqlandırmadığından, onlar "İrtibat (rabitə) heyətləri"nə üstünlük verirdilər. Bu qurum milli legionlarla Ordu Qərargahı arasında əlaqə vəzifəsini həyata keçirirdi.

**Azərbaycan Rabitə Heyətinə Əbdürrəhman Fətəlibəyli-Düdən-**

**ginski başçılıq edirdi**.

Azərbaycan legionerlərinə əvvəlcə qrup halında başçılıq edirdilər: Əbdürrəhman Fətəlibəyli – Düdənginski hərbi şöbəyə, Fuad Əmircan – mülki işlərə, Abbas Atamalıbəyov – diplomatik işlərə rəhbərlik edirdi.

Azərbaycan legionunun əsas bazaları Polşa və Almaniya ərazilərində yerləşirdi. Sonralar isə legionu Polşanın Rodom məntəqəsindən Fransanın cənubundakı Rodess şəhərinə köçürdülər.

Azərbaycan legionunda aşağıdakı taburlar var idi: **"Aslan", "İgid", "Dönməz", "Berqman", "Cavad xan", "817", "818", "819" və s.**

Azərbaycanlı könüllülərin ilk uğurlu döyüşlərindən biri Qafqaz bölgəsində Qaraçay türklərinin yaşadığı ərazilərdə olmuşdu. Onlar bu yerlərdəki kəndləri sovetlərdən azad etmişdilər. Ə.F.Düdənginski azərbaycanlı və Qafqasiyalı dəstələrinə belə müraciət etmişdi: "Qardaşlarım, bu qarlı dağların ardında bizi səbrsizliklə gözləyən milyonlarla gözüyaşlı əsir türk qardaşlarımız vardır. Onları qurtarmq bizim namus borcumuzdur, irəli!.."

**1043-cü ilin noyabrın 6-11-də Berlində Ə.F.Düdənginskinin başçılıq etdiyi "Azərbaycan Milli Birlik Məclisi"nin təşəbbüsü ilə Milli Azərbaycan Qurultayı keçirildi.**

Milli Azərbaycan Qurultayı beş maddədən ibarət qərar qəbul etdi. Qərarda yazılırdı: "…Milli Müqəddəratımızın həllinə və istiqlalımızın bərpasına sarsılmaz bir inamımız var. Bunun isə ilk şərti əzəli və əbədi düşmənimizin məhvindən ibarətdir".

Bundan əlavə, azərbaycanlılar Şərq Nazirliyinin himayədarlığı ilə "Azərbaycan" adlı qəzet nəşr edib, legionerlər arasında yayırdılar. 1942-ci ilin may-iyun aylarından Berlində hər on gündən bir, 6-8 səhifə həcmində, 10-20 min tirajla yayımlanan bu qəzet legionerlər arasında yayımlanırdı.

Eyni zamanda legionerlər "Hücum" qəzetini və "Milli Birlik" jurnalını da nəşr edirdilər. Bu qəzet və jurnallar latın əlifbası ilə Azərbaycan dilində çap edilirdi.

**"Azərbaycan" qəzetinin 1943-cü ilin 14 noyabr sayında başlığa çıxarılan bir fikir bütün legionerlərin ümumi fəaliyyətini özündə əks etdirirdi: "Biz yalnız və yalnız İstiqlalımız üçün hərb edirik. Bizi bu müqəddəs məfkurədən vaz keçirəcək heç bir bəşəri qüvvət yoxdur".**

Almaniya Təbliğat Nazirliyində yaradılmış Radioverilişlər xidməti rus, ukrayna, belorus, Pribaltika və Qafqaz redaksiyalarından ibarət idi. Radioverilişlərin Azərbaycan redaksiyasına əvvəllər Tuqay Məmmədov,

sonradan isə Rəhim Qazıyev başçılıq etmişdi.

Azərbaycan legionerləri N.Nərimanovun "Bahadır və Sona" əsərini, Cabbar Məmmədovun "Azərbaycanda Milli hərəkat" (1920-1941-ci illərdə Azərbaycan xalqının mübarizəsinə aid) kitabını, Ceyhun Hacıbəylinin tərtibatında "Atalar sözü"nü, Lətif Kərimovun tərtibatında "Azərbaycan şeirlər almanaxı"nı nəşr etmişdilər.

Azərbaycan legionerlərinin çoxu 1945-ci ildə müharibə bitdikdən sonra da Türkiyədə və Avropa ölkələrində qalıb Azərbaycanın azadlığı uğrunda mübarizələrini davam etdirdilər.

***Qaynaq:***
*1. N.Yaqublu. Azərbaycan legionerləri. B., 2005.*
*2. M.Cəfərli. Legion ədəbiyyatı. Bakı, 2005.*
*3. "Azərbaycan" qəzeti. Berlin, 14 noyabr, 1943-cü il, №46 (74).*

## AZƏRBAYCAN LEGİONERLƏRİNİN KOMANDİRİ, "AZADLIQ" RADİOSUNUN BAŞ REDAKTORU NİYƏ QƏTLƏ YETİRİLDİ?

### *(DTK casusu 1954-cü ildə Ə.Fətəlıbəylı- Düdənginskini nə məqsədlə öldürdü?)*



***Əbdürrəhman Fətəlibəyli-Düdənginski***

1954-cü ilin noyabrın 20-də "Azadlıq" radiosunun "Azərbaycan" redaksiyasının Baş redaktoru Əbdürrəhman Fətəlibəyli-Düdənginski Münhenin "Alpen-plate-6" meydanındakı bir mənzildə qətlə yetirildi.

Mayor Ə.Fətəlibəyli-Düdənginskinin qətli ilə bağlı Almaniyada nəşr edilən "Abendzeytung", "Der Stern", "Kuik" qəzetlərində geniş məlumatlar verildi. Münhendə nəşr edilən "Abendzeytung" qəzeti yazırdı: "1954-cü ilin noyabrın 22-də ba-

zar ertəsi günü Münhenin Alpen-plate-6" meydanında Mikayıl İsmayılovun meyiti tapıldı. Meyit basdırıldıqdan sonra məlum oldu ki, əslində öldürülən - "Azadlıq" radiosunun nüfuzlu işçisi Fətəlibəyli imiş. Cani isə Mikayıl İsmayılovdur. Ancaq hələ noyabrın 26-da dəfn günü "Azadlıq" radiosuna belə bir xəbər çatdı ki, Fətəlibəyli İsmayılovu özünümüdafiə zamanı öldürübmüş. Bu xəbərin kim tərəfindən verildiyi məlum olmadı. Ancaq şənbə günü noyabrın 28-də, bir həftədən bəri işə çıxmayan Fətəlibəylinin cani deyil, öldürülən olduğu məlum oldu. Bu, heç bir axtarışın nəticəsi deyildi. Sadəcə olaraq Azərbaycan redaksiyasının üzvləri bu xəbəri alman polisinə çatdırdılar. Təhqiqat nəticəsində 3 gün əvvəl İsmayılov adı ilə basdırılan meyidin Fətəlibəyli olduğu müəyyənləşdirildi. İsmayılovun – qatilin şəkli bir həftədən sonra, dekabrın 2-də qəzetlərin şənbə axşamı sayında dərc edildi".



*Ə.F.Düdənginskinin qətli*

Bəs Ə.Fətəlibəyli-Düdənginski nə məqsədlə qətlə yetirildi?

Təbii ki, Ə.F.Düdənginskini "Azadlıq" radiosunda Sovet rejiminə qarşı apardığı təbliğat işlərinə görə qətlə yetirdilər. Bundan əvvəl onun qardaşı Seyfulla da müəmmalı şəkildə motosiklet qəzasında həlak olmuşdu.

Ə.Fətəlibəyli-Düdənginskini, onu hələ müharibədən – legioner həyatı illərindən tanıyan azərbaycanlı Mikayıl İsmayilov qətlə yetirmişdi. Müharibədən sonra İtaliyada yaşayan, 1951-ci ildə Bakıya qayıtdıqdan sonra DTK tərəfindən ələ keçirilən M.İsmayılova Almaniyaya gedib Ə.Fətəlibəylini öldürmək tapşırığı verilir. Almaniyaya gəldikdə o, bu vəddən imtina etməyə çalışsa da, baş tutmur. Beləliklə, 1954-cü ilin noyabrın 20-dən 21-nə keçən gecə birlikdə yeyib-içdikdən sonra çəkic aləti ilə Ə.Fətəlibəylini vurub öldürmüşdü.

M.İsmayılov isə Sovet İttifaqına qayıtdıqdan sonra onu Bakıda, Şüvəlandakı bağında asıb öldürdülər. DTK onu asmaqla həm də izi itirmək istəyirdi.

Ə.F.Düdənginski Sovet rejiminin işğalı mahiyyətini açıqlayan yazıları və verilişləri ilə sovet dövlətini narahat edirdi. Mayor Ə.F Düdənginskinin həm sovet hərbçiləri, həm də legionerlər arasında böyük nüfuzu var idi. O legionerlərdən Azərbaycana qayıdıb, onu xeyirxahlıqla xatırlayanlar da az deyildi. Ə.F.Düdənginski rus dilində təhsil almış və bu dildə də ideoloji təbliğat aparırdı. Onun Münhendə "SSRİ-ni Öyrənmə İnstitutu"ndakı çıxışları böyük maraqla qarşılanırdı. Onun bu fəallığı sovet dövlətini narahat etməyə bilməzdi.

**Əbdürrəhman Əli oğlu Fətəlibəyli (Abo Düdənginski)** 1908-ci ilin iyunun 12-də Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olub. Tiflisdəki hərbi-piyada məktəbini bitirib, sonra Azərbaycan diviziyasında xidmət edib. Moskvada Hərbi Akademiyada təhsil alıb. Minbaşı (mayor) rütbəsində olub. Sankt-Peterburq (Leninqrad) hərbi dairəsinin qərargahında xidmət etmiş, 6-cı şöbənin rəisi olmuşdur.

Sovet ordusunda bacarıqlı hərbi xidmətinə görə "Qızıl Ulduz" ordeni ilə təltif edilib. İkinci Dünya müharibəsində Azərbaycan legionunun başçısı olub. ABŞ Konqresinin maliyyələşdirdiyi "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının, eyni zamanda, "Azərbaycan" jurnalının (C. Hacıbəyli ilə birlikdə) Baş redaktoru olub. 1954-cü ildə SSRİ DTK-sının (KQB) hərbi kəşfiyyatı tərəfindən qətlə yetirilib. Ə.Fətəlibəyli Münhen yaxınlığında Noy-Ulm şəhərindəki qəbirstanlıqda qardaşı Seyfullanın məzarı yanında dəfn edilib.

**"Azadlıq" radiosunda çıxışlarından (Azərbaycanlılara ilk müraciət, 1953-cü il, mart):**

1. **"Biz azərbaycanlılar, Sovet İttifaqının başqa xalqları kimi, kommunist rejimini məhv edib, alınmış azadlığımızı qaytarmaqda qərarlıyıq. Harada olmağımızdan asılı olmayaraq, istər Sovet İttifaqında, istərsə də xaricdə – azad Qərbdə olaq, hamımız ürəkdən bir şeyi istəyirik: Kreml hakimiyyətinin yıxılmasını!**
   **...Kommunist hakimiyyətinin ən ağır cinayətlərindən biri kimi, biz onun xalqın yaradıcı fəaliyyəti və ölkənin mədəni həyatı üzərindəki zülmünü qeyd edirik. Böyük Azərbaycan ədəbiyyatı, musiqisi, salnaməsi, elmi xalqın bütün yaradıcılıq fəaliyyətinin formaları Stalin tiranlığı ilə məhv edilmişdir".**

2. **"Kremlə münasibətdə sərt siyasət" (Bülleten №109, 29 iyun, 1953-cü il):**

   "Vaşinqtonda Amerika senatının Xarici İşlər Komissiyasının sədri Aleksandr Uayl Amerika xalqına və onun müttəfiqlərinə çağırışla müraciət etdi. Sakitləşmə siyasəti – Uayt bildirirdi – dayandırılmalıdır. Sovetin Berlin bölməsində baş verən üsyan, Çexoslovakiyada, Polşada və Şərq blokunun digər ölkələrindəki qarışıqlıq Kreml hakimiyyətinin nüfuzlu olmadığını açıq sübut etdi. Qərbin azad dünyası Sovet hökumətindən təcavüzkar siyasətindən uzaqlaşmasını qətiyyətlə tələb etməlidir".

3. **"Danışır "Azadlıq" radiostansiyası!" (Bülleten N 2931).**

   "...Demokratiya kommunizmə və sovet imperializminə ölüm hökmü oxumuşdur.

Azad xalqların və əzilən xalqların barışmaz birgə mücadiləsi bu hökmü yerinə yetirəcək və inşallah Vahid Azad Dünya yaradılacaq!"

Ə.F.Düdənginskinin Münhendə özünün redaktorluğu ilə iki dildə (Azərbaycan və rus) nəşr edilən "Azərbaycan" jurnalında Sovet dövlətinin siyasətini və kommunizm rejiminin bəşəriyyət üçün təhlükəliliyini tənqid edən yazıları da çap olunurdu.

---

***Qaynaq:***

*1. N.Yaqublu. Əbdürrəhman Fətəlibəyli Düdənginski. B., 2007.*

*2. N.Yaqublu. Azərbaycan legionerləri. B., 2002.*

## ƏBDÜRRƏHMAN FƏTƏLİBƏYLİ - DÜDƏNGİNSKİNİN 1946-CI İLİN 23 MARTINDA İNGİLTƏRƏNİN BAŞ NAZİRİ KLEMENT ETLİYƏ YAZDIĞI TARİXİ MƏKTUB

**Ə. Fətəlibəyli – Düdənginski bu məktubunda** SSRİ dövlətinin işğalçı mahiyyətini açıqlayır, ona qarşı bütün xalqların birləşib mübarizə aparması vacibliyini qeyd edir. Əslində bu məktub həm də SSRİ-yə qarşı soyuq mübarizə aparmağın güclü bir proqramıdır.



Частное письмо 1

Председатель Азербайджанского
Национального Комитета и член
Кавказского Комитета
Або Фаталибейли-Дудангинский

Италия
Газерта (Аверза)
23 марта 1946 года.

Его Превосходительству Премьер-Министру
Клементу Эттли.
Лондон

I

Как известно Вашему Превосходительству, что история большевизма, это — история предательств, войн и грабежей. В 1917 году они вонзили нож в спину русского народа, вывели его из войны и предали этот народ. Тем самым они предали и союзников России Англию, Францию, Америку и др.
В 1939 году, заключив союз с Гитлером большевизм предал интересы 1/6 части земли, интересы Англии, Франции и всех других миролюбивых народов и явился главным виновником войны.
Планы большевиков перед этой войной ясны каждому — столкнуть Германию, Англию, Францию и другие европейские страны между собой и дать возможность обоим сторонам истечь кровью, а потом большевистским сапогом наступить на их обескровленные тела. С такой легкостью хотел Сталин господствовать над пепелищем мира. Эта тактика большевизма порождена Лениным, Сталиным и этого они никогда не скрывали. Но к сожалению не нашелся ни один демократический деятель, который честно и открыто оповестил бы мир об этом.
Ясно, что в 1941 году под угрозой Гитлера Сталин стал вынужденным союзником Англии и Америки. А еще Mr. Черчиль называет его: „my war-time comrade"

**Ə.F.Düdənginskinin**
**K.Etliyə məktubu, 1946-cı il**

**Həmin tarixi məktubdan:**

“Bu gün İngiltərə və Amerikanın gücü bir də ondadır ki, bütün mütərəqqi və Vətənini sevən insanlar onların tərəfindədir. İngiltərə və Amerikanın ittifaqı, daha doğrusu Stalinlə, SSRİ və kommunizmlə bağlanmış qanunsuz müqavilədən imtina etmələri kifayətdir ki, bolşevizm tərəfindən əzilmiş bütün xalqlar öz azadlıqları və müstəqillikləri uğrunda müharibəyə başlasınlar. Biz hamıdan çox maraqlıyıq ki, bu müharibə daha çox siyasi olmalı və bolşevizmin əzdiyi xalqlar tərəfindən aparılmalıdır. Biz rus, ukraynalı, türk-müsəlman, qafqaz, polyak, yuqoslav, bolqar, macar, fin, baltikyanı və başqa xalqlardan ibarət xilaskar ordular təşkil edəcəyik.

**Cənab Baş nazir,** biz bunun üçün bolşevizmə qarşı vuruşurduq... **Heç olmasa bir nəfər ingilis Stalini doğma ata, Beriya, Mikoyan, Tevosyan, Bela Kuna, Ku-Si-Nena və onlar kimi digər cinayətkarları rəhbər adlandırarmı?** Əlbəttə, yox. Bəs onda niyə İngiltərə və Amerika bunu bizim xalqlardan tələb edir? Kim, harada, nə vaxt görüb, yaxud xahiş edib ki, rus, ukraynalı və türk müsəlmanların atalarının ad və soyadları Soso Cuqaşvili (İosif Stalin), Anastas Mikoyan, Mkırtç Tevosyan, Maliko Qoqlidze, Bela Kun və s. olsun. Həmin xalqlar belə quldur dəstəsini və SSRİ-ni dəyişmirlər, əksinə, onlara nifrət edir və ilk imkan düşən kimi bu beynəlmiləl quldur dəstəsini və onların yaratdıqları SSRİ-ni məhv etmək üçün yaşayırlar”.

***Qaynaq:***

*1. N.Yaqublu. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı, 2000.*
*2. N.Yaqublu. Azərbaycan legionerləri. Bakı, 2005*

## "AZƏRBAYCAN" QƏZETİNİN BAŞ REDAKTORU – MƏCİD MUSAZADƏ (1914 -1990)



*Məcid Musazadə*

**Məcid Musayev** – Musazadə (Təxəllüsü Məcid Qarsalanidir) əslən İsmayıllı rayonunun Qərsələ kəndindəndir. O, 1914-cü ildə oktyabr ayının 10-da Bakıda dünyaya göz açmış, burada məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin ədəbiyyat və tarix fakultəsinə daxil olmuşdur. Universiteti uğurla başa vuran gənc Məcid Musazadə Bakıdakı dövlət kitabxanalarında, sonradan isə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi əməkdaş olaraq çalışmışdır. Lakin Böyük Vətən Müharibəsi onu sevdiyi işindən birdəfəlik ayrı saldı (88, 303).

1941-ci ildə müharibəyə göndərilən Məcid Musazadə 1942-ci ilin qızğın döyüşlərinin birində almanlara əsir düşdü. Burada yaxşı adamlarla rastlaşdı, Berlinə göndərildi. Əvvəlcə Berlindəki "İrtibat qərargahı"nda, sonra isə nəşrə başlayan "Azərbaycan" qəzetində müxbir və Baş redaktor vəzifəsində 1945-ci ilə qədər çalışmışdır. Müharibədən sonra o, Münhen şəhərində yaşamış, "Azadlıq" radiosunun Azərbaycan şöbəsində fasiləsiz 26 il işləmiş, müxtəlif illərdə şöbənin baş redaktoru olmuşdur. Peşə imkanlarından istifadə edərək həmişə xalqımızın ədəbiyyatını, tarixini, adət-ənənələrini fəal təbliğ etmişdir. 1990-cı ildə mayın 28-də Türk Dünyasını Araşdırma Vəqfinin Kayseri şəhərində təşkil etdiyi Birinci Azərbaycan Millətlərarası Konqresində iştirak edən Məcid Musazadə 1990-cı ilin iyulun 17-də 76 yaşında vəfat etmişdir. Həmin ilin iyulun 20-də Vətəndən uzaqlarda Münhendə Nordfriedhofda torpağa tapşırılmışdır.

---

***Qaynaq:***
*N.Yaqublu. Azərbaycan legionerləri. Bakı: BDU, 2003, 307 s.*

# AZƏRBAYCANDA GİZLİ TƏŞKİLATLAR, FƏAL ZİYALILAR
## (1940-1950 Cİ İLLƏR)

## ALMANİYA İLƏ YAXINLAŞMAQ, SSRİ-DƏN AZƏRBAYCANI AYIRMAQ
*(1942-ci ilin martında yaranmış gizli təşkilatın fəaliyyəti)*




*Əbülfət Məmmədov*

1941-1945-ci illərdə, SSRİ-Almaniya müharibəsi dövründə Almaniyanın gücündən faydalanıb Azərbaycanı SSRİ-dən ayırmaq istəyində olan insanlar da çoxdu. Almanların qısa bir zamanda sovet qoşunlarını ağır məğlubiyyətə uğratması, Moskvanın yaxınlığına gəlib çatması Stalin rejimindən narazı qalanları daha da fəallaşdırırdı. O dövrdə yalnız Azərbaycanda deyil, SSRİ-nin bir çox bölgələrində Almaniyaya meylli qruplar və təşkilatlar formalaşırdı.

1942-ci ilin martında Şuşada əsası qoyulan təşkilat belə adlanırdı: "Hitlerçilər partiyası". Bu təşkilatın Balakən rayonuna qədər ərazini əhatə edən




*Mahmud Rəhimov*




*Novruz Əhmədov*

ciddi şəbəkəsi yaranmışdı. Təşkilatın səksənə yaxın üzvü var idi. Təşkilatın şöbələri bunlar idi: Ağdam, Yevlax, Füzuli, Bərdə, Tərtər. Təşkilat üzvlərindən aşağıdakıların adlarını göstərmək mümkündür: Bəylər Naibov, Əsgər Məmmədov, Novruz Məmmədov, Hilal Həsənov, Mahmud Əliyev, Şahmar Şirinov, Musa Rəcəbov, Yusif Əhmədov, Rəhim Əliyev və b.

Sonradan DTK tərəfindən izlənilən təşkilat üzvləri həbs edilib, ağır cəzalara məruz qaldılar.



***Rəhim Sadıqov***



***Fəzail Mirsiyabov***



***Məhərrəm Ələsgərov***

***Qaynaq:***

*Vasif Babayevin şəxsi arxivi (DTK-nın materialları əsasında).*

## İLDIRIM TƏŞKİLATI

1940-cı illərdə də Azərbaycanda Sovet hökuməti əleyhinə fəaliyyət davam edirdi. 1937-ci ilin qanlı repressiyasından sonra, minlərlə insanın qətlə yetirilməsinə, sürgün edilməsinə, həbs olunmasına baxmayaraq, xalqın sovet rejimi əleyhinə müqavimətini tamamilə qırmaq mümkün olmamışdı. Bu dövrdə yaranan təşkilatların biri də **İldırım** adlanırdı.

Böyük Vətən müharibəsi dövründə ölkənin gənclərini xüsusi nəzarətdə saxlamaq üçün Dövlət Təhlükəsizlik orqanları ciddi səylə çalışırdı. Digər problem isə gənclərdə azad fikirlilik meyllərinin artması idi. Ölkənin rəhbəri Stalin bir dəfə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Abakumova belə göstəriş vermişdi: "Tələbələrin əhvali-ruhiyyəsinə nəzarəti gücləndirmək lazımdır. Onları tək-tək yox, dəstələrlə kökündən çıxarmaq vacibdir. Və qanunun bizə verdiyi ən yüksək ölçüyə keçmək lazımdır. İyirmi beş il vermək, on il yox. On il zindan deyil, məktəbdir. On il məktəblilərə vermək olar, təzə bığ salanlara isə – iyirmi beş il. Cavandırlar. Sağ qalarlar. Ölməzlər".

**Arxiv sənədlərindən aydın olur ki, İldırım təşkilatı 1943-cü ilin sonları - 1944-cü ilin əvvəllərində Azərbaycan Dövlət Universitetində (BDU) filologiya fakultəsində oxuyan Gülhüseyn Abdullayevin təklifi ilə İsmixan Rəhimovla birgə yaradılıb. Bu təşkilatın başlıca məqsədi - Azərbaycan Sovet Respublikasının Konstitusiyasında təsbit olunmuş Azərbaycan dilinin dövlət dili olması ilə bağlı mübarizə aparmaqdır.** Çünki hazırkı Sovet Azərbaycanında həqiqətdə bütün idarələrdə rəsmi dil rus dilidir və burada dövlət aparatında işləyənlərin əksəriyyəti ruslardır. Odur ki, çoxlu sayda azərbaycanlı kadrların yetişməsi qeyri mümkündür. Təşkilat elə bir Azərbaycan Kommunist Respublikasının yaradılmasını istəyir ki, bütün idarələr Azərbaycan dilində çalışsın, vəsiqələr, arayışlar azərbaycanca verilsin və təşkilat hesab edir ki, bütün dünya mədəniyyətinin ən yaxşı uğurlarına **öz ana dilimizdə** nail olmalıyıq. Təşkilat bunlara nail olacaq bir respublika yaradılmasını nəzərdə tutur.

İldırım təşkilatının əsas səkkiz üzvü vardı: 1) Abdullayev Gülhüseyn Hüseyn oğlu. 2) Rəhimov İsmixan Məmməd oğlu. 3) Zeynalov Hacı Hə-

bib oğlu. 4) Vahidov Aydın Məcid oğlu. 5) Əliyev Kamal Əlibaxış oğlu. 6) Abdullayev Musa Mirməmməd oğlu. 7) Rzayev Kamil Əbdülbaqi oğlu. 8) Ələsgərov Azər Abdulxalıq oğlu.

Təşkilat əsas fəaliyyətini Bakının ali məktəb tələbələri arasında aparırdı. Fəaliyyət istiqamətində **Milli Azərbaycan Respublikasının qurulması** əsas hədəf götürülürdü. **Təşkilat 1946-cı ilə qədər fəaliyyətdə olub**. Ona yaxın yığıncağı keçirilib. Geniş Proqram və Nizamnamənin hazırlanması mümkün olmayıb. Təşkilatın dağılmasının əsas səbəbi üzvlər arasında fikir müxtəlifliyinin olması, hərc-mərcliyin yaranması olub.

Təşkilatın andiçmə mərasimi 1944-cü ilin əvvəlində Aydın Vahidovun mənzilində keçirilən yığıncaqda qəbul edilib. Andın mətnini Ismixan Rəhimov tərtib edib, düzəlişləri isə Gülhüseyn Abdullayev aparıb.

**Andın mətni belə idi: "Duz-çörəyə and içirəm ki, anamın qanına, ana torpağa and içirəm ki, xalqımızn tam istiqlaliyyəti uğrunda mübarizədə öz yoldaşlarıma ömrümün sonunadək sadiq qalacağam. Əgər mən bu andı pozsam, onda öz cəzamı almalıyam".** Yığıncaq iştirakçıları andın mətnini bəyənib qəbul etmişdilər.

Təşkilatın fəaliyyətinə ciddi problem yaradan isə üzvlərin Azərbaycan şairi Səməd Vurğuna gizli məktub yazmaqları oldu. Təşkilata məlum olur ki, şair Səməd Vurğun 1944-cü ilin may ayında Yazıçılar İttifaqının plenumunda çıxış edir və ədəbiyyatın lazımi səviyyədə inkişaf etmədiyini qeyd edir. Təşkilat üzvləri S. Vurğunun simasında öz həmfikirlərini görürlər. Yəni S.Vurğun da mövcud cəmiyyətdən narazıdır. Və onlar düşünürdülər ki, S. Vurğuna məktub yazıb, onun razılığını alıb, təşkilata rəhbərliyə cəlb edəcəklər. Bu münasibətlə ona aşağıdakı məzmunda məktub yazıldı:

*"Hörmətli Səməd Vurğun! Bu məktub Sizə Azərbaycanın azadlıq və istiqlaliyyətini, sərbəst inkişafını düşünən, arzulayan və öz həyatını bu yolda qurban verməyə hazır olan gənclərin adından yazılır.*

*Hörmətli Səməd, nə üçün vaxtilə bütün dünyada dahi şairləri ilə tanınmış Azərbaycan indi, Sovet Cümhuriyyəti qurulduğu bir dövrdə 60 nəfər üzvü olan bir Yazıçılar İttifaqına malik olsun? Nə üçün öz Vətənində əsarət və ehtiyac içərisində yaşayan azərbaycanlı öz milli hüquqlarından istifadə etməsin?.. Azərbaycanın institutlarında tədris edilən elmi kitabların dili-*

*mizə tərcümə edilməməsinə səbəb nədir? Azərbaycanlıları daim ruslardan asılı etməkdirdmi? Cəbhədə ruslarla birlikdə çarpışan azərbaycanlıların milli dövlət dilinə malik olmamasına səbəb nədir?"* ***(Məktub ixtisarla çap olunub -red).***

Həmin məktubu kiçik yaşlı bir uşaqla S. Vurğuna çatdırırlar. Bir qədər sonra bu adsız məktub Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarının da əlinə düşür.

1945-ci ilin yanvarında ekspertlər müəyyən edirlər ki, həmin məktubun müəllifi APİ-nin (Azərbaycan Pedaqoji Universiteti) aspirantı İsmixan Rəhimovdur. İsmixan Rəhimov 1948-ci ilin sentyabrın 26-da, 247 saylı order əsasında həbs edilir. Bundan sonra ağır istintaq prosesi başlayır. İ.Rəhimovla yanaşı, təşkilatın digər üzvləri də həbs edilir. İstintaq prosesində ən çox bu ittihamlar səsləndi: 1) Vətən müharibəsi dövründə sovet quruluşuna və dövlətinə qarşı əksinqilabi təbliğatın aparılması. 2) Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və Azərbaycanda burjua milli respublikası yaratmaq. 3) Azərbaycanın görkəmli şairlərindən birinə antisovet, millətçi məzmunda məktubun yazılmasında fəal iştirak etmək. 4) Antisovet, millətçi dəstə təşkil edib, öz aralarında Sovet dövlətinin, ÜİK(b)P-nın apardığı siyasətə qarşı böhtançı və yalançı şaiyələr danışmaq və s.

1949-cu ilin 21-22 martında Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri Üzrə Məhkəmə Kollegiyası Bakı şəhərində Muradovun sədrliyi ilə xalq iclasçıları Ramazanova və Paşayev, prokuror Ramazanov, müdafiəçi Hacıyev, Həsənov və Davıdov, Zülfüqarovanın katibliyi ilə bağlı məhkəmə iclasında işə baxaraq aşağıdakı hökmü verdi: 1. Rəhimov İsmixan Məmməd oğlu, 2. Abdullayev Gülhüseyn Hüseyn oğlu, 3. Zeynalov Hacı Həbib oğlu. CM 21-64, 72 m. 2 h. və 73 m. və CM 64 m. sanksiyasına əsasən 283 nömrəli işdə Azərbaycan SSR DT naziri Yemelyanovun imzası ilə təsdiq edilmiş 1949-cu il 21 fevral tarixli qərarla "SSRİ DİN xüsusi dustaq düşərgələrinin birinə göndərilsinlər".

Onların hər üçü 25 illik həbs düşərgələrinə göndərildilər. Qalan beş nəfər isə (Aydın Vahidov, Azər Ələsgərov, Musa Abdullayev, Kamal Əliyev və Kamil Rzayev) 10 illik həbsə məhkum olundu.

1956-cı ilin iyulun 22-də (artıq Stalinin ölümündən sonra yeni başlanan reabilitasiya prosesində) SSRİ Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası həbsdə yatan bu 8 nəfərin işlərində cinayət tərkibi olmadığı üçün Azərbaycan SSR Ali Məhkəməsinin 1949-cu il 21-22 mart tarixli hökmünü və həmin Ali Məhkəmənin 1955-ci il 9 aprel tarixli qərarını da ləğv etdi və onlar haqqında cinayət işi xətm olundu.

***Qaynaq:***
*Z.Bünyadov. Qırmızı terror. B., 1993.*

## İLDIRIM TƏŞKİLATININ QURUCULARINDAN BİRİ – GÜLHÜSEYN HÜSEYNOĞLU

**Abdullayev Gülhüseyn Hüseyn oğlu (Gülhüseyn Hüseynoğlu)** – Azərbaycan nasiri, ədəbiyyatşünas, 1953-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor (1988), antisovet "İldırım" təşkilatının qurucularından biri. 30-a qədər kitabı nəşr edilib.


***Gülhüseyn Hüseynoğlu***

**Gülhüseyn Hüseynoğlu** 1923-cü il oktyabrın 16-da Azərbaycanın Masallı rayonunun Mollaoba kəndində anadan olmuşdur. 3-4 yaşında ikən ailəsi Bakıya köçdüyündən orta təhsilini burada almışdır. 1947-ci ildə ADU-nun filologiya fakultəsini bitirmiş, aspiranturaya qəbul olunmuş, lakin şəxsiyyətə pərəstiş dövründə həbs edilmiş, 25 il azadlıqdan məhrum olunmuşdur. 1956-cı ildə ona tam bəraət verilmiş, aspiranturaya bərpa edilmişdir. Universitetdə müəllim saxlanmışdır. Universitetin Azərbaycan sovet ədəbiyyatı kafedrasının professoru, filologiya fakultəsi elmi şurasının üzvü olmuşdur. "Ana" adlı ilk hekayəsi 1944-cü ildə, "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeiri isə 1946-cı ildə işıq üzü görmüşdür.

M.Müşfiq barədə elmi monoqrafik əsərin, çoxlu tədqiqat xarakterli məqalələrin müəllifidir. Oçerk, povest və elmi-tədqiqat əsərləri yazsa da, bədii yaradıcılığında mənsur şeir və hekayə başlıca yer tutur. Azərbaycan ədəbiyyatında mənsur şeirin yaradıcısı kimi tanınır.

Azərbaycan Yazıçılar İttifaqının V qurultayında İdarə Heyətinin üzvü olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin X qurultayında birliyin nəsr bölməsinin rəhbəri seçilmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. İndiyədək otuza yaxın kitabı kütləvi tirajla buraxılmışdır. Mikayıl Müşfiq adına 18 saylı məktəbdə dərs demişdir.

Gülhüseyn Hüseynoğlu 8 iyul 2013-cü ildə vəfat etmişdir.

***G.Hüseynoğlunun müstəqillik dövründə nəşr etdirdiyi kitablar:***

*1. Kişi kimi. Bakı: Gənclik, 1992, 90 səh.*

*2. Seçilmiş əsərləri (iki cilddə), I cild. Bakı: Azərnəşr, 1993, 340 səh.*

*3. Seçilmiş əsərləri (iki cilddə), II cild. Bakı: Azərnəşr, 1993, 439 səh.*

*4. Məhəbbətdirmi bu. Bakı: Gənclik, 1996, 452 səh.*

*5. Mikayıl Müşfiq (albom-kitab). Bakı: İşıq, 1999, 152 səh.*

---

*Ədəb:*

*https://az.wikipedia.org/wiki/Gülhüseyn_Hüseynoğlu*

## İLDIRIM TƏŞKİLATININ QURUCULARINDAN BİRİ – İSMİXAN RƏHİMOV

İsmixan Məmməd oğlu Rəhimov 1925-ci il sentyabr ayının 18-də Bakı şəhərində anadan olub. 1931-ci ildə Bakı şəhərində orta məktəbə daxil olub. 1937-ci ildə, İsmixanın 11 yaşı olarkan onun atası işğalçı rejim tərəfindən həbs edilmiş və bir daha geri dönməmişdir. İ.Rəhimov 1941-ci ildə Xarici Dillər İnstitutuna qəbul olmuş və 1943-cü ildə təhsilini fərqlənmə diplomu ilə bitirmiş, daha sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə daxil olmuş və burada təhsil alarkən Azərbaycan Tibb İnstitutuna qəbul olmuşdur. Aspiranturaya qəbul edilməsi ilə əlaqədar tibbi təhsilini dayandırmışdır. Lakin 1948-ci ildə Sovet rejimi

tərəfindən həbs edilən İsmixan Rəhimov Azərbaycan Dövlət Universitetindəki təhsilini sona çatdıra bilməmişdir.



***İsmixan Rəhimov***

İsmixan Rəhimov 7 nəfər gənc həmkarı ilə "İldırım" adlı antisovet millətçi gənclər təşkilatı yaratdığına görə mühakimə edilmişdir: İsmixan Rəhimov 25 il azadlıq, 5 il seçki hüququndan məhrum edilmiş, bütün əmlakı müsadirə olunmuşdur. İsmixan Rəhimov haqqında məhkəmənin çıxardığı hökmdə deyilirdi: "İsmixan Rəhimov antisovet təşkilatın 1944-cü ilin və 1945-ci ilin əvvəlindən sistematik yığıncaqlarını təşkil edib, həmin yığıncaqlarda aktiv iştirak edərək Sovet dövlətinə və ÜİK(b)P siyasətinə qarşı çıxmış, sovet hökümətinin milli siyasətini pisləmiş, "İldırım" adlı antisovet təşkilatına sadiq qalacaqlarına and içmiş, antisovet təşkilatın nizamnamə və məramnaməsini tərtib etməyi öz öhdəsinə almış, gizli mətbəə və gizli şirift düzəltməyə çalışmış, Abdullayev Gülhüseyn ilə birlikdə Azərbaycanı görkəmli şairlərindən birinə (Səməd Vurğun) antisovet və millətçi məzmunlu məktub göndərmişdir. Rəhimovun əsas məqsədi Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və Azərbaycanda "Burjua millətçi respublika" yaratmaq olmuşdur".

Mərhum professor Həbib Babayev deyirdi: "O zaman biz tələbə idik. Bu hadisə bizi həyəcanlandırır, narahat edirdi. Qəlbimizi vətən məhəbbəti, qeyrət, təəssüb hissi ilə dolduran bu vətənpərvər gəncləri mühakimə edib qolları buxovlu halda məhkəmə binasından çıxarıb dustaq maşınına mindirdilər. İsmixan Rəhimov oraya toplaşanlara üz tutub dedi "Darıxmayın, biz gedirik, tezliklə qayıdacayıq".

**İ.Rəhimovun kitabları:**

1. *İngiliscə - Azərbaycanca lüğət. İsmixan Rəhimovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1992.*
2. *İngilis dilinin praktik qrammatikası: izahlar, çalışmalar, çalışmaların cavabları / İ.Rəhimov, T.Hidayətzadə, S.Mir Cəfərova. - Bakı: Azərnəşr, 2003.*
3. *Azərbaycan - İngilis və İngilis - Azərbaycanca lüğət. İsmixan Məmməd oğlu Rəhimov, Bakı, «Təfəkkür» nəşriyatı, 2003, 630 səh.*

## İLDIRIM TƏŞKİLATININ QURUCULARINDAN OLAN –



### Azər Ələsgərov

O, 10 il müddətinə azadlıqdan məhrum edilməklə, 5 il də seçki hüquqları alınmış və əmlakı 100 faiz müsadirə olunmuşdur.

Azər Əbdülxalıq oğlu Ələsgərov 1925-ci ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Universitetinin aspiranturasında təhsil aldığı müddətdə “İldırım” təşkilatı ilə əlaqəsinə görə həbs edilib. Həbsdən azad edildikdən sonra – ömrünün son illərində “Azərtac”da tərcüməçi olaraq çalışıb.



### Hacı Zeynalov

O, 25 il müddətinə azadlıqdan məhrum edilməklə, 5 il də seçki hüquqları alınmış və əmlakı 100 faiz müsadirə olunmuşdur.



### Azərbaycan Sənaye İnstitutunun V kurs tələbəsi Kamal Əliyev

O, 10 il müddətinə azadlıqdan məhrum edilməklə, 5 il də seçki hüquqları alınmış və əmlakı 100 faiz müsadirə olunmuşdur.



**Azərbaycan Sənaye İnstitutunun tələbəsi Aydın Vahidov**

O, 10 il müddətinə azadlıqdan məhrum edilməklə, 5 il də seçki hüquqları alınmış və əmlakı 100 faiz müsadirə olunmuşdur.



**Xalq Təsərrüfatı İnstitutunun tələbəsi Kamil Rzayev**

O, 8 il müddətinə azadlıqdan və 3 il müddətinə seçki hüququndan məhrum etməklə əmlakı 100 faiz müsadirə edilmişdir.



**Azərbaycan Pedaqoji İnstitutunun aspirantı Musa Abdullayev**

O, 10 il müddətinə azadlıqdan məhrum edilməklə, 5 il də seçki hüquqları alınmış və əmlakı 100 faiz müsadirə olunmuşdur.




***Qaynaq:***

*Z.Bünyadov. Qırmızı terror. B., 1993.*

## CƏFƏR RƏMZİ İSMAYILZADƏ – İYİRMİ BİR İL SOVET HƏBSXANALARINDA


*Cəfər Rəmzi*

**Cəfər Rəmzi** 1960-1980-ci illərdəki gəncliyə, onlarda inqilabi fikrin formalaşmasına və sovet rejiminə qarşı nifrət ruhunda böyüməsinə ciddi təsir etmişdir.

C.Rəmzi 1905-ci ildə anadan olub. Böyük şair Hüseyn Cavidin qardaşı oğlu ilə birgə oxuyub. 1927-ci ildə Darülmüəllimi bitirib. 1935-ci ildə sovet rejiminə qarşı çıxdığına görə onu həbs ediblər və 1956-cı ilə qədər həbsxanada qalıb.

1980-ci illərin əvvəllərində onun XIII əsrdən XX yüzilə qədərki Abşeron şairləri haqqında şeir kitabı da nəşr olundu. Ömrünün sonuna qədər sovet rejimini lənətləyirdi. C. Rəmzi sonralar Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləyib.

---

***Qaynaq:***
*R.Hüseynov. Əbədi Cavid. Bakı, 2007, 840 səh.*

**QƏMBƏR HÜSEYNLİ (1916- 1961)**
***Məşhur "Cücələrim" mahnısının müəllifini niyə 10 il həbs etmişdilər?***


*Qəmbər Hüseynli*

Tanınmış bəstəkar, məşhur "Cücələrim" mahnısının müəllifi Qəmbər Hüseynli 1916-cı ilin aprelin 16-da anadan olub, 1961-ci ilin avqustun 1-də 45 yaşında vəfat edib.

Bəstəkar 23 yaşında olarkən Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romansını yazmışdı. Qəmbər Hüseynlinin yaradıcılığında aşağıdakı məşhur mahnıları vardır. "İlk məhəbbət", "Gülə-gülə", "Ay işığında", "Dağlar", "Qonşuda qız sevənin", "Yar yanında günahkaram", "Gecələr uzanaydı", "Düşür yadıma", "Nə vaxta qaldı", "Sənsən", "Ceyran", "Dolanım başına", "Tel nazik", "Söz olur", uşaqlar üçün yazdığı "Salam, doğma məktəb", "Qaranquşla söhbət", "Dovşanım", "Uşaq və buz", "İdmançılar mahnısı", dillər əzbəri olan və dünyanın 100-dən çox ölkəsində səslənmiş "Cücələrim" nəğməsi.

Onun mahnılarını tanınmış Azərbaycan müğənnilərindən Şövkət Ələkbərova, Lütfiyar İmanov, Mirzə Babayev, Sara Qədimova, Əbülfət Əliyev, Fatma Mehrəliyeva, Gülağa Məmmədov, Rübabə Muradova, Nərminə Məmmədova, Məmməd Salmanov, Rəhilə Həsənova və başqa müğənnilər ifa etmişlər.

Onun musiqi əsərləri içərisində müxtəlif janrlarda yazılmış musiqilərə də rast gəlmək mümkündür. Qəmbər Hüseynli hələ çox gənc ikən Gəncədə yaşayarkən Hüseyn Cavidin "Şeyx Sənan", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Cəfər Cabbarlının "Almas", "Solğun çiçəklər", Zeynal Xəlilin "Qatır Məmməd" və başqa əsərlərə musiqi bəstələmişdir. Sonralar isə bəstəkar tanınmış şair Mirmehdi Seyidzadənin "Qızılquş" poeması əsasında opera yazmışdır.

Gənclik illərindən gələn çılğınlıq, yaşadığı dövrdəki haqsızlığa qarşı etiraz fikrini söyləməsi, Müşfiq, Əhməd Cavad, Cavid kimi böyük şairlərin repressiyaya məruz qalmasından narazılıq, sovet rejimi qaydaları ilə barışa bilməməsi nəticədə Qəmbər Hüseynlinin həbsi ilə yekunlaşır. 1943-cü ildə hərbi xidmətdən yayındığına görə on il müddətinə həbs edilib. O, həbs edilərkən Filarmoniyada işləyirdi və Ü.Hacıbəylinin tövsiyyəsi ilə yaradılmış Sazçı Qızlar ansamblına rəhbərlik edirdi.

Bəstəkar Süleyman Ələsgərovun söylədiyinə görə, əslində Q.Hüseynli cəbhəyə göndərilənlərin yola salındığı məntəqəyə bir az gec gəlib. O dövrdə isə müharibə dövrünün qaydalarına görə nəinki cəbhəyə gedəndə ləngiməyə görə, hətta zavodda – fabrikdə işləyən şəxsi belə 5-10 dəqiqə gecikmə səbəbi ilə ən azı işdən çıxarır, çox zamansa adını təxribatçı qoyaraq həbs edirdilər.

Bu haqda geniş məlumat Millət vəkili Rafael Hüseynovun Azərbaycan radiosunda hazırladığı "Axşam görüşləri" verilişində Süleyman Ələsgərovla müəllifin söhbətində verilib.

Q. Hüseynli Təhlükəsizlik orqanlarının nəzarətində saxlanılırmış. Əməliyyat məlumatlarına görə onun danışıqlarında narazı məqamlar, sovet rejimi haqqında tənqidi fikirlər tez-tez yer alırmış.

Q.Hüseynliyə on il həbs cəzası verilsə də, onun adı müharibədən sonrakı amnistiyalara salınır və 1947-ci ildə həbsdən azad edilir. O, Bakıya qayıdır, Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olur.

Q.Hüseynli həbsdən qayıtdıqdan sonra da yaxın dostlarla söhbətlərində mövcud qurumdan narazılıq, millətçi baxışlar üstünlük təşkil edir.

Şair Bəxtiyar Vahabzadə də Rafael Hüseynovun hazırladığı verilişdə bu haqda məlumatlar verib. Qeyd edək ki, B. Vahabzadə 1988-ci ilin avqustunda Qəmbər Hüseynliyə "İki qorxu" adlı bir poema həsr etmiş və burada onun həbsi məqamları da əks olunub.

Müğənni Rəhilə Həsənova Q.Hüseynlinin Dağlı məhəlləsində dar bir daxmada illərlə çox ağır mənzil şəraitində yaşadığını, buna görə xəstəlik tapdığını söyləyirmiş.

Qeyd edək ki, Q.Hüseynlini Cinayət Məcəlləsində nəzərdə tutulan "ASA"-ya (ASA – Anti-Sovet Agitasiyası, xalq arasında ASA deyilirdi) görə, yəni sovet dövləti əleyhinə təbliğat aparması ilə bağlı həbs ediblər.

***Qaynaq:***

*1. Akademik Rafael Hüseynovun şəxsi arxivi.*

*2. Ə.Rzayev. Milli musiqi sənəti salnaməsinə yeni səhifələr yazmış sənətkar.”Şərq Qapısı” qəzeti, 26 dekabr, 2015.*

***Qeyd:*** *Xalq Şairi Bəxtiyar Vahabzadə 1988-ci ildə böyük bəstəkar Q.Hüseynliyə həsr etdiyi “İki qorxu” poemasını yazdı və bu əsərdə tanınmış musiqiçinin həbs edilmə səbəblərini də açıqladı. Həmin əsərdən:*

***Mərhum bəstəkarımız Qəmbər Hüseynlinin xatirəsinə***

Mənim dostum idi, mahnılarından
Torpaq ətri gələn bəstəkar Qəmbər.
Dillərdə gəzərdi bizim bir zaman
Qoşa yazdığımız şirin nəğmələr.
Xoşuna gələndə yazdığım şeir,
Sözün alovuna bürünərdi o.
Bir anın içində tamam dəyişər,
Başqa bir sifətdə görünərdi o.
Şeiri dönə-dönə o, oxuyardı,
Sözün nəğməsinə dalar, uyardı.
Sonra dindirərdi astadan tarı,
Muğam naxışları, muğam xalları
Süzülüb axardı barmaqlarından;
Külçə gotürərdi söz dağlarından.
Alardı ilhamı sözdən, şeirdən,
Sənət meydanında çapan bəstəkar;
Muğamdan nəğməyə keçərdi birdən
Şeirin nəğməsini tapan bəstəkar.
Amma həmişə ala gözlərində bir kədər vardı,
Bilirdim, zamanla gəlmiş döş-döşə.
Odur ki, hər yerdə az danışardı.
Özü deməmişdi, bilirdim, onu

Neçə il qabaq həbs eyləmişlər.
Günahı nə imiş, bilmirdim, ancaq.
Nə mən soruşardım, nə o deyərdi.
Söhbət bu mətləbə yaxınlaşanda
Sözü dəyişdirib təzələyərdi.
Açıqca görürdün, gizli dərdi var,
Adamlar içində çox zaman susar.
Xatalı söhbətdən yan keçərdi o,
Yüz ölçüb, min ölçüb, bir biçərdi o.
Neçə il zindanda əzab çəkəli
Dolandı həmişə o, səksəkəli.
Məgər yalnız omu? Xeyr, hamımız.
Qaldı gözümüzdə bütün kamımız.
Qorxu qayda oldu, adicə qayda,
Qorxudan don biçdi əyninə illər.
Bu məmləkət boyda həbsxanada
Dustaq olmadıqmı hamımız məgər?
Gülmədi bir dəfə üzünə illər,
Kiçik bir daxmada yaşadı Qəmbər.
İçində dəfn etdi dərdi-sərini,
O bildi, yox imiş yazıya pozu.
Tar üstə yaratdı nəğmələrini,
Nə royalı vardı, nə pianosu.
Əlçatmaz zirvəyə daim can atdı,
Ucalıq eşqinə yazdı, yaratdı.
Amma neyləyəsən, bəyənmədilər,
"Qəmbər tar üstündə yazır" – dedilər.
Guya saz avazı, guya tar səsi,
Ulu dədələrin ulu nəğməsi
Uyuşmur zamanın öz ahənginə,
Əsrimiz sığışmaz saz ahənginə.
Ruhumuz qovuldu musiqimizdən,
Uyduq uzun illər caz ahənginə.
Bir soran olmadı, ay qardaş, nədən

Axı, baş yerinə ayaq tərpədən,
Bizi səmalardan yerə endirən,
Özgə qapısında veyilləndirən
Dayaz rok-en-rollar göyə ucalsın,
Üzeyir məktəbi yetimmi qalsın?
Hara çəkirsiniz musiqimizi,
Nadanmı sandınız bu qədər bizi?
Amma o satqınlar çatdı şərəfə.
Qəmbər bir dəfə
Mənə gileyləndi güzaranından,
Ürəyim sıxıldı... Soruşdum ondan:
Bəs səni nə üstə həbs etmişdilər?
Birdən barıt kimi açıldı Qəmbər:
Bilmirsən? Dünyanı lənətləmişdim.
"Ellər atasına" düşmən demişdim* .
Bu boyda ölkəni saldı nə günə.
O qəddar, o zalım, müdhiş zülmünə.
Bir dəfə demədi, həvəsdi, bəsdi,
Düşünən kəslərin başını kəsdi.

1988-avqust.

***Qaynaq:***
*V.Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı,. "Öndər nəşriyyat" 2004, 320 səh.*

***Qeyd:*** *Qəmbər Hüseynli ilə bağlı xalq arasında belə bir məqam da vurğulanır: O "Cücələrim" mahnısını yazandan sonra istintaq orqanlarına çağrılır və mühakimə edirlər: nə üçün fəhlə sinfindən yox, "Cücələrim"dən mahnı yazırsan? Bu bizim ideologiyamıza ziddir. Q.Hüseynli belə cavab verir: "Mən ona görə cücələrdən yazıram ki, onlar böyüyb toyuq olacaq, sonra yumurta qoyacaq, fəhlələr də o yumurtadan yeyib qüvvətlənəcəklər və daha çox işləyəcəklər".*

## AKADEMIK HEYDƏR HÜSEYNOV NİYƏ ÖZÜNÜ ASDI?



*Heydər Hüseynov*

1950-ci ilin avqust ayının 15-də görkəmli alim, akademik Heydər Hüseynov özünü asıb intihar etdi. Bu haqda mətbuatda rəsmi olaraq məlumat verilmədi. Hadisə yerinə tezliklə çoxlu sayda polis, prokurorluq işçisi gəldi. Adamları sorğu-sual etdilər. Heydər Hüseynovun özünü asdığı qapını möhürlədilər. Sonra da üç kiçik yaşlı uşağını və həyat yoldaşını uzun sorğu-suala tutdular. Bəs tanınmış alim özünü niyə asmışdı?

Görkəmli alim Heydər Hüseynov 1908-ci ildə anadan olmuşdu. 1939-cu ildə "M. F. Axundovun fəlsəfi görüşləri" əsərini Tbilisi universitetində müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb. 1944-cü ildə fəlsəfə elmləri doktoru olub. 1945-ci ilin mart ayında Azərbaycan SSR Elmlər Akademiysı təşkil olunur və o, Akademiyanın prezident müavini seçilir, ilk akademiklərdən biri olur.

1939-1940-cı illərdə isə onun rəhbərliyi ilə "Rusca-azərbaycanca lüğət", "Rusca-azərbaycanca məktəb lüğəti", "Azərbaycanca-rusca izahlı lüğət" kitabları hazırlanmışdı.

H. Hüseynovun ölümünə səbəb isə onun 1949-cu ildə yazdığı "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı əsəridir. Kitab haqqında tanınmış alimlər M.Arif, A.O.Makovelski, yazıçı M.İbrahimov mətbuatda xoş fikirlər yazdılar.

H.Hüseynov həmin kitabdan bir nüsxəni də Moskvaya – SSRİ Yazıçılar İttifaqının birinci katibi işləyən A.A.Fadeyevə göndərir. Bu kitabı A.Fadeyev M.C.Bağırovdan xəbərsiz Stalin mükafatına təqdim etmişdi. Bu məsələ də M.C.Bağırovda H.Hüseynova qarşı mənfi münasibət yaratmışdı.

1950-ci ilin martın 8-də "Kommunist" qəzetində belə məlumat var idi: "SSRİ Nazirlər Soveti 1949-cu ildə görkəmli əsərlər üçün aşağıdakılara Stalin Mükafatı verməyi qərara alıb: Ədəbi tənqid və sənətşünaslıq sahəsində: 25 min manatlıq üçüncü dərəcəli mükafat: 1.Hüseynov Heydər Nəcəf oğluna – "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" kitabı üçün".



***Heydər Hüseynov intihardan əvvəl qızları ilə***

Azərbaycandan Süleyman Rüstəm (şair), Mehdi Hüseyn (yazıçı), Bülbül (müğənni), Cahangir Cahangirov (bəstəkar), Lətif Kərimov (xalçaçı) da mükafatlara layiq görülmüşdülər.

Lakin bu kitaba münasibət birmənalı olmadı. Kitabda Dağıstanın qəhrəman oğlu, uzun müddət dağlıların milli-azadlıq hərəkatına başçılıq etmiş Şamilin adı çəkilmişdi. Burada sadəcə olaraq Mirzə Kazımbəyin Şamil hərəkatı haqqında fikirlərinə münasibət bildirilmişdi. H.Hüseynov Şamili haqlı olaraq xalq arasından çıxan el qəhrəmanı hesab edirdi. Kitabın yalnız iki səhifəsində Şamil haqqında məlumat verilirdi.

M.C.Bağırova da məlum idi ki, Stalinin dağıstanlılara, xüsusən də çeçenlərə (onları sürgün də etmişdi bir xalq olaraq) və Şamilə münasibəti mənfi ifi.

1950-ci ilin iyulun 14-də Bakı ziyalılarının yığıncağında "Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında" mövzusunda M.C.Bağırov geniş məruzə ilə çıxış etdi.

M.C.Bağırovun çıxışından: "H.Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı kitabı respublikamızda tarixi fəlsəfə sahəsində vəziyyətin əsla yaxşı olmadığını göstərir".




***H.Hüseynovun ölümünə səbəb olan kitab***

"Hüseynov öz kitabında müridizmə düzgün siyasi qiymət vermir.

… Şamil hərəkatının xalq hərəkatı, kəndli hərəkatı olmadığını belə bir fakt da sübut edir ki, Şamilin ən yaxın silahdaşları, onun inanılmış adamları və dayağı İlisu soltanı Daniyal bəy kimi iri feodallardan ibarət idi.

…Müridizmə və Şamil hərəkatına düzgün qiymət vermək üçün bilmək lazımdır ki, müridizm dini cərəyandır, İslamın ən mürtəce və qaba təzahürüdür".

Heydər Hüseynov isə kitabında Şamili belə səciyyələndirirdi:

"Mirzə Kazımbəy Şamil hərəkatını izləyərək, dağlıların rəhbəri haqqında yazırdı: "Şamil adı altında çoxlu tarixi və vətənpərvərlik fikirləri yatır. O, qəhrəmandır və igidlər yetirəndir.

…Şamili xalq seçmişdi və o, dağlıların igid rəhbəri olaraq öz əlində dini hakimiyyət saxlayırdı…"

Bundan sonra H.Hüseynova qarşı güclü təzyiqlər başladı. Partiya Tarixi İnstitutunun direktoru vəzifəsindən uzaqlaşdırıldı. Dostluq etdiyi bəzi alim və şairlər onunla salamlaşmaq belə istəmədilər. Kitaba verilən mükafat haqqında qərar ləğv edildi və s. Bu vəziyyətə dözməyən H Hüseynov hər iki biləyini kəsib intihara cəhd etmişdi. Lakin iş yoldaşları bundan xəbər tutub onu xilas etmişdilər.

1950-ci ilin avqustun 14-dən 15-nə keçən gecə Şüvəlandakı bağında görkəmli alim özünü asdı.

---

***Qaynaq:***

*1. H.Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı,1949, (rus dilində).*

*2. N.Yaqublu. Ağrılı ömürlər. Bakı ,"Yazıçı", 1990.*

*3. H.Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Tərcümənin redaktoru: Q.Əzizxanlı. Bakı, "Zəkioğlu" nəşriyyatı, 2006.*

*4. S.Hüseynova. Kitabın taleyi - müəllifin faciəsi. Heydər Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, s. 9-10*

*5. Azərbaycan Sovet Ensiklopediyası, X cild, Bakı-1987. s. 289*

# SOVET REJİMİNƏ QARŞI MÜBARİZƏ APARAN BEYNƏLXALQ TƏŞKİLATLAR

## PROMETEY TƏŞKİLATININ FƏALİYYƏTİ



*Prometeyin yaradıcılarından - Marşal Pilsudski*

Sovet rejiminə qarşı mübarizədə mühacirətdəki qüvvələrin fəaliyyətini daha da gücləndirmək məqsədi ilə 1926-cı ildə Parisdə Beynəlxalq təşkilat olaraq Prometey hərəkatı yaradılır. Hərəkatın yaradılmasında keçmiş Rusiya imperiyasının ayrı-ayrı xalqlarının liderləri (o cümlədən M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov və b.) fəallıq göstərir. **Prometeyçilərin başlıca vəzifəsi bu idi: 1) Öz xalqlarında siyasi şüuru oyatmaq və onları öz talelərini həll etməyə hazırlamaq; 2) Avropa və dünya ictimaiyyəti qarşısında Sovetlər Birliyində yaşayan rus olmayan xalqların problemlərini açıqlamaq; 3) Bolşevik diktaturasını ifşa etmək; 4) İlk vaxtlar isə müxtəlif xalqlarla birgə mübarizə aparmaq səylərini birləşdirmək.**

Qeyd edək ki, ilk yaradılan Prometey təşkilatına Azərbaycan, Gürcüstan, Kareliya, Komi, Krım, Kuban, Povoljye, Şimali Qafqaz, Türküstan, Ukrayna, Ural nümayəndələri daxil idi. Elə həmin ildə Parisdə, fransız dilində **"Prometey" jurnalı** nəşrə başlayır. Jurnal Müstəqil Qafqaz Komitəsi (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz) tərəfindən çap edilir. Azərbaycanlı mühacirlərin liderlərindən olan M.Ə.Rəsulzadə də jurnalın redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərir. Jurnalın redaktoru gürcü mühacirlərindən olan Georgi Qvarava idi.

1928-ci ildə Polşada - Varşavada da bu təşkilatın fəaliyyət davamı olaraq "Əzilən Rusiya Xalqları liqası" adlı Prometey cəmiyyəti yaradılır. Bu cəmiyyət (bəzi mənbələrdə – hərəkat adlanır) Polşa Xarici İşlər Nazirliyi və Baş Qərargahı tərəfindən Marşal Pilsudskinin birbaşa dəstəyi ilə fəaliyyət göstərir. Marşal Pilsudski SSRİ-yə qarşı mübarizə aparmaq üçün bütün mühacirlərin birləşdirilməsini və onların gücündən faydalanmağı vacib sayırdı.

Prometeyçilik termininin müəllifinin isə polyak polkovniki (albayı) Tadeuş Setselin olduğu bildirilir. O, 1924-1926-cı illərdə Polşanın Türkiyədəki hərbi attaşesi olub. Bu ideya – yəni antibolşevik cəbhənin yaradılması isə Polşa dövlətinin başçısı M. Pilsudski tərəfindən müdafiə edilib.

1938-ci ildə jurnalın formatı dəyişdi və o "Revyu de Prometey" adı ilə nəşr edilməyə başladı. Həmin vaxtdan – jurnalın bağlanmasına qədər baş redaktor Ukraynanın keçmiş Xarici İşlər Naziri (1918-ci il) Aleksandr Şulgin olmuşdu.

---

*Qaynaq:*

*1. R.Abutalıbov. Qodı i vstreçi v Parije. (Parisdə keçən illər və görüşlər). Moskva, 2006.*

*2. Unutkan tarih. Sovet sonrası Türkdilli Alay. Hazırlayan: Semih Vaner. İstanbul, 1996.*

*3. X.İbrahimli. Azərbaycan Siyasi mühacirəti. B., 1996.*

*4. N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

## "PROMETEY" JURNALI (1926-1939)

1926-cı ildə fransız dilində "Prometey" jurnalı nəşr edilməyə başladı. Jurnalın redaksiya heyəti və daimi müəllifləri tərkibinə Qafqazın, Türküstanın və Ukraynanın aşağıdakı görkəmli xadimləri daxil oldular: **Məhəmməd Əmin Rəsulzadə, Noy Jordaniya, Aleksandr Şulqin, Ayaz İshaqi, Mustafa Çokayoğlu, Miryaqub Mehdiyev və b.** Parisdə çap edilən "Prometey" jurnalında isə M. Ə. Rəsulzadənin




aşağıdakı maraqlı məqalələri çap edilmişdi: 1) "Azərbaycan Respublikası", 1926, N1, səh. 25-31; 2) "Bolşeviklərin Şərq siyasəti", 1928, N20, səh. 10-14; N21, səh. 6-11; 3) "Qafqaz Birliyi", 1929, N36, səh. 5-7; 4) "Milli Azərbaycan hərəkatının xarakteri", 1930, N42, səh. 11-13; 5) "Siyasətçi tarixçiyə qarşı", 1931, N51, səh. 6-8.

Bu jurnalda sovet rejimi əleyhinə kəskin yazılar dərc edilirdi.

## SSRİ-Nİ ÖYRƏNMƏ İNSTİTUTUNUN FƏALİYYƏTİ

ABŞ dövləti sovet rejiminə qarşı mübarizəsini gücləndirmək üçün Almaniyanın Münhen şəhərində "SSRİ-ni Öyrənmə İnstitutu" adlı bir qurum da yaratmışdı. Bu təşkilatın əsası, sovetləri tərk etmiş bir qrup mühacir elm adamının sərbəst korporasiyası olaraq 8 iyul 1950-ci ildə qoyulmuşdu. Təşkilatın əsas qurucuları Sovetlər Birliyinin siyasətini, iqtisadiyyatını və mədəniyyətini obyektiv və hər yöndən araşdırmaq, araşdırmaların nəticələrini Azad dünyaya çatdırmaq məqsədi güdürdü. İnstitutun nəzdində Sovetlər Birliyi haqqında əsərlər və dövri nəşriyyat (qəzetlər, jurnallar) toplanmış xüsusi bir kitabxana da təsis edilmişdi.


Институт по изучению СССР
8 MÜNCHEN 22 · MANNHARDTSTRASSE 6 · TELEFON 22 06 81-84
Телеграфный адрес: INERSU MÜNCHEN
Анализ текущих событий в Советском Союзе
Редактор В. Минайло
Институт по изучению СССР, основанный в 1950 году, является международным исследовательским центром для ученых, изучающих проблемы СССР. Целью Института является также публикация и распространение результатов исследования условий и тенденций развития СССР и подготовка экспертов по вопросам, связанным с изучением СССР. Желательны отзывы на публикуемые статьи. Отзывы и запросы об информации просим посылать на имя редактора по указанному выше адресу.

№ 357 30 марта 1965 г.

ПАРТИЙНЫЙ "ПАТРУЛЬ" ПРОТИВ ПРОНИКНОВЕНИЯ В СОВЕТСКОЕ ОБЩЕСТВО ЗАПАДНОЙ МУЗЫКИ

стр. 1 - 6

Материалы, содержащиеся в этих «Анализах», могут быть перепечатаны или использованы частично при условии указания источника. Институт желал бы получить копии статей, в которых были использованы эти материалы.

***SSRİ-ni Öyrənmə İnstitutunun Bülleteni, 1965-ci il***

İnstitutun fəaliyyətinin ilk mərhələsində (1950-1954-ci illərdə) bu təşkilatın müdiri V.A.Yakovlev, müdir müavini Əbdürrəhman Kunta, katib V.P.Marçenko olmaq üzrə 12 üzvlük bir heyət idarə edirdi. Bu mərhələdə Sovetlər Birliyi bir bütün olaraq araşdırılır və nəticələr rusca çap olunurdu. İnstitutun Sovetlər Birliyi problemlərinə həsr edilmiş ilk elmi konfransı 11-14 yanvar 1951-ci il tarixdə keçirilib. Qısa bir zamanda özünü azad dünyanın elmi və siyasi dairəsində tanıtmağa müvəffəq olan İnstitut, 1951-ci ilin martından Amerika Azadlıq (Qurtuluş) Komitəsi tərəfindən maddi cəhətdən dəstəklənməyə başlanmışdır.

1954-cü ildə institutun fəaliyyətində radikal dəyişiklik edildi. Bu mərhələdə yeni bir nizamnamə də qəbul edildi. Bu nizamnaməyə görə İnstitut aşağıdakı idarəedici orqanlardan təşkil olmalı idi:

1. Sovetlər Birliyini tərk edən müxtəlif millətlərə mənsub elm adamlarından ibarət İnstitut Assambleyası - Ümumi toplantı formalaşması. 45 əsl üzvlük Assambleya hər il və ya iki ildə bir toplanmalı, İns-



*Təşkilatın toplantısı. Münhen, 1960-cı il. Soldan ikinci azərbaycanlı Bayramrza bəy*

titutun fəaliyyət planını təsdiq etməli.
2. Assambleya tərəfindən seçilən və maliyyə idarə işlərini aparacaq, institutun elmi çalışmalarını idarə edəcək 12 üzvlük İnstitut Elmi Heyətinin yaranması.
3. Assambleya tərəfindən seçilən və maliyyə idarə işlərini aparacaq, institutun fəaliyyət planını gerçəkləşdirən müdir, müdir müavini və elmi katibdən İnstitut müdiriyyəti yaradılsın.

Qeyd edək ki, SSRİ-ni Öyrənmə İnstitutunun nəşr orqanı olaraq müxtəlif dillərdə ayrıca bir "Dərgi" jurnalı da çap edilirdi.

"SSRİ-ni Öyrənmə İnstitutu"nda azərbaycanlı mühacirlərdən Mehmed Əmircan (o, yazı işləri müdiri idi) və Mirzə Bala Məmmədzadə çalışır və ciddi fəaliyyət göstərirdilər. Xüsusən M. B. Məmmədzadənin Sovet rejimi əleyhinə çox kəskin məqalələri "Dərgi" jurnalında nəşr edilirdi.

"Sovetlər Birliyini Öyrənmə İnstitutu"nun müxtəlif dillərdə nəşr edilən aşağıdakı yayım orqanları var idi: 1. "Dərgi" (Sovet problemlərini və sovetlərin türklərlə məskun bölgələrini incələyən türkcə üç aylıq dərgi; 2. "Bülleten" (Sovet problemlərini incələyən ingiliscə aylıq dərgi); 3. "Studies on the Soviet Union" (Sovet problemlərini araşdıran üç aylıq dərgi); 4. "Sovyetstudien" (Sovet problemlərini araşdıran almanca altı aylıq dərgi); 5. "Problemes Sovietsduies" (Sovet problemlərini araşdıran fransızca altı aylıq dərgi); 6. "Estudio sobre la Umon Sovite-tica (Sovetlər haqqında bilgi verən ispanca üç aylıq dərgi); 7. "Məcəllə" Ərəb və İslam dünyasının ilgiləndirdiyi Sovet mövzularını yayınlayan ərəbcə üç aylıq dərgi.

## SSRİ-Nİ ÖYRƏNMƏ İNSTİTUTUNUN "DƏRGİ" JURNALI




ABŞ dövlətinin dəstəklədiyi "SSRİ-ni Öyrənmə İnstitutu"nun "Dərgi" jurnalı 1955-ci ildən nəşr edilməyə başlayıb. Jurnalın ilk sayı həmin ilin yanvar-mart ayına aid olub. Jurnal Münhendə nəşr edilirdi. Türkiyə türkcəsində çap olunan jurnalın məsul müdiri – Doktor Mustafa Krıməl, Yazı işləri müdiri – Mehmet Əmircan idi. Jurnalı nəşr edən təşkilatın adı belə qeyd olunurdu: "Sovet Sosialist Cümhuriyyətləri Birliyi Tarix və Kültürünün Tədqiq İnstitutu". Münhen 37, Auqustenstrasse 46.

"Dərgi"nin ilk sayında "Nəşriyyata başlarkən" başlıqlı yazıda qeyd olunub: "Yazı kurulu, Sovetlər Birliyi və xüsusən Sovet əsiri doğu millətləri probleminin obyektiv elmi araşdırmalarında iştirak etmək arzusunda olan bütün oxucu və araşdırıcıları dərginin yazı ailəsinə qatılmaya dəvət etməkdə və işbirliyini qəbul edəcək kimsələri hərarətlə salamlamaqdadır".

Jurnalda Sovetlər Birliyində siyasi, iqtisadi, tarixi, mədəni sahələrdəki proseslər ciddi izlənilir, təhlil edilir, kəskin tənqidi yazılar çap edilirdi.

Bu jurnalın Sovetlər Birliyinə gətirilməsi, oxunması və təbliği qadağan edilmişdi.

---

***Qaynaq:***
*"Dərgi" jurnalı. Münhen, 1-ci il, yanvar-mart, 1955-ci il, №1.*

## KÖLƏ XALQLARIN KONFRANSI
## (Tbilisi, fevral 1991-ci il)

1991-ci ilin fevralın 23-dən 26-na kimi Gürcüstanda - Tbilisidə Kölə xalqların X konfransı keçirilib. Qeyd edək ki, ilk dəfə olaraq Kölə xalqların I konfransı 1943-cü ilin noyabrında Jitomir vilayətinin meşələrində keçirilib. Konfransda 13 millətin nümayəndəsi iştirak edib: 6 azərbaycanlı, 6 gürcü, 4 erməni, 5 ukraynalı, 2 belorus, 2 tatar, 2 osetin, 1 kabardin, 1 çərkəz, 1 başqırd, 1 çuvaş, 5 özbək və 1 qazax.

Konfransda faşist və bolşevik imperialistlərinə qarşı ümumi mübarizə xətti işlənib hazırlanıb. Qəbul edilmiş sənədləri Azərbaycandan Füzuli adlı bir nəfər imzalayıb. Fizulinin özü və digər azərbaycanlılar haqqında əlavə məlumatlar bu günə qədər əldə olunmayıb.

X konfransda Polşanın, Baltikyanı respublikaların, Ukraynanın, Belorusiyanın, Azərbaycanın, Gürcüstanın, Ermənistanın, Türkmənistanın nümayəndələri iştirak edirdilər.

Birinci gün nümayəndələr təmsil etdikləri ölkələrdəki ictimai-siyasi vəziyyət haqqında çıxış etdilər.

Xalqların Antibolşevik Blokunun yaranması, tarixin keçmişi, bu günün fəaliyyəti ilə bağlı Ukraynanın Partiyalararası Baş Məclisinin müşaviri Vasili Barladyanonun çıxışı daha böyük maraqla qarşılandı. O, bildirdi ki, 1946-cı ilin aprelin 16-da yaradılmış bu ümumdünya təşkilatının başlıca məqsədi, Moskvanın kölə halına saldığı xalqların (ruslardan başqa) yaşadığı sərhədlər daxilində müstəqil milli dövlətlərin bərpa olunmasına yetişməsidir. Təşkilatı Yaponiya, Tayvan kimi iqtisadi nəhənglər maliyyələşdirirdi.

Kölə xalqların X konfransında "İşğalçı qoşunlarda xidmətdən imtina etmək haqqında", "Sovet imperiyasında assimilyasiya prosesləri haqqında", "Siyasi məhbuslar haqqında", "SSRİ-də referendum haqqında" və b. qətnamə və müraciətlər qəbul edildi. Bu sənədlər BMT-yə, dünya hökumətlərinə və beynəlxalq təşkilatlara göndərildi.

Kölə xalqların X konfransında "Azadlıq" qəzetinin əməkdaşı Qənimət Səlimoğlu (Zahid) və AXC-nin səlahiyyətli nümayəndəsi Rəhim Bahadır iştirak edib.

---

***Qaynaq:***

*"Azadlıq" qəzeti, mart, 1991-ci il.*

## "AZADLİQ" RADİOSUNUN YARANMASI VƏ AZƏRBAYCANLILARIN SOVET REJİMİNƏ QARŞI ÇALIŞMALARI

**1953-cü ilin martında** ABŞ dövlətinin maliyyələşdirdiyi "Bolşevizmlə Mübarizə Koordinasiya Mərkəzi" tərəfindən istiqamətləndirilən "Qurtuluş" radiosunun (sonradan "Azadlıq" adlandı) öz ilk verilişlərinə başladı. Bu münasibətlə yayılan **müraciətdə bildirilirdi:** "Qulaq asın, qulaq asın! Bu gün yeni "Qurtuluş" radiostansiyası verilişlərinə başlayır. Həmvətənlər! Axır ki, bizim öz səsimiz var. Stalinin polis terroru bizi öz evimizdə susmağa məcbur etsə də, xaricdə azad danışa bilirik. Azadlığa olan əbədi cəhdimiz xalqımızın qəlbində sönmədi. Bizim ilk tapşırığımız azadlığa çağırışdır. Kommunist rejiminə müqavimət hissi də xalqımızı tərk etməyib. Biz azərbaycanlılar, eləcə də Sovet İtifaqının digər xalqları, kommunizmi məhv edib, qəsb edilmiş azadlığımızı qaytarmağa tam qərarlıyıq. Bizim harda olmağımızdan asılı olmayaraq, istər Sovet İttifaqında, istərsə də azad xarici ölkələrdə olsun, yalnız bir istəyimiz vardır: Kreml hakimiyyətinin yıxılması. Biz, hamımız – gənclərimiz, yaşlılarımız, Stalinin dəmir pərdəsi arxasında yaşayıb əzab çəkən sizlərlə bir istək və arzudayıq.

... **1952-ci ilin oktyabrın 16-da** xarici siyasi qrupların nümayəndələri vətənimizi kommunist diktaturasından xilas etmək üçün "Bolşevizmlə Mübarizə Koordinasiya Mərkəzi" yaratdılar. Biz mövcud diktaturaya qarşı öz xalq hakimiyyəti prinsiplərimizi qoyuruq... Biz bilirik ki, mübarizə


АЗЕРБАЙДЖАН

РЕДАКЦИЯ: .................... Азербайджан

ГЛАВНЫЙ РЕДАКТОР:........... А. Фаталибейли

АВТОР: ...................... А. Фаталибейли

ДЕН ПЕРЕДАЧИ: ........... 1 7 1953

СКРИПТ: ...................... 95

НАЗВАНИЕ СТАТЬИ: "Правда о Турции"...

из серии Советский Империализм.

НАЗВАНИЕ КОММЕНТАРИЯ: .............

НОВОСТИ: ........Есть..............

МУЗЫКА: ...........................

DESK: ............... Azerbaycan

CHİEF EDİTOR: ....... A. Fatalibeyli

AUTOR: .............. A. Fatalibeyli

DATE of BROADCAST:.. 1 7 1953

SCRİPT: ............. 95

FEATURE TİTLE: "Truth about Turkey"

(from the series Soviet İmperialism)

COMMENTARY TİTLE: ................

NEWS: .........YES.................

*"Azadlıq" radiosunda hazırlanmış verilişin proqramı*



*“Azadlıq” radiosunun ilk azərbaycanlı əməkdaşlarından - Əli Aranlı*

üçün burdan hazır reseptlər vermək mümkün deyildir. Vaxtı çatanda xalq özü necə etməyi başa düşəcək. Bizim radiostansiyanın başlıca vəzifəsi Sovet İttifaqında eşidilməyən həqiqi informasiyalarla dinləyicilərimizi təmin etmək, neçə illərdir ki, aparılan sovet təbliğatının yalanlarından azad olmaqdır! Bizim radiostansiyanı dinləyin! Bolşevizmlə mübarizə aparan koordinasiya mərkəzinin səsini eşidin!”.

**Qeyd edək ki, hələ 1949-cu ilin may ayının sonunda Nyu-York şəhərində** ABŞ dövlət rəsmilərinin iştirakı ilə gizli bir müşavirə keçirilmiş və SSRİ-yə, eləcə də digər sosialist ölkələrinə qarşı ideoloji hücumu gücləndirmək məqsədi ilə nəhəng bir orqan yaradılması vacib sayılmışdı. General  Kley tərəfindən müəyyənləşdirilmiş proqramda deyilirdi: “Kommunist rejimini devirmək məqsədi ilə psixoloji müharibə aparmaq üçün geniş və həlledici kompaniya təşkil edilsin”.

**ABŞ senatı isə** federal büdcənin hesabına iki radiostansiyanın maliyyələşdirilməsi barədə qanun layihəsini bəyənib qəbul etdi.

Həmin müşavirədən sonra 1950-ci ilin iyulun 4-də “Azad Avropa”, 1953-cü ilin martın 1-də isə “Azadlıq” radiostansiyaları Almaniya Federativ Respublikasında fəaliyyətə başladılar. Əvvəlcə stansiyaların illik büdcəsi 34 milyon dollar idi ki, bunun da 13 milyon dolları təkcə “Azadlıq” radiostansiyasının payına düşürdü. Sonradan isə “Azad Avropa” və “Azadlıq” radiostansiyalarına hər il 100 milyon dollardan çox vəsait sərf edilirdi.

**Dünyanın yüzdən çox ölkəsində** bu stansiyaların 240 məlumat mərkəzi, 80-dən çox ölkədə 200-dən artıq kitabxanası vardı. Həftədə 2 min saatdan çox veriliş təşkil edən stansiyalar sovet dövlətinə qarşı SSRİ xalqlarının 23 dilində təbliğat aparırdı. Burada çalışan jurnalistlərin də sayı daima artırdı. Belə ki, 1960-cı illərdə hər iki radiostansiyadakı əməkdaşların sayı 306 nəfər idisə, sonradan bu rəqəm 1300-ə çatdırıldı. Onların əksəriyyəti isə keçmiş SSRİ vətəndaşları, legionerlər və mühacirlər idi. “Azad-

lıq" radiosunun 17 stansiyası arasında SSRİ-nin bütün ərazisi bölüşdürülmüşdü.




***"Azadlıq" radiosu***

"**Azadlıq" və "Azad Avropa"** radiostansiyaları Münhendə (hazırda isə Praqada), ingilis Parkının yaxınlığında Arabellaştrasse küçəsindəki 18 saylı üç bloklu beton binada yerləşirdi. Həmin yer şəhərin şərq hissəsindən təxminən 4-5 km məsafədə idi.

**"Azadlıq" radiosunun Azərbaycan redaksiyasına bir müddət (1953-1954-cü illər) Ə. Fətəlibəyli – Düdənginski,** sonradan isə İsmayıl Əkbər və Əli Aranlı başçılıq etmişlər. "Azərbaycan" redaksiyasında Məcid Musazadə (Qarsalanlı), Fərman Məmmədov, Murad Muradlı, Kərim Aslanoğlu və digər keçmiş legionerlər çalışırdılar.

Qeyd edək ki, "Azadlıq" radiosunun «Azərbaycan» redaksiyasının ilk verilişi efirə 1953-cü ilin martın 6-da getmişdi.

**Beləliklə, 1953-cü ilin martından** "Qurtuluş" radiosunun Azərbaycan redaksiyası fəaliyyətə başladı. "Azərbaycan" redaksiyasının ilk Baş redaktoru mayor Ə.Fətəlibəyli- Düdənginski oldu.

**Mayor Ə.Fətəlibəylinin qətlə yetirilməsindən sonra** bir zamanlar Amerikada "Amerikanın səsi" radiosunda işləyən İsmayıl Əkbər Azərbaycan redaksiyasının baş redaktoru təyin edildi. Sonradan İmayıl Əkbəri Əli Aranlı əvəz etdi. Qeyd edək ki, Azərbaycan redaksiyasında Məcid Musazadə, Murad Şəkili, Süleyman Təkinər də çalışır, böyük fəaliyyət göstərir, sovet dövləti əleyhinə geniş təbliğat aparırdılar.

***Qaynaq:***

*1. N.Yaqublu. Əbdürrəhman Fətəlibəyli Düdənginski. Bakı: Adiloğlu, 2008, 262 s.*

*2. N.Yaqublu. Azərbaycan mühacirət mətbuatının tanınmış xadimləri."Filologiya məsələləri" jurnalı, 2011, №6, s. 200-206*

*3. N.Yaqublu. Azərbaycan legionerləri. Bakı: BDU, 2003, 307 s.*

## "AMERİKANIN SƏSİ" RADİOSUNUN FƏALİYYƏTİ

**1946-cı il martın 5-də Böyük Britaniyanın keçmiş Baş naziri Uinston Çörçill Amerika Birləşmiş Ştatlarının Fulton çəhərində tarixi bir nitq ilə çıxış edərək** Qərb ölkələrini kommunizmə qarşı mübarizədə birləşməyə səslədi və Şərqdən yayılan kommunizm təhlükəsinin qarşısını birdəfəlik almaq üçün silahlı mübarizə ilə yanaşı, ideoloji təsir vasitələrindən də geniş istifadə etməyin vacibliyini vurğuladı. Həmin nitq söyləməndən 19 gün sonra, martın 26-da Böyük Britaniyanın "Bi-Bi-Si" radiostansiyası rus dilində verilişlərə başladı. Bundan sonra beynəlxalq efirə ilk dəfə 1942-ci ilin fevralın 24-də alman və italyan dillərində 15 dəqiqəlik verilişlərlə çıxmış **"Amerikanın səsi" radiosu 1947-ci ilin fevralın 17-də** özünün Münhendəki filialından rusca verilişlərə başladı. İlk gündən kommunizmə qarşı mübarizə vasitəsi olduğunu gizlətməyən, SSRİ xalqlarını müstəmləkəçilikdən və əsarətdən azad etməyi məqsəd seçdiyini açıq deyən "Amerikanın səsi" radiosu Qərb ölkələrinin başqa beynəlxalq radioları ilə birlikdə sona qədər bu missiyanı yerinə yetirməyə çalışmışdı. Rusca verilişlərin təşəbbüskarlarından biri olmuş senator Karl Mund hələ o vaxt "SSRİ-dəki dinləyicilərdən nə gözləyirsiniz?" sualına cavab olaraq demişdi: "İstəyirik ki, onlar müdafiə vasitələri istehsalında sabotajlıq etsinlər, beşillik planların yerinə yetirilməsini ləngitsinlər. İstəyirik ki, onlar zaman-zaman SSRİ-dən qaçıb ABŞ-a gəlsinlər, buradakı həyatı öz gözləri ilə görüb əsarətdə yaşadıqlarını dərk etsinlər. Sovet adamlarının kommunist ideyasına xidmət etmələri nəticə etibarilə onların özlərinə zərərdir".

**"Amerikanın səsi" radiosunun qayəsini** ilk 15 dəqiqəlik verilişlə efirə çıxmış o vaxtkı aparıcı belə açıqlamışdı ki, yaxşı-yamanlığından asılı olmayaraq biz yalnız həqiqəti deyəcəyik. Sonralar "Amerikanın səsi" radiosunun və bütövlükdə ABŞ mass-mediasının şüarına çevrilmiş bu deyim bir aforizm kimi geniş yayınlandı.

**1942-ci ildən 1953-cü ilə qədər "Amerikanın səsi"** radiosu ABŞ-ın Hərbi İnformasiya Bürosunun tərkibinə daxil olmuş, 1953-cü ildən isə Birləşmiş Ştatların İnformasiya Agentliyinin (USİA-nın) bir bölməsinə çevrilmişdi.

Hazırda "Amerikanın səsi" radiosu fasiləsiz olaraq fəaliyyət göstərir, hər gün 52 dildə 200 saata yaxın müxtəlif proqramlar hazırlayıb efirə verir. Stansiyanın ştat cədvəlində 1100 əməkdaş var. Mövcud olduğu 59 il ərzində "Amerikanın səsi" radiosu həmişə bu prinsipə sadiq qalıb və bu gün də ona əməl etməkdədir.

**"Amerikanın səsi"** radiosunda fəaliyyət göstərən "Azərbaycan" redaksiyasının tarixi isə 1951-ci ildən başlanır. O dövrdə "Amerikanın səsi" kimi bir radioda Azərbaycan türkcəsində verilişlərin yayılması son dərəcə mühüm hadisə idi. Məlumdur ki, həmin vaxt SSRİ-də ən totalitar rejim formalaşmışdı. Stalinin şəxsiyyətə pərəstişi son həddə çatmışdı, başqa müttəfiq respublikalar kimi Azərbaycan da xarici aləmdən dəmir pərdə ilə təcrid olunmuşdu. Yeganə obyektiv informasiya kanalı "Amerikanın səsi" radiosu idi ki, onun da dalğalarını pozur, eşidilməsinə mane olurdular. Buna baxmayaraq insanlar çətinliklə də olsa, o dalğalar arasından azadlıq səsini dinləyə bilirdilər.

**"Amerikanın səsi"** radiosu vasitəsilə 1953-cü ildə tanınmış dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə Azərbaycan xalqına müraciət etmişdi. O lent yazısı bu gün Böyük Öndərin səsini qoruyub saxlayan yeganə mənbədir. O zaman "Amerikanın səsi" radiosuna həm şimalda, həm cənubda, həm də dünyanın yaxın-uzaq guşələrində yaşayan soydaşlarımız, Türkiyədə və başqa ölkələrdə olan mühacirlərimiz qulaq asırdılar.

Qeyd edək ki, ötən əsrin 20-ci illərində Azərbaycanı tərk etməyə məcbur olan siyasi mühacirlərimizin əksəriyyəti 50-ci illərdə sağ idilər və "Amerikanın səsi" radiosu ilə tez-tez çıxışlar edir, müntəzəm olaraq ürək sözlərini, ideoloji-siyasi proqramlarını, məqsədlərini Azərbaycan xalqına çatdırmağa çalışırdılar.



***"Amerikanın səsi" radiosunun ilk azərbaycanlı əməkdaşlarından - İsmayıl Əkbər***

**1951-ci ildə açılmış "Azərbaycan" redaksiyasının yaradıcı heyəti kimlərdən ibarət olub?** Həmin illərdə "Amerikanın səsi" radiosunun Azərbaycan redaksiyasında əslən Azərbaycandan olan və olmayan müxtəlif adamlar çalışıb. Azərbaycanlılardan ilk çalı-

şanlardan biri İsmayıl Əkbər olub ki, sonradan faciəli şəkildə vəfat edib, öz mənzilində yanıb. Altı dildə təmiz danışıb-yazan Yusif Umac adlı əməkdaş da burada çalışıb. O vaxt "Amerikanın səsi" radiosunda işləmiş Həmidə xanım Odeli indi də sağdır, Türkiyədə yaşayır, Boğaziçi universitetinin müəllimidir.

"Amerikanın səsi" radiosunda Aslan Abuz, Elmira İsmayılova, Fərhad Rəşid, Əhmədəli Aslan, Yusif Qəhrəmanlı, Həbib Mirzə Abbaslı, Mirzə İsraili, Xavər Aslan, Bulud Mehmandarlı kimi şəxslər əməkdaşlıq ediblər. Sonradan "Azadlıq" radiosunda "Azərbaycan" redaksiyasına rəhbərlik edən Mirzə Xəzər də bir müddət "Amerikanın səsi" radiosunda çalışıb.

**"Amerikanın səsi" radiosunda "Azərbaycan" redaksiyası ilk dəfə 7 il fəaliyyət göstərib**. İki ildən sonra başqa bir radiostansiyanın – "Qurtuluş" (indiki "Azadlıq") radiosunun əsası qoyulub və o, yalnız bir istiqamətdə – SSRİ xalqlarının dillərində verilişlər hazırlayıb yaymaq sahəsində ixtisaslaşıb.

Beş il müddətində "Amerikanın səsi" və "Azadlıq" radiolarının Azərbaycan redaksiyaları paralel fəaliyyət göstərib. "Azadlıq" radiosu özünə lazımi auditoriya toplayandan sonra "Amerikanın səsi" Azərbaycan dilində verilişlərini dayandırıb.

**"Amerikanın səsi" radiosu sovet istismarında qalan Azərbaycan həqiqətlərini** dünyaya yayırdı. Bu baxımdan Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin 1953-cü ildə bu radio ilə Azərbaycan xalqına etdiyi müraciət olduqca əhəmiyyətlidir.

Beləliklə, mühacirlərin İkinci Dünya müharibəsindən sonrakı fəaliyyəti ümumilikdə Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə istiqamətlənmişdi.

---

***Qaynaq:***

*N.Yaqublu. "Azadlıq" radiosunun "Azərbaycan" redaksiyasında və "Amerikanın səsi" radiosunda Azərbaycanlı mühacirlərin fəaliyyəti. "Filologiya məsələləri" jurnalı, 2011, №3, s. 306-312.*

## SOVET REJİMİ ƏLEYHİNƏ TÜRKİYƏDƏ VƏ ALMANİYADA YARADILAN TƏŞKİLATLAR

**1. Müsavat Partiyasının Xarici Əlaqələr Bürosu.** Büro 1923-cü ildə İstanbulda yaradılmışdı. Sədri M.Ə.Rəsulzadə idi.

Təşkilatın başlıca vəzifəsi xarici ölkələrdəki müsavatçılarla əlaqə saxlamaq, onların fəaliyyətini mərkəzləşdirmək, Azərbaycanda gedən proseslər haqqında məlumatlar əldə etmək idi. Xarici büronun "quruluşu, təşkilat strukturu" belə idi: Məhəmməd Əmin Rəsulzadə – sədr; Mirzə Bala Məmmədzadə – katib; Xəlil bəy Xasməmmədov – xəzinədar; Şəfi bəy Rüstəmbəyov – büro üzvü; Mustafa Vəkilov – büro üzvü; Məmməd Sadıq Axundzadə – üzv, Abbasqulu Kazımzadə – üzv. M.Ə.Rəsulzadə, M.S.Axundzadə və X.Xasməmmədov xaricdəki Müsavat Bürosunun Rəyasət Heyətini təşkil edirdilər.

Müsavatın xarici bürosunun 1920-ci illərdə Azərbaycandakı müsavatçılara göndərdiyi bir tarixi müraciətdə aşağıdakı vəzifələrin başlıca olduğu qeyd edilirdi:

1. İlk növbədə təşkilatın daxili nizam-intizamına fikir vermək və bütün ölkə üzrə xırda özəklər yaratmaq.
2. Azərbaycanda gedən proseslərlə və təşkilatların vəziyyəti ilə xarici büronu müntəzəm şəkildə məlumatlandırmaq.
3. Xalqın Milli İstiqlaliyyətinə olan ümidinin bir az da itirilməməsi üçün müxtəlif təbəqələr və zümrələr arasında təbliğatı gücləndirmək.
4. Yerli kommunistlərdən Moskva əleyhinə maksimum dərəcədə istifadə etməyə çalışmaq.
5. Ölkədə get-gedə güclənən qolçomaq və quldurluq hərəkatını ideya-siyasi cəhətdən təlimatlandırmaq, onları ideoloji mübarizə yoluna yönəltməyə çalışmaq.

Yurddaşlar, bu qanlı yollarla irəliləyərək biz azadlıq yolunda şəhid olmuş yoldaşlarımızı bir an belə unutmadan çalışmalıyıq. Hamı bilməlidir ki, azadlığın gələcəyi gün uzaqda deyil.




Yoldaşlıq və dostluq salamı ilə, Az. MFMMP və AMM-in sədri Məhəmməd Əmin Rəsulzadə". (İbrahimli X. Zeynalov R. Müsavat Partiyasının 1920-ci il aprel istilasından sonrakı fəaliyyəti tarixindən. "Müsavat" jurnalı, №1(5), 1993, səh. 16).

**2. Azərbaycan Milli Nəşriyyatı.** Bu nəşriyyat 1923-cü ildə İstanbulda yaradılmışdı. Nəşriyyata M.Ə.Rəsulzadə başçılıq edirdi. Nəşriyyatın başlıca vəzifəsi sovet rejimi əleyhinə və Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı kitablar çap edib, oxuculara çatdırmaq idi. Yalnız 1920-ci illərdə bu nəşriyyatda M.Ə.Rəsulzadənin, M.B.Məmmədzadənin, Almaz İldırımın çox dəyərli kitabları çap edilmişdi.

**3. Azərbaycan Milli Mərkəzi.** 1924-cü ildə İstanbulda yaradılmışdı. Mərkəzin sədri M. Ə. Rəsulzadə idi. Milli Mərkəzin tərkibi belə idi: 1. Məhəmməd Əmin Rəsulzadə (Müsavat); 2. Xəlil Xasməmmədov




və Mustafa Vəkilov (Müsavat); 3. Əbdüləli bəy Əmircanov (bitərəf); 4. Əkbərağa Şeyxülislamov (xalqçı-sosialist).

***Qaynaq:***
*1. X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. B.,1996.*
*2. N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.*

## TÜRKİYƏDƏ SOVET REJİMİ ƏLEYHİNƏ MÜCADİLƏ APARANLAR

1949-cu ilin fevralın 1-də M.Ə Rəsulzadənin ümumi rəhbərliyi ilə



**Xosrov bəy Sultanov**



**Xəlil bəy Xasməmmədli**



**Şəfi bəy Rüstəmbəyli**



**Feyzi Aküzüm**



**Kərim Odər**



**Çingiz Göygöl**



**Məhəmməd Kəngərli**



**Əhməd Qaraca**



**Cəmil ünal**

Ankarada **"Azərbaycan Kültür Dərnəyi"** yaradıldı. Dərnəyin ilk toplantısında doktor İbrahim Bədəl M.Ə.Rəsulzadənin Dərnəyin Fəxri Başqanı seçildiyini elan etdi.

Dərnəyin fəaliyyəti onun Nizamnaməsinin əvvəlinci maddələrində belə təsbit olunmuşdu: Maddə 1. "Azərbaycan Kültür Dərnəyi adı ilə bir dərnək qurulmuşdur. Dərnək siyasətlə uğraşmaz. Mərkəzi Ankaradadır. Şöbəsi yoxdur. Maddə 2. Dərnəyin qayələri bunlardır: a) Azərbaycanı, onun tarixini, kültürünü araşdırmaq, işləmək və yaymaq; b) Kitab, dərgi və qəzet olaraq çap etmək və mədəniyyət yığıncaqları tərtib etmək; c) Möhtac Azərilərə maddi və mənəvi köməklik göstərmək".

1952-ci ilin aprelindən isə Ankarada bu dərnəyin yayım orqanı olaraq **"Azərbaycan" jurnalı** nəşr edildi. Bu gün də nəşrini davam etdirən bu jurnalın Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının yaşadılmasında və təbliğində böyük rolu vardır.

Nizamnamədə birinci maddədə mütləq olaraq qeyd edilən "Dərnək siyasətlə uğraşmaz" fikri sovet rejiminə qarşı mübarizənin ağır şəraitdə aparıldığını təsdiqləyirdi.

---

***Qaynaq:***

*N.Yaqublu. Müsavat Partiyasının tarixi. B., 1997.*

## ALMANİYADA YARADILAN AZƏRBAYCAN MİLLİ BİRLİK MƏCLİSİ

Bu təşkilatın əsası 1943-cü Berlində qoyulmuşdu. Əsas yaradıcıları Əbdürrəhman Fətəlibəyli-Düdənginski və Ceyhun Hacıbəyli olmuşdur.

1951-ci ildə təşkilat tərəfindən iki dildə – Azərbaycan və rus dillərində “Azərbaycan” jurnalı çap edilmişdir.

1954-cü ildə Ə.F.Düdənginski Sovet DTK casusu tərəfindən qətlə yetirildikdən sonra jurnalın da fəaliyyəti dayandırılıb.

Cəmiyyət üzvləri sırasında Əkbər ağa Şeyxülislamovun, İsmayıl Əkbərin də adı vardır.

***Qaynaq:***

*1. X.İbrahimli. Azərbaycan siyasi mühacirəti. B., 1996.*
*2. N.Yaqublu. Azərbaycan legionerləri. B., 2005.*

## SÜLEYMAN TƏKİNƏRİN ALMANİYADA FƏALLIĞI

Süleyman Məmmədov (Süleyman Təkinər) 1917-ci ildə Bakının Mərdəkan qəsəbəsində anadan olub. 1942-ci ildə müharibəyə gedib. 1956-cı ildə “Azadlıq” radiosunda redaktor vəzifəsində çalışıb. S.Təkinər “SSRİ-ni Öyrənmə İnstitu”nun toplantılarında fəal iştirak edib, “Dərgi” jurnalında sovet rejimi əleyhinə kəskin məqalələr çap etdirib.



***Süleyman Təkinər***

***Qaynaq:***

*Azərbaycan mühacirət irsi. Bakı 2011.*

## M.Ə.RƏSULZADƏNİN "AMERİKANIN SƏSİ" RADİOSUNDAN AZƏRBAYCANA MÜRACİƏTİ (1953-cü il)

***Əziz vətəndaşlarım!***




***M.Ə.Rəsulzadənin səsi yazılmış val. 1953-cü il***

"Amerikanın səsi" radiosunun verdiyi imkanlardan istifadə edərək, bu gün ***Azərbaycan tarixinin ən böyük günü olan 28 Mayısda*** sizlərə xitab edirəm. 100 il sürən çar əsarətindən sonra, bundan 35 il əvvəl Azərbaycan Şurayi-Millisi Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır. Mədəni bütün bir tərəkəyə (mirasa) malik olan Vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir. İstiqlal uğrunda yapılan tarixi savaşların ən qanlısı XIX əsrin başlarında Rusiya çarlığına qarşı yapılmışdır. 30 ilə qədər sürən bu savaş qəhrəmanlıqlarla doludur. Cavad xanın 1804-cü ildə Gəncədəki şanlı qəzası dillərdə dastandır. "Ölmək var, dönmək yoxdur!"– bu, həqiqi vətənpərəstlərin tətbiq etdikləri ən müqəddəs bir şüardır.

***28 Mayıs 1918-ci ildə*** istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. Eyni zamanda o, zəmanəyə hakim olan əsrin böyük şüarından istifadə edirdi. ***"Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyatdardır"*** düsturunu xalqın ümumi rəyinə uyaraq istiqlalını elan edirdi. İstiqlal elanı üzərinə qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü. 100 ildən bəri əsgərlikdən mən edilən (məhrum edilən) Azərbaycanda bir ordu yaratdı. Çarlıq zamanında dövlət idarəsinə yaxın buraxılmayan azərbaycanlılardan

zabıta və əmniyyət qüvvətləri vücuda gətirdi. Sosial sahədə əsaslı islahata girişdi. Kəndlilərə torpaq vermək üçün qanunlar hazırladı. Fəhlələrin haqlarını qorumaq üçün tədbirlər aldı. Xalqı az zamanda oxutmağa başladı. Türkcəni dövlətin rəsmi dili elan etdi. Orta və ali məktəblər açdı. Qərbi Avropa demokrasiyaları tipində xalq nümayəndələri cavabdeh bir hökumət üsuli-idarəsi yaratdı. Hakimiyyət Millət Məclisinin əlində idi. Parlamentodan etimad almadıqca heç bir hökumət iş başında qala bilməzdi. Məmləkətdə tam bir azadlıq vardı. O zaman indi sovet zamanında olduğu kimi terror deyilən şeydən heç bir əsər yoxdu. Şəxslər də, məskənlər də əmin və amanda idi. Vətənin qapıları indi olduğu kimi bütün dünyaya qapalı deyildi. Hər azərbaycanlı istədiyi zaman hara istərsə gedərdi. Qonşu və Avropa dövlətləri ilə dostluq münasibətləri təsis edilmişdi. Bütün millətlərlə alış-veriş vardı. Bütün bunların nəticəsində idi ki, Cümhuriyyətimizin istiqlalı Avropa dövlətləri ilə Birləşik Amerika tərəfindən tanındı. Onları təqibən böyük bir çox dövlətlər də istiqlalımızı tanıdılar. Türkiyə ilə İran Azərbaycanla münasibətə gəldilər. Aralarında dostluq və qardaşlıq müqavilələri imzalandı. **12 Yanvar 1920** Cümhuriyyətin dövlətlər tərəfindən tanınması günü idi. Bu günü Azərbaycan xalqı candan bayram etdi. Haqlı idi. Bu həqiqətən, böyük bir bayramdı. Çünki bu gündən etibarən Azərbaycan davası Rusiyanın bir iç məsələsi olmaqdan çıxmış, millətlərarası bir məsələ olmuşdu. Mədəniyyət tariximizin şanlı fikir adamları tərəfindən alqışlanan azadlıq və istiqlal fikri məmləkətimizdə yerləşdi və bu irəli dünya demokratiyası tərəfindən təqdirlə qarşılandı. 100 ildən bəri üstümüzə çökən istibdad və istila artıq bizdən uzaqlaşdı.

***Heyhat!*** Qədər (tale) imtahanları tamam deyildi. Qanlı çar istibdadının yerini bu dəfə ondan daha qanlı bolşevik istibdadı tutdu. Bala azadlıq istiqlalımız qızıl istilaçıların ayaqları altında əzildi. Müqavimət edən məmləkətdə qan gövdəyə çıxdı. Bundan bir ay əvvəl 28 Apreldə sovet propaqandaçıları (təbliğatçıları) bu qanlı istila hərəkatını sizə azadlıq və istiqlal hadisəsi kimi göstərdilər. Sözdə sizə dünyanın ən azad və demokrat rejimi kimi qələmə verilən sovet quruluşu işdə qəddar və ən yalançı bir istibdad rejimidir. Müqayisə etmək imkanında olsaydınız, bunun nə qədər doğru olduğunu gözünüzlə görərdiniz. Azadlığımızı əlimizdən alan millətdən qorxmurlarsa dəmir pərdəni qaldırsınlar, Azadlıq elan etsinlər.

Edə bilməzlər. Çünki ağla qara meydana çıxar. Onlar şəptərə (yarasa) kimidirlər, günəşdən qaçarlar.

Azərbaycan, onunla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-ilin Mayısında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvətlərlə qanla və atəşlə basdırıldı. Faciələr və qəhrəmanlıqlarla dolu olan bu mücadilədə on minlərlə vətəndaş şəhid oldu. 1920-ci il istilasına qarşı, 1918 istiqlal haqqını müdafiə edən Qafqasiya millətləri indi 33 ildir ki, müxtəlif vasitələrlə mücadilə edirlər. Zaman-zaman dramatik şəkillər alan bu mücadilədə vaxtıyla yalançı kommunist şüarlarına aldanaraq yol açmış bəzi vətəndaşlar belə, bütün həqiqi milliyyətçilər və vətənpərvərlər cəbhəsinə keçmişlərdir. Yabançı istilası üzərinə əcnəbi məmləkətlərə çıxmış olan Qafqasiya emiqrantları (mühacirləri) milli istiqlal davasını mədəni dünya əfkari-ümumiyyəsinə (ictimaiyyətinə) anlatmaqdadırlar. Bu vəzifeyi-ifadə nə kimi müşküllərə uğradığımızdan bəhs etməyin burada yeri deyildir. Bu qədər demək lazımdır ki, sovetlərdə kommunist rejiminə düşən millətlərin hər türlü haqq və hüquqdan məhrum qullardan ibarət cəmiyyətlər halına gəldiyini azad dünyaya anlatmaq çox kolay (çətin) olmamışdır. Şükür ki, hadisələr bizə kömək edir. Dünya sovet həqiqətini görməyə başlayır. Səkkiz ildən bəri hərbi bitirmişkən sülhə qovuşa bilməyən dünya artıq məsələni anlayır. Bilir ki, azadlıq və insan haqlarını inkar edən kommunistlər müəzzəm (böyük) bir dövlət halında ayaqda durduqca və dünya inqilabı atəşi ilə yandırmaq üçün könlü çəkdikcə yer üzündə heç bir zaman sülh və asayiş buluna (tapa bilməyəcək) bilməyəcəkdir. Azadlıq cahan-şümul(dünyanı əhatə edən) bir fikirdir: ***“Bir tək əsir insan, bir tək əsir millət qaldıqca, dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz”.*** 1918 Mayısındakı tarixi qərarları ilə azad millətlər cəbhəsində yer alan Qafqasiya millətlərinin müqəddəratları azad millətlərin müqəddaratları ilə bağlanmışdır. Rusiyadan ayrılmanın bir irtica, başqalarından ayrılmanın bir inqilab olduğunu söyləyən sovet diktatoru Stalin ölmüşdür, amma onun ikiüzlü sistemi – stalinizm hələ ayaqdadır (qalmaqdadır). Bu sistem gün keçdikcə dünya həqiqətləri ilə daha çox qarşılaşmaqda, haqq ilə batil, yalan ilə doğru üz-üzə gəlməkdədir. Şübhəsizdir ki, bir gün həqiqət parlayacaq, azadlıq əsasını, Birləşmiş

Millətlər prinsipini və insan haqlarını tutan tərəf qalib gələcəkdir. ***Bu qalibiyyət qüvvəsi qızıl istibdad zülmü altında inləyən əziz Vətənimizdə 1918-ci ilin 28 Mayısı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyiniz.***

***Vətəndaşlar!*** Üçrəngli İstiqlal bayrağını döşlərində gəzdirən buradakı Vətən ayrısı bizlərdən orada hər türlü (formada) qorxu və təhdid altında qəlbləri istiqlal eşqi ilə çırpınan azadlıq ayrısı sizlərə candan salamlar göndərir, 28 Mayıs istiqlal qurbanlarının əziz ruhları hüzurunda hörmətlə əyilir və hər iki tərəfi birləşdirən milli böyük həsrəti şairin deyişi ilə dilə gətirirəm:

**Sən bizimsən, bizimsən durduqca bədəndə can,**
**Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!"**

***Azərbaycan istiqlalının 35 illiyi ilə bağlı 1953-cü ildə "Amerikanın səsi"radiosundan Azərbaycana müraciəti.***

---

***Qaynaq:***

*1. "Azərbaycan" jurnalı, Анкара, 1984 cü il, №247, ил 33, səh.13-15*
*2. N.Yaqublu. "Məmməd Əmin Rəsulzadə". Bakı, 1991-ci il.*

## M.Ə.RƏSULZADƏ İZLƏNİLİR...
## "SOVET İTTİFAQININ ANA DÜŞMƏNİ"...
## (İSTİNTAQ MATERİALLARINDAN – 1950-Cİ İLLƏR)

Sovet rejiminə qarşı mühacirətdə yaşayan M.Ə.Rəsulzadənin çox kəskin mübarizə aparması sovet dövlətini ciddi narahat edirdi. M.Ə.Rəsulzadənin 1920-ci illərdən başlayaraq Türkiyədə, Fransada, Polşada, Almaniyada müxtəlif təşkilatlar yaratması, qəzetlər, jurnallar, kitablar nəşr edib sovet dövləti əleyhinə mücadilə aparmasından bolşeviklər narahatlıq keçirir, xarici ölkələrdə onun fəaliyyətini nəzarətə götürməyə çalışırdılar. Bu mənada Azərbaycan SSR Dövlət Təhlükəsizlik Naziri Yemelyanovun 1951-ci ilin mayın 7-də "SSRİ-yə qarşı müsavatçıların və digər milli ünsürlərin düşmənçilik və casusluq fəaliyyəti haqqında" hazırladığı arayışda sovet dövlətinin M.Ə.Rəsulzadə və silahdaşları ilə bağlı narahaçılığı bildirilir.




***M.Ə.Rəsulzadə ilə bağlı istintaq qovluğu***

Həmin arayışdan: "Amerikalıların və ingilislərin tapşırığı ilə yeni antisovet təşkilatları yaradılıb: Ankarada Azərbaycanın Hüquqlarını Müdafiə Cəmiyyəti, İstanbulda Qarşılıqlı Dostluq Köməyi Cəmiyyəti, Tehranda, Təbrizdə və İranın digər şəhərlərində – "Azad Azərbaycan". Bu təşkilatlara Sovet İttifaqının ana düşmənləri, xarici kəşfiyyat agentləri – Məhəmməd Əmin Rəsulzadə, Mehdiyev Yaqub (Miryaqub – *red.*) Rəfibəyov qardaşları və digərləri rəhbərlik edərək SSRİ-yə qarşı casusluq – dağıdıcılıq işi, eləcə də respublikada bizə düşmən qüvvələri fəallaşdırmaq xəttini götürmüşlər".

Məxfi arayışda bir məqam daha çox diqqət çəkir: Azərbaycanın DTK naziri M.Ə.Rəsulzadəni belə təqdim edir: "Sovet İttifaqının ana düşməni".

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 1951-ci ilin sentyabrın 14-də tam məxfidir qrifli Azərbaycan KP (b) MK-ya, M.C.Bağırova göndərilən Türkiyə kəşfiyyatının agenti Oruc Gülmalı oğlu Zeynalovun istintaq protokolunda da maraqlı məlumatlar vardır.

Qeyd edilir ki, Sabirabad rayonunun Kələvain sakini, həbs edilənədək Türkiyənin İzmit şəhərində Sultan Yavuz adı ilə yaşayan Oruc Gülmalı oğlu Zeynalov, keçmiş sovet əsgəri olmuş, İkinci Dünya müharibəsində almanlara əsir düşmüş, sonra əsirlikdən qaçaraq Avstriyadan Yuqoslaviyaya, Bolqarıstana, 1944-cü ilin yanvarında Türkiyəyə gəlmişdir. Onun və dostunun (Mustafayev familiyalı) məqsədi Türkiyə və İran vasitəsi ilə öz vətənlərinə - SSRİ-yə qayıtmaq idi.

İstintaqda ona Türkiyədəki yaşamağı və fəaliyyəti ilə yanaşı həmin dövrdə Ankarada yaşayan M.Ə.Rəsulzadə ilə də bağlı suallar verilir.

"*Sual:* Həmin istintaq materiallarından: Bu dəfə Ankaraya gəlməyinizi danışın.

*Cavab:* Yuxarıda qeyd etdiyim kimi Nağı Bayramgillə birlikdə 1951-ci ilin 18 iyununda Ankaraya gəldim. "Palas" mehmanxanasında qaldım... Ərzruma getməmişdən öncə Nağı Bayramgilin təklifi ilə mən və həmkarım Yazqanla birlikdə Müsavat Partiyasının lideri, tanınmış Azərbaycan-Kültür

Cəmiyyətinin sədri Məmməd Əmin Rəsulzadəni ziyarət etdik. Bizimlə söhbətdə Məmməd Əmin bildirdi ki, dövlət Əmniyyət Müfəttişliyi (Türkiyə kəşfiyyatının orqanı – *red.*) təlimatı ilə SSRİ-yə göndərilməyimiz haqqında məlumatı var. Bundan sonra o, bildirdi ki, biz onun tapşırıqlarını yerinə yetirəcəyik və bu haqda Nağı Bayramgil danışacaq.


Как мне сообщил МАМЕД ЭМИН РАСУЛ ЗАДЕ, он на это свое письмо от ТОПЧИБАШЕВА получил положительный ответ.

ВОПРОС: В чем должна была выражаться эта помощь?

ОТВЕТ: По об"яснению МАМЕД ЭМИНА РАСУЛ ЗАДЕ, "Организация Об'единенных Наций" должна поддержать комитет денежными средствами и оружием для организации вооруженного восстания на Кавказе.

Информируя меня об организации "Карско-Кавказского Комитета" ("ККК"), НАГИ БАЙРАМГИЛЬ заверил меня, что после нашего возвращения в Турцию по выполнении шпионских заданий, НАГИ БАЙРАМГИЛЬ лично вместе со мной должен нелегально выйти на территорию СССР и на местах, связавшись с отдельными лицами, организовать работу комитетов.

ВОПРОС: С кем должен был встретиться на территории СССР НАГИ БАЙРАМГИЛЬ?

ОТВЕТ: НАГИ БАЙРАМГИЛЬ не назвал мне конкретных лиц, с которыми он должен был встретиться на территории СССР, но вместе с этим он мне заявил, что перейдя в СССР он должен побывать в Борчалинском районе Грузинской ССР и в Закатальском районе Азербайджанской ССР.

ВОПРОС: Назовите остальных участников антисоветской организации "ККК"?

ОТВЕТ: В беседе со мной в Анкаре по поводу создания антисоветской эмиграционной организации "ККК", МАМЕД ЭМИН РАСУЛ ЗАДЕ сообщил мне, что активными участниками ее создания


- 23 -

ски настроенная личность.

Приметы: низкого роста, худощавый, блондин, носит бороду.

ВОПРОС: Вы всех назвали?

ОТВЕТ: Да, я назвал всех известных мне политэмигрантов-азербайджанцев, проживающих в Турции. Если кого либо вспомню, сообщу дополнительно.

Допрос окончен в 03 ч.00 м.
27 сентября 1951 года.

Протокол допроса прочитан на понятном мне русском языке, записан с моих слов верно.
(Зейналов)

Допросили:

ПОМ.НАЧ.СЛЕДОТДЕЛА МГБ АЗЕРБ.ССР
Подполковник (М.АЛИЕВ)

ЗАМ.ВОЕННОГО ПРОКУРОРА ВОЙСК МГБ
АЗЕРБ.ССР - Подполковник юстиции
(ЛУХМИНСКИЙ)

Стенографическую запись вела
СТ.ЛЕЙТЕНАНТ (КУЗНЕЦОВА)

Подлинный экземпляр
находится в
след. деле № 514
Верно:

*M.Ə.Rəsulzadə ilə bağlı istintaq sənədləri*

Bu söhbətdə Məmməd Əmin bizə danışdı ki, o, sovet hökumətinə qarşı mübarizə aparmaq üçün Rusiyadan olan bütün müsəlmanları birləşdirən "Qars-Qafqaz Komitəsi" yaradır. Məmməd Əminin dediyinə görə, bu Komitənin əsas məqsədi Müstəqil Azərbaycanın yaradılması olacaq və bununla əlaqədar o, guya ki, Parisə Əlimərdan bəy Topçubaşova məktub göndərmiş ki, o da Birləşmiş Millətlər Təşkilatının köməyinə nail olsun (Burada müttəhim yanlışlığa yol verir, çünki Ə.M.Topçubaşov 1934-cü ildə vəfat etmişdi – red.).

Bundan sonra Məmməd Əmin əlimizi sıxdı və bizə uğurlar arzuladı".

*Sual:* Məmməd Əmin Rəsulzadənin tapşırıqları hansılar idi?

*Cavab:* Məmməd Əmin Rəsulzadənin Nağı Bayramgildən aldığım tapşırıqları aşağıdakı idi:

1. SSRİ-yə gizli olaraq hansı məntəqədən – yerdən keçməyi öyrənmək.
2. Azərbaycana çatan kimi öz etibarlı qohumlarımı və tanışlarımı müəyyənləşdirib gizli "Qars-Qafqaz Komitəsi"nə cəlb etmək.
3. Gizli "Qars-Qafqaz Komitəsi"nin rayonu göstərməklə Azərbaycanda yaradılma imkanlarını və məqsədyönlüyünü öyrənmək.
4. İmkan daxilində Sovet Ordusunda xidmət keçmiş şəxsləri Azərbaycandan Türkiyəyə keçməyə yola gətirmək.

Sonradan davam etdirilən istintaqda M. Ə. Rəsulzadə ilə bağlı bu suallar verilir:

"*Sual*: Məmməd Əmin Rəsulzadənin xarici görünüşünü təsvir edin.

*Cavab:* Məmməd Əmin Rəsulzadənin 70-ə yaxın yaşı var, hündürboyludur, arıqtəhərdir, çalsaçlıdır, üzü ağ qırışlıdır, burnu düzdür, sifəti əzələlidir, kiçik bığı var.

*Sual:* Məmməd Əmin Rəsulzadənin ev ünvanını göstərin.

*Cavab*: Məmməd Əmin Rəsulzadə Ankara şəhərində, Yenişəhrdə, Anafatlar küçəsində yaşayır, evin nömrəsini isə xatırlamıram.

*Sual:* Azərbaycan Kültür Cəmiyyəti harada yerləşir? .

*Cavab:* Azərbaycan Kültür Cəmiyyəti Məmməd Əmin Rəsulzadənin yaşadığı binada yerləşir.

*Sual:* Göstərin, şəxsən Sizə Məmməd Əmin Rəsulzadənin Türkiyədəki fəaliyyəti ilə bağlı nə məlumdur?

*Cavab:* Yuxarıda qeyd etdiyim kimi, siyasi mühacir Məmməd Əmin Rəsulzadə Ankarada Azərbaycan Kültür Cəmiyyətinə başçılıq edir ki, onun funksiyası Ankarada yaşayan vətən xainlərini toplayıb təşkilatlandırmaq, onların arasında fəal antisovet işi aparmaq və onlara maddi kömək göstərmək, işlə təmin etməkdir.

Mənim gizli olaraq SSRİ ərazisinə getməyimlə bağlı Məmməd Əmin Rəsulzadənin mənə verdiyi casusluq tapşırıqlarını nəzərə alaraq, bu nəticəyə gəlirəm ki, o – Məmməd Əmin Rəsulzadə və yuxarıda göstərilən cəmiyyətin rəhbərliyi hələ də SSRİ-yə qarşı dağıdıcılıq fəaliyyəti ilə məşğul olurlar.

Bundan əlavə sonuncu dəfə 1951-ci ilin iyunun 19-u, yaxud 20-də Nağı Bayramgillə Ankarada Məmməd Əmin Rəsulzadəni ziyarət etdikdə, o, casusluq xarakterli tapşırıqlarını mənə çatdırdıqdan sonra, Nağıya təklif etdi ki, Qars-Qafqaz Komitəsi adlı antisovet Mühacirət Komitəsinin yaradılmasının mahiyyəti ilə məni məlumatlandırsın.

Məmməd Əmin Rəsulzadədən ayrıldıqdan sonra Ankaradan Ərzruma getdiyimiz yolda Bayramgil yaranmış Komitənin fəaliyyəti ilə məni tam şəkildə tanış etdi. Bayramgil bildirdi ki, "QQK"-si siyasi mühacirlərin sovet hökuməti əleyhinə işini gücləndirmək üçün Məmməd Əmin Rəsulzadənin şəxsi təşəbbüsü ilə yaradılır. Bayramgilin sözünə görə "QQK" təşkilatı öz təlimatına uyğun olaraq Türkiyədə olan, İslam dininə məxsus bütün siyasi mühacirləri və vətən satqınlarını birləşdirməlidir. Bu komitənin fəaliyyətinə həm də Zaqafqaziya ərazisinə gizli yolla göndərilmiş öz

emissarları vasitəsi ilə Zaqafqaziya Respublikalarında – Azərbaycanda, Ermənistanda, Gürcüstanda Komitənin filiallarını yaratmaq, siyasi rejimdən narazı insanları silahlı üsyan qaldırmaq üçün hazırlamaq daxildir.

İstintaq saat 4:00-da başa çatdı.
İstintaq etdilər:
Azərbaycan SSR Dövlət Təhlükəsizlik
Nazirinin müavini – Polkovnik Kərimov.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik
Nazirliyinin istintaq şöbəsinin rəis
köməkçisi – Polkovnik M.Əliyev.

İstintaq prosesinin obyektivliyi haqqında fikir söyləmək çətin olsa da, lakin sovet dövlətinin "M.Ə.Rəsulzadə" adından və onun yaratdığı "Müsavat" Partiyasından ehtiyatlandığı hiss olunur. Əldə olunan digər faktlar da təsdiqləyir ki, İkinci Dünya müharibəsindən sonra, xüsusən də 1950-ci illərdən başlayaraq M.Ə.Rəsulzadənin və Müsavatın ya birbaşa, ya da digər vasitələrlə Azərbaycana təsir imkanları olmuşdur.

***Bu da M.Ə.Rəsulzadənin öz əqidəsindən və Azərbaycanın azadlığı uğrunda apardığı mübarizədən geri dönmədiyini təsdiqləyir.***

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 166, v. 54-67.v.113-137.*

## SOVET REJİMİNDƏN NARAZI İNSANLAR.
### ONLARIN APARDIĞI TƏBLİĞAT (1950-1960-cı illər)

Azərbaycan SSR Dövlət Təhlükəsizlik naziri general-mayor Yemelyanovun 7 may 1951-ci ildə hazırladığı arayışda Müsavatın və M. Ə. Rəsulzadənin fəaliyyətindən ehtiyatlandıqları qeyd edilir. Arayışda yazılır ki, SSRİ-yə qarşı İrandan və Türkiyədən ingilis-amerikan kəşfiyyat orqanlarının dağıdıcı fəaliyyəti çox güclənmişdir. Bu ölkələrdəki mühacirət-Müsavat dairələri başqa kəşfiyyat xidmətlərindən Amerika kəşfiyyat xidmətinə keçərək antisovet fəaliyyətlərini gücləndirmişlər.

Ankaradakı Amerika səfirliyi hazırda Türkiyə Xarici İşlər Nazirliyi ilə SSRİ-yə qarşı mübarizədə Sovet İttifaqında yaşayan antisovet ünsürlərdən, o cümlədən Türk xalqlarından faydalanmaq üçün danışıqlar aparır.

Bu məsələ üzrə danışıqlar amerikalılar tərəfindən Türkiyədə Sovet İttifaqından olan müsəlman mühacirətinin liderləri ilə də aparılır.

Bu danışıqları aparan Amerika səfirliyinin Türkiyədəki əməkdaşı Kenninq Hem guya ki, demişdir: “SSRİ-dəki milli azlıqların əhvalını nəzərə almadan, onları özündən kənara itələyən almanların səhvini təkrar etməməliyik. Bizə SSRİ-də milli azlıqlara müstəqillik vəd etmək lazımdır... SSRİ-dəki milli azlıqlar içərisində sayı 40 milyona çatan türk xalqları əhəmiyyətli rol oynayır...”



12с

АЗӘРБАЙЧАН ССР
ДӘВЛӘТ ТӘҺЛҮКӘСИЗЛИЙИ
НАЗИРЛИЙИ

АЗЕРБАЙДЖАНСКАЯ ССР
МИНИСТЕРСТВО
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ

-т рг/2

107

8, мая 1951.
г. БАКУ

ЦК КП/б/АЗЕРБАЙДЖАНА

товарищу БАГИРОВУ М.Д.

При этом направляем справки:

О вражеской, шпионской деятельности мусаватистов и других националистических элементов против СССР

*Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin M.C.Bağırova məktubu, 1951-ci il*

Yemelyanovun arayışında yazılıb: “amerikalıların və ingilislərin tapşırığı ilə müsavatçıların yaratdıqları yeni antisovet təşkilatlar (Azərbaycanlıların Hüquqlarını Müdafiə Cəmiyyəti – Ankarada; Qarşılıqlı Kömək – Dost Əli

Cəmiyyəti – İstanbulda; Azad Azərbaycan təşkilatı - Tehranda, Təbrizdə və İranın digər şəhərlərində) **Sovet İttifaqının ana düşməni olan, xarici kəşfiyyatların agentləri – Məhəmməd Əmin Rəsulzadə, Mir Yaqub Mehdiyev, Rəfibəyov qardaşları** və digərləri tərəfindən idarə olunaraq, SSRİ-yə qarşı dağıdıcı casus işinin yayılması və respublikamızda düşmən qüvvələrin fəallaşdırılması istiqamətini götürüblər".

Buna nümunə olaraq arayışda 1951-ci ilin aprelində həbs edilən keçmiş müsavatçı İzzət Abbasqulu oğlu Abbasovun adı çəkilir. Məlumatlandırılır ki, onun bir qardaşı Imanqulu Abbasov müsavatçılıq fəaliyyətinə görə güllələnmiş və o, digər qardaşı Bayramqulu Abbasovla İrana gedib bir müddət orada qalmışlar. Orada SSRİ ilə sərhəddə Müsavatın İran Mərkəzini yaradıb SSRİ-yə qarşı dağıdıcılıq fəaliyyətinə başlamışlar. 1946-cı ildə Abbasi-Musadiq adı ilə İran siyasi mühacirləri sırasında Azərbaycana gəlib burada fəaliyyətini davam etdirmişdir.

Arayışda sovet dövləti əleyhinə mübarizə aparan, gizli antisovet dəstələr yaradan, bəzi və artıq həbs edilmiş şəxslərin də adına rast gəlinir:

1) İbad Xudadatov – keçmiş müsavatçı, Hilldəki "Prikurinneftkəşfiyyat" qazma tresti kontorunun mühasibi; 2) Qurban Həsənov – Azərbaycan Pedaqoji İnstitutunun keçmiş dekanı və d."

Bundan əlavə arayışda Bakı şəhər Əzizbəyov rayon İcraiyyə Komitəsinin mənzil-təsərrüfatı mühəndisi Heydərov İsmayıl Əli oğlu haqqında məlumat verilir. "İttihaq-İstiqlal" gənclik təşkilatının keçmiş rəhbərlərindən olan bu şəxsin aşağıdakı fikirlər söylədiyi bildirilir: "Şübhə yoxdur ki, hazırda bizim ziyalılarımızın simpatiyası Türkiyəyə tərəfdir. Bizim ziyalılar SSRİ-nin Türkiyəyə qarşı yürütdüyü dost olmayan siyasətini müdafiə etmir".

Arayışda Göyçay məscidinin başçısı İttihad Partiyasının keçmiş fəalı Şərif Hacı Veysəl oğlu Vəliyevin söhbəti də vurğulanır: "Türkiyənin prezidenti Zaqafqaziyada yaşayan biz müsəlmanlar haqqında çox çalışır. O, bizi kommunizmdən necə xilas etmək haqqında düşünür. SSRİ-yə hücum etmək planı qeyd olunur ki, burada Amerika Türkiyəyə kömək edəcək. Bu sovet quruluşu çox davam etməyəcək".

Arayışda güllələnmiş keçmiş müsavatçı Şamil Haşımzadənin həyat yoldaşı, evdar qadın Zinyət Tahirovanın Sovet hökuməti əleyhinə fikirləri belə əks edilib: "Türkiyə bizim xilaskarımızdır. Əgər o, Azərbaycandakı dövlət

quruluşunu dəyişmək istəsə Azərbaycan xalqı ona məhəbbətlə yanaşacaq".

Zinyət Tahirovanın doğma bacısı, Azərbaycan Maliyyə Nazirliyində Kadrlar şöbəsinin rəisi işləyən Teyyubə Rüstəmovanın isə Azərbaycanın rusların müstəmləkəsi olmaq fikri arayışda belə əks edilib: "Bunda biz azərbaycanlılar günahkarıq. Öz rəhbərlərimizi rusların əlinə verdik və hər şeyə boyun əyən canlılara çevrildik".

Kirovabad (Gəncə-*red.*) Sənaye İttifaqının mühasibi Aslan Mustafayevin (keçmişdə "Müsavat" Partiyasına meyilli və Türkiyədə qohumları olan) belə fikirlər təbliğ etdiyi arayışda qeyd olunur: "Şübhə yoxdur ki, gələcəkdə Türkiyə tərəfindən müharibə başlayacaq və SSRİ-nin məğlubiyyəti ilə qurtaracaq, Qafqaz isə bütövlükdə türklərə keçəcək".

"Baş Balıq satışı"nın plan şöbəsinin rəisi Məmmədhəsən Məlikov (1890-cı il təvəllüdlü, Bakıda doğulmuş, keçmiş ittihadçı ali təhsilli) belə təbliğat apardığı bildirilir: "Məgər müsavatçıların ideyası pisdirmi? Axı onlar hamı üçün bərabərlik istəyirlər. Bu partiya milli partiyadır. Məgər insanları öz millətini, xalqını sevdiyinə görə mühakimə etmək olarmı? İttihadçıların partiyasının isə məqsədi bütün müsəlmanları bir partiyada birləşdirməkdir... Xalq Kommunist Partiyasının diktaturası altındadır. Bəşəriyyət tarixində belə haqsız rejim olmayıb. Quldarlıq dövründə qullara müxtəlif formada yanaşırdılar – bəzilərinə pis, bəzilərinə rəhmli. Biz isə birinci qullara məxsusuq".

Bakının Caparidze rayonundakı 5 saylı sənətkarlıq məktəbinin pedaqoqu Qüdrət Müzəffərov isə Amerika-Türkiyə dostluğunu tərifləyirmiş: "Türklər rusların zülmü altında olan qardaşlarını azad etməlidirlər. Biz azərbaycanlıların sahibi Türkiyədə olan Məhəmməd Əmin Rəsulzadədir. O, bizi azad edəcək. Türk milləti məğlubedilməzdir və gələcək ona məxsusdur".

Azərbaycan SSR Dövlət Təhlükəsizlik naziri general-mayor: Yemelyanov. 7 may 1951. Bakı şəhəri".

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 165, v.9 - 17.*

## SOVET AZƏRBAYCANINDA CİNAYƏTKARLIQ HALLARI

1920-ci ilin 28 Aprelindən – Azərbaycanın bolşeviklər tərəfindən işğalından başlayaraq Sovetlər Birliyinin bütün bölgələrində çoxlu sayda cinayətkarlıq halları baş verirdi. Sovet dövləti 1920-1930-cu illərdə baş verən iğtişaşları, silahlı üsyanları, xalqın narazılığını əks etdirən digər halları əsasən "xalq düşmənləri"nin, "trotskçilər"in, "Zinovyev-Buxarin" qrupunun, "qolçomaq və bəylərin", "müsavatçıların" adı ilə bağlayır, onları "millətçi", "Türkiyə casusu" adı ilə ittiham edirdi. Lakin sonrakı dövrlərdə Sovet rejiminin sərt qaydaları belə arzulanan sosialist cəmiyyətinin formalaşmasına şərait yaratmadı. Müxtəlif illərdə qəbul edilən qərarlar ("sosializmin tam qələbəsi" – 1936-cı il, "Sosializmin qəti qələbəsi" – 1961-ci il), kommunizm quruculuğuna layiq insan yetişdirmək istəyi getdikcə mümkün olmurdu. Sovet dövlətində, eləcə də sovet Azərbaycanında cinayətkarlıq halları tez-tez baş verirdi. "Tam məxfi" başlıqlı sənədlərdə sovet Azərbaycanında 1950-ci ildə və 1951-ci ilin birinci rübündə baş verən cinayətlər haqqında Azərbaycan Təhlükəsizlik Nazirliyinin hazırladığı statistikaya diqqət edək: "1950-ci ildə Respublika milisi tərəfindən cinayət məsuliyyətinə 8.423 nəfər cəlb olunmuşdur ki, onlardan 5.366 nəfəri həbs olunmuşdur. 1951-ci ilin birinci rübündə 1942 nəfər cinayətə cəlb edilmiş, onlardan 1191 nəfəri həbs olunmuşdur.

Maraqlıdır ki, məsuliyyətə cəlb edilənlərin çoxu dövlət və ictimai əmlakı mənimsəyənlər, dağıdanlardır. Bu sıradan yalnız 1950-ci ildə 1696 nəfər cinayətə cəlb edilmiş, onlardan 1032 nəfəri həbs olunmuşdur. 1951-ci ilin birinci rübündə isə bu göstərici belə olmuşdur: 350 nəfər məsuliyyətə cəlb olunmuş, 203 nəfər həbs edilmişdir.

Statistikada sonrakı yerlərdə adam öldürmək, dövlətdən, kolxoz və sovxozdan oğurluq, xuliqanlıq əməllərinə görə həbs edilənlər göstərilir.

Maraqlıdır ki, cinayət məsuliyyətinə cəlb edilənlərin 493 nəfəri ÜK(b)P-nin (Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası) üzvüdür ki, onlardan 201 nəfəri həbsə alınmışdır. Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı ("Komsomol") təşkilatının üzvlərindən 291 nəfəri cinayət məsuliyyətinə cəlb edilmiş, onlardan 165 nəfəri həbsə alınmışdır. 1951-ci ilin

birinci rübünə görə isə bu rəqəmlər belə olmuşdur: ÜK (b)P-nin 96 üzvü məsuliyyətə cəlb edilmiş, 38 nəfəri isə həbs olunmuşdur. ÜLKGİ-dən 75 nəfər məsuliyyətə cəlb olunub, 42 nəfər həbs edilib.

Yaş həddinə görə cinayət məsuliyyətinə cəlb olunanlar 1950-ci ildə – 1519 nəfər – 25 yaşa qədər, 2692 nəfər 25 yaşdan çox, 1951-ci ilin birinci rübündə cinayət məsuliyyətinə cəlb olunan 726 nəfər 25 yaşa qədər, 654 nəfər 25-dən çox.

Bu insanlardan (cinayətkarlardan) 1950-ci ildə müsadirə edilmişdir: 406.966 rubl pul, 474.996 rubl dəyərində dövlət zayomu, 260 rubl dəyərində qızıl, 27.900 rubl dəyərində qızıldan və bahalı daşlardan hazırlanmış əşyalar, 299948 kq çörək məhsulu, 701.867 rubl dəyərində ərzaq və sənaye məhsulu.

Məlum olur ki, 1945-1950-ci illərdə cinayətkarlar tərəfindən 1,5 milyon rubldan çox dövlət vəsaiti oğurlanmışdır.

Göründüyü kimi, bu rəqəmlər Sovetlər Birliyinin həm də dağıdıcı mahiyyətini açıqlayır. Kommunizmə doğru "inamla" irəliləyən "Kommunizm" quruculuğuna "yaxınlaşan" bir dövlətin sonrakı – 1960, 1970, 1980-ci illərində də belə və bundan da çox cinayət halları tapmaq mümkün idi.

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 165, v. 154.*

## TAM MƏXFİDİR
## (Sərhəd bölgələrində ciddi nəzarət)

Sovet dövlətinin məxfi orqanları, xüsusən, sərhəd bölgələrində yaşayan insanları xüsusi nəzarətdə saxlayırdı.

1. Azərbaycan SSR-nin Astara rayonunda yaşayan İran əkskəşfiyyatının agenti Mirzə Vəli oğlu və digərlərinin qohumları haqqında Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin arayışı.

Arayışda bildirilir ki, sovet sərhədləri yaxınlığında, İran ərazisində 200-1000 metr məsafədə Azərbaycan SSR-nin Astara rayonunda İran ək-

skəşfiyyatının agentləri yaşayır: 1. Mirzə Vəli oğlu (Mirzə Əlican oğlu Bayramov), 60 yaşında, İranın Astara mahalının Kəşvi kəndinin sakini, keçmişdə Rəşid xan Kəjbinskinin dəstəsinin üzvü, 1945-ci ildə bizim orqanlar tərəfindən İranda məhv edilib; 2. Allahverən Əbdül oğlu – 40 yaşında, Astara rayonunun Unuz kənd sakini, keçmiş sovet vətəndaşı, 1930-1931-ci illərdə valideynləri ilə birgə İrana qaçmışdır, atası Əbdül sovet ərazisinə dəstəsi ilə basqınlar etmişdir; 3. Gəncəli Nehmət oğlu – 50 yaşında, İranın Astara mahalının Vənəbin kəndinin sakini, keçmişdə dəstə iştirakçısı.

Arayışda qeyd olunur ki, müxtəlif illərdə (1938-1940) casus məlumatları toplamaq üçün Azərbaycan SSR-nin Astara rayonu ərazisinə gizli olaraq daxil olmuşlar.

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 165, v. 155.*

**TAM MƏXFİDİR**
**(Gizli sektant qruplar)**

Sovet dövləti müxtəlif gizli sektant qruplara qarşı da sərt mübarizə aparır, gənclərin bu təşkilatlara cəlb edilməsindən və onların sovet dövləti əleyhinə mübarizəyə yönəldilməsindən bərk narahat idi.

Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin 1950-ci illərə aid hazırladığı "respublikada gizli sektant qrupların antisovet fəaliyyəti və gənclərin sektalara cəlb edilməsi ilə bağlı onların fəaliyyəti ilə bağlı arayışda yazılırdı: "Amerika kəşfiyyatı çoxdandır Sovet İttifaqına qarşı dağıdıcılıq fəaliyyətində sektant qruplardan istifadə edir.

Amerikalıların tapşırığı əsasında xaricdə yaşamış "Ümumittifaq baptistlər Ittifaqı", Adventistlərin Baş konsepsiyası" və digər sektant təşkilatlar son vaxtlar antisovet fəaliyyətlərini gücləndiriblər.

Bu təşkilatlar İranda və digər SSRİ ilə sərhəd ölkələrdə fəallıq göstərir, antisektant təşkilatlarla gizli əlaqələr yaradır, öz agentlərini bizə göndərirlər".



СПРАВКА

О некоторых фактах антисоветской деятельности нелегальных сектантских групп в республике и проводимой ими работе по вовлечению в секты молодежи.

Американская разведка с давних пор использовывает сектантские центры за границей в подрывной работе против Советского Союза.

По указке американцев такие разветвленные сектантские организации за рубежом как "Всемирный союз баптистов","Генеральная конференция адвентистов" и другие за последнее время значительно усилили свою антисоветскую деятельность.

Эти организации через свои филиалы в Иране и другие сопредельные с СССР страны принимают активные меры к созданию нелегальных каналов связи с антисоветским сектантским подпольем у нас в стране и переброске к нам своей агентуры.

Активизация антисоветской деятельности сектантов

***Sovet Dövləti əleyhinə fəaliyyətdən narahatlıq əks etdirən sənəd, 1951-ci il***

Arayışda Bakıda, Kirovabadda (Gəncədə - *red.*), Mingəçevirdə və respublikanın başqa rayonlarında bəzi gizli antisovet sektant qrupların ləğvi qeyd edilir. Bakıda gizli “əllilər” sektant dəstənin (rəhbəri M. T. Andreyev), Kirovabadda (Gəncədə) 1951-ci ilin martında “sektantlar-adventistlər-islahatçılar” dəstəsinin məhvi haqqında məlumatlar verilir. Bu qruplar Sovet dövlətinin və partiyanın siyasətini müzakirə edir, SSRİ-nin məhv ediləcəyini bildirir, gəncləri orduya xidmətdən imtina etməyə çağırır, insanları şənbə günləri işləməməyə çağırır, uşaqları məktəbə, kinoya getməməyi təbliğ edirdilər.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 165, v. 31, 32, 33, 34, 38.*

**TAM MƏXFİDİR**
**(Dinə, inanca təzyiqlər)**

Sovetlər Birliyində mövcud rejim insanların din azadlığını da əlindən almış, məscidləri ya məhv etmiş, yaxud ciddi nəzarətdə saxlamışdı. 1920-1930-cu illərdə isə ayrıca bir Allahsız Cəmiyyəti yaradıb, dinlərə qarşı təbliğat kampaniyası aparırdı. Xüsusən, Kommunist Partiyasının üzvü olan şəxsin məscidlərə getməsi bağışlanılmaz idi.

Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin təqdim etdiyi sənəd: “Bəzi ÜK(b)P-nin üzvlərinin məscidlərə gedib dini ayinlər yerinə yetirməsi ilə bağlı arayış. 1950-ci ildə Bakıda və respublikanın bəzi rayonlarında

müsəlman matəmi olan "Məhərrəm" və "Aşura" günlərində bəzi ÜK(b)P üzvlərinin məscidlərə və qeyri-leqal dini yığıncaqlara getməsi faktları aşkarlanmışdır".

Arayışda Bakıda və Lənkəranda belə halların olduğu qeyd edilir.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 165 v. 41.*

## XARİCİ RADİOLARI DİNLƏYƏNLƏRƏ 25 İL HƏBS CƏZASI (istintaq materiallarından)

### "BELIY ATLAS" NİYƏ MƏXFİ İDİ?

Sovet dövləti ideoloji mübarizədə məğlub olacağından hər zaman ehtiyatlanıb. Yaratdığı cəmiyyətin və quruluşun möhkəmliyinə çox da inanmayıb. Əslində, bu rejimin həyata keçirdiyi repressiyalar, həbslər, təqiblər bu "inamsızlıq"la bağlı olub.

Dünyada informasiya texnologiyası inkişaf etdikcə, radio və televiziyanın imkanları genişləndikcə sovet rejiminin də problemləri artıb. Əgər 1920-1930-cu illərdə sovet hökuməti əleyhinə yalnız qəzet, jurnal, kitab vasitələri ilə ideoloji hücumlar edilirdisə, 1940-1950-ci illərdən başlayaraq radionun təsiri daha çox hiss edilməyə başladı: "Bi-Bi-Si", "Amerikanın səsi", 1953-cü ildən "Azadlıq" radiosu Sovet İttifaqına qarşı sarsıdıcı təbliğat aparırdılar (qeyd edək ki, 1953-cü ilin martın 5-dən isə "Azadlıq" radiosunun Azərbaycan redaksiyası fəaliyyətə başladı).

Sovet İttifaqının hər bölgəsində olduğu kimi, Azərbaycanda da bu radiolara qarşı həm də "texniki" fəaliyyət göstərir, yayım dalğalarını "vurmağa" çalışırdılar. 1950-ci illərdə isə bu iş daha da gücləndi. İndiki Hökumət Evinin zirzəmisində həmin dalğaları vurmaq üçün xüsusi texniki qurğular yerləşdirmişdilər. Bundan əlavə sonralar siyasi icmalçılara "Belıy Atlas" ("Ağ Atlas") broşurlarını da verib, onları xüsusi olaraq radio və televiziya çıxışlarına hazırlayırdılar. "Belıy Atlas"da xarici radio-

larda sovet dövləti əleyhinə yayılan məlumatlar verilir, siyasi icmalçılar onunla tanış olur, bu məlumatlara qarşı çıxışlar hazırlayırdılar. "Belıy Atlas" tam məxfi olaraq nəşr edilir, yalnız Sovet rəhbərliyinin inandığı adamlara verilirdi.

Lakin bu təhdidlərə baxmayaraq, sovet rejimindən narazı insanlar müxtəlif vasitələrlə xarici radiolara qulaq asıb informasiyalar əldə edirdilər. Azərbaycanda da bu radioları gizli olaraq dinləyənlər var idi.

İstintaq materiallarında bu radioları dinləyənlər ciddi sorğu-suala tutulur və sonra cəzalandırılırdı.

Azərbaycan Dövlət Təhlükəsizliyi Naziri G. Yemelyanovun 1951-ci ilin sentyabrın 6-da "tam məxfi" qrifi ilə Azərbaycan KP(b) MK-nın Birinci katibi M.C.Bağırova göndərdiyi istintaq protokolu vardır: "Antisovet fəaliyyətlərinə görə həbs edilmiş Cəfərov Qulam Hüseyn oğlunun və Muradov Xəlil Əhməd oğlunun istintaq protokollarını tanışlıq üçün göndərirəm".

Dövlət Təhlükəsizliyi Nazirliyi qoşunlarının Hərbi Tribunalının 1951-ci il 31 avqust tarixli hökmü ilə Cəfərov və Muradov – hər biri 25 il həbs olunmaqla azadlıqdan məhrum edilmişlər".

Bəs 25 il həbs cəzasına məruz qalan Azərbaycan vətəndaşları kimlər idi?

1. Muradov Xəlil Əhməd oğlu. 1900-cü il təvəllüdlüdür. Bakının Buzovna kəndində anadan olub, azərbaycanlıdır. Ali təhsillidir. Həbs edilənədək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllim işləyib.

X.Muradovun istintaqa ifadələrindən: "İstintaqa müqavimət göstərməyin mənasız olduğuna inanıb, ötən sorğu-sualda etiraf etdim ki, Sovet hakimiyyətinə düşmən əhvalda olaraq davamlı müddətdə öz ətrafımdakılarla Sovet dövlətinin gücünü dağıtmağa yönəlmiş təbliğat aparmışam. SSRİ-nin görkəmli dövlət xadimlərindən birinə qarşı terror etmək fikirlərini söyləmişəm.

... 1945-1946-cı illərdən başlayaraq öz baxışlarımızın əsasında Qulam Cəfərovla həbs edilən günə qədər antisovet fəaliyyətlə məşğul olmuşuq. Dəfələrlə olan siyasi söhbətlərimizdə partiyanın və Sovet hökumətinin iyrənc formada yürüdülən tədbirlərini müzakirə edirdik. Kapitalist ölkələrində və o cümlədən inqilaba qədərki Rusiyadakı həyatı və qaydaları tərifləyirdik. Mən və Qulam Cəfərov SSRİ-nin daxili və xarici siyasətinə böhtan atır, sovet mətbuatına inamsızlıq fikirləri söyləyir, xarici antisovet

məlumatları dinləyir və bu xarici mühafizəkar radio verilişlərin bazasında öz ətrafımızdakılara antisovet təbliğatı aparırdıq...

... 1949-cu ilin yayında mənim evimdə Qulam Cəfərovla olan söhbətimdə, mən azərbaycanlıların Ermənistandan köçürülməsinə və ermənilərin Azərbaycanda saxlanılması ilə bağlı millətçi-tendensiyalı məsələyə toxunmuşam. Bununla yanaşı guya Sovet hökumətinin yalnız azərbaycanlıları təqib etməsi, digər millətlərə toxunmayıb, narahat etməməsi kimi böhtan fikirlər söyləmişəm. 1949-cu ilin dekabrından, ölkədə Sovet dövlətinin əsasını qoyanlardan birinin anadan olmasının 70 illiyinin keçirilməsi ilə bağlı hazırlıqlara başlananda dediyim şəraitdə mən onun bu qədər çox yaşamasından narazılığımı bildirdim və amerikalılara qarşı da narazı fikirlər söylədim ki, niyə onlar Kremlə atom bombası atıb oradakı SSRİ rəhbərlərini məhv etmirlər" .

Cəfərov Qulam Hüseyn oğlu 1898-ci ildə doğulub, lənkəranlıdır. Partiyasızdır. Ali təhsillidir. Azərbaycan Ticarət Nazirliyi nəzdində Tədris Kombinatının müəllimidir".

Müttəhim Cəfərov Qulam Hüseyn oğlunun 1951-ci ilin mayın 24-də verdiyi ifadədən: "... ABŞ-ın "Amerikanın səsi", Ingiltərənin "Bi-Bi-Si" və Türkiyənin radiostansiyası sistemli şəkildə antisovet məzmunda olan verilişlərini yayımlayırdılar. 1945-ci ilin ikinci yarısından başlayaraq həbs edildiyim günə qədər öz sərəncamımda xüsusi "T-6" markalı radioqəbuledicinin olmasından faydalanaraq Amerikanın, İngiltərənin, Türkiyənin verilişlərinə qulaq asmışam. Dinlədiyim "Amerikanın səsi", "Bi-Bi-Si" və Türkiyə radiostansiyalarının antisovet böhtan verilişlərinin məzmununu yaxın tanışlarım arasında yaymışam.

"... Yuxarıda qeyd etdiyim kimi, bizim antisovet baxışların bazasında – mən Cəfərov, Muradov, Tahirov,  Murad Əşrəfoğlu və digərləri daimi olaraq toplaşır və antisovet mövzusunda söhbətlər aparırdıq".

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 37, iş 166, v. 25, 26, 31,32,36.*

## SOVETLƏR BİRLİYİNDƏ MƏKTƏBLİ GƏNCLƏRİN VƏ TƏLƏBƏLƏRİN İSTİSMARI

### Azərbaycanda gənclərin tədrisdən uzaqlaşdırılıb tarlalarda, tikintilərdə işlədilməsi

Sovetlər Birliyində yaşayan gənclər oxumaqdan, təhsildən yayındırılır, onları ən ağır işlərə məcbur edirdilər. Mətbuatdakı təbliğat ("gənclərin xoşbəxt yaşayışı və təhsili") reallıqla uyğun gəlmirdi.

Ukraynadakı orta məktəbin müdiri V.A.Suxomlinski "Sovet Pedaqogikası" jurnalında orta məktəblərin yuxarı sinif şagirdləri üçün bir plan çap etdirmişdi. Həmin planda göstərilirdi:

VIII sinif (1951-1952-dərs ili)

Qış tətili (5-6 gün). Tarlaya gübrə daşınması, qarın yayılmasını tənzim etmək, heyvanlar üçün yem hazırlayıb gətirmək, heyvan balalarının bəslənilməsi.

Yaz tətili (3-4 gün). Kolxoz bağlarında işləmək, kartof əkininə kömək.

Bu plan bütün sovet məktəblərində tətbiq edilirdi. Orta məktəbdən şagirdləri, ali məktəblərdən tələbələri uzaqlaşdırır, onları ağır işlər görməyə məcbur edilirdilər.

Azərbaycanda tələbə və gəncləri 1970-ci illərdə ən çox pambıq yığımına aparırdılar. Bəzən bir ay, bəzən daha çox müddətdə tədris sistemi pozulur, tələbələri pambıq yığımına cəlb edərək orada işlədirdilər.

Orta məktəblərin yuxarı sinif şagirdlərini isə fevral ayında dərslərdən yayındırır, tarlaların təmizlənməsinə, yaz əkinlərinə hazırlıqlara cəlb edirdilər. Mövcud sovet rejimini insanların təhsili deyil, işləməyi daha çox maraqlandırırdı.

### İnsanlar tarlalarda, pambıq yığımlarında. Toy da, yas da qadağan olunurdu.

Azərbaycanda insanları səhər saat 7-8-dən maşınlara yığıb tarlalara aparır, axşam saat 8-9-da evə gətirirdilər Pambıq və üzüm yığımı döv-

ründə onlar istirahət günündən də məhrum edilirdilər. Bəzən valideynlər körpə uşaqlarını da aparıb tarlalarda saxlayır, həm işləyir, həm də onları böyüdürdülər.

Pambıq və üzüm yığımı dövründə toy etmək və geniş yas mərasimləri də qadağan edilirdi.

---

***Qaynaq:***
*Y.Kaval. Sovetlər Birliyində uşaq fəhləliyi.*
*"Dərgi" jurnalı, yıl 1, nisan-haziran, 1955, №2.*

## SOVET İTTİFAQI KOMMUNİST PARTİYASININ NARAHATLIĞI. AZƏRBAYCAN KOMMUNİST PARTİYASINA GÖNDƏRİLƏN MƏKTUB

Qeyd etdiyimiz kimi, İkinci Dünya müharibəsindən sonra, xüsusən 1950-ci illərdə, Sovet İttifaqı Kommunist Partiyası ideoloji işin gücləndirilməsi üçün, müxtəlif qərarlar qəbul edirdi. Bu qərarlarda da Kommunist Partiyasının narahatlığı, ölkədə antisovet fəaliyyətlərin güclənə biləcəyindən ehtiyatlanmaq hiss olunurdu.

1956-cı ilin dekabrın 19-da Sov. İKP MK bu məsələ ilə bağlı xüsusi qərar qəbul etdi. Həmin qərarı əsas götürən partiyanın Mərkəzi Komitəsi bütün partiya təşkilatlarına (o cümlədən Azərbaycana) "antisovet düşmən



Центральный Комитет КП Азербайджана 47

протокол № 66 пункт 1 от 25 декабря 1956 г. заседания Бюро ЦК КП Азербайджана

47

О Письме ЦК КПСС к партийным организациям "Об усилении политической работы партийных организаций в массах и пресечении вылазок антисоветских враждебных элементов".

/Постановление ЦК КПСС от 19 декабря 1956 года/

1. Письмо ЦК КПСС к партийным организациям "Об усилении политической работы партийных организаций в массах и пресечении вылазок антисоветских враждебных элементов" разослать горкомам и райкомам КП Азербайджана для обсуждения на закрытых собраниях первичных партийных организаций.

2. Предложить отделу пропаганды и агитации ЦК КП Азербайджана в пятидневный срок обеспечить перевод на азербайджанский язык Письма ЦК КПСС в количестве 1500 экземпляров и разослать его всем обкомам, горкомам и райкомам КП Азербайджана.

3. Обязать отдел партийных органов ЦК КП Азербайджана обеспечить представление в ЦК КПСС информации о ходе обсуждения Письма ЦК КПСС на собраниях первичных партийных организаций.

***Sovet dövlətinin ideoloji narahatçılığını əks etdirən sənəd, 1956-cı il***

ünsürlərin sərhədi keçməsinə qarşı və kütlələr arasında partiya təşkilatlarının siyasi işinin güclənməsi" mövzusunda məktub göndərmişdir. Həmin məktubda aşağıdakı problemlərə diqqət yetirilməsi vurğulanırdı:

1) Sov. İKP MK-nın partiya təşkilatlarına olan "Antisovet düşmən ünsürlərin sərhədi keçməsinə qarşı və kütlələr arasında partiya təşkilatlarının siyasi işinin güclənməsi" mövzusundakı məktubunu ilk partiya təşkilatlarının qapalı yığıncaqlarında müzakirə üçün Azərbaycan KP-nin şəhər və rayon komitələrinə göndərmək.
2) Sov.İKP MK-nın məktubunun Azərbaycan dilinə tərcümə edilib, 1500 sayda 5 gün müddətində Azərbaycan KP-nin bütün vilayət, şəhər, rayon partiya komitələrinə göndərilməsi üçün Azərbaycan KP Mərkəzi Komitəsinə təklif verilsin.
3) Sov. İKP MK-nın məktubunun ilk partiya təşkilatlarının yığıncaqlarında müzakirəsinin aparılmasının təmin edilməsi ilə bağlı informasiyanın Sov.İKP MK-ya çatdırılması üçün Azərbaycan KP MK-nın partiya orqanları şöbəsini məsul etmək". 25. dekabr, 1956-cı il.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 43, iş 121, v.5.*

## YAZIÇI MİRZƏ İBRAHİMOVUN VƏ İMAM MUSTAFAYEVİN İŞDƏN ÇIXARILMA SƏBƏBLƏRİ



***Mirzə İbrahimov***



***İmam Mustafayev***

Tanınmış yazıçı Mirzə İbrahimov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri işləyərkən ilk dəfə olaraq Azərbaycan dilinin rəsmi dövlət dili kimi işlədilməsi və Konstitusiyaya əməl olunması məsələsini qaldırmışdı. 20 avqust 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin "Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında qanun"un qəbulu bu yüksək dövlət təşkilatının rəhbəri M.İbrahimovun böyük səyləri nəticəsində mümkün olmuşdu. Həmçinin onun "Azərbaycan dili dövlət idarələrində" adlı məqaləsində (1956) milli məsələ ilə bağlı taleyüklü problemlər ön mövqeyə çəkilmişdi. O, bu cəsarətli addımına görə vəzifəsindən çıxarılmış və təqiblərə məruz qalmışdı.

Həmin dövrdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan İmam Mustafayev də hakimiyyətdə olduğu dövrdə Azərbaycan dilinin üstün tutulması istiqamətində gördüyü işlər səbəbindən 12 iyun1959-cu ildə "bacarıqsızlıq" bəhanəsi ilə vəzifəsindən azad edilmiş və Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun üzvlüyündən çıxarılmışdı.

Azərbaycan rəhbərliyinin xalqın mövqeyindən müəyyən işlər görməyə başlaması İ.Mustafayevin və M.İbrahimovun 1959-cu ildə tutduqları vəzifədən azad olunması ilə nəticələnmişdi.

***Qaynaq:***

*1."Mənlik" qəzeti, 10. 09. 1999.*

*2. C.Həsənli. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008.*

*3.https://ru.wikipedia.org/wiki/Мустафаев,_Имам_Дашдемир_ оглы*

*4.https://az.wikipedia.org/wiki/Mirzə_İbrahimov*

## AZƏRBAYCANDA KOMMUNİST İDEOLOGİYASININ TƏBLİĞİ (1960-CI İLLƏR)

Arxiv sənədlərində 1960-cı illərdə (9 yanvardan başlayaraq) Azərbaycanda Kommunist Partiyasının yaradılmasının və Azərbaycan SSR yaradılmasının 40 illiyi münasibəti ilə söhbətlərin, məruzələrin, mühazirələrin – yəni bütün ideoloji təbliğatın mövzularının siyahısı verilmişdir.

**Həmin siyahıdan:**

**1.** Azərbaycan Kommunist Partiyası Sov. İKP-nin ən qocaman və döyüşkən dəstələrindən biridir.
**2.** 26 Bakı Komissarı Kommunizm uğrunda alovlu mübarizlərdir.
**3.** Sovet Azərbaycanı ölkənin ən nəhəng sənaye mərkəzlərindən biridir.
**4.** Azərbaycan xalqının formaca sosialist, məzmunca milli mədəniyyətinin çiçəklənməsi.
**5.** Yeddillik planın vaxtından əvvəl yerinə yetirilməsi sosializm yarışı qaliblərinin ilhamverici nümunəsidir.
**6.** Azərbaycanda yeni tikintinin görünməmiş inkişafı.
**7.** Lenin Komsomolu Kommunist Partiyasının etibarlı ehtiyatı və sədaqətli köməkçisidir.
**8.** Hər bir SSRİ vətəndaşının müqəddəs vəzifəsi Sovet hakimiyyətinin böyük qazanclarını müdafiə etməkdir.
**9.** Azərbaycanı ən nəhəng Kimya sənayesi rayonlarından birinə çevirmək.
**10.** Azərbaycanda Leninin rəhbərliyi ilə inqilabi hərəkat. Sosialist dəyişikliklərinin Lenin planı.
**11.** Kolxoz quruluşu Azərbaycan kəndlilərinə nə gətirdi?

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 47, iş 49, v. 44, 45, 46, 47.*

## AZƏRBAYCANIN "KÖNÜLLÜ" OLARAQ RUSİYAYA BİRLƏŞMƏSİNİN 150 İLLİYİ (Azərbaycanın işğalının bayram edilməsi)

Azərbaycan KP MK-nın Birinci katibi Vəli Axundov partiyanın 9-11 yanvar tarixində Bakıda toplanan 26-cı konfransında demişdi: "Azərbaycanın könüllü olaraq Rusiya ilə birləşməsinin 150 illiyini qeyd edəcəyik. Bu hadisə Azərbaycan xalqının tarixində böyük bir bayramdır. Azərbaycan xalqının qurtuluşu, onun sosialist ekonomisi və kültürünün uğurlar əldə etməsi işində böyük rus xalqının, Rusiya fəhlə sinfinin, Lenin partiyasının tarixi xidməti aydın şəkildə bildirilməlidir".

1964-cü ilin mayında tədbirin keçirilməsinə qərar verilir.

1964-cü ilin mayın 29-da Azərbaycanın işğalı böyük bir mərasimlə qeyd edilir. Sov.İKP MK katibi Podqornı başda olmaqla çoxlu sayda nümayəndələr tədbirdə iştirak edirlər.

Tanınmış şair "Rus qardaşım" şeirində bu misraları yazırdı:

***150 il bundan əvvəl çiçəkləndi xoş əməl,***
***Ömrümüzün kitabına imza atdı iki əl.***
***Rus qardaşım, biri sənin, biri mənim əlimdi,***
***Xoşbəxtlərin biri sənin, biri mənim elimdi.***
***İki əlin bir-birini möhkəm-möhkəm sıxması,***
***Bir millətin yalnızlığın pəncəsindən çıxması,***
***Bir səadət deyilmi?***
***Şan və şöhrət deyilmi?***

---

***Qaynaq:***

*1. "Kommunist" qəzeti, 10 yanvar, 1964.*
*2. "Kommunist" qəzeti, 20 may, 1964.*
*3. S.Təkinər. Qara bir istilanın milli bayram kimi qeyd olunması hadisəsi üzərinə. "Dərgi", yıl 1964, №37, səh. 41-52.*

## XALQ ŞAİRİ B.VAHABZADƏNİN "GÜLÜSTAN" ƏSƏRİNİN YARANMA SƏBƏBİ


Нуха фәһләси
Халгларын парлаг мәгсәдә доғру һәрәкатыны дајандырмаг олмаз!
Москвада тәнтәнәли митинг

*"Nuxa fəhləsi" qəzeti, 1960-cı il, oktyabr*


Бәхтијар Ваһабзадә
КҮЛҮСТАН
(Поемадан парча)

*"Nuxa fəhləsi" qəzeti, "Gülüstan" poemasının nəşri*

1956-cı ildə Sovet dövlətinin rəhbəri N.S.Xruşşovun Sovet İttifaqı Kommunist Partiyasının XX qurultayında şəxsiyyətə pərəstişin zərərli hallarının aradan qaldırılması ilə bağlı çıxışından sonra cəmiyyətdə qorxu hissi və təqiblər müəyyən qədər zəiflədi. SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycanda da azadfikirlilik meyilləri xalqın tarixi, mədəniyyəti ilə bağlı obyektiv yanaşmalar ortalığa qoyulmağa başladı.

Eyni zamanda, 1958-ci ildə Azərbaycan Kommunist Partiyasının tarixi ilə bağlı nəşr edilmiş bir kitab isə Moskvada ciddi narazılıqla qarşılanmışdı. Ermənilər bu kitabda 11 yerdə N.Nərimanovun adının çəkilməsini düzgün saymırdılar. Onlar Moskvaya sübut etmək istəyirdilər ki, müstəqil Azərbaycan Kommunist Partiyası olmayıb və bu, Rusiya Bolşeviklər Partiyasının tərkib hissəsidir (yəni bu Azərbaycan xalqı partiya yaratmayıb). Odur ki, "Azərbaycan Kommunist Partiyasının oçerkləri" adlı kitabın hazırlanması daha məqbul sayılırdı. Hətta bu "problem"in həlli üçün Moskvadan Azərbaycana bir komissiya gəlmiş və burada müzakirələr aparılmışdı.

Bu illərdə "Türkmənçay" müqaviləsinin 130, "Gülüstan" müqaviləsinin bağlanmasının 150 illiyinə hazırlıq işləri gedirdi.

Hətta belə suallar da çıxırdı ortalığa: bu, birləşmədir, yoxsa işğal?

Şair Bəxtiyar Vahabzadənin isə bu məsələlərdən geniş məlumatı var idi və bütün bunlar onun **"Gülüstan"** əsərinin yazılmasına səbəb oldu.

1959-cu ildə yazılan bu əsər Bakıda "Azərbaycan" jurnalına təqdim edilsə də, nəşr olunmadı. Poema ilk dəfə 1960-cı ildə oktyabr ayında Şəkidə "Nuxa fəhləsi" qəzetində işıq üzü gördü. Qəzetin redaktoru Məhyəddin Abbasov həm müharibə əlili, həm də cəsarətli adam idi. Onun B. Vahabzadə ilə də yaxşı münasibətləri vardı. Şəkidə "Qlavlit"də çalışan Səftər da əsərin qəzetdə çapına mane olmadı.

Azərbaycan KP MK-nın 1963-cü ilin dekabrında keçirilən partiya müşavirəsində isə dövlət rəsmisi Xasay Vəzirov çıxış edib, əsərin çapını tənqid etmişdi.

"Gülüstan" poemasını əsgərliyə gedən azərbaycanlı gənclər köçürüb özləri ilə aparır, orada oxuyub təbliğ edirdi.Onlar bu əsəri tərcümə edib hətta ruslara da oxuyurdular. Bundan ehtiyatlanan Sovet Ordusunun siyasi rəhbərliyi Moskvadan Azərbaycan DTK-sına məktub yazmış,B.Vahabzadədən izahat alınmasını tələb etmişdi. B.Vahabzadə bu işdən xəbərinin olmaması haqqında izahat yazmışdı.

Sonradan 1960-cı illərin sonlarında Bakı Dövlət Universitetndə bir elmi iclasda B.Vahabzadə ilə iki tanınmış alimin mübahisəsi düşür. Onlardan biri B.Vahabzadə haqqında DTK-ya şikayət məktubu yazır, onu millətçilikdə günahlandırır. Azərbaycandan isə bu haqda Moskvaya məlumat çatdırılır. Sov.İKP MK-nın ideologiya məsələləri katibi M.Suslov "bizə dissidentlər hazırlamaq lazım deyil, onları şirnikləndirin" tapşırığını verir.

B. Vahabzadə isə sonradan "Leninlə söhbət" poemasını yazır və ona qarşı münasibəti dəyişir.

---

*1. B.Vahabzadə. "İstiqlal". Bakı, 1999.*

*2. C.Həsənli. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008.*

## "GÜLÜSTAN" POEMASI
## (Əsərdən seçmələr)

***Azərbaycanın birliyi və istiqlaliyyəti uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz xatirəsinə***

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə,
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı, ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə,
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Bir deyən olmadı, durun ağalar!
Axı, bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?

Bəs hanı həqiqət, bəs hanı qanun?
Qocadır bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun
Bir vahid ölkənin iki qardaşı?

Necə ayırdınız dırnağı ətdən,
Ürəyi bədəndən, canı cəsəddən?
Axı, kim bu haqqı vermişdir Sizə?
Sizi kim çağırmış Vətənimizə?

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdələşdilər.
Bir ölkə ikiyə
Ayrılsın deyə!..

Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

Başı kəsiləndə bu məğrur elin,
Könül fəryadını hiss etdinizmi?
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi?
Cənablar, bir damcı mürəkkəblə siz,
Düşünün, nələrə qol çəkmişsiniz?

Ey Araz, səpirsən göz yaşı sən də,
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?

Qarışıb gözümdə, qarışıb aləm,
Dərd dərdi doğrayır, qəm qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub, sinəmdən keçir.

Ağalar bilmədi birdir bu torpaq,
Təbriz də, Bakı da Azərbaycandır!
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.



***Bəxtiyar Vahabzadə***

*__Bəxtiyar Vahabzadə__ (16 avqust, 1925 – 13 fevral, 2009) –görkəmli azərbaycanlı şair, dramaturq, ədəbiyyatşünas, Azərbaycanın xalq şairi (1984), filologiya elmləri doktoru (1964), professor, "İstiqlal" ordeni ilə təltif olunmuşdur (1995).*

## QARA QARAYEVİN "ÜÇÜNCÜ SİMFONİYA"SI QADAĞAN OLUNUR



*Qara Qarayev*

Sovetlər Birliyində müasir musiqi və bəstələmə sistemi rəsmi qadağan edilməsə də, onun geniş təbliği arzuolunmaz sayılırdı. Bu sahədəki çalışmalara isə Sovet dövləti tərəfindən maneələr yaradılırdı. Avstriyalı musiqiçi Arnold Şönberqin yaratdığı Dodekafonik (12 tonlu) bəstələmə sistemi də Sovetlər Birliyində qeyri-rəsmi şəkildə qadağan edilmişdi.

Bəstəkar Qara Qarayevin 1963-cü ildə bitirdiyi "Kaman konserti" ilə 1964-cü ildə bəstələdiyi "Üçüncü simfoniya"sı bu yeniliyə görə Kommunist Partiyasının məsul şəxslərini ağır vəziyyətə salmışdı. Belə ki, Q.Qarayevin hər iki əsəri Dodekafonik sistem ölçülərinə görə bəstələnmişdi.

"Sovetskaya Kultura" ("Sovet Mədəniyyəti" – *red*) qəzetinin 1967-ci ilin 27 iyun sayında olan məlumatına görə Voronej şəhər Orkestrinin istəyinin əleyhinə olaraq SSRİ Bəstəkarlar Birliyinin tövsiyyəsi ilə "Üçüncü simfoniya" repertuardan çıxarılır. Bunun səbəbi belə izah olunur ki, Q.Qarayev sovet rejiminin qaydalarını pozaraq onların musiqidən təbliğat vasitəsi kimi istifadəsinə qarşı çıxmışdı.

Azərbaycanın tanınmış sənət və ədəbiyyat xadimləri də bu əsərin "Lenin" mükafatı alacağını düşünür və mətbuatda xoşməramlı yazılarla çıxış edirdilər. Professor Cəfər Cəfərov, musiqişünas Zemfira Səfərova, şair Rəsul Rza, bəstəkar Əfrasiyab Bədəlbəyli mətbuatda dəyərli yazılarla çıxış etmişdilər.

Qara Qarayevə "Lenin" mükafatı son dövrdə yazdığı "Üçüncü simfoniya"ya görə yox, 15 il əvvəl bəstələdiyi "İldırımlı yollarla" baletinə görə verildi. Bu əsərində o, Afrika zəncilərinin sosial həyatı və onların azadlıq savaşını tərənnüm etmişdi.

---

***Qaynaq:***

*B.Azər. Qara Qarayevin "Üçüncü simfoniya"sı. "Dərgi" jurnalı, Münhen, 1970, №59, səh. 74-75.*

***Qara Qarayev*** *( 5 fevral 1918 — 13 may 1982) — görkəmli Azərbaycan bəstəkarı və pedaqoqu. Müharibədən sonrakı dövr Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri.*

## GÜNEYLİ SOYDAŞLARIMIZIN SOVET REJİMİNƏ ETİRAZLARI
## GƏNC QVARDİYA TƏŞKİLATI



*İsmayıl Təriqpeyman*

Bu təşkilat **1949-1950-ci illərin əvvəllərində Şamaxıda** yaranmışdı. O dövrdə Şamaxıda ”sovxoz” deyilən yerdə Güneydən gəlmiş (xüsusən Pişəvəri hərəkatından sonra) soydaşlarımız yaşayırdılar. Sonradan onların çoxunu Quba rayonuna köçürdülər. Təşkilatın üzvləri Pişəvəri hərəkatının məğlubiyyətində və ona dəstək verməməkdə sovet dövlətini tənqid edir, ona etirazlarını bildirirdilər. Bu məqsədlə onların gizli toplantıları keçirilirdi. Onların sıralarında Pişəvəri hərəkatında iştirak etmiş hərbçilər də çox idi.

Təşkilatın əsas rəhbərləri və fəalları arasında **İsmayıl Təriqpeyman, Məhəmməd Azərpun, İsfəndiyar Coşqun** və digərləri var idi. Sovet DTK-sı bu təşkilatın izinə düşüb, onun fəallarını həbs etdi və Sibirə sürgünə göndərdi. Onların bəziləri şimal həyatına və həbsxana cəzalarına dözməyib həlak oldular. Qalanlarını isə yalnız N.S.Xruşşovun dövründə həbsdən azad etdilər. Həbsxanadan qayıdanları isə Bakıda yaşamağa qoymurdular.

**Gənc Qvardiyaçılardan** olan İsmayıl Təriqpeyman həbsxanadan qayıtdıqdan sonra Bakıda yaşamağa icazə aldı. İ.Təriqpeyman Bakı Dövlət Universitetinin hüquq fakultəsində dərs dedi, “Əraninin hüquqi görüşləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. İ.Təriqpeyman 1980-ci illərdə də mübarizəsini davam etdirdi. Dərs dediyi auditoriyalarda onun sovet rejimindən narazı ruhda olan məruzələrini tələbələr maraqla dinləyirdilər. Bundan əlavə İ. Təriqpeyman 1986-1988-ci illərdə gizli yaradılan “Üçlük”lərdə iştirak etdi (Ə.Elçibəy, Firudun Ağasıoğlu), Varlıq təşkilatının fəallarından oldu.

---

***Qaynaq:***
*Əkrəm Rəhimlinin şəxsi arxivindən.*

## SUMQAYIT QİYAMI (1963-cü il)

**1963-cü ildə** baş vermiş Sumqayıt hadisələri haqqında "məxfi" qrifli məlumatı 1963-cü ilin 8 noyabrında Azərbaycan SSR İctimai Asayişi Mühafizə naziri X.M.Məmmədov hazırlayaraq, Azərbaycan KP MK-ya göndərib. Həmin **"məxfi"** məlumatda yazılıb: "7 noyabr 1963-cü il tarixdə səhər saat 10-da Sumqayıt şəhər meydanında Böyük Oktyabr Sosialist İnqilabının 46-cı ildönümünün bayram edilməsi ilə zəhmətkeşlərin nümayişi olub.

İlkin məlumatlara görə, təxminən saat 10:30-da nümayişçilərin hərəkəti sona çatarkən, 1 saylı trestin kolonunda kütləvi iğtişaş baş verib.

Qayda yaratmaq məqsədi ilə Sumqayıt şəhərinin hərbi komissarı polkovnik Krol hadisə yerinə gəlib. Adamlar ona hücum edib və döyüblər.

Meydanda asayişi qoruyan milis işçiləri və drujinaçılar onun köməyinə gəliblər. Bu dəstədən çoxları milis işçilərinə və drujinaçılara müqavimət göstərib, onlara hücum ediblər. Bu zaman şəhər Milis şöbəsinin rəis müavini, milis kapitanı D. M.Kldiaşvili, sahə müvəkkili, milis leytenantı M.M.Nəsirov möhkəm döyülüb, həmçinin drujinaçılar Y.Kalaldxin, G.Hüseynquliyev, Ş.Cəbiyev, Y.Babayan və başqaları əzişdiriliblər.

İki nəfər vətəndaş **Kldiaşvili** yoldaşa yardım göstərərək, onu Azərbaycan Boru-Prokat zavodunun avtobusuna qoyub, şəhər milis şöbəsinin binasına çatdırıb.

Kldiaşvili ilə birlikdə milisə iki vətəndaş da aparıldığını düşünən böyük əhali kütləsi avtobusun ardınca milis şöbəsinin binasına gəlib və guya tutulan iki vətəndaşın verilməsini tələb ediblər. Əslində bu iki vətəndaş Kldiaşvilini binaya çatdırdıqdan sonra çıxıb gediblər. Bu barədə milis işçiləri gələn kütləyə izahat verməyə çalışıblar. Lakin kütlə bu izahatlara inanmayıb, şəhər milis şöbəsinin binasına soxularaq, növbətçilərə hücum edib, binanı daşa basıb, binanın demək olar ki, birinci və ikinci mərtəbələrindəki bütün şüşələrini sındırıb, şöbənin silahını götürməyə cəhd göstərib, telefonları qoparıblar. Onlar iki milis motosiklini aşırıb, benzin çənlərini açaraq yandırıb, həmçinin əvvəllər tutulmuş cinayətkarları azad etməyə cəhd göstəriblər.

...Görülmüş tədbirlər nəticəsində toplaşanlar dağıdılıb, saat 14:30-a qədər iğtişaşlar dayandırılıb". Məxfi. 8 noyabr 1963-cü il.

**Hadisə necə baş verib?**

**“Məxfi” məlumatdan:** 1963-cü ilin noyabrın 7-də Lenin prospektindəki Lenin meydanında nümayiş keçirilirdi. Əvvəlcə Boru-Prokat zavodunun və Sintetik-Kauçuk zavodunun əməkçiləri tribuna önündən keçirlər. 1 saylı Trestin fəhlələri tribunanın qabağına çatanda bir fəhlə Stalinin balaca portretini çıxarır və qışqırmağa başlayır: **“Yaşasın Stalin! Yaşasın Stalin!”.** Şəhərin hərbi komissarı **Krol** büro üzvü olduğu üçün tribunada dayanmışdı. O, ya özünün təşəbbüsü ilə, yaxud tribunadan kiminsə göstərişi iləsə meydana düşüb qışqırmağa, adamları vurmağa başladı. Bu vaxt camaat onun üstünə düşür, Krolu döyürlər. Sonra onu meydandakı “şərəf lövhəsi”nə dirəyib döyməkdə davam edirlər. Sumqayıt bazarının müdiri Həsənov familiyalı şəxs işə qarışır və Krolu xilas etmək mümkün olur.

***Rusiyalı tədqiqatçı V.A.Kozlov “Tanınmayan SSRİ. 1953-1985-ci illərdə xalq və hakimiyyətin qarşıdurması. III hissə” kitabında bu haqda belə məlumat verir:*** “Azərbaycan SSR Prokuroru S.Əkbərovun məlumatına görə, Trest Partiya Komitəsinin katibi **Ərşad Kərimov** nümayişçilərin birindən Stalinin portretini almaq istəyərkən cərgədəki iştirakçılar ona müqavimət göstərdilər. Birdən Boru-prokat zavodunun bir dəstə fəhləsi, şəhərin mərkəzi meydanında bayram nümayişi cərgəsindən ayrılıb, hakimiyyət nümayəndələri ilə toqquşmağa başladılar və haradansa Stalinin böyük təsvirini tapıb, izdihamın üzərinə qaldırdılar. Fəhlələr yerli partiya rəhbərlərinin toplaşdığı kürsüyə soxulub, Mədəniyyət Sarayının divarından Xruşşovun portretini qopardılar. İki naməlum şəxs ələ keçirilmiş avtobusda şəhər milis idarəsinin rəis müavini Kladiaşvilini şəhər şöbəsinə apardılar və qiyamçılardan biri meydandan keçərkən, avtobusun üstündən Sov. İKP MK-nı və Sovet hökumətini devirmək çağırışları etmişdir.

Milis (polis-*red.*) dəyənəklə qiyamçıları qovmaq istəsə də, yalnız hadisə yerinə Bakıdan gələn milis dəstələri kütləni dağıda bildilər (bir nəfər isə yaralandı).

Bir versiyaya görə həmin hadisənin əsasında iqtisadi tələb dayanırdı. Fəhlələr şəhərin çörəklə təchizatındakı fasilələrə və qiymət artımına etiraz edirdilər”.

## HADİSƏLƏRDƏ TƏQSİRLİ BİLİNƏN ALTI NƏFƏR AZADLIQDAN MƏHRUM EDİLİR

Sumqayıt hadisələrində təqsirli bilinib sorğu-suala çəkilən insanlar çox olsa da, altı nəfər müxtəlif müddətə (6 il, 3 il) azadlıqdan məhrum edildi.

Təbii ki, Sumqayıt hadisələri o dövrdə ölkədə, o cümlədən Sumqayıtda çörəyin qıtlığı, keyfiyyətsizliyi, maddi durumun ağırlığı ilə bağlı olsa da, bir başlıca səbəb də var idi: insanların mövcud sovet quruluşundan narazılığı.

Hadisələrdə həbs edilənlər: **1. Miriş Əlimirzəyev; 2. Ənvər Mahmudov; 3. Asif Bayramov; 4. Yaşar Mahmudov; 5. Nikolay Sevçenko; 6. Səməndər İbrahimov.**







---

***Qaynaq:***

*1. M.Həsənov. Sumqayıt qiyamı. "Yeni yüz il" qəzeti, 28 dekabr, 2001-ci il*

*2. V.A.Kozlov. Tanınmayan SSRİ. 1953-1985-ci illərdə xalq və hakimiyyətin qarşıdurması. III hissə. M.2006.*

*3. Jurnalist Natiq Cavadlının şəxsi arxivi.*








Qeyd: **SUMQAYITDA 1961-1962-Cİ İLLƏRDƏ DƏ FƏHLƏ ETİRAZLARI OLMUŞDU.**

Sumqayıtda 1963-cü ilin noyabrında baş verən hadisə yeni deyildi. Bundan əvvəl, 1961-1962-ci illərdə də əvvəl Boru-Prokat zavodunun, sonra isə Sintetik-Kauçuk zavodunun fəhlələri zavod binası qarşısında oturaq tətil keçirmişdilər. Onlar maddi şəraitlərinin yaxşılaşdırılmasını tələb etmişdilər.



# ERMƏNİLƏRİN FƏALLIĞI (1960-cı illər)

## Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsində çalışan erməni zabitləri

1920-ci illərdən başlayaraq Azərbaycanın güc strukturlarında çalışan ermənilər sonrakı dövrdə də bu "fəaliyyətlərini" davam etdirdilər.

1960-cı illərdə Azərbaycan DTK-sında çalışmış erməni zabitlərinə Komitə rəhbərliyinin yazdığı xarakteristikalar:

1. **Sergey Ohanesoviç Ohanesyan (mayor) -** 1924-cü il təvəllüdlü, 1947-ci ildən Sov.İKP üzvü.

*Arayış*: "1947-ci ildən Dövlət Təhlükəsizliyi orqanlarında çalışan Ohanesyan vicdanlı və icraçı zabit olaraq özünü müsbət tərəfdən göstərmişdir. Ona tapşırılan işi müvafiq tələbkarlıqla yerinə yetirir, nəticədə müsbət göstəricilərə nail olub yüksəlmişdir. Ayıqlığın artırılmasında və şəxsi heyətin tərbiyə olunmasında komandanlığa və hissənin partiya-siyasi aparatına kömək edir.

ÜFK (Ümumittifaq Fövqəladə Komissiyası – *red.*) (VÇK - Vsesoyuznaya Çrezvıçaynaya Komissiya), DTK (Dövlət Təhlükəsizlik Komitəsi) KQB (Komitet Qosudarstvennıy Bezopasnosti) orqanlarının yaradılmasının 50 illiyi ilə əlaqədar onun Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilməsinə baxmağınızı xahiş edirəm.

2. **Balasanov Qurgen Avakoviç (kapitan) -** 1912-ci il təvəllüdlü, 1939-cu ildən Sov. İKP üzvü.

"1939-cu ildən Dövlət Təhlükəsizlik orqanlarında işləyir. Bütün müddətdə operativ-istintaq vəzifələrində olub. Müsbət xarakterikalıdır. İcraçı və intizamlı əməkdaş kimi operativ-agentura sahəsində böyük təcrübəsi var. İşdə müsbət göstəriciləri olduğundan bir neçə dəfə dəyərləndirilmişdir".

---

***Arxiv:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 47, iş 49.v.24*

## SOVET DÖVRÜNDƏ ERMƏNİLƏRİN "XAÇ ATASI" –ANASTAS MİKOYAN (A. Mikoyan SSRİ Ali Sovetinin sədri olub)

1920-ci ilin aprelin 30-dan - Azərbaycanın Sovet rejimi tərəfindən işğal edildiyi ilk günlərdən A.Mikoyan Bakıda olub. O, burada XI Ordunun və Hərbi İnqilabi Şuranın səlahiyyətlisi olaraq gəlmişdi. A.Mikoyan bu hadisəyə qədər də Bakıda cinayətlər törətmişdi.

1895-ci ildə anadan olan A.Mikoyan sonradan - 1914-cü ildə erməni qulduru Andranik Ozanyanın başçılıq etdiyi könüllü dəstəyə yazılıb və 1915-ci ildə Türkiyəyə qarşı ruslar tərəfdən Türkiyə cəbhəsində vuruşub. 1915-ci ildən RSDF(b)P-nın üzvü olub.

1918-ci ildə Bakıda Mart hadisələrində azərbaycanlıların qətlə yetirilməsində fəallıq göstərib. O, bu hadisələrdə kiçik silahlı dəstəyə başçılıq edib, Qırmızı Ordunun Üçüncü briqadasında (briqadir Amazasp Srvantsyan idi) komissar olub. Bakıda bolşeviklərin gizli təşkilatına rəhbərlik edib. Qafqaz İslam Ordusunun Bakını azad etməsindən sonra 26-ları "Türkmən" gəmisində Bakıdan çıxarır, Krasnovodskda onları həbs edirlər.




*A.Mikoyanın 1970-ci illərdə Moskvada nəşr edilmiş, rus ictimaiyyətinə Bakıdakı fəaliyyəti ilə bağlı saxta məlumatlar yayan kitabı*

1919-cu ilin fevralında Mikoyanı azad edirlər. Həmin ilin martında o, RK(b)P-nin Qafqaz Vilayət Komitəsinin Bakı bürosuna rəhbərlik edir. A.Mikoyan həm də Bakı Partiya Komitəsinin katibi olur.

**A.Mikoyan 1920-ci illərdə günahsız azərbaycanlıların güllələnməsində, ölkədən sürgün edilməsində xüsusi rol oynayıb. Sovet dövlətində isə o, həmişə yüksək vəzifə tutub və onun bu mövqeyindən Azərbaycan xalqı əziyyət çəkib.**

A. Mikoyanın Sovet dövlətində tutduğu vəzifələr:

1. 1920-ci ildə Hərbi İnqilab Şurasının səlahiyyətli nümayəndəsi.
2. 1924-1926-cı illərdə RKP(b)P-nin Şimali Qafqaz Vilayət Komitəsinin 1-ci katibi olub.

3. 1926-1930-cu illərdə SSRİ Xarici və Daxili İşlər komissarı. Eyni zamanda UK(b)P MK Siyasi Büro üzvlüyünə namizəd.
4. 1930-1934-cü illərdə SSRİ Təchizat Xalq komissarı.
5. 1934-1938-ci illərdə SSRİ Yeyinti Sənayesi komissarı.
6. 1938-1949-cu illərdə SSRİ Xarici Ticarət naziri.
7. 1953-cü ildə SSRİ Daxili və Xarici Ticarət naziri.
8. 1953-1955-ci illərdə SSRİ Ticarət naziri.
9. 1955-1964-cü illərdə SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini.
10. 1964-1965-ci illərdə SSRİ Ali Sovetinin sədri.
11. 1935-1966-cı illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü.

A.Mikoyan SSRİ Ali Sovetinin sədri olarkən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi aktuallaşsa da, o vaxtkı SSRİ dövlət başçısı N.Xruşşov buna imkan verməmişdi. Lakin A.Mikoyanın Moskvadakı nüfuzundan istifadə edən ermənilər 1915-ci ilin qondarma “erməni soyqırımı”nın 100 illiyini Ermənistanda dövlət tədbiri kimi qeyd etdilər. Həmin dövrdə onlar İrəvandakı qədim məscidi söküb, yerində Andranikin abidəsini qoydular. 24 Aprel Ermənistanda matəm günü elan edildi. Yazıçı Əli Vəliyev Moskvaya gedib, onun qohumlarını (o, əslən Qubadlı rayonundan idi) məhz Andranikin öldürdüyündən şikayət etsə də, onu qəbul etmədilər.

A.Mikoyandan güc alan ermənilər 1965-ci ildə daha bir iş də həyata keçirdilər: erməni yazıçısı M.Hovanesyan Xankəndində yaşayan erməni ziyalılarını başına toplayıb, SSRİ Ali Sovetinə (yəni A.Mikoyana) müraciət etdi ki, Dağlıq Qarabağ Ermənistan SSR-nə birləşdirilsin. Müraciəti 13 “daşnak” - erməni imzalamışdı.

A.Mikoyan 1978-ci ildə Moskvada dünyadan köçdü və 58 il müddətində ermənilərin separatçı fəaliyyətinin güc mənbəyi oldu.

**Qeyd:** ***1939-cu ilə qədər Bakıda olan 19 rayondan birinə də A.Mikoyanın adı verilmişdi. 1918-ci ildə günahsız insanların qanını tökdüyü küçə həmin qatilin adını daşıyırdı.***

***Qaynaq:***
*https://ru.wikipedia.org/wiki/Микоян,_Анастас_Иванович*

## 1980-Cİ İLLƏRİN SONUNDA AZƏRBAYCANDA YÜKSƏK VƏZİFƏ TUTAN ERMƏNİLƏRİN SİYAHISI

1. A. A. Ayriyan – Azərbaycan SSR Meşə və Ağac Emalı Sənayesi naziri.
2. V. N. Nersesyan – Bakı Şəhəri Kirov (indiki Binəqədi) Rayon Partiya Komitəsinin Birinci katibi.
3. N. B. Qabrielyan – "Azərittifaq" katibinin müavini.
4. A. S. Bedcanyan – Azərbaycan SSR Prokurorluğunda İstintaq İdarəsinin prokuroru.
5. S. M. Ohacanyan – "Azərkimya" Birliyi Sədrinin birinci müavini.
6. B. A. Ayrapetov – Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, Bakı Şəhər Plan İdarəsinin sədri.
7. İ. S. Sarkisova – Bakı Şəhər Prokurorluğunun məhkəmələrdə cinayət işlərinə baxılmasına nəzarət şöbəsinin prokuroru.
8. R. M. Qazaryan – Azərbaycan SSR İslah-Əmək müəssisələrində qanunlara nəzarət şöbəsinin prokuroru.
9. N. A. Melkumyan – Azərbaycan SSR Prokurorluğunun Baş mühasibi.
10. L. V. Ohanesyan – Azərbaycan SSR Prokurorluğunda Ümumi və Vərəsəlik şöbəsinin rəisi.
11. A. S. Gevorqyan – Azərbaycan SSR Prokurorluğunda təsərrüfat direktoru.
12. E. S. Kasparyan –Nəqliyyat Qanunlarının İcrasına Nəzarət Prokurorunun köməkçisi.
13. E. S. Petrosyan – Azərbaycan SSR Prokurorluğunun Baş nəzarətçisi.
14. O. V. Parsadanov – Dövlət Təhlükəsizliyi Komitəsinin şöbə prokuroru.
15. A. A. Arzumanyan – Bakı şəhər Tikinti-təmir Trestinin direktoru, Bakı şəhər Sovetinin deputatı.
16. A. S. Hambartsumov – Azərbaycan KP Lenin Rayon Komitəsinin büro üzvü, rayon Partiya Komitəsində partiya komissiyasının sədri.

17. R. S. Baqdasaryan – "Xəzərneftqazsənaye" Ümumittifaq Sənaye Birliyinin rəis müavini, iqtisad elmləri namizədi, SSRİ Qaz Sənayesinin fəxri işçisi.
18. M. B. Bunyatyan – SSRİ Sənaye-Tikinti Bankının Azərbaycan üzrə əməliyyat idarəsinin rəisi.
19. L. İ. Vartapetyan – Bakı Kanalı İdarəsi rəisinin birinci müavini, Azərbaycan SSR Mənzil-yaşayış təsərrüfatının əməkdar işçisi.
20. S. N. Haykazyan – Bakı Qaz İstehsalı İdarəsinin Baş mühəndisi.
21. V. P. Egizarov – Bakı Şəhər Lenin Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədr müavini.
22. A. H. Ohanyan – Bakı Kanalizasiya İdarəsinin Baş mühəndisi.
23. R. V. Səfəryan – Sosial-Mədəni Obyektlər Trestinin 9 saylı Tikinti Kompleksi İdarəsi briqadasının briqadiri, Azərbaycan KP Bakı şəhər Komitəsinin üzvü.
24. N. R. Şahnazaryan – Nizami Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin üzvü.
25. Aida Manuçaryan – "Azərbaycan" nəşriyyatında İstehsalat İdarəsinin rəisi.

*Qeyd*: Bu siyahı tam olmasa da, bir həqiqəti ortaya qoyur: biz "keçici qırmızı bayraq"lar alıb, şüarçılıqla məşğul olduqda ermənilər nəinki "Dağlıq Qarabağ"ın, eləcə də Azərbaycanın və onun baş şəhəri olan Bakının hüquq-mühafizə, bank, şəhər təsərrüfatı kimi vacib sahələrinə nəzarəti ələ keçirirdilər. Eyni zamanda Azərbaycanda mövcud olan əksər nəşriyyatların kadrlar idarəsinə də onlar rəhbərlik edirdilər. A. Manuçaryan isə Xalq şairi B. Vahabzadənin bir yazısının nəşrinə nəşriyyatda ciddi problemlər də yaratmışdı.

***Qaynaq:***

*1. A.Musayevin şəxsi arxivindən.*

*2. www.Garabagh.net. 2012-ci il.*

# ŞIXƏLİ QURBANOVUN MÜƏMMALI ÖLÜMÜ.
## ONU NOVRUZ BAYRAMINA GÖRƏ İZLƏYİRDİLƏR



*Şıxəli Qurbanov*

Azərbaycanın görkəmli yazıçısı, dramaturqu, şairi, filosof alimi, dövlət və ictimai xadimi **Şıxəli Qurbanov** (1925-1967) Bakıda doğulub. Orta məktəbi bitirdikdən sonra Böyük Vətən müharibəsində iştirak edib. 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. “A.S.Puşkin və Azərbaycan poeziyası” mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1958-1963-cü illərdə “Rəis məşğuldur”, “Birdən belə olmaz” adlı satirik əsərləri Musiqili Komediya Teatrında səhnəyə qoyulub. **“Sənsiz”** tamaşası isə ölümündən az sonra – 1967-ci ilin iyunun 2-də tamaşaya qoyulub. Bu əsər Stalinizmin qurbanlarına həsr edilmişdi.

Ş. Qurbanov 1954-1955-ci illərdə Azərbaycan KP Bakı Şəhər Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, 1955-1957-ci illərdə 26 Bakı Komissarları Rayonunun və Voroşilov Rayon Partiya Komitəsinin Birinci katibi vəzifəsində işləyib. 26 mart 1957 - 24 may 1967-ci illərdə Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri olub. Eyni zamanda o, 1966-1967-ci illərdə Azərbaycan KP MK-nın katibi və Büro üzvü olub.

Ş.Qurbanov bu vəzifələrdə işlədiyi dövrdə özünü millətini, vətənini, onun tarixini sevib dəyərləndirən şəxs kimi təsdiq edib. Onun ciddi səyi ilə 1950-ci illərdə Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin unudulmuş məzarı axtarılıb tapılıb və Fəxri Xiyabanda yenidən dəfn edilib.

Ş.Qurbanov MK katibi vəzifəsində olarkən 1967-ci ildə yaradıcı gənclər üçün “Ulduz” jurnalı çap edildi, bundan əvvəl 1966-cı ildə isə İranda yaşayan böyük şair Şəhriyarın “Heydərbabaya salam” poeması Bakıda çap olundu.

Ş.Qurbanov 1960-cı illərdə Azərbaycanın milli ruhlu ziyalıları ilə sıx əlaqə saxlayır, onlara dəstək olmağa çalışırdı.

Siyasi fəaliyyətinə görə 1960-cı illərin sonlarında həbs edilmiş Rafiq Turabxanoğlu xatirələrində yazır ki, biz bir neçə Azərbaycan millətçi və ziyalıları ilə birlikdə tez-tez onunla görüşür, Azərbaycandakı vəziyyətlə bağlı fikir mübadiləsi edirdik. (O, bu ziyalılardan Nigar Rəfibəylinin və Əzizə Cəfərzadənin adını qeyd edir).


БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ. БИРЛӘШИН!

КОММУНИСТ

АЗӘРБАЈЧАН КОММУНИСТ ПАРТИЈАСЫ МӘРКӘЗИ КОМИТӘСИНИН, АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН ВӘ НАЗИРЛӘР СОВЕТИНИН ОРГАНЫ

ОРГАН ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА, ВЕРХОВНОГО СОВЕТА И СОВЕТА МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР

1919-чу илдән чыхыр № 67 (13455) | ЧӘРШӘНБӘ АХШАМЫ, 21 МАРТ 1967-чи ИЛ. | Гијмәти 2 гапик.

Вјетнам, һамы

*1967-ci ildə keçirilən Novruz bayramı*

1967-ci ilin martından isə Ş.Qurbanovun xüsusi fəallığı ilə Azərbaycanda bolşeviklərin 1920-ci illərdə rəsmi olaraq qadağan etdiyi Novruz bayramı keçirildi. 1967-ci ilin 20 martında Bakıdakı Qız Qalası ətrafında keçirilən bu möhtəşəm Novruz bayramı Moskvadakı Sovet rəhbərliyini narahat etdi. Ş.Qurbanovu Moskvaya dəvət edib, izahat verməsini tələb etdilər. O, yazdığı 22 səhifəlik izahatda Novruz bayramının dinlə heç bir əlaqəsi olmadığını sübut etdi.

Qeyd edək ki, erməni separatçılarından Levon Şaumyan, Marietta Şaginyan, Sero Xanzadyan Kremlə şikayət məktubları yazıb Novruzu dini bayram kimi təqdim etmişdilər.

Bu hadisədən sonra Ş.Qurbanova qarşı üç dəfə qəsd edilsə də, o, sağ qaldı. 1967-ci ilin mayın 24-də sui-qəsd olaraq, dişini müalicə edən həkim tərəfindən vurulan iynə (bu iynə öldürücü sianid turşusu imiş) onun həyatına son qoydu.

Tədqiqatçı alim,Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev Ş.Qurbanovun ölümü ilə bağlı bu məqamları mətbuata açıqlamışdır:

"Həmin ilin may ayının 24-də Şıxəli Qurbanov dişlərini müalicə etdirmək üçün "dostu" Əliağa Əhmədov adlı həkimə gedir. İynədən sonra gözlənilmədən xəstənin halı pisləşir, Qurbanov deyir ki, o, boğulur, qusmağı gəlir və 1-2 dəqiqə sonra huşunu itirir. Təcili olaraq diş kabinetinə 4-cü Baş İdarənin rəisi, dosent A.Mirzəzadə, həkim terapevtlər A.Ağababayev və C.Gözəlov, cər-


Ɪринято 2 июня 1967г. прот. № 45, § 8 79

ПОСТАНОВЛЕНИЕ
БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

Об изучении обстоятельств смерти секретаря ЦК КП Азербайджана т.Курбанова Ш.К.

Поручить т.т.Амирову А.Д. (созыв), Таировой Т.А., Векилову Ф.М., Султанову А.А., Мирза-заде А.А., Топчибашеву М.А., Эфендиеву Э.М., Гусейнову Д.Ю., Мелкадзе П.А. изучить обстоятельства смерти секретаря ЦК КП Азербайджана т.Курбанова Ш.К. и свое заключение представить в ЦК КП Азербайджана. Срок – 17.VI-1967г.

***Ş.Qurbanovun ölüm səbəbinin araşdırılması sənədi***

rah Z.Ağabəyli, otolarinqoloq Ş.Qasımova çağrılırlar. Qeyd edilən həkimlər Şıxəli Qurbanovun dərin şok vəziyyətdə görürlər, artıq onun nəbzi vurmur, nəfəsi gedib-gəlmirdi. Onun öldüyünü görən həkim pəncərədən tullanıb qaçır. Deyilənə görə dişinə şpritsə 5,0 ml. məhlulda həll olunmuş 200-250 min vahidlik streptomitsin içində sianid turşusu vurulduğu üçün ölür".

Ş.Qurbanovun həyat yoldaşı Xavər xanım qeyd edir ki, o, Azərbaycan KP MK-nın 1967-ci ilin iyununda keçiriləcək növbədənkənar plenumunda Birinci katib seçilməli idi. Lakin buna imkan verilmədi. Ş.Qurbanov Fəxri Xiyabanda dəfn edildi.

Ş. Qurbanovun ölümündən sonra xanımı Xavər Qurbanova Moskvaya gedib şikayət edir. SSRİ Prokurorluğundan gələnlər isə həqiqəti üzə çıxarmırlar. Qəzetdə isə Ş.Qurbanovun "anafilaktik şok"dan ölməsi ilə bağlı dörd nəfər mütəxəssisin imzası ilə məlumat dərc edilmişdi.

Ş.Qurbanovun dəfnində çoxlu sayda insan iştirak edirdi.

Bu hadisədən bir il sonra – 1968-ci ildə Bakıda Azərbaycan Dövlət Universiteti tələbələrinin keçirmək istədikləri kütləvi Novruz bayramını dövlətin göstərişi ilə milislər dağıdır, yandırılmış tonqalı isə yanğınsöndürənlər söndürürlər. Tələbələrlə qarşıdurmada milislər də yaralanır. Həbs edilən tələbələri isə Vəli Axundovun göstərişi ilə azad edirlər.

Qeyd edək ki, sonrakı illərdə də tələbələr, ziyalılar hər Novruz bayramında Şıxəli Qurbanovun məzarını ziyarətə gəlirdilər. Xalq şairi B.Vahabzadə, alim X.Məmmədov da bura gələnlər arasında olardı.

**Şıxəli Qurbanov bütün varlığı ilə milli ruha, milli tarixə bağlı bir şəxsiyyət idi. Ana xətti ilə Bakının Novxanı torpağına bağlı olan Ş.Qurbanovun yazdığı bir şeirin misraları buradakı məzarlıqda uyuyan, 1918-ci ildə Nuru Paşanın başçılığı ilə Qafqaz İslam Ordusunun**

**sıralarında Bakının və Azərbaycanın çoxlu sayda bölgələrini düşmənlərdən azad edən qəhrəman Türk əsgərinin məzar daşına həkk edilib:**

**Eşidib fəryadın Azərbaycanın,**
**Tərəddüd etmədən dada yetişdim.**
**Xalqımın yolunda keçib canımdan,**
**Əbədi şöhrətə-şana yetişdim.**

---

***Qaynaq:***

*1. N.Yaqublu. Qafqaz İslam Ordusunun Azərbaycanda izləri. B., 2015.*

*2. Şıxəli Qurbanov. Vikipediya.*

*3. S.Laçın. Şıxəli Qurbanov 1967-ci ilin iyununda Birinci katib seçilməli idi? Tarix. Moderator.az. 22. 03. 2017.*

*4. Moderator.az saytı. 22.03.2018*

## AZƏRBAYCAN KP MK-NIN KATİBİ VƏ AZƏRBAYCAN SSR ALİ SOVETİNİN DEPUTATI ŞIXƏLİ QURBANOVUN VƏFATI İLƏ BAĞLI AZƏRBAYCAN KP MK VƏ AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN TƏDBİRLƏRİ HAQQINDA QƏRARI

**(24 may 1967-ci il, Protokol №45)**

1. Azərbaycan KP MK-nın katibi, Azərbaycan SSR Ali Sovetinin sədri Ş.Q.Qurbanovun dəfninin təşkil edilməsi üçün hökumət komissiyası yaradılsın: Əmirov Ə.D. (sədr), İbrahimov M.İ., Qədirov Ə.M., Tahirova T.Ə., Qaşqay M.Ə., Ələsgərov S.E.
2. Ş.Q.Qurbanov Fəxri Xiyabanda dəfn edilsin.
3. Dəfn xərcləri dövlətin hesabına ödənilsin.

Azərbaycan KP MK-nın Birinci katibi: V. Axundov

Azərbaycan Nazirlər Sovetinin sədri: E. Əlixanov

1967-ci ilin iyunun 2-də Azərbaycan KP MK-nın Bürosu Azərbaycan KP MK katibi Ş. Qurbanovun ölüm səbəbinin öyrənilməsi ilə bağlı qərar qəbul edir və bu işin 1967-ci ilin 17 iyununa qədər yerinə yetirilməsi Ə. D. Əmirova tapşırılır.

1967-ci ilin iyunun 2-də Azərbaycan KP MK-nın və Azərbaycan Nazirlər Sovetinin verdiyi qərarda Ş. Qurbanovun adının əbədiləşdirilməsi qeyd olunurdu:

1) Azərbaycan Dövlət Musiqili Komediya Teatrına və Zaqataladakı yeni orta məktəbə onun adı verilsin;
2) Bakı Şəhər Sovetinə Bakının küçələrindən birisinə Ş.Qurbanovun adının verilməsi tapşırılır;
3) Respublika Elmlər Akademiyasının Ədəbiyyat və Dil İnstitutuna Ş.Qurbanovun əsərlərini çapa hazırlamaq, Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuat Komitəsinə 1968-ci ildə onun elmi, dram və bədii əsərlərindən ibarət olan, 50 çap vərəqi həcmində 2 cildliyi nəşr etmək tapşırılır;
4) Bakı Şəhər İcraiyyə Komitəsinə və Azərbaycan Rəssamlar İttifaqının Bədii Fonduna 1967-ci ilin sonuna qədər Ş.Qurbanovun məzarı olan ərazini qaydaya salmaq və qəbirüstünü hazırlamaq tapşırılır.

Bu, dövlətin rəsmi qərarı idi və tez bir zamanda yerinə yetirildi.

Belə "aldadıcı" hallar isə Sovet rejimində əvvəldən mövcud idi. Yəni, tanınmış bir şəxs lazım gələndə aradan götürülür, onun adı isə "əbədiləşdirilir". Əslində bu işin əsası 1934-cü ildə qoyulmuşdu. Sovet dövlətinin tanınmış xadimi S. M. Kirov aradan götürüldü (çünki o, son partiya qurultayında Baş katibliyə seçkidə Stalindən çox səs toplamışdı və bu da Stalini narahat etmişdi) və tezliklə həqiqətin unutdurulması üçün "həkim komissiyası" yaradıldı, adı "əbədiləşdirildi".

---

***Arxiv***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond. 1, siyahı 54, iş 44, v.76, 78, 79, 144, 146, 147.*

## QARANQUŞ TƏŞKİLATI.
### TƏLƏBƏLƏRİN 1960-CI İLLƏRDƏ GİZLİ ÇALIŞMALARI

**Qaranquş təşkilatının** əsas yaradıcılarından olan xalq yazıçısı Mövlud Süleymanlı bu qurumun əsasının 1963-cü ildə qoyulduğunu qeyd edir. O dövrdə M.Süleymanlı Azərbaycan Dövlət Universitetinin ikinci kursunda oxuyurdu. Universitetdə onlara dərs deyən Bəxtiyar Vahabzadənin, Xalid Əlimirzəyevin gənc tələbələrə təsiri çox güclü idi.

M.Süleymanlı xatırlayır ki, o, Ermənistanda böyümüş və ermənilərin onlarla yaşadığı Qızıl Şəfəq kəndinin adının dəyişdirməsinə camaatın necə etiraz etdiyinin şahidi olmuşdu. Kəndlərində orta məktəbin olmamağı da onları mövcud hökumətdən narazı salmışdı. Orta məktəbi bitirdikdən sonra bir il Tiflisdə fəhlə işləyən dostları ilə birgə orada yaşayan azərbaycanlıların siyahısını hazırlamış və bu rəqəmin bir milyona yaxın olduğunu öyrənmişdilər. M.Süleymanlı dostları ilə bu qənaətə gəlmişdilər ki, Azərbaycan xalqının bir əsas problemi savadsızlıqdır!

**“Qaranquş” təşkilatını** da elə bu məqsədlə yaratdılar: milləti savadlandırmaq, onun problemlərinin həllinə kömək etmək. Təşkilatın adını “Qaranquş” qoymaqda isə bir məqsəd var idi: yəni Qaranquş quşların içərisində müjdə gətirməyi ilə seçilir. Bu təşkilat da xalqın müjdə gətirəni olmalıdır.

Təşkilatın əsas yaradıcıları aşağıdakılar idi: Mövlud Balakişiyev (Süleymanlı), Tofiq Abdin (rəhmətə gedib), Tanrıqulu Əliyev (onun təxəllüsü “Tanqo” idi və rəhmətə gedib), Azər Abdulla, Bağır Ağayev və digərləri (bu şəxslər həm də İdarə Heyətinə daxil idi. Təşkilatda sədr yox idi və əsas işlərə rəhbərliyi İdarə Heyəti edirdi).

Təşkilatın başlıca fəaliyyət proqramı bu idi: savadlanıb, bilgilənib Güney Azərbaycanı xilas edək.

Təşkilatın üzvlərinin sayı 80-ə yaxın idi.

Təşkilatda azərbaycanlıların nə üçün rus familiyası olan “ov, ev” şəkilçilərindən istifadə etməsi də müzakirə olunurdu.



Mövlud Süleymanlı



Tofiq Abdin



Azər Abdulla

Təşkilatın gizli keçirilən yığıncaqlarında mütaliə edilən əsərlər müzakirə olunurdu. Məsələn, Leninin, Engelsin əsərlərini oxumaqda məqsəd siyasi bilgini artırmağa xidmət edirdi. Alman filosoflarından Hegelin əsərlərini Tanrıqulu ("Tanqo") almanca oxuyub izah edirdi, M. Süleymanlı fars dilini öyrənirdi.

M.Balakişiyev (Süleymanlı) və T.Abdin bir otaqda qalırdılar və onların otağında makina var idi. Onlar müəyyən sənədləri hazırlayarkən bu makinadan istifadə edirdilər.

O dövrdə yaradılan digər bir təşkilata isə Vidadi Paşayev adlı bir gənc başçılıq edirdi və o, bir təşkilatda birləşməyi təklif etmişdi. Lakin bu birləşmə baş tutmadı. Az sonra DTK əməkdaşları xalq arasında yayılan gizli vərəqələrin izinə düşüb axtarış apardılar. Onların otağındakı makinanın şriftləri vərəqədəki hərflərə uyğun gəlmədiyindən onlara toxunmadılar. Lakin 1964-cü ildə şübhələndikləri bir şəxsin bir həftə yoxa çıxmasından sonra onları iki-iki həbs edib apardılar DTK-ya. Faiq adlı bir müstəntiq M.Süleymanlı ilə Hüseyn adlı dostunu sorğu-suala çəkdi. Onlar etiraz etdikdə, belə bir fəaliyyətin olmadığını söylədikdə, M.Süleymanlının kitabxanadakı dərnəkdə çıxışlarının fotolarını gətirib ona göstərdilər.

Qeyd edək ki, 1960-cı illərdə Bakıda V.İ. Lenin adına kitabxanada və M. Ə. Sabir adına kitabxanada ədəbiyyat dərnəkləri fəaliyyət göstərirdi. V.İ.Lenin adına kitabxanadakı dərnəyə şair Tofiq Mütəllibov, digərindəkinə isə Kələntər Kələntərli başçılıq edirdi. Hər iki dər-

nəkdə gənc şair və yazıçıların şeirləri, hekayələri müzakirə edilirdi. Gənc şair Tofiq Abdinin Sovet hökuməti əleyhinə məqamlarla dolu olan "Sən və Mən" poeması müzakirə olunarkən M.Süleymanlı Tofiq Abdinin bu əsərini müdafiə xarakterli çıxış edib. DTK agentləri bu məsələni orqanlara çatdırmış və onun fotolarını da çəkmişdilər".

Həmin poemanın bir bəndi belə idi:

**Ölkəmiz Konqoda binalar tikir,**
**Deməli, dostluqda seçilirik biz.**
**Dostlar üstümüzdən əlini çəkib,**
**Elə günü-gündən kiçilirik biz.**

Müstəntiq M.Süleymanlıdan nə səbəbə bu antisovet ruhlu əsəri müdafiə etdiyini təkrar soruşduqda onun yanındakı "boksçu" nişanlı pəhləvan görkəmli oğlan bütün ağırlığı ilə Mövluda güclü yumruq vurdu. M.Süleymanlının huşu gedib yerə yıxıldı. Özünə gəldikdə onu DTK generalı Heydər Əliyevin otağına apardılar. H.Əliyev ona "30-cu illərdə həbs edilənləri, güllələnənləri, Sovet hökuməti ilə oynamamağı, bu məsələnin artıq Moskvaya gedib çatdığını" söyləmişdi və bu yoldan çəkinməyi də demişdi. H.Əliyev sonda belə demişdi: "Bu hökumət qoyunu qoyunluğunda, keçini keçiliyində tutub boğmağı bacarır".

Qaranquş təşkilatının digər üzvlərini də həbsdə çox saxlamadılar. Onların bir daha bu fəaliyyətlə məşğul olmayacaqlarına inanıb azadlığa buraxdılar.

Təşkilat üzvlərindən M.Süleymanlı, T.Abdin, A.Abdulla isə ədəbiyyat sahəsində çalışmalarını davam etdirdilər. Yazıçı M.Süleymanlının 1970-1980-ci illərdə yazdığı "Şeytan", "Dəyirman", "Köç" əsərləri Azərbaycan oxucularının böyük marağına səbəb oldu.

---

***Qaynaq:***

*Yazıçı M.Süleymanlının şəxsi arxivi.*

## MİLLİYYƏT QRUPU.
## AZƏRBAYCAN MİLLİ DEMOKRAT İTTİFAQI

1973-cü ildə Asəf Kərimovun rəhbərliyi ilə Milliyyət adlı qeyri-leqal qrup təşkil olunur və bu qrup təbliğatla yanaşı açıq formalı etirazlardan da istifadə edir. 1976-cı ildə Milliyyət qrupu Azərbaycan Milli Demokrat İttifaqına çevrilir. Həmin ilin 1 May nümayişində Bakının Lenin – indiki Azadlıq meydanında Azərbaycan Demokratik Respublikasının üçrəngli, ay-ulduzlu bayrağını nümayiş etdirdilər.

---

***Qaynaq:***

*B.Əziz. Azərbaycanda sovet işğal rejiminə qarşı mübarizə (1920-1991). Magistr hazırlığı üçün proqram. Bakı, 2008.*

## ÖLÜM HÖKMÜNƏ MƏHKUM EDİLƏN ŞƏRİF SULTANOV.

### SİBİRDƏN – ÖMÜRLÜK SÜRGÜNDƏN QAÇIB GİZLİ ADLA YAŞAYAN PARTİYA SƏDRİ



*Şərif Sultanov*

**Şərif Sultanov** – ***1914-cü ildə Tovuz rayonunun Şəfibəyli kəndində anadan olub. 1931-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirib. Gürcüstanın bir sıra rayonlarında məktəb direktoru, Adıgün və Başkeçid rayonlarında maarif şöbə müdiri işləyib. Tbilisidəki Pedaqoji İnstitutu qiyabi olaraq bitirib. 1937-1942-ci illərdə Azərbaycanın müxtəlif rayonlarında pedaqoji fəaliyyət göstərib. 1942-ci ildə "əksinqilabi təşkilata başçılıq etməsi" adı ilə beş il azadlıqdan məhrum edilib. Həbs düşərgəsindən qayıtdıqdan sonra 1950-ci ildən yenidən həbsə alınmış və ömürlük Sibirə göndərilmişdir. 1951-ci ildə sürgündən qaçan Ş. Sultanov Azərbaycana qayıtmış, başqa ad, familiya ilə fəaliyyət göstərmişdir.***



9

ИНГИЛАБИ МУБАРИЗӘЈӘ НЕЧӘ БАШЛАДЫГ.

Сталинин зүлмү һәддини ашды кәндлиләри хүсуси мүлкијјәтдән мәһрум едиб, гулдарлыг системи јаратмаг мәгсәди илә онун јеритдији коллективләшдирмә сијасәти, өлкәдә кәндли үсјанлары јаранмасына сәбәб олду.
Коммунист һакимијјәти үсјанлары јатырмаг үчүн орду гүввәсиндән истифадә етмәклә, кәндләрдә күнаһсыз адамлары истинтагсыз вә мәһкәмәсиз, халгын көзү өнүндә күлләләтмәклә, колхозлар јарадылмасына наил олду. Бу мәгсәдлә јерләрдә апарылан тәмизлик әмәлијјаты нәтичәсиндә халгымызын үч јүз мин өвлады мәһв едилди, Шимала сибирә -Орта Асијаја өлкәләринә сүркүн едилдиләр.
Бу амансыз ганлы тәдбир, милләтләримизи күчдән салды, инсанлары гул вәзијјәтинә дүшмәјә вадар етди.
О, илләр /1931-36-чы илләр/ Биз кәнч зијалылар халгымызын фәлакәтинә көз јуммагы бачармадыг, габагча дост бирлији ады алтында јаранмыш бирлији 1936-чы илдә АХАП-на /Азәрбајчан халг азадлыг партијасы/ чевирдик, тәшкилат комитәси јаратдыг.
Достлуг бирлијинин илк тәшәббүсү групу Күрчүстанын Борчалы /инди Марнoли/ маһалында фәалијјәтә башлады, гыса вахтда әтраф рајонларда да өзәкләр јарада билдик.
1936-чы илдә мәркәзи Тиблиси олмагла АХАП-нын тәшкилат комитәсини јаратдыг.

Тәшкилат Комитәсинин тәркиби...
1. Шәриф Султан.
2. Рза Шаһвәләд.
3. Сәфтәр Тагиjев.
4. Хаибаба Һачыјев
5. Әли Салеһ
6. Әличәдид (Султанов-Корбәјли)
7. Дилрүба Султанова.

2=

**Ş.Sultanovun gizli yaratdığı təşkilata məxsus sənəd**

***İ.V.Stalinin ölümündən sonra bəraət alan Ş.Sultanov 1960-cı ildən Kirovabadda (Gəncə) məktəb direktoru işləyib.***

Onun gizli siyasi fəaliyyəti 1936-cı ildən başlayır. 1936-cı ildə onun başçılığı ilə Borçalıda və Axalsixidə Azərbaycan Xalq Azadlıq Partiyası yaradılır. Təşkilatın məqsədi – **Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda mübarizə idi.**

1937-ci ildə Sov. İKP MK-nın mart plenumunda çıxış edən İ.Stalinin ictimai keçmişindən, inqilabi fəaliyyətindən, sovet dövründəki xidmətindən asılı olmayaraq bütün şübhəli adamları ifşa etməyə, onlara amansız divan tutmağa çağırış etməsi onun tərəfdarlarına geniş imkanlar açdı və ölkə həbs düşərgəsinə çevrildi. On minlərlə insanlar həbs edildi, sürgünə göndərildi, güllələnmə hökmü ilə öldürüldü.

Belə şəraitdə Ş.Sultanov və həmfikirləri fəaliyyətlərini dayandırmağa məcbur oldular.

1939-cu ildə Ş.Sultanov işini Quba rayonuna dəyişməyə məcbur olur. 1939-1940-cı illərdə yenidən gizli şəraitdə Xalq Azadlıq Partiyasının fəaliyyətini bərpa edir. Bir müddət sonra Xalq Daxili İşlər Komissarlığı əməkdaşları onun izinə düşür və 1942-ci ilin iyunun 18-də onu həbs edirlər. İstintaqı erməni kapitan Gevorkyan aparır. Onun ittihamı da ağır idi: müharibə dövründə Sovet ordusu arxasında silahlı üsyan hazırlamaq, bu məqsədlə əksinqilabi millətçi təşkilat yaratmaq, Sovet hakimiyyəti əleyhinə təbliğat aparmaq.

Sorğu-sual vaxtı onu çox incitdilər, zorakılıqlar etdilər. İstintaq dörd ay davam edir. Ş.Sultanovu ən ağır cəzaya – ölüm hökmünə məhkum edirlər. Nəticə protokoluna və ölüm hökmünə imza da atdırırlar. O, kamerada oturub güllələnəcəyi məqamı gözləyirmiş. Lakin Xalq Daxili İşlər Komissarı Mir Teymur Yaqubov hökmə imza atmır. 1943-cü ilin avqust ayında SSRİ Daxili İşlər Komissarlığının "xüsusi müşavirə"sində Şərif Şultanov beş il azadlıqdan məhrum edilir. Sibirin soyuqlu, şaxtalı günlərində beş il məhbəs həyatı yaşayır.

1947-ci ilin iyul ayında həbsdən azad olunub Azərbaycana qayıtdı. O zaman məhbusluqdan qayıdanları mühüm vəzifələrə, müəllimlik işinə qəbul etmirdilər. Ş.Sultanov vəziyyətdən çıxmaq üçün dostlarının köməyi ilə təmiz vətəndaşlıq pasportu və hərbi bilet almağa nail olur. Şamxor (Şəmkir) rayonunda müəllimlik edir.

1949-cu ildə siyasi cəhətdən şübhəli vətəndaşları kütləvi surətdə sürgün etmək haqqında Moskvadan göstərişlər verilir. 1950-ci ilin 18 iyulunda Ş.Sultanovu ikinci dəfə həbs edirlər. Bu dəfə onu Krasnoyarsk diyarının Kazaçi rayonuna ömürlük sürgün edirlər. 1951-ci ilin iyulun 1-də buradan qaçmağa müvəffəq olur. Azərbaycana qayıdır və yaxın dostlarının köməyi ilə gizli şəraitdə yaşayır. Onun haqqında isə axtarış başlanır. 1952-ci ilin martında Ş.Sultanova dostlarının vasitəsi ilə başqa adamın adına olan sənədlər verilir: pasport, diplom, hərbi bilet, əmək kitabçası. O, artıq Muradov Bahadur Sultanmahmud oğlu adı ilə Ağdamda pedaqoji fəaliyyət göstərir. Məktəb direktoru təyin edilir.

1953-cü ilin martında İ.Stalin vəfat edir. Onun ölümündən 21 gün sonra martın 26-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Amnistiya (bəraət) fərmanı elan edilir.

1954-cü ildə Ş.Sultanova da bəraət verilir. Sonradan o, Xaçmazda, Şəmkirdə, Gəncədə məktəb direktoru vəzifələrində çalışır, gənc nəslin tərbiyəsində böyük xidmətlər göstərir.

1990-cı ilin noyabrın 18-də Bakı şəhərində Azərbaycan Xalq Dirçəliş Partiyasının qurultayı keçirilir və o, partiyanın Fəxri sədri seçilir.

Ş.Sultanov 1990-cı illərdə vəfat edib.

---

***Qaynaq:***

1. *Ş.Sultanov. Ömrün səhifələri. "Lenin yolu" qəzeti, 25 may 1989-cu il.*
2. *Ş.Sultanov. Mən xalq düşmənimi idim? "Ulduz" qəzeti, 31 yanvar-1 fevral, 1989-cu il.*
3. *N.Həsənli. Qanlı illərin canlı şahidi. "Nizami Yurdu" qəzeti, Gəncə, 1990-cı il.*
4. *Ş.Sultan. Xeyirxahlıq. "Azərbaycan" qəzeti, 28 May, 1991-ci il.*
5. *Ş.Sultan. Dost dar gündə tanınar. "Cəsarət" (gənclər) qəzeti, N18, 6 sentyabr, 1991-ci il.*

# MİLLİ KİNOMUZUN REJİSSORU – HÜSEYN SEYİDZADƏ.

## ONUN FİLMLƏRİNDƏN NARAZILIQLAR (“O OLMASIN, BU OLSUN”, “KOROĞLU”, “DƏLİ KÜR”, “YENİLMƏZ BATALYON”, “QAYINANA”)



***Hüseyn Seyidzadə***

Hüseyn Seyidzadə Azərbaycan kino tarixində parlaq izlər qoyub. Onun çəkdiyi milli ruhlu filmlər insanların yaddaşında əbədi yaşayacaqdır. H.Seyidzadənin Ü.Hacıbəylinin “O olmasın, bu olsun” əsəri əsasında çəkdiyi film zaman keçdikcə xalqımız üçün daha da doğma olur. Bu filmin əvəzsiz aktyorları, musiqisi, görüntülər təkrarsız və əbədidir. H.Seyidzadənin “Koroğlu”, “Dəli Kür”, “Yenilməz batalyon”, “Qayınana” filmləri də kinomuzun dəyərli nümunələridir.

Sovetlər Birliyi dövründə H.Seyidzadə bu milli filmləri böyük əziyyətlərlə, çətinliklərlə yaradırdı. Ömrünün sonunadək tək-tənha, üzüntülü ömür yaşayan H.Seyidzadə bu filmləri lentə köçürmək üçün əsl fədakarlıqlar etdi.

**H.Seyidzadənin “O olmasın, bu olsun” filminə sovet kinoşünaslığında və mətbuatında etirazlar kampaniyası**. (Bu filmin ssenari müəllifi Sabit Rəhmandır. Film 1956-cı ildə çəkilib).

1) “Kommunist” qəzeti, 9 dekabr 1956-cı il, “Müvəffəqiyyətsiz film” məqaləsindən: “Heç bir estetik qanuna tabe olmayan, mənasız və zövqsüz çəkilmiş səhnələr, lüzumsuz vuruşma, qaçışma, hay-küylər... Eybəcər oyunbazlıqlar... Gah naturalistcəsinə, gah da qeyri-inandırıcı şişirtmələr tərzində verilmiş əcaib kadrlar”.
2) “Ədəbiyyat və incəsənət” qəzeti, 9.12.1956-cı il, “O olmasın, bu olsun” məqaləsindən: “Filmin yaradıcıları yersiz əlavə ixtisarlarla

əsərin səviyyəsini həm ideya, həm də bədii cəhətdən aşağı salmış, komediyanın əsas ruhunu təhrif etmişlər. Məsələn, komediyada olmayan, sonradan əlavə edilmiş primitiv əhvalatlar, bazarda qoçuların davası, Rüstəm bəyin evində qonaqların qalmaqalı, hamamda verilən çirkin naturalist səhnə və i.a. kimə lazım idi? Yalnız gülüş üçün, mənasız hırıltı üçün əlavə edilmiş bu münasibətsiz əhvalatlar ancaq bir şeyin – zövqsüzlük və bədii təxəyyülün kasıblığının nəticəsidir".

3) "Azərbaycan gəncləri" qəzeti (9.12.1956-cı il). "Bəs niyə o olmasın, bu olsun" məqaləsindən: "Qoçuların atışması zamanı qoçu Əsgərin qadının başından çadrasını qaçırması, Əsgərin arvad hamamına girib oradan sabunlu çıxması, Rüstəm bəyin evindəki qonaqlıq zamanı baş verən biabırçı döyüş səhnəsi, kişi hamamında oynanılan şit rəqslər, bizcə xalqımızın adətlərinə uyğun deyil".

H.Seyidzadənin 1960-cı ildə çəkdiyi (ssenari müəllifi Sabit Rəhman) "Koroğlu" filmi haqqında:

1) "Bakinskiy raboçiy" qəzeti (13.10.1960), "Xalqın əfsanəvi qəhrəmanı haqqında film" məqaləsindən: "Əvvəla, Koroğlu xalq kütləsinin rəhbəri olsa da, təəssüf ki, onun yürüşləri, döyüşləri filmdə ifadəsini yetərincə tapmayıbdır. Bizim zənnimizcə, buna səbəb döyüşçülərin iri, orta planlarının olmamasıdır. Rejissor döyüşçüləri tamaşaçıya yaxınlaşdırmadığından, beləliklə, kütlənin siması itirildiyindən biz döyüşçülərin əhvalını duya bilmirik.

H.Seyidzadənin 1969-cu ildə çəkdiyi "Dəli Kür" filmi (ssenari müəllifi İsmayıl Şıxlı) haqqında:

1) "Azərbaycan gəncləri" qəzeti (23 aprel, 1970), "Dəli Kürü"ün ekran taleyi" məqaləsindən: "Bizim fikrimizcə, o zamankı kəndi Novruz bayramı mərasimində məşəllər içərisində qərq etməyə, tüfəng, fişəng atmağa heç bir zərurət yox idi... Filmin meyxana səhnəsi də tamaşaçılarda təəccüb doğurur. Din xadimlərinin mənəvi eybəcərliklərini bu cür göstərməkdə film heç bir şey qazanmamışdır".

2) "Kommunist" qəzeti, 17 may 1970-ci il tarixli "Dəli Kür" məqaləsindən: "Filmdə bəzi az əhəmiyyətli epizodlar həddindən artıq uzadılmış, zamanın bir sıra maraqlı parçaları ilə ixtisar edilmişdir...

Lakin xeyli uzadılmış bu səhnələrin hesabına filmdə heç olmasa Cahandar bəylə əlaqədar daha bir zəruri epizod göstərə bilərdi".“-Film “Dəli Kür” adlansa da, Kürün heç bir “dəliliyini”, “şıltaqlığını”, daşqınlı-təlatümlü mənzərəsini görmürük”.

**H.Seyidzadə bəstəkar Zakir Bağırovun Məcid Şamxalovun liberettosu əsasında yazdığı “Qaynana”** musiqili komediyası əsasında 1978-ci ildə eyniadlı filmə (ssenari müəllifləri Əjdər İbrahimov, Marqarita Maluva) quruluş verir.

3 may 1978-ci ildə “Qaynana” filminin çəkiliş materiallarına baxan ssenari müəlliflərinin “Azərbaycanfilm” kinostudiyasının direktoru Cəmil Əlibəyova yazdıqları 765 saylı məktubdan: “Ayazın oxuduğu mahnı demək olar ki, bəyənilmədi. O, lirik olsa da, ola bilsin çox sentimental və köhnə dəblidir... Ssenarinin mətnindən kənarlaşmalar çoxdur. Dialoqların çoxu dəyişib. Özü də yaxşıya yox, pisə doğru. Bu dəyişikliklər filmin keyfiyyətinə mənfi təsir göstərir deyə bizim üçün anlaşılmazdır”.

H.Seyidzadəyə qarşı çox haqsızlıqlar olmuşdu. Onun demək olar ki, çəkib başa çatdırmaqda olduğu iki film əlindən alınmış, başqa rejissorlara verilmişdi: “Gəncəbasarlı qisasçı” (“Qatır Məmməd”) və “Dərviş Parisi partladır”.

1975-ci ilin 21 sentyabrında H.Seyidzadə Sov.İKP MK-nın katibi, Siyasi Büronun üzvü M.A.Suslova ünvanladığı teleqramda vaxtilə onu işdən uzaqlaşdıran B.Pavlenkodan şikayət edir, səkkiz ssenari müəllifi ilə üzərində çalışdığı “Dərviş Parisi partladır” filminin əlindən alınmasından narazılıq edirdi.

Çəkdiyi milli ruhlu filmlərdən mənəvi-psixoloji zərbələr alması, bir müddət SSRİ Dövlət Kino Komitəsinin sədr müavini B.Pavlenkonun qərarı ilə işdən uzaqlaşdırılması, ailəsindən erkən ayrılıb iztirablar içində olması, ömrünün yaradıcılıq təqiblərində keçməsi böyük rejissorun 1979-cu ildə tənha yaşadığı birotaqlı mənzilində dünyasını dəyişməsinə səbəb oldu.

***Qaynaq:***

*1. A.Dadaşov. “Kinomuzun Hüseyn Seyidzadə dövrü”. “Kulis” saytı.*

*2. T.Kazımov. Müvəffəqiyyətsiz film. “Kommunist” qəzeti, 9 dekabr, 1956-cı il.*

*3. N.Babayev. Bəs niyə o olmasın, bu olsun?. "Azərbaycan gəncləri" qəzeti, 9 dekabr, 1956-cı il.*
*4. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, fond 330, siyahı 5, sax. vah. 596.*

## HÜSEYN SEYİDZADƏ (1910-1979)

*Görkəmli kino rejissoru Hüseyn Seyidzadə 1910-cu ildə Yerevanda anadan olub. Erməni daşnaklarının təzyiqi ilə doğulduğu Yerevandan əvvəl Qarsa, sonra Tbilisiyə, 1918-ci ildə Bakıya gəlib. 1928-ci ildə Bakı İşçi Teatrında aktyor kimi səhnəyə çıxmışdır. 1931-1933-cü illərdə Moskvada Ümumittifaq Dövlət Kino İnstitutunda Sergey Eyzenşteynin emalatxanasında təhsil alıb. "Lenfilm", "Mosfilm" studiyalarında tanınmış sənətkarlar yanında təcrübə qazanıb. İlk çəkdiyi film (rejissor N.Bədəlovla) "Sovqat" filmi olub (1942-ci il). Sonralar "O olmasın, bu olsun" (1956), "Koroğlu" (1960), "Yenilməz batalyon" (1965), "Dəli Kür" (1969), "Qaynana" (1978) filmlərini yaradan rejissor Azərbaycan kino tarixinə adını qızıl hərflərlə həkk edib.*

*H.Seyidzadə 1979-cu ildə vəfat edib.*

# DİSSİDENTLƏR, MİLLİ MÜCAHİDLƏR, TƏQİBLƏR (1960-1970-ci illər)

## Dissident Çingiz Abdullayev

“...**Mən tam qətiyyətlə deyirəm ki, Azərbaycanın qəhrəman oğluyam və alçaq kommunist rejiminə qarşı mübarizə aparmışam”.**



*Çingiz Abdullayev*

Sovet dövründə Azərbaycanda dissident həyatı yaşayan Çingiz Mirzəağa oğlu Abdullayev 1929-cu ildə Laçın rayonunda anadan olub. 1947-ci ildə Azərbaycan Teatr institutunun rejissorluq fakultəsində təhsil alıb. Burada oxuyarkən digər tələbə yoldaşı Cahid Hilaloğlu ilə birgə dərnək yaradırlar və məqsədləri də Azərbaycanın müstəqilliyi uğrunda mübarizə olur. Bir müddət sonra onların yazdıqları gizli vərəqələr Xüsusi Xidmət Orqanlarının əlinə keçir. 1948-ci ilin avqustun 28-də Azərbaycan SSR CM 213-cü maddəsinin 2-ci bəndi ilə (dələduzluqla dövlətə və ya ictimai idarəçiliyə zərər vurmaq”) ittiham olunaraq, üç il azadlıqdan məhrum edilir və institutdan qovulur. 1950-ci ilin 19 iyununda azadlığa çıxdıqdan sonra dostu C. Hilaloğlu ilə birgə mübarizələrini Türkiyədə aparmaq qərarına gəlsələr də bu baş tutmur.

Ç. Abdullayev Moskvaya gedir və burada ABŞ səfirliyi ilə əlaqə saxlayır. 1956-cı ilin 9 mayında Xüsusi Xidmət Orqanları onu həbs edir. 1956-cı ilin oktyabrın 10-da isə təkrar hökmlə RSFSR CM 58-10 maddəsinin I hissəsi ilə şəxsi əmlakı müsadirə edilməklə 10 (on) il azadlıqdan məhrumetmə və azadlığa çıxdıqdan sonra da 3 (üç) il siyasi fəaliyyətlə məşğul olmamaqla cəzalandırırlar.

Ç.Abdullayev RSFSR Ədliyyə Naziri Boldırevə aşağıdakı məzmunda məktub yazmışdı: “...**Mən tam qətiyyətlə deyirəm ki, Azərbaycanın qəhrəman oğluyam və alçaq kommunist rejiminə qarşı**

**mübarizə aparmışam.** Bizə məlum olduğu kimi, aprelin 5-7-də Tbilisidə və bütün Gürcüstanda çoxsaylı nümayişlər keçirilmişdir. Burada 200 min tələbə, fəhlə, kolxozçu, qadın və qoca iştirak edib. Onlar əllərində şüar tutaraq öz müstəqilliyi və azadlıqlarını, burada BMT-nin nəzarəti altında azad seçkilər keçirməyi tələb etmişlər. Lakin **imperator - diktator Rusiya,** bütün Polşanın və Finlandiyanın ağası "qarğıdalı generalı" Nikita Xruşşovun əmrini yerinə yetirən silahlı qüvvələr günahsız tələbələrin, qadınların üstünə tanklarla hücum edərək, onları güllələmiş və çoxlarını Sibirə sürgün etmişlər. Azərbaycan xalqına qarşı da belə ədalətsizliklər edilmişdir. Azərbaycanın, Gürcüstanın və başqa respublikaların vəziyyətindən bəhs edən məruzə ilə çıxış etmək istəyirəm. Məqsədim odur ki, BMT Baş Assambleyasının növbəti sessiyasında respublikalarda azad seçkilər keçirilməsi haqqında qərar qəbul olunsun. Xatırladaq ki, 1917-ci ilin noyabrında imzaladığı deklorasiyasında Sovet hakimiyyəti tərəfindən bütün dünyaya elan etmişdir ki, yeni yaranmış sosialist, çoxmillətli dövlətin əsasını aşağıdakı demokratik prinsiplər təşkil edir: Rusiyada yaşayan bütün xalqların suverenliyi və bərabərliyi, millətlərin öz müqəddəratını təyinetmə hüququ, millətlərin Rusiyadan ayrılıb öz dövlətlərini qurması və s. Bu prinsiplər 1922-ci ilin dekabrında Xalq Komissarlar Sovetinin sədri V.İ.Leninin təklifi ilə SSRİ-də öz əksini tapmışdır.

**Lenin öz ərizəsində bildirir ki, Millətlər İttifaqı könüllü surətdə yaranır, hər bir dövlət öz istəyilə başqa dövlətdən ayrıla bilər.** Belə bir sual meydana çıxır: bu təcavüzkar kommunist rəhbərliyi və SSRİ hökuməti Leninin vəsiyyətini yerinə yetirmir? Əlbəttə, yox! Bu təcavüzkar, qaniçən, fırıldaqçı kommunistlər dünya ictimaiyyətini çaşqın salaraq, hər yerdə "biz Leninin yolu ilə gedirik" deyirlər. Əgər onlar Leninin yolu ilə gedirlərsə, bəs nə üçün onlar Azərbaycan və gürcü xalqlarının qanuni tələblərini yerinə yetirmir, əksinə, kobud və vəhşicəsinə onların hüquqlarını tapdalayırlar?

... On üç il kommunist əsarəti altında qalan macar xalqı bu zorakılığa, yalana, aclığa dözməyib, 1956-cı ilin oktyabr-noyabr aylarında ayağa qalxdı. Onlar sovet qoşunlarının Macarıstan ərazisindən çıxarılmasını, bir sözlə, öz azadlıqlarını və müstəqilliklərini, yeni hökumətlə-

rini qurmalarını istəyirdilər. Bunun müqabilində Sovet hökuməti oraya əlavə qoşun yeritdi, tank və təyyarələrin gücü ilə dinc əhalini vəhşicəsinə qırdı. Burada baş verən hadisələri "əksinqilabi qiyam" adlandırırlar. Bəs nə üçün Əlcəzairdə, Yəməndə, Suriyada belə hadisələr "xalq azadlıq hərəkatı" adlanır?"

Bu məktubdan sonra yenidən onun işinə baxılır və 1957-ci ilin iyulun 13-də Ç.Abdullayev 10 (on) il azadlıqdan, 3 (üç) il siyasi fəaliyyətdən məhrum edilir. O Vladimir şəhərindəki xüsusi rejimli həbsxanaya, təkadamlıq kameraya göndərilir və 1963-cü ildə Mordva MSSR-dəki xüsusi ciddi rejimli islah əmək düşərgəsinə qaytarılır. 1964-cü ildə is o Serbiski adına Ümumittifaq Məhkəmə Tibbi Psixatrik Ekspertiza İnstitutuna "müayinə"yə göndərilir. Burada ona "anlaqsız" diaqnozu qoyulur və SSRİ Daxili İşlər Nazirliyinin Yaroslavl Vilayətinin Rıbinski şəhərindəki xüsusi tibbi psixi xəstəxanaya məcburi müalicəyə göndərilir. Oradan isə onu Sçov şəhərindəki xəstəxənaya aparırlar. İki il yarımlıq "müalicə"dən sonra, 1968-ci ilin iyulun 25-də onu Smolensk vilayətinin Sçov şəhər Xalq Məhkəməsinin qərarı ilə Bakıya 1 saylı Maştağa Psixi Xəstəxanasına göndərirlər. Buradakı həkim komissiyası onun ikinci qrup əlil olduğunu əsaslandırıb 1975-ci ilin 25 avqustunda "müalicəxana-həbsxana"dan azad edirlər.

Həbsxanadan çıxdıqdan sonra Azərbaycan Korlar Cəmiyyətində işlə təmin edilsə də, burada da Sovet hökumətinin əleyhinə təbliğat aparır.

1982-ci ilin 15 sentyabrında gizli şəkildə Moskvadakı İsveçrə səfirliyinə daxil olur, siyasi sığınacaq istəyir. Səfirlikdə onu həkimlər və İsveçrədən dəvət olunmuş iki professor müayinə edir və onun psixi cəhətdən sağlam olduğunu təsdiq edirlər. Bu hadisədən sonra İsveç və başqa xarici ölkələrin mətbuatında onun haqqında yazılar çap edilir.

Bundan narahat olan Sovet mühafizə orqanları tez bir zamanda fəaliyyətə keçir və ona səfirlikdən çıxıb vizasını gözləmək vəd edilir. Ç.Abdullayev "Moskva" mehmanxanasında qalmağa razılaşır. Lakin SSRİ Daxili İşlər Nazirliyi ona viza vermir və yenidən onu 1984-cü ilin 19 oktyabrında DTK-nın 6 əməkdaşı həbs edir, Azərbaycana göndərirlər. Onu zorakılıqla Maştağadakı 1 saylı Psixi Xəstəxanaya salırlar.

Sovetlər Birliyi dağıldıqdan sonra Ç.Abdullayev xəstəxanadan buraxılır və o İsveçrədən sığınacaq istəyir. 1991-ci ildə o, sığınacaq alıb İsveçrəyə gedir. 1998-ci ilə qədər İsveçrənin Bern şəhərində yaşayır, sonrakı taleyi bilinmir.

---

***Qaynaq:***

*1. Z.Bünyadov. Qırmızı terror, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.*
*2. Dissident Nadir Ağayevin xatirələri. (Müəlliflərin şəxsi arxivi).*
*3. Hacı Emin. Çingiz Abdullayev kimdir?, ”7 gün” qəzeti, 1997, 18 aprel, 22 aprel, sayı, 40(398), s.3, və 41(399), s.3*
*4. E.Hüseynov. Bir kərə endirilmiş bayrağı bir daha yüksəldən.. “xalq düşməni”, ”7 gün” qəzeti, 1995, 16 dekabır, sayı, 44 (219), s.4.*
*5. C.Qasımov. Repressiyadan deportasiyaya, Bakı, 1998*
*6. A.Şirinova. İsveçrə. Bern.Həyatın 17 anı...,”7 gün” qəzeti, 1998, 30 oktyabr, sayı, 152(655), s.2.*
*7. Ə.Şamil. Teatr İnstitutunun dissident məzunları (Əzizə Şamillə birlikdə). “Mədəniyyət dünyası” toplusu, 2003, IV cild, səh.176-187*
*8. https://az.wikipedia.org/wiki/Çingiz_Abdullayev_(dissident)*

## DİSSİDENT CAHİD HİLALOĞLU

### Üçrəngli bayrağımızı 1957-ci ildə Qız qalasında dalğalandıran vətənpərvər



*Cahid Hilaloğlu*

**Cahid Hilal oğlu Şirinov** 1928-ci ildə Azərbaycan SSR-in Ağdam şəhərində anadan olub. Kiçik yaşlarında ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. Atası neft mədənlərində işləyib, Cahid isə 13 saylı məktəbdə oxuyub. 1941-ci ilin avqustunda İranın Quzeyini işğal edən Sovet qoşun birləşmələrinə qoşulub Arazı keçən 13 yaşlı Cahid iki il Güney Azərbaycanda qaldıqdan sonra yenidən Bakıya qayıdır.

1947-ci ildə Bakıdakı 1 saylı orta məktəbi bitirib, Azərbaycan Teatr İnstitutunun rejissorluq fakultəsinə qəbul olunan Cahid Azərbaycanın iki yerə bölünməsi ilə barışmırdı. Təhsil aldığı məktəbdə öz həmfikirlərini tapır. **Çingiz Abdullayev və başqa yaşıdları ilə** kommunist diktaturasının eybəcərliklərini pisləyən vərəqələr yazıb divarlara yapışdırırlar. Eyni zamanda xalqı Beynəlxalq təşkilatların nəzarəti altında demokratik seçkilər keçirməyə, Azərbaycanı SSRİ-nin tərkibindən çıxarıb müstəqil dövlət qurmağa çağırırlar. Vərəqələr xüsusi xidmət orqanlarının diqqətini cəlb edir. Nəticədə Çingizi ali məktəbdən qovub, "islah" olunmaq üçün üç illiyə həbsxanaya yollayır, dəstənin başqa üzvlərini isə tənbeh edirlər. Lakin bu cəza onları yollarından döndərmir. Çingiz Bakıdan uzaqlarda olanda da daim Cahidlə əlaqə saxlayır.

C. Hilaloğlu 1952-ci ildə institutu bitirib M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında işə başlayır. Burada işlədiyi müddətdə quruluşdan narazılığını müxtəlif vasitələrlə ifadə etsə də, hələlik ona qarşı sərt tədbirlər görülmür.

1956-cı ildə mövcud sovet quruluşunun bütün nöqsanlarının Stalinin adı ilə bağlandığını, böyük və hay-küylü bir kampaniya başlandığını görən

gənclər burada sərbəst fəaliyyət göstərməyin mümkünsüzlüyünə tam yəqin olaraq, xaricə getməyi, mühacirətdə olan Azərbaycan Xalq Cümhuriyyətinin liderləri ilə birgə fəaliyyət göstərməyi qərara alırlar. Bəs xaricə necə getməli? Güney Azərbaycanda iki il yaşamış Cahid qaçmaq üçün ən münasib yer İranı sayır. Rayonlarda yüksək ixtisaslı kadrlara böyük ehtiyac olmasından istifadə edib, Azərbaycan Mədəniyyət Nazirliyinə ərizə yazaraq Lerik rayonunda işləməyə getmək istədiklərini bildirirlər. İstəklərinə də müsbət cavab alırlar. Onların məqsədi Lerikdən İrana keçmək idi.

Bundan ötrü Azərbaycanın böyük xəritəsini alır, Lerik dağlarında sərhədin zəif nöqtəsini müəyyənləşdirir, oradan İrana keçməyi planlaşdırırlar. Sonra oradan da Türkiyəyə keçib, Çingiz Abdullayevin mühacirətdə olan yaxın qohumu vasitəsilə Azərbaycan Xalq Cümhuriyyətinin fəallarına qoşulmaq istəyirdilər.

Çingiz Moskvada pasport qeydiyyatında olduğuna görə Lerikə getməsinə icazə ala bilmir. O, Moskvaya pasport qeydiyyatından çıxmağa gedir. Orada amerikalı skripkaçı İsaak Sternomun konsertinin afişalarını görür. Xaricə getməyin yeni planını hazırlayır. Konsertə bilet alır. İsaak Sternoma gül təqdim edərkən Amerika səfirliyinin telefonlarını xəbər alır. Skripkaçıdan öyrəndiyi telefonla Moskvadakı ABŞ səfirliyinə zəng vurur və səfirliyin birinci katibi Natyanel Devislə görüşür. O, Çingizin xüsusi xidmət orqanlarının əməkdaşları ilə əlaqəsindən şübhələnsə də, istəyini dinləyir və təkrar görüş təyin edir. Dörd gün sonra, yəni 1956-cı il mayın 8-də Çingiz səfirliyin hərbi attaşesi Frenklə görüşsə də, üçüncü görüş ərəfəsində DTK əməkdaşları tərəfindən yaxalanır. Beləliklə, onların xaricə getmək cəhdi də baş tutmur.

**1956-cı il martın 6-7-də Tbilisidə 200 min nəfərə yaxın insanın iştirak etdiyi mitinqin təsiri nəinki Gürcüstana, hətta onun sərhədindən uzaqlara da yayılır.** C. Hilaloğlu və dostları Sovet ordusunun Tbilisi şəhərində onlarla qocanı, qadını, uşağı öldürməsini və həbsxanaya atmasını pisləyirlər. Bu hadisələrin üstündən heç 7-8 ay keçməmiş Sovet ordusu Macarıstanın müstəqilliyi uğrunda mübarizə aparanları qan içində boğur. Cahidgil bu qanlı qırğını da pisləyirlər.

**1957-ci il mayın 28-də Cahidgil Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 39-cu ildönümü münasibəti ilə Cümhuriyyətin is-**

**tiqlal bayrağını Qız qalasının üzərinə sancmağı qərarlaşdırırlar.** Bayrağı Qız qalasının üzərinə qaldıran Cahid Hilaloğlu olur.

Cahid Hilaloğlunun əməlləri DTK (KQB) tərəfindən aşkarlanır. Onu ittiham edənlərə Cahid deyirmiş: "Nədən Əfqanıstanda baş verənlər milli-azadlıq hərəkatı, Macarıstandakını isə əksinqilabi qiyam adlandırırlır?" Xüsusi xidmət orqanları onlara qarşı sərt tədbirlər planlaşdırır. Cahid Hilaloğlu oğurluqda təqsirləndirilərək həbs edilir. Onu Azərbaycan SSR CM 21-63 maddəsilə və Azərbaycan SSR Ali Sovetin Rəyasət Heyətinin 4 iyun 1947-ci il fərmanı ilə antisovet təbliğatı və təşviqatında ittiham edirlər. İşinə Azərbaycan SSR Ali Məhkəməsi baxır və 10 il azadlıqdan məhrumetmə, 3 il siyasi fəaliyyətdən və vətəndaşlıqdan məhrumetmə ilə cəzalandırır.

C. Hilaloğlu cəza müddətini Mordva MSSR-in Dubrovski islah-əmək düşərgəsində çəkir. Bura islah-əmək düşərgəsi adlandırılsa da, əslində siyasi məhbuslar üçün nəzərdə tutulmuş qapalı həbsxana idi. Həbsxana şəraitinin ağırlığına, ona xüsusi nəzarətin olmasına baxmayaraq, ruhdan düşmür, ingilis, alman, fransız, ərəb, fars dillərini öyrənir. Azadlığa çıxdıqdan sonra Bakıya gəlsə də, uzun müddət işsiz qalır. 1969-cu ildə Yerevanda yenidən bərpa edilmiş C. Cabbarlı adına Azərbaycan Dövlət Dram Teatrında rejissor-aktyor kimi işə başlayır. DTK orada da C. Hilaloğlunu sakit buraxmır. Səhnədən söylədiyi sözün başqa cür yozulduğuna, tamaşaya qoyduğu əsərin ayrı formada başa düşüldüyünə yoldaşları ilə yeyib-içərkən söylədiyi sağlıqdan millətçilik qoxusu gəldiyinə görə "söhbətə" çağırırlar. 1971-ci ildə Bakıya qayıdır və vaxtı ilə oxuduğu ali məktəbin Tədris Teatrında rejissor işləməyə başlayır.

Cahid Hilaloğlu ilə İnstitutun rektoru Rahib Hüseynov arasında bağlılığın olduğu da istisna edilmir. R. Hüseynov həbs olunduqdan sonra C. Hilaloğlu ərizə yazıb işdən çıxır.

1976-cı ilin aprelində işdən gedən C. Hilaloğlu xeyli müddət sonra Ağdam şəhərində yeni açılmış Dövlət Dram Teatrında fəaliyyətə başlayır. Ömrünün sonunadək orada çalışır. 1991-ci il mayın 30-da nömrəsi bilinməyən bir "Volqa" avtomobili Cahidi vurur. Bu qəzada həlak olan C. Hilaloğlunu Ağdam şəhərində dəfn edirlər.

Bəzi faktlara əsaslanıb C.Hilaloğlunun ölümünə təsadüfi avtomobil qəzası kimi yanaşmaq qeyri-mümkündür.

***Qaynaq:***


1. *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univerisitetinin Arxivi. Cahid Hilaloğlunun şəxsi işi.*
2. *Z.Bünyadov. Qırmızı terror. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.*
3. *Dissident Nadir Ağayevin xatirələri. (Müəlliflərin şəxsi arxivi).*
4. *Elmira. Cahid Hilaloğlu.”Azadlıq” qəzeti,1991,14 iyun, sayı, 23(53).*
5. *E.Hüseynov. Bir kərə endirilmiş bayrağı bir daha yüksəldən... “xalq düşməni”, “7 Gün” qəzeti, 1995, 16 dekabır, sayı, 44 (219), s.4.*
6. *C.Qasımov. Repressiyadan deportasiyaya. Bakı, 1998.*
7. *T.Azər Tərkedilmiş... yaxud, Cahid Hilaloğlunun natamam obrazı. ”Aydın” jurnalı, 2003, sayı, 3, s.33-34*
8. *Ə.Şamil. Teatr İnstitutunun dissident məzunları (Əzizə Şamillə birlikdə). “Mədəniyyət dünyası” toplusu, 2003, IV cild, səh.176-187*
9. https://az.wikipedia.org/wiki/Cahid_Hilaloğlu

## DİSSİDENT TƏLƏBƏ SABIR AZƏRİ



*Sabir Azəri*

Tanınmış yazıçı Sabir Azəri 2007-ci ildə "Tələbə məhbusun etirafları" adlı biblioqrafik sənədli roman çap etdirdi. Və məlum oldu ki, istedadlı yazıçı da müəyyən mənada sovet rejiminin qurbanına çevrilib. Kitabda da elə əsas bu məsələyə toxunulub. Məlum olub ki, S.Azəri hələ universitetdə təhsil alarkən, 1956-cı ilin sentyabrında dərsdən çıxarılıb və birbaşa o zaman Neftçilər prospektində Dövlət Təhlükəsizlik Komitəsinə aparılıb. Məlum olub ki, o, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Kliment Yevromoviç Voroşilova, SSRİ-də baş verən repressiyaların yalnız Stalinin adı ilə bağlanmasına etiraz edib. Çünki o dövrdə dövlət başçısı N.S.Xruşov Sov. İKP-nin XX qurultayında çıxış edərək ölkədə baş verənlərə və xüsusən də, repressiyalara görə, əsasən, Stalini günahlandırmışdı. S. Azəri isə məktubunda yazırdı ki, günahkarlar sırasında həm də sovet dövlətinin hazırkı başçıları olan Nikita Xruşşov da, Anastas Mikoyan da vardır. Yəni onların hamısının əli qana batmışdı. Məktubda həmin şəxslərin karikaturalarını da çəkib yollamışdı.

S.Azəri yazırdı ki, bütün günahları bir nəfərin üstünə atmaqla başqaları özlərini və bütövlükdə ictimai sistemi, onun ideologiyasını təmizə çıxarmağa çalışırdılar. Sabir məktubunda Stalinə haqq qazandırmır, əksinə, qeyd edirdi ki, əgər Stalin repressiyanın, insan ölümlərinin başında dururdusa, o zaman nə səbəbdən siz buna göz yummusunuz? Nədən belə böyük bir dahi adlandırdığımız Stalin "şəxsiyyətə pərəstiş"in qurbanına çevrildi? Yazılan məktubda S.Azəri daha bir cəsarət də göstərmişdi: çəkdiyi karikaturalarda Nikita Xruşşovu donuz, Anastas Mikoyanı isə uzunqulaq qiyafəsində göstərmişdi.

Sabir istintaq zamanı da qorxmamış, müstəntiq Arutyunova fikirlərini olduğu kimi söyləmişdi.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) III kurs tələbəsi Sabir Tatlıyev sonradan "Sabir Azəri" adı ilə yazıçı kimi məşhurlaşdı. Həbs ediləndə (4 sentyabr 1956-cı il) onun 18 yaşı var idi. O, 1938-ci ilin martında Ağstafanın Dağkəsəmən kəndində doğulub. DTK-nın baş müstəntiqi kapitan Arutyunov 10 gün ondan ifadə almış, ay yarım isə dövlət səviyyəsində onun istintaqı getmişdir.

1956-cı ilin 23 oktyabrında V.S.Belikovun sədrliyi ilə V.V.Dmitrevin və L.M.Niyazova tərəfindən S.Ə.Tatlıyevə hökm çıxarılır və o, iki il müddətinə azadlıqdan məhrum edilir və 10 saylı islah əmək düşərgəsinə göndərilir.

Həbs müddəti sonunda əfv olunmuş və yenidən universitetə bərpa edilmişdir.

---

***Qaynaq:***

*1. S.Azəri. Tələbə məhbusun etirafları. Bakı, "Çaşıoğlu", 2007.*

*2. A.Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. B., 2011.*

## MİLLİ ŞAİR MƏHƏMMƏD BİRİYANIN (1914-1985) TƏQİB EDİLMƏSİ, 20 İLLİK HƏBSXANA HƏYATI "YA SƏNİ AZAD ELƏYİM, YA BOYANIM AL QANIMA"



*Məhəmməd Biriya*

**Məhəmməd Biriya** Cənubi Azərbaycanda 1930-1940-cı illərdə genişlənməkdə olan milli-azadlıq mücadiləsinin təsiri ilə yetişən qüdrətli qələm sahiblərindəndir. Onun adının Cənubi Azərbaycanda 1979-cu ilin İran İslam İnqilabına qədər çəkilməsi qadağan edilmişdi. 1947-ci ildən isə yaşadığı Sovetlər Birliyində ömrünün 20 ilindən çoxunu həbsxanalarda keçirdi.

Məhəmməd Biriya **1914-cü** ildə Təbrizdə doğulub. 1941-ci ildə Şimali Azərbaycandan Sovet ordusu sıralarında Təbrizə gedən ziyalıların nəşr etdiyi "Vətən yolu" qəzetində şeirlər nəşr etdirib. 1940-cı illərdə bir müddət Bakıda yaşayıb. 1943-cü ildən yenidən İrana qayıdıb. M. Biriya 1945-ci ilin dekabrında Milli hökumət dövründə Cənubi Azərbaycanın Maarif naziri olub. 1946-cı ilin dekabrında Məhəmməd Rza Şah Milli hökuməti qan içində boğduqdan sonra o, Azərbaycan Demokrat Firqəsinin Birinci katibi kimi Təbrizdə qalıb fəaliyyətini davam etdirib. 1947-ci ilin martında SSRİ konsulluğu əməkdaşlarının köməyi ilə Bakıya qaçırılıb. Bir müddət sonra İran pasportu alıb Təbrizə, ailəsinin yanına qayıtmaq istəsə də, ona icazə verilməyib. Onun fikrindən dönmədiyini gördükdə, 10 avqust 1948-ci ildə cinayət əməli törətməkdə şübhəli bilinərək Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsinin 1-ci hissəsinə əsasən həbs olunub. 27 noyabr 1948-ci ildə Cinayət Məcəlləsinin 61-1 və 156-cı maddələri ilə təqsirkar sayılaraq on il müddətinə azadlıqdan məhrum edilirərək 1954-cü ildən Karaqanda şəhər 415 saylı İslah Əmək düşərgəsində cəza çəkib. 1956-cı ildə ona bəraət verilərək həbsdən azad olunub.

1956-cı ildən Bakıya qayıdıraq burada bir müddət qaldıqdan sonra hö-

kumət əleyhinə təbliğat aparmaqda təqsirləndirilib, yenidən həbs edilir və daha on il də həbsxana həyatı yaşayıb. Həbsxana həyatından sonra Bakıya qayıdıb və Təbrizə – ailəsinin yanına getmək istəyib. Viza(icazə) almaq ümidi ilə Moskvaya gedib və burada onu "sovet milisini təhqir etdiyinə görə" iki il azadlıqdan məhrum edərək, Rusiyanın Tambov vilayətinə göndəriblər. Bu həbsdən sonra isə ona Bakıda yaşamağa icazə verməyib Şamaxıya sürgün ediblər. Üç ildən sonra o, Bakıya qayıdıb və yaşayış məcburiyyətindən Bakı qəbiristanlığında mollalıq edib.

1980-ci ilin sentyabrın 29-da Təbrizə qayıtsa da, burada ailəsi ilə görüşə bilməyib. Onun ailəsi Avropaya köçdüyündən əlaqə yaratmaq mümkün olmayıb.

İranda da təqiblərdən yaxa qurtara bilməyib. Onu hökumət əleyhinə şeir yazmaqda, danışmaqda günahlandırıb həbs edir və 1985-ci ildə həbsxanada öldürürlər.

**Məhəmməd Biriya**

**AZƏRBAYCAN SÜRÜDU (MAHNISI)**

Ey torpağı ləlü mərcan, Azərbaycan, Azərbaycan!
Mən verərəm uğrunda can, Azərbaycan, Azərbaycan!

Ey vətənim, düşmən əcəb bağrını alqan elədi,
Soydu rəzalətlə səni, zülmlə talan elədi,
Bağlarını vurdu xəzan, gör necə viran elədi.
Zülmət keçib döndü zaman, Azərbaycan, Azərbaycan!
Ey torpağı ləlü-mərcan, Azərbaycan, Azərbaycan!

Keçmişinə baxmalıdır pirü-cavan ibrət ilə,
Hazır olub ellərimiz intiqama qeyrət ilə,
Məqsədimiz var ki, səni azad edək sürət ilə.
Müstəbidə yoxdur aman, Azərbaycan, Azərbaycan!
Ey torpağı ləlü mərcan, Azərbaycan, Azərbaycan!

Bəsləmisən, şanlı Vətən, naz ilə öz övladını,
Mən də gərək cəhd eləyib ərşə ucaldam adını,
Hümmət ilə parçalayıb məhv eləyin cəlladını.
Vəqti-səadətdir oyan, Azərbaycan, Azərbaycan!
Ey torpağı ləlü mərcan, Azərbaycan, Azərbaycan!

And içirəm namusuma, məsləkimə, vicdanıma,
Gün kimi dünyada müqəddəs tanınan imanıma.
Ya səni azad eləyim, ya boyanım al qanıma.
Haqqın üzü dönməz inan, Azərbaycan, Azərbaycan!
Ey torpağı ləlü mərcan, Azərbaycan, Azərbaycan!

---

***Qaynaq:***

*1. M.Biriya. Əsərləri. Bakı, "Elm", 2010. (Tərtib edəni, nəşrə hazırlayanı İslam Qəribli).*
*2. M.Biriya. Hər addımda məzarım var. Bakı, "Yazıçı", 1997. (Nərgiz Rüstəmlinin tərtibatında).*

## MİLLİ MÜCAHİD – İSFƏNDİYAR COŞQUN


*İsfəndiyar Coşqun*

Azərbaycan milli-azadlıq hərəkatının öncüllərindən olan **İsfəndiyar Əli oğlu Bərxu** 1929-cu il (pasportda 1925-ci il) sentyabrın 14-də Gəncə şəhərində, İran (Güney Azərbaycan) mühacirləri ailəsində anadan olmuş, uşaqlıq illərini isə Şəmkirdə keçirib.

1930-cu illərin 2-ci yarısında İ.V.Stalinin xüsusi əmrinə əsasən, türklərin sayını azaltmaq məqsədi ilə Güney Azərbaycan mühacirlərini İrana sürgün etməyə başladılar. Köçürülənlərin arasında Əli Bərxunun da ailəsi var idi.

1941-ci ilin iyun ayının 22-də alman-sovet müharibəsi başladıqdan sonra Qızıl ordu hissələri Sovet-İran müqaviləsinin (1921-ci il) 6-cı maddəsinə görə İrana daxil oldular. İranda siyasi iqlim yumşaldı və siyasi təşkilatlar fəaliyyətə başladı. 12 yaşlı İsfəndiyar Bərxu da bu təşkilatlardan birinə kömək edir və divara kağızlar yapışdırırdı.

1945-ci ilin dekabrın 12-də Təbrizdə Azərbaycanın Milli Hökuməti elan edildikdə, onu qorumaq məqsədi ilə fədai dəstələri yaradıldı. 16 yaşlı İsfəndiyar Bərxu da əlinə silah alaraq fədailərə qoşuldu.

Azərbaycan Milli Hökumətinə savadlı hərbi kadrlar lazım olduğundan 1946-cı ilin iyulunda bir qrup gənc Bakıya hərbi məktəbə oxumağa gəldi. Onların arasında İsfəndiyar da var idi.

1946-cı ilin dekabrın 21-də Azərbaycan Milli Hökuməti süqut etdi. Hökumət üzvləri və onları dəstəkləyən minlərlə insan qətlə yetirildi. 1947-ci ilin iyun ayında Milli Hökumətin rəhbəri S.C.Pişəvəri Yevlax rayonunda təşkil edilmiş sui-qəsd nəticəsində avtomobil qəzasında həlak oldu.

İsfəndiyar və onun dostları getdikcə baş verən hadisələri dərindən başa düşür, Sovet hökumətinin çirkin siyasətini lənətləyirdilər. Elə bu məqsədlə 1948-ci ilin əvvəllərində İsfəndiyar Bərxu və İsmayıl Təriqpeyman **"Gənc Qvardiçilər"** (Qvardiyaçılar) adlı təşkilat yaratdılar. Təşkila-

tın əsas məqsədi güneyli gənclər arasında iş olaraq, onları vətənə qayıtmaq üçün hazırlamaq idi.

1948-ci ilin sonlarında Nəcəf adlı bir nəfərin xəyanəti nəticəsində təşkilatın əksər üzvləri, başda İsmayıl Təriqpeyma olmaqla tutulub Sibirə göndərildilər. İsfəndiyarın adı təsadüf nəticəsində siyahıda olmadığından o, həbs edilmədi.

Azərbaycan Demokrat Firqəsinin, başda Qulam Yəhya Danişyan olmaqla, sovetpərəst siyasətini İsfəndiyar Bərxu və Məhəmməd Hatəmi kimi inqilabçı gənclər xoşlamırdı və etiraz edirdilər. 1960-cı illərin əvvəllərində ADF-nin rəhbərliyinin M.Hatəmini partiya sıralarından çıxarmasına etiraz olaraq İsfəndiyar və bir qrup gənc partiya biletlərini təhvil verdilər.

Bu illərdə İsfəndiyar Bərxu sovet sisteminə qarşı kəskin şeirlər yazmağa başladı və özünə təxəllüs də seçdi: **"Coşqun".** O, bu illərdə yazdığı "Yazmamışam, yazammaram", "Qorxulu heykəl", "Bəsdir daha yatdığımız", "Yest takaya partiya", "Vəzirov", "Hökmdar" və b. əsərlərində Kommunist Partiyasını və sovet rejimini ifşa edirdi.

1987-ci ilin əvvəllərində Bəxtiyar Tuncay, rəssam Tofiq Aslan, hüquqşünas Fuad Ağayev, Ənvər Yusif Börusoylu və Məhəmməd Hatəmi Tantəkin birlikdə "Çənlibel" Elmi-Ədəbi Birliyini yaratdılar. Təşkilata ilk qoşulanlardan biri də İsfəndiyar Coşqun idi. O, dəfələrlə "Çənlibel"in yığıncaqlarında çıxış etmiş, şeirlər oxumuşdu. "Çənlibel"in 1988-ci ilin mayın 16-da və 18-də, iyunun 9-da təşkil etdiyi mitinqlərdə İ. Coşğun da fəal iştirak etmişdi.

1988-ci ilin oktyabrın 30-da Hatəmi Tantəkin Azərbaycan Xalq Hərəkatı Cəbhəsi yaradılmasını təklif etdi. İ.Coşqunu da həmin təşkilatın Müvəqqəti Məsləhət Şurasına üzv seçdilər.

**1988-ci ilin 17 noyabr – 5 dekabr mitinqlərində İsfəndiyar Coşqun meydanlarda gecələyir, böyük fəallıq göstərirdi.**

Şair Eldar İbrahim "Tarix" poemasında yazırdı:

**Budur, İsfəndiyar, gəlir qabaqda,**
**Bax, bax, marş oxuyur, əlində varaq.**
**Cavan oğlan kimi bu yaşlı çağda,**
**Oxuyur, Təbrizi xatırlayaraq.**

1988-ci ilin dekabrın 5-də rus əsgərlərinin dəyənəklə döydüyü insanlar arasında İ.Coşqun da var idi.

1989-cu ilin mayın 21-də İ.Coşqunun ümumi rəhbərliyi altında Birlik Cəmiyyətinin təsis yığıncağı keçirildi. Həmin ilin mayın 28-də Milli İstiqlal Gününün 71-ci ildönümünün bayram edilməsində Birlik üzvləri və İ.Coşqun fəallıq göstərdilər.

1989-cu ilin iyunun 4-ü və 11-də "Spartak" stadionunda keçirilən mitinqin təşkilatçısı da İ.Coşqun idi.

Həmin ilin iyulun 8-də keçirilən nümayiş isə dağıdıldı, 31 nəfər adam, o cümlədən, İ.Coşqun da həbs edildi. Ona qarşı Azərbaycan SSR Cinayət Məcəlləsinin 188-ci maddəsinin 3-cü və 4-cü bəndinə və 189-cu maddəsinin 1-ci bəndinin 2-ci yarımbəndinə əsasən cinayət işi qaldırıldı. İyulun 21-də onu və digər dustaqları Şüvəlandakı 3 saylı istintaq təcridxanasına köçürdülər. Bir dəfə isə kameraya qaz buraxdılar. Bu qaz İ.Coşqunun pisləşməkdə olan səhhətini bir az da ağırlaşdırdı. Avqustun 9-da onu həbsxanadan buraxdılar.

Həbsxana həyatı onun səhhətinə ağır təsir göstərdi və o, bir daha siyasi mübarizəyə qayıda bilmədi.

1991-ci ilin avqustun 23-də 62 yaşında (pasport üzrə 66) dünyasını dəyişdi.

---

***Qaynaq:***

*Y.Türk Azər. Eşq və Azadlıq. Bakı, 2005, səh. 48-55.*

**İsfəndiyar Coşqun**
**1978**

**OYANIN**

Oyanın, ay camaat!
Bəsdir daha yatdığımız!
Əli qoynunda durub,
Dərdə - qəmə batdığımız.

Yığılaq bir yerə biz.
Düz oturub, düz danışaq.
Çağıraq gəlsin İvan,
Burda üzbəüz danışaq.
60 ildir o deyir,
Bir kərə də biz danışaq.
Məlum olsun ona da,
Əqlə, huşa çatdığımız!
Oyanın, ay camaat!
Bəsdir daha yatdığımız!

Əcəba, söylədiyin
Cənnəti-rizvan bumudur?
Qəm, kədər bilməyəcək
Qayğısız insan bumudur?
Hər şeyə sahib olan
Fəhlə və dehqan bumudu?
Daha artıqdır susub,
Başımızı qatdığınız!
Oyanın, ay camaat.
Bəsdir daha yatdığımız!

Fəhlənin işlədiyin,
Büsbütün ondan qoparır.
Kəndlinin var-yoxunu,
Kolxoz adıynan aparır.
Üstəlik kim danışır,
"Xox" eləyib bağrın yarır.
Belədir, bəli, bizim
Rus verən "azadlığımız"!
Oyanın, ay camaat!
Bəsdir daha yatdığımız.

**İsfəndiyar Coşqun**
**1982**

## YEST TAKAYA PARTİYA

Eşidin, ey insanlar!
Eşidin, ey cavanlar!
Belə bir partiya var,
Böyükdür müddəası.

Deyir – birləşməlidir
Zəhmətkeşlər dünyada.
Deyir – dağılmalıdır
Zalımlığın yuvası.
Deyir ki, marksizmin,
Ədalətdir mənası.
Deyir – gərək qələbə,
Çalsın Lenin dühası.
Deyir, deyir, hey deyir,
Deyir, peydərpey deyir.
Gah bağırtı salır hay,
Gah edir giley deyir.
Fəqət bu deyirlərin,
Əgər düşünsək dərin,

Hələ bu günə qədər
Görən yoxdur səmərin.
Budur, düz 150 il
Çalınır bu boş təbil.
Bəşəriyyət elə bil,
Qayıtmış körpəliyə.
Kommuna deyə - deyə,
150 il durmadan
Axıdır nahaq qan.

Adi bir yəhudinin
Uydurduğu oyundan,

Ölkələr olur viran.
Yest takaya partiya!
İnsanları o, guya,
Azadlığa aparır.
Durmadan hay qoparır,
Bəli, bir partiya var,
Hər şeyi edir inkar.
Marksın uydurduğu
Və Leninin qurduğu
Kommunist Partiyası.

Adi terror yuvası,
Çaşdırır insanları
Çaşdırır cavanları.
Ölməyə, öldürməyə.
Təşviq edir onları.
Məzlumların qanıyla
Boyanmış bayrağı var.
Kreml meydanında
Tilsimli çırağı var.
Başçıdır sarı iblis,
Hər yerdə casusu var.
Hər yerdən sorağı var.
Tiryəki əvəz etmiş
Bolluca arağı var.
Beyinləri qurudur,
Məhv edir ağılları.
Əməldə ancaq budur
Kommuna nağılları.

Bu gün bütün ölkələr,
Dəyibdir bir-birinə.
Dərin düşünsək əgər,
Kommunizm yerinə
Bəlaya düşüb bəşər,
“Kommuna” adlı bu şər.

Varlığı təhdid edir,
Dünya kommunizmə yox,
Məhvinə doğru gedir.
Belə deyilsə əgər.
Bəs bu  qorxunc raketlər,
Və atom bombaları.
Cənabi Reyqanların,
Neyçün olub şüarı?
Onun da bəhanəsi,
Qorxulu bayquş səsi
Dəm vurur kommunadan.
Məgər bilmir o nadan,
Nə kommuna, nə filan?

Bəli, bəli Rusiya,
“Kommuma” deyə - deyə,
Öz qanlı ordusunu
Yeridir bir ölkəyə.
Moskva yayır şayiə.
Əgər biz olmasaydıq,
Qonşu Əfqanıstanı
Orduyla almasaydıq,
Kommuna mənafeyi
Orda əldən gedərdi.

Var belə bir partiya!
Hərbi bazalar qurur.
Amma sülhdən dəm vurur.
Dünya kommunistləri
Ona havadar durur.
Moskvanın səsinə
Uyub inanmış onlar.

Yest takaya partiya!
İnsanları o, guya.
Sakit sülhə çağırır.
Fasiləsiz bağırır,
Amma “sülh” deyə - deyə

Artıq neçə ölkəyə,
Yerləşdirib raketlər.
Onlar işə salınsa,
Dünyadan qalmaz əsər.

Bəli, bir partiya var,
Özü də etmir inkar.
Lazım sayarsa hər an,
Qorxulu knopkadan(1),
İstifadə edəcək.
Canlı, cansız nə varsa,
Məhv olacaq, gedəcək.

Eşidin, ey insanlar!
Nə qədər ki, gec deyil.
Nə qədər ki, imkan var,
Kommunist Partiyası,
O xəyanət yuvasın
Tərk edin hər ölkədə,
Beləliklə bəlkə də,
Moskva və Vaşinqton,
Atom yarışmasına
Birdəfəlik qoya son.
Susdurun Reyqanı da,
Bəli, bəli onu da.
Ağ Evdən edin kənar.
Eşidin, ey insanlar!
Nə qədər ki, Kreml var,
Dünyamız qorxuludur.
Bu qorxunu yaradan,
Marksizmin təlimi,
Leninizmin yoludur.

***Qeyd:*** *"knopka" ruscadır, tərcüməsi-düymə.*

***Qaynaq:***
*Yaşar Türkazərin şəxsi arxivindən.*

## MİLLİ AZADLIQ QƏRARGAHI - MAQ

### OKTAY RƏFİLİ (ELDƏGƏZ)



*Oktay Rəfili*

1957-ci ildən gizli hərəkata qoşulan **Oktay Rəfili (Eldəgəz)** 1962-ci ildə 95 ziyalının təmsil olunduğu Milli Azadlıq Qərargahının sədri seçilmişdir. **Onun müavini isə böyük alim Xudu Məmmədov olub.** Oktay Rəfili 25 ilə qədər bu təşkilata başçılıq edib. Təşkilatın iclasları "Azneft"in çayxanasında keçirilirdi. Onlara bu iclası keçirməkdə çayxananın çayçısı **Nardaranlı Zülfü** yardımçı olub. Bu təşkilatın Azərbaycan rayonlarında da şöbələri yaradılmışdı. MAQ-ın əsas məqsədi - Azərbaycanda rəhbər vəzifələrə azərbaycanlıların təyin olunması, respublika büdcəsinə ayrılmaların Moskvada deyil, Bakıda həll olunmasına çalışmaq, milli oyanışa xidmət etmək olmuşdur. Tanınmış ziyalılardan Bəxtiyar Vahabzadənin, Yusif Məmmədəliyevin, Ağasadıq Rəhimli və digərlərinin də bu qurumun üzvü olduqları söylənilir.

Oktay Rəfili qeyd edirdi ki, MAQ-ın bəzi gizli toplantıları Xudu Məmmədovun doğulduğu Ağdamın Mərzili kəndindəki evində də keçirilib.



***Oktay Rəfili toplantıda***
*(soldan birinci Xudu Məmmədov)*

Oktay Rəfili 1934-cü ildə Əmircan (Xilə) qəsəbəsində anadan olub. Üç il sovet ordusunda hərbi xidmət keçmiş, sonra Azərbaycan Dövlət Universitetinin (BDU-nun) filologiya fakultəsində təhsil almışdır. Universiteti bitirdikdən sonra

qəsəbədəki məktəblərdə dil və ədəbiyyat fənnini tədris edib. Sonra məktəbdən uzaqlaşmağa məcbur olub.

O. Rəfili dəfələrlə DTK-ya çağrılıb, təqiblərə məruz qalıb.

O. Rəfilinin sağlığında yazdığı "Fələstin çoxbucaqlısı", "Otuzyeddilər istintaqı", "Poladdan bir yarpaq", "Borcumu ver, Rusiya" adlı kitabları müəllifin ölümündən sonra nəşr edilib.

Oktay Rəfili 16 may 2002-ci ildə vəfat edib və Əmircanda dəfn edilib.

---

***Qaynaq:***

*1. O.Rəfili (Oktay Eldəgəz).Otuzyeddilər. B.,2013.*

*2. B.Əziz. Azərbaycanda sovet işğal rejiminə qarşı mübarizə (1920-1991). Magistr hazırlığı üçün proqram. Bakı, 2008.*

*3. www. Tezadlar.az. 20.11.2014.*

## RAFİQ TURABXANOĞLU

**Abdullayev Rafiq Turabxan oğlu (Rafiq Turabxanoğlu)** – Azərbaycan Xalq Demokrat Partiyasının rəhbəri. Antisovet düşüncəsinə görə Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən 1967-1968-ci illərdə həbsdə saxlanmışdır. Azərbaycanın müstəqilliyi dövründə – 1992-ci ildə prezidentliyə namizəd olmuşdur.



***Rafiq Turabxanoğlu***

**R.Turabxanoğlu** 1946-cı ildə Qubadlı rayonunda anadan olub. Sonradan Sumqayıta gəlib, Kimya-Texnologiya Texnikumuna daxil olub və paralel olaraq orta təhsilini də başa vurub. 1975-ci ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirib. 1966-cı ildə Ümumazərbaycan Zəhmətkeş Fəhlə-Kəndli Partiyasını təsis edib. 1967-ci ildə antisovet düşüncəsinə görə həbs olunub və 5 ay həbsxanada yatıb. 1968-ci ildə azad ediləndən sonra bu partiyanı Azərbaycan Xalq Demokrat Partiyası adlandırıb və həmin vaxtdan təşkilatın rəhbəridir. Sonradan Sumqayıt zavodların-

da fəhlə, növbə rəisi, mühəndis işləmişdir. 1976-cı ildən siyasi fəaliyyətinə görə təqib edildiyindən Azərbaycanı tərk etmək məcburiyyətində qalıb, Rusiyanın Kemerovo şəhərinə getmiş və bir müddət orada yaşamışdır.

Hazırda təqaüdçüdür, Bakıda yaşayır.

1992-ci ildə prezidentliyə namizəd olub. 1993-cü ildə Bakı şəhərində bütün türk xalqlarının nümayəndələrinin iştirakı ilə Turan Qurultayını keçirib.

Ailəlidir, bir övladı var.

---

***Xarici keçidlər:***

*1. http://ali-shamil.tr.gg/Az.*

*2. http:www.azadliq.org/content/article/24986098html.*

*3. "Məhbəs xatirələri". DTK zindanında yatmış Rafiq Turabxanoğlu yarım əsrdən sonra sirri açdı . (http://www.mediaforum/az/articles.php?article_id=20100309023946643&lang=az&page=02)*

## ÜMUMAZƏRBAYCAN ZƏHMƏTKEŞLƏR PARTİYASI (1964-CÜ İL)

1953-cü ilin martın 5-də Stalinin ölümündən sonra hakimiyyətə gələn Nikita Sergeyeviç Xruşşov sovet cəmiyyətinin demokratikləşməsi və repressiyaların, təqiblərin azaldılması istiqamətində ciddi işlər gördü. Onun 1956-cı ilin fevralında "Şəxsiyyətə pərəstişə qarşı mübarizə" mövzusundakı Sov. İKP-nin XX qurultayındakı çıxışından sonra sovet vətəndaşlarında qorxu hissləri azalmağa başladı. Milliyyətçi fikir və düşüncələrə sahib insanlar daha da fəallaşdılar. 1957-ci ildə üç nəfər azərbaycanlı (Çingiz Abdullayev, Cahid Xəlilov və Nazim) Qız qalasına qalxıb, üçrəngli bayrağımızı bir neçə saat orada dalğalandırdılar.

1960-cı illərdə bu fəallaşma Azərbaycan cəmiyyətində açıq hiss edilirdi. M.C.Bağırovdan sonra Azərbaycana rəhbərlik etmiş İ.Mustafayevin və V.Məmmədovun idarəçilik sistemində əvvəlki "izləmələr" kifayət qədər azalmışdı. Azərbaycan KP MK ideologiya işləri şöbəsinin müdiri **Şıxəli Qurbanovun** fəaliyyətindəki millətçilik, tarixə, şəxsiyyətlərə yeni dəyərlərlə yanaşmaq getdikcə daha çox hiss edilirdi.

Azərbaycanın ikinci böyük şəhəri olan Sumqayıtda yerləşən zavodlarda çoxlu sayda fəhlə çalışırdı ki, bu da mövcud problemlərdən narazı yaşayan geniş kütlənin olması demək idi.

Eyni zamanda,1956-cı ildə Stalin repressiyası qurbanlarına verilən bəraətdən sonra çoxlu sayda adamlar Sibirdən, Qazaxıstandan gəlib buradakı zavodlarda çalışır, yataqxanalarda yaşayırdı. **Onlar ən çox Sumqayıtın 15-ci kvartalındakı yataqxanalarda məskunlaşmışdılar. Bu insanlar 1937-ci ilin repressiyalarının ağır dövrlərini yaşamış, bəziləri isə "müsavatçı" olaraq həbs, yaxud sürgün edilmişdi. Onların bəziləri söhbətlərində qorxmadan M. Ə. Rəsulzadənin də adını çəkirdi. Bu insanlar mövcud sovet rejimindən ciddi narazı qalan təbəqə idi.** Xruşşov dövründə verilən müəyyən azadlıq imkanları onları daha da fəallaşdırmışdı.

Digər tərəfdən şəhərdə Pişəvəri hərəkatından sonra burada məskunlaşmış müəyyən sayda siyasi və inqilabçı əhval-ruhiyyəli "Güneyli"lər də vardı. Onlar gizli şəkildə siyasi söhbətlər aparırdı.

Bu dövrdə Sovetlər Birliyində artıq etiraz dalğaları olmuşdu. 1956-cı ildə Stalini müdafiə məqsədi ilə gürcülər millətçi toplantılar keçirmişdi. Qazaxıstanın sənaye şəhəri olan Temirtanovda xalqın böyük etiraz mitinqi olmuşdu. Mitinqdə iqtisadi, mədəni-kültürəl şüarlarla yanaşı, sürgün olunanların geri qaytarılması da səsləndirilmişdi.

**1962-ci ildə Rusiyanın Novorossiysk şəhərində**ki əhalinin mitinqi isə amansızcasına yatırılmışdı. Mitinqdə 60-a qədər insanı güllələyib qətlə yetirmişdilər.

**1963-cü ilin 1 May nümayişi günü isə Sumqayıtda** xalqın ciddi etiraz səsləri eşidildi. Əsas etirazlar, nümayişçilər Sumqayıt İcra Hakimiyyətinin qarşısındakı Leninin heykəlinin yanında olanda başladı. Bir dəstə adam (sonradan məlum oldu ki, onların əksəriyyəti Sibirdən, Qazaxıstandan gəlib Sumqayıtda yaşayan repressiya olunmuşlar idi) hökumət binalarına hücum edir, adamlara dəmir armaturlar paylayırdı. Həmin armaturları isə milislərə, hökumət adamlarına atırdılar. Digər bir dəstə adam isə milis idarəsinə hücum edib, orada həbsdə olanları azadlığa buraxmışdı. Etirazçılar Sumqayıt Şəhər Hərbi Komissarını tutub döymək istəyəndə, o, qaçıb Doğum evinə girmiş və orada gizlənmişdi.

Gecə saat 12-yə qədər şəhərdə qarmaqarışıqlıq oldu. Sovet mühafizə orqanlarına tapşırılmışdı ki, etirazçılara qoşulan daha çox adamları müəyyənləşdirib həbs etsinlər. Gecə əməliyyat başladı, çoxlu sayda insanları həbs etdilər. Təşkilatçıları isə aradan götürüb qətlə yetirdilər.

Bu hadisə sumqayıtlılara çox ciddi təsir etdi. Hadisə haqqında heç bir mətbuat orqanında, kütləvi-informasiya vasitələrində məlumat verilmədi. **Sovet rejiminə uyğun olaraq hadisə məxfiləşdirildi.**

Artıq Sumqayıtda azərbaycanlıların gizli təşkilatları yaranırdı. **Masallıdan olan Maşallah adlı birisi Milli birlik adlı təşkilat yaratmışdı**. Həmin təşkilatın başlıca məramnaməsi bu idi: "Niyə dövlət idarələrində azərbaycanlılar az işləyir? Niyə dövlət idarələrində Azərbaycan dilindən az istifadə edirlər?"

**Belə bir vaxtda 1964-cü ildə Sumqayıtda yaşayan Rafiq Turabxanoğlu özünün gizli olaraq partiyasını yaratdı: Ümumazərbaycan Zəhmətkeşləri Partiyası.** Bu partiyanın məramnaməsində qeyd edilirdi ki, onların fəaliyyətində marksizm, onun təlimi inkar olunmur, əksinə, bu daha yaradıcı formada davam etdirilir. Belə ki, Sovet dövlətinin qəbul edilmiş Konstitusiyasında respublikaların SSRİ-dən ayrılmaq hüquqları var. Biz də bu hüquqdan istifadə edib, Güney Azərbaycanla Quzeyi birləşdirib ayrılırıq, müstəqil dövlət oluruq.

Partiyanın gizli bir qərargahı var idi. Təşkilatın sıraları isə getdikcə genişlənirdi. Bu dövrdə partiya üzvləri fəaliyyətə ziyalıları daha çox cəlb edir, şair və yazıçılarla əlaqələri möhkəmlədirdilər. **Bəxtiyar Vahabzadə, Nigar Rəfibəyli, yazıçı Əzizə Cəfərzadə** və digərləri indiki Dram Teatrının yaxınlığındakı mənzildə gizli söhbətlər etmişdilər. Həmin söhbətlərdə şairə Nigar Rəfibəyli Müsavatdan, Müsavatçılıqdan danışmışdı.

Qeyd edək ki, Nigar Rəfibəyli özü də 1920-ci illərdə Müsavat Partiyasının gizli fəaliyyət göstərən Gənc Azəri Təşkilatının üzvü olmuş, böyük fəallıq göstərmiş, buna görə oxuduğu Pedaqoji Texnikumdan uzaqlaşdırılmışdı. Hətta o dövr mətbuatında onun əleyhinə belə misralarla tanınmış şair Süleyman Rüstəm bir şeir də yazmışdı:

Sən atanın yolunu izləyirsən, deyilmi?
Sən Müsavat yolunu gözləyirsən, deyilmi?

**Nigar Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyəti dövründə Səhiyyə naziri və Gəncənin Qubernatoru Xudadat bəy Rəfibəylinin qızı idi. X. Rəfibəylini isə 1920-ci ilin mayında bolşeviklər güllələmişdi. O, tanınmış yazıçı Anarın anasıdır.**



***Rafiq Turabxanoğlu. 1969-cu ildə***

Partiyanın Gəncədə və bir çox yerlərdə gizli olaraq bölmələri də yaradılırdı. **Partiyanın sədri Rafiq Turabxanoğlunu daha çox "Sabah" təxəllüsü ilə tanıyırdılar.** Partiyanın fəallarından biri də Bakıda yaşayan Yusif Rəfili idi.

Partiya sıralarında Güney Azərbaycandan olan insanlar da çox idi. Onlar Pişəvəri hərəkatına bağlı olub, böyük narazılıq hissi ilə yaşayanlar idi.

Lakin getdikcə fəaliyyət göstərmək çətinləşirdi. Hüquq mühafizə orqanları insanları ciddi təqib edirdi. 1964-cü ilin oktyabr ayında hakimiyyətə gəlmiş Leonid İliç Brejnevin idarəçiliyində güc strukturlarının geniş təsir imkanları getdikcə artırdı. N.S.Xruşşovun sovet cəmiyyətinə verdiyi müəyyən "yumşaqlığı" yenidən "NKVD"-nin, "KQB"-nin sərtliyi sıxışdırıb aradan çıxarırdı.

**1966-cı ildə partiyanın sədri Rafiq Turabxanoğlunu həbs etdilər. Bundan sonra partiyanın fəaliyyəti dayandırıldı.**

Sonrakı illərdə partiya üzvləri fərdi olaraq çalışır, işlədikləri müəssisələrdə sovet hökumətindən narazılıqlarını müxtəlif formada ifadə edirdilər.

Bu dövrdə sovet dövləti əleyhinə narazı təşkilatlar da müxtəlif bölgələrdə fəaliyyət göstərirdilər. 1960-cı illərdə, N.S.Xruşşovdan sonra isə sovet hökumətindən narazı qalanları bir araya toplamağa başladılar. **Burada Qərb dövlətlərinin ciddi dəstəyi və fəallığı vardı. Toplantılar gizli olaraq Estoniyanın Tarsu şəhərində, Ukraynanın isə Lvov şəhərində keçirilirdi.** Ermənistanda "Eçmiəddin"də də sovetdən narazıların bir toplantısı keçirilmişdi. Qeyd edək ki, **Azərbaycandan Rafiq Turabxanoğlu bu toplantılarda iştirak edirdi.**

Sovetdən narazıların toplantılarının birində tapşırıq verilmişdi ki, bu insanlar tədricən Kommunist Partiyası sıralarına daxil olub, orada fəaliyyətlərini gücləndirsinlər.

(O dövrdə fəaliyyət göstərən antisovet təşkilatın adı belə idi: **"Azsaylı Xalqların Dünya Assambleyası".** Təşkilata rəhbərliyi mənşəcə eston olan hərbçi general Linard Myal edirdi. Sovet dövrünün çox məşhur adamları, dissidentləri, siyasiləri bu toplantıya gəlirdilər. Sonralar bu toplantılara SSRİ-ni dağıdan, sonuncu dövlət başçısı Mixail Sergeyeviç Qorbaçovun da gəldiyi söylənilir).

R.Turabxanoğlu o dövrdə partiyanın fəaliyyətini dayandırsa da, gizli çalışmalarını davam etdirirdi. Təbii ki, artıq vəziyyət dəyişmiş, Sovetlər Birliyində 1970-ci illərin təqibləri güclənmiş, şəxsiyyətə pərəstişin ağır yaşam dövrü davam edirdi. Bu şərait və təqibli İdarəçilik sistemi Azərbaycanda daha eybəcər formada özünü göstərirdi.

Verilən tapşırığa uyğun olaraq R.Turabxanoğlu Sumqayıtda çalışdığı "Superfosfat" zavodunda Sov. İKP sıralarına daxil olmaq üçün müvafiq partiya strukturlarına müraciət etdi. Onun partiya sıralarına daxil olmaq "arzusu" ciddi maneələrlə rastlaşıldı. Sənədləri Şəhər Partiya Komitəsinə göndərilsə də, orada saxlanıldı. O, etiraz əlaməti olaraq Moskvaya şikayətlər yazıb göndərdi.

R.Turabxanoğlunun partiyaya daxil olmaq istəyi ona ciddi problemlər yaratdı. Onun haqqında istintaq işi qaldırıldı. İstintaqın məzmunu bu idi: "Çalışdığınız "Superfosfat" zavodunda (o, burada mühəndis, "növbə rəisi" işləyirdi) diqqətsizlik etmisiniz və havaya güclü qaz sızması nəticəsində uşaq ölümləri olub". Onu bu məsələdə günahlandırıb, həbs etmək istəyirdilər. Məhkəmənin sədri olan bir vicdanlı qadın isə R.Turabxanoğlunu yanına çağırıb demişdi: "Bu, bir oyundur. Sənə qarşı qurublar. Sənin heç bir günahın yoxdur. Sən bu işi sifariş verənlərlə görüş, onlarla həll et. Əks halda səni 5 il həbs, 5 il də sürgün gözləyir".

Məhkəmə 3 gün təxirə salındı. R. Turabxanoğlu Sumqayıt şəhər DTK-nın sədri İbrahimovla görüşdü. Problemi onunla açıq müzakirə etdi. (İbrahimovla onun ata xətti ilə tanışlığı vardı). İbrahimov bir müddət sonra bildirdi ki, bu məsələni ölkə rəhbərliyi səviyyəsində danışıb və göstəriş belə olub ki, onda R.Turabxanoğlu Azərbaycanı tərk etsin. O, bununla razılaşdı

(bu fəaliyyətinə görə onun bir qardaşını öldürmüşdülər). Məhkəmənin qərarı ilə ona maaşından 15 faiz tutulmaqla bir il şərti cəza verildi. O isə məcbur olub, Rusiyanın Kemerovo şəhərinə getdi. **R. Turabxanoğlu 1976-cı ildən getdiyi (arada qısa müddətə gəlirdi) vətəninə – Azərbaycana bir də 1982-ci illərin sonlarında - L.İ.Brejnev dünyadan köçəndən sonra qayıtdı.** Tezliklə Azərbaycan rəhbərliyində də dəyişiklik edildi və bu da onun təqib olunması ehtimalını azaltdı.

1980-ci illərin ortalarından yenidən R. Turabxanoğlu siyasi fəaliyyətini gücləndirdi. Özünün yaratdığı Azərbaycan Xalq Demokrat Partiyasını bərpa etdi və gücləndirdi.

---


***Qaynaqlar:***

*1.http://ali-shamil.tr.gg/Az.*

*http:www.azadliq.org/content/article/24986098html.*

*2.“Məhbəs xatirələri”. DTK zindanında yatmış Rafiq Turabxanoğlu yarım əsrdən sonra sirri açdı. 3.(http://www.mediaforum/az/articles.php?article_id=20100309023946643&lang=az&page=02)*


## “MƏNLİK” QƏZETİ

**“Mənlik” qəzeti -** Azərbaycan Xalq Demokratik Partiyasının orqanı olub. 1991-ci ildə nəşr edilib. Redaktoru Ə. Yusifoğlu olub. Qəzetdə Azərbaycanda demokratik fikir və onun çağdaş dövrdəki daşıyıcıları haqqında yazılara daha çox önəm verilib. Qəzetdə türk xalqlarının tarixindən səhifələrə də yer verilib.



Mənlik

ХҮСУСИ БУРАХЫЛЫШ

Р. Турабханоғлу САБАҺ

КҮНҮМҮЗҮН НӘБЗИ

КӨРМӘЈИМИЗ КӘРӘКДИР

Һәјатда маһијјәти олмајан мәсәлә јохдур. Көрүнүр бу барәдә узун-узады сөз ачыб фикри мәнтиги изаһ етмәјә чалышмаг садәлөвһлүк оларды. Проблем бу маһијјәти көрмәкдир. Даһа доғрусу мәсәләнин маһијјәти нәдәдир суалыны өзүмүзә вериб она чаваб тапа билмәјимизди. Мәсәлә вар ки, ону көрмәјә бир аиләнин чохлуғу борчлудур, мәсәлә вар онун маһијјәтини бир кәнд, мәсәлә дә вар ки, онун маһијјәтини бүтөв бир халгын чохлуғу көрмәјә борчлудур. Дөвләт олмаг мәсәләси мәһз ахырынчыја аиддир. Јә'ни онун маһијјәтини бүтөв бир халгын чохлуғу көрә билмәлидир. Бу көрмә габилијјәтинә малик олмајан халгын көләликдән башга чыхыш јолу јохдур. Дүзүнү десәк бүтүн инчәсәнәт нөвләри бу вә башга формада мәсәләләрин нөвүндән асылы олараг, онун маһијјәтини көрә билмә габилијјәтимизи ашыламаға хидмәт едир. Сијасәтин исә ишинин әсасы бу параметрлә өлчүлүр.

Дөвләт һаггында дүнјанын даһи инсанлары о гәдәр сөз вә фикир дејибләр ки, бу күн ора јени нәсә әлавә етмәјә еһтијач јохдур. Анчаг бунлары дејәнләр, илк өнчә мәнсуб олдуглары халгын габилијјәтини нәзәрә алыб дејибләр ки, онлара тә'сир едә билиб, јаддашларында из бураха билсинләр. Доғрусу бизимкиләр дә аз демәјибләр, анчаг тә'сири јаман аздыр десәм, кәрәк мәни гынамајасыныз.

Бунун објектив вә субјектив сәбәбләринә вармадан сон вахтлар кәлдијим гәнаәт ондадыр ки, нәфс дејилән бир вәһши ичимиздә елә кök салыб ки, һеч чүр онун тә'сириндән гуртара билмирик. Десәм ки, көрә билмәјимиз, нәфс адлы бир диварла елә гаршылашыб ки, бу дивары дағытмаға бәлкә дә дүнјанын һеч бир мүасир силаһы күч кәлә билмәз, һејрәтләнмәјин. Она көрә ки, сон илләр истиглал вә азадлыг дејә өзүмүзү фәда етдијимиз демократик дөвләт гуручулуғумуз һәмин нәфсин учбатындан елә долашдырылыб ки, дүнјанын һеч бир институту буну чөзәләјиб сонуна чата билмир. Она көрә ки, онлар XXI әсрин астанасында тәсәввүр едә билмирләр ки, инсанда бу гәдәр нәфс ола биләр. Бу ачы да олса һәгигәтдир.

Бүтүн бунлар бу күн о гәдәр һамыја ајдындыр ки, бәлкә дә һеч данышмаға еһтијач белә јохдур. Мәним бу барәдә сөһбәт ачмаг истәмәкдә мәгсәдим сәфәрбәр олуб бу мәнфур нәфс таунуна гаршы гүвәләримизи сәфәрбәр етмәкдән башга бир шеј дејил. Демәк истәјирәм ки, халгым бир шеји билмәлидир ки, дөвләт гуручулуғуна мүдахилә етмиш нәфси јалныз халг сусдура биләр. Һамымыз билмәлијик ки, бу тәк адам иши дејил.

Ишин маһијјәти нәдәдир?

Халг дөвләт гуранда халгын ичиндә олан ән варлылар груплара бөлүнүб һакимијјәти әлә алырларса, онда һәмин групун лидери өзүнү шаһ е'лан етмәлидир. О, өзүнү шаһ е'лан етмирсә дә өзүнү шаһ кими апарыб халгын вар-јохуну таламалы-

## DİSSİDENT NADİR AĞAYEV "RUSLAŞDIRMA" ƏLEYHİNƏ FƏALİYYƏTİNƏ GÖRƏ HƏBSLƏR, TƏQİBLƏR. GİZLİ YAŞAYIŞ, 9 İL RUHİ-PSİXİATRİYA XƏSTƏXANASI (Cinayət Məcəlləsi, 188-1 maddəsi üzrə ittiham)



*Nadir Ağayev*

Azərbaycan vətəndaşı olan **Nadir Mirələkbər oğlu Ağayev** psixiatrik terrora məruz qalmış 47 sovet dissidentindən biridir. O, həm də dünyanın bütün insan haqlarını müdafiə komitələri ilə razılaşdırılaraq, Amerika Dövlət Departamentində rəsmi qeydiyyatdadır.

Azərbaycan SSR Baş Prokurorunu əvəz edən İvan Vasilyeviç Barıkinin 2 aprel 1975-ci il tarixli qərarından: "Bu materiallardan (yəni DTK-nın - *red.*) göründüyü kimi, Bakı şəhər sakini Ağayev Nadir Mirələkbər oğlu neçə illərdən bəri sistematik olaraq yazılı formada qərəzli surətdə sovet dövlət quruluşunu ləkələyən saxta uydurmalar yayır".

Ali Məhkəmənin o vaxtkı üzvü Firidun Hüseynovun sədrliyi ilə keçirilmiş məhkəmənin hökmündə yazılırdı: "... Bu sənədlərdə Ağayevin belə iddiaları yer almışdır ki, Sovet İttifaqı həbsxana ölkədir, Sovet Azərbaycanı rus müstəmləkəsidir, burada əsl demokratiyadan əsər-əlamət yoxdur, özbaşınalıq və zorakılıq hökm sürür; SSR İttifaqında azsaylı xalqların qırılıb məhv olması baş verir, onların ruslaşdırılması siyasəti aparılır, məhkəmə, prokurorluq, milis və dövlət təhlükəsizliyi orqanlarından ədalət uğrunda mübarizəni boğmaq üçün silah kimi istifadə edilir".

N.Ağayevə Cinayət Məcəlləsinin 188-1 maddəsi ilə cinayət işi qaldırılıb.

**1938-ci ildə** Bakı şəhərində doğulan N.Ağayev Azərbaycan Politexnik İnstitutunun inşaat-memarlıq fakultəsinə daxil olub. Tələbəlik illəri N. S. Xruşşovun "şəxsiyyətə pərəstişliyin" aradan qaldırılması dövrünə təsadüf edib. Yəni Stalin dövrünün təqibləri azalmış, insanlarda milli ruh yüksəlmişdi.

İnstitutu bitirdikdən sonra o, təyinatla Qazaxıstanın Alma-Ata şəhərinə getmiş və burada hamının – qazaxların da yalnız rus dilində danışdıqlarının şahidi olmuşdu. Sovetlər dövründə qayda belə idi ki, evli məzunlar Azərbaycanda qalır, subayları isə başqa respublikalara 3 il müddətinə işə göndərir, sonra diplom verirdilər. Burada gizli məqsəd – çoxlarının orada başqa millətlə evlənib ailə qurması, ümumi bir sovet millətinin formalaşdırılması idi.

N.Ağayev Bakıya qayıtdıqdan sonra Azərdövlətkəndtikinti layihə İnstitutunda fəaliyyətə başlayır. Diqqət edir ki, bütün rəhbər vəzifələrdə çalışanlar başqa millətlərin nümayəndləri, icra edənlər isə azərbaycanlılardır. Bir qayda olaraq layihələrə izahat mətnləri rusca yazılırdı. Digər respublikalardan gələn layihələrdə eyni mətnlər onların milli dilində yazılırdı. Bundan əlavə xüsusən rayonlarda yerli işçilər layihə sənədlərini rusca başa düşmədiklərindən yerli dildə göndərilməsini xahiş edirdilər. N.Ağayev isə iclaslarda, rəhbər işçilərlə söhbətlərdə sənədlərin belə ruslaşdırılmasından narazılığını bildirirdi.

Əslində, bu hadisə ilə də onun təqiblər və həbslərlə dolu həyatı başlayır:

– 1966-cı ilin sentyabrında şəhər milis idarəsinə çağrılıb, siyasətlə məşğul olmamasını tələb edirlər. Onu layihə üzrə Baş mühəndis vəzifəsindən kiçildib, qrup rəhbəri təyin edirlər;

– **1971-ci ilin mayın 5-də** Azərbaycan KP MK-nın tikinti işləri şöbəsinin müdiri Kamran Bağırov ona zəng vurub, öz xoşu ilə işdən getməyi barədə ərizə yazmağını tələb edir. N.Ağayev bundan imtina edir. Xəstələnib işə çıxmadığına görə isə onu işdən azad edirlər;

– N.Ağayevə qarşı saxta ittihamlarla, iki nəfəri qətlə yetirməkdə “hədələdiyinə” görə cinayət işi açırlar (maraqlıdır ki, sənədlərdə onun mayın 17-də işdən çıxarılması, mayın 18-də isə cinayət işi açılması qeyd edilib);

– N.Ağayevə qarşı təqiblər isə davam edir: guya o, fırıl-



НЕЗАВИСИМАЯ
ПСИХИАТРИЧЕСКАЯ АССОЦИАЦИЯ

INDEPENDENT PSYCHIATRIC ASSOCIATION

ASSOCIATION PSYCHIATRIQUE INDEPENDANT

ПРЕЗИДЕНТ АССОЦИАЦИИ
канд. мед. наук САВЕНКО Ю.С.

АГАЕВ Надир Миралекбер оглы, 1938г.р. проживающий в г. Баку, освидетельствован специалистами НПА 2 декабря 1990г.

Заключение: Признаков психического заболевания не обнаруживает. В психиатрическом учете не нуждается. Может отстаивать свои права в обычном порядке.

Председатель комиссии Э.Ф. Казанец, докт. мед. наук

Психиатр эксперт В.М. Серпилин

Секретарь комиссии Л.И. Архангельская, канд.мед.наук



Азәрбајҹан Республикасы
БАШ ПРОКУРОРЛУҒУ

ГЕНЕРАЛЬНАЯ ПРОКУРАТУРА
Азербайджанской Республики
Бакы шәһәри — гор. Баку-370001
Тел.: 92-97-03

10. 03.94 № 09/337
На № ______ от ______

Бакы шәһәри-370114,6-чы Микрорајон,
89 № ли евин 21-чи мәнзилиндә јашајан
вәт.Агајев Надир Миралəкбәр оғлуна

Әсассыз олараг әлејһинизә ҹинајәт иши галдырылмасы илә әлагәдар олараг, Сизә дәјән зијанын өдәнилмәмәси барәдәки әризәниз јохланылды.

Ҹинајәт иши республика прокурорлуғуна тәләб едиләрәк өјрәнилмиш вә ишин ичраатына, әмәлинизде ҹинајәт тәркиби олмамасы әсасына көрә хитам верилмишдир.

Сизә дәјән зијанын өдәнилмәси мәсәләсинин һәлл едилмәси барәдә, Азәрбајҹан Республикасы Дахили Ишләр Назирлијинин истинтаг идарәсинин рәһбәрлијинә көстәриш верилмишдир.

Дахили ишләр органларында гунунларын ичрасына нәзарәт идарәсинин рәиси
3 дәрәҹә дөвләт әдлијјә мүшавири Ш.Һ.Рзајев

***Baş prokurorluğun Nadir Ağayevə məktubu***

daq yolu ilə biri Oktyabr rayonunda (indiki Yasamal), digəri isə Kirov rayonunda (indiki Binəqədi) iki mənzil almışdır. Məlum olur ki, onun aldığı mənzil kooperativdir və pul ödəməklə, qanuni yolla alınıb. Digəri isə (qardaşının yaşadığı) Sovetskidə olan və söküldükdən sonra onların ailəsinə verilən mənzildir. Bu evi isə hər gün gəlib qardaşından (o, ailəli idi və üç uşağı ilə burada yaşayırdı) boşaltmağı tələb edirlər. Nəhayət o, qardaşını və ailəsini də götürüb Moskvaya şikayətə gedir, Türkiyə səfirliyinin ərazisinə daxil olub, sığınacaq istəyir. Sonda ona qarşı qaldırılan cinayət işinə xitam verilir;

–1975-ci ilə qədər Bakıda işsiz qalır. Bu dəfə yenə Moskvaya üz tutur. Orada işə düzəlmək, yarımçıq qalmış dissertasiya işini bitirmək istəyir. Moskvada bu problemləri həll etməyə başladıqda onu Bakıdan göndərilən üç nəfər şəxs vasitəsi ilə (onlar DTK işçiləri idi) təyyarədə Bakıya qaytarır, Bayıl həbsxanasına salırlar. Burada ağır və çətin günlər yaşayır. Üç ay Bayıl həbsxanasında yatdıqdan sonra onu 2 saylı Psixiatriya xəstəxanasına göndərirlər. Burada müsbət cavab alınmasına baxmayaraq onu yenidən Bayıl həbsxanasına salırlar. Cinayət Məcəlləsinin 188-1 maddəsi üzrə cinayət işi qaldırırlar (188-1 - Sovet hökumətinə qarşı böhtan yayan, uydurma sənədlər yayan).

N.Ağayevdən hökumət başçısının adına əfv ərizəsi yazmağı tələb etsələr də, o, yazmır. Saxta ittihamlarla keçirilən məhkəmədə ona 3 il iş kəsdilər. Həbsxanada olarkən buranın rəisi ona tanış çıxdı, işin üçdə birini çəkdiyi maddəsini əsas götürüb, onu on beş ay həbsdən tez buraxdı. Bundan xəbər tutan DTK və respublika prokurorluğu etiraz verib, onun yenidən həbs düşərgəsinə qaytarılmağını tələb etdi.

**N.Ağayev isə Bakıda iki aya qədər gizli yaşayır.** Sonra Xaçmaz yolu ilə Qazaxıstanın Aktübinsk vilayətinə gedir. Burada Subar Kuduk dəmiryol stansiyasının tikintisində çeçenlərlə çalışır. Buradakı rütubətin sağlamlığına ziyanı olduğundan Aktübinskdən Krasnoyarska yollanır, Tayqa

meşələrində mexanikləşdirilmiş səyyar düşərgədə çalışır.

Nəhayət bu həyata son qoyub 1978-ci ildə Bakıya qayıdır. Evinə getdikdə xanımı onunla məcburi olaraq boşandığını bildirir. (Yəni DTK-da ona hədə-qorxu gəlib, ailəni dağıtmağa məcbur etmişdilər).

N.Ağayevin Bakıya qayıtmağından xəbər tutan DTK yenə nəzarət mexanizmini işə salır. Bakı Baş Tikinti İdarəsinin 6 saylı Tikindi idarəsində dülgər olaraq işə başlamağından az sonra 1978-ci ilin iyulun 15-də onu həbs edirlər.Onu buradan 2 saylı şəhər Psixiatriya xəstəxanasına göndərirlər. 49 günlük müayinədən sonra tamamilə sağlam olması təsdiqlənir.

Onu bu dəfə də Bayıl həbsxanasına saldılar. Bu dəfəki ittiham maddələri belə idi: 101-ci maddə (qətl törətmək cəhdi), 108-ci maddə (adam döymək), 207-ci maddə (xuliqanlıq). 20 ay Bayılda həbsxanada təkadamlıq kamerada qaldıqdan sonra Şaumyan (indiki Xətai) rayon Xalq Məhkəməsi N.Ağayevi V.P.Serbski adına Ümumittifaq Ümumi və Məhkəmə Psixiatrik Ekspertiza İnstitutuna təkrar ekspertizaya göndərmək qərarını verir. Bir ay Şüvəlan həbsxanasında yatdıqdan sonra SSRİ Daxili İşlər Nazirliyinin Dnepropetrovsk şəhərindəki (Ukrayna Respublikası) Serbski adına Ümumittifaq Ümumi və Məhkəmə Psixiatrik Ekspertiza İnstitutuna göndərirlər. Bu instituta DTK-nın əsasını qoymuş F.E.Dzerjinskinin qızı rəhbərlik edirdi. Burada əksfikirli adamlar, dissidentlər saxlanılır, hər cür işgəncələrə məruz qalırdılar. N.Ağayev burada məşhur alim Saxarovun adamları ilə qalırdı.




**N.Ağayev 9 il burada ağır işgəncələrə məruz qaldı.**

1988-ci ilin noyabrın 26-da onu azad etdilər.

---

***Qaynaq:***

*1. İ.Umudlu. Sovet dönəmində Azərbaycanda dissident fikir cərəyanı (faktlar, hadisələr, şəxsiyyətlər). B., 1999.*

*2. N.Ağayevin şəxsi arxivi.*

## ÖMRÜ TƏQİBLƏRDƏ KEÇƏN SABİR YANARDAĞ



*Sabir Yanardağ*

**Sabir Mustafa oğlu İmamverdiyev (Yanardağ)**1927-ci ildə Şəkidə anadan olub. Atası Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu zabiti olub. 1949-1954-cü illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) təhsil alıb. Universitetdə oxuduğu illərdə antisovet fəaliyyətinə başlayır. Tələbələr arasında sovet hökuməti əleyhinə söhbətlər edir. **Əsasən danışırmış ki, "Kolxozlar müstəmləkə formasıdır", "Plan camaatı istismar edir", "Böyük qardaşlar xırda xalqları istismar edir", "Biz niyə Sizə o qədər məhsul veririk?" və s.** Sabir bəyi bu açıq təbliğatına görə məsuliyyətə cəlb edirlər. Hətta onu güllələmək, uzun müddətə həbs etmək məsələsini də düşünürlər. Universitetdən isə xaric edirlər. İstintaqdan sonra atasının dostu, o zaman Azərbaycan Ali Sovetinin sədri olan Səftər Cəfərov ona kömək etdi. Onu həbsdən qurtardı, həm də universitetə bərpa etdirdi.

Universiteti bitirdikdən sonra bir müddət Şəkidəki Texnikumda çalışdı. Rayon rəhbərliyi ilə daima problemləri olurdu. Bir dəfə isə Rayon Partiya Komitəsinin Katibi atasını yanına çağırıb demişdi: "Mən bütün Şəkini köçürə bilmərəm, oğlun bu boyda rayonda heç kimlə dil tapa bilmir" – deyə narazılıq etmişdi. Atası məcbur olub Bakıdakı dostları ilə əlaqə qurdu və onların köməyi ilə Sabir bəy 1959-cu ildən Bakıda yaşamağa başladı.

Əvvəl Nəsimi rayonunda yerləşən bir məktəbdə işləməyə göndərdilər. Direktorun özündənrazı halda onu qəbul etməsi və davranması Sabir bəyin xoşuna gəlmir və acıqla deyir: "Özüm gəlməmişəm, məni göndəriblər". Sonra oradan gedir və işləməkdən imtina edir. Sonradan onu başqa bir rusdilli məktəbə Azərbaycan dilindən dərs deməyə göndərirlər. Bir qədər sonra isə atasının dostu Yusif Şirinovun köməyi ilə üzvü olduğu M.F.Axundov adına kitabxanada işə düzəlir. Orada işləməkdən zövq alır. Boş vaxtlarını yalnız kitab oxumaqla keçirir. Yeni baxışlar əsasında yazıb hazırladığı **"Azərbaycan ədəbiyyatşünaslığında bir neçə metofiziki anlayışlara qarşı**" kitabını isə çap etdirə bilmir.

**Yazışmaları və fəaliyyəti ilə ümumi ideologiyaya qarşı çıxdığı üçün 1960-cı illərdə heç bir səbəb olmadan işdən azad edilir. O zamandan 13 il müddət işsiz qalır.**

1971-ci ildə yaxın dostlarının biri ilə Azərbaycandan qaçmaq qərarına gəlir. Amma bir səhvə yol verirlər. Belə ki, Kürkosa deyilən yerdən dənizə girib keçmək istədikləri yer bataqlıq olub. Və orada sərhədçilər onları saxlayır, sorğu-sual etdikdən sonra buraxırlar. Oradan Salyana – şair Xəlil Rzagilə gəlirlər.

1973-cü ildə onu Əzizbəyov rayonunda qiyabi məktəblər üzrə metodist işinə təyin edirlər. Burada yenicə işə başlayanda bir gün onu direktorun otağına çağırırlar. Oradan isə Dövlət Təhlükəsizlik Komitəsinə aparırlar. Orada nə üçün sərhədi keçmək istəməyinin səbəbini soruşublar. O da hər şeyi olduğu kimi danışıb. Məlum olub ki, DTK nümayəndələri iki il müddətində onu izləyiblər.

**1973-cü ildə Şəkidə böyük xalq qiyamı olur. Xalq sovet rejimindən açıq şəkildə narazılığını bildirir.** Üsyanın dinc yolla qarşısını almaq, sakitləşdirmək məqsədi ilə oraya göndərilən ziyalılar arasında Sabir bəy də var idi.

Sonralar isə bir müddət Bakı Şəhər Sovetində kitabxanalar üzrə məsləhətçi vəzifəsində çalışıb.

Sabir bəy öz fikirlərini xalqa çatdırmaq üçün ən çox Bilik Cəmiyyətinin xətti ilə rayonlara ezamiyyətə gedir və çıxışlar edirdi.

**Sabir bəy deyir ki, qeyd olunan tərcümeyi-halım və fəaliyyətim mənim xarakterimi və fəaliyyətimi ifadə edə bilməz. Mənim tərcümeyi-halım mənim xarakterim onu ifadə edən canlı fəaliyyətim, sərbəst çıxışlarım və illah da sandıqlara doldurulan qadağan olunmuş əsərlərimdir.**

## SABİR YANARDAĞ İSTİNTAQLARDA (22-23 MAY 1989-CU İL)

**Dindirən:** SSRİ Prokurorluğunun istintaq qrupunun müstəntiqi A S. Artyomov.

**Dindirilən:** Sabir İmamverdiyev (Sabir Mustafa oğlu Yanardağ).

SSRİ Prokurorluğnun apardığı istintaqda daha çox **Çənlibel Təşkilatının fəaliyyətinə və 1988-ci ilin 17 noyabr - 5 dekabr aylarındakı mitinqlərlə bağlı** Sabir bəyə suallar verilir. O, Çənlibelin iclaslarındakı müzakirələrlə bağlı suallara belə cavab verir: “...dinləyicilərə belə

məlumatlar çatdırılırdı ki, sovet dövləti ermənilərin əleyhimizə olan cinayətlərinə göz yumur, Azərbaycan rəhbərliyinin ya gücü çatmır, ya da azərbaycanlıları qorumaq istəmir. Bütün bunlar ona gətirdi ki, Çənlibelin iclaslarına gələn hər bir şəxsdə millətçi əhval-ruhiyyə yarandı; erməni xalqına və Azərbaycanda yaşayan ermənilərə mənfi münasibət formalaşdı və nəticə etibarı ilə hər iki xalq arasında olan problemləri kəskinləşdirdi...

Çənlibelin iclaslarında olan azad fikirlilik, mübahisələr, ciddi təhlil olmadan tərəflərdən birinin milli münaqişədə əsassız ittiham edilməsi, milli məsələyə aid çıxışlar, birbaşa olmasa da, 1988-ci il noyabr-dekabr aylarında Azərbaycanda mitinqlərin keçirilməsinə səbəb olub...”

**Sual:** Çənlibelin fəaliyyətinə toxunduqda Siz dediniz ki, çıxışlarında milli məsələyə toxunanlar bu məsələni elə şərh edirdilər ki, günahkar yalnız ermənilər olurdu. Siz bu mövzuda çıxış edən konkret şəxsləri göstərə bilərsinizmi?

**Cavab:** Konkret kim çıxış edirdi, deyə bilmərəm, belə ki, onları tanımıram. Onlar əsasən Ermənistan və Stepanakertdən (Xankəndindən) olan qaçqınlar idi”.

(Dindirmə mayın 22-də saat 14-dən 18-ə; mayın 23-də saat 11-dən saat 13:30-a qədər davam edir).

İstintaqda Sabir bəyə 1988-ci ilin noyabr mitinqləri ilə də bağlı suallar verilir. Görünür müəyyən təzyiq altında olduğundan mitinqlərin başlanma səbəblərini tam aça bilmir, “antierməni” əhvallı olanlardan danışır.

Sabir bəy 1971-ci ildə antisovet əqidəsinə görə partiya biletini təhvil verib. Həmin illərdə o, açıq dissident ruhlu xeyli əsərlər yazıb: 1)“İctimai taun!”. 2) “Görünən və görünməyən”. 3) “Asif Əfəndiyevə məktub”. 4) “Biz hansı dünyada yaşayırıq?”. 5) “Akademik Məmməd Arifə məktub” və s..

Arxiv materialları arasında Sabir Yanardağın (Sabir İmamverdiyevin) Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Qorelovskiyə yazdığı ərizə vardır. Həmin sənəddən: “Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Qorelovski yoldaşa Azərbaycan Könüllü Müdafiə Birliyinin müşaviri Sabir Mustafa oğlu İmamverdiyevin ərizəsi: “Aşağıdakı məsələlərlə bağlı başqaları ilə yox, şəxsən Sizinlə müzakirənin zəruriliyini nəzərə alıb, qəbulunu xahiş edirəm. Söhbətə aşağıdakı məsələlər daxildir: 1) Xalqımızın məruz qaldığı genosid-qətl çalarları. 2) Gerçək antisovetizm təmayülləri. 3) İnsanlara, xalqlara qarşı yerdəki cinayətlərin göydən ilahi-idraki qüvvələrin qəti biçimdə nəzarətə alması, cani olsa da bəşərin bütöv bir

hissəsinin mistik qüvvələr tərəfindən cəza təhlükəsində qalmaları.

04. 04. 1989-cu il

Ünvanım: 370007, Bakı, Mendeleyev küçəsi 8, keçid 2, mənzil”.

2009-cu ildə Sabir Yanardağın **“Yanvar qırğınının intiqamı”** adlı kitabı nəşr edildi. Həmin kitabda o, neçə illər qəbul etmədiyi, barışmadığı, ünvanına həqarətlər yağdırdığı sovet rejimini belə tənqid edirdi: “Sosializm özünü doğrultmurdu, güzəran onsuz da hər yerdə məşəqqətlər açırdı. Bizlərdə isə bu, bilavasitə möhtac qoyma yolu ilə məcbur etmə və sonra da genosid-qətl vəzifələrini də yerinə yetirirdi.


Азәрбајҹан ССР Дөвләт Тәһлүкәсизлији
Комитәсинин Сәдри Горжеловски јолдаша
Азәрбајҹан Көнүллү Мүдафиә Бирлијинин
Мүшавири Сабир Мустафа оғлу Имамвердијевин

ә р и з ә с и

Ашағыдакы мәсәләләрлә бағлы башгалары илә јох, шәхсән Сизинлә мүзакирәнин зәрурилијини нәзәрә алыб гәбулуну хаһиш едирәм.

Сөһбәтә ашағыдакы мәсәләләр дахилдир:

1. Халгымызын мә"руз галдығы кеносид - гәтл чаларлары;
2. Керчәк антисоветизм тәмајүллләри;
3. Инсанлара, халглара гаршы јердәки ҹинајәтләрин көјдән илаһи-идраки гүввәләрин гәт"и бичимдә нәзарәтә алмасы, ҹани олса да бәшәрин бүтөв бир һиссәсинин мистик гүввәләр тәрәфиндән ҹәза тәһлүкәсиндә галмалары.

04.04.1989-ҹу ил.

Үнваным: 370007, Бакы, Менделејев күчәси8, кечид 2, мәнзил 15.
Телефон: 95-87-88.

*Sabir Yanardağın DTK-ya ərizəsi*

Xüsusən, son anlar bizlərdə plan-büdcə, layihə-büdcə, əməkhaqqı, maaş, qiymət sistemində, talanın əvəzində su qiymətinə keçirilməsi, pulların boğulması, maliyyə idarələrinin soruşmadan silmələri və s. nəticəsində elə həddə gətirmişdilər ki, əlimizə çatan dodaqların isladılması işini və əmzik vəzifələrini də görə bilmirdi.

Amma mərkəz adlanan fəsad yuva və viranəlik babasili yenə də aram tapa bilmir, yəni əzmək, satmaq yolları arayır, gözlərini xüsusən bizimkilərin ciblərinə dikib dururdu”.

---

***Qaynaq:***


*1. S.Yanardağ. Yanvar qırğınının intiqamı. Bakı, 2009.*

*2. S.Yanardağ, H.Ələfsər, F.Ələfsər. Görünür çıxış yolu yenə də dindədir. Bakı, 1996.*

*3. F.Ələfsər, H.Ələfsər, S.Yanardağ. Yest takaya partiya (məqalələr toplumu, müəlliflər). B., 2001-2002.*

*4. Hitler müstəbid, Stalin diktator idi (Sabir Yanardağla müsahibə). “Reytinq” qəzeti, 21 aprel 2002, №16(160).*

*5. Mücahid ədasında danışanlar. “Rezonans” qəzeti, 24-30 iyun, 2000-ci il.*

*6. S.Yanardağ. Heydər Əliyevin arxasınca danışmaq asandır. “Şərq” qəzeti, №13(189), 1999-cu il.*

*7. S.Yanardağ. Biz hansı dünyada yaşayırıq? “Çətin Yol” qəzeti, №6 (06), 24 sentyabr, 2008-ci il.*

*8. S.Yanardağın şəxsi arxivi.*

## “DAĞLIQ QARABAĞ LƏĞV EDİLSİN, MƏRKƏZİ AĞDAM OLSUN!” “STEPANAKERT XANKƏNDİ ADLANDIRILSIN!” ÖLMƏZLƏR TƏŞKİLATININ 1970-Cİ İLLƏRDƏ FƏALİYYƏTİ. NURƏDDİN ƏLİYEVİN (GÜNƏŞLİNİN) 13 İL HƏBS EDİLMƏ SƏBƏBİ



*Nurəddin Əliyev (Günəşli)*

Onun qısa tərcümeyi-halı belədir: **1957-ci ilin yanvarında Ağdamda anadan olub.** Ağdamdakı Sədrəddin Bayramov adına 1 saylı orta məktəbi bitirib. Sonra Ağdam Kənd Təsərrüfatı Texnikumunda oxuyub.

Nurəddin bəylə bir sinifdə oxuyan Zeynəb Fərruxi adlı bir qız əslən Güneydən gəlmə idi və Cənubi Azərbaycan mövzusunda söhbətlər edirdilər.

Bir dəfə isə bəzi dostları ilə Ağdam məscidinə çıxmış, orada qızıl axtarmışdılar. Lakin tapdıqları böyük bir bağlama daha qiymətli olmuşdu: bağlamada Gəncə üsyanına aid sənədlər, üçrəngli bayraq və digər yazılar var idi. 1920-ci ildə Sovet rejiminə qarşı olan məşhur Gəncə üsyanının iştirakçılarından biri bağlamanı gətirib burada gizlədibmiş.

Nurəddinin atası Bəşir də dünyagörüşlü və imkanlı adam idi. Ermənilərin Qarabağı ələ keçirmək cəhdlərindən dostları ilə evlərində söhbətlər edirdilər. Bu söhbətləri isə 15-16 yaşlı Nurəddin eşidirdi.

Orta məktəbin 9-10-cu siniflərində oxuduğu vaxtdan Qarabağ təbliğatına başladı. Təbliğatı həm Ağdamda, həm də Xankəndində (Stepanakertdə) aparırdı. Deyirdi ki, niyə Dağlıq Qarabağın paytaxtı Stepanakertdir, Ağdam deyil? Niyə Xankəndinin adını dəyişib Stepanakert qoyublar? Niyə Qarabağı bölüb aran, dağlıq adlandırırlar? Ağdamın mərkəz olmaq imkanları Stepanakertdən daha genişdir. Ağdama beş rayondan yol daxil olur və onun strateji mövqeyi daha uyğundur və s.

Stepanakertdə isə bəzi ermənilərin təhqiredici sözlərini də eşidirdi: “Sən buraya torpaqbasdı etmisən, bura bizə – ermənilərə məxsusdur”

**Nurəddinin Qarabağla əlaqədar söhbətləri isə erməniləri narahat edirdi.** Stepanakert Şəhər İcraiyyə Komitəsi sədrinin sürücüsü onun çıxışlarını “yuxarı”ya çatdırmış və Nurəddini həbs etmişdilər. Məhkəmə Stepanakertdə erməni dilində aparılmışdı. 17 yaşlı Nurəddinə xuliqanlıq maddəsi ilə (çünki bu yaşına görə siyasi ittiham verilə bilməzdi) iş açılır. Onu həbs edirlər. Əvvəl Şuşa, sonra isə Bayıl həbsxanasına, daha sonra isə Salyanda “Xələc” həbsxanasına göndərirlər.

Həbsxanada müxtəlif xarakterli və taleli insanlarla tanış oldu. Burada həbsdə yatanların əksəriyyəti cəmiyyətdən, siyasi quruluşdan narazı adamlar idi.

Sonra tanınmış dissident olan Nadir Ağayevi də burada görmüş, yaxından tanımışdı.

Gəncədən Nazim adlı bir tarix müəllimi vardı. O, Gəncədə təbliğat aparırmış ki, polis ləğv edilsin, Ağsaqqallar Şurası yaradılsın, insanlar az həbs edilsin, öyüd-nəsihətlə, təlqinlə adamlar xuliqanlıqdan uzaqlaşdırılsınlar. Bu fəaliyyətinə görə Nazim müəllim həbsxanada cəza çəkirdi.

Yevlaxdan Ziyəddin adında bir gənc var idi. Təxəllüsü də “Heykəl” idi. Həbsxanada hamıdan çox kitab oxuyurdu. Əsas fəaliyyət istiqaməti isə bu idi: “Sovet quruluşunu dəyişək!”

1500 adamın arasında Nurəddin Əliyev ilk “onluğa” düşmüşdü. Onun “Qarabağ” savaşı aparması həbsxanadakılar tərəfindən yüksək dəyərləndirilmişdi.

Həbsxanada olarkən oradakı bütün kitabları oxuyub xeyli savadlandı və özünə belə bir qərar verdi: “Sovet quruluşunu həm silahla, həm də biliklə dəyişəcəyəm!”

Həbsxanada olarkən Sovet rejiminə qarşı etiraz aksiyası keçirdilər, sovet bayrağını nümayişkaranə şəkildə yandırdılar.

Həbsxanada olanların çoxunu amnistiyaya salıb, üçdə birini “yatmağa” görə buraxırdılar. Nurəddinə isə bu sözlər deyilirdi: “Sənin maddən ağırdır - “Naqornıy Karabax” (Dağlıq Qarabağ). Yəni onu tez azad etməkdən çəkinirdilər. Üç illik həbsinin tamamına 27 gün qalmış onu azad etdilər. Özü də şərt kəsdilər: “Bax ermənilər bilməsin”.



*N.Əliyev Qarabağ döyüşlərində*

Həbsxanadan çıxdıqdan sonra Nurəddin Ağdam Kənd Təsərrüfatı Texnikumunda iki il altı ay oxudu. Burada onun başçılığı ilə **"Qarabağ Millətpərəst dəstəsi"** adlanan təşkilat yaradıldı. Təşkilatın sıralarında 100-dən çox adam toplaşmışdı. Bu təşkilatın fəaliyyət proqramı belə idi: "Dağlıq Qarabağ ləğv edilsin, mərkəzi Ağdam olsun!".

1979-cu ildə isə fəaliyyəti genişləndirib **"Ölməzlər"** təşkilatını yaratdı. Qurumun fəaliyyət proqramı belə idi: "Moskvadan ayrılmalı, müstəqil olmalı!". Xalq arasında isə antisovet ruhlu vərəqələr yayırdılar. Vərəqələri isə "Sovez"dən oğurladıqları makinada gizli çap edib divarlara da yapışdırırdılar.

1979-cu ilin dekabrın 12-dən 13-nə keçən gecə Nurəddin özü xalqın və vətəndaşların əleyhinə haqsız qərarlar çıxaran Ağdam rayon məhkəməsinin binasını yandırdı. Bina məscidə yaxın məsafədə yerləşdiyindən o, özünün dediyi kimi "haqq evlə, nahaqq evin yanaşı olmasını" istəmirdi. O, bununla camaat arasında nüfuz sahibi olan mollaları da ətrafına çəkmək istəyirdi.

Məhkəmə binasını kimin yandırdığı məlum olmadı. Belə fikir yayırdılar ki, elektrik xətti qırılıb düşüb və bina yanıb.

"Ölməzlər" növbəti yaydıqları vərəqədə isə belə tələb qoydular: "Azərbaycanlıların aparılıb Əfqanıstanda öldürülməsi dayandırılsın!"

Bu tələb yerinə yetirilmədiyindən Ağdam məhkəməsinin 2-ci binasını yandırdılar (Ağdamda iki məhkəmə binası var idi).

Nurəddin bəy başçılıq etdiyi təşkilatı gücləndirmək üçün məşhur ağdamlı qaçaqlar – Qaçaq Mehdi, Qaçaq Hüseynlə əlaqələr qurmağa çalışırdı. Digər tərəfdən isə imkan tapıb Rostov-Dona, Krasnodara gedir, Sovet rejimi əleyhinə ruslar arasında təbliğat aparırdı.

Nurəddin bəy bu təbliğatı apararkən maliyyə sıxıntısı az çəkirdi. Atası "bazarkom"(bazaar müdiri) işləyib, dükanları olub, ona orta məktəbdə maşın da alınıb. Lakin o, sovet qurumlarına qarşı nifrət edirdi.

**"Amerikanın səsi" radiosu da bir dəfə Nurəddin və əqidə dostlarının Ağdamdakı fəaliyyətindən danışmışdı: "Azərbaycan xalqı öz azadlıq mübarizəsini aparır".**




***N.Əliyevin yazdığı kitablar***

1970-ci illərdə Ağdamda Sovet rejimi əleyhinə Famil, Rafael adlı adamlar da vardı ki, kəskin təbliğat aparırdılar. Onlar bu işi əsasən çayxanalarda həyata keçirirdilər.

1980-ci ildə gəlib Nurəddini həbs etdilər. Səbəb aydın idi: 61, 65-ci maddələr: xalq arasında sovet rejimi əleyhinə təbliğat, adamları sovet quruluşu əleyhinə qaldırmaq, təxribat və s.

Həbsdən əvvəl isə milis evlərinə gəlib hərbi xidmətdən yayınma səbəbini soruşduqda o, demişdi: "Mən sovetə qulluq etmirəm!"

**Nurəddin Əliyevə on il həbs, üç il də sürgün cəzası verdilər.** 1980-ci ilin aprelin 28-də, sovet rejiminin Azərbaycanda qurulduğu gündə onu həbs etdilər. Nurəddin və Ölməzlər dəstəsi planlaşdırmışdı ki, mayın 1-də Azərbaycan bayrağını Ağdamın hər yerində qaldırsınlar.

Onu Rusiyanın Perm şəhərinə, Çasovoy rayonu, Kuçina kəndindəki 35-ci həbs düşərgəsinə göndərdilər. Buradakı məhbuslar müxtəlif qruplara bölünürdü: xaricə işləyənlər, siyasi məhbuslar və s. O, ikinci qrupda idi: siyasi məhbuslar. Onların sayı 41 nəfər idi (düşərgədə isə cəmi 71 məhbus vardı). Burada ukraynalılar, yəhudilər, beloruslar çox idi.

Nurəddin bəyi həbsxana qaydalarına əməl etmədiyinə görə, Kazan şəhərindəki qapalı həbs düşərgəsinə apardılar. O, düşərgədə olarkən Sovet dövlətinin başçısı L.İ.Brejnevi meymuna bənzətmiş, yaponlara adaların qaytarılmasını söyləmiş, boynundan isə plakat asıb durmuşdu.

Qapalı düşərgədə sonralar İsrailin Baş Nazirinin müavini olmuş Anatoli Şaranski ilə tanış olur. Ona yəhudilər öz dillərində "Natan" deyirdilər.

Nurəddin bəy 3 ildən sonra yenidən əvvəlki düşərgəyə qaytarılır. Burada yenidən qıcıqlandırıcı şüarlar söyləyir: "Azərbaycan Rusiyadan azad olsun!", "Kirovabadın adı dəyişdirilib Gəncə olsun! Əgər olmursa, onda Kremlə Xətainin adı verilsin!" və s.

Burada məşhur adamlar var idi: məsələn, tanınmış rus şairi Viktor Nikiforov. Aleksandr adlı bir tanınmış şəxsi isə xaric tələb edirdi. Onu azad edib Almaniyaya göndərdilər. Lakin öldürücü iynə vurduqlarından, Bonn şəhərində bir qədər yaşadıqdan sonra ölmüşdü.

**Nurəddin bəy 1990-cı ilə qədər həbsxanada qaldı.** Həbsdən sonra hələ üç il də sürgün həyatı yaşamalı idi. Bir aya qədər Sibirdə İrkutskinin Boxon rayonunda meşəlikdə qalır. Oradan qaçıb dostların köməyi ilə Pribaltikaya gedir, Sovet rejimi əleyhinə mitinqlərdə iştirak edir. Azərbaycanda isə onun həbs edilib Moskvaya göndərilməsi ehtimalı var idi.

Sonradan Azərbaycana – Ağdama qayıtdı. Burada onun nüfuzu var idi. Nümayiş keçirdilər. Camaat yığışıb onu İcra Başçısı seçdi (lakin bu, bir gündən çox çəkmədi).

Bu dəfə Ağdamdakı "Qara Bəbir" batalyonunda ermənilərə qarşı vuruşdu. Batalyon komandirinin siyasi məsələlər üzrə müavini oldu. Bu batalyon Əfətlidə yerləşirdi. Əsgərana hücuma hazırlaşırdılar. Lakin onların düşərgəsini partlatdılar. Xəyanət isə olduqca çox idi.

Nurəddin Ağdamdan sonuncu çıxanlardan oldu. O, Ağdamın bazarı tərəfdə dayanmışdı və sevimli şəhərinə baxırdı. Qarşıdan – Hərbi Komissarlıq tərəfdən isə silahlı ermənilər gəlirdilər. O, həmin ermənilərə qarşı mübarizə aparıb, on üç il həbsdə yatmışdı. İndi şərait artıq başqa idi.

Ağdamdan məcburi çıxdıqdan sonra Mingəçevirdə, məcburi köçkünlər üçün ayrılan "Yeni Həyat"da yaşayır. Burada o, dünya, kainat haqqında fəlsəfi yazılar hazırlayır. 1500 dəftərdə, 985 səhifəlik yazısı var. Bir neçə kitabları da nəşr olunub. Özünə də təxəllüs götürüb: **Nurəddin Günəşli**. Deyir ki, Günəş azadlığın rəmzidir. Həm də həbsxanada ona ***günəşli Azərbaycandan gələn Nurəddin*** deyirdilər.

---

***Qaynaq:***
*Nurəddin Əliyevin (Günəşli) şəxsi arxivi.*

## DİSSİDENT SAFRUH ATALI (ƏLİYEV ELMAN AĞA OĞLU)



*Safruh Atalı*

1939-cu ilin 23 noyabrında Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub. Uzun illər Beyləqan rayonunun Bolsulu kəndində yaşayıb: (1948-1974). Orta məktəbi bu rayonda bitirib: 1960. Həmin rayonda çıxan "Yüksəliş" qəzetində işləyib: 1967-1974. Üç il Sovet Ordusunda əsgəri xidmətdə olub: 1962-1965. Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini bitirib: 1972.

**Safruh 17,5 mindən çox deyim (aforizm) yazarıdır.** Bu sahədə 8 janr yaradıb: Deyim, İçsəs, Haray, Cikkə, Uyarı, Giley, Yanğı, Gözlənti. Mətbuatda həm bu janrlarda, həm də milli-ruhani quruculuq mövzularında məqalələrlə çıxış edir. Bu nəşrə qədər yeddi kitabı buraxılıb: "Görülər. Duyumlar. Deyimlər". Elman Ağaoğlu imzasıyla. (Azərnəşr, 1989); "Yeni Oğuz Sözü" ("İşıq" nəşriyyatı, 1991); "Oğuz yönü" (AZENPB, 1997); "Başlanğıc" (AZME MPB, 2003); "Ata Səcdəsində" ("Günəş" nəşriyyatı, 2007); "İnama doğru. Haraylar" ("Nərgiz" nəşriyyatı, 2008); "İnamın gəlişi" (Qanun, 2010, Yolruh Atalı ilə birgə). "Ruhsal İnsan uğrunda" kitabı nəşrə hazırdır.

**Safruh 1962-ci ildən başlayaraq öz deyimlərini yazmağa başlayıb.** 1970-ci illərdə şair Rəsul Rzanın millətçi şeirlərinə və əsərlərinə ciddi diqqət yetirib. Xüsusən onun "Qızılgül olmayaydı" və "Yer Oğlu" poemaları yeni düşüncəli insanlara ciddi təsir etmişdi. Hətta həmin dövrdə R. Rzanın millətçi əsərlərini müdafiə edən bir ziyalılar qrupu da formalaşmışdı: Vidadi Məmmədov (rəhmətə gedib, "Ədəbiyyat və İncəsənət" qəzetində çalışıb), Mövlud Süleymanlı (sonralar tanınmış yazıçı) və digərləri.

S. Atalı xatırlayır ki, tələbəlik illərində ən çox üz tuturdu M.F.Axundov adına kitabxananın "Nadir kitablar" şöbəsinə. Orada yalnız saat 12:00-dan




***Safruh Atalının kitabı***

17:00-a qədər kitabları oxumağa icazə verirdilər. Məhz orada Oljas Süleymanovun kitablarını oxuyub təsirlənmişdi.

Həmin ziyalıları “XunVeybinçilər” də adlandırırdılar (bu, 1956-cı ildə Çində dövlətə etiraz edən tələbələrin toplaşdığı yerin adından götürülüb. Həmin etiraz edənləri də Çində “XunVeybinçilər” adlandırırdılar). Yeni düşüncəli bu ziyalıları isə Azərbaycan KP MK-nın Birinci Katibi Heydər Əliyev qəbul edərək bu fəaliyyətdən uzaqlaşmalarını tələb edib.

R.Rzanın gənc ziyalılara ciddi təsir edən “Yer Oğlu” poemasını müdafiə məqsədi ilə Safruh müəllifə bir məktub da yazıb. Həmin məktuba görə onu işdən çıxarıblar. Maraqlıdır ki, qısa müddətdə yenidən işə bərpa ediblər. Bu hadisə isə 4-5 dəfə təkrar olunub: işdən çıxarıblar, bərpa ediblər. Görünür hökumət orqanları onu təzyiq altında saxlamaq üçün bu addımı atıb.

**1975-ci ilin fevralın 25-də Asif Ata (İnam Ata) ilə tanış olur.** 1978-ci ilə qədər Asif Atanın Azərbaycan Dövlət Universitetində yaratdığı “Etika və estetika” klubunun dinləyicisi olub. 1978-ci ilin noyabrın 30-da həmin klub ləğv edildi.

1979-cu ildə Azərbaycan Pedaqoji İnstitutundakı çıxışında Asif Ata “Ocağ”ın yarandığını bildirmişdi. 1983-cü ilə qədər “Ocaq”da advermə mərasimi olmamışdı. “Ocaq”da birinci ad alan Safruh oldu (o zamana qədər Elman Əliyev olaraq tanınırdı). Bu, Asif Atanın ona ciddi etimadı idi. Bu adı Asif Ata ona Dəniz Sahilində söhbət edərək gələndə, Səməd Vurğunun heykəlinin yanında verdi.

O, eyni zamanda “Azərnəşr”də çalışırdı (1976-1983). “Ocaq”la bağlı fəaliyyətinə görə isə dəfələrlə təqib olunaraq istintaqa cəlb edilib. Safruh Atalı 2003-cü ildə nəşr edilən “Başlanğıc” kitabında Dövlət Təhlükəsizlik Komitəsində onunla aparılan sorğu-sualla bağlı yazır: “mənə hədə-qorxu (hələ ki, yumşaq tərzdə) gəldilər: işdən çıxararlar, partiyadan çıxardarlar, məhkəmədə dindiriləsən, həbsə alınarsan; məni həm də şirnikləndirdilər: vəzifədə irəli gedərsən, “bizim yanımızda hörmətin olar”, yaxşı yaşayar-

san və s. Öyüd-nəsihət də verdilər: dolanışıq yaxşıdır, vəzifən pis deyil, yüksəkdir, balaların var, naşükürlük yaxşı deyil və s.

Dedilər ki, biz həmişə səni müdafiə etmişik. Mən əsəbiləşdim: "Mənim müdafiəyə ehtiyacım var?!" Sorğumu iki dəfə təkrar etdim. "Hə" demədilər.

Dönə-dönə tapşırdılar ki, pul yığmaq, müraciət yazmaq barədə nə bilirəm, yazım. Mən də dedim ki, belə sözü onlardan başqa heç kəsdən eşitməmişəm. A.Ə. (Asif Əfəndiyev - Asif Ata) ilə mənim çoxdan əlaqəm yoxdur, əslində olmayıb da. Evimdə gecələməsinə ona görə razı olmuşam ki, tanıdığım bir adama "yox" deməyə üzüm gəlməyib.

Tofiq Övladın hərəkət məntiqi haqqında danışdı. Anlaya bilmədim ki, bu, falçılıqdır, yoxsa ona nə isə bəllidir.

Sorğu-sual bir saatdan artıq çəkdi - 70 dəqiqə".

Bu formada sorğu-suallar sovet dövründə Safruh Atalının həyatında tez-tez olmuşdu.

**1960-1970-ci illərdə Varşavada yaradılmış Dissident Mərkəzində 40-a qədər azərbaycanlının da adı siyahıya salınmışdı. Bu siyahıda Asif Ata, Əbülfəz Elçibəy, Rafiq Turabxanoğlu, Xəlil Rza, Cahid İsmayılov və digərləri ilə yanaşı Safruh Atalının da adı var idi.**

Safruh Atalı 1993-2004-cü illərdə Azərbaycan Ensiklopediyasında çalışıb. Hazırda "Ocaq"ın rəhbəri olaraq çalışmaqdadır. "Mütləqə İnam" Ocağının Odqoruyanıdır (Ruhani Başçısı).

"Mütləqə inam" ocağının ilk övladı olan Safruh öz şəxsi evini də "Ocaq"çıların istifadəsinə verib.

---

***Qaynaq:***

*1. Safruh. Başlanğıc. Bakı, 2003.*

*2. Safruh. Qu nəğmələri. Bakı, 2014.*

*3. Safruh. Ata səcdəsində. Bakı, 2007.*

## 1960-CI İLLƏRİN SONUNDA PROFESSOR SÜLEYMAN ƏLİYARLININ ARAŞDIRMALARINDAN NARAZILIQ



***Professor Süleyman Əliyarlı***

1960-cı illərin sonlarında tədqiqatçı alim (sonradan akademik) Süleyman Əliyarlı "Quzey Azərbaycanın Rusiya ilə birləşdirilməsi və iqtisadi vəziyyət" adlı doktorluq dissertasiyasında (bu işin müdafiəsinə imkan verilməmişdi) SSRİ-də mövcud olan konsepsiyanın əleyhinə mövqe tutmuşdu. Belə ki, bu konsepsiyaya görə Azərbaycanın Rusiyaya könüllü olaraq birləşməsi və bunun mütərəqqi hal kimi dəyərləndirilməsinə üstünlük verilirdi. S.Əlıyarov bunun əksinə olaraq, Rusiyanın torpaqlarımızı milli qırğın və hərbi müdaxilə ilə işğal etdiyini arxiv materialları və sənədlərlə əsaslandırırdı.

Bununla əlaqədar Azərbaycan KP MK-nın "İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında" olan plenumunda qeyd edilirdi: "Bəzi müəlliflər tarixi keçmişdən bəhs edərək, partiya prinsiplərindən kənara çıxmış, istismarçı siniflərin ayrı-ayrı nümayəndələrini müəyyən dərəcədə ideallaşdırmış, burjua filantropiyasının ictimai təbiətini düzgün izah etməmişlər. Ziya Bünyadov, Mahmud İsmayılov, Süleyman Əliyarov bir sıra tarixi faktları qiymətləndirərkən kobud səhvlərə yol vermişlər".

Qeyd edək ki, Bakı Dövlət Universitetinin o dövrdə gənc müəllimi olan Süleyman Əliyarov 1960-cı ilin 8 yanvarında "Ədəbiyyat" qəzetində məqalə çap etdirmiş və orada Kirovabad şəhərinin adının dəyişdirilib, əvvəlki Gəncə adlandırılmasını əsaslandırmışdı.

---

***Qaynaq:***

*B.Əziz. Azərbaycanda sovet işğal rejiminə qarşı mübarizə (1920-1991). Magistr hazırlığı üçün proqram. Bakı, 2008.*

## “QOBUSTAN” TOPLUSUNA HÜCUMLAR.<br>“ŞUŞADA PƏNAH XANA ABİDƏ QOYULSUN”<br>YAZISINA ETİRAZLAR

## “QOBUSTAN” İNCƏSƏNƏT TOPLUSU




Bu toplunun yaradıcısı və redaktoru yazıçı Anardır. Hər ildə 4 dəfə nəşr edilən toplunun ilk sayı 1969-cu ilidə çapdan çıxıb. Toplunun hansı təşkilata mənsubluğu belə qeyd olunub: “Azərbaycan Sovet Bəstəkarlar, Rəssamlar, Memarlar, Kinematoqrafçılar İttifaqlarının və Teatr Cəmiyyətinin nəşri”.

Toplunun həcmi 96 səhifə, tirajı 5 min nüsxə idi. İlk sayında “Redaktordan” başlıqlı verilən yazıda “Qobustan”ın fəaliyyətə başlama səbəbi belə açırlanıb: “Xəttimiz, sənətimiz Qobustan Qaya rəsmlərindən başlanıb”... Təsvizi sənətimizin ulu nümunələri qədim insanların görkəmi, məişəti, inamları, duyğuları – Qobustanda hifz olunub”.

“Qobustan”ın ilk sayında böyük bəstəkar Qara Qarayevin məqaləsi, Tahir Salahov haqqında anası Sona Salahovanın yazısı, Əbdülvahab Salamzadə ilə bağlı “Müasir dövr və memarlıqda milli xüsusiyyətlər” məqaləsi və digər yazılar çap edilib.

Nəşrə başladığı ilk saydan “Qobustan” jurnalı ciddi təqiblərə məruz qalırdı. Əvvəla bu toplu digər Azərbaycan sovet mətbuatı orqanlarından fərqlənirdi.

Yəni bu toplu mövcud ideologiyadan uzaq yazılar nəşr etməyə çalışırdı. Bu nəşr Sov. İKP MK tərəfindən təsdiq olunmuş rəsmi reyestrə düşməmişdi və toplu o dövrdə Azərbaycan KP MK-nın katibi işləyən Cəfər Cəfərovun təşəbbüsü ilə kitab nəşri kimi çap olunurdu. Toplunu millətçilik ideyaları yaymaqda, sovet quruluşunun əleyhinə yazılar çap etməkdə, türkçü sözləri nəşr etməkdə ittiham edirdilər. O dövrdə Sov. İKP MK-nın katibi olan Kapitonov çıxışında “Qobustan”ı millətçilik meyllərinə görə tənqid etmişdi. Sonradan bu toplu Mədəniyyət Nazirliyinin nəşri olaraq

yayımlandı. Toplunun həqiqətən də Azərbaycan xalqının milli oyanış prosesində, milli özünütanıtmada böyük rolu oldu.Azərbaycan KP MK katibi C.Cəfərov topluya "incəsənət" sözü ilə ifadə edilən bir ad təklif etsə də, lakin Anarın dediyi "Qobustan" adı qəbul olunmuşdu.

"Qobustan" toplusunda memar Elturan Avalovun çap olunan bir yazısında Şuşada bu şəhərin əsasını qoymuş Pənah xana heykəl ucaldılması təklif edilmişdi. Buna etiraz olaraq Baş redaktor Anarı Mərkəzi Komitəyə çağırıb ideologiya üzrə katib Danil Quliyevin otağında iradlar bildirmişdilər. Müəllifin adına da "Elturan – yəni Turan eli" deməkdir və bu pantürkistlərin arzusudur" fikrini narazılıqla söyləmişdilər. Anar onlara belə cavab vermişdi: "Peterburqda bu şəhərin əsasını I Pyotrun, Moskvada Moskvanın əsasını qoyan Yuri Dolqorukinin, Tbilisidə Tbilisinin əsasını qoyan Vaxtanq Qorqasalinin heykəlləri qoyulub. Şuşanın əsasını qoyan Pənah xana heykəl ucaltmaq təklifinin nəyi qəbahətdir?"

Topludakı bir fotoya da etiraz edilmişdi. N.Nərimanovun, S.Orconokidzenin və A.Mikoyanın olduğu fotoda Nərimanov onlardan öndə dayanmışdı. Etiraz etmişdilər ki, niyə Nərimanov onlardan qarşıya çıxarılıb?

Bütün təzyiqlərə baxmayaraq "Qobustan" nəşrini davam etdirirdi.

***Qaynaq:***
*1. "Qobustan" incəsənət toplusu, 1969, №1.*
*2. Anar. Əsərlər. IX cild. Bakı, "Nurlan" nəşriyyatı, 2016.*

***"Qobustan" toplusunun redaktoru Anar***



***Anar***

**Anar** (Anar Rəsul oğlu Rzayev) – azərbaycanlı yazıçı, şair, tərcüməçi, ssenarist, Azərbaycan Yazıçılar Birliyinin sədri.14 mart 1938-ci ildə anadan olub. Azərbaycanın Xalq yazıçısıdır. Azərbaycan milli fikrin inkişafında Anarın yazdığı əsərlərin ("Macal", "Əlaqə", "Ağ liman", böyük tirajla yayılmış "Beş mərtəbəli evin altıncı mərtəbəsi" və s.) və çəkdiyi kino-filmlərin ("Gün keçdi", "Dədə Qorqud", Qəm pəncərəsi", Uzun ömrün akkordları və s.) böyük rolu olub.

## XUDU MƏMMƏDOV (1927-1988)



***Professor Xudu Məmmədov***

Xudu Məmmədov 1927-ci il dekabrın 14-də Ağdam rayonunun (Azərbaycan) Mərzili kəndində anadan olub.

Ağdamda orta məktəbi bitirən Xudu Məmmədov Azərbaycan Dövlət Universitetinin Geologiya-Coğrafiya fakültəsinin Geologiya şöbəsində təhsil alıb.

Azərbaycanlı kristalloqraf-alim 1970-ci ildə geologiya-mineralogiya elmləri doktoru, 1973-cü ildə professor elmi adlarına layiq görülüb.

O, 1957-ci ildən Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun struktur kimya laboratoriyasının müdiri vəzifəsində çalışıb. Əsas elmi işləri kristallokimya sahəsindədir.

Xudu Məmmədov 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilb.

O, 250 elmi əsərin, 10 müəlliflik şəhadətnaməsi və 3 monoqrafiyanın müəllifidir. Xudu Məmmədovun rəhbərliyi ilə 10 elmlər doktoru və 35 fəlsəfə doktoru yetişdirilib.

1990-cı ildə Xudu Məmmədovu (ölümündən sonra) Azərbaycan Xalq Cəbhəsinin İdarə heyəti milli-azadlıq hərəkatındakı xidmətlərinə görə Məhəmməd Əmin Rəsulzadə mükafatına layiq görmüşdür.

Xudu Məmmədov 15 oktyabr 1988-ci ildə Bakıda vəfat edib. Hazırda onun adını daşıyan Xeyriyyə Cəmiyyəti də fəaliyyət göstərir.

## XUDU MƏMMƏDOVUN MİLLİ İRSİ

Xudu Məmmədov 1970-ci illərdə görkəmli sənətkar Üzeyir Hacıbəyovun xatirəsinə həsr etdiyi "Qoşa qanad" əsərini yazır. Əsərdə elm və sənətin vəhdəti ciddi araşdırılmışdı. Kitaba filosof Ziyəddin Göyüşov "Zirvəyə çağıran əsərlər" başlıqlı ön söz yazmışdı.




*Professor*
*Xudu Məmmədovun*
*"Qoşa qanad" kitabı,*
*1974-cü il*

Kitab gəncliyin formalaşmasında, elmə, sənətə münasibətinin dərinləşməsində yüksək dəyərə malikdir.

Xudu Məmmədov göstərirdi ki, "İnsan yaradaraq yaranır – bu prosesə uyğun dəyişib yenidən yaranır".

X.Məmmədova görə elmin qarşısında duran ən böyük problem həmişə quruluşla xassə arasındakı əlaqənin təbiəti olub.

X.Məmmədova görə, insanları elmi rəşadətə yönəldən əsas amil vətən istəyidir, vətəndir. Bu rəşadət nəticəsində yaranan elmi kəşflərin, sənət nailiyyətlərinin faydasını bütün insanlar görmüş, görür və görəcəkdir. Buna görə də güclü elmin və sənətin məkanı bəşəriyyətdir.

**O bu dəyərli kitabında yazırdı: "Elm və sənət insan mədəniyyətini yüksəklərə qaldıran qoşa qanaddır. Quş tək qanadla uça bilməz. Uçuş, yüksəliş hər iki qanad eyni qüvvədə olduğu zaman əldə edilə bilər".**

1981-ci ildə "Naxışların yaddaşı" kitabı çap olunur (Məmmədov X.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mürsəliyev A.A. "Naxışların yaddaşı". Azərb.Dövlət nəşriyyatı. Bakı, 1981. 102 s) . O, bu kitabda qədim naxışların araşdırılması ilə türkçülüyün izlənilməsinin mümkünlüyündən danışırdı. Bu kitabda o, simmetriya qanunlarından və sıx yerləşmə prinsiplərindən istifadə edərək, müxtəlif tip fraqmentlər əsasında sonsuz tablolar toplusu yaratmışdı.

---

***Qaynaq:***

*1. "Tükənməzlik" (AMEA-nın müxbir üzvü Xudu Məmmədova həsr olunmuş məqalələr və xatirələr toplusu). Toplayanı Vaqif Qasımov. Bakı, "Elm", 2014.*

*2. A.A.Əlizadə, M.İ Çıraqov. Xudu Məmmədovun həyat və yaradıcılığı (yuxarıdakı kitab- səh. 7-21).*

*3. X.Məmmədov. Qoşa qanad. B.,.1974.*

*4. Xudu Məmmədov. "Qurdum ki, izim qala" Bakı, 2007. 360 s*

## MİLLİ NAXIŞLAR. SİMMETRİYA NƏZƏRİYYƏSİ. XALQIN OYANIŞ CƏHDLƏRİ. XUDU MƏMMƏDOVUN TELEVİZİYADAN "XALQ-QALX" SƏSLƏNİŞLƏRİ

Xudu Məmmədov 1954-cü ildə elmi müdafiə işini yekunlaşdırdıqdan sonra, milli-azadlıq mübarizəsinə doğru meyillənməyə başladı. Onun elə 1950-ci illərin sonundan Bəxtiyar Vahabzadə, Nurəddin Rzayevlə bu istiqamətdə ciddi söhbətləri olurdu. Əsas çalışmaları milli kadrların rəsmi şəkildə dövlət strukturlarına yerləşdirilməsi idi. 1960-cı illərdə isə Azərbaycanın dövlət rəhbərliyində olan Şıxəli Qurbanovla əlaqələri formalaşdı.

Xudu müəllim kristalloqraf idi. Əslində sənətdə simmetriya nəzəriyyəsinə də o, ciddi töhfələr vermişdi. Sənət və simmetriya nəzəriyyəsinə əsaslanan böyük alim arxeoloji toplantılarda, tarixi abidələrdə türk mənşəyinin olduğunu əsaslarla sübut edirdi. Çünki orta əsrlərdəki tapıntılarda ərəb, fars təsirləri güclü idi. X.Məmmədov çoxlu sayda abidələrimizdə, məsələn, Naxçıvandakı "Möminə Xatun" türbəsində "Allah" sözünün yazılmasına baxmayaraq, bu abidənin türk mənşəli olduğunu əsaslandırırdı. Onun Orxon-Yenisey abidələri ilə də bağlı maraqlı açıqlamaları var idi.

X.Məmmədov simmetriya nəzəriyyəsindən çıxış edərək, əsas nəzəriyyəni də irəli sürürdü: 1.Quruluş; 2.Ehtiyac. O, əsaslandırırdı ki, təbiətdə quruluşsuz heç nə yoxdur. Məsələn, suyun tərkibi H2O-dur. Daşın tərkibi nədən ibarətdir və s. X.Məmmədov əsaslandırırdı ki, təbiətdəki bu "quruluş"u cəmiyyət həyatında öyrənmək və tətbiq etmək lazımdır.

Ehtiyac nəzəriyyəsinə əsaslanan alim yazırdı ki, insanın görməyə, duymağa, hiss etməyə ehtiyacı olduğu kimi, insanlar arasında münasibətlərin də olmasına ehtiyacı var. İnsanlar bir-birindən öyrənməli, anlaşmalıdır ki, cəmiyyətdə stabillik yaransın.

Xudu müəllim əslində bu təbliğatı ilə insanları türkçülüyə, yaddaşa, tarixə maraqlı etməyə çalışırdı. Həmin dövrdə isə türkçülük baxışları tam qadağan edilmişdi.

Xudu müəllimin 1970-ci illərdə Azərbaycan televiziyasında apardığı "Elm və sənət" verilişi tamaşaçıların böyük marağına səbəb olurdu. Hət-

ta bir verilişdə simmetriya nəzəriyyəsini əsas gətirərək, kağıza yazılmış "Xalq" sözünün, həm də tərsinə olaraq "Qalx" kimi oxunduğunu söyləmişdi: yəni Xalq - Qalx! (Ayağa qalx, mübarizəyə qalx mənasında).

---

***Qaynaq:***
*X.Məmmədov. Qoşa qanad. B.,. 1970.*

**XUDU MƏMMƏDOV – XUDU NAXIŞ KLUBU**

Klubun üzvlərindən olan tanınmış tarixçi alim, professor Mahmud İsmayılovun təşəbbüsü ilə 1984-cü ildə Azərbaycanda ilk dəfə xalqımızın etnogenezis problemlərinə həsr edilmiş elmi seminar keçirildi. Seminarda məşhur tarixçi alim, professor S.Əliyarlı, etnoqraf Q.Qeybullayev, arxeoloq R.Göyüşov, antropoloq R.Qasımova və digər elm xadimləri iştirak edirdilər.

Bu, o dövr üçün ciddi bir tədbir idi. Sovet hökumətinin müəyyən dairələrində bu tədbir narahatlıq doğurmuşdu. Bu "narahatlığın" ifadəsi olaraq Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun direktoru akademik İqrar Əliyev Moskva Mətbuatında çıxış edərək, seminar iştirakçılarını "pantürkist", "millətçi burjua cərəyanının üzvləri" adlandırmışdı.

**"Xudu Naxış klubu"nun üzvü olan Ənvər Börüsoyun xatırlamaları:** 1974-cü ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində oxuyurdum. Hörmətli müəllimlərimdən biri olan Lətif Feyzullayev məni apardı İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakultəsində bir toplantıya. Hər həftənin 5-ci günləri saat 15:00-dan sonra orada bir Mərkəzin toplantıları keçirilirdi. Mərkəzin adına **"Xudu Naxış"** məktəbi deyirdilər. Hər toplantıya 40-50 nəfər adam gəlirdi. Bu toplantıda o dövrün tanınmış ziyalıları olan Bəxtiyar Vahabzadə, Siyavuş Dadaşov (hazırda Qərb Universitetində estetika müəllimi), Cəfər Qiyasi, xalçaçı rəssam Lətif Kərimov, bəstəkar Aydın Əzimov (hazırda Bakı Musiqi Akademiyasında çalışır), Kərim Kərimov (Azərbaycan Elmlər Akademiyasının keçmiş prezidenti Mahmud Kərimovun atası), şair Şahmar Əkbərzadə, tanınmış mifoloq professor Mirəli Seyidov və digərləri iştirak edirdilər. **Bu məktəbin rəhbəri tanın-**

**mış alim, professor Xudu Məmmədov idi.** Bu, daha çox elmi bir təşkilat olaraq fəaliyyət göstərirdi. Buradakı söhbətlərdə, çıxışlarda "Türk milli sənətinin ortaq bir sistem olması və ictimailəşdirilərək elmi konsepsiyaya çevrilməsi" fikri əsas götürülürdü. Mövzular isə müxtəlif idi: etnogenez məsələləri, muğam sənəti, dilçilik, ədəbiyyat, mədəniyyət və s. Yəni qeyd edilirdi ki, türk mədəniyyəti ilə bağlı bəzi məqamlar bizdə qorunub saxlanılır, qazaxlarda yox, yaxud özbəklərdə hansı bir milli dəyər var, türkmənlərdə yox, yaxud əksinə.

Təbiidir ki, bu fəaliyyətə mane olanlar var idi. Bəzi ziyalılarımız isə bunu açıq şəkildə edirdilər.

Qeyd edək ki, klubun tədbirlərinin keçirilməsi üçün şəraiti yaradan, o dövrdə İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakultəsinin dekanı Ramiz Əbdülrəhimov idi. Bu problemin həllində Xudu Məmmədovun onunla yaxşı münasibətinin olması əsaslı rol oynamışdı.

Toplantılarda üçlük fəaliyyət sisteminə də üstünlük verilirdi. Yəni hər bir adam əlavə 3 nəfəri bu söhbətlərə cəlb etməli, onları maarifləndirməli idi. Klubun fəallarından olan Ənvər Börüsoylu xatırlayır ki, o, aşağıdakı üç nəfər ziyalını klubun təsirinə sala bilmişdi: Seyfəddin Məmmədəliyev, Fəxrəddin Məmmədəliyev, Yusif Hüseynov.

Klubun fəaliyyəti genişlənir və Azərbaycanın digər bölgələrinə də təsir edirdi. Artıq Azərbaycanın müxtəlif rayonlarında da klubun təmsilçiləri olan qruplar yaranmışdı. Həmin regionlar: 1. Gəncə. 2. Naxçıvan. 3. Şuşa. 4. Dərbənd. 5. Lənkəran. 6. Salyan. 7. Bərdə. 8. Beyləqan. 9. Quba. 10. Şəki.

Qeyd edək ki, Şəki bölgəsi çox fəal idi. Burada Ələfsər adlı bir vətəndaşın yaratdığı qrup ciddi işlər görürdü (sonradan bu qrup öz fəaliyyətini genişləndirib Yurd Cəmiyyətini yaratdılar). Burada əsas fəaliyyət sahəsi bölgənin tarixinin saxtalaşdırılmasının qarşısını almaq, milli fikri inkişaf etdirmək, bu torpağın gürcülərə, avarlara, ləzgilərə məxsus olması haqqındakı qeyri-obyektiv təbliğatın əsassız olduğunu yerli əhaliyə başa salmaq, onlarla söhbətlər aparmaq və s. idi. Tanınmış ziyalılardan tarixçi-professor Mahmud İsmayılov, iqtisadçı alim professor Qüdrət Əbdülsəlimzadə öz bölgələri olan Şəki ilə əlaqə saxlayır, yerlərə gedir, görüşlər keçirir, onlara müxtəlif ədəbiyyatlar verirdilər.

Şəkidən olan digər ziyalı Aşıq Sakit isə klubun Dağıstan üzrə vasitəçisi idi. O, həmin bölgədə xalq arasında təbliğat aparır, əhalini neytrallaşdırırdı.

**Xudu Naxış klubu**nun fəaliyyətinə qarşı dövlət tərəfindən əks təşkilatlar da yaradılırdı. Belə təşkilatlardan biri **Qüdsi** adlanırdı. Bu qurum Bakı və Abşeron bölgəsindəki maddi-mədəniyyət abidələrinin qədim fars mənşəli olması istiqamətində zərərli və yanlış təbliğat aparırdı. Bu mövzuda ədəbiyyatlar buraxılır, televiziya və radioda çıxışlar edilirdi. Bu qurum Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Memarlıq və Tarixi Abidələrin Mühafizəsi İdarəsinin dəstəyi ilə fəaliyyət göstərirdi.

**Xudu Naxış klubu**nun toplantılarında qədim Azərbaycan təsvirləri və xalq oyunlarının tədqiqatçısı, rəssam Elçin Aslanov da maraqlı məruzə ilə çıxış edirdi.

Əslində klubun bu fəaliyyəti ilə mövcud sovet elminin alternativi yaradılırdı. Tanınmış alim, klubun rəhbəri Xudu Məmmədov belə fikirləri önə çəkirdi: "Dəyərləndirmələrimizlə bağlı nə varsa, onun elmi konsepsiyasını qoymaq, onu müasir forma və məzmuna çevirmək".

Çıxışlarında Xudu Məmmədov belə fikrə daha çox üstünlük verirdi: "Hər hansı bir ornamentin, qədim mifoloji inamların genetikaya necə çevrilməsi, abidələrdə təsviri yeri". Bu, əslində tədricən Xudu müəllimin ciddi bir konsepsiyasına çevrilirdi.

**Xudu müəllimin çıxışları çox maraqlı idi və Şərqin Qərblə uzlaşdırılmasını, sintezini, Qərbdən necə faydalanmağın vacibliyini konkret misallarla açıqlayırdı: "Üzeyir bəy dünya simfoniyasını öyrəndi, sonra gəlib bizim simfoniyamızı yaratdı".**

**Klubun Sovetlər Birliyində yaşayan türk xalqları üzrə sorumlusu isə Ənvər Börüsoylu idi. Xüsusən, 1988-ci ildən ermənilər Qarabağ bölgəsi ilə bağlı Azərbaycana ərazi iddiaları irəli sürəndə Ə.Börusoylunun fəallığı ilə SSRİ-nin türk xalqları yaşayan aşağıdakı bölgələrində Azərbaycan xalqına dəstək məqsədi ilə Qarabağ Komitələri yaradılmışdı:**

**1. Özbəkistanda yaradılan Qarabağ Komitəsinin sədri – tanınmış hərəkatçı Məhəmməd Saleh (Özbək Xalq Hərəkatının tanınmış lideri).**

**2. Qazaxıstanda yaradılan Qarabağ Komitəsinin sədri - Rüstəm Yangujin (Qazaxıstan Elmlər Akademiyası, Fərabi adına İnstitutun elmi əməkdaşı).**

**3. Qırğızıstanda yaradılmış Qarabağ Komitəsinin sədri – Çaprasti Bazarbayev ("Ata Meken" Partiyasının sədri).**

**4. Çuvaşıstanda yaradılmış Qarabağ Komitəsinin sədri – Atner Xuzanqoy (Karate Federasiyasının Prezidenti).**

**5. Tatarıstanda yaradılmış Qarabağ Komitəsinin sədri –Zəki Zəynillin (istefada olan hərbi albay).**

**6. Başqırdıstanda yaradılmış Qarabağ Komitəsinin sədri – Artur İdilbayov ("Yəşlek" qəzetinin Baş redaktoru).**

**7. Dağıstanda yaradılmış Qarabağ Komitəsinin sədri – Amin İbrahimov ("Kumık iş" qəzetinin Baş redaktoru – milliyyətcə kumıkdır. O, eyni zamanda "Tenglik" Kumık Xalq Hərəkatı İdarə Heyətinin üzvü olub. Qeyd edək ki, kumıklar 1918-ci ildə "Müsavat" (bərabərlik - ərəbcədən tərcümədə) adlı bir qəzet də buraxıblar.**

**8. Çeçenistanda yaradılan Qarabağ Komitəsinin sədri – Almaz bəy Sariqov "Borz" ("Boz Qurd") Gənclər Hərəkatının sədri.**

**9. Kabarda-Balkarda yaradılan Qarabağ Komitəsinin sədri – Yorslan Bolatov ("Balkar Milli liqası" İdarə Heyətinin üzvü).**

**10. Qaraçay-Çərkəs Muxtar Respublikasında yaradılan Qarabağ Komitəsinin sədri – Əhməd Salbakarov ("As-alan" Qaraçay Milli liqası İdarə Heyətinin üzvü).**

**11. Baltik Respublikasında isə Qarabağla bağlı məsul şəxs – Uildis Berzlinis (Bu şəxs "Dədə Qorqud" dastanını latış dilinə tərcümə etmişdi).**

**12. Estoniyada Qarabağla bağlı məsul şəxs – Linnar Myall (Estoniya "Özgürlük" Hərəkatının sədri).**

**13. Ukraynada Qarabağla bağlı məsul şəxs – Anatoli Lıpinos ("Ruh" Hərəkatının üzvü).**

Bu ölkələrdə Qarabağ məsələsi ilə bağlı Azərbaycan xalqının mövqeyi müdafiə edilir, mətbuat konfransları keçirilir, ictimaiyyət məlumatlandırılırdı. Bəzi hallarda bu ölkələrdə erməni mövqeyində olanların qarşısı alınır, onlara dəstək verməkdən imtina edilirdi.

Bu çalışmaların digər bir uğurlu nəticəsi 1991-ci ildə baş verdi. Həmin ilin fevralın 22-də 33 türk boyu bir araya gələrək, **Türk Xalqları Assambleyası**nın I Qurultayını keçirdilər. Qurultayda Türk Xalqlarının Milli və İctimai qurumlarının 112 təşkilatının 430 nümayəndəsi iştirak edirdi. Qurultayda sədrliyi mənşəcə tatar olan türkoloq, filologiya elmləri doktoru Rafael Muxammedinov edirdi. Qurultayın başlıca məqsədi bu idi: öz ana dillərində məktəblər, bağçalar açmaq, ana dilində televiziya və radio verilişlərinin efir vaxtının artırılması, ana dilində elmi-tədqiqat işlərinin aparılması, bədii ədəbiyyatların nəşri və s. (Qeyd edək ki, həmin dövrdə əksəriyyəti tatarlar yaşayan Kazanda ana dilində nəinki məktəblər, hətta uşaq bağçaları belə yox idi).

Türk Xalqları Assambleyasının qurultayları 2005-ci ilədək davam etdi və ciddi problemlərin müzakirələri ilə yadda qaldı.

***Qaynaq:***
*Ənvər Börüsoylunun şəxsi arxivi.*

## XUDU MƏMMƏDOV-BƏXTİYAR VAHABZADƏ-NURƏDDİN RZAYEV ÜÇLÜYÜ



***Professor Nurəddin Rzayev***

Onlar yaxın ideya və əqidə dostlsrı idi. Azərbaycan cəmiyyətində milli şüurun oyanmasında mühüm rol oynamışdılar. Yaşadıqları mənzillərdə aydın və millətçi ziyalılarla gizli söhbətlər aparır, sovet rejiminin istismarçı mahiyyətini açıqlayırdılar.

Qeyd edək ki,tanınmış ziyalı, tibb elmləri doktoru,professor Nurəddin Rzayev (1929-2011) ixtisasca həkim-cərrah olsa da bu söhbətlərdə ciddi fəallıq göstərirdi.

## VƏTƏNPƏRVƏR TOPONİMİST ALİM RƏMZİ YÜZBAŞOVUN FƏALİYYƏTİ

*(Onun "yapon casusu" adı ilə təqib edilməsi)*



***Rəmzi Yüzbaşov***

Rəmzi Yüzbaşov 1906-cı ildə Şamaxıda anadan olub. 1918-ci ildə ermənilərin Şamaxıda törətdikləri qırğından sonra ailəsi ilə Bakıya gəlib. Ali təhsilini başa vurduqdan sonra təhsil sahəsində çalışıb.İkinci Dünya müharibəsi illərində alman əsirliyində olub.

1958-ci ildən Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda çalışıb. 1990-cı ildə avtomobil qəzasında dünyasını dəyişib.

R. Yüzbaşov sovet rejiminə nifrət edir və bu istiqamətdə təbliğat aparmaqdan çəkinmirdi. O, milli əsarətə, cəmiyyətdə baş verən haqsızlıqlara, ədalətsizliklərə müxtəlif janrlarda yazdığı məktublar, satirik hekayələr, tarixi xatirələrlə müqavimət göstərirdi.

Sovet rejimi dövründə o, ruslaşdırma siyasətinə qarşı çıxır, erməni millətçilərini qıcıqlandıran yazılar hazırlayıb, dövlət orqanlarına göndərirdi.



АЗӘРБАЈЧАН
СОВЕТ СОСИАЛИСТ РЕСПУБЛИКАСЫ
МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ
БАШ КИНОЛАШДЫРМА ИДАРӘСИ
Бакы ш. Киров проспекти, 20 Тел. 3-17-21, 3-71-44

АЗЕРБАЙДЖАНСКАЯ
СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА
МИНИСТЕРСТВО КУЛЬТУРЫ
ГЛАВНОЕ УПРАВЛЕНИЕ КИНОФИКАЦИИ
г. Баку, проспект Кирова, 20, Тел. 3-17-21. 3-71-44

1068

№ 1228 — 28 декабря 1959 г.

БАКЫ АҒАНЕМАТУЛЛА КҮЧӘСИ 36 №-ли ЕВИН
13-чү МӘНЗИЛИНДӘ ЈАШАЈАН

Р. ЈҮЗБАШИЈЕВ јолдаша.

Сурәти: "КОММУНИСТ" (Азәрбајчан дилиндә) ГӘЗЕТИНИН
МӘДӘНИЈЈӘТ ШӨ'БӘСИНИН МҮДИРИ

НӘБИЈЕВ јолдаша.

Баш Кинолашдырма Идарәси сизин Азәрбајчан КП Мәркәзи Комитәсинә вә "Коммунист" гәзети редаксијасына јаздығыныз мәктуба чаваб олараг билдирир ки, мәктубда јазылан фактлар доғрудур, вә рајонларын чохунда бу сәһвләрә јол верирләр.

Она көрә дә Баш Кинолашдырма Идарәси өзүнүн 17/XII-59-чу ил 1130 №-ли мәктубу илә бүтүн мәдәнијјәт шө'бәләринә көстәриш вермишдир ки, филмләри мүтләг азәрбајчанча вә рус дилиндә е'ланлашдырсынлар вә сеансдан әввәл филмин гыса мәзмунуну тамашачылара чатдырсынлар.

Баш Кинолашдырма
Идарәсинин рәис муавини (Ә.Шәфијев).

***R.Yüzbaşovun filmlərin Azərbaycan dilində səsləndirilməməsi ilə bağlı şikayət məktubuna cavab***

R. Yüzbaşov Azərbaycan dilinin təmizliyi, onun dövlət dili səviyyəsinə yüksəldilməsi, hökumət idarələrində işlədilməsi uğrunda çalışırdı. O, bu məsələlərlə bağlı respublika və SSRİ-nin dövlət, partiya başçılarına, əlaqədar hökumət idarələrinə, yerli və ittifaq əhəmiyyətli qəzet, jurnal redaksiyalarına, görkəmli ziyalılara müraciətlər ünvanlamışdı. Bu istiqamətdə o, 1956-cı ildən


ОРДЕНА ТРУДОВОГО КРАСНОГО ЗНАМЕНИ
ИЗДАТЕЛЬСТВО ПОЛИТИЧЕСКОЙ ЛИТЕРАТУРЫ
ПОЛИТИЗДАТ
Москва, А-47, Миусская площадь, 7 — Телефон для справок: 251-79-56

«30» августа 1973 г. №1/10-89

Баку-33,
ул.Нейматуллы, 36, кв.13
тов.Юзбашеву Р.М.

Нам поручено рассмотреть Ваше письмо "Слово об одной книге" и о результатах сообщить его автору.

В Вашем отзыве на книгу А.И.Микояна "Дорогой борьбы" подвергается сомнению объективность ряда излагаемых автором фактов. На наш взгляд, Ваши сомнения неправомерны. Рукопись книги А.И.Микояна посылалась на консультацию в Институт марксизма-ленинизма при ЦК КПСС и в его филиалы в Азербайджане и Армении. Автор книги и издательство скрупулезно учли все замечания, сделанные по рукописи.

Ни в одном из названных выше научных учреждений, в том числе в Институте истории партии при ЦК КП Азербайджана, точка зрения А.И.Микояна на действия армянских национальных частей не вызвала возражений. Бесчинства, творимые армянскими дашнакскими бандами, не имеют никакого отношения к национальным частям Красной Армии, точно так же, как и зверства азербайджанских мусаватистов.

В мемуарах А.И.Микояна четко и ясно разоблачена националистическая позиция как дашнаков, так и мусаватистов.

Что касается Ваших замечаний по поводу высказываний А.И.Микояна о генерале Андранике, то в книге о нем приведены лишь краткие фактические данные, основанные на документах, опубликованных в советской печати.

Директор
Политиздата (Н.Тропкин)

Зак. 7983.

***Rəmzi Yüzbaşovun A.Mikoyanın kitabı ilə bağlı şikayətinə Moskvadan cavab***

başlayaraq N.Xruşşova, M.Bulqanin və A.Mikoyana (sovet dövlətinin rəhbərləri) çoxlu sayda məktublar göndərmişdi.

R.Yüzbaşov 1963-cü ildə Q.R.Qrodenskinin Leninqradda (Sankt-Peterburq) nəşr olunmuş kitabında Naxçıvan MSSR-in Azərbaycan SSR-nin xəritəsindən "itməsi" və Ermənistan SSR-nin xəritəsində yer almasına etiraz etmişdi. Bundan əlavə, Ermənistan SSR KP MK-nın şöbə müdiri (1975-1985-ci illərdə Ermənistan SSR-nin Xarici İşlər naziri olub) Con Saakoviç Kirokosyanın 1971-ci ildə Yerevanda rus dilində çap olunan "Qərbi Ermənistan Birinci Dünya müharibəsi illərində" kitabının zərərli olduğunu "yuxarı" dairələrə çatdırmışdı. O, eyni zamanda, A.Mikoyanın Moskvada 1971-ci ildə çap olunmuş "Mübarizə yolları ilə: birinci kitab" əsərindəki yalanları da təkzib etmişdi.

Onun ən böyük auditoriyası Azərbaycan Elmlər Akademiyası bağı ıdı. O, burada milli ruhu olan əməkdaşlara, istedadlı gənclərə yazılarını oxuyub, onlarda sovet rejiminə nifrət oyadırdı.

R.Yüzbaşov bu fəaliyyətinə görə çox məhrumiyyətlərə məruz qalıb. Uzun müddət DTK tərəfindən təqib edilib. Hətta auditoriyaların birində çıxış edərkən Yaponiya texnologiyasını tərifləməsi onun ciddi izlənilməsinə səbəb olub.R. Yüzbaşovun bu mövqeyini "Yaponiyanın casusu" olması ilə əlaqələndiriblər.

---

***Qaynaq:***

*1. Eltac Yüzbaşovun şəxsi arxivi.*

*2. Rəmzi Yüzbaşov. Rəmz. Bakı, 2006.*

## AZƏRBAYCANDA – NƏVAİ QƏSƏBƏSİNDƏ ATOM ELEKTRİK STANSİYASI TİKİNTİSİNƏ QARŞI HƏRƏKAT

Bu hərəkat 1985-ci ildə yaradılmışdı. Hərəkatın yaradıcısı - ziyalı,ixtisasca fizik olan Şamil Saleh idi.

SSRİ dövründə Bakıya yaxın ərazidə yerləşən Nəvai qəsəbəsində Atom Elektrik Stansiyası tikmək sahəsində çalışmalara başlanılmışdı. Hətta ilkin qazıntılar da aparılmışdı (qeyd edək ki, həmin qazıntı yerləri hazırda qalmaqdadır). Bu tikintinin aparılması olduqca təhlükəli idi. Çünki Bakı tektonik zonada yerləşirdi və bura yaxın bölgədə bu stansiyanın tikilməsinə yol vermək olmazdı. Eyni zamanda bu tikinti yeni bir yeyinti və rüşvət mənbəyinə çevriləcəkdi.

Bu təhlükəli tikintinin dayandırılması istiqamətində başda Şamil Saleh olmaqla, təşkilat üzvləri tezliklə fəaliyyətə başladılar. İlkin olaraq etiraz məktubları hazırlanıb, Sovet dövlətinin və Azərbaycan hökumətinin rəhbərliyinə göndərildi. Etiraz məktubları çoxaldılıb, Azərbaycanın bütün bölgələrində xalq arasında yayılırdı.

Bu etirazlar tezliklə öz bəhrəsini verdi. Nəvaidəki Atom Elektrik Stansiyasının tikintisi dayandırıldı.

## ŞAMİL SALEH (ƏLİYEV ŞAMİL SALEH OĞLU)


*Şamil Saleh*

Tanınmış inqilabçı mübariz Şamil Saleh oğlu 1937-ci ildə Bərdə rayonunda anadan olub. Neft və Kimya İnstitutunu bitirib. Fəlsəfə elmləri doktorudur. **“Əks rabitə prinsipi fəlsəfi anlamda”** elmi əsəri ilə 1965-ci ildə Sov. İKP MK Siyasi Bürosunun Baş Müşaviri Ukraintsevin elmdə yalançı xəttini tənqid etdiyinə görə, **“Sovet dövlətinin ən təhlükəli adamı”** kimi ailəsi ilə birlikdə repressiyaya məruz qalıb. Azərbaycan EA Kibernetika İnstitutunun



*Soldan:* ***Ə.Elçibəy, Ş.Saleh, E.Əlibəyzadə, Ə.Nəbibəyli (Kürdüstani), S.Yanardağ, X.Rza***

baş elmi işçisi, Azərbaycanın Könüllü Müdafiə Birliyinin rəhbəri olub. Azərbaycan ərazisində Atom Elektrik stansiyası tikdirilməsinə qarşı ciddi müqavimət göstərib və bu məqsədlə “Azərbaycanda Atom Elektrik stansiyası tikilməsi əleyhinə” adlı təşkilat da yaradıb. O, 2005-ci ilin avqustunda vəfat edib.

1989-cu ildə **Şamil Saleh** Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədrinə rəsmi olaraq müraciət etmişdi. Həmin rəsmi ərizə:

**Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin Sədri**
**Qorelovski yoldaşa Azərbaycan Könüllü**
**Müdafiə Birliyinin Rəhbəri**
**Şamil Saleh oğlu Əliyevin**

**Ə R İ Z Ə S İ**

Respublikamızın başının üstünü almış ölüm dumanı Azərbaycan sakinlərinin kütləvi qırğınına səbəb olur. Hesab edirəm ki, bu duman təbii yox, süni dumandır. Radiasiya tozu və zəhərləyici qazlardan ibarət olan bu süni Ölüm dumanını hərbi hissələr, eksperiment məqsədiylə, Azərbaycanın ən müxtəlif gizli nöqtələrindən havaya püskürdülər. Belə ki, beşikdəki körpələrdən tutmuş ağsaqqal qocalara qədər Azərbaycan ərazisində yaşa-

yan bütün sakinlərin həyatı üçün real ölüm təhlükəsi şəraiti yaranmışdır.

Həm milli mənsubiyyətinizə, həm də ki, vəzifənizə görə Siz rəsmi Moskvanı ikiqat təmsil edirsiniz. Respublikamızın səlahiyyətsiz, imkansız digər partiya-dövlət rəhbərlərindən fərqli olaraq Siz sahibkarsınız və belə mühüm məsələlərin həllində fəal iştirak edə bilərsiniz.

Bu istiqamətdə Sizinlə görüşməyə və ciddi söhbətlər etməyə güclü ehtiyac olduğunu nəzərə alaraq, qəbulumu xahiş edirəm.

04.04.89-cu il.
Ünvanım: Bakı-118, Jdanov küçəsi 116, mənzil 49.
Telefon: 74-61-74.”

**Şamil Saleh** Azərbaycan Könüllü Müdafiə Birliyinin rəhbəri olaraq Azərbaycan KP MK-nın Bürosuna (surəti: Sov. İKP MK-nın Siyasi Bürosuna) da rəsmi müraciət ünvanlamışdı. Həmin müraciətdən:

**“Surəti: Sov. İKP MK-nın Siyasi Bürosuna**
**AZƏRBAYCAN KP MK-NIN BÜROSUNA**

04. 04. 89-cu il tarixli Qorelovskinin adına yazdığım ərizəmlə mən **Azərbaycanda həyata keçirilən kütləvi qırğınla** bağlı söhbət üçün qəbulumu xahiş etmişdim. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin Sədri vəzifəsini tutan bu şəxsin bu söhbətdən rüsvaycasına qaçıb gizlənməsinə nə ad verirsiniz?! Qorelovski bizdən qaçıb gizlənirsə, bəs onda Azərbaycanın təhlükəsizliyi ilə əlaqədar söhbətlərimizi kiminlə etməliyik? Azərbaycanın hərtərəfli kökünün kəsilməsi qərarının təcili ləğvi barədə məsələ qaldırmağa, bizim birliyimizi çıxandan sonra, Azərbaycanda kimin, hansı təşkilatın, hansı orqanın səla-


Сурәти: Сов. ИКП МК-нын Сијаси Бүросуна
АЗӘРБАЈҸАН КП МК-НЫН БҮРОСУНА
04.04.89-ҹу ил тарихли Гореловскинин адына јаздығым әризәмлә мән Азәрбајҹанда һәјата кечирилән күтләви гырғынла бағлы сөһбәт үчүн гәбулуму хаһиш етмишдим. Азәрбајҹан ССР Дөвләт Тәһлүкәсизлији Комитәсинин Сәдри вәзифәсини тутан бу шәхсин бу сөһбәтдән рүсвајчасына гачыб кизләнмәсинә нә ад верирсән?! Гореловски биздән гачыб кизләнирсә, бәс онда Азәрбајҹанын тәһлүкәсизлији илә әлагәдар сөһбәтләримизи киминлә етмәлијик? Азәрбајҹанын һәртәрәфли көкүнүн кәсилмәси гәрарынын тә"ҹили ләғви барәдә мәсәлә галдырмаға, бизим Бирлијимизи чыхандан сонра, Азәрбајҹанда кимин, һансы тәшкилатын, һансы органын сәлаһијјәти вар, габилијјәти, сәвијјәси вә ҹәсарәти чатыр?!
Гореловскинин Сәдр вәзифәсинә мәһз халгымызын гәтлини ахира чатдырмаг вә ону мүдафиә едәнләри амансызҹа сәрт репрессијалара мә"руз гојмаг мәгсәдилә гојулдуғуну, мәсәлән, "Рус халгына ачыг мәктуб"умда гејд етмишәм. Гореловскинин халгымын ҹәлләды ролуну бојнуна көтүрмәсилә вәтәнимдә сүн"и өлүм думаныны даһа да гатылашдырылмасы арасында дүз әлагә олдуғу көз габағындадыр. Һүндүрлүјү јердән 5.000- м-ә чатан өлүм думаныны арды-арасы кәсилмәдән әсән Шимал күләкләри, ара-сыра шыдырғы јаған јағышлар белә башымызын үстүндән бирдәфәлик тәмизләјиб апара билмир. Аллеркија, астма, аг ган, хәрчәнк кими спесифики шүа хәстәликләриндән күтләви гырғынлар баш алыб кедир. Азәрбајҹан әразисиндә кәсилән мал-гара арасында аг ҹијәринә ләкә дүшмәјәнинә раст кәлинмәјир. Азәрбајҹан сакинләрини күтләви сурәтдә јуху басыр. Кечән илдән башламыш ајаг үстә, дәрсә гулаг аса-аса, лаггырты вурдуғу јердә, ичласда чыхыш етдији анда өләнләр аз дејил. (Мәсәлән, Зәрдаб рајон мәркәзи хәстәханасынын 52 јашлы, шән, күмраһ, достлу-танышлы, өзүнә фикир верән баш һәкими бу ил јанварын икинҹи јарысында рајон иҹраијјә комитәсинин јығынҹағында чыхыш етдији јердә гәфләтән, ҹүмләни охујуб баша чатмадан, ајаг үстә өлүб, јерә јыхылыб). Бешикдәки көрпәләрдән тутмуш ағсаггалара гәдәр Азәрбајҹан сакинләрини бу ҹүр көзләнилмәз, гәфил, ани өлүм көзләјир.
Бәс, Азәрбајҹан халгынын гәтли мәсәләсинә Сиз неҹә бахырсыныз? Сүн"и өлүм думанына мүнасибәтиниз неҹәдир? Ахы, сөһбәт һәм дә Сизин өзүнүзүн дә өзүз, доғма адамларынызын, балаларынызын һәјатындан кедир. Ахы, Сизин фираван һәјатынызын бундан сонракы давамынамына онларын да гурбан кетмәси еһтималы вар. Сиз буна неҹә бахырсыныз? Бизим "Азәрбајҹаны мүдафиә" чағырышымыза гошулурсунуз, ја јох?

***Ş.Salehin Azərbaycan KP MK-nın Bürosuna rəsmi müraciəti***



Азәрбајҹан ССР Дөвләт Тәһлүкәсизлији
Комитәсинин Сәдри
ГОРЕЛОВСКИ јолдаша
Азәрбајҹаны Көнүллү Мүдафиә Бирлијинин
Рәһбәри
Шамил Салеһ оғлу ӘЛИЈЕВИН

Ә Р И З Ә С И

Республикамызын башынын үстүнү алмыш өлүм думаны Азәрбајҹан сакинләринин күтләви гырғынына сәбәб олур. Һесаб едирәм ки, бу думан тәбии јох, сүн"и думандыр. Радиасија тозу вә зәһәрләјиҹи газлардан ибарәт олан бу сүн"и өлүм думаныны һәрби һиссәләр, експеримент мәгсәдилә, Азәрбајҹанын ән мүхтәлиф кизли нөгтәләриндән һаваја пүскүрдүрләр. Белә ки, бешикдәки көрпәләрдән тутмуш ағсаггал гоҹалара гәдәр Азәрбајҹан әразисиндә јашајан бүтүн сакинләрин һәјаты үчүн реал өлүм тәһлүкәси шәраити јаранмышдыр.

Һәм милли мәнсубијјәтинизә, һәм дә ки, вәзифәнизә көрә Сиз рәсми Москваны инигат тәмсил едирсиниз. Республикамызын сәлаһијјәтсиз, имкансыз дикәр партија-дөвләт рәһбәрләриндән фәргли олараг Сиз саһибкарсыныз вә белә мүһүм мәсәләләрин һәллиндә фәал иштирак едә биләрсиниз.

Бу истигамәтдә Сизинлә көрүшмәјә вә ҹидди сөһбәтләр етмәјә күчлү еһтијаҹ олдуғуну нәзәрә алараг, гәбулуму xаһиш едирәм.

04.04.89-ҹу ил.

Үнваным: Бакы-118, Жданов күчәси, 116, мәнзил 49. Телефон: 74-01-74.

***Ş.Salehin Azərbaycan DTK-sının sədri Qorelevskiyə ərizəsi***

hiyyəti var, qabiliyyəti, səviyyəsi və cəsarəti çatar?

Qorelovskinin sədr vəzifəsinə məhz xalqımızın axıra çatdırmaq və onu müdafiə edənləri ailəlikcə sərt repressiyalara məruz qoymaq məqsədilə qoyulduğunu, məsələn, “Rus xalqına açıq məktub”unda qeyd etmişəm. Qorelovskinin xalqımın cəlladı rolunu boynuna götürməsilə vətənimdə süni ölüm dümanının daha da qatılaşdırılması arasında düz əlaqə olduğu göz qabağındadır. Hündürlüyü yerdən 5.000m-ə çatan ölüm dumanının ardı-arası kəsilmədən əsən şimal küləkləri, ara-sıra şıdırğı yağan yağışlar belə başımızın üstündən birdəfəlik təmizləyib apara bilmir. Allergiya, astma, ağ qan, xərçəng kimi spesifik şüa xəstəliklərindən kütləvi qırğınlar baş alıb gedir. Azərbaycan ərazisində kəsilən mal-qara arasında ağ ciyərinə ləkə düşməyəninə rast gəlinməyir. Azərbaycan sakinlərini kütləvi surətdə yuxu basır. Keçən ildən başlamış ayaq üstə, dərsə qulaq asa-asa, laqqırtı vurduğu yerdə, iclasda çıxış etdiyi anda ölənlər az deyil. (Məsələn: Zərdab rayon Mərkəzi xəstəxanasının 52 yaşlı, şən, gümrah, dostlu-tanışlı, özünə fikir verən baş həkimi bu il yanvarın ikinci yarısında rayon İcraiyyə Komitəsinin yığıncağında çıxış etdiyi yerdə qəflətən, cümləni oxuyub başa çatmadan, ayaq üstə ölüb, yerə yıxılıb). Beşikdəki körpələrdən tutmuş ağsaqqallara qədər Azərbaycan sakinlərini bu cür gözlənilməz, qəfil, ani ölüm gözləyir.

Bəs, Azərbaycan xalqının qətli məsələsinə Siz necə baxırsınız? Süni Ölüm dumanına münasibətiniz necədir? Axı, söhbət həm də Sizin özünüzün də, əziz, doğma adamlarınızın, balalarınızın həyatından gedir. Axı, Sizin firavan həyatınızın bundan sonrakı davamı naminə onların da qurban getməsi ehtimalı var. Siz buna necə baxırsınız? “Bizim “Azərbaycanı müdafiə” çağırışımıza qoşulursunuz, ya yox?

Biz Qorelovskini və xalqımızın qətlinə rəhbərlik göndərilən qorelovskiləri, “Nüsrət” dərsi verib, çıxdıqları yerə qədər qovmağa hazırıq. Bizim

bu çağırışımıza nə ilə cavab verirsiniz, ey Azərbaycanın varlı-dövlətli, adlı-sanlı, titullu-vəzifəli, amma öz doğma xalqına kömək işində aciz, zavallı, miskin, bədbəxt, əli-qolu bağlı, ağzı qıfıllı, köləqul rəhbər övladları?

**Azərbaycan Könüllü Müdafiə**
**birliyinin rəhbəri: Şamil Saleh**

**27.05.89-cu il."**

**Ş.Salehin yaxın əqidə dostu olan Sabir Yanardağ da onun müraciətinə qoşularaq yazırdı:** "Müşaviri olduğum Birliyin Rəhbəri Şamil Salehin Qorelovskiyə müraciətinə qoşularaq, müvafiq məsələlər qaldırmışdım. Onlardan biri də altında çabalaya-çabalaya qaldığımız, üfunətindən boğulduğumuz antisovetizm təmayülləridir.

Bundan qaçan Sədrin mövqeyini anlamaqda çətinlik çəkirəm.

Uzun müddətli antisovetizmə məruz qaldığım halda, indi bu gün özüm də dübarə antisovetizmdə ittiham edilirəm. Maraqlı odur ki, həm də tərəflər fikirlərini izahdan boyun qaçırırlar. Bununla da bu gün mənə qəti məlum olur ki, Təhlükəsizlik Komitəsi "antisovetdir" bəhanəsi ilə bütün qapıların üzümə bağlanması üçün gizli göstəriş vermiş və xalqı müdafiə işimi çətinləşdirdiyini güman edir...

Bu baxımdan Birliyin Rəhbərinin **Sizə** tənələrini yerində hesab edirəm.

Əks təqdirdə Sizin burada nə üçün oturduğunuzu, nə etdiyinizi və ümumiyyətlə, bu dünyaya nə üçün gəldiyinizi anlamaqda çətinlik çəkirəm...

**Azərbaycan Könüllü Müdafiə**
**Birliyinin Müşaviri: Yanardağ**

**27. 05. 89-cu il."**

---

***Qaynaq:***
*Ruslan Rəhimovun şəxsi arxivindən*

## AZƏRBAYCAN SOVET ENSİKLOPEDİYASI NƏŞR EDİLDİ, YAYIMI DAYANDIRILDI, NÜSXƏLƏR MƏHV EDİLDİ

### "YAŞIL" VƏ "QIRMIZI" ENSİKLOPEDİYALAR



***Sovet rəhbərliyində narazılıq doğurmuş ensiklopediya***

Azərbaycan Sovet Ensiklopediyası hazırlamaq cəhdinə 1920-1930-cu illərdə cəhd göstərilsə də, baş tutmamışdı. 1960-cı illərdə görkəmli şair və ictimai xadim Rəsul Rzanın başçılığı ilə I cildin hazırlanaraq 1970-ci ildə nəşr edilməsi mümkün oldu. 20 000 tirajla yaşıl rəngdə (bəzi mənbələrdə 30-40 min göstərilir) çap olunan ensiklopediya senzura tərəfindən ləğv edildi. Ensiklopediyanın nəşr olunmuş nüsxələri məhv edilərək yayımı yasaqlandı. 1975-ci ildə isə Rəsul Rza işdən kənarlaşdırıldı.

1975-ci ilin oktyabrın 24-də Azərbaycan KP MK Bürosu "Azərbaycan Sovet Ensiklopediyası" işində ciddi nöqsanlar haqqında qəbul edilən qərarda xalq şairi Rəsul Rza millətçilikdə, Azərbaycan xalqının keçmişinə üstünlük verməkdə, Ararat dağını həm də Ağrı dağı kimi təqdim etməkdə, beynəlmiləlçiliyə qarşı çıxıb qonşu Ermənistan və Gürcüstanda dəyişdirilmiş yer adlarının əski yazılışını verməkdə ittiham olunurdu.

Baş redaktor kimi **Rəsul Rza** milli, tarixi dəyərlərə əsaslanmış, onun dil, etnogenez məsələlərə münasibəti isə hakim dairələrin və müxtəlif alimlərin narazılığına səbəb olmuşdu.

Ensiklopediyanın R. Rzadan sonra nəşr edilən cildlərində Azərbaycan istiqlalında, elmində, milli mədəniyyətinin təşəkkülündə rol oynamış adamların adları yox, "əmək qabaqcılları"nın, "tarla qəhrəmanları"nın "fədakarlığı" əsas yer tutdu. ASE-nin 10 cildinə yalnız ümumi nəzəri xarakterli məqalələr və ədəbi simalar haqqında qısa arayış-oçerklər daxil oldu.




***Məhv edilmiş ensiklopediya***

Azərbaycan Sovet Ensiklopediyası üzərində iş 1966-cı ildə başlamışdı. Ensiklopediya əvvəl Azərbaycan Elmlər Akademiyasının binasında, sonradan isə Çkalov (indiki Niyazi prospekti) küçəsi 3ünvanda, o qədər geniş şəraiti olmayan bir yerdə hazırlanırdı.

Bəs Rəsul Rza ensiklopediyada hansı məqamlara daha çox üstünlük verirdi ki, bu da sonradan narazılığa səbəb olmuşdu?- **1)** R.Rza Azərbaycan tarixini saxtalaşdıranlardan narazı idi. O, razılaşmırdı ki, Azərbaycan xalqı inqilaba qədər savadsız olub və inqilabdan sonra mədəniləşib; **2)** R.Rza Dağlıq Qarabağda məskunlaşmış ermənilərin etnik mənşəyinin dəqiq göstərilməsini tələb edirdi. O, bu fikirdə idi ki, bu ermənilər albanlardan dönmədirlər, qalan ermənilər isə Türkiyə və İrandan köçüb gələnlərdir; **3)** R.Rza bu fikri müdafiə edirdi ki, azərbaycanlılar Azərbaycan ərazisinə haradansa miqrasiya yolu ilə gəlməmişlər, onlar bu ərazidə doğulub məskunlaşmışlar.

O dövrdə isə Ensiklopediyada əsaslandırılan bu konsepsiyalar bəzi tarixçilər tərəfindən tənqid edilməyə başlandı.

R.Rzanın baş redaktorluğu ilə çıxan ASE-nin I cildində verilən "Ararat" məqaləsi cəmi bir cümlədən ibarət idi və sonda belə istinad verilmişdi: "Bax: həmçinin Ağrıdağ". Sonrakı 1976-cı ildəki Cəmil Quliyevin Baş redaktorluğu ilə çıxan I cilddə qırmızı rəngdə "Ararat" məqaləsi genişləndirilib çap olunmuşdu. R.Rzanın rəhbərliyində çıxan nəşrdə "Ararat" haqda yazılmışdı: "Türkiyə ərazisində dağ; sönmüş vulkan, SSRİ, Türkiyə və İran sərhədləri yaxınlığında, Araz vadisindədir. Anadoluda ən yüksək dağdır". 1976-cı ildə isə belə yazılmışdı: "Türkiyənin şərqində, Van gölündən şimalda, Ermənistan yaylasının orta hissəsində dağ silsiləsi".

**R.Rzanın** başçılığı ilə çıxan ensiklopediyanın bu nəşrindən Ermənistan Elmlər Akademiyasının alimləri də Azərbaycan KP MK-ya etiraz məktubları yazmışdılar.



Ensiklopediyanın baş redaktoru vəzifəsindən çıxarılmış Rəsul Rza

R.Rza ensiklopediyasında 180 azərbaycanlı, 15 erməni adı var idi. Sonrakı ensiklopediyada 150 azərbaycanlı, 51 erməni adı yazıldı. R.Rza ensiklopediyasında 1918-ci ilin Mart faciəsinin iştirakçıları bu nəşrə daxil edilmədiyi halda, 1976-cı il nəşrində 26-ların hamısı haqqında ayrı-ayrı məqalələr, fotolar verildi.

**Birinci** ensiklopediyada azərbaycanlıların Ermənistanda, Gürcüstanda, RSFSR-də, Dağıstanda, Özbəkistanda, Qazaxıstanda və dünyanın bir çox ölkələrində yaşadığı konkret rəqəmlərlə göstərilirdi. **İkinci** ensiklopediyada isə məlumat belə yazılmışdı: "Azərbaycanlılar Azərbaycanda 3777 min (1970-ci il) nəfərdir. Xaricdə də (əsasən İranda) yaşayırlar".

Birinci ensiklopediyadakı yazılar: "Azıx Mağarası, Azıx Kahası. Azərbaycan SSR Füzuli şəhərinin 14 km şimal-şərqində aşağı Paleolitə aid Karst mağarası. Azıx mağarasında tapılan (1968) Aşöl dövründə yaşamış neondertal adamının (SSRİ-də birinci, dünyada beşinci tapıntıdır) çənə sümüyü Azərbaycanın qədim insanların formalaşdığı əraziyə daxil olduğunu sübut edir".

**"Qırmızı**" ensiklopediyada isə Azıx mağarasının DQMV-nin Hadrut rayonu ərazisində yerləşdiyi qeyd edilir.

**"Yaşıl"** ensiklopediyada yazılmışdı: "Azərbaycan on doqquzuncu əsrin əvvəllərində Rusiya imperiyasına qatılmışdır ("Gülüstan" və "Türkmənçay" müqavilələri əsasında)".

**"Qırmızı"** ensiklopediyada isə "Azərbaycan tarixi - Azərbaycan Kommunist Partiyasının qurultayıdır" olaraq təqdim edilir. Bu qurultayda isə "Lenin dilində" çıxış edən dörd nəfərdən ikisi azərbaycanlı, biri rus, o biri də mütləq erməni olurdu.

***Qaynaq:***

*1. Yaşıl rəngin işığı. Bakı, "Nurlan", 2000.*

*2. Y.Mahmudov. Özümüz. Bakı, 2008.*

*3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi, fond 1, siy. 62, iş 96, v. 61-84*

## 1970-1980-ci illərdə AZƏRBAYCANDA ƏN ÇOX TƏTBİQ OLUNAN CİNAYƏT MADDƏSİ, 167-Cİ MADDƏ (2 ildən 8 ilə qədər həbs)

Sovet rejiminin qeyri-insani mahiyyətini sübut edən faktlar sırasında cinayət maddələri xüsusi önəm daşıyır. Hər bir dövlət başçısının dövründə bir "xüsusi" cinayət maddəsi daha çox tətbiq edilirdi. Məsələn, **Stalin dövründə "58-ci maddə"yə daha çox istinad olurdu – yəni sorğusuz, məhkəməsiz, "üçlüyün" qərarı ilə insanları güllələmək.**

L. Brejnevin dövründə isə (1964-1982-ci illər) Cinayət Məcəlləsinin 167-ci maddəsindən daha çox istifadə edilirdi: **"hakimiyyətdən və qulluq mövqeyindən sui-istifadə"**. Bu maddəyə əsasən insanları 2 ildən - 8 ilə qədər həbs cəzasına məhkum edirdilər.

O dövrdə, xüsusən 1970-1980-ci illərdə Azərbaycanda bu maddə geniş tətbiq edilirdi. İstənilən vəzifəli şəxsi çox asan bir qayda ilə bu maddə əsasında vəzifə kürsüsündən həbsxana kamerasına göndərə bilirdilər.

---

***Qaynaq:***
*www.legalacts.az/az/document/1446/1312*

## KOMMUNİZMƏ GEDİRİK BİZ

Ar-namusu ata-ata,
Kommunizmə gedirik biz.
Bir-birimizi sata-sata,
Kommunizmə gedirik biz.

Başımızda motal papaq,
Əlimizdə zorba çomaq,
Ağ şalvarda qara yamaq,
Kommunizmə gedirik biz.

Ulduzlara ucalırıq,
Gecə-gündüz ac qalırıq.
Cavan ikən qocalırıq,
Kommunizmə gedirik biz.

Əlimizdə yavan tikə,
Yaman günə qaldı ölkə.
Yuxumuzda çataq bəlkə,
Kommunizmə gedirik biz.

Bu şeirin kim tərəfindən yazılmasını isə Aşıq İdris Alakollu belə izah edir: "Bu şeir 1950-1960-cı illər arasında yazılıb. Aşıq Mikayıl Azaflı mənə söylədi ki, bu şeiri mənim adıma çıxırlar, lakin belə deyil. Bu şeiri yazan adam əsli Cənubi Azərbaycandan olan Seyid Pənah adlı birisidir. Onlar Cənubi Azərbaycandan Ağdama köçüblər. Sonra o, bir müddət gəlib Tovuzda qalıb".

***Qaynaq:***
*Tovuzlu Aşıq İdris Alakollunun şəxsi arxivindən*

***Qeyd:*** *Jurnalist Ə.Muxtarlı bu şeirin Zaqataladan olan bir şairə aid olduğunu bildirir.*

## DƏMİR GƏDƏBƏYLİ: "BU ŞEİRƏ GÖRƏ DTK-DA İŞGƏNCƏ VERİB DIRNAĞIMI QOPARDILAR"



*Dəmir Gədəbəyli*

Bu şeirin müəlliflərinin müxtəlif olduğu söylənməkdədir. Şair Dəmir Gədəbəyli isə şeirin ona məxsusluğunu belə qeyd edir: "1961-ci ildə Moskvada Ümumdünya gənclərinin II festivalı keçirilirdi. Festivalda Azərbaycandan olan gənc aşıqlar – aşıq İmran, aşıq Əkbər, aşıq Mahmud birlikdə "Kommunizmə gedirik biz" adlı aşıq mahnısı oxumuş və orada birinci yeri tutmuş, mükafat almışdılar. Və bu müsbət mənada kommunizmi tərənnüm edən, tərifləyən şeirin sözlərinə bəstələnmiş bir aşıq mahnısına çevrilmişdi:

... Xoş gəlibdi elin yazı,
İmran çalır telli sazı,
Kommunizmə gedirik biz!

Bu mahnı məni bərk acıqlandırdı və burdakı sözlərin, fikrin əleyhinə olan, tamamilə əks ruhlu "Başımızda motal papaq, kommunizmə gedirik biz" misralı şeiri yazdım. Bu şeir az bir zamanda məşhurlaşdı və bütün Azərbaycana yayıldı. Toy məclislərində isə aşıqlar istehza və camaatı əyləndirmək ruhunda bu şeiri mahnıya çevirib oxuyurdular. Məsələn, Aşıq Mikayıl Azaflı bu şeiri məclislərdə çox oxuyurdu.

DTK işçiləri bu şeirin müəllifini tapmağa çalışırdılar. Təsadüfən bir şair tanışıma şeirin mənə məxsusluğunu söyləmişdim. Sonradan şübhələndim ki, o, məni satıb. Məni altı ay həbs edib DTK-da saxladılar, işgəncə verdilər, dırnağımı qopardılar və sonda müstəntiq Arifə etiraf etdim ki, bəli, o şeiri mən yazmışam. Digər müstəntiq Kərim Hüseynov bu şeirə görə məni çox incitdi.

**DƏMİR GƏDƏBƏYLİNİN 1988-Cİ İLİN 18 MAYINDA MİTİNQDƏ SÖYLƏDİYİ MƏŞHUR ŞEİR**

**AYAĞA QALX, AZƏRBAYCAN!**

Sən can dedin, Çor[1] söylədi,
Sülh istədin, zor söylədi.
Həyat dedin, gor söylədi,
Dost olarmı hər azğından?
Ayağa qalx, Azərbaycan!

Sən müqəddəs bir torpaqsan,
Haqq bilir ki, hər vaxt haqsan.
Sən Təbrizsən, Qarabağsan,
Bir haraydı el-el qopan,
Ayağa qalx, Azərbaycan!

Qart köpəklər sənə hürür,
Fitnəkarı dünya görür.
Qətlinə bir fərman verir,
Sarsaq Vazgen, gic Balayan.
Ayağa qalx, Azərbaycan!

Dəvə kimi kini birdi,
Uzunu bir, eni birdi.
Xaçı birdi, dini birdi,
Kömək umma sarılardan,
Ayağa qalx, Azərbaycan!

---

***Qaynaq:***
*Şair Dəmir Gədəbəylinin şəxsi arxivi*

[1] "Çor" azar mənasındadır

## 10 İLƏDƏK SOVET HƏBSXANALARINDA ƏZABLAR ÇƏKMİŞ, LEGİONER HƏYATI YAŞAMIŞ, STALİNİZMƏ ETİRAZ ŞEİRLƏRİ YAZMIŞ ŞAİR MƏZAHİR DAŞQIN (BORSUNLU) (1909-1979)



*Məzahir Daşqın*

Sənin yaratdığın qanlı səltənət,
Firona, Çingizə qazandı rəhmət.
Hanı Lenin yolu, hanı ədalət?
Cəlladısan səadətin, a zalım!

Ağzına od basdın haqq deyənlərin,
Düşünən başları basdırdın dərin.
Əfsanə sayılan tanrı məşəlin,
Sonun görmək deyil çətin, a zalım!
**(1946-cı ildə yazılmış "A zalım" şeirindən)**

1955-ci ildə M. Daşqın həbsxanada olarkən "Fələk" şeirində də Stalin və ətrafındakı qatilləri tənqid edərək yazırdı:
Nə qədər bir dələduz varsa, yığıb dəstələdin,
Özün tamada oldun, onları da məst elədin.
Alimi, söz qananı, ey zalım şikəst elədin,
Axıra şair qaldı, Daşqına da qəsd elədin,
Sənə nifrət eləyir, yaxşı da, həm pis də, fələk.

1938-ci ildə atası həbs edilən Məzahir gənc yaşlarından sovet rejiminin qəddarlığı ilə üzləşir. Bir müddət gizli yaşayır. 6 aya qədər Tbilisidə, Orconikidze şəhərlərində yaşayıb Gəncəyə qayıtmağa məcbur olur (şair Səməd Vurğunun köməyi ilə).

1941-ci ildə Böyük Vətən müharibəsi başladıqda ordu sıralarında İrana, oradan isə almanlarla savaş cəbhəsinə göndərilir. Burada almanlara əsir düşən Məzahir Daşqın legioner həyatı yaşayır, Azərbaycan legionerlərinin qəzeti olan "Azərbaycan" qəzetində (redaktoru Məcid Musazadə- Qarsalani idi) şeirlər çap etdirir.

## AŞIQ MİKAYIL AZAFLININ (1924-1990) HƏBSİ



*Mikayıl Azaflı*

Məşhur el aşığı, Tovuz rayonundan olan **Mikayıl Azaflı** el şənliklərində sovet rejimindən narazılıq ifadə edən fikirlər söyləyirdi. Qorxu bilməyən aşıq məclislərin birində "Ağ şalvarda qara yamaq, kommunizmə gedirik biz" misraları ilə başlayan şeiri hansısa məclisdə oxuduğuna görə Dövlət Təhlükəsizlik Komitəsinin qara siyahısına düşmüş və o, həbs edilmişdi. Doğrudur, onun həbsi səbəbində "Oğurluqda və evində silah saxlamaqda təqsirli bilinib" göstərilsə də, sənətkar dörd **il (1961-1964) azadlıqdan** məhrum edildi. Əslində Aşığı həm də başqalarını da təzyiqdə saxlamaq üçün həbs etmişdilər. Aşığın özü isə tutulmaq səbəbini belə izah edirdi:

Ədalət, həqiqət carçısı oldum,
Töküldü üstümə günah, amandı.

Aşıq Azaflının yaşadığı sovet rejimi isə ədalətin, həqiqətin carçılarını sevmirdi.

Aşıq zindanda olduğu zaman "O mənəm", "Bənzər", "Deyəmmərəm", "Sən demə", "Döndü körpələrin qana yaşları" kimi məşhur qoşmalar yazdı.

Sonradan onun **"Zindan məktublar"** adlı kitabı da çap edildi.

## AŞIQ MİKAYIL AZAFLININ DÖVRƏ, CƏMİYYƏTƏ ETİRAZLARINDAN

Tarix, zaman, əldə Quran
Dedi yalan, vurdu nalan.
Hansı dövran verdi meydan?
Ədalətə, həqiqətə?

***("Dostum şair "Kəmsavada")***




Mikayıl Azaflının kitabı

Məni siz qurtarın şər qəfəsindən,
Qəzayi-qədərin qəm nəfəsindən.
Vicdan əzabından, dəhşət səsindən,
Ağardı saçlarım qar oldu, hakim.

İttihamçı deyər, tələblər keçər,
Haqqı, ədaləti hakimlər seçər.
Adil insaf eylər, zalım qan içər,
Böhtan həyatıma mar oldu, hakim.

***(“Hakim” şeiri)***

Olmuşam həqiqət, vicdan xəstəsi,
Hər yerdə doğrunun batıxdı səsi.
Dəydikcə qəlbimə dövran tənəsi –
Qaçam sərhədlərdən keçəm, keçilmir.

***(“İçilmir” şeiri)***

Əgər istəyirsən salamat olmaq,
Qılıncı qanlıdı - zamandan demə.
Dövrün adətidir şər, hiylə qurmaq,
Yamandan yamandı, divandan demə.

***(“Demə” şeiri)***

Vicdanlı əsirdi vicdansızlara,
Zəmanə dəm verir o qansızlara.
İmanı satırlar imansızlara,
Sitəmkar əlindən, nadan əlindən.

***(“Əlindən” şeiri)***

---

***Qaynaq:***

*1. M.Azaflı. Qoca Azaflıyam. B., “Nurlan” nəşriyyatı, 2008.*

*2. Q.Paşayev. Mikayıl Azaflının keşməkeşli həyatı və sənət yolu. (21.03.1924-12.10.1990), (M. Azaflının kitabına giriş sözü).*

*3. M.Azaflı. Zindan məktubları. Bakı, 2013.*

## 1970-Cİ İLLƏRDƏKİ AZƏRBAYCAN HƏYAT TƏRZİNƏ YAZILAN SATİRİK ŞEİRLƏR



*İdris Alakollu*

**Aşıq İdris Alakollu** Tovuz mahalında 1936-cı ildə dünyaya gəlib. Tanınmış aşıq Mikayıl Azaflının şagirdi olub. Onu ən çox məşhurlaşdıran isə sovet dövründə yazdığı satirik şeirləri olub. Aşığın 1974-cü ildə yazdığı "Əl çalırıq" və "Səs veririk" şeirləri dövrün acı reallığını öyrənmək baxımından çox əhəmiyyətlidir.

### ƏL ÇALIRIQ

Ürəyimdə milyon dərd var,
Bilə-bilə əl çalırıq.
Bir-birmizə hər kələyi
Gələ-gələ əl çalırıq.

Tullamışıq namus, arı,
Görən kimdi günahkarı?
Özgələrlə dövlət-varı
Bölə-bölə əl çalırıq.

Bir duyan yox ağrımızı,
Minən basır yağrımızı.
Yalan sözlər bağrımızı
Dələ-dələ əl çalırıq.

Şillə dəyir üzümüzə,
Barmaq girir gözümüzə.
"Ura" deyib özümüzə,
Gülə-gülə əl çalırıq.

Araz keçir aramızdan,
Qanlar sızır yaramızdan.
Dahiləri sıramızdan,
Silə-silə əl çalırıq.

Kiminkidi keçən naxır,
Kimlər yeyir, kimlər baxır.
Ağzımızdan nəfəs çıxır,
Ölə-ölə əl çalırıq.

İdris deyər, elimizdə,
"Davay, davay" dilimizdə.
Şər mətahı belimizdə,
Şələ-şələ əl çalırıq.

## SƏS VERİRİK

Haray salıb ormanlara,
Hər cəhətə səs veririk.
Talan çəkib xırmanlara,
Bərəkətə səs veririk.

Ac gələni doydurmağa,
Dərimizi soydurmağa.
Evi viran qoydurmağa,
Xəyanətə səs veririk

Keçən günü ana-ana,
Dinimizi dana-dana.
Cəhənnəmdə yana-yana,
Biz cənnətə səs veririk.

Sarı yağnan yağlayırıq,
Sarımsaqla dağlayırıq.
Gülə-gülə ağlayırıq,
Bu vəhdətə səs veririk.

Quyu qazıb salladırıq,
Yazı yazıb qolladırıq.
Qardaş olsun, aldadırıq,
Sədaqətə səs veririk.

Nə olubdur bu millətə,
Gündə düşür bir zillətə.
Nə insafa, nə mürvətə,
Nə qeyrətə səs veririk.

Alakollu İdris, haqdan.
Bəla enib neçə vaxtdan.
Adil şahı salıb taxtdan,
Səltənətə səs veririk.

---

***Qaynaq:***
*İdris Alakollu. Bir diləyim var... B., 2011.*

## SOVET REJİMİNDƏN NARAZI ŞAİRLƏR

### Kəlbəcərli şair Sücaət:

Baxmaz ürəyimin qanınnan yazsam,
Ağlayan gəncliyin alnınnan yazsam.
Əgər bu qaydadan-qanunnan yazsam,
Sücaət, güllələr hökumət səni.

**Şair Bəhmən Vətənoğlu:**

Az ibadət eylə, ağlı kəm insan,
İxtiyar bir yaltaq dil olandadır.
Heç görmüsən, düz danışan baş ola,
Ədalət – cibində pul olandadır.

---

***Qaynaq:***
*İsgəndər Həmidovun şəxsi arxivindən.*

## GƏNCƏLİ EL ŞAİRİ MƏHƏMMƏD KƏMSAVADIN SOVET REJİMİNİ TƏNQİD EDƏN ŞEİRLƏRİ


***Məhəmməd Kəmsavad***

Sovet rejimindən narazılıq ifadə edən, məşhur şeirlər müəllifi kimi tanınan gəncəli **el şairi Məhəmməd** Bayraməli oğlu İbrahimov 1915-ci ildə Yevlax rayonunun Qəjərlər kəndində anadan olub. Xanlar (indiki Göygöl) rayonunda Pedaqoji texnikumu bitirib.

1941-ci ilə qədər Yevlaxda müəllim işləyib. 1941-ci ildə müharibəyə gedib. Müharibədə bir ayağını itirdiyindən, 1943-cü ildə geri qayıdıb. Onun qardaşı da müharibədə şəhid olub. Müəllim işləməsi mümkün olmadığından, Naftalan rayonuna mühasib işinə göndərilib.

1947-1948-ci illərdə Gəncəyə gəlib və ömrünün sonunadək burada yaşayıb. Gəncə şəhərində bir müddət ticarətlə də məşğul olub.

M.Kəmsavad 1981-ci ildə rəhmətə gedib.

O, "Dəli Kür" filmində Cahandar ağa rolunu oynayan Ələddin Abbasovun xalası oğludur. O, şeirlərini **Kəmsavad** təxəllüsü ilə yazıb.

Yazdığı şeirlərdə yaşadığı mühitdəki eybəcərlikləri, çatışmazlıqları, məmur özbaşınalığını kəskin tənqid edib. Bu şeirlərinə görə onu üç dəfə həbs ediblər. İlk dəfə iki il iş kəsmişdilər. O, bir ilə qədər həbsdə qaldıqdan sonra, anası evinin əşyalarını satıb onu azadlığa çıxarmışdı. Sonralar isə həbs olunaraq bir neçə ay azadlıqdan məhrum edilmişdi.

Şair Məhəmmədin sovet rejimi əleyhinə çox kəskin şeirləri olub. **Sovet dövlətinin başçısı N.S.Xruşşova şeir formasında xüsusi məktub yazıb və bu da onun həbsinin səbəblərindən olub. Onu üç dəfə həbs ediblər.** 1981-ci ildə maşınla vurularaq qətlə yetirilib. Məzarı Gəncədə İmamzadə qəbiristanlığındadır.

**Məhəmməd Kəmsavad**

**NƏ DEYƏSƏN?**

Müdir gedir aşxanaya
Düz birbaşa, nə deyəsən?
Heç baxmayır ahu-vaya,
Gözdə yaşa, nə deyəsən?

Deyirsən ki, yuxarı get,
Bu əclafdan şikayət et.
Ordakı it, burdakı it
Alabaşa nə deyəsən?

A Kəmsavad, əzəl başdan,
Pay ummaynan kəllə çaşdan.
İndi gedib bu oğraşdan
O oğraşa nə deyəsən?

***(Bu şeiri onu işdən çıxaranda "get şikayət et" deyənlərə cavab olaraq yazıb).***

**BİR DEYİLDİR, BEŞ DEYİLDİR**

Mənim dərdim həddən aşıb,
Bir deyildir, beş deyildir.
Ac olsam da nəql edərdim,
Bir deyildir, beş deyildir.

Tərəziyə vurram çəpik,
Pul yığıram qəpik-qəpik.
Mənə dəyən yumruq, təpik
Bir deyildir, beş deyildir.

Evimdədir səkkiz yeyən,
Dərsə gedən, paltar geyən.
İdarədə "gəl, ver" deyən,
Bir deyildir, beş deyildir.

Kəmsavadam, sözüm soğan.
O səbəbdən çoxdu boğan.
Panamalı nəzir yığan,
Bir deyildir, beş deyildir.

***(Panama – başa qoyulan şlyapa, papaq mənasındadır – red).***

## M. KƏMSAVADIN SOVET DÖVLƏTİNİN BAŞÇISI L.İ.BREJNEVƏ YAZDIĞI ŞEİR

M. Kəmsavad 1970-ci illərdəki Azərbaycanda olan özbaşınalıqlara işarə edərək L.İ.Brejnevə "Bura gəl" şeirini yazmışdı.

**BURA GƏL!**

Ay dünyanı düzəldən,
Bircə yol da bura gəl!
Zillətdəyəm əzəldən,
Günüm olub qara, gəl!

Xodaqçılar (1) yatırlar,
Bağı qırıb qatırlar.
Mənə şıllaq atırlar,
Elə vurhavura gəl!

Hər əldə var bir zopa,
Lap dönmüsən hop-hopa.
İnanma sən hap-gopa,
Gələndə bir kara gəl!

Kəmsavadam yetmişəm,
Sanma ölüb getmişəm.
Daha vərdiş etmişəm,
Cəhənnəmə, gora gəl!

Qeyd: "Xodaqçı" – ulağa, qatıra baxana deyirlər. Bu şeirdəki "Cəhənnəmə, gora gəl" misralarına görə, M.Kəmsavadı başqa adla şərləyib sonradan həbs etmişdilər.

**YAZIMMI?**

Nöqsanlardan yazma, − dedin,
yazmıram.
Heç olmasa ciqanlardan yazımmı?
Ədaləti sevənlərin yanında,
Məzlumları boğanlardan yazımmı?

Heç örtülü qalınarmı paxır da,
Geci-tezi açılacaq axırda.
Fermanınkı, qısır qalıb naxırda,
Özününkü doğanlardan yazımmı?

İşləyirik, toz-torpağa bələnib,
Haqsızlıqdan başıma qar ələnib.
O portfelli, panamalı dilənib,
Nəzir-niyaz yığanlardan yazımmı?

Yadımdadır yüzlükləri verdiyim,
Vermədikdə haqsız dama girdiyim.
Hər təpəmə dirənəndə gördüyüm
Nadanlardan, pişton (silah)lardan
yazımmı?

Kəmsavadam, deyim sözü mərdana,
Bir naxırı pis etməzmi bir dana?
Çoxlarını salıb şərə-böhtana,
İnək kimi sağanlardan yazımmı?

***Qaynaq:***
*1.Aşıq İdris Alakollunun şəxsi arxivi.*
*2.Tədqiqatçı Ceyhun Nəbinin şəxsi arxivi.*

# ASİF ATA - OCAQ KLUBU (1970-1980-Cİ İLLƏRDƏ FƏALİYYƏTLƏR)

## Asif Ata



*Asif Ata*

**Asif Ata** (Əfəndiyev Asif Qasım oğlu) 1935-ci ildə sentybarın 25-də Qazax mahalının Qaraqoyunlu elində Çaykənd kəndində doğulub.

O, 1951-ci ildə orta məktəbi bitirib və elə həmin ildə də ADU-nun filologiya fakultəsinə daxil olub.1952-ci ildə M. Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutuna təhsil almağa göndərilən Asif Ata burada oxuduğu illər ərzində dünya fəlsəfəsini, ruhaniyyatını, ədəbiyyatını, tarixini, mədəniyyətini öyrənir və dünya ilə müqayisədə Azərbaycanın böyüklüyünü özündə bir daha təsdiq edir.

**1957-ci** ildə institutu fərqlənmə diplomu ilə bitirən Asif Ata Yeni İnam yaratmaq qətiyyəti ilə Azərbaycana qayıdır. 1959-cu ildən başlayaraq Rus Dili və Ədəbiyyatı İnstitutunda Qərb ədəbiyyatı müəllimi işləyir. Onun müəllimlik yönü İnamçılıq olur. 1959-cu ilin noyabrında "Literaturnıy Azerbaydjan" jurnalında çap olunan "Tənqid və zaman" məqaləsindən sonra Asif Ata təqiblərə məruz qalır, işdən çıxarılır, 1968-ci ilə qədər çap olunmaq imkanından məhrum edilir.

**1976-cı** ildə Asif Atanın "Müdriklik səlahiyyəti" kitabı çap olunur. Elə həmin ildən etibarən o, ADU-da (indiki BDU) - *red.*) estetika müəllimi işləyir və orada **Etik və Estetik Tərbiyə Klubu** yaradır. Asif Ata ocağının ilk ideyaları burada səslənməyə başlayır və klub yüzlərlə insanın sevimlisinə çevrilir. 1979-cu ildə universitet rəhbərliyi Asif Ataya klubun tədbirlərini keçirməyə icazə vermir və Asif Ata klubu respublika Bilik Cəmiyyətinə köçürməli olur. Klub burada "klub" yox, "Ocaq" adlandırılır. Asif Ata isə "sədr" yox, "Ata" çağrılmağa başlayır.

Tezliklə Asif Ata, onun Ocağı DTK tərəfindən təqib olunmağa başlayır. Lakin Asif Ata Ocaq fəaliyyətindən əl çəkmir. 1982-ci ildə o, "antimarksist, antisovet, revizionist, antikommunist, pantürkist, klerikalist, anarxist, faşist" adlandırılaraq işdən, partiyadan çıxarılır, ailəsi dağılır, elmi dərəcəsinin və elmi adının alınması barədə Ali Attestasiya Komissiyasına müraciət edilir. Lakin bütün bunlar Asif Atanın inamını, gücünü sındıra bilmir. Ömrünün bu çətin vaxtlarında o, gizli şəkildə Ocaqdakı fəaliyyətini davam etdirir, bir çox müqəddəs kitablarını yazır.

**1988-ci ildə** Asif Atanın "İnam və şübhə" kitabı çapdan çıxır.

**1991-ci ildə** o, Ali Attestasiya Komissiyasına müraciət edərək insani ləyaqətini qorumaq üçün elmi dərəcəsindən və elmi adından imtina edir.

Asif Ata insanlar üçün 45 Müqəddəs kitab, saysız-hesabsız söz (Kəlam) qoyub getmişdir.

**Asif Ata 1997-ci ilin iyun ayının 5-də** vəfat etmişdir. Asif Ata Ağstafa şəhər qəbiristanlığında dəfn edilib. Qeyd edək ki, böyük Azərbaycan şairi Hüseyn Arifin də məzarı buradadır.

ASİF ATANIN NƏŞR EDİLMİŞ KİTABLARINDAN:

*1. A.Əfəndiyev. Müdriklik səlahiyyəti. Bakı, 1976.*

*2. A.Əfəndiyev. İnam və Şübhə. Bakı, 1988.*

*3. Asif Ata. Uluyurd Aqibəti - Bütöv Azərbaycan. (İzharlar, Müsahibələr, Məqamlar...). Bakı, "Araz", 2007.*

---

***Qaynaq:***

*Asif Ata. Uluyurd Aqibəti - Bütöv Azərbaycan (İzharlar. Müsahibələr. Məqamlar...). Bakı, 2007.*

## ETİK VƏ ESTETİK TƏRBİYƏ KLUBU

Bu qurum **1976-cı** ildə Bakı Dövlət Universitetində (Azərbaycan Dövlət Universiteti) Asif Ata tərəfindən yaradıldı. 1970-ci illərdə Azərbaycanda sosializmin təntənəsindən danışıldığı bir zamanda, marksizm-leninizm insanlara "xoşbəxtlik" bəxş etdiyi bir zamanda aparılan ideoloji



*Asif Ata çıxış edərkən*

xəttə zidd fikirlər söyləmək asan deyildi. Asif Ata böyük cəsarət göstərərək, çıxışlarında antimarksist fikirlər söyləyirdi. O, deyirdi: "Marksizm elm deyil, dindir, xurafatdır, ən yaxşı halda siyasi mifologiyadır".

**Asif Atanın çıxışlarından:** "Millətçi – xalqı, yurdu, vətəni mütləq saymaqdır! Nə qədər sən talantlı adam olsan, nə qədər sənə dahilik verilsə belə, əgər sən öz vətənini nisbi bir şey sayırsansa, əgər sən vətənini dünyanın yalnız bir hissəsi sayırsansa, sənə də ağıllı deyirlər: "hissə qapılmır, duyğuya qapılmır" - əgər sən yurdunu nisbiləşdirirsənsə, sən ləyaqətindən keçirsən, millət ləyaqətindən keçirsən, xalq ləyaqətindən keçirsən! Bundan sonra neyləyirsən elə, nə deyirsən de - sən əksilmisən!"

Təbii ki, o dövrdə bu fikirləri söyləmək asan deyildi. Asif Ata isə daha sərt şəkildə sovet ideologiyasını tənqid edirdi.

**Asif Atanın yazdıqlarından:** "Marksizmin canı bu idi ki, gec-tez bütün millətlər birləşəcək, qovuşacaqlar bir-birinə və bir dövlət olacaq - hamısını birləşdirən. Bu mümkün olan bir şey, amma canı bu idi marksizmin. Bir tərəfdən də bunu yavaş-yavaş eləyirdilər. Ona görə də millətlərin çiçəklənməsi haqqında Lenin, Stalin, o biriləri danışanda ki, "millilik hər şeydi" aldadırdlar camaatı! O dövrdə heç bir meydan-zad yox idi! Heç bir haray-həşir də yox idi! Amma Moskva Ədəbiyyat İnstitutunu qurtarıb gəlmiş bir adamın, estetika müəlliminin hiddəti vardı: deyirdi ki, bu, fəlakətdir. Və qəribə bir məntiq yaranırdı: bütün millətlər onsuz da yox olacaq; bir tərəfdən də milli inkişaf, milli ədəbiyyat, milli dil! Tutmadı bunlar! Bu, oyun idi, siyasi oyun! Və mən bunu deyirdim. 1976-cı ildə biz artıq bunu əsaslandıra bildik (1982-ci ilə qədər). Tək bunlar deyildi. Bütün indi deyilən nə varsa – türkçülük haqqında, azərbaycançılıq haqqında, milli-azadlıq haqqında, müstəqillik haqqında. Elə bir söz olmadı ki, biz onu əvvəl deməyək: özü də yüksək fəlsəfi səviyyədə. Bilirdik ki, bu çox ağır işdi, adamın başına min cür iş gələcək".

Qeyd edək ki, klubun məşğələləri çox canlı, maraqlı keçirdi. Bu məşğələlərdə çoxlu polemikalara da yer verilirdi. Məşğələlərin birində tanınmış musiqişünas Firidun Şuşinski ilə xanəndə Vəli Məmmədov arasında baş verən mübahisə həm də maraqlı polemikaya çevrilmişdi. Belə situasiyalar klubun tədbirlərində tez-tez olurdu.

Klubda apardığı söhbətlər Asif Ataya ciddi problemlər yaradırdı. 1982-ci ildən isə bu hücumlar daha da gücləndi. Əvvəlcə ona antimarksist, sonra isə antikommunist damğası vurdular. Ondan sonra isə millətçi, pantürkist. O dövrün şərtləri daxilində isə bu, ağır ittihamlar idi.

**Asif Atanı isə sovet mətbuatında kəskin tənqid edənlər tapılırdı.** Yəni əslində bu, "sifarişli" tənqid idi. Həmin "sifarişli" tənqidi icra edənlərdən biri Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalının 4-cü sayında Asif Atanın əleyhinə bir məqalə ilə çıxış etmişdi (bu məqaləyə görə "Azərbaycan" jurnalının əksər sayları satılıb qurtarmışdı). Məqalə müəllifi yazırdı ki, guya o, Asif Atanın (Əfəndiyevin) məqalələrini "müasir ədəbi-tənqidi fikrimizi saflaşdırmağı, sağlamlaşdırmağı naminə, obyektiv tələbatdan" çıxış edərək tənqid edir. Əslində isə məqalədə Asif Atanı ciddi tənqid atəşinə məruz qoyurdu. Məqalə müəllifi Asif Atanı mövcud şəraitdən, hakim ideologiyadan, dövrün ictimai sifarişindən uzaq düşməkdə qınayır.

Lakin Asif Ata bu hücumlara dözür və inamla yolunu davam etdirirdi.

**Onun davamçılarından olan Safruh** Asif Əfəndiyev şəxsiyyətini belə dəyərləndirirdi: "Atalıq - yeni məzmunun ən dəqiq ifadəçisi, biçimə sığışmayan biçimi oldu. Beləliklə, Asif Ata (Əzəl Ata) yarandı - təbii, tarixi, idraki, milli-türki, şərqi və bəşəri zərurətdən. Bu isə nə bir ada-soyada sığışardı, nə də bir ailəyə. Tezliklə elə də oldu - hər ikisindən kənara çıxdı".

Klubun toplantıları çox maraqlı keçirdi. Buraya çoxlu sayda tələbələr, gənclər gəlir, yeni fikirləri maraqla dinləyirdilər.

---

***Qaynaq:***

*1. Asif Ata. Uluyurd Aqibəti - Bütöv Azərbaycan (İzharlar, müsahibələr, məqamlar). Bakı, "Araz", 2007.*

*2. Safruh. Ata səcdəsində. Bakı, "Günəş", 2007.*

*3. Safruh. Başlanğıc. "Azərbaycan Milli Ensiklopediyası". NPA, Bakı, 2003.*

***Qeyd:*** *1979-cu ildə universitet rəhbərliyi Asif Ataya klubun tədbirlərini keçirməyə icazə vermir. Və o, klubun fəaliyyətini Respublika Bilik Cəmiyyətində keçirməli olur.*

***Qeyd:*** *Klubun məşğələləri universitetin P.Lumumba (o dövrdə, indi Z.Xəlilov küçəsi) küçəsindəki binasında keçirilirdi.*

## OCAQ KLUBU



*Asif Ata tədbirdə*

Əslində, bu qurum Asif Atanın 1976-cı ildə yaratdığı Estetik və etik tərbiyə klubunun fəaliyyətini davam etdirirdi. **Ocağın əsası Asif Ata tərəfindən 1979-cu ildə martın 1-də qoyuldu.**

Asif Atanın davamçılarından olan, onunla hələ 1975-ci ildən dostluq edən Safruh 2007-ci ildə nəşr edilən **"Ata səcdəsində"** kitabında yazırdı: "İllər ötdükcə Asif Əfəndiyevin öz şəxsiyyətinə – inamına, idrakına, mənəviyyatına, iradəsinə topladığı məzmun Asif Əfəndiyev qəlibinə sığışmadı. İnsanın qeyri-insan kimi yaşamağa məhkum edilməsi, insanla təbiət, fərqdlə xalq arasındakı doğmalığın yoxa çıxması, müqəddəsliyin öldürülməsi və insanın əlindən tamamilə alınması, Azərbaycanın kölə halına salınması – öz dövlətindən məhrum olması, türk irqinin öz ruhaniyyatını, öz peyğəmbərini yaratmaması, şərqin özünü itirməsi və get-gedə qərbin güzgüdəki kimi əksinə çevrilməsi, sosializmin (totalitarizmin) insanları və xalqları şikəst etməsi, kapitalizmin insana zidd quruluş olaraq qalması, bütün bunların sənətə və elmə keçməsi sənətin, elmin öz əzəli və əbədi vəzifələrinə – insanın ruhani yaşamasına xidmətə dönük çıxması, mövcud dini dünyagörüşünün artıq çoxdan öz qüvvələrini itirmələri – onların içindəki yalanların üzə çıxması və onları yoxa çıxartması... Bütövlükdə: insan, həyat, dünya, təfəkkür-idrak məsələləri... Tamamilə yeni ölçülər, daha doğrusu, ölçüsüzlük, əlçatmazlıq, bənzərsizlik tələb

olunurdu. İnsanın (xüsusi Ocaq övladlarının) heç yerdə rahatlıq tapmaması, Vətəndə vətən üçün həsrət çəkməsi, ürək qızdırmağa, bel bağlamamağa bir kəs tapmaması, hətta özündən də qaçmağa hazır olması, heç yerdə təmizlik görməməsi... məhz bundan irəli gəlirdi... **Ata sorağıyla Ocağa gəldik – qəlbimizin, ruhumuzun, sevgilərimizin uçuşu üçün gözişləməz ənginliklərə, əlçatmaz göylərə düşdük".**

---

***Qaynaq:***

*Safruh. Ata səcdəsində. Bakı, "Günəş" nəşriyyatı, 2007.*

## OCAĞIN YARANMA SƏBƏBİ

Ocağın nə məqsədlə yaranması haqqında Asif Ata hələ **1980-ci** ildə belə yazırdı: "Biz türkdilli xalq olsaq da, ən çox şərqi xalqıq. Bizim mənəviyyatımızda ümumi Şərq mahiyyəti çox güclüdür. Adət-ənənəçiliyimiz, cəngavərliyimiz hamıya bəllidir. Belə bir xalq özünəməxsus mənəviyyat fəlsəfəsi yaratmalıdır. Tarix onun qarşısında bu vəzifəni qoyub.




***Asif Atanın kitabı***

Ocaq həmin zəruriyyətdən yaranıb!

Füzulilərin, nəsimilərin, muğamatın, sazın, şərq ruhunun, ümumən dünya idrakının davası olan mənəviyyat fəlsəfəsini Ocaq Mütləq yaradacaq!

Biz dünyanı və insanı da gözəl və kamil görmək istəyirik.

Dünyanın aqibəti insanın əlindədir. Gözəl insanlar gözəl dünya yaratmağa qadirdirlər.

Azərbaycanın sinəsində yanan bu Ocaq xalis, qeyrətli, pak insanlar yetişdirəcək, gözəl insan yaratmaqla, gözəl dünyaya xidmət edəcək.

Qoy bir an da qəlbimizdə ülviyyət odu azalmasın!

Qoy bir an da gözlərimizdə heyrət işığı azalmasın!

Əzmimiz, gücümüz, cəsarətimiz, fədakarlığımız - məqsədimizə bərabər olsun!

Ocağın müqəddəs ruhu sönməzdir."

**Ocaq həqiqətən də tez bir zamanda Azərbaycanın ictimai-siyasi fikrinə təsir edən bir təşkilata çevrildi.**

## OCAĞIN FƏALİYYƏTİ

**Ocaq 1979-cu ildə yarandı.** Quruma bu adın verilməsinin başlıca səbəbi, soya, kökə qayıdışın vacibliyini bildirmək idi. Ocağın fəaliyyətində iki istiqamət vardı: 1) Daxil; 2) Kənar daxili fəaliyyət.

Ocağın öz qaydaları var idi və bu, qurumun birbaşa üzvləri ilə bağlı idi. Kənar fəaliyyət ilə müxtəlif yerlərdə, toplantılarda, mərasimlərdə ayrı-ayrı mövzularda çıxışlar edib, insanları maarifləndirmək, bilgiləndirmək.

## OCAQ TƏQVİMİ

Asif Ata maraqlı insan idi və onun ətraf aləmə yanaşması, baxışları yeni idi, fərqli idi. Hətta o, özünün ayrıca Ocaq təqvimini də yaratmışdı. Və bəzi ocaqçılar bu təqvimi "mənəvi dirçəliş, ruhani oyanma təqvimi" də adlandırırdılar. Həmin təqvimə görə il mart ayından (1-dən) başlanır. Bu təqvimin birinci ayı isə "Günəş" adlanır. Yəni həmin təqvim belədir:

1. **Günəş** (I ay) - mart.
2. **Çiçək** (II ay) - aprel.
3. **İşıq** (III ay) - may.
4. **Şölə** (IV ay) - iyun.
5. **Od** (V ay) - iyul.
6. **Qürub** (VI ay) - avqust.
7. **Ata** (VII ay) - sentyabr.
8. **Xəzan** (VIII ay) - oktyabr.
9. **Yağış** (IX ay) - noyabr.
10. **Sərt** (X ay) - dekabr.
11. **Qar** (XI ay) - yanvar.
12. **Köçəri** (XII ay) fevral.

Təqvimdə **həftənin günləri** də yeni adlarladır:

I. Arzu - həftənin I günü - bazar ertəsi.
II. Ümid - II - çərşənbə axşamı.
III. Dözüm - III - çərşənbə.
IV. Mərhəm - IV - cümə axşamı.
V. Qismət - V - cümə.
VI. Murad - VI - şənbə.
VII. İnam - VII - bazar.

**Ocaq təqvimi**nin 1-ci (birinci) ili Miladın 1979-na uyğundur. Ocaq hərəkatı Milad təqvimi ilə 1979-cu ildən (Mart ayından) başlandığı üçün.

## OCAĞIN BAYRAĞI

Ocaqçılara görə, İnam Türkün özümlüyünə söykənən yeni dünyabaxışıdır. Bu, o deməkdir ki, bundan sonra Türk mənəvi-ruhani taleyinə özü yiyə duracaq, onu özü yaradacaq, yadların mənəvi hamiliyinə, yardımına gərək duymayacaq. Ocağın ruhani özümlüyü sırasında onun insaniliyə əsaslanan bayrağı, günsırası (təqvimi), ilsırası (tarixi), abesi (əlifbası), toy-yas kuralları, ulusal adları ayrıca yer tutur.

"Mütləqə inam ocağının ən müqəddəs rəmzlərindən biri onun bayrağıdır". Ocaqda bayrağa saygı əsas yer tutur. Bayraq 1986-cı ilin sentyabr ayında (Ocaq təqvimi ilə 8-ci ilin 5 Ata ayında) yaradılıb və Ocaq Atası tərəfindən 1987-ci il martın 15-də (Ocaq təqvimi ilə 9-cu il Günəş ayının 15-də) qəbul edilib. **Bayrağın ümumi rəngi səmavidir, üzərində Günəş, onun içərisində Asif Atanın şəkli yer alıb.** Şəklin üstündə və altında qövsvari biçimdə Ocaq əlifbası ilə "İnsanlaşın, insanlaşdırın!" sözləri yazılıb.

Bayraq Ocağın bütün toplantılarında divardan asılır, tədbir qurtardıqdan sonra götürülür. Tədbirlərdə övladlar söz deməyə başlayarkən və sözlərini bitirərkən bayrağı öpürlər. Bayrağın asıldığı yerdə yemək yeyilməsi, bayağı danışıqlar aparılması doğru sayılmır. Ocağa yeni gələnlər "Bayraq andı" içirlər.

Bayraqda verilmiş hər bir rəngin də mənası var: 1) Mavi rəng - göydür, göy qübbəsidir, səmadır; 2) Sarı rəng - günəşdir; 3) Ağ rəng - işıqdır.

## OCAĞIN ƏLİFBASI

Qeyd edək ki, Ocağın özünəməxsus əlifbası var. **Bu əlifba 33 hərfdən ibarətdi**r və Orxan-Yenisey yazılı abidələri əsasında hazırlanıb. Ocaq övladları buna Ocaq-Türk abidəsi deyirlər.

Ocağa görə, bütün Türklər, Böyük Türk Birliyi adına, öz babalarının yetirməsi olan əlifbaya qayıtmalıdırlar.

Bu əlifba Ocaqda geniş işlədilir. Müqəddəs kitablarımız bu əlifba ilə yenidən köçürülür, Ocaq içi yazışmalar başlıca olaraq, bununla həyata keçirilir. Bu əlifbanı Orxan-Yenisey yazılı abidələri əsasında Ocaqçı (Ocaq övladı) Namazova Reyhan Sədi qızı (Ocaq adı - İnamnur) hazırlayıb.

Artıq Ocaq-Türk abesini bilgisayarda da işlətmək, onunla kitablar çap etmək olar. Abe beynəlxalq unikod sistemində qurulub. Ocaq-Türk Abesini www.asifata.com/abe.htm ünvanından öz bilgisayarlarınıza yükləyə bilərsiniz.

## OCAĞIN EMBLEMİ (OCAĞIN TURMĞASI)

Ocaqçılar emblemə turmğa deyirlər. Bu emblemin əsasında inam, idrak, mənəviyyat və iradə dayanır. Başlıca hədəf Yer Kürəsidir. Yer Kürəsi 6 ideyadan yaranıb: Mütləqə İnam, Kamil İnsan, Müstəqil Vətən, Ruhani Birlik, Özülü Şərq, Ləyaqətli Bəşər.

## OCAĞIN ANKETLƏRİ

Ocaq intizamlı bir təşkilat olub və bu gün də o qaydalar davam etməkdədir. Burada hər bir Ocaqçının şəxsi anketi qorunub saxlanılır. Anketlərdə onun fotosu, doğum tarixi, adı və digər məlumatlar mövcuddur.

Ocaqda **200-ə qədər insan övlad adı alıb** (yəni üzvlüyə qəbul edilib). Onlardan 86 nəfərinə Asif Atanın sağlığında ad verilib. Lakin cəmiyyətdə pərəstişkarların sayı daha çox olub.

## OCAQ ADLARI

**Ocaqçılar belə deyir**: Ocaq xalq yaratmaqla məşğuldur. O xalq ki, yüzillər boyu özgələşib: ərəb, fars adları daşıyıb, özgələrin yaratdığı dünyabaxışları qəbul edib, dilindəki sözlərin yarısından çoxunu alınmalar (ən çox ərəb-fars) təşkil edir. Ad sistemimiz demək olar tamam sıradan çıxıb, yaddaşlarımızdan silinib.

Ocaq bu tarixi fəlakətin ağrılarını aradan qaldırmaq istəyir, ulusumuz üçün ad yaradıcılığı işini gerçəkləşdirir.

Ocaq adlarının böyük çoxluğu türk sözlərindən yaranıb. Şərq sözləri əsasında yaranmış ruhani adlar da var: Safruh, Sadiq, Yetkin, İşıqlı, Göylü, Uluslu, Güntay, Yüksək, Bilən, Özül, Düzgün, Özgöylü, Mirtəkin, Bulaq, Qoruyurd, Doğma, Oğuz, Günev, Ucalı, Göytəkin, Türkay, Yurdçu, Soylu, Uluyol, Uluruh, Uğur, Elli, Türkel, Güntəkin, Ötkün, Yolruh, Odtəkin, Nurtay, Elana, Göyel, Odel, Özgün, Elürək, Elqaya, Birel, Göynur, Eltay və s. belə adların sayı 150-dən çoxdur".

## ASİF ATANIN FİKİRLƏRİNDƏN

Asif Ata haqqında onu tanıyanlar və davamçıları bu sözləri işlədirlər: **"Mütləqə İnam Peyğəmbəri, Ruhani Ocaq Atası, böyük Azərbaycan filosofu"** və s. Onun fikirlərində, çıxışlarında, yazılarında bir özünəməxsusluq, insanları dediyi fikirlərə güclü inandırmaq qabiliyyəti olmuşdur. Bu fikirlərdə "Türkçülük, Azərbaycançılıq, dövlətçiliyin insanilik və mütləqilik yönündən ruhani, tarixi-siyasi, ideoloji mahiyyətini, habelə Yurdumuzun, Şərqimizin, Dünyamızın müasir təzadlı siyasi vəziyyətini və çıxış yollarını əks etdirən məqamlar vardır.

### I. İNSANLAŞMAQ

Zəmanə inamını - İnamçılıq saydım.
İnam yaratdım.
Zəmanə idrakını – İdrakçılıq saydım.
İdrak yaratdım.
Zəmanə mənəviyyatını – mənəviyyatçılıq saydım.
Mənəviyyat yaratdım.
Zəmanə iradəsini – İradəsizlik saydım.
İradə yaratdım.
Zəmanə amalını – amalsızlıq saydım.
Amal yaratdım.
Zəmanə əməlini – əməlsizlik saydım.
Ocaq qaladım.
Təqiblərə yüksəldim. Ata çağrıldım.
**Bəşərin nicatı – İnsanlaşmaqdadır.**
İnsanlaşın, İnsanlaşdırın!..

**II. MÜTLƏQƏ İNAMI** türkçülüyün mahiyyəti sayırıq və ilk sözümüz odur ki, türkçülük səhvə yol verdi - Türk Dünyası Zərdüştdən sonra öz peyğəmbərini yaratmadı. Özgə inamlarına, daha doğrusu, inamsızlıqlarına, dinə xidmət elədi. İslamı islam eləyən hardasa elə türk oldu. "Harda asi görürəm - türklərimi ora göndərirəm, o, onları ram edir" - deyirdi ərəb peyğəmbəri. Bu səbəbdən də addım-addım, hal-hal türk ərəbləşdi və zahirən genişləndi, imperiya yaratdı, içəridən isə balacalaşdı, xırdalandı. Bunu demirlər, biz deyirik...

Türk mifologiyası insaniləşən təbiət və təbiətləşən insandır. Bunun əsasında ulu Zərdüştdən sonra gözəl bir inam yaratmaq olardı. Türkün bədbəxtliyi onda oldu ki, bunu yaratmadı. **Türkün psixologiyasında mərdlik, birsifətlilik var idi. Biryolluq, axıra qədər sifətini dəyişməmək. Bu, Mütləqçilik psixologiyası idi.** Lakin Mütləqçilik İnamı yarada bilmədi. Neçə əsr lazım oldu ki, belə bir inam yaransın. Ona görə də Ocaq - Türkçülüyün inamıdır. Gün keçdikcə, ay keçdikcə, il keçdikcə, əsrlər keçdikcə türk bunu dərk eləyəcək. Onun bağrından qopub Ocaq!".

**III. "TÜRKDİLLİ XALQLAR ÇOXDUR, LAKIN MƏN ÖZ OCAĞIMIZIN FƏLSƏFƏSİNİ DEMƏKDƏN ÇƏKİNMƏYƏCƏM:** Azərbaycan –türkün beyni və ürəyi, Türkiyə –türkün qolu və kürəyi. Burda heç kəs aşağı düşmür. Nə özbək, nə qırğız, nə uyğur, nə çuvaş, nə başqırd. Onların da öz yeri var. Amma bu düşür iki xalqın çiyninə: çox ağır yük düşür. Bu yükün canı, mahiyyəti budur: Türkün ruhunu özünə qaytarmaq və dünyaya yaymaq".

**IV. "HAMI AZƏRBAYCANÇILIQDAN DANIŞIR, AMMA HEÇ KƏS HEÇ NƏ DEMİR.** Nədir bu azərbaycançılıq, daha doğrusu, ruhani azərbaycançılıq? Bu - Zərdüştçülükdür, işıqçılıqdır. İşıq türk mifologiyasında da çox böyük rol oynayır. Günəşpərəst olublar türklər".

**V. "BABƏKİN RUHANİYYƏTİNİN CANI - FƏRƏH FƏLSƏFƏSİDİR.** Bunu da biz demişik, yenə də biz deyirik. Atanın fəhmi deyir. İnsan dünyaya fərəh üçün gəlib, fərəhin də ən böyüyü, ən gözəli azadlıqdır, özünəməxsusluqdur. Niyə mən sənin inamına, sənin özgə, zorakı, qılıncla gələn dininə qatılmalıyam? Qatılmıram!"

**VI. "FÜZULİ. NƏ QƏDƏR EŞQDƏN YAZAN VAR?!** Harada eşq belə məqsəddir? Yalnız Füzulidə. Necə ciddidir Füzuli! Eşq əhli kamalındır. Eşq - ülviliyə çatmaqdır".

**VII. "VƏ BİZİM ŞUMER DÖVRÜMÜZ.** Bunu da yenə bizə qıymırlar düşmənlərimiz. Əslində isə Şumer sivilizasiyanın əsasını qoyubdu, yəni mədəniyyətin. Midiyalılar yaradıblar - bizim eradan əvvəl VII-V əsrlər".

**VIII. "ƏSLİNDƏ QƏRB BİRCƏ ŞEY BİLİR - QƏRBLƏŞDİRMƏK.** Qərbə lazım deyil ayrı Türkiyə, ayrı İran, ayrı Azərbaycan. Ona lazımdır yalnız özü istədiyi Azərbaycan".

**IX. "MÜTLƏQƏ İNAM BƏRQƏRAR OLANDA,** İnsani Birlik ideyası təsdiq olunanda, İnsanlaşma öz bəhrəsini verəndə, Yurdumuz əsl müstəqilliyə çatanda, Şərq özümləşəndə - daxili münaqişələr zərərsizləşəcək". 2 noyabr 1991.

**X. "MUĞAM ƏSL RUHANİ MÖVCUDLUQ HAQQINDA DAHİYANƏ MUSİQİ HEKAYƏTİDİR.** Onda Kamil yaşamağın bütün zənginliyi, pillələri, keçidləri, mürəkkəb idraki-hissi əlaqələri öz ifadəsini tapıb".

**XI. "SAZÇILIĞIMIZ - TANRIÇILIĞIMIZ.** 1. Göy Yolu... Saz - Türkün Göy Yoluydu. Türk Sazında Göylə Birləşirdi - Bir olurdu... 2. "Ruhani"... Ruh rəqs eləyirdi və Uçurdu. Tanrısına çatırdı və alovlanırdı... 3. "Yanıq Kərəmi"... Türk aramsız Tanrı Oduna Yanırdı. Sinəsində od közərirdi. Həsrətdə, heyrətdə qovrulurdu... 4. "Cəlili". Havalanırdı Türk, Ucalıq Şövqündən. Sitəmlə birləşirdi Şövq... 5. "Misri". Dəyanət gərək olurdu Tanrıçıya. Qətiyyət tələb olunurdu. Oxşama səslənirdi Dəyanətdə... 6. "Qaraçı". Göy cəzbinə çağrılır Türk; - Göy cəzbinə çağırır. Çağırıldıqca, çağırır"... 7. Saz - Zərdüştçülük... 8. Saz - Xürrəmdinlik... 9. Saz - Qorqudluq... 10. Saz - Hürufilik.

Murad günü, Çiçək ayı, 15-ci il, Bakı. (aprel, 1993).

**XII. "MÜTLƏQƏ İNAM HƏQİQƏTƏN TƏZƏ İNAMDIR -** Yalansız, xülyasız, qorxusuz - əsl humanizmdir. Mütləqə inamda insan - dünyanın, həyatın Məna daşıyanıdır".

**XIII. "SƏTTARXANLIĞIMIZ"...** Səttarxanlıq - bizim Faciəvi, Fəlakətli Özümlüyümüzdür, özgələrə həsr olunan, özgəlikdə öldürülən".

**XIV. "1. XALQ - MİLLƏT".** Həqiqətdə Xalq elə Millət deməkdir, Millət elə Xalq deməkdir. Bu həqiqət marksizmin çox yayılmış bir Yalanına

qarşıdır: marksizm milləti kapitalizmin məhsulu hesab eləyir; guya millət sonradan əmələ gələn, ötəri, keçici hadisədir - xalqdan fərqli.

**XV. "AZƏRBAYCAN XALQI" SÖZÜ - CƏFƏNGİYYATDIR.** Azərbaycan xalqı bir əfsanədir. Azərbaycanın əsas köklü xalqı - Türk xalqıdır - etnik azlıqları birləşdirən.

**XVI. "MİLLƏTÇİLİK" BİR VAXTLAR MƏNƏ DƏ VERİLMİŞ İTTİHAM İDİ.** Müsavat Partiyasının başqa partiyalardan fərqi bir neçədir.

**Birinci. Sosisal demokratizm** (bütün cərəyanları ilə birgə) ictimai bərabərlik məsələsindən yapışıb. Yəni bütün siniflər ictimai cəhətdən bir-birinə bərabər olsunlar. O dövrdə (XX əsrin əvvəllərində-*red.*) millət-millət deyən çox idi. Sosial-demokratlardan fərqli olaraq Müsavat yeganə partiya idi ki, millətçiliyi, dövlətçiliyi Milli bərabər səviyyəsinə qaldırdı. Bu cəhətdən də o nə daşnaklara, nə gürcü menşeviklərinə, nə də sosial demokratlara yaxındır. Çox təəssüflər olsun ki, Müsavat Partiyası haqqında verilən yazılarda bu açılmır.

**İkinci. Pantürkizm-türkçülük.** Türkçülük müsavatçılardan çox əvvəl başlayıb. Böyük türkçü Ziya Göyalp, Əli bəy Hüseynzadə və başqaları bu sahədə çox iş görüblər. Ancaq türkçülüyün partiyası Kamalın partiyası yox, Rəsulzadənin partiyasıdır.

Müsavat bütün Şərqdə, bütün Avropada yeganə əsl türkçü və əsl millətçi partiya idi".

---

***Qaynaq:***

*1. Asif Ata. Uluyurd Aqibəti - Bütöv Azərbaycan (İzharlar, Müsahibələr, Məqamlar). Bakı, "Araz", 2007.*

*2. Safruh. Ata səcdəsində. Bakı, "Günəş", 2007.*

*3. Safruh. Başlanğıc. "Azərbaycan Milli Ensiklopediyası". NPA, Bakı, 2003.*

## SABİR RÜSTƏMXANLININ
## "ÖMÜR KİTABI"




***Sabir Rüstəmxanlının "Ömür kitabı"***

1987-ci ildə Sabir Rüstəmxanlının nəşr edilən "Ömür kitabı" Azərbaycan oxucuları tərəfindən böyük maraqla qarşılandı. "Gənclik" nəşriyyatında ilk olaraq 30 000 tirajla çap olunan bu kitabın növbəti təkrar nəşri 100 000-ə çatdı. Oxucuların kitaba böyük marağını görən nəşriyyat rəhbərliyi "Ömür kitabı"nı 50 000 nüsxə də rus dilində çap etdi. "Ömür kitabı"nın ümumi nüsxəsi 200 000-dən çox oldu.

Azərbaycanın əksər bölgələrində, zavodlarda, fabriklərdə kitabın müəllifi ilə çoxsaylı insanların görüşü keçirilirdi.

"Ömür kitabı"nı Z.Balayanın "Ocaq" kitabına cavab olaraq yazıldığını qeyd etsələr də, əslində belə deyil. S.Rüstəmxanlı bu kitabı tariximizlə, coğrafiyamızla, folklorumuzla, soy-kökümüzlə bağlı olan Azərbaycanı tanıdan bir səyahət kitabı olaraq yazmışdı.

Bu kitabı 1985-ci ildən yazmağa başlamışdı və bir məqsədi də xalqımızı zəif, əzilən, qorxaq kimi təqdim edənlərə cavab olaraq onu qürurlu, ləyaqətli bir toplum kimi özünə tanıtmaq idi. Əslində müəllif bu istəyinə nail olmuşdu. Kitab nəşrə hazırlanarkən isə Z.Balayana yazdığı cavabı da ora əlavə edib nəşr etdirmişdi. O, Z.Balayana cavabı yazıb Moskvaya göndərsə də, çap etmədilər və həmin cavabı bu kitaba daxil etmişdi. Yəni bu, sonda əlavə edilən bir hissə idi. Kitabın ümumi ruhu isə oxucuların böyük marağına səbəb olmuşdu.

**Qeyd edək ki, Sabir Rüstəmxanlının "Ömür kitabı" 1985-ci ildən jurnal səhifələrində hissə-hissə çap edilərək oxucular arasında böyük şöhrət qazanmışdı. 1988-ci ildə qısa vaxt ərzində iki dəfə Azərbaycan, bir dəfə rus dilində yüksək tirajla nəşr edilən kitab gənclərin milli şüurunun inkişafında mühüm rol oynamışdı. "Ömür kitabı" əldən-ələ dolaşır, bayraq kimi meydanlara gətirilirdi.**

S.Rüstəmxanlı "Ömür kitabı"na qədər "Xəbər gözləyirəm" (1979), "Gəncə qapısı" (1981), "Qan yaddaşı" şeirlər kitabını yazıb oxucu auditoriyasını maraqlandıra bilmişdi.

S.Rüstəmxanlı xatırlayır ki, hələ Yardımlıda 8-9-cu siniflərdə oxuyarkən Xruşşovun əleyhinə yazılar hazırlayıb divarlara yapışdırırdılar. Ona dərs deyən Kamil müəllim bunu bilsə də, çox dərinə getməmişdi. Universitetdə oxuyarkən isə "niyə komsomola daxil olmursan?" sualına: "Ora "fiktivni" (yəni saxta) yerdir" cavabını vermişdi.

Sonradan o, şair B.Vahabzadənin H.Hacıyev küçəsindəki evində tanınmış ziyalıların (X.Məmmədov, N.Rzayev) keçirdiyi gizli söhbətlərin də iştirakçısı olurdu.

S.Rüstəmxanlı Ana dili, Varlıq, Çənlibel, Azərbaycan Xalq Cəbhəsi təşkilatlarının fəallarından olub. 1988-ci ilin noyabr mitinqlərində isə öndə gedən siyasətçilərdən idi.

---

***Qaynaq:***

*1. Sabir Rüstəmxanlının şəxsi arxivi.*
*2. S. Rüstəmxanlı. Ömür kitabı. Bakı, Gənclik, 1987.*

**SABİR RÜSTƏMXANLI**



*Sabir Rüstəmxanlı 1946-cı il may ayının 20-də Yardımlı rayonunda anadan olub. "Ədəbiyyat və incəsənət" qəzetində çalışıb.*

*1989-cu ildən fəaliyyətə başlayan "Azərbaycan" qəzetinin ilk baş redaktoru olmuşdur.*

*1990-cı ildə Azərbaycan Xalq Cəbhəsindən Parlamentə deputat seçilmişdir. 1992-ci ildə bir qrup ziyalı ilə Vətəndaş Həmrəyliyi Partiyasını təsis etmişdir, bu günə qədər partiyanın sədridir.*

*1991-1995-ci illərdə Mətbuat və İnformasiya naziri vəzifəsini icra etmişdir.*

## ŞƏKİDƏ YARADILMIŞ OCAQ



*Nəsib Muxtarov*

1983-cü ildə Şəki rayon Mədəniyyət şöbəsində Nəsib Muxtarovun təşəbbüsü, Aşıq Sakit Qurbanov və onun "Molla Cümə" aşıqlar dəstəsinin – İntizar Bədəlovanın, avtoklub və mədəniyyət evi fəallarından İradə Saatova, Əbdüləzim Şirinovun, tarix və mədəniyyət abidələri üzrə mühafizəçi Nadir Səmədovun, sürücü Mehman və Rahimin fəal iştirakı ilə "Biz diyarı öyrənirik" qrupu yaradıldı. Çox keçmədən qrup üzvləri kəndlərdə orta məktəb, klub və mədəniyyət evləri nəzdində əmək haqqı almadan mədəni irs, abidələr, tarix və s. mövzusunda mühazirələr, fermalarda konsert-mühazirələr keçirməklə yerli özəklər yaratmağa başladılar. Belə özəklər Aşağı Göynük, Biləcik, Orta Zəyzid və s. kəndlərdə fəallıq göstərir, vətənpərvərlik mövzusunda tərbiyəvi iş aparır, yerli faktlar, abidələr və tarix haqqında məlumatlar toplayırdı. 11 nəfər üzvdən ibarət "Biz diyarı öyrənirik" qrupunun dairəsi genişlənir, şəhər və kənd ziyalılarının diqqət və marağını cəlb edir, sıraları getdikcə artırdı.

1984-cü ildə "Biz diyarı öyrənirik" qrupunun 11 nəfər üzvü və 20-dən çox fəalının bazası əsasında Ocaq Cəmiyyəti yaradıldı. Lakin onun yaranması heç də birmənalı qarşılanmadı və ilk açıq iclasından sonra leqal və qeyri-leqal formada fəaliyyətə başladı.

Ocaq Cəmiyyətinin yaradıcılıq istiqaməti yuxarılar tərəfindən ehtiyatla qarşılandı və Birliyə "Ziyalılar" evində toplaşmağa icazə verildi. Bu dövrdə Birliyə Əfəndi Cəfərov, Nəsib Muxtarov rəhbərlik edirdi. Hüseyn Mustafabəylinin, Fərhad Əzizovun, Paşa Paşayevin, Akif Əsədullayevin, yazıçı Ələsgər Ruzigarın, Əlövsət Əhmədovun və digərlərinin Ocaq Cəmiyyətinə qoşulması üzvlərin və tərəfkeşlərin sıralarını daim artırırdı.

1985-1986-cı illərdə məşğələlər bir çox hallarda evlərdə keçirilirdi.

Həmin dövrdə Ocaqda yaradılan komissiya təşkilatın nizamnamə və proqramını hazırlayıb, 1985-ci ilin oktyabr-noyabr ayında keçirilən məşğələlərə təqdim etdi.

Proqramda yazılırdı:

1. Ocaq geniş mənada mədəniyyət və yaradıcılıq birliyidir.

2. Öyrənmək, təbliğ etmək – əsas vəzifə, vətənpərvərlik, əsil mövqelik, bilik təbliğ etmək və s. əsas qayədir. Maddi-mənəvi təmənnasızlıq əsas prinsipdir.

3. Ocağın mənafeyindən yox, Ocaq hər bir üzvün nüfuz, mövqe və bacarığından faydalanmalıdır.

4. Vəzifə borcuna, cəmiyyətə, insanlığa, Vətənə və millətə borca, xidmətə, fədakarlığa görə tərif qadağandır...

Ocaq öz nüfuzu ilə daha böyük dairəyə çıxırdı. Tanınmış ziyalılar olan Kamal Abdulla və mərhum Aydın Məmmədovun tövsiyyəsi ilə ŞMF – Ocaq Cəmiyyəti adlanır (Şəki Mədəniyyət Fondu Ocaq Cəmiyyəti).

**Ocağın fəaliyyətlərindən:**

1) Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, bolşeviklər tərəfindən qətlə yetirilən Molla Cümənin 135 illiyi xüsusi bayrama çevrilir və heykəltəraş Əsgər Kərimovun təmənnasız düzəltdiyi büstün ucaldığı "M.Cümə – 135" abidə kompleksi yaradılır.

2) 1988-ci il Şəki mitinqində qətlə yetirilən ilk Azərbaycan şəhidi Akifin qəbirüstü abidəsi ucaldılır (büstün müəllifi Teyyuf onu Ocağa təmənnasız verib).

3) Köylü qızı Gülarənin xatirə abidəsi düzəldilir.

4) Şəkidə tibb sahəsində xüsusi xidməti olan M.Hacıyevin büstü ucaldılır.

Qeyd edək ki, Gürcüstan hadisələrində Yeltsinin qoyduğu əklillə Ocağın qoyduğu əklil yanaşı olaraq tarixə iz salıb.

**Ocağın strukturu. Bölmələr:**

1. Ayıqlıq – Akif Əsədullayev.
2. Poeziya və nəsr – Niyazi İdrisov, Sakit Qurbanov.
3. Tarix və etnoqrafiya – Nəsib Muxtarov, Paşa Paşayev.
4. Folklor və musiqi – İntizar Bədəlova.
5. Xalq təbabəti – Hüseyn Mustafabəyli, Fərhad Əzizov.

**Ocağın şüarlarından:**

"Təklifin yoxsa, tənqid etmə!", "Şəxsi sağlıq, monoloq qadağandır" və s.

**Ocağın Fəxri üzvlərindən:**

1. Bəxtiyar Vahabzadə
2. Mahmud İsmayılov
3. Əsgər Əyyubov
4. Yaşar Qarayev
5. Aydın Məmmədov
6. Eldar Salayev
7. Ziya Bünyadov
8. Əsgər Kərimov
9. Əhmədiyyə Cəbrayılov

***Qeyd:*** *1941-1945-ci illər Böyük Vətən müharibəsi illərində Fransa müqavimət hərəkatı qəhrəmanı Mişel Xarqo (Əhmədiyyə Cəbrayılov) 1987-1990-cı illərdə Ocağın şura üzvü olub.*

**Sakit Qurbanov**

### OCAĞIN NƏĞMƏSİ

Nəsil-nəsil bir müqəddəs ad olub,
Hər obada, hər bir evdə hər anım.
Ocaq ömrüm od ömründən od alıb
Palıd-palıd, girdin-girdin yananın.

Mən ocağam, daşımışam odumu,
Ürəklərdən-ürəklərə başatan.
Yanmağım yox, varlığımı, adımı,
İnsanları isitmədən yaşadan.

Bir çınqımdı riyaların adına,
Od yağdıran Qoroğlu da, Qor at da.
Yanıb-yanıb qovrulmuşam oduma,
Sönməmişəm, qorum qalıb kül altda.

1987.

*(Şeir ixtisarla verilir)*

### NƏSİB MUXTAROVUN FƏALİYYƏTİ

**Nəsib Muxtarov** 1951-ci ildə Şəkidə fəhlə ailəsində anadan olub.

O, 1968-ci ildə Şəki şəhər 11 saylı orta məktəbi bitirib, həmin ildə Politexnik İnstitutuna daxil olub. 1970-1971-ci illərdə ADR-də (Almaniya Demokratik Respublikası) hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra bənna, çilingər işləyib və 1979-cu ildə ADU-nun tarix fakultəsini bitirib.

N.M.Muxtarov 1979-cu ildən tarix və mədəniyyət abidələrinin mühafizəsi, muzey və s. sahələrdə yaradıcı işlə məşğul olub. Şəki Ocaq Cəmiy-

yətinin yaradıcılarından biri və 1984-cü ildən həmin cəmiyyətin sədridir.

Onun ciddi və qətiyyətli siyasi, elmi, publisistik qələmi vardır. 50-dən çox məqalə müəllifidir. Şəki, Qax, Balakən bölgələrində Arxeologiya və Etnoqrafiya İnstitutunun Baş elmi işçisi kimi 25 ilə yaxın, arxeoloji ekspedisiyalara rəhbərlik edib. Bu ərazilərdə 20-yə qədər yeni arxeoloji abidə-qala, Tunc-antik dövrə aid yaşayış məskənləri, qəbirstanlıqlar, sinaqoqlar, memarlıq abidələri, epiqrafik abidələri aşkarlayaraq, ilkin elmi-tədqiqatlar aparıb.

N.Muxtarovun ictimai, elmi, siyasi fəaliyyəti çoxşaxəlidir. O, özünü bacarıqlı yurdsevər kimi tanıtmış və sevdirmişdir.

N.Muxtarov Şəkinin Fazil kəndindəki qədim qəbirlər silsiləsinə aid "Əbədi sükut dünyası"nı aşkar etmişdir.

***Qaynaq:***
*İntizar Bədəlovanın şəxsi arxivindən*

## SOVET DÖVRÜNDƏ ƏDƏBİYYAT DƏRNƏKLƏRİ

Sovetlər Birliyi dövründə siyasi təşkilatların yaranması və fəaliyyəti qeyri-mümkün olduğundan insanlar ən çox milli, siyasi mövzuda söhbətləri iki yerdə edirdilər: çayxanalarda, dərnəklərdə. 1970-80-ci illərdə iki kitabxanada ədəbiyyat dərnəkləri milli fikrin inkişafında rol oynayırdı. Həmin dərnəklərdən biri M.Ə.Sabir adına kitabxanada, digəri isə V.İ.Lenin adına kitabxanada fəaliyyət göstərirdi.V.İ.Lenin adına kitabxanadakı (indiki Prezident Aparatının kitabxanası) dərnəyə şair Tofiq Bayram, M.Ə.Sabir adına kitabxanadakı dərnəyə isə şair Ağacavad Əlizadə başçılıq edib.

## TƏLƏBƏ QRUPLARI

1980-ci illərdə Azərbaycan cəmiyyətində ciddi fəallaşma hiss olunurdu. Bu fəallaşma ən çox gənclər, tələbələr arasında özünü göstərirdi. Milliyyətçi gənclər təşkilatlanaraq Tələbə qrupları yaradırdılar. Azərbaycanın aşağıdakı ali məktəblərində tələbə qrupları yaradılmışdı:

1. İncəsənət İnstitutu.
2. Bakı Musiqi Akademiyası (Konservatoriya).
3. Neft Akademiyası (Neft və Kimya İnstitutu).
4. Memarlıq və İnşaat İnstitutu.
5. Bakı Dövlət Universiteti.
6. Gəncə Texnologiya İnstitutu.
7. Gəncə Kənd Təsərrüfatı İnstitutu.
8. Naxçıvan Pedaqoji İnstitutu.

## AZƏRBAYCANDA TƏLƏBƏ YÜRÜŞÜ (1976-CI İL)

1970-ci illərdə Azərbaycanda gizli fəaliyyətlər mövcud idi. Əsasən tələbələr arasında "üçlük" formasında təşkilatlanmalar da olurdu. Bu "üçlük"lər milli mübarizənin aparılması, milli maariflənmədən təşkilatlanmaya keçmək xəttinə tədricən üstünlük verirdilər. Bu fəaliyyətləri isə daha çox şəxsi evlərdə, çayxanalarda aparırdılar.

Bu dövrdə tələbələrin fəaliyyətində ciddi hadisələrdən biri 1976-cı ildə baş verdi. Həmin ilin payızında tanınmış dövlət xadimi Şıxəli Qurbanovun məzarı üstündə onu anma toplantısı keçirildi. Görkəmli şair B.Vahabzadə də orada çıxış etdi. Tədbirdən sonra tələbələr oradan N.Nərimanovun heykəlinə izdihamlı yürüş etdilər. Bu, o dövrdə ciddi bir hadisə idi və təsadüfi deyildi ki, hakimiyyət dairələrində böyük narahatlıq doğurmuşdu.

Həmin hadisədə 600-ə qədər tələbəni istintaqa cəlb etdilər. Sovetlər İttifaqında mövcud Cinayət Məcəlləsinin 64-cü maddəsinə əsasən (yəni Sovet hökuməti əleyhinə təbliğat və təşviqatın aparılması) tələbələr sorğu-sual edilirdi. Həmin hadisəyə görə Masallı rayonundan Rafiq adlı bir oğlanı hüquq fakultəsindən qovdular.

Bu hadisə ilə bağlı o dövrdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədri Krasilnikov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) rektoru Faiq Bağırzadənin üstünə qışqırıb demişdi: "Siz o universitetdə inqilabçı hazırlayırsınız, yoxsa tələbə?"

Həmin tələbə yürüşü haqqında Türkiyə qəzetləri belə başlıqlı yazı vermişdilər: "Azəri tələbələr işgəncədə".

## AZƏRBAYCANDA TƏLƏBƏ HƏRƏKATI (1970-Cİ İLLƏR)

Azərbaycanın milli azadlıq hərəkatı tarixində Bakı Dövlət Universitetinin öz yeri vardır. 1970-ci illərdə gizli tələbə təşkilatları fəaliyyət göstərirdi.

Bu təşkilatlardan biri Azərbaycan milli azadlıq hərəkatının liderlərindən olan BDU-nun tarix fakultəsində oxuyan Etibar Məmmədov tərəfindən yaradılmışdı. 1974-cü ilin oktyabrında gizli olaraq yaradılan bu təşkilat yığıncaqlar keçirirdi. Təşkilatın mübarizə vasitələri üçlük qruplar yaratmaq, gizli dərnəklərin sayını çoxaltmaq, digər dərnəklərlə məxfi əlaqələrə girmək, qəzet buraxmaq, tələbələrin gizli çıxışlarını təşkil etmək və s. Təşkilatın yığıncaqlarında "Asiya və Afrika ölkələrinin tarixi" fənnindən dərs deyən Əbülfəz Əliyevin (Elçibəy) təqib olunmasına münasibət bildirilir, milli adət-ənənələrimizi bərpa etmək üçün yollar axtarılırdı. Bütün yığıncaqlarda Cənubi Azərbaycan məsələsinə xüsusi yer verilir, B. Vahabzadənin "Gülüstan" poeması tələbələr tərəfindən mübarizəyə çağırış rəmzi kimi həvəslə oxunurdu.

Bu dövrdə digər fakultələrdəki milli ruha malik tələbələrlə sıx əlaqələr yaradılmışdı. Xüsusilə, Novruz bayramı günü – 1975-ci ilin mart ayının 21-də Fəxri Xiyabanda Şıxəli Qurbanovun məzarı üstündə sovet müstəmləkəçiliyi əleyhinə mitinq keçirmiş jurnalistika fakultəsinin tələbələri ilə səmimi münasibətlər qurulmuşdu.

1974-cü ilin dekabrında təşkilat üzvləri "Odlar Yurdu" adlı gizli divar qəzeti də hazırlayıb, dekanlığın yaxınlığındakı divardan asdılar. Qəzetdə Cənubi Azərbaycanla, parçalanmış dövlətlər, Azərbaycanın birləşməsi ilə bağlı yazılar verilmişdi. Bu fəallığa görə təşkilat üzvləri ciddi təqibə məruz qalmışdılar.

---

***Qaynaq:***

*1. M.Zülfüqarlı. İstiqlal tarixini yaradanlar (1972-1992-ci illər). Bakı, 2007.*

*2. "Aydınlıq" qəzeti. 19-26 mart 1993.*

## GÖYÇAYDA "YENİ HƏYAT" QƏZETİNİN BİR SAYI YANDIRILIR


БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

# ЈЕНИ ҺӘЈАТ

ЧӘРШӘНБӘ АХШАМЫ, 5 ЈАНВАР 1982-чи ил. №2. (5.977)

Гијмәти 2 гәп.

АЗӘРБАЈҸАН КП КӨЈЧАЈ РАЈОН КОМИТӘСИ ВӘ РАЈОН ХАЛГ ДЕПУТАТЛАРЫ СОВЕТИНИН ОРГАНЫ

ОРГАН ГЕОКЧАЙСКОГО РАЙОННОГО КОМИТЕТА КП АЗЕРБАЙДЖАНА И РАЙОННОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ

## Т ХАЛГЫНА ЈЕНИ ИЛ ТӘБРИКИ

*"Yeni Həyat" qəzeti*

Bu hadisə 1975-ci ildə baş verib. Göyçay rayonunda nəşr edilən, rayon partiya komitəsinin orqanı olan "Yeni Həyat" qəzetində Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi İsrail Əhmədovun "Kənd Təsərrüfatına məsləhətlər" yazısı çap edilib. Bu yazıda qoyulan problemlərin rayon iqlim şəraitinə uyğun gəlmədiyi ittihamı ilə qəzetin çap olunmuş bir sayı yandırılıb və yayımı dayandırılıb. İ.Əhmədovu bu yazıya görə işdən çıxardılar. Rayon Partiya Komitəsinin ikinci katibi O. Zeynalovu (humanitar məsələlər üzrə) isə işdən çıxarıb kolxozların birinə sədr müavini təyin etdilər.

Bu prosesə qəzetin Baş redaktoru Oktay Cəfərov ciddi etirazını bildirdi və Bakıya gedib Mərkəzi Komitəyə şikayət etdi. Prosesin dərinləşməsi, rayon rəhbərliyi ilə münasibətinin kəskinləşməsi onun redaktor fəaliyyətini Göyçayda davam etdirməsinə imkan vermədi.

Sonradan O.Cəfərovu "İnşaatçılar" qəzetinə Baş redaktor təyin etdilər. O.Cəfərov "İti göz" imzası ilə kəskin yazılar müəllifi kimi də tanınırdı. Sonrakı illərdə ona Azərbaycanın Əməkdar jurnalisti fəxri adı da verildi.

***Qaynaq:***

*Namiq Hacıbəylinin şəxsi arxivindən*

## M.Ə.RƏSULZADƏNİN OĞLU AZƏR RƏSULZADƏ 53 İL QAZAXISTANDA SÜRGÜNDƏ YAŞADI



*Azər Rəsulzadə*

M.Ə.Rəsulzadənin oğlu Azər Rəsulzadə 1920-ci ildə Bakıda doğulub. O, dünyaya gələndə atası həbs edilmiş, Bayıl həbsxanasına salınmışdı. Onun adını ilk öncə ailədə Əliheydər qoymuşdular. Stalinin icazəsi ilə həbsxanadan çıxıb bir neçə saatlıq ailəsinin görüşünə gələn M.Ə.Rəsulzadə iki-üç aylıq körpə oğluna baxıb: "O, Əliheydər yox, Azər olacaq" demişdi. O zamandan adı Azər çağırılmışdı.

A.Rəsulzadə peşəcə rəssam idi. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə birlikdə rəsm əsərləri çəkmişdilər.

1938-ci ildə əvvəl qardaşını həbs edib güllələdilər, sonra ailələrini Qazaxıstana sürgünə göndərdilər. Qazaxıstanda anasını itirdi, bacısı oradan qaçıb itkin düşdü, ailə həyatı qurduğu Şölə xanım vaxtsız vəfat etdi, iki oğlunu (Ramizi, Rəisi) çətinliklə saxlamaq məcburiyyətində qaldı. Qazaxıstandan müharibəyə çağırıldı, İrana aparıldı. Müharibədən sonra isə bir neçə dəfə – 1946-cı ildə, 1988-ci ildə, 1990-cı ildə Bakıda oldu.

1955-ci ildə M.Ə.Rəsulzadə Ankarada vəfat etdikdə, onu sovet DTK-sına çağırdılar və belə bir sual verdilər: "Xəbərin varmı ki,atan M.Ə.Rəsulzadə Ankarada vəfat edib. Bu xəbərə kədərlənirsənmi?". Azər bəy DTK əməkdaşına belə cavab vermişdi: "Mən bu xəbərə kədərlənmirəm, sevinirəm ki, daha bizdən əl çəkəcəksiniz, daha bizi incitməyəcəksiniz. Qardaşımı güllələdiniz, anamın bağrı çatlayıb öldü, bacım itkin düşdü. İndi artıq Məhəmməd Əmin yoxdur, siz də yəqin ki, bizi rahat buraxacaqsınız".

A.Rəsulzadə 1993-cü ildə Qazaxıstanın Karaqanda şəhərində vəfat etdi. Vəfatından sonra cənazəsi Bakıya gətirilib, Novxanı qəbiristanlığında, babası Axund Ələkbərin yanında dəfn edildi.

*Qaynaq:*
*1. N.Yaqublu. Məmməd Əmin Rəsulzadə. B., 1991.*
*2. M.Sadıxov. Qan yaddaşı. B., 1989.*
*3. N.Bağırzadə. Gecikmiş etiraf kimi. B., 2007.*

## M.Ə.RƏSULZADƏNİN NƏVƏSİ RƏİS RƏSULZADƏ. SOVET REJİMİNDƏN NARAZILIQ İFADƏ EDƏN "GİZLİNDƏ. 1977-Cİ İL" RƏSM ƏSƏRİNİ ÇƏKİR



**Rəis Rəsulzadə**

M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə (Azər Rəsulzadənin oğlu) 1946-cı ildə sürgündə – Qazaxıstanın Taldı-Kurqan bölgəsində anadan olub. Həyatı dərk etməyə başladığı andan sovet rejiminin Rəsulzadələr ailəsinə verdiyi əzabları, mənfi yanaşmaları, təqibləri öz yaşamında hiss edib. Qazaxıstan sürgünündən sonra Bakıya qayıdan R.Rəsulzadə burada ağır həyat yaşamağa məcbur olub. Evi olmadığından 10 ildən çox zirzəmi şəraitində həyat keçirib. Lakin bütün bu çətinliklər onu yaradıcılıqdan – rəssamlıq sənətindən uzaqlaşdıra bilməyib. Bu gün Azərbaycanın Əməkdar rəssamı olan R.Rəsulzadə 500-dən çox əsərin müəllifidir.



***"Gizlində" rəsmi***

1977-ci ildə, sovet rejiminin hələ kəskin dövründə o, bu quruluşa olan nifrətini kətan, yağlı boyada (ölçüsü 140x110 sm) əks etdirdi, "Gizlində. 1977-ci il" əsərini çəkdi. Bu rəsmdə o, sovet rejimi əleyhinə olan və bununla bağlı divarlara gizli vərəqə yapışdıran insanları təsvir etdi. Əsər çox güclü və təsirli idi. Əsərə baxan atası Azər bəy demişdi: "Başqaları sosia-

lizmin qələbəsindən, sovet dövlətinin xoş həyat tərzindən əsərlər çəkir, sən bunu inkar edən əsərlər yaradırsan. Çətin olacaq”...

R.Rəsulzadənin bu əsəri sonradan bir çox sərgilərdə nümayiş etdirildi. M.Ə.Rəsulzadənin sovet istismarçı rejiminə qarşı başladığı mübarizəni nəvəsi Rəis Rəsulzadə rənglərin dili ilə davam etdirirdi.

***Qaynaq:***
*Rəis Rəsulzadənin şəxsi arxivindən.*

## MİLYONÇU H.Z.TAĞIYEVİN QIZI SARA TAĞIYEVANI SOVET REJİMİ TƏQİB EDİR



***Sara Tağıyeva***

Sara Tağıyeva atasının 1902-ci ildə açdığı, Hənifə xanım Məlikovanın direktoru olduğu “Qızlar məktəbi”ndə təhsil almışdı. Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra H.Z.Tağıyevin Neft şirkəti əlindən alınır, ailəsi şəhərdə olan mülkündən qovulur. Qızı Sara Tağıyeva bir müddət Sankt-Peterburqda yaşamaq məcburiyyətində qalsa da, sonradan Bakıya qayıdır.

Sara xanıma dövlət dairələrində yaxşı münasibət göstərilmirdi: onu qovur, təhqir edirdilər, doğulduğu evə (indiki Azərbaycan Tarix Muzeyinin binası) yaxın buraxmırdılar.

Ömrünün sonunda gözləri yaxşı görmür, qulaqları eşitmirdi. Sara xanıma son illərdə S.Vurğunun qızı Aybəniz xanım, H.Cavidin qızı Turan xanım, o dövrdə texnikum direktoru (sonradan Yasamal rayonunun İcra Başçısı) Arif müəllim diqqət edirdi.

Sara xanımı televiziyaya ilk dəfə tarixçi-jurnalist Nəsiman Yaqublu çəkmiş, böyük çətinliklə “Çay dəstgahı” verilişində efirə vermişdi. Onu efirdə görən Azərbaycan KP MK-nın katibi televiziyaya həmin verilişi təkrar göstərməmək tapşırığını vermişdi.

Sara xanım bütün həyatı boyu atasının hüquqları uğrunda mübarizə apardı, şikayət ərizələri yazdı, bu mübarizəsində sağlamlığını itirdi. Ömrünün sonlarında, 92 yaşında sovet rejiminin atasına olan münasibətinin əsassız olduğunu sübut etdiyindən məmnun qalaraq deyirdi: “Mən sübut etdim ki, Hacı xalqını sevib, onu maarifləndirib, oğul və qızlarını oxudub. Mən bunu sübut etdim!”.

Sara xanım 1990-cı illərin əvvəllərində rəhmətə getdi. Onun tabutunu ata mülkündən – sovet rejimində yaşaması qadağan edilmiş mənzildən – Azərbaycan Tarix Muzeyinin binasından götürüb Mərdəkanda dəfn etdilər.

***Qaynaq:***
*N.Yaqublunun şəxsi arxivindən.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İLK TƏDQİQATÇISININ FACİƏLİ ÖLÜMÜ



***Mövsüm Əliyev (1939-1997)***

Azərbaycan Xalq Cümhuriyyəti haqqında Sovetlər Birliyi dövründə ilk araşdırmanı Mövsüm Əliyev aparıb.

M.Əliyev 1939-cu ildə Bakıda anadan olub. Əslən Bakının Zirə kəndindəndir.

M.Əliyev 1988-ci ilə qədər "Qobustan" jurnalında, həmin ildən Vətən Cəmiyyətinin "Odlar Yurdu" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli şəxsləri haqqında məqalələr çap etdirib.

Onun Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə haqqında ilk məqaləsi də 1988-ci ilin sentybarında "Odlar Yurdu" qəzetində nəşr edilib. Onun bu qəzetdə 24 Cümhuriyyət qurucusu haqqında yazısı işıq üzü görüb.

1993-cü ildə "Azadlıq" qəzetinin noyabrın 23-25 tarixli saylarında M.Əliyevin M.Ə.Rəsulzadəni müdafiə məqsədi ilə "Tarixi saxtalaşdıranlara cavab" yazısı çap edildi. M.Əliyev bu yazısında dövlət başçısının əleyhinə kəskin ifadələr işlətmişdi. Bu yazıdan sonra M.Əliyevi həbs etdilər. O, bir neçə ay həbsxanada ağır şəraitdə saxlanıldı. M.Əliyev həbsxanadan çıxdıqdan sonra vəziyyəti ağırlaşdı, səhhətində problemlər yarandı. M.Əliyev tənha yaşadığı "Poluxin 44" küçəsindəki darısqal evində rəhmətə getdi. Onun ölümündən 10-15 gün sonra xəbər tutub dəfn etdilər.

***Qaynaq:***
*1. N.Yaqublu. Cümhuriyyətin ilk tədqiqatçısı Mövsüm Əliyevin faciəli ölümü. www.musavat.com.*

*2. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). B., 1990.*

# İLK CƏMİYYƏTLƏR

## TÖVBƏ CƏMİYYƏTİ



Hacı Əbdül Əbdülov

Bu cəmiyyət 1985-ci ildə yaranıb. Cəmiyyətin yaranmasında əsas məqsəd sərxoşluqla, narkotika və başqa pis əməllərlə məşğul olan cavanları bu işlərdən uzaqlaşdırmaq idi. "Tövbə" Cəmiyyəti bütün SSRİ məkanında – Moskvada, Rusiyanın bəzi şəhərlərində, Tatarıstanda, Dağıstanda da yayıldı. Tatarıstanda və Dağıstanda böyük Tövbə məscidi tikildi. Tövbə etmənin 5 əsas şərti vardı. Bu şərtlərə əməl edənlər "Tövbə" Cəmiyyətinin üzvü olurdu. İlk olaraq Cəmiyyətə üzv olan şəxs andiçmə mərasimindən keçirdi. Sonra isə aşağıdakı beş şərti qəbul edirdi: birincisi – narkotik maddələrdən tövbə etmək, ikincisi – hər cür spirtli içkilərdən tövbə etmək, üçüncüsü – millət ixtilafı salmamaq, dördüncüsü – təriqət ixtilafı salmamaq, beşincisi – etnik qrup ixtilafı salmamaq. Cəmiyyətin yaradıcısı və sədri İmam Hüseyn məscidinin axundu Hacı Əbdül Əbdülovdur.

Hacı Əbdül vaxtilə Azərbaycanın güləş komandasının məşqçisi olub. Cəmiyyətə üz tutanları da əsasən idman zalında, idman qaydaları ilə müalicə edirdi.

---

***Qaynaq:***
1. *"Xalq səsi" qəzeti. №1 (3), 12 sentybar, 1991-ci il.*
2. *"Xalq səsi" qəzeti. №2 (4), 5 oktyabr 1991-ci il.*
3. *"Yeni Müsavat" qəzeti. 22 avqust, 2016-cı il.*

## VƏTƏN CƏMİYYƏTİ

1987-ci ilin dekabrın 27-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqə Cəmiyyətinin − Vətən Cəmiyyətinin təsis konfransı keçirildi. Xalq yazıçısı Elçin Cəmiyyətin Rəyasət Heyətinin sədri seçildi. Cəmiyyət 1988-ci ildən fəaliyyətə başladı. Cəmiyyətin "Odlar Yurdu" adlı qəzeti üç əlifba ilə iki həftədən bir nəşr edilir və tirajı 250 mindən çox idi.

Vətən Cəmiyyəti Azərbaycanın qədim və zəngin tarixini təbliğ edir, Dağlıq Qarabağ problemi haqqında, erməni separatizmi haqqında obyektiv məlumatları dünya ictimaiyyətinə çatdırırdı. Eyni zamanda, bu cəmiyyətin xətti ilə xaricdə yaşayan həmvətənlərimizə kitablar, qəzetlər, elmi-kütləvi nəşrlər göndərilirdi. Vətən Cəmiyyəti xaricdə yaşayan soydaşlarımızla əlaqələrin yaranmasında böyük rol oynadı.

***Qaynaq:***

*A.Tahirli. Həmvətənlərimizin könül körpüsü: "Vətən" Cəmiyyəti 30.11.2017.www. Lent.az saytı.*

## ŞİMALİ AZƏRBAYCAN AZAD TƏLƏBƏ İTTİFAQININ YARANMASI

Tələbə İttifaqı yaratmaq ideyası Azərbaycanın bir qrup tələbəsini əvvəldən düşündürürdü. Bir neçə il əvvəl isə Azad Tələbə İttifaqı yaratmaq barədə təşəbbüslər qaldırılsa da, onu təsis etmək mümkün olmamışdı. Nəhayət 1989-cu ilin oktyabr ayında bir neçə ali məktəbin tələbələrindən ibarət Təşəbbüs Qrupu yaradıldı. Təşəbbüs Qrupunun iki aylıq hazırlıq fəaliyyətindən sonra 1989-cu ilin dekabr ayının 27-də M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin iclas zalında ATİ-nin təsis konfransı çağırıldı.

Konfransda 10 ali məktəb və 2 texnikumdan həlledici səslə 152 nümayəndə iştirak edirdi. Dəvət olunan qonaqlar arasında AXC-nin, Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının, Mətbuat orqanlarının nümayəndələri var idi.

Konfransa sədrlik edən Bakı Dövlət Universitetinin tələbəsi Fazil Mustafayev qeyd etdi ki, birləşib Azad Tələbə Ittifaqı yaratmaq lazımdır.

Əsas məruzə ilə BDU-nun hüquq fakultəsinin tələbəsi Qüdrət Həsənquliyev çıxış etdi. Məruzədə respublikadakı vəziyyətin təhlili verilir, insanları nadanlaşdıran bürokratik dövlət aparatının mövcud idarəetmə sisteminin özünü doğrultmamasından, milli təhlil konsepsiyasının yoxluğundan, ali və orta ixtisas məktəblərinə qəbulun pis vəziyyətdə olmasından, gənclərin yeganə təşkilatı olan Az.LKGİ-nin tələbə gənclər arasında nüfuzunu itirməsindən danışıldı. Qeyd olundu ki, SSRİ-də büdcənin 20-22 faizini hərbi xərclər təşkil etdiyi halda (ABŞ-da bu, 7-9 faiz təşkil edir), xalq təhsilinə ayrılan xərclər 3,5 faizdir. ABŞ-da tələbə təqaüdünün minimum miqdarı 600 (altı yüz) dollar olduğu halda, bizdə 40 (qırx) manatdır.

Məruzəçiyə müxtəlif suallar da ünvanlandı: Azad Tələbə İttifaqı komsomola alternativdirmi? Məruzəçinin cavabı: "Yox, alternativ deyil. O səbəbdən ki, ATİ siyasi təşkilat deyil, adamları sosial vəziyyətinə görə birləşdirir".

Məruzə ətrafında çıxış edənlər sovet həyat tərzinin tələbə gənclərin mənəviyyatına ağır zərbələr vurmasından, milli uzaqlaşmanın faciəli nəticələrindən, tələbələr üçün təhsilin və yaşayışın bərbadlığından danışdılar.

Konfransda Xalq Təsərrüfatı İnstitutunun tələbəsi Kamran Quliyev, İnşaat Mühəndisləri Institutunun tələbəsi Qiyas Ağayev, M. F. Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun tələbəsi Vüqar Kərimov, Bakı Dövlət Universitetinin tələbələri Gündüz Tahirzadə, Lalə Abbasova, Müşfiq Məmmədov, BDU-nun Komsomol komitəsi katibi Yalçın Nəsirli müxtəlif təkliflərlə çıxışlar etdilər.

Əsas bu fikir vurğulandı ki, "Ümumittifaq Komsomolundan ayrılıb müstəqil olmalıyıq, partiya, komsomol biletləri bizi Mərkəzə bağlayan tellərdir ki, bu tellər qırılmayınca azad ola bilmərik" və s. Konfransda razılıq əldə edildi ki, yeni yaradılan təşkilat Şimali Azərbaycan Tələbə İttifaqı adlandırılsın. Qeyd olundu ki, Cənubdakı tələbə qardaşlar da sıralarımızda birləşdirilməlidir. Təşkilatın məramnamə və nizamnaməsinin qurultayda qəbul edilməsi qərara alındı. Təşkilatın quruluşu belə müəyyən edildi: 22 nəfərdən ibarət şura, 3 nəfərdən ibarət isə nəzarət komissiyası seçildi. Bununla konfrans işini yekunlaşdırdı.

Konfrans ATİ-nin Şimali Azərbaycan Azad Tələbə İttifaqı adlandırılması barədə qərar qəbul etdi.

***Qeyd:*** *30 dekabrda keçirilən Şura iclasında 7 nəfər tərkibdə İdarə Heyəti seçildi.*

---

***Qaynaq:***

*1. BMusaoğlu. Kölə azadlığı, yoxsa azad birlik? "Azadlıq" qəzeti. 30 dekabr, 1989-cu il, №2.*

*2. Fazil Qəzənfəroğlunun şəxsi arxivindən.*

## AZƏRBAYCAN YAŞILLAR HƏRƏKATI

1989-cu ildə Bakıda belə bir hərəkat yaradılıb. Bu təşkilatın yaradıcıları haqda məlumat yoxdur. Mövcud sənədlərə əsasən qeyd etmək mümkündür ki, təşkilat daha çox Bakının ekoloji problemləri ilə maraqlanıb və təbliğat aparıb.



***Arif Mansurov - Yaşıllar Partiyasının sədri***

"Dirçəliş" qəzetinin 1989-cu il, 21 noyabr (№6) tarixli sayında Azərbaycan Yaşıllar Hərəkatının müraciəti çap edilib.

**Həmin müraciətdən:** "Əziz bakılılar! Şəhərimizin küçələrinin çoxu bu gün qaz kameralarını xatırladır. Avtomobil və avtobusların ardı kəsilməyən axını, tüstüləyən qır qazanları - bunlar şəhəri bürüyən dumanın yalnız yarısının mənbəyidirlər. Qalan yarısını və xüsusən toksiki maddələri praktik olaraq hər gecə sənaye tullantılarının minlərlə kubmetrləri təşkil edir. Min şükür ki, Bakıda tez-tez küləklər əsir və nəticədə şəhərin üzərindəki bürkü yox olur, adamlar sərbəst nəfəs ala bilir, hipertoniya və astma xəstəliyinə tutulanlar özlərini daha yaxşı hiss edirlər. Havanın çatışmazlığı ucbatından Bakı əhalisi bir qurtum təmiz havanın dalınca dəniz kənarına yönəlir, lakin bu arzu da puça çıxır. Bəli, Bakı buxtası da artıq xeyli vaxtdır ki, iylənmiş durğun su hövzəsinə çevrilmişdir...

Eyni zamanda, Bakı Şəhər İcraiyyə Komitəsi Dənizkənarı parkın rekonstruksiyasına, buxtanın təmizlənməsinə başlayıb. Lakin bu “təmizləmə” və rekonstruksiya yaranmış vəziyyəti daha da korlayacaq. Şəhərin çimərlik sahəsinin çirklənməsi belə bir rekonstruksiyanın nəticəsi olacaq.

Deyilənləri nəzərə alaraq, Azərbaycan Yaşıllar Hərəkatı (AYH) noyabr ayının 26-da, saat 15-də Bakı buxtasını müdafiə etmək məqsədi ilə aksiya keçirir. AYH əmindir ki, Siz tələblərə şərik olaraq, Bakı Şəhəri İcraiyyə Komitəsi tərəfindən qəbul olunmuş belə bir ekoloji cəhətdən savadsız, tələsik qərara qarşı öz vətəndaşlıq mövqeyinizi qanlı zəncirlərdə iştirak etməklə ifadə edəcəksiniz.

**Tələblər:**

1. Dənizkənarı parkın rekonstruksiyası və buxtanın “təmizlənməsi” layihəsi ictimai ekspertizadan keçənəcən müvəqqəti dayandırılsın.
2. Bakı limanında yerləşən “ekoloji soba” yeni 27 il ərzində paslanmış və indiyəcən anbarında 20 min ton neft olan gəmi oradan götürülsün.
3. Buxtanı çirkləndirib məhv edən bütün axarlar yalnız təmizləyici qurğulardan verilsin.
4. Həftədə ən azı bir dəfə şəhərin atmosferində, suyunda və buxtasında yaranmış ekoloji vəziyyət haqqında Kütləvi İnformasiya Vasitələrinə təfərrüatlı məlumat verilsin.

Azərbaycan Yaşıllar Hərəkatı”.

---

***Qaynaq:***
*“Dirçəliş” qəzeti. 21 noyabr, 1989-cu il, №6.*

***Qeyd***: *Azərbaycan Yaşıllar Hərəkatını tanınmış hərəkatçı Sevil Cahaninin həyat yoldaşı Manaf Süleymanovun yaratması faktı söylənilir. M. Süleymanovun yaratdığı Azərbaycan Ekoloji İttifaqı 1989-cu ilin dekabrın 21-də dövlət qeydiyyatından keçib. Təşkilatın məramı ətraf mühitin və təbiətin qorunması, milli parkların salınması olub.*

***Qeyd:*** *Sonradan tanınmış ziyalı Arif Mansurov da Yaşıllar Partiyası yaradıb, Bakının ekologiyası ilə məşğul olmuşdu.*

## ELDAR VƏ LOĞMAN İBRAHİM QARDAŞLARININ FƏALLIĞI İLƏ YARADILAN TƏŞKİLATLAR


***Eldar İbrahim***

1988-ci ildə **Eldar İbrahim, Loğman İbrahim və şair Dəmir Gədəbəylinin** təşkilatçılığı ilə Müstəqil Azərbaycan adlı təşkilat yarandı. Bu təşkilatın başlıca məramı: "O taylı, bu taylı Azərbaycanın müstəqilliyi, Milli ordunun yaradılması, Milli dövlətin qurulması idi". Təşkilatın 100-ə qədər üzvü olmuşdu. Leqal formada ayrıca bir bülleteni çıxmışdı. Bülletenin Baş redaktoru Loğman İbrahimli idi.

## QIZILBAŞLAR TƏŞKİLATI

Bu, bir ideya kimi 1976-cı ildən başlanmışdı. Məqsəd – Şah İsmayıl Xətai dövründə mövcud olmuş Azərbaycanın torpaq bütövlüyünü bərpa etmək və qorumaq idi. Bu ideyanın tərəfdarları ən çox çayxanada (o dövrdə "Rafaelin çayxanası" deyilən yerdə) toplaşır, fikir mübadiləsi edirdilər.

Məlum olduğu kimi, Qızılbaşlar Ş.İ.Xətai dövründə cəsarətlə döyüşən, radikal qüvvələr idi.

## YAŞIL QARDAŞLAR TƏŞKİLATI

1985-1986-cı illərdən **Yaşıl Qardaşlar** təşkilatı fəaliyyətə başladı. Bu təşkilatın başlıca məqsədi belə idi: "Dinimizə qayıtmaq, evimizə qayıtmaq!". Əslində bu təşkilatın fəaliyyətində Qızılbaşlıq da gedirdi.

Yaşıl Qardaşların ilk toplantısı Təzə Pir məscidində oldu. Onlar öz fəaliyyətləri ilə daha çox insanları məscidlərə cəlb edirdilər. Hətta Ağabəy Əsgərov adlı bir jurnalist (sonradan Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü və "Azərbaycan" nəşriyyatının direktoru) "Kommunist" qəzetində Yaşıl Qardaşların əleyhinə bir məqalə də yazmışdı.

Yaşıl Qardaşların bu fəaliyyəti hökumət orqanlarını narahat etməyə başladı və onlar gəlib məscidi bağladılar.

Əlavə edək ki, 1992-ci ildə Eldar İbrahimin başqanlığı ilə (müavini isə Loğman İbrahimli idi) Beynəlxalq Yaşıl Qardaşlar Partiyası yaradıldı. Elə həmin ildən rəsmi şəkildə "Qızılbaş" adlı qəzet nəşr edilməyə başladı. Qəzetin Baş redaktoru Eldar İbrahimli idi. Ə.Elçibəy iqtidarı dövründə nəşr edilən bu qəzetdə **Şamil Salehin "Heydər kürddür" məqaləsi** çap olundu. Bu məqalənin nəşrinə görə qəzetin fəaliyyəti altı ay dayandırıldı.

## DAYAQ YARDIM CƏMİYYƏTİ

**1988-ci ilin ortalarında** Ağdamda Dayaq Cəmiyyəti yaradıldı. Cəmiyyəti yaratmaqda məqsəd - azərbaycanlıların öz doğma yurd-yuvasını, obasını tərk etməməsi və bununla da onların Dağlıq Qarabağın şəhər və kəndlərində qalmasını təmin etmək idi. Cəmiyyət yarandığı gündən kəndlərdəki evlərə zəruri ərzaq məhsulları paylamağa başladı. Xankəndinə, Kərkicahana, Meşəliyə, Malıbəyliyə, Qaradağlıya, Xocavəndə, Sırxavəndə, Xocalıya və başqa kəndlərə maşın karvanı göndərildi. Beləliklə, bütün Dağlıq Qarabağın azərbaycanlıları "Dayaq"ı özlərinə bir arxa, bir dayaq bilirdilər. Təəssüflər ki, sonradan "Dayaq" Cəmiyyətini yaradıb, ona dayaq duranlar təqib edilib, işdən çıxarılmağa başlandı. "Dayaq" daha fəaliyyət göstərə bilmədi. Bu vəziyyət də DQMV-dəki azərbaycanlılara pis təsir etdi və onlar köməksizliklərini hiss edib, tədricən doğma yurd-yuvalarını tərk etdilər.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, 1 sentyabr, 1990-cı i, N8 (11).*

## ZƏNGƏZUR CƏMİYYƏTİ

Bu cəmiyyət **1989-cu ilin əvvəllərində** yaranıb. Cəmiyyətin sədri **Köçəri Nağıyev** idi. Cəmiyyətin yaranmasında başlıca məqsəd - Ermənistandan köçüb gələn soydaşlarımızı Azərbaycanda yerləşdirmək, qanuni yolla ermənilərlə evlərinin dəyişdirilməsini təmin etmək, onları zavodda,

fabrikdə, müxtəlif müəssisələrdə işlə təmin etmək, yerlilər - gəlmələr (yəni bakılı - ermənistanlı) qarşıdurmasının qarşısını almaq və s. Eyni zamanda bu cəmiyyətin üzvləri erməni əhalisinin Bakıdan köçürülməsində, onların təhlükəsizliyinin təminatında ciddi rol oynayırdı. Onların gəmilərlə Bakıdan çıxarılmasına, hər hansı təcavüzə və basqıya məruz qalmaması üçün polis bölmələrinə təhvil verilməsində fəal iştirak edirdilər.



***Təşkilatın fəalları***

Eyni zamanda yurdundan qovulan insanlar evsiz-eşiksiz vəziyyətdə və onları qorumaq, problemləri ilə məşğul olmaq lazım idi.

Cəmiyyətin İdarə Heyətində yetmişə qədər alim və ziyalı təmsil olunurdu. Ermənistandan gələn üç yüzə qədər insan cəmiyyətin məclisinin üzvü idi. Cəmiyyət sədrinin (Köçəri Nağıyevin) müavinləri aşağıdakılar idi: Lahuti Əliyev, Abbas Səfərov, Nurəddin İsmayılov və Fərman bəy.

**Zəngəzur** cəmiyyətinin xətti ilə insanların (xüsusən, Ermənistan bölgəsindən olanların) təşkil edilib mitinqlərə aparılması da təmin edilirdi. Qeyd edək ki, Ermənistandan deportasiya edilən bu insanlar əsasən "Neftçilər" metrosunun yanındakı bağa daha çox toplaşırdılar.

Zəngəzur cəmiyyəti çalışırdı ki, Sumqayıt hadisələri təkrarlanmasın. Odur ki, erməniləri Bakıdan dinc yolla qovub çıxartmağa çalışırdılar. Cəmiyyətin "Ata yurdu" adlı bir qəzeti çap olundu və sonra nəşri dayandı.

1990-cı ildə dövlət tərəfindən Qaçqınlar cəmiyyəti yarandı və Zəngəzur cəmiyyətinin əksər fəalları burada çalışmalarını davam etdirdilər.

## ZƏNGƏZUR CƏMİYYƏTİNİN SƏDRİ KÖÇƏRİ NAĞIYEV

**(K.Nağıyevin həbsxanada qaşıq udmağa məcbur olması)**



***Köçəri Nağıyev***

Köçəri Nağıyev 1966-cı ildə Ermənistanın Masis rayonunun (əvvəlki Uluxanlı - Zəngibasar) Yuxarı Necili kəndində anadan olub. Orta təhsilini orada başa vurub. Sonra Rusiyaya - Ryazan şəhərinə gedib və oradan Yüksək Hərbi Desant Peşə Məktəbinə daxil olub. Bir azərbaycanlını təhqir edən rus zabitinə güc işlətdiyinə görə təhsilini yarımçıq qoyub.

1986-1988-ci illərdə Masisdə yaşayır. 1988-ci ildən məcbur olub Bakıya gəlir və burada ictimai-siyasi fəaliyyətə başlayır, AXC sədri Ə. Elçibəyin Xüsusi İşlər üzrə köməkçisi olub. K.Nağıyev dəfələrlə həbs edilib, təcavüzlərə məruz qalıb. 1990-cı ilin 20 Yanvar hadisələri başlanan gün onu ağır bıçaq zərbələri ilə vurublar, yaralanıb. Onun ölümünə fərman veriblər (erməniləri köçürdüyünə görə). Müxtəlif illərdə o, on beş dəfəyə qədər həbs edilərək həbsxanada yatıb. Həbsxanada olarkən verilən işgəncələrdən qaşıq udmağa məcbur olub. Sonradan tibbi əməliyyat yolu ilə onu xilas ediblər. 1992-1997-ci illərdə Polis Akademiyasında təhsil alıb, mayordur. Hazırda Deportasiya Qurbanları cəmiyyətinin təsisçilərindəndir.

---

***Qaynaq:***

*Köçəri Nağıyevin şəxsi arxivindən.*

## AZƏRBAYCAN YAŞILLAR HƏRƏKATININ TƏSİS KONFRANSI (11 AVQUST 1990-CI İL, "AZADLIQ" QƏZETİ)

1991-ci ilin avqustunda Azərbaycan Yaşıllar Hərakatının təssis konfransda nümayəndələr respublikanın bütün tərəqqipərvər, demokratik qüvvələrinə aşağıdakı məzmunda müraciət qəbul etdi:

"Hələ ki, gec deyil, hələ ki, bizim meşələrimizdə, dəniz və çaylarımızda həyat var, hələ ki, yaşayış mühitimizdə geridönməz proseslər geniş inkişaf etməyib və canlı təbiətdə deqradasiya kütləvi xarakter almayıb, ekoloji problemləri təxirəsalınmaz olaraq həll etmək lazımdır. Ancaq ekoloji problemləri həll etməklə biz təkrarolunmaz Azərbaycan təbiətini bərpa edəcək və onu gələcək nəsillərə çatdıra biləcəyik.

Azərbaycan gərək müstəqilliyə təmiz çayları, dənizi, havası, sağlam nəsli ilə qədəm qoysun".

## ƏLİNCƏ CƏMİYYƏTİ

1990-cı ilin payız aylarında Azərbaycanda Əlincə Xeyriyyə cəmiyyəti yaradıldı. Əlincə cəmiyyətinin yaradılmasında əsas məqsəd ondan ibarət idi ki, Naxçıvana və sərhədyanı rayonlara yardım olunsun. Bununla əlaqədar Azərbaycanda Əlincə Xeyriyyə cəmiyyətinin orqanı olan "Səs" qəzeti yaradıldı. "Səs" qəzeti ikinci, ya da üçüncü nömrədən sonra şəxsən dayandırılmışdı. "Səs" qəzeti yarandığı gündən Heydər Əliyevin fəaliyyətini, ideyalarını işıqlandırmışdır. "Səs" qəzetində "91"lərin müraciəti dərc olunmuşdu. Onların müraciətinə cavab olaraq "Böyük Heydər Əliyev" yazısı çap edildi. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyası yarandığı gündən, "Səs" qəzeti YAP-ın əsas təbliğat kürsüsünə çevrildi.

## AZƏRBAYCAN DEMOKRATİK MİLLİ KONQRESİ

Yaşıl Qardaşların (eləcə də Qızılbaşların) fəallığı ilə 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra mövcud qüvvələri bir araya toplamaq məqsədi ilə **Azərbaycan Demokratik Milli Konqresi** yaradıldı. Həmin dövrdə Azərbaycan hakimiyyətinin əsas məqsədi siyasi qüvvələri parçalamaq idi. Bunun qarşısını almaq üçün, qüvvələri bir yerə yığmaq məqsədi ilə bu təşkilatın yaradılmasına ehtiyac duyulurdu. 10-na qədər iclası keçirilən bu qurum 2-3 ay fəaliyyət göstərə bildi.

## AZƏRBAYCAN DEMOKRATİK QÜVVƏLƏRİNİN MƏSLƏHƏT ŞURASI (SONRADAN ZİYALLAR BİRLİYİ)



*Abbas Abdulla*

1991-ci ilin 25 sentyabrında Respublika İctimai-Siyasi Mərkəzində (keçmiş Siyasi Maarif Evi) ziyalıların toplantısında yaradılıb. Əsas məqsəd ziyalıları, yaradıcılıq təşkilatlarını ictimai-siyasi hərəkata cəlb etmək olub. Toplantıda təşkilata müxtəlif adların verilməsi təklif olunub: Azərbaycan Xalq Məsləhət Şurası, Azərbaycan Demokratik Qüvvələrinin Məsləhət Şurası, Milli Şura, Azərbaycan Ziyalılarının Ali Məsləhət Şurası.

Səsvermə ilə təşkilata ikinci adın (Azərbaycan Demokratik Qüvvələrinin Məsləhət Şurası - 81 nəfər lehinə) verilməsi qəbul olundu.

Hazırlanmış ümumi Əsasnamə əsas kimi qəbul edilir.

**Yaradılan qurumun ilk tərkibi: İmam Mustafayev, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Tamerlan Qarayev, Məmməd İsmayıl, Abbas Abdulla, Ramiz Duyğun, Sabit Bağırov, Ağamalı Sadiq Əfəndi, Leyla Yunusova, Sabir Əhmədov, Qüdrət Əbdülsəlimzadə, Murtuz Ələsgərov, Qasım Qasımzadə, Ramiz Rizayev.**

Nəsir Ağayevin təklifi ilə qeydiyyatdan keçmiş partiya və birliklərin nümayəndələrini də buraya cəlb etmək təklif olunur. Əbülfəz bəy namizədliyini geri götürür. **Xalid Əlimirzəyev, Hatəmi Tantəkin, Hümbət Süleymanov, Etibar Məmmədov** və digərləri də təşkilatın üzvü olurlar.



*Xalid Əlimirzəyev*

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ CƏMİYYƏTİ

Bu Cəmiyyət M.Ə.Rəsulzadə irsinin tədqiqatçısı Nəsiman Yaqublu tərəfindən 1991-ci ildə yaradılıb. Cəmiyyətin başlıca məqsədi Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin irsini toplamaq, nəşr etmək, M.Ə.Rəsulzadə ideyalarını xalq arasında yaymaq idi. Bu məqsədlə N.Yaqublu 1990-1991-ci illərdə Türkiyədə, Qazaxıstanda olmuş, M.Ə.Rəsulzadəyə və onun ailəsinə aid olan yazıları, sənədləri toplayaraq Azərbaycana gətirmiş, 1991-ci ildə, hələ sovet dövründə Məmməd Əmin Rəsulzadə adlı tarixi-publisistik kitab nəşr etdirmişdir. 1990-cı ildə N.Yaqublu M.Ə.Rəsulzadənin səsi yazılmış lent yazısını da gətirib ilk dəfə 1991-ci ilin fevralında Az.TV-nin "Dalğa" verilişində televiziyada səsləndirmişdir.

Hazırda bu cəmiyyət Mərkəz olaraq mövcuddur və M.Ə.Rəsulzadə irsinin araşdırılması, nəşri ilə məşğuldur.

---

***Qaynaq:***

*N.Yaqublunun şəxsi arxivi.*

## ƏSKİ MÜSAVATÇILAR NƏSLİ BEYNƏLXALQ CƏMİYYƏTİ



*Fuad Zeynallı*

Əski Müsavatçılar Nəsli Beynəlxalq Cəmiyyəti 1991-ci ildə Bakı şəhərində yaradılıb. Cəmiyyətin yaradıcısı və sədri **Fuad Zeynallı** olub. Cəmiyyət qısa müddətdə respublikanın bütün bölgələrində və xarici öılkələrdə özünün yerli şöbələrini təsis etmişdir.

Özünün nizamnamə tələblərinə uyğun olaraq cəmiyyət, müsavatçılar nəslinin (övladları, nəvə-nəticələri) maddi, mənəvi və mədəni tələbat qayğılarını ödəmək, müsavatçıların tarixi xidmətlərinin axtarışlarında olmaq, onların adlarını əbədiləşdirmək, müsavatçılıq ideyalarını təbliğ etmək, habelə başqa ölkələrdə güclü azərbaycanlı icmaların təşəkkülünə nail olmaq istiqamətində fəaliyyət göstərir.

Fuad Zeynallı rəhmətə getdikdən sonra cəmiyyətin sədri vəzifəsi **M.Ə.Rəsulzadənin nəvəsi Rəis Rəsulzadəyə** tapşırıldı. O, hazırda bu cəmiyyətin sədridir.

## ANA DİLİ BİRLİYİ

Ana Dili Birliyi görkəmli alim-türkoloq **Aydın Məmmədovun** 1989-90-cı illərdə əsasını qoyduğu bir təşkilat olub. Birliyin yaradılmasında başlıca məqsəd dil və mədəniyyətin öyrənilməsi və təbliği adı ilə əsas rus əsarəti zamanı əlimizdən alınmış milli kimliyimizə dönüş və turançılıq idi. Bu birliyin fəaliyyəti nəticəsində sovet dövründə təcili yardım maşınları üzərində ağ-aypara nişanları qoyuldu.

**Aydın Məmmədov (Ana Dili Birliyinin sədri)**

Aydın Məmmədov 1944-cü ildə Şəkidə anadan olmuşdur. Bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi, mədəni və siyasi dirçəlişinə həsr etmişdir. Orta məktəbdə müəllim fəaliyyətinə qoşulan

A.Məmmədov elmi işçi kimi Azərbaycan türklərinin bu torpaqda eramızdan çox öncə yaşaması fikrini elmi gerçəkliyə çevirməyi bacaran bir alim idi. O istər "Sovetskaya turkologiya" jurnalının redaktor müavini, istərsə də Bədii Tərcümə Mərkəzinin rəhbəri kimi SSRİ-nin və bütövlükdə bütün dünya türklərinin bir-birini daha yaxından tanıması, onların doğmalaşması üçün ölçüyəgəlməz işlər görmüşdür.



*Aydın Məmmədov*

Ömrünün təxminən son onilliyini bütünlüklə ictimai-siyasi hadisələrə həsr edən A.Məmmədov 1988-ci ilin fevralından başlayan Azərbaycan Xalq hərəkatının ön sıralarında dayanmışdı. Onu həmişə tətil edən fəhlələrin, sovet məmurlarına etiraz bildirən kəndlilərin, tələbələrin, ziyalıların içərisində, ən narahat, ağrılı anlarda görmək mümkün idi.

Güclü məntiqə malik, alovlu natiq Aydın bəy on minlərcə insanı arxasınca aparmağı bacarırdı. Xalqın sevgisini qazanmış A.Məmmədov millət vəkili seçilmişdi. Bu vəzifədə o, milli birlik yaratmaq, azadlıq və demokratiya uğrunda hərəkatımızı düz yolla aparmaq üçün ciddi işlər görürdü. Sonra həbsxanaya düşdü, elmdən uzaqlaşdı. Həbsxanadan çıxandan sonra yenidən elmi fəaliyyətlə məşğul oldu.

A.Məmmədov Respublika Ali Sovetinin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri idi.

O, Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini olmuşdu. Bir dəfə Şuşada Aydın Məmmədovun mindiyi vertolyotu vurmuşdular, amma o, sağ qalmışdı. Sonradan dostlarına sənədlər göstərib deyirmiş ki, məni öldürmək istəyirdilər və bunu Polyaniçko təşkil edib. Bilirdilər ki, bu



КӨРӘСӘН, БУ ЈОЛДА БИЗИ ДАҺА НӘЛӘР КӨЗЛӘЈИР?..

***Aydın Məmmədovun son fikirləri: "Görəsən bu yolda bizi daha nələr gözləyir?.."***

sənədi parlamentin növbəti iclasında üzə çıxaracam, amma gücləri çatmadı, növbəti iclasda iqtidarı da, müxalifəti də məhv edəcəm.

Növbəti iclasa üç gün qalmışdı. İkinci günü Aydın Məmmədov həlak oldu. O sənəd də sonradan tapılmadı.

1991-ci il aprel ayının 19-da avtomobil qəzasında faciəli şəkildə həlak oldu (Dilarə Əliyeva ilə). Onu öz doğma Kiş kəndində dəfn etdilər.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Aydın_Məmmədov_(filoloq)*

## AĞASI HUN - ANA DİLİ BİRLİYİNİN FƏALI



***Ağası Hun***

Tanınmış ziyalı Ağası Hun Çənlibel təşkilatını yaradanlardan və 7 şura üzvündən biri olub. Ana Dili Birliyinin yaradılmasında böyük fəallıq göstərib. O, peşəkar jurnalist olaraq Çeçenistan, Osetiya, Qarabağ müharibələrinin qaranlıq məqamlarını çəkdiyi fotolarla, hazırladığı video reportajlarla geniş ictimaiyyətə çatdırıb. Bir neçə il AZTV-də reportyor kimi çalışıb. O illərdə Türkiyənin TGRT və TRT kanalları ilə əməkdaşlıq edib. 2001-2008-ci illər arası TRT Bakı bürosunda kameraman-müxbir kimi fəaliyyət göstərib. İndi Moldoviyada yaşayır.

---

***Qaynaq:***
*Jurnalist Ağası Hun: "Qarabağda "kontuzya" alsam da, mənə veteran vəsiqəsi vermədilər" – müsahibə. Modern.az saytı, 23 iyul 2017 –ci il.*

## AŞIQ ƏLƏSGƏR KLUBUNUN YARADILMASI

Bu klub 1988-ci ilin əvvəllərində Azərbaycan Politexnik İnstitutunda **Becan Fərzəliyev (İbrahimoğlu)** tərəfindən yaradıldı. O dövrdə siyasi adla təşkilatların fəaliyyət göstərməsi mümkün olmadığından folklorla, aşıq yaradıcılığı ilə bağlı məşğul olacaq bir qurum formala-

şacağı qeyd edilirdi. Reallıqda isə bu qurumu yaratmaqda məqsəd - Ermənistanda yaşayan azərbaycanlılara dəstək olmaq, onları müdafiə etmək, yaşadıqları bölgələri tərk etməməyə çağırış idi.



***Becan Fərzəliyev***

Klubun yaradıcısı və sədri olan Becan Fərzəliyev (İbrahimoğlu) qeyd edir: "Mənim elmi işlərim üzrə opponentim – Odessadan olan yəhudi professoru Rusiyada keçirilən bir konfransdan sonra mənə tezliklə Ermənistandan azərbaycanlıların köçürüləcəyini söylədi. Hətta xəbərdarlıq formasında fikrini belə ciddi dedi - hazır olun, köçürəcəklər!"

Klubun fəalları Ermənistandakı həmyerlilərimizi qorumaq məqsədi ilə həmin yerlərə gedir, görüşlər keçirir, konfranslar təşkil edirdilər.

Klubun təşkil etdiyi tədbirlərdə tanınmış şair Zəlimxan Yaqub, tarixi mövzularda (xüsusən Şah İsmayıl Xətai haqqında) bədii kitablar müəllifi kimi tanınan Fərman Kərimzadə çıxış edirdilər.

Sonradan bu klubun üzvləri AXC-nin yaranması ilə fəaliyyətlərini burada davam etdirdilər. Klubun rəhbəri B. Fərzəliyev isə AXC-nin yaradıcılarından və həmin qurumun MNTK-nın sədri oldu. B.Fərzəliyev sonradan Naxçıvan Muxtar Respublikasının Baş Naziri vəzifəsində də çalışdı. O, hazırda Türkiyədə, Ankara şəhərində yaşayır.

***Qaynaq:***

*Becan Fərzəliyevin şəxsi arxivi.*

## ŞAH İSMAYIL XƏTAİ ADINA ELMİ-ƏDƏBİ BİRLİK

1988-ci ilin sentyabr ayında Elektron-Hesablama Maşınları zavodunda Şah İsmayıl Xətai adına Elmi-Ədəbi Birlik yaradıldı. Birliyin yaradılması təşəbbüsü ilə çıxış edənlər zavodda çilingər işləyən Qəhrəman Nəbiyev və zavodun fəhləsi Yaşar Türkazər idi.

**Qəhrəman Nəbiyev** 1957-ci ildə Lerik rayonunda anadan olub. S.M. Kirov adına ADU-nun (indiki BDU- red.) tarix fakultəsini bitirib. Bir müddət müəllim işlədikdən sonra zavodda çalışıb.

Y.Türkazər və Q.Nəbiyev 1988-ci ilin avqustunda M.Hatəmi Tantəkinlə görüşdükdən sonra Çənlibel formasında bir təşkilat yaratmağı qərara alırlar. Təklif olunur ki, Koroğlu Elmi-Ədəbi Birliyi yaradılsın. Lakin sonda Şah İsmayıl Xətainin adını daşıyan təşkilatın yaradılması razılığına gəlirlər. Aşağıda göstərilən heyətdə Təşəbbüs Qrupu yaradılır: 1) Yaşar Məmmədov (Türkazər) – sədr. 2) Qəhrəman Nəbiyev. 3) Məcid (soyadı bilinmir) – zavod mühafizə şöbəsinin rəis müavini. 4) Faiq (soyadı bilinmir) – mühəndis. 5) Ad və soyadı dəqiqləşməyib.

Sentyabrın 23-də təşkilatın təsis yığıncağı keçirildi. Yığıncaqda təşkilatın Şah İsmayıl Xətainin adını daşıması belə açıqlandı: "Biz tədbirlərimizdə tarixdən danışacağıq. Şah Ismayıl Xətai tarixdə böyük iz qoyub. Biz ədəbiyyatdan danışacağıq. Şah Ismayıl Xətai böyük şair olub. Biz ana dilimizdən danışacağıq. Şah İsmayıl Xətai Azərbaycan türkcəsini dövlət dili etmişdi. Biz Azərbaycandan danışacağıq. Şah İsmayıl Xətainin vaxtında Azərbaycanın ərazisi 2 milyon 500 min kv km idi".

Yeni yaradılan Birliyə Qəhrəman Nəbiyev sədr seçildi. Birliyin ikinci toplantısında dilçi alim Firudun Cəlilov çıxış etdi.

Birliyin ilk geniş fəaliyyəti 1988-ci ilin sentyabrında Nərimanov rayon məhkəməsi tərəfindən Yaşar Məmmədova (Türkazərə) kəsilən 300 manat cərimənin ödənilməsi üçün yardım kampaniyasını təşkil etməsi oldu.

Həmin ilin oktyabrın 29-da Birlik M.Hatəmi Tantəkinin sədrliyi ilə yaradılan Azərbaycan Xalq Hərəkatı Cəbhəsinə kollektiv üzv oldu. Qəhrəman Nəbiyev İdarə heyətinin, Yaşar Türkazər isə Müvəqqəti Məsləhət Şurasının üzvü seçildilər.

1988-ci ilin 17 noyabr-5 dekabrında olan Meydan Hərəkatında Şah İsmayıl Xətai adına Elmi-Ədəbi Birliyin rəhbərliyi altında EHM zavodu meydanda fəal iştirak etdi.

Dekabrın 5-də meydan dağıdılan zaman həbs edilənlərin arasında Birliyin üzvü Yaşar Türkazər də var idi (ona 30 günlük həbs cəzası verilmişdi).

1989-cu ilin mart ayında Birliyin təşəbbüsü və təşkilatçılığı ilə Bahar Bayramı keçirildi.

1989-cu ilin avqustun 17-də Azərbaycan Xalq Cəbhəsinin zavodda dayaq dəstəsinin yaranması ilə Birlik buraxıldı və onun İdarə Heyətinin üzvləri AXC Dayaq dəstəsi İdarə Heyətinin üzvləri oldular.

***Qaynaq:***
*Yaşar Məmmədovun (Türkazərin) şəxsi arxivindən.*

## AZƏRBAYCAN MİLLİ ZABİTLƏR BİRLİYİ


***Xaqani Hüseynov***

1992-ci ilin yanvarın 5-də Azərbaycan Milli Zabitlər Birliyinin təsis konfransı keçirildi. AXC sədri Ə.Elçibəyin və müxtəlif siyasi qurumların nümayəndələrinin də dəvət olunduğu konfransda Birliyin məramnamə və nizamnaməsi müzakirə edilərək qəbul olunub. Konfrans təşkilati məsələlərə baxaraq, Azərbaycan Milli Zabitlər Birliyinin İdarə Heyəti, Nəzarət-Təftiş Komitəsi və maliyyə qrupunu seçdi. Birliyin əsas məqsədi Azərbaycan Milli Ordusunun demokratik yöndə formalaşmasına kömək etməkdir.

Ukrayna Zabitlər İttifaqının Bakı regional birliyinin nümayəndəsi, polkovnik Aleksandr İqoroviç çıxışında Ukrayna Zabitlər İttifaqının fəaliyyəti barədə məlumat verdi.

Konfrans respublikada yaranmış ictimai-siyasi durumla bağlı müraciət də qəbul etdi.

Bu təşkilatın yaradıcısı AXC fəallarından olan, Ə.Elçibəy dövründə Nizami rayonunun İcra Başçısı vəzifəsində çalışmış Xaqani Hüseynov idi.X.Hüseynov sonradan Ukraynada yaşamaq məcburiyyətində qalmış və orada vəfat etmişdir.

*Qaynaq:*
*"Azadlıq" qəzeti, N2(102), 7 yanvar, 1992.*

## AZƏRBAYCAN YAŞILLAR CƏMİYYƏTİ

1992-ci ilin martın 27-də Bakıda Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsinin təşəbbüsü ilə Azərbaycan Yaşıllar Cəmiyyətinin təsis qurultayı keçirilib. Üç il bundan əvvəl Azərbaycanda qeyri-formal ekoloji təşkilat kimi yaranan Azərbaycan Yaşıllar Hərəkatının nümayəndələri yeni cəmiyyətlə əlaqələri olmadığını bildirmişdilər.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti. N27(127). 3 aprel, 1992.*

## MOPÇ QURUMUNDA FƏALLIQ (1988-1989-CU İLLƏR)

**MOPÇ – Mejdunarodnoe Obşestva Prav Çeloveka (Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti).**

Bu təşkilatın fəaliyyəti də əhəmiyyətli idi. Sovet cəmiyyətində baş verən insan haqları pozuntularının beynəlxalq ictimaiyyətə çatdırılmasında bu qurumun güclü rolu var idi.

Belə bir qurum Moskvada da mövcud idi və ruslar fəaliyyət göstərirdilər. Lakin Azərbaycanda onu müstəqil yaratdılar. Əsas fəalları aşağıdakılar idi: **Yusif Səmədoğlu (yazıçı), Oktay Mirqasımov (rejissor), Leyla Yunusova (politoloq), Əhməd Rza (rəssam).**

Sovet dövlətində fəal siyasətçiləri 67-ci maddə ilə daha çox həbs edirdilər. Bu maddəyə uyğun olaraq siyasi fəallar millətlərarası ziddiyyətlər yaymaqda məsuliyyətə cəlb olunurdu. Məhz Azərbaycandakı MOPÇ-un üzvləri 1988-1989-cu illərdə məhkəmələrin qarşısında etiraz toplantıları keçirib, insanların həbsdən azad edilməsinə kömək göstərirdilər. Bu fəaliyyətlər sovet hüquq sisteminin də çökməsinə təsir edirdi.

MOPÇ-un üzvləri Azərbaycanda baş verən hadisələrlə bağlı informasiyaların da xarici ölkələrə yayılmasında fəallıq göstərirdilər.

---

***Qaynaq:***
*Əhməd Rzanın şəxsi arxivi.*

## QARABAĞA XALQ YARDIMI KOMİTƏSİ

Dağlıq Qarabağın erməni təcavüzü və işğalı ilə xarakterizə olunan faciəli dövrdən xalqı xilas etməyə çalışan ziyalılar öz siyasi iştirak dairələrini genişləndirir, eləcə də müxtəlif sosial təşkilatlar və xeyriyyə cəmiyyətlərini yaradırdılar. SSRİ-nın dağılmasından sonra vətəndaşları təsisatlarda birləşdirən xeyriyyə və mədəniyyət mərkəzləri yarandı. İlk təşəbbüslərdən biri 15 avqust 1989-cu ildə yaradılmış Qarabağa Xalq Yardımı Komitəsi olmuşdur. Komitənin sədri yazıçı Bayram Bayramov idi.




***"Azərbaycan" qəzetinin ilk sayı. 1 oktyabr 1989-cu il***

Qarabağa Xalq Yardımı Komitəsi Dağlıq Qarabağın zərər çəkmiş əhalisi və məcburi köçkün düşənlər üçün maliyyə dəstəyini təmin edirdi.

Təşkilatın "Azərbaycan" adlı qəzeti çap olunurdu və Baş redaktoru şair S.Rüstəmxanlı idi.

***Qaynaq:***
*qacqinlarcemiyyeti.qht.az/index*

## AZƏRBAYCAN QAÇQINLAR CƏMİYYƏTİ

Azərbaycan Qaçqınlar Cəmiyyəti 1988-1989-cu illərdə Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindən qovulmuş soydaşlarımıza maddi və mənəvi cəhətdən dəstək olmaq üçün yaradılmışdı.

1989-cu ilin 28 dekabrında əslən Qərbi Azərbaycandan olan ziyalılarımızın, qaçqınların nümayəndələrinin təşkilatçılığı və iştirakı ilə Azərbaycan Qaçqınlar Cəmiyyətinin təsis qurultayı keçirildi. Professor Niftalı Qocayev sədr seçildi. 1990-cı ilin 22 yanvarında Azərbaycan Nazirlər So-

vetinin sədri A.Mütəllibov “Azərbaycan Qaçqınlar Cəmiyyəti haqqında” 35 saylı xüsusi qərar imzaladı. Bu qərarda cəmiyyətin fəaliyyətinə hər bir şəraitin yaradılması qeyd olunurdu.

“Vətən səsi” qəzeti Azərbaycan Qaçqınlar Cəmiyyətinin nəşri olaraq 1990-cı ilin aprelindən çap edilməyə başlayıb. İlk redaktoru T.Əhmədov olub.

*qacqinlarcemiyyeti.qht.az/index*

## YAZIÇI FƏRMAN KƏRİMZADƏNİN (1937-1989) QƏFİL ÖLÜMÜ



***Fərman Kərimzadə***

Tanınmış yazıçı Fərman Kərimzadə 1988-ci ildə Qərbi Azərbaycandan gələn azərbaycanlı soydaşlarımızın problemləri ilə ciddi məşğul olan ziyalılarımızdan idi. Onların müxtəlif bölgələrdə yerləşdirilməsində,maddi yardımlar göstərilməsində o, böyük köməklik göstərirdi.

F.Kərimzadə Tərtərdə olarkən bir qadının 5 uşağı ilə ortalıqda qaldığını görür. Həmin qadın ağlayaraq küçələrdə qaldığını söyləyir. F.Kərimzadə əsəbləşərək deyib: “Kişi olun, bir qadını 5 uşaqla ortalıqda qoymusunuz?!”. Bu vaxt onu iflic vurub. Gecə saat 4-də həkimin evində dünyasını dəyişib.

F.Kərimzadə azadlıq hərəkatında da iştirak etdiyindən sovet “KQB”-si tərəfindən izlənilirdi.

## 1990-CI İLDƏ MÖVCUD TƏŞKİLATLAR

1. Azərbaycan Milli Demokrat Partiyası
2. Xalq Azadlıq Partiyası
3. Azərbaycan Xalq Birliyi
4. Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti
5. Azərbaycan Yaşıllar Hərəkatı
6. Azərbaycan Gənclərinin Demokratik Hərəkatı
7. Dirçəliş Partiyası
8. Respublika Ağsaqqallar Şurası
9. Demokratik Ziyalılar Ittifaqı
10. BDU Yurd Cəmiyyəti
11. Vətən Cəmiyyəti
12. Azərbaycan Korlar Cəmiyyəti
13. Azərbaycan Vəkillər Kollegiyası
14. Azərbaycan Memarlar İttifaqı
15. Beynəlxalq İnsan Hüquqları Müdafiə Cəmiyyəti
16. Respublika Hüquqşünaslar İttifaqı
17. Azərbaycan Qaçqınlar Cəmiyyəti
18. Azərbaycan Sosial-Demokrat Partiyası
19. Azərbaycan Ekoloji İttifaqı
20. Borçalı Cəmiyyəti
21. Qarabağa Xalq Yardımı Komitəsi
22. Respublika Tərcümə Mərkəzi
23. Məhsəti Türklərinin Ümumittifaq Vətən Cəmiyyəti

**Sonradan qoşulanlar:**

1. Azərbaycan Milli Demokrat Partiyası (Yeni Müsavat)
2. Respublika Sodrujestva Cəmiyyəti
3. Respublika Liberal-Demokrat Partiyası
4. Birlik Partiyası
5. Azərbaycan Alimlər İttifaqı
6. Moskvada yaşayan Azərbaycan İcmasının Təşkilat Komitəsi
7. Moskvada AXC Komitəsi – Dayaq Cəmiyyəti

# ÇƏNLİBELİN YARANMASI

## BƏXTİYAR TUNCAYIN YAZDIQLARINDAN



***Çənlibelin əsas yaradıcısı Məhəmməd Hatəmi***

Azərbaycan milli-azadlıq hərəkatı tarixində **Çənlibel təşkilatının** xüsusi rolu vardır. 1987-ci illərin sonlarında Məhəmməd Hatəmi, İsfəndiyar Coşqun, Sabir Yanardağ, Şamil Saleh, Əbülfəz Əliyev, Bəxtiyar Tuncay, Vurğun Əyyubov, Ənvər Börüsoy, rəssam Tofiq Rəsulov, hüquqşünas Fuad Ağayev və digər milli görüşlü ziyalılar davamlı olaraq Bakıdakı "Nu poqodi" çayxanasına toplaşır, Azərbaycan tarixi, Rusiyaya necə birləşdirilməsi, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı elmi diskussiyalar aparırdılar. O dövrdə isə bu mövzularda danışmaq qadağan idi.

Sovet dövlətində isə M.S.Qorbaçovun "Aşkarlıq və yenidənqurma" dövrü başlanmış, azad söz və fəaliyyət üçün müəyyən imkanlar açılmışdı. Həmin dövrdə Bəxtiyar Tuncay, Fuad Ağayev, Tofiq Rəsulov birgə müzakirələr zamanı klublardan birinin tərkibində dərnək yaratmaq qərarına gəldilər. Qeyd edək ki, çayxana söhbətlərindən dərnək formasında daha ciddi fəaliyyətə keçmək həmin gənclərin həm də məqsədi idi. Bəxtiyar Tuncay İncəsənət İnstitutunu bitirmişdi və o, bilirdi ki, sovet qanunları klubların tərkibində dərnəklər yaratmağına icazə verirdi.

Dərnəyin **Qızıl Qoç** adlanması məqbul sayıldı. O dövrdə dərnək yaradıcılarının ən çox etibar etdiyi şəxs olan Məhəmməd Hatəmi də bu ideyaya dəstək verəcəyini söyləmişdi. Bu işdə B.Tuncayın tələbə yoldaşı olan **İsabala** adlı şəxs köməklik göstərdi. İsabala Azərnəşr klubunda işləyirdi və təşəbbüsə razılıq verdi. Sovet dövründə klubların çox zaman fəaliyyəti olmurdu və hesabat üçün təklifləri reallaşdırmağa çalışırdılar.

İlk müzakirədə narazılıq yaradan dərnəyin adı oldu: Qızıl Qoç. Bu ad bəyənilmirdi. Şair Məmməd Ellinin təklifi ilə dərnək **Çənlibel** adlandırıldı və nizamnamədə əsaslandırılıb kluba təqdim edildi. Tezliklə Çənlibel



*Çənlibelin sədri Vurğun Əyyub*

birliyi yaradıldı və ilk toplantı təyin edildi. Bakının mərkəzi küçələrinə birliyin toplantısı ilə bağlı afişalar vuruldu.

Təşkilata sədr seçilməsi mübahisəli oldu. Üç nəfərin namizədliyi irəli sürülmüşdü: Məhəmməd Hatəmi, İsfəndiyar Coşqun, Bəxtiyar Tuncay. M.Hatəmi sovet vətəndaşı olmadığından, adının DTK-nın qara siyahısında olmasını əsas gətirib, B. Tuncayın sədrliyini irəli sürdü. B. Tuncay bildirdi ki, o, əsgərlikdə olarkən antisovet təbliğatı aparmış və adı DTK-nın qara siyahısında olub. Onun sədrliyi diqqət çəkəcək. Razılaşma əsasında hökumətdə narazılıq yaratmayan bir şəxsin sədr seçilməsi məqsədəuyğun sayıldı. İsfəndiyar Coşqunun təklifi ilə Vurğun Əyyubovun namizədliyi qəbul edildi.

Çənlibelin ilk toplantısına 300-ə qədər adamın gəlməsi insanların bu təşkilata marağını göstərirdi. Təbii ki, zalda hökumət adamlarının da sayı çox idi.

Sumqayıt hadisələrindən 1-2 gün sonra Çənlibelin növbəti toplantısı olmalı idi. Toplantı günü milis (polis) işçiləri binanı mühasirəyə alıb iclasın keçirilməsinə imkan vermədilər. Bu təzyiqlərə baxmayaraq Çənlibel birliyi şəbəkələşmişdi.

Çənlibel Birliyində ilk yarandığı gündən iki qanad var idi: liberallar və radikallar. Radikal qanadın üzvləri əsasən gənclər olsa da, onlara Məhəmməd Hatəmi başçılıq edirdi. Liberallara isə Əbülfəz Əliyev (Elçibəy), Firudin Ağasıoğlu, Sabir Rüstəmxanlı, Tağı Xalisbəyli,Vurğun Əyyubov və Nemət Pənahlı daxil idi.



*Tofiq Rəsulov - Çənlibelin embleminin rəssamı*

Çənlibeldə qoyulan problemlərdən biri də Bütöv Azərbaycan məsələsi idi. Birlikdə başda M. Hatəmi olmaqla çoxlu güneylinin olması bu məsələni diqqət mərkəzinə gətirirdi. **Birlik yaxın məqsəd olaraq – Quzeyin müstəqilliyinin elan edilməsini, uzaq**

**məqsəd olaraq – Azərbaycanın birləşdirilməsini qəbul edirdi.**

Çənlibelin təşkilatçılığı ilə 1988-ci ilin mayında böyük mitinq keçirilməsi nəzərdə tutulurdu. M. Hatəmi mitinqləri aparmaq üçün 16 nəfərlik siyahı hazırlamışdı. Bu mitinqdə institutlarda, zavodlarda, fabriklərdə hazırlıqlar aparılmışdı. Mitinqdən əvvəl isə DTK əməkdaşı mitinq təşkilatçılarının bəziləri ilə (B.Tuncay, N.Pənahlı) görüşüb onları qorxutmağa, bu işdən çəkinməyə çağırmışdı. Bildirmişdi ki, Moskva desant göndərəcək Bakıya, mitinqdəkiləri qıracaq, təşkilatçılar isə həbs olunacaqlar.

M.Hatəmidən isə mitinqqabağı məlumat yox idi. O, hələ də son qərarın veriləcəyi toplantıya gəlib çıxmamışdı.

---

***Qaynaq:***

*Bəxtiyar Tuncay: "Bizə elə gəlirdi ki, bu millətin dərdini elə 5-6 nəfər biz çəkirik". "Yeni Müsavat" qəzeti, 2 dekabr, 2014-cü il.*

**ƏNVƏR BÖRÜSOYUN DEDİKLƏRİ:**



***Ənvər Börüsoylu***

Çənlibelin yaradılmasında və fəaliyyətində ciddi rolu olan Ənvər Börüsoy təşkilatın yaradılmasını belə xatırlayır: "O dövrdə "Qlavlit"in sədri Knyaz müəllim idi. O, söhbətlərinin birində yaxın adamlarına bildirmişdi ki, Sov. İKP-nin 1985-ci ildəki Aprel Plenumundan sonra (aşkarlıq, yenidənqurma dövrü) ölkədə bir qədər sərbəstlik yaranmaqdadır və tarix, mədəniyyət, ədəbiyyatla bağlı yeni söhbətlərin edilməsi, toplantıların keçirilməsi mümkün olar. Knyaz müəllim tərəqqipərvər ziyalı idi. Müəyyən kitabların nəşri prosesinin yumşaldılmasına da şərait yaradıb. Məsələn, İsa Hüseynovun "İdeal", Sabir Rüstəmxanlının "Qan yaddaşı", Mirəli Seyidovun kitabları və s.

O zaman yaradılan Çənlibel birliyinin tədbirlərinin "Azərnəşr"in binasındakı 3-cü mərtəbədəki klubda keçirilməsinə də onun dəstəyi olub. Çünki o dövrdə "Qlavlit" də həmin binada yerləşirdi.



***Akademik Xudu Məmmədov toplantıda***

Qeyd edək ki, həmin klub Respublika Həmkarlar İttifaqına aid idi və sədr şair Həmid Abbasın da bu işə yetərincə köməyi olmuşdu. Bədii rəhbər olan Heybət Məmmədbəyli də müasir düşüncəli idi və Çənlibel Birliyinə də yaxın idi. Bundan əlavə Heybət bəy "Sevil" vokal instrumental ansamblında "udarnik"(zərb aləti çalan) çalıb və caz sənətinin milliləşdirilməsində xidmətləri olub.

Çənlibel Birliyinə sədrliyə cavan adamın seçilməsinə üstünlük verilirdi. Hər toplantıya 100-150 nəfər adam gəlirdi. Burada Mikayıl Mirzə və digərlərini görmək mümkün idi. Çənlibel Birliyinin fəaliyyəti 1988-ci ilin Sumqayıt hadisələrindən sonra zəiflədi. Çənlibelin getdikcə gücləndiyini, xalq arasında, xüsusən ziyalılar arasında böyük nüfuz qazandığını hiss edən hakimiyyət orqanları basqıları artırdı. "Azərnəşr"in binasındakı klubda Çənlibelin tədbirləri keçirməsinə icazə vermədi. 1988-ci ilin noyabr hadisələrində isə Çənlibel demək olar ki, hiss edilmirdi.

Çənlibelin keçirdiyi tarixi tədbirlərdən biri də 1988-ci ilin mayın 9-da oldu. O dövrdə indiki Fəvvarələr meydanında Nizami Gəncəvinin "Yeddi Gözəl" əsərinə abidə qoyulmuşdu. Həmin abidənin milli üslubda deyil, xristian üslubunda hazırlanması daha çox hiss edilirdi. Çənlibelçilərin tələbələri isə orada etiraz aksiyası keçirirdi. Onlar həmin abidənin oradan götürülməsini tələb edirdilər. Hökumət nümayəndəsi olaraq tanınmış güləşçi Rafiq Hacıyev gəlib onların dağılışmağını xahiş etdi. Bildirdi ki, problem də həll olunacaq. Bir müddət sonra həmin abidə oradan götürüldü.



***Nemət Pənahlı toplantıda***

Dövlət orqanları hər vasitə ilə Çənlibelin fəaliyyətinə mane olurdular. Təşkilatın 1988-ci ilin 28 fevralında keçiriləcək toplantısında şair Xəlil Rza "Ədəbi dilimizin vəziyyəti" mövzusunda məruzə etməli idi. Hakimiyyət orqanları onu bu tədbirdən uzaqlaşdırmışdılar. Onun əvəzinə tədbirin pozulmaması üçün H.Tantəkin Şeyx Məhəmməd Xiyabaninin fəaliyyəti ilə bağlı məruzə etmişdi.

1988-ci ilin 22 sentyabrında böyük şair Şəhriyarın qırxı mərasimi ilə bağlı 100-ə qədər Çənlibel üzvü Təzəpir məscidinə toplaşır. Təziyədən sonra “Şəhriyar, Şəhriyar!”, “Azərbaycan, “Azərbaycan!”, “Qarabağ, Qarabağ!” şüarlarını səsləndirərək, şəhərin küçələri ilə keçib Dənizkənarı bulvara gəlir. Burada milislər (polislər) Mənsur Əlisoyu, Yaşar Türkazəri həbs etmişdilər.

---

***Qaynaq:***
*Ənvər Börüsoylunun şəxsi arxivi.*

**MƏHƏMMƏD HATƏMİ TANTƏKİNİN FİKİRLƏRİ:**



***Birliyin emblemi***

Bu təşkilatın necə yaranması haqqında məlumatları Hatəmi Tantəkin 2006-cı ildə nəşr edilən **“Acı həqiqətlər” kitabı**nda yazır: “Bəxtiyar Tuncayla Tofiq Rəsulov Qızıl Qoç adlı dərnək yaratmaq fikrinə düşüblərmiş. Mirzəağa Əliyev adına İncəsənət İnstitutunun tələbəsi Ənvər Yusifoğlu onları yanıma gətirdi ki, dərnəyi tezliklə yaradaq. Razılaşdım. Ancaq Qızıl Qoç adı xoşuma gəlmədi. Ad haqqında bir neçə gün düşünüb-daşındım. Qərara gəldim ki, Koroğlu qoyum. Mifoloq dostum Məmməd Elli dedi: Çənlibel olsa yaxşıdır”. O, dərnəyə ürəyimdən olan, uğurlu, mənalı ad tapmışdı. Sevindim və oradaca razılaşdım. Dərnəyin adını fəaliyyətimizin gedişində əvvəlcə “Çənlibel xalq sənəti və folklor həvəskarları birliyi” şəklində formalaşdırdıq. Sonra onu Çənlibel Elmi-Ədəbi Birliyi adlandırdıq. Amma hər yerdə ona Çənlibel Təşkilatı deyilirdi”.

Birliyin sədrliyinə Bəxtiyar Tuncayın, Hatəminin namizədliyi olsa da, onlar bundan imtina etdilər. Səbəbi isə hər ikisinin o dövrdə DTK (Dövlət Təhlükəsizliyi Komitəsi) tərəfindən izlənilməsi və bunun da təşkilatın fəaliyyətinə problem yarada bilməsi idi. Odur ki, gənc bir ziyalının, həm də filoloji təhsilə malik Vurğun Əyyubovun təşkilatın sədri seçilməsi məqsədəuyğun sayıldı.

Çənlibel Birliyinin ilk təsis iclası 1987-ci ilin fevralın 17-də, "Azərnəşr"in (indi bank binasıdır) üçüncü mərtəbəsindəki kiçik zalında keçirildi. İclasda 27-yə qədər gənc iştirak edirdi ki, onların bir neçəsi qız idi. Gənclərin əksəriyyəti Əzim Əzimzadə adına Rəssamlıq məktəbinin tələbələri idilər. Üç saata qədər davam edən iclasda təşkilatın Bəxtiyar Tuncay tərəfindən yazılmış ilkin proqramı qəbul edildi. Təşkilatın İdarə Heyətinə aşağıdakılar daxil oldular: Ənvər Yusifoğlu (Börüsoy), Tofiq Rəsulov, Ağası Hun, Bəxtiyar Tuncay, Fuad Ağayev, Vurğun Əyyubov.

Çənlibelin emblemini Tofiq Rəsulov (o, rəhmətə gedib) hazırladı. M.Hatəmi tərəfindən Birliyin himni olaraq Ü. Hacıbəyovun "Koroğlu" operasının üverturası seçildi və Ağası Hunla Tomrid Hatəmi (M. Hatəminin qardaşı) onu lentə köçürdülər. Çənlibelin bütün toplantılarında Tomrid Hatəmi həmin üverturanı səsləndirir və hamı bir nəfər kimi ayağa qalxırdı.

Həmin Üvertüranı siyasi musiqi kimi, Çənlibel Birliyindən sonra Azərbaycan Teatr Xadimləri İttifaqının Aktyor Evində ilk səsləndirən sənətşünas Azad Əligil olmuşdu.

Birliyin ayda 4 dəfə heyət iclası, bir dəfə isə ümumi yığıncağı olurdu. Ümumi yığıncağa məşğələ deyilirdi. Məşğələlərdə məruzələr qoyulur, vətənsevər sayılan şair, yazıçı, alim, aktyor şəxsiyyətlərlə görüşlər təşkil edilirdi.

Çənlibel Birliyinin ilk məşğələsində M.Hatəmi "Kuşanların türklüyünü sərgiləyən mədəniyyət" mövzusunda çıxış etdi. İlk toplantının yüksək səviyyədə olması üçün "Çənlibel"çilərdən - Ənvər Yusifoğlu, Ağası Hun ali məktəblərdə, zavod və fabriklərdə ciddi təbliğat işləri aparmışdılar. Kluba ümumi rəhbərlik edən Heybət bəy Məmmədbəyli isə bu haqda qəzetə elan da verdirmişdi. 150-yə qədər insanın toplaşdığı tədbirdə tanınmış alim və ziyalılardan - Mirəli Seyidov, Xudu Məmmədov, Lətif Kərimov, Kübra xanım Əliyeva, Tofiq Məmmədov və digərləri iştirak edirdilər.

M.Hatəminin bu məruzəsində sovet türkologiyasının SSRİ-də yaşayan türk xalqlarının tarixini, mədəniyyətini saxtalaşdırması, buna cavab olaraq türk xalqlarının əzəmətli əski mədəniyyəti və kuşanların türk kimliyi əsas olaraq təqdim edilmişdi. Məqsəd - dinləyicilərdə milli duyğu, ruh, şüur yaratmaq idi.

Birliyin iyunun 21-də (1987-ci il) keçirilən növbəti məşğələsinə isə 270-ə qədər iştirakçı toplaşmışdı. Məruzəçi Abbas Acalov (tanınmış şair Abbas Abdulla) "Şumer-Azərbaycan əsatir və folklor bağlılıqları" mövzusunda çıxış etdi. Həmin məruzə "Çənlibelçi"lərlə professor Mirəli Seyidov arasında ciddi fikir ayrılığına səbəb olmuşdu. M. Seyidov şumerlərin türklüyünü inkar edirdi və qoyulan mövqedən narazı qalıb zalı tərk etmişdi.

Çənlibelin toplantıları çox maraqlı keçirdi və "Yenidənqurma"nın (M.S.Qorbaçovun elan etdiyi, sovet cəmiyyətində başlamış "Aşkarlıq və Yenidənqurma" prosesi) verdiyi imkanlardan istifadə edən toplantı iştirakçıları stalinizmin və durğunluq dövrünün əleyhinə ciddi ittihamlar da səsləndirirdilər. Elə bu fəaliyyətin nəticəsi idi ki, Çənlibel Birliyi tez bir zamanda diqqəti cəlb etdi və çoxlu sayda insanları ətrafına topladı. Toplantılara isə yalnız Bakıdan deyil, rayonlardan da gəlib iştirak edənlər olurdu.

Azərbaycan hakimiyyəti Çənlibelin fəaliyyətindən artıq narahat olmağa başladı. "Çənlibel"çiləri "şovinist", "antisovet", "yenidənqurmanın əleyhdarları", "ekstremist" adlandırmağa başladılar. Məşğələləri pozmaq üçün yığıncaq günü "Azərnəşr"in qapısı bağlanılır, zalın işıqları söndürülür, məruzəçi Bakıdan uzaqlaşdırılırdı. Bəzi hallarda isə işıqlar söndürüldüyündən əvvəlcədən hazırlıqlı gələn "Çənlibel"çilər şam yandırır və toplantını davam etdirirdilər.

O dövrdə hələ çox da tanınmayan Nemət Pənahlı da Çənlibelin üzvü idi və iclaslarda iştirak edirdi.

Həqiqətən də, Azərbaycanda çoxlu sayda birliklərin, cəmiyyətlərin, dərnəklərin yaranıb, xalqçı, millətçi istiqamət almasında Çənlibelin böyük rolu oldu.

**Təşkilatın əsas rəhbərlərindən biri olan M.Hatəmiyə Moskvada Lefortovo həbsxanasında olarkən DTK əməkdaşı polkovnik Qubinski bu sözləri demişdi: "Sən dövləti aldadıb, ədəbi bir cəmiyyəti siyasi təşkilata çevirmisən".**

Azərbaycanda 1988-ci ildən başlanan ilk mitinqlərin keçirilməsində və təşkilində də "Çənlibel"çilərin rolu az olmadı.

Çənlibel Birliyinin son iclaslarında isə ciddi gərginliklər yaşandı.

Birliyin 1988-ci ilin 30 oktyabr tarixli iclasında Şamil Əliyev (Saleh) və Sabir Yanardağ çıxış edərək, RSFSR (Rusiya Sovet Federativ Sosialist Respublikası) yaradılması fikrini irəli sürüblər. Əsaslandırıblar ki, "Rus xalqı digərlərinə deyil, digər xalqlar da rus xalqına kömək etməlidir".

Növbəti gərginlik H. Tantəkinlə V. Əyyubov arasında yaşandı. Nəticədə H. Tantəkin V. Əyyubovun təşkilatın sədrliyindən uzaqlaşmasına və onun yerinə rejissor Ədalət Ziyadxanovun seçilməsinə nail olur.

1988-ci ilin 30 oktyabrında isə növbəti iclasda H. Tantəkin büro üzvlüyündən azad edilir.

V.Əyyubov yenidən Çənlibelin sədri seçilir.

H. Tantəkin yazır: "Başıma bu işin gələcəyini duyaraq, Çənlibelin həmin gün saat 4-də başlayacaq ümumi yığıncağına öz hazırlığımı görmüşdüm. Belə ki, bütün "Çənlibel"çiləri, Çənlibel təşkilatının ardınca gedən zavod-fabrik cəmiyyətlərinin nümayəndələrini əlaltdan həmin iclasa dəvət etmişdim. Fikrim Çənlibeli Xalq Hərəkatı Cəbhəsinə çevirib, əslində saxlamaq idi".

Baxmayaraq ki, sonradan Çənlibelin fəaliyyətini davam etdirmək cəhdləri olmuşdu, lakin birliyin 1988-ci ilin noyabr mitinqlərindən sonra ictimaiyyətə təsir imkanları məhdudlaşdı və dayandı.

1988-ci ilin fevralında baş verən Sumqayıt hadisələrindən sonra Çənlibelə qarşı dövlət təzyiqləri xüsusi gücləndi. Bu da təşkilatın fəaliyyətinə mənfi təsirini göstərdi.

1988-ci ilin oktyabrında Çənlibeldə parçalanma oldu

Sonradan - 1989-cu ildə Elektron-Hesablama Maşınqayırma zavodunda Şah İsmayıl Xətai adına Elmi-Ədəbi Birlik yarandı. Sədr - Qəhrəman Nəbiyev idi. Cəmi 2 iclası olmuşdu. İstəmirdilər ki, bir cənublu Hərəkatın başına keçsin. Qorxurdular ki, bu, Cənuba da təsir edər.

Çənlibeldə Mirəli Seyidov, Fəxrəddin Miralayev Nizami haqqında məruzələr oxumuşdular.

---

***Qaynaq:***

*H.Tantəkin. Acı həqiqətlər. Bakı, 2006.*

## VURĞUN ƏYYUB ÇƏNLİBEL HAQQINDA ("ÜVERTURA" HİMN KİMİ İLK DƏFƏ HARADA SƏSLƏNİB? SABİRABAD. ASİF ATA İLƏ GÖRÜŞ, 1979-CU İL)

**Çənlibel Birliyinin sədri Vurğun Əyyubun** məlumatlarından aydın olur ki, Ü.Hacıbəylinin "Koroğlu" operasındakı "Üvertura" Meydan mi-

tinqlərindən əvvəl ilk dəfə olaraq Saatlıda müəllim işləyən Məmməd Ellinin və onun (Məmməd Ellinin özü folklorşünas idi) dəstəyi ilə Sabirabadda Asif Ata ilə keçirilən görüşdə səsləndirildi. Bu görüşdə qəhrəmanlıq, cəngavərlk mənasında səsləndirilən Üvertura Asif Ata ilə görüşə gələn 700-ə qədər insanı çox coşdurmuşdu. Asif Ata tədbirə Üverturanın sədaları altında daxil oldu. Görüşü isə o zaman həmin rayonda orta məktəbdə müəllim işləyən V.Əyyub apardı. Qeyd edək ki, sonradan V.Əyyubun sədri olduğu Çənlibel Birliyinin tədbirləri də bir qayda olaraq həmin Uvertura ilə açılırdı.

Çənlibel birliyinə rəhbərlik etmiş V.Əyyub bu qurumun necə yaranmasını belə xatırlayır: “1986-cı ilin yaz günlərinin birində Bəxtiyar Tuncayla görüşdük. Bəxtiyar bir elmi-ədəbi birliyin yaradılması zərurətindən danışdı. Söhbətimizin sonunda dedi ki, mən Fuad və Hatəmi ilə söhbət etmişəm. Qərara gəlmişik ki, sən rəhbər olasan. Mən birlik yaratmaq fikrini alqışladım. Lakin niyə bizdən təcrübəli, daha çox tanınan, müəyyən siyasi fəaliyyət göstərmiş M.Hatəmini yox, məni rəhbər seçmək istədiklərini soruşdum. Cavab verdi ki, Hatəmi məhz bu cəhətlərinə görə DTK tərəfindən izləndiyi üçün onun rəhbərliyi altında təşkilat yaradılmasına imkan verməzlər. Həm də sən filoloqsan, yaxşı məclis idarə etmək qabiliyyətin var. Belə bir elmi-ədəbi birlik sənin rəhbərliyin altında fəaliyyət göstərərsə şübhə doğurmaz”.

Çənlibel Birliyinə rəhbərlik etməsi V.Əyyub üçün asan olmurdu. Çalışdığı Azərbaycan Pedaqoji Universitetin rektoru A.Qurbanov onun institutdan uzaqlaşdırılmasını təklifini etmişdi. Onu DTK-ya da çağırıb bu işdən uzaqlaşdırılması ilə bağlı söhbətlər aparmışdılar. Lakin o, bu və digər təzyiqlərə baxmayaraq fəaliyyətini davam etdirirdi.

Çənlibel Birliyi isə elmi-ədəbi birlik olaraq fəaliyyət göstərirdi. **Buradakı müzakirələrdə tarixi şüur, etnik kimlik məsələlərinə toxunulurdu.** Təşkilatda Qarabağ hadisələri müzakirə edilirdi. Bir dəfə isə Çənlibelin adından Qarabağ qaçqınlarına yardım aparıldı. V.Əyyub və T.Xalisbəylinin apardığı yardım Ağdamdan Şuşaya çox çətin şəraitdə çatdırıldı.

Çənlibel Birliyindəki ziyalılar arasında ciddi ziddiyyətlər də olurdu. 1988-ci ilin oktyabr ayında keçirilən İdarə Heyətinin son iclasında V.Əyyubun adının Birlik sədri kimi yazılması, tədbiri həmişə eyni adamın aparması və digər məsələlər ziddiyyətlərin səbəbi kimi göstərildi.

Bu məsələyə əsas etiraz edən M.Hatəmi idi. Yaranmış gərginlik nəticəsində Bəxtiyar Tuncay və Fuad Ağayev təşkilatdan uzaqlaşdılar. V.Əyyubun "Mən sədrlikdən imtina edirəm, lakin təşkilatı dağıtmayaq" fikri də təsirsiz qaldı. Təşkilata yeni sədrin – Ədalətin seçilməsi də müsbət nəticə vermədi.Sonradan V.Əyyubov yenidən təşkilatın sədri seçildi.

Bu dövrdə başlanan Meydan hərəkatından sonra Çənlibel də fəaliyyətini meydanda davam etdirdi və sonradan yaranan AXC-nin əsasını təşkil edən qüvvələrdən oldu.

Çənlibelin bölgələrdə təşkilatlarını yaratmaq nəzərdə tutulsa da, bu, mümkün olmadı.

---

***Qaynaq:***
*Vurğun Əyyubun şəxsi arxivindən.*

## ÇƏNLİBELİN ADI, YARANMA TARİXİ

Bu təşkilat sənədlərdə bir adın iki formasında qeyd olunur: 1) Çənlibel Xalq Sənəti və Folklor Həvəskarları Birliyi; 2) Çənlibel Elmi-Ədəbi Könüllü Birliyi.

Çənlibelin Azərbaycan KP MK-nın Birinci K.Bağırova ünvanladığı müraciətdə bu qurumun 1987-ci ilin aprelindən rəsmi olaraq fəaliyyət göstərdiyi qeyd edilir.

## CƏNLİBELİN İŞ PLANI

Çənlibel Birliyinin iş planında onun fəaliyyəti ilə bağlı maraqlı məlumatlar vardır. Birliyin 1 iyun 1987-ci ildə Mədəniyyət İşçiləri Evinin Bədii Şurası tərəfindən təsdiq edilmiş 1987-ci il üçün cari iş planında yazılıb: **1)** Təşkilati iş – 1. Birliyə qəbul haqqında elan vermək; 2. Nizamnanəminin hazırlanması; 3. Sədr və büro üzvlərinin seçilməsi; 4. Nizamnamənin müzakirəsi; 5. Cari iş planının hazırlanması və müzakirəsi; **2)** Tərbiyəvi iş – 1. Yeni çap olunmuş elmi-bədii əsərlərin müzakirəsinin təşkili; 2. Şair, yazıçı, aktyor, elm xadimləri və görkəmli xalq sənətini yaşadanlarla görüşlər təşkil etmək; 3. Qədim mədəniyyət abidələrinə, tarixşünaslıq muzeylərinə, teatrla-

ra, konsertlərə baxışların təşkili; **3)** Təlim-təcrübə işləri – 1. İbtidai və antik incəsənət, qayaüstü rəsmlər; 2. Ön Asiya, Qafqaz, Mərkəzi Asiya, Sibir və Avropa Mədəniyyət birgəliyi; 3. Türkdilli xalqların mədəniyyətində azərbaycanlıların yeri və mövqeyi; 4. Qədim incəsənət və magiya. İncəsənət və mifologiya. 5. Strukturalizm anlayışı. Simmetriya. 6. Təkamül. İlk və son fazalar. 7. Qədim incəsənət nümunələri əsasında ilkin mifik süjetlərin bərpası... və s. Bu fəaliyyətin sayı 22-yə qədər qeyd olunub. **4)** Kollektivin tədbirlərdə iştirakı – 1. Mədəniyyət İşçiləri Evinin bədii özfəaliyyət kollektivləri ilə birlikdə ayrı-ayrı təşkilatlarda çıxış etmək; 2. Mədəniyyət İşçiləri Evində, Mədəniyyət müəssisələrində, hamilik etdiyimiz məktəblərdə Birliyin topladığı xalq sənəti nümunələrindən və Birlik üzvlərinin əl işlərindən sərgilər təşkil etmək; 3. Sov. İKP XXVII və Azərbaycan KP XXXI qurultaylarının qarşıya qoyduğu vəzifələrdən irəli gələn tədbirlərdə iştirak etmək; 4. Hamilik etdiyimiz rayon əməkçilərinin və hərbi hissələrin əsgərləri qarşısında çıxışlar etmək".

---

***Qaynaq:***

1. *V.Əyyubun şəxsi arxivindən*
2. *V.Əyyubun şəxsi arxivi. "Çənlibel xalq sənəti və folklor həvəskarları birliyinin 1987-ci il üçün cari iş planı" sənədi.*

## ÇƏNLİBELİN KEÇİRDİYİ TƏDBİRLƏR

Çənlibel Birlyi fəaliyyətə başladığı gündən aşağıdakı məşğələləri keçirmiş və ictimaiyyətin geniş diqqətini cəlb etmişdi:

1. "Kuşan – Azərbaycan Mədəniyyəti birgəliyi" (məruzəçi – filologiya elmləri namizədi Məhəmməd Hatəmi Tantəkin).
2. "Şumer – Azərbaycan əsatir və folklor bağlılıqları" (məruzəçi – Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı Arif Acalov).
3. "Sabir Rüstəmxanlının "Qan yaddaşı" kitabının müzakirəsi" (məruzəçi – Vurğun Əyyubov).
4. "İlkin mənbələrin bizə anlatdıqları" (məruzəçi – Məhəmməd Hatəmi Tantəkin).
5. Nizamiyə görə dünyanın kosmoloji strukturu" (məruzəçi – F.Miralayev).

6. “Azərbaycan SSR Əməkdar artisti Mikayıl Mirzəyevlə görüş”.
7. Ş. M. Xiyabaninin publisistikası”.

Qeyd edək ki, bu məşğələlərdə oxunan məruzələr elmi cəhətdən əsaslı, dolğun, əhatəli və maraqlı olmuş, onların ətrafında kəskin, canlı mübahisələr, fikir mübadilələri olmuşdur.

Çənlibel Birliyi az müddətdə dinləyicilərin dərin rəğbətini qazanmış, getdikcə bu tədbirlərə daha çox sayda insanlar gəlmişdi. Əgər ilk məşğələyə 120-150 nəfər gəlmişsə də, sonuncu məşğələdə bu rəqəm 300-350 nəfərə çatmışdır. Birliyin altı məşğələsində ümumilikdə 1400 nəfərə qədər dinləyici iştirak etmişdi.



Birliyin afişası

---

***Qaynaq:***
*V.Əyyubun şəxsi arxivi: Çənlibel Birliyinin illik hesabatı.*

## ÇƏNLİBEL HANSI TƏŞKİLATA TABE İDİ?

Təşkilatın Azərbaycan rəhbərliyinə ünvanladığı müraciətdə onun hansı təşkilata mənsubluğu belə yazılıb: “Sizə məlum edirik ki, xeyli çətinlik və əziyyətdən sonra AHİŞ-in (Azərbaycan Həmkarlar İttifaqı Şurası) tabeliyində olan “Həmkarlar İşçiləri Mədəniyyət Evi”ndə rəsmi qaydalara əsasən Çənlibel adlı Elmi-Ədəbi Könüllülər Birliyi yaratdıq. Çənlibeli zaman özü doğurdu. Bu birlik M.S.Qorbaçov yoldaşın yenidənqurma və aşkarlıqla bağlı dünyaya səs fikirlərinə həmahəng, müasir dövrün siyasi və aktual məsələlərinə cavab olaraq yaranmışdır”.

## ÇƏNLİBELİN ÇƏTİNLİKLƏRİ

Birliyin Azərbaycan rəhbərliyinə ünvanladığı müraciətdə mövcud çətinliklərlə bağlı yazılıb: "Birliyin təşkilatçıları bir çox çətinliklərlə üzləşməli olmuşlar. Məsələn, birliyin məşğələlərini keçirmək üçün hər ayda bir gün klubun 2-3 saat vaxtı alınır. Məşğələlərin keçirilməsini pozmaq üçün günü və saatı qabaqcadan təyin etmirdilər. İl yarıma yaxın davam edən Birliyin son üç məşğələsi, hətta zalın işıqları qəsdən söndürüldüyü üçün şam işığında keçirilmişdir və s. Bunlar da ciddi narazılığa səbəb olmuşdur. 1988-ci ilin fevral ayından isə birliyin fəaliyyəti zorakılıqla dayandırılmışdır. Birlik üzvləri belə hesab edir ki, bunlar yenidənqurma, aşkarlıq haqqında partiya qərarlarının əleyhinə olanların əməlləridir..."

---

***Qaynaq:***

*V.Əyyubun şəxsi arxivindən: Çənlibel Birliyi üzvlərinin Azərbaycan rəhbərliyinə müraciəti.*

## ÇƏNLİBEL BİRLİYİNİN FƏALLARI

Çənlibel Birliyinin yaranmasında və fəaliyyətində aşağıdakı şəxslərin böyük xidmətləri vardı: Məhəmməd Hatəmi Tantəkin, Bəxtiyar Tuncay, Vurğun Əyyub, Fuad Ağayev, Ənvər Yusifoğlu (Börüsoy), Tofiq Rəsulov, Ə. Ziyadxanov, Tağı Xalisbəyli, Xəlil Rza, Nemət Pənahov, Həsən Merac və s.

Çənlibelin toplantılarına Əbülfəz Əliyev (Elçibəy), Sabir Rüstəmxanlı, Firudin Ağasıoğlu (Cəlilov), Elməddin Əlibəyzadə və digər tanınmış ziyalılar tez-tez gəlirdilər.

**Çənlibelin protokolları (№1), 6 dekabr 1987-ci il.**

Çənlibel Birliyinin 6 dekabr 1987-ci il tarixdə keçirilmiş büro iclasının protokolunda yazılıb: "Birliyin 30 noyabr 1987-ci ildə keçirilmiş yığıncağında M.Hatəmi Tantəkinin "İlkin qaynaqların bizə anlatdıqları" mövzusunda məruzəsinin müzakirəsi aparıldı. Bu mövzuda Birliyin sədri V.Əyyubov danışdı: "M.Hatəmi Tantəkinə öz dərin və məzmunlu məruzə-

sinə görə təşəkkür edirik. Həqiqətən Məclisin səviyyəli keçməsində bu məruzə böyük rol oynadı. Bundan əlavə afişaların vaxtında lazımi yerlərə vurulmasında büro üzvü Ə.Yusifoğlunun xidmətini xüsusi qeyd etmək istəyirəm”.

Sonra danışanlar da V.Əyyubovun sözlərini təsdiq etdilər və bəyəndilər. Bütün üzvlər Məclisin yüksək səviyyədə keçdiyini qeyd etdilər.

Digər məsələlər: V.Əyyubov – Birliyin növbəti Məclisinin keçirilmə vaxtının və hansı məruzənin qoyulmasını müəyyən etmək lazımdır.

Məclisin keçirilmə vaxtı dekabr ayının 20-nə təyin olundu. Məruzə barədə məsələyə növbəti iclasda baxılması qərara alındı.

**Çənlibelin protokolları (№2); 27 dekabr 1987-ci il.**

Çənlibel Birliyinin mövcud protokolları bu qurumun ciddi fəaliyyətini təsdiqləyir. Birliyin 27 dekabr 1987-ci ildə F.Miralıyev yoldaşın “Nizamiyə görə dünyanın kosmoloji strukturu” mövzusunda məruzəsi üzrə Məclisin protokolunda yazılıb: “Məclisi Birliyin sədri V.Əyyubov açdı. O, Nizami yaradıcılığının və şəxsiyyətinin ümumi cəhətlərini qeyd edərək Fəxrəddin Miralıyev yoldaşa söz verdi. Məruzə ətrafında müzakirələr oldu.

Müzakirələrdə çıxış etdilər: 1. Tarix elmləri namizədi Ə.Əliyev; 2. B.Şahverdiyev; 3. C.Mustafa; 4. M.Hatəmi – filologiya elmləri namizədi; 5. T.Xalisbəyli – filologiya elmləri namizədi; 6. İ.Abbasov – tənqidçi; 7. Ə.İsmayılov – filologiya elmləri namizədi. Məruzəçi yekun sözünü söylədi. Birliyin sədri V.Əyyubov məruzə və çıxışlara yekun vurdu və Məclisin bağlanmasını elan etdi.

**Birliyin sədri: V. Əyyubov**
**Məclisin katibi: F. Mustafayev**
**27.12.87”.**

---

***Qaynaq:***

*V.Əyyubun şəxsi arxivindən: Çənlibel Xalq Sənəti və Folklor Həvəskarları Birliyinin 6 dekabr 1987-ci il və 27 dekabr 1987-ci il tarixli protokolları.*



***Çənlibelin protokolu***

## ÇƏNLİBELİN BAĞLANMASI İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN KP MK-NIN BİRİNCİ KATİBİ K. BAĞIROVA MÜRACİƏT


N3 +

Азәрбајчан КП МК-нин биринчи катиби К.Бағыров јолдаша

М Ү Р А Ч И Ә Т Н А М Ә

Сов. ИКП МК-нин сон илләрдә ирәли сүрдүјү јенидәнгурма,ашкарлыг,демократија курсу илә баглы олараг,1987-чи илин апрелиндә рәсми олан "Чәнлибел" елми-әдәби бирлијини јарадыб,Азәрбајчан халгынын тарихини,мәдәнијјәтини,әдәбијјатыны објектив шәкилдә өјрәнмәјә вә ону кәнчлијә өјрәтмәјә чалышмышыг.Бу јолда манеәләрә раст кәлмиш,һәтта мүһафизәкарларын,еһкамчыларын гара бөһтанларына мә"руз галмышыг.Инди дә Дағлыг Гарабағ һадисәсини бәһанә едәрәк,бирлијимизин фәалијјәтини тәклифсиз бир шәкилдә дурдурмушлар. Биз буну партијанын ашкарлыг вә демократија сијасәтинә дабан-дабана зидд һәрәкәт һесаб едирик.Хаһиш едирик "Чәнлибел" елми-әдәби бирлијинин јенидән фәалијјәтә башламасына јол ачасыныз.

һөрмәтлә,"Чәнлибел" елми-әдәби бирлијинин бүро үзвләри:

1.һ.М.Тантәкин /филолокија елмләри намизәди/.
2.Хәлил Рза /шаир,филолокија елмләри доктору/.
3.Т.Халисбәјли /филолокија елмләри намизәди/.
4.Ә.Зијадханов /режиссор,бирлијин сәдри/.
5.В.Әјјубов / АПИ-нин диссертанты/.
6.Н.Пәнаһов /фәһлә/.
7.Т.Рәсулов /рәссам/.
8.һ.Мерач /редактор/.
9.Ә.Јусифоғлу /тәләбә/.

*Çənlibelin müraciətnaməsi*

Çənlibel Birliyinin fəaliyyəti müəyyən qüvvələri narahat edirdi. Dağlıq Qarabağ hadisələri bəhanə edilərək qurumun fəaliyyətinə imkan verilmirdi. Birlik rəhbərliyinin hazırladığı müraciətdə yazılırdı: “Sov. İKP MK-nın son illərdə irəli sürdüyü yenidənqurma, aşkarlıq, demokratiya kursu ilə bağlı olaraq, 1987-ci ilin aprelində rəsmi olan Çənlibel Elmi-Ədəbi Birliyini yaradıb, Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını obyektiv şəkildə öyrənməyə və onu gəncliyə öyrətməyə çalışmışıq. Bu yolda maneələrə rast gəlmiş, hətta mühafizəkarların, ehkamçıların qara böhtanlarına məruz qalmışıq. İndi də Dağlıq Qarabağ hadisəsini bəhanə edərək, Birliyimizin fəaliyyətini təklifsiz bir şəkildə durdurmuşlar. Biz bunu partiyanın aşkarlıq və demokratiya siyasətinə daban-dabana zidd hərəkət hesab edirik. Xahiş edirik Çənlibel Elmi-Ədəbi Birliyinin yenidən fəaliyyətə başlamasına yol açasınız”.

Müraciəti Birliyin doqquz nəfər büro üzvü imzalamışlar.

---

***Qaynaq:***

*V.Əyyubun şəxsi arxivi: “Azərbaycan KP MK-nın Birinci katibi K.Bağırov yoldaşa müraciətnamə.*

**VURĞUN ƏYYUB**

Vurğun Əliş oğlu Əyyub 1957-ci ildə Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub.

1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuşdur.

1977–1984-ci illərdə Sabirabad və Tovuz rayonlarında müəllim, 1985-1993-cü illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetdə işləmişdir. 1988-ci ildən filologiya elmləri namizədidir. Bir kitabın, 150-dən çox elmi, siyasi-publisistik məqalələrin müəllifidir.

1986-cı ildə Azərbaycanda yaradılmış ilk qeyri-hökumət təşkilatı olan Çənlibel Elmi-Ədəbi Birliyinin yaradıcılarından və sədri olmuşdur. Azərbaycan milli-azadlıq hərəkatının təşkilatçılarından, AXC-nin təşəbbüskarlarından və AXC Məclisinin və İdarə Heyətinin üzvü olmuşdur. 1992-1993-cü illərdə Vurğun Əyyub Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına - TQDK-ya rəhbərlik edib.

15 noyabr 1992-ci ildə test üsulu ilə tələbə qəbulunun keçirilməsini təmin edib.

Vurğun Əyyub filologiya elmləri namizədidir. 1992-ci ildən Müsavat Partiyası Bərpa Mərkəzinin üzvü, 1997-ci ildən partiyanın Baş katibi olub, 2001-ci ilin may ayında keçirilən 6-cı Qurultayında partiyanın nizamnaməsindəki dəyişikliyə uyğun olaraq katiblik müavinliklə əvəz olunub və V.Əyyub Müsavat başqanının 1-ci müavini təyin edilib.

Hazırda o, Azərbaycan Demokratiya və Rifah hərəkatının sədrinin müavinidir. Eyni zamanda o, Xəzər Universitetində "Ana dili və ədəbiyyatı" departamentinin rəhbəridir.

---

***Qaynaq:***

*https://az.wikipedia.org/wiki/Vurğun_Əyyub*

# YURD BİRLİYİNİN YARANMASI VƏ FƏALİYYƏTİ



***Yurd Birliyinin sədri Əlisəfa Qədirov***

1987-ci ilin sentyabrında Bakıda Yurd Birliyi yaradıldı. Qeyd edək ki, Yurd yaranana qədər də Bakı Dövlət Universitetində (o zaman Azərbaycan Dövlət Universiteti adlanırdı) və bəzi başqa ali məktəblərdə kiçik saylı tələbə təşkilatları, ali məktəblərdən kənarda dərnəklər də mövcud idi. Bu təşkilatların hamısı tarix, ədəbiyyat istiqamətli olaraq, milli kimlik problemlərini açıq formada yox, yarımsiyasi kontekstdə müzakirə edirdilər.

İlk olaraq Bakı Dövlət Universitetində mövcud olan tələbə qrupları birləşdilər. Bu birləşmədən Yurd Birliyi yarandı. Yurdun ilk nizamnaməsində Azərbaycan tarixinin düzgün öyrənilməsi, tarixi və mədəni abidələrimizə ictimai diqqətin və dövlət qayğısının təmin olunması, Azərbaycan xalqının hər iki Konstitusiyada (Azərbaycan SSR və SSRİ) nəzərdə tutulan hüquq və azadlıqlarının tam təmin olunması kimi məsələlər yazılmışdı. Yəni, Yurd yalnız ictimai təşkilat deyil, həm də siyasi klub adlana bilərdi. Yurd Birliyinin emblemi isə səkkiz guşəli ulduzun fonunda ayparadan ibarət idi. Və bu da təşkilatın Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrini qəbul və bərpa etmək missiyasını daşımaq iddiasında olduğunu bildirirdi.



***Əlisəfa dostu Xanoğlan Əhmədovla***

Yurd Birliyini yaradan tələbələr sırasında əla və yaxşı qiymətlə oxuyanlar da çox idi. Yurd qısa zamanda kütləviləşməyi bacardı. Yəni, yalnız BDU-da deyil, Azərbaycanın başqa ali məktəblərində də özəklər yarandı. Yurdun nizamnaməsinə görə, təşkilata yalnız ali təhsil alan və ya almaqda olan Azərbaycan vətəndaşları Yurd üzvü olan iki nəfərin zə-

manəti əsasında qəbul edilirdi.

Yurd Birliyinin fəallığı ilə konfranslar, ədəbi-bədii gecələr və s. tədbirlər keçirilirdi.

1988-ci ilin fevral ayının 19-da Bakı şəhərində ilk böyük mitinqin keçirilməsində Yurd Birliyinin rolu olmuşdu. O zaman Qərbi azərbaycanlıların Ermənistandan qovulması başlanılmışdı və bu da cəmiyyətdə ciddi etirazlara, narahatçılığa səbəb olurdu.



***Əli Kərimli. Ə.Qədirovdan sonra Yurd Birliyinin sədri***

**Yurdun təşkilatçılığı ilə 1988-ci ilin noyabrın 14-də** Bakı Dövlət Universitetinin qarşısında çoxminlik mitinq keçirildi və Azərbaycan hakimiyyətinə şərt qoyuldu ki, iki gün ərzində hökumət Topxana meşələrində aparılan işlərə son qoymağa və Dağlıq Qarabağda Azərbaycan hakimiyyətinin nəzarətinin təmin olunduğu barədə ictimaiyyətə məlumat verməsə, üçüncü gün, yəni noyabrın 17-də Ümumrespublika mitinqi keçiriləcək. **17 noyabr mitinqinin keçirildiyi gün tarixə Milli Dirçəliş Günü, mitinqin keçirildiyi Lenin meydanı isə Azadlıq meydanı adlandı.**

## YURD BİRLİYİNİN TƏDBİRLƏRİ: "21 AZƏR"LƏ BAĞLI "ŞANLI GÜNLƏR, QANLI GÜNLƏR", "XUDAFƏRİN", H.Z.TAĞIYEVİN MƏZARI, "OCAĞ"A ETİRAZ

Qeyd edək ki, Yurd Birliyinin universitetin zalında tədbirlər keçirilməsinə icazə verilməsi də maraqlıdır. Yurdçular bu problemi belə həll etmişdilər: Yurdun fəallarından olan Əli Kərimov o dövrdə hüquq fakultəsi komsomol komitəsinin katibi idi və o, komsomolçuların tədbir keçirməsi adı ilə zalda toplaşmasına icazə alırdı. Lakin zalda komsomolun yox, Yurdun tədbiri keçirilirdi.

Yurd Birliyinin təşkilatçılığı ilə "Şanlı günlər, qanlı günlər" adlı maraqlı bir tədbir keçirildi. Tədbir 12 dekabr 1945-ci ildə Pişəvərinin başçılığı ilə yaradılmış Milli Azərbaycan hökumətinə həsr olunmuşdu.

Yurd Birlliyi üzvü **Fazil Mustafayev (Qəzənfəroğlu)** gecəni giriş sözü ilə açaraq ümumi məlumat vermişdi.

Şərqşünaslıq İnstitutunun elmi işçisi, **S.C.Pişəvərinin** yaxın silahdaşlarından və fədai hərəkatının fəal iştirakçılarından olan Mir Qasım bəy Çeşmazər tədbirdə geniş çıxış etdi. Hərəkatın başlanması, gedişi, qələbəsi və məğlubiyyətinin səbəbləri barədə iştirakçıları məlumatlandırdı. Tədbirdə demokratik hökumət dövründə Baş prokuror olmuş Firudin İbrahiminin bacısı İrandukt xanım, hərəkatın iştirakçısı İzzətdust Seyfulla bəy, S.C.Pişəvərinin bacısı qızı Rəfiqə xanım, AXC hərəkatının fəalı Nemət bəy, Cənubi Azərbaycan inqilabçısı **Siyamək bəy Nasir Rəhbəri** çıxış etdilər.

Yurdçular ciddi fəallıq göstərirdi. Böyük Azərbaycan şairi **Şəhriyarın 40 mərasimi** ilə bağlı Bakı Dövlət Universitetində keçirilən tədbirdə onlar da iştirak edirdi**. H.Z.Tağıyevin məzarının abadlaşdırılması** ilə bağlı da müəyyən işlər görürüdülər.

1987-ci ildə, yəni yarandığı ilk dövrdə Yurd böyük bir tədbir keçirdi. Onların fəallığı ilə **"Xudafərini xilas edək!"** kampaniyası aparıldı. Belə ki, SSRİ və İran hökumətləri arasında bağlanan müqaviləyə görə, Xudafərin körpüsü üzərində su elektrik stansiyası tikilməli, bu tarixi abidə su altında qalmalı idi. Həmin vaxt Yurd ölkə tələbələrini və milli hissiyyatı olan bütün ziyalıları səfərbər etdi. Sovet dövlətinin başçısı M.S.Qorbaçova etiraz məktubu yazıldı. Məktubun mətnini **Q.Zahidov** hazırladı. Bəzi Yurdçular etiraz vərəqələrini satış dükanlarına qoyub, ora gələnə imza atdırırdılar. Bu müraciət mərkəzi mətbuatda da çap olundu.

Moskvaya üç nüsxədə beş min etiraz imzası olan sənədlər təqdim edildi. Moskvadakı və Bakıdakı hökumət rəhbərlərinə ultimatum verildi. Tez bir zamanda SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin və Azərbaycan hökuməti nümayəndələrinin iştirakı ilə ölkə ziyalılarının və tələbələrinin "ittiham-görüşü" (afişalarda belə də yazılmışdı) təşkil edildi. Beləliklə, həmin qərar icra olunmadı, Xudafərin körpüsü xilas edildi.

Eyni zamanda sonralar Yurd təşkilatında birləşəcək gənclər o dövrdə şair Eldar Baxışın Zori Balayanın "Ocaq" kitabına cavab olaraq yazdığı "O nədir yazmısan Zori Balayan, Bala da mənimdir, Zor da mənimdir" misraları ilə başlayan məşhur şeirini də xalq arasında yayıb təbliğ edirdilər.

1990-cı ilin 20 Yanvarından sonra Yurdun üzvü Seymur Babayev Bakıda Fövqəladə vəziyyət elan edildiyindən və çap imkanı olmadığından, Tbilisiyə gedib orada vərəqələri nəşr edərək gətirib Bakıda yayırdı.

Təşkilatın sədri Əlisəfa Qədirov çox fəallıq göstərirdi. O, Ukraynada əlaqələr yaradıb, oradan silah alınıb gətirilməsini təmin edirdi.

Qeyd edək ki, 17 noyabr mitinqlərinin təşkilatçılıq işi Ənvər Əliyevlə birlikdə 2 saylı yataqxanada - Seymur Babayev və Bahəddin Həziyevin yaşadığı 14 saylı otaqda müzakirə olunmuş, qərar qəbul edilmişdi.

M.Ə.Rəsulzadənin adının Bakı Dövlət Universitetinə verilməsində də Yurdun müəyyən təzyiqləri olmuşdu. Belə ki, bu məsələ ilə bağlı Universitet Elmi Şurasının toplantısı keçirilirdi. Eyni zamanda Yurdçuların da fəallığı ilə Universitet həyətində mitinq təşkil olunmuşdu. Mitinqdə Xəlil Rza alovlu çıxışlar edirdi (bəzi məlumatlara görə mitinqi də o aparırdı). **Xəlil Rza deyirdi: "Kərtənkələlər qoymaq istəmirlər Universitetə M.Ə.Rəsulzadənin adı verilsin".**

Elmi Şuranın iclasında isə Yurdçu tələbələr də iştirak edirdilər: Qələndər Muxtarlı, Paşa Həsənov, Rəsul Hüseynzadə və d.

Əslində qərarın müsbət həll edilməsində bayırda Xəlil Rzanın fəallıq etdiyi mitinqin, içəridə tələbələrin ciddi təsiri oldu.

Yurd Birliyinin fəal üzvləri aşağıdakılar idi: **Əlisəfa Qədirov (kitabxanaşünaslıq fakültəsi), Fazil Qəzənfəroğlu, Əli Kərimli, Firudin (hüquq fakültəsi), Qənimət Zahidov, Bahəddin Həziyev (kitabxanaşünaslıq fakültəsi), Seymur Babayev, Qələndər Muxtarlı (tarix fakültəsi), Qorxmaz İbrahimov, Osman Kazımov (hüquq), Dilavər Əzimov (tarix), Xanoğlan Əhmədov (kitabxanaşünaslıq), Söhrab Cəfərov, Nəsimi Məmmədli (fizika-riyaziyyat), Əlisəfa Mehdiyev, Mirşahin Ağayev (jurnalistika).**



*Əhməd Babayev*

Əlisəfa bəy rəhmətə getdikdən sonra Yurd Birliyinin sədri Əli Kərimli oldu.

Hüquqşünas Osman Kazımovun verdiyi məlumata görə Yurd Birliyinin ilk adı "Azəri Türk" olub. Sonradan birlik Yurd adlanıb."Yurd ("Azəri Türk") BDU-nun 3 saylı yataqxanasında jurnalistika fakültəsinin tələbəsi Əhməd Ba-

bayevin yaşadığı otaqda yaradılıb. O.Kazımov təşkilatın ilk yaradıcılarının aşağıdakılar olduğunu qeyd edir: Əlisəfa Qədirov, Qənimət Zahidov, Əhməd Babayev, Bahəddin Həziyev, Osman Kazımov. Yurd təşkilatının 1988-ci ilin fevralında ilk mitinqin keçirilməsində böyük fəallığı olub.

**Qeyd:** Hər iki gözünün işığını itirmiş Əhməd Babayev yataqxanada müəmmalı şəkildə vəfat etmişdi. Bir məlumata görə onu itələyib yerə yıxmışdılar və o dünyasını dəyişmişdi.

## YURDÇULAR DÖYÜŞ BÖLGƏLƏRİNDƏ



*Yurdçular Laçında döyüş bölgəsində*

Yurdçu tələbələrin digər fəallığı isə tələbələrdən ibarət könüllü batalyonların yaradılıb cəbhə bölgəsinə göndərilməsini təşkil etməsi idi. **İlk dəfə tələbə batalyonları 1989-cu ilin dekabrında yaradıldı.** Hüquq fakultəsindən Əli Kərimov, Söhrab Cəfərov, kitabxanaşünaslıqdan Qənimət Zahidov, tarix fakültəsindən Qələndər Muxtarlı, fizika-riyaziyyatdan Nəsimi Məmmədli tələbə batalyonlarını hazırlayıb Laçına getdilər. Laçının Ermənistanla sərhəddə olan Qazıdərəsi və digər iki kəndində gözətçi məntəqələri yaradıldı, işıq və digər ehtiyacları təmin edildi. Artıq kənddən çıxmağa hazırlaşan insanlar öz yurdlarında qaldılar. Həmin vaxt  erməni radioları və “Azadlığ”ın ermənicə verilişləri belə məlumat yayırdı: “İlk Azərbaycan boyevikləri” (döyüşçüləri) sərhədə gəlib”. Bundan sonra Ermənistanla Azərbaycan arasında rus qoşunları yerləşdirildi və “tələbə” batalyonları yanvarın 18-də Bakıya qayıtdılar.

Bu tələbə batalyonlarında snayperçi qızlar da var idi. Məsələn, Paşanın sonradan həyat yoldaşı olan Fərəh xanım sərrast snayperçi kimi vətən torpaqlarını qoruyurdu. Sonradan həmin xanım şərqşünaslıq fakultəsində dərs dedi. Tələbələrdən Sultan adlı birisi ermənicə bilirdi (o, Masis rayonundan idi) və ermənilərin danışıqlarına qulaq asır, batalyon rəhbərliyinə çatdırırdı.

Yurdun bu ənənəsi sonradan davam etdirildi. Belə ki, Politexnik İnstitutundan Elçin Paşayev, Mehdi Mehdiyev könüllü tələbələri toplayıb döyüş bölgələrinə gedirlər. Qələndər Muxtarlı isə "Suraxanı" adlı tələbə batalyonu yaradıb Tərtərin müdafiəsində iştirak etdi.

1988-ci ilin noyabr mitinqlərinin tərkibində, mitinqlərin kütləviləşməsində, mühafizəsində Yurdçu tələbələrin böyük rolu oldu.

Yurdçular bu gün də noyabr mitinqlərinə xalqın qəhrəmanlıq salnaməsi kimi baxırlar. Qeyd edirlər ki, bu mitinqlər insanların şüurunda böyük rol oynadı, onlara milli ruh, birlik ruhu aşıladı və güclü etdi.

Yurdçular bu qənaətdədir ki, onların məqsədi bacarıqlı, savadlı gəncləri bir yerə toplamaq, onların gücündən faydalanıb müstəqil dövlət quruculuğu prosesini gücləndirmək idi.

---

***Qaynaq:***

*1. Fazil Qəzənfəroğlunun şəxsi arxivindən.*
*2. Qələndər Muxtarlının şəxsi arxivindən.*
*3. Əli Kərimlinin şəxsi arxivindən.*
*4. Qənimət Zahidovun şəxsi arxivindən.*
*5. Xanoğlan Əhmədovun şəxsi arxivindən.*
*6. Osman Kazımovun şəxsi arxivindən*

## KÖNÜLLÜ TƏLƏBƏ BİRLİKLƏRİ VƏTƏNİN MÜDAFİƏSİNDƏ

1992-ci ilin fevralında ali məktəblərdə qış imtahan sessiyasını başa vuran vətənpərvər tələbələr könüllü olaraq cəbhə bölgələrinə gedir, torpaqlarımızı erməni işğalından qoruyurdular.



***BDU həyətindən döyüş bölgəsinə yola düşən könüllü tələbələr***

Bakı Dövlət Universitetindən və Tibb Universitetindən olan tələbələr (onların əksəriyyəti Yurd Birliyinin üzvləri idi)



*Tələbələr döyüş bölgəsində*



***Döyüş bölgəsində, Ağdam: ayaq üstə duranlar - soldan birinci şəhid Zahid Şükürov, ikinci Ayaz-həkim; oturanlar soldan Dilavər Əzimli və Zahid Usubov.***

– Dilavər Əzimli, Zahid Usubov, Zahid Quliyev, Ayaz bəy və digərləri Ağdərə rayonunun (o zamankı Mardakert) Narışlar kəndində iki aya qədər qalıb yerli əhaliyə kömək edirdilər. Onlar gündüzlər məktəbdə dərs deyir, axşamlar isə səngərlərdə olur, ermənilərin kəndə hücumlarının qarşısını alırdılar.

Qeyd edək ki, könüllü tələbə birliklərinə cəbhənin müxtəlif bölgələrində rast gəlmək mümkün idi.

---

***Qaynaq:***
*Zahid Usubovun şəxsi arxivi (keçmiş tələbə-döyüşçü).*

### “YURD” QƏZETİNİN TƏSİS EDİLMƏSİ

“Yurd” qəzetinin təsisçisi **Qənimət Zahidovun** Azərbaycan SSR Dövlət Mətbuat Komitəsinə ünvanladığı sənəddə yazılıb: “Mətbuat və digər kütləvi informasiya vasitələri haqqında SSRİ Qanununun 7-ci Maddəsinə əsasən “Yurd” qəzetini qeydə almağınızı xahiş edirik.

Adı çəkilən qanunun 9-cu maddəsinə əsasən qəzet haqqında aşağıdakı məlumatları göstəririk: “1. Qəzetin təsisçisi Zahidov Qənimət Səlim oğludur; 2. Qəzetin adı “Yurd”dur; 3. Qəzet Azərbaycan və rus dillərində çıxacaqdır; 4. Redaksiyanın ünvanı.



*Qənimət Zahidov*

**"Yurd" qəzetinin proqram məqsəd və vəzifələri:** 1. Xalqın mənəvi dirçəlişinə, cəmiyyətdə aşkarlığın, ümumi siyasi mədəniyyətin inkişafına kömək göstərmək; 2. Respublikanın azərbaycandilli əhalisinə rusdilli mətbuatda və əksinə çıxan yazılar haqqında məlumat vermək; 3. Respublikada, ölkədən xaricdə baş verən hadisələr haqqında öz materialları, başqa mətbuat orqanlarının və informasiya agentliklərinin materialları əsasında oxuculara məlumat vermək; 4. Annotasiya, resenziyalar verməklə və ya əsərlərdən parçalar dərc etmək yolu ilə kitab və jurnal yenilikləri ilə oxucuları tanış etmək".

Qəzetin həftədə bir dəfə nəşri, A-3 formatı ilə 8 səhifədən ibarət olacağı nəzərdə tutulurdu.

---

***Qaynaq:***

*Fazil Qəzənfəroğlunun şəxsi arxivi (Q. Zahidovun Azərbaycan SSR Dövlət Mətbuat Komitəsinə "Yurd" qəzetinin qeydə alınması ilə bağlı məktubu).*

## YURD BİRLİYİNİN "YURD" QƏZETİ

1990-cı ilin əvvəllərindən Yurd Birliyinin orqanı olaraq "Yurd" qəzeti nəşr edilməyə başladı. **Qəzet bu şüarla çap olunurdu: "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı".** Qəzet redaksiya heyəti adından çap olunurdu. Qəzetin əldə etdiyimiz 3-cü sayında (1990-cı il, aprel) aşağıdakı yazılara rast



ЈУРД

„ЈУРД" бирлијинин органы

Март 1990 № 2

Гијмəти: 30 гəпик

ИШҒАЛ

ИШҒАЛЧЫЛЫГ

ПЈОТРУН

ВƏСИЈЈƏТЛƏРИ

*"Yurd" qəzeti*

gəlmək mümkündür. Birinci səhifədə yuxarıdan Yurd Birliyinin fəaliyyəti ilə bağlı bildiriş verilib: "Aprelin 17-də Yurd Birliyinin ümumi yığıncağı olmuşdur. Yığıncaq respublikanın keyfiyyət etibarı ilə yeni siyasi mərhələyə keçməsini nəzərə alaraq Birliyin proqram və nizamnaməsinə əsaslı dəyişikliklər etmişdir. Yığıncaq yeni nizamnaməyə uyğun olaraq Birliyin sədrini və İdarə Heyətini seçmişdir".

Baş səhifədə Əli adlı bir müəllifin "İttifaqdan çıxmaq haqqında qanun" yazısı çap edilib. Məqalədə SSRİ Ali Sovetinin İttifaqdan çıxmaqla bağlı qəbul etdiyi qanun təhlil olunur.

**Baş səhifədə** verilən digər yazı "Azərbaycan" qəzetinin 1919-cu ildə 28 Mayda nəşr edilmiş sayından götürülüb. Burada Azərbaycan Xalq Cümhuriyyətinin ildönümü münasibəti ilə M.Ə.Rəsulzadənin çıxışı verilib.

**2-ci** səhifədə Musa İsmayıloğlunun AXC təmsilçisi İsa Qəmbərovla müsahibəsi verilib.

**3-cü** səhifədə Qənimətin "Pantürkizm" məqaləsi çap olunub. Eyni səhifədə Raufun "Bir ayının yüz oyunu" yazısı və "Soqlasno" qəzetinin 15-ci sayında (1989-cu il) çap olunmuş "Dünya tarixindən" başlıqlı yazının tərcüməsi verilib.

**4-cü** səhifədə Bahəddin Musaoğlunun "Yeməmisən qaz ətini" yazısı, "Bolşevizm" haqqında müxtəlif qəzetlərdən məlumatlar, "Xəbərlər" başlığı ilə məlumatlar və bir karikatura verilib.

---

***Qaynaq:***
*"Yurd" qəzeti, aprel, 1990, №3.*




***M.Ə.Rəsulzadənin fotosu olan bu saat Yurd Birliyi tərəfindən hazırlanıb xalq arasında yayılmışdı***

## YURD BİRLİYİNİN ÜZVÜ FAZİL QƏZƏNFƏROĞLU SOV. İKP BİLETİNİ YANDIRIR

Baki Dövlət Universitetinin hüquq fakultəsinin 3-cü kursunda oxuyan Fazil Mustafayev (Qəzənfəroğlu) 1989-cu ilin dekabrın 27-də Azadlıq meydanında keçirilən mitinqdə Sov. İKP-nin mürtəce siyasətinə etiraz əlaməti olaraq, böyük cəsarətlə 1985-ci ildən üzvü olduğu təşkilatdan çıxdığını nümayişkaranə şəkildə elan edib, partiya biletini hamının qarşısında yandırmışdı.



***Fazil Qəzənfəroğlu***

---

***Qaynaq:***

*"Meydan" qəzetinin xüsusi buraxılışı. 1991-ci il.*

## YURD İCTİMAİ BİRLİYİNİN PROQRAMI

Yurd Birliyinin proqramında aşağıdakı müddəalar var idi:

**1. Yurd Birliyi** Azərbaycan Demokratik Respublikasının milli dövlətçilik ənənələrinin bərpa olunması və inkişaf etdirilməsini, dünya birliyinin bərabər hüquqlu üzvü olan demokratik Azərbaycan dövlətinin yaradılmasını, Azərbaycanda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulmasını özünün ali məqsədi elan edir.

**2. Demokratik** Azərbaycan dövləti respublika idarə üsuluna əsaslanmalı, hakimiyyətin bölünməsi, siyasi və iqtisadi plüralizm, vətəndaşların qanun qarşısında bərabərliyi, qanunun aliliyi və sosial ədalət prinsiplərini rəhbər tutmalıdır.

**3. Birlik** öz ali məqsədinə nail olmaq üçün zorakılıqdan imtina edilməsini və demokratik vasitələrlə mübarizə aparılmasını əsas tutaraq möv-



"ЈУРД" БИРЛИЈИНИН ПРОГРАМЫ

I."Јурд" бирлији Азәрбајҹан Демократик Республикасынын милли дөвләтчилик ән"әнәләринин бәрпа олунмасы вә инкишаф етдирилмәсини,дүнја бирлијинин бәрабәр һүгуглу үзвү олан демократик Азәрбајҹан дөвләтинин јарадылмасыны,Азәрбајчанда һүгуги дөвләтин вә вәтәндаш ҹәмијјәтинин гурулмасыны өзүнүн али мәгсәди е"лан едир.

2.Демократик Азәрбајҹан дөвләти республика идарә үсулуна әсасланмалы, һакимијјәтин бөлүнмәси,сијаси вә игтисади плјурализм,вәтәндашларын ганун гаршысында бәрабәрлији,ганунун алилији вә сосиал әдаләт принсипләрини рәһбәр тутмалыдыр.

3.Бирлик өз али мәгсәдинә наил олмаг үчүн зоракылыгдан имтина едилмәсини вә демократик васитәләрлә мүбаризә апарылмасыны әсас тутараг мөвҹуд шәраитдә республикада:

А/Демократик тә"сисатларын инкишаф етдирилмәсинә,һәр бир вәтәндашын бејнәлхалг һүгуг нормалары илә тәсбит едилмиш бүтүн инсан һүгугларындан вә азадлыгларындан бәрабәр истифадә етмәси имканынын тә"мин олунмасына,

Б/Чохпартијалы сечки системинин формалашмасына әсасланан демократик сечки ганунун гәбул едилмәсинә,

В/Азәрбајҹанын дикәр дөвләтләрлә вә ја дөвләтләр иттифагы илә бүтүн әлагәләрини гаршылыглы разылыг,бәрабәр һүгуглу мүгавиләләр вә бејнәлхалг һүгугун һамылыгла гәбул едилмиш нормалары илә низама салынмасына,

Г/Республиканын там игтисади мүстәгиллијинә,мүстәгил пул ваһидинә, малијјә вә банк системинә малик олмасына,игтисадијјатын азад базар мүнасибәтләринә әсасән гурулмасына,мүлкијјәтин бүтүн формалары үчүн бәрабәр имканлар јарадылмасына,

Д/Азәрбајҹанын бејнәлхалг тәшкилатларда тәмсил олунмасына,хариҹи дөвләтләрлә мүстәгил дипломатик әлагәләр јаратмасына,

Е/Торпаг үзәриндә бүтүн мүлкијјәт формаларыны нәзәрдә тутан аграр исланатын һәјата кечирилмәсинә,

Ә/Ҹәмијјәтин һәр бир үзвүнүн үмуми тәләбатынын өдәнилмәсинә јөнәлдилән сосиал програмларын һазырланмасына вә һәјата кечирилмәсинә чалышыр.

*Yurd Birliyinin proqramı*

cud şəraitdə respublikada: a) Demokratik təsisatların inkişaf etdirilməsinə, hər bir vətəndaşın beynəlxalq hüquq normaları ilə təsbit edilmiş bütün insan hüquqlarından və azadlıqlarından bərabər istifadə etməsi imkanının təmin olunmasına; b) Çoxpartiyalı seçki sisteminin formalaşmasına əsaslanan demokratik seçki qanununun qəbul edilməsinə; c) Azərbaycanın başqa dövlətlərlə və ya dövlətlər ittifaqı ilə bütün əlaqələrini qarşılıqlı razılıq, bərabərhüquqlu müqavilələr və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları ilə nizama salınmasına; d)Respublikanın tam iqtisadi müstəqilliyinə, müstəqil pul vahidinə, maliyyə bank sisteminə malik olmasına, iqtisadiyyatın azad bazar münasibətlərinə əsasən qurulmasına, mülkiyyətin bütün formaları üçün bərabər imkanlar yaradılmasına; e)Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına, xarici dövlətlərlə müstəqil diplomatik əlaqələr yaratmasına; f) Torpaq üzərində bütün mülkiyyət formalarını nəzərdə tutan aqrar islahatın həyata keçirilməsinə; g) cəmiyyətin hər bir üzvünün ümumi tələbatının ödənilməsinə yönəldilən sosial proqramların hazırlanmasına və həyata keçirilməsinə çalışır.

**4. Birlik:**

- Azərbaycanda ictimai fikrin və demokratik mübarizənin inkişafını, mövcud beynəlxalq ictimai-siyasi durumu və milli Demokratik hərəkatların təcrübəsini,

- müasir dünyada Azərbaycanın yeri baxımından beynəlxalq münasibətlərin əsas istiqamətini və inkişaf meyllərini,

- Çağdaş Azərbaycanın siyasi, iqtisadi, ictimai və mədəni həyatını, əsas siyasi qüvvələrin fəaliyyətini öyrənib təhlil etmək əsasında öz siyasi xəttini hazırlayır və onu gündəlik fəaliyyətində rəhbər tutur.

**5. Birlik Azərbaycan xalqının** siyasi, hüquqi savadını və mədəniyyə-

tini, onun demokratik dünyagörüşünü, milli özünüdərki inkişaf etdirmək məqsədi ilə diskussiya klubları, forumları təşkil edir, mətbuat və hər cür təbliğat, məlumat vasitələrindən istifadə edir.

**6. Birlik Azərbaycan elminin** və mədəniyyətinin azad və milli zəmində inkişaf etdirilməsinə, milli irsimizin hərtərəfli öyrənilməsinə, təhsilin mütərəqqi formalarından istifadə olunmasına çalışır.

**7. Birlik respublikanın ərazisində** yaşayan bütün xalqlara və etnik qruplara öz tarixini, etnoqrafiyasını və mədəniyyətini öyrənməkdə və inkişaf etdirməkdə kömək edir.

**8. Birlik hesab edir ki, hər bir vətəndaşın etiqad azadlığı** təmin edilməli, din dövlət ideologiyası səviyyəsinə qaldırılmalıdır.

**9. Birlik respublikadan kənarda yaşayan azərbaycanlılarla** əlaqələr yaradır və bu əlaqələrdən istifadə etməklə Azərbaycanda baş verən ictimai-siyasi proseslər haqqında obyektiv ictimai fikrin formalaşdırılması üçün tədbirlər həyata keçirir. Güney Azərbaycanında yaşayan soydaşlarımızla iqtisadi, mədəni və elmi əlaqələrin möhkəmləndirilməsinə kömək edir.

**10. Birlik demokratik mübarizə formalarından istifadə edən** və öz mənafeyinə uyğun məqsəd uğrunda çalışan bütün siyasi qüvvələrin vahid blokda birləşməsinə çalışır.

**11. Birlik öz imkanları daxilində respublikanın ekoloji** vəziyyətinin öyrənilməsinə və ekoloji problemlərin həll edilməsinə, ətraf təbii mühitin sağlamlaşdırılmasına çalışır.

---

***Qaynaq:***

*Yurd İctimai Birliyinin proqram və nizamnaməsi (Fazil Qəzənfəroğlunun şəxsi arxivindən).*

## ƏLİSƏFA SAMƏDDİN OĞLU QƏDİROV

Məşhur Yurd Birliyinin qurucularından və ilk sədri olan Əlisəfa Saməddin oğlu Qədirov 1965-ci ilin iyun ayının 9-da Zərdab rayonunun Şıxbağı kəndində ziyalı ailəsində anadan olub. Ailənin ilk övladı olan Əlisəfa 1982-ci ildə Zərdab rayonu Gəndəbil kənd orta məktəbini bitirib.

Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaşünaslıq və biblioqrafiya fakultəsinə daxil olub.

1983-1985-ci illərdə Özbəkistanın Çirçik şəhərində hərbi xidmət keçib.Hərbi xidmətini başa vurduqdan sonra ali təhsilini davam etdirib. 1989-cu ildə universiteti bitirdikdən sonra təyinatla F. Köçərli adına Uşaq Kitabxanasında işləyib.

Əlisəfa Qədirovun 1980-ci illərin sonlarında Azərbaycanda geniş vüsət alan xalq hərəkatında böyük xidmətlər göstərib. 1988-ci ilin məşhur 17 noyabr mitinqinin planlaşdırılması rəhmətlik Əlisəfanın otağında baş tutmuşdu.

1993-cü ilin noyabrın 3-də avtomobil qəzasında həyatını itirən Əlisəfa Qədirov indiyə qədər dostlarının xatirindədir.

***Qaynaq:***
*Xanoğlan Əhmədovun şəxsi arxivindən.*

# TƏRƏQQİ CƏMİYYƏTİ

1988-ci ilin yayında Fuad Ağayev, Tofiq Dadaşov, İqbal Adilov və digərləri SSRİ-də başlanmış Yenidənqurma prosesinə kömək məqsədi ilə Tərəqqi Cəmiyyətinin yarandığını bəyan edərək cəmiyyətin rəsmi qeyd olunması üçün Azərbaycan SSR Nazirlər Sovetinə müraciət ünvanladılar. Lakin Nazirlər Soveti cəmiyyəti qeydə almadı. Bununla da Tərəqqi Cəmiyyəti fəaliyyətə başlamadan geri çəkildi.

Lakin 1988-ci ilin noyabr-dekabr hadisələrində Azər Qasımzadə başda olmaqla, Azərbaycan Elmlər Akademiyası Geologiya İnstitutunun bir qrup əməkdaşı təşəbbüsü ələ alaraq Tərəqqi Cəmiyyətinin fəaliyyətini bərpa etmiş və təşkilat ümumxalq hərəkatında öz yerini tutmuşdu. Belə ki, Tərəqqi Cəmiyyəti həmin günlərdə işğalçı ordu hissələrinin özbaşınalığının az da olsa qarşısını almaq üçün müraciət çap etmiş və onu əsgərlər arasında yaymış, tarixi sənədlərin surətini çoxaldaraq SSRİ-nin müxtəlif şəhərlərinə göndərmiş, ayrı-ayrı dövlət və partiya orqanlarına tələbnamələr tərtib edib imzalar yığmışdı.

1988-ci ilin meydan hadisələrində Tərəqqi Cəmiyyətinin ayrıca bir çadırı qurulmuş və Azərbaycan Elmlər Akademiyasının sanki bir şöbəsinə çevrilmişdi. Xalq hərəkatında iştirak edən Akademiya işçiləri əsasən bu çadırda fəaliyyətlərini davam etdirirdi.

1988-ci ildə (17 noyabr-5 dekabr) Azadlıq meydanında Tərəqqi Cəmiyyəti də fəallıq göstərirdi. Bu zaman cəmiyyətin sıralarında onun yaradıcıları ilə birlikdə aşağıdakı şəxslər var idi: Azər Qasımzadə, Əli Quliyev, İqbal Adilov, Şəmsəddin Umudov, Elmlər Akademiyasının gənc əməkdaşları: Qalib Rəhimov, Tahir Bağırov, Akif Tağıyev, Sevil Alıyeva, Səidə Eldarova, Solmaz Əliyeva, Məmmədağa Məmmədov və digərləri.

Tərəqqinin rəhbərlərindən olan Qalib Rəhimov Meydan hadisələri başlayandan bir neçə gün sonra xarici radiostansiyalar və Moskvada olan xarici müxbirlərlə əlaqə saxlayıb, Azərbaycandakı proseslərlə bağlı məlumatlar çatdırmışdı.

Dekabrən 5-də işğalçı ordu hissələri meydanı zəbt etdikdə Tərəqqi Cəmiyyəti öz fəaliyyət formasını dəyişərək, seçkilərə hazırlıqla məşğul oldu.

İlk olaraq, seçkilər haqqında xalqa müraciət tərtib edildi və xalq arasında yayılmağa başladı. Eyni zamanda, həbsdə olan xalq hərəkatı fəallarının azad olunması üçün beynəlxalq təşkilatlara müraciətlər hazırlandı. Bundan qorxuya düşən dövlət orqanları Tərəqqi Cəmiyyətinin fəallarına qarşı ciddi təzyiqlər göstərdi.

1989-cu ilin fevralın 1-də Fuad Ağayev həbs edildi və Azər Qasımzadə təqiblərə məruz qaldı. Sonuncu, təqiblərə etiraz əlaməti olaraq, Kommunist Partiyası sıralarından partiya biletini Moskvaya təhvil verməklə çıxmışdı.

Tərəqqiyə qarşı təzyiqlərin artdığını görən cəmiyyət rəhbərləri Q.Rəhimov, T. Bağırov və A.Qasımzadə təşkilatın fəaliyyətini dayandırırlar.

1989-cu ilin martında bir dəstə tərəqqiçi çağdaş Azərbaycanda ilk siyasi partiyanın – Azərbaycan Dirçəliş Partiyasının əsasını qoyurlar.

---

***Qaynaq:***

1. *"Dirçəliş" qəzeti (Azərbaycan Dirçəliş Partiyasının qəzeti). 21 noyabr, 1989-cu il, №6.*
2. *A.Qasımzadə. Tərəqqi Cəmiyyəti (1988-1989). "İki sahil" qəzeti, 20 avqust, 1992-ci il, №34 (1279).*

## BAKI ALİMLƏR KLUBU

1988-ci ilin fevralın 20-də ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdləri ilə bağlı Xankəndində (Stepanakert) mitinqlər başladıqdan sonra Bakıda Azərbaycan SSR Elmlər Akademiyasının bir dəstə əməkdaşı Bakı Alimlər Klubunu yaratmaq cəhdində oldu. Həmin şəxslər aşağıdakılar idi: Zərdüşt Əlizadə, Hikmət Hacızadə, Mirbaba Babayev, Ağacavad Salamov, Leyla Yunusova, Məmmədhəsən Qəmbərov və başqaları.

Qeyd edək ki, Sovetlər birliyi dövründə Moskvada belə bir qurum fəaliyyət göstərirdi: Alimlər evi. Dövlət qeydiyyatına alınmış bu qurumun Moskva metrolarının birinin yanında böyük binası var idi.

Bakı Alimlər Klubunu yaratmaqda bir başlıca məqsəd də onun qeydiyyata alınması və əməkdaşlarının toplanması üçün yer əldə etmək idi. Lakin təşkilatın nizamnaməsini hazırlamaq ciddi problemə çevrildi. Bu, onunla əlaqədar idi ki, o dövrdə qeyri-hökumət təşkilatları haqqında məlumatlar çox məhdud idi. Odur ki, hazırlanmış əsasnamə Azərbaycan Gənclər Təşkilatları Komitəsi yanında (Azərbaycan Lenin Kommunist Gənclər Təşkilatı) gənclərin siyasi maariflənmə Klubunun Əsasnaməsinə müəyyən qədər uyğun gəlirdi. Odur ki, BAK-ın Əsasnaməsinin son redaksiyasında bu fikir yazıldı: Bakı Şəhəri Alimlər Klubu öz qarşısına elmi-maariflənmə tapşırığını qoyan və elmi tədqiqatla məşğul olan insanları birləşdirir". 3-cü bənddə isə yazılırdı: "Klubun yaranması və fəaliyyəti SSRİ Konstitusiyasının 51-ci maddəsinə, Azərbaycan SSR-nin 49-cu maddəsinə, Ümumittifaq Həmkarlar İttifaqının 1986-cı il 13 may tarixli əsasnaməsinə və digər sovet qanunlarına əsaslanır".

Hikmət Hacızadə və Ağacavad Salamov Oktyabr (indiki Yasamal) rayon İcraiyyə Komitəsinə sənədləri aparsalar da qeydiyyata alınmadı.

BAK öz fəaliyyətini müzakirələr formasında da olsa davam etdirirdi.

Təşkilatın üzvləri Zərdüşt Əlizadənin, Tofiq Qasımovun Akademiyadakı əyləşdikləri iş otağına toplanır, orada fikir mübadiləsi edirdilər. Burada əsasən aşağıdakı mövzularda müzakirələr olurdu: ölkədəki ümumi vəziyyət, yeni nəşr edilən kitablar, qəzetlər, Yenidənqurma ideallarının dərinləşməsi, bununla əlaqədar Azərbaycana kömək göstərilməsi və s.

Həmin dövrdə Moskvada Sov. İKP-nin XIX Partiya Konfransına hazırlıq işləri gedirdi. Ermənilərin orada ciddi təbliğat işləri aparacağı gözlənilirdi. Bundan ötrü Bakı Şəhər Partiya Komitəsinin Birinci katibi Fuad Musayevlə əlaqələr yaradılmış, onun vasitəsi ilə Azərbaycan KP MK-nın Birinci katibi Ə.Vəzirova təsir edib Moskvadakı konfransa getmək, orada ermənilərin təxribatına cavab vermək üçün Azərbaycandan alimlər dəstəsi göndərmək planlaşdırılmışdı.

"İnternasionalizm" ("beynəlmiləlçilk") ideallarından danışan Ə.Vəzirov buna razı olmamışdı. Lakin Moskvaya üç nəfərin getməsi mümkün oldu: Zərdüşt Əlizadə, Araz Əlizadə, Eldar Namazov.

Konfransda ermənilər rus dilində "Dağlıq Qarabağ - tarixi arayış" adlı bir kitabça çap etdirib, otellərdə qalan konfrans nümayəndələrinin hər birinin yatağında balışın altına qoymuşdular.Bununla onlar  açıq təbliğatdan çəkinib belə fəaliyyətə üstünlük vermişdilər.

Bu məlumatı əldə edən Ə.Vəzirov F.Musayev vasitəsi ilə ermənilərə bir cavab hazırlanmasını elə orada tələb etmişdi. Eldar Namazov bir gündə 18 səhifəlik rus dilində cavab yazmış və bu yazı makinada çap edilərək 1800 ədəd hazırlanmışdı. F.Musayev isə otel xidmətçilərinə 10 rubl (rus pulu) verib həmin yazını eyni qaydada konfrans iştirakçılarının yatağına qoydurmuşdu. Yəni ermənilərin planı pozulmuşdu.

Bu hadisədən sonra 1988-ci ilin iyunun 21-də Ə.Vəzirov gənc alimlərlə görüş keçirmişdi. Görüşdə Tofiq Qasımov, Zərdüşt və Araz Əlizadələr, Eldar Namazov, Leyla Yunusova iştirak etmişdilər. Görüşdə maraqlı məsələlər qaldırılmışdı: Azərbaycan alimlərinin elmi nəticələrinin sənayeyə tətbiqi, sadə dildə həqiqətləri əks etdirən ümumi Azərbaycan tarixinin yazılması, sovet iqtisadiyyatından fərqli  olan yeni bazar iqtisadiyyatının  formalaşdırılması, mövcud Mərkəzi Komitə rəhbərliyinin dəyişdirilib yeniləri ilə əvəz edilməsi və s.

Ə.Vəzirov bu təkliflərin heç birini qəbul etməyəcəyini bildirdi.

Belə olduqda təşkilat üzvləri (xüsusən Z.Əlizadənin təklifi ilə) Azərbaycan Xalq Cəbhəsi adlı təşkilatın yaradılmasını vacib saydılar.

---

***Qaynaq:***
*Zərdüşt Əlizadənin şəxsi arxivi.*

# BAKI ALİMLƏR KLUBU

Bu klubun yaradılması rəsmi sənəddə belə ifadə edilirdi: “Hazırda elmin yeni nailiyyətlərinin istehsalata və ictimai həyata tezliklə və effektiv surətdə yol tapması bütövlükdə cəmiyyətimizin aktivliyinin əsaslı surətdə artmasını tələb edir. Bu məsələnin həyata keçirilməsi, ilk növbədə, elm xadimlərindən və cəmiyyətimizin bütün yaradıcı qüvvələrindən asılıdır. Aydındır ki, bunu artıq mövcud olanlardan başqa, özündə ictimai fəallığın yeni formalarını təcəssüm etdirən qeyri-formal cəmiyyətlərin yaranması sürətləndirə bilər. Hazırda yenidənqurmanın vüsəti bugünkü elmi nailiyyətlərin tamamilə məhsuldar qüvvəyə çevrilməsi üçün qənaətbəxş deyildir. İnformasiyanın artması və elmlərin differensiyasının dərinləşməsi alimləri ictimai həyatın aktual problemlərindən getdikcə daha çox uzaqlaşdırır. Məhz bu uzaqlaşmanı aradan qaldırmaq və fikirləri, amalları bir alimlərin potensial qüvvələrini aktiv həyat baxımından pərvazlandırmaq Bakı Alimlər Klubunu (BAK) yaratmaq təklif olunur. Bu klubun fəaliyyəti cəmiyyətimiz qarşısında duran, vaxtı çatmış məsələləri həll etmək üçün elmi ictimaiyyətin qüvvəsini bir yerə yığmaqdan ibarət olacaqdır. Müxtəlif sahədə fəaliyyət göstərən alimlərin eyni bir ictimai məsələ üzərində düşünmələri, həmin problemin qeyri-standart, original və ən optimal həllinə gətirib çıxara bilər.



**_Zərdüşt Əlizadənin hazırladığı Klubun nizamnaməsi_**

Beləliklə, Bakı Alimlər Klubu alimlərin yenidənqurmaya, şəhərimizin, respublikamızın və bütövlükdə vətənimizin yeniləşməsinə öz töhfəsini vermək üçün bir vəsilə ola bilər.

BAK-ın on maddəlik məramnaməsində isə yazılmışdı:



***BAK-ın təşəbbüs qrupunun üzvü Eldar Namazov***

1. Azərbaycanşünaslığın müxtəlif sahələrinə aid tədqiqat və təbliğat işinin gücləndirilməsi: tarix, ədəbiyyat, dilçilik, fəlsəfə, iqtisadiyyat, hüquq, etika, estetika, etnologiya, elmşünaslıq və b.
2. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, öyrənilməsi və təbliği.
3. Təbiət və ətraf mühitin mühafizəsi, ekoloji təfəkkürün formalaşdırılması.
4. Sosial-hüquqi biliklərin təbliği, fəal vətəndaş şüurunun və mövqeyinin formalaşdırılması.
5. Vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi.
6. Elmin müxtəlif sahələri üzrə mütəxəssislərin fəaliyyətinin uzlaşdırılması.
7. Dünya, ölkə və respublika miqyaslı elmi kəşf və ixtiraların, nailiyyətlərin təbliği və tətbiqinə yardım.
8. Gənc elmi qüvvələrin yetişdirilməsinə qayğı.
9. Alimlərin azad vaxtının səmərəli təşkili (idman, mədəni tədbirlər və s.).
10. Klubun elmi, ictimai və təşkilati fəaliyyətini təmin və təbliğ etmək məqsədi ilə ayda bir dəfə bülleten, ildə dörd dəfə toplu nəşr etmək.

**BAK-ın Təşəbbüs qrupu aşağıdakılardan ibarət idi:**

1. **Zərdüşt Əlizadə** – filologiya elmləri namizədi, Azərbaycan SSR Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı.
2. **Tofiq Qasımov** – fizika elmləri namizədi, Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunun böyük elmi işçisi.
3. **İsa Qəmbərov –** Azərbaycan SSR Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun kiçik elmi işçisi.
4. **Eldar Namazov –** tarix elmləri namizədi, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun elmi əməkdaşı.
5. **Leyla Yunusova** – Azərbaycan SSR Elmlər Akademiyası Fəlsəfə İnstitutunun kiçik elmi işçisi.

---

***Qaynaq:***

*Zərdüşt Əlizadənin şəxsi arxivi. Bakı Alimlər Klubunun Məramnaməsi.*

# BİRLİK CƏMİYYƏTİ



***Birlik fəallarından Mənsur Əlisov ikinci cərgədə soldan beşinci***

Tanınmış mücahid M.Tantəkinin həbs edilməsindən sonra fəallar, xüsusən də gənclər İsfəndiyar Çoşqunun ətrafına toplaşdı. **1989-cu ilin mayın 21-də** İsfəndiyar Coşqunun Bilgəhdəki bağında Birlik cəmiyyətinin təsis yığıncağı keçirildi. Yığıncağın sədri S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakultəsinin dosenti İsmayıl Təriqpeyman seçildi. Yığıncaqda cəmiyyətin məramnaməsi müzakirə olunub qəbul edildi, sonra İdarə Heyəti formalaşdı. İdarə Heyətinin üzvləri sırasında aşağıdakılar vardı: şair İsfəndiyar Coşqun, tarix elmləri namizədi Mənsur Əliyev (Əlisoy), Firuz Haşımov və b.

**1989-cu ilin mayın 28-də** Azərbaycan İstiqlaliyyəti elan edilməsinin 71-ci ildönümü münasibəti ilə mitinqin keçirilməsində Birlik Cəmiyyətinin üzvləri də ciddi fəallıq göstərdi. 1989-cu ilin Mayın 28-də, gündüz saat 11-ə qalmış təxminən 15 nəfər adam keçmiş Parapet bağına (indiki Fəvvarələr meydanına) toplaşdı. Yaşar Türkazər saat 12:30-da Azərbaycanın milli Bayrağını qaldırıb dalğalandırmağa başladı. Bayrağı görəndə adamlar geriyə qaçdılar. Bir qadın isə bu sözləri söylədi: “İndi bu oğlanlar dəyənək altında öləcəklər. Kişiliyiniz çatsın, heç olmasa onların necə öləcəklərinə baxın!”. Qadının bu sözlərindən cəsarətə gələn adamlar onlara yaxınlaşdı. Mitinqi kinostudiyanın əməkdaşı Həsən Merac açdı. “Birlik” Cəmiyyətinin İdarə Heyətinin üzvləri: tarix elmləri namizədi Mənsur Əliyev və Firuz Haşımov 1918-ci ilin Mayın 28-dən 1920-ci il aprelin 28-nə qədər fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti haqqında məlumat verdilər. Sonra nümayişçilər (polisin müqavimətinə baxmayaraq) Azərbaycan KP MK-nın binası qarşısında da mitinq keçirmiş və orada Mənsur Əliyev, Firuz Haşımov, Köçəri Nağıyev çıxış etdilər. Onlar MK-ya 4 maddədən ibarət tələbnamə irəli sürdülər:


***Birlik fəallarından Rizvan Hüseynov***

**1)** 28 May Azərbaycanın Milli İstiqlaliyyət günü kimi qeyd edilməlidir.

**2)** Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Respublikamızın Milli rəmzi kimi təsdiq edilsin.

**3)** Siyasi məhbuslar: Məhəmməd Hatəmi, Nemət Pənahov, Ənvər Əliyev, Rəsul Ələkbərov, Siyamək və Bəxtiyar Şahverdiyev azad edilməlidirlər.

**4)** Qurultayda Azərbaycan deputatlarını və onların simasında Azərbaycan xalqını təhqir etmiş deputatlar rəsmi surətdə üzr istəməlidirlər.

Sonra nümayişçilər başda Birlik Cəmiyyəti İdarə Heyətinin üzvü, şair İsfəndiyar Coşqun olmaqla görkəmli bəstəkar və ictimai xadim Üzeyir Hacıbəylinin Fəxri Xiyabandakı məzarı üstünə gedib xatirəsini yad etdilər. Eyni zamanda burada məzarları olan Zülfüqar Hacıbəyovun, Şıxəli Qurbanovun xatirələri yad edildi.

**İyunun 4-də** isə Birlik Cəmiyyətinin İdarə Heyətinin üzvləri "Spartak" stadionunda keçirilən mitinqdə böyük fəallıq göstərdi. Mitinqi Firuz Haşımov idarə edirdi. Həmin ilin iyunun 11-də keçirilən mitinqin də məsuliyyətini Mənsur Əliyev və Firuz Haşımov üzərlərinə götürdü. Mitinqdə çıxış edənlər arasında Birlik cəmiyyətinin sədri İsfəndiyar Coşqun da vardı.

**İyulun 8-də** Birlik cəmiyyətinin keçirdiyi nümayiş uğursuz alındı. Bakı Şəhər Daxili İşlər İdarəsinin rəisi polkovnik Nofəl Kərimovun hazırladığı fitnəkarlıq nəticəsində nümayiş dağıdıldı, otuz bir nəfər, o cümlədən İsfəndiyar Coşqun, Mənsur Əlisoy, Yaşar Türkazər, Səfər Hümbətov və digərləri həbs edildi. İsfəndiyar Coşquna və Mənsur Əliyevə Azərbaycan SSR CM-nin 188-ci maddəsinin 3-cü və 4-cü bəndinə və 189-cu maddəsinin 1-ci maddə bəndinin 2-ci yarımbəndinə əsasən cinayət işi qaldırıldı.

**Birlik Cəmiyyətinin fəaliyyət istiqamətləri belə idi: "turançılıq", türk xalqlarının birliyi, türkçülüklə bağlı məqalələr hazırlayıb yaymaq, mitinqlərdə, yürüşlərdə iştirak etmək, Qarabağla əlaqədar hakimiyyətin laqeydliyinə etirazlar bildirmək.**

Cəmiyyət üzvləri Lənkərana, Gəncəyə gedir, xalq arasında fəaliyyət göstərirdilər.

"Birlik" qəzetinin bəzi sayları isə cəmiyyətin üzvü R.Hüseynovun Sahil qəsəbəsində olan şəxsi evində gizli hazırlanırdı.

Birlik Cəmiyyətinin üzvləri 1989-cu ilin iyun ayında təşkilatı qeydə aldırmaq üçün müraciət etsələr də, rədd cavabı almışdılar.

---

***Qaynaq:***

*1. Y.Məmmədli (Türkazər). Əbdürrəhman Vəzirova Açıq məktub. Bakı, "Qurtuluş" nəşriyyatı, 1989. AMDP. "Yeni Müsavat" yayınları.*

*3. "Birlik" qəzeti. №1, Bakı, 1990.*

## BİRLİK CƏMİYYƏTİNİN MƏRAMNAMƏSİ

Cəmiyyət aşağıdakı iki məsələnin həllini qarşısına məqsəd qoyur:

1. Azərbaycan xalqının mənəvi əlaqələrini daha da genişləndirərək Xalq Cəbhəsi ətrafında birləşdirmək.
2. Azərbaycan xalqının hüquq və ənənələrinin müdafiə edilməsinə, mədəniyyətimizin, siyasi təfəkkürümüzün daha da yüksəlməsinə, bütün dünya üzrə yayılmış azərbaycanlılarla əlaqələrin yaradılmasına və onların məqsəd birliyinə cəlb edilməsinə nail olmaq.

Bu məqsədləri həyata keçirmək üçün aşağıdakı işləri təşkil etmək:

1. Azərbaycanın vətənpərvər övladlarının cəmiyyətə cəlb edilməsini;
2. Ayrı-ayrı regionlarda, təşkilat və müəssisələrdə yaradılmış birlik, cəmiyyət və qruplarla əlaqələr yaradılmasını;
3. Azərbaycan dilinin işlənən həqiqi dövlət dilinə çevrilməsini;
4. Cəmiyyətin fövqəladə hadisə və xəbərlərlə əlaqədar bülletenlər buraxılışını;
5. Azərbaycanın həqiqi və düzgün tarixinin təxirə salınmadan yazılmasının əlaqədar təşkilatlardan ictimai formada tələb edilməsini;
6. Azərbaycanda mövcud olan ictimai, iqtisadi və siyasi qeyri-bərabərliklə prinsipial mübarizə aparılmasını;
7. Azərbaycandan qeyri-qanuni olaraq qopardılmış torpaqların geri qaytarılmasını və torpaq qoparma siyasətinə qarşı mübarizəni;
8. SSRİ-nin digər respublikalarında kütləvi halda yaşayan respublikaların milli muxtariyyat tələblərinə yardımı;



„БИРЛИК" ЧӘМИЈЈӘТИНИН МӘРАМНАМӘСИ.

Чәмијјәт ашағыдакы ики мәсәләнин һәллини гаршысына мәгсәд гојур:

I. Азәрбајҹан халгынын мә"нәви әлагәләрини дәһада кенишләндирәрәк „ХАЛГ ЧӘБҺӘСИ" әтрафында бирләшдирмәк;

2. Азәрбајҹан халгынын һүгуг вә ән"әнәләринин мүдафиә едилмәсинә, мәдәнијјәтимизин, сијаси тәфәккүрүмүзүн даһа да јүксәлмәсинә, бүтүн дүнја үзрә јајылмыш азәрбајҹанлыларла әлагәләрин јарадылмасына вә онларын мәгсәд бирлијинә ҹәлб едилмәсинә наил олмаг,

Бу мәгсәдләри һәјата кечирмәк үчүн ашағыдакы ишләри тәшкил етмәк:

I. Азәрбајҹанын вәтәнпәрвәр өвладларынын ҹәмијјәтә ҹәлб едилмәсини;

2. Ајры-ајры регионларда, тәшкилат вә мүәссисәләрдә јарадылмыш бирлик, ҹәмијјәт вә групларла әлагәләр јарадылмасыны;

3. Азәрбајҹан дилинин ишләнән һәгиги дөвләт дилинә чеврилмәсини;

4. Ҹәмијјәтин фөвгәладә һадисә вә хәбәрләрлә әлагәдар бүллетенләр бурахылмасыны;

5. Азәрбајҹанын һәгиги вә дүзкүн тарихинин тә"хирә салынмадан јазылмасынын әлагәдар тәшкилатлардан иҹтимаи формада тәләб едилмәсини;

6. Азәрбајҹанда мөвҹуд олан иҹтимаи, игтисади вә сијаси гејри-бәрабәрликлә принсипал мүбаризә апарылмасыны;

7. Азәрбајҹандан гејри-гануни олараг гопардылмыш торпагларын кери гајтарылмасыны вә торпаг гопарма сијасәтинә гаршы мүбаризәни;

8. ССРИ-нин дикәр республикаларында күтләви һалда јашајан азәрбајҹанлыларын милли мухтаријјәт тәләбләринә јардымы;

9. Һәрби хидмәтә чағрылмыш азәрбајҹанлыларын һөкмән һәрби тә"лим кечмәсини вә онларын мүмкүн гәдәр республикада сахланылмасыны;

10. Азәрбајҹан әразисиндәки мухтар вилајәтләр онун суверенлијини тәһдид етдикдә онларын ләғв едилмәсини;

11. Азәрбајҹанын милли бирлијинә вә ән"әнәләринә һөрмәт етмәк истәмәјән екстремист вә милләтчилик мәгсәди күдән үнсүрләрә гаршы гәти мүбаризәни;

12. Азәрбајҹанын тарихи абидәләринин бәрпасыны, онларын вә дикәр инҹәсәнәт әсәрләринин горунуб сахланылмасыны, мәнтигсиз олараг дәјишдирилмиш шәһәр, гәсәбә, кәнд, даг, көл, чај, јол вә әразиләрин тарихи адларынын бәрпасыны;

13. Азәрбајҹан халгынын бүтүн түрк дилли халгларла һәртәрәфли әлагәләринин јарадылмасыны; вә

14. Үмумијјәтлә „Азәрбајҹан Халг Ҹәбһәси"нин мәрамнамәсиндә көстәрилмиш бүтүн маддәләрин һәјата кечирилмәсинә билавасится әмәли јардым көстәрилмәсини.

„Бирлик Ҹәмијјәти"нин тә"сис һеј"әти.

*Birlik Cəmiyyətinin məramnaməsi*

9. Hərbi xidmətə çağırılmış azərbaycanlıların hökmən hərbi təlim keçməsini və onların mümkün qədər respublikada saxlanılmasını;

10. Azərbaycan ərazisindəki muxtar vilayətlər onun suverenliyini təhdid etdikdə, onların ləğv edilməsini;

11. Azərbaycanın milli birliyinə və ənənələrinə hörmət etmək istəməyən ekstremist və millətçilik məqsədi güdən ünsürlərə qarşı qəti mübarizəni;

12. Azərbaycanın tarixi abidələrinin bərpasını, onların və digər incəsənət əsərlərinin qorunub saxlanılmasını, məntiqsiz olaraq dəyişdirilmiş şəhər, qəsəbə, kənd, dağ, göl, çay, yol və ərazilərin tarixi adlarının bərpasını;

13. Azərbaycan xalqının bütün türkdilli xalqlarla hərtərəfli əlaqələrinin yaradılmasını; və

14. Ümumiyyətlə Azərbaycan Xalq Cəbhəsinin məramnaməsində göstərilmiş bütün maddələrin həyata keçirilməsinə bilavasitə əməli yardım göstərilməsini.

**Birlik Cəmiyyətinin təsis heyəti**

---

***Qaynaq:***

*Baba Allahnəzərovun şəxsi arxivindən.*

## "BİRLİK" DƏRGİSİ



***Cümşüd Türkelli*** *(soldan birinci) və* ***İsfəndiyar Coşqun***

Bu dərginin ilk sayı 1989-cu ilin avqustunda çıxıb. Dərginin ilk səhifəsində "Türkelli" imzalı müəllifin (Cümşüd Türkelli-red.) "Gəlin birləşək" məqaləsi çap edilib. Müəllif bu dərginin nəşrə başlaması ilə bağlı yazırdı: "Birlik" eyniadlı cəmiyyətin səyi ilə nəşr edilən azad və müstəqil qəzetdir (dərgidir – *red.*). Qəzetin (dərginin – *red.*) məqsədi insanlar arasında azad informasiya mübadiləsi və qarşılıqlı anlaşma işinə xidmət etməkdir. Redaksiya heyətinin yekdil fikrinə görə, məhz bu yolla sülh, tərəqqi və azadlıq hərəkatımıza son dərəcə lazım olan yeganə düzgün fikrə gəlmək mümkündür. Biz hamını azad fikir mübadiləsində iştirak etməyə dəvət edirik".

Dərginin bu sayında verilən ikinci yazı isə belə adlanır: "Kimdir düşmənimiz?". Məqalənin müəllifi Şenoldur (Rauf Arifoğlu – *red.*). Yazıda sovet cəmiyyətinin və ideologiyasının insana, bəşəriyyətə zidd olan prinsipləri təhlil edilir, cəmiyyət quruculuğu sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilmədiyi vurğulanır".



ТҮРКЛӘШМӘК, ИСЛАМЛАШМАГ, МҮӘСИРЛӘШМӘК!

БИРЛИК

№ 1
АВГУСТ
1989

„БИРЛИК" ҸӘМИЈЈӘТИНИН ОРГАНЫ
„BİRLİK CƏMİYYƏTİNİN ORGANI
بیرلیک جمیتینین اورگانی



***Dərginin ilk sayı***

Bu sayda "Gülgün Kəfən" adlı müəllifin "Milli dərd" başlıqlı yazısı çap edilib. Yazıda "Vətən və millətin ağır günlər keçirməsi", "Moskvanın erməniləri silahlandırması, onları dəstəkləməsi" məsələlərinə toxunulur.

Bəxtiyar Tuncayın bu saydakı yazısı belə adlanır: "1 №li məsələ". Yazı bu sözlərlə başlayır: "Hal-hazırda SSRİ-də inqilabi şərait yaranmışdır..." Yazıda AXC-dən, onun proqramından, partiya yaranmasının vacibliyindən bəhs olunur.




***"Birlik" dərgisinin 2-ci sayı***

Dərgidə Qərbi Berlində yaşayan İran azərbaycanlılarının İran siyasi mühaciri "Siyamək" adlı Nasir Rəhbərinin Bakıda həbsi ilə bağlı müraciəti verilib.

Mənsur Əliyevin bu sayda çap olunan "Doktor Əli Şəriətinin İslam konsepsiyası" məqaləsi də maraqlıdır. Məqalədə Fransa Sarbon Universitetini bitirmiş və sosiologiya üzrə böyük mütəxəssis olan, İranda qanlı şah rejiminin qurbanı olmuş, 70-ci illərdə Londonda öldürülmüş Doktor Əli Şəriətinin İslam dini ilə bağlı baxışlarına toxunulur.

Dərgidə İsfəndiyar Coşqunun "Oğluma vəsiyyət" şeiri də çap olunub:

**Oğul, sözlərimi diqqətlə dinlə,**
**Ürəyim doludur qəzəblə, kinlə.**
**Göz açıb dünyanı anlayan gündən,**
**Bu amansız dərdi daşıyıram mən.**
**Çapılır, talanır Vətən torpağı...**

Dərginin sonunda Azərbaycan Milli Qurtuluş Partiyasının proqramı (layihə) qısa məzmunda çap edilib.

Dərginin digər saylarında da maraqlı yazılarla rastlaşmaq mümkündür. Dərgi 20-22 səhifəlik həcmdə yayılırdı.

---

***Qaynaq:***

*1. "Birlik" dərgisi. Avqust 1989-cu il, №1.*

*2. "Birlik" dərgisi. Sentyabr 1989-cu il, №2.*

# BAKI VƏ KƏNDLƏR BİRLİYİ.

## 1970-1980-Cİ İLLƏRDƏ BAKI KƏNDLƏRİNDƏ FƏALLIQ


***Birliyin sədri Nəsir Ağayev***

**Bakı və Kəndlər Birliyinin sədri Nəsir Ağayev** 1978-ci ilin oktyabrın 29-da gizli olaraq belə bir təşkilatın - Azərbaycan Demokratik Xalq Partiyasının yarandığını qeyd edir. Təşkilatın ətrafına, əsasən, gənclər, tələbələr toplaşmışdı. Toplantılarda Azərbaycanın azadlığı, Güney Azərbaycanla birləşmək məsələlərinə də toxunulurdu. Təşkilatın tədbirləri Buzovnadakı 42 saylı orta məktəbdə gizlin olaraq keçirilirdi. Hər həftənin 6-cı, yaxud bazar günlərində keçirilən bu iclaslarda 12 nəfərin arasında əvvəldən müəyyənləşdirilən mövzular müzakirə edilirdi. Təşkilat üzvlərindən Nəsir Ağayev Türkiyə haqda, Nazim müəllim dünya tarixi haqqında bilgilər verirdi. Eyni zamanda "Azadlıq" radiosunun verilişləri, xəbərləri lentə yazılır və təşkilat üzvləri tərəfindən ayrı-ayrı adamlar arasında yayılırdı.

1982-ci ilin mayında təşkilatın əsas yaradıcısı sayılan N. Ağayev DTK-ya çağrılır və M. Məmmədquliyev tərəfindən ona verilən ilk sual bu olur: " Bilirsinizmi ki,iki və artıq adamın birliyi, bir yerə toplaşması təşkilat sayılır?". N. Ağayev suala sualla cavab verir: "Niyə tarix kitablarında Y. Puqaçovdan səkkiz, Babəkdən bir səhifə yazılır?"


***"Şəhriyar poeziya günləri" tədbirindən***

Beləliklə, təşkilat fəallarına qarşı təqiblər başlayır. N. Ağayevin 180 manatlıq maaşını 70 manata endirirlər, məktəbdə nəzarətdə saxlayırlar. Yaşadığı ev nəzarətə götürülür.

Bundan sonra N.Ağayev və dostları mədəni-tarixi, ədəbi tədbirlər vasitəsi ilə fəaliyyətə üstünlük verdilər. Hər ilin mayında çalışdıqları məktəbdə "Şəhriyar poeziya günləri", hər ilin fevralında "Türkmənçay müqaviləsi"nin bağlanması ilə əlaqədar tədbirlər keçirirdilər. Muğam haqqında keçirilən tədbirə musiqişünas Nəriman Əliyev, folklorla bağlı tədbirə Bəhlul Abdulla dəvət olunurdu. Poeziyaya həsr olunan tədbirlərə şair Xəlil Rza gəlirdi. Belə tədbirlər toplantı iştirakçılarında tarixi bilgiləri artırır, milli ruhu gücləndirirdi.

---

***Qaynaq:***
*Nəsir Ağayevin şəxsi arxivindən.*

## BAKI VƏ KƏNDLƏR BİRLİYİ



***Bakı kəndlərində***

**1989-cu ilin sentyabrında** Nəsir Ağayevlə Hacıəmi Atakişiyev Bakı kəndlərini birləşdirən təşkilat yaratmaq qərarına gəldilər. Təşkilatın adı belə olmalı idi: "Bakı-Abşeron Birliyi". Bu Birliyin yaranma səbəbini Nəsir Ağayev belə izah edir: "Hiss edirdim ki, hərəkatda başqa cərəyanlar formalaşır. Yerli əhalidən bizə hətta damğa vuranlar da vardı ki, biz "naxçıvanlılar, yerazlara (ermənistanlılara) satılmışıq. Eyni zamanda "bakılılar, rayonlular" – deyə insanlarımızı qarşı-qarşıya qoymaq və parçalamaq istəyən qüvvələr də mövcud idi. Müəyyən qüvvələr isə öz məqsədləri üçün Bakı və kəndlərdəki insanlardan faydalanmaq istəyirdi. Biz xalqı bu təhlükələrdən xilas etmək üçün təşkilat yaratmağı vacib saydıq".

**Bakı və Kəndlər Birliyinin təsis konfransı 1990-cı ilin yanvarın 13-də Şüvəlandakı Azərbaycan Yazıçılar İttifaqının Yaradıcılıq Evində keçirildi.** Təsis Konfransında 400-ə qədər adam iştirak edirdi. Əsas məruzəni Nəsir Ağayev etdi. Təsis konfransında akademik Ziya Bünyadov, Maştağadan Seyid, Qaladan Hacıəmi çıxış etdilər. Konfransda təşkilatın İdarə Heyə-

ti seçildi (sədr sonradan müəyyənləşdi). İdarə Heyətinə seçilənlər arasında Nəsir Ağayev, Hacı Cəbrayıl, Ağaverdi Bədəlov, Hacı Məhəmməd, Məşədi Vaqif var idi.



***Hacı Zakir***

Bakı və Kəndlər Birliyinin növbəti toplantısı yanvarın 20-də Xırdalanda olmalı idi. Lakin 20 yanvarda dinc əhalinin qətlə yetirilməsinə görə təxirə salındı.

Bakı və Kəndlər Birliyi Xızıda Qərbi Ermənistandan məcburi olaraq buraya gələn insanlarla yerli əhali arasında baş verə biləcək toqquşmanın qarşısını aldı. Yəni belə fikir yayılırdı ki, "gələnlər" yerli əhalidən oğurluq edir, adamlarla kobud davranırlar və s.

Ermənistandan gələnlərlə yerli əhali arasında daha bir toqquşma Xırdalanla – Pereşküldə yerləşən "Çaylı" adlı ərazidə oldu. Bu toqquşmanın qarşısının alınmasında Bakı və Kəndlər Birliyinin ciddi rolu vardı.

Bakı və Kəndlər Birliyinin yığıncaqları şərait yaradılmadığından əsasən məscidlərdə keçirilirdi. Birliyin Saray Məscidində keçirdiyi toplantını hökumət nəzarətə götürmüşdü. Əmircanda keçirilən toplantını isə A. Mütəllibova məxsus qüvvələr pozmaq istədikdə binəli Zabil onları başa saldı və toqquşma baş vermədi. Bundan əlavə Məhəmmədi sovxozunun klubunda, Xırdalanda Birliyin geniş tədbirləri keçirildi.

**1992-ci ilin martın 3-də** Nardaranda Ağa Məscidində Bakı və Kəndlər Birliyinin konfransı keçirildi. Tanınmış ziyalı Nəsir Ağayev Birliyin sədri seçildi. Bakı və Kəndlər Birliyinin ümumi fəaliyyət istiqaməti bu idi: "Millətin təhlükəsizliyinə xidmət etmək!"



***Məşədi Vaqif***

Bu təşkilt Bakı adından sui-istifadə edənlərə, qardaş qırğını törətmək istəyənlərə qarşı çıxırdı. Birliyin fəaliyyətində Maştağadan Hacı Zakir Quliyevin, Nardarandan Hacı Mailin, Mustafa müəllimin, Xırdalandan Cavanşirin və digərlərinin faydalı xidmətləri var idi.

Bakı və Kəndlər Birliyi fəalları 1992-ci ilin 14-15 may hadisələrində dönüş rolunu oynamışdılar. AXC-nin bəzi şəxslərinin geri çəkilmək, dayanmaq, 60-a qədər adama sığı-

nacaq alıb Türkiyəyə göndərmək fikirlərinə qarşı çıxaraq, sona qədər mübarizə aparmaq xəttini tutdular. Rayonlara zəng edib cəbhəçiləri təşkilatın binasının qarşısına topladılar, oradan isə Ali Sovetin binasına yürüş etdilər. Məhz bu mövqe A.Mütəllibovun hakimiyyətdən getməsinə səbəb oldu. Bu hadisələrdə isə Hacı Zakir və digər Birlik üzvləri böyük fəallıq göstərdi.

Eyni zamanda AXC-nin tədbirlərinin mühafizəsində və təhlükəsizliyin təminində Bakı və Kəndlər Birliyinin çox böyük rolu olub.

---

***Qaynaq:***
*1. Nəsir Ağayevin şəxsi arxivi.*
*2. Hacı Zakir Quliyevin şəxsi arxivi.*

## BAKI VƏ KƏNDLƏR BİRLİYİNİN NİZAMNAMƏSİ

### 1. ÜMUMİ PRİNSİPLƏR

1.1. Bakı və Kəndlər Birliyi (BKB) iqtisadi, siyasi, müstəqil və suveren Azərbaycan dövlətinin bərpasını əsas tutan beynəlxalq insan hüquqlarına əsaslanan tərəfdarlarının ictimai, iqtisadi, siyasi təşkilatıdır.

1.2.BKB Proqram və Nizamnaməsini yerinə yetirərkən respublika Konstitusiyasına və qanunvericiliyin akt və normativlərinə əsaslanaraq, Azərbaycanda hüquqi dövlətin yaranmasına çalışır.

1.3.BKB cəmiyyətin demokratikləşdirilməsi uğrunda mübarizədə zorakılığa, siyasi avantüralara deyil, fikir müxtəlifliyinə əsaslanır.

### 2. ƏSAS FƏALİYYƏT FORMALARI

2.1. BKB Xalq deputatları orqanlarına seçilmiş nümayəndələri vasitəsi ilə və beynəlxalq insan hüquqları bəyannaməsinin imkan verdiyi formalarda dövlət və ictimai işlərin gedişatında iştirak edir. BKB-nin mərkəzi orqanlarının təmsilçiləri respublika Ali Sovetinə qanunvericilik təşəbbüsü hüququndan, şəhər, kənd, qəsəbə şöbələri isə müvafiq sovetlərdə zəruri qərarların qəbul edilməsi təşəbbüsü ilə qanunvericiliyin imkan verdiyi hüquqlardan istifadə edir.

2.2. BKB deputatlığa, seçkili vəzifələrə üzvlərinin namizədliyinin azad surətdə irəli sürülməsinə, bərabərlik prinsipi ilə seçki kampaniyası

aparmağa, seçkilərin keçirilməsində və səslərin hesablanmasında ictimai nəzarəti həyaya keçirir.

2. 3. İnformasiyanın bütün formalarından əhalinin iqtisadi-siyasi yetkinliyinə aşkarlıq şəraitində nail olmağa çalışır.

2.4. Mətbuatda dərc edilən qanun layihələrinin müzakirəsini təşkil edir, qanunverici və icraedici orqanlara təkliflərini verir.

2.5. Mitinqləri və digər zəruri tədbirləri təşkil edir.

2.6. Siyasi, mədəni, iqtisadi sahələrdə olan mühüm sənədlərin mütəxəssislər tərəfindən öyrənilməsini və xalqa çatdırılmasını təşkil edir.


"Гејдә алыныб"
Азәрбајҹан Республикасы
Әдлијјә Назирлијинин
коллегијасында
11 сентјабр 1991-чи ил
Ә.С. Оруҹов

"Гәбул олунуб"
"Бакы вә кәндләр"бирлијинин
конфрансында
13 јанвар 1990-чы ил
Н. Ағајев

"Бакы вә кәндләр"бирлијинин
Низамнамәси

*Bakı və Kəndlər Birliyinin nizamnaməsi*

2.7. Televiziya və mətbuat səhifələrində çıxış və məqalələri, şəhər, kənd və qəsəbələrin bütün problemlərinə həsr edilmiş elmi-nəzəri məsələlərin yerlərdə həyata keçirilməsinə çalışır və onların təbliğini təşkil edir.

2.8. "Vəhdət" adlı qəzetin (8 səhifəlik həftəlik qəzetdə siyasi, iqtisadi, mədəni, dini, iqtisadiyyat-kommersiya və başqa məsələlərin əksi) Birliyin orqanı kimi çıxmasını məqsədəuyğun hesab edir.

2.9. BKB baş verən hadisələrə münasibətini respublika və dünya ictimaiyyətinə özünün informasiya mərkəzi vasitəsi ilə yayır.

2.10. BKB əməli fəaliyyətini regionlarda, sovetliklərdə nizamlamaq üçün qarşılıqlı məsləhətləşmə formalarından istifadə etməklə xalqın yaşayış səviyyəsini yüksəltmək üçün şəhər, kənd və qəsəbə sovetliklərinə məxsus torpaq və digər mülkiyyət növlərindən yerli şöbələri vasitəsi ilə istifadə etməklə işsiz əhalinin işlə təmin edilməsinə və məhsul bolluğuna çalışır.

2.11. BKB yenidənqurmanın doğurduğu iqtisadi-siyasi islahatları xalqla birlikdə müzakirə edir və bütün fəaliyyət formalarında onları ardıcıl müdafiə edir.

---

***Qaynaq:***

*Bakı və Kəndlər Birliyinin nizamnaməsi. (Nəsir Ağayevin şəxsi arxivindən).*

## “VƏHDƏT” QƏZETİ



*“Vəhdət” qəzeti*

Bakı və Kəndlər Birliyinin ictimai-siyasi qəzeti olan “Vəhdət”in ilk sayı 1992-ci ilin sentyabrın 1-də nəşr edilib. Qəzetin Baş redaktoru Məhərrəm Cavadoğlu olub. Dövlət Mətbuat Komitəsində qeydə alınıb (Şəhadətnamə 432). Ümumi tirajı ilk saylarda 3013 göstərilib.

İlk sayda “Oxucularıma” başlıqlı yazıda qəzetin müraciəti qeyd olunub: “Ulu xalqımızın tarixi, mədəniyyəti, mənəvi dünyası, sosial-iqtisadi problemlərimiz, bir sözlə, bizim hamımızı maraqlandıran, narahat edən nə varsa, mənim səhifələrimdə öz əksini tapacaq. Çalışacağam ki, gənclərimizin vətəndaşlıq tərbiyəsinə kömək göstərən yazılarım bol olsun”.

Qəzetin 1-ci səhifəsində Bakı və Kəndlər Birliyi Məclisinin sədri Nəsir Ağayevlə müsahibə verilib. Həmin səhifədə Bakı və Kəndlər Birliyi İdarə Heyətinin üzvü Məşədi Zakirin “Allah köməyiniz olsun!” başlıqlı xeyir-duası çap olunub. 2-ci səhifədə “İlk milli foto ustası” yazısı, Əli Səyyahın müharibə xatirələri, Məhərrəm Cavadoğlunun “Su yanğısı” məqaləsi, 4-cü səhifədə M.Cavadoğlunun “Bir həpəndin monoloqu” yazısı, R.Namarovun “Ermənilərə təzə vətən tapmışam” yazısı çap edilib.

---

***Qaynaq:***
*“Vəhdət” qəzeti, 01 sentyabr 1992-ci il.*

## VARLIQ MƏRKƏZİ
### ÜÇLÜKDƏN VARLIĞA DOĞRU

1986-cı ilin sonlarında yardılan üçlük formasında fəaliyyətin əsasını Əbülfəz Əliyev (Elçibəy), Firudin Cəlilov (Ağasıoğlu) və İsmayıl Təriqpeyman qoydular. Gizli yaradılan bu təşkilatın fəaliyyət proqramı F.Cəlilovun 4-cü mikrorayondakı mənzilində hazırlandı. Təşkilatın qurucuları üç istiqamətdən fəaliyyətə yanaşırdılar: 1) Tarixi istiqamət (F.Cəlilov); 2) Siyasi istiqamət (Ə.Əliyev); 3) Təşkilatlanma (İ.Təriqpeyman; o, S.C.Pişəvərinin əsgərlərindən idi və bu fəaliyyəti yaxşı bacarırdı).

Üçlüyün qurucuları ilk olaraq Qarabağla əlaqə yaradır, ermənilərin fəaliyyətlərindən məlumatlar alır, müzakirələr aparırdılar. 1986-1987-ci illərdə ermənilərin gizli fəaliyyətləri haqqında məlumatları Pedaqoji Universitetin Xankəndi filialının müəllimi Yusif çatdırırdı. Belə məlumatlar alınırdı ki, ermənilər hətta Bakıda və İrəvanda yaşayan soydaşlarını Dağlıq Qarabağa qeydiyyata alır, əhalinin sayını öz xeyirlərinə dəyişirdilər. Xüsusən də Xankəndindəki 5 mərtəbəli binalara əlavə adamları da qeydiyyata alırdılar. Üçlük üzvləri Azərbaycanın Maarif Nazirliyindən şagirdlərin sayını əldə etdilər və məlum oldu ki, 50 faiz azərbaycanlılar, 50 faiz də ermənilərdir. Amma erməni sənədlərində 30 faiz azərbaycanlılar, 70 faiz ermənilər göstərilirdi (1986-cı il ildə).



*Varlıq fəallarından-
Firudin Cəlilov*

Üçlük qurucuları hakimiyyətin Moskvanın qorxusundan tədbir görməyəcəyini bilirdilər. Odur ki, xalqı bu proseslərə hazırlamaq haqqında düşündülər. İlk öncə Üçlüyün strukturlaşmasını gücləndirmək lazım idi. Odur ki, üçlük, beşlik formasında təşkilatı genişləndirməyə başladılar: yəni bir üçlük (yaxud beşlik) o birini tanımır və s.

Hadisələrin növbəti inkişafı dövründə Varlıq adlı təşkilatın yaradılması məqsədəuyğun sayıldı. Varlığa ilk qoşulan ziyalılar aşağıdakılar idi:



*Varlıq fəallarından-*
*Bəhmən Sultanlı*

Sabir Rüstəmxanlı, Bəhmən Sultanlı, Pənah Hüseynov, Vurğun Əyyubov və b.

Qeyd edək ki, Sumqayıt hadisələri başlananda ilk mitinqləri Varlıq təşkil edirdi.

Varlığın İdarə Heyətinə aşağıdakılar daxil olmuşdu: Ə.Əliyev (Elçibəy), F.Cəlilov (Ağasıoğlu), İ.Təriqpeyman, Bəhmən Sultanlı, Vurğun Əyyubov, Rüstəm Behrudi, Nemət Pənahov, Məhəmməd Hatəmi, İsa Qəmbərov, Pənah Hüseynov.

1988-ci ilin aprel, may mitinqlərinin təşkilində Varlığın ciddi rolu olmuşdu. Lakin 1988-ci ilin noyabr mitinqlərində onlar təşkilatçı deyildi. Ə.Əliyev, İ.Təriqpeyman və F.Cəlilov noyabr mitinqlərinə qoşulmaqda məqsədləri bir məsələni öyrənmək idi: bu mitinqi kim təşkil edib?



*Varlıq fəallarından-*
*Rüstəm Behrudi*

Təcrübəli İ.Təriqpeyman bu mitinqin təşkilində hökumətin əlinin olduğunu söylədi. Mitinqi aparanların isə elə bir təcrübəsi yox idi. Eyni sənəd bir neçə dəfə oxunurdu və s. Nəhayət, aparıcı Ənvər bəy Firudun bəyə, Sabir bəyə, Nemət bəyə çıxış üçün söz verdi.

Beləliklə, Varlıq meydan hərəkatına qoşuldu.

---

***Qaynaq:***
*Firudin Cəlilovun (Ağasıoğlunun) şəxsi arxivi.*

## VARLIĞIN ADI, YARANMASI

Şair Sabir Rüstəmxanlı "Xətai Yurdu" kitabında təşkilatın nə üçün Varlıq adlandırılması haqqında belə yazır: "Ayrıca və sırf siyasi məqsəd daşıyan, Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda mübarizə apa-

racaq bir təşkilatın yaranmasının qaçılmazlığı məclislərimizin əsas mövzusu idi və uzun müzakirələrdən sonra ad da müəyyənləşmişdi: Varlıq. Siyasi, coğrafi mənəvi varlığımızı qoruyub saxlamaq uğrunda mübarizə aparacaq Birliyin adını Doktor Cavad Heyətin Tehranda buraxdığı dərgidən götürdük. Qoy bu ad bizi bütövləşdirsin. Həm də siyasi məqsədi reklam eləmək lazım deyil, **varlığımız uğrunda mübarizə elə ən böyük siyasətdir** və məqsədimizə çatdıra bilər.



***Varlıq fəallarından-***
***Tağı Xalisbəyli***
*(solda ayaqüstə)*

Varlığın yaranma tarixini AXC liderlərindən olmuş Pənah Hüseynov 1988-ci ilin oktyabrın 26-na aid edir.

Digər ziyalı, 1988-ci ilin mitinqlərində Nümayiş Komitəsinin sədri olmuş Firudin Cəlilov (Ağasıoğlu) isə 1986-nın sonu, 1987-nin əvvəllərindən bu adla olan təşkilatda fəaliyyət göstərdiklərini qeyd edir.

Çənlibel təşkilatının sədri olmuş Vurğun Əyyubovun şəxsi arxivindəki Varlığa aid sənəd və protokolların 1988-ci ilin sonuna, 1989-cu ilə aid olması başqa faktları ortalığa çıxarır.

Belə ehtimal etmək olar ki, Varlıq adı ilə bağlı müzakirələr və gizli fəaliyyətlər göstərilmiş, lakin sənədləşmə və rəsmiləşmə sonrakı dövrə aid olmuşdur.

Sabir Rüstəmxanlı da bu faktı qeyd edir ki, Varlıq 1988-ci ilin payızında ciddi bir güc mərkəzi idi.

**Varlıqda olan tanınmış ziyalılar: Əbülfəz Əliyev (Elçibəy), Xəlil Rza Ulutürk, Vurğun Əyyubov, Sabir Rüstəmxanlı, Pənah Hüseynov, Firudin Ağasıoğlu (Cəlilov), Tağı Xalisbəyli, İsmayıl Təriqpeyman, Cəfər Qiyasi, Bəhmən Sultanlı, Fəzail Ağamalıyev, Həsən Balıyev, Əlisa Şükürlü, Aydın Abbasov, Gülarə Musayeva, Zakir Məmmədov, Söhrab Bayramov, Ələsgər Siyabov və b.**

***Qaynaq:***

*1. V.Əyyubun şəxsi arxivi.*
*2. S.Rüstəmxanlı. Xətai Yurdu. Bakı, 2003.*

## AZƏRBAYCAN DEMOKRATİK AŞKARLIQ MƏRKƏZİ – VARLIQ

Varlıq Mərkəzinin müxtəlif illərdə yaranması ilə bağlı fikirlər söylənilsə də, qurumun fəaliyyətinə aid sənədlər 1988-ci ilin sonlarına aiddir. Qurumun bütöv adı belə idi: "Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi – Varlıq".

Mərkəzin bəyannaməsində onun fəaliyyət səbəbi belə əsaslandırılırdı: "Xalqımız qədim tarixə malik olsa da, əsl çiçəklənmə, sosial ədalət, tərəqqi yoluna Sovet hakimiyyəti dövründə qədəm qoymuşdur. Lakin əldə olunmuş uğurlarla yanaşı, ülvi və bəşəri hisslərə, zəngin mənəvi sərvətə malik olan və müqəddəs amallar uğrunda çalışan xalqımız repressiya və durğunluq illərində misli görünməyən haqsızlığa düçar olmuş, təqib və dəhşətli əzablara məruz qalmışdır. Böyük qurbanlar hesabına olsa da, xalqımız ulu babalarımızdan yadigar qalmış mübarizə ruhunu, tarixi ləyaqətini saxlaya bilmişdir.

Həmin ağır illərin dəhşətli günlərində aşkarlıq və demokratiyanın pozulması ilə xalqımızın mənəvi dünyasına, yurdumuzun sosil-iqtisadi və mədəni quruculuğuna çox ağır zərbələr vurulmuş, xalqın içində intellektual inkişafı boğulan, haqq və ədalətə inamı qırılan, mənəviyyatca şikəst edilən zümrələr yaranmışdır. İllər ötdükcə də bürokratizmin formalaşmasına, mafiyaların yaranmasına təkan vermişdir. Aşkarlıq və demokratiyanın pozucularına çevrilən bu qüvvələrə qarşı ümumxalq mübarizəsinin vaxtı çatmışdır.

Uzunmüddətli müalicəyə ehtiyacı olan, xəstə halına salınmış xalqımızın qüdrətli övladları düçar olduqları fəlakətdən qurtuluş yolu aramış, və xroniki xəstəliyə çevrilmiş yaranın müalicəsi üçün təsirli dərman axtarmışlar. Buna görə də siyasi şəraitin imkanına uyğun formalarda partiyanın sağlam qüvvələrinə arxalanaraq, dözülməz vəziyyətə və anormal mühitə qarşı etiraz səsini ucaltmışlar. Lakin bu etirazları güclü axına çevirən, ümumxalq hərəkatı səviyyəsinə qaldıran mərkəzlər yaranmadığı üçün aşkarlıq və demokratiya pozucuları tərəfindən asanlıqla boykot edilmişdir, həm də bu boykotlar çox ustalıqla "xalq düşməni", "əksinqilabçı", "pantürkist" kimi damğalarla həyata keçirilmişdir...

Son aylarda respublikamızda baş verən Qarabağ fitnəkarlığı və onunla bağlı hadisələr, respublika partiya və dövlət rəhbərlərinin həmin hadisələrə laqeyd münasibəti, hadisələrin qarşısını operativ şəkildə almaq əvəzinə, vəzifəsini qorumaq üçün tutduqları gözləyici mövqe xalqımızın, birinci növbədə fədakar fəhlə və ziyalıların, təbii olaraq kəskin hiddətinə və nümayişlər, mitinqlər formasında etirazlarına səbəb oldu...

Yenidənqurmanı həyata keçirmək üçün Azərbaycan SSR Konstitusiyasının 49-cu maddəsinə uyğun olaraq, Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi (Varlıq) yaratmaq xalqımıza su və hava qədər vacibdir”.

---

***Qaynaq:***

*V.Əyyubun şəxsi arxivindən. Varlıq Mərkəzinin bəyannaməsi. Proqramı və Əsasnaməsi. Bakı, 1988-ci il.*

## VARLIQ MƏRKƏZİNİN PROQRAMI

Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi – Varlıq öz vəzifəsini əsasən bu üç istiqamətdə görür: 1) Respublikanın mədəni-maarif işlərində yenidənqurmanı həyata keçirmək üçün aşkarlıq və demokratikləşdirməni ümumxalq hərəkatına çevirmək; 2) respublikanın siyasi-ictimai məsələlərinin həllində geniş xalq kütləsinin yaxından iştirakını təmin etmək; 3) respublikanın sosial-iqtisadi məsələlərində yenidənqurmanı həyata keçirmək üçün aşkarlıq və demokratiyanı canlandırmaq.

Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi – Varlıq göstərilən üç istiqamətdə iş aparmaq üçün aşağıdakı



ЛАЈИһӘ

"ВАРЛЫГ"ЫН НИЗАМНАМӘСИ

Мәркәзин маһијјәти вә мәгсәди

1. Азәрбајҹан демократик ашкарлыг мәркәзи – "Варлыг" ашкарлыг, демократикләшдирмә вә јенидәнгурманын Азәрбајҹан ССР-дә һәјата кечирилмәсини сүр"әтләндирмә тәрәфдарларыны бирләшдирән көнүллү тәшкилатдыр.
2. "Варлыг" Азәрбајҹан ССР Конститусијасынын 48-чи маддәсинә, демократик-мәркәзијјәт вә көнүллүлүк принсипләринә әсасланыр.
3. "Варлыг" һүгуги шәхсдир вә Конститусија тәрәфиндән һүгуги шәхсләрә аид едилән сәлаһијјәт вә вәзифәләрә ујғун шәкилдә фәалијјәт көстәрир.
4. "Варлыг" АХЧ-нин ишиндә фәал иштирак етмәји өзүнә үмдә вәзифә сајыр.
5. "Варлыг" халг депутатлары советләри, дикәр дөвләт органлары вә ичтимаи-сијаси тәшкилатларла сых әмәкдашлыг едир, сәрбәст әлагә јарадыр.

Фәалијјәтин башлыча формалары

6. "Варлыг" өз мәгсәд вә вәзифәләрини ашағыдакы формаларда һәјата кечирир:
- республиканын милли суверенлијинин тә"мин олунмасы уғрунда мүбаризә апарыр;
- јенидәнгурма ишиндә, тәсәррүфат вә мәдәни тәдбирләрин вә тәшәббүсләрин һазырланмасында вә һәјата кечирилмәсиндә фәал иштирак едир, онларын халг тәрәфиндән мүдафиәсини тәшкил едир;
- өз програмындан ирәли кәлән вәзифәләр һаггында дөвләт органлары гаршысында мәсәлә галдырыр вә онун јеринә јетирилмәсинин кедишини изләјир;
- Јерли х.д.советинә јерли характер дашыјан мүхтәлиф мәсәләләр һаггында лајиһә тәгдим едир;
- дәрч олунан ганун вә дикәр норматив актлар лајиһәсинин мүзакирәсиндә иштирак едир вә онлар һаггында өз рә"јини билдирир;
- мүхтәлиф ичтимаи-сијаси тәшкилатларла бәрабәр һүгугда бүтүн Советләрин сечкисиндә иштирак едир, депутатлыга намизәдләр ирәли сүрүр вә онлары мүдафиә едир;

***Varlığın nizamnaməsi***

bəndlərdə verilən məsələləri öz iş proqramına daxil edir.

1. Bütün elm sahələri üzrə (humanitar, texniki, təbiət və s.) ildə bir dəfə mütəxəssislərin respublika yığıncağını çağırıb vəziyyəti təhlil etməklə hər bir konkret elm sahəsində yenidənqurmaya mane olan məsələlərin aşkara çıxarılması və həmin məsələlərə qarşı görüləcək işlərin müəyyənləşdirilməsi.

2. Azərbaycanın tarixi-mədəni abidələrinin, həmçinin tarixi toponimlərinin bərpası və qorunması, yeni abidələrin və yeni adlarının qoyulması kimi məsələləri ümumxalq işinə çevirmək üçün təbliğat və təşviqat vasitələrinin genişləndirilməsi. Bu sahədə Mərkəzin təbliğat bölməsində konkret vəzifələrin müəyyənləşdirilməsi.

3. Azərbaycan dilinin inkişafı və nitq mədəniyyətinin zənginləşdirilməsi üçün konkret tədbirlərin işlənməsi və həyata keçirilməsi.

4. Respublikada yaşayan digər etnik qrupların dil, mədəniyyət və s. sahələrdə inkişafını təmin etmək üçün təkliflərin hazırlanması.

5. Azərbaycan milli adət-ənənələrinin qorunması və mövsüm (bahar, məhsul və s.) bayramlarının bərpası, toy, yas və bir çox mərasim tədbirlərinin etnoqrafların iştirakı ilə ümumxalq tədbirlərini keçirməklə yalnız milli adət-ənənəyə uyğun olanlarının saxlanılması, əndazədən çıxan qaydaların və yabançı halların isə pislənilməsi.

6. Xalq sənəti, musiqisi, folklor və mifologiyasının toplanılması işinin geniş müzakirəsi, bu sahələrdə aparılan yenidənqurmanın geniş təbliğ edilməsi.

7. Azərbaycan tarixi və tarixi coğrafiyasının tədqiqində yol verilən qüsurların, bu sahədəki birtərəfli nəzəriyyələrin, müəyyən alimlərin inhisarçılıq xəstəliyinin, açıq disputlardan qaçmalarının müzakirə edilməsi, Azərbaycan xalqının etnogenezi məsələsinin marksist-leninçi metodologiyası ilə öyrənilməsi.

8. Respublikada bərbad hala düşmüş kitab nəşrinin, otuz illərlə dəyişməyən dərsliklərin səviyyəsinin müzakirəsi. Elmi ədəbiyyatın Azərbaycan dilinə və Azərbaycan dilində olanların başqa dillərə tərcüməsi işinin yaxşılaşdırılması.

9. Azərbaycan SSR-də və SSRİ-də ictimai-siyasi həyatda xalqımızın fəal iştirak etməsini təmin etmək üçün deputat seçkilərinin keçirilməsi,

aşkarlıq və demokratiyanın genişləndirilməsi. Bu vacib məsələni həyata keçirmək üçün Mərkəzin təbliğat qrupunun görəcəyi işlərin proqramının hazırlanması.

10. SSRİ-də hüquqi dövlətin yaranmasına yardım etmək, vətəndaşları insan hüququ məsələsinə aid beynəlxalq normalarla tanış etmək. Azərbaycan SSR Konstitusiyasını tam həyata keçirmək üçün vətəndaşların hüquqi savadını artırmağa kömək edə bilən hüquqşünaslar qrupunun yaradılması, həmin qrup üzvləri ilə Mərkəzin təbliğat qrupu üzvlərinin rayonlara, kəndlərə, ayrı-ayrı müəssisələrə göndərişinin təmin edilməsi.

11. Azərbaycan SSR-dən kənarda yaşayan azərbaycanlıların taleyüklü, sosial və mədəni problemləri ilə məşğul olan qrupların yaradılması və Mərkəzdə həmin qrupların ayda bir dəfə hesabatının dinlənilməsi.

12. Müəssisələrdə əməkçilərin şurasının yaradılması gedişini sürətləndirmək üçün Mərkəzdə xüsusi təbliğat qrupunun yaradılması.

13. Partiyanın kadr siyasətini həyata keçirməyə kömək və bürokratların aşkara çıxarılması. Sözdə yenidənqurmanı bəyənən, işdə isə bunun əksini edənlərin ifşası. Yenidənqurmanı ürəkdən istəyən yeni kadrların hazırlanması yolunun tapılması.

*(Proqram ixtisarla çap olunub)*

## VARLIQ MƏRKƏZİNİN ƏSASNAMƏSİNDƏ YAZILIRDI:

1. Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi  Varlıq ölkədə gedən aşkarlıq, demokratikləşmə və yenidənqurma gedişinin Azərbaycan SSR-də həyata keçirilməsini sürətləndirmə tərəfdarlarını birləşdirən təşkilatdır.

2. Azərbaycan Deemokratik Aşkarlıq Mərkəzi Varlıq Azərbaycan SSR Konstitusiyasının 48-ci maddəsinə, sovet qanunlarına, demokratik kəmiyyət və könüllülük prinsiplərinə əsaslanaraq fəaliyyət göstərir.

3. Azərbaycan Demokratik Aşkarlıq Mərkəzi Varlıq tam hüquqi şəraitdə konstitusiya tərəfindən hüquqi şəxslərə aid edilərək və vəzifələrə müvafiq şəkildə fəaliyyət göstərir.

4. Mərkəzin ali orqanı onun ümumi yığıncağıdır. Ümumi yığıncaq ayda bir dəfədən az olmayaraq çağırılır.

5. Mərkəzdə ona rəhbərliyi ümumi yığıncaqda seçilən büro həyata keçirir. Büro həftədə bir dəfədən az olmayaraq toplaşır.

## VARLIĞIN QƏZETİ

Bundan əlavə Varlığın 1989-cu ilin sentyabrından ayrıca bir qəzetinin nəşri də nəzərdə tutulurdu. Qəzetin şüarı belə olmalı idi: "Bütün dünya türkləri, yaşamaq üçün birləşin!" Qəzetin redaksiya heyətinə aşağıdakılar daxil olmalı idi: 1) Həsən Balı oğlu Balıyev; 2) Əlisa Şükürov və Azər.

Qəzetin 4 səhifədən ibarət olacağı nəzərdə tutulurdu. Qəzetə aşaıdakı adlar da təklif olunurdu: Dirçəliş, Ümid, Qığılcım, Birlik, Araz, Vətən, Azəri Türkü, Qurtuluş.

Bütün bu cəhdlərə baxmayaraq qəzet nəşr edilmədi.

## VARLIĞIN PROTOKOLLARI



*Varlığın protokolu*

**Protokol №3(01.08.1989).** Varlığın əldə etdiyimiz sənədlərindən biri 3 saylı protokoludur. İclasa Söhrab Bayramov sədrlik edir, katib isə Vurğun Əyyubovdur. Proqramın oxunuşu üçün Fəzail Ağamalıyevə söz verilir. İştirakçı Tanrıverdi Paşayev: "Məramnamədə Azərbaycanın siyasi mənzərəsini konkret şəkildə əks etdirmək lazımdır"; Cəfər Qiyasi: "Məramnamə ilə razı deyiləm. Siyasi, hüquqi cəhətdən işlənilməlidir. Cənubi Azərbaycanın taleyi özünün əksini tapmalıdır"; Arifə Türk: "Məncə bu proqram iş prosesində təkmilləşdirilə bilər"; Fəzail Ağamalıyev: "Proqramda iki əsas məsələni

nəzərdə tutmaq lazımdır: 1) İqtisadi-sosial; 2) İctimai-siyasi. Sonra digər təşkilatçılar – Ə.Siyabov, H.Balıyev, A.Abbasov qeydlərini oxuyurlar.

**Protokol №4(30.08.1989).** 1989-cu ilin 30 avqustunda Varlığın növbəti toplantısı keçirilir. Müzakirə nəticəsində qərara alınır ki, İdarə Heyətinə 14 nəfərdən ibarət Təşəbbüs qrupu tamamilə daxil olsun və Rəyasət Heyəti - Baş Qurum adlanaraq 5 nəfərdən ibarət seçilsin. Baş Quruma aşağıdakılar seçilir: Ə.Əliyev, T.Xalisbəyli, V.Əyyubov, Gülarə, Azər. Redaksiya heyətinə Azər, Həsən, Əlisa; Təşkilat Komitəsinə Ələsgər, Arzuman, Əli, Zakir, Fəzail; ideoloji şöbəyə Ramazan Qafarov, Tanrıverdi Paşayev, Aydın Abbasov; maliyyə şöbəsinə Söhrab Bayramov seçilir.


30 август 1989-ҹу ил.
Протокол №4.
Ҝүндəлик
1. Тəшкилат мəсəлəси.
2. Мүхтəлиф мəсəлəлəр.

*"Varlıq"ın protokolu*

**Protokol №5(12.09.1989).** Təşkilatın 12 sentyabr 1989-cu ildə növbəti toplantısı olur. İclasa sədrliyi H.Balıyev, katibliyi isə V.Əyyubov edir. Gündəlikdəki məsələlər: 1) İntizam məsələsi; 2) Bölmə rəhbərlərinin məlumatı; 3) İclasda müvəqqəti olaraq özəklərin yaradılması təklif edilir.

**18 iyul 1989-cu il. Varlığın toplantısı.** Qeyd olunur ki, Varlıq yeni məramnamə ilə fəaliyyətini davam etdirsin. Bu, gələcəkdə yeni partiya yaradılmasının əsasını təşkil etsin (Əbülfəz Əliyevin təklifi).

F.Ağamalıyev isə ümumi yığıncağın çağırılmasını tələb edir. Ə.Əliyev çıxış edir: "Proqram hələlik Konstitusiya tələblərinə uyğun şəkildə olmalıdır. O elə fəaliyyət proqramı götürməlidir ki, AXC-nin fəaliyyətinə nəzarət etsin, tənqidi münasibət bəsləsin. Varlıqda inzibati qrup yaradılsın. İntizama diqqət yetirilsin".

---

***Qaynaq:***
*V.Əyyubun şəxsi arxivi. Varlığa aid protokollar.*

## MÜSTƏQİL AZƏRBAYCAN TƏŞKİLATI

Bu təşkilat 1960-1961-ci illərdə 8 nəfər tələbə tərəfindən yaradılıb: Məhəmməd Hatəmi Tantəkin, Mənsur Əlisoy, Vaqif Türkəqul, Beydulla bəy, Seyfullah İzzətput, Dəmir Gədəbəyli və digərləri. Təşkilatın sədri D. Gədəbəyli olub. Təşkilatın məqsədi: Azərbaycanın azadlığı, Azərbaycanın birliyi. Təşkilatın şüarı: "Bir nəfərin taleyi hamının taleyidir, hamının taleyi xalqın taleyidir!". "Endi var, alçaldı yox!". Hər bir üzv qardaş sayılırdı. Təşkilat üzvləri çayxanalarda və D.Gədəbəylinin Təzəpir Məscidinin yaxınlığındakı Mustafa Sübhi küçəsi ilə kəsişən yerdəki Ostrovski-39 ünvanda yerləşən mənzilində toplaşırdılar.

Təşkilatın fəaliyyəti sonralar zəifləsə də, müəyyən üzvləri 1970-ci illərdə gizli görüşlər keçirib fikir mübadilələri aparıblar.

1988-ci illərdə Müstəqil Azərbaycan Təşkilatı fəallaşıb. Sıralarında M.Hatəmi, D.Gədəbəyli,Vəkil Hacıyev,Eldar və Loğman İbrahimli qardaşları, Mübariz, Qazaxdan Yaşar və Etibar olmaqla təşkilat cəmiyyətə təsir imkanları artıb.

1989-cu ildə Müstəqil Azərbaycan Təşkilatı M.Hatəminin başçılıq etdiyi Qızılbaş Xalq Cəbhəsi ilə birləşir. Birləşmə tədbiri Ensiklopediyanın binasının zirzəmisində keçirilir. Bununla da təşkilatın fəaliyyəti yekunlaşır.

Təşkilatın mətbuat orqanı olan "Xalqın səsi" toplusunun da redaktorluğunu D.Gədəbəyli edib.

"Xalqın səsi" toplusunun 1-ci sayında MAT-ın (Müstəqil Azərbaycan Təşkilatının) bəyanatı, "Hamıya, hamıya, hamıya!" başlıqlı məramnaməsi, Müstəqil Azərbaycan Təşkilatının siması başlıqlı təqdimat verilib. Eyni zamanda, MAT-ın 11 maddədən ibarət olan nizamnaməsi oxuculara təqdim edilib.

## MÜSTƏQİL AZƏRBAYCAN TƏŞKİLATI
### MƏRAMNAMƏSİ

- Bütün siyasi, mənəvi və fiziki irticaya qarşı barışmaz mövqe tutur və buna xidmət edən aparatı dağıtmaq uğrunda mübarizə aparır;

- Bədxah niyyəti olmayan, xalqın mənafeyini qoruyan hər hansı bir siyasi cəbhəni, siyasi hərəkatı alqışlayır və onunla həmrəy olduğunu bildirir;

- Azərbaycan xalqını birliyə çağırır, torpağımıza və xalqımıza qarşı yönəldilmiş hər təcavüzün qarşısını almağa səsləyir;

- Az müddət ərzində Azərbaycanın dünya dövlətləri arasında yerinin və mövqeyinin təsdiq olunmasına, bütün əlaqələrin açıq şəkildə həyata keçirilməsinə, müstəqil söz deməsinə çalışacaqdır;

- Azərbaycan dilinin reallaşmasında həqiqi işə keçid və təşəbbüs qrupları yaradır (həmçinin bu digər sahələrə – mədəni abidələrin bərpasına, tarixin öyrənilməsinə və s. aiddir);

- Gələcəkdə rəhbərlərin demokratik yolla təyin olunmasını və seçilməsini qarşısına məqsəd qoyur;

İslam dünyasını və türk xalqlarını mənəvi birliyə çağırır və bu birliyin yaranmasına xidmət edir. Əgər bu səni qane edirsə, sən öz ağıllı tövsiyələrinlə MAT-a üzv seçilə bilərsən".

MAT-ın oxuculara olan müraciətində belə bir qeyd də vardır: Müstəqil Azərbaycan Təşkilatı Xalq Cəbhəsinin kiçik qardaşıdır".

---

***Qaynaq:***

*2. Dəmir Gədəbəylinin şəxsi arxivi.*

*1."Xalqın səsi" toplusu, 1989-cu il, №1.*

### "XALQIN SƏSİ" TOPLUSU

"Xalqın səsi" toplusu 1989-cu ildən nəşrə başlayıb. Müstəqil Azərbaycan Təşkilatının toplusu olaraq çap edilən bu nəşrin redaktoru şair Dəmir Gədəbəyli idi. Toplunun ümumilikdə 5-6 sayı çap edilib. Nəşrin birinci sayında oxuculara müraciətdə yazılıb: "Əziz oxucu! Müstəqil


ХАЛГЫН СӘСИ №1

МҮСТӘГИЛ АЗӘРБАЈҸАН ТӘШКИЛАТЫ ТОПЛУСУ

МҮСТӘГИЛ АЗӘРБАЈҸАН ТӘШКИЛАТЫНЫН
БӘЈАНАТЫ

Әзиз аталар, аналар, баҹылар вә гардашлар!

Јашадығымыз һәјәҹанлы күнләрдә Вәтәнимизин вә халгымызын башына (ачылан) мүсибәтләрин сон һәддә чатдығы бир вахтда сизә – торпағы-ны, халгынын намус вә гејрәтини дүшүнәнләрә мүраҹиәт едирик!

Нәдир бизим истәјимиз, нәдир бизим амалымыз? Халгымыз тарих боју һеч бир милләти өзүнә дүшмән сајмамыш вә сајмыр да. [illegible] Дашнак партијасынын вә хариҹи капиталистләрин әл ојунҹаглары оланлар, өзүнү бизә дүшмән һесаб едәнләр дә бу сөзләри е"тираф едә биләрләр.

Узун илләрдир ки, ермәни дашнаклары кәһ кизли, кәһ да [illegible] ашкар шәкилдә халгымыза, онун тарихинә, мәдәнијјәтинә вә нәһајәт, мүгәддәс торпағына гәним кәсилибләр. Халгымызын ермәни милләтинә көстәрмиш олдуғу тарихи достлуг гајғылары вә һөрмәт көздән салыныб вә гара бөһтанларла ону ләкәләмәјә чалышырлар. Бу [illegible] бәд әмәлләрин һәјата кечирилмәсиндә (онлара) вахтилә хариҹә говулмуш дашнак партијасы вә ермәни капиталистләри јахындан көмәклик көстәрирләр. Күлли мигдарда пул хәрҹләјирләр. Бу фаҹиәләрин вә тәҹавүзүн һәјата кечирилмәсиндә дүнјанын бе"зи христиан лидерләринин дә әли вардыр.

Гара әмәлләрин ајаг тутуб јеримәсиндә партија билетини халгына әвәз едән Мәркәзи Комитәдә чалышан коммунист әхлагына зидд партија вә дөвләт ишчиләринин дә "хидмәти" аз дејилдир.

Ереван, Сумгајыт, Хоҹалы, Масис, Кировакан вә нәһајәт, Гарабағ һадисәләри көстәрир ки, бу тәҹавүз планлы вә дүшүнүлмүш тәрздә һәјата кечирилир. Москванын мө"тәбәр даирәләри исә сусмаг јолуну тутублар. Өзбашыналыға сон гојмаг әвәзинә мәркәзи телевизија, радио, гәзет вә журналлар милли әдавәт тохуму сәпир, кичик мүнагишәләри аловландырырлар. Кәһ өзләрини Азәрбајҹанын,

3

*“Xalqın səsi” toplusu*

Azərbaycan Təşkilatının ilk toplusu yəqin ki, ürəyindən olacaq. Ona görə ki, belə toplunu hazırlayanlar da torpağımızın, ana və bacılarımızın namusunu çəkən, Azərbaycan xalqının dünənini, bu gününü düşünən sənin kimi oğullarıdır, qızlarıdır!...

Müstəqil Azərbaycan Təşkilatı Xalq Cəbhəsinin kiçik qardaşıdır! El bir olsa, dağ oynadar yerindən! Söz bir olsa, zərbi düşmən sındırar!”.

Topluda çap olunan sənədlər və yazılar belə idi: 1) Müstəqil Azərbaycan Təşkilatının bəyanatı; 2) “Hamıya, hamıya, hamıya!”; 3) Müstəqil Azərbaycan Təşkilatının Məramnaməsi; 4) Müstəqil Azərbaycan Təşkilatı”nın Nizamnaməsi; 5) “Xalq niyə həyəcanlıdır?”; 6) “Tapmacalar,  atmacalar”; 7) “Özün seç, özün bəyən”; 8) Qızılbaş Xalq Cəbhəsi.

---

***Qaynaq:***
*“Xalqın səsi”, toplu, Bakı, 1989-cu il, №1.*

# BOZ QURD İCTİMAİ-SİYASİ CƏMİYYƏTİ



*İsgəndər Həmidov*

**Bu cəmiyyət 1989-cu ilin sonlarında** İsgəndər Həmidovun fəallığı ilə yaradılmışdı. 1992-ci ilin oktyabrından cəmiyyətin "Boz Qurd" adlı qəzeti nəşr edilməyə başlayır. "Boz Qurd" qəzetinin təsisçisi İsgəndər Həmidov, Baş redaktoru Aqil Abbas, redaktoru Ənvər Börusoylu idi. Qəzet 14 minə yaxın tirajla çıxırdı. 1993-cü ilin dekabrında partiyanın qurultayından sonra, dekabrın 26-dan başlayaraq Qələndər Muxtarlı Baş redaktor oldu.

1993-cü ilin dekabrın 25-də İ.Həmidovun mənzilində isə belə bir qərar verildi: "Cəmiyyət partiyaya çevrilsin, Azərbaycan Boz Qurd partiyası yaradılsın". **1993-cü ilin 26 dekabrında** partiya təsis edildi, 1994-cü ilin martında partiya qeydiyyatdan keçdi. 1995-ci ilin martın 17-də Azərbaycan Boz Qurd Partiyasının başqanı İ.Həmidov həbs edildi və 9 ilə qədər həbsxanada saxlanıldı.



*Boz Qurd fəallarından Qələndər Muxtarlı*

Qeyd edək ki, Azərbaycan Boz Qurd partiyası yarandıqdan sonra eyni adlı cəmiyyətin sədri Bakı Dövlət Universitetinin professoru **Bəxtiyar Əhmədov** oldu.

Bozqurdçuların şüarı bu idi: "Tanrı Qurdu qorusun!"

## BOZ QURD İCTİMAİ-SİYASİ CƏMİYYƏTİNİN NİZAMNAMƏSİ

### (ÜMUMİ ƏSASLAR)

1. Boz Qurd ictimai-siyasi cəmiyyəti Azərbaycan Respublikası Konstitusiyası (əsas) qanunu çərçivəsində fəaliyyət göstərən, Azərbaycanın müstəqilliyi, azadlığı, ərazi bütövlüyü və sərhədlərinin toxunul-

mazlığının tam təmin edilməsi uğrunda mübarizə aparan, Azərbaycan Respublikasının dünya birliyində özünə layiq yüksək yer tutan qüdrətli ölkəyə çevrilməsinə, Azərbaycanda yaşayan bütün xalqların tam hüquq bərabərliyi əsasında sarsılmaz birliyinin yaradılmasına çalışan ictimai-siyasi təşkilatdır.

Cəmiyyət öz fəaliyyətində demokratiya prinsiplərinə və beynəlxalq hüquq normalarına qeyd-şərtsiz əməl edir, öz məqsədlərinə çatmaq üçün həmin prinsiplər və hüquqi normalar çərçivəsində bütün mübarizə formalarından istifadə etməklə açıq fəaliyyət göstərir (Ümumilikdə yeddi maddədə əsaslar verilib).

## CƏMİYYƏTİN MƏQSƏDİ

1. Cəmiyyət Azərbaycan torpaqlarını işğalçılardan təmizləməyi və türk xalqlarının mənəvi birliyi və siyasi həmrəyliyinə nail olmağı özünün ən müqəddəs vəzifəsi hesab edir və bu ali məqsədi tam miqyasda həyata keçirənə qədər mübarizəni davam etdirəcəkdir.

2. Cəmiyyət Azərbaycanın təcavüzə məruz qalmış torpaqlarını son qarışına qədər düşmən tapdağından xilas etməyi özünün birinci vəzifəsi hesab edir və bu məqsədə yönəldilmiş bütün tədbirləri müdafiə edir.

Cəmiyyət xalqın xilası və xoşbəxtliyi naminə Azərbaycan Respublikasının inkişaf etmiş ölkələr sırasına çıxması üçün özünün elmi-nəzəri və praktiki proqramını hazırlayır (ümumilikdə 11 maddədən ibarətdir).

Bu cəmiyyətə ümumi rəhbərliyi İsgəndər Həmidov edirdi. Cəmiyyətin əsas fəallarından Mehdi Mehdiyevi, Nizamini qeyd etmək olar. 1992-ci ilin mayında İ. Həmidov Azərbaycanın Daxili İşlər Naziri təyin olunduqdan sonra rəsmi olaraq Cəmiyyət sədrliyindən uzaqlaşsa da, əslində ümumi rəhbərliyi yenə o edirdi.

## AZƏRBAYCAN BOZ QURD PARTİYASI

1993-cü ilin dekabrın 26-da Azərbaycan Boz Qurd Partiyası təsis edildi. Partiya 1994-cü ilin martında qeydiyyatdan keçdi. Tanınmış ictimai-siyasi xadim İsgəndər Həmidov partiyanın sədri, Qələndər Muxtarlı isə Boz Qurd Partiyası sədrinin I müavini oldu.

1994-cü ilin mart ayında partiya dövlət qeydiyyatından keçdikdə adı belə müəyyənləşdi: Azərbaycan Boz Qurd Partiyası. Bu zamana qədər Boz Qurd Partiyası olaraq tanınırdı.

## BOZ QURD PARTİYASININ NİZAMNAMƏSİ (ÜMUMİ MÜDDƏALAR)

Boz Qurd partiyası Azərbaycan xalqının vahid demokratik əsaslarla formalaşmış dövlətinin qurulması uğrunda, habelə Azərbaycan xalqının tarixdəki şərəfli yerini özünə qaytarmaq, türk xalqları arasında iqtisadi-siyasi və mədəni əlaqələrin yaradılması kimi müqəddəs idealı siyasi məram kimi qəbul edən şəxslərin siyasi birliyidir.

Boz Qurd partiyasının ali siyasi məramı Azərbaycanın dövlət müstəqilliyinin reallaşması, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, onun itirilmiş ərazilərinin qaytarılması, millətin təhlükəsizliyinə nail olmaqdır.

Boz Qurd partiyası Azərbaycanın tam müstəqil dövlət və istiqlal xətti tutmuş ictimai-siyasi partiya və birliklə əməkdaşlığı zəruri hesab edir.

Boz Qurd partiyası siyasi həyatda hər hansı partiyanın və ya qruplaşmanın diktaturasını rədd edir, öz cəmiyyətdaxili həyatını və fəaliyyətini demokratik əsaslar üzərində qurur.

Boz Qurd partiyası Azərbaycan xalqının dövlətçilik ənənələrinə, milli birlik və türk xalqlarının həmrəyliyi kimi siyasi ideala, milli mənafeyə xidmət edən ide-



*Boz Qurdun nizamnaməsi*

olji sistemə, milli hakimiyyət formasında hakimiyyətin demokratikliyinə söykənir.



ајыр, мүвафиг
әмр вә сәрәнҹамлар верир.

8.6. Партијанын Сәдри өз јанында мүвафиг шәхсләрдән ибарәт Мәшвәрәт Шурасы вә ја буна бәнзәр бир гурум тә'сис едир.

8.7. Партијанын вәсаитиндән истифадә барәдә сәрәнҹам верир.

8.8. Сәдрин биринҹи мүавини партијанын Сәдри олмадыгда онун вәзифәләрини иҹра едир. Сијаси Шура Сәдр олмадыгда онун мүавининә табедир.

9. ПАРТИЈАНЫН НӘЗАРӘТ-ТӘФТИШ КОМИССИЈАСЫ

9.1. НТК Гурултај тәрәфиндән 3 ил мүддәтинә сечилир вә тәркибини Гурултај тәсдиг едир.

9.2. НТК үзвләри рәһбәр органлара сечилә билмәз.

10. НӘЗАРӘТ-ТӘФТИШ КОМИССИЈАСЫНЫН ВӘЗИФӘЛӘРИ

10.1. Партија үзвләринин онлара тапшырылмыш вәзифәләри јеринә јетирмәсинә.

10.2. Партијанын бүдҹәсинин хәрҹләнмәсинә, верилмиш әмр вә сәрәнҹамларын ганунилијинә вә иҹрасына, партијанын әмлакынын горунмасына.

10.3. Партијанын Програм вә Низамнамәсинә партија үзвләри тәрәфиндән әмәл едилмәсинә.

10.4. НТК партија үзвләринин тәләби илә Гурултај вә конфранс чағырмаг сәлаһијјәтинә маликдир.

11. ПАРТИЈАНЫН ҺҮГУГИ СТАТУСУ, ӘМЛАКЫ ВӘ ВӘСАИТИ

11.1. Партија бу Низамнамәдә мүәјјән едилән мәгсәд вә вәзифәләрин һәјата кечирилмәси үчүн бүтүн һүгуглара вә вәзифәләрә малик олан һүгуги шәхс кими фәалијјәт көстәрир.

11.2. Партијанын хидмәти штампы, мөһүрү, хүсуси әмблеми вардыр.

11.3. Партијанын вәсаити ајры-ајры шәхсләрин бағышладығы әвәзсиз әмлакдан вә партијанын өзүнүн јаратдығы тәсәррүфатлардан кәлән кәлирдән әлдә едилир.

11.4. ~~Партија үзвлүк һаггы гәбул етмир~~ вә партијанын рәһбәр органлары көстәрдији хидмәтә көрә мааш алмаја биләрләр.

12. ПАРТИЈАНЫН НИЗАМНАМӘСИНӘ ӘЛАВӘ ВӘ ДӘЈИШИКЛИКЛӘРИН ГАЈДАСЫ

12.1. Партијанын Низамнамәсиндә гејд едилмәјән мүәјјән группларын фәалијјәтинин низамланмасына даир хүсуси әсаснамәләр партијанын конфрансларында гәбул едилә вә Гурултај тәрәфиндән тәсдиг олуна биләр.

лајиһә

"БОЗ ГУРД" ПАРТИЈАСЫНЫН
НИЗАМНАМӘСИ
/үмуми мүддәалар/

"Боз Гурд" партијасы Азәрбајҹан ~~милләтинин~~ халгынын ваһид демократик әсасларла формалашмыш дөвләтинин гурулмасы уғрунда, һәбелә Азәрбајҹан милләтинин тарихдәки шәрәфли јерини өзүнә гајтармаг, түрк халглары арасында игтисади, сијаси вә мәдәни әлагәләрин јарадылмасы кими мүгәддәс идеалы сијаси мәрам кими гәбул едән шәхсләрин сијаси бирлијидир.

"Боз Гурд" партијасынын али сијаси мәрамы Азәрбајҹанын дөвләт мүстәгиллијинин реаллашмасы, Азәрбајҹанда вәтәндаш ҹәмијјәтинин формалашмасы, онун итирилмиш әразиләринин гајтарылмасы, милләтин тәһлүкәсизлијинә наил олмагдыр.

"Боз Гурд" партијасы Азәрбајҹанын там мүстәгил дөвләт вә истиглал хәтти тутмуш ичтимаи-сијаси партија вә бирликлә әмәкдашлығы зәрури һесаб едир.

"Боз Гурд" партијасы сијаси һәјатда һәр һансы партијанын вә ја групլашманын диктатурасыны рәдд едир, өз ҹәмијјәтдахили һәјатыны вә фәалијјәтини демократик әсаслар үзәриндә гурур.

"Боз Гурд" партијасы Азәрбајҹан ~~милләтинин~~ халгынын дөвләтчилик ән'әнәләринә, милли бирлик вә түрк халгларынын һәмрә'јлији кими сијаси идеала, милли мәнафејә хидмәт едән идеоложи системә, милли һакимијјәт формасында һакимијјәтин демократиклијинә сөјкәнир.

1. ПАРТИЈАДА ҮЗВЛҮК

1.1. Партијанын Програм вә Низамнамәсини гәбул едән вә реаллашмасында фәал иштирак едән Азәрбајҹан вәтәндашлары, еләҹә дә Азәрбајҹанын һүдудларындан кәнарда јашајан азәрбајҹанлылар партијанын үзвү ола биләр.

1.2. Партијада үзвлүк фәрди вә груп шәкилдәдир.

1.3. Фәрди үзвлүк: партијанын Програм мәгсәдләрини вә Низамнамә принсипләрини гәбул едән һәр бир шәхс өзәкләрә вә ја өзәкләр олмадыгда рајон, шәһәр мә'бәсинә әризә илә мүраҹиәт едир, өзәк вә ја мәбә јығынҹағында фәрдин үзвлүјә гәбулу мүнасиб һесаб едилдикдә гәбул олунур.

1.4. Партија үзвлүјүндән чыхмаг сәрбәстдир. Ејни илә партијанын гәбул етдији гајдалара ујғун фәалијјәт көстәрмәдикдә, партија үзвлүјүндән чыхарылдыгда партија үзвлүјүндән чыхмыш һесаб едилир.

2. ПАРТИЈА ҮЗВҮНҮН ҺҮГУГЛАРЫ

2.1. Партијанын сечкили вә рәһбәр органларына сечилмәк.

2.2. Партијанын фәалијјәтинә даир мәсәләләрин мүзакирәсиндә иштирак етмәк, чыхыш етмәк.

2.3. Партијанын органларына тәклиф вермәк, онун гаршыја гојдуғу мәсәләләрин һәјата кечирилмәсинә өз мүнасибәтини билдирмәк.

***Boz Qurdun nizamnaməsi***

---

***Qaynaq:***

*1. Qələndər  Muxtarlının şəxsi arxivindən.*

*2. "Boz  Qurd"  qəzeti. 8 oktyabr 1993-cü il, №38(48).*

## İSGƏNDƏR HƏMİDOV – BOZ QURDUN YARADICISI

1988-ci ildən başlayan Xalq Azadlıq Hərəkatının yeni mərhələsində Boz Qurd, Boz Qurdlar adı da tez-tez eşidilirdi. Çoxları Azərbaycandakı Boz Qurd ideyasının Türkiyədən gətirildiyini düşünürdü.

Boz Qurd  təşkilatını Azərbaycanda yaradan AXC-nin liderlərindən olan İsgəndər Həmidov idi. İ.Həmidov bu ideyanın onun fəaliyyətinə necə daxil olmasını belə izah edir: "Bu ideyanı qoca nənəmdən götürmüşəm. Sovet rejimi nənəmin qardaşlarını güllələmişdi və onun bu hökumətə böyük nifrəti var idi. Qurd ulaması eşidəndə deyərdi ki, türklər gələcək və biz xilas olacağıq".

İ.Həmidov 1987-ci ildə – Daxili İşlər Nazirliyi sistemində çalışarkən 7 nəfər zabitlə gizli şəkildə Zabitlər Birliyi təşkilatını yaradır. 1988-1989-cu illərdə Boz Qurd təşkilatının əsasını qoyur. İlk dövrlərdə təşkilat üzvlərinin sayı 300 (üç yüz) nəfərə yaxın idi. Boz Qurd AXC-nin bir qurumu olaraq fəaliyyət göstərirdi. İ.Həmidovun SSRİ-nin Daxili İşlər naziri Bakatinə əl uzadıb görüşməkdən imtinasından sonra Boz Qurdun nüfuzu

daha da yüksəldi. Artıq Boz Qurd təşkilatında olanların sayı 2000 (iki min) nəfərə çatırdı.

Boz Qurdun fəaliyyəti belə istiqamətlənirdi:

1) Qarabağ uğrunda mübarizə;

2) AXC-nin müdafiəsi, liderlərin qorunması;

3) Turançılıq – Qazaxıstanla, Qırğızıstanla əlaqələrin möhkəmləndirilməsi;

4) AXC daxilində fəaliyyəti gücləndirmək.

Boz Qurd batalyonunun yaradılması da bu təşkilatın uğurlarından oldu. Mərd, döyüşkən, cəsur və vətənpərvər insanlardan yaranmış Boz Qurd batalyonu Qarabağda gedən ən ağır savaşlarda döyüşürdülər. Marquneşavan-Marağa istiqamətindəki uğurlu döyüşlərdə "boz qurdlar" fədakarlıqlar göstərmişdi. Boz Qurd batalyonu ən qızğın yerlərə gedir, döyüşçülərə kömək edirdi. Qubadlıda, Tərtərdə Boz Qurd batalyonu cəsarətlə döyüşmüşdü. 80 nəfərlik batalyondan 16-17 nəfər sağ qaldı. Siyavuş Bozqurd, Məzahir Bozqurd, İsa Bozqurd kimi oğullar ermənilərlə savaşlarda həlak oldular. Onlar döyüşə getməmişdən öncə barmaqlarını deşib, qanı alınlarına sürtürdülər. Bu, onlarda bir andiçmə mərasimi idi.



БОЗ ГУРД

BOZ QURD

БОЗГУРДЛАРЫН ГӘЗЕТИ

Гиjмәти 2 манат

ГӘЗЕТ 1992-ЧИ ИЛИН ОКТJАБРЫНДАН ЧЫХЫР. 8 ОКТJАБР 1993-чү ИЛ. № 38 (48)

TÜRK DÜNYASI NDAN SORAQLAR

НУРСУЛТАН НАЗАРБАJЕВИН ДҮНJА ДӨВЛӘТЛӘРИНӘ МУРАЧИӘТИ

АЛМАТЫ. Газахыстанын президенти нүвә сынагларынын 2005-чи илә гәдәр кечирилмәмәсинә көрә мороториум гојулмасы барәдә бүтүн дүнја дөвләтләринин башчыларына мурачиәт едиб.

Мурачиәтдә билдирилир

"БОЗ ГУРД" ЧӘМИJJӘТИНИН БӘJАНАТЫ

Әзиз һәмвәтәнләр!

Мүстәгил Азәрбајчан Республикасынын јаранмасы халгымызын тарихиндә јени мәрһәләнин башланғычыдыр. Тале халгымызын индики нәсли үзәринә бу тарихин илк шанлы сәһифәләрини јазмаг кими чәтин вә шәрәфли бир вәзифә гојмушдур. Бу вәзифәни јеринә јетирмәк республиканын һәр бир вәтәндашынын мүгәддәс борчудур.

Тәәссүфлә гејд етмәк лазымдыр ки, һал-һазырда халгымыз өзүнүн сон дәрәчә ағыр вә кәркин күнләрини јашајыр. Бу ағыр вәзијјәтин сәбәбләри мәлумдур. Вә онлары арашдырмаға лүзум јохдур. Лакин ону да гејд едәк ки, республикамызын ағыр һәрби-сијаси вә игтисади бөһрандан чыхмасы, республикада там сијаси сабитлијин јаранмасы хејли дәрәчәдә харичи амилләрдән, илк новбәдә јахын харичдә баш верән һадисәләрдән асылыдыр. Белә бир шәраитдә республика дахилиндәки мүхтәлиф сијаси гүввәләрин там мәнәви, сијаси бирлијинә наил олмаг үчүн гаршылыглы күзәштләр, бир-биринә доғру аддымлар атмаг, сәбрли олмаг вә сојуғганлылыг тәләб олунур. Јаранмыш јени шәраитдә "Боз Гурд" Чәмијјәти јени вәзијјәтин хүсусијјәтләрини нәзәрә алараг вә чәмијјәтин јенидән ишләнмиш јенәтиминә (низамнамәсинә) үјғун олараг мәһз бу истигамәтдә чалышачаг, өз фәалијјәтини Азәрбајчан Рес-

TÜRK DÜNYASI NDAN SORAQLAR

ТЕР-ПЕТРОСЈАН ТҮРКМӘНИСТАНА БИР УЧАГ ДОЛУСУ ГЫЗЫЛ ВЕРИБ

АШХАБАТ. Бу јахынларда Ермәнистанын президенти Түркмәнистанда дөвләт башчылары илә көрүшәркән бир учаг (тәјјарә) долусу гызыл вериб. Бу гызыл Ермәнистанын түркмән газына көрә борчуну өдәмәк үчүн тәгдим олунуб.

Тер-Петросјан билдирмишдир ки,

*"Boz Qurd" qəzetində cəmiyyətin bəyanatı*

Boz Qurdun himni – Ü.Hacıbəylinin musiqi bəstələdiyi və Ə.Cavadın yazdığı "Çırpınırdı Qara Dəniz, baxıb Türkün Bayrağına" misraları ilə başlanan şeirdir.

Boz Qurd təşkilatının "Boz Qurd" adlı qəzeti də çap edilirdi. Bu fəaliyyətin hamısına İ.Həmidov başçılıq edirdi.

İ.Həmidov xatırlayır ki, o, polis sitemində çalışarkən Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Nurəddin Rzayev evdə hazırladıqları gizli vərəqələri ona verib, divarlara yapışdırmağı xahiş edirdilər. Bu vərəqələrdə yazılırdı: "Qarabağ savaşı başlayacaq. Uzunmüddətli mübarizəyə hazır ol!"

---

***Qaynaq:***

*İsgəndər Həmidovun şəxsi arxivindən.*

# 1988-1992-ci illərdə AZƏRBAYCANDA İLK SİYASİ PARTİYANIN YARADICISI – AZƏR QASIMZADƏ



*Azər Qasımzadə*

1988-1992-ci illərdə Azərbaycan Milli azadlıq mübarizəsi dövründə cəmiyyətin siyasi inkişafında mühüm rol oynayan və xalqın siyasi şüura sahib olması vacibliyini əsas sayan ziyalılardan biri **Azər Qasımzadə olub.**

Azər Qasımzadənin adı bu dövr tarixinə ilk siyasi partiyanı yaradan şəxs kimi də daxil olmuşdur. Onun 1989-cu ilin martında yaratdığı Azərbaycan Dirçəliş Partiyası bu sahədə atılan ilk addım idi.

## AZƏRBAYCAN DİRÇƏLİŞ PARTİYASI



AZƏRBAYCAN HALG
DIRÇƏLIŞ
PARTIYASININ
PROGRAMI
VƏ
NIZAMNAMƏSI

BAKI – 1991

*Partiyanın proqramı*

Azərbaycan Dirçəliş Partiyası 1988-ci ilin yayından mövcud olmuş, həmin ilin noyabr hadisələrindən sonra fəaliyyəti zəifləmiş Tərəqqi cəmiyyətinin bazası yaranmışdı. 1988-ci ilin dekabrın 5-də mitinq dağıdıldıqdan sonra "Tərəqqi" Cəmiyyətinin rəhbərlərindən olan Fuad Ağayev həbs edildi, Azər Qasımzadə isə təqiblərə məruz qaldı. Tərəqqi cəmiyyəti öz fəaliyyətini dayandırdı. A.Qasımzadə təqiblərə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxıb, partiya biletini Moskvaya təhvil verdi. O, **1989-cu ilin mart ayında bir neçə həmfikir**

**dostu ilə Azərbaycan Dirçəliş Partiyasını təsis etdi. 1989-cu ilin may ayının 27-də isə Şimali Azərbaycanda ilk azad qəzet - "Dirçəliş" qəzeti ("samizdat" olaraq) çapdan çıxdı.** "Dirçəliş" qəzetinin 1989-cu ilin 27 iyunda çap edilən 2-ci sayında isə partiyanın fəaliyyəti haqqında belə məlumat vardır: "Bir ay bundan əvvəl, 1989-cu il may ayının 27-də "Dirçəliş" qəzeti son 69 il üçün Şimali Azərbaycanda ilk demokratik partiyanın - Azərbaycan Dirçəliş Partiyasının yaranıb fəaliyyət göstərdiyini bütün dünyaya bəyan etdi. Azad qəzetin və yeni partiyanın yaranması Azərbaycan xalqı tərəfindən fərəh və mübarizəyə inam hissi ilə qarşılandı".

## AZƏRBAYCAN DİRÇƏLİŞ PARTİYASININ XALQA MÜRACİƏTİ

"Kuzbasın, Vorkutanın, Şərqi Ukraynanın və imperiyanın digər əyalətlərinin fəhlə və şaxtaçıları iyulun 11-də bir günlük ümumimperiya tətilinin keçirilməsi təşəbbüsünü irəli sürmüşlər.

Tələblər siyasi səciyyə daşıyır və aşağıdakılardan ibarətdir:

- SSRİ hökumətinin inkişafı;
- SSRİ Xalq deputatlarının yenidən seçilməsi;
- DTK, DİN, prokurorluq, məhkəmə, ordu və xalq təhsilinin qeyri siyasətlənməsi;
- Sov İKP əmlakının milliləşdirilməsi;
- bəzi nazirliklərin ləğvi.

Bu tələblərdən əlavə yerli əhəmiyyətli tələblər də irəli sürülmüşdür. Belə ki, Ukrayna şaxtaçıları Ukrayna SSR Ali Sovetindən iqtisadi, siyasi və hüquqi suverenlik haqqında qərarın qəbulunu, digər respublikalar isə yeni iqtisadi və siyasi müqavilələrin bağlanmasını tələb edirlər.

Azərbaycan Xalqının taleyi bu siyasi tətilə qoşulub-qoşulmamasından asılıdır. Bizim tələblər həmçinin aşağıdakılar olmalıdır:

- Bakıda Fövqəladə vəziyyətin və komendant saatının ləğvi;
- seçkilərin noyab-dekabr ayına keçirilməsi;
- Seçki Haqqında Qanuna xalq referendumundan sonra yenidən baxılması;



*Azər Qasımzadə (soldan üçüncü)* ***döyüş bölgələrində***

- siyasi dustaqlara azadlıq;
- Milli Ordunun yaradılması;
- söz, mətbuat azadlığının tam bərqərar olması;
- bütün partiyaların rəsmi qeydə alınması.

Tətil Azərbaycan Xalq Azadlıq Hərəkatında yalnız müsbət rol oynayacaq. Belə ki, tətildən sonra başlayacaq irticaya cavab olaraq imperiyanın bütün demokratik qüvvələri Azərbaycan demokratik hərəkatının müdafiəsinə qalxacaq və bu da Şimali Azərbaycanın oyuncaq hökumətinə təsir göstərəcəkdir.

İyulun 11-də tətilin keçirilməsi məsələsi yalnız müsbət həll edilməlidir".

Azərbaycan Dirçəliş Partiyası Mərkəzi Şurası. 08. 07. 1990.



***Azər Qasımzadə** (ortada)* ***Dağıstanda məktəblilərə üçrəngli bayrağımızı təbliğ edir***

---

***Qaynaq:***
*"Dirçəliş" qəzeti, 10 iyul, 1990-cı il, №6 (13).*

### "DİRÇƏLİŞ" QƏZETİ

**"Dirçəliş" qəzeti -** Azərbaycanda ilk "samizdat"dır. Azərbaycan Dirçəliş Partiyasının orqanı olub. 1989-cu ildə "Dirçəlməli! Bəsdir daha bu zilləti-zülmət!" şüarı ilə əvvəl "Dönüş" mətbəəsində, daha sonra "Dirçəliş" nəşriyyatında çapdan çıxıb. Baş redaktoru Odər Xəzər (Azər Qasımzadə) olub. Qəzetdə ADR-in sənəd və müraciətləri, ölkədə və dünyada baş verən

son olaylar, eləcə də Azərbaycan tarixi ilə bağlı yazılar nəşr olunub. Eyni zamanda, M.Ə.Rəsulzadənin əsərlərindən seçmələr, Yenidənqurma siyasəti ilə bağlı dünya mətbuatında gedən yazılar, demokratiya ilə bağlı fikirlərə də yer verilib.

Qəzetdə siyasi xarakterli şarj və karikaturalar da dərc edilib.

***Qaynaq:***

*"Dirçəliş" qəzeti, 27 iyun, 1989-cu il, №1.*



Дирчəлмəли! Бəсдир дəһи бу зиллəти зүлмəт!

Дирчəлиш

آذربایجان دیرچلیش پارتییاسینین غزتی

Azərbaycan Dirçəliş Partiyasının qəzeti

Азəрбајчан Дирчəлиш Партијасынын гəзети

№1(1) шəнбə, 27 мај 1989-чу ил

САБАҺ ШƏРГДƏ ИЛК ДЕМОКРАТИК ДӨВЛƏТИН – АЗƏРБАЈЧАН ДЕМОКРАТИК РЕСПУБЛИКАСЫНЫН ЈАРАДЫЛМАСЫНЫН 71- чи ИЛ ДӨНҮМҮДҮР

ТАРИХИ ДАНМАГ ОЛМАЗ

Азəрбајчан Демократик Республикасы

1937- чи илдəн сонра мејдана кəлəн тарихчилəр нəсли сон дөвр Азəрбајчан тарихи илə əлагəдар олан һадисəлəри бајағылашдырмыш вə гəрəзли шəкилдə изаһ етмишлəр. Бу саја-сəлл тарихчилəрин һадисəлəри бу шəкилдə "ишыгландырмагда" күддүклəри əсас мəгсəд ондан ибарəт олмушдур ки, онлар һəр васитə илə мөвчуд Совет гурулушунун ән јахшы гурулуш олмасыны сүбута јетирмəк истəмишлəр. Бунунла да һəгигəтлəр тапдаланмыш, јахын кечмишимизə гаралар јахылмышдыр.

Тарихимизин гара јахылмыш, ачылмамыш сəһифəлəриндəн бири дə Азəрбајчан Демократик Республикасы тарихидир.

1918- чи ил мајын 28- дə бүтүн дүнјанын радиостансија вə гəзетлəри Азəрбајчанын рус мүстəмлəкəсиндəн азад олараг истиглалијјəт газандығыны-бүтөв Фəтəлихан Хојскинин башчылығы илə Азəрбајчан Демократик Республикасынын јарандығыны дүнјаја јајдылар.

...

*"Dirçəliş" qəzeti*

## "SOY" MƏCMUƏSİ





*"Soy" məcmuəsi*

"Soy" məcmuəsi "Azərbaycan Dirçəliş Partiyası"nın orqanı olaraq nəşr edilib. İlk sayı 1989-cu ilin dekabrında "Dirçəliş" nəşriyyatında 3000 nüsxə olaraq çap olunub. Redaktoru Odər Xəzər (Qasımzadə A. Ə.) idi.

Məcmuənin ilk sayında redaktorun oxuculara kiçik həcmli müraciəti verilib. Həmin müraciətdən: "Əziz yurddaşlar, hörmətli oxucular! Neçə əsrdir ki, Azərbaycan tarixi, Azərbaycan xalqının, onun aparıcı qüvvəsi olan azəri türklərinin tarixi, mədəniyyəti, elmi qərəzli surətdə düzgün araşdırılmır.

On minilliklərlə tarixə malik xalq vəhşi, mədəniyyətsiz adlandırılaraq böhtanlanır. Bu böhtanlara qarşı çıxan, tariximizi olduğu kimi təqdim etmək istəyən yurddaşlarımıza panislamist, turançı, pantürkist damğası vuraraq, onları təqib, məhv edirlər.

Azərbaycan Dirçəliş Partiyası Sizə yeni məcmuə, tariximizdən, soylarımızdan xəbər verən "Soy" məcmuəsini təqdim edərək, ziyalılarımızdan bu məcmuənin səhifələrində çıxış etməyi xahiş edir. Hörmətlə, Odər Xəzər. (Qasımzadə A. Ə.), dekabr 1989-cu il".

Məcmuənin həcmi 41 səhifədir. İlk sayında aşağıdakı yazılar çap edilib: 1) "Tariximizə qəsd edənlərə açıq məktub" (müəllif Məhər Acarlı); 2) "Panislamizmin "təhlükəsi" (müəllif Gigil); 3) "Azərbaycan faciəsi" (müəllifsiz) 4) "Panturanizm və Qafqaz problemi" (M.Ə.Rəsulzadə).

Məcmuənin üz qabığında "Soy" adı kiril hərfləri ilə verilib. "Soy" adının altında isə eyni söz kiçik hərflərlə latın və ərəbcə yazılıb.

"Soy" adının altında üç əlifbada (kiril, latın, ərəb) bu sözlər qeyd edilib: Azərbaycan Dirçəliş Partiyasının məcmuəsi. Məcmuənin üz qabığında ad və məlumatlar rəngli olaraq qırmızı hərflərlə yazılıb.

## "GÜLÜSTAN" SİYASİ-BƏDİİ TOPLUSU




*"Gülüstan" toplusu*

"Gülüstan" siyasi-bədii toplusunun ilk sayı 1990-cı ildə "Dirçəliş" nəşriyyatında çap edilib. Toplunun üz qabığında "Gülüstan" sözünün üstündə bu misralar yazılıb:

**Bəsdir fəraq odlarından kül ələndi başımıza,**

**Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!**

Toplu üç min nüsxə ilə çap edilib. Buradakı yazılar iki bölmədə verilib: siyasi hissə, bədii hissə. Topluda aşağıdakı yazılar oxuculara təqdim olunub: 1) Ön söz (redaktordan). Sonra siyasi hissədəki yazılar

verilib: 1) "Kommunizm bəşəri fəlakətdir" (müəllif Q.Arif); 2) "Lenini oxuyarkən" (müəllif V.Solonxin); 3) "Leninizm ümumbəşər mənəviyyatı işığında" (İ.Orlov – Rimin); 4) "Lenin haqqında "Sovetskaya molodyoj" qəzetinin redaksiyasına verilən üç sual" (müəllif A. Serebrennikov); 5) "Yenidənqurma və aşkarlıq haqqında dünyanın ən böyük realistinin və ən böyük sosialistinin dedikləri (Q.Arif).

Bədii hissədəki yazılar: 1) "Sosial üçbucaq" (O.Henri); 2) "Dəmir qapının dalında"; 3) Quş Qayası (Q.Arif).

Qeyd edək ki, siyasi topluda çap edilən əsas yazıların müəllifi "Q.Arif" olaraq göstərilir. Bu imzanın kimə aid olduğunu dəqiqləşdirmək mümkün olmasa da, üslub baxımından Azər Qasımzadəyə məxsusluğunu söyləmək olar. Çünki belə "Samizdat"larda başqa imzalarla yazıların nəşri hallarına tez-tez rast gəlinir.

Qeyd edək ki, "Soy" məcmuəsinin və "Gülüstan" siyasi-bədii toplusunun sonrakı sayları haqqında bilgi yoxdur.

---

***Qaynaq:***
1. *"Soy" məcmuəsi. "Dirçəliş" nəşriyyatı, 1989-cu il, №1.*
2. *"Gülüstan" siyasi-bədii toplusu. "Dirçəliş" nəşriyyatı, 1990-cı il.*

## "DÖNÜŞ" MƏCMUƏSİ



Bu məcmuə Azərbaycan Dirçəliş Partiyasının orqanı olaraq "Dirçəliş" nəşriyyatında çap edilib. Redaktoru Odər Xəzər (Azər Qasımzadə) olub.

Məcmuədə daha çox tarixi həqiqətlərə əsaslanan yazılara üstünlük verilib. Azərbaycan Xalq Cünhuriyyətinə aid sənədlər də məcmuədə çap edilib. Məcmuədə Yunus Oğuz və Ədilə Surxayzadənin birgə yazdıqları "1988-1989-cu illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün tarixi təhlili, "İldırım" imzalı müəllifin siyasi repressiyalara məruz qalmış Siyaməkin mübarizə yolu haqqında yazısı nəşr olunub. Eyni zamanda bu

yazı “Dönüş”ün xüsusi buraxılışı şəklində təkrar yayımlanıb. Məcmuədə X. Rzanın “Gündəlikdən səhifələr”i ixtisarla oxucuya təqdim edilib.

---

***Qaynaq:***
*“Dönüş” məcmuəsi. “Dirçəliş” nəşriyyatı, 1989-cu il, №1.*

## “DÖNÜŞ” NƏŞRİYYATININ NƏŞRİ ƏHMƏD QARACA: “AZƏRBAYCANIN YAXIN TARİXİNƏ QISA BİR BAXIŞ”




***Əhməd Qaracanın “Azərbaycanın yaxın tarixinə qısa bir baxış” kitabı***

A.Qasımzadənin “Dönüş” nəşriyyatında 1989-cu ildə (bu, şərti ad daşıyan nəşriyyat idi) Türkiyədə Azərbaycanın azadlığı mübarizəsini aparmış Əhməd Qaracanın “Azərbaycanın yaxın tarixinə qısa bir baxış” kitabı çap olundu. 27 səhifəlik bu kitab ixtisarla nəşr edilib. Ön sözdə bu qeydlər yazılıb: “Bu əsər Oğuz türklərinin bir bölümünü təşkil edən “Anadolu yarımadasının bir uzantısı olan 250 min kv km-lik bir ərazidə yaşayan Azərbaycan türklərinin yaxın tarixini işıqlandırır”.

A.Qasımzadənin həmin dövrdə belə bir əhəmiyyətli kitabı nəşr edib yayması ciddi hadisə idi.

Kitab Azərbaycan Dirçəliş partiyasının “Dönüş” mətbəəsində 10 000 (on min) tirajla nəşr edilmişdi.

---

***Qaynaq:***
*Əhməd Qaraca. Azərbaycanın yaxın tarixinə qısa bir baxış. “Dönüş”, 1989.*

## AZƏR QASIMZADƏ

Azər Qasımzadə 1955-ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. Azərbaycan SSR Elmlər Akademiyasının Geologiya İnstitutunda elmi işçi vəzifəsində çalışıb. Geologiya-minerologiya elmləri namizədi olub.

1972-ci ildə Bakı şəhərində orta məktəbi bitirdikdən sonra Bakı Tunel Tikinti İdarəsində fəhlə işləyib. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakultəsinin qiyabi şöbəsinə daxil olub. 1975-1977-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra Azərbaycan Kənd Tikinti Nazirliyində fəhlə işləyib.

1981-ci ildə Universiteti mühəndis-geoloq ixtisası ilə bitirdikdən sonra Azərbaycan EA Geologiya İnstitutunda fəaliyyətə başlayıb. 1984-1988-ci illərdə aspiranturanın qiyabi şöbəsində oxuyub və 1989-cu ilin iyununda Düşənbə şəhərində disssertasiya mövzusunu müvəffəqiyyətlə müdafiə edərək geologiya-minerologiya elmləri namizədi elmi-dərəcəsini alıb. Çoxlu sayda elmi əsərin müəllifidir.


Азәрбајҹан Республикасы Милли Тәһлүкәсизлик Назири Н.Аббасов ҹәнабларына.

Әризә

Азәр Әлиаға оғлу Гасымзадә

*Azər Qasımzadənin həbsxanadan Milli Təhlükəsizlik naziri N.Abbasova yazdığı şikayət ərizəsi*

A.Qasımzadə Azərbaycan Dirçəliş partiyasının əsas yaradıcısıdır. 1989-cu ildə mayın 27-dən çıxan “Dirçəliş” qəzetinin ilk redaktoru, Dirçəliş Partiyasının “Soy”, “Dönüş” məcmuələrinin ilk saylarının redaktoru olub.

Bakıdakı 20 Yanvar faciəsinə həsr olunmuş “Aqressiya” (“Təcavüz”) A. Qasımzadənin (Mahir Həmzəyevlə birlikdə) redaktəsi ilə çap olunub.

A. Qasımzadə 1988-ci ildə əsası qoyulan Tərəqqi cəmiyyətinin əsas yaradıcılarından biri olub (Fuad Ağayev, Qalib Rəhimov, Tofiq Əhmədov ilə birlikdə). Tərəqqi cəmiyyəti fəaliyyətini dayandırdıqdan sonra A.Qasımzadə yaxın dostları ilə birlikdə çağdaş Azərbaycanda ilk siyasi partiya-

nın əsasını qoyur, ilk "Samizdat" nəşr olan "Dirçəliş"i nəşr edir.

1990-cı ilin yanvar faciələrindən sonra Sovet rejiminin vəhşiliyini və Azərbaycanda törətdiklərini ifşa etmək üçün A. Qasımzadə Sosial-Demokrat, Cümhuriyyət, Milli Müsavat partiyalarındakı fəallarla birgə Baltik respublikalarında, Ukraynada, Peterburqda, Moskvada, digər yerlərdə müxtəlif görüşlərdə olur, mitinqlərdə çıxış edir, radio-televiziyaya müsahibə verir, Azərbaycanı informasiya blokadasından çıxarmağa çalışırlar. A.Qasımzadənin ciddi fəallığı ilə Azərbaycan Xalq Dirçəliş partiyası 10 000 nüsxə ilə "Aqressiya" kitabçasını nəşr edib (kitabça1990-cı ilin yanvarın 25-də çapa imzalanmışdı. Ukrayna və Litvadakı azərbaycanlılar bu işə maddi dəstək vermişdilər). Bu kitabın nəşrindən Moskva DTK-sı ciddi narahat olmuşdu.

1990-cı ilin oktyabrından sonra siyasi partiyalar xalq diplomatiyası sahəsində fəaliyyəti gücləndirirlər. A.Qasımzadənin rəhbərliyində təmsil olunduğu Xalq Dirçəliş Partiyası (sonradan Birlik, Xalq demokratik partiyaları ilə birgə) Tatarıstan, Başqırdıstan, Orta Asiya, Qazaxıstan regionlarında müxtəlif partiyalar, cəmiyyətlər ilə birbaşa siyasi əlaqələr yaradırdılar. 1991-ci ilin aprelində Kazan şəhərində Türk Xalqları Assambleyasının yaradılması böyük hadisə oldu. A.Qasımzadə də həmin tədbirdə iştirak edirdi. Yəni A.Qasımzadə və məsləkdaşları beynəlxalq əlaqələri yalnız Türkiyəyə səfər edib münasibət yaradan bəzi hərəkatçılardan fərqlənirdilər.

Bundan əlavə A.Qasımzadə 1991-ci ilin yanvarında Alma-Atada Milli Həmrəylik meydanında keçirilən mitinqdə iştirak edib. Həmin mitinq Alaş Milli İstiqlaliyyət partiyasının fəallığı ilə keçirilib.

1991-ci ilin noyabrında Latviya Xalq Cəbhəsinin üç gün davam edən 4-cü konfransı keçirilib. Konfransda müxalifət qüvvələrini təmsil edənlərdən biri də Azər Qasımzadə olub.

A.Qasımzadə 1993-1994-cü illərdə əmanətçilərin hüquqlarını müdafiəyə başlamış və bu işinə görə 1 ildən çox həbsdə saxlanılıb.

A.Qasımzadə 2009-cu ildə vəfat edib.

---

***Qaynaq:***

*1. A.Qasımzadə. Yaxın tarixə qısa bir baxış.*
*"Səs" qəzeti, 11 iyun, 1992-ci il.*
*2. Həyat yoldaşı Aida Qasımzadənin şəxsi arxivi.*

## CÜMHURİYYƏT PARTİYASI
### (1989-CU İLDƏ - XALQ HƏRƏKATI DÖVÜRNDƏ YARADILMIŞ İKİNCİ SİYASİ PARTİYA)


***Cümhuriyyət Partiyasının yaradıcısı Emin Əhmədov*** *(arxada)*

Bu partiyanın adı bəzi mənbələrdə Cümhuriyyət, bəzi mənbələrdə (yəni onun əsas bülleteni olan "Açıq  Söz"də) Xalq Cümhuriyyəti Respublika Siyasi Partiyası olaraq qeyd edilir.

Bu, çağdaş Azərbaycanda yaradılmış sayca ikinci partiyadır (ilk partiya Azərbaycan Dirçəliş Partiyası olub). Partiyanın əsası 1989-cu ilin iyun ayında qoyulub və öz orqanı kimi "Açıq Söz" müstəqil press bülletenini yaradıb. Bülletenin ilk sayı 1989-cu ilin iyunun birinci yarısında nəşr edilib. Partiyanın əsası Emin Əhmədov tərəfindən qoyulub. Bu partiya Azərbaycanda gedən proseslərin respublikadan kənarda işıqlandırılmasında, SSRİ demokratları ilə əlaqələrin yaradılmasında (sosial-demokratların bu sahədəki fəaliyyəti inkaredilməzdir) böyük fəaliyyət göstərib.

"Açıq Söz" müstəqil press Bülleteninin 6-cı sayında Partiyanın bəyannaməsi və əsas sisyasi prinsipləri öz əksini tapıb.

### Xalq Cümhuriyyəti Respublika Siyasi Partiyasının Bəyannaməsi:

1. İnsan azad doğulur və heç elə bir ideologiya, elə bir sosial ideal yoxdur ki, ona bu azadlığın itirilməsinin əvəzini verə bilsin. İnsanın əzəli hüququ – şübhə etmək, axtarış aparmaq, yanılmaq hüququ, öz görüşlərini müdafiə etmək hüququdur. Kommunistlərin həqiqət, siyasi hakimiyyət, cəmiyyətin iqtisadi və mənəvi həyatı üzərindəki inhisarı vaxtı ilə zəngin olan respublikanı müflislik dərəcəsinə, xalqı  səfalətə, dünyada ən ulu mədəniyyətlərdən birini isə  mənəvi yoxsullaşmaya və yeknəsəqliyə gətirib çıxarmışdır.

Demokratik mədəniyyətin, geniş kütlələrin vətəndaşlıq özünü dərk etməkliyinin inkişafsızlığı 1920-ci il aprel çevrilişini mümkün etdi. Şəxsiyyətin suverenliyini yox edən, mülki cəmiyyəti dağıdan hakimiyyət üzərindəki inhisar gərək rəf edilə. Əks təqdirdə xalqı iqtisadi qəza, ideya-mənəvi tənəzzül, siyasi süqut nəticəsində ictimai fəlakətlər gözləyir.

2. Minlərlə qurban verilməsi göstərir ki, cəmiyyətin demokratik quruluşuna alternativ yoxdur.

Tam hökmranlıq sürən Kommunist partiyası xalqı faciəli səhvlər və cinayətlər yolu ilə aparırdı. "Cənnət"  naminə arasıkəsilməz zorakılıq təşkil edilmişdi. Rejim məsləklərinə görə nə qədər çox adamı təqib edir, işgəncə verir və məhv edirdisə, cəmiyyətin heç bir zorakılıq və qətl olmayan mərhələsinin tezliklə yaxınlaşması haqqında bir o qədər çox yalan deyirdi. Amma yalançılıq yolu belə cəmiyyəti məhvə  aparır.

Heç bir kəsin cəmiyyətin hansı yol ilə gedəcəyini xalqın əvəzinə qət etməyə haqqı yoxdur; yalnız xalq özü razılıq və azad iradə izharı əsasında bu yolu seçə bilər. Lakin xalq hakimiyyəti prinsipinin ideoloji uydurma (fiksiya) olmaması üçün insanlar gərək başqa bir ictimai quruluşun geniş təşviqatı üçün real imkana malik olsunlar. Məhz bununla – susdurma sisteminin olmaması ilə – demokratiya qüsurlu demokratik mərkəziyyətdən fərqlənir.

Biz daha sonrakı nəsillərin "xoşbəxt gələcəyi" ehkamları ilə yaşamaq istəmirik. Biz bu gün özümüzə və həmvətənlərimizə ləyaqətli həyat istəyirik və totalitar keçmişlə aranı qətiyyətlə kəsdiyimizi bildiririk.

3. Cəmiyyətin demokratik mərhələsinə çatmağı qarşımıza məqsəd qoyaraq biz müxtəlif siyasi məsləkli insanları – kommunist demokratlardan islam demokratlara qədər – birləşdirən Xalq Cümhuriyyəti Partiyasını yaradırıq. Bütün ideya fərqlərimizə baxmayaraq biz şəxsiyyətin azadlığının mütləq dəyər olduğuna inanırıq və plüralizm prinsipinə tərəfdarıq.

Demokratiya bizim üçün şüar və baş çağırış deyil. Siyasi, iqtisadi, mənəvi plüralizmə, azad mətbuatı və dövlətdən asılı olmayan həmkarlar ittifaqı olan çoxpartiyalı sistem üzərində təsis edilmiş ictimai quruluş forması və mahiyyətidir. Biz dövlətin partiyaya nisbəti və şəxsiyyətin hüquqlarının dövlətin mənafeyinə nisbətən üstünlük təşkil etməsi ideyası və prinsipinin tərəfdarıyıq.

Demokratiyaya aparan yol dövlətin ideologiyaya nisbətən müstəqil olmasından, hazırda hakim olan SOV. İKP ideologiyası ilə başqa ideologiya və nəzəriyyələrin hüquqlarının bərabərləşməsindən keçir.

4. Respublikanın radikal surətdə demokratik islahatı ideyasının lehinə çıxış edərək, biz öz fəaliyyətimizin məzmununu totalitar dövlət quruluşuna siyasi qarşıdurma kimi təyin edirik. Biz konfrontasiya naminə konfrontasiya axtarmırıq və dövlətlə ideya və mənəvi kompromissə getmədən səmərəli əməkdaşlıq etməkdən imtina edirik. Biz plüralizmin və humanizmin qarşısını almağa çalışan qüvvələrə qarşı qətiyyətlə mübarizə aparmağı özümüzə bilavasitə borc sayırıq və eyni zamanda öz mövqeyindən istifadə edərək sözdə yox, işdə demokratik islahatlar keçirməyə çalışan insanlara tərəfdar olduğumuzu bildiririk.

Bu gün həyata keçirilmiş cüzi dəyişikliklər keçmişin qayıtmayacağına zəmanət vermir. Əsas zəmanət – xalqın öz hüquqlarını dərk etməsi və onları müdafiə etməsi – həyata keçməkdən daha uzaqdır.

5. Demokratik oppozisiyanın mövcud olması – respublikanın intibahının şərhlərindən biridir.

Hökmran nomenklaturaya qulluq edən repressiv orqanların fiziki və mənəvi zorakılığına qarşı biz öz mənəvi və ideya müqavimətimizin bütün gücünü, işimizin haqlılığına inamımızı qoruyuruq.

Biz demokratik ideyalar və əqidələrə tərəfdar olan bütün digər qüvvələrlə əməkdaşlıq etməyə hazırıq. Biz hesab edirik ki, dövlət insanlara mənəvi, əxlaqi istiqamət göstərən dinə maneçilik törətməməlidir. Biz istəyirik ki, bizim respublika öz mənəviyyatının əzəməti sayəsində başqa dövlətlər arasında özünə layiq yer tutsun, bunu onun dahi humanistləri və maarifçiləri arzulayırdılar. Biz öz xalqımızın tükənməmiş qüvvəsinə və onun intibaha qadir olduğuna inanırıq!

---

***Qaynaq:***

*1. A.Qasımzadə. Yaxın tarixə dair bir baxış. "Səs" qəzeti, 11 iyun 1992-ci il.*

*2. "Açıq Söz". Müstəqil press bülleten, 1989-cu il, №6.*

## “AÇIQ SÖZ” BÜLLETENİ


АЧЫГ СӨЗ

МҮСТӘГИЛ ПРЕСС-БУЛЛЕТЕН

N 1

ҺАДИСӘЛӘР
ФАКТЛАР
КОММЕНТАРИЛӘР

БУЛЛЕТЕН МӘТБУАТ
МАТЕРИАЛЛАРЫНДА КЕДӘН
ИЗАҺЛАР ВӘ СИТАТЛАР ӘСАСЫНДА
ТӘРТИБ ОЛУНУР. ҺӘР НӨМРӘ ӘСАСӘН
ҺӘР-ҺАНСЫ БИР МҮҺҮМ МӘСӘЛӘЈӘ ҺӘСР
ОЛУНУР. БУЛЛЕТЕНИ БУРАХМАГДА ӘСАС МӘГСӘД
ОХУЧУЛАРЫН СИЈАСИ САВАДЫНЫ АРТЫРМАГДЫР. БУ МӘСӘЛӘНИН
ҺӘЛЛИНӘ НӘ ДӘРӘЧӘДӘ НАИЛ ОЛДУГУМУЗУ ЈАЛНЫЗ ОХУЧУЛАРЫМЫЗЫН
МҮҺАКИМӘСИНӘ ВЕРИРИК.

USSR АЗЕРБАЙДЖАНСКАЯ ССР
БАКУ-370001. ДО ВОСТРЕБОВАНИЯ
АХМЕДОВ ЭМИН

Буллетендә материал дәрч етдирмәкдә Азәрбајчан Халг чәбһәсинин үзвләринә вә дикәр ичтимаи тәшкилатлара үстүнлүк верилир.


АЧЫГ СӨЗ 6

МҮСТӘГИЛ ПРЕСС-БУЛЛЕТЕ

НӨМРӘДӘ:

ХАЛГ ЧҮМҺУРИЈЈӘТИ РЕСП. СИЈАСИ ПАРТИЈАСЫНЫН БӘЈАННАМӘСИ ВӘ ӘСАС СИЈАСИ ПРИНСИПЛӘР
ҺӘРБИ ХӘРЧЛӘР
Тәзә рубрика. ТАМАМИЛӘ МӘХВИ
1918-чи ИЛИН МАРТЫ...
ЧАРИ МӘСӘЛӘЛӘР
МЕМОРАНДУМ. ЛАЈИҺӘ

*“Açıq Söz” bülleteni*

Bu müstəqil press bülletenin ilk sayı 1989-cu ilin iyunun birinci yarısında çap edilib. Ümumilikdə 6 sayının çıxdığı qeyd olunur. Redaksiya məqaləsindən və ünvanından Emin Əhmədov tərəfindən nəşri məlum olur.

Bülletendə yerli xarakterli siyasi, ictimai, ekoloji, eləcə də mədəni həyatda baş verən hadisələr işıqlandırılıb.

Bülletenin SSRİ-nin ayrı-ayrı respublikalarında cərəyan edən hadisələrlə bağlı xarici mətbuatdakı məqalə və reportajlardan seçmələr də dərc olunub. Bülletendə ötən əsrin əvvəllərində Rusiyada, eləcə də Qafqazda cərəyan edən tarixi hadisələrlə bağlı gerçək faktlar, insan haqları ilə əlaqədar beynəlxalq hüquqi sənəd və normativlər də öz əksini tapıb. “Açıq Söz”də siyasi xarakterli lətifələr də dərc olunub.

Bülletendə reportaj rubrikasında “Berlin səddi” başlıqlı yazı verilib (“Açıq Söz”, 1989-cu il, N5). Bu reportajda Berlin səddi haqqında məlumat verilir. 160 km uzunluqda olan səddə 15 buraxılış məntəqəsinin olduğu göstərilir. Yazıda alman siyasətçilərinin bir fikrinə diqqət yönəldilir: “Divarlar yıxılsın”.

Bülletendə əvvəli 4-cü saydan başlayıb 5-ci sayda davam edən “siyasi portretlər” bölməsindəki yazı belə adlanır:“Stalinin əsabələrindən biri. A.

Mikoyan. İliçdən İliçədək ilişmədən...”. Burada uzun illər sovet rəhbərliyində yüksək vəzifələr tutmuş A. Mikoyan haqqında məlumatlar verilib. Yazının sonunda isə A. Mikoyanın xarakterini açıqlayan karikatura çəkilib. Karikaturada Leninin ayaqqabısını təmizləyən Mikoyanın rəsmi əks edilib. Sağda isə ayaqqabılarını təmizlətmək üçün növbəyə duran Stalin, Xruşşov, Brejnev dayanıb. Karikaturanın başlığında rusca “Bütün ayaqqabı növlərinin təmiri”, Azərbaycan dilində isə “Usta Anastas” yazılıb.

5-ci sayda “Cəllad” reportajı, “Saralmış səhifələr” başlığında Aleksandr Kerenskinin memuarları nəşr edilib. “Cari məsələlər” rubrikasındakı “Latviyadan xəbərlər”, “Faktlar” məlumatında isə 1935-1938-ci illərdə qırx min hərbi qulluqçunun repressiya qurbanı olduğu göstərilir. Son səhifədə “Əsgəri öldürmək” yazısı və 4 ədəd siyasi xarakterli karikatura verilib.

Bülletenin 6-cı sayında Xalq Cümhuriyyəti Respublika Siyasi partiyasının bəyannaməsi və əsas siyasi prinsiplər çap edilib. Bu sayda “Hərbi xərclər” yazısı, SOV. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin 13 yanvar 1989-cu il tarixli məktubu, Azərbaycandakı Psixiatriya müəssisələrinin siyahısı, “1918-ci ilin martı” yazısı, “Cari məsələlər” başlığında qısa məlumatlar, Cümhuriyyət partiyasının hazırladığı memorandum (layihə) çap olunub. Bülletenin sonunda “qiyməti 50 qəpik”, Bakı, 370001, tel: 94-27-29, Əhmədov Emin” ünvanı yazılıb. Sonda müəllifin belə məzmunda minnətdarlığı qeyd olunub: “Press Bülletenin buraxılışında əllərindən gələn köməyi əsirgəmədikləri üçün ayrı-ayrı şəxslərə və təşkilatlara minnətdarlığımı bildirirəm”.

Bülleten 11-12 səhifədən ibarətdir.

---

***Qaynaq:***


1. *“Açıq Söz” Bülleteni, №1, 1989-cu il.*
2. *“Açıq Söz” Bülleteni, №5, 1989-cu il.*
3. *Samizdat nəşrlərin kataloqu. Bakı, 2006.*


## ƏHMƏDOV EMİN MİDHƏT OĞLU

1947-ci ildə anadan olub. 1969-cu ildə Bakının Maştağa qəsəbəsindəki 10 saylı musiqi məktəbinin fortepiano sinfinə müəllim təyin olunub.

Asəf Zeynallı adına Musiqi Texnikumunu və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. O, bir müddət “Yaşıl Teatr”da direktor vəzifəsində çalışıb.E.Əhmədov pianinoda yüksək baçarıqla musiqi əsərləri ifa etmək istedadına malikdir.

Hazırda ABŞ-ın Kaliforniya ştatının Los-Ancelos şəhərində yaşayır.

## AZƏRBAYCAN SOSİAL DEMOKRAT PARTİYASI



*Araz Əlizadə*

Azərbaycan Sosial Demokrat Partiyası 1989-cu ildə təsis edilmiş, 27 iyul 1990-cı ildə dövlət qeydiyyatına alınmışdır. Partiyanın qurucusu Zərdüşt Əlizadə, sədri Araz Əlizadədir. Partiyanın ideologiyasının əsasında sosial-demokratik dəyərlərin cəmiyyətdə bərqərar olması durur. Partiya siyasi sistemdə solçuluq mövqeyini müdafiə edir. Üzvlərinin sayının 3000-ə yaxın olduğu bildirilir.

Şəhər və rayon təşkilatlarının sayı 40-a bərabərdir. Keçirilmiş qurultaylarının sayı 11, keçirilmə müddəti isə 5 ildən birdir. Son qurultayda 250 nəfər partiya üzvü iştirak edib.

Partiyada seçkili orqanlar həmsədrlər, sədr müavinləridir. Partiya üzvlərinin 35%-40%-ni gənclər, bir o qədərini də qadınlar təşkil edirlər.

### Bayrağı və emblemi

ASDP-nin simvolunun müəllifi partiyanın həmsədri Araz Əlizadədir. Simvol aypara, 8 guşəli ulduz və gül tutmuş əldən ibarətdir. A.Əlizadə deyir ki, aypara və 8 guşəli ulduz Azərbaycanın rəmzidir. Əldə tutulan gül isə bütün dünya sosialistlərinin – "Sosinter"inin əsas rəmzidir. Bunun da mənası insana məhəbbət deməkdir.

ASDP-nin bayrağı göy rəngdədir və üzərində qeyd edilən simvol öz əksini tapıb. A.Əlizadə bildirir ki, bəzən Azərbaycanda göy rəngi düzgün təsvir etmirlər: «Bizim bayraq mavi deyil, göy rəngdədir. Çünki Azərbaycanın bayrağı göy, qırmızı və yaşıldır. Amma bir sıra hallarda bu göy mavi rənglə əvəz olur.»

***Mənbə:***

*1. T.Allahyarova, F.Məmmədov. Azərbaycanda siyasi partiyalar: seçkidən seçkiyə. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: 2010, səh. 126-127.*

*2. https://az.wikipedia.org/.../Azərbaycan Sosial Demokrat Partiyası*

## AZƏRBAYCAN SOSİAL-DEMOKRAT QRUPUNUN NİZAMNAMƏSİ

ASDQ – özünü idarə edən, ictimai təşkilat olmaqla, könüllülük əsasında ictimai ədalət və demokratiya uğrunda mübarizə aparan sosial-demokratların birliyidir.

ASDQ üzvlərinin fəaliyyəti azad şəxsiyyət prinsipləri, ictimai ədalət, həmrəylik naminə, bərabərlik və insan hüquqlarının, millətlərin, xalqların müdafiəsinə təminat verən humanist məqsədlərə bağlıdır.

ASDQ Sosinternin XVIII Konqresində qəbul edilmiş (Stokholm, 20-22 iyun 1989-cu il) "Sosialist İnternasionalının prinsipləri bəyannaməsi" ilə tam razılaşaraq, ümumbəşəri keyfiyyətlərlə müəyyənləşdirilmiş, dinc üsullarla ardıcıl islahatların keçirilməsi prinsiplərinə sadiq qalmaqla öz Məramnamə məqsədləri üçün fəaliyyət göstərir.

ASDQ siyasi baxışlarda özünə yaxın İttifaq və beynəlxalq təşkilatları və partiyaları ilə münasibətlər və əlaqələr yaradır, kollektiv üzv kimi İttifaq Sosial-Demokrat Assosiasiyasına konfederativ əsaslarla daxil olur.

ASDQ Beynəlxalq Sosialst İnternasionalının işində (fəaliyyətində) iştirak edir, xalq demokratiyasının inkişaf etdirilməsinə tərəfdardır.

ASDQ-nin mövcud nizamnaməsi İttifaqda, o cümlədən, respublikada ictimai-iqtisadi, siyasi vəziyyəti nəzərə alaraq müəyyən hallarda demokratik mərkəziyyət prinsiplərilə qrupun fəaliyyətinin qurulmasını meyillər – gələcək mübarizənin mütəşəkkilliyini təmin etmək və hakim siyasi qüvvənin potensial imkanları qarşısında davam gətirmək məqsədi daşıyır və yaxın 5 il üçün tərtib edilmişdir.

Qeyd: Təşkilatın adı ilk dövrdə sənədlərdə Azərbaycan Sosial - Demokrat Qrupu yazılırdı.

## AZƏRBAYCAN SOSİAL-DEMOKRAT PARTİYASININ MƏRAMNAMƏSİ

ASDP-nin ana xətti ictimai inkişafın təbii mərhələlərini cəmiyyətimizin zorakılıq adətinə xilaf olaraq mümkün qədər təkamül yolu ilə keçməkdən ibarətdir. Sosial-demokratlar sosializm qurmaq məqsədini güdmür, onlar demokratik islahatlar üsulunu cəmiyyətə təlqin edib, bütün ictimai qrup və təbəqələrin mənafeyini nəzərə alan vətəndaş cəmiyyətinə çatmaqla, iqtisadi səmərəlilik ilə fərdin ictimai təminatı arasında münasib uyğunluq yaratmağa çalışırlar.

***Qaynaq:***

*1. Zərdüşt Əlizadənin şəxsi arxivindən.*

*Qeyd: Partiyanın ilk proqram və nizamnaməsi 1990-cı ildə hazırlanıb və qeydiyyata təqdim edilib.Yuxarıda proqram və nizamnamədən verilən hissələr 1990-cı ildəki sənəddən götürülüb.*

## "İSTİQLAL" QƏZETİ



Независимость, Свобода, Гуманизм

ИСТИГЛАЛ

Газета Азербайджанской Социал Демократической Партии

ЦЕНА 50 коп.

ФЕВРАЛЬ №1 1990

ЗАЯВЛЕНИЕ АСДП

В ночь с 19 на 20 января 1990 г. части Советской Армии, дислоцированные вокруг столицы Азербайджана — 2-х миллионного города Баку, начали операцию по внедрению в город. В 00 часов 20 января началось применение оружия против жителей, занявших по приказу НФА все дороги, ведущие в город. У Сальянских казарм солдаты открыли огонь по гражданскому населению, появились первые раненые и убитые. Итог событий у Сальянских казарм с утра — 13 убитых и десятки раненых. Наиболее результативно советские войны «поработали» в Баладжарах на аэропортовской дороге, у памятника оккупационной II Красной Армии и в др. местах. Давили танками людей и машины, в том числе машины скорой помощи. Сопротивления почти не было, т. к. бакинцы были в основном безоружны, имели только бутылки с бензином, ракетницы, дробовики.

Предварительный итог кровавой ночи — более 300 убитых и 700 раненых. Все больницы Баку забиты.

Оценивая происшедшее в ночь на 20-е, мы со всей ответственностью заявляем, что эти кровавые события — результат заранее спланированной совместной акции партийно-правительственных кругов Азербайджана и Армении под неизменным руководством Политбюро ЦК КПСС с непосредственным участием КГБ СССР.

Подготовка шла по двум направлениям:

1. Дестабилизация ситуации в республике. Дестабилизация ситуации в республике стала осуществляться еще в декабре 1989 г. событиями в Джалилабаде и Нахичевани. Эскалация армянских провокаций, законодательное оформление аннексии Арменией территории Азербайджанской ССР и вооруженные нападения армянских боевиков на азербайджанские села создали почву для националистического психоза. Как всегда, руководство республики, МВД и КГБ сделали вид; что погромы армян явились неожиданостью для них. В который раз по одному и тому же сценарию происходит в Армении и Азербайджане бесчеловечные акты погромов, убийства и депортаций, и каждый раз государственные органы обеих республик изображают из себя тупых учеников. Гнев народа против бесчеловечных руководителей был умело направлен в националистическое русло.

В течение недели союзное и мировое общественное мнение настраивали против азербайджанцев, как варваров, учинивших погромы над безоружным армянским населением Баку. Демократической общественности страны угрожали варварским Азербайджаном, который необходимо было подавить, чтобы спасти цивилизацию.

2. Дискредитация демократических методов борьбы в НФА и поощрения насилия со стороны руководства республики.

Наместники Москвы А. Везиров и В. Поляничко не оставили демократическим силам НФА никаких шансов на то, чтобы убедить народ в возможности мирных конституционных изменений. Любое справедливое требование народа, выраженное НФА, отвергалось, и только силовое давление заставляло ЦК КП Азербайджана выполнять его, что подтверждало аргумент так называемых «национал-демократов» внутри НФА в пользу эффективности насилия как единственного метода защиты прав народа.

Таким образом, доведя ситуацию до вооруженного конфликта, поставив безоружных людей на пути танков и бронетранспортеров, руководство страны в очередной раз применило армию против народа.

Красный фашизм, утвердивший свою власть на 1/6 суши путем насилия в октябре 1917 г., пять лет так называемой «перестройки» не изменил своей антинародной сущности, поменяв лишь тактику и форму уничтожения народов. В частности, от индивидуального террора перешли к массовому, от массовых лагерей смерти к массовым расстрелам на площадях и улицах советских городов. Михаил Горбачев показал себя достойным преемником вождей Коммунистической партии Советского Союза, фарисействующих от имени народа о демократии и приказывающих расстреливать народ во имя той же демократии.

20/I—90 г. БЮРО АСДП

Заявление АСДП было опубликовано в «Экспресс-хронике» /Москва/, Информационном бюллетене СДА /Ленинград/, в «Русской мысли» /Париж/, передано по каналам «Франс-Пресс» и «Ассошиэйтид Пресс», «Голос Америки».

(Рубрику ведет Лейла Юнусова)

АКТУАЛЬНАЯ ЦИТАТА

КАК МЫ ПРИШЛИ К 20 ЯНВАРЯ 1990 ГОДА

«Вооружив до зубов армян и начав вооружать азербайджанцев, им дадут возможность стрелять друг в друга сутки, от силы трое— далее введут войска Советской Армии, больше всего от этого пострадает Азербайджан, и в первую очередь мы потеряем все завоевания демократии»—из выступления на конференции НФ Лейлы Юнусовой в АН Азерб. ССР 30 декабря 1989 года.

«Я боюсь крови. Дестабилизация в республике, которая происходит сейчас у нас на глазах, чревата опасностью. Силы, спровоцировавшие события в Джалилабаде, работают не в интересах демократизации нашей жизни в республике. Создаются условия, чтобы мы вновь проводили выборы при комендантском часе под дулом автоматов. Сценарий известен.»—из выступления Зардушта Ализаде на конференции НФА 7 января 1990 года.

«Вы знаете, ЦК провонял казармой»—из выступления Зии Буниятова на общем собрании коллектива института востоковедения, 22 января 1990 года.

«В освободительном движении народа наряду с парламентскими методами должна литься и кровь»—из выступления Абульфаза Алиева на конференции НФА 7 января 1990 года.

"İstiqlal" qəzeti - AXC İdarə Heyətinin üzvləri Leyla Yunusova və Zərdüşt Əlizadənin bu təşkilatın sıralarından ayrıldıqdan sonra yaratdıqları Sosial- Demokrat partiyasının orqanı olub.

Qəzet 1990-cı ilin fevralından Azərbaycan Sosial Demokrat Partiyasının orqanı olaraq nəşr edilməyə başlayıb. Qəzetin əsas şüarı belə idi: "İstiqlaliyyət, azadlıq, humanizm". Qəzetdə Azərbaycan dili ilə yanaşı rus dilində də materiallar çap edilirdi. Qəzetin redaktoru Zərdüşt Əlizadə olub. "İstiqlal" 20 Yanvar

hadisələrindən sonra nəşrə başlayıb. O mənada Azərbaycanın informasiya mühasirəsindən çıxmasında qəzetin həmin dövrdə nəşr edilməsinin ciddi əhəmiyyəti var idi. "İstiqlal"da SSRİ-də baş verən ictimai-siyasi hadisələrə, Baltikyanı ölkələrdəki proseslərə geniş yer ayrılıb. Qəzetdə Zərdüşt Əlizadə, Leyla Yunusova, Fərda Əsədov, Rüstəm Seyidov, Fəxrəddin Ağayev kimi müəlliflər müxtəlif yazılarla çıxış ediblər. "Samizdat" kimi beş nömrəsi və vərəqə şəklində bir xüsusi buraxılışı nəşr olunan qəzet sonralar leqal fəaliyyətə keçib və 1998-ci ilə qədər nəşrini davam etdirib.

"İstiqlal"ın ilk saylarında belə mövzulara rast gəlmək mümkündür: 1) "İslam fundamentalizmi" qərəzsizlik baxımından" (№5,1990-cı il). Birinci səhifədə verilən bu yazı ikinci səhifədə davam edir. Məqalənin müəllifi fəlsəfə elmləri namizədi A. Məmmədovdur; 2) "Xalq inqilabı, qanlı əksinqilab" (№5, 1990). Bu yazı ikinci səhifədə, rus dilində verilib. Müəllifi Eldar Zeynalovdur; 3) "Kommunizmə eşq olsun!" №5, 1990). Üçüncü səhifədə rus dilində çap olunan bu yazının müəllifi Rüstəm Seyidovdur. Elə həmin səhifədə Zərdüşt Əlizadənin "Belə adamlara Siz necə baxırsınız?" məqaləsi nəşr edilib; 4) Qəzetin 4-cü səhifəsində isə Lətafət Bağırovanın "Qafqaz müsəlmanlarına açıq məktub"u çap olunub. Səhifənin sonunda "ASDP Məlumat Mərkəzində" başlığı altında xəbərlər yayımlanıb.

---

***Qaynaq:***
*"İstiqlal" qəzeti, 1990-cı il, №5.*

**Araz Əlizadə**

Araz Məmməd Mübariz oğlu Əlizadə 1951-ci il noyabrın 3-də Bakı şəhərində alim ailəsində doğulub. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. 1975-1976-cı illərdə Əfqanıstanda tərcüməçi işləyib. 1979-cu ildən Ukrayna SSR-nin paytaxtında Ukrayna Elmlər Akademiyası Tarix İnstitutunda kiçik elmi işçi işləmiş, eləcə də Kiyev Xarici Dillər Pedaqoji İnstitutunda dərs deyib.

1985-ci ildə siyasi baxışlarına görə mühakimə olunub. 1987-ci ildə Bakıya qayıdıb. 1988-ci ildə Dağlıq Qarabağ ətrafında münaqişə başlayanda bu problemin ədalətli həlli uğrunda siyasi mübarizəyə qatılıb.

1988-ci il mayın 16-da və 18-də Qarabağın müdafiəsi üçün Bakı şəhərində keçirilən ilk kütləvi mitinqlərin təşkilatçılarından olub. 1989-cu ildən Azərbaycan Sosial Demokrat partiyasının sədri, 1995-ci ildən 2012-ci ilə qədər ASDP-nin həmsədri, 2012-ci il iyunun 30-da keçirilən partiyanın XII qurultayında ASDP-də həmsədr institutu ləğv ediləndən və sədr institutu bərpa ediləndən sonra – sədridir. (Partiya 1989-cu il dekabrın 10-da Villi Brandtın Dostları Klubunun – 1970-ci illərin əvvəllərindən Azərbaycan Dövlət Universitetində A.Əlizadənin rəhbərliyi altında fəaliyyət göstərən təşkilatın – bazasında yaradılmışdır.)

1991-1995-ci illərdə Azərbaycan Ali Sovetinin deputatı seçilib. 1991-ci ildə Azərbaycan Respublikasının Respublika Müdafiə Şurasının üzvü olub. 1988-1991-ci illərdə SSRİ-də yaranan qeyri-formal demokratik təşkilatların fəal üzvü kimi oranın rəhbərliyinə daxil edilib.

---

***Qaynaq:***
https://az.wikipedia.org/wiki/Araz_Əlizadə

## AZƏRBAYCAN MİLLİ DEMOKRAT PARTİYASI – YENİ MÜSAVAT

Müsavat partiyasının yaranması ideyasını gerçəkləşdirən Birlik cəmiyyəti ətrafına toplaşanlar olub. 1989-cu ildən fəaliyyət göstərən cəmiyyət avqust ayından "Birlik" adlı dərgi də çıxarmağa başladı. Dərginin başlıca məqsədi müsavatçılığı yayıb təbliğ etmək idi. Birlik üzvləri M.Ə.Rəsulzadənin "Çağdaş Azərbaycan tarixi" əsərini kiril əlifbası ilə Tovuz mətbəəsində gizli olaraq 8 min nüsxə çap edib, xalq arasında yaymışdılar.

Birlik cəmiyyəti üzvləri arasında müsavatlaşmağa, ayrıca Müsavat təşkilatı yaratmağa meyl getdikcə güclənirdi. 1989-cu ilin oktyabrın 24-də partiyanın yaradılması ilə bağlı təsis yığıncağı keçirildi. Yığncaqda partiyanın adı Azərbaycan Milli Demokratik Yeni Müsavat partiyası (AMDP) adlandırıldı. Təsis yığıncağında partiyanın 1936-cı ildəki "Yeni Proqram Əsasları" müəyyən dəyişikliklə fəaliyyət proqramı kimi qəbul edildi. Partiyanın təsis yığıncağı keçirildikdən sonra təşkilatın yaradılması haqqında məlumatın 1989-cu ilin 29 oktyabrında Gəncədə keçiriləcək mitinqdə elan edilməsi qərara alındı.

1989-cu ilin oktyabrın 29-da Gəncədə böyük mitinq keçirildi. Partiyanın yaradılması haqqında Bəxtiyar Tuncayın oxuduğu bəyannamə yüksək coşğunluqla qarşılandı.

Bundan sonra Yeni müsavatçılar ciddi fəaliyyətə başladı. Gəncənin, Çaykəndin ermənilərdən təmizlənməsi uğrunda gedən döyüşlərdə üç müsavatçı şəhid oldu.

AMDP Yeni Müsavatın rəhbərliyi ümumi katiblik əsasında işləyirdi və aşağıdakı beş katiblə təmsil olunmuşdu: Əhməd Rza, Niyazi İbrahimli, Bəxtiyar Tuncay, Mənsur Əlisoy, Rauf Arifoğlu (Şenol).

1989-cu ilin dekabrından təşkilatın orqanı kimi "Yeni Müsavat" qəzetinin ilk sayı çapdan çıxdı (qəzet R. Arifoğlunun redaktorluğu ilə qeyri-rəsmi çap olunurdu).

Bundan əlavə, Yeni müsavatçılar Azərbaycan dilində "Yurdum" informasiya bülletenini, "Allahu Əkbər" qəzetini, rusca isə "Naş put" qəzetini nəşr edirdilər.



*Niyazi İbrahimli*

1990-cı ilin 20 Yanvar hadisələrindən sonra Yeni müsavatçılar fəallıq göstərir, sovet ordusunun qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırırdılar. Bununla bağlı bir neçə təşkilat üzvü İrana getmiş, "Azadlıq" radiosuna məlumatlar vermiş, video-kasetlər yaymışdılar.

1990-cı ilin fevralında Yeni müsavatçılardan biri Türkiyədə olmuş, mühacir müsavatçılara təşkilatın mövcudluğu haqqında ilkin məlumatı vermişdi.

1990-cı ilin Oktyabrın 5-dən 7-nə qədər Avropadakı Azərbaycan dərnəklərinin İstanbulda keçirilən qurultayında AMDP-Yeni Müsavat partiyanın katibləri – Niyazi İbrahimli, Mənsur Əlisoy və Əhməd Rza təmsil edirdi.

**Həmin qurultayda Mənsur Əlisoya Azərbaycan milli azadlıq hərəkatında fəal iştirakına və yanvarın 20-də yaralandığına görə "Qazi" fəxri adı verildi.**



*Nəsib Nəsibli*

Qurultayda  AMDP Yeni Müsavatın katibləri Məhəmməd Kəngərli, Əhməd Qaraca və Cəmil Ünalla görüşdülər. Onlar da Müsavat adlı (Yeni Müsavat yox) partiyanın yaradılmasına razılıq verdilər.

1989-1990-cı illərdə yaranan partiyalardan fərqli olaraq AMDP-Yeni Müsavatın bir çox rayonlarda özəkləri var idi: Naxçıvan Muxtar Respublikası təşkilatının sədri Fəxrəddin Qasımov, Naxçıvan şəhər təşkilatının sədri Vaqif bəy, Şərur rayon təşkilatının sədri Əjdər Cəfərbəyli, Culfa rayon təşkilatının sədri Qasım Qasımov, Beyləqan rayon təşkilatının sədri Tapdıq Abbas, Gəncə şəhər təşkilatının sədri Rasim Mürsəlov (vəfat edib). Naxçıvanda Əsgər Qəlioğlu da təşkilata ciddi dəstək verirdi.

1989-cu ilin dekabrında Elektron-Hesablama Maşınları zavodunda AMDP-Yeni Müsavatın özəyi yarandı (qeyd edək ki, 1990-cı ilin 20 Yanvar hadisələrindən AXC üzvləri Leninin həmin zavodda qoyulmuş heykə-

lini sındırıb zibilliyə tullamışdılar).

Yeni müsavatçılar ciddi təşkilatlanma ilə yanaşı, müsavatçılıq ideyalarının, müsavat ideoloqlarının, liderlərinin əsərlərinin nəşri, təbliği ilə də məşğul olurdu. "Yeni Müsavat" qəzetində M.Ə.Rəsulzadənin "Milli əxlaq", "Azərbaycan Cümhuriyyəti", C.Ünalın "Türk və İslam aləmində Azərbaycanın yeri", Ə.Qaracanın "Qurtuluşun 60-cı ildönümü: qəhrəman Məhmətcik paytaxt Bakını kommunistlərdən xilas etmişdir" kimi əsərləri, M. Kəngərlinin yazıları çap olunur, xalqa istiqlal tariximizlə bağlı bilgilər verilirdi.



*Oturanlardan sağdan ikinci **Musavat qurucularından Əziz Qaraca***

1990-cı ilin iyunun 29-da Gəncədə AMDP Yeni Müsavatın qurultay səlahiyyətli I konfransı keçirildi. Konfransda 13 təşkilatdan 100-ə qədər nümayəndə iştirak edirdi. Toplantıda əsas olaraq ictimai-siyasi vəziyyət müzakirə edildi.

Bu dövrdə mühacirətdəki müsavatçılarla da əlaqə qurulmuş və partiya rəhbərliyi səlahiyyətləri daxilində N.İbrahimli, M.Əlisoy və Ə.Rza tərəfindən danışıqlar aparılmışdı.

1990-cı ilin dekabrın 21-də Bakıda AMDP Yeni Müsavatın Baş Şurasının iclasında partiyanın adının dəyişilməsi məsələsinə baxılmış və Katiblər Şurası Baş Şurada təkliflə çıxış etmişdir. Baş Şura qərara almışdır: "1. AMDP Yeni Müsavatın Nizamnamə və Məramnaməsində dəyişikliklər etmək üçün redaksiya komissiyası yaradılsın. 2. Partiya Azərbaycan Milli Müsavat partiyası adlandırılsın və bu qərar növbəti qurultayın təsdiqinə verilsin".

1991-ci ildə Gəncədə AMDP Yeni Müsavatın I Qurultayı keçirildi.

Qurultay gündəlik üzrə müvafiq qərarlar qəbul etdi. Partiyanın adı Azərbaycan Milli Müsavat partiyası kimi təsdiq edildi.

Partiyanın Mərkəzi İcraiyyə Komitəsinin 7 nəfər üzvü müəyyənləşdi, Nəsib Nəsibzadə Mərkəzi İcraiyyə Komitəsinin sədri seçildi.

Mühacirətdəki müsavatçılarla Müsavatın Azərbaycana qaytarılması ilə bağlı danışıqlar davam edirdi. Bu aralarda Bakıya gələn Milli Müsa-


AZERBAYCAN MİLLÎ MERKEZİ
1924 - İSTANBUL
NATIONAL CENTER OF AZERBAIJAN

AZERBAYCAN MİLLİ " MÜSAVAT " HALK PARTİSİ
MERKEZ KOMİTESİ BAŞKANLIK DİVANININ KARARI

1-. " MÜSAVAT " PARTİSİ BAŞKANLIK DİVANI, 10 Ekim 1991 tarihinde yapmış olduğu III. Olağanüstü Toplantısında, 71 seneden beri Muhacerette aralıksız olarak, Milli Bağımsızlık Hareketine önderlik eden " Müsavat " ın , 80 ci kuruluş yıldönümü münasebetiyle Siyasi faaliyetlerine Resmen Aktif bir surette Anavatan Azerbaycanda yeniden başlamasınd ve amaçla Ülke çapında Teşkilatlanmasına KARAR vermiştir.

2-. Birinci Maddedeki Kararın ışığı altında " Müsavat " ın, Azerbaycanda Resmen yeniden kurulması, teşkilatlanması, Ülke sathına yayılması ve Azerbaycanın Siyasi Hayatındaki yerini alabilmesi Amaçıyla, ekli listede kimlikleri yazılı şahısların Kurucu Üyeler olarak Tasvibine, Divanın 21 Mart 1992 tarihindeki 12 Sayılı OTURUMUNDA KARAR vermiştir.

3-. İkinci Maddedeki Kararın hayata geçrilerek, gerçekleşebilmesi için, uyğulamaya koymak üzere, Sayın Nesib Nesibzade'ye tam Yetki verilmiştir.

4-. " Müsavat " Partisinin, İkinci Maddede bahsedilen Ekli listedeki Kurucu Üyeleri, Partinin yeniden kuruluş tarihi olarak, 28 Mayıs 1992 tarihini tercih etmeleri, siyasi görüş ve Bağımsızlık Mücadelemizin Temel Felsefesine uyğun düşecektir.

Azerbaycanda " Müsavat " ın, yeniden Resmen kuruluşu aynı gün hem Bakü'de, hem de Ankarada yapılacak olan geniş kapsamlı bir BASIN TOPLANTISI ile, bütün dünyaya ILAN edilecektir.

5-. " Müsavat " Partisinin yeniden berpasını takip eden Beş gün içinde, Parti kurucuları kendi aralarında vazife BÖLÜMÜ yaparak durumu , seçimi müteakip 21 gün içersinde Divana bildirecektir.

Bu Resmi formaliteler tamamlandıktan sonra, Azerbaycan Cumhuriyetinde " Müsavat " Partisini, Divanın politikası ile uyum içerisinde Temsil etme Selahiyet ve HUKUKUNA sahip olacaktır.

Her Türlü idari, sosyal, teşkilatlanma, mali kaynak temini, sarfetme yetkisine ve benzeri milli kuruluşlarla ilişki kurma selahiyetini haiz olacaktır. Ancak, dış ilişkilerle, Milli Politikaların tesbitinde Divanın görüş ve tavsiyelerine önem verilecek, Parti politikası stratejinin tesbiti ve uyğulamalarındaki Yöntem ve taktiklerde Divanın tecrübelerinden yararlanılacaktır.

6-. " Müsavat " Partisinin III.cü Olağan Genel Kurultayı çağrılıncaya kadar, Partinin yeniden İHYASI ile ilgili bütün meselelerde Kurucu Yöneticilere Parti Divanınca Fevkalade Selahiyetler ve IMZA yetkisi verilmiştir.

5. Cad. 15 - 15 Bahçelievler - ANKARA Tel : 213 61 47

***Mühacirətdəki Milli Mərkəzin Musavatın Azərbaycanda fəaliyyətinə razılıq sənədi, 1992-ci il***

vat Xalq partiyasının Baş katibi Əhməd Qaraca Milli Müsavat partiyası rəhbərliyi ilə AXC qərargahında Baş Şuranın toplantısını keçirmiş (Baş Şuranın sədri Sədrəddin İsmayılov idi), partiyanı Azərbaycana qaytarmaq istədiklərini bildirmişdi. Razılaşdırılmışdı ki, ilk öncə bir Bərpa Mərkəzi qurulsun və burada olacaq şəxslərin siyahısı bildirilsin.

Buna uyğun surətdə Türkiyədəki Azərbaycan Milli Müsavat Xalq partiyası Mərkəzi Komitəsi Başqanlıq Divanı qərara almışdı:

1. Müsavat partiyası Başqanlıq Divanı, 10 iyul 1991-ci il tarixdə keçirmiş olduğu toplantıda 71 ildən bəri mühacirətdə fasiləsiz olaraq milli bağımsızlıq hərəkatına öndərlik edən Müsavatın 80-ci quruluş ildönümü münasibəti ilə, siyasi fəaliyyətlərinə rəsmən fəal bir surətdə Ana Vətən Azərbaycanda yenidən başlamasına və bu qayda ilə ölkədə təşkilatlanmasına qərar vermişdir.

2. Birinci maddədəki qərarın işığı altında Müsavatın Azərbaycanda rəsmən yenidən qurulması, təşkilatlanması, yayılması və Azərbaycanın siyasi həyatındakı yerini ala bilməsi istəyi ilə, siyahıda adları yazılı şəxslərin Qurucu Üzvlər ola-


AZERBAYCAN MİLLÎ MERKEZİ
1924 - İSTANBUL
NATIONAL CENTER OF AZERBAIJAN

AZERBAYCAN MİLLİ " MÜSAVAT " HALK PARTİSİNİN, AZERBAYCANDA YENİDEN KURULARAK TEŞKİLATLANMASINDA KURUCU ÜYE OLARAK DİVANCA KABÜL EDİLEN ŞAHISLARIN İSİMLERİ AŞAĞIDADIR .

Abbas Abdulla, " Ulduz " Dergisinin Baş Redaktörü, Şair
Ağamalı Sadık ," Muhallifet " Gazetesi Baş Redaktörü, Şair
Aydın Balayev, Akademi Emektaşı,Tarih İlimleri Adayı
Arif Hacıyev , Milletvekili, AHC Ali Meclisinin Başkanı
Vurgun Eyyubov, Pedagoji Üniversitesi Doçenti, Filologiya İlimleri Adayı
İbrahim İbrahimov, Milletvekili
İsa Kemberov, Milletvekili
İsmail Şıhlı, Milletvekili, Yazar
Meryem Hesenova, Milletvekili, Öğretmen
Mürşüd Memmedov, Milletvekili, Doçent
Nesib Nesibzade, Akademi Emektaşı, Tarih İlimleri Adayı
Niyazi İbrahimli, AHC Başkan Yardımcısı, Tarihçi
Rafik İsmailov, Bakü Üniversitesi Doçenti, Tarih İlimleri Adayı
Rauf Şenol, " Yeni Müsavat " Gazetesinin Redaktörü
Rizvan Hüseyinov, Mühendis-Geolog
Sabit Bağırov, Mühendis, Teknik İlimleri Adayı
Sedreddin İsmailov, Öğretmen
Tofik Kasımov, Milletvekili, Fizik-Matematik İlimleri Adayı
Yusif Semedoğlu, Milletvekili, Yazar
Şövket Tağıyeva, İlimler Akademisinin Emektaşı, Tarih İlimleri Doktoru
İhtiyar Şirinov, Milletvekili, Hukukcu

YUKARIDA İSİMLERİ YAZALI ŞAHISLAR,KURUCU ÜYE OLARAK DİVANIN 10.EKİM 1991 GÜNI TOPLANTISINDA ALINAN KARARA DAYANARAK- 21MART 1992 TARİHİNDE YAPILAN OTURUMUNDA KARAR ALTINA ALINMIŞTIR.
( İsim listesi, Azerbaycandan alınan sıralamaya göre tertip edilmiştir )
-Yazılış Tarihi : 20.4.1992- Ankara , Türkiye )
Tasdik Olunur.

***Bərpa Mərkəzinin üzvləri***

raq təsvibinə, Divanın 21 mart 1992-ci il tarixdəki 12 saylı iclasında qərar vermişdir.

3. İkinci maddədəki qərarın həyata keçirilərək, gerçəkləşə bilməsi üçün sayın Nəsib Nəsibzadəyə tam yetki verilmişdir.

4. Müsavat partiyasının ikinci maddədə bəhs edilən siyahıdakı Qurucu Üzvləri, Partiyanın yenidən quruluş tarixi olaraq 28 Mayıs 1992-ci il tarixini qəbul etmələri, siyasi görüş və Bağımsızlıq mücadiləmizin Təməl Fəlsəfəsinə uyğun düşəcəkdir. Azərbaycanda Müsavatın yenidən rəsmən quruluşu  eyni gün həm Bakıda, həm də Ankarada yapılacaq olan geniş bir mətbuat toplantısı ilə bütün dünyaya elan ediləcəkdir.

5. Müsavat partiyasının yenidən bərpasını təqib edən beş gün içində partiya qurucuları öz aralarında vəzifə bölümü yaparaq, durumu, seçimi 21 gün içərisində Divana bildiriləcəkdir. Bu rəsmi işlər tamamlandıqdan sonra Azərbaycan Cümhuriyyətində Müsavat Partiyası Divanın uyum içərisində təmsil etmə səlahiyyət və hüququna sahib olacaqdır. Hər türlü idarə, sosial təşkilatlanma, maliyyə qaynaq təmini, sərfetmə yetkisinə və bənzəri milli quruluşlarla əlaqə qurmaq səlahiyyətində olacaqdır. Ancaq xarici ilişgilərlə, milli siyasətin təsbitində Divanın görüş və tövsiyyələrinə önəm veriləcək, partiya siyasəti strategiyasının təsbit və uyğulamalarındakı istiqamət və taktikalarda Divanın təcrübələrindən yararlanacaqdır.

6. Müsavat Partiyasının III Bərpa Baş Qurultayı çağırılıncaya qədər, partiyanın yenidən bərpası ilə ilgili bütün məsələlərdə Qurucu Yönətimçilərə Partiya Divanınca Fövqəladə səlahiyyətlər və İmza yetkisi verilmişdir.

7. Bərpa Mərkəzi və Məhəlli Təşkilatlar Partiyanın Nizamına bağlı qalacaqdır.

8. Azərbaycan Milli Müsavat Xalq Partiyası Mərkəzi Komitəsi Başqanlıq Divanı bu çətin, fəqət çətin olduğu qədər şərəfli bir vəzifədə olan bu Milli-Siyasi sorumluluğu yüklənərək, Ulu Öndər M.Ə.Rəsulzadənin Siyasi Şurasına sahib çıxan dəyərli Gənc Qurucülara Təqdirini bəyan edir, bu yolda başarılı olacaqlarına inancını bildirir".

1992-ci ilin iyunun 28-də Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə də məsləhətləşmədən sonra Azərbaycan Milli Müsavat partiyasının Bərpa Mərkəzi yaradıldı.

1992-ci ilin 7 noyabrında Bakıda Respublika Sarayında Müsavat partiyasının III tarixi Bərpa Qurultayı keçirildi.

Qurultayda İsa Qəmbər partiyanın Başqanı seçildi.

***Qaynaq:***

*1. N.Yaqublu. Müsavat Partiyasının tarixi. B. 1997.*

*2. Azərbaycan Kültür Dərnəyinin arxivi. Ankara.*

*3. Rauf Arifoğlunun şəxsi arxivi.*

*4. Əhməd Rzanın şəxsi arxivi.*

## AZƏRBAYCAN MİLLİ DEMOKRAT PARTİYASI – YENİ MÜSAVATIN PROQRAMI

Partiyanın proqramında qeyd edilirdi ki, Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavat respublikanın siyasi və iqtisadi müstəqilliyi uğrunda uzun müddət fərdi və qrup şəklində mübarizə aparan Vətənsevərlərin 1989-cu ilin payızında vahid siyasi təşkilatda birləşmək arzusundan yaranmışdır.



АЗӘРБАЈЧАН МИЛЛИ ДЕМОКРАТ ПАРТИЈАСЫ "ЈЕНИ МҮСАВАТ"ЫН

Н И З А М Н А М Ә С И

Азәрбајҹан Милли Демократ Партијасы "Јени Мүсават" өз сыраларында Азәрбајҹан әразисиндә јашајан, өзләрини ваһид Азәрбајҹан халгынын тәркиб һиссәси һесаб едән, Азәри түркҹәсиндә данышан милләтләрин нүмајәндәләрини бирләшдирән сијаси тәшкилатдыр. АМДП "Јени Мүсават" өз фәалијјәтиндә парламент мүбаризә формасы илә јанашы, дикәр сијаси мүбаризә формаларыны да (митинг, нүмајиш, тә"тил вә с.) тәрәфдарыдыр.

I. АМДП "Јени Мүсават" үзвләринин вәзифә вә һүгуглары.

Партијаја гәбул (харичолма)

АМДП Јени Мүсават"а үзвлүк фәрди принсип әсасында гурулур. АМДП-нин Мәрамнамә вә Низамнамәсини гәбул едән, јерли тәшкилатлардан биринин ишиндә билаваситә иштирак едән, үзвлүк һаггыны вахтында едәјән, 18 јашына чатмыш һәр бир шәхс (јашадыгы јердән асылы олмајараг) партијаја дахил ола биләр.

Партијанын һәгиги үзвләри, үзвлүјә намизәдләри вә тәрәфдарлары вардыр. Һәгиги үзвлүјә гәбулдан әввәл үч ајлыг намизәдлик мүддәти нәзәрдә тутулур. Һәгиги үзвлүјә гәбул вахты ики, намизәдлијә исә бир нәфәр "Јени Мүсават"чынын, протокола гејд олунмагла, шифаһи зәманәти лазымдыр. Јени үзв өзүнү партија сыраларында доғрултмаса, зәманәт верән үзв мәс'улијјәт дашыјыр.

Партијаја гәбул вә харичолма мәсәләләри јерли партија тәшкилатынын јығынҹағында ади сәс чохлугу илә һәлл олунур.

Партијанын үзвләринә, намизәдләри вә тәрәфдарлары ичласларда јалныз мәшвәрәтчи сәслә иштирак едә биләрләр. Һәгиги

***Partiyanın ilk nizamnaməsi***

Partiyanın Proqramı isə 1990-cı ilin iyunun 29-da keçirilən Təsis Konfransında qəbul edilmişdir.

Partiyanın 1991-ci ilin noyabrın 25-də Gəncədə keçirilən I qurultayında isə Nəsib Nəsibzadə İcraiyyə Komitəsinin sədri seçildi.

Partiya proqramında qeyd edilirdi ki, AMDP Yeni Müsavat sözdə, fikirdə, işdə birlik prinsipi əsasında fəaliyyət göstərir, vahid və müstəqil Azərbaycan uğrunda mübarizə aparır, siyasi platforma kimi "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyalarının sintezini qəbul edir. Partiya Azərbaycanda demokratik düşüncə və həyat tərzinin bərqərar

olmasına çalışır, respublika vətəndaşlarının iqtisadi, siyasi, mədəni hüquqlarının yaradılmasına səy göstərir.

AMDP Yeni Müsavat öz siyasi fəaliyyətində aşağıdakı ideya və prinsipləri əsas götürürdü:

1. AMDP Yeni Müsavat Rusiya imperiyası ilə İran dövləti arasında bağlanmış və vahid Azərbaycan xalqını zorla iki hissəyə bölmüş 1813 və 1828-ci il müqavilələrini rədd edir: hər iki Azərbaycan arasında iqtisadi-siyasi, mədəni və mənəvi əlaqələrin bərpasını qarşıya məqsəd qoyur, sərhəd rejiminin götürülməsini, sərbəst gediş-gəlişin təmin edilməsini tələb edir.

2. Müsavatçılıq böyük türk mədəniyyəti ilə bağlı olan mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət, istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir.

3. Türk dünyasına mənsub olan Azərbaycanın digər türk elləri ilə mədəni surətdə bağlılığı: ortaq türk mədəni dəyərlərini qoruyan müəssisələrin (institutların) təşkil edilməsi.

4. AMDP Yeni Müsavat bütün türk dünyasının ortaq malı olan ədəbi türkcənin tətbiq və qəbuluna çalışır.

5. Sözdə özünü vətənsevər, xalqın mənafe keşiyində dayandığını bəyan edən, əslində isə Kremlin canişinliyini respublikada qoruyub saxlamağa çalışan kommunist ideologiyasına qarşı demokratik vahid bir blokda çıxış etmək.

6. SSRİ-də və bütün dünyada milli istiqlaliyyət və insan hüquqları uğrunda gedən mübarizə ilə siyasi həmrəylik.

7. Tarixi müqəddəratları bizimlə ortaq olan Qafqaz qonşularımızla dərin köklərə malik siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin qorunub saxlanması, inteqrasiyası, Azərbaycanla birgə Qafqazın müstəqilliyi və suverenliyi uğrunda mübarizə, azad Qafqaz Konfederasiyası.

8. Müsavatçılıq, cəmiyyəti düşmən qütblərə bölən antoqonist sinfi mübarizə nəzəriyyələrinə qarşı çıxır, zümrə hakimiyyətini rədd edir, fərdi azadlıq, xüsusi təşəbbüskarlığı və mülkiyyətin toxunulmazlığını qəbul edir. Cəmiyyətdə azad və dinc ideya, iqtisadi rəqabəti himayə edir. Milli birlik və həmrəyliyə əsaslanan, cəmiyyətdə gedən dəyişiklikləri öz qurumları və qanunlarında daim əks etdirən milli dövlətçilik konsepsiyasının tərəfdarıdır.

---

***Qaynaq:***

*Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavatın proqram və nizamnaməsi. Gəncə, 1990.*

## YENİ MÜSAVAT PARTİYASININ QURULMASI İDEYASININ MÜƏLLİFİ –ƏHMƏD RZA



*Əhməd Rza*

R.Arifoğlunun verdiyi məlumata görə, Yeni Müsavat partiyasının yaradılması ideyası Əhməd Rzaya məxsusdur, ideyanın müəllifi odur(Ə.Rza özü də söhbətdə bu faktı təsdiqlədi). Əvvəl fikir belə olub ki, təşkilata rəhbərlik Məhəmməd Hatəmiyə tapşırılsın. Lakin Hatəmi buna razılıq verməmişdi. 1989-cu ilin oktyabrın 10-da Gəncədə təşkilatın yaradıldığı elan olundu. Nəsib Nəsibzadə ilk dövrdə İcraiyyə Komitəsinə rəhbərlik etməyə razılaşmasa da sonradan bu problem həll edildi.

Ə.Rza 1948-ci ildə Yevlax rayonunda doğulub. 1969-1973-cü illərdə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində oxuyub. 1974-1979-cu illəri Lelinqrad (indiki Sankt-Peterburq) Ali Rəssamlıq məktəbini bitirib. 1989-cu ilin payızına qədər Y.Səmədoğlu, L.Yunusova, O.Mirqasimovla birgə Beynəlxalq İnsan Hüquqları komitəsində aktiv rol oynayıb. 1989-cu ilin payızında B.Tuncay, N.İbrahimov, M.Hatəmi və M.Əlisoy ilə birgə Partiya qurmaqla əlaqədar toplantılarda fəallıq göstərib. 1989-cu ildə Gəncə mitinqində AMDP Yeni Musavat Partiyasının qurulmasını bəyan edənlərdən olub. 1990-cı il yanvar ayının başlanğıcında Vilnus şəhərində Antikomunizm Konqresində iştirak edib. Çaykənd aksiyası ilə bağlı Gəncə mitinqlərini 20 yanvar hadisəsinə kimi o aparıb. Gəncəyə Sovet ordusu yeridilməsinin qarşısını alan mücahidlərdən olub və bundan sonra Biləsuvardan İrana mühacirət edib. 1995-ci il dekabrından Türkiyənin İstanbul şəhərində yaşayır.

## MÜSAVAT QURUCULARINDAN MƏNSUR ƏLİYEV (ƏLİSOY) (1933- 2005)

Mənsur Əliyev (Əlisoy) – Birlik cəmiyyətinin və Müsavatın fəallarındandır. 1933-cü ildə Lənkəranda anadan olub. Bakı Dövlət Universitetində

(o zaman ADU) oxuyub. İxtisasca tarixçi olub. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda “Din və ictimai fikir” tarixi şöbəsinin böyük elmi işçisi olaraq çalışıb. Fəlsəfə elmləri namizədi olan M.Əliyev 2005-ci ilin fevralında vəfat edib.

***Qaynaq:***
*Müəllifin şəxsi arxivindən*



***Mənsur Əlisoy***

## MÜSAVAT MƏTBUATI

## RAUF ARİFOĞLUNUN NƏŞRLƏRİ




***“Yeni Müsavat”ın ilk sayı***

**“Yeni Müsavat” dərgisi (qəzeti) -** Azərbaycan Milli Demokrat (Yeni Müsavat) partiyasının orqanı olan “Yeni Müsavat”ın ilk sayı 1989-cu ilin noyabrın 10-da çıxdı. “Qurtuluş” nəşriyyatında nəşr edilən bu dərgi ümumilikdə 27 səhifədən ibarət idi (qeyd edək ki, bu dərgi sonradan qəzet olaraq yayınlandı). Dərginin 1-ci sayında redaktor və əməkdaşlar haqqında məlumat verilməyib. Yalnız “Həzrət Əlinin öyüd-nəsihətləri” başlıqlı yazıda Mənsur Əlisoyun imzasına rast gəlirik. 1-ci sayda AMDP Yeni Müsavatın bəyannaməsi, nizamnaməsi və proqram əsasları verilib.

Bu sayda M.Ə.Rəsulzadənin “Azərbaycan Kültür kələnəkləri (ənənələri)” adlı əsəri də çap olunub. Dərgidə Mahmud Rəcəbi, Mahmud Mehdi və Əkbər Mirsiyahın “İslamın ideoloji üsulu” yazısı nəşr edilib.

***Qeyd:*** bu dərgi Partiyanın ümumi rəhbərliyi ilə nəşr edilib və yalnız bir sayı çıxıb. Dərgi sonradan R.Arifoğlunun redaktorluğu ilə qəzet olaraq yayınlanmağa başladı.




*“Müsavat” jurnalı*

**“Müsavat” jurnalı** – Azərbaycan Milli Demokrat (Yeni Müsavat) Partiyası Ağdaş rayon özəyinin orqanı olub. 1990-cı ildə “Qurtuluş” nəşriyyatında “türkləşmək, islamlaşmaq, müasirləşmək” şüarı ilə çap olunub. Jurnalın adı üz qabığında kiril, latın və ərəb qrafikasında yazılıb. Dərgidə partiya xəbərləri, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, ötən əsrdə Qafqazda cərəyan edən ictimai-siyasi proseslər haqqında məlumatlar verilib.

**“Türk Yurdu” qəzeti** – AMDP-nin Naxçıvan Komitəsinin orqanı olub. 1990-cı ildə “Türkləşmək, müasirləşmək, islamlaşmaq!” şüarı ilə çapdan çıxıb. Redaksiya Heyəti üzvlərinin hamısı çox güman ki, gizlilik məqsədi ilə “Turan” təxəllüsü ilə təqdim olunub. Türkçülük ideologiyasını təbliğ edən qəzet daha çox türk xalqlarının ümumi əlifbasının vacibliyi məsələsinə də diqqət ayırıb.


Türkleşmek, muasirleşmek, islamlaşmag!

TÜRK YURDU

AMDP Naxçıvan komitesinin orqanı

IYUL 1990 №1(001)

БИР КӘРӘ ЈҮКСӘЛӘН БАЈРАГ БИР ДАҺА ЕНМӘЗ!
М.Ә.Рәсулзадә.

ӨЗ МИЛЛИ МӘНСУБИЈЈӘТИНИ ДӘРК ЕТМӘЈӘН МИЛЛӘТЛӘР БАШГА МИЛЛӘТЛӘРӘ ЈЕМ ОЛАЧАГДЫР.
Мустафа Камал Ататүрк

БИЗ ӨЛҮМӘ „ХОШ ҜӘЛДИН“ ДЕДИК, ДАР АҒАЧЫНА „САЛАМ“ ВЕРДИК, АЗАДЛЫҒЫМЫЗ, БИРЛИЈИМИЗ ЈОЛУНДА!

„БАҒЫШЛАЈЫН, ӘЗИЗЛӘРИМ. АЗӘРБАЈҸАНЫН АЗАДЛЫҒЫ УҒРУНДА МҮБАРИЗӘ АПАРМАҒА ҜҮҸҮМ ВӘ ИРАДӘМ ЧАТМАДЫ

DARAĞACI

ЈАШАСЫН АЗАД АЗӘРБАЈҸАН!

Азәрбајҹан Милли Демократ Партијасынын Нахчыван Комитәсинин Бәјанаты

Редаксијадан

*“Türk Yurdu” qəzeti*

## “YURDUM” XƏBƏRLƏR BÜLLETENİ

**“Yurdum” Xəbərlər bülleteni -** Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavatın orqanı olub. 1989-cu ildə çap olunduğu ehtimal edilir. Bülletendə AMDP Yeni Müsavatın müraciət və bəyanatları, iclas və konfransların xronikası verilib.


АЗӘРБАЈҸАН МИЛЛИ ДЕМОКРАТ „ЈЕНИ МУСАВАТ" ПАРТИЈАСЫ

YURDUM

ЈУРДУМ

XII.1989

№1

ХӘБӘРЛӘР БУЛЛЕТЕНИ

ГИЈМӘТИ 1 МАН.

СӘРҺӘДЛӘРДӘ ТӘКУЛӘН ГАНЛАР

*“Yurdum” xəbərlər bülleteni*

Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavatın “Yurdum” xəbərləri bülleteninin ilk sayı 1989-cu ilin dekabrın əvvəllərində nəşr edilib. Bülletenin “Yurdum” adı üç əlifbada yazılıb: latın, kiril, ərəb əlifbası ilə, qiyməti 1 manat olaraq göstərilib. Bülleten A-3 formatda olub.

Bülletenin 1-ci səhifəsində yuxarı hissədə “Redaksiyadan” başlıqlı qısa məlumat verilib: Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavatın orqanı olan “Yurdum” xəbərlər bülleteni insanlar və xalqlar arasında azad informasiya mübadiləsi işinə xidmət edir. Çünki belə bir mübadilə xalqlar arasında sülh və qarşılıqlı anlaşma işinə yönəldilmişdir. Azad informasiya mübadiləsi prinsipi Helsinki sazişində və beynəlxalq insan hüquqlarını müdafiə bəyannaməsində tərtib olunmuşdur. Bu prinsip Vətənin azadlığı uğrunda mübarizə aparan partiya və təşkilatların strateji və taktiki fəaliyyəti üçün də vacibdir”.

Bülletenin sonuncu – dördüncü səhifəsində belə bir elan da verilib: “Təklif və məlumatlarla saat 20-dən 22-yə qədər 32-33-08 №-li telefonla müraciət etmək olar.

Bülletendə Baş redaktorun kimliyi haqqında məlumat verilməsə də, onu Rauf Arifoğlu (Şenol) nəşr edirdi.

Bülletenin ilk sayındakı 3-cü səhifədə (davamı 4-cü səhifədədir) “Rauf Şenol” imzası ilə “AXC-nin II konfransında” başlıqlı yazı verilib.

1-ci səhifədəki baş məqalə belə adlanır: “Sərhədlərdə qan tökülür”. Məqalənin müəllifi hüquqşünas Rövşən Məmmədlidir. Məqalədə Qubadlı rayonunun Ermənistanla sərhəd olan kəndlərindəki ağır vəziyyət qeyd olunur. Birinci səhifədə A. Xəlilovun “Tələbə fəryadı” (yazı tələbələrin institut rəhbərlərindən narazılığı ilə bağlı olan həmrəylik mitinqi haqqındadır) məqaləsi, N. İbrahimlinin “Kəndirbazlıq” (Akademiyanın Şərqşünaslıq İnstitutunun rəhbərliyi ilə bağlı yazı) məqaləsi çap edilib.

Bülletenin 2-ci səhifəsi “Xronika” başlığı ilə verilib. Bu səhifədə Azərbaycan ictimai-siyasi mühitini əks etdirən xəbərlər oxumaq mümkündür.

Bülletenin 3-cü və 4-cü səhifələri də qısa məlumat və xəbərlərdən ibarətdir. “Yurdum” Bülleteninin 2-ci sayı da 1989-cu ilin dekabr ayına təsadüf edir (dekabrın ortaları). 2-ci sayın Baş səhifəsində AMDP “Yeni Müsavat” Partiyası Katiblər Şurasının Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə müraciəti verilib. Bu müraciətin 1989-cu ilin dekabrın 14-də yazıldığı qeyd edilib. Bu müraciətdə Azərbaycanın Ermənistan SSR hakim dairələrinin qəsbkarlıq məqsədlərindən doğan təcavüz siyasətinə məruz qalması qeyd olunur. Bu səhifədə verilən “Cəbhə xəttindən” (Xalqın Birliyi – qələbə deməkdir) başlıqlı yazıda isə Rövşən Məmmədlinin məlumatları təqdim olunur. 2-ci səhifədə bu yazının davamı ilə oxucular tanış olurlar.

2-ci səhifədə Azərbaycan KP MK-ya AMDP “Yeni Müsavat”ın müraciətinin davamı çap olunub.

3-cü səhifədəki əsas yazılar R. Məmmədlinin 1-ci səhifədə başlanan “Cəbhə xəttindən (Xalqın Birliyi – qələbə deməkdir)” məqaləsinin davamını təşkil edir.

4-cü səhifədə M. Orucovanın “Əldən gedən torpaqlar” yazısının davamı (əvvəli 3-cü səhifədə), R. Ulusoyun “Yeni cinayətlər, köhnə münasibət”, “Xronika” başlığı altında məlumatlar çap edilib.

---

***Qaynaq:***
*“Yurdum” Xəbərlər Bülleteni. Dekabr 1989-cu il, №1.*

## "ALLAHU- ƏKBƏR" QƏZETİ

**"Allahu-Əkbər" qəzeti - Azərbaycan Milli Demokrat Partiyası - Yeni Müsavatın** buraxılışı olub. 1989-cu ildə nəşr olunduğu ehtimal edilir. Qəzet AMDP Yeni Müsavat yayınları olaraq çap edilib. Qəzetin 1-ci səhifəsində başdan bu sözlər yazılıb: "Bismilla Əlrəhmani Əlrəhim".


Аллаһу №2
Әкбәр
гијмәти 1 ман.
Сиз, әј мәним диндашларым!
Бөјүк Аллаһ бу ишдә бизә јар олсун.
Әссаламу әлејкум вә рәһмәтуллаһу вә бәракату.

*"Allahu-Əkbər" qəzeti*

Buraxılışda ötən əsrin əvvəllərində Hacı Mir Ağası Mir Möhsünzadə və Axund Yusif Talıbzadə tərəfindən yazılmış "Şəriət təlimi" kitabı Mənsur Əlisoyun giriş sözü ilə oxuculara təqdim olunub.

Qəzetin 4-cü səhifəsində belə bir müraciət verilib: "Respublikamızda və ondan kənarda yaşayan bütün din xadimlərini və dindarları qəzetimizin səhifələrində çıxış etməyə dəvət edirik". Sonda isə arzu və təkliflərlə bağlı Mənsur Əlisoya müraciət edilməsi qeyd olunub.

---

***Qaynaq:***

*"Allahu Əkbər" qəzeti, 1989-cu il, №1.*

## "YENİ MÜSAVAT" QƏZETİ

"Yeni Müsavat" qəzetinin ilk sayı dərgi formasında 1989-cu ilin noyabrında nəşr edilib. Qəzetin (dərginin) "Qurtuluş" nəşriyyatında nəşr edildiyi qeyd olunur. İlk səhifədə qara və ağ hərflərlə latın əlifbasında "Yeni Müsavat" adı yazılıb. Bu ad ərəb əlifbası ilə də qeyd olunub.

"Yeni Müsavat" qəzeti - Azərbaycan Milli Demokrat partiyasının orqanı kimi nəşr edilib və 1989-cu ilin dekabrından "türkləşmək, islamlaşmaq, müasirləşmək!" şüarı ilə qəzet olaraq fəaliyyətini davam etdirib. Redaktoru Şenol (Rauf Arifoğlu) olub. Qəzet ictimai-siyasi orqan olsa da, daha çox müsavatçılıq, türkçülük ideyalarının təbliğinə önəm verib.



ТҮРКЛӘШМӘК, ИСЛАМЛАШМАГ, МҮАСИРЛӘШМӘК.

# Јени Мүсават

АЗӘРБАЈҸАН МИЛЛИ ДЕМОКРАТ ПАРТИЈАСЫНЫН ДӘРҜИСИ

№3. Газет ајда 2 дәфә чыхыр. Гијмәти 1 манатдыр.

## Нәләри билмәлијик...

Азәрбајҹан Милли Азадлыг һәрәкаты өзүнүн үчүнҹү, сијаси мәрһәләсинин биринҹи фазасына, ингилабгабағы фазасына дахил олмушдур. Гаршыда ингилаб көзләнилир. Бу ингилабдан максимум фајдаланмаг, jә'ни гејд-сөз-шәртсиз мүстәгиллик газанмаг үчүн там сәфәрбәрлијә алынмаг лазымдыр. Тарихи тәҹрүбә исә көстәрир ки, буну һәјата кечирмәјин ән доғру јолу мәтбуат васитәси илә тәблиғатдыр. Тәблиғат вә тәшвигатын дикәр форма вә методларындан да истифадә едилмәси ваҹибдир вә күнүн ән актуал проблемләриндән бири кими гаршыда дурур.

Мусаватчынын иши олмалыдыр. Чүнки мәһз бу јолла милләти милли мүбаризәјә сәфәрбәр етмәк үчүн зәрури олан тәшкилаты гурмаг олар. Милли тәшкилат милләтин ајры-ајры фәрдләринин вә сосиал зүмрәләринин фәалијјәтини мәгсәдәујғун сурәтдә тәнзим етмәк үсулуну сәчијјәләндирә биләр. Бу бахымдан азәрбајҹанлыларын милли-сијаси тәшкилаты олан Азәрбајҹан Милли Демократ «Јени Мусават» Партијасы милли-азадлыг вә мүстәгиллик, милли гуруҹулуг вә демократија мәгсәдинә чатмаг нијјәтиндә оланларын тәшкилатыдыр вә бу тәшкилатын ән бөјүк силаһы тәблиғатчысы олан «Јени Муса-

ланыб: Аз. ССР, Зәнкәзур вә Ирәван (Ерм. ССР), Борчалы ели (Күрҹ. ССР), Дәрбәнд дијары (Даг. МССР).

Иран әразисиндә дә Вәтән торпагларымыз бөлүнүб. Беш һиссәјә: Гәрби Азәрбајҹан, Шәрги Азәрбајҹан, Зәнҹан, Һәмәдан, Гәзвин.

... милләтимиз түркдүр. Чар Русијасы заманы ... татар, 1936-чи илдән е'тибарән исә азәрбајҹанлы ... верилиб. Сәбәб исә мүстәмләкәчи рус империализминин онун сојумуздан ајырмаг, милли ән әнәнәләримизи ... етмәк истәји вә ја ... оуна хәбәрсизлик үзүндән шүобә едәнләрә мә'лумат үчүн чат-

түркләр олмушлар. Түркләр тарих боју 17 империја гурмуш, даим империјалар дағытмышлар.

10-чу әсрдән е'тибарән бүтүн Иран, Ираг, Әфганыстан, Ермәнистан, Күрҹүстан, бә'зи һалларда исә, һәтта Һиндистан Азәрбајҹан түркләри тәрәфиндән идарә олунмушдур. Иранда 1925-чи илә гәдәр фарслар дејил, азәрбајҹанлылар һаким олмушлар вә тарихдән мә'лум олан Русија-Иран мүһарибәләри әслиндә Рус-Азәрбајҹан мүһарибәләри олмушдур. Совет тарихчиләринин јаздығы, күја Азәрбајҹаны ишғал едән Надир шаһ, Гаҹар шаһ азәрбајҹанлы олмушлар вә онларын Шимали Азәрбајҹан әразисиндә һәрби әмәлијјатлары Вәтәни бирләшдирмәк мәгсәди дашымышдыр.

Тарихдә тәгдим олунан бирләшмә, өзү дә күја көнүллү бирләшмә әслиндә дахили чәкишмәләрдән зәифләјән Азәрбајҹанын шимал һиссәсинин рус ишғалчылары тәрәфиндән вәһшиҹәсинә ишғалдыр.

1918-чи илдә түрк гардашларымызын көмәји илә Азәрбајҹанын Халг ДЕМОКРАТ Мусават Партијасы Азәрбајҹанын мүстәгиллијини (28 мај) е'лан етди. 1920-чи ил апрел ајынын 27-28-и Азәрбајҹан коммунистләринин сатгынлығы үзүндән чинајәткар Ленин

коммунистләри һәмишә Москва ағаларынын садиг гулу вәзифәсини ичра етмиш, öз шәхси мәнафеји үчүн халгынын башына мин-бир әзаб-әзијјәт кәтирмишдир.

8. Һәр бир Мусаватчы дүнја халгларынын бир нөмрәли ҹәллады, дүнјада нә гәдәр мүтәрәггилик варса, һамысынын дүшмәни олан Москванын ич үзүнү билмәли, гырмызы вә јыртыҹы империализмә, чинајәткар коммунист партијасына дәрин нифрәт етмәлидир.

9. Јалныз вә јалныз бир арзу илә — Вәтәнин истиглалы арзусу илә јашамалы, бу јолда һәјатыны белә әсиркәмәмәлидир.

10. Коммунист партијасы чинајәткар партијадыр. О, милјонларла күнаһсыз адамын мәһв едилмәсинә, халгларын репрессијалара вә сүркүнләрә мә'руз галмасына вә дикәр вәһшиликләринә көрә мәс'улијјәт дашымалыдыр.

11. Коммунист дөвләтинин ән ганлы идарәси Дөвләт Тәһлүкәсизлик Комитәсидир. Мәһз бу органын әли илә бүтүн ганлы чинајәтләр һәјата кечирилмиш, минләрлә адам азад фикирлилијинә көрә дәлиханалара басылмыш, Сибирдә чүрүдүлмүш-

***"Yeni Müsavat" qəzeti***

İlk sayda Azərbaycan Milli Demokrat Partiyasının Yeni Müsavatın bəyannaməsi, nizamnaməsi, proqram əsasları verilmişdir.

Eyni zamanda 1-ci sayda M. Ə. Rəsulzadənin "Azərbaycan Kültür gələnəkləri (ənənələri)" yazısı da çap edilib.

Bu sayın son səhifəsində "Oğuz Xaqanın duası", "İslamın ideoloji üsulu" (toplayanı Mənsur Əlisoy) yazıları çap olunub.

Birinci say 27 səhifədən ibarətdir və kitabça formatındadır.

"Yeni Müsavat"ın 3-cü sayında başlıqda bu fikirlər əksini tapıb: "Türkləşmək, islamlaşmaq, müasirləşmək!". Qəzetin ayda iki dəfə çıxdığı qeyd olunub. Birinci səhifədə "Nələri bilməliyik..." başlıqlı yazı çap olunub. Bütün səhifəni əhatə edən bu yazıda sonda "İstiqlal" 10 yanvar, 1932" qeyd olunsa da, bu yanlışlıq qələmlə düzəldilib və müəllifin adı B. Tuncay yazılıb. İkinci səhifədəki yazı belə adlanır: "Rusların erməni siyasəti", "Əsir millətlər", Ə. Nasirin "Azərbaycan" şeiri.

Üçüncü səhifədə Şenolun (R.Arifoğlu – *red.*) "Marksizm-leninizm, sosial-demokratiya və Azərbaycan xalq hərəkatı" yazısıdır. Bu yazı qəzetin 4-cü səhifəsini tam əhatə edir. Bu səhifədə Vaqif Əlinin kiçik həcmli "O gün" şeiri çap olunub. Şenolun yazısının sonundakı tarix (07.12.89) qəzetin 3-cü sayının dekabrda çap olunduğunu göstərir.

"Yeni Müsavat" qəzetinin 1990-cı ilin iyul ayında nəşr edilən 7-ci sayında isə belə bir məlumat verilib: "Qurultaya qədər qəzet redaktorlarının da səlahiyyətləri təsdiq olundu: 1. "Yeni Müsavat" – Partiyanın ideya-siyasi xəttini müəyyən edən aparıcı orqan. Redaktor Şenol; 2. "Allahu Əkbər" – Müsavatçılıq ideologiyası daxilində dini təbliğat qəzeti. Redaktor: Aydın bəy Əlizadə; 3. "Yurdum" İnformasiya Bülleteni (hər iki dildə). Redaktor: Rəfael bəy Bağırov".

***Qaynaq:***

*1. "Yeni Müsavat" dərgi, 1989-cu il, noyabr, №1.*
*2. "Yeni Müsavat" qəzet, 1989-cu il, dekabr*

## AMDP YENİ MÜSAVAT YAYINLARI

Qeyd edək ki, bu yayınlar sırasında Şenolun (R. Arifoğlunun) bir neçə kitabçası çap olunub. Onun 1990-cı ildə nəşr edilən kitabçası belə adlanır: “Müsavat partiyası haqqında. Mübarizə davam edir”. Müəllif bu yazısında (cəmi 23 səhifə.) Azərbaycanda milli azadlıq hərəkatının XX əsrin əvvəllərindən başlanan və Müsavatla davam etdirilən böyük bir dövrün 1990-cı ilə qədərki təhlilini verir. Müəllifin sonda bu yazını 1990-cı ilin mayın 5-də Gəncədə çap etdirdiyi qeyd olunub.




## YAYINLAR: İKİ MƏQALƏ




1990-cı ildə Şenolun iki məqaləsi ayrıca kitabça olaraq çap edilir: “1. SSRİ-də rüşvət: o nəyə xidmət edir? 2.” Hazırkı mərhələdə Azərbaycan Xalq Hərəkatının sol mövqedən qiymətləndirilməsi...” Bu kitabçanın “Qurtuluş” nəşriyyatında nəşr edildiyi qeyd olunub. Hər məqalə 6 səhifədən ibarətdir. Kitabçanın ümumi həcmi 12 səhifədir.

Birinci məqalənin adından qeyd olunduğu kimi, SSRİ-də rüşvətxorluq hallarından bəhs edilir,




*M.B.Məmmədzadənin əsəri*

rüşvətxorluq nəticəsində istismar edilən xalqların problemlərindən danışılır. Müəllif yazını bu sözlərlə yekunlaşdırır: “Azadlıq verilmir! Onu qanla ödəyib, zorla alırlar! Yaşasın azadlıq!!!”. Məqalə 1989-cu ilin 10 oktyabrında yazılıb.

Kitabçada çap edilən ikinci məqalə belə adlanır: “Hazırkı mərhələdə Azərbaycan Xalq Hərəkatının sol mövqeyindən qiymətləndirilməsi!”. Yazıda 1980-ci illərin ikinci yarısından SSRİ-də gedən proseslərin, islahatların süni olmasından danışılır.




***“Azərbaycan Demokratik Respublikasının milli müstəqillik uğrunda diplomatik mübarizəsi” kitabı***

Bundan əlavə, R.Arifoğlunun təşkilatçılığı ilə 1989-1990-cı illərdə Mirzə Bala Məmmədzadənin “Azərbaycan Milli Hərəkatı, 27 Aprel işğalı və Müsavat” əsəri ayrıca kitabça olaraq çap edilib. 19 səhifə həcmində əsərdə M. B. Məmmədzadənin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Müsavat partiyasının öncə gizli fəaliyyəti, daha sonra isə xaricdə, xüsusilə Türkiyədə apardığı diplomatik ideoloji mübarizəsi ilə bağlı fikirləri əksini tapıb.

## ƏBDÜRRƏHMAN VƏZİROVA AÇIQ MƏKTUB

1989-cu ildə daha bir “samizdat” nəşr edildi: ”Yaşar Məmmədli. Əbdürrəhman Vəzirov cənablarına açıq məktub”. AMDP Yeni Müsavat yayınları olaraq çap edilən 30 səhifəlik bu kitabda Y.Məmmədli Azərbaycan KP Mk-nın Birinci katibi Ə.Vəzirova müraciət formasında ictimai-siya-




si həyata aid olan problemləri onun diqqətinə çatdırırdı.Açıq məktub bu sözlərlə bitirdi: ”İmza: səmimi qəlbdən Sizə və Sizin mənsub olduğunuz Kommunist Firqəsinə nifrət edən Bakı Elektron Hesablayıcı Maşınları zavodunun fəhləsi Yaşar Cəlil oğlu Məmmədov”.

***Qaynaq:***

*1. R.Arifoğlunun şəxsi arxivi.*

*2. Y.Türkazərin şəxsi arxivi*

**RAUF ARİFOĞLU**



***Rauf Arifoğlu***

Rauf Arifoğlu 23 iyul 1966-cı ildə Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olub. 1983-cü ildə həmin kəndin orta məktəbini qurtarıb. 1988-ci ildə Azərbaycan Texnologiya Universitetini, 1994-cü ildə isə Qərb Universitetini bitirib. 1988-ci ildə milli-azadlıq hərəkatına qoşulub. 1989-cu ildə “Yeni Müsavat” qəzetinin əsasını qoyub. Eyni zamanda, Azərbaycan Milli Demokrat partiyası Yeni Müsavatın (AMDPYM) yaradıcılarından olub.

1989-cu ilin iyul ayında R.Arifoğlu bir dostu ilə Rusiyaya getmiş, oradakı Türkiyə səfirliyindən sığınacaq istəmişdilər. Onlar Moskvadan çoxlu sayda “samizdatlar” gətirmiş və təşkilat üzvləri bundan faydalanmışdı. 1992-ci ildə isə Müsavt partiyası Azərbaycanda bərpa edildikdən sonra müxtəlif vaxtlarda Müsavatın Divan üzvü, başqan müavini kimi fəaliyyət göstərib. Sonralar Müsavat partiyası üzvlüyündən çıxıb. İyirmi səkkiz ildir “Yeni Müsavat”ın baş redaktorudur.

# AZƏRBAYCAN XALQ PARTİYASI



***Rafiq İsmayıl***

Azərbaycan Xalq Partiyası respublikada fəaliyyət göstərən demokratik təşkilatlar arasında ilk birləşmiş partiya olub. Azərbaycan Xalq Partiyası müxtəlif tarixi şəraitdə yaradılmış iki partiyanın - AXP-36 və AXP-90-nın birləşməsindən yaranıb.

AXP-36-nın tarixi 1936-cı ildən başlayır. 1937-ci ilin repressiyalarından sonra bu təşkilatın üzvləri də kommunist rejiminin qurbanı olmuş, güllələnmiş, sürgün olunmuşlar. 1989-cu ilin sonlarında azadlıq fədailərindən **Şərif Sultanov və Nelli xanım Mirzəliyevanın** rəhbərliyi altında təşəbbüs qrupu yaranaraq AXP-nin bərpasına başlanılıb. Tezliklə partiyanın proqram və nizamnaməsi işlənib hazırlanıb.

**1990-cı il yanvarın 10-da Azərbaycan Xalq Partiyasının I Təsis konfransı keçirilib. Konfransda partiya üzvlərini təmsil edən 156 nəfər iştirak edib. Tədbirin keçirilməsinə Zahid Qaralov kömək etmiş, direktoru olduğu Təhsilin Təkmilləşdirilməsi Elmi-Tədqiqat İnstitutunda konfransa yer ayırmışdır. Partiyanın sədri vəzifəsinə Şərif Sultanov seçilib. Sədr müavini isə Sabir Məmmədli olub.**

Bir neçə ay sonra, 1990-cı ilin ikinci rübündə Azərbaycanın tanınmış ziyalıları - professorlar Həmid Əliyev, Əli Əliyev, elmlər namizədləri - Rafiq İsmayılov, Oqtay Məlikov, Yusif Ümid və digərləri də müstəqil olaraq eyni adlı, Azərbaycan Xalq Partiyası formatında bir təşkilat yaratdılar. Bu təşkilat isə 1990-cı ilin may ayının 28-də özünün Təsis konfransını keçirmiş, Proqram və Nizamnaməsini qəbul etmişdi. Partiyanın sədri vəzifəsinə **Əli Əliyev**, Baş katib vəzifəsinə isə **Rafiq İsmayıl** seçilmişdi.

Hər iki təşkilatın məslək və vəzifələrinin eyniliyi onların vahid bir partiyada birləşməsinə əsas yaratdı. 1990-cı il iyul ayının 10-da bu təşkilatların rəhbər qurumlarının və sıravi üzvlərinin iştirakı ilə **birləşdirici**

**konfrans** keçirildi. Əli Əliyev partiyanın sədri, Rafiq İsmayıl isə Baş katib vəzifəsinə təsdiq olundu.



***Sabir Məmmədli***

Partiyanın nəzəri baxışlarına gəldikdə qeyd etmək lazımdır ki, **AXP-nin əsas ideyası xəlqilik idi.** Buna nail olmağın ən zəruri şərtini AXP Azərbaycanın tam və həqiqi dövlət müstəqilliyində görürdü. Azad insan, azad xalq AXP-nin ideya prinsiplərinin özəyini təşkil edirdi.

AXP ilk fəaliyyət günlərindən özünün mətbu orqanının da yaratdı. **AXP-nin mətbu orqanı "Xalq səsi" qəzeti idi.** Qəzetin ilk iki sayı **Elmar Məhərrəmovun** redaktorluğu ilə nəşr edilib. 1991-ci ilin sentyabr ayından qəzetin Baş redaktoru Sabir Məmmədli, məsul katibi Hicran Məmmədova olub. Qəzet qeyri-leqal şəkildə, gizli olaraq Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun (Slavyan Universiteti-*red.*) mətbəəsində çap edilib.

AXP ölkədə fəaliyyət göstərən siyasi qüvvələrin birliyinə nail olmaq məqsədi ilə digər partiya və təşkilatlarla əməkdaşlığı gücləndirməyə çalışıb. Bunun **nəticəsi olaraq Azərbaycan Dirçəliş Partiyası da AXP ilə birləşməyə qərar verib. 1990-cı il noyabrın 18-də** hər iki təşkilatın birgə **I (birləşdirici) qurultayı** keçirildi. Birləşmiş təşkilat Azərbaycan Xalq Dirçəliş Partiyası adı altında fəaliyyətə başladı.

Bir müddət sonra ardıcıl siyasi xəttin yürüdülməsində (emosional kütlə psixologiyasına arxalanmaq, yoxsa ziyalı və peşəkar siyasətçi mövqeyinə əsaslanmaq?) müxtəlif yanaşmalar olduğundan **"dirçəliş" qrupu (A.Qasımzadənin başçılığş ilə) 1991-ci il iyulun 6-da partiyadan** ayrılmaq qərarı verdi. Yaranmış vəziyyəti nəzərə alıb, partiyanın əsas qüvvələri növbəti qurultaya qədər təşkilatın əvvəlki Azərbaycan Xalq Partiyası adı altında fəaliyyətlərini davam etdirdilər.

Partiya 1991-ci il avqustun 19-da Moskvada baş vermiş dövlət çevrilişinə ("QKÇP") qarşı kəskin mövqeyini bildirmiş, avqustun 22-də Bakının Nizami meydanında siyasi partiyaların mitinqinin təşkilatçılarından biri kimi çıxış etmişdi.




***Təşkilatın proqram və nizamnaməsi***

1991-ci ildə sentyabrın 22-də Bakıda Azərbaycan Xalq Partiyasının II (fövqəladə) qurultayı keçirildi.

Partiyanın fəxri sədri vəzifəsinə qocaman siyasi xadim **Şərif Sultanov** seçilib. Partiyanın sədri vəzifəsinə **Rafiq İsmayıl**, müavinləri olaraq S.Məmmədli, O.Məlikov və Y.Ümidli seçilmişlər.

1991-ci il oktyabr ayının 1-də Bakının 5-ci mikrorayonunda AXP-nin rəhbərliyi ilə müəllimlərin və maarif işçilərinin mitinqi keçirildi.

AXP nümayəndələri Bakı müəllimlərinin geniş mitinqini təşkil etmiş, hərəkatı mütəşəkkil formada aparmaq üçün maarif işçilərinə ünvanlanmış müraciət qəbul etmiş, məktəblərdə yaymışlar. Mətbuatda dərc olunduğu kimi, AXP və Azad Müəllimlər Birliyi Ümumrespublika tətil komitəsi yaratmışlar.

AXP sədrinin müavini S.Məmmədli ali məktəb tələbələrindən ibarət könüllülər batalyonu yaradıb, Gədəbəy bölgəsində düşmənlərə qarşı mübarizə aparmışlar.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti dövründə partiyanın rəhbər şəxsləri, funksionerləri mühüm dövlət vəzifələrinə təyin olunmuşlar. AXP sədri Rafiq İsmayıl Azərbaycan Respublikası Prezidenti yanında Dövlət müşaviri vəzifəsində çalışıb.

**1992-ci ildə AXP Müsavat partiyası ilə birləşməyə** üstünlük verdi və bu haqda partiyanın Ümumrespublika konfransında müvafiq qərar qəbul edildi.

***Qaynaq:***

*1. "Yeni Müsavat" qəzeti. 20 avqust, 2016-cı il*

*2. Rafiq İsmayılovun şəxsi arxivi*

*3. Sabir Məmmədlinin şəxsi arxivi*

## “XALQ SƏSİ” QƏZETİ



Халг сәси - һагг сәси!

ХАЛГ СӘСИ

АЗӘРБАЈЧАН ХАЛГ ПАРТИЈАСЫНЫН ГӘЗЕТИ

ГӘЗЕТ 1990-чы ИЛДӘН ЧЫХЫР ● 5 ОКТЈАБР 1991-чи ИЛ. ● №2 (4)

ГЕЈРӘТЛИ ГАРДАШ ВӘ БАЧЫЛАРЫМЫЗ, АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИ, АЗӘРБАЈЧАН ХАЛГ ПАРТИЈАСЫ ӘТРАФЫНДА ДАҺА ДА СЫХ БИРЛӘШИН ВӘ МҮБАРИЗӘНИЗИ КҮЧЛӘНДИРИН!

АХП-НИН II ГУРУЛТАЈЫ

1991-чи ил сентјабрын 22-дә Бакыда Азәрбајчан Халг Партијасынын II /фөвгәладә/ гурултајы кечирилди.

Күндәлијә ашағыдакы мәсәләләр дахил едилмишди:

1. АХЧ мә"лумат шө"бәсинин бүллетениндә/№ 1/ дәрч едилмиш АХП рәһбәрлијинин бәјанатынын тәсдиги. Партија рәһбәрлијинин һесабаты.

2. Нәзарәт комиссијасынын һесабаты.

3. Азәрбајчан Халг Партијасынын Мәрамнамә вә Низамнамәсиндә бә"зи дәјишикликләр һаггында.

4. Партијанын али органларына сечкиләр.

5. Мүхтәлиф мәсәләләр.

Партијанын I гурултајындан индијә гәдәр кечән дөврдә рәһбәрлијин фәалијјәти һаггында, партијададахилиндә јаранмыш чәтинликләр вә бурахылмыш нөгсанлар барәдә Рафиг бәј Исмајылов кениш мә"лумат верди.

Нүмајәндәләр динләнилмиш һесабаты әтрафлы мүзакирә етдиләр. Чыхыш едәнләр: профессор Һәмид бәј Әлијев, профессор Әли бәј Әлијев, тарих елмләри намизәдләри Огтај бәј Мәликов вә Сабир бәј Мәммәдов, Шүкүфә ханым Гасымова, Сабир бәј Новрузов вә башгалары республикамызда јаранмыш һазырки вәзијјәт барәдә, партијанын гаршысында дуран биринчи дәрәчәли мәсәләләр һаггында әсаслы мүлаһизәләр сөјләдиләр.

Реал мүстәгиллик уғрунда мүбаризәмизин вә милли-демократик һәрәкатын гаршысында дуран проблемләрин һәллиндә АХП-нын кениш интеллектуал потенсиалындан һәртәрәфли истифадә едилмәси әсас мәсәләләрдән бири кими гијмәтләндирилди.

Гурултајда партијанын тәшкилат структуруна даир верилмиш тәклифләрин мүзакирәсиндән сонра АХП-нын Мәрамнамә вә Низамнамәсинин лајиһәси һәмин партија сәнәдләринин әсасы кими гәбул едилди.

Тәшкилат мәсәләләри мүзакирә олунаркән партијанын Фәхри сәдри вәзифәсинә гочаман сијаси хадим Шәриф бәј Султанов сечилди.

Рәһбәр органлара ашағыдакы АХП үзвләри сечилдиләр:

Партијанын Сәдри – Рафиг бәј Исмајылов.

АХП Сәдринин мүавинләри – Огтај бәј Мәликов, Сабир бәј Мәммәдов, Јусиф бәј Үмид.

Нәзарәт комиссијасынын сәдри – Чингиз бәј Мүршүдли.

Гурултај АХП Мәчлисинин 26 нәфәр даими үзвләрини, 9 нәфәрдән ибарәт Идарә һеј"әти вә Нәзарәт комиссијасынын үзвләрини сечди.

Гурултај багланаркән АХП-нын Фәхри сәдри Шәриф бәј Султанов јекун сөзү илә чыхыш етди.

БИЗИМ ТӘЛӘБЛӘРИМИЗ – БӨҺРАНДАН ЧЫХЫШ ЈОЛУДУР

● Али Советин фөвгәладә сессијасы ашағыдакы ганунлары гәбул [illegible]иб, кечид дөврүндә республиканы идарә с[illegible]әк үчүн демократик гүввәләрин иштиракы илә јарадылмыш гурума ганунверичилик сәлаһијјәти вер[illegible] өзүнү бурахылмыш е"лан етсин.

● Азәрбајчан әразисиндә [illegible] силаһлы гүввәләр практики сурәтдә республика табечилијинә кечирилсин.

● Республикадан кәнарда һәрби хидмәтдә олан 100 минә јахын азәрбајчанлылар [illegible] чағырылыб Азәрбајчан милли ордусунун әсасы гојулсун.

● Азәрбајчан Халг Чәбһәсинин, Азәрбајчан Халг Партијасынын вә башга демократик гурумларын вәтәни мүдафиә тәдбирләри ганунлашдырылсын.

ардı 2-чи сәһифәдә

АЗӘРБАЈЧАН ХАЛГЫНА! БҮТҮН ВӘТӘНПӘРВӘР ГҮВВӘЛӘРӘ!

Азәрбајчан Халг Чәбһәси, демократик партијалар республиканын рәсми рәһбәрлијини гаршыдан кәлән ермәни силаһлы тәһлүкәсини дәрк етмәјә дәфәләрлә чағырсалар да һакимијјәт органлары тәрәфиндән реал вә практики ишдә әсаслы бир addым һәлә атылмамышды. Һазырки дөврдә Ермәнистанын мүстәгиллији е'лан олундуғу вә бир нечә саат әрзиндә ермәни лоббисинин тәзјиги илә АБШ-ын бу референдумун нәтичәләрини алгышламасы ону көстәрир ки, гондарма Гарабаг проблеми даһа да дүјүнләнәчәкдир.

Силаһланмыш ермәни милләтчиләри гаршысында әлијалын галачағымыз һалда халгымызын башына һансы мүсибәтләр кәтириләчәјини тәсәввүр етмәк чәтин дејил. Бүтүн бу реаллығы нәзәрә алараг Азәрбајчан Халг Партијасы белә һесаб едир ки, бир ан белә вахт итирмәдән силаһлы дәстәләр јаратмалы, сәрһәдбоју кәндләрдә јашајан әһалини силаһландырыб Ермәнистанла сәрһәдләрин тохунулмазлығыны тә'мин етмәли, Гара-

ардı 2-чи сәһифәдә

*“Xalq səsi” qəzeti*

Bu mətbu orqan **1990-cı ildən** Azərbaycan Xalq Partiyasının qəzeti olaraq nəşr edilib. Qəzetin 1, 2-ci sayları 1990-cı ildə; 3, 4-cü sayları isə 1991-ci ilin 12 sentyabr (№3) və 5 oktyabrında (№4) çap olunub.

Qəzetin əldə olunmuş 1991-ci il 12 sentyabr tarixli sayında 1-ci səhifədə “Ön söz” başlıqlı yazı verilib. Həmin yazıdan: “Müstəqillik bayrağı altında geniş vüsət almış Xalq Hərəkatı özünün yeni mərhələsinə daxil olur. İrticaçı qüvvələrin bütün cəhdlərinə baxmayaraq, inkişafın qarşısını almaq olmaz. Bütün tarix boyu xalqa qarşı çıxış edən, ona arxalanmayan, onun ədalətli mübarizəsini düzgün yoldan yayındıran qüvvələr özləri kütlə tərəfindən süpürülüb, siyasi səhnədən kənara atılıblar. Heç bir qüvvə bizim mübarizəmizi zəiflədə bilməz!”

Qəzetin bu sayında rus dilində “Mütəllibov uddu, bəs kim uduzdu?” yazısı və “İctimai rəy” başlıqlı sorğu nəticələri də çap edilib.

Qəzetin 1991-ci il oktyabrın 5-də nəşr edilən №2 (4) sayında isə Azərbaycan Xalq Partiyasının II qurultayı haqqında məlumatlar verilib. Məlum olur ki, 1991-ci il sentyabrın 22-də Bakıda partiyanın II (fövqəladə) qurultayı keçirilib. Qurultayda BDU-nun müəllimi Rafiq İsmayılov partiyanın sədri seçilib.

***Qaynaq:***

*1. Sabir Məmmədlinin şəxsi arxivi.*

*2. A.Qasımzadə. Yaxın tarixə qısa bir baxış (Azərbaycan Xalq Hərəkatında siyasi partiyaların rolu haqqında). “Yeni Müsavat” qəzeti, № 8 (26), 25 aprel, 1992-ci il.*

# XALQ AZADLIQ PARTİYASI



*Yunus Oğuz*

Bu partiya **1990-cı ilin mayın 25-də** Gəncə şəhərində özünün Təsis Qurultayını keçirmiş və Azərbaycan SSR Ali Sovetinə, Nazirlər Sovetinə və Ədliyyə Nazirliyinə müraciət edərək rəsmən qeydiyyata alınmasını xahiş etmişdir. Məktub Təsis Qurultayının sədri **Yunus Oğuz (Əliyev)** və qurultayın katibi P. Muradov tərəfindən göndərilib.

Xalq Azadlıq Partiyası AXC-də gedən partiyalaşma prosesi nəticəsində yaranmışdı və daha çox ziyalı təbəqəni sıralarına daxil edirdi. Qısa bir müddətdə təşkilatın rayonlarda çox sayda təşəbbüskarları yaranmışdı.

Bu partiya 1990-cı ilin 25 yanvarında bəyanat verərək Təşəbbüs Qrupunun yaradıldığını elan etmişdi. Bəyanatda qeyd edilirdi ki, XAP bu gündən müstəqillik uğrunda fəal mübarizəyə başlayır.

Eyni zamanda AXC-nin Ağdaş sessiyasında qərar qəbul edildi ki, bu təşkilata yalnız fərdlər deyil, ictimai-siyasi qurumlar da daxil ola bilər. AXC-yə ilk daxil olan partiyalar aşağıdakılar idi: Yeni Müsavat, Xalq Azadlıq Partiyası, Xalq Partiyası, Dirçəliş Partiyası.

XAP-ın üzvləri sırasında Ə.Elçibəyin qardaşı Almurad bəy, tanınmış Azərbaycan xanımı Dilarə Əliyeva və digərləri var idi.



-4- ЛАЈИҺӘ

ХАЛГ АЗАДЛЫГ ПАРТИЈАСЫНЫН (ХАП)
МӘРАМНӘМӘСИ

Шәргин гапысы кими мүһүм стратежи әһәмијјәтә малик олан Азәрбајҹан торпағы дәфәләрлә мүхтәлиф империјалар тәрәфиндән тәҹавүзә мә"руз галмыш вә нәтиҹәдә XIX әсрин биринҹи јарысында Русија вә Иран тәрәфиндән ишғал олунмушдур. 1813-ҹү илдә Күлүстан, 1828-ҹи ил Түркмәнчај мүгавиләси илә Азәрбајҹанын Ҹәнуб һиссәси Иранын, Шимал һиссәси исә Азәрбајҹан исә Русијанын тәркибинә дахил едилмишди. Милли шүуру деформасијаја уғратмаг үчүн Ҹәнуби Азәрбајҹанда фарслашма, Шимали Азәрбајҹанда исә руслашма сијасәти јеридилирди.

. Шимали Азәрбајҹаны даима әсарәт алтында сахлмаг үчүн Русија ону сү"ни шәкилдә губернијалара бөлмүш вә потенсиал милли мүнагишәләр очағына чевирмишдир. XX әсрин әввәлләриндә Русијада баш верән һадисәләр нәтиҹәсиндә Рус империјасы милли дөвләтләрә парчаланды. Белә бир тарихи шәраитдә өз јүксәк мәдәнијјәтини вә милли адәт-ән"әнәләрини горујуб сахламыш Шимали Азәрбајҹан да бу просесдән кәнарда галмады. 28 мај 1918-ҹи илдә Шәргдә илк демократик дөвләт - Азәрбајҹан Демократик Ҹүмһуријјәти (АДҸ) јаранды. Ҹәми 23 ај мөвҹуд олмасына бахмајараг АДҸ мүстәгил дөвләт кими дүнјада танынды. Бу мүддәт әрзиндә АДҸ-нин сијасәт вә игтисадијјат саһәсиндәки мүстәгил фәалијјәти милли бүтөвлүјүн формалашмасына бөјүк тәкан верди. Лакин 28 апрел 1920-ҹи илдә Гырмызы Ордунун Азәрбајҹаны ишғал етмәси АДҸ-нин мөвҹудлуғуна сон гојду.

Болшевикләр һакимијјәтинин илк күнләриндән е"тибарән республиканын идарә едилмәси зоракылыг принсипләри әсасында гурулду. "Өзкә чүр" фикирләшәнләр мүхтәлиф үсулларла сијаси сәһнәдән чыхарылды. Бу принсипләр әсасында Сов.ИКП-нин өлкәни тәкбашына идарә етмәси лабүд шәкилдә тоталитар режимин јаранмасына сәбәб олду.

Нәһәнк һәрб машынына малик олан Совет дөвләти мүртәҹе хариҹи сијасәт јеридир, милли-азадлыг һәракатларына "көмәк" мәгсәдилә

*Partiyanın məramnaməsi*

Xalq Azadlıq Partiyasının Siyasi

Platformasında yazılırdı: Xalq Azadlıq Partiyasının (XAP-ın) siyasi təşkilat kimi əsas məqsədi 1918-1920-ci illərdə mövcud olan Müstəqil Azərbaycan Demokratik Respublikasının dövlət qurumunu və milli dövlət statusunu bərpa etməkdir.

XAP 1992-ci ildə qeydiyyata alındı.

Qeyd edək ki, 1990-cı ilin ilk aylarından başlayaraq Xalq Azadlıq Partiyasının orqanı olaraq "Azad Söz" qəzeti partiyanın sədri Y.Oğuzun redaktorluğu ilə nəşr edilməyə başladı. Qəzet M.Ə.Rəsulzadənin bu sözlərini şüar olaraq götürmüşdü: **"Bir kərə yüksələn bayraq bir daha enməz!"** Lakin qəzetin son səhifəsində "baş redaktor" yox, "redaksiya heyəti" yazılırdı.

---

***Qaynaq:***

*1. Xalq Azadlıq partiyasının məramnaməsi (Y. Oğuzun şəxsi arxivindən).*

*2. "Azad Söz" qəzeti, aprel, 1990-cı il, №2.*

## YUNUS OĞUZUN NƏŞRLƏRİ "BÜLLETENLƏR"

**1989-cu** ildən başlayaraq Yunus Oğuzun müxtəlif mövzulara həsr edilmiş bülletenləri işıq üzü gördü. Bu bülletenlərdə M.Ə.Rəsulzadənin **"Bir kərə yüksələn bayraq bir daha enməz!"** sözləri başda çap edilirdi.

Bu bülletenin Bakıda "Dirçəliş" adlı nəşriyyatda çap olunduğu göstərilsə də, əslində bu, gizli yolla müxtəlif mətbəələrdə çap edilir və redaksiyanın qərargahı olmadığından elə redaktorun öz qaldığı evdə hazırlanırdı.

Bundan əlavə "Xüsusi Bülleten"in **"Tribuna"** ("Kürsü") və **"Açıq Söz"** seriyaları da çap olunurdu.

**"Xüsusi Bülleten"in** ilk buraxılışında (№1) Yunus Oğuzun və Ədilə Surxayzadənin (əslində bu ad diqqəti yayındırmaq üçün yazılmışdı) "1918-1920 və 1988-1989-cu illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında analoji tarixin təhlili" mövzusunda yazısı verilib, eyni zamanda 1919-cu ildə nəşr edilmiş "Azərbaycan" qəzetindən mövzu ilə bağlı sitatlar çap edilib. Məqalədə 1920-ci ilin 15 mayında Azərbaycan İnqilab

Komitəsinin sədri Nəriman Nərimanovun Daşnak hökumətinin Azərbaycana hücumu ilə bağlı Q.Çiçerinə və Q.Orconikidzeyə teleqramları verilib. Müəllif yazıda “Kommunist” qəzetinin 15 may və 20 iyul 1920-ci il” saylarındakı daşnaklarla bağlı məqalələrindən də sitatlar gətirmişdir.




**“Xüsusi Bülleten”in** daha bir buraxılışında Yunus Oğuzun **“AXC-nin gələcəkdə daxili siyasi qurumu necə ola bilər?”** məqaləsi verilib. 1989-cu ilin noyabrında çap olunan 3-cü saydakı məqalədə AXC-nin inkişaf etdirilməsi perspektivləri təhlil edilir.

“Xüsusi Bülleten”in 6-cı buraxılışı bu mövzuda idi: **“SSRİ Ali Sovetinin Dağlıq Qarabağ haqqında indiyə qədər çıxardığı üç qərarının təhlili”.** Y.Oğuz bu yazısında problemin xronoloji təhlilini verməyə çalışıb. Bu yazıda Y. Oğuzla yanaşı A. Pünhan imzası da qoyulub.




**“Tribuna”nın birinci** sayında AXC-nin müşavirəsində məruzəçi Pənah Hüseynovun, məruzə ətrafında çıxış edən Etibar Məmmədovun və AXC-nin sədri Əbülfəz Əliyevin stenoqrafik yazıları verilmişdi.

**“Xüsusi Bülleten”in 1989-cu ilin dekabrında** çap edilən **“Tribuna” seriyasının 2-ci sayındakı** yazı və materiallar belə adlanır: “Parçalanma baş tutmadı (AXC-nin müşavirə-


Бир дәфә учалан бајраг бир даһа енмәз.
М.Ә.Рәсулзадә

"ТРИБУНА" № I
АХЧ-дә ПАРЧАЛАНМАНЫН СӘБӘБЛӘРИ.
(АХЧ-нин 9 декабр 1989-чу ил Мүшавирәсиндә

ДИРЧӘЛИШ НӘШРИЈЈАТЫ

***Xüsusi Bülleten - "Tribuna" №1***

sindən Sabir Rüstəmxanlının, Əbülfəz Əliyevin və AXC-nin II Konfransından çıxışların stenoqrafik yazıları). Konfransda **Qarabağda və Ermənistan SSR-də sərhəd zonalarda** erməni terrorçularının Azərbaycan xalqına və torpağına olan qəsdlərinin qarşısını almaq məqsədi ilə qəbul edilən 7 maddəlik qətnamə çap edilmişdir.

Bundan əlavə Konfransda 5 nəfərlik Müvəqqəti İdarə Şurasının yaradılması məlumatı da "Tribuna"-nın **2-ci sayında** verilib (Əbülfəz Əliyev – sədr, Etibar Məmmədov – üzv, Nəcəf Nəcəfov - üzv, Rəhim Qazıyev – üzv, Hikmət Hacızadə - üzv).

"Xüsusi Bülleten"in **"Açıq Söz"** seriyasının **birinci** nömrəsində AXC-nin müşavirə və konfrans zamanı "Xüsusi Bülleten"in müxbirləri tərəfindən, AXC-nin vəziyyəti və onun təşkilatının yenidən qurulması barədə alınmış müsahibələrin dərc olunacağı qeyd olunurdu.


„АЧЫГ СӨЗ" серијасы № 1
АЗӘРБАЈЧАН ХАЛГ ҺӘРӘКАТЫНДА АХЧ нин РОЛУ
(САБИР РУСТӘМХАНЛЫНЫН, ӘБУЛФӘЗ ӘЛИЈЕВИН, АБАС АБДУЛЛАНЫН ВӘ БАШГАЛАРЫНЫН АХЧ нин МҮШАВИРӘСИ ВӘ АХЧ нин II КОНФРАНСЫ ЗАМАНЫ ВЕРДИКЛӘРИ МҮСАҺИБӘЛӘР)
ДЕКАБР, 1989.

***"Açıq Söz" seriyası № 1***

"Xüsusi Bülleten"in "**Açıq Söz" seriyasının 2-ci sayı** 1989-cu ilin dekabrında çap olunub və Yunus Oğuzun təhlil xarakterli məqaləsi verilib**: "AXC-də gedən proseslərə kənardan müşahidə"** (AXC İdarə Heyətinin 8 nəfər üzvünün təşəbbüsü ilə çağırılmış müşavirənin və AXC Məclisinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılmış AXC Konfransının təhlili).

Y.Oğuzun rəhbərliyi ilə nəşr edilən daha bir mətbuat orqanı da belə

adlanır: **“Azad Fikir”.** Bu nəşr orqanı Azərbaycan Xalq Cəbhəsi Azərb. SSR EA Fəlsəfə və Hüquq İnstitutu dayaq dəstəsinin bülleteni olaraq 1989-cu ildən çap edilirdi. Bülletendə oxuculara müraciətdə (müraciətdə bülleten yox, jurnal göstərilib – *red.*) xalqımızı, respublikamızı və bütün əhalini narahat edən problemlərin geniş dairəsinə toxunulacağı qeyd edilirdi.

**Bülletendə** aşağıdakı şəxslərdən ibarət Redaksiya Heyətinin olduğu bildirilirdi: “1) Z.Qasımov; 2) M.Zeynalov; 3) S.Əliyev; 4) Y.Petruşevski.




*Xüsusi Bülleten - “Açıq Söz” seriyası № 2*

**Bülletenin 1-ci sayında** aşağıdakı yazılar verilib: 1) “AXC hansı yolla gedəcək?” (müəllif: Y. Oğuz); 2) Kütləvi Psixoz haqqında” (müəllif: R.Məmmədzadə); 3) “Hər kəs öz işində hakimdir” (müəllif: Demayen göstərilib). Ədilə Surxayzadə adlı müəllifin hazırladığı 1918-1919-cu illərə aid mətbuat materialları bu başlıqda oxuculara təqdim edilib: “Aşağıda verilən materiallardan 1918-1920-ci illər ərzində Azərbaycan-erməni silahlı toqquşmalarının səbəbləri aydınlaşır”).




*“Azad Fikir” bülleteni*

**“Azad Fikir” Bülleteninin** 1989-cu ilin noyabrında nəşr edilən **2-ci** sayındakı yazılarla tanış olaq: 1) Siyasi parçalanma nədir, yaxud düşünən beyindən “vuran qolu” ayırmaq kimə gərəkdir?” (müəllif: Y.Oğuz; 2) “İntellektuallar barədə” (müəllif:




*“Azad Fikir” bülleteni (rus dilində)*

“Fələk” imzası yazılıb); 3) “Bolşeviklər və Müsəlmanlar” (müəllif: Hacı İbrahim Qasımov – “Bəsirət” qəzeti, 2 fevral, 1918-ci il, №160; 4) “Azərbaycan Milli Ordusunun tarixindən” başlıqlı yazı isə müəllifsizdir. Bu sayda  “Azərbaycanın odlu nöqtələrindən” başlığı altında cəbhə bölgələrindən məlumatlar da çap olunub.

**“Azad Fikir” Bülleteninin rus dilində nəşr edilən sayları** isə Azərbaycan dilindəki nəşrlərin tərcüməsi olaraq çap edilirdi: “Svobodnaya mısl” adlanan rus dilindəki bülletenlərin bir çox sayları olub.

Qeyd edək ki, Y. Oğuz nəşrləri gizli mətbəədə çap etdirirdi. Yazılar onun  yaşadığı mənzildə və digər evlərdə hazırlanır, Təhsil Nazirliyinə aid olan bir mətbəədə gizli olaraq qəlibbasma formasında nəşr olunurdu. AXC-nin rayon şöbələrinin əksəriyyətinin qəzetləri belə qəlibbasma üsulu ilə burada Y. Oğuzun köməkliyi ilə nəşr edilir və onlar gəlib qəzetləri aparır, yerlərdə yayırdılar.

Yunus Oğuzun ümumi rəhbərliyi və baş redaktorluğu ilə nəşr edilən digər qəzet **“Ordu”** adlanırdı. Bu qəzetin adındakı “Ordu” sözü, döyüş, hərb mənasını yox, xalqın bir ordu və xalqın bir güc olaraq mövcudluğu əsas kimi götürülürdü.


ORDU

8 ОКТЈАБР 1992-ҹи ил
Гәзет 1992-ҹи илин јанварын 28-дән чыхыр

ҺӘФТӘЛИК МҮСТӘГИЛ ИЧТИМАИ-СИЈАСИ ГӘЗЕТ

сајы 36
Гијмәти 2 рубл.

СИЈАСӘТЧИЛӘРИН ФИКРИНҸӘ...

БОРИС ЈЕЛТСИН: *“Мән һесаб едирәм ки, ислаһат кедәҹәк, биз сивилизасијалы јолла кедирик... Һесаб едирәм, илин ахырына кими гијмәтләр сабитләшәҹәк, адамларын јашајышы јахшылашаҹаг... Мән ишыглы кәләҹәк вә'д етмирәм... нормал һәјат вә'д едирәм...”*

ХХХ

МИХАИЛ ГОРБА-

Президент сечкиләри әрәфәсиндә һүгуги дөвләтин вә демократик ислаһатларын тә'минатчысы кими чыхыш едән АХҸ нүмајәндәси президент сечилди.

Һүгуги дөвләтин вә демократик ислаһатларын тә'минатчысы кими чыхыш етмәк үчүн дөвләтин өзүндә ганунлар ислаһатынын апарылмасы тәләб олунур.

Милли Мәҹлисин дөвләт гуруҹулуғунда гејри-мүәјјән мөвге тутмасы, ганунлары ајларла музакирә едиб ләнкитмәси вә ја һеч музакирә етмәмәси дөвләти гурмаг проссесини јавашыдыр. Бу да сон нәтиҹәдә сапмалара, әјинтиләрә јол верир вә гар-

лардан данышмаға дәјмәз.

Бу мәсәләдә Милли Мәҹлисин спикеринин өһдәсинә бөјүк вәзифәләр дүшүр.

Тәәссүфләр олсун ки, бу саһәдә Милли Мәҹлис вә онун спикери И. Гәмбәровун атдығы ләнк аддымлар ҹәмијјәтин өзүнү тәдриҹән

СПИКЕР ТӘЛӘСМИР

анормал бир һала кәтирир, сијаси вә психоложи кәргинлији даһа да артырыр.

Спикер тәләсмир... Милли Мәҹлисин өзүндән баш-

спикери "сечиләндән" сонра куја бөһрандан чыхыш јолу тапмадығы үчүн бу сөзләри деди. Сөзләрин сәтиралты мә'насы даһа дәриндәдир. Милли Мәҹлисин белә шәкилдә идарә олунмасы һөрмәтли спикеримизә һәлә узун мүддәт сәрф едәҹәкдир.

Әслиндә бу бөһраны арадан галдырмаг үчүн классик чыхыш јолу вар иди; Милли Мәҹлис парламент сечкиләринә гәдәрки дөврү "кечид дөврү" е'лан етмәли вә ән јахын заманларда парламент сечкиләрини кечирмәли иди.

Көрүнүр һөрмәтли спикеримизин башчылыг етдији партија сечкиләрә һәлә там

БАША ДҮШМҮРЛӘР...

*Һәләлик ҹәбһәдә ермәниләр һүҹума кечир, бизимкиләр мүдафиә олунур. Бизимкиләр һүҹума кечәндә ермәниләр мүдафиә олунмур. Нә олсун, баша да дүшмүрләр...*

ЈА ЕЛӘ, ЈА БЕЛӘ...

Испанија кралы вә онун ханымы Кубанын рәһбәри Фидел Кастродан хаһиш етмишләр (!) ки, о ја исте'фа версин, ја да демократија үчүн

*“Ordu” qəzeti*

**“Ordu” qəzeti** 1990-cı ilin sonlarında qeydiyyatdan keçib və **1992-ci ilin yanvarın 28-dən** nəşr edilməyə başlayıb. “Ordu” həftəlik

müstəqil ictimai-siyasi qəzet olaraq çap olunurdu. Qəzetin təsisçisi F.Hacıyev idi. Qəzetin tirajı 11 mindən çox idi. Əldə etdiyimiz nüsxələrdə aşağıdakı yazılara rast gəlinir: 1) "Baş redaktordan" (Qarabağ, müstəqillik, xalqının ümidini toplaması ilə bağlı yazı – 1992-ci il, 10-17 mart); 2) "Y.Məmmədov zühuru", "Müraciət", "Məlumat" və s. – 28 aprel – 5 may 1992-ci il, №14; 3) "Spiker tələsmir" (Milli Məclisə seçkilərin keçirilməməsi ilə bağlı yazı); 2-ci səhifədə "Siyasi hakimiyyət yüz gündən sonra" başlığı ilə verilən "Elegiyadan ekstara" və "Prezident legitimdir" yazıları; 3-cü səhifədə "Adın bizimlə yaşayacaq, Səlim" yazıları, 6-cı səhifədə "Hər şeyi kadr həll edir, yaxud bir daha tərcümə barəsində", "Qələbə ilə qayıdacağıq", "Şuşa satılıbmış" yazıları çap olunub – 8 oktyabr, 1992-ci il, №36.

---

***Qaynaq:***

*1. "Xüsusi Bülleten". Yunus Oğuz, Ədilə Surxayzadə (əslində bu ad diqqəti yayındırmaq üçün yazılmışdı). "1918-1920 və 1988-1989-cu illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında analoji tarixin təhlili". 1989-cu il, №1.*

*2. "Xüsusi Bülleten". Yunus Oğuz, AXC-nin gələcəkdə daxili siyasi qurumu necə ola bilər?". Noyabr, 1989-cu il, №3.*

*3. "Xüsusi Bülleten". Yunus Oğuz, "SSRİ Ali Sovetinin Dağlıq Qarabağ haqqında indiyə qədər çıxardığı üç qərarının təhlili".*

*4. "Xüsusi Bülleten" "Tribuna"seriyası, 1989-cu il, №1.*

*5. "Xüsusi Bülleten" "Tribuna"seriyası, dekabr, 1989-cu il, №2.*

*6. "Xüsusi Bülleten" "Açıq Söz" seriyası, 1989-cu il. №1.*

*7. "Xüsusi Bülleten" "Açıq Söz"seriyası, dekabr, 1989-cu il, №2.*

*8. "Azad Fikir" bülleteni, 1989-cu il, №1.*

*9. "Azad Fikir"bülleteni, noyabr, 1989-cu il, №2,*

*10. "Ordu" qəzeti, 28 yanvar, 1992-ci il, №1*

## XALQ AZADLIQ PARTİYASININ ORQANI – "AZAD SÖZ" QƏZETİ


БИР КӘРӘ УЧАЛАН БАЈРАГ БИР ДАҺА ЕНМӘЗ!
АЗАД СӨЗ
1990-ил МАРТ №1 ХАЛГ АЗАДЛЫГ ПАРТИЈАСЫНЫН ОРГАНЫ
АХЧ-нин СӘДРИ Ә.ӘЛИЈЕВИН АХЧ-нин III КОНФРАНСЫНДАН (6-7 јанвар 1990-чы ил) БИРИНЧИ ЧЫХЫШЫ.
АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИ РӘЈАСӘТ ҺЕЈӘТИНИН СӘДРИ Е.ГАФАРОВАЈА
АЧЫГ МӘКТУБ

*"Azad Söz" qəzeti*

Xalq Azadlıq partiyasının orqanı olan **"Azad Söz" qəzetinin ilk sayı 1990-cı ilin martında** çap olundu. Qəzet Yunus Oğuzun ümumi rəhbərliyi və baş redaktorluğu ilə çap olunsa da, "redaksiya heyəti" olaraq göstərilirdi. Ayda iki dəfə nəşr olunan bu qəzetin ümumi şüarı belə idi: "Bir kərə ucalan (yüksələn – red.) bayraq bir daha enməz!".

**Qəzetin ilk sayında, 1-ci** səhifədə AXC sədri Ə.Əliyevin AXC-nin III konfransından (6-7 yanvar) birinci çıxışı verilib. Eyni səhifədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E. Qafarovaya Yunus Oğuzun açıq məktubu verilib.

Qəzetin **2-ci** səhifəsində XAP-ın AXC İdarə Heyətinə açıq məktubu, Fikrət adlı müəllifin rus dilində "Bakı faciəsindən sonra Azərbaycanda vəziyyətin təhlili" yazısı, 3-cü səhifədə rus dilində "Fayneyşil Tayms" qəzetindən və "İnterneşnl Herald Tribyun" Agentliyindən yazılar çap edilib. Qəzetin 4-cü səhifəsində "Danışır yanvar şəhidləri" başlıqlı yazı verilmişdir.

Qəzetin **5-ci** səhifəsində A.Stromasın "Demokratiya və demokratiya" yazısı, Martin Lyuter Kingin "Zor işlətməmək fəlsəfəsi" yazıları, Xalq Azadlıq Partiyasının Ermənistanın Azərbaycan SSR-nin sərhədyanı rayonlarına və Naxçıvana quldurcasına basqın etməsi ilə bağlı bəyanatı çap edilib. Qəzetin 6-cı səhifəsində Ülvi Bünyadzadənin "Partiya bizə lazımdırmı?" yazısı, Arzu Sərdarlının "Müstəqil Azərbaycan dünya xəritəsində"

məqaləsi çap olunub.

Qəzetin 1990-cı ilin aprel ayında çap olunan **2-ci sayında**, **1-ci** səhifədə Yunus Oğuzun "Xalq Azadlıq Partiyasının siyasi platforması" məqaləsi verilib. Həmin səhifədə yuxarı hissədə Əhməd Cavadın müəllifi olan "Azərbaycanın Milli Marşı" çap edilib**. 2-ci** səhifədə Fikrət Cəfərin "Yeni Hökumətin köhnə düşüncələri" yazısı və elan verilib.

**3-cü** səhifədə M. Ə. Rəsulzadənin rus dilində "Panturanizm haqqında" əsərindən bir hissə çap olunub. Həmin səhifədə rus dilində Bil Kellerin "Nyu-York Tayms" qəzetindəki "Azərbaycanda etnik ziddiyyətlər: Kremlin sui-qəsdi?" yazısı çap olunub.

**4-cü** səhifədəki materiallar da rus dilində çap olunub: 1) "Qorbaçovun digər əlini müşahidə edin" (İnterneyşl Herald Tribun, 13 fevral, 1990-cı il); 2) Nazim Səfərli: "Bəli, qırğın olacaq" məqaləsi.

"Azad söz" qəzetinin digər saylarında da həmin dövrdəki prosesləri öyrənmək baxımından maraqlı və aktual yazılar, məlumatlar vardır.




**"Exo Svobodı" -** "Azad Söz" qəzetinin əlavəsi kimi çıxan bu qəzet Xalq Azadlıq Partiyasının orqanı olub. 1990-cı ildə rus dilində nəşr edilib. Qəzetdə XAP-ın bəyanatlarına, siyasi lətifə və şeirlərə də yer verilib.

---

***Qaynaq:***

*1. "Azad Söz" qəzeti, 1990-cı il, mart, №1.*

*2. Yenə orada: aprel, №2.*

*3. Yenə orada: may, №4.*

*4. Yenə orada: may, №5.*

## YUNUS OĞUZ

Yunus İsaxan Oğlu Oğuz (keçmiş soyadı Əliyev) 1960-cı ilin iyulun 22-də Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. 1983-88-ci illərdə Rostov Dövlət Universitetinin fəlsəfə fakultəsində təhsil alıb.

Təhsilini başa vurduqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda işləyib. 1991-92-ci illərdə "Ordu" qəzetinin baş redaktoru olub.

1993-cü ildə Azərbaycan Respublikası Prezidenti Ə. Elçibəyin müşaviri vəzifəsində işləyib.

1995-ci ildən bu günə qədər "Olaylar" qəzeti və "Olaylar" informasiya agentliyinin baş redaktoru vəzifəsində çalışır.

İlk kitabı 1994-cü ildə nəşr edilib ("Siyasi hakimiyyətin idarəetmə prinsipləri"), 2002-ci ildə "Qədim Anadolu və Azərbaycan türkləri", 2003-cü ildə "Qarabağ nəzarətsiz zona" ingilis dilində, 2006-cı ildə "Türkün tarixinə yeni bir baxış" (bu kitab fars, türk, rus dillərində də müvafiq ölkələrdə işıq üzü görüb), 2007-ci ildə "Attila", 2008-ci ildə "Nadir şah" romanı, 2009-cu ildə "Türkün gizli tarixi" və "Təhmasib şah" romanı çap olunub. "Qədim türklər və passionarlıq nəzəriyyəsi" adlı elmi əsərin müəllifidir.

2010-cu ildə "Nadir şah", "Təhmasib şah", "Attila" və "Qədim türklər və passionarlıq nəzəriyyəsi" Türkiyə türkcəsinə çevrilib və bu ölkədə böyük tirajla nəşr olunub.

Əsərləri dünyanın 20-dən çox ölkəsində dərc olunub.

2013-cü ildə "Şah arvadı və cadugər", 2015-ci ildə "Sultan Alp Arslan,2017-ci ildə "Atabəy Eldəniz" tarixi romanı çap olunub. Üç pyesin – "Attila", "Nadir şah", "Altun dəftər" – müəllifidir. Bütövlükdə 23 ölkədə 47 kitabı dərc olunub.

# BİRLİK PARTİYASI



*Hüseyn Artıqoğlu*

Bu partiya 1990-cı ilin əvvəllərində Birlik Cəmiyyətinin əsasında yaradıldı. Əsas yaradıcılarından biri İsfəndiyar Coşqun idi və o ömrünün sonuna- 1991-ci ilə qədər partiyanın ümumi lideri olaraq qaldı (Partiyanın sədri vəzifəsi Hüseyn Artıqoğluna tapşırılmışdı). Partiyanın məramı, məqsədi və fəaliyyət istiqamətləri "Birlik" qəzetinin 1990-cı ilin dekabrında nəşr edilən 1-ci sayında "Redaktordan" başlığı altında belə açıqlanırdı: **"Tarixə çevrilmiş azadlığımız,... əzəmətimiz qulağımıza pıçıldayaraq "Birlik" deyir. Tarixi türk dünyamızın çilik-çilik, parça-parça, cadar-cadar xəritəsi bizə yazılmamış bir söz oxudur: "Birlik!"**

Son iki yüzillikdə, Türkiyədə, Krımda, Volqaboyunda, Orta Asiyada, Qafqazda, İranda doğma yurdun – müqəddəs türk diyarının bütövlüyü, toxunulmazlığı uğrunda canından keçənlərin ruhu "Birlik!" deyə fəryad edir.

Yadların ayaqları altında inildəyən torpaqlarımız, düşmən xəzinəsinə axıdılan sərvətlərimiz, tapdanan namusumuz, ismətimiz, qeyrətimiz Birlik tələb edir.

Beynəlxalq imperializmin və ona arxalanan, evimizdə sığınacaq verib, çörəyimizlə birlikdə ürəyimizin yağını da yedirtdiyimiz əbədi düşmənlərin milli qırğın siyasətinin yeni qurbanlarının – Alma-Atada, Fərqanədə, Bakıda şəhid olanların ruhu "Birlik!" deyə haray çəkir.

İslam Şərqinə yeni Səlib yürüşünün törədilmiş və törədilə biləcək fəlakətləri - "Birlik" deyir.

Bugünkü ölümlü-zülümlü güzəranımız, sabahımızı hədələyən dəhşətlər "Birlik!" deyə haray çəkir.

Bəli, bütün Türk dünyamızın, bütün İslam dünyasının nicatı, xilası birlikdədir. Yalnız birlikdə.

Bu səbəbdən də zamanın özü Birlik adlı partiyanın və onun birlik amalını aləmə car çəkəcək "Birlik" qəzetini yaratdı. Gəlin bizi milli birliyə, etimad və amal birliyinə, ümumtürk və ümumislam birliyinə səsləyən qəzetimizə uğurlar arzulayaq və onun hamımızın istəkli, gərəkli qəzetimiz olması üçün bacardığımızı edək".

## BİRLİK PARTİYASININ "BİRLİK" QƏZETİ

***Bu qəzet Birlik üzvlərinin Yeni Müsavatçılardan ayrılandan sonra nəşr etdikləri mətbuat orqanıdır***


Adalet Tahirzade
Ruslan Rahimov Collection

güc birlikdədir
گوج بیرلیکده دیر

Birlik

BİRLİK partiyasının gəzeti

№ I ДЕКАБР 1990-чы ил Гијмәти 30 гәпик

Редактордан

Кетди су јолларыны
Гүврүм-гүврүм биләнләр.
Бир от јығыны галды –
Көкүндән кәсиләнләр.
Нәҹиб Фазил Гысакүрәк

Тарихә чеврилмиш азадлығымыз,дәдәлијимиз,әзәмәтимиз гулағымыза пычылдајараг "Бирлик" дејир. Тарихи түрк дүнјасынын чилик-чилик,парча-парча,чадар-чадар хәритәси бизә јазылмамыш бир сөз охудур – "бирлик!"

Сон ики јүзилликдә Түркијәдә,Крымда, Волгабојунда, Орта Асијада,Гафгазда,Иранда доғма јурдун – мүгәддәс түрк дијарынын бүтөвлүјү,тохунулмазлығы уғрунда ҹанындан кечәнләрин руһу "Бирлик!" дејә фәрјад едир.

Јадларын ајаглары алтында инилдәјән торпагларымыз,дүшмән хәзинәсинә ахыдылан сәрвәтләримиз,тапдаланан намусумуз,исмәтимиз,гејрәтимиз бирлик тәләб едир.

Бејнәлхалг империализмин вә она архаланан, евимиздә сығынаҹаг вериб,чөрәјимизлә бирликдә үрәјимизи јағыны да једиртдијимиз әбәди дүшмәнләрин милли гырғын сијасәтинин јени гурбанларынын – Алма-Атада,Фәрганәдә,Бакыда шәһид оланларын руһу "Бирлик!" дејә һарај чәкир.

Ислам шәргинә јени сәлиб јүрүшүнү төрәдилмиш вә төрәдилә биләҹәк фәлакәтләри "Бирлик!" дејир.

Бу күнкү алчалт-әзилмиш күзәранымыз, сабаһымызы һәдәләјәҹәк дәһшәтләр "Бирлик" дејә һарај чәкир.

Бәли,бүтүн түрк дүнјасынын,бүтүн ислам дүнјасынын нијаты,хиласы бирликдәдир.Јалныз бирликдә.

Бу сәбәбдән дә заманын өзү "Бирлик" адлы партијаны вә онун бирлик амалыны аләмә ҹар чәкәҹәк "Бирлик" гәзетини јаратды. Кәлин бизи милли бирлијә,е"тигад вә амал бирлијинә,үмумтүрк вә үмумислам бирлијинә сәсләјән гәзетимизә уғурлар арзулајаг вә онун һамымызын истәкли,кәрәкли гәзетимиз олмасы үчүн баҹардығымызы едәк.

„МҮГӘДДӘС ТҮРК ТОРПАҒЫ"–АНА ВӘТӘН

Бу барәдә чох јазылыб. Мән дә јазырам. Лакин бир гәдәр мәсәләнин көкүнә четмәк истәјирәм.

Бизим торпағымыза һәлә ерамызын VI әсриндә бу ад верилиб: "Ыдык түрк јири, сују" /КТБ.II/, је"ни мүгәддәс түрк торпағы,ана Вәтән. Л.Н.Гумилјов бу әсәрдә "Бөјүк түрк хаганлығы"нын ерази хәритәсини чәкиб, ону "Туркјут" адландырыб /Бах: Древние тјурки,изд. "Наука", М., 1967,С. 29/. "Хәритә" Бөјүк Чин сәддиндән Гара дәнизәдәк олан еразини әһатә едир. Она бизим гејдимиз вә әлавәмиз бундан ибарәтдир ки,мүәллиф Туркјут өлкәсини шималда индики Азов дәнизи-Керч боғазындан Шәргә доғру узатдығы сәрһәд хәтти илә мәһдудлашдырыр. Јәгин ки,буну о, әсәрини чап етдирмәк хатиринә едиб: о вахтлар вә ондан әввәлләр дә һәмин хәтдән шималда дикәр бир халг вә ја халглар јашамамышды, орада да түрк нәфәси варды,гырғыз вә б. түрк халглары мәскун иди. Орхон-Јенисеј һөвзәләри түрк јазы мәдәнијјәтинин зәнкин јатаглары,китабәләри дә бурада јаранмышды. Демәли,ағлын мәнтигинә әсаслансаг, о вахтын түрк һакимијјәтинин сәрһәдди Шимала,Шимал Бузлу Океанынадәк узаныб кедирди...

Бу мүгәддәс торпаг тарих боју дилимләниб,парчаланыб,кәсилиб төкүлүбдүр. Бу торпағын вәһид түрк халгы бөлүм-бөлүм, тикә-тикә едилиб,уду түрк халгынын индики фаҹиәсини јарадыбдыр.

Түрк халгларынын бу фаҹиәсини Азәрбајҹанын, гәдим Одлар дијарынын тимсалында ајдын көрмәк олар. Өз көкүндән,түрк туманындан тәҹрид едилиб дәнә-дәнә кичил-

(Давамы 2-чи сәһифәдә)

Алмас Илдырым

ГАРА ДАСТАН

Кимсә билмәз Танрыдағын јашыны,
Думан алмыш Алтајларын башыны,
Учурмушдур башдан дөвләт гушуну,
Сервәтинә үз чевирмиш заман һеј...
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Дәрд бир јана дағылмыш түрк сојлары,
Сөнмүш очаг,көчүб кетмиш бојлары,
Дәрдли-дәрдли ахар бозгыр чајлары,
Сахлар ичдән кизли үмид,күман һеј...
Гоча түркүн дүшдүјү күн јаман һеј...

Аг алнына гара јазы јазылмыш,
Јајлаларда дүјүн-дәрнәк позулмуш,
Кәлинләрин гур сачлары чөзүлмүш,
Јала галмыш,диләр елдән аман һеј...
Гоча түркүн дүшдүјү һал јаман һеј...

Дағдан-дағa чарпыб кетмиш доғанлар,
Гајаларда изи галмыш ал ганлар,
Ордулара бујруг вермәз Илһанлар,
Һарда галмыш "сет"ләр јыхан фәрман һеј
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Хараб олмуш Бухарасы,Бакәнди,
Матәм тутмуш Сәмәргәнди,Дашкәнди,
Кәнди сөјләр,төкәр көздән јаш кәнди,
Нә озан вар,нә јазан,нә шаман һеј...
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Газан,Башгурд батмыш,Крым сүрүлмүш,
Мәним чәкик көзлү јарым сүрүлмүш,
Гоһум-гонշум,бүтүн варым сүрүлмүш,
Булунурму Сибирјада иман һеј?
Гоча түркүн дүшдүјү һал јаман һеј...

Түрк елләри бир-биринә јадланыр:
Газах,гырғыз,түркмән,өзбәк адланыр.
Азәри түрк јанар,ичдән одланыр,
Ана јурдун ичдән һалы думан һеј,
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Кечән чағлар,јатмыш елләр ајылмаз,
Тарым чајы доғру јола гојулмаз,
Һеј...сәсләнир,Амударја дујулмаз,
Сырдәрјада галмамышдыр дәрман һеј...
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Хәзәр чошар,хәбәр салар Күрүнә
Ахыб кедәр Күр сүрүнә-сүрүнә,
Идил ағлар,Алтын Орду јединә
Арал да өз варлығындан пешман һеј...
Гоча түркүн дүшдүјү дәрд јаман һеј...

Азәрбајҹан дәрд ичиндә боғулмуш,
Севәнләри дијар-дијар говулмуш,
Ағла шаир,ағла јурдун дағылмыш,
Нердә гопуз,нердә гырғ кaман һеј?
Нердә бөјүк Вәтән,нердә Туран һеј...

***"Birlik" qəzeti***

"Birlik" qəzetinin ilk sayı 1990-cı ilin dekabrında nəşr edilib. Qəzetin baş səhifəsində, yuxarıda latın və ərəb hərfləri ilə bu sözlər yazılıb: **"Güc birlikdədir!"** "Birlik" sözünün sol tərəfində ağ ayparanın qarşısında səkkizguşəli ulduz, sağ tərəfdə isə dairənin içərisində birləşmiş insan əlinin rəsmi verilib. Dairənin içərisində latın və ərəb hərfləri ilə bu sözlər qeyd olunub: **"İslam dünyasının birliyi, Türk dünyasının birliyi, Azərbaycanın birliyi".**

Qəzetin ilk sayındakı "Redaktordan" başlıqlı yazıda "Birlik" partiyasının məramı və məqsədləri açıqlanıb. Baş səhifənin ikinci yazısı "Müqəddəs Türk Torpağı" – ana vətən" adlanır. Məqalənin müəllifi filologiya elmləri doktoru E.Əlibəyzadədir. Bu yazı 2-ci səhifədə də davam edir. Baş səhifədə böyük şair Almas İldırımın "Qara dastan" şeiri də verilib:

Kimsə bilməz Tanrıdağın yaşını,
Duman almış Altayların başını.
Uçurmuşdur başdan dövlət quşunu,

Sərvətinə üz çevirmiş zaman hey..

Qoca türkün düşdüyü dərd yaman hey...

Qeyd edək ki,sonradan partiyanın "Birlik" adlı qəzeti 1993-cü ildə dövlət qeydiyyatından keçib "Milli Birlik" adı ilə nəşr edilməyə başladı. "Milli Birliy"in redaktoru M. Nəbili oldu.

Qəzetin 3-cü səhifəsində Birlik partiyasının Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibova, Respublika Ali Sovetinin sədri Elmira xanım Qafarovaya, Nazirlər Sovetinin sədri Həsən Həsənova müraciəti çap edilib. Həmin müraciətdə yazılıb: "Hörmətli yurddaşlar! Bu günlər, bu aylar SSRİ xalqının, o cümlədən bizim xalqın həyatında tarixən, bəlkə də ən məsud anlardır. Xüsusilə respublika rəhbərliyimizin, Ali Sovetimizin o qədər də uğurlu seçilməmiş heyətinin indiki fəaliyyətindən xalqımızın bugünkü və gələcək taleyi çox asılıdır. Sizin indiki ictimai-iqtisadi və siyasi mövqeyiniz, bu sahədəki əməli fəaliyyətiniz sözün tam mənasında taleyüklü səciyyə daşıyır..."

Müraciətin sonunda qeyd edilirdi: "Odur ki, təkrar edirik, yeni İttifaq müqaviləsinə nə indiki layihə formasında, nə də hər hansı başqa "təkmilləşdirilmiş" şəkildə qol çəkmək olmaz.

"Birlik" Partiyası belə hesab edir ki, xalqı açıq-aşkar alçaltmaq mövqeyi tutan müqaviləni xalq adından imzalayacaq şəxs(lər) xalq tərəfindən ona xəyanət etmiş düşmən kimi qiymətləndiriləcək və xalqın düşməni kimi qəbul ediləcəkdir".

Qəzetin sonuncu səhifəsində rəssam Andrey Mlekskonun (Polşa) çəkdiyi maraqlı karikatura verilib: dizləri üstə yerdə durmuş Lenin peşimanlıq hissi ilə deyir: "Dünya proletarları, məni bağışlayın!"

**"Birlik" qəzetinin Baş redaktoru Cümşüd Türkelli idi.** Qəzetin ünvanı belə göstərilirdi: "370129, Bakı şəhəri-129, Tələb olunanadək ("Birlik").

***Qaynaq:***

*"Birlik" qəzeti. №1, dekabr, 1990-cı il.*

## BİRLİK PARTİYASININ "BİRLİK" BÜLLETENİ

Qeyd edək ki, Birlik partiyasının ayrıca "Birlik" adlı Bülleteni də nəşr edilib. Partiyanın Xüsusi Bülleteninin üz səhifəsində yuxarıda soldan aypara və qarşısında səkkiz guşəli ulduz rəsmi verilib. Sonra isə şüar olaraq "Güc birlikdədir" yazılıb. Bülletenin adı latın və ərəb hərfləri ilə "Birlik" yazılıb. Adın altında yumruqlanmış insan əlinin rəsmi verilib. Bülletenin "Turan" nəşriyyatında çap olunduğu qeyd edilib. İlk sayın nəşr ili 1990-cı il olaraq göstərilib.




***"Birlik" Bülleteni***

***Qaynaq:***
*"Birlik" Bülleteni. №1, 1990-cı il.*

## ŞADP-NİN – ŞİMALİ AZƏRBAYCAN DEMOKRAT PARTİYASININ YARANMASI

1990-cı ilin 20 Yanvar hadisələrindən sonra Azərbaycan cəmiyyətində partiyalaşma prosesi başladı və Şimali Azərbaycan Demokrat partiyası da həmin proses nəticəsində yarandı.

ŞADP-nin əsas yaradıcılarından olan İsa Qəmbər yazırdı: ŞADP-nin də birinci dərəcəli vəzifəsi AXC-nin bütövlüyünün qorunması şərtilə partiyalaşma prosesinin sağlam gedişini təmin etməkdir”.

### ŞADP-NİN MANİFESTI



МАНИФЕСТ

Демократической партии Северного Азербайджана

Азербайджанское общество вступает в новую эру - эру осознанной политической борьбы за государственную независимость. Только независимость республики может стать залогом ее будущего процветания, и наш народ осознав сегодня эту истину и опираясь на международно признанное право наций на самоопределение, готов последовательно и решительно, шаг за шагом, идти к великой цели достойного сосуществования в мировом сообществе независимых народов. Предстоит нелегкая борьба, которая потребует высокого напряжения сил народа, самоотдачи его интелектуального потенциала, терпения каждого и всех. Решающее значение в этой борьбе будут иметь политический уровень масс, их подготовленность, организованность и согласованность в действиях, обученность способам политической борьбы. Благодаря деятельности Народного Фронта Азербайджана уже имеются определенные достижения в политизации масс, пробуждении в них инициативы, интереса к общественной борьбе, осознании значимости принципов самоорганизации и саморегуляции в политическом развитии общества. Но еще очень многое предстоит осмыслить и сделать на этом пути.

В настоящее время общенародное движение за суверенитет Северного Азербайджана характерно участием в нем различных по взглядам на теперешнее состояние общества и будущее политическое и социально-экономическое устройство независимой республики. Каждый или группа видит будущее по своему и сообразно со своими принципами выбирает тот или иной путь и средства достижения намеченной цели. Все эти идейные различия организационно оформляются на новом этапе развития общества в виде политических партий, для которых характерна конкретизация политической ориентации.

Сегодня мы, оставаясь в рядах Народного Фронта Азербайджана обьявляем о создании Демократической партии Северного Азербайджана для того, чтобы на новом этапе общественного развития республики - этапе борьбы за ее независимость, обьединить единомышленников, выступающих за построение в

*ŞADP-nin manifesti*

“Azərbaycan cəmiyyəti yeni bir dövrə – dövlət müstəqilliyi uğrunda siyasi mübarizə dövrünə daxil olur. Ancaq Azərbaycanın müstəqilliyi onun gələcək çiçəklənməsinin əsası ola bilər və xalqımız bu gün bu həqiqəti başa düşərək və xalqların öz müqəddəratını təyin edən beynəlxalq hüquq normalarına əsaslanaraq, davamlı və qətiyyətlə, addım-addım müstəqil xalqların dünya birliyinə – böyük məqsədə doğru getməkdədir. Qarşıda çətin mübarizə var ki, bu da xalqdan yüksək gərgin güc, öz intellektual potensialını həsr etmək, hər kəsdən və hamıdan dözüm tələb edir. Bu mübarizədə həlledici əhəmiyyət xalqın siyasi səviyyəsindən, onun hazırlığından, təşkilatçılığından, razılaşdırılmış fəaliyyətindən, siyasi fəaliyyət üsulunu öyrənməyindən asılı olacaq. Zamanın axarı ilə, Azərbaycan Xalq Cəbhəsinin və ictimai-siyasi birliklərin fəaliyyəti ilə artıq kütlənin siyasiləşməsində, onlarda təşəbbüslərin oyanma-


государства - государства, признающего свободу человека наивысшей общечеловеческой ценностью. Свободу, а не благосостояние.

Демократическая партия Северного Азербайджана:

- признает интересы личности выше общественных и государственных,
- рассматривает государство как воплощение коллективных прав нации на свою особую форму социально-экономического и культурного развития,
- признает принципы полной саморегуляции общества и выступает за всяческие ограничения вмешательства государства в дела личности и общества,
- считает конкуренцию основой всякого общественного развития и приветствует развитие частной инициативы и частного предпринимательства как наиболее отвечающие потребностям сегодняшнего состояния развития общества:
- отрицает как неприемлемые насильственные формы политической борьбы и признает принципы, составляющие основу любой демократии. индивидуальные свободы, политические свободы, верховенство закона.

Членство в Демократической партии Северного Азербайджана:

- индивидуальное;
- не зависит от национальной, религиозной принадлежности.

Члены других политических партий не могут одновременно состоять и в Демократической партии Северного Азербайджана.

Наши лозунги.

Ответственность,

Реализм,

Независимость,

Прогресс.

Учредители Демократической партии Северного Азербайджана:

Юсиф Самедоглы Иса Камбаров Хикмет Гаджизаде

Тофик Гасымов Панах Гусейнов Вургун Эюбов

Сабит Багиров

***ŞADP-nin manifesti***

sında, ictimai mübarizəyə maraqda, özütəşkilatlanma prinsiplərinin əhəmiyyətinin anlaşılmasında və cəmiyyətin siyasi inkişafının özününizamlamasında müəyyən nailiyyətlər vardır. Ancaq bu yolda hələ çox işlərin görülməsinə ehtiyac vardır.

Hazırkı dövrdə, Şimali Azərbaycanın suverenliyi uğrunda ümumxalq hərəkatında müxtəlif baxışlara müstəqil respublikanın gələcək və siyasi-iqtisadi quruluşu üçün xarakterikdir. Hər bir kəs cəmiyyətin bugünkü vəziyyəti üçün və qruppa gələcəyi özünəməxsus olaraq görür və şüurlu şəkildə qarşıdakı məqsəd üçün öz prinsipləri ilə bu və ya başqa yolu, vasitəni axtarır. Bütün bu ideya müxtəlifliyi yeni mərhələdə cəmiyyətin (siyasi partiyalar formasında) siyasi istiqamətinin konkretləşməsi üçün xarakterik olan siyasi partiya formasında qeydə alınır.

Bu gün biz, Azərbaycan Xalq Cəbhəsi sıralarında fəaliyyətimizi davam etdirərək, Şimali Azərbaycan Demokrat Partiyasının yarandığını elan edirik və bildiririk ki, ölkənin ictimai inkişafının yeni mərhələsində – onun müstəqilliyi uğrunda mübarizə mərhələsində təşkilatımızın sıralarına daxil olan həmfikirliləri - insan azadlığını ümuminsanlığın ən yüksək dəyəri kimi etiraf edənləri birləşdirək.

**Şimali Azərbaycan Demokrat Partiyası:**

- Şəxsiyyətin maraqlarının ictimai və dövlət maraqlarından üstünlüyünü etiraf edir;

- Dövlətə millətin kollektiv hüquqlarının özünün sosial-iqtisadi və mədəni inkişafının xüsusi formasını təcəssüm etdirməsi kimi baxır;

- cəmiyyətin tam özünütənzimləmək prinsiplərini etiraf edir, dövlətin şəxsiyyətin və ictimaiyyətin işinə hər formada qarışmasının məhdudlaşdırılmasına qarşı çıxır;

- rəqabəti hər formada ictimai inkişafın əsası sayır və bugünkü cəmiyyətin inkişafının tələblərinə cavab verən şəxsi təşəbbüslərin və şəxsi sahibkarlığın inkişafını alqışlayır;
- siyasi mübarizənin təcavüz formalarını inkar edir və istənilən demokratiyanın əsasını təşkil edən fərdi azadlığın, siyasi azadlığın, qanunun aliliyi prinsiplərini qəbul edir.

**Şimali Azərbaycan Demokrat partiyasına üzv olmaq qaydaları:**
- şəxsi;
- milli və dini mənsubiyyətinə məxsus olmadan.

Digər siyasi partiyaların üzvləri eyni vaxtda Şimali Azərbaycan Demokrat partiyasının üzvü ola bilməzlər.

Bizim şüarımız: məsuliyyət, realizm, müstəqillik, inkişaf.

**Şimali Azərbaycan Demokrat partiyasının qurucuları aşağıdakı şəxslər idi:Yusif Səmədoğlu, İsa Qəmbərov, Hikmət Hacızadə, Tofiq Qasımov, Pənah Hüseynov, Vurğun Əyyubov, Sabit Bağırov.**

---

***Arxiv:***

*Şimali Azərbaycan Demokrat Partiyasının Manifesti (Pənah Hüseynovun şəxsi arxivindən).*

## MÜSTƏQİL RESPUBLİKA PARTİYASI



***Fuad Ağayev***

Müstəqil Respublika Partiyası 1990-cı ilin iyununda yaranıb. Partiyanın yaradıcısı **Fuad Ağayev** və onun məsləkdaşları – Rauf Mirqədirov, Azəddin Gülməmmədov, Rəsul Hüseynli olub.

Müstəqil Respublika Partiyasının Təşəbbüs Qrupunun ümumi iclasında qəbul edilmiş bəyanatda yazılıb: "Müstəqil Respublika partiyası demokratiya prinsiplərinə sadiq qalaraq, mövcud və yaradılmaqda olan Azərbaycan xalqının hərtərəfli dirçəlişini və onun milli dövlət quruluşnunu tam suverenliyini əsas tutan, zorakılıqdan və milli ayrı-seçkilikdən uzaq bütün müstəqil partiyaları, qurumları tanıyır, onlara hörmət edir və xalqın gələcəyi naminə onlarla konstruktiv əməkdaşlığa hazırdır".

Müstəqil Respublika Partiyasının Azərbaycanın müstəqilliyinə son qoymuş unitar dövlət quruluşunu, insanı kölə və dilənçi vəziyyətinə salmış totalitar rejimi məhv etməyi qarşısına məqsəd qoyduğu da fəaliyyət istiqamətlərində qeyd olunurdu.

Müstəqil Respublika Partiyasının orqanı olaraq "Bizim yol" qəzeti nəşr edilirdi.

---

***Qaynaq:***

*"Bizim yol" qəzeti, 1990-cı il, iyun, №1.*

### "BİZİM YOL" QƏZETİ

"Bizim yol" qəzeti 1990-cı ilin iyunundan Müstəqil Respublika Partiyasının orqanı olaraq nəşr edilməyə başlayıb. Qəzetin əsas şüarı belə idi: "Azərbaycanın müstəqilliyi uğrunda!" Qəzet A3 formatda çap edilirdi.



АЗӘРБАЈЧАНЫН МҮСТӘГИЛЛИЈИ УҒРУНДА

# БИЗИМ ЈОЛ

МҮСТӘГИЛ РЕСПУБЛИКА ПАРТИЈАСЫНЫН ОРГАНЫ

1990 ИЈУН №1 ГИЈМӘТИ 70 гәп.

## РЕДАКСИЈАДАН

Халгымыз истиглалијјәт уғрунда мүбаризәјә галхмышдыр. 72 ил өнчә «Мүсават» партијасы бу мүбаризәни галибијјәтлә баша чатдырмыш, «Мүстәгил Азәрбајчан» идејасыны керчәкләшдирилмишди. Республикамызда инди АХЧ, чохлу сајда сијаси партијалар «Мүсават»ын јолуну давам етдирирләр. Мүстәгил республика партијасынын да мәгсәди Азәрбајчанын 1920-чи илдә сон гојулмуш дөвләт мүстәгиллијини бәрпа етмәк, Азәрбајчанда һәгиги вәтәндаш чәмијјәти гурмагдыр. Мәһз мәгсәд бирлијини вә тарихи варислик принсипини әсас көтүрәрәк партијамызын мәтбуат органыны «Бизим јол» адландырмағы гәрара алдыг. «Бизим јол» гәзети 1917—1920-чи илләрдә «Мүсават» партијасынын мәтбуат органларындан бири олмуш (АСЕ, VII чилд, сәһ. 130), әсасән азәрбајчанлы олмајан әһали үчүн нәзәрдә тутулмушдур вә рус дилиндә «Наш путь» ады илә нәшр олунмушдур.

Али мәгсәдимиз Азәрбајчан Демократик республикасынын бәрпасы Партијамызын адында да өз әксини тапмышдыр. Тарихә нәзәр салсаг көрәрик ки, Италијанын бөјүк оғуллары Һәррибалди вә Мадзини мәһз республика бајрағы алтында халгы өлкәнин бирләшдирилмәси вә ишғалчылардан азад едилмәси уғрунда мүбаризәјә галдырмышлар. Јадыныза салаг ки, мәһз президент Авраам Линколнун башчылығы илә республика партијасы зәнчиләрин көләликдән азад едилмәси уғрунда мүбаризәни мүвәффәгијјәтлә баша чатдырмыш вә нәтичәдә АБШ бу күнә гәдәр давам едән чичәкләнмә дөврүнә гәдәм гојмушдур.

Мүстәгил Республика Партијасы да Азәрбајчанын мүстәгиллијинә сон гојмуш унитар дөвләт гурулушуну, инсаны көлә вә диләнчи вәзијјәтинә салмыш тоталитар режими мәһв етмәји гаршысына мәгсәд гојмушдур.

Бәс МРП республиканын мүстәгиллијини бәрпа етмәк јолуну нечә көрүр? Республиканы ағыр бөһран вәзијјәтиндән—һәм сијаси һәм игтисади, һәм еколожи—чыхармағын јолуну нәдә көрүр? Республикамызын әрази бүтөвлүјүнү горумаг үчүн конкрет олараг һансы ишләр көрүлмәлидир? Сабаһ бизи нә көзләјир? Бу вә бу кими дикәр суаллара долғун, әтрафлы, конкрет чаваб тапмагда «Бизим јол» сизә көмәкчи олачаг.

Сизин хејир-дуаныз сајәсиндә башладығымыз чәтин јолу зәрәфлә баша вурмаг үмидиндәјик. Танры бизә јар олсун!

## МРП-нин БӘЈАНАТЫ

Мә'лум олдуғу кими Азәрбајчан Коммунист Партијасы һал-һазырда өзүнүн XXXII гурултајыны кечирир. Бу һадисәнин халгымыз үчүн нә дәрәчәдә мүһүм олачағы вә ја олмајачағы барәдә фикир сөјләмәји республика ичтимаијјәтинин ихтијарына веририк. Бунунла белә Коммунист Партијасынын гурултај үчүн һазырладығы Платформа һаггында нөгтеји-нәзәримизи билдирмәји өзүмүзә борч билирик.

Мүстәгил Республика Партијасы демократија принсипләринә садиг галараг, мөвчуд вә јарадылмагда олан Азәрбајчан халгынын һәртәрәфли дирчәлишини вә онун милли дөвләт гурулушунун там суверенлијини әсас тутан, зоракылыгдан вә милли ирги ајры-сечкиликдән узаг бүтүн мүстәгил партијалары, гурумлары танығыр, онлара һөрмәт едир вә халгын кәләчәји наминә онларла конструктив әмәкдашлыға һазырдыр. Лакин көстәрилән Платформада бу принсипләр көзләнилмир. Платформанын хошкәлимли преамбуласы илә сонракы мүддәалары арасында чидди ујғунсузлуглар вардыр:

1 Платформанын мүддәалары бүтөвлүкдә декларатив мәзмун дашыјыр.

2. Платформанын әсас мүддәаларындан көрүнүр ки, коммунист Партијасы партијаларын чәмијјәтдә јери вә ролу барәсиндә конститусијада едилмиш мүвафиг дәјишикликләри әслиндә танымаг истәмир.

3. Әкәр Азәрбајчан халгынын, республика зәһмәткешләринин суверен ирадәси Азәрбајчан ССР-дә һакимијјәтин јеканә мәнбәјидирсә, республикада демократик сечкиләр кечирилмәмиш, халг өз суверен ирадәсини билдирмәмиш һансы әсасларла Азәрбајчан КП һаким партија мөвгејини бирдәфәлик мәнимсәјир? Бәлкә халг каолисијалы һөкумәтә мандат верәчәк?

4. Әкәр Коммунист партијасы кадр сијасәтиндә формал номенклатур мүнасибәтдән имтина едирсә, нәјә көрә кадрларын сечилмәсиндә јенидән төвсијә формасына әл атыр? Рәһбәр кадрларын сечилмәси чохпартијалы республика парламентинин тәсдиг етдији һөкумәтин вә сонракы сәвијјәләрдә мүвафиг органларын сәлаһијјәтинә аиддир.

5. Әлбәттә, Азәрбајчан Коммунист Партијасынын тәшкилаты структуру онун дахили ишидир. Лакин республикаларын «бирләшдији» иттифаг дөвләтиндә мәркәзләшдирилмиш һаким партија мөвчуддурса, онун тәркиб һиссәси олан сијаси гурумун республикамыз үчүн сијаси мүстәгиллик газанмаг истәји шүбһә доғурур.

МРП-нин тәшәббүс групунун үмуми ичласында гәбул едилмишдир.

## ВАХТ КӨЗЛӘМИР

Азәрбајчана онун формал вә бә'зи гејри-формал рәһбәрләри тәрәфиндән нүмајиш етдирилән сијаси вә һүгуги ниһилизм баһа баша кәлир. Сијаси реаллыға е'тинасызлыг, халгын мәнафејинә тохунан мүрәккәб мәсәләләрин һәллинә волјунтарист мүнасибәт бизи ағыр сијаси вә игтисади бөһрана кәтириб чыхаран сәбәбләрдәндир. Бу вәзијјәтдән чыхмагдан өтрү ону арашдырмагла кифајәтләнмәјиб, гаршымызда дуран вәзифәләрин јеринә јетирилмәси үчүн дүшүнүлмүш, һәјата кечирилә биләчәк фәалијјәт програмы тәклиф олунмалыдыр. Фаталистләр кими «Нә олар, олар» дејә биканәлик көстәрилмәси, јахуд әввәлчәдән јеринә јетирилмәси мүмкүн олмајан тәләбләр—тәклифләр ирәли сүрүлмәси ејни дәрәчәдә һадисәләрин кәләчәк инкишафында кортәбиилијин даһа да артмасына кәтириб чыхара биләр. Кифајәт гәдәр сијаси-һүгуги билик вә тәчрүбә малик олмадан, сијасәт мејданында баш ролларı ифа етмәк олмаз.

Бу мәгаләдә, биринчиси, гоншу республиканын әразимизә олан гәсдинин гаршысынын алынмасы, икинчиси, республикамызын һүгугларынын иттифаг дөвләтинин хејринә јенидән бөлүшдүрүлмәсинә сон гојулмасы, үчүнчүсү, Азәрбајчанын вә Азәрбајчан халгынын дүнјанын башга өлкәләриндә, ССРИ-дә (илк нөвбәдә Гафгазда) мөвгејинин гүввәтләндирилмәси јоллары барәдә фикирләрими охучулара чатдырмаға чалышырам.

### 1. ФАЈДАЛЫ, ФАЈДАСЫЗ ДӘРСЛӘР

1990-чы ил јанварын 22-дә Азәрбајчан ССР Али Советинин өз нөвбәдәнкәнар сессијасында гәбул етдији гәрарда ССРИ Али Совети Рәјасәт Һеј'әтиндән Бакы шәһәриндә фөвгәл'адә вәзијјәтин ләғв олунмасыны тәләб етди. ССРИ али ганунверичилик органынын февралын 14-дә башланмыш сессијасына республикамызын елчиләри Азәрбајчан пајтахтына гошун јеридилмәсинә сијаси гијмәт верилмәси вә динч әһалијә гаршы һәрби әмәлијјатлар апарылмасына мәс'ул шәхсләрин чәзаландырылмасы нијјәти илә кетмишдиләр. Нәтичәдә исә бизим депутатлар Бакыда фөвгәл'адә вәзијјәт е'лан едилмәси вә динч јүзләрлә вәтәндашын өлдүрүлмәсини «зәрури тәдбир» кими гијмәтләндирән гәрара сәс вермиш вә ДГМВ-дәки Азәрбајчан аиләләриндә доғумун мәһдудлашдырылмасыны нәзәрдә тутан башга бир гәрарын ичра едилмәсинә аз гала анд ичмишләр.

Јахшы нијјәтлә башадүшүлмәз «наилијјәт» арасындакы бу ујғунсузлуғу нә илә изаһ етмәк олар? Республикамызы тәмсил едән депутатларын сијаси јеткинсизлији, нашылығы иләми? Сессијанын күндәлијинә тәклиф олунан мәсәләнин савадсыз ифадә едилмәси вә бунун да сәдрлик едәнин онун өзүнүн чәзаландырылмасы һаггындакы мәсәләнин сәсвермәјә гојмамасына кәтириб чыхармасы иләми? Мүхтәлиф

## БУ НӨМРӘДӘ

1. Республикада јаранмыш кәркин ичтимаи-сијаси вәзијјәт. „Вахт көзләмир" Ф. Агајев с 1-2
2. Азәрбајҹан-сијаси партијалар тарихиндән Р. Һүсејнли с 6-7
3 МРП Мәрамнамә вә Низамнамәси
4 Рәј Сорғусу с 8

***"Bizim yol" qəzeti***

Qəzetin birinci sayında aşağıdakı yazılar verilib: 1) "Respublikada yaranmış gərgin ictimai-siyasi vəziyyət" (müəllif – F.Ağayev); 2) "Azərbaycan siyasi partiyalar tarixindən" (müəllif – R.Hüseynli); 3) "MRP-nin məramnamə və nizamnaməsi"; 4) "Rəy sorğusu".

Qəzet 8 səhifə həcmində nəşr olunurdu.

Qəzetin birinci səhifəsində "redaksiyadan" başlıqlı yazı çap olunub. Bu yazıda Müstəqil Respublika Partiyasının məqsədi belə əsaslandırılıb: Müstəqil Respublika Partiyasının da məqsədi Azərbaycanın 1920-ci ildə son qoyulmuş dövlət müstəqilliyini bərpa etmək, Azərbaycanda həqiqi vətəndaş cəmiyyəti qurmaqdır".

Bu yazıda qəzetin adının "Bizim yol" adlandırılması belə izah edilir: "Bizim yol" qəzeti 1917-1920-ci illərdə Müsavat Partiyasının mətbuat orqanlarından biri olmuş, əsasən azərbaycanlı olmayan əhali üçün nəzərdə tutulmüşdür və rus dilində "Naş Put" adı ilə nəşr olunmuşdur".

Qəzetin birinci sayının birinci səhifəsində MRP-nin bəyanatı da çap olunub.

Qəzetin redaktoru Rauf Mirqədirov idi.

---

***Qaynaq:***
*"Bizim yol" qəzeti, 1990-cı il, iyun, №1.*

## AZƏRBAYCAN MİLLİ İSTİQLAL PARTİYASI

1991-ci ilin oktyabrın 15-də Azərbaycan Dövlət Televiziyasında Azərbaycan Milli İstiqlal Partiyasının yaradılması barədə Təşkilat Komitəsinin bəyannaməsi haqqında məlumat verildi. Bu məlumatın verilməsindən bir gün sonra "Millət" qəzetinin sınaq nömrəsində həmin bəyannamə dərc edildi.

1992-ci ilin 3-4 iyulunda Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP-in) təsis qurultayı keçirildi. 1992-ci ilin 17 iyulunda Milli İstiqlal Partiyası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçərək, 1 saylı qeydiyyat vəsiqəsi aldı. Beləliklə, AMİP ilk rəsmi dövlət qeydiyyatından keçmiş partiyadır.

Azərbaycan Milli İstiqlal Partiyasının yaradıcısı və sədri, Azərbaycan milli azadlıq hərəkatının liderlərindən biri olmuş Etibar Məmmədovdur.

---

***Qaynaq:***

*M.Zülfüqarlı. İstiqlal tarixini yaradanlar (1972-1992-ci illər). Bakı, 2003.*

### AZƏRBAYCAN MİLLİ İSTİQLAL PARTİYASININ

### MƏRAMNAMƏSİ

Azərbaycan Milli İstiqlal Partiyasının öz fəaliyyətində ideoloji əsas kimi qəbul etdiyi prinsiplər bunlardır:

**İstiqlalçılıq.** Ulu Tanrının və təbiətin verdiyi ixtiyarla millətimiz istiqlal və azadlıq haqqına sahibdir və biz bütün dünya xalqlarının onu öz istiqlalına və azadlığına qovuşmuş bir Millət kimi tanıyacağına və sayacağına inanırıq.

**Milliyyətçilik (Türkçülük).** Hər bir millət, digər millətlərin azadlığını, haqqını və hüquqlarını pozmamaq şərti ilə, öz mənafeyini üstün tutmaq ixtiyarına malikdir.

**Azərbaycançılıq (Vətənçilik).** Azəri Türklərinin tarixi vətəni olan Azərbaycan, onun ərazisində məskunlaşmış bütün xalqların ümumi vətəni olmaqla, milliyyətindən, az, ya çoxsaylılığından asılı olmayaraq, Azərbaycanda yaşayan bütün toplumları, ürəyi vətənpərvərliklə döyünən bütün insanları öz müqəddəsliyi ətrafında birləşdirir.

**Milli Dövlətçilik.** Millətin dövlət üçün deyil, dövlətin Millət üçün olduğunu qəbul edərək, biz dövləti Azərbaycanın bölünməzliyinin qorunması, ümummilli mənafenin gerçəkləşdirilməsi üçün zəruri bir institutu, azadlıq, ədalət və bərabərliyin təminatçısı sayırıq. Azəri Türk Millətinin dövləti Azərbaycanın milli dövlətçilik ənənələrinə əsaslanaraq, ayrı-ayrı sinif, zümrə və təbəqələrin deyil, bütün Azərbaycan vətəndaşlarının siyasi, iqtisadi və mənəvi yüksəlişinə təminat yaratmalıdır.

**Hürriyyətçilik.** Millətin və dövlətin normal halında insanın azadlığı, digər insanların azadlıqlarını pozmamaq şərtindən savayı, heç nə ilə məhdudlaşmamalıdır.

**Öncüllük.** Millətimizin dünya millətləri sırasında tarix səhnəsində layiqli yer tutmasından ötrü bəşəriyyətin yaratdığı mütərəqqi elmi biliklərdən, iqtisadi və hüquqi mexanizmlərdən, mənəvi dəyərlərdən yaradıcılıqla faydalanmaqla, milli mədəniyyətimizin, siyasi və iqtisadi quruculuğun sürətlənməsi və vüsətlənməsi, hər bir azərbaycanlının cəhalətdən və qaragüruhçuluqdan uzaqlığı, ən mütərəqqi dünyaduyumuna və təfəkkür tərzinə yiyələnməsi gərəkdir.

**Bu yolla irəliləməklə, Azərbaycanın yaxın bir zamanda dünyanın ən öncül ölkələri sırasına çıxacağına inanırıq.**

---

***Qaynaq:***
*"Millət" qəzeti. №46 (47), 8 avqust 1992.*

## "MİLLƏT" QƏZETİ


ИНСАНЛАРА ҺҮРРИЈЈӘТ, МИЛЛӘТЛӘРӘ ИСТИГЛАЛ!

МИЛЛӘТ

№ 46 (47) 8 АВГУСТ 1992 | МҮСТӘГИЛ ИЧТИМАИ-СИЈАСИ ГӘЗЕТ | Гијмәти 2 манат.

ИЧТИМАИ РӘ'Ј НИЈӘ АЗДЫРЫЛЫР

Ахтарышлар, уғурсузлуглар јеничә јаранмыш сијаси чәрәјанлардан һәр биринин талејидир вә бу талејин нечә јашанмасы ишләрин сонракы кедишиндән чох асылыдыр. Бу мә'нада сијаси керчәклијимизин мүһүм һадисәси олан АМИП-ин илк аддымларына верилән гијмәтләр бирмә'налы дејилдир, чох вахт субјектив мүлаһизәләр вә идеоложи стереотипләр ахынында реал һәгигәтләрдән узаглашманын шаһиди олмагдајыг. Дүнәнә гәдәр ичтимаи шүуру сијаси мүхалифәт маскасында инһисара аланлар бу күн башга мүхалифәтин мејда-

јанын адына јазылмаға башлајыр. Аз гала тавандан салланан һөрүмчәк торунда да АМИП-ин әли олмасы барәдә сәрсәм фикирләр артыг өзүнү игтидарын енли күрәкләри архасында кизләдән гәзетләрин сәһифәләриндә мејдан суламаға башлајыр.

Бу фикирләрин мүәллифләри өзләри дә јахшы билирләр ки, АМИП силаһлы дәстәләрин көмәји илә дејил, гајә вә идејалары илә нүфуз газанмаға, индики сијаси вакуумда бирләшдиричи гүввә кими фәалијјәт көстәрмәјә чалышыр.

АМИП-ин АХЧ-нин идеја вә принсипләрини ...

... мәкдән гат-гат асандыр. Тоталитар һакимијјәт структурларынын гысганчлыгла горунуб сахландығы, һакимијјәтин ганундан үстүн тутулдуғу бир шәраитдә демократијадан дәм вурмаг, демократик идејалара сәдагәтдән данышмаг артыг ачыг гапыны дөјмәјә бәнзәјир. Дејәсән, АХЧ-дә дә «бәшәрин виҹданы, ешги, диләји» олмаг, чәмијјәтин «рәһбәр вә истигамәтверичи» гүввәсинә чеврилмәк арзусу мөһкәмләнмәјә башлајыр.

АМИП-и, онун лидерини гејри-ардычыллыгда, бири-бирини тәкзиб едән бәјанатлар вермәкдә тәгсирләндирәнләр, өзләри сијаси нашылыг нүмајиш етдирир вә белә бир һәгигәти дәрк едә билмирләр ки, бу күн партијаны сүн'и гаршыдурмаја вә тәхрибатлара чәкмәјә чалышанларын мәкрли нијјәтләриндән јајынмаг үчүн о, сијаси маневрләр етмәјә, өз фикирләрини бә'зән Езоп ди-

МҮХАЛИФӘТДӘ ГАЛМАГ ДҮШМӘНЧИЛИК ДЕЈИЛ

Сон вахтлар мәтбуатда АМИП-лә бағлы, хүсусилә дә онун лидери Е. Мәммәдовун фәалијјәтини арашдыран гәрәзли јазылар чап едилмәкдәдир. Белә јазыларда биртәрәфли мөвгедән чыхыш едән мүәллифләрин нијјәтләри һеч кәсдә шүбһә доғурмур. Биз белә һесаб едирик ки, инсанларын сијаси мәнафеләринин ујғун кәлмәмәсинә әсасән јаранан сијаси рәгабәт кениш охучу аудиторијасы үчүн мә'лум һәгигәтләрдир вә бу сәпкили мәгаләләрә чаваб верилмәсинә нәтичә е'тибарилә еһтијач јохдур. Лакин һагсызлыгла, ријакарлыгла разылашмаг да мүмкүн дејил. Бу бахымдан, принсипиал характерли мәсәләләри ајры-ајры групларын мәгсәдләринә табе етмәјә чан атан мүәллифләрин јазыларыны тәһлил етмәк мәчбуријјәти ...

... рәзли мәгаләләрин сајы мәтбуатда күнбәкүн артмагдадыр. Конкрет мәгсәдләр күдән бу чүр гәрәзли јазыларла әлбәттә, биз разылаша билмәрик. Чүнки Е'тибар бәј өзүнәмәхсус кејфијјәтләри илә халг тәрәфиндән гәбул олунмуш сијаси лидердир. Сијаси лидерлик тәбии ки, һәр адама гисмәт олмур. Лидер о адамдыр ки, онун мәсләкдашлары вардыр. Гәзет сәһифәләриндә тез-тез «АМИП-ин имканлы функсионерләри» кими гәләмә верилән адамлар әслиндә Е. Мәммәдовун мәсләкдашларыдыр. Белә ки, фактларын кифајәт гәдәр шиширдилмәси АМИП-лә һакимијјәт арасында гаршыдурма јаранмасына тәкан верир. Лакин республика дахилиндә сијаси сабитлијә наил олмаг лазымдыр. Е. Мәммәдо-

*"Millət" qəzeti*

**"MİLLƏT" qəzeti - 1991-ci ilin noyabrında** yaranıb. Azərbaycan Milli İstiqlal partiyasının orqanıdır. İctimai-siyasi xarakterli bu qəzet müxalifət mövqelidir.

## ANA VƏTƏN PARTİYASI



***Fəzail Ağamalı***

Ana Vətən Partiyası 1990-cı ilin noyabrın 24-də yaradılıb. Təşkilat Azərbaycan xalq hərəkatı fəallarının təşəbbüsü ilə formalaşıb. Partiyanın yaradıcısı və sədri Fəzail Ağamalı olub. Qurultayda partiyanın proqramı və nizamnaməsi, Ermənistanda azərbaycanlıların soyqırımı, Mesxeti türklərinin tarixi taleyi, 20 Yanvar faciəsi haqqında qətnamələr, Azərbaycandan kənarda yaşayan soydaşlarımızın vəziyyəti və partiyanın yaranması haqqında bəyanatlar qəbul olunub.

Partiyanın orqanı kimi "Turan" qəzetinin buraxılması qərara alınıb.

Qurultay belə bir nəticəyə gəlib ki, Ana Vətən Partiyası Azərbaycan Xalq Cəbhəsinin tərkib hissəsi kimi fəaliyyət göstərir.

---

***Qaynaq:***

*"Azadlıq" qəzeti, 11 avqust, 1990, №5 (8).*

## İSLAM İNKİŞAF PARTİYASI
### HACI SABİR HƏSƏNLİ


*Hacı Sabir Həsənli*

Bu partiya 1991-ci ildə yaranıb. Partiyanın sədri "Qafqaz Müsəlmanları Ruhani İdarəsi"nin sədr müavini Hacı Sabir Həsənli olub. Hacı Sabir Həsənli 1945-ci ildə anadan olub. BDU-nun Şərqşünaslıq fakultəsini və Daşkənd İslam İnstitutunu bitirib. Onun 1992-ci ilin 17 yanvarında mətbuata verdiyi aşıqlamaya görə, həmin dövrdə partiya sıralarında 5.530 nəfər üzv vardı ki, onların da çoxunu qadınlar təşkil edirdi. Yaşı 16-ya çatmış, özünü müsəlman sayan hər bir şəxs milliyyətindən asılı olmadan partiyanın üzvü ola bilərdi. Partiyanın başlıca məqsədi müsəlmanların və İslamın Azərbaycan Konstitusiyası çərçivəsində cəmiyyətdə rolunu qaldırmaqdan ibarətdir. Eyni zamanda partiya üzvləri parlamentin komissiyasında alternativ layihə ilə çıxış edib, İslama dövlət statusu verilməsini tələb ediblər. Partiya uşaqların uşaq bağçalarında tərbiyə olunmasına da qarşı çıxdığını bildirir və göstərirdi ki, belə halda tam düşüncəli şəxsiyyət tərbiyə etmək qeyri-mümkündür.

---

***Qaynaq:***
*"İslam İnkişaf Partiyası hələ hakimiyyətə tələsmir".*
*Hacı Sabir Həsənli ilə müsahibə. "Svoboda" qəzeti, 17.01.1991. N3 (19).*

## AZƏRBAYCAN XALQ HƏRƏKATINDA SİYASİ PARTİYALAR

Azərbaycan xalq hərəkatında siyasi partiyaların özünəməxsus yeri var və xalqın siyasi cəhətdən savadlanması, təşkilatlanması, Azərbaycanda baş verən ictimai-siyasi proseslərin xarici ölkələrə çatdırılmasında və informasiya blokadasının yarılmasında önəmli rol oynayır.

**1989-cu ilin martında Azərbaycan Dirçəliş partiyası Azər Qasımzadənin rəhbərliyi altında yaradılıb.** Bu partiya öz əsas məqsədini – Müstəqil Azərbaycan uğrunda mübarizə apardığını siyasi təşkilatlar arasında ilk dəfə olaraq açıq surətdə elan edib. Partiyanın 1989-cu il mayın 27-də ilk müstəqil "Dirçəliş" adlı qəzeti də nəşr olunub.

**1989-cu ilin iyun ayında Xalq Cümhuriyyət partiyası** fəaliyyətə başlayıb və öz orqanı olan **"Açıq söz"** məcmuəsini (bu məcmuənin ilk sayı 1989-cu il iyun ayının birinci yarısında nəşr edilib) çap edib.

1989-cu ilin oktyabr-noyabr aylarında daha iki partiya - Milli Müsavat (1990-cı ilin yanvar ayına kimi AMDP Yeni Müsavat) və Qurtuluş partiyaları fəaliyyətə başlayır.

**Yaranan ilk siyasi partiyalardan biri Azərbaycan Xalq Dirçəliş partiyasıdır.** Bu partiya 1990-cı il noyabrın 18-də Azərbaycan Xalq Partiyası ilə Azərbaycan Dirçəliş partiyasının birləşməsindən formalaşıb (doğrudur, 1960-cı illərdə R.Turabxanoğlunun partiya yaratması haqqında bilgilər vardır. Lakin həmin partiyanın fəaliyyəti ilə bağlı məlumatlar azdır. Partiyanın yaradıcısı olan R.Turabxanoğlu bu siyasi fəaliyyətinə görə sonradan azadlıqdan məhrum edilib və həbsdə yatıb).

1990-cı ilin 20 Yanvar faciəsinə qədərki dövrdə Azərbaycan xalq hərəkatında fəaliyyət bu dörd partiya, həmçinin Birlik cəmiyyəti və sosial demokrat hərəkatı fəaliyyətlərini üç istiqamətdə aparırdı.

**Birinci istiqamət – xalqın siyasi maariflənməsi, təşkilatlanması.** Bu sahədə "Dirçəliş" "Yeni Müsavat" qəzetləri, "Birlik" dərgisi (Birlik cəmiyyətinin dərgisi idi və "Yeni Müsavat"ın əməkdaşları nəşr edirdi), "Dönüş", "Soy" toplularının (son ikisi Azərbaycan Xalq Dirçəliş partiyasının orqanı idi. Buraya fasilələrlə nəşr edilən, Azərbaycan Xalq Partiyasının

"Xalq səsi" qəzetini əlavə edə bilərik) fəaliyyətini göstərmək mümkündür.

**İkinci istiqamət – Qarabağın müdafiəsinin təşkili idi.** AXDP, Milli Müsavat, Qurtuluş partiyaları bu xüsusda fiziki, mənəvi, tibbi köməyi cəbhəyə çatdırırdılar.

**Üçüncü istiqamət – Respublikadan kənarda Azərbaycanda gedən proseslərin işıqlandırılması, SSRİ-nin digər respublikaları ilə əlaqələrin yaradılması idi ki, bu xüsusda əsas işi sosial-demokrat hərəkatı və Cümhuriyyət partiyası görürdü.**

1990-cı il Yanvar faciəsindən sonra Azərbaycan Xalq Azadlıq, Birlik, Xalq Demokrat, Müstəqil Respublikaçılar, Ana Vətən, Xalq partiyaları yaranır.

1990-cı ilin avqustundan bir-birindən taktiki cəhətdən fərqlənməyən partiyalarda simalaşma prosesi başlayır. Artıq bu zaman **Naxçıvanda Demokrat, Milli Demokrat partiyaları** təsis olunur.

1990-cı ilin oktyabrından sonra siyasi partiyalar xalq diplomatiyası sahəsində apardıqları işin coğrafi hüdudlarını genişləndirməyə başlayırlar. Onlar Tatarıstan, Başqırdıstan, Qazaxıstan, Orta Asiya bölgələrində müxtəlif partiya və cəmiyyətlərlə birbaşa əlaqə yaradır, oradakı görüşlərdə, mitinqlərdə çıxış edərək, bu Türk cümhuriyyətlərində xalq hərəkatlarının güclənməsi, imperiyaya qarşı mübarizənin əlaqələndirilməsi uğrunda iş aparırlar.

Dövlət Fövqəladə Vəziyyət Komitəsinə etiraz əlaməti olaraq, Azərbaycanda ilk mitinqi 1991-ci il avqustun 22-də "Fəvvarələr" Meydanında məhz siyasi partiyalar – Xalq Dirçəliş, Birlik, Milli Müsavat partiyaları keçirmişlər. Və onların çoxlu sayda üzvləri döyülmüş, həbs edilmişlər.

Adları çəkilən partiyalar və həmçinin Müstəqil Sosial Demokrat Partiyası (indi Azərbaycan Müstəqil Demokrat Partiyası) DFVK-yə qarşı avqustun1991-ci ilin avqustun 20-21-də birgə bəyanat imzalamışdılar.

---

***Qaynaq:***

*A.Qasımzadə. Yaxın Tarixə qısa bir baxış (Azərbaycan Xalq Hərəkatında siyasi partiyaların rolu haqqında). "Yeni Müsavat" qəzeti. №8 (26). 25 avqust, 1992-ci il.*

## MƏHƏMMƏD HATƏMİ TANTƏKİN



***Məhəmməd Hatəmi Tantəkin***

**Azərbaycan milli azadlıq hərəkatının liderlərindən olan Məhəmməd Hatəmi Tantəkin** 1935-ci il iyulun 22-də Güney Azərbaycanın Astara şəhərində türk soylu əkinçi ailəsində anadan olub. Atası Güney Azərbaycandakı 1945-1946-cı il milli-azadlıq hərəkatının fəal iştirakçısı olub.

Güney Azərbaycanda milli hərəkat məhv ediləndən sonra, 1946-cı ilin dekabrın 12-də valideynləri ilə birlikdə Quzey Azərbaycana mühacirət edib. Ailəsi ilə birlikdə əvvəlcə Əli Bayramlının (indiki Şirvan şəhəri) Qaraçola, ardınca Şamaxının 6 saylı kəndində, sonra Xudatın Çkalov kəndinin 4-cü şöbəsində, daha sonra Qubanın H.Zərdabi kəndində, nəhayət Bakıda yaşamışlar.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinin jurnalistika şöbəsinə daxil olub, 1963-cü ildə bitirib.

Universitetdə oxuduğu illərdə – 1959-cu ildə gizli olaraq Azad Azərbaycan təşkilatını yaradır. Təşkilatın başlıca məqsədi hər iki Azərbaycanı milli əsarətdən xilas edib, vahid dövlət şəklində birləşdirməkdən ibarət olub.

Güneylilərin aparıcı partiyası olan Azərbaycan Demokrat Firqəsinin üzvü olub. Partiya rəhbərliyinə qarşı etirazlar etdiyi üçün 1963-cü ildə firqədən xaric edilib.

Universiteti bitirdikdən sonra müxtəlif zavod-fabriklərdə fəhlə işləyib.

1964-cü ildə Polşaya köçüb getmək haqqında həmin ölkənin Moskvadakı səfirliyinə müraciət edilir və rədd cavabı alınır. 1979-cu ilin fevralın 11-də İranda Fevral inqilabı olan kimi, İranın Bakıdakı konsulluğuna müraciət edib, oraya - vətənə getmək istədiyini bildirib. Lakin buna imkan yaradılmayıb.

1965-ci ilin iyul ayının 1-dən Nizami adına Ədəbiyyat İnstitutunda, sonradan Şərqşünaslıq İnstitutunda, Nizami Muzeyində çalışıb.



M.H.Tantəkin həbsdə

Akademiya sistemində ictimai elmləri "qara zülmətlər" içərisində görüb, anlamı "səhər işığı kimi" olan "Tantəkin" təxəllüsünü götürüb. 1972-ci ildə "Xalq yaradıcılığında atəşpərəstliyin ifadəsi" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi adını alıb. 1984-cü ildə "Sehrli nağılların onqon və əsatiri surətləri" adlı doktorluq dissertasiyasını isə müdafiə etmək ona nəsib olmur. 1990-cı ildə həbsdən azad ediləndə o, filologiya elmləri doktoru seçilir.

1987-ci ildə Çənlibel təşkilatının yaradıcılarından və əsas təşkilatçılarından biri olur. Azərbaycanda sovet rejimi əleyhinə mitinqlərin təşkilində böyük rolu vardır. Bu fəallığına görə dəfələrlə həbs edilib. İlk dəfə 1988-ci il 5 dekabr - 6 iyun 1989-cu il tarixlərində həbsdə saxlanılıb.

M.Hatəmi ayrıca "Qurtuluş" adlı batalyon yaradaraq torpaqlarımızın müdafiəsində də fəallıq göstərib.

**M. Hatəmi 2016-cı il 14 iyunda Bakı şəhərində vəfat edib.**




M.H.Tantəkinin kitabı

***Qaynaq:***

*Hatəmi Tantəkin. Acı həqiqətlər. Bakı, "Şirvannəşr", 1986.*

## MƏHƏMMƏD HATƏMİ TANTƏKİN.
## MİLLİ QURTULUŞ PARTİYASI




***Partiyanın proqram və nizamnaməsi***

1989-cu ilin 8 dekabrında Qızılbaş Xalq Cəbhəsi ilə Müstəqil Azərbaycan təşkilatı Azərbaycan Qurtuluş təşkilatı adı altında birləşdi və çox keçmədən **Milli Qurtuluş partiyası adlandı. Məhəmməd Hatəmi Tantəkin patiyanın başqanı seçildi. Partiyanın mərkəzi özəyinə aşağıdakı adamlar daxil idi: 1. Hatəmi Tantəkin; 2. Eldar İbrahim; 3. Loğman İbrahim; 4. Seyid Tahir Qarabaği; 5. Rüstəm Şahsuvarov; 6. Mehdi Azəri; 7. İmran Ələkbərzadə; 8. Şahin Tağızadə; 9. Tofiq Şükürlü; 10. Nüşabə Eyvazlı; 11. Kəmalə Abıyeva; 12. Kamil Şükürov; 13. Rafiq Bəbirov; 14. Məlik Nurəlizadə; 15. Şahin Tağıyev; 16. İlham Mirzəyev.**

Bu təşkilatın fəallığı və başçılığı ilə 1989-cu ilin dekabrın 14-də “Nizami” metrosunun qarşısında mitinq keçirildi. Sonra mitinqçilər Hüsü Hacıyev küçəsi ilə gedərək mitinqi “Fəvvarələr” bağında davam etdirdilər.

Həmin ilin dekabrın 17-də Azadlıq meydanında meydan hadisələrinin ildönümünə həsr edilmiş tədbirdə Milli Qurtuluş partiyası lideri H.Tantəkin çıxış etdi.

Partiyanın təmsilçiləri olaraq H.Tantəkin və Seyid Tahir Qarabaği Azərbaycan Xalq Cəbhəsinin 1989-cu ilin 19 noyabrında Sabunçu qəsəbəsində təşkil etdiyi mitinqdə dövlət əleyhinə kəskin çıxışlar etmişdilər.

Erməni fitnəkarı olan **S. Şaumyanın Bakıdakı heykəlinin 1989-cu ilin 22 noyabrında dağıdılmasında** da Milli Qurtuluş partiyasının fəalları ciddi rol oynamışdılar. Bu haqda partiyanın lideri H.Tantəkin yazır: “Seyid Tahir maşınla evimizə gələrək bunu mənə xəbər verdi. Mən onunla

heykəlin yanına gəldim. Heykəlin ətrafı əsgərlə, DTK, milis işçiləri ilə dolu idi. Qurtuluşçular əllərində üçrəngli bayraq buraya yaxınlaşanda, meqafonla onlara müraciət etdim ki, heykəli dağıtmasınlar, polkovnik Hüseynxanın xahişi ilə. Ancaq qurtuluşçular mənə çatanda qulaqlarına pıçıldadım ki, dağıdın! Onlar çox çətinliklə heykəli yerə yıxıb, parça-parça etdilər. **Moskvada Lefortovo həbsxanasında mənə açılan cinayət işində suçlarımdan biri də bu heykəlin dağıdılması idi”**.

Partiya üzvləri **1989-cu ilin 23 noyabrında** “Nizami” metrosunun qarşısında keçirdikləri mitinqdən sonra gecə “26-lar” bağında (indiki “Sahil” bağı) bəzi heykəlləri dağıtmışdılar. Bir qədər sonra isə partiyanın A.Zeynallı adına Musiqi məktəbində oxuyan tərəfdar tələbələri Ermənistandakı məscidlərimizin dağıdılmasına cavab olaraq, həmin ilin 23 dekabrında Bakıdakı erməni kilsəsinin xaçlarını baltalayıb yerə tökmüşdülər.

Partiya üzvləri bu dövrdə mənzil istismar idarələrindən ermənilərin siyahılarını əldə edir və onları Bakıdan sıxışdırıb çıxarırdılar. Güney Azərbaycandan olan Siyaməkin azad edilməsi üçün partiya üzvləri Ali Məhkəmənin qarşısında bir neçə dəfə piket təşkil etmişdi.

Partiya üzvləri başda lider H.Tantəkin olmaqla Lənkəranda (12 dekabr 1989), Cəlilabadda (dekabr 1989) keçirilən mitinqlərdə də iştirak və çıxışlar etmişlər.

**1990-cı ilin 20 Yanvar hadisələrindən sonra** Milli Qurtuluş partiyasının Başqanı H. Tantəkin (yanvarın 25-dən 26-na keçən gecə) və Seyid Tahir Qarabaği də həbs edildi, onlara 108 saylı cinayət işi açıldı.

1990-cı ilin 20 dekabrında məhkəmə işi sona çatdı və onlara bəraət verildi.

***Qaynaq:***

*M.Hatəmi. Acı həqiqətlər. Bakı, “Şirvannəşr”, 1986.*

**Qeyd:** *1. Milli Qurtuluş partiyasının proqramı.*

*Bu proqramda əsası M.Ə.Rəsulzadə tərəfindən qoyulan “İki Azərbaycanın birləşməsi və bütövlük” ideyası ilk dəfə olaraq M.Hatəminin təşkilatının proqramında rəsmi qeyd edilib: “Partiyanın məqsədi Şimali və Cənubi Azərbaycanı vahid dövlət şəklində birləşdirməkdən ibarətdir”.*

## MİLLİ QURTULUŞ PARTİYASININ BƏYANNAMƏSİ

**"Əziz yurddaşlarımız, əziz Azərbaycan türk xalqı!**

Kapitalist ölkələrində müstəmləkəçilik sistemi çoxdan dağılmağa başlamışdır. Növbə sosializm cəbhəsinə çatmışdır. Rus istilasına qarşı SSRİ-də xalqların mübarizəsinin genişləndiyi, Moskvanın himayədarlığı və rəhbərliyi altında vətənimizə, xalqımıza qarşı erməni təcavüzünün alovlandığı bir zamanda Azərbaycanda yeni daha bir siyasi təşkilat fəaliyyətə başlamışdır. Qızılbaş Xalq Cəbhəsi və Müstəqil Azərbaycan Təşkilatının birləşməsindən yaranıb, Milli Qurtuluş Təşkilatı adlanan bu təşkilata xalqımızın siyasi xadimi Hatəmi Tantəkin başçılıq edir. Təşkilata mübariz dini qüvvələr də toplaşmağa başlamışdır.



*Məhəmməd Hatəmi cəbhə bölgələrində*

Vətənimiz Azərbaycanın şimal hissəsi qanlı çar və sovet Rusiyası tərəfindən iki dəfə – birinci dəfə 1813-1828-ci illərdə, ikinci dəfə 1920-ci ildə – işğal edilmişdir. 1920-ci il amansız, qansız sovet işğalı vətənimizə, xalqımıza daha ağır başa gəlmişdir. Belə ki, milli dövlətimiz dağıdılmış, onun vətənsevər kadrları məhv edilmiş, vətənimiz, xalqımız müdafiəsiz qalmışdır. Azərbaycan torpaqları Moskvanın iradəsi ilə Ermənistan, Gürcüstan, Dağıstan arasında paypüşk edilmişdir. Sənayemiz, kənd təsərrüfatımız müstəmləkə sənayesi, təsərrüfatı biçiminə salınmışdır. Xalqımız sözün həqiqi anlamında işlək kölə vəziyyətinə salınmış, milli sərvətlərimiz Rusiyanın ac qarnına axıdılmışdır. Vətənimizin gözəl çöhrəsi, ekologiyası pozularaq bərbad hala salınmışdır. Tarixi abidələrimiz qəsdən dağıdılmış, maddi-mədəni yadigarlarımız qarət edilmişdir. Alçaq siyasi niyyətlərlə tariximiz, mədəniyyətimiz saxtalaşdırılmış, əlifbamız əlimizdən alınmış, dinimiz, milli ənənələrimiz sıxışdırılmış, mənəviyyatımızda təxribatçılıq işləri aparılmışdır. Ən qorxulusu dilimizi ortadan qaldırmaq istəyərək bizi

ruslaşdırmaq təhlükəsi ilə üz-üzə qoymuşlar. Bu xalqı təkləyib məhv edə bilmək üçün onu SSRİ və xaricdəki qardaş türk xalqlarından təcrid etməyi də yaddan çıxarmamışlar.

SSRİ Konstitusiyasının 72, Azərbaycan SSR Konstitusiyasının 69-cu və Azərbaycan SSR Ali Sovetinin respublikamızın suverenliyi ilə əlaqədar 20 sentyabr 1989-cu il tarixli qərarına əsasən Azərbaycan SSRİ-dən ayrılıb müstəqil dövlət təşkil edə bilər. Milli Qurtuluş Təşkilatı rus əsarətindən, onun məhvedici ağır nəticələrindən xilas olmağın yeganə yolunu Azərbaycanın SSRİ tərkibindən çıxıb müstəqil, azad, suveren dövlət təşkil etməsində görür və bu məqsəd uğrunda mübarizə aparacaqdır. Bundan başqa, Cənubi Azərbaycan da İran İslam Respublikasından ayrılmalı və hər iki Azərbaycan vahid dövlət şəklində birləşməlidir.

Milli Qurtuluş Təşkilatı vətəni azad edib, 1918-1920-ci illər arasında fəaliyyət göstərmiş Azərbaycan Demokratik Respublikası modelində milli bir dövlət yaradacaqdır. Yalnız belə olan halda Azərbaycan xalqı yüzləri, minləri aşan özünün, vətəninin acınacaqlı, faciəli çeşidli problemlərini azad şəkildə həll edib, hər tərəfli çağdaş inkişafa, maddi və mənəvi xoşbəxtliyə qovuşa bilər.

Vətənini, xalqını sevən, onun azadlığı haqqında az-çox düşünən bütün milli və dini qüvvələri, geniş xalq kütlələrini Milli Qurtuluş Təşkilatı ətrafında birləşməyə səsləyirik. Hər yerdə bu təşkilatın özəklərini yaradın. Bizim şüarımız: "Qurtuluş və Allahu-Əkbərdir". Tanrı xalqımıza yar olsun!

**Milli Qurtuluş Təşkilatının Mərkəzi Özəyi. 03.12.1989-cu il".**

***Qaynaq:***
*M.Hatəmi.Acı həqiqətlər. Bakı, "Şirvannəşr", 1986.*

## MİLLİ QURTULUŞ PARTİYASININ KEÇİCİ PROQRAMI

1. MQP Azərbaycanın azadlığı, istiqlaliyyəti uğrunda mübarizə aparan leqal siyasi təşkilatdır. Bu məqsədə çatmaq üçün o, siyasi mübarizənin bütün formalarından istifadə edəcəkdir.

2. Partiyanın başqa bir məqsədi Quzey və Güney Azərbaycanı vahid dövlət şəklində birləşdirməkdən ibarətdir.

3. MQP-nin yaratmaq istədiyi müstəqil, suveren milli dövlət 1918-1920-ci illər arasında fəaliyyət göstərmiş Azərbaycan Demokrat Cümhuriyyəti modelində bir dövlət olub, insan hüquqlarına hörmət edərək, demokratiya, çoxpartiyalılıq, ideologiyanın dövlətdən ayrı olması prinsiplərinə əməl olunmalıdır.

4. Dövlət qanunvericilik, icraedici, məhkəmə-hüquq bölmələrindən ibarət olacaqdır. Dövlətin ali hakimiyyət orqanı olan Parlament ümumxalq seçkisi ilə təsis olunmalı və burada bütün partiyaların, xalqın bütün təbəqələrinin, zümrələrinin nümayəndələri iştirak etməlidirlər.

Respublika prezidentini seçmək, dövlət heyətini təsdiqləmək, onların fəaliyyətinə nəzarət etmək Parlamentin səlahiyyətinə daxildir. Çıxmaza girmiş dövlət əhəmiyyətli bu və ya digər siyasi məsələnin həlli üçün ümumxalq rəy sorğusuna (referendumuna) baş vurulmalıdır.

Dövlət aparatı tərəfindən idarə olunacaq yerli məhəlli orqanlar seçkili olmalıdır.

5. Yaradılacaq müstəqil, suveren milli dövlətdə söz, vicdan, etiqad, mətbuat azadlığı təmin ediləcəkdir. İnsanlar peşə, məskən seçməkdə, vətəndaşlığı tərk etməkdə, müvəqqəti və daimi yaşayış üçün tək və ailəliklə xaricə çıxıb getməkdə sərbəstdirlər ***(Proqram ixtisarla çap olunur).***

***Qaynaq:***

*M.Hatəmi. Acı həqiqətlər. Bakı, "Şirvannəşr", 1986.*

## "QURTULUŞ" MƏCMUƏSİ

"Qurtuluş" məcmuəsinin ilk sayı 1991-ci ildə çap edilib. Milli Qurtuluş partiyasının ideoloji xəttini əsas götürən bu məcmuənin redaktoru Yusif Kazımlı idi.

Məcmuənin ilk sayında "Ön söz" başlığında yazılmışdı: "Möhtərəm oxucular! Bu gün Siz "Qurtuluş" məcmuəsinin ilk sayı ilə tanış olursunuz! Adından göründüyü kimi, bu məcmuə işıqlı gələcəyə – Qurtuluşa doğru mübarizə yollarında xalqımızı səfərbərliyə almaqla yanaşı, Milli Qurtuluş partiyasının ideoloji xəttini ardıcıl olaraq təbliğ edəcəkdir!"




***"Qurtuluş" məcmuəsi***

Eyni zamanda, məcmuə öz səhifələrində xalqımızın tarixi keçmişi ilə bağlı yazılarla yanaşı olaraq, ictimai-siyasi, ədəbi-bədii, elmi-fəlsəfi, dini və publisistik məqalələr də dərc edəcəkdir. Bundan başqa ayın ən maraqlı məlumat və xəbərləri də məcmuənin səhifələrini bəzəyəcəkdir.

32 səhifədən ibarət olan məcmuənin ilk sayında aşağıdakı yazılar çap edilmişdi: 1) Ön söz – redaktordan; 2) "Azərbaycanda milli azadlığın xüsusiyyətləri" – Qazi Mənsur Əlisoy; 3) "Yaşayış uğrunda mübarizə qanununun hökmü" – Hatəmi Tantəkin; 4) "Xalq xəyanətkarları bağışlamır. S.Səlimbəyli ilə müsahibə".

"Qurtuluş" məcmuəsi redaksiyasının ünvanı belə göstərilirdi: Bakı şəhəri, Nizami küçəsi 86, tel: 98-60-45.

---

***Qaynaq:***

*"Qurtuluş" məcmuəsi, 1991, №1.*

## XALQ HƏRƏKATI CƏBHƏSİ

Bu təşkilatın yaradılması haqqında məlumatları H.Tantəkin özünün "Acı Həqiqətlər" kitabında bildirir. O, yazır ki, 1988-ci ilin 30 oktyabrında Çənlibel təşkilatının saat 4-də başlanacaq ümumi yığıncağında, Xalq Hərəkatı Cəbhəsinin Keçici Mərkəzinin proqram və nizamnamə səciyyəli **Azərbaycan xalqına bildirişi** oxundu. Zalda oturanlar bu sənədi böyük rəğbətlə, alqışlarla qarşıladılar. Həmin yığıncaqda H. Tantəkin Xalq Hərəkatı Cəbhəsinin sədri seçilir.

Xalq Hərəkatı Cəbhəsinə daxil olan ayrı-ayrı kollektivlərin, fərdlərin ilk siyahısı qısa halda belə idi:

**1. Axundov Elşən Məmməd oğlu - 160 nəfər.**

**2. Səlimov Firudun - Sərnişin Daşıma İdarəsi - 20 nəfər.**

**3. Cəfərov İshaq Məsim oğlu - Avtomobil Nəqliyyatı Nazirliyinin Texniki-Təchizat Bazası - 3 nəfər.**

**4. Şükürov Tofiq - "Azıx" Cəmiyyəti - 150 nəfər.**

**5. Nəsirov Vaqif - 30 nəfər.**

**6. Nəbiyev Qəhrəman - Şah İsmayıl Xətai Birliyi (EVM zavodu) - 170 nəfər.**

**7. Məmmədov Rüstəm - 3 nəfər.**

**8. Həsənov Mövlud - 50 nəfər.**

**9. Bağırov Rəfael - Ə. Əzimzadə adına Rəssamlıq məktəbi - 20 nəfər.**

**10. Mehdi Azəri - 2-ci Zabrat - 300 nəfər.**

**11. Abbasov Rauf - Azərbaycan Elmi-Tədqiqat Üzümçülük-Şərabçılıq İnstitutu - 20 nəfər.**

**12. Qasımov Nəriman - Yük-Avtomobil Nəqliyyatı Dəstəsi - 5 nəfər.**

**13. Əsgərov İmran - 31 nömrəli məktəb - 30 nəfər.**

**14. Mehdiyev Mehdi - Azərbaycan Neft və Kimya İnstitutu - 27 nəfər.**

**15. Abbasov Zahid - 25 nəfər.**

**16. Şükürov Haqverdi İsrail oğlu.**

**17. Quliyev Elxan Həsənağa oğlu.**

**18. Quliyev Niyazi Hüseyn oğlu.**

**19. Almuradov Nəriman Musa oğlu.**

**20. Qulamov Əsgər Ağatac oğlu.**

**21. Quliyev Mətləb Qafar oğlu.**

**22. Məmmədov İntiqam Həvəskar oğlu.**

**23. İsmayılov Osman Hacızadə oğlu.**

**24. Bayramov Ziyəddin Məhərrəm oğlu.**

**25. Əhmədov Mahmud Fəraməz oğlu.**

**26. Eminov Rasim İbrahim oğlu.**

**27. Eldarov Nazim Eldar oğlu.**

**28. Qurbanov Şahin Musa oğlu.**

**29. Səmədov Bəybala.**

**30. Cavadov Eldar Cavad oğlu.**

**31. Kərimova Ruhinaz.**

Hatəmi yazır: "Yaratdığım elə bir təşkilat tanımıram ki, DTK onu dağıtmağa, əlimdən çıxartmağa çalışmamışdır. 05.12.1988-08.08.1989-cu il tarixlərində həbsxanada olmağımdan yararlanaraq, DTK əlaltıları Xalq Hərəkatı Cəbhəsinin içərisindəki İsfəndiyar Coşğun kimi adamlarla əlaqəyə girib, təşkilatı iki yerə parçalayırlar. Təşkilatın kiçik bir hissəsi

İsfəndiyar Coşqunun başına toplaşıb **Birlik cəmiyyəti** olur". H.Tantəkin qeyd edir ki, təşkilatdakı əsas qüvvələr isə 1989-cu ilin 16 iyununda yaranan Azərbaycan Xalq Cəbhəsində fəaliyyətlərini davam etdirirlər.

***Qaynaq:***

*M.Hatəmi. Acı həqiqətlər. Bakı, "Şirvannəşr", 1986.*

## AZƏRBAYCAN XALQINA BİLDİRİŞ

"Xalq Hərəktı Cəbhəsi xalqımızı əritmək siyasətinin qarşısına tikiləcək, Azərbaycan dilinin dövlət dili olması uğrunda mübarizə aparacaq, tariximizin, mədəniyyətimizin saxtalaşdırılmasının qarşısını alacaq, xalqımızın "türk" adının, ərəb əlifbasının bərpasına çaba göstərəcəkdir. İslam dininin fəaliyyətinə sərbəstlik veriləcək, Novruz və dini bayramlarımız dövlət səviyyəsində qeyd ediləcəkdir.

Xalq Hərəkatı Cəbhəsi respublikada maarifi, təhsil sistemini milliləşdirəcəkdir. Orta və ali məktəblərdə, texnikumlarda şagirdlərin, tələbələrin milli ruhda böyüdülməsi, tərbiyə edilməsi üçün Vətən dərslikləri çap edilməsinə sərəncam verəcəkdir. Respublikamızda Rusiyaya sadiq çinovniklər yox, milli kadrlar hazırlanmalıdır. Azərbaycan xalqını da bu kadrlar idarə etməlidir.

Azərbaycan xalqı istər hakim, istər məhkum vəziyyətdə olsun, etniklərə Vətənində yer vermiş, onlarla həmişə sülh şəraitində yaşamış, özü ilə birlikdə bu torpaqda onları da yaşatmışdır. Xalq Hərəkatı Cəbhəsi yerli və gəlmə bütün etniklərə xalqımızın bu nəcib, insani, humanist münasibətini davam etdirməyi özünə borc bilir. Hamının bu gözəl, nazənin, sərvətli ölkədə siyasi və mülki hüquq bərabərliyi şəraitində azad, qayğısız, xoşbəxt yaşamağa haqqı vardır. Bizim dilimizə, dinimizə, adət-ənənələrimizə edilmiş təcavüz onlara rəva görülməyəcəkdir.

Cinsindən, milliyyətindən, dinindən, sənətindən, partiyalı-partiyasız olmasından, hansı idarədə nə vəzifəsində işləməsindən asılı olmayaraq, Xalq Hərəkatı Cəbhəsinin ideyalarını qəbul edən, bu ideyalar uğrunda mübarizə aparmağa hazır olan 15 yaşından yuxarı hər bir kəs bu təşkilata daxil ola bilər. Bu təşkilata daxil olanlar onun iclaslarında müntəzəm iştirak etməli, ayda bir manat üzvlük haqqı verməli, imkanı olarsa ona əlavə maddi yardım göstərməlidir.

Hamını, hamını – Azərbaycan xalqını Xalq Hərəkatı Cəbhəsində birləşməyə səsləyirik!

**Xalq Hərəkatı Cəbhəsinin Keçici Mərkəzi. 30 oktyabr 1988-ci il”. *(Bildiriş ixtisarla çap olunur).***

***Qaynaq:***
*M.Hatəmi. Acı həqiqətlər. Bakı, “Şirvannəşr”, 1986.*

## QIZILBAŞ XALQ CƏBHƏSİ
### (Güneylə Quzeyin bütövləşməsi, Bütöv Azərbaycan yaradılması – M.Hatəminin ideyası)

Qızılbaş Xalq Cəbhəsinin yaradıcısı olan Hatəmi Tantəkin yazır ki, bu təşkilatı AXC-yə alternativ olaraq 1989-cu ilin sentyabr ayında yaratdım.

M.Hatəmi bildirirdi ki, bu sözü götürməklə, heç də şiələri nəzərdə tutmur və şiəliyi də, sünniliyi də İslam dini üçün düşmənçilik sayır. Ancaq bu adla hərəkatımızda birləşənlərin Şah İsmayıl Xətainin qızılbaş döyüşçüləri kimi igid, yurdsevər qəhrəman olmasını, torpaqlarımız uğrunda vuruşmasını istədiyimizi göstərmişik. **M. Hatəmi bildirirdi ki, Qızılbaşların Xalq Cəbhəsi Şimali və Cənubi Azərbaycanlıların Sovet İttifaqı və İranın tərkibindən çıxıb müstəqil, ayrıca dövlət yaratması uğrunda mübarizə aparır.**

O, qeyd edirdi: “Biz istəmirik ki, cənubdakılar buradakılar kimi maddi cəhətdən dilənçi olsun, var-dövləti insafsızcasına talan edilsin, ölkə dilənçi vəziyyətində qalsın, dini, imanı əlindən alınsın. Eyni zamanda istəmirik ki, şimaldakılar da, cənubda olduğu kimi dillərindən, məktəblərindən, ana dilindəki mətbuatlarından, milli varlıqlarından məhrum edilsin. Ona görə də biz cənubu İrandan, şimalı Sovetlərdən ayırıb Bütöv Azərbaycan yaratmaq istəyirik”.

Hatəmi Qızılbaşların Xalq Cəbhəsi ilə Azərbaycan Xalq Cəbhəsi arasındakı başlıca ideya ayrılığını da bunda görür – AXC Azərbaycanın gələcəyini SSRİ-nin tərkibində təsəvvür edir, Azərbaycanın müstəqil birləşməsini düşünmür, QXC isə Sovet İttifaqından çıxmağımız (cənubun isə İrandan çıxması) uğrunda mübarizə aparır. Hatəmiyə görə AXC-nin mövqeyi bir çox hallarda yumşaq, barışdırıcıdır.

Sonra meydan bir neçə gün Qızılbaşların əlində oldu. Onlar başlarına nazik, qırmızı lent bağlayırdılar. Bu lentin üzərinə sonradan “Qarabağ”, “Azərbaycan”, “Azəritürk” yazdırdılar. Onlar həmişə meydanın “Azər-

baycan" mehmanxanası tərəfdən 2-ci tribunası tərəfdə dayanırdılar. Gecələr **Hatəmi və Mənsur Əlisoy** səhərə qədər təbliğat aparır, camaatı dağılmamağa çağırırdılar.

---

***Qaynaq:***
*Ə.Tahirzadə. Meydan: 4 il 4 ay. I cild. Bakı, 1997.*

***Qeyd:*** *Güneyli, qüzeyli Azərbaycanın bir bütöv olması ideyasının ilk yaradıcısı M.Ə.Rəsulzadədir. İlk dəfə olaraq M.Ə.Rəsulzadə Güneydə yaşayan Azərbaycan türkləri haqqında "İran türkləri" əsərini yazmış və 1911-1912-ci illərdə İstanbulda "Türk Yurdu"jurnalında çap etdirmişdir. M.Ə.Rəsulzadənin başçılığı ilə 1918-ci ildə Azərbaycan adlı dövlətin yaradılmasına isə İran şovinistləri etiraz edib onun əleyhinə yazılar çap etmişlər. Onlar M.Ə.Rəsulzadənin İran ərazisində olan Azərbaycan adının burada dövlətə qoyulmasından ciddi narahat olmuşdular. M.Ə.Rəsulzadənin İran şovinistlərinə yazdığı cavablar da vardır və o dövrün mətbuatında çap edilib. Əslində M.Ə.Rəsulzadə dövlətə Azərbaycan adını qoymaqla güneyli-qüzeyli, bütöv Azərbaycan ideyasını reallaşdırmağa başlamışdı. Sonrakı dövrdə də güneyli-quzeyli Azərbaycan şairlərimizin yaradıcılığında öz əksini tapdı. B.Vahabzadənin "Gülüstan" əsərində də bu ideya ciddi səsləndirildi, böyük insan kütləsini öz təsirinə saldı.*

## QIZILBAŞ XALQ CƏBHƏSİNİN MƏRAMNAMƏSİ

"İctimai-siyasi təşkilat olan Qızılbaş Xalq Cəbhəsi 1989-cu il sentyabr ayında yaradılmışdır. Onun siyasi məqsədi Azərbaycanı SSRİ-dən ayırıb, müstəqil dövlət şəklinə salmaqdır. Buna, mövcud dövlət Aparatının milliləşdirilməsindən başlamağı məqsədəuyğun sayırıq. **Qızılbaş Xalq Cəbhəsinin bu sahədəki məqsədlərindən biri də Quzey Azərbaycanın SSRİ-dən, Güney Azərbaycanın İrandan ayrılıb müstəqil dövlət şəklində birləşmələridir...**
***Qızılbaş Xalq Cəbhəsinin Mərkəzi Özəyi."***

***Qaynaq:***
*M.Hatəmi.Acı həqiqətlər. Bakı, "Şirvannəşr", 1986.*

# AZƏRBAYCAN QADINLARININ FƏALLIĞI

## DİLARƏ ƏLİYEVA



*Dilarə Əliyeva*

Dilarə Ələkbər qızı Əliyeva Tbilisidə anadan olub. Bakı Dövlət Universitetini bitirib. Filologiya elmlər doktoru olmuşdur. Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda SSRİ Xalqları ədəbi əlaqələri bölməsinin müdiri işləyib. AXC İdarə Heyətinin üzvü, Azərbaycan Qadınları Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri olub.

Cəmiyyət yüzlərlə qaçqın ailəsinə, habelə Leninakana uçarkən təyyarə qəzasında həlak olmuş həmyerlilərimizin ailələrinə kömək edib. D.Əliyeva çıxışlarında azərbaycanlı çağırışçıların yalnız Azərbaycan daxilində xidmət etməsini vacib sayırdı. Respublikadan kənarda xidmət edən həmvətənlərimizin məhz azərbaycanlı olduğuna görə incidildiyini tənqid edirdi. O, qeyd edirdi ki, yalnız 1990-cı ilin oktyabrına qədər Sovet İttifaqının müxtəlif yerlərində qulluq edən 134 azərbaycanlı "qara qutu"da vətənə qayıdıb. O, qeyd edirdi ki, bəzi məlumatlarda ölənlərin sayı 600 nəfər göstərilir.



*Dilarə xanımın dəfni*

D.Əliyeva Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında da önəmli rol oynayırdı.

## XANIM XƏLİLOVA

Azərbaycanın fəal xanımlarından olan Xanım Xəlilova ailəsi sürgündə olarkən doğulub. Bakı Dövlət Universitetinin Kimya fakultəsini bitirib. Doktorluq çalışmalarını Moskvada və Riqada yerinə yetirib. 1988-ci ildən fəal mücadiləyə başlayıb. 1991-ci ildə Azərbaycan Xalq Cəbhəsinin Ali



*Xanım Xəlilova*

Məclisinə üzv seçilib. 1992-ci ildən Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri, sonradan həmsədri olub. 1 aprel 1993-cü ildə ermənilərə qarşı Qadın Batalyonu yaradıb. 1993-cü ilin 4 iyun hadisələrindən sonra Türkiyədə yaşamaq məcburiyyətində qalıb. 1994-cü ildən Ankara Universitetinin Ziraət fakultəsində müəllim olaraq çalışmaqdadır.

## NOVELLA CƏFƏROĞLU



*Novella Cəfəroğlu*

Novella Cəfəroğlu 1941-ci il martın 3-də Naxçıvan şəhərində anadan olub. 1958-ci ildə məktəbi bitirərək Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olub. 1963-cü ildə təhsilini başa vurub. Mərkəzi regional analitik laboratoriyada kimyaçı mühəndis vəzifəsində işləməyə başlayıb. Sonrakı illərdə Cənub Geoloji ekspedisiyasında, Baş Geoloji idarədə, Azərbaycan Əlvan Metallurgiya Elmi-tədqiqat laboratoriyasında müxtəlif vəzifələrdə çalışıb.

1977-ci ildə Balakəndə laboratoriya müdiri vəzifəsində işləyib. 1984-cü ildə Azərbaycan Əlvan Metallurgiya idarəsində baş mühəndis və şöbə müdiri vəzifəsində çalışıb. Kimya elmləri namizədidir. Çoxlu elmi məqalələri, kitabları çap edilib.

1990-cı ildə Azərbaycan milli-azadlıq hərəkatına qoşulub, D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin fəallarından olub. 1993-cü ildən həmin cəmiyyətin həmsədridir. 1998-ci ildə Avropa Şurası və ABŞ-ın Demokratiya uğrunda Marşall mükafatına layiq görülüb.

## AZƏRBAYCAN QADIN HÜQUQLARI MÜDAFİƏ CƏMİYYƏTI


***Cəmiyyətin emblemi***

1989-cu ilin 18 sentyabrında Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin quruluş konfransı keçirildi. Tanınmış ziyalı xanım, professor Dilarə Əliyeva cəmiyyətin başqanı seçildi. Cəmiyyətin rəsmi fəaliyyətinə isə 1991-ci ilin 19 fevralında Ədliyyə Nazirliyinin onu qeydiyyata almasından başlanıldı. Cəmiyyətin əsas prinsipləri aşağıdakılar idi:

1. Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyəti (AQHMC) ölkədə aparılan yenilənmə və demokratikləşmə prosesində Respublika qadınlarının haqları uğrunda mücadilə edən ictimai bir təşkilatdır.

2. Təşkilatın başlıca vəzifəsi Azərbaycan Qadınının haqlarını, öncəliklə qadınların analıq və qadınlıq haqlarını müdafiə etmək, qadınlarımızın siyasi, sosial sahələrdəki haqlarının təsisi üçün gərəkli şərtlərin oluşması üçün çalışmaqdır.

3. AQHMC sosial və siyasi mücadilələrini Azərbaycan Konstitusiyasına və hüququna və Birləşmiş Millətlərin qəbul etmiş olduğu ölkələrarası əlaqələrə bağlı olaraq yürüdür.

4. AQHMC-nin fəaliyyətləri İnsan Haqları əlaqə və kuralları dairəsində yürüdülür.

5. AQHMC qadın və uşaqlarımızın sağlam yaşam sürməsi üçün fəaliyyət göstərir. Cəmiyyət, xüsusilə sənayedə və kənd təsərrüfatı sahəsində çalışan qızlarımız və qadınlarımızın sağlığını təhlükəyə atan şərtlərin və iş yerlərinin aradan qaldırılması üçün mübarizə aparır.

6. AQHMC işləyən qadınlarımızın iş saatlarının azaldılması (5-6 saatdan çox olmaması) üçün mübarizə edir.

7. AQHMC ağır sənayedə və kənd təsərrüfatı sahəsində çalışan qadınlarımızın gördüyü işlərin ağırlığı və çalışma şərtlərinin ölkələrarası standartlara uyğun gəlməsi üçün mübarizə edir.

8. AQHMC oxumaqda olan öyrəncilərimizin tarlalarda işlədilməsinin qarşısını almaq üçün mübarizə aparır.

9. AQHMC hamilə və uşaqlı qadınlarımızın və uşaqların sağlıqlarını pozan, zəhərli və kimyəvi maddələrin saxlanıldığı sahələrdə, radiasiyalı yerlərdə çalışmalarının qadağan olunması üçün mücadilə edir.

10. Pambıq tarlalarında əsas iş gücü qadın əməyi olaraq kullanılmaqdadır. Bu səbəblə, cəmiyyət Cümhuriyyət torpaqlarında pambıq əkininin sınırlandırılması üçün mücadilə edir.

11. Cəmiyyət tütün emalında qadın əməyinin azaldılması üçün çalışmalar yürüdür.

12. Gülçülük və üzümçülükdə zəhərli kimyəvi maddələrin kullanılmasının qadağan edilməsi üçün çalışmalar aparmaq.

13. Sağlam bir nəslin yetişməsi şərtləri mövzusunda hüquqi düzənləmələr yapılması üçün çalışmalar aparmaq.

14. Cəmiyyət qadınlarımızın ailə sorunlarını azaltmaq üçün çalışmalar yürüdür.

Cəmiyyətin fəaliyyət proqramından aydın olurdu ki, başlıca vəzifə Azərbaycanda mövcud şərtlər altında əzilmiş qadınların hüquqlarını müdafiə etməkdir.

Bu şərtlər daxilində yaranmış cəmiyyətin üzvləri həm də Azərbaycanın müstəqillik mücadiləsinə başladılar. Bu fəaliyyət isə mövcud sovet rejimini narahat etməyə bilməzdi. Bir müddət sonra (1991-ci ilin 20 aprelində) cəmiyyətin başqanı prof. Dilarə Əliyeva şübhəli bir avtomobil qəzasında həlak oldu (bəzi versiyada bu qəzanı sovet DTK-sının törətdiyi bildirilir).

Dilarə xanımın dünyasını dəyişməsindən sonra 1992-ci ilin dekabr ayında cəmiyyətin qurultayı keçirildi və **Xanım Xəlilova** başqan seçildi.

Bu dövrdə erməni işğalçılarına qarşı aparılan savaşa da cəmiyyətin üzvləri ciddi dəstək göstərdilər, döyüşən əsgərlərimizə yardım etdilər. Bu xanımlar arasında aşağıdakılar var idi: Xanım Xəlilova, Novella Cəfəroğlu, Səidə Qocamanlı, Nüşabə Məmmədova, Almaz Məmmədova, Xalidə, Rəfiqə, Natella, Zeynəb, Nabat, Çiçək, Əntiqə, Elmira, Firuzə, Məlahət və başqaları da var idi.

**1. Əzizə Ana -** Qadın Hüquqları Müdafiə Cəmiyyətinin fəallarından olub. 1990-cı ilin 20 Yanvarında sovet ordusu Bakıya girərkən oğlu Cavad şəhid olmuşdu.

**2. Rəfiqə Əliyeva -** Qadın Hüquqları Müdafiə Cəmiyyətinin ilk üzvlərindəndir. 1988-ci ildə ermənilər Qarabağ kəndlərinə hücum etdiyindən kənd məktəblərində müəllimlərin sayı az idi. Bu səbəbdən Rəfiqə xanım Bakı liseyindəki pedaqoji fəaliyyətini dayandırıb, Qarabağın ermənilərlə sərhəddə yerləşən kəndlərin birində müəllimlik etmişdi.

AQHMC-nin fəaliyyəti getdikcə genişlənirdi. 1993-cü ilin aprelin 1-dən isə Azərbaycan Qadın Batalyonunun qurulduğu elan edildi.

---

***Qaynaq:***

*1. X.Xəlilova. Tarixdən bu günə Türk qadını. Ankara, 2004.*

*2. Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin Proqram və Nizamnaməsi. 18.09.1989.*

## QADINLARIN FƏALLIĞI

Azərbaycan qadınları (istər Azərbaycan Xalq Cəbhəsində, istərsə də D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətində olsun) xalqımızın ən ağır günlərində fəallıq göstərmişlər.

1990-cı ilin 20 Yanvar hadisələrində onlar hələ şəhidlər dəfn edilməmiş – 21 yanvarda Salyanskidəki hərbi hissəyə etiraz yürüşü etdilər. Yanvarın 22-də isə 200-300 nəfər qadın bayraqla (bayrağı Nabat xanım qaldırmışdı) şəhər komendantı, rus generalı Dubinyakın qərargahına yürüş edib, etirazlarını bildirdilər. Azərbaycanın informasiya blokadasının yarılmasında da qadınların az rolu olmadı.

Fəal qadınlardan olan Səidə Qocamanlı isə 20 Yanvar Şəhidlərinin ailəsinə ciddi kömk göstərmiş, ehsanlar vermişdi.

Qadınların fəallığı ilə 500 minə yaxın insandan sovet qoşunlarının 20 Yanvarda Bakıya daxil olması əleyhinə imza topladılar.

1992-ci ilin fevralında ermənilərin törətdikləri Xocalı soyqırımından bir neçə gün sonra fəal qadınlardan bir qrupu (burada xüsusən Sona Əlibəyova ciddi kömək göstərmişdi) Moskvaya getmiş, ayrıca otaq kirayələ-

miş və baş verən hadisəni rusiyalı deputatlara izah etmiş, soyqırıma məruz qalanların fotolarını onlara paylamışdılar. Bu işdə qadınlardan Novella Cəfərova, Sona Əlibəyova, Tamilla Nağıyeva, Nüşabə Məmmədova, Aida Babayeva və digərləri fəallıq göstərmişdilər.

Həmin dövrdə fəal qadınlardan bir qrupu şair Xəlil Rzanın, Etibar Məmmədovun və digərlərinin həbsinə etiraz edərək Moskvada təbliğat işləri aparmışdılar.

1991-ci ildə isə oktyabrın 17-də ("Müstəqillik Aktı" qəbul edilməmişdən bir gün öncə) sovet milisləri qadınların əllərində tutduqları üçrəngli bayrağı onlaran alıb vəhşicəsinə döymüşdülər.

Azərbaycan qadınları çox fəal idi. Onlar tez-tez döyüş bölgələrinə gedir, əsgərlərə ərzaq paylayır, kitablar verir, onlara elə orada xörək bişirir, yaralılara qayğı göstərirdilər. Cəbhə bölgələrində Novella xanımı, Xanım müəlliməni, Sveta xanımı, Nabat, Qaratel, Dilarə Salayeva və digər xanımları tez-tez görmək mümkün idi. Şəhid ailələrinə yardım göstərilməsində isə Firuzə Bəyməmmədqızı ciddi fəallıq göstərirdi. Firuzə xanım sonradan "Şəhidlik çələngi" silsiləsindən "Bircə günün şəhidləri" (1995-ci il), "Bulaqların gözü yaşlı" (1998-ci il) "”Vağzalı çalınır" kitablarını yazdı.


*Əzizə ana döyüş bölgələrində*

**Əzizə ananın qəhrəmanlığı isə unudulmazdır.** Şair Mikayıl Müşfiqin qohumu olan Əzizə ana oğlu **Cavad İsmayılzadə** savaşlarda şəhid olduqdan sonra döyüş bölgələrinə getmiş, onları düşmənə qarşı mübarizəyə çağırmışdı.

Hərbi jurnalistlərdən Roza Əliqızı, hərbçi xanım Məleykə də döyüş bölgələrində olub, fəallıqlar göstəriblər.

## DÖYÜŞƏN VƏ MƏRD QADINLAR

**Hacımahmudova Qaratel Şəmi qızı.** 1948-ci ildə Qazaxın Aşağı Əskipara kəndində doğulub. Dəfələrlə döyüşlərdə iştirak edib. 1991-ci ilin sentyabr ayında Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin fəal üzvlərin-

dən olan Qaratel xanım torpaqlarımızı erməni hücumlarından qorumaq və əsgərlərimizə yardım üçün Qazax bölgəsinin Aşağı Əskipara kəndinə getmiş, düşmənlərə qarşı savaşmış və çox bacarıqlı bir nişançı kimi tanınmışdı. O, həm də döyüşçülərin qayğısına qalır, xörəklərini bişirir, paltarlarını yuyurdu.1992-ci ilin iyun ayında ermənilər Aşağı Əskipara kəndini ələ keçirdi. Onlar Qaratel xanımı da sağ olaraq ələ keçirmək istəyirdilər. Bu səbəbdən onu ayağından yaralamışdılar. Düşmənə təslim olmamaq üçün o, öz tapançası ilə başından vurub həyatına son qoymuşdu. Tanınmış şair Hüseyn Arif bu mərd Azərbaycan xanımına həsr etdiyi "Qaratel balam" şeirində yazırdı:



*Qaratel Hacımahmudova*

Çatdı qulağıma qara xəbərin,
Canıma od saldı, Qaratel balam.
Dünən sıramızda əsl həqiqət,
Bu gün isə xəyaldı Qaratel balam.
Parladı müqəddəs bir arzu kimi,
Sübhün şölə saçan ulduzu kimi.
Qoç Koroğlu kimi, Zal qızı kimi,
Mərdliklə ad qazandı Qaratel balam!

Qeyd edək ki. bu illərdə "AQHMC"-nin fəaliyyəti getdikcə genişlənirdi. 1993-cü ilin aprelin 1-dən isə Azərbaycan "Qadın Batalyonu"nun qurulduğu elan edildi.

**Nəsibova Məlahət Ənvər qızı.** 1953-cü ildə Şəmkir rayonunun Zəyəm kəndində anadan olub. 1988-ci ildə Azadlıq Meydanındakı mitinqlərdə fəallıq edib, 5 dekabrda meydan dağıdılanda döyüşüb, əzilib. 1990-cı ilin 20 Yanvar hadisələrində yaralansa da, sağ qalır. D. Əliyeva adına Azərbaycan Qadın Hüuqla-



*Məlahət Nəsibova*


Gülbar Heydərova

rını cəmiyyətinin xətti ilə qaçqınlara əl tutur, köməklik göstərir. DİN-nin Daxili Qoşunlarında çalışır. Məlahət xanım 1990-cı ilin avqustunda ön cəbhəyə getdi, avqustun 2-də Ağdərə uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldu. Oğlanları Zaur və Ramin anasız qaldı.

**Heydərova Gülbar Heydər qızı.** Gülbar xanım 1965-ci ilin martın 1-də Füzulinin Qaraməmmədli kəndində anadan olub. Zərgər kənd orta məktəbini bitirib. Sonra Neft və Kimya Texnikumunda oxuyub. Füzulinin "N" hərbi hissəsində rabitə bölməsinin komandiri olub. 16 may 1992-ci ildə "Güngörməz" əməliyyatında döyüş qabiliyyətini göstərib. 28 iyun 1992-ci ildə keçirilən "Tuğ" əməliyyatında isə ona qədər döyüşçünün mühasirə şəraitində yarasını sarımış, sərrast atəşlə düşmən silahlarını susdurmuşdur. O, 13 oktyabr 1992-ci il tarixində "Uryandağ" əməliyyatında da rabitə işlərini yüksək peşəkarlıqla aparmışdır. O, həm də kəşfiyyatçı idi, Karate üsullarını əla bilirdi və maşın sürməyi də bacarırdı. Füzuli bölgəsindəki "Məngələn-ata" döyüşü onun son savaş yeri oldu. Döyüşdə ayaqlarından qan sızmağına baxmayaraq, ağırlıq olmaması üçün ayaqqabılarını çıxarıb döyüşən Gülbar döyüşçü yoldaşlarına son sözünü dedi: "Kim qaçsa, yerindəcə özüm güllələyəcəm!" Füzulidə sona qalan səkkiz nəfərdən biri də Gülbar idi və geri çəkilmək istəmirdi. Ermənilərin atdığı mərmi partlayışından o, həlak oldu. Qəlpə onun düz boğazından dəymişdi.


Sədaqət Rəcəbova

**Rəcəbova Sədaqət Abakər qızı.** 1971-ci ilin yanvarın 27-də Zaqatala rayonunun Sabunçu kəndində anadan olub.

Evdə hamı onun cəbhəyə getməsinə etiraz edib. O, Qarabağ döyüşlərində iştirak edib. Sədaqət Ağdərə, Ağdam, Goranboy, Füzuli bölgələrində torpaqlarımızın bütövlüyü uğrunda erməni işğalçıları ilə döyüşmüşdür. O, çox qorxmaz insan idi. Tərkibində olduğu III ta-

ğımla gecələr postda durub, keşik çəkib və torpaqlarımızı qoruyub.

1993-cü ilin avqustun 8-də gedən ağır döyüşlərdə əlində avtomat silah, alnından dəyən gülədən həlak oldu.

Ölümündən bir neçə ay əvvəl, aprelin 8-də Zaqatala Xalq Cəbhəsinin sədri İlqar bəyə belə bir məktub yazmışdı: "Mən bu gün Füzuliyə gedirəm...**Vətənin bu dar günündə torpaqlarımızın müdafiəsində iştirak etməyi hər şeydən üstün tuturam.** Bir də ki, axı İlqar bəy, Vətənin keşikçisi olmaqdan gözəl nə var? Sağ olun. Ölsəm şəhid, qalsam qazi kimi qayıdacağam!"

**5. Qəhrəmanova Könül Kamran qızı -** Qadın Hüquqları Müdafiə Cəmiyyətinin Şəki şöbəsi üzvü olan Könül xanım Qarabağda ermənilərlə olan savaşda şəhid oldu.



***Könül Qəhrəmanova***

---

***Qaynaq:***

*F.Bəyməmmədqızı. Vağzalı çalınır. Bakı, 1996.*

**"HUMAY" QƏZETİNİN NƏŞRİ**

**"Humay" qəzeti -** Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin orqanı olub. Qəzet 1990-cı ildə "Ana haqqı, Tanrı haqqı" şüarı ilə nəşr edilib. Bu qəzet gizli şəkildə Bakıda çap etdirildi. Amma məkanı Tbilisi yazildı. Qəzetin adı Ə.Elçibəy tərəfindən təklıf edildi və "Humay" adlandırıldı. "Humay" qədim türklərdə tanrı adıymış.

Qəzet qeyri-leqal çıxdığı üçün gizli şəkildə çap edilir və gizli yollarla metro qarşısında və müəssisələrdə həm paylanır, həm də satılırdı. Qəzetin nüsxələri cəmiyyətin üzvlərinin evlərində gizli saxlanılırdı.

O zaman informasiya azlığı olduğundan məlumatların əksəriyyəti in-


Ана һаггы, танры һаггы!

Һумај

Азәрбајҹан Гадын һүгугларынын Мүдафиә ҹәмијјәтинин гәзети

Август 1990 №1 Гијмәти 50 гәп.

Чағырыш

БУ ИЗТИРАБ ДИНӘЧӘК

*"Humay" qəzeti*

sanların ümid yeri olan AXC –nin informasiya şöbəsindən alınır və məmnuniyyətlə oxunurdu.

**Redaktoru Sevda Məmmədli** olub. Qəzet əsasən Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatındakı rolunu işıqlandırıb. Qəzet həmçinin o dövrün ən aktual məsələlərindən biri – sovet ordusunda xidmət edən azərbaycanlıların taleyi ilə bağlı məsələyə də toxunub.

***Qaynaq:***
*"Humay" qəzeti, 1990-cı il, N1*

## "HUMAY" QƏZETİNİN BAŞ REDAKTORU – SEVDA MƏMMƏDOVA


***Sevda Məmmədova***

1961-ci ildə Daşkəsən şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhərində fərqlənmə attestatı ilə bitirib. 1978-1983-cü illərdə BDU-nun (Bakı Dövlət Universitetnі) jurnalistika fakultəsində təhsil alıb. 1989-cu ildə Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyəti yaradıldı və professor Dilarə Əliyeva onun sədri seçildi. S.Məmmədova cəmiyyətin Sumqayıt şöbəsinin sədri oldu (hazırda da onun sədridir). 1990-cı ildən "Humay" qəzeti nəşr edilməyə başlayır və S.Məmmədova 1992-ci ilə qədər qəzetə baş redaktorluq edir. Materialların hazırlanması, makinada çapı və paylanması işini o yerinə yetirirdi. S.Məmmədli 1998-

2002-ci illərdə "Cümhuriyyət" qəzetinin baş redaktorunun 1 müavini olaraq da fəaliyyət göstərib. 2006-cı ildə "Qadın və sülh" jurnalının, 2013-2014-cü ildə "Qadın və sağlamlıq" jurnalının baş redaktoru olub. 2004-cü ildən Sumqayıt Diskussiya Klubunun təsisçisi və rəhbəridir.

**İSTİQLALÇI DEPUTAT – MƏRYƏM HƏSƏNOVA**



***Məryəm Həsənova***

Azərbaycanın fəal qadınlarından olan Məryəm Həsənova Xızı rayonunda müəllim ailəsində anadan olub. Ailəsi Bakıya köçdüyündən o, Bakı şəhər 190 saylı orta məktəbdə oxuyub. Bakı Dövlət Universitetinin filologiya fakultəsində təhsil alıb. Universiteti bitirdikdən sonra Dəvəçi (indiki Şabran) rayonunda müəllim olaraq çalışıb. 1982-1999-cu illərdə Zarat kənd orta məktəbində direktor işləyib.

Məryəm xanım 1990-cı ildə Azərbaycan Ali Sovetinə deputat seçilib. O dövrdə əhalinin ictimai, iqtisadi və zəruri tələbləri əsasında Siyəzənin Dəvəçidən ayrılıb müstəqil rayona çevrilməsində M.Həsənovanın fəal rolu olmuşdur.

M.Həsənova SSRİ tərkibində qalmaqla bağlı referenduma qarşı etirazını 12 günlük aclıqla bildirmişdi.

MDB-yə daxil olmaq qərarına qarşı Milli Məclisi tərk edən istiqlalçı deputatların sırasında M.Həsənova da var idi.

Azərbaycanın müstəqilliyinə imza atan millət vəkilləri sırasında M.Həsənovanın da adı var.

---

***Qaynaq:***
*Məryəm Həsənovanın şəxsi arxivindən.*

***Qeyd:*** *Məryəm xanım ailəsində baş verən faciə ilə bağlı bütün iclaslarda qara örtükdə əyləşib.*

## ZƏMİNƏ CABBAROVA
### *(AXC-nin gizli iclaslarına görə evinə partlayıcı atılan xanım)*



***Zəminə Cabbarova***

Zəminə Cabbarova yaşadığı və AXC iclaslarının keçirildiyi evdə gizli olaraq üçrəngli bayraqlarımızı müxtəlif parçalardan tikib hazırlayır, mitinqlərə göndərirdi. Bu işdə ona Ağamalı Sadiq Əfəndinin həyat yoldaşı Nabat xanım kömək edirdi. "Meydan" qəzetinin də bəzi sayları bu evdə hazırlanıb. Qəzetin maliyyələşməsini də Zəminə xanım edib. AXC rəhbərliyi Zəminə xanıma Qadınlar Cəmiyyəti yaradıb, ona başçılıq etməyi təklif etmişdi. İxtisasca mühəndis olan Zəminə xanım bu təklifi qəbul etməsə də, AXC Təşəbbüs Mərkəzinin üzvü kimi fəaliyyətə razılaşmışdı..

Z.Cabbarova yaxın adamları ilə Sovet ordusundakı bir çeçen albayından silahlar alıb Qarabağa göndərirdi. Bunun müqabilində onlar albayın xəstə uşağına kömək edirdilər. Albayın adı Xansultan idi. Zəminə xanımın evini də məhz buna görə yandırmaq istəmişdilər.

---

***Qaynaq:***
*Zəminə Cabbarovanın şəxsi arxivindən.*

## İLK QADIN TƏŞKİLATININ YARADICISI- SEVİL CAHANİ

Atası S.Pişəvəri fədaisi olan Sevil Cahani 1988-ci ildən başlanan milli azadlıq hərəkatına qoşularaq böyük fəallıq göstərib.S.Cahani Azərbaycan qadınlarının fəallığını artırmaq və onları təşkilatlandırmaq məqsədi ilə həmin dövrdə "Şərq Qadını" adlı bir qurum da yaratmışdı.S.Cahani sovet rejimi əleyhinə keçirilən mitinqlərdə də fəallıq göstərirdi.20 Yanvar faciəsi ərəfəsində o, həyat yoldaşı Manaf Süleymanovla birgə Almaniyaya getmiş,alman ictimaiyyətinin diqqətini Azərbaycanda gedən proseslərə cəlb etmişdi.Almaniyadan birbaşa Moskvaya qayıdan S.Cahani burada



*Sevil Cahani*

Etibar Məmmədovun faciə ilə bağlı Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirdiyi mətbuat konfransında iştirak etmiş, nümayəndəliyə basqın edən "Alfa" qrupunun kobudluğu ilə qarşılaşmış, həmin dövrdə hamilə olmasına baxmayaraq özünü cəsarətlə aparmışdı.Bakıya qayıtdıqda həyat yoldaşı, coğrafiya üzrə fəlsəfə doktoru Manaf Süleymanovu "DTK" əməkdaşları həbs etmiş və onu 45 gün həbsxanada saxlamışdılar.

## SALATIN ƏSGƏROVA



*Salatın Əsgərova*

Salatın Əziz qızı Əsgərova – Azərbaycan jurnalistii, "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri, Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi.

1961-ci il dekabrın 16-da Bakıda ziyalı ailəsində doğulub. Salatın Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) təhsil alıb. Mühəndis diplomu alsa da, sonradan jurnalist kimi fəaliyyət göstərib.

O, "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı kimi müharibənin ilk günlərindən hərbi mövzuda yazılar yazıb, tez-tez cəbhənin qaynar nöqtələrində olub, heç nədən qorxmadan dəfələrlə erməni kəndlərinə gedib, onları yanlış yoldan geri çağırmağa çalışıb.

1991-ci il yanvarın 9-u jurnalist kimi Laçından Şuşaya yola düşür. Yolun 6-cı kilometrliyində Qaladərəsi kəndi yaxınlığında erməni silahlı qüvvələrinin mühasirəsinə düşür və maşını yaxın məsafədən şiddətli atəşə tutulur. Nəticədə tanıınmış jurnalist, "Molodyoj Azerbaydjana" qəzetinin əməkdaşı və ən nəhayət Azərbaycanın qeyrətli qızı Salatın Əsgərova amansızcasına qətlə yetirilir.

Yaxınlığında həlak olduğu kənd "Salatınkənd" adlanır.

# BAKI DÖVLƏT UNİVERSİTETİNƏ M. Ə. RƏSULZADƏNİN ADI VERİLİR

Azərbaycan Xalq Cəbhəsinin tarix fakultəsindəki dayaq dəstəsi **1989-cu ilin 26 oktyabrında** Azərbaycan Dövlət Universitetinin (o zaman S.M. Kirov adına ADU adlanırdı – *red.*) tələbnamə ilə müraciət edərək, universitetin adının dəyişdirilməsini tələb etmişdilər. Tələbnamədə qeyd edilirdi ki, universitetin tarixi adı - Bakı Dövlət Universiteti bərpa edilsin, universitetin yaradılmasında və inkişafında heç bir rolu olmadığına görə S.M.Kirovun adı universitetin üzərindən götürülsün, universitetin əsasını qoyanlardan biri, xalqımızın böyük mütəfəkkiri, görkəmli ictimaiyyətçi və siyasi xadim Məhəmməd Əminin adı verilsin.

AXC dayaq dəstəsinin bu tələbinə tezliklə razılıq verildi. 1989-cu ilin oktyabrın 31-də universitet rəhbərliyinə və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə belə məzmunda məktub göndərildi: "Universitetin rektorluğu, partiya komitəsi və ictimai təşkilatları Sizə məlum edir ki, geniş ictimaiyyətin arzu və təkidi nəzərə alınaraq, **Elmi Şuranın 27 Oktyabr 1989-cu il tarixli iclasında** Azərbaycan Dövlət Universitetinin tarixi adının bərpa olunması barədə məsələ müzakirə edilmişdir.

Elmi Şura üzvləri yekdilliklə universitetin tarixi adının bərpa olunması, universitet və onun yerləşdiyi küçənin adının dəyişdirilməsi haqqında qərar qəbul etmişdir.

Universitetin rektorluğu, partiya komitəsi və ictimai təşkilatları universitet kollektivi və geniş ictimaiyyətin arzusunu nəzərə alaraq, həmin qərarı müvafiq fərmanla qanuniləşdirmənizi Sizdən xahiş edir.

Əlavə olunur: **Universitet Elmi Şurasının 27 oktyabr 1989-cu il tarixli qərarı** - 1 səh.

Rektor: akad. Quliyev C. B.

Universitet partiya
komitəsinin katibi: dos. Şıxlı N. B.

Həmkarlar təşkilatı sədri: dos. Əlizadə Y. M.

Komsomol komitəsinin
katibi: Nəsirov Y. Y.”

Universitetin Elmi Şurasının protokolu bu məzmunda idi: “S. M. Kirov adına ADU-nun Elmi Şurasının 17 oktyabr 1989-cu il tarixli iclasının 1 №-li protokolundan çıxarış:

**Eşidildi:** S.M.Kirov adına ADU-nun tarixi adının bərpa olunması haqqında.

**Qərar:** 1. S. M. Kirov adına ADU-nun tarixi adı bərpa olunaraq “Bakı Dövlət Universiteti” adlandırılsın; 2. Bakı Dövlət Universitetinin yerləşdiyi küçə “Universitet” küçəsi adlandırılsın; 3. Bakı Dövlət Universitetinə Məhəmməd Əmin Rəsulzadənin adı verilsin.

Elmi Şuranın sədr: akad. Quliyev C. B.

Elmi katib: Həsənova Ə. N.”

---

***Qaynaq:***
*“Azərbaycan” məcmuəsi, N7, 1 noyabr, 1989-cu il.*

# SOVET REJİMİNƏ QARŞI FƏALLAR (BAYRAĞIMIZI, HİMNİMİZİ YAŞADANLAR)

## Bəxtiyar Tuncay
## (Ona üçrəngli bayrağımıza görə cinayət işi açılıb)



*Bəxtiyar Tuncay*

***1960-cı ildə Bakıda anadan olub. 1982-ci ildə Dövlət İncəsənət İnstitutunu bitirib. Almaniyada Sovet Ordusunda xidmətdə olub. Orduda apardığı millətçi söhbətlərinə görə təqib edilib. 1987-ci ildən siyasi fəaliyyətlə məşğuldur. Çənlibel, Oğuz Abidələrini Qorumaq təşkilatlarının, Yeni Müsavat partiyasının yaradıcılarından və fəallarından olub. 1988-ci ildə Meydan hadisələrində fəallıq göstərib. Bu fəaliyyətinə görə bir neçə dəfə həbs edilib.***

***Sovetlər dövründə Y.Qaqarin adına Pionerlər Sarayında, 1990-cı illərdə "Meydan" qəzetində çalışıb. Hazırda Milli Elmlər Akademiyasının Folklor İnstitutunda işləyir.***

**B.Tuncay qeyd edir ki,** meydanda - 1988-ci ildə ilk bayrağı Lerikdən Tofiq adlı birisi ("Ulduz" metrosunda fəhlə işləyirdi) qaldırsa da, lakin bayraqda aypara düz verilməmişdi, tərsinə təsvir olunmuşdu. B.Tuncayın məlumatlarından aydın olur ki, ilk dəfə olaraq Tofiq Rəsulov, Fuad Ağayevlə birlikdə "Qızıl Qoç" adlı təşkilat yaradıblar. Çənlibel adını isə şair Məmməd Elli verib. 1988-ci ilə qədər Hatəmi Hərəkatın əsas lideri sayılırdı. Sonra Nemət məşhurlaşdı. Onlar tez-tez "Nu Poqodi" çayxanasında yığışırdılar. Çənlibelin ilk sədri Vurğun Əyyubov, sonrakı sədri isə aktyor Ədalət Ziyadxanlı oldu (onun sədrliyi çox qısa müddət çəkmişdi). Mənsur Əlisoyun da bu proseslərdə böyük xidmətləri var idi. O, Akademiyada Şərqşünaslıq İnstitutunda işləyirdi.

O zaman Xətai adlı bir təşkilat da var idi. Bu təşkilatın əsas yaradıcısı Babək Ədaləti idi. O, Semaşko xəstəxanasında işləyirdi (hazırda həbsdədir). DTK-da işləyən Eldəniz Əliyev isə Meydan hərəkatına nəzarət edirdi. Onlar əsasən Təzəpir məscidində yığışırdılar – Hatəmi və digər dostlarla. Əvvəl Xudu Məmmədovun, sonradan isə şair Şəhriyarın yas mərasimlərində, cümə axşamlarında hökumət əleyhinə təbliğat aparırdılar.

Onların yaratdığı **Oğuz abidələri** təşkilatında Fuad Ağayev, Tofiq Rəsulov, Nemət Pənahov da var idi. **Məramı –** "Azərbaycan dilinin dövlət dili səviyyəsində işlədilməsi idi". Təşkilatın 17 maddəlik proqramı da yazılmışdı. "Qızıl Qoç"un ilk toplantısına 17-yə qədər tələbə gəlmişdi. Toplantılar Dəmiryol vağzalında – Dəmiryolçular klubunda keçirilirdi. Sonra hökumət bundan xəbər tutdu, DTK-ya çağırıb istintaq etdilər və təşkilatın fəaliyyəti dayandırıldı.

B.Tuncayın institutda tələbə yoldaşı olan İsabala "Azərnəşr"dəki zalda işləyirdi. İsabala onların xahişi ilə rəhbərlikdən - Heybət bəydən tədbirlərin orada keçirilməsinə icazə alırdı. O dövrdə Şamil Saleh (rəhmətə gedib), Sabir Yanardağ da çox fəal idilər. Onlar Bilik cəmiyyəti xətti ilə rayonlarda olur və özlərinin hökumət əleyhinə fikirlərini, çıxışlarını yayırdılar. Elşən adlı birisi (o, hazırda S.Rüstəmxanlının Vətəndaş Həmrəyliyi partiyasındadır) vərəqələri yaymaqda çox fəallıq göstərirdi.

Qeyd edək ki, Nemət Pənahlı o zaman Şmidt adına zavodda fəhlə işləyirdi. N.Pənahlı zavodda çox tanınır və fəhlələrin hüquqları uğrunda mübarizə aparırdı. Ancaq onun məşhurlaşmasında Xəlil Rzanın rolu oldu.Belə ki, Nemət mitinqə gələndə onu tutub aparmış, dostlarına polislər mane olmuş və qarşılarını kəsmişdilər. Xəlil Rza orada elan etmişdi: "Azərbaycan fəhlələrinin qəhrəmanı Nemət Pənahlı!" . Bundan sonra o, daha da məşhurlaşmışdı. Sonradan Rizvan Hüseynovun evində Birlik cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas fəallarından biri Əhməd Rza idi. BTuncay isə artıq Türkiyədəki Azərbaycan Kültür Dərnəyi ilə əlaqə yaratmışdı. Fəallardan olan Tofiq Türkel o zaman M.Ə.Rəsulzadənin "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabını çap etdirmişdi.

O dövrdə yaradılan təşkilatlardan biri də Qızılbaşlar idi. Çox radikal idi. Sonradan Eldar İbrahim təşkilata başçılıq etdi. Daha sonra isə partiya olaraq fəaliyyət göstərdilər.

Həmin dövrdə Azər Qasımov (Qasımzadə) Azərbaycan Xalq Hərəkatının başlanğıcında ilk siyasi partiyanı – Dirçəlişi yaratmışdı (o Akademiyanın Geologiya İnstitutunda çalışırdı və rəhmətə gedib).

B.Tuncay yazır ki, üçrəngli Bayrağımızın şəklini Türkiyədən gətirdikləri "Azərbaycan" jurnalından götürmüşdülər. Onun əsasında B.Tuncayın anası parçaları tikmiş, bacısı isə ayparanı hazırlamışdı. Sonra həmin Bayrağı aparmışdılar mitinqə.

Qeyd edək ki, Bəxtiyar Tuncay üçrəngli bayrağı meydana gətirdiyinə görə sovet dövründə ona qarşı cinayət açılmışdı.

---

***Qaynaq:***
*Bəxtiyar Tuncayın şəxsi arxivindən.*

## ÜÇRƏNGLİ BAYRAĞIMIZI YAŞADANLAR

## GÜLMİRZƏ BAĞIR 1974-CÜ İLDƏ SOVET BAYRAĞININ YERİNƏ ÜÇRƏNGLİ BAYRAĞI ASMIŞDI



*Gülmirzə Bağır*

Bakının Maştağa kəndinin sakini Gülmirzə Bağır (təxəllüsü "Ovçu" idi) Böyük Vətən müharibəsi illərində Kerç döyüşlərində yaralı vəziyyətdə almanlara əsir düşüb. Sonra legioner həyatı yaşayıb. 1970-ci ildə Almaniyadan bir aylıq müddətinə Bakıya gəlməyə icazə alıb. 1976-cı ildə isə həmişəlik olaraq Almaniyadan Bakıya qayıdır və Maştağada yaşayır.

1974-cü ilin mayın 28-də özü ilə Almaniyadan belinə bağlayıb gətirdiyi üçrəngli bayrağı Maştağa Sovetinin üstündə dalğalanan sovet bayrağı ilə əvəz edib oradan asır. 2-3 saat üçrəngli bayraq sovetin binası üzərində qalır. Sonra hökumət təmsilçiləri gəlib bayrağı oradan götürürlər.

Gülmirzə kişi hər ilin mayın 28-də yaşadığı evin üzərində üçrəngli bayrağı asıb dalğalandırırdı. Qeyd edirdi ki, həmin bayrağı həyat yoldaşı Möhtərəm xanımla (həyat yoldaşı türk qızı olub) birgə hazırlayıb.

Gülmirzə kişi sonradan o bayrağı Müsavat partiyasına, Müsavat Partiyası da Azərbaycan Tarixi Muzeyinə bağışladı.

---

***Qaynaq:***

*1. Gülmirzə Bağırın şəxsi arxivindən.*

*2. www.azadliq.org/a/bayraq-resulzade.9 noyabr 2016*

*3. www.tezadlar.az/.../19213-rsulzad-dedi-bu-bayra-vtn-kim-at. 9 noyabr 2016*

## İLK MİLLİ BAYRAĞI HAZIRLAYANLAR:

**Bəxtiyar Tuncayın anası - Şahverdiyeva Sura Səfər qızı.**

1939-cu ilin oktyabrın 1-də Bakı şəhərində anadan olub. 2012-ci ilin fevralın 16-da rəhmətə gedib. Bakıda Neft-Kimya Prosesləri İnstitutunun zavodunda operator vəzifəsində işləyib. İlk milli bayrağımızın rəngli çap formasını oğlu Bəxtiyar Tuncay evə gətirib onlara vermiş və mitinqə aparmaq üçün hazırlamağı tapşırmışdı. Sura xanım həmin bayrağı üç rəngli parçadan (göy, qırmızı, yaşıl) hazırlamış, ağ ayparanı isə qızı Arzu parçanın üzərinə toxumuşdur.




***Sura Şahverdiyeva və qızı Arzu***

**Şahverdiyeva Arzu Adil qızı - Sura xanımın qızı, Bəxtiyar Tuncayın bacısıdır.** 1970-ci ilin fevralın 2-də Bakıda anadan olub. 1992-ci ildən 2015-ci ilə qədər DİN QBİ-də Dayaq Rabitə Qovşağında "Rabitə Anbarı" rəisi vəzifəsində işləyib. Hazırda təqaüdçüdür.

Bəxtiyar Tuncay söhbətində bildirdi ki, üç rəngli bayrağımızın şəklini ilk dəfə Ankarada nəşr edilən Azərbaycan Kültür Dərnəyinin nəşr orqanı olan "Azərbaycan" jurnalında gördük və onun əsasında evdə anamla bacım bayrağı tikib hazırladılar və 1988-ci ilin noyabr mitinqinə apardıq.

***Qaynaq:***

*Bəxtiyar Tuncayın şəxsi arxivi.*

## GÜLTƏKİN SƏFƏRLİ

***Üçrəngli bayrağımızı hazırlayan qadın***

Gültəkin Həsən qızı Səfərli 1928-ci ilin aprelin 22-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi və musiqi məktəbini fortepiano sinfi üzrə bitirdikdən sonra Naxçıvan şəhəri ikillik Pedaqoji



*Gültəkin ana*

İnstituta daxil olur. Sonra isə təhsilini Bakıda APİ-nin dil-ədəbiyyat fakultəsində davam etdirir. Hələ 14 yaşında özünün yaratdığı ansamblla hərbi hospitallara konsert verməyə gedərdi. Qırx iki il müəllim işləmişdir. 1989-cu ildə öz ərizəsi ilə işdən çıxaraq  yun əlcəklər və corablar toxuyub Qarabağa göndərir. Hər bağlamaya bayraq və məktub da qoyurdu. Xəstəxanada yatan yaralılara baş çəkir, meydan hərəkatı zamanı qutab  bişirib oraya aparardı. İrandakı zəlzələ zamanı öz pulu ilə iki top ağ parça və xeyli ərzaq alıb yardım yığılan məntəqəyə aparmışdı. O başqalarına yardım etməkdən zövq alırdı. Amma vaxtının çoxunu bayraq tikməyə həsr edirdi. Bayraqları xüsusi sevgi və həvəslə tikərdi. Kənarlarına saçaqlar toxuyardı (onu da qeyd edim ki, muncuq və saplarla gözəl əl işləri yaradardı. Bu, onun xobbisi idi). Lakin özünün  də dəfələrlə qeyd etdiyi kimi, meydana ilk gətirilən bayrağı başqa qadın tikmişdi (Bəxtiyar Tuncayın anası və bacısı). Ertəsi gün meydanda ikinci daha böyük bayraq göründü. Bu, Gültəkin ananın tikdiyi ilk bayraq idi. Qısa müddətdə bütün meydanı bayraqlar bürüdü, onların sayı-hesabı yox idi. Kim istəsə verərdi. Xarici ölkələrə də göndərirdi. O, tikdiyi bayraqlarla fəxr edirdi. Təəssüf ki, 20 Yanvar gecəsi tikdiyi əlvan bayraqların üstünə öz əli ilə qara bağlamalı oldu. Bu hadisəyə heç dözə bilmirdi. Gecə hətta qara paltarlarını kəsib ağlaya-ağlaya xeyli bayraq düzəltmişdi... Fəxr etdiyi, qürur duyduğu bir də altı övladı



*Gültəkin ana meydanda*

var idi. Həyat yoldaşı dünyasını dəyişdikdən sonra onları tək böyüdüb hamısına ali təhsil vermişdi. Ona görə də iki oğul itirməsi ona çox pis təsir etmişdi. Uşaqlıqdan şeir həvəskarı idi, özü də yazardı. Həyat yoldaşına və oğlanlarına həsr etdiyi çoxlu şeirləri var idi.

Gültəkin ana xəstə yatağında hər övladına ayrı-ayrılıqda vəsiyyətini yazıb qoymuşdu. Siyasətçi olmasa da müxalifət liderlərinin bir araya gəlməməsi onun ən böyük dərdi idi.

Gültəkin Ana 2014-cü ilin 20 may gecəsi dünyasını dəyişdi.

***Qaynaq:***

*Xatirə Musayevanın (Gültəkin Səfərlinin qızı) şəxsi arxivindən.*

## ÜÇRƏNGLİ BAYRAĞIMIZI MEYDANA İLK GƏTİRƏN SALMAN HƏSƏNOV

### MİTİNQLƏRDƏ ÜÇRƏNGLİ BAYRAĞIMIZIN İLK DƏFƏ DALĞALANDIRILMASI



*Salman Hüseynov*

Qeyd edək ki, 1988-ci ilin 17 noyabr mitinqlərində ilk günlərdə Sovet Azərbaycanının bayrağı dalğalanırdı. Həmin bayrağı tribunada bir neçə gün dalğalandıran **Sakit Həsənov** idi.

**Üçrəngli bayrağı ilk dəfə meydana gətirən 1988-ci ilin 19 noyabrında Bədən Tərbiyəsi İnstitutunun tələbələri – Salman Hüseynov olmuş, Elşad Ziyadov isə ona kömək etmişdir.** Mitinqdəki komsomolçular onların əlindən bayrağı alıb cırmaq istəyirdilər. Odur ki, Salmanla Elşadı qovur, onları tutmaq istəyirdilər. Onlar isə müxtəlif istiqamətlərə qaçır, bayrağı vermirdilər. Belə məqamda M.Hatəmi onları yanına çağırıb, başçılıq etdiyi Qızılbaşlar



*Elşad Ziyadov*

dəstəsinin əhatəsinə aldırdı. Komsomolçular buraya yaxınlaşmağa cəsarət etmədilər.

Sonralar üçrəngli bayrağımızı meydana gətirənlərin sayı çoxaldı.

---

***Qaynaq:***
*Hatəmi Tantəkin. Acı həqiqətlər. Bakı, 2006.*

## SALMAN HÜSEYNOV

1988-ci ilin noyabr mitinqlərinə üçrəngli bayrağımızı ilk hazırlayıb gətirən **Salman Hüseynov** olub. O, əvvəlcə kağız parça üzərində bayrağın təsvirini çəkib və 19 noyabrda meydana gətirib. Sadəcə mavi rəngi daha çox tünd olaraq çəkib. Onu bayrağa görə təqib ediblər. 20 noyabrda isə Salman bəy bayrağı parça üzərində hazırlayıb.

S.Hüseynov bildirir ki, bayraq haqqında ilk məlumatı M.Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabından öyrənib. Ona əsasən də bayrağı hazırlayıb meydana gətirib. Meydana çatanda Elşad bəy də ona köməklik göstərib.

**Qeyd**: **Salman Hüseynov** 1970-ci ildə Bakıda anadan olub. 1987-1991-ci illərdə Bədən Tərbiyəsi İnstitutunda təhsil alıb. 1992-ci ildə könüllü olaraq Qarabağ döyüşlərində iştirak edib – Şuşada, Ağdamda, Ağdərədə olub. Sonra bir müddət ixtisası üzrə çalışıb, müəllimlik edib. Mühafizə sistemində çalışıb.

## 1988-Cİ İLDƏ MEYDANA AZƏRBAYCAN SOVET BAYRAĞINI GƏTİRƏN SAKİT HƏSƏNLİ

1988-ci ilin noyabr mitinqlərində iki gün – 17, 18 noyabrda − sovet Azərbaycanının bayrağını kürsüdə dalğalandıran Bakı Dövlət Universitetinin fizika fakultəsinin tələbəsi, Yurd birliyinin üzvü **Sakit Həsənli** oldu.

1988-ci ilin noyabrın 19-da isə S.Həsənli əvvəlcədən dostu Nəsimi

Məmmədli ilə yataqxanadakı otaqlarında ağ mələfənin üstünə üçrəngli bayrağımızın təsvirini çəkib birlikdə mitinqə gətirdilər (sadəcə ayparanı bir az böyük çəkmişdilər).

1989-cu ilin noyabr ayının 17-də meydan hərəkatının bir illik yubileyində bayrağın kürsüyə gətirilməsi S.Həsənliyə həvalə edildi.

**Qeyd: Sakit Həsənli** 1970-ci ildə Tovuz rayonunda anadan olub. 1986-1990-cı illərdə Bakı Dövlət Universitetinin fizika fakultəsində təhsil alıb. 1987-ci ildən Yurd birliyinə qoşulub, tədbirlərdə fəallıq göstərib. 1990-cı ilin noyabr-dekabr aylarında "Azərbaycan" qəzetində orduya getməklə bağlı müraciəti çap olunub. 1990-cı ildə könüllü olaraq tələbə dostları ilə Qarabağın döyüş bölgələrinə gedib. Döyüşlərdə on bir ermənini əsir götürüb. S.Həsənli sonradan orta məktəbdə müəllimlik edib.

---

***Qaynaq:***

*Sakit Həsənlinin şəxsi arxivi.*

## ELMAN BAYRAQDAR

**Elman Türkoğlu Bayraqdar (Elman Həsənbəyli)** 1957-ci ildə Masallıda anadan olub. Bir müddət Türkmənistanın Aşqabad şəhərində yaşayıb. Aşqabadda yaşadığı dövrdə imkan tapıb Bakıya gəlib və Azərbaycanda keçirilən mitinqlərdə iştirak edib.

Üçrəngli Azərbaycan Bayrağının sonrakı illərdə də Xalq hərəkatının tədbirlərində dalğalandırılmasında Elman Türkoğlunun böyük xidmətləri olub.



***Elman Türkoğlu***

***Qaynaq:***

*Elman Türkoğlunun şəxsi arxivindən.*

## MİLLİ AZADLIQ HƏRƏKATININ BAYRAQDARI - YAŞAR TÜRKAZƏR



*Yaşar Türkazər*

1988-ci ildən başlayan-milli Azadlıq Hərəkatı tarixində **Yaşar Türkazər**in ayrıca xidmətləri vardır. **Üçrəngli Azərbaycan bayrağını** o, mitinqlərdə dəfələrlə dalğalandırmış və bu fəallığına görə döyülmüş, həbs edilmişdir.

**Yaşar Cəlil oğlu Məmməd Türkazər** 1956-cı ilin aprelin 17-də Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Peşə Texniki məktəbini bitirmiş, müxtəlif zavodlarda fəhlə işləyib.

**1987-ci ilin dekabrın 27-dən Çənlibel Elmi-Ədəbi Birliyinin toplantılarında** iştirak edib. 1988-ci il mayın 16-dan 1991-ci ilin dekabrına qədər bütün yürüş və mitinqlərdə fəallıq göstərib. 1988-ci ilin sentyabrında işlədiyi Elektron-Hesablama Maşınları zavodunda yaradılan Şah İsmayıl Xətai adlı Elmi-Ədəbi Birliyin İdarə Heyətinin üzvü olub. Həmin ilin oktyabrın 29-da isə Məhəmməd Hatəmi Tantəkinin yaratdığı Azərbaycan Xalq Hərəkatı Cəbhəsinin Müvəqqəti Məsləhət Şurasının üzvü seçilib. 1989-cu ilin mayın 21-də Birlik Cəmiyyətinin təsis yığıncağında İdarə Heyətinin üzvü olub və bu vəzifəni həmin ilin noyabrın 19-na qədər icra edib.

**1989-cu ilin Mayın 28-də Həsən Meracın və Azər adlı bir şəxsin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyəti yaradılmasının 71-ci ildönümü ilə bağlı “Parapet” bağında (indiki “Fəvvarələr” meydanı - red.) nümayiş başladı. 50-60 adamın iştirakı ilə başlanan bu nümayiş Fəxri Xiyabanda Şıxəli Qurbanovun məzarı önündə yekunlaşdı. Sonda nümayişə toplaşanların sayı 10 minə yaxın idi. Bu nümayişdə Üçrəngli Bayrağı daşımaq şərəfi məhz Yaşar Türkazərə qismət oldu.**

Yaşar Türkazərin “Azadlıq” meydanında 17 noyabr - 5 dekabrda keçirilən mitinqlərdə, 28 May nümayişlərində, 4-11 iyun yürüş-mitinqlərində üçrəngli bayrağımızı daşıdığını nəzərə alan AXC lideri Əbülfəz Elçibəy

1989-cu ilin iyunun ortalarında Məhəmməd Hatəmi Tantəkinin, Ənvər Əliyevin və Nemət Pənahlının dustaqxanadan çıxması ilə bağlı Səttarxan adına zavodun yataqxanasında keçirilən qonaqlıqdakı çıxışında demişdi: **"Yaşar – Hərəkatımızın Bayraqdarıdır!"**

1989-cu ilin avqustunda "Birlik" dərgisi, noyabrın 10-da isə "Yeni Müsavat" adlı qəzet nəşr edilməyə başladı. Həmin vaxt Y.Türkazər sovet dövründə ləğv edilmiş mətbuatın küçədə yayılması prosesini bərpa edərək 1992-ci ilin martın 4-nə qədər Bakıdan Naxçıvana kimi 25 şəhər və rayonda qəzet paylamışdı.

1989-cu ilin noyabrın 26-da Azərbaycan Milli Demokrat Partiyası - Yeni Müsavata daxil olub və həyatını bu təşkilatla bağlayıb.

Y.Türkazər 1992-ci ilin martın 21-dən sentyabrın 12-nə qədər Eldar Bağırov adına 845 saylı Ağdam taburunun sıralarında döyüşüb.

O, 1992-ci ilin oktyabrından 1993-cü ilin aprelinə qədər AXC Mərkəzi Qərargahında təlimatçı vəzifəsində çalışıb.

Bu mücadilə həyatında o, dəfələrlə döyülüb, həbs edilib, xəsarətlər alıb, bir gözünün görmə qabiliyyətini itirib.

Yaşar Türkazər bu gün də azad, demokratik Azərbaycan cəmiyyətinin qurulması uğrunda mücadilə aparır.

***Qaynaq:***
*Yaşar Türkazərin şəxsi arxivindən.*

## DÖVLƏT RƏMZLƏRİNİN BƏRPASI

1. **Bayraq.** 1988-ci ildə Azadlıq hərəkatı başladıqda Üçrəngli bayraq yenidən xalqımızın başı üzərində dalğalandı. **1990-cı ilin noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991-ci ilin fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiqləndi.** Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə hazırlandı. Dövlət bayrağı haqqında məsələ Azərbaycan Respublikası Konstitusiyasında təsdiq edildi. Konstitusiyanın 23-cü maddəsinin 2-ci bəndində göstərilir: "Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

2. **Gerb.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb layihəsi rəssam R.Məmmədov tərəfindən təkmilləşdirilmişdir. **1993-cü ilin 19 yanvar tarixli** Konstitusiya qanunu ilə Dövlət gerbimizin rəngli və ağ-qara təsviri, fevralın 23-də isə Əsasnaməsi təsdiq edildi.

3. **Himn.** Müəllifləri Ü.Hacıbəyli və Əhməd Cavad olan Dövlət Himnimiz **Azərbaycan Milli Məclisinin 1992-ci il 27 may tarixli** qərarı ilə qəbul edilib. 1993-cü ilin mayın 2-də Dövlət Himni haqqında Əsasnamə təsdiq olunub. Himnimiz bəstəkar A.Əzimov tərəfindən böyük xor və orkestr üçün oranjeman edilmişdir.

***Qaynaq:***

*N.Yaqublu. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı, 2013.*

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏSMİ DÖVLƏT HİMNİ

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Namusunu hifz etməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

***Sözləri: Əhməd Cavadın,***
***Musiqisi: Üzeyir Hacıbəylinindir.***

## AZƏRBAYCAN HİMNİNİN MİTİNQLƏRDƏ İLK İFAÇISI NƏRMİN KAZIMOVA



*Nərmin Kazımova*

**Nərmin Kazımova** 1981-ci ildə Bakıda anadan olub. Bülbül adına Musiqi məktəbində oxuyub. Sonradan fortepiano üzrə musiqi təhsili alıb. O, bir müddət dövlət konservatoriyasında musiqi sahəsində çalışıb. N.Kazımovanın həmin mitinqdə himni oxumağını təşkil edən nənəsi Gültəkin ana (üçrəngli bayrağımızı tikib meydana gətirən) və dayısı Müsəvvər Əsgərov olub. Əsasən, nənəsi Gültəkin ana himnin notunu əldə edərək Nərminin oxumasına köməklik göstərib. N.Kazımova ilk dəfə Dövlət Himnimizi 1989-cu ildə sentyabr-oktyabr aylarında Azadlıq meydanında keçirilən mitinqdə oxuyub. Sonralar onun ifasında bu himn dəfələrlə səsələnib.

***Qaynaq:***
*Nərmin Kazımovanın şəxsi arxivindən.*

## AZƏRBAYCAN HİMNİNİN İLK OLARAQ LENTƏ ALINMASI VƏ SƏSLƏNİŞİ (1989-CU İL, 17 NOYABR)

Azərbaycan Himninin ilk dəfə rəsmi səslənişi meydan hərəkatının bir illik yubileyi münasibəti ilə Azadlıq meydanında keçirilən mitinqində oldu. Şair Vaqif Səmədoğlunun Şəhriyar adına Mədəniyyət Klubunda musiqi ilə lentə yazdırdığı himn ilk dəfə burada səsləndirildi.

Yubiley mitinqində Yusif Səmədoğlu çıxış edərək belə bir məlumat verdi: “Azərbaycan Demokratik Respublikasının böyük musiqi əsərləri olmuşdur. O cümlədən, o vaxtlar marş adlanan himni var idi. 1920-ci ildən

bəri bu himn bizim ana torpaqda səslənməyib. İstəyirdik ki, bugünkü mitinq Ü.Hacıbəyovun "Koroğlu" operasının üverturası ilə başlansın. Ancaq belə qərara gəldik ki, bayrağın üç rənginin rəmzi olan himnlə başlayaq".

Himn səslənməmişdən öncə Ü.Hacıbəyovun xatirəsi yad edildi və bayrağın gətirilməsi Sakit Həsənova həvalə edildi.

**Qeyd:** Bakıda keçirilən mitinqlər daimi olaraq Ü.Hacıbəylinin "Koroğlu" operasının məşhur üverturası ilə başlanıb sona çatırdı. İlk olaraq himnimizi canlı və solo olaraq Bülbül adına Musiqi məktəbində oxuyan Nərmin Kazımova ifa etmişdi. Bütün meydanda olanlar əlləri yuxarıda onu dinləyərək, birgə himni ifa etdilər.

(1989-cu ilin 17 noyabrında Azərbaycan Himni lent yazısı ilə səsləndirilmişdi).

---

***Qaynaq:***
*1. Ə.Tahirzadə. Meydan: 4 il, 4 ay, I cild. Bakı, 1997, səh. 427.*
*2. Ə.Tahirzadə. Meydan: 4 il, 4 ay, II cild. Bakı, 1997, səh. 223-227.*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİNİN BƏRPASI

Milli Himnin bərpa olunması, 1991-1992-ci illərdə Azərbaycan Parlamentinin Təhsil və Mədəniyyət Komissiyasının sədri, türkoloq alim **Firudun Cəlilovun** rəhbərliyi altında həyata keçirildi.

Milli Himnimizin nota alınmasında, xorla oxunma variantında bəstəkar Aydın Əzimovun xidməti oldu. Mətnin bərpasına yardımı isə şair Vaqif Səmədoğlu və Vaqif Bayatlı etdilər. Mətn üzərində iş gedən zaman bəzi arxaik sözlərin yeniləşdiyi, bir neçə ədatın, qoşmanın yerini dəyişdiyi də vurğulanmışdı. Himnin bərpasında Ə.Cavadın oğlu Yılmaz Axundzadə də iştirak etmişdi.

F.Cəlilov qeyd edir ki, himnin bərpası çox çətinliklə həyata keçirildi. Milli Məclisdəki kommunistlər sovet himninin saxlanılmasını istəyir, əsas kimi də himndəki sözlərin böyük şair Səməd Vurğuna aid olduğunu



*Vaqif Səmədoğlu*



*Aydın Əzimov*

vurğulayırdılar. **Komissiyanın iclasında şair Vaqif Səmədoğlu demişdi: "Mən atamın adının himnin müəllifliyindən çıxarılmasına etiraz etmirəm və Əhməd Cavadın sözlərini yazdığı, Ü.Hacıbəyovun bəstələdiyi himnin qəbuluna tərəfdaram!"**

V.Səmədoğlunun bu mövqeyi himnin qəbulunu tezləşdirdi.

**Qeyd:** Milli Himnimizin nota alınmasında xidmətləri olan bəstəkar Aydın Əzimov 1946-cı ildə Bakının Əmircan kəndində anadan olub. 1946-cı ildə A.Zeynallı adına Musiqi Texnikumunun (hazırda A.Zeynallı adına Musiqi Kolleci) nəzəriyyə fakultəsini bitirib. 1972-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsini qurtarıb.

---

***Qaynaq:***

*F.Cəlilovun şəxsi arxivi.*

## DÖVLƏT HİMNİ HAQQINDA QƏRAR

Müəllifləri Ü.Hacıbəyli və Ə.Cavad olan Dövlət Himnimiz Azərbaycan Milli Məclisinin1992-ci il 27 may tarixli qərarı ilə qəbul edilib.

## KOMMUNİST PARTİYASINDAN İMTİNA
### İLK DƏFƏ BİLETİNİ YANDIRAN ŞƏXS – BABA ALLAHNƏZƏROV


*Baba Allahnəzərov*

Azərbaycanda milli-azadlıq hərəkatı genişləndikcə, mövcud sovet rejiminə qarşı da xalqın nifrəti güclənirdi. Sovet quruluşuna ümumi rəhbərliyi edən Kommunist Partiyasına qarşı insanlar artıq etiraz çıxışları edirdilər. Lakin ilk dəfə olaraq Kommunist Partiyası biletinə qarşı həqarətli münasibət göstərənlərdən biri Azərbaycan vətəndaşı **Baba Allahnəzərov oldu.** Belə ki, 1989-cu ilin noyabrın sonlarında Milli Qurtuluş Partiyasının Azadlıq meydanında keçirdiyi mitinqdə ölkədə ilk dəfə olaraq Kommunist biletini çıxararaq nifrətini bildirməklə yanaşı, partiya biletlərinin yandırılması aksiyasına təkan vermişdir.

Baba Allahnəzərov 1964-cü ildə anadan olub. Azərbaycan Dövlət Neft və Kimla İnstitutunda təhsil alıb. “Dağ mühəndisi” peşəsinə yiyələnib. 1988-ci ildən başlanmış Xalq hərəkatının fəallarından olub. 1989-cu ilin sentybarında Birlik cəmiyyətinin, həmin ilin noyabrın 26-dan isə bu cəmiyyətdən ayrılmış AMDP Yeni Müsavat partiyasına daxil olub. Eyni zamanda həmin dövrdə o, AXC-nin Hövsan Dayaq Dəstəsinin sədri olub.

### SOV. İKP-DƏN İMTİNA (SİRUS TƏBRİZLİ)

“Azərbaycan KP MK-ya, 26 Bakı Komissarı rayon partiya komitəsinə, Yazıçılar İttifaqı ilk partiya təşkilatına

Yazıçı-publisist Sirusun izahatı.

Sov. İKP üzvlüyündən çıxmaq qərarım qətidir. Bu qənaətə bir gün, bir ay, ya da bir il ərzində gəlməmişəm. Tutduğum iş uzun müddətli, hərtərəfli düşünülmüş, daxili araşdırmalarımın nəticəsidir. Mən bir insan, yaradıcı şəxs kimi özümü, hər şeydən qabaq, inamsızlıq ucbatından düşdüyüm ən dəhşətli vəziyyət – riyakarlıqdan xilas etmək istəyirəm. Daim vicdanla xidmət elədiyim, məramları naminə hətta özümdən qat-qat güclü qüv-



Sirus Təbrizli

vələrə qarşı mübarizəyə girişdiyim partiyaya inamsızlığımın həm ictimai, həm də şəxsi motivləri vardır.

1983-cü ilin yayında Azərbaycan partiya təşkilatının göstərişi ilə mənə qarşı edilən haqsızlıqlar partiyaya inamımı sarsıtdı. Sonrakı hadisələrin gedişi sübuta yetirdi ki, üzvü olduğum partiya yoxdur, yalnız ayrı-ayrı şəxslərin, dəstələrin mənafeləri var. Uzun illərdir ki, bu şəxslər, dəstələr öz mənafeləri, mövqeləri naminə istədiklərini eləyir – haqsızlıq, zorakılıq, hətta cinayətə əl atır, ölkənin təbiətini, iqtisadiyyatını dağıdır, insanların mənəviyyatını pozur və nəticədə onların qara əməllərinin acısını-ağrısını daim xalq çəkir, həmin şəxslərin və dəstələrin fəaliyyəti nəticəsində nəhəng, zəngin ölkəni bu gün düşdüyü siyasi, iqtisadi, mənəvi-sosial bəlalardan qurtarası bir qüvvə varsa, yenə də başı bəlalı xalqdır. Bir yaradıcı ziyalı kimi mən həyatımın qalan hissəsini yalnız xalqın mənafeyinə xidmətə həsr edəcəyəm...

1983-cü ildən bəri respublika partiya təşkilatına inamla yanaşı hörmət və ehtiramımı da itirdiyim üçün Sov. İKP sıralarından çıxmağımın ətraflı, konkret səbəbləri barədə (maraqlanan olsa) yalnız Sov. İKP MK-nın nümayəndəsi ilə açıq söhbət etməyə hazıram. 7 iyul, 1989".

---

***Qaynaq:***
*AXC Bülleteni, №3, 1989, sentyabr.*

## SOV. İKP ÜZVLÜYÜNDƏN İMTİNA (ÇƏRKƏZ QURBANOV)

SSRİ-nin 50 illiyi adına APXDİ alman dili fakultəsinin ilk partiya təşkilatına.

Surəti:

1. İnstitut Partiya Komitəsinə.
2. Azərbaycan KP MK-ya.
3. AXC-nin orqanı "Azadlıq" qəzetinə.

1975-ci ilin oktyabrından Sov. İKP üzvü, tərcümə kafedrasının müdiri Çərkəz Hüseyn oğlu Qurbanovdan

Ərizə

Mərkəzi Komitəsində doğma xalqımın qatı düşmənləri, yalançılar, xalqın başını piyləməklə məşğul olan adamlar toplaşmış partiyanın üzvü olmağı özümə rəva bilmirəm. Azərbaycan KP MK-nın Birinci katibi Ə. X. Vəzirov hakimiyyət kürsüsündə oturmaq xatirinə min cür fırıldağa əl atır, verdiyi rəsmi vədlərin heç birini yerinə yetirmir, SSRİ-də, eləcə də Şərqi Avropada "yüyürməyə" başlamış demokratiya və azadlıq şəraitində deputatların cəmi dörddə birinin iştirak etdiyi sessiyada xalqın iqtisadi müqəddəratını həll edən qərar çıxarır, ali qanunvericilik orqanını gülünc vəziyyətə salmaqla Azərbaycan xalqını da bəşəriyyətin, demokratik qüvvələrin gözündə rüsvay edir...

Mən öz proqramına "Daşnaksütyun" partiyasının məramnaməsini qatmış hazırkı Sov. İKP-nin üzvlüyündən imtina edirəm...

Xahişim budur ki, bütün bunları nəzərə alıb məni Sov. İKP sıralarından çıxmış hesab edəsiniz.

5 yanvar, 1990-cı il. Ç. H. Qurbanov. P/b N15769270".

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, №1, 18 yanvar, 1990.*

## KOMMUNİST PARTİYASINDAN İLK ÇIXANLAR (26 DEKABR, 1889-CU İL)

**"Mən partiyadan niyə çıxdım?"**

1988-1989-cu illərdə özünü doğrultmayan Kommunist Partiyasından istefalar başladı. Xalqın içərisindən çıxan yeni nəsil bu partiyanın ideolojisini qəbul etmir, fəaliyyət prinsipləri ilə razılaşmır, milləti üçün zərərli xətt yürütdüyü anlamına gəlirdilər. M. Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakultəsinin III kurs tələbəsi **Dilavər Əzimovun** partiyadan çıxmaqla bağlı fakultənin ilk partiya bürosuna yazdığı ərizə də maraqlıdır. O, ərizəsində yazırdı: "M.Ə.Rəsulzadə adına Bakı Dövlət Uni-



***Dilavər Əzimov***

versitetinin tarix fakultəsinin ilk partiya bürosuna: həmin fakultənin III kurs tələbəsi Dilavər Əzimov tərəfindən ərizə - Yazıb Sizdən xahiş edirəm ki, məni öz xahişimə əsasən Sov. İKP sıralarından azad edəsiniz. Sizə etdiyim müraciətin səbəbini verdiyim izahatda oxuya bilərsiniz. **Dilavər Əzimov. 26. XII.1989-cu il. İzahat:** Hal-hazırda məncub olduğum və çıxmaq istədiyim Kommunist Partiyası inqilaba qədər böyük və şanlı, mətin sınaq yolu keçmişdir. İlk addımını Sosial-demokrat partiyası kimi atan Rusiyanın əsl fəhlə partiyası 1903-cü ildən sonra Bolşeviklər partiyası adlanmış və xalq böyük inamla, böyük fədakarlıqla bu partiyanın rəhbərliyi altında birləşib öz xoşbəxt gələcəyini axtarmağa başlamışdır. Çox təəssüflər olsun ki, hələ Leninin sağlığı dövründən etibarən bu partiya tədricən dünyanın ən irticaçı partiyasına çevrilməyə başlamışdır. Qan nəfəsli, qan düşüncəli cəllad Stalinin əlinə keçən bu partiya əslində Kommunist Partiyası olmamış, "cəlladlar" partiyası olmuşdur. Artıq 1953-cü ilə qədər kütləvi güllələnənlərin sayı on milyonları keçmişdi. Bu, dünya tarixində görünməmiş cəlladlıq və irticaçılıq idi. Bəs sonra... Sonra buna kim rəhbərlik etmişdir? Dayaz düşüncəli Xruşşov... Stalinin şəxsiyyətə pərəstişindən ikrahla danışan Xruşşov ondan da pis şəxsiyyətə pərəstiş uçurumuna yuvarlanmışdı. Bəs düşüncəsi ilə robota bənzəyən Brejnev, partiyanın ideoloji rəhbəri Suslov, Andropov, Çernenko... hələ bu aysberqin sudan üzdə olan hissəsidir. Görün bu aysberqin aşağı hissəsini kimlər təmsil edir... "Qızıl paqonlu cəlladlar" dəstəsi... Nəhayət, Qorbaçov hakimiyyətə gələndə, qəlbimizə nəsə inam, ümid gəldi. Və mən inanmaq istərdim ki, bu qədər xalq düşməni yetirən partiya, nəhayət, öz fəhlə mövqeyinə qayıdacaq, öz fəhlə fədakarlığı ilə mübarizə aparacaq və hərəkət edəcəkdir. Yenidənqurma adlandırdığı Qorbaçovun fəaliyyət proqramı öz durğunluq dövrünə çatmışdır. Artıq indiki havadan Brejnev durğunluq dövrünün qoxusu gəlir.

Bütün bunları – yuxarıdakıları nəzərə alaraq mən belə bir bəyanatla öz fikrimi tamamlamaq istəyirəm: "Mən partiyanın sıralarından çıxmaq istəyirəm. Lakin mən özümü mənəvi cəhətdən vaxtilə keçən əsrdə yaranmış əsl fəhlə partiyasının üzvü sayıram və haçan bu partiya öz üslubunu dəyişib fəhlə üslubuna qayıtsa, xalqın müdafiəsi yoluna qayıtsa, mən böyük məmnuniyyətlə bu partiya sıralarına qayıtmaq, bərpa olunmaq üçün ərizə verərəm. Dilavər Əzimov. Tarix: 26.XII.1989".

***Qaynaq:***
*"Azadlıq" qəzeti. 6 yanvar, 1990-cı il, №1(3).*

## 1990-cı ildə MÖVCUD TƏŞKİLATLAR

1. Azərbaycan Milli Demokrat Partiyası
2. Xalq Azadlıq Partiyası
3. Azərbaycan Xalq Birliyi
4. Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti
5. Azərbaycan Yaşıllar Hərəkatı
6. Azərbaycan Gənclərinin Demokratik Hərəkatı
7. Dirçəliş Partiyası
8. Respublika Ağsaqqallar Şurası
9. Demokratik Ziyalılar İttifaqı
10. BDU Yurd Cəmiyyəti
11. Vətən Cəmiyyəti
12. Azərbaycan Korlar Cəmiyyəti
13. Azərbaycan Vəkillər Kollegiyası
14. Azərbaycan Memarlar İttifaqı
15. Beynəlxalq İnsan Hüquqlarını Müdafiə Cəmiyyəti
16. Respublika Hüquqşünaslar İttifaqı
17. Azərbaycan Qaçqınlar Cəmiyyəti
18. Azərbaycan Sosial-Demokrat Partiyası
19. Azərbaycan Ekoloji İttifaqı
20. Borçalı Cəmiyyəti
21. Qarabağa Xalq Yardımı Komitəsi
22. Respublika Tərcümə Mərkəzi
23. Mexseti Türklərinin Ümumittifaq Vətən Cəmiyyəti

**Sonradan qoşulanlar:**

1. Azərbaycan Milli Demokrat Partiyası (Yeni Müsavat)
2. Respublika Sodrujestva Cəmiyyəti
3. Respublika Liberal-Demokrat Partiyası
4. Birlik Partiyası
5. Azərbaycan Alimlər İttifaqı
6. Moskvada yaşayan Azərbaycan İcmasının Təşkilat Komitəsi
7. Moskvada AXC Komitəsi – Dayaq Cəmiyyəti

***Qaynaq:***

*N.Yaqublunun şəxsi arxivi*

# "MEYDAN" FİLMİ



***Zaur Məhərrəmov***

Azərbaycan Xalq Hərəkatı haqqında ilk dəfə olaraq 1989-cu ildə rejissor Z.Məhərrəmov "Meydan" sənədli filmini çəkib. O filmin həm rejissoru, həm də operatorlarından biridir. Bu filmdə operator olaraq Nizami Abbas, Köçəri Məmmədov və Rafael Səlimzadə də yaxından iştirak edib.



***Nizami Abbas***

"Meydan" filmi Azərbaycanın azadlığı və müstəqilliyi ilə bağlı Bakıda 1988-ci ilin noyabr-dekabr aylarında baş vermiş hadisələrdən bəhs edir.Yaradıcı heyət həmin hadisələri çox çətinliklə lentə alıb.Sovet ordusu zabitlərinin nəzarətdə saxladığı yerləri lentə köçürmək çox çətin idi və onlar bu işi bacardılar: xalqımızın mücadiləsində mühüm bir mərhələ təşkil edən meydan dövrü haqqında maraqlı və təsirli film çəkdilər. "Meydan" rəngli və qısametrajlı sənədli filmdir.

Filmin əsas yaradıcısı olan Zaur Məhərrəmov Azərbaycanın tanınmış kinorejissorudur. 1938-ci ildə 28 yanvarda Bakıda anadan olub. Sonradan Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alıb. "Azərbaycanfilm" kinostudiyasında quruluşçu operator kimi fəaliyyətini davam etdirib. O, 16 bədii filmin quruluşçu operatoru olub və bu əsərlərlə Azərbaycan kinosunun operator məktəbini daha da yüksək zirvələrə qaldırıb. Tamaşaçıların sevə-sevə baxdıqları "Uşaqlığın son gecəsi", "Dərviş Parisi partladır", "Ad günü", "Uzun ömrün akkordları" və s. bədii filmlərin quruluşçu operatoru Z. Məhərrəmovdur.

O, 1980-ci illərin əvvəllərindən rejissor və ssenarist kimi fəaliyyətini davam etdirərək, öz yaradıcılığını sənədli kinoya həsr edib və 1984-cü ildə "Yaddaş" studiyasını yaradaraq, həmin studiyada ölkəmizə böyük uğurlar gətirən "Bakı balkonları", "Köç", "Üzeyir Hacıbəyov", "Həbib və Gülxanım" və c. filmlərini yaradıb.

Hazırda Türkiyədə Əskişəhərdə Anadolu Universitetinin professorudur. Burada o, Universitetin kino və TV bölməsində dərs deyir.

***Qaynaq:***

*https://az.wikipedia.org/wiki/Zaur_Məhərrəmov*

# AZADLIQ MARŞI

### ELÇİN MİRZƏBƏYLİNİN MEYDAN MİTİNQLƏRİNDƏ OXUNAN BU MARŞINA BƏSTƏKAR TOFİQ QULİYEVİN KÖMƏYİ



*Elçin Mirzəbəyli*

1988-ci ilin noyabr mitinqlərində Elçin Mirzəbəylinin "Heyratı" üstündə sözlərini yazıb bəstələdiyi "Azadlıq marşı" insanlarda böyük coşqu yaratdı.

Ey ulu vətənim, doğma torpağım,
Var tükənməz odun, sönməz ocağın,
Azadlığa çıxmaq üçün qalxsın bayrağın!

**Qalx ayağa, millət,**
**Boğmasınlar səsimizi!**
**Bir bayraq altında**
**Birləşdir bizi!**

Biz ki, vətən oğlu, millət oğlu, odlar oğluyuq,
Biz ki, xalqa bağlı, elə bağlı, yurda bağlıyıq,
Biz ki, haqq yolunda andımızdan
Dönmərik heç vaxt!
Vuruş zülmə qarşı, ey ulu torpaq!

**Qalx ayağa, millət,**
**Boğmasınlar səsimizi!**
**Bir bayraq altında**
**Birləşdir bizi!**

Yad qılıncı ilə qırıldıq, yetər!
Zülmə qarşı qalxaq, qul olduq, yetər!
Biz ayağa qalxsaq əgər, ayrılıq bitər.

**Qalx ayağa, millət,**
**Boğmasınlar səsimizi!**
**Bir bayraq altında**
**Birləşdir bizi!**

Bizim ilk evimiz, son evimiz, yurdumuz torpaq!
Bizim basılmayan, yenilməyən ordumuz torpaq.
Bir an qəlbimizdə sönməyəcək odumuz, torpaq –
Vətən eşqi ilə qalx ayağa, qalx!

**Qalx ayağa, millət,**
**Boğmasınlar səsimizi!**
**Bir Bayraq altında**
**Birləşdir bizi!**
***(Azadlıq meydanı, 1989-cu il).***

**Bu marşın ilk oxunduğu yer Lənkəran olub.** 1988-ci ilin may ayında Ləkəranda keçirilən ilk mitinqi aparan E.Mirzəbəyli elə orada yazıb bəstələdiyi "Azadlıq marşı"nı özü ifa etdi. Mitinqin təşkilinə və aparıcılığına görə onu sonradan DTK-ya sorğu-suala çağırdılar.

E.Mirzəbəyli qeyd edir ki, ki, bu marşı bədahətən yazıb. Marşa ilk reaksiya verən isə **xalq şairi Bəxtiyar Vahabzadə** olub: Az. TV-dəki bir çıxışında bu marşı bəyəndiyini deyib. Sonra E.Mirzəbəyli böyük bəstəkar **Tofiq Quliyevin** yanına gedib, onunla bu marşı müzakirə ediblər. Marşın nota yazılmasına T.Quliyev yaxından kömək göstərib.

1989-cu ildə Azərbaycan Politexnik İnstitutunun qarşısında mitinq keçirildi. Həmin mitinqdə marş bir daha yüksək hazırlıqlı formada iştirakçılara çatdırıldı. 1989-cu ildə keçirilən mitinqlərdə həmin marş musiqiçi Müsəvvər Əsgərovun (Gültəkin ananın oğlu) fəallığı ilə həm xor kapellası ilə, həm də Xalq Çalğı Alətləri Ansamblı vasitəsi ilə lentə yazıldı.

Bu marş sonra da məşhur olaraq oxundu. Qarabağ savaşı aparan hərbi hissələrdə də bu marşı əsgərlər böyük coşqu ilə oxumaqdadırlar.

Bundan əlavə, E.Mirzəbəyli və M.Əsgərov meydan mitinqlərində bir dəstə adamın oxuduğu **"Səttar xan" marşını** da bərpa edib iştirakçılara çatdırdılar.

"Azadlıq" marşının mətni isə mitinqlərdə vərəqələrə yazılır, insanlara paylanır, onlar da bu marşı ifa edirdilər.

---

***Qaynaq:***

*1. E.Mirzəbəylinin şəxsi arxivi.*
*2. E.Mirzəbəyli "Poz bu sükutu". Bakı, 2012.*

***Qeyd:*** *Azadlıq marşının müəllifi Elçin Mirzəbəyli 12 avqust 1967-ci ildə Lənkəran şəhərində doğulub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini və Sankt-Peterburq Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunu bitirib. Milli-azadlıq Hərəkatının marşı olan, hal-hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ifa olunan, orta ümumtəhsil müəssisələrində tədris edilən «Azadlıq» marşının müəllifidir. Şeirlərinə Abbas Əhməd, Nailə Mirməmmədli, Hikmət Mirməmmədli, Hatəm Nəbioğlu və digər tanınmış musiqiçi və bəstəkarlar tərəfindən mahnılar bəstələnib. Bu mahnıların arasında Abbas Əhmədin ifa etdiyi «Ürəyim yanar» mahnısı daha çox populyarlıq qazanıb. Şeirləri, esseləri və publisistik məqalələri Azərbaycan, Türkiyə, İtaliya, Özbəkistan və Rusiyada nəşr olunub.*

***Qeyd:*** *Müsəvvər Əsgərov 1947-ci ildə Naxçvanda anadan olub. Hazırda Türkiyədə yaşayır, Ərciyəz universitetində çalışır. O, ayrıca "Boz Qurd", "Çənlibel" adlı marşlar da yazıb. O, bu marşları və E.Mirzəbəylinin "Azadlıq" marşını bəstəkar Ramiz Mustafayevin başçılıq etdiyi xorla Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin studiyasında böyük çətinliklə lentə yazdırıb. M.Əsgərov mitinqlərə üçrəngli bayraqlarımızı hazırlayıb gətirən mərhum Gültəkin ananın oğludur. M.Əsgərovun bacısı qızı Nərmin isə ilk dəfə olaraq7-8 yaşlarında 1989-cu ildə Azərbaycan himnini ifa edib.*



***Müsəvvər Əsgərov***

## SƏTTAR XAN MARŞI

1988-ci ilin noyabr mitinqlərində müəyyən adamlar tərəfindən (əsasən İsfəndiyar Coşğunun təsirində olanlar) **"Səttar Xan Marşı"** oxunurdu. Bu marşı 1946-cı ildə S.Pişəvəri dövründə Güney Azərbaycan fədailəri oxumuşdular.

**1988-ci ilin 17 noyabr - 5 dekabr meydan hərəkatı günlərində Qızılbaşlar bu Marşı oxumuşlar:**

Səttar Xan eliyik,
Qorxmuruq qandan.
Döyüşlərdə çıxdıq
Hər imtahandan.
Güllələr yağsa da,
Göydən, hər yandan.
Səttar Xan eliyik,
Qorxmuruq qandan, hey!
Səttar Xan eliyik,
Qorxmuruq qandan.

Nəqərat:
Aləmə səs salıb,
Xalqımın səsi.
Aləmə səs salıb,
Xalqımın səsi.
Yayılır hər yana,
Zəfər nəğməsi, hey!
Yayılır hər yana,
Zəfər nəğməsi.

2

Yaşa, Ana Vətən!
Yaşa, min yaşa!
Çəkdiyin zəhmətlər
Getməsin boşa!
Yaşa, Ana Vətən!
Yaşa, min yaşa!
Çəkdiyin zəhmətlər,
Getməsin boşa!
Güney də, Quzey də,
Gərək qovuşa!
Yaşa, Ana Vətən!
Yaşa, min yaşa hey!
Yaşa, Ana Vətən!
Yaşa, min yaşa!

3

Al-əlvan bəzənsin
Vətən torpağı.
Qorxuya düşübdür
Amansız yağı.
Dalğalan yurdumun
Şanlı Bayrağı.
Dalğalan yurdumun,
Şanlı Bayrağı.

Nəqərat:
Al-əlvan bəzənsin
Vətən torpağı, hey!.
Al-əlvan bəzənsin
Vətən torpağı.

**Qeyd:bu marşın müəyyən misralarının bərpa olunmasında Elçin Mirzəbəylinin xüsusi rolu olub.**

***Qaynaq:*** *Yaşar Türkazərin şəxsi arxivi.*

## ƏLİ NASİRİN MARŞI



***Əli Nasir***

1988-ci ilin noyabr-dekabr aylarında Azərbaycan Xalq hərəkatı dövründə Azadlıq meydanında, Lənkəranda, Masallıda, Lerikdə şair Əli Nasirin belə məzmunlu marşı da oxunurdu:

### EY ANA VƏTƏN!

Ey ana Vətən!
Ey ana Vətən!
Haqq yolunda durmuşuq,
Bu baş, bu bədən.

Sən çağırdın bizləri,
Açdın yatan gözləri.
Müntəzirdir əmrinə,
Oğulların, qızların.

İşıqlandı kölgələr,
Yəqin oldu bəlkələr.
Ədalətin haqq əli,
Ətaləti silkələr.

Sən müqəddəs Kəbəmiz,
Qeyrətin coşan dəniz.
Dalğalansın bayrağın,
Var müsəlləh cəbhəmiz.
Dinimiz, imanımız,
Həsrətin ümmanımız.

Həddən ötdü dərdlərin,
Dərman olsun qanımız.

Kükrəyir Təbriz, Bakı,
Titrəyir düşmən bu gün.
Anlamışdır ay Anam,
Sən doğubsan Babəki.

Biz ölərik dönmərik,
Alışmışıq sönmərik.
Hər qarışın yolunda,
Can verərik dinmərik.

Ey ana Vətən!
Ey ana Vətən!
Haqq yolunda durmuşuq,
Bu baş, bu bədən.

---

***Qaynaq:***

*1. Ə.Nasir. Ey ana Vətən (Azərbaycan xalq azadlıq hərəkatı meydanlarında oxunmuş marş). "Elin səsi", AXC Lənkəran şöbəsinin qəzeti. 16 yanvar, 1992-ci il, N2.*

*2. "Birlik" dərgisi. Oktyabr 1989-cu il, N3, səh.21.*

***Qeyd:*** *Azərbaycanın tanınmış ziyalısı, lənkəranlı şair, publisist* ***Əli Nasir*** *1955-ci il mayın 1-i Lənkəranda anadan olub.* ***Əli Nasir*** *1990-cı illərin əvvəllərində milli azadlıq hərəkatının fəallarından olub. O, 2017-ci ilin 1 fevralında vəfat edib.*

## ƏLİ KAMİ (1918-1919)

### ƏSGƏR MARŞI

Anam məni yetişdirib,
Bu yerlərə yolladı.
Bu torpağa qurban deyib,
Tanrıya ismarladı.
Boş oturma, çalış dedi,
Xidmət eylə Vətənə.
Südüm sənə halal olmaz,
Saldırmazsan düşmənə.

Arş irəli, marş irəli,
Azərbaycan əsgəri.
Arş irəli, marş irəli,
İgidlər dönməz geri.

Sədaqətdir ilk andımız
bu torpağa, biləlim.
Bu torpağın yolunda biz
Döyüşlərə gedəlim.
Bu diyarın sancağını
Atamdan çox sevərim.
Hər görəndə salam verib,
Ətəyindən öpərim.

Arş irəli, marş irəli,
Azərbaycan əsgəri.
Arş irəli, marş irəli,
İgidlər dönməz geri.

***Musiqisi Cavanşir Quliyevindir***

## "AZƏRBAYCAN" MARŞININ YARANMASI. BƏSTƏKAR CAVANŞİR QULİYEVİN LAÇINA SƏFƏRİ VƏ İLK MARŞIMIZI YAZMASI

Bu marş bir təsadüf nəticəsində yaranıb. Məlum olduğu kimi Sovetlər Birliyi dövründə Azərbaycanın Milli Ordusu olmadığından belə marşların yazılmasına da ehtiyac yaranmırdı.

1988-ci il Qarabağ hadisələri başlananda və ilk hərbi özünümüdafiə dəstələri yaradılanda belə marşlara ehtiyac duyuldu. Bəzi könüllü dəstələr məcbur olub bəstəkar Emin Sabitoğlunun hələ sovet dövründə bəstələdiyi və zarafat ruhu daşıyan "Qoçaqdır bizim Əhməd" (ifaçısı Xədicə Abbasova olub) mahnısını ifa edirdilər.

1992-ci ildə isə Qadınlar Cəmiyyətinin Təşəbbüsü və ANS Telekanalının rəhbəri Vahid Naxışın dəstəyi ilə döyüş bölgələrinə – Şuşa və La-



***Cavanşir Quliyev***

çına yardım aparılırdı. Müraciət edilmişdi ki, ziyalılar da bu kampaniyaya qoşulsun. Ziyalılardan Cavanşir Quliyev və Afaq Bəşirqızı həmin kampaniyaya qoşulub döyüş bölgələrində oldular. Laçında olarkən onlar başqa mənzərə ilə qarşılaşdılar: burada ciddi intizamlı, hərbi geyimli, vətənpərvər, milli ruhlu əsgərlərimizi gördülər. Bəstəkar C.Quliyev xatırlayır ki, bu görüş ona böyük təsir etdi, onu duyğulandırdı. Bu görüşdə Laçın döyüşçüləri də ondan bir hərbi mahnı yazılmağının vacibliyini söyləmişdilər. Çünki, Laçın batalyonu "Əsgər" marşının sözlərini bir mahnının sözlərinə uyğunlaşdırıb oxuyurdular, yəni belə:

Bir quş olaydım,
Gələnə-gedənə yoldaş olaydım!

Orada Laçın batalyonundan Əhliyyət adlı birisi "Azərbaycan" marşının sözlərini C.Quliyevə çatdırır. Məlum olur ki, həmin marşın müəllifi türkiyəli şairdir. Marşı əldə edən Laçın döyüşçüləri onun Azərbaycan nümunəsini komandir Arif Paşanın hazırladığı variantda ifa etməyə başlayıblar. Yəni hazırkı "Əsgər" marşındakı "Azərbaycan" sözlərini ora əlavə edən, hamının qəbul edib oxuduğu variantın müəllifi Arif Paşadır. Təbii ki, marşın sözləri geniş dəyişikliyə məruz qalmayıb. Əlavə edək ki, türkdilli xalqlarda məşhur olan bu marşın hazırda 5-6 versiyası var.

Bəstəkar C.Quliyev bu marşı hazırladıqdan sonra Azərbaycan Televiziyasının o zamankı sədri Elşad Quliyev bu işə ciddi dəstək verir. 1992-ci ilin martında C.Quliyevin müraciəti, rejissor Ramiz Həsənovun döyüş elementləri əlavə edilmiş "Əsgər marşı" "Günün ekranı" xəbərlər proqramında (iki gün davamlı) ekranda göstərildi. C.Quliyev isə öz müraciətində laçınlılardan xahiş edirdi ki, imkanı olanlar bu marşı lentə yazıb əsgərlərin ifasına versinlər.

"Əsgər" Marşı Milli Orduda əsgərlər arasında çox məşhur oldu. Bu marşın ilk adı "Laçın batalyonunun marşı" olsa da, sonradan hamı onu "Əsgər" marşı olaraq oxudu və qəbul etdi. Bundan həm Laçın batalyonu əsgərləri, həm də bəstəkar C.Quliyev məmnun qaldı.

Qeyd edək ki, bəstəkar C.Quliyev hərbi marşlar yazmağa meylli olub. O, 1975-ci ildə "Abşeron" adlı hərbi marş yazıb. 1990-cı ilin 20 Yanvar faciəsi ilə bağlı Matəm marşı yazıb. 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra bir-birini günahlandıran insanlarımıza çağırış ruhunda sözləri B.Vahabzadənin olan marş yazdı:

"Türkün türklə ədavətə haqqı yox!"

---

1. *Cavanşir Quliyevin şəxsi arxivi.*
2. *Arif Paşayevin şəxsi arxivi.*

## İLK ƏSGƏR MARŞININ MÜƏLLİFİ – CAVANŞİR QULİYEV

Cavanşir Rəhim oğlu Quliyev 1950-ci il noyabrın 22-də Şəkidə doğulub.Orta rus məktəbini 1967-ci ildə, Şəki Musiqi texnikumunu 1968-ci ildə bitirib və həmin il Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri fakültəsinin tar şöbəsinə daxil olub. İki ildən sonra Konservatoriyanın bəstəkarlıq fakültəsinə keçib və orada təhsil alıb.

Tələbəlik illərindən, yəni 1973-cü ildən Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində səs rejissoru işləməyə başlayıb və həmin vəzifədə 17 il çalışıb. 1990-1993 illərdə Azərbaycan Dövlət Konsert Birliyinin bədii rəhbəri olub, 1980-1998-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında – Bakı Musiqi Akademiyasında, 1994-2003-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləyib. Paralel olaraq 1992-ci il sentyabr ayının 1-dən 2005-ci ilə qədər Akademik Milli Dram Teatrında musiqi hissə müdiri işləyib. 2003-cü ildən Azərbaycən Milli Konservatoriyasının dosenti, 2005-ci ildən professoru, 2006-cı ildən – Şimali Kipr Türk Respublikasının Yakın Doğu Universitetinin səhnə sənətləri fakultəsinin professorudur.

Musiqi sənətindəki xidmətlərinə görə 20 avqust 1992-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

## AZƏRBAYCAN MÜSTƏQİLLİK ƏLDƏ ETDİKDƏN SONRA İLK QEYDİYYATDAN KEÇMİŞ PARTİYALAR

**1. Azərbaycan Sosial-Demokrat Qrupu (1995-ci ildən Partiya olub).**
Qeydiyyat: 11.09.1990; üzv sayı: 800; sədr: Araz Əlizadə.
Ünvan: 28 May küçəsi 3, tel:93-41-48.
**2. İranlı Mühacirlər Cəmiyyəti.**
Qeydiyyat: 14.02.1992; sədr: Ə. Ə. Şahrudi.
**3. Birlik Partiyası.**
Qeydiyyat: 18.12.1992; üzvlərin sayı: 2469; sədr: Hüseyn Artıqoğlu, X. Xudiyev.
**4. Milli Qurtuluş Partiyası.**
Qeydiyyat: 3.03.1993; üzvlərin sayı: 1003; sədr: M. Hatəmi.
**5. Müsavat Partiyası.**
Qeydiyyat: 8.12.1992; üzvlərin sayı: 2620; sədr: İ. Qəmbər.
Ünvan: Azərbaycan prospekti 27.
**6. Azərbaycan Respublikaçılar Partiyası.**
Qeydiyyat: 11.08.1992; üzvlərin sayı: 1151; sədr: Fəqan Əliyev.
“Respublikaçı” qəzeti
**7. Azərbaycan Gənclər İttifaqı.**
Qeydiyyat: 19.09.1991; sədr: A. Əhmədov (67-13-29).
**8. Azərbaycan Milli İstiqlal Partiyası.**
Qeydiyyat: 17.07.1992; üzvlərin sayı: 1050.
“Millət” qəzeti. Sədr: Etibar Məmmədov.
Ünvan: Azadlıq prospekti 179, tel: 61-52-56.
**9. Azərbaycan Milli Tərəqqi Partiyası.**
Qeydiyyat: 12.03.1993; üzvlərin sayı: 11195; sədr Becan Fərzəliyev.
**10. Müstəqil Azərbaycan Partiyası.**
Qeydiyyat: 10.02.1993; üzvlərin sayı: 1465.
“Axtarış” qəzeti, sədr: Nizami Süleymanov.
**11. Azərbaycan Liberal Partiyası.**
Qeydiyyat: 14.08.1995; üzvlərin sayı: 5007; sədr: L. Ş. Hacıyeva.
**12. Azərbaycan Dirçəliş və Tərəqqi Partiyası.**
Qeydiyyat: 24.07.1992; üzvlərin sayı: 1010; sədr: Azad Nəbiyev.
“Zamanın səsi” qəzeti.

**13. Azərbaycan Doğru Yol Partiyası.**
Qeydiyyat: 03.03.1993; üzvlərin sayı: 3195; sədr: Tamerlan Qarayev. "Doğru Yol" qəzeti.
**14. Azərbaycan Demokrat Sahibkarlar Partiyası.**
Qeydiyyat: 17.05.1994; üzvlərin sayı: 20065.
Sədr: Mahmud Məmmədov, tel: 98-54-14.
**15. Azərbaycan Demokratik Maarifçilik Partiyası.**
Qeydiyyat: 04.08.1995; üzvlərin sayı: 1108.
Sədr: M. Musayev; tel:7160-91.
**16. Azərbaycan Demokratik İstiqlal Partiyası.**
Qeydiyyat: 17.05.1994; üzvlərin sayı: 3100.
Sədr: Qabil Hüseynli; tel: 92-22-67.
**17. Vətən Ocağı Partiyası.**
Qeydiyyat: 10.11.1993; sədr: F. Həsənov.
**18. Azərbaycan Vətənpərvərlər Partiyası.**
Qeydiyyat:12.10.1994; üzvlərin sayı: 2006.
Sədr: H. Talıbov; tel: 94-90-41.
**19. Azərbaycan Kommunist Partiyası.**
Qeydiyyat: 02.03.1994.
Sədr: R. Əhmədov; tel: 94-89-37.
**20. Demokratik Azərbaycan Dünyası Partiyası.**
Qeydiyyat: 10.02.1993; üzvlərin sayı: 1004; sədr: Məmməd Əlizadə.
**21. Xalq Azadlıq Partiyası.**
Qeydiyyat: 11.08.1992; üzvlərin sayı; 1005; sədr: Yunus Oğuz. "Azad söz" qəzeti.
**22. Qorqud Partiyası.**
Qeydiyyat: 10.11.1993; üzvlərin sayı: 1045.
Sədr: F. Kərimov; tel: 96-03-11.
**23. Vətəndaş Həmrəyliyi Partiyası.**
Qeydiyyat: 03.11.1993; üzvlərin sayı: 1148; sədr: Sabir Rüstəmxanlı. "And" qəzeti.
**24. Azərbaycan Xalqlarının Bərabərliyi Partiyası.**
Qeydiyyat: 12.03.1993; üzvlərin sayı: 5250; sədr: Hilal Məmmədov. 21.10.1993-cü ildə ləğv edilib.
**25. Azərbaycan Hümmət Partiyası.**
Qeydiyyat: 18.12.1992; üzvlərin sayı: 1000; sədr: Güzasəf Əmirov. "Hümmət" qəzeti. Fəaliyyəti dayandırılıb.

**26. Azərbaycan Çağdaş Turan Partiyası.**

Qeydiyyat: 13.01.1993; üzvlərin sayı: 1000; sədr: Arif Tağıyev.

Fəaliyyəti dayandırılıb.

**27. Azərbaycan Xalq Demokratik Partiyası.**

Qeydiyyat: 11.08.1992; üzvlərin sayı: 1078; sədr: Rafiq Abdullayev (Turabxanoğlu).

“Mənlik” qəzeti.

**28. Azərbaycan Xalq Dirçəliş Partiyası.**

Qeydiyyat: 12.08.1992; üzvlərin sayı: 1066; sədr: Azər Qasımzadə.

Fəaliyyəti dayandırılıb.

**29. Azərbaycan Xalq Cəbhəsi Partiyası.**

Qeydiyyat: 01.09.1995; üzvlərin sayı: 1495.

Sədr: Ə. Əliyev (Elçibəy); tel: 92-74-56.

**30. Azərbaycan Yaşıllar Partiyası.**

Qeydiyyat: 5.05.1993; üzvlərin sayı: 1010; sədr: Arif Mənsimov.

Fəaliyyəti dayandırılıb.

**31. Azərbaycan Kəndli Partiyası.**

Qeydiyyat: 23.09.1992; üzvlərin sayı: 28000; sədr: Firuz Mustafayev.

**32. Yeni Azərbaycan Partiyası.**

Qeydiyyat: 18.12.1992; üzvlərin sayı:1254; sədr: Heydər Əliyev.

**33. Azərbaycan Dünyəvi Partiyası.**

Qeydiyyat: 13.01.1993; üzvlərin sayı: 1076; sədr: Şakir Quliyev.

Fəaliyyəti dayandırılıb.

**34. Azərbaycan Ədalət Partiyası.**

Qeydiyyat: 10.11.1993, sədr: İ. Qasımov.

Fəaliyyəti dayandırılıb.

**35. Azərbaycan Əmək Partiyası.**

Qeydiyyat: 17.05.1994; üzvlərin sayı: 17504; sədr: S. Hacıyev.

1996-cı ildə fəaliyyəti dayandırılıb.

**36. Azərbaycan Vahid Kommunist Partiyası.**

Qeydiyyat: 19.09.1995; üzvlərin sayı: 1068.

Sədr: S. Sayadov; tel: 62-58-42.

**37. Ana Vətən Partiyası.**

Qeydiyyat: 11.08.1992; üzvlərin sayı: 1234; sədr: Fəzail Ağamalıyev.

“Ana Vətən” qəzeti.

**38. Elin Səsi Partiyası.**

Qeydiyyat: 30.10.1992; üzvlərin sayı: 1079; sədr: Hacı Novruzov.

“El” qəzeti. Fəaliyyəti dayandırılıb.

**39. Azərbaycan Sosial Rifah Partiyası.**
Qeydiyyat: 04.08.1995; üzvlərin sayı: 16000; sədr: X. Kazımlı.
Tel: 76-11-65.
**40. Azərbaycan Ümid Partiyası.**
Qeydiyyat: 5.051993; üzvlərin sayı: 1034; sədr: Əbülfəz Əliyev.
**41. Vahid Azərbaycan Milli Birlik Partiyası.**
Qeydiyyat: 13.01.1993; üzvlərin sayı: 1019; sədr: Hacıbaba Əzimov.
**42. Vahid Azərbaycan Partiyası.**
Qeydiyyat: 13.01.1993; üzvlərin sayı: 1020; sədr: Kərrar Əbilov.
**43. Bozqurd Partiyası.**
Qeydiyyat tarixi: 30.03. 1994; sədr: Bəxtiyar Əhmədov.
"Bozqurd" qəzeti. 30.03.1995-ci ildə Ali Məhkəmənin qərarı ilə bağlanıb.
**44. Yurddaş Partiyası.**
Qeydiyyat: 12.03.1993; üzvlərin sayı: 2850; sədr: Mayıs Səfərli.
"Yurddaş", "Bakı Tayms" qəzeti.
**45. Azərbaycan İslam Partiyası.**
Qeydiyyat: 22.09.1992; üzvlərin sayı: 50.000; sədr: Əlikram Əliyev.
"İslam" dünyası, "İslamın səsi" qəzetləri. Fəaliyyəti dayandırılıb.
**46. Azərbaycan İnqilabi Dirçəliş Partiyası.**
Qeydiyyat: 18.12.1992; üzvlərin sayı: 1078; sədr: Sayad Sayadov.
Fəaliyyəti dayandırılıb.
**47. Azərbaycan Naminə Alyans Partiyası.**
Qeydiyyat: 22.06.1995; üzvlərin sayı: 1068; sədr: Abutalıb Səmədov.
Tel: 92-07-86.
**48. Azərbaycan Milli Hərəkat Partiyası.**
Qeydiyyat: 02.03.1994; üzvlərin sayı: 5000; sədr: S. Cəfərov.
**49. Azərbaycan Milli Dövlətçilik Partiyası.**
Qeydiyyat: 12.10.1994; üzvlərin sayı: 37337.
Sədr: Nemət Pənahov; tel: 66-7524.
**50. Milli Demokrat İdrak Partiyası.**
Qeydiyyat: 11.08.1992; üzvlərin sayı: 1070; sədr: Osman Əfəndiyev.

***Qaynaq:*** *Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi*

## AZƏRBAYCAN KOMMUNİST PARTİYASI FƏALİYYƏTİNİ DAYANDIRIR



*Atılan partiya biletləri*

Sovetlər Birliyinin dağılması prosesi artıq qaçılmaz idi. Bu dövlətin ideoloji sütununu təşkil edən Kommunist Partiyası artıq tarix səhnəsindən silinib gedirdi. Sovetlər Birliyi dağıldığı ərəfədə bütün SSRİ üzrə **17 milyon insan Sov. İKP-nin üzvü idi** və cibində həmin qırmızı bileti gəzdirirdi. **Azərbaycanda isə Kommunist Partiyasının 400 minə** yaxın üzvü var idi.

**1991-ci ilin sentyabrın 14-də** Azərbaycan Kommunist Partiyasının XXIII Fövqəladə qurultayının qərarı ilə bu təşkilatın fəaliyyəti dayandırıldı. Buna müvafiq olaraq Azərbaycan Kommunist Partiyasına məxsus olan sənədlərin məhv edilməsi və bu işə nəzarət üçün Ləğvetmə komissiyası yaradıldı. Bölgələrdə Kommunist Partiyasına məxsus olub yandırılan, məhv edilən sənədlər haqqında aktlar tərtib edilib, bu Ləğvetmə komissiyasına göndərilməyə başladı.

---

***Arxiv:***
*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. Fond 1, siyahı 86, iş 118, v. 2, v. 125.*

### KOMMUNİST PARTİYASINA AİD SƏNƏDLƏRİN, MÖHÜRLƏRİN LƏĞVİ, YANDIRILMASI

### AĞCABƏDİ RAYONU

1991-ci ilin payızından Azərbaycan Kommunist Partiyasının buraxılması ilə bağlı bu təşkilata aid olan sənədlər, möhürlər və digərləri məhv edilməyə başladı. Ağcabədi Rayon Partiya Komitəsinin Kommunist Par-



Скоросшиватель

ЦК КП Азербайджана
Общий отдел

ДЕЛО №

Акты
об уничтожении документов, печатей
и штампов партийных комитетов в
связи с ликвидацией Компартии
Азербайджана 1991 год

Хранить ___ лет

Фонд № 1
Опись № 86
Дело № 118

***Partiya sənədlərinin məhvi ilə bağlı aktlar***

tiyasının məhv edilmiş sənədləri əsasında tərtib etfiyi bir akta diqqət edək: "AKT. Biz aşağıda imza edənlər:

1. Sabiq rayon Partiya Komitəsinin ikinci katibi Məmmədov Vaqif Nəbi oğlu; 2. Təşkilat şöbəsinin müdiri Quliyev Məhərrəm Osman oğlu; 3. Nəzarət Komissiyasının sədri Nəcəfov Sevindik Rəhman oğlu; 4. Partiya uçotu (qeydiyyatı) və kargüzarlıq bölməsinin müdiri Abdullayev Vəli Vahab oğlu; 5. Partiya uçotu üzrə təşkilatçı Abdullayev Tofiq Dini oğlu; 6. Böyük mühasib Quliyev İlham Adışirin oğlu; 7. Texniki katibə Mikayılova Heyvagül Əli qızı yoldaşların iştirakı ilə 06 noyabr 1991-ci il tarixdə akt tərtib edirik ondan ötəri ki, Ağcabədi rayon partiya komitəsində olan möhür və ştamplar yerdə ləğv edildi. İmzalar. 6 noyabr, 1991-ci il".

***Arxiv:***

*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi.*

*Fond. Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. 1, siyahı-86, iş 118, v. 15.*



Пролетарии всех стран, соединяйтесь!

СОВЕТ ИТТИФАГЫ КОММУНИСТ ПАРТИЈАСЫ
АЗӘРБАЈЧАН КП
АҒЧАБӘДИ РАЈОН КОМИТӘСИ

КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА
АГДЖАБЕДИНСКИЙ РАЙКОМ
КП АЗЕРБАЙДЖАНА

Ағчабәди ш., Достлуг просп. 12б А. Тел. 23-25. г. Агджабеди, пр. Дружбы, 126А

№ 02 „6" нојабр 1991 г.

Азәрбајҹан КП МК ләғветмә комиссијасына

Ағчабәди Рајон Партија Комитәсиндә олан 3 әдәд мастика мөһүрү /I әдәд рәгәми олан мөһүр, I әдәд рәгәмсиз мөһүр, I әдәд малијјә тәсәррүфат фәалијјәти мөһүрү/Сизә көндәрилир.

Ләғветмә Комиссијасынын
сәдри В.Абдуллајев

***Partiya sənədlərinin məhvi ilə bağlı Azərbaycan KP MK-ya məlumat***

## ŞƏKİ RAYONU: MÖHÜRLƏR YANDIRILIR

"AKT. Biz – aşağıda imza edənlər: Şəki Şəhər Partiya Komitəsinin ləğvetmə komissiyasının üzvləri, sabiq kargüzarlıq bölmə müdiri N.Mirzəyev, uçot (qeydiyyat) bölməsinin müdiri Ş.Səmədova, mühasib R.Əhmədova, təsərrüfat müdiri E.Qasımov yoldaşlar həmin aktı ondan ötrü tərtib edirik ki, şəhər Partiya Komitəsinə məxsus 47 (qırx yeddi) ədəd möhür və ştamplar

bizim iştirakımızla yandırıldı. (Ottiskləri əlavə olunur). Aktın doğruluğunu imzalarımızla təsdiq edirik”. 16 oktyabr 1991-ci il.

***Arxiv:***
*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. Fond 1, siyahı 86, iş 118, v. 93.*

## BALAKƏN ŞƏHƏRİ

“Biz – aşağıda imza edən yoldaşlar – Azərbaycan KP XXXIII qurultayının göstərişinə əsasən Balakən Rayon Partiya Komitəsində təşkil olunmuş ləğvetmə komissiyasının üzvləri – İ.Kərimov: Rayon Partiya Komitəsinin birinci katibi; Rayon Sovetinin sədri, İ.Qomurov – Rayon Partiya Komitəsinin ikinci katibi, Z.Qarayev – rayon sovetinin sədr müavini, N.İbrahimov – Rayon Partiya Komitəsinin təşkilat şöbəsinin müdiri, Ş.Məmmədov – Rayon Partiya Komitəsinin kargüzarlıq və partiya uçotu (qeydiyyatı) bölməsinin müdiri, Ş.Pənahəliyev – Rayon Partiya Komitəsinin böyük mühasibi, həmin aktı ondan ötrü tərtib edirik ki, Azərbaycan KP-nin buraxılması haqda qərara müvafiq olaraq Balakən Rayon Partiya Komitəsinin istifadəsində olan 5 (beş) ədəd möhür bizim iştirakımızla Azərbaycan KP MK-nın ləğvetmə komissiyasına göndərilir.

Göndərilən möhürlərin ottiskləri (şəkilləri) akta əlavə olunur. Aktın doğru olmasını imzalarla təsdiq edirik. 23 sentyabr 1991-ci il.”



АКТ

Балакен шеһери 23 сентјабр 1991-чи ил

Биз ашағыда имза еден јолдашлар-Азербајчан КП XXXIII гурултајынын кестеришине есасен Балакен Рајон Партија Комитесинде тешкил олунмуш леғветме комиссијасынын үзвлери-И.Керимов-рајон партија комитесинин биринчи катиби,Рајон Советинин седри, И.Гомуров- рајон партија комитесинин икинчи катиби,З.Гарајев-рајон Советинин седр мүавини, Н.Ибраһимов-рајон партија комитесинин тешкилат шө"бесинин мүдири,Ш.Меммедов- рајон партија комитесинин каркүзарлыг ве партија учоту бөлмесинин мүдири, Ш.Пенаһелијев- рајон партија комитесинин бөјүк мүһасиби, Ф.Мансурова- рајон партија комитесинин статистики тертиб едирик һемин акты ондан өтрү ки, Азербајчан КП-нин бурахылмасы һагда герара мүвафиг олараг Балакен Рајон Партија Комитесинин истифадесинде олан5( беш) еded мөһүр бизим иштиракымызла Азербајчан КП МК-нин леғветме комиссијасына кендерилир.

Кендерилен мөһүрлерин оттисклери акта елаве олунур.

Актын доғру олмасыны имзаларла тесдиг едирик:

Имзалар:
I. И.Керимов
2. И.Гомуров
3. З.Гарајев
4. Н.Ибраһимов
5. Ш.Меммедов
6. Ш.Пенаһелијев
7. Ф.Мансурова.

*Partiya sənədlərinin məhvi ilə bağlı akt*

***Arxiv:***
*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. Fond 1, siy. 86, iş. 118, v. 11.*

## AĞDAM RAYONU

**Sovet İKP üzvlüyünə namizədlərin şəxsi işləri yandırılıb, məhv edilir**



Мы, нижеподписавшаяся комиссия, в составе: секретарь Агдамского РК КП Азерб. тов. Вердиев С.П., зав.орготделом тов. Касумов З.М. председатель партийного контроля тов. Курбанова Г.Н., зав.сектором партучета и делопроизводства тов. Кулиев Ч.К., парторганизатор тов. Шевелева С.И. составили настоящий акт в том что сего числа произведи уничтожением, путем сожжения, нижеуказанных личных дел по приему кандидатами в члены КПСС

за I 9 8 7 г о д

| Фамилия, имя и отчество | Дата подачи заявления | Дата бюро | № канд. карточки |
|---|---|---|---|
| Аббасов Азай Расул оглы | 22/XП-I986 | I4/I-I987 | 07703765 |
| Аббасов Джамаладдин Аббас оглы | 22/XП-I987 | I4/I-I987 | 07703766 |
| Аббасов Силян Ленкорань оглы | 25/XП-I986 | I4/I-I987 | 07702904 |
| Аббасов Яшар Сабир оглы | 5/У-I987 | 24/УI-I987 | 077096I7 |
| Аббасова Гюльхара Аслан кызы | 3/XI-I987 | 25/XI-I987 | 077I4846 |
| Абдуллаев Тейюб Али оглы | I3/Ш-I987 | I3/У-I987 | 07705996 |
| Абдуллаев Элданиз Джалал оглы | 25/XП-I986 | 28/XI-I987 | 0770477I |
| Абдуллаев Элхан Махияддин оглы | 7/Ш-I987 | 29/IX-I987 | 07705990 |
| Абыщова Сехран Асиф кызы | 25/IУ-I987 | I0/УI-I987 | 07706006 |
| Абышова Шавагат Кардашхан кызы | 27/IУ-I987 | I3/У-I987 | 07705992 |
| гамирзоева Арзу Абдуррахман к. | 25/IУ-I987 | I3/У-I987 | 07705993 |
| кперов Сулейман Аббас оглы | 9/П-I987 | I5/IУ-I987 | 0770598I |
| кперова Нубар Алышан кызы | I4/УШ-I987 | 30/IX-I987 | 077I2243 |
| лвердиева Фатма Али кызы | I4/XI-I987 | 9/XП-I987 | 077I4855 |
| лекперова Рана Аскер кызы | I7/П-I987 | I5/IУ-I987 | 07704796 |
| лескерова Наиля Исмаил кызы | 3/XI-I987 | I4/I-I987 | 07702903 |
| лиев Гусейн Магаммед оглы | 3I/X-I987 | 25/XI-I987 | 077I4850 |
| лиев Гусейн Худуш оглы | 25/XП-I987 | I4/I-I987 | 07703762 |
| лиев Ильхами Насир оглы | 29/УШ-I987 | I6/XI-I987 | 077I2229 |
| лиев Камил Сабир оглы | 2/IX-I987 | 28/IX-I987 | 077I3622 |
| лиев Мехти Эльдар оглы | 25/IУ-I987 | I0/УI-I987 | 077060I3 |
| лиев Мохубфат Муршуд оглы | I/IX-I987 | 28/X-I987 | 077I3630 |
| лиев Хафиз Орудж оглы | I6/П-I987 | I3/У-I987 | 07705995 |
| лиев Хохмудар Эльдар оглы | I/IX-I987 | 28/X-I987 | 077I3629 |
| Джейран Бегляр кызы | 28/IX-I987 | 28/X-I987 | 077I3623 |

***Partiya sənədi məhv edilənlərin siyahısı***

"Biz – aşağıda imza edənlər komissiyası aşağıdakı tərkibdə: Azərbaycan KP Ağdam Rayon Komitəsinin katibi yoldaş S.P.Verdiyev, Təşkilat şöbəsinin müdiri yoldaş Z.M.Qasımov, Partiya Nəzarəti Komitəsinin sədri Q.N.Qurbanova, Partiya uçotu(qeydiyyatı) və istehsalat şöbəsinin müdiri G.K.Quliyev, partiya təşkilatçısı yoldaş S.İ.Şeveleva bu aktı ondan ötrü tərtib etdik ki, aşağıda göstərilən Sov. İKP üzvlüyünə namizədlərin 1987-ci ilə aid şəxsi işlərini yandırmaqla məhv etdik. 28 sentyabr 1991-ci il".

1. Abbasov Azay Rəsul oğlu – qeydiyyat №07703765.
2. Abbasov Cəmaləddin Abbas oğlu – qeydiyyat №07703766.
3. Abbasov Yaşar Sabir oğlu – qeydiyyat №07709617.
4. Abbasova Gülxarə Aslan qızı – qeydiyyat №07714846.
5. Ağamirzəyeva Arzu Əbdürrəhman qızı – qeydiyyat №07705993.
6. Abdullayev Teyyub Əli oğlu – qeydiyyat №07705996.

***Arxiv:***
*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. Fond 1, siyahı 86, iş 118, v. 150.*

## DƏVƏÇİ ŞƏHƏRI

10 sentyabr 1991-ci il.

"Biz – aşağıda imza edənlər: ləğvetmə komissiyasının üzvləri Hüseynov Fizuli Ələddin oğlu – sədr, Babaxanova Pəri Piroğlan qızı – üzv, Bağırov Ağaşirin Məcid oğlu – üzv. Azərbaycan KP Mərkəzi Komitəsinin ləğvetmə əməli qrupuna üç mastika möhürü (I rəqəmi olan möhürü, rəqəmsiz möhürü, maliyyə-təsərrüfat fəaliyyəti möhürü) təhvil verilmişdir.



***Partiyaya məxsus sənədlər***

Digər möhür və ştamplar aşağıdakı tərkibdədir:
1. Dəmir möhürləri – 3 ədəd;
2. "Paketlər üçün mastik möhür – 1 ədəd.
3. "Vəsiqələr üçün möhür" – 1 ədəd.
4. "Məxfi sənədlər üçün" ştamp – 1 ədəd.
5. "Məxfi paketlər üçün" ştamp – 1 ədəd.
6. "Ən məxfi" qrifi altında ştamp – 1 ədəd.
7. "Liçni" (şəxsi – *red.)* qrifi altında ştamp – 1 ədəd.
8. "Tamamilə məxfi, çox mühüm" qrifi altında ştamp – 1 ədəd.
9. "Osobaya papka" ("xüsusi qovluq" – red.) qrifi altında ştamp – 1 ədəd.
10. "Artıq məxfi deyildir" qrifi altında ştamp – 1 ədəd.
11. "Seriya K" qrifi altında ştamp – 1 ədəd.
12. "Zərfə qoydu" qrifi altında ştamp – 1 ədəd.
13. "Surətini köçürmək və çıxarış etmək qadağandır" ştamp – 1 ədəd.
14. "Cavabla birlikdə qaytarılmalıdır" qrifi altında ştamp – 1 ədəd.

1. ***F. Ə. Hüseynov – sədr;*** 2. ***A. M. Bağırov – üzv;*** 3. ***P. P. Babaxanova- üzv.***

***Təsdiqləyirəm: A. T. Allahverdiyev***

*Arxiv:*
*Azərbaycan Respublikası Prezidentinin Siyasi İşlər İdarəsinin Arxivi. Fond 1, siyahı 86, iş 118, v. 222-223.*

## 1980-ci illərin SONUNDA AZƏRBAYCANDA YÜKSƏK VƏZİFƏ TUTAN ERMƏNİLƏRİN SİYAHISI

1. **A.A.Ayriyan** – Azərbaycan SSR Meşə və Ağac Emalı Sənayesi naziri.
2. **V.N.Nersesyan** – Bakı Şəhəri Kirov (indiki Binəqədi) Rayon Partiya Komitəsinin birinci katibi.
3. **N.B.Qabrielyan –** "Azərittifaq" katibinin müavini.
4. **A.S.Bedcanyan** – Azərbaycan SSR Prokurorluğunda İstintaq İdarəsinin prokuroru.
5. **S.M.Ohacanyan** – "Azərkimya" Birliyi Sədrinin birinci müavini.
6. **B.A.Ayrapetov** – Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, Bakı şəhər Plan İdarəsinin sədri.
7. **İ.S.Sarkisova** – Bakı şəhər Prokurorluğunun məhkəmələrdə cinayət işlərinə baxılmasına nəzarət şöbəsinin prokuroru.
8. **R.M.Qazaryan** – Azərbaycan SSR İslah-Əmək müəssisələrində qanunlara nəzarət şöbəsinin prokuroru.
9. **N.A.Melkumyan** – Azərbaycan SSR Prokurorluğunun Baş mühasibi.
10. **L.V.Ohanesyan** – Azərbaycan SSR Prokurorluğunda Ümumi və Vərəsəlik şöbəsinin rəisi.
11. **A.S.Gevorqyan** – Azərbaycan SSR Prokurorluğunda təsərrüfat direktoru.
12. **E.S. Kasparyan** – Nəqliyyat Qanunlarının İcrasına Nəzarət Prokurorunun köməkçisi.
13. **E.S.Petrosyan** – Azərbaycan SSR Prokurorluğunun Baş nəzarətçisi.
14. **O.V.Parsadanov** – Dövlət Təhlükəsizliyi Komitəsinin şöbə prokuroru.
15. **A.A.Arzumanyan** – Bakı şəhər Tikinti-təmir Trestinin direktoru, Bakı şəhər Sovetinin deputatı.

**16. A.S.Hambartsumov** – Azərbaycan KP Lenin rayon Komitəsinin büro üzvü, rayon Partiya Komitəsində partiya komissiyasının sədri.

**17. R.S.Baqdasaryan** – "Xəzərneftqazsənaye" Ümumittifaq Sənaye Birliyinin rəis müavini, iqtisad elmləri namizədi, SSRİ Qaz Sənayesinin fəxri işçisi.

**18. M.B.Bunyatyan** – SSRİ Sənaye-Tikinti Bankının Azərbaycan üzrə əməliyyat idarəsinin rəisi.

**19. L.İ.Vartapetyan** – Bakı Kanalı İdarəsi rəisinin birinci müavini, Azərbaycan SSR Mənzil-yaşayış təsərrüfatının əməkdar işçisi.

**20. S.N.Haykazyan** – Bakı Qaz İstehsalı İdarəsinin Baş mühəndisi.

**21. V.P.Egizarov** – Bakı Şəhər Lenin rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədr müavini.

**22. A.H.Ohanyan** – Bakı Kanalizasiya İdarəsinin Baş mühəndisi.

**23.R. V.Səfəryan** – Sosial-Mədəni Obyektlər Trestinin 9 saylı Tikinti Kompleksi İdarəsi briqadasının briqadiri, Azərbaycan KP Bakı şəhər Komitəsinin üzvü.

**24. N.R.–Şahnazaryan** - Nizami Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin üzvü.

**25. Aida Manuçaryan** – "Azərbaycan" nəşriyyatında İstehsalat İdarəsinin rəisi.

***Qeyd:*** *Bu siyahı tam olmasa da, bir həqiqəti ortaya qoyur: biz "keçici qırmızı bayraq"lar alıb, şüarçılıqla məşğul olarkən ermənilər nəinki "Dağlıq Qarabağ"ın, eləcə də Azərbaycanın və onun baş şəhəri olan Bakının hüquq-mühafizə, bank, şəhər təsərrüfatı kimi vacib sahələrinə nəzarəti ələ keçirirdilər. Eyni zamanda Azərbaycanda mövcud olan əksər nəşriyyatların kadrlar idarəsinə də onlar rəhbərlik edirdi. A.Manuçaryan isə xalq şairi B.Vahabzadənin bir yazısının çapına nəşriyyatda ciddi problemlər də yaratmışdı.*

***Qaynaq:***

*1. Jurnalist-pedaqoq Ayaz Musayevin şəxsi arxivi.*

*2. www.karabakh.net*

# FƏAL ZİYALILAR
## Akademik Ziya Bünyadov



*Ziya Bünyadov*

**Ziya Bünyadov** ( 21 dekabr 1923 - 21 fevral 1997, Bakı) – şərqşünas, tarixçi, Sovet İttifaqı Qəhrəmanı , Dövlət Mükafatı Laureatı, əməkdar elm xadimi.

1997-ci il fevral ayının 21-də yaşadığı binanın qarşısında cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilib.




***“Qırmızı terror” kitabı***

Akademik Z.Bünyadov Ermənistanın Azərbaycana olan separatçı hərəkətlərinə qarşı çıxan və ermənilərin iddialarına etiraz edən, bu sahədə ən çox söz söyləyən insanlardan biri idi. Z.Bünyadov öz çıxışlarında dəfələrlə erməni tarixçilərinin iddialarına cavab vermişdi. Onun Sumqayit hadisələrinə həsr edilmiş “Niyə Sumqayıt?” məqaləsi ictimaiyyətdə böyük maraq doğurmuşdu.



Академик ЗИЯ БУНИЯТОВ

ПОЧЕМУ С

(СИТУАЦИОН

Несколько дней назад узнал из республиканской печати о варварских актах, происшедших в Армении, разрушении памятника великого поэта Самеда Вургуна и осквернении могилы гения ашугского искусства Алескера. Эти зверства, несомненно, дело рук экстремистов. Я всегда говорил и буду говорить — нельзя приписывать содеянное горсткой подонков всему армянскому народу.

На днях мой ереванский коллега профессор П. Мурадян прислал мне с припиской «академику Буниятову для размышления» публикацию А. Оганесяна «Водораздел», напечатанную в органе ЦК КП Армении «Коммунист» от 2 ноября 1988 г.

Пересказывая ход судебного заседания в Москве по уголовному делу Ахмедова Ахмеда, Исмаилова Исмаила и Джафарова Явара, А. Оганесян по-своему интерпретирует события в Сумгаите, соотнося и связывая их с прошлым армянского народа. И хотя А. Оганесян, обращаясь к интеллигенции Азербайджана, призывает к тому, чтобы она дала ответ на происшедшее в феврале 1988 г. в Сумгаите, он тут же безапелляционно отвергает возможность такового, заявляя: «Нам ответ не нужен. Ответ нам известен».

Все же, несмотря на такое возражение, я попытаюсь дать беспристрастный анализ того, что произошло в Сумгаите и ответить на вопрос — почему это произошло, и не где-нибудь, не в Ка...

...не назову) силы армянского реваншизма, ратующие и претендующие на какие-то мифические «армянские земли между трех морей — Черным, Средиземным и Каспийским»? Ведь армянская государственность была ликвидирована в 387 году, т. е. ровно 1600 лет тому назад (хорош юбилей, не правда ли? Может быть грезы 1600-летней давности не дают покоя потомкам Меружана Арцруни?)!

Армянская государственность исчезла из-за извечных дрязг и споров между претендующими на царские почести родами Арцруни, Багратуни, Мамиконян, Аматуни, Бзнуни и прочими спарапетами, азарапетами, малхазами, танутерами, катапанами. Именно во время ликвидации Армении как государства в IV в. появились, как воспоминания о былом, «Истории Армении» Бюзанда, Агафангела, Парбского, Хоренского. Последующие армянские историки Арцруни, Себеос, Асогик, Таронский, Вардан, Анийский, Аракел, Аноним и прочие писали уже историю соперничавших родов, войн, историю арабов, персов и т. д., упоминая лишь вскользь о землях, на которых когда-то жили или живут армяне. Собственно, это были своего рода «плачи» о прошлом. Но во всех этих «историях» красной нитью проходит одна мысль — все иноземцы грабили простой армянский люд одинаково, однако господствующая верхушка и духовенство армян всегда пользова...

...султанах Кара-коюнлу, Ак-коюнлу, при Сефевидах (за исключением начальных годов правления шаха Аббаса I), Каджарах. Нет у армян повода жаловаться и на османских султанов, которые всегда, согласно армянским хроникам, терпимо относились к армянам и выделяли войска в распоряжение эчмиадзинских духовников для охраны их владений и имущества. Неплохо жилось армянам, во всяком случае армянской верхушке, и в правление последнего османского султана Абдулхамида II.

Все изменилось после создания партии «Дашнакцутюн», во главе которой стали представители армянской компрадорской буржуазии, яркими представителями которой были любимчики Абдулхамида II знаменитые Акоп-паша и Нубар-паша. Первый был личным назначеем султана, а второй (вы...

...ча» армян возник «армянский вопрос». Появилось огромное число армянских ратоборцев и велеречивых демагогов, которые без зазрения совести и не краснея кричали на всех задворках Европы о притеснителях турках.

Вся эта заваруха была поднята армянскими националистами после поражения Турции на Балканах и накануне захвата царскими войсками Карса, Эрзрума, Битлиса и Вана. Дашнаки полагали, что под натиском царских войск турки покинут свои родные места и им достанется огромное богатство. Дашнакские главари в Турции для вовлечения трудового армянского населения Турции в свою гнусную деятельность шли на такие подлые дела, как убийство армян же, с последующим сваливанием вины за это на турков. Разжигая межнацио...

...несет из последнего «исторического» романа Серо Ханзадяна, который плачет об армянах якобы погибших в Эрзинджане в феврале 1918 г. А ведь все было наоборот! Донесения генерала Одишелидзе и воспоминания подполковника российского генерального штаба Твердохлебова — яркие документы, свидетельствующие о зверствах дашнакских четников под командой Мурата Сивасеца в Эрзинджане. Почти все жители Эрзинджана (или как называет Ханзадян — Ерзынка) были согнаны дашнаками на площадь перед армянской церковью и в близлежащие дома, где были перерезаны и сожжены. Чтобы свалить с себя вину за эти зверства в Эрзинджане и в близлежащих селах, все дашнакские подразделения были переодеты в форму русской армии.

Такие же массовые звер...

***“Niyə Sumqayıt?” məqaləsi***

O ermənilərə cavab olaraq yazırdı: ”Mən sizin, Qara dəniz, Xəzər dənizi və Aralıq dənizi arasındakı ərazilərə yiyələnməklə bağlı reallaşması qeyri-mümkün arzunuzda təcəssüm edən gizli qriqoryan meylinizin yalan olduğunu təkzib edəcəm”.

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Ziya_Bünyadov*

## PROFESSOR FƏRİDƏ MƏMMƏDOVA



Fəridə Məmmədova

**Fəridə Cəfər qızı Məmmədova** – tanınmış alim, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, AMEA-nın Tarix İnstitutunun əməkdaşı. Fəridə Məmmədova 8 avqust 1936-cı ildə Əli Bayramlı(İndiki Şirvan) şəhərində anadan olub. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib.Ən məşhur əsəri belə adlanır:"Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası. Bakı: 1986, ( rus dilində)".

***İlk dəfə onun tərəfindən Albaniyada feodal münasibətlərinin genezisi problemi tədqiq olunub. F.Məmmədova tarixşunaslıqda uzun müddət hakim olmuş I-VII əsrlərdə Albaniyada ibtidai-icma qurluşunun mövcud olması fikrinin yalan olduğunu sübut etmiş, burada feodal münasibətlərinin yaranması və inkişafını elmi şəkildə əsaslandırmışdır. O, Moisey Kalankatuyskinin alban mənşəli olmasını və ilk dəfə alban hüquqi abidəsini tədqiq etmişdir. F.Məmmədova Alban dövlətinin e.ə. IV- b.e. VII əsrlərinə aid sərhədlərini müəyyən etmiş, Albaniyada xristianlığın yayılması və alban kilsəsinin yaranması tarixini tədqiq etmiş, Ermənistan dövlətinin Kiçik Asiyada mövcud olmasını sübut etmiş və Qarabağ tarixini yazmışdır. Onun bu mövqeyi erməniləri daima narahat etmişdir.***




***F.Məmmədovanın kitabı***

---

*Bax: https://az.wikipedia.org/wiki/Fəridə_Məmmədova_(tarixçi)*

## "GƏNCƏ" ADININ QAYTARILMASI UĞRUNDA MÜBARİZƏ NÜŞABƏ MƏMMƏDLİNİN FƏDAKARLIĞI



*Nüşabə Məmmədli*

1987-ci ilin fevralın 13-də Bakıda keçirilən Azərbaycan jurnalistlərinin VII qurultayındakı çıxışında "Kirovabadskiy raboçiy" ("Kirovabad fəhləsi") şəhər qəzetinin redaktor müavini Nüşabə Məmmədli "Gəncə" adının bərpa olunmasını təklif etmişdi. Rəyasət Heyətində əyləşən Azərbaycan KP MK-nın Birinci katibi K.Bağırov əlini Nüşabə Məmmədliyə uzadıb qəzəblə demişdi: "Nədi, millətçilik toxumu səpirsiniz? Alma-Ata hadisələri bəyəm sizə dərs olmadı? Baxın, aramızda xalq düşməni oturub və belələrinə qarşı amansız olmalıyıq".

Qurultaydan sonra N.Məmmədliyə təzyiqlər başladı və onun işdən çıxarılmasını tələb etdilər. Lakin qəzetin Baş redaktoru Rauf Rəcəbli və Azərbaycan Jurnalistlər İttifaqının sədr müavini Hacı Hacıyev onu müdafiə etdilər.

Həmin dövrdə bu fikrə əks olaraq "biz Kirovabadlıyıq" adı ilə "yuxarılar"ın göstərişinə uyğun imzatoplama kampaniyası keçirildi.

1989-cu ilin sentyabr-oktyabr aylarında şəhərin adının dəyişdirilməsi məqsədi ilə 60 minə yaxın imza toplandı.

1989-cu ilin 29 noyabrında Kirovabad Şəhər Xalq Deputatları Sovetinin sessiyasında bu məsələ müzakirə edildi. Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsi adından Nizami Xəlilov, AXC Gəncə şöbəsi adından Əlvan Əliyev (Kəbirli) məruzə etdilər. Digər çıxışlarda da Gəncə adının bərpası təklifi səsləndirildi və ertəsi gün qərar verildi. 1989-cu ilin 30 dekabrında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bu qərarı təsdiq etdi: "Gəncənin tarixi adını bərpa etmək haqqında şəhər vətəndaşlarının, əmək kollektivlərinin və respublikanın geniş ictimaiyyətinin çoxsaylı müraciətini, Kirovabad Şəhər Xalq Deputatları Sovetinin xahişini nəzərə ala-

raq və Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə (18-ci bənd) uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır: Kirovabad şəhəri Gəncə şəhəri adlandırılsın".

***Qaynaq:***

*B.Əziz. Yelizavetpol və Kirovabadın əvvəlki adı – Gəncə ilə əvəzlənməsi uğrundakı mübarizə tarixinə dair. "Tarix və onun problemləri". Bakı 2016, № 4. s. 36-40*

**Qeyd**: İlk dəfə olaraq Rusiya işğalından sonra 1804-cü ilin martında Gəncə, Rusiya imperatoru imperatiriça Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci ilin 30 iyulunda şəhər yenidən Gəncə adlandırıldı. Sovet işğalı dövründə - 1935-ci ilin 22 fevralında Gəncə şəhərinin adı dəyişdirilib Kirovabad qoyuldu. Gəncə adının qaytarılması uğrunda şair Rəsul Rzanın, akademik Süleyman Əliyarovun, jurnalist Əhməd İsayevin və digər ziyalıların da xidmətləri olub.

## MEHDİ MƏMMƏDOV
## (20 YANVAR HADİSƏLƏRİNİ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRAN ŞƏXS)



*Mehdi Məmmədov*

Mehdi Məmmədov Azərbaycan Xalq Hərəkatında fəal iştirak edib. 1952-ci ildə Qazaxıstanın Cambul vilayətinin Qurdbay rayonunun Krasnoqorsk kəndində Stalin repressiyasının qurbanı olan ailədə dünyaya göz açıb. 1956-cı ildə ailəsi ilə birlikdə vətənə qayıdıb. 1971-ci ildə BDU-nun tarix fakultəsinə daxil olub və 1976-cı ildə ali məktəbi bitirib. BDU-nun tarix fakultəsində baş elmi işçi vəzifəsində çalışıb. 1988-ci ildə AXC-nin yaranmasında fəal iştirak edib, onun beynəlxalq nüfuzunun artmasında çoxcəhətli fəaliyyəti ilə fərqlənib, beynəlxalq informasiya vasitələri ilə Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında misilsiz xidmətlər göstərib.

AXC İzmir (Oktyabr) rayon şöbəsinin kütləvi informasiya şöbəsinin rəhbəri olub. 66 saylı Seçki Dairəsindən Azərbaycan SSR Xalq deputatlığına namizədliyini irəli sürüb.

Mehdi Məmmədov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi hər kəsin şəxsi həyatına belə nəzarət etdiyi illərdə, 1989-cu ilin yanvar ayından 1990-cı ilin aprel ayınadək "Azadlıq" radiosu ilə telefon rabitəsi yaradıb və Azərbaycanda baş verən hadisələrlə bağlı müntəzəm məlumat verib. M.Məmmədov göz işığına həsrət qalsa da, bu fəaliyyətini dayandırmırdı.

---

***Qaynaq:***

*Mehdi Məmmədov haqqında məlumat. "Meydan" qəzetinin xüsusi buraxılışı. 1990-ci il.*

## ELDAR İBRAHİM[1]
## "Tarix"[2] poemasından bir parça

Gəlir təzə-təzə,
Gəlir dəstələr.
Yorğunlar, üzgünlər,
Aclar, xəstələr,
Tərk etmir meydanı.
Küçələr, yollar
Bürünür min rəngə.
Düşür min dona,
Lenin meydanında
Yanan tonqallar
Paylayır nurunu
Azərbaycana!
Xalq qalxmış Gəncədə,
Vəcdə gələrək.
Ayağa qalxıbdır
Şəki, Sədərək.
Dar gündə sınanar
Ər bahadırlar.
İnsanlar ələnər,
Bir ələk kimi.
Yağışdan sonrakı
Göbələk kimi.
Artıb çoxaldıqca…
İşə bax, işə,
Rəhbərlər, böyüklər
Düşür təşvişə,
Səslər haray salır,
Soyuq daşlara.
Yol verin, yol verin

[1] Eldar İbrahim. Eldar İbrahim oğlu Məmmədov – şair, jurnalist. Milli – azadlıq hərəkatının fəal iştirakçısı. 1993-cü ilin yayından mühacirətdədir.

[2] "Tarix" poemasını E.İbrahim 1989-cu ildə yazıb. Poema həmin dövrdə Bayıl həbsxanasında yatan Məhəmməd Hatəmi Tantəkinə həsr edilib.

Qızılbaşlara[1].
Kənara çəkilib,
Yol verir hərə,
Səttar xan marşını
Öyrənənlərə.

Budur Isfəndiyar[2]
Gəlir qabaqda.
Bax, bax marş oxuyur,
Əlində varaq.
Cavan oğlan kimi,
Bu yaşlı çağda oxuyur,
Təbrizi xatırlayaraq.
Ürəklər çağlayır
Neçə həvəsdə,
Elə radiasiya,
Gözləyir Elşən.
Deyir duman deyil
Bakının üstdə,
Radiaktiv tüstüdür,
Havadan düşən.
Hələ Yaşara[3] bax,
Sanki quşdur, quş.
Özündən xəbərsiz
Dünən doğulmuş
Oğlunu görməyə
Getmir o, niyə?
Getmir xəstəsinə
Baş da çəkməyə.
Qəzəblə söyləyir,
Məndən əl çəkin.
Oğlumun adını,
Qoydum Tantəkin.
Sözündən döndərmək,
Olmur Yaşarı.
Tantəkin "Hatəmi"[4],
Bu ad yaşarı.
Onu yaşadanlar
Çoxmu olacaq?
Çoxmu yaşayacaq?
Bu od, bu ocaq?
Söyləyə bilmərəm.
Qəti qərarla.
Lakin söz verirəm,
Mən iftixarla,
Bu qərar verən,
Hökmü zamandır.
Bu gün Tantəkinlər,
Baş qəhrəmandır.
Bəxtiyar[5], Məhəmməd,

---

[1] Qızılbaşlar – Məhəmməd Hatəmi Tantəkinin başçılıq etdiyi Xalq hərəkatı üzvləri başlarına qırmızı lent bağladıqları üçün "qızılbaşlar" adlanırdılar.

[2] İsfəndiyar – İsfəndiyar Coşqun (İsfəndiyar Əli oğlu Bərxu: 1925-1991). Satirik şair. S. C. Pişəvərinin fədaisi. Milli-azadlıq hərəkatının fəal iştirakçısı.

[3] Yaşar Türkazər – Milli-azadlıq mərəkatının bayraqdarı. 1989-cu ildən Müsavat Firqəsinin üzvü. "Yeni Müsavat" qəzetinin ilk səyyar yayıcısı.

[4] Məhəmməd Fərzulla oğlu Hatəmi Tantəkin. Folklorşünas alim. Milli-azadlıq hərəkatının rəhbərlərindən biri.

[5] Bəxtiyar Tuncay (Bəxtiyar Adil oğlu Şahverdiyev) – tarixçi alim. Milli-azadlıq hərəkatının fəalı. Müsavat Firqəsinin birinci bərpa dövrü olan Azərbaycan Milli Demokrat Partiyası Yeni Müsavatın katibi olmuşdur.

Əziz[6], Koroğlu[7],
Mirzəşah, Firudun,
İbrahimoğlu[8],
Zakir[9], Mahmud, Rauf[10]!
Yəhya ya Kərim,
Minlərlə adını
Bilmədiklərim
Məni başa düşüb
Fikrimi anlar.
Bu gün onlar idi
**Baş qəhrəmanlar.**

---

[6] Əziz – Əziz Qaraca. Milli-azadlıq Hərəkatının iştirakçısı. AMDP Yeni Müsavatın katibi.

[7] Koroğlu – Milli-azadlıq Hərəkatının fəal iştirakçısı Qardaşxan Əsədovun ayaması.

[8] İbrahimoğlu – Loğman İbrahim oğlu Məmmədov. Eldar İbrahimin qardaşı. 1993-cü ilin yayından mühacirətdədir.

[9] Zakir – Zakir Əzizoğlu Əhmədov. Milliyyəti avar. 1991-ci il noyabrın 25-də Pirəküşküldə rus əsgərləri tərəfindən öldürülmüşdür. Məzarı Şəhidlər Xiyabanındadır.

[10] Rauf Arifoğlu. Milli-azadlıq Hərəkatı dövründə Rauf Şenol adı ilə tanınırdı.AMDP Yeni Müsavatın katibi və onun orqanı "Yeni Müsavat" qəzetinin yaradıcısı.

# NAXÇIVANDA GİZLİ TƏŞKİLATLAR

## AZƏRBAYCANÇILAR, TURANÇILAR. NAXÇIVANDA YURD BİRLİYİ



*Asif Kələntərli*

Naxçıvanda gizli təşkilatın yaranması tarixi haqqında **Arif Rəhimoğlu yazır**: "1976-cı ilin sonu -1977-ci ilin əvvəllərində artıq Naxçıvanda təşkilat qurulmuşdu. Mən 1977-ci ilin yayında işləmək üçün Naxçıvana gəldim və rəhmətlik Asifin qurduğu bu təşkilata qatıldım (hər zaman sadəcə təşkilat dedik, daha ayrıca bir özəl adımız olmadı). Əsgər Məmmədovun atası Cəlil kişinin çayxanası bizim əsas görüş yerimizə çevrilmişdi və doqquz nəfərlik mərkəz daha çox burada yığılırdı. Başlıca hədəfimiz Azərbaycanın bütövlüyü idi (o vaxtlar daha çox Vahid Azərbaycan deyimini işlədirdik) və düşünürdük ki, Bütövlük istəyiriksə, bu hədəfə ürəkdən bağlanacaq və bu yolda çalışacaq milli şüurlu gənclik yetişdirməliyik".

Bir qədər sonra **Asif Kələntərli** Naxçıvan Pionerlər Sarayına, Arif Rəhimoğlu isə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna işə düzəlir. A.Kələntərlinin Pionerlər Sarayında yaratdığı şeir dərnəyi gizli təşkilatın bazası rolunu oynayırdı.



*Asəf Quliyev*

1984-cü ildə Asəf Quliyevin təşəbbüsü ilə Naxçıvanda "Məktəbli gənclərin axtarış ekspedisiyası" adlı qurum yaradıldı.

Təxminən iki ilə yaxın bu ad altında fəaliyyət göstərildi. Azərbaycan tarixinin təbliği və tarixi abidələri qorumaq istiqamətində fəaliyyətlə yanaşı, orta məktəblərdə də iş aparılırdı. **Sonradan millət vəkili olan Fazil Mustafa, Ədalət Partiyasının üzvü Heydər Oğuz** bu qurumun fəalları idi.



*Arif Rəhimoğlu*

1980-ci illərin ortalarından başlayaraq Naxçıvanda gizli fəaliyyət göstərən təşkilatların sayı 28-ə çatdı. Əslində klub olaraq fəaliyyət göstərən bu təşkilatlar daha çox siyasi mövzuları müzakirə edirdi. Qeyd edək ki, 1985-ci ildən, xüsusən M.S.Qorbaçovun cəmiyyətə elan etdiyi Aşkarlıq və Yenidənqurmadan sonra (1985-ci ilin aprel plenumu) ölkədə klubların və dərnəklərin fəaliyyətinə geniş imkan verildi.

1986-cı ildə **Asəf Quliyevin** təşəbbüsü ilə Naxçıvan Tarix Muzeyində Yurd Tarix-Etnoqrafiya Birliyi yaradıldı və bu qurum gizli təşkilatın fəaliyyət formasına çevrildi. Naxçıvanlı gənclər 1986-cı ilin yanvarında onu qeydiyyatdan keçirdilər. Muzeyin yaxınlığında 40-50 nəfərlik bir zal tikib, orada bu birliyin xətti ilə tarixlə, siyasi proseslərlə bağlı tədbirlər keçirildi.

Həmin illərdə Naxçıvandakı bu klub və dərnəklər müzakirə və fəaliyyət istiqamətinə görə iki qrupa bölünmüşdü: 1) Azərbaycançılar; 2) Turançılar.

Azərbaycançılar təşkilatında aşağıdakılar daha çox fəallıq göstərirdi: Asif Kələntərli, Arif Rəhimoğlu, Asəf Quliyev, Bünyamin Qəmbərli, Kazım Teymurlu, İbrahim İbrahimli, Qılman Əhmədov, Əsgər Məmmədov, Sərdar Cəlaloğlu, Sülhəddin Əkbər, Əsgər Cəliloğlu Fərəc Quliyev, İnqilab Orxan, Heydər Oğuz və digərləri.

Təşkilat üzvlərinə Naxçıvan radio-televiziyasında və "Şərq Qapısı" qəzetində Əli Şamil yardım göstərirdi.

Gizli təşkilatın üzvlərindən olan **Bünyamin Qəmbərli** xatırlayır ki, o dövrdə 300 oğlan, 300 qız adını (türk adları) makinada yazıb xalq arasında yayırdıq ki, doğulan uşaqlara bu adları qoysunlar.

Tez-tez ad günləri bəhanəsi ilə təşkilat üzvləri toplaşıb yığıncaq keçirirdi. Tanınmış şairlərdən Məmməd Araz və Söhrab Tahirlə əlaqələr yaratmağa, onlardan maddi dəstək almağa çalışılsa da, S.Tahir bu işə qoşulmadı. Şair M.Araz 200-300 ədəd kitabını onlara satmaq üçün göndərməyə razılaşsa da, sonra imtina etmişdi.

Turançılar dərnəyinin fəalları isə aşağıdakılar idi**: Oqtay Daşoğuz, Fəxrəddin Qasımov, Gülağa Mirzəyev, Fəxrəddin Şeyxələsgərov, Aydın Qasımov (Aydın Mədətoğlu).**

**Ələsgər Siyabov yazır:** "O zaman Naxcivan da milli mübarizənin, türkcülüyün əsas mərkəzlərindən biri idi. 1974-cü ildə Naxcivanda fəaliyyət göstərən gizli milliyətçi qrupun rəhbəri Naxcivan Pedagoji İnstitutunun məzunu Asif Kələntərli idi.

Digər bir gizli milliyətçi qrupa isə Naxçıvanda universitetin ədəbiyyat fakultəsinin məzunu Arif Rəhimov rəhbərlik edirdi".



*Fərəc Quliyev*

**Azərbaycan xalq hərəkatının fəallarından olan Fərəc Quliyev** Naxçıvandakı gizli təşkilatlarla bağlı yazır: "Mən Bakıdan Naxçıvana 1986-cı ildə gələndə Naxçıvanda Asəf Quliyevin formalaşdırdığı qrupun fəaliyyəti ilə tanış oldum. Fəaliyyətimizi uzlaşdırdıq. Prinsiplər, yanaşmaların fərqli olmaması birgə fəaliyyətə imkan verdi. Sonradan məlum oldu ki, Asəfin qrupu da Elçibəyin siyasətinə daxildir. Bəyin razılığını alıb, konsolidasiyanı dərinləşdirdik. Mən də Elçibəylə eyni sistemdə idim. Amma o, təşkilatı qorumaq naminə hamını bir araya gətirməmiş ayrı-ayrılıqda fəaliyyətə üstünlük vermişdi. 1987-ci ilin sonlarından yarımleqal fəaliyyət müəyyən qrupların yaxınlaşmasına imkan verirdi. Bəy şəraitə uyğun taktika seçirdi. Bizim fəaliyyətimizdə Cənubi Azərbaycan məsələsi daim qırmızı xətlə keçirdi. Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda Cənub məsələsinə daha anlayışla, həssaslıqla yanaşırdılar. İmkan düşən hər məqamda Bütöv Azərbaycan məsələsini ictimai rəyə həzm etdirməyə çalışırdıq..."

Qeyd edək ki, Naxçıvanda ən hündür zirvə olan "Soyuq" əməliyyatının keçirilməsində F.Quliyevin xüsusi xidməti olmuşdur.

**"Azərbaycançılar"ın başlıca məramı bu idi:** Güney Azərbaycanın problemi, İki Azərbaycanın birləşməsi. Onlar hər həftənin birinci günündə beş-beş yığışar və çayxanada görüşərdilər. Burada onlar fikir mübadiləsi edər, oxuduqları yazıları, kitabları müzakirə edərdilər.



*İbrahim İbrahimli*

**Turançıların başlıca fəaliyyəti isə belə idi:** Türk dünyasını birləşdirmək cəhdləri, türk mahnıları olan kasetləri, kitabları yayıb təbliğ etmək. Sonradan bu təşkilatlarda olanlar Naxçıvan Xalq Cəbhəsinin əsas qüvvəsini təşkil etdilər.

Bu illərdə Naxçıvan üzrə bölmə rəhbərlərinin qatılması ilə gizli ümumi toplantılar keçirilirdi. Bu toplantılar sırasında Köhnə qala (Naxçıvan), Uzunoba gölü (Babək), Şəfa bulağı (Üstüpü, Ordubad), Şıxmahmud meşəsi (Babək), Qaraqaya (Şahbuz) yığıncaqları faydalı olmuşdu.

Qeyd edək ki, 1982-ci ildə Azərbaycançılar və Turançılar arasında yaxınlaşma oldu və Şahab Məhləsində qurduqları bayram çadırından bir-birlərinə Novruz xonçası göndərdilər, münasibətləri bir az da səmiləşdirdilər.

1988-ci ildə Naxçıvan Respublikası üzrə gizli təşkilatın 96 üzvü var idi.

---

***Qaynaq:***

*1. A.Rəhimoğlu. Orda bir yol var uzaqda... Böyük Azərbaycan yolçusu. Bakı, 2014.*

*2. S.Laçın. Naxçıvan şəhəri üzrə 1800-ə yaxın DTK agenti aşkar etdik (AXCP sədrinin birinci müavini Asəf Quliyevlə söhbət). "Həftə içi" qəzeti, 22 aprel, 2014.*

*3. B.Qəmbərli. Milli Birliyə və Bütövlüyə gedən yol. Moderator.az. saytı. 31 dekabr. 2015-ci il.*

*4. F.Quliyev. Missiya. I hissə. Bakı, 2002, səh.53.*

## YURD BİRLİYİ

Sov. İKP MK-nın 1985-ci ildə klubların və dərnəklərin inkişaf etdirilməsi barədə qərarından və yenidənqurma, aşkarlıq proseslərinin başlanmasından sonra Naxçıvanda müxtəlif klublar, klubların nəzdində isə dərnəklər yaradıldı.

1986-cı ildə Naxçıvanda Yurd Tarix Etnoqrafiya Birliyi yaradıldı. Bu birliyin yaranmasının əsas səbəblərindən biri o dövrdə Zori Balayanın yazdığı "Ocaq" kitabına qarşı çıxmaq idi:yəni milli abidələri qorumaq, milli irsə sahib şıxmaq və s.Birlik yaranmamışdan öncə Bakıdan MK katibi Rafiq Zeynalov başda olmaqla bir qrup nümayəndə Mərkəzi Komitədən təbliğat aparmaq məqsədi ilə Naxşıvana gəlmişdi. Bu birliyin ilk toplantısı Tarix Muzeyinin yetmiş nəfərlik salonunda keçirildi. Birliyin ilk sədri Fəttah Heydərov oldu və o qısa müddətdən sonra bu vəzifədən uzaqlaşdı.

Birliyin əsasını Azərbaycançılar təşkil edirdi (onlar artıq Turançılarla birləşmişdilər). İdarə Heyətinə üç nəfər iqtidardan, üç nəfər də müxalifətdən seçilmişdi (burada müxalifətdən olanlar Arif Rəhimov, Asəf Quliyev və Əli Şamilov "Sovet Naxçıvanı" qəzetinin (əvvəl "Şərq Qapısı" qəzeti) əməkdaşı olaraq təmsil edilirdi).

Birlik Naxçıvanın mədəniyyəti, tarixi ilə bağlı məsələlərlə məşğul olsa da, qapalı formada siyasi fikir müzakirələri də aparırdı.

---

***Qaynaq:***
*Əli Şamilovun şəxsi arxivi.*

## NAXÇIVANDA ÜÇRƏNGLİ BAYRAĞIN RƏSMİ ELAN EDİLMƏSİ. NAXÇIVAN CƏBHƏÇİLƏRİNİN FƏALLIĞI

1990-cı ilin 17 noyabrında yeni seçilmiş Naxçıvan Ali Sovetinin ilk yığıncağı keçirildi. Ali Sovetə seçilmiş deputatların ümumi razılığına görə burada olan ən yaşlı adam ilk iclası aparmalı idi. Odur ki, ilk iclasın aparılması Heydər Əliyevə həvalə edildi (Ali Sovetin sədri vəzifəsinə isə Afiyəddin Cəlilov seçilmişdi).

Lakin Ali Sovetdə Demokratik Blok üzvləri ilə (əsasən cəbhəçilərlə), kommunistlər arasında ciddi gərginlik yaşanırdı. Belə ki, Demokratik Blokun üzvləri ilk iclasın gündəliyinə iki məsələnin mütləq daxil edilməsini tələb edirdilər: 1) Naxçıvanın rəsmi adından "sovet sosialist" sözünün çıxarılması; 2) Üçrəngli bayrağın Naxçıvanın rəsmi bayrağı olaraq qəbul edilməsi.

Kommunistlər bu şərtləri qəbul etməyərək, iclasın gündəliyinə salınmasına etirazlarını bildirirdilər. Demokratik Blok üzvləri isə israrlı şəkildə çıxışlar edir, tələblərindən geri çəkilmirdi (iclasda Bünyamin Qəmbərli on yeddi dəfəyə qədər çıxış etmişdi). Sonda 6-7 saatlıq müzakirədən sonra hər iki tərəfi qane edən ümumi razılaşma oldu: Demokratik Blok sədrliyə namizəd vermir, kommunistlər onların təkliflərini dəstəkləyir.

Qəbul edilən qərardan sonra B.Qəmbərli Bayrağı foyedə olan cəbhəçilərdən (onlardan biri Oqtay Daşoğuz idi) alıb Fərəməz Allahverdiyevlə birgə zala gətirdilər, Telman Siyabovun da köməkliyi ilə sovet bayrağını çıxarıb onun yerinə asdılar.

Beləliklə, üçrəngli bayraq Naxçıvan Ali Sovetinin binasında rəsmi şəkildə ilk olaraq dalğalanmağa başladı.

***Qaynaq:***
*Bünyamin Qəmbərlinin şəxsi arxivi.*

## NAXÇIVAN DÖYÜŞLƏRİ. ŞAHMƏRDAN CƏFƏROVUN FƏDAKARLIĞI



***Şahmərdan Cəfərov***

Azərbaycana torpaq iddiasında olan ermənilər yalnız Qarabağ uğrunda deyil, həm də Naxçıvana ərazi iddiaları irəli sürür və bu bölgəni də havadarlarının dəstəyi ilə ələ keçirmək istəyirdilər. Naxşıvanın müdafiəsində o dövrdə yaradılan özünümüdafiə könüllü hərbi dəstələrinin böyük rolu olmuşdu. Ordubadda Fərəc Quliyevin, Culfada Ramiz Tağıyevin, Şərurda Şahmərdan Cəfərovun başçılığı ilə dəstələr yaradılmış və uğurlu döyüşlər aparılmışdı.

Belə qəhrəmanlardan biri Naxçıvanda Şərur özünümüdafiə batalyonunun komandanı olmuş Azərbaycan Xalq və Sərhəd hərəkatının tanınmış üzvü Şahmərdan Cəfərov idi. O, 17 oktyabr 1991-ci ildə Azərbaycanın Müstəqillik Aktına səs verən 43 deputatdan biri olmuşdu.

Bu gün əksər naxçıvanlılar belə hesab edir ki, o, olmasa idi bəlkə də Naxçıvan indi düşmən tapdağı altında qalmışdı. Onun özünəməxsus xarakteri var idi. Şahmərdan mərdliyi, cəsarəti, sadəliyi, həqiqi vətənsevərliyi ilə dostlarının qəlbində dərin iz qoyub.

1994-cü ilin avqustunda Şahmərdan və onun silahdaşlarına qarşı qanunsuz silahlı dəstə ittihamı ilə cinayət işi açıldı. Həmin ilin dekabrında artıq parlamentdə Şahmərdanın həbs olunması ilə bağlı fikirlər səsləndirilməyə başlandı.

1995-ci ilin 30 mayında parlamentdə onun həbsi ilə bağlı qərar qəbul edildi. 17 iyunda səhər tezdən o özünün Niva maşınında Kələkidən qayıdarkən Bənəniyar kəndində Culfa Rayon Polis bölməsinin əməkdaşları tərəfindən yolda güllələnib.

## AZƏRBAYCAN DEMOKRAT PARTİYASI

Tarixi – 26 yanvar 1991-ci ildə 27 nəfərin iştirakı ilə Naxçıvan şəhərində təsis olunub. 17 oktyabr 1991-ci ildə Naxçıvan MR Nazirlər Kabineti tərəfindən qeydə alınıb. Siyasi partiyalar haqqında Azərbaycan Respublikası qanunu qəbul edildikdən sonra Ədliyyə Nazirliyinin Kollegiyası tərəfindən 14 mart 1993-cü ildə qeydə alınmışdır. Həmin il partiyanın Mərkəzi Qərargahı Bakı şəhərinə köçürülmüşdür. 1994-cü il ADP-nin birinci qurultayında Sərdar Cəlaloğlu partiyanın sədri seçilmiş və 1994-1996-cı illərdə ADP-nin ilk sədri olmuşdur.

Partiyanın simvolları – ADP-nin embleminin ideya müəllifi Zöhrab Şamxalovdur. Hazırda partiyanın üzvü olmayan Z.Şamxalov bu simvolu partiya təsis edilərkən yaradıb. Simvolda doğan günəş fonunda açıq dənizdə avar çəkən qayıqçılar təsvir olunub. ADP sədrinin müavini Həsrət Rüstəmovun sözlərinə görə, 8 nəfərlik say Azərbaycan xalqının 8 etnosdan ibarət olmasına işarədir. Günəş sübh çağı yenicə çıxmış günəş rəngindədir. Bu isə o deməkdir ki, Azadlıq günəşi Azərbaycana hələ yenicə doğur. Günəşin üzərindəki xətlərdən ibarət sahə isə azadlığın Azərbaycanın payına düşən hissəsidir. H.Rüstəmovun sözlərinə görə avarçəkənlər işlədikcə və gəmi irəli getdikcə onların azadlıq payı arta bilər. Bu da azadlıq və demokratiyanın birgə zəhmət tələb etməsinə işarədir. Eyni zamanda simvolda təsvir olunan gəmi Qobustan qayaüstü rəsmlərində təsvir olunan rəsmlərdən götürülüb. Bu da Azərbaycanın qədim yaşayış məskəni olmasına işarədir.

ADP-nin mavi rəngli bayrağının üzərində qeyd olunan emblem öz əksini tapıb.

Rəmzi – Ümumi mavi fonda narıncı rəngdə təsvir olunmuş Azadlıq Günəşi və onun fonunda qara rənglə çəkilmiş səkkiz nəfər avar çəkənin idarə etdiyi günəş gəmisidir.


АЗАД ИНСАН, АЗАД МИЛЛӘТ, АЗАД ДУНЈА!
hürriyet
АЗӘРБАЈЧАН ДЕМОКРАТ ПАРТИЈАСЫНЫН ГӘЗЕТИ
ӘЗИЗ ОХУЧУ!
«ДЕМОКРАТИЈА» НЕЧӘ ГЫЧГЫРЫР?
ТӘБРИК ЕДИРИК!

*“Hürriyət” qəzeti*

**“HÜRRİYYƏT”** qəzeti - müxalifət meyilli ictimai-siyasi qəzetdir. 1991-ci ilin dekabrından çıxır. ADP-nin (Azərbaycan Demokrat Partiyası) orqanı kimi nəşr edilib. Qəzet müxtəlif əlavələr də buraxıb: “Labirint”, “Futbol”. Baş redaktoru - Süleyman Məmmədlidir.

## SƏRDAR CƏLALOĞLU



*Sərdar Cəlaloğlu*

Sərdar Cəlal oğlu Məmmədov 3 iyun 1954-cü ildə Naxçıvan Muxtar Respublikası Babək rayonu Cəhri kəndində anadan olub. 1970-1977-ci illərdə Azərbaycan Tibb Universitetində ali tibb təhsili alıb. İxtisasca məhkəmə-tibb ekspertidir;1988-1990-cı illərdə Naxçıvan Xalq Cəbhəsinin təsisçilərindən biri və İdarə Heyətinin üzvü olub;26 yanvar 1991-ci ildə təsis edilmiş Azərbaycan Demokrat Partiyasının təşəbbüs qrupunun rəhbəri və təsisçilərindən biri; 1991-1994-cü illərdə Azərbaycan Demokrat Partiyası təşkilat komütəsinin sədri;1994-1996-cı illərdə Azərbaycan Demokrat Partiyasının ilk sədri.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Azərbaycan_Demokrat_Partiyası*

## SƏRHƏD HƏRƏKATI. SƏRHƏDİN AÇILMASI. NAXÇIVAN - DEKABR 1989-CU İL



***Bünyamin Qəmbərli***

Azərbaycanda Xalq Hərəkatının təsiri ilə vətənimizi ikiyə bölən, Araz çayı üzərindəki tikanlı məftillər də aradan götürüldü. 1989-cu ilin 4 dekabrında Naxçıvan Xalq Cəbhəsinin təşəbbüsü ilə Araz sahilində Cənubi Azərbaycanla iqtisadi, mədəni və hər cür insani əlaqələri bərpa etmək məqsədi ilə mitinqlər keçirilmişdi. Arazın o tayındakı qardaş və bacılarımız naxçıvanlıların çağırışına cavab verərək Araz sahilinə toplanmış, uzun illərin ayrılığından üzüntülər keçirmiş xalq birləşmək arzusunu ucadan səsləndirirdi.

Arif Rəhimoğlu qeyd edir ki, sərhəd Hərəkatı Asəf Quliyevin təklifi ilə başladı. O, qeyd edir ki, sərhəd Hərəkatı Naxçıvandakı gizli təşkilatın fəaliyyətinin nəticəsi oldu.

Bu, onunla izah edilir ki, Naxçıvan Xalq Cəbhəsi rəhbərliyində o dövrə qədər mövcud olmuş gizli təşkilat üzvləri çoxluq təşkil edir və həmin qərarın qəbulunda fəal olmuşdular. Təsadüfi deyil ki, Sərhəd Hərəkatı Təşkilat Komitəsinin on beş üzvündən on ikisi gizli təşkilatdan olanlar idi.

Naxçıvan Xalq Cəbhəsi Məclisinin 1989-cu il noyabr toplantısının qərarı ilə sərhəd boyunca 4 və 12 dekabrda tədbirlər keçirildi, 19 dekabrdan isə sərhəddə çadırlar quruldu, 31 dekabrda isə o taylı – bu taylı qohumlar bir-birini arayıb tapmağa başladı.

Dekabrın 12-də S.Pişəvərinin rəhbərliyi ilə Cənubi Azərbaycanda 45 il əvvəl baş vermiş “21 Azər” hərəkatının ildönümünü qeyd etmək üçün Naxçıvan fəalları yenidən Araz sahilinə toplaşdı. Kərimbəyli, Muğanlı, Şahtaxtı, Nehrəm, Culfa, Ordubad ərazilərində cənublu qardaş və bacılarımızın da qoşulduğu mitinqlər bu dəfə daha geniş vüsət aldı.

Dekabrın 17-də Naxçıvan Xalq Cəbhəsinin qərarı ilə Arazın sahilində başlanan mitinqlər, Araz sahillərində qurulmuş onlarla çadır xalqın birləşmək istəyinin bir rəmzi idi.



***Ramiz Tağıyev***

Şahtaxtı kəndi yaxınlığında, Araz sahilində isə şərurluların sevimli müğənnisi Yavərin oxuduğu "Ayrılıq" mahnısı hamını həyəcana gətirdi.

Naxçıvan Xalq Cəbhəsi hakimiyyət orqanları və sərhəd qoşunları komandanlığı qarşısında belə tələb qoymuşdu ki, dekabrın 31-nə qədər sərhəddə tikanlı məftillər götürülməsə, sərhəd dirəklərinə od vurulacaq.

1989-cu ilin 26 dekabrında Naxçıvanda keçirilən mitinqdə Asəf Quliyev çıxış edib, 31 dekabr saat 12:00-da sərhəd məftillərinin söküləcəyini bildirmiş, bundan sonra isə hər ilin 31 dekabrının Azərbaycan türklərinin Milli Birlik və Milli Həmrəylik günü olaraq qeyd ediləcəyini söyləmişdi.

Dekabrın 30-da Azərbaycan Ali Sovetinin Bakıdan gələn bir qrup deputatının və sərhəd qoşunları generallarının qoyulan tələbin geri götürülməsi haqqındakı xahişləri, hədələri heç bir nəticə vermədi. **Dekabrın 31-də saat 12-də Sədərək, Şahtaxtı, Nehrəm, Culfa, Ordubad yaxınlığındakı Araz sahilində 10 dəqiqəlik mitinqdən sonra tikanlı məftilli dirəklərə od vuruldu.**

**Bünyamin Qəmbərli yazır:** "Bu hərəkatın alınmasında və uğur qazanmasında çox dostumuzun – AXC İdarə Heyətinin üzvü Nemət Pənahlının, AXC Culfa şöbəsinin sədri Ramiz Tağıyevin, AXC Naxçıvan MR Şöbəsi İdarə Heyətinin üzvü Asəf Quliyevin, AXC Şərur şöbəsinin fəalı Muxtar Rzayevin, AXC Ordubad şöbəsinin sədri Fərəc Quliyevin, AXC Şərur şöbəsinin sədri Fərəməz Allahverdiyevin və b. böyük rolu oldu. Bunun başlama təklifini isə bizim Gizli Təşkilatın qərarı ilə Asəf Quliyev verdi. Biz AXC Naxçıvan MR Təşkilatının Məclisindən əvvəl Gizli Təşkilatda bu məsələni ciddi müzakirə etdik və Məclisdə qaldırılması Asəf bəyə həvalə olundu. Məclisdə isə bir çox dostumuzun dəstəyi ilə dekabrın 4-də sərhədə yaxın olan Güney Azərbaycandan görünə bilən dağ və təpələrdə tonqal yandırılması qərara alındı. Məqsədimiz yerli əhalidə və güneyli qardaşlarımızda birlik əhvalı yaratmaq, dünyanın diqqətini Azərbaycanın bölünmüş olmasına cəlb etmək idi. Bu aksiya çox uğurlu oldu...

Bu tədbirdən sonra **21 Azər (12 dekabr) inqilabının** ildönümü günü bütün sərhəd boyu zəncir-vari düzülərək güneyli qardaşlarımızla həmrəylik aksiyası keçirdik...”.



*Sərhədin sökülməsi*

O dövrün Xalq Hərəkatı qəhrəmanlarından biri olan Nemət Pənahlı da həmin hadisələrdə iştirak edirdi.

**Naxçıvanda sərhəd hərəkatının başlaması ilə bağlı jurnalist-tədqiqatçı Əli Şamil “Şərq qapısı” qəzetində yazır:** “AXC Naxçıvan Vilayət şöbəsinin  Məclisində Ramiz Tağıyev AXC Culfa rayon şöbəsinin sərhəd boyunda etiraz aksiyası keçirmək təşəbbüsündən söhbət açdı. Məclis üzvlərinin əksəriyyəti bu hərəkatın Naxçıvan MSSR-nin hər yerində, yəni sərhəd boyu – Sədərəkdən Ordubadadək keçirilməsi işini bəyəndilər və qəbul etdilər” (Bax: “Şərq qapısı”, 31 dekabr, 1991-ci il, №252).

**B.Qəmbərli sərhədin necə sökülməsini belə qeyd edir:** “Sərhədi sökməyi İdarə Heyətinin üzvü Hüseyn müəllimlə (Əliyev), Müdafiə Komitəsinin sədri Hidayət Əsgərovun açması, Ədalət İbrahimovun, Cəmil Məhərrəmovun və Abasət İbrahimovun isə onlara kömək etməsinə razılaşdıq. Bundan sonra 5 nəfər hər biri ayrılıqda diz çökərək AXC-nin bayrağını (o zaman bayraq rəsmi dövlət bayrağı kimi qəbul edilməmişdi) öpdü. Düz saat 12:00-da (dekabrın 31-də) təntənəli şəkildə sərhədin məftili kəsildi və dirək yandırıldı.

On nəfərdən çox adam Arazın güney sahillərini öpmək və oradan torpaq gətirmək üçün buz kimi suya atılaraq çayı keçdi”.

1990-cı il yanvarın 1-də  də bütün Naxçıvan ərazisində sərhəd dirəklə-

rinin sökülməsi davam etdirildi. Tikanlı məftillərin söküldüyü yerlərdə xalq Araza doğru axışmış, hətta suyun soyuqluğuna baxmadan çaya atılmışdılar.

---

***Qaynaq:***

*1. Ə.Siyablı. Sərhəd dirəkləri yandırıldı. "Azadlıq" qəzeti, 6 yanvar, 1980-ci il, №1(3).*

*2. A.Rəhimoğlu. Orda bir yol var uzaqda... Böyük Azərbaycan yolçusu. Bakı, 2014.*

*3. B.Qəmbərli. "Milli birliyə və bütövlüyə gedən yol...". Moderator.az. saytı. 31 dekabr. 2015-ci il.*

*4."Şərq qapısı", 31 dekabr, 1991-ci il, №252*

## MƏFTİLLƏRARASI GÖRÜŞ

1989-cu ilin dekabrın 31-də Zəngilan rayonunun Baharlı kəndində də Azərbaycanın cənubunda yaşayan qardaş və bacılarımızla həmrəylik mitinqi keçirildi. Həmin gün saat 12-də Arazın o tayında Baharlı kəndi ilə üzbəüz olan Buyduz kəndindən başqa yaxın kəndlərdən gələnlər də sərhəddə yığışmışdılar. Hökumət orqanları hər iki tərəfdə toplaşanlara mane olmaq istəsələr də, həmrəylik tədbiri baş tutdu.

---

***Qaynaq:***

*Xalq - Məftillərarası görüş. "Azadlıq" qəzeti. 6 yanvar, 1990-cı il, №1(3).*

## ÇAYXANALAR – SİYASİ FİKİR MƏRKƏZLƏRİ



***1988-ci il. Hərəkatçılar çayxanada***

1980-ci illərdə Azərbaycanda çayxanalar çox məşhur idi. Əslində ölkədə siyasi fəaliyyət üçün heç bir imkan olmadığından çayxanalara toplaşan ziyalılar ədəbiyyat, tarix, fəlsəfə, mifologiya ilə bağlı söhbətlərini burada aparırdılar. Bu mövzularla bağlı çayxanalarda qızğın diskussiyalar gedirdi. Azərbaycanın bütün tanınmış ziyalılarını bu çayxanalarda tapmaq mümkün idi. Çayxanalarda millətin öz kökünə qayıtması, onda milli mənlik şüurunun yaranması, Avropa və rus alimlərinin tariximizi qəsdən təhrif etməsi, türk millətinə mənsubluğumuzla bağlı maraqlı müzakirələr aparılırdı. O dövrdə "Bahar", "Nu poqodi" çayxanaları cəmiyyətdəki fəal ziyalıların tez-tez toplaşdığı yer idi.

***Qaynaq:***

*Yaşar Türkazərin arxivi.*

# 20 YANVAR FACİƏSİ



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30-da keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən Bakı şəhərinə yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olmuşdur. SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdı. Qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azər-



baycan xalqının demokratiya və milli-azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdı.

***Qaynaq:***
*1. https://az.wikipedia.org/wiki/Qara_Yanvar*
*2. R.Səməndər. Şəhidlər. B.: Gənclik, 1990.- 448 s.*
*3. N.Hacıyev. Bakı qırğını.- B., 1990.- 20 s.*
*4. Q.Kəngərli. Qara yanvar şəhidləri.- Bakı: Gənclik, 1992.- 312 s.*

## 20 YANVAR ŞƏHİDLƏRİNƏ GÖRƏ İNTİHAR EDƏN TƏLƏBƏ



***Ağabəy Novruzov***

20 Yanvar hadisələri ona pis təsir etmişdi. Həmin dövrdə nəşr edilən dövlət qəzetlərində xalqın üzərinə böhtan atırdılar. Bununla yanaşı 20 Yanvar hadisələri ilə bağlı fövqəladə sessiyanın da qərarları yerinə yetirilmirdi. Ağabəy Novruzov  iki dəfə Ali Sovetə bu haqda məktub yazmışdı. Teymurbəyov familiyalı birisi onu yanına çağırıb: "Fövqəladə sessiyanın belə bir qərarı olmayıb" – demişdi.

Azərbaycan Neft və Kimya İnstitutunun tələbəsi Ağabəy Novruzovun özünə qəsd ərəfəsində yazdığı vida bəyanatında bu hərəkətinin  səbəbləri göstərilmiş və o, sadəcə olaraq xalqdan üzr istəmişdi. Bu üzr istəməyin səbəbləri isə aydın idi: Azərbaycan xalqının son illərdə məruz qaldığı təcavüzkarlıq, respublikanın iqtisadi-siyasi suverenlikdən məhrum edilib ağır vəziyyətə salınması, Bakıda 20 Yanvar faciəsi, qeyri-qanuni fövqəladə vəziyyətin davam etməsi, Mərkəzin açıq-aşkar münasibəti və yaranmış vəziyyətdə yerli rəhbərliyin deputat korpusunun acizliyi. Bu tələblərdən yaranmış milli tənhalığın onu əhatə etməsi.

Ağabəy gənc qəlbinin hökmü ilə Azərbaycanın həqiqi suverenliyi, müstəqilliyi, azadlığı yolunda ölümə də hazır olub. 20 Yanvar şəhidlərinin qanının batmasına, həbsxanalara atılan məslək yoldaşlarının iztirabına,

fövqəladə vəziyyətin təhqiramiz qayda-qanunlarına, Ermənistandan qovulan xalqımızın müsibətlərinə də dözə bilmədi.

---

***Qaynaq:***
*"Kimdir müqəssir?" FV-ÇP". AXC-nin xüsusi bülleteni, iyun, №6, 1990.*

***20 Yanvar gecəsinin 20 yaşlı şəhid şairi kimi tanıdığımız Ülvi Bünyadzadənin şeri***

**VƏTƏN ÜÇÜN ÖLMƏLİYİK**
***(SİNİF YOLDAŞLARIMA)***

Biz öz ömür sazımızda
«Dilqəmi»ni bilməliyik.
Leylimizin ürəyini
Məcnun kimi sevməliyik.

Bisütunu biz də yaraq,
Çənsiz Çənlibellər quraq.
Sazımızda ağlayaraq,
Biz həyatda gülməliyik.

Döyüşlərdə yoğrulmuşuq,
Gələcəyə qaranquşuq.
Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik!

***(1982-ci il.)***



***Ülvi Bünyadzadə***

***Qeyd:*** *Sovet ordusu 1956-cı ildə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada belə cinayətlər törətmişdi. Bu ordu 1962-ci ildə Novorossiyskdə də dinc insanlara atəş açıb çoxlu sayda insanı qətl etmişdi. Sovet ordusunun törətdiyi ən dəhşətli qətliam 1986-cı ildə Qazaxıstanın Alma-Ata şəhərində olmuşdu.*

## ALMA-ATA HADİSƏLƏRİ – 1986; 20 YANVAR – 1990. HƏR İKİ QƏTLİAMIN İŞTİRAKÇISI OLAN RUS GENERALLARI: DUBİNYAK, BOBKOV

Sovet Respublikalarında baş verən hadisələrdən (Tbilisi, yanvar, Bakı) öncə Alma-Ata qətliamı olmuşdu. Sovet dövləti 1956-cı ildə Macarıstanda, 1968-ci ildı Çexoslovakiyada, 1962-ci ildə Novorossiyskdə törətdiyi cinayətləri 1986-cı ildə Qazaxıstanda təkrarladı.

Alma-Ata hadisələrinin acı göstəriciləri belə idi: 168 şəhid olmuş, 1722 nəfər müxtəlif dərəcəli xəsarət almış, 97 nəfər həbs cəzasına məhkum olunmuş, 2 nəfərə ölüm cəzası kəsilmiş, 5224 nəfər prokurorluqda, 850 nəfər DTK-da istintaqa məruz qalmış, 319 nəfər işdən qovulmuş, 309 tələbə təhsil ocaqlarından xaric edilmiş, 53 nəfər SOV.İKP sıralarından, 758 nəfər komsomol sıralarından qovulmuşdu.

1986-cı il Alma-Ata çıxışlarının başlanmasına Qazaxıstan KP MK-nın 16 dekabr 1986-cı il tarixli plenumunda qəbul edilən qərar olmuşdu. Həmin qərara görə, Qazaxıstan KP MK-nın Birinci katibi D. A. Kunayev vəzifəsindən öz xahişi ilə azad edilmiş və onun yerinə milliyyətcə rus olan Kolbin seçilmişdi. Qeyd edək ki, sovet dövründə Qazaxıstana rəhbərlik etmiş iyirmi şəxsdən yalnız ikisi qazax millətindən olmuşdu.

Dekabrın 17-də, səhər ertədən kənardan rəhbər gətirilməsinə etiraz edən yüzlərlə gənc Alma-Atanın Brejnev (indiki Respublika) meydanına axışır. Onların əllərində bu şüarlar var idi: "Hər respublikaya – öz rəhbəri", "Heç bir millətə üstünlük verilməməlidir".

Dekabrın 17-də Kolbinin şəxsi göstərişi ilə Alma-Ata şəhərində fövqəladə vəziyyət elan edildi. SSRİ Daxili İşlər Naziri A.A.Vlasovun əmri ilə daxili qoşunların xüsusi hissələri şəhərə yeridildi. Saat 18:00-da dinc nümayişi dağıtmaq haqqında qərar verildi. Beləliklə "Metel-86" adı altında Alma-Atada söyqırım əməliyyatı həyata keçirildi.

Bu soyqırım əməliyyatında iştirak edən iki general – V. S. Dubinyak və K. D. Bobkov sonradan Bakıya gəlib, 20 Yanvar qətliamında da iştirak etdilər.

---

***Qaynaq:***

1. *A.Qasımzadə. 1986-cı il. Alma-Ata faciəsi. "Səs" qəzeti, 3 yanvar 1992-ci il, №1(3).*
2. *www.fergananews.com/articles/7210*
3. *www.elimai.kz/dekabrskie-sobytiya-1986-goda.html*
4. *www.tarih-begalinka.kz/ru/timetravel/page3272/*

## MİRZƏ XƏZƏR
(20 Yanvar hadisələrində fədakarlıq)


*Mirzə Xəzər*

**Mirzə Xəzər** (*Mikayılov Mirzə Kərim oğlu* 29 noyabr, 1947, Göyçay) – Dağ yəhudisi olan Azərbaycan jurnalisti, publisist, naşir, Bibliyanın tərcüməçisi.

1990-cı il Yanvar faciəsi (20 yanvar 1990) baş verərkən Bakıda radio, televiziya, qəzetlər susdurulan günlərdə Azərbaycanı informasiya blokadasından xilas edən və sovet qoşunlarının Bakıda törətdiyi qəddar əməllərini, Azərbaycanın və dünyadan əli üzülmüş azərbaycanlıların səsini dünyaya çatdıran, Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması və ədalətli cəmiyyət qurulması uğrunda yorulmaz mübariz, radiojurnalist Mirzə Xəzər oldu.O, hazırda Almaniyanın Münhen şəhərində yaşayır.

Mirzə Xəzər 1973-cu ilin iyun ayında Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsini bitirib. 1974-cü ilin yanvar ayınadək Sumqayıtda vəkil işləyib. 1974-cü ilin iyun ayında SSRİ-ni tərk edib, İsrailə mühacirət edib. 1975-ci ildə İsraildə Tel-Əviv Universitetinin SSRİ-dən gəlmiş hüquqşunaslar üçün açılan xüsusi kurslarında oxuyub. 1975-1976-cı illərdə İsrail ordusunda xidmət edib.

“Amerikanın Səsi” radiostansiyasının Azərbaycan bölməsinin müdiri (1985-1987) və “Azadlıq” radiosunun (Radio Free Europe/Radio Liberty) Azərbaycan redaksiyasının direktoru (1987-2003) vəzifələrində işləmişdir. İsveçin paytaxtı Stokholmdakı Bibliya Tərcümə İnstitutunun sifarişi ilə Bibliyanı – “Əhd-i Ətiq” (Tövrat) və “Əhd-i Cədid”i (İncil) Azərbaycan dilinə tərcümə etmişdir (1975-1984). “Əhd-i Cədid” (İncil) Mirzə Xəzərin tərcüməsində ilk dəfə 1982-ci ildə Zaqrebdə nəşr edilmişdir.

1990-cı ildə SSRİ DTK-nın “Alfa” qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı, mətbuat susduruldu. Azərbaycan dünyadan təcrid edildi. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil olub əhaliyə divan tutmağa başladı. Məhz bu faciəli anlarda uzaqlardan gələn “Azadlıq” radiosunun səsi Mixail Qorbaçovun informasiya blokadasını dağıtdı.

“Azadlıq”ın 20 yanvardakı ilk verilişi faciə haqqında həm Azərbaycan, həm də dünya ictimaiyyətini məlumatlandırdı. Etirazlar başladı,

Qorbaçov Bakıda öz xəlvəti qanlı "sərgüzəştini" "uğurla" sona çatdıra bilmədi, Kreml ifşa olundu. Bu zərbədən sarsılan qəzəbli Kreml rəhbərliyi "Azadlıq" radiosundan ABŞ hökumətinə rəsmən şikayət etdi. Yanvar verilişlərinə görə Mirzə Xəzər işlədiyi radioda güclü təzyiqlərə məruz qaldı. Onun 1990-cı ilin yanvarındakı fəaliyyətini araşdırmaq üçün Vaşinqtonda xüsusi komissiya yaradıldı. Təzyiqlər 2003-cü ilədək, Mirzə Xəzər "Azadlıq" radiosundan ayrılmağa məcbur olan günədək davam etdi.

Mirzə Xəzər o dövrü belə xatırlayır: "O günlərdə Azərbaycanda müxbirimiz yox idi. 1989-cu ilin yanvar ayından başlayaraq bütün məlumatları Mehdi Məmmədovdan telefonla alırdıq. Bütün müsahibələri də telefon vasitəsilə aparırdıq. 1989-cu ilin sonu və 1990-cı ilin əvvəlində Azərbaycan Rabitə Nazirliyinin məsul işçisi olan Oruc Şirinov bizə Azərbaycanın hər yerində istədiyimiz şəxslə telefon əlaqəsi saxlamaq üçün şərait yaratdı. SSRİ silahlı qüvvələrinin xüsusi hissələri artıq Bakının qapılarında idi. 1990-cı il yanvarın 19-da axşam Mehdi Məmmədov, mərhum Yusif Səmədoğlu və Oruc Şirinovla danışıb evə getdim. Vəziyyət gərgin olduğundan adətən gecələr iş yerinə qayıdıb Bakı ilə əlaqə saxlayırdım. Həmin gecə, yanvarın 19-u Münhen vaxtı ilə saat 22.00-da, Bakı vaxtı ilə saat 01.00-da otağıma gəlib "sekreteri" yoxladım. Bakıdan həyəcanlı səsləri eşidib zəng elədim. Sovet qoşunları artıq Bakının küçələrində irəliləyirdilər. Dərhal redaksiyanın əməkdaşlarını çağırdım və radiostansiyanın rəhbərliyinə xəbər verdim. Avropanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimizə xəbər verdim. Heç kimin heç bir şeydən xəbəri yox idi. İki saat içində yeni veriliş hazırlayıb efirə çıxdıq. Bakıda səhər erkən idi. Gün ərzində beş dəfə yayıma çıxırdıq. Fürsətdən istifadə edib əlavə efir saatı tələbilə rəhbərliyə müraciət etdim. Rumın redaksiyasından iki saat kəsib bizə verdilər. Avropanın hər yerindən, hətta ABŞ-dan belə Azərbaycandakı vəziyyət barədə məlumat almaq üçün bizə zəng edirdilər...

1990-cı il yanvarın 20-də ilk dəfə efirə ötürdüyüm və ən çox qalmaqala, şiddətli etiraz və tənqidlərə məruz qalan o məşhur verilişi nəzərdə tutur. Bu ilk veriliş Azərbaycan Xalq Cəbhəsinin bəyanatını oxuyan Yusif Səmədoğlunun səsini, Mixail Qorbaçovun, sovet rəhbərliyinin ünvanına son dərəcə sərt ittihamlar irəli sürən Bəxtiyar Vahabzadənin qısa müsahibəsini, Cəfər Cabbarlının mənim səsləndirdiyim "Məhkum Şərq" və "Şərqə" şerlərini ( "Qalx, qalx, qalx düşgün dünya"), Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı ilə gəncliyə müraciətinin mətnini və nəhayət, Xəlil Rzanın mənim səsləndirdiyim "Davam edir 37" poemasını əhatə edirdi. Çox təsirli veriliş idi..."

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Mirzə_Xəzər*

## XƏLİL RZA ULUTÜRK (1932-1994)



*Xəlil Rza Ulutürk*

**Sovetlər dövründə İnstitutdan qovulan, Moskvanın Lefortovo həbsxanasında yatan, oğlu Təbriz Xəlilbəylini Qarabağ savaşında itirən şair**

**Xəlil Rza Ulutürk** 1932-ci ildə anadan olub. Azərbaycan Dövlət Universitetinin (BDU-nun) filologiya fakultəsini bitirib. Şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçidir. 1954-cü ildən Yazıçılar Birliyinin üzvüdür. Filologiya elmləri doktorudur. 1992-ci ildən Azərbaycanın xalq şairidir.

Xəlil Rza Azərbaycan dilinin saflığı, əcnəbi təsirinə məruz qalmaması üçün mübarizə aparırdı. Bu fəaliyyətinə görə Sovet hakim dairələri onun ictimai-pedaqoji fəaliyyətini məhdudlaşdırır, Bilik Cəmiyyəti xətti ilə Azərbaycanın rayonlarına göndərilməsini qadağan edirdilər. Tezliklə onu Azərbaycan Pedaqoji İnstitutundan da uzaqlaşdırdılar.

**1980-ci illərin sonlarında xalq-azadlıq hərəkatı genişləndiyi zaman Xəlil Rza meydanlarda alovlu çıxışlar edirdi. Dağlıq Qarabağ torpağına təcavüz edən erməni daşnaklara qarşı mübarizə aparan Xəlil Rza yazırdı:**

**Biz Türküstan elləriyik,**
**Qeyrət, qüdrət selləriyik.**
**Daşnakları qovan bizik,**
**Dar gözləri ovan bizik.**
**Yetər meydan suladılar,**
**Yurdumuzu taladılar.**



ПОСТАНОВЛЕНИЕ
БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

Об ошибках отдельных писателей республики

Обсудив записку отдела пропаганды и агитации ЦК КП Азербайджана, ЦК КП Азербайджана отмечает, что воодушевленн историческими решениями XXII съезда, новой Программы КПСС писатели республики провели значительную работу по дальнейшему развитию азербайджанской советской литературы. Об это свидетельствует прежде всего появление целого ряда новых удачных произведений, ставших достоянием широкого круга чит

*Azərbaycan KP MK-nın Xəlil Rzanın da tənqid olunduğu qərarı. 17 iyun 1962-ci il*

1990-cı ilin yanvarında Sovet ordusu Bakıya daxil olub, 100-dən çox insanı qətlə yetirdi. Bu günlərdə X.Rza xalqı müba-

rizəyə çağırmaqdan çəkinmirdi. O, xarici ölkə jurnalistlərinə müsahibələr verir, 20 Yanvar hadisələrini, M.S.Qorbaçovun cinayətini dünya ictimaiyyətinə çatdırırdı.



*Xəlil Rza mitinqlərdə gündəlik yazır*

1990-cı ilin yanvarın 26-da X.Rza SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən həbs edilib Moskvaya aparıldı, Lefortovo həbsxanasına salındı. O, burada 8 ay 13 gün saxlanıldı. Şair həbsxanada "Lefortovo gündəliyi"ni, 200-dən çox şeir, poema və məktublarını yazdı. "Lefortovo gündəliyi"ndə "Ulutürk" təxəllüsünü işlədib digər imzaları kənara qoydu (Xəlil Odsevər, Xəlil Rza və s.).

1990-cı ilin oktyabrın 9-da Xəlil Rza Moskvadan Bakıya gətirildi. Bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxıldı.

Bu ağır həbsxana həyatından sonra onun səhhəti də pisləşdi, ürəyindən əməliyyat olundu. Türkiyədə, Almaniyada müalicə olunsa da, səhhəti yaxşılaşmadı. O, 1994-cü ilin iyunun 22-də vəfat etdi. Xəlil Rza Ulutürk Fəxri Xiyabanda dəfn olundu.

1988-ci ildə "Yazıçı" nəşriyyatında Xəlil Rzanın "Məndən başlanır Vətən" kitabı çap edilsə də, yayımı dayandırıldı. Kitabda verilən "Silahlan" şeiri hökumət orqanlarını narahat etmişdi. Lakin bir müddət sonra həmin kitabın yayılmasına icazə verildi.

Xəlil Rza həm də bir neçə davranışı ilə insanların yaddaşında yaşamaqdadır. Onun bir gündəliyi var idi. X.Rza mitinqlərdə, toplantılarda, hansı şəraitdə olmasından asılı olmayaraq bir yerdə əyləşər, diplom çantasının üzərinə dəftərini qoyub qeydlər edərdi.

X.Rzanın digər xüsusiyyəti isə onunla Azərbaycan dilində danışan şəxs rus sözü işlədirdisə, o, həmin adama qarşı 5 qəpik, 10 qəpik, bəzən "3" manatlıq pul cəriməsi tətbiq



*Xəlil Rza məhkəmədə*

edərdi. Hətta bir dəfə onun Azərbaycanın Baş Nazirini də "cərimələdiyi"ni söyləyirlər.

***Qeyd:*** *Böyük şair Xəlil Rza Ulutürkün oğlu Təbriz Xəlilbəyli də Qarabağ savaşında həlak oldu. Böyük şair oğlunun dəfn mərasimində özünü çox dözümlü apararaq yenə çoxlarını heyrətləndirmişdi.*

---

***Qaynaq:***

*1. X. Ulutürk. Lefortovo zindanında. B., "Azərbaycan" nəşriyyatı, 1998.*
*2. Xəlil Rza Ulutürk. Vikipediya.*

## Xəlil RZA

### SİLAHLAN

Tanınmış şair Xəlil Rzanın "Silahlan" şeiri onun 1988-cu ildə "Məndən başlanır vətən" kitabında çap olunub. Bu şeirə görə kitabın bir il müddətində yayımına icazə verilməmişdi. Ciddi etirazlardan sonra 1989-cu ildə kitab satışa çıxarıldı.

Bu sərt, ağır günlərdə,
Mən Ali Baş Komandan
Olsam, olmasam belə,
Azərbaycan adından
Əmr edirəm: Silahlan!

Silahsız dayanmağa bir qırpım da haqqın yox,
Gözlərin qoşalülə... kirpiklərin güllə, ox!

Bilirəm düşmənlərin bərk
durub keşiyində.
Alınmışdır əlindən hətta,
Öv tüfəngi də.

Nə qəm, kinlə silahlan!
Topdan, tüfəngdən üstün.
Tankdan, raketdən güclü
Qeyrətinlə silahlan!

Arxalı köpəklərə nifrətinlə
silahlan!
Xiyabani nurunu alışdır nəfəsinlə,
Cürətinlə silahlan!
Bilirəm Elbrusdan, Savalandan ağırdır,
Çiynində sənin yükün.
Telegüzgü, radio, mətbuat
Çoxdan ölgün.

Yox... sən ölməməlisən!
Hələ ki, gedib-gələn nəfəsinlə silahlan!
Qəfəsdəsənmi? Dur, sök, qəfəsinlə silahlan!
Sən bizim şeirimizdən, nəsrimizdən
güclüsən,
Əsrimiz qəhrəmandır, əsrimizdən
güclüsən.
37-də batmış, 46-da vurulmuş
nəslimizdən güclüsən.




***X.Rzanın yayımı dayandırılmış kitabı, 1988-ci il***

Dodaqlarından qopan neçin amandır,
ahdır?
Alçaqlara qəzəbli bir baxış da
silahdır.
Baxışınla, qanınla, vicdanınla
silahlan!
Dön Səməndər quşuna... Yan odunla silahlan!

Dəyənəklə, kürəklə, daş-kəsəklə
silahlan!
Nuş et ildırımları, bir şimşək (?) söz var ki "ol"
silahlan!
Onlar səni silahsız, pənahsız görmək
istər.
Sən nəğməylə, marş ilə nümayişlə silahlan!

Bayraq elə özünsən,
Qalx, döyüşlə silahlan!
Silahlan insanlığa sonsuz
məhəbbətinlə,
Humanizm adlanan ən böyük
sərvətinlə!

Hələ heç bir fitnəyə, felə, məkrə
uymayan,
Bircə qarış qanı da tapdamağa qıymayan,
Qəlbi ümmandan dərin, bənövşədən də kövrək.
**Hətta düşmənlərinə**
**Duz-çörək verən xalqım!**
Çəkinmə, bu döyüşdə aləm sənə
pənahdır,
Sənin gül təmizliyin, saflığın da silahdır.

Qanında saflıq adlı
daşqın ilə silahlan!
Dünyaya məhəbbətin, eşqin ilə
silahlan!
Vur-çatdasın içində elə bilmə ki,
təksən,
Yer də, göy də sənindir.
Sən qalib gələcəksən!

---

***Qaynaq:***
*X.Rza. Məndən başlanır vətən. Bakı, 1988.*

# İLK YARADILAN QƏZETLƏR, NƏŞR EDİLƏN "SAMİZDATLAR".

## Yayılan kitabçalar, vərəqələr, müstəqil KİV vasitələri

Qeyd edək ki, Azərbaycanda milli azadlıq hərəkatının başlanması yeni məzmunlu və formalı mətbuatın da yaranmasına imkanlar açdı. Həmin dğvrdə mövcud olan AXC-nin nəşrləri istisna olmaqla digər yayım orqanlarını belə qruplaşdırmaq mümkündür: 1) Yeni yaranmaqda olan siyasi təşkilatların və cəmiyyətlərin gizli nəşrləri; 2) Müstəqil olaraq gizlin nəşr edilən yayınlar; 3) Dövlət qeydiyyatından keşmiş müstəqil və ya müxtəlif qurumların yayınları.

### İLK "SAMİZDAT" KİTAB – "VƏTƏN"

Azərbaycanda sovet hakimiyyəti dövründə ilk nəşr edilən "samizdat" kitab "Vətən" olub. Bu kitab 1988-ci ilin fevral-iyul aylarında gizli olaraq "rotopirin" üsulla nəşr edilib. Kitabı nəşrə hazırlayan və yazıları müəlliflərdən yığıb toplayan, tərtib edən – 17 noyabr mitinqlərinin əsas təşkilatçısı **Ənvər Əliyev** olub.



***İlk "Samizdat" kitab – "Vətən", 1988-ci il***

Kitabın naşiri olan Ə.Əliyev son səhifədə oxuculara belə bir müraciət ünvanlayıb: "Əziz oxucularım! Son sözüm də Sizədir. Oxuduğunuz bu yazılar birər-birər toplanıb, min bir çətinliklə küll halında ortaya qoyulub. Yaxşı-pis mən borcumu yerinə yetirdim. Sizinsə borcunuz bunları yaymaq, bütün yurddaşlarımızı bu həqiqətlərlə agah etməkdir. Bir də, əgər Sizin əlinizdə də bu cür yazılar olsa, mənə yetirməyi unutmayın. İnşallah, qeyrət və istəyiniz bizi görüşdürər".

Kitabda yazılar iki dildə – Azərbaycan və rus dillərində çap olunub. Kitab oxuculara belə təqdim edilib: elmi-kütləvi toplu, I cild. Nəşrin ilk səhifəsində Abbas Səhhətin bu misraları verilib: "Vətəni sevməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz!"

Kitabın mündəricatından aydın olur ki, burada çox ciddi yazılar çap olunub. Həmin mündəricatı oxuculara təqdim edirik: **1)** Giriş əvəzi; **2)** Akademik B.Petrovski – Redaksiyaya məktub, **I hissə:** 1) İ.Qəmbərov – Köhnə bayatılar və təzə əfsanələr (səh.13); 2) S.Ayvazyan – Türk saxtakarlığı üçün tarix və coğrafiya dərsi (səh. 66); **3)** İ.Qəmbərov – Baş tutmayan dərs haqqında (səh. 110); **4)** İ.Əliyev – DQMV haqqında tarixi məlumat (səh. 116); **5)** E.Namazov, Əlizadə Z. DQ haqqında tarixi məlumat. Yerevan, 1988" broşurasına cavab" (səh. 155); **II hissə:** 1) "General Mayevski – Ermənistan genosidi. Peterburq, 1902" (səh. 182); 2) Veliçko V.L. "Ermənilər", Qafqaz, I cild, 1904" (səh.185); 3) Savrov N.N. Zaqafqaziyada rus işlərinə yeni təhlükə. Peterburq, 1911 (səh. 187); 4) Qriboyedov A.S. Əsərləri, I cild, M., 1976. "Pravda" nəşriyyatı (səh. 189); 5) "Marksizm-Leninizm klassiklərindən" (səh.190); 6) "Protokol №11 və 12, 4-5 iyul, 1921-ci il" (səh. 191); 7) A.Mikoyan – V.İ.Leninə müraciət. 22 may, 1922" (səh.194); 8) Andranik O. (1865-1927), (səh.195); 9) "Böyük Sovet Ensiklopediyası", M., 1976, III c. (səh. 197); 10) M.Ə.Əliyev – "Millətçi-burjua erməni təşkilatları tarixindən" (səh. 198); **III hissə** – 1) Azərb.SSR EA Şərqşünaslıq İnstitutunun müraciəti" (səh. 204); 2) "Görkəmli iqtisadçı "Humanite" №13450, 18.11.87. s.117 (səh.205); 3) R.Yüzbaşov. Məktub (səh. 207); 4) "Qarabağların Qarabağlılara müraciəti" (səh. 208); 5) I Vazgenin çıxışı (səh. 211); 6) "S.Kaputikyanın çıxışı" (səh. 215); 7) "Məramnamə" (səh.220); 8) F.Barringer, B.Keller. "Nyu-York Tayms". 15.03.1988 (səh.223); 9) "E.Mehrəliyev – Demoqrafik məlumat" (səh. 230); **IV hissə** –1) S.Xanzanyan – S.Mkrtıçyanın "DQ tarixi arxitektura abidələri" kitabına rəy" (səh. 253); 2) "K.Abbasova – APİ-də (Stepanakert) baş verən hadisələr (səh. 256); 3) X.Əkbərova və s. Məktub" (səh. 262).

Kitab 272 səhifədən ibarətdir, 200 (iki yüz) tirajla nəşr edilib gizli olaraq yayılmışdır.

---

***Qaynaq:***
*"Vətən". Elmi-kütləvi toplu, I cild. Bakı, 1988.*

## İLK "SAMİZDAT" KİTABIN TƏRTİBÇİ VƏ NAŞİRİ-
## 1988-ci ilin NOYABR MİTİNQLƏRİNİN
## TƏŞKİLATÇISI VƏ İLK APARICISI –
## ƏNVƏR ƏLİYEV



***Ənvər Əliyev***

**Ənvər Əliyev** – 1951-ci ildə Ağsu rayonunda anadan olub. Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunda elmi işçi vəzifəsində çalışır.

1988-ci ilin noyabr ayının 17-də Bakıdakı çoxgünlük mitinqlərin təşkilatçısı kimi Azərb. SSR CM-nin 188-3 maddəsi ilə 1989-cu ilin fevral-iyun aylarında SSRİ Prokurorluğunun xüsusi işlər üzrə istintaq qrupu tərəfindən həbs edilib.

Ə.Əliyev 1992-ci ilin noyabrın 19-da həbsdən azad olunub.

Ə.Əliyevin həbsxanadan Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəyə 1992-ci ilin noyabrında yazdığı məktub da çox təsirlidir: "Baş tutmasına bir çox amillərlə bərabər, yataqxanamızdakı görüşünüzün və xüsusilə mənim otağmdakı söhbətlərinizin də müəyyən rolu olmuş bu mitinqin başqa cür məqamı da ola bilməzdi... Mənim obyektiv və bəzən də subyektiv səbəbdən susmağımı bəziləri günahkarlıq əlaməti kimi qəbul etsələr də, mən tarixin hər şeyi öz yerinə qoymağına var qüvvəmlə inanmışam və inanıram".

**Ə.Əliyevin həbsxanada yatmasına səbəb olan noyabr mitinqləri indi Azərbaycanda Milli Dirçəliş Günü (17 noyabr) kimi bayram edilir.**

Ə. Əliyev 2012-ci ildə özünün "Meydan sirləri" kitabını yazıb çap etdirmiş, burada Noyabr mitinqləri ilə bağlı maraqlı faktlar açıqlamışdır.

---

***Qaynaq:***

*Ə.Əliyev. Meydan sirləri. Bakı, 2012.*

**İLK “SAMİZDAT” MƏQALƏ**

Azərbaycanda gedən proseslərlə bağlı ilk “samizdat” məqalə 1988-ci ilin noyabrında Londonda nəşr edilən “The Central Asian newsletter” (vol. 7, №4) jurnalında çap olunub. Məqalə belə adlanır: “Azərbaycan ziyalıları adından: biz Sizə və bütün azad iradəli insanlara müraciət edirik”. Bu məqalədə azərbaycanlıların Dağlıq Qarabağda yaranmış vəziyyətə baxışları öz əksini tapıb.

---

***Qaynaq:***
*Y.Rəhimov. Azərbaycanda Samizdat. Paris,*
*NOS, 18-19 fevral, 1989-cu il (yazı ruscadır).*

**“SAMİZDAT” NƏŞRLƏR**

**Azər Qasımzadənin nəşrləri:**

*1. “Dirçəliş” qəzeti, 27 iyun, 1989-cu il, №1.*

*1. “Soy” məcmuəsi. “Dirçəliş” nəşriyyatı, 1989-cu il, №1.*

*2. “Gülüstan” siyasi-bədii toplusu. “Dirçəliş” nəşriyyatı, 1990-cı il.*

*3. “Dönüş” məcmuəsi. “Dirçəliş” nəşriyyatı,1989-cu il, №1.*

*4. Əhməd Qaraca. Azərbaycanın yaxın tarixinə qısa bir baxış. “Dönüş”, 1989.*

**Emin Əhmədovun nəşri:**

*1. “Açıq Söz” Bülleteni, №1, 1989-cu il.*

**AXC nəşrləri**

*1.Azərbaycan Xalq Cəbhəsinin Bülleteni. 1989-cu il,iyun, №1.*

*2. “Meydan”. Azərbaycan Xalq Cəbhəsinin qəzeti. №1, sentyabr, 1989-cu il.*

*3.”İstiqlal”, bülleten №1,oktyabr, 1989.*

*4. Azərbaycan” məcmuəsi, 15 noyabr, 1989-cu ul, №9.*

*5. “Fövqəladə Vəziyyət (FV)” - “Çrezvıçaynoye Polojeniye (ÇP”. Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №1, fevral, 1990-cı il.*

*6.“Azərbaycan Xalq Cəbhəsinin sənədləri” seriyasından 1990-cı ildə “AXC Məclisi I sessiyasının protokolu. 28-29 oktyabr 1989-cu il. Bakı ş.” adından ayrıca kitabça da nəşr edilib.*

## AXC-NİN BÖLGƏ QƏZETLƏRİ

**"Ağdam" qəzeti –** AXC Ağdam rayon şöbəsinin orqanı olub. 1990-cı ildə nəşr edilib.

**"Demokrat" qəzeti –** AXC Sabirabad rayon şöbəsinin orqanı olub. 1990-cı ildə çap edilib.

**"Girdiman" qəzeti –** AXC İsmayıllı rayon şöbəsinin orqanı olub. 1990-cı ildə çapdan çıxıb.

**"Haqqın səsi" –** AXC Göyçay rayon şöbəsinin orqanı olub. 1990-cı ildə çapdan çıxıb.

**"Hasıllı" –** AXC Cəlilabad rayon şöbəsinin orqanı olub. 1991-ci ildə nəşr edilib

**"İki sahil"** – AXC Culfa rayon şöbəsinin orqanı olub. 1989-cu ildə çap edilib

**"İstiqlal"** – AXC Şəki şəhər şöbəsinin orqanı olub. 1989-cu ildə çapdan çıxıb.

**"Qeyrət" -** AXC Balakən rayon şöbəsinin orqanı olub. 1990-cı ilin mayında çıxıb.

**"Şu Yol" –** AXC-nin Bakının Əzizbəyov rayon şöbəsinin orqanı olub. 1990-cı ilin yanvar ayında çapdan çıxıb.

**"Varlıq" qəzeti –** AXC Naxçıvan Vilayət şöbəsinin xüsusi buraxılışı olub. 1990-cı ildə nəşr edildiyi ehtimal olunur.

**"Vətən" qəzeti –** AXC Gəncə şəhər şöbəsinin orqanı olub. 1989-cu ilin dekabrında çapdan çıxıb.

**"Elin səsi" qəzeti -** Azərbaycan Xalq Cəbhəsi Lənkəran şöbəsinin qəzeti olan "Elin səsi" 1989-1990-cı illərdə yayımlanıb.

**"İnam" qəzeti –** AXC Zaqatala rayon şöbəsinin orqanı olub.1992-ci ilin martından nəşr edilib.

**"Axın"** – Azərbaycan Elmlər Akademiyası Xalq Cəbhəsinin qəzeti olaraq 1990-cı ilin əvvəllərindən yayımlanıb.

**"Ordubad" qəzeti** – Azərbaycan Xalq Cəbhəsi Ordubad rayon şöbəsinin orqanı olaraq nəşr edilirdi.

**"İstiqlal"** AXC-nin M.Ə.Rəsulzadə adına BDU Tarix fakültəsinin tələbə dayaq dəstəsinin bülleteni olaraq 1989-cu ildə nəşr edilib.

**"Azərbaycan Xalq Cəbhəsi Təsis Konfransnım materialları"** 1989-cu ildə ayrıca broşura olaraq çap edilib.

## DİGƏR "SAMİZDAT"LAR

**"Bizim şərh" qəzeti -** 1990-cı ilin 18 mayında nəşr edilib.

**"Qurtuluş"** məcmuəsinin ilk sayı 1991-ci ildə çap edilib. Milli Qurtuluş Partiyasının ideoloji xəttini əsas götürən bu məcmuənin redaktoru Yusif Kazımlı idi.

**"Sözün qısası"** 1990-cı ilin oktyabrında "Turan" İnformasiya Agentliyinin bülleteni olaraq nəşr edilib.

**"İnformasiya k razmışleniyu"** ("Düşünmək üçün məlumat") bülleteninin 1-ci sayı 1990-cı ildə Moskvada rus dilində çap olunub.

Dissident Nadir Ağayevin **"Qapalı sahənin sirləri"** ("Taynı labirinta" – rusca) yazısı "Xüsusi bülleteni" olaraq (№2) 1990-cı ildə çap edilib.

**"Qarabağ böhranı"** buraxılışı Azərbaycan tələbə gənclərinin "Tanıtım" elm-istehsalat xeyriyyə assosiasiyası tərəfindən 1991-ci ildə çap edilib.

## Yunus Oğuzun nəşrləri

***1. "Xüsusi Bülleten".*** Yunus Oğuz, Ədilə Surxayzadə (əslində bu ad diqqəti yayındırmaq üçün yazılmışdı). "1918-1920 və 1988-1989-cu illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında analoji tarixin təhlili". 1989-cu il, №1.

***2. "Xüsusi Bülleten".*** Yunus Oğuz, AXC-nin gələcəkdə daxili siyasi qurumu necə ola bilər?". Noyabr, 1989-cu il, №3.

***3. "Xüsusi Bülleten".*** Yunus Oğuz, "SSRİ Ali Sovetinin Dağlıq Qarabağ haqqında indiyə qədər çıxardığı üç qərarının təhlili". Dekabr, 1989, N6.

***4. "Xüsusi Bülleten"*** "Tribuna"seriyası, 1989-cu il, №1.

***5. "Xüsusi Bülleten"*** "Açıq Söz" seriyası, 1989-cu il. №1.

***6. "Azad Fikir" bülleteni,*** 1989-cu il, №1.

***7. "Azad Söz" qəzeti,*** 1990-cı il, mart, №1.

**8. "Exo svobodı" -** "Azad Söz" qəzetinin əlavəsi kimi çıxan bu qəzet Xalq Azadlıq Partiyasının orqanı olub. 1990-cı ildə rus dilində nəşr edilib.

## AMDP-nin yayınları. Rauf Arifoğlunun nəşrləri

1**. "Yeni Müsavat"** - 1989-cu ilin noyabrında ilk olaraq dərgi, dekabrdan qəzet olaraq yayınlanıb.

**2. "Yurdum" Xəbərlər bülleteni -** Azərbaycan Milli Demokrat Partiyası "Yeni Müsavat"ın orqanı olub. 1989-cu ildə çap olunduğu ehtimal edilir.

**3."Allahu-Əkbər" qəzeti -** Azərbaycan Milli Demokrat Partiyası - "Yeni Müsavat"ın buraxılışı olub. 1989-cu ildə nəşr olunduğu ehtimal edilir.

**4. "Müsavat Partiyası haqqında. Mübarizə davam edir".** Kitabça. 1990-cı il, müəllif Rauf Şenol.

**5.1990-cı ildə R.Şenolun iki məqaləsi ayrıca kitabça olaraq çap edilib:** "1. SSRİ-də rüşvət: o nəyə xidmət edir? 2." Hazırkı mərhələdə Azərbaycan Xalq Hərəkatının sol mövqedən qiymətləndirilməsi...". Bu kitabçanın "Qurtuluş" nəşriyyatında nəşr edildiyi qeyd olunub. Hər məqalə 6 səhifədən ibarətdir. Kitabçanın ümumi həcmi 12 səhifədir.

## Birlik cəmiyyətinin nəşri

**1."Birlik" dərgisi, avqust, 1989, №1.**

## Ağdaşda nəşr edilən jurnal

**1. "Müsavat" jurnalı** – Azərbaycan Milli Demokrat (Yeni Müsavat) Firqəsi Ağdaş mahal özəyinin orqanı olub. 1990-cı ildə çıxıb.

## Naxşıvanda nəşr edilən jurnal

**1. "Türk Yurdu" qəzeti** – AMDP-nin Naxçıvan Komitəsinin orqanı olub. 1990-cı ildə "Türkləşmək, müasirləşmək, islamlaşmaq!" şüarı ilə çapdan çıxıb.

## Müstəqil Azərbaycan Təşkilatının nəşri

1."Xalqın səsi" toplusu 1989-cu il

## Azərbaycan Xalq Partiyasının nəşri

1."Xalq səsi"qəzeti,1990-cı il .

## Sosial Demokrat Partiyasının nəşri:

1. "İstiqlal" qəzeti, 1990-cı il.

## Yurd birliyinin nəşri:

1."Yurd" qəzeti-1990-cı il.

## Müstəqil Respublika Partiyasının nəşri

1."Bizim yol" qəzeti, 1990

## Birlik Partiyasının nəşri

1."Birlik" bülleteni, 1990-cı il.
2. Birlik" qəzeti, 1990-cı il

## Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin nəşri

1. "Humay" qəzeti, 1990-cı il

## Vahid Mustafayevin nəşri

1. "Rokoko" musiqi jurnalı.1988-ci il. Bu, Azərbaycanın rok musiqisinə həsr olunmuş xüsusi bir jurnal idi.

## "Çeşmə" satirik qəzeti

**"Çeşmə" satirik qəzeti -** 1991-ci ilin aprelin 1-də nəşrə başlayıb. "Çeşmə"nin ilk sayının dünyada "Gülüş günü" kimi qəbul edilən 1 apreldə çapdan çıxması mətbu orqanın satirik mahiyyəti ilə bağlı idi. Qəzet əvvəlcə qeyri-leqal şəkildə çap olunub. Sonra müstəqil qəzet olub. Redaktoru Ayaz Əhmədov idi.

"Çeşmə" "Dama-dama göl olar, yağa-yağa sel" şüarı ilə nəşr edilib. Qəzet 1992-ci ildə qeydiyyatdan keçib və leqal şəkildə fəaliyyət göstərib. 1993-cü ildən sonra yenidən qeyri-leqal şəkildə nəşrini davam etdirib. 1994-cü ildə qəzetin redaktoru və nəşrinə kömək edənlər həbs olunub, qəzetin fəaliyyəti dayanıb.

“Çeşmə”ni öz dəst-xətti və üslubuna görə “Molla Nəsrəddin” jurnalının davamçısı saymaq olar. Ölkədə və dünyada baş verən ictimai-siyasi proseslərn neqativ cəhətləri satirik və yumoristik yazıların, şerlərin, karikatura və şarjların əsas hədəfi olub. Qəzetdə daha çox siyasi xarakterli lətifələrə üstünlük verilib. Burada həm iqtidar, həm də müxalifət təmsilçiləri eyni dərəcədə tənqid hədəfinə çevrilib. Qarabağ məsələsi, müxtəlif hakimiyyətlərin bu problemi siyasi alver predmetinə çevirmək cəhdləri “Çeşmə”nin əsas satira hədəflərində yer alırdı.



***“Çeşmə”çilər həbsdən sonra:** soldan **Malik Bayramov, Ayaz Əhmədov** (redaktor), **Əsgər Əhməd, Yadigar Məmmədli***



ДАМА-ДАМА КӨЛ ОЛАР, ЈАҒА-ЈАҒА СЕЛ

ЧЕШМӘ

ЛӘНКӘРАН КӘНҸЛӘРИНИН ДЕМОКРАТИК ИТТИФАГЫНЫН ГӘЗЕТИ • ИЈУЛ • 1991 • № 3

ДЕМОКРАТИЈА

МАҸӘРДА ЈОХДУР, БИЗДӘ ВАР...

ТЕСТ

СӘНИН СИЈАСИ ПОРТРЕТИН

***“Çeşmə” qəzeti***

“Çeşmə”nin redaktoru Ayaz Əhmədov “Azadlıq” radiosunda da işləyib. Siyasi satiranın güclü qələm sahiblərindən sayılan Ayaz Əhmədov 1994-cü ildə həbs edilib. Azərbaycanın ilk siyasi məhbuslarından olan A.Əhmədov həbsdən azad edildikdən sonra Norveçə mühacirət edib və ailəsi ilə orada yaşayır. A.Əhmədov “Azadlıq” radiosunda Azərbaycan Xidmətinin hazırladığı satirik buraxılışların da müəllifi olub.

---

***Qaynaq:***

*“Çeşmə” qəzeti, 1991-ci il, aprel, N1.*

## MOSKVA NƏŞRLƏRİ


ДАЙДЖЕСТ: ПРЕССА РПА

02
1990

В ОБ'ЕКТИВЕ ЛИТВА

ИНТЕРВЬЮ В КРИВОМ ЗЕРКАЛЕ

КАК ИЗВЕСТНО ТАСС РАСПРОСТРАНИЛ ИНФОРМАЦИЮ ОБ ИНТЕРВЬЮ ПРЕЗИДЕНТА ФРАНЦИИ ФРАНСУА МИТТЕРАНА ТЕЛЕКОМПАНИИ ТФ-1 (ОТРЫВОК БЫЛ ПОКАЗАН ЦЕНТРАЛЬНЫМ ТЕЛЕВИДЕНИЕМ СССР). В ИНФОРМАЦИИ ЕСТЬ ТАКОЕ ПРЕДЛОЖЕНИЕ: "ВЫРАЗИВ МНЕНИЕ, ЧТО ПО ПОВОДУ ПРАВА ЛИТВЫ НА СУВЕРЕНИТЕТ НЕ МОЖЕТ БЫТЬ СОМНЕНИЙ, Ф.МИТТЕРАН В ТО ЖЕ ВРЕМЯ ОТМЕТИЛ, ЧТО ЛИТВА - ЭТО НЕОТ'ЕМЛЕМАЯ ЧАСТЬ СОВЕТСКОГО СОЮЗА". ДЕЙСТВИТЕЛЬНО ЛИ ТАК БЫЛО СКАЗАНО?

РАБОТНИКИ ПОСОЛЬСТВА ФРАНЦИИ В МОСКВЕ ВЫРАЗИЛИ УДИВЛЕНИЕ ТАКИМ СВОБОДНЫМ "ПЕРЕВОДОМ" СЛОВ ПРЕЗИДЕНТА.

ВЫДЕРЖКА ИЗ ТЕКСТА УПОМЯНУТОГО ИНТЕРВЬЮ ОПУБЛИКОВАНА ЛИТОВСКОЙ В ГАЗЕТЕ "ТИЕСА".

"В О П Р О С. А СЕЙЧАС - СЛОВО О СОВЕТСКОМ СОЮЗЕ И ПРЕЖДЕ ВСЕГО - О ЛИТВЕ.

СОГЛАСНЫ ЛИ ВЫ ОКАЗАТЬ МОРАЛЬНУЮ И ПОЛИТИЧЕСКУЮ ПОДДЕРЖКУ, О КОТОРОЙ ОНА СЕГОДНЯ ПРОСИТ? ПРЕДУПРЕДИЛИ ЛИ ВЫ ГОСПОДИНА ГОРБАЧЕВА? ПОДДЕРЖИВАЕТЕ ЛИ ВЫ ТО, ЧТО СЕГОДНЯ МАДЕЛИН ПРЕДЛАГАЕТ В "ЛЕ ЖУРНАЛЬ ДУ ДИМАНШ"? "ПРИЗНАНО ИЛИ НЕТ ЛИТОВСКОЕ ГОСУДАРСТВО", ПРИЗНАНИЕ, КОТОРОГО НИКОГДА НЕ ПРЕКРАЩАЛОСЬ, ПОТОМУ ЧТО НИКОГОДА НЕ ПРИЗНАВАЛАСЬ АННЕКСИЯ БАЛТИЙСКИХ СТРАН...

П Р Е З И Д Е Н Т. (...) ПОСЛЕ ОЧЕНЬ ДЛИТЕЛЬНОГО ПЕРИОДА, В ТЕЧЕНИИ КОТОРОГО ЛИТВОЙ ПРАВИЛИ РУССКИЕ, А ПОСЛЕ ЭТОГО ЕЕ КИДАЛИ МЕЖДУ РОССИЕЙ И ГЕРМАНИЕЙ, ЛИТВА СТАЛА НЕЗАВИСИМОЙ, БЫЛА ПРИЗНАНА В 1921 ГОДУ (КАК И ДВЕ ДРУГИЕ БАЛТИЙСКИЕ СТРАНЫ). ФРАНЦИЯ ЕЕ ПРИЗНАЛА. БЫЛИ ПРАВИТЕЛЬСТВА ВЫРАЖАЮЩИЕ ЕЕ СУВЕРЕНИТЕТ.

(...). КОНЕЧНО, ФРАНЦИЯ ВСЕГДА ОТКАЗЫВАЛАСЬ ПРИЗНАВАТЬ ОСУЩЕСТВЛЕННУЮ СТАЛИНЫМ АННЕКСИЮ. ОНА ВСЕГДА ОТКАЗЫВАЛАСЬ ЕЕ ПРИЗНАВАТЬ, О ЧЕМ СВИДЕТЕЛЬСТВУЕТ ТАКАЯ ХАРАКТЕРНАЯ ДЕТАЛЬ: ЛИТВА ПОЛОЖИЛА У НАС НЕМАЛОЕ КОЛИЧЕСТВО ЗОЛОТА (ТОЧНО ТАК ЖЕ, КАК ДОВЕРИЛА ВЕЛИКОБРИТАНИИ), И ЭТО ЗОЛОТО ОСТАЕТСЯ ЗДЕСЬ, ОНО В ДИСПОЗИЦИИ ЛИТВЫ.

В О П Р О С. И ЧТО ЭТО СЕГОДНЯ ЗНАЧИТ?

П Р Е З И Д Е Н Т. В ВЕЛИКОБРИТАНИИ С ЗОЛОТОМ ПОСТУПИЛИ ИНАЧЕ. ЭТО ЗНАЧИТ, ЧТО МЫ БЫЛИ ОЧЕНЬ ВЕРНЫ СВОИМ ПРИНЯТЫМ РЕШЕНИЯМ.

НЕ СЛЕДУЕТ ТАКЖЕ ЗАБЫВАТЬ: ЕСЛИ ЗДАНИЯ КОНСУЛАТА И ПОСОЛЬСТВА ЛИТВЫ ВО ФРАНЦИИ ЕЩЕ НЕ В ДИСПОЗИЦИИ ЛИТВЫ, ТО ПОТОМУ, ЧТО ТО ЛИ ВО ВРЕМЕНА ВИШИ, ТО ЛИ ВСКОРЕ ПОСЛЕ ОСВОБОЖДЕНИЯ ТОГДАШНЕЕ ПРАВИТЕЛЬСТВО КЛЮЧИ ПЕРЕДАЛО ДРУГИМ - ОККУПАНТАМ...

В О П Р О С. ВОЗВРАТИТЕ ЛИ ВЫ СЕГОДНЯ ЭТИ КЛЮЧИ ЛИТВЕ?

П Р Е З И Д Е Н Т. ТАК ВЕДЬ ТЕ КЛЮЧИ БЫЛИ ПЕРЕДАНЫ ПРЕДСТАВИТЕЛЯМ СОВЕТСКОГО СОЮЗА. БЫЛО БЫ НОРМАЛЬНО, ЕСЛИ БЫ ЭТО БЫЛО ВОЗВРАЩЕНО ЛИТВЕ. ОДНАКО УЖЕ НЕМАЛО ВРЕМЕНИ КАК ПРАВИТЕЛЬСТВО ФРАНЦИИ ТАК ПОСТУПИЛО, К ЭТОМУ ПРИВЫКЛИ, И ТРИ БАЛТИЙСКИЕ СТРАНЫ СТАЛИ СОСТАВНОЙ ЧАСТЬЮ СОВЕТСКОГО СОЮЗА.

ВСЕ ЭТО - ПРОБЛЕМА, КОТОРАЯ СЕГОДНЯ ВСТАЕТ ПЕРЕД ГОСПОДИНОМ ГОРБАЧЕВЫМ.

5. "İnformasiya k razmışleniyu" ("Düşünmək üçün məlumat") bülleteninin 1-ci sayı 1990-cı ildə Moskvada rus dilində çap olunub. Bülletendə "SSRİ-də erməni lobbisi" yazısı dərc edilib və burada dünyada yaşayan ermənilər haqqında məlumatlar da vardır.

**"Ümid" qəzeti** – **"**Müstəqil Azərbaycan Xəbərlər Mərkəzi"nin orqanı olub. 1 noyabr 1989-cu ildə Moskvada nəşrə başlayıb. Mərkəzin sədri Teymur İsmayılov olub. Qəzetin buraxılışında Elman Yusifov, İlqar Saleh, Mübariz Əsgərov, Turxan Mahmudov iştirak ediblər. Qəzetdə, əsasən, Azərbaycandakı ictimai-siyasi durum, xüsusilə Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən proseslər işıqlandırılıb.




**"Çıraq" jurnalı** – **"**Müstəqil Azərbaycan Xəbərlər Mərkəzi"nin orqanı olub. 1989-cu ildə Moskvada nəşr edilib. Bu mərkəzin sədri Teymur İsmayılov, jurnalın Azərbaycan nəşrinin redaktoru isə Elman Yusifov olub. Jurnalda yenidənqurma və aşkarlıq dövründə SSRI respublikalarında cərəyan edən ictimai-siyasi proseslər və rəsmi mətbuat orqanlarının bu proseslərə yanaşması, Azərbaycanla bağlı həqiqətlər, AXC-nin fəaliyyəti ilə bağlı materiallar dərc olunub.








ИНФОРМАЦИЯ К РАЗМЫШЛЕНИЮ

N 1

МОСКВА – 1990

***Qeyd:*** *1993-cü ildə bu qəzetin müxtəlif saylarındakı maraqlı yazılardan, lətifələrdən ibarət "Çeşmədən seçmələr" kitabı çıxıb.*

## M.Ə.RƏSULZADƏNİN "ÇAĞDAŞ AZƏRBAYCAN TARİXİ" KİTABI




Bu kitab AMDP Yeni Müsavatın nəşri olaraq 1990-cı ildə Gəncədə nəşr edilib. Bir məlumata görə kitab Tovuz rayonundakı mətbəədə çap olunsa da Gəncədə nəşri qeyd edilib. Kitabı Tofiq Türkel Türkiyə türkcəsindən çevirib və Bəxtiyar Tuncay nəşrə təqdim edib.

## "MİLLİ MÜSAVAT NƏZƏRİYYƏSİNİN MÜXTƏSƏR İDEOLOJİ VƏ SİYASİ ƏSASLARI"




Bəxtiyar Tuncayın və Əhməd Rzanın 1991-ci ildə nəşr etdikləri bu kitabça Azərbaycan Milli Müsavat Partiyasının 80 illiyi münasibəti ilə çap edilib. Ön söz, giriş, iki fəsil və nəticədən ibarət olan 15 səhifəlik bu kitabça Müsavat Partiyasının ideoloji və siyasi əsaslarından bəhs edir.

---

***Qaynaq:***

*B.Tuncay, Ə.Rza. Milli Müsavat nəzəriyyəsinin müxtəsər ideoloji və siyasi əsasları. Bakı, 1991.*

**"Azərbaycan Demokratik Respublikasının Milli Müstəqillik uğrunda diplomatik mübarizəsi"** – kitabçadır. Çapdan çıxdığı tarix göstərilməsə də, onun 1989-cu ildə nəşr olunduğu ehtimal edilir. Hansı təşkilat və ya şəxs tərəfindən buraxılması haqqında məlumat yoxdur. Kitabçada Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Ceyhun Hacıbəyli və b. tərəfindən 1919-cu ildə Paris Sülh Konfransında qoyulan tələblər əksini tapıb.




*Niyaz Hacıyevin "Bakı qırğını" kitabı, 1990-cı il*

**"Azərbaycan Milli Hərəkatı, 27 Aprel işğalı və "Müsavat" -** Mirzə Bala Məmmədzadənin bu əsəri ayrıca kitabça kimi çap olunub. Nəşr tarixinin 1989-cu ilə təsadüf etdiyi ehtimal olunur. Hansı təşkilat və şəxs tərəfindən buraxılması haqqında məlumat olmasa da kitabın AMDP "Yeni Müsavat"ın nəşri olması təsdiqlənib.

**"Bakı qırğını" (ittihamnamə) -** müəllifi Niyaz Hacıyev olan bu kitabça 1990-cı ildə nəşr edilib. Kitabçada 20 Yanvar faciəsinə aparan yol araşdırılıb.

## "QARABAĞ BÖHRANI" BURAXILIŞI


ГАРАБАҒ БӨҺРАНЫ

ВӘЗИЈЈӘТДӘН ЧЫХМАГ ҮЧҮН КЕЧМИШИ БИЛМӘК ЛАЗЫМДЫР

*Qarabağ böhranı*

Bu xüsusi buraxılış Azərbaycan tələbə gənclərinin "Tanıtım" elm-istehsalat xeyriyyə assosiasiyası tərəfindən çap edilib. Buraxılış 8 səhifədən ibarətdir. Buraxılışa məsul B.Abbaszadədir. Tiraj 110000-dir. Bu buraxılışdakı yazı rus dilində Moskvada nəşr edilən "soyuz" (ittihad) həftəlik qəzetinin 1991-ci ildəki 7-ci sayından götürülüb. Rus və Azərbaycan dilində çap olunub. Məqalə belə adlanır: "Qarabağ böhranı – vəziyyətdən çıxmaq üçün keçmişi bilmək lazımdır". Məqalənin müəllifi Aleksandr Skibitskidir.

## "SİYASİ LƏTİFƏLƏR" TOPLUSU

1991-ci ildən başlayaraq "Siyasi lətifələr"in 1-ci sayı nəşr edildi. Toplumun Nadir Ağayev tərəfindən nəşr olunması yazılır. Bu, əsasən, lətifələrdən ibarət bir topludur. Sonda belə məlumat da qeyd olunub: "Oxuculardan xahiş olunur ki, öz təklif və rəylərini, həmçinin bu ənənəni davam etdirmək üçün eşitdikləri, bildikləri lətifələri aşağıdakı ünvana göndərsinlər: 370114, Bakı-114, Ağayev Nadir Mirələkbər oğlu. Tələb olunanadək".




***"Siyasi lətifələr" toplusu***

Topludakı lətifələr ən çox siyasi xarakterlidir. Leninlə, Stalinlə, Brejnevlə bağlı lətifələr çoxluq təşkil edir.

Toplunun 2 sayını əldə etmək mümkün olub.

---

***Qaynaq:***

*Siyasi lətifələr. Bakı, 1991, №1,№2.*

## "QAPALI SAHƏNİN SİRLƏRİ"

Dissident Nadir Ağayevin "Qapalı sahənin sirləri" ("Taynı labirinta" – rusca) yazısı "Xüsusi bülleteni" olaraq (№2) 1990-cı ildə çap edilib. Yazı Azərbaycan və rus dillərində dərc olunub. Yazıda Sovet İttifaqında cəza məqsədi daşıyan psixiatrik terror və repressiyalardan söhbət açılır. "Xüsusi bülleten" – 10 səhifə həcmindədir.



## XALQ ARASINDA YAYILAN VƏRƏQƏLƏR. “27-28 APREL – MİLLİ YASDIR! BU GÜNLƏRDƏ BAKI ÖLÜ ŞƏHƏR OLMALIDIR!”

Bu vərəqələr məzmununa görə müxtəlifdir. 1991-ci ilin 20 aprelində yayılan vərəqə 28 Aprelə həsr olunub. Vərəqə bu sözlərlə başlayır: “Yurddaşlar! Böyük və bədbəxt Azəri türk xalqının tarixində ən qara səhifə, milli matəm günü – 28 Aprel yaxınlaşmaqdadır.

28 Aprel, 1920-ci il – xalqımızın bolşevik rus imperiyası tərəfindən vəhşi istilası günüdür...”

***“İttihad” hərəkatı, 20 aprel, 1991-ci il”***


"Азәрбајҹан ССР Суверенлији һаггында" Азәрбајҹан ССР-ин Конститусија Ганунун Лајиһәсинин үмумхалг мүзакирәси кедишиндә ирәли сүрүлән тәклифләр

I) Ганунун Преамбуласында Азәрбајҹан Халгынын дөвләтчилик ән"әнәләри, хүсуси илә Азәрбајҹан Демократик республикасы мүтләг әкс олунмалыдыр.
2) I-маддә.Бу шәкилдә формулә едилмәлидир:"Азәрбајҹан ССР суверен социалист дөвләтидир вә мүгавилә әсасында көнүллү суретдә ССРИ Иттифагында бирләшмишдир".
3) 4-чү маддә белә јазылмалыдыр:"Азәрбајҹан ССР-ин сәлаһијјәти јалныз республиканын 1922-чи ил Иттифаг мүгавиләсиндә өз көнүллү суретдә Иттифагын ихтијарына вердији мәсәләләрдә мәһдуддур"(мүдафиә вә хариҹи сијасәтин ән үмуми мәсәләләри).
4) 6-чы маддә бу шәкилдә формулә едилмәлидир."ССРИ ганунлары Азәрбајҹан ССР әразисиндә јалныз Азәрбајҹан ССР Али Советиндә мүзакирә едилиб гәбул олундугдан сонра тәтбиг едилир".
5) 7-чи мадденин ахырынҹы абзасы белә јазылмалыдыр:"Азәрбајҹан ССР-ин суверен һүгуглары Азәрбајҹан ССР һөкумәти тәрәфиндән горунур вә ССР Иттифагы тәрәфиндән тә"мин едилир.
6) 8-чи маддә тамамланмалыдыр:"Азәрбајҹан ССР Али Совети Азәрбајҹан Дөвләтинин суверенлијин тә"мин етмәк үчүн һәрби тә"сисатлар јарадыр".
7) 9-чу мадденин биринҹи ҹүмләсиндән сонра јазылыр:"һәмин мәсәләләрин мәркәзи органларда мүзакирәси заманы республика вето һүгугуна маликдир".
8) IO-чу маддә белә јазылыр:"Азәрбајҹан ССР-ин торпағы,онун тәки,мешәләри,сулары ~~вә дикәр~~ тәбии ~~еһтијатлары~~,һабелә идарә табечилијиндән асылы олмајараг республика әразисиндә јерләшән бүтүн сәнаје,кәнд тәсәррүфаты,тикинти,мәдәни-мәишәт,дикәр мүәссисә вә објектләр милли сәрвәтдир,республиканын ~~дөвләт~~ мүлкијјәтидир вә Азәрбајҹан халгына мәхсусдур".
9) II-чи мадденин биринҹи ҹүмләси белә формулә едилмәлидир:"Азәрбајҹан ССР республиканын игтисади мүстәгиллијини тә"мин едир".Мүвафиг олараг I2-чи мадденин 7-чи јарымбәнди ашағыдакы ҹүмлә илә башланмалыдыр. "Азәрбајҹан ССР игтисади мүстәгиллијинин тә"мин едилмәси...
IO)I4-чү маддә бу шәкилдә тамамланмалыдыр:"...бејнәлхалг тәшкилатларын фәалијјәтиндә иштирак етмәк вә һәмин тәшкилатларын там һүгуглу үзвү олмаг һүгугуна маликдир".
II)I5-чи маддәјә әлавә едилир...һабелә Азәрбајҹан Демократик Республикасынын бајрағы,керб вә һимни мүгәддәсдир вә ...

АХҸ Иҹтимаи Рә"ји өјрәнән Мәркәз

P.S. АХҸ Идарә һеј"әти өз тәрәфдарларыны бу тәклифләри мүдафиә етмәјә вә мүзакирәләрдә фәал иштирака чағырыр.

***Azərbaycanın suverenliyi haqqında vərəqə***

Digər vərəqə “Məqsədlər bəyannaməsi” adı ilə yayılıb. Vərəqəni yayanların “İttihad”çılar olduğu qeyd olunur. Vərəqədəki bəyannamə bu sözlərlə başlayır: “Xalqın öz müqəddəratını təyin etmək hüququnu həyata keçirməyin zərurətini birgə məqsəd sayaraq:

- Bütün səylərimizi vahid məqsədə yönəltmək;

- Azərbaycanın imperiya istibdadından qurtulması naminə geniş surətdə fəal vətəndaş itaətsizliyi üsulundan və eləcə də güc təzyiqindən istifadə etmək;

- Bütün mövcud hakimiyyət orqanlarını ləğv edib, əvəzində xalqın etimadı olan fövqəladə müvəqqəti hökumət təsis etmək...”

***“İttihad təşəbbüskarları”, Bakı, 30 mart, 1991-ci il.***

---

***Qaynaq:***

*1. Roza Arazovanın şəxsi arxivi. “Vərəqə”, 30 mart, 1991-ci il.*

*2. Eyni şəxsi arxiv. “Vərəqə”, 20 aprel, 1991-ci il.*

## İLK ÖZƏL TELEVİZİYA – ANS TV

Azərbaycanda yaradılan ilk özəl televiziya kampaniyası olan ANS 1991-ci ildə Az TV-1 kanalında “Xəbərçi” xəbərlər proqramı ilə efirə


*Vahid Mustafayev*

çıxıb. 1992-ci ildən verilişlərini Bakı, Abşeron bölgələrinə yayımlayıb. Günün xəbərləri, siyasi hadisələrin şərhləri, əyləncə proqramları ilə Azərbaycan və rus dillərində verilişlər yayımlayıb. "Xəbərçi" "Nəzər nöqtəsi", "İç xəbər", "Qulp" verilişləri geniş auditoriya rəğbətini qazanıb.

ANS TV - Müstəqil Yayım və Media şirkəti olan ANS-ə məxsusdur. Bu kampaniyanın əsası 1992-ci ildə qoyulub. Təsisçiləri şəxsi adamlardır.

**Kampaniyanın prezidenti Vahid Naxışdır.**

**ANS TV-nin Baş direktoru Mais Məmmədov, Baş redaktoru Mirşahin Ağayevdir.**

ANS TV-nin hazırda fəaliyyəti dayandırılıb.

## ANS - PRESS AGENTLİYİ

1991-ci ildə yaradılıb. **Təsisçisi Vahid Naxışdır.** Ölkənin siyasi və iqtisadi həyatı ilə bağlı məlumatlar yayır.

## Vahid Mustafayev (Naxış)

Vahid Mustafayev 4 sentyabr 1968-ci ildə anadan olub. 1988-ci ildə Vahid Mustafayev yaradıcı fəaliyyətinə müxbir kimi başlayıb və "Gizli nəşr" (Samizdat) olan «Rokoko» adlı əldə nüsxələnmiş jurnalı aylıq olaraq çap edib. Bu, Azərbaycanın rok musiqisinə həsr olunmuş xüsusi bir jurnal idi.

O, 1989-cu ildə yaranan Qarabağa Xalq Yardımı Komitəsinin mətbu orqanı olan «Azərbaycan» qəzetində işləyib. "Azerbaijan News Service" (Azərbaycan Xəbərlər Xidməti - ANS) 26 noyabr1991-ci ildə 3 nəfər gənc jurnalist: Vahid, Seyfulla Mustafayev qardaşları və Mirşahin Ağayev tərəfindən yaradılıb.V.Mustafayev 1991-ci ildən 1996-cı ilədək ANS şirkətlər qrupuna daxil olan bütün şirkətlərin yaranmasına və fəaliyyətinə rəhbərlik

edib. 1996-cı ildən ANS Müstəqil Yayım və Media Şirkətinin (ANS TV) şurasının sədri və prezidenti, 2001-ci ildən ANS Şirkətlər qrupu MMC-nin prezidentidir. ANS şirkətlər qrupu MMC-nin iştirakçıları olan ANS Müstəqil Yayım və Media Şirkətinin (ANS TV), ANS ÇM Yayım və Media Şirkətinin, ANS Kommers Şirkətinin və ANS Press nəşriyyat evi MMC-nin, habelə ANS-in əhatə dairəsinə daxil olan şirkətlərin təsisçilərindəndir və müxtəlif vaxtlarda direktoru olub.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Vahid_Mustafayev*

## İLK MÜSTƏQİL İNFORMASİYA AGENTLİYİ



"Turan" İnformasiya Agentliyi 1990-cı ilin əvvəlində "Turan" Məlumat-nəşriyyat müəssisəsi"nin bazasında yaranıb. Bu müəssisənin təsisçiləri – N.Nəcəfov, A.Əliyev, M.Əliyev və Şahin idi. Əsasən kitablar, plakatlar çap edirdilər. 1990-cı ilin mayın 5-də həmin müəssisənin bazası əsasında "Turan" agentliyi yarandı. Agentliyi yalnız 1991-ci ildə qeydiyyata aldılar. Qeydiyyat sənədində – "Azərbaycan hüdudlarında məlumat yayılması" qeyd olunurdu.

**Təsisçisi Mehman Əliyevdir.**

Agentlikdə siyasət, iqtisadi araşdırmalar, mədəniyyət, analitik şöbə, eləcə də "Turan-enerji" struktur bölməsi vardır. "Turan" adlı informasiya bülleteninin abunəçiləri arasında dövlət strukturları, diplomatik missiyalar, beynəlxalq təşkilatlar, xarici şirkətlər vardır.

## "SÖZÜN QISASI"

1990-cı ilin oktyabrında "Turan" İnformasiya Agentliyinin "Sözün qısası" adlı bülleteni nəşr edildi.

Bülletendə aşağıdakı yazılara rast gəlmək mümkündür: 1) "Lenin hə-


СӨЗҮН ГЫСАСЫ
«ТУРАН» ИНФОРМАСИЈА АЖЕНТЛИЈИНИН БУЛЛЕТЕНИ
ОКТЈАБР 1990 №-1 [1] ГИЈМӘТИ 40 ГӘПИК
СӨЗҮН ГЫСАСЫ
ЛЕНИН ҺӘМИШӘ БИЗИМЛӘДИР?
НЕ'МӘТ ҺАРАДАДЫР?
НАХЧЫВАН БЛОКАДАСЫНА ЈОЛ ВЕРИЛМӘМӘЛИДИР
...ВӘ ДИҜӘР РӘСМИ ШӘХСЛӘР:
А Р А Ј Ы Ш
КҮРҸҮСТАНДА СИЈАСИ ВӘЗИЈЈӘТ

mişə bizimlədir”; 2) “Nemət haradadır?”; 3) “Naxçıvan blokadasına yol verilməməlidir”, 4) “Arayış”; 5) “Gürcüstanda siyasi vəziyyət” və s.

Bülletenin ilk səhifəsindəki “Sözün qısası” başlığında qeyd olunub: “İnformasiya üzərində hər hansı dairənin inhisarının nə ilə nəticələndiyindən danışmaq istəmirik. Yalnız “Turan” məlumat nəşriyyat müəssisəsi nəzdində “Turan” İnformasiya Agentliyini yaradırıq. Qısa danışmağın fəziləti haqda da əlavə heç nə deyə bilmərik...

Sözün qısası, orqanımız TİA-nın geniş fəaliyyətinin qısa təqdimatına başlayırıq. TİA-nın əməkdaşları”.

---

***Qaynaq:***
*“Sözün qısası” bülleteni, 1990-cı il, oktyabr, №1.*

**Mehman Əliyev**

Mehman Əliyev 1957-ci ilin 26 oktyabrında anadan olub. 1964-1974-cü illərdə orta təhsil alıb. 1988-ci ildə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1988-1989-cu illərdə “Molodyoj Azerbaydjana” qəzetində müxbir, 1989-1990-cı illərdə “Azərinform” Dövlət Agentliyində müxbir, 1990-1991-ci illərdə “Xazar” jurnalında məsul katib, 1993-cü ildə Prezident Aparatının ictimai əlaqələr bölməsinin müdiri vəzifələrində çalışıb.

O, hazırda, 1990-cı ildə təsis olunan “Turan” İnformasiya Agentliyinin direktorudur.

---

***Qaynaq:***
***https://az.wikipedia.org/wiki/Mehman_Əliyev***

**“ASSA-İRADA”**

1991-ci ilin martında **İradə Vəkilova** (1998-ci ildə rəhmətə gedib) və Fazil Abbasov tərəfindən yaradılıb. Hərtərəfli formada olan bu agentlik ümumi xarakterli hadisələrdən məlumatlar yayımlayır.

## MÜSTƏQİL VƏ MÜXTƏLİF DÖVLƏT QURUMLARININ İLK YAYINLARI

**"Odlar Yurdu" qəzeti** – 1988-ci ildən nəşr edilən bu qəzet "Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin (Vətən cəmiyyətinin) orqanı olub. Qəzetin əsas şüarı belə idi: "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!"

Bu qəzetdə güneyli-quzeyli Azərbaycanın tarixi ilə bağlı maraqlı materiallar çap olunub. Qəzetin redaktoru Ramiz Əsgərov olub. Qəzet ayda iki dəfə Azərbaycan, bir dəfə ərəb, bir dəfə latın əlifbası ilə çıxırdı.

**"Azərbaycan" qəzeti** – "Azərbaycan" qəzeti 1989-cu ilin oktyabrın 5-də çap edilib. İlk saydan məlum olur ki, bu mətbuat orqanı Qarabağa Xalq Yardımı Komitəsinin məlumat qəzeti olaraq nəşr edilib. Səkkiz səhifə həcmində olan qəzet yüz min tirajla oxucular arasında yayımlanıb. Qəzetin Baş redaktoru şair-publisist Sabir Rüstəmxanlı idi. Qəzetdə Azərbaycan və rus dillərində yazılar çap olunurdu.

Qəzetin fəaliyyət istiqaməti birinci sayda çap olunan "Redaktordan" başlıqlı yazıda belə qeyd edilib: "Əziz oxucular! İlk nömrəsini aldığınız bu qəzet müqəddəs Azərbaycanın adını daşıyır. Bu, o deməkdir ki, Qarabağa Xalq Yardımı Komitəsinin qəzeti olsa da, "Azərbaycan" öz qarşısında bir vilayətin, bir dərdin çərçivəsinə sığmayan daha geniş məqsədlər qoyub. Onun simasını öz adı müəyyənləşdirir".

Qəzetin ilk sayında Qarabağa Xalq Yardımı Komitəsinin sədri, yazıçı Bayram Bayramovun rus dilində "Azərbaycan – Azərbaycanın övladıdır" məqaləsi, Mirzə İbrahimovun "Yeni bir işıq mənbəyi", B.Vahabzadənin rus dilində "Tarix qarşısında məsuliyyət", İ.Şıxlının "Yurdumuzun sabahını düşünək", rus dilində "General susur" yazıları, R.Behrudininin "Salam, dar ağacı" şeiri çap olunub.

"Azərbaycan" qəzetinin sonrakı sayları da oxucuların ciddi marağına səbəb olurdu.

---

***Qaynaq:***
*"Azərbaycan" qəzeti, 1989-cu il, 5 oktyabr, №1.*

**“Oyanış” (“Araz” siyasi-sosial müzakirə klubunun bülleteni) -**bülleten Naxçıvan Lenin Kommunist Gənclər İttifaqının Naxçıvan Vilayət Komitəsi gənclərin “Araz” siyasi-sosial müzakirə klubunun bülleteni olaraq nəşr edilib. Bülletenin ilk sayı 1989-cu ilin mayında çap olunub. Bülletendə əsasən Sov.İKP-nin yenidənqurma siyasətini dəstəkləyən yazılara üstünlük verilib. Bülletendə verilən “Ön söz”, “Gənclik və yenidənqurma”, “Lenin milli siyasəti və müasirlik” yazılarında partiya siyasətinin dəstəklənməsi öz əksini tapıb. Bülletenin nəşrinin əsas əhəmiyyəti gənclərin yeni dövrdə müəyyən qədər komsomolun buxovlarından xilas olmaq cəhdləridir.

---

***Qaynaq:***
*“Oyanış”. May, №1, 1989.*

**“Aydınlıq” qəzeti – 1990-cı** ildən nəşr edilir. Təsisçi - Respublika Qayğı cəmiyyətidir. Əsas mövzusu - siyasət, parlament həyatı, sosial-iqtisadi problemlərdir. Həftəlik qəzet olaraq nəşr edilib. Baş redaktoru Babək Hüseynoğlu olub.

**“Ədalət” qəzeti –** Ədalət Birliyinin orqanı olub və 1990-cı ildə “Dirçəliş” nəşriyyatında “Azad, müstəqil Azərbaycan uğrunda!” şüarı ilə çapdan çıxıb. Redaktoru haqqında məlumat yoxdur. Qəzet ölkədəki siyasi proseslərə daha çox yer verib.

**“Vatan aşkı” qəzeti** – Meshet (Ahıska) Türklərinin Vatan qurumunun orqanı olub. “Vatan uğrunda birləşin!” şüarı ilə çıxıb. 1990-cı ildə nəşr olunduğu ehtimal edilir. Qəzetdə həm rus, həm də Azərbaycan dilində materiallar dərc olunub. Redaktoru Seyfəddin Bunturk (Məmmədov), redaksiya heyətinin üzvləri isə Vəli Aslanov, Roza Muradova, Həsən Qaraniyev və Cabbar Faiqov olublar. Qəzetin ideoloji xəttində əsasən Mesheti türklərinin hüquqlarının müdafiəsi dayanıb.

**“Yol” qəzeti -** müstəqil mətbuat orqanı olub. 1990-cı ildə nəşr olunduğu ehtimal edilir. Redaktoru Əhməd Oruc olub, amma bu barədə qəzetdə məlumat verilməyib. Qəzetdə Azərbaycanın dünəni, bu günü və gələcəyi ilə bağlı materiallar dərc edilib.

**“Türkün səsi” qəzeti** – Türk Mədəni Birliyinin orqanı olub. Redaktorunun kimliyi haqda məlumat verilməyib. “Türk xalqı, silkələn, özünə dön! Sən özünə dönəndə böyük olursan!” şüarı ilə çapdan çıxıb. 1990-1991-ci illərdə nəşr olunduğu ehtimal edilir. Qəzet ideoloji xətti ilə türkçülüklə bağlı olub.

**“Vətən Birliyi” qəzeti** – Azərbaycan Vətən Birliyi partiyasının qəzeti olub. 1991-ci ildə “Vətən” nəşriyyatında “Vətənimiz, millətimiz, qeyrətimiz!” şüarı ilə çapdan çıxıb. Redaktoru Y.Muğansoy olub. Qəzetdə AVBP-nin siyasi xətti təbliğ olunub.

**“Səhər” qəzeti - 1989-cu ildə** yaradılıb. Təsisçisi və Baş redaktoru Məzahir Süleymanzadə olan bu qəzet əsasən informasiya xarakterli məlumat və yazılar çap edib. Bir müddət maddi çətinliyə görə fəaliyyətini dayandırıb, 1998-ci ilin əvvəllərindən yenidən fəaliyyətə başlayıb.

**“Səs” qəzeti -** ictimai-siyasi qəzet kimi 1990-cı ilin noyabrında Əlincə Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçib və 1991-ci ilin yanvarın 11-də Əlincə Xeyriyyə Cəmiyyəti tərəfindən nəşr edilib. Keçmiş Azərbaycan rəhbərliyini (H.Əliyev dövrünü) müdafiə edib, müxalifəti, onun liderlərini tənqid edib. Baş redaktoru Ağabəy Əsgərov olub.

**“Müxalifət” qəzeti - 1991-ci ilin oktyabrından** çıxır. Yaradıcısı və Baş redaktoru Ağamalı Sadiq Əfəndi olub. İctimai-siyasi xarakterli bu qəzet müxalifət mövqeyində olub.

**“Qarabağ” qəzeti - 1990-cı ildə** əsası qoyulub. Təsisçilər - redaksiya kollektividir. Qarabağ məsələləri ilə bağlı problemləri, qaçqınların sosial vəziyyətini, müharibə əlilləri ilə əlaqəli vəziyyəti işıqlandırır.

**“7 gün” qəzeti -** müstəqil, gündəlik qəzet. **1991-ci ildə** “7 Gün” şirkəti və Emin Eminbəyli tərəfindən təsis edilib. Siyasət, parlament həyatı, sosial problemlərlə bağlı məlumatları dərc edir.

**“Vətən səsi” qəzeti - 1990-cı** ildə təsis edilib, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin orqanıdır. Həftədə bir dəfə, 4 səhifədən ibarət, A-3 formatda, 5000 tirajla nəşr edilib. Baş redaktoru Teymur Əhmədov olub.

**“Ayna-zerkalo” qəzeti - 1990-cı ilin avqustunda** təsis edilib. Təsisçi: redaksiya heyətidir. Həftədə bir dəfə rus və Azərbaycan dillərində 48

səhifədən ibarət olaraq, A-3 formatda yayımlanıb. Qəzetin 16 səhifədən ibarət əlavələri də ("Tələb", "Banklar və biznes") çap edilib. Sosial-iqtisadi və siyasi problemlər, elm, mədəniyyət, ekologiyaya həsr olunmuş yazılar çap edib. İlk baş redaktoru Rauf Talışinski, sonrakı baş redaktoru Elçin Şıxlı olub.

**"Ədalət" qəzeti -** xüsusi qəzet olaraq **1990-cı ilin iyulundan** yayımlanıb. Təsisçi - Adil Minbaşıyevdir. Əsas mövzusu - cəmiyyətin qanuni və hüquqi problemləri, kriminalistika, hüquq-mühafizə orqanlarının fəaliyyəti, sosial problemlər, qaçqınların həyatı və s. Baş redaktoru Aqil Abbas olub.

**"Demokratik Azərbaycan" qəzeti - 1991-ci ildə** yaranıb. Təsisçi - Aslan İsmayılov. Baş redaktor - Rauf Mirqədirov olub. İctimai-siyasi qəzet olaraq nəşr edilib.

**"Müsavat"** jurnalı Müsavat partiyasının orqanı olaraq 1994-cü ilin yanvarından yayınlanmağa başlayıb. İlk sayı 5000 min tirajla yayınlanan bu jurnal Müsavat və M.Ə.Rəsulzadə irsinin yayımlanmasını əsas götürmüşdü. Jurnalın 10 sayı çıxdıqdan sonra maddi çətinliklərə görə nəşri dayandı. Jurnalın redaktoru Nəsiman Yaqublu olub.

**"Maralgöl"** jurnalı - 1994-cü ildə nəşr edilən 9-cu sayı əldə edilib. Burada Fikrət Türkanın və digərlərinin yazıları verilib.

***Qeyd:*** *1988-ci ildən nəşr edilən "Gənclik" jurnalı (redaktoru M.İsmayıl) və "Molodyoji Azerbadjana" qəzeti (redaktoru N.Nəcəfov) Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının nəşri olsa da ciddi yazılarla geniş oxucu auditoriyasının marağını qazanırdı.*

---

***Qaynaq:***

*1. Azərbaycan Kütləvi İnformasiya Vasitələri. Bakı, 1999.*

*2. Qəzetlərin müxtəlif şəxslərdən toplanmış müvafiq sayları.*

*3. M.F.Axundov adına Respublika kitabxanasının dövri mətbuat arxivi.*

# "ƏLİYEVÇİLİK" HƏRƏKATININ BAŞLANMASI. HEYDƏR ƏLİYEVİN AXC-YƏ TƏSİR İMKANLARI Ə.ELÇİBƏY-H.ƏLİYEV MÜNASİBƏTLƏRİ



1992-ci ili aprel-may aylarında yaş həddi ilə bağlı Bakıda H.Əliyev tərəfdarları mitinqlər keçirdi. YAP funksionerləri qeyd edir ki, əslində mütəşəkkil «Əliyevçilik» hərəkatı o mitinqlərdən başladı.

Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar (91 ziyalı) mətbuatda ona müraciət ünvanladı. Həmin müraciət 16 oktyabr 1992-ci il tarixində «Səs» qəzetində çap olundu.Partiyanın təsis konfransı 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirildi və H. Əliyev YAP-ın sədri seçildi. Konfransda Azərbaycanın əksər rayonlarından cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndə iştirak edirdi. Bir ay sonra partiya dövlət qeydiyyatına alındı.

Qeyd edək ki, H.Əliyevin AXC-də mövqeyini müdafiə edənlər yox deyildi. Onun AXC lideri Ə.Elçibəylə də yaxşı münasibətləri vardı. H.Əliyev Moskvadan Bakıya qayıtdıqda Ə.Elçibəy bir yardımçısını onun qaldığı evə – qardaşı C.Əliyevin yanına göndərmiş, Naxçıvana getməsi məsləhət bilinmişdi.Bu halda AXC-nin Naxşıvan şöbəsindən ona dəstək veriləcəyi də söylənilmişdi.Təsadüfi deyildi ki, AXC-nin təmsilçisi olaraq Becan Fərzəliyev də H.Əliyevlə eyni vaxda Naxçıvanda Baş nazir vəzifəsini yerinə yetirmişdi. AXC isə müəyyən məsələlərdə H.Əliyevlə məsləhətlər aparırdı. Məsələn, 1992-ci ilin14-15 may hadisələrində AXC rəhbərliyinin təklifi ilə Q.Məmmədov H.Əliyevə zəng edib onun fikrini öyrənmişdi.1988-ci ildən isə müəyyən qrup insanlar H.Əliyevin mitinqlərdə portretini gəzdirir,onu təbliğ edirdi.

O dövrdə AXC fəallarından olan,Naxçıvan Baş Nazirinin xüsusi nümayəndəsi və hazırda Cümhuriyyət Xalq Partiyasının sədri **Bədrəddin Quliyev** də mətbuata maraqlı açıqlamalr verib:"Heydər Əliyevin bizdən istəyi Naxçıvanda ona dəstək verib Muxtar Respublikada hakimiyyətə gəlmək idi. Naxçıvanda o zaman parlament faktiki iki hissəyə bölünmüşdü. Deputatla-

rın bəziləri Kommuinist Blokunda, bəziləri isə Demokratik Blokda təmsil olunurdu. Heydər Əliyev də "Demblok"un dəstəyini qazanmaq üçün Əbülfəz Elçibəyin razılığını almaq istəyirdi. Əmir bəylə danışdıqdan sonra mən Elçibəyin yanına getdim. Almurad bəyin evinə... Becan Fərzəliyev də orda idi. Əbülfəz bəy mənə dedi ki, Heydər Əliyevə deyərsiniz ki, mən onun Naxçıvanda hakimiyyətə gəlməsinə dəstək verərəm. Amma bir şərtlə: Becan Fərzəliyevi Naxçıvanın Baş naziri təyin etsin. Heydər Əliyev onda qardaşı Cəlal Əliyevin evində qalırdı. Lermontov küçəsində bir binada, 6-cı mərtəbə, sağ qapıydı. Liftlə qalxdıq. Qısası, ümumi razılıq əldə edildi".

Ə.Elçibəyin hakimiyyəti illərində onun Bakıda ölkə prezidenti ilə məşhur "səkkiz saatlıq" söhbəti isə bu gün də araşdırıcı və siyasətçilərin marağındadır. Lakin bu da bir faktdır ki, H.Əliyev Naxçıvanda olduğu müddətdə AXC-ni idarəçilikdən uzaqlaşdırdı, əksər cəbhəçiləri oradan getməyə məcbur etdi və Elçibəy iqtidarı Naxçıvanda heç bir AXC kadrını yerləşdirə bilmədi. H.Əliyevi bu dövrdə "Əlincə" cəmiyyəti,"Naxçıvan" bankı dəstəkləyir, "Səs", "Aydınlıq" qəzetləri ciddi təbliğatını aparırdı.

1993-cü ilin 4 iyun hadisələrindən sonra H.Əliyevin Azərbaycan Milli Məclisinin seçilməsi üçün Ə.Elçibəyin tapşırığı ilə demokratik düşərgədən olan bəzi millət vəkilləri ona səs vermişdi(onlar bu faktı bu gün də təsdiqləyir).

Ə.Elçibəy tədqiqatçı alim Ə.Tahirzadə ilə olan söhbətində də H.Əliyevə dəstək olması faktını etiraf edərək demişdi: **"Heydər Əliyevin hakimiyyətə gəlməsində müəyyən fəaliyyətim olub. Mən belə bir siyasi gediş getdim ki, Azərbaycanda vətəndaş müharibəsi baş tutmasın. Heydər Əliyevi Bakıya gətirəndən sonra gördüm ki, vətəndaş müharibəsi yenə davam edə bilər, buna görə də özüm səngərdən çıxdım..."** ***(Bax: "Elçibəylə 13 saat üz-üzə. Tərtibçi, ön sözün və müsahibənin müəllifi Ədalət Tahirzadədir. Bakı, 1999, səh. 111).***

Ə.Elçibəy müsahibədə bu faktları da etiraf etmişdi: "**Bəli, Heydər Əliyevi mən seçdirdim. Bunu danmıram** (***Bax: eyni kitab, səh.*** *71*). **Hakimiyyətə gətirib seçdirənədək peşiman deyildim..."**

***Qaynaq:***

*1. https://az.wikipedia.org/wiki/Yeni_Azərbaycan_Partiyası*

*2. N.Yaqublunun Ə.Elçibəylə Kələkidə olan söhbətləri.*

*3."Elçibəylə 13 saat üz-üzə". Tərtibçi, ön sözün və müsahibənin müəllifi Ədalət Tahirzadədir. Bakı, 1999, səh. 111*

*4. http://bastainfo.com/az/2016/05/26 4-iyun-qiyami-haqda-tarixi-aciqlamalar.*

*5.http://ovqat.com/manset/7536-bdrddin-quliyev-elcibyl-heydr-liyev-arasnda-danqlar-mn-aparmam.html Tarix: 14-08-2017, 10*

# AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN YARADILMASI

## PRİBALTİKADA İLK XALQ CƏBHƏSİ YARADILIR

Əslində Xalq Cəbhəsinin yaradılması ideyası Pribaltikadan qaynaqlanırdı. Pribaltikada sovet rejiminə qarşı kəskin mövqedə olanların sayı çox idi və bu bölgəyə Qərbin də güclü təsiri var idi. Digər tərəfdən, sovet rejimi başqa sovet respublikaları ilə müqayisədə Pribaltika respublikalarına daha sonra "daxil olmuşdu". Nəticədə azadlığı görmüş, müstəqil dövlətlərinin vətəndaşı olmuş insanlar Pribaltikada çox idi və onların sovet işğalına böyük nifrəti var idi.

Mövcud digər səbəbləri də buraya əlavə etsək, Pribaltikada Sovet dövlətinə qarşı kəskin mübarizə başlayırdı.

Qeyd edək ki, hələ 1988-ci ilin aprelin 13-də Estoniya Televiziyasının "Bir daha fikirləşək" proqramında belə bir ideya səslənmiş və artıq oktyabr ayında bu, reallaşmışdı, yəni Xalq Cəbhəsi yaranmışdı.

1988-ci ilin oktyabrın 1-2-də Estoniyanın paytaxtı Tallin şəhərində Estoniya Xalq Cəbhəsinin Təsis Konqresi keçirildi. Konfrans Estoniya Xalq Cəbhəsinin 7 nəfərdən ibarət İdarə Heyətini, 100 nəfərdən ibarət Xalq Səlahiyyətləri Şurasını (burada Eldar Əfənidyev adlı bir azərbaycanlı da var idi), 12 nəfərdən ibarət Nəzarət-Təftiş komissiyasını, 18 nəfərdən ibarət Estoniya Xalq Cəbhəsinin proqramları komitəsini yaratdı.

Estoniya Xalq Cəbhəsinin ümumi proqramında yazılmşdı: "Sosializm aparatı böhran vəziyyətindədir. Yalnız iqtisadiyyatda, mədəniyyətdə, milli siyasətdə, ətraf mühitin mühafizəsində, bütün ictimai həyatda dərin demokratik dəyişikliklər gələcəyin layiqli insanına təminat verir. Biz elə bir şəraitdə yaşayırıq ki, müəyyənləşdirməliyik: sosializm nədir və onu necə qurmalıyıq?

Sovet İttifaqında inqilabi dəyişikliklər yuxarıdan başladı. Lakin aşağıdan gələn cavab, yəni demokratik mexanizmin qurucusu rolunda çıxış edən ictimai hərəkat bu işi geriyə dönməz edə bilər. Xalq Cəbhəsi durğunluğun və siyasi sistemin xalqdan uzaq düşməsinin xəbərdarlığında yarandı.Estoniya xalqı yenidən siyasi həyata başladı".

Estoniya Xalq Cəbhəsinin Proqramında təşkilatın məqsədi belə ifadə edilirdi: "Xalq Cəbhəsinin başlıca məqsədi – xalqda siyasi mədəniyyəti və vətəndaş fəallığını inkişaf etdirmək, həqiqi xalq hakimiyyətini yaratmaq və bütün insan hüquqlarına təminat verən, cəmiyyətin balanslaşdırılmış iqtisadiyyatı üçün demokratiya mexanizmini yaratmaqdır"...




***Estoniya Xalq Cəbhəsi Konqresinin materialları, 1988-ci il***

Proqramda Estoniya SSR-nin (Sovet Sosialist Respublikası) siyasi, iqtisadi və mədəni müstəqilliyinə çatmağın vacibliyi vurğulanırdı. Qeyd edilirdi ki, SSRİ formal federativ dövlətdən, konfederasiya prinsiplərinə əsaslanan həqiqi müstəqil dövlətlər birliyinə çevrilməli, başlıca dəyəri insan olan hüquqi dövlət yaradılmalı, sovetlər öz ərazisində tam hakimiyyətə sahib, səlahiyyətli və hüquqi gücü olan xalq təmsilçiləri Məclisinə keçməli və s. Xalq Cəbhəsinin başlıca məqsədi, bütün vətəndaşları azad və müdafiəsi qorunan bir Estoniyanın yaradılmasıdır.

Qəbul edilən sənədlərdə Konqresin Estoniya Xalq Cəbhəsinin ali orqanı olduğu qeyd edilirdi. Bildirilirdi ki, Estoniya Xalq Cəbhəsini müdafiə edən 1700 qrup yaranıb ki, bu da 60 minə qədər Estoniya sakinini birləşdirir.

---

***Qaynaq:***

*Narodnıy Konqress. Sbornik materialov Konqressa Narodnoqo Fronta Estonii.*
*1-2 oktyabrya, 1988 q. Tallin. "Periodika", 1989.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN YARADILMASINA DOĞRU İLK ADDIMLAR. ZƏRDÜŞT ƏLİZADƏNİN FƏALLIĞI

1987-ci ildə Z.Əlizadə erməni alimi Abel Aqanbekyanın Fransa mətbuatındakı müsahibəsinə cavab yazıb, Akademiyanın alimlərinə məlumat verir, onlardan dəstək almaq istəyirdi. **Akademiyanın Fizika İnstitutunda üç nəfər onunla tam şəkildə həmrəy oldular: Tofiq Qasımov, Mirbaba Babayev, Ağacavad Salamov.**



***Zərdüşt Əlizadənin hazırladığı ilk AXC proqramı***

Bundan sonra ilk olaraq aşağıdakı şəxslər bir araya gələrək gizli toplantılar keçirməyə başladı: Zərdüşt Əlizadə, Tofiq Qasımov, Mirbaba Babayev, Hikmət Hacızadə, Ağacavad Salamov, Emin Əhmədov, Süleyman Əmirov, Sənubər Bağırova, Leyla Yunusova, Arzu Abdullayeva, Toğrul Əfəndiyev, Müslüm Eldarov, Elçin Əliyev, Rasim  və digərləri.

Bu insanlar Zərdüşt bəyin, Hikmət bəyin, Leyla və Arzu xanımın mənzillərində (sonradan müəyyən yer ayrıldı) toplaşıb iclaslar keçirirdi. Həmin toplantıların birində Bakı Alimlər Klubunu yaratmaq ideyası ortaya çıxdı və bu istiqamətdə çalışmalara başlanıldı. Hazırlanmış sənədi Ağacavad Salamovla, Mirbaba Babayev Bakı Şəhər Sovetinə aparıb təqdim etdilər.

1988-ci ilin noyabr mitinqlərində Bakı Alimlər Klubunun üzvləri meydanın bir küncündə Xalq Cəbhəsinin yaradılması təbliğatı ilə məşğul olur, oraya gələnlərə məramlarını anladır, AXC-nin ilk proqramını paylayırdılar. Həmin mitinqlərdə çoxlu sayda insan  AXC sıralarına yazıldı.

Tribunadan isə bəzi mitinqlərdə çıxış edən bəzi şəxslər xalqa BAK üzvlərinin DTK ilə bağlı olduqlarını söyləyərək, təhqiramiz sözlər də işlədirdilər.

Qeyd edək ki, AXC-nin ilk proqramını Zərdüşt Əlizadə yazmış, BAK-ın toplantısında müzakirə edilmiş, müəyyən müzakirələrdən və düzəlişlərdən sonra əlyazması Ağacavad Salamova verilmiş, o da  şəxsi yazı makinasında çap etmişdi.

Beləliklə, formalaşmağa başlayan AXC Təşəbbüs Qrupuna iki tərəfdən yaxınlaşma var idi: bir tərəfdən BAK, digər tərəfdən Varlıq və Çənlibel. Birincilərin əlində Proqram var idi və təşkilatlanma təşəbbüsündə idilər, ikincilər isə meydanın tribunasında dayanıb çıxış edirdilər. Odur ki, ikinciləri xalq daha çox tanıyırdı, birincilər isə bir o qədər tanınmırdı.

---

***Qaynaq:***
*Ağacavad Salamovun şəxsi arxivi.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİ YARATMAQ TƏŞƏBBÜSLƏRİ

1988-ci ilin iyul-avqust aylarından Azərbaycan Xalq Cəbhəsi yaradılması ideyası ətrafında müzakirələr gedirdi. Toplantılar Bakı Şəhər Partiya Komitəsinin tətil əleyhinə ayırdığı yerdə, şəhərin mərkəzində Nəsimi heykəlinin yanındakı o qədər də rahat olmayan bir otaqda keçirilirdi (Vidadi küçəsi-125). Bu söhbətlər çox qızğın olurdu, vacib problemlər, onların həlli yolları müzakirə edilirdi.

Toplantılara gələnlərin sayı getdikcə çoxalır və mövcud darısqal otaqda iclasların keçirilməsi mümkün olmurdu.

Z.Əlizadənin dostu – Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun müəllimi Rasim İmanov AZİMİ-nin (Azərbaycan İnşaat Mühəndisləri İnstitutu) müəllim və tələbələri üçün ayrılan “Cəngi” musiqi-idman birliyinin zalında iclasların keçirilməsini təklif etdi. Həmin zalda 3 iclas planlaşdırıldı. **Birinci iclasda** tarix elminin problemləri müzakirə edilirdi: məruzəçilər Arif Yunusov və İsa Qəmbərov idi. Burada hər kəs öz fikrini əsaslandırırdı. Arif Yunusov İqrar Əliyevin və Ziya Bünyadovun əsaslandığı tarixə baxış konsepsiyasını əsas götürürdü. İsa Qəmbərov isə rəsmi Azərbaycan tarixinin türk amilini kiçiltməsi konsepsiyasını irəli sürürdü.

**İkinci** toplantıda iqtisadiyyat, planlaşdırma və respublikanın təsərrüfat hesabı problemi müzakirə edildi. Məruzəni Şərqşünaslıq İnstitutunun Türkologiya şöbəsinin əməkdaşı Altay Məmmədov etdi.

Hər iki toplantının sonunda ümumi bir fikir səslənirdi: bu işlərin görülməsinə Azərbaycan Kommunist Partiyası rəhbərliyi şərait yaratmırsa, onda biz Xalq Cəbhəsi yaratmalıyıq.

**Üçüncü** iclasda Z.Əlizadənin yazıb hazırladığı Azərbaycan Xalq Cəbhəsinin Proqramı müzakirə edilməli idi. Z.Əlizadə proqramın surətini Elmlər Akademiyasında çoxaltmış və müzakirə üçün paylamağı planlaşdırırdı. Lakin 1988-ci ilin oktyabrın 12-nə nəzərdə tutulmuş iclas baş tutmadı. Rasim İmanov bildirdi ki, AZİMİ-nin rektoru Bünyad Sərdarov “Cəngi” zalında iclas keçirməyi qadağan edib. O, bunu DTK-nın tələbi ilə yerinə yetirib. R.İmanov qeyd edib ki, o, Azərbaycanın Xalq rəssamı, heykəltəraş Ömər Eldarovun oğlu Müslüm Eldarova yer tapması xahişi ilə müraciət edib. M.Eldarov isə yaxın münasibətdə olduğu, Ü.Hacıbəylinin Ev Muzeyinin direktoru R.Xəlilovdan orada toplantı keçirilməsinə icazə

istəyib (hətta bu toplantının bir banket olduğunu da qeyd edib ki, narahatlıq yaranmasın). R.Xəlilov Muzeyin zirzəmisində tədbirin keçirilməsinə razılıq verib (həmin yerdə filmlər də nümayiş etdirilirdi).

**Oktyabrın 13-də Ü.Hacıbəylinin Ev muzeyində 37 yerlik zirzəmiyə 60-a qədər adam toplaşdı.** İştirakçılar dəhlizdə, pilləkəndə, muzeyin həyətində dayanmışdı. Toplaşanlar arasında professor Xudu Məmmədov, rejissor Eldar Quliyev, pianoçu Fərhad Bədəlbəyli, Məhəmməd Hatəmi və digərləri vardı.

Z.Əlizadə AXC-nin proqramını bənd-bənd oxuyub iştirakçıların fikrini soruşurdu. **Professor Xudu Məmmədov** çıxış edib adamları uzaqgörənliyə, ağıla əsaslanmağa, hər bir işi qanun çərçivəsində görməyə çağırdı, partiya və hökumətlə birgə işləmək yollarını aramağa dəvət etdi.

Müzakirələr getdiyi zaman Xudu müəllim əvvəl birisi ilə mübahisə etdi və sonra özünü pis hiss etdi (muzeyin zirzəmisində də insanlar çox toplaşdığından hava çox ağır idi). Bir anın içində o, kresloda əyləşib, ağır nəfəs almağa başladı. Onu yuxarı qaldırıb xalçanın üstünə qoydular. Təcili Yardım maşını gələndə o, artıq keçinmişdi. Məlum olub ki, X.Məmmədov üç dəfə infarkt keçirib, bir gün əvvəl isə Qayğı cəmiyyətinin təsis konfransında əsəbiləşib.

Bu hadisədən sonra toplantı yarımçıq qaldı. **Professor X.Məmmədovu İkinci Fəxri Xiyabanda dəfn edildi.**

Xalq Cəbhəsinin yaradılması prosesinə 17 noyabrda başlanan mitinqlər isə başqa bir xarakter verdi və təsir göstərdi. Yəni burada kütlə amili əsaslı rol oynamağa başladı.

---

***Qaynaq:***
*Zərdüşt Əlizadə. İkinci respublikanın sonu.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİ MÜVƏQQƏTİ TƏŞƏBBÜS MƏRKƏZİNİN YARADILMASI

1988-ci ilin yayında Bakı Alimlər Klubunda birləşmiş Azərbaycan ziyalılarının təmsilçiləri tərəfindən Pribaltika Xalq Cəbhəsi formasında AXC yaratmaq üçün Təşəbbüs Qrupu yaradıldı **(əsas şüar: SSRİ daxilində respublika suverenliyinə nail olmaq idi).**



*Arzu Abdullayeva*

1988-ci ilin 17 noyabr- 5 dekabr mitinqləri dövründə AXC-nin 250-yə yaxın dayaq dəstəsi yaradılması barədə məlumatlar BAK və Varlıqda toplanmışdı.

Meydan hərəkatı yatırıldıqdan sonra hər iki qrup öz iclaslarını keçirirdi. BAK-da hər iki qrupun birləşməsini və eyni zamanda bu fikrin əleyhinə olanlar da var idi (Zərdüşt Əlizadə və Tofiq Qasımov əleyhinə idilər). Lakin hər iki tərəf arasında görüşlər davam edirdi. Varlıq və Çənlibel üzvlərinin əsas iradı mövcud Proqrama idi. Qarşı tərəf isə etiraz etsə də, alternativ bir proqram hazırlamamışdı. Sonda ümumi razılaşma oldu ki, hələlik mövcud proqram ətrafında birləşilsin və AXC Təşəbbüs Qrupunun Koordinasiya Şurası yaradılsın, bu qurum AXC-nin proqramını hazırlasın və AXC-nin təsis qurultayının keçirilməsi üçün fəaliyyət göstərsin. İlk iclası isə (gizli olaraq) Ağacavad Salamovun Bakının ucqarında yerləşən mənzilində keçirmək qərara alındı (indiki Əhmədli qəsəbəsi, Gəncə prospekti 79, ev 129; o zamankı Vunq Tan küçəsi, "Xəzər" univermağının yanı).

Qeyd edək ki, AXC Təşəbbüs Qrupu Koordinasiya Şurasının yaradılması ideyası Hikmət Hacızadəyə məxsus idi.

1989-cu ilin fevralın 25-də A.Salamovun evində Təşəbbüs Qrupunun ilk toplantısı keçirildi. Bu toplantıda beş nəfər Varlıqdan, beş nəfər də BAK-dan olmaq üzrə on nəfərlik AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzinin Koordinasiya Şurası (yaradılan qurum belə adlandırıldı) yaradıldı. Seçilən on nəfər aşağıdakılar idi: Varlıqdan – Əbülfəz Əliyev (Elçibəy), Nəcəf Nəcəfov, İsa Qəmbərov, Pənah Hüseynov, Vurğun Əyyubov; BAK-dan – Tofiq Qasımov, Hikmət Hacızadə, Leyla Yunusova, Zərdüşt Əlizadə, Ağacavad Salamov.



*Ağacavad Salamov*

Tezliklə AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzinin Koordinasiya Şurasının nizamnaməsi hazırlandı və bu nizamnaməyə görə üç aydan sonra Koordinasiya Şurası yenidən seçilməli idi.



***Mirbaba Babayev***

AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzinin  Koordinasiya Şurasının ikinci toplantısı Sabit Bağırovun mənzilində oldu. İlk Nəzarət Təftiş Komissiyasının yaradılması təklifi ilə A. Salamov çıxış etdi və bu qəbul edildi.

Bir neçə ay ərzində AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzinin  Koordinasiya Şurası AXC-nin proqram və nizamnaməsinin layihəsini işləyib hazırladı. Bununla əlaqədar respublika təsərrüfat hesabı məsələlərinə və Azərbaycan xalqının tarixi problemlərinə həsr edilmiş bir neçə seminar keçirildi, Azərbaycandakı digər qeyri-rəsmi təşkilatların nümayəndələri ilə birgə konfrans təşkil olundu.

AXC  Müvəqqəti  Təşəbbüs Mərkəzinin  təsisçiləri isə aşağıdakı 27 nəfər idi: Abdullayeva Arzu, Ağamalı Sadiq, Ağayev Fəxrəddin, Babayev Mirbaba, Bağırov Sabit, Bağırova Sənubər, Qasımov Tofiq, Qəmbərov İsa, Qəmbərov Məhəmmədhəsən, Qraçov Anatoli, Eldarov Müslüm, Əyyubov Vurğun, Əlizadə Zərdüşt, Əliyev Əbülfəz, Əfəndiyev Altay, Əhmədov Emin, Zülfüqarov Nəriman, Yunusova Leyla, Manafov Vahab, Nəcəfov Nəcəf, Salamov Ağacavad, Səfixanov Vaqif, Tkaçenko Georgi, Umudov Canbaxış, Hacızadə Hikmət, Hüseynov Pənah, Cabbarova Zəminə

Qeyd edək ki, yalnız AXC Müvəqqəti Təşəbbüs Mərkəzi həmin dövrdə Qarabağ hadisələri haqqında Ümumittifaq və Dünya ictimaiyyətinə həqiqi məlumatları çatdırırdı.

**1989-cu ilin martın 13-də** AXC Müvəqqəti Təşəbbüs Mərkəzi  qeydiyyata alınmaq üçün respublika Ali Sovetinə və birinci katib Ə.Vəzirova müraciət etdi. Minlərlə Azərbaycan vətəndaşı da Müvəqqəti Təşəbbüs Mərkəzinə qoşularaq AXC-ni müdafiə üçün Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirova müraciət ünvanladı. Tanınmış ədəbiyyat xadimləri olan İ.Şıxlı, Y.Səmədoğlu, M.Araz və S.Rüstəmxanlı da cəmiyyətin demokratikləşməsi üçün xalqı AXC ətrafında birləşməyə çağırdı.



***Mirbaba Babayevin AXC dövrü ilə bağlı gündəliyi***

İctimaiyyətin təzyiqi ilə respublika rəhbərliyi AXC rəhbərliyinə daxil olanlarla qeyri-rəsmi əlaqələr yaratmağa məcbur oldu. 1989-cu ilin 14 aprelində AXC-nin qeydiyyata alınması üçün göndərilmiş rəsmi məktubun qanunda nəzərdə tutulan bir aylıq vaxtı bitdikdə Ə. Vəzirov AXC Müvəqqəti Təşəbbüs Mərkəzinin Koordinasiya Şurasının üzvlərini qəbul etdi. Görüşdə Ə. Vəzirov Azərbaycan KP MK-nın və AXC məqsədlərinin analoji olduğunu söyləyərək, AXC-nin yaradılmasına ehtiyacın olmadığını bildirdi. Hakimiyyət orqanları maneçilik göstərsə də, 1989-cu ilin aprelində Bakıda ölkənin və xarici jurnalistlərin iştirakı ilə regionun beynəlmiləl problemlərinə həsr edilmiş konfrans keçirildi.

Həmin dövrdə Azərbaycan ictimaiyyətini "**AXC Müvəqqəti Təşəbbüs Mərkəzi"nin** fəaliyyəti ilə məlumatlandırmaq üçün Azərbaycan və rus dillərində "samizdat" olaraq "AXC bülleteni" nəşr edilməyə başladı.

---

***Qaynaq:***

*1. Hürriyyət olan yerdə də insanlıq olur (AXC-nin sədri Əbülfəz Əliyevlə müsahibə). "Azadlıq" qəzeti, №1, 1989-cu il, 24 dekabr; 2. Aydın Balayev. Azərbaycan Milli Hərəkatı: Müsavatdan Xalq Cəbhəsinə qədər. Bakı, 1992. (rus dilində)*

## AXC MÜVƏQQƏTİ TƏŞƏBBÜS MƏRKƏZİNİN FƏALİYYƏTİ

**1989-cu ilin aprelin 14-də** Azərbaycan KP MK-nın Birinci katibi Ə. Vəzirov AXC Təşəbbüs Mərkəzi Əlaqələndirmə Şurasının üzvləri ilə görüş keçirmək məcburiyyətində qaldı. Bir neçə saat davam edən görüşdə Birinci katib bildirmişdir ki, o, AXC TM-nin hazırladığı Proqramla tanışdır və onun fikrinə görə partiya aparatı rəhbərliyinin və AXC yaradılması təşəbbüsünü irəli sürən adamların ümumi məqsədləri eynidir. Bununla yanaşı Birinci katib AXC-nin yaradılmasına ehtiyac olmadığını və Təşəbbüs Mərkəzinin fəaliyyətinin partiya aparatının işinə mane olduğunu əsaslandırmağa çalışmışdır. Eyni zamanda Ə.Vəzirov Təşəbbüs Mərkəzinin təqdim etdiyi Proqram və Nizamnaməni diqqətlə öyrənildikdən sonra müvafiq cavabın olacağına təminat vermişdi.

**1989-cu ilin aprelin 30-da və mayın 1-də** Estoniyada, Loodidə SSRİ-nin milli- demokratik hərəkatlarının VII müşavirəsi keçirildi. Müşa-

virədə milli-demokratik partiyaların, xalq cəbhələrinin, milli istiqlaliyyət, mədəniyyət hərəkatlarının, Latviya, Litva, Estoniya, Belorusiya, Ukrayna, Ermənistan, Rusiyanın Krım tatarlarının nümayəndələri təmsil edilmişdilər. İlk dəfə olaraq belə müşavirədə AXC Müvəqqəti Təşəbbüs Mərkəzinin iki nümayəndəsi – Leyla Yunusova və Zərdüşt Əlizadə iştirak etdilər.

Onlar Azərbaycanda siyasi vəziyyət barədə məruzə etmiş, Dağlıq Qarabağ, 1988-ci ilin noyabr mitinqi və rəhbərliyin bu xalq hərəkatına münasibəti barədə suallara cavab vermiş, iştirakçılara Ermənistandan zorla qovulmuş azərbaycanlı qaçqınlar, Lənkəran və Bakı mitinqləri haqqında videofilm göstərmişlər. Jurnalistlərə və müxtəlif təşkilatların nümayəndələrinə Azərbaycanın tarixi, Dağlıq Qarabağ məsələsi və respublikada siyasi vəziyyətlə bağlı məqalələr və sənədlər verilmişdir.

AXC MTM-nin üzvləri bu müşavirədə müşahidəçi statusuna malik olduğundan heç bir sənəd və qətnamə hazırlanmasında və imzalanmasında iştirak etməmişlər. Qarabağ Komitəsinin (erməni tərəfin) liderlərinin siyasi məhbuslar sırasına salınmasına AXC MTM-nın nümayəndələri etiraz etmişlər. Həmin ilin **mayın 13-15-də** Tallin şəhərində Pribaltika Xalq Cəbhəsinin Assambleyası keçirilmişdir. AXC MTM-ni Pənah Hüseynov, Emin Əhmədov və Nəriman Zülfüqarov təmsil etmişlər.

**Mayın 28-də** Daşkənddə Özbəkistan Yazıçılar İttifaqının zalında Özbəkistan Birlik Xalq Hərəkatı təşkilatının təsis qurultayı keçirilmişdir. Qurultayda Özbəkistanın müxtəlif vilayət və rayonlarını təmsil edən 250 nümayəndəsi iştirak etmişdir. Qurultayda 85 nəfərlik Mərkəzi Şura yaradılmış, texniki elmlər doktoru Əbdürrəhim Qəyyum oğlu Pulatov Birlik təşkilatının sədr seçmişdir.

Azərbaycan Xalq Cəbhəsinin Müvəqqəti Təsis Mərkəzi adından qurultayı Leyla Yunusova salamlamışdır.

**Qeyd:** ***Azərbaycan Xalq Cəbhəsini elan etmək üçün 1988-ci ilin 13 oktyabrında Ü.Hacıbəylinin ev-muzeyində ilk təşəbbüs göstərildi, lakin tanınmış alim Xudu Məmmədovun həmin toplantıda əsəbi və gərgin çıxışı zamanı dünyasını dəyişməsi ilə yarımçıq qaldı.***

## AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNƏ

**Bu dövrdə AXC Müvəqqəti Təsis Mərkəzi Azərbaycan Ali Sovetinə belə bir müraciət qəbul etdi:**

Müvəqqəti Təsis Mərkəzi Azərbaycan Xalq Cəbhəsinin məramnamə və nizamnamə layihələrini hazırlamış, geniş xalq kütlələrinin bu barədə rəyini öyrənmişdir. Respublikada AXC-nin çoxlu sayda dayaq dəstələri mövcuddur ki, onlar hal-hazırda yenidənqurma uğrunda fəal mübarizəyə qoşulmaq əzmindədirlər.


АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИ РӘЈАСӘТ
ҺЕЈ'ӘТИНӘ

Мүвәггәти Тә'сис Мәркәзи Азәрбајчан Халг Чәбһәсинин мәрамнамә вә низамнамә лајиһәләрини һазырламыш, кениш халг күтләләринин бу барәдә рә'јини өјрәнмишдир. Республикада АХЧ-нин күлли мигдарда дајаг дәстәләри мөвчуддур ки, онлар һал-һазырда јенидәнгурма уғрунда фәал мүбаризәјә гошулмаг әзминдәдирләр.

АХЧ јенидәнгурманы сөздә дејил, әмәли сурәтдә һәјата кечирмәк тәрәфдарыдыр. Чәмијјәтдәки јениләшмә һеч кәсин вә һеч бир групун инһисарында олмамалыдыр. Јенидәнгурма бүтүн совет халгларынын һәгиги арзусунун онларын биркә сәј'и илә һәјата кечмәсидир. ССРИ Конституцијасынын 51-чи вә Азәрбајчан ССР Конституцијасынын 49-чу маддәләринә мүвафиг олараг јенидәнгурмада Азәрбајчан вәтәндашларынын сијаси фәаллығыны тәшкил едән АХЧ-нин өз низамнамә вәзифәләрини мүвәффәгијјәтлә јеринә јетирмәси үчүн она Азәрбајчан ССР Али Совети тәрәфиндән шәраит тә'мин едилмәлидир. Буну нәзәрә алараг АХЧ-нин Сизә тәгдим едилән мәрамнамә вә низамнамә лајиһәләри әсасында Тә'сис Гурултајынын чағырылмасына көмәк мәгсәди илә Мүвәггәти Тә'сис Мәркәзини гејдә алмағынызы вә онун фәалијјәти үчүн шәраит јаратмағынызы (бүллетен нәшри, радио вә телевизијада мүәјјән верилишләр вә с.) хаһиш едирик.

Азәрбајчан Халг Чәбһәсинин Мүвәггәти Тә'сис Мәркәзинин үзвләри:

***Təşəbbüs Mərkəzinin müraciəti***

AXC yenidənqurmanı sözdə deyil, əməli surətdə həyata keçirmək tərəfdarıdır. Cəmiyyətdəki yeniləşmə heç kəsin və heç bir qrupun inhisarında olmamalıdır. Yenidənqurma bütün sovet xalqlarının həqiqi arzusunun onların birgə səyi ilə həyata keçməsidir. SSRİ Konstitusiyasının 51-ci və Azərbaycan SSR Konstitusiyasının 49-cu maddələrinə müvafiq olaraq, yenidənqurma Azərbaycan vətəndaşlarının siyasi fəallığını təşkil edən AXC-nin öz nizamnamə vəzifələrini müvəffəqiyyətlə yerinə yetirməsi üçün ona Azərbaycan SSR Ali Soveti tərəfindən şərait təmin edilməlidir. Bunu nəzərə alaraq AXC-nin Sizə təqdim edilən məramnamə və nizamnamə layihələri əsasında Təsis Qurultayının çağırılmasına kömək məqsədi ilə Müvəqqəti Təsis Mərkəzini qeydə almağınızı və onun fəaliyyəti üçün şərait yaratmağınızı (bülleten nəşri, radio və televiziyada müəyyən verilişlər və s.) xahiş edirik".

1989-cu ilin mayın 14-də AXC Təşəbbüs Mərkəzi həmin dövrdə çox insanların məlumatsız olduğu bir tarixi hadisəni də xalqa xatırladırdı: **28 May İstiqlal Günü!**

Məlum olduğu kimi, **1918-ci ilin 28 Mayında** baş vermiş bu tarixi hadisə Sovetlər Birliyi dövründə rəsmi olaraq qadağan edilmişdi. Bu günün mahiyyəti, dövlətçilik tariximizdəki yeri və rolu haqqında Azərbaycan insanında bilgilər az idi. Odur ki, belə bir dövrdə AXC Təşəbbüs Mərkəzinin Azərbaycan İstiqlalının 71-ci ildönümü münasibəti ilə xalqımıza təbrik-müraciəti ünvanlamasının böyük əhəmiyyəti var idi.



***Təşəbbüs Mərkəzinin müraciəti***

Qeyd edək ki, AXC-nin Təşəbbüs Mərkəzinin struktur quruluşu belə idi: Məsləhət və Əlaqələndirmə Şuraları. Məsləhət Şurasına aşağıdakılar

daxil idi: İsmayıl Şıxlı (Xalq yazıçısı), Məmməd Araz (Xalq şairi), Yusif Səmədoğlu (yazıçı), Sabir Rüstəmxanlı (şair).

Əlaqələndirmə Şurası Təşəbbüs Mərkəzinin nizamnaməsinə görə üç aydan bir yenidən seçilirdi.

***Qaynaq:***

*Azərbaycan Xalq Cəbhəsi Təşəbbüs Mərkəzinin Bülleteni. №1, 1989.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİ TƏŞƏBBÜS MƏRKƏZİ XALQA MÜRACİƏT EDİR

Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi həmin dövrdə **"Azərbaycan xalqına! Respublikanın bütün vətəndaşlarına" adlı müraciət** qəbul etdi. Həmin müraciətdə yazılırdı ki, beşinci ildir cəmiyyətimizdə inzibati-amirlik sosializminin gətirib çıxardığı iqtisadi və mənəvi fəlakətdən qurtulmaq üçün ölüm-dirim mübarizəsi gedir. Siyasi və iqtisadi azadlıq, hüquqi cəmiyyət və milli suverenlik uğrunda ümumxalq hərəkatı başlayıb.

Müraciətdə Dağlıq Qarabağ hadisələrinin həllində bürokratiyanın acizliyi, milli mənafeləri müdafiə üçün tam gücsüzlüyü, 200 min azərbaycanlının öz yurdlarından didərgin salındığı, Ermənistan hökumətinin təcavüzkar hərəkətlərinə rəsmi etiraz edilmədiyi qeyd olunmuşdu.

Müraciətin sonunda yazılmışdı: "Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi tam məsuliyyətlə bildirir ki, bu vəzifəni öz üzərinə götürməyə hazırdır. Biz xalqımızın taleyi və varlığı üçün yaranmış ciddi təhlükə qarşısında bu günümüz və gələcəyimiz naminə, partiyalılığından, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Yenidənqurma tərəfdarlarını Azərbaycan Xalq Cəbhəsində birləşməyə çağırırıq.

Tarix bizi çətin imtahan qarşısında qoyub. Bu imtahandan ləyaqətlə və üzüağ çıxmaq üçün bir yolumuz var – bütün Azərbaycan vətəndaşlarının birliyi və həmrəyliyi, demokratiya və milli suverenlik!"

**1989-cu ilin mayın 12-də** AXC Təşəbbüs Mərkəzi Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr haqqında bəyanat yaydı.

**Bəyanatda yazılırdı:**

"1. Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi Dağlıq Qarabağın milli-dövlət statusunun dəyişdirilməsi və ya vilayətin Azərbaycan SSR

tərkibindən çıxarılmasını nəzərdə tutan hər cür tələbləri, təklifləri və qərarları qeydsiz-şərtsiz, birdəfəlik və qəti şəkildə rədd edir və bu məsələ barədə heç bir müzakirəni mümkün hesab etmir.

2. Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi Azərbaycan SSR Dağlıq Qarabağ Vilayətində yaşayan erməni millətindən olan Azərbaycan SSR vətəndaşlarının separatçılıq hərəkətlərinin millətləri öz müqəddəratını təyin etməsi prinsipi mövqeyindən qiymətləndirilməsini qəbul etmir...” .

**1989-cu ilin mayın 23-də AXC Təşəbbüs Mərkəzi SSRİ Xalq Deputatları Qurultayına, SSRİ Ali Sovetinə və Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə müraciət ünvanladı.** Müraciətdə qeyd edilirdi ki, AXC Təşəbbüs Mərkəzi öz tərəfdarlarının – Azərbaycan vətəndaşlarının rəyini ifadə edərək, SSRİ Xalq Deputatları Qurultayını cəmiyyətimizin demokratikləşməsi yolunda tarixi mərhələ kimi alqışlayır. Bununla yanaşı AXC Təşəbbüs Mərkəzi Qurultayın diqqətini Azərbaycanda Yenidənqurma üçün qeyri-normal şəraitin saxlanmaqda davam etdiyinə cəlb edərək bildirir ki, bu vəziyyət DQMV-nin erməni əhalisinin separatçılıq hərəkətləri, Ermənistan SSR hökumətinin respublikamızın daxili işlərinə qarışması, Ermənistandan azərbaycanlıların deportasiyası nəticəsində getdikcə daha da dözülməz olub.

Müraciətdə SSRİ Xalq Deputatları Qurultayının və SSRİ Ali Sovetinin Ermənistan SSR hökumətinin Azərbaycan SSR barəsində ərazi iddialarının və suveren respublikanın daxili işlərinə kobud surətdə müdaxiləsinin rəsmi şəkildə pislənilməsi tələb edilirdi. Bundan əlavə, müraciətdə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı müxtəlif komissiyaların yaradılması, ümumxalq hərəkatında, mitinq, nümayiş və tətillərdə iştirakına, həbs edilənlərin buraxılması, respublikanın rayonlarında və onun paytaxtında xüsusi vəziyyət və komendant saatının ləğv edilməsi, AXC Təşəbbüs Mərkəzinin rəsmi qeydiyyatdan keçirilməsi də qeyd olunmuşdu.

Həmin dövrdə Azərbaycan Xalq Cəbhəsinin Müvəqqəti Təşəbbüs Mərkəzi **Moskvada – Lujnikidə mayın 21-də** keçirilmiş mitinq iştirakçılarına da müraciət göndərmişdi. Həmin müraciətdə AXC Təşəbbüs Mərkəzi 17 min fəal üzvü adından Yenidənqurma, demokratiya tərəfdarlarını alqışladığını bildirirdi. Eyni zamanda müraciətdə yazılırdı: “Dağlıq Qarabağ demokratiyanın əzilməsi üsullarının sınaq meydanıdır. Belə sınaq üçün sərhədlərin dəyişilməsi tələbləri yaranır. Belə tələblər iki qonşu xalq arasında nifaq və gərginlik yaradır, mürtəce qanunların qəbul edilməsi

üçün yol açır. Tarixin keşməkeşli yolunda xalqların nə vaxtsa guya malik olduqları imtiyazları və sərhədləri bərpa etmək üçün tələblər irəli sürülməsi həmin xalqların tükənməz ədavəti şəraitində irticanın təntənəsinə inam yaradır. **İrtica tərəfindən qorunan, bəslənən və ömrü uzadılan "Dağlıq Qarabağ problemi" bundan ibarətdir.**

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN TƏSİS KONFRANSI (16 İYUL 1989-CU İL)



*AXC Təsis Konfransının ilk protokolu*

1989-cu ilin iyulun 16-da Ağamalı Sadiq Əfəndinin Bakının 7-ci mikrorayondakı mənzilinin həyətində olan "Xeyir-şər" mərasim evində yarıleqal şəraitdə AXC-nin Təsis Konfransı keçirildi və 15 nəfər İdarə Heyətinə üzv seçildi. Azərbaycan Xalq Cəbhəsinin sədri vəzifəsinə Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun əməkdaşı, tarixçi və şərqşünas **Əbülfəz Əliyev (Elçibəy)** seçildi.

Konfransın gündəliyində aşağıdakı məsələlər müzakirə edildi:**1. AXC Təşəbbüs Mərkəzinin hesabatı. 2. Azərbaycanda siyasi vəziyyət. 3. AXC Təşəbbüs Mərkəzinin mətbuat vasitələri ilə əlaqəsi. 4. AXC məramnaməsinin təsdiqi. 5. AXC nizamnaməsinin təsdiqi. 6. Təşkilat məsələləri.**

Müzakirələrdə Tofiq Qasımov, Əbülfəz Əliyev, Leyla Yunusova, Zərdüşt Əlizadə, Sabit Bağırov, İsa Qəmbərov çıxış etmişlər.

**Təsis Konfransında** əsas siyasi məruzə ilə **Əbülfəz Əliyev** çıxış etdi. Onun çıxışında aşağıdakı fikirlər öz əksini tapırdı: "Silah mafiyasının əsas məqsədi, demokratiyanın inkişafına mane olaraq xalqlar arasında ədavət toxumu səpmək, onları milli müdafiəyə qaldırmaq və altdan silah satmaqdır. Bu mafiyaya hərbçilər və yuxarı təbəqənin nümayəndələri daxildir...

... Azərbaycan Xalq Cəbhəsi xalqı qırğından xilas etmək üçün yaradılır. Xilas yolu Azərbaycanda demokratiyanın inkişafından keçir. Azərbaycanda demokratiyanın inkişafı çox çətinliklərlə qarşılaşır, çünki respublikada rüşvətxor dəstə başqa yerlərdən daha güclüdür. Aparatımız köhnə despot üsulu ilə işləyir. Azərbaycanda çox güclü olan bu despotizm psixologiyasını aradan götürməliyik.

... Son vaxtlar Azərbaycanda işıq ucu görünür. Müxtəlif qüvvələr yaranır. Xalq demokratiyaya hazırdır. Bir-iki ildən sonra müstəqil siyasi partiyalar yaranacaq. AXC xalqı qırğından qurtarmaq üçündür. Bunun üçün: Ziyalıların tam xalq mənafeyindən çıxış etməyə başlaması və xalqla birləşməsi, ziyalıların tələbə gənclərlə birləşməsi lazımdır".

Məruzəçiyə verilən suallar bu məzmunda idi və dövrün ümumi problemlərinə uyğun olaraq ünvanlanmışdı: "Sovet imperiyasının Azərbaycana müdaxiləsi təhlükəsi nə qədərdir?", "Sosialist ölkələrində demokratiyanın inkişafı və milli məsələlərin meydana çıxması haqqında hansı əlaqə vardır?", "Dağıstanda vəziyyət gərgindir. AXC buna hazırdırmı?", "SSRİ-dən ayrılmaq probleminə niyə pis baxılır?", "Əgər Mərkəz idarə edə bilmirsə, respublikalar niyə müstəqil olmasın?" və s.

SSRİ-dən ayrılmaq probleminin həmin vaxt AXC sənədlərində qoyulması məsələsinə münasibətdə Əbülfəz Əliyevin mövqeyi belə idi: "Bizdə demokratik qüvvələr buna hazır deyil. Konfransda dövlət suverenliyi haqqında qətnamə olacaq".

Qeyd edək ki, SSRİ-dən ayrılmaq tələbinin AXC proqramında rəsmən təsbit olunması konfransın gedişində, məramnamə və qətnamələrin müzakirəsi zamanı bir neçə dəfə də qaldırılmışdı.

**Konfrans adından aşağıdakı qətnamələr qəbul edilib:**

**1. Azərbaycan Xalq Cəbhəsinin təsisi haqqında. 2. Azərbaycan SSR-nin dövlət suverenliyi haqqında. 3. Azərbaycan SSR-nin iqtisadiyyatı haqqında. 4. Azərbaycan Demokratik Respublikası haqqında. 5. DQMV-də Xüsusi İdarə forması haqqında. 6. Azərbaycan SSR-nin bəzi yerlərindəki xüsusi vəziyyət haqqında. 7. Siyasi məhbuslar haqqında. 8. Türk xalqlarının müasir dövrdə vəziyyəti və vəzifələri haqqında. 9. SSRİ-də milli münasibətlər haqqında. 10. Ölkədəki ictimai-siyasi vəziyyət haqqında.**

Təsis Konfransının gündəliyinin 3-cü məsələsi mətbuatla əlaqə idi. Bu barədə **Leyla Yunusova** çıxış etdi. Onun çıxışı əslində Təşəbbüs Mərkəzinin fəaliyyəti haqda hesabatın tərkib hissəsi idi. Lakin Təşəbbüs Mərkəzi mətbuat, informasiya məsələlərinin əhəmiyyətini nəzərə alaraq və bu sahədə L. Yunusovanın fəaliyyətinə verilən qiymətin ifadəsi olaraq, ona xüsusi məruzə ilə çıxış etməyi təklif etmiş və məruzə gündəliyə salınmışdı.

**Leyla Yunusovanın çıxışından:** "Mən İngiltərə, Fransa və SSRİ ilə mətbuat vasitəsi ilə əlaqə saxlayıram. Biz dünyanın Azərbaycan haqqında

necə fikirdə olduğunu bilirik. Bütün informasiyalar ermənilərdən alındığına görə obyektiv işıqlandırılmırdı. Litvada 200-dən çox qeyri-formal çap vasitəsi var. Biz mərkəzi mətbuatda DQMV haqqında məlumat verirdik. Lakin bütün məktubları zibil yeşiklərinə atırdılar. Xarici mətbuatla əlaqə zamanı məlum oldu ki, Azərbaycan haqqında heç bir məlumat yoxdur. Demək olar ki, boşluqdur. İndi AXC-nin fəaliyyəti nəticəsində "Ekspress-xronika"da bizdə olan hadisələr (repressiyalar və başqa məsələlər) haqda məlumatlar çap edilir. Moskva ziyalıları "Pravda" qəzetindən çox bu qəzetə inanır. **"Russkiye vedomosti" qəzetində Hikmət Hacızadənin və İsa Qəmbərovun Qarabağın tarixi və baş verən hadisələr haqqında geniş yazıları dərc edilib.** AXC apreldə Bakıda qeyri-formalların beynəlxalq konfransını keçirdi. Ermənilər və Vəzirov buna qəti etiraz edirdi. Moskvada AXC tərəfdarlarının "Çıraq", "Ulduz", "Araz" adlı jurnalları çıxır və orada Ermənistanda öldürülən azərbaycanlıların dəqiq sayı, İsa Qəmbərovun, Zərdüşt Əlizadənin məqalələri çap olunur. "Azadlıq" radiosunun Azərbaycan redaksiyası bizə böyük köməklik göstərir. Onlarla əlaqəni Etibar Məmmədov qurur. Münhendə çıxan "Stranı mir" ("Dünya ölkələri") jurnalının yanvar-fevral nömrələrində ermənilərlə yanaşı Leyla Yunusovanın məqaləsi verilmişdir. İngiltərənin "Qardian" qəzeti müxbirinin AXC Təşəbbüs Mərkəzinin üzvü Zülfüqarovun evində olduğu barədə qəzetlərdə komendantın məlumatını oxumusunuz. Lakin bundan sonra həmin qəzetdə Sumqayıt, Qarabağ hadisələri barədə üç məqalə verildi. İngiltərə jurnalisti Sumqayıtda azərbaycanlıların necə yaşadıqlarını gözü ilə gördü və bunu işıqlandırdı".

Gündəliyin beşinci məsələsi kimi AXC Nizamnaməsi təsdiqə çıxarıldı. Nizamnaməni **Sabit Bağırov** təqdim etdi.

Nizamnamə müzakirəsində **İsa Qəmbərov, Tofiq Qasımov, Zərdüşt Əlizadə, Pənah Hüseynov, Becan Fərzəliyev** çıxış etdilər. Çıxışlarda bu fikirlər səslənirdi: "Maliyyə qrupu seçilsin, redaksiya heyəti seçilsin, Nəzarət Komissiyası ancaq qurultaya tabe olsun, Sədr İdarə Heyətinə daxil olmur və səsvermə hüququ yoxdur. O, AXC-ni təmsil edəcək" (İsa Qəmbərovun çıxışından), "Bizdə monarxizmə meyl güclüdür. Ona görə də sədr vəzifəsi hələlik olmasın (Tofiq Qasımov)", "Bir nəfəri sədr seçib tanımalıyıq. Sədr xalqın layiqli oğullarından biri olmalıdır (Zərdüşt Əlizadə)", "Təklif edirəm ki, sədr seçilsin (Pənah Hüseynov)", "İki təklifim var: 1. Sədr bizə mütləq lazımdır. Onun səsvermə hüququ yoxdur. 2. Qurultaya

qədər üzvlük məsələsi müzakirə edilsin". Əlavə edilsin ki, "AXC-yə qəbul həm fərdi, həm də kollektiv şəkildə olmalıdır" (Etibar Məmmədov), "Sədr İdarə Heyətinə daxil olmalı və səs hüququna malik olmamalıdır" (Becan Fərzəliyev).

Gündəliyin dördüncü məsələsi olaraq məramnamənin təsdiqi müzakirəyə çıxarıldı. Məramnaməni **Z.Əlizadə** təqdim etdi.

Təklif və müzakirələrdə qeyd olundu ki, proqram tərtib edilərkən Pribaltika və dünya xalqlarının təcrübəsi nəzərə alınsa da, Azərbaycan problemlərini əhatə edən proqramdır.

---

***Qaynaq:***
*P.Hüseyn. Varlıq. "Yeni Müsavat" qəzeti, №182, 16 iyul 2009.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN TƏSİSİ HAQQINDA

Azərbaycan Xalq Cəbhəsi (AXC) dayaq qrupları və rayon təşkilatı nümayəndələrinin təsis konfransı Azərbaycan Xalq Cəbhəsinin yaradıldığını elan edir;

Azərbaycan Xalq Cəbhəsinin məramnaməsini və nizamnaməsini qəbul edir; Azərbaycan Xalq Cəbhəsinin I Qurultayının keçirilməsi üçün əməli işlər görülməsini konfransın seçdiyi İdarə Heyətinə həvalə edir.

## AZƏRBAYCAN SSR-NİN DÖVLƏT SUVERENLİYİ HAQQINDA

**İlk olaraq Təşəbbüs Mərkəzinin** hesabatı ilə bağlı məruzəni **Tofiq Qasımov** etdi. Bildirildi ki ki, AXC-nin yaradılmasında əsas məqsəd Yenidənqurma prosesinin həyata keçirilməsini bərqərar etməkdir. AXC Azərbaycan SSR Konstitusiyası çərçivəsində respublikanın milli müstəqilliyinə nail olmaq və hüquqi dövlət qurmaq uğrunda mübarizə aparacaqdır.

Qeyd edilib ki, AXC yaratmaq ideyası 1988-ci ilin yay aylarında meydana gəlib, 40-a qədər qeyri-formal təşkilat iclaslarını keçirib və konfransa nümayəndə göndərib.

Konfransın işində Azərbaycanın 30 rayonundan məşvərətçi səslə 240, səsvermə hüququ ilə 196 nəfər iştirak etmişdir. Konfransda AXC-nin

Mərkəzi Məclisi, İdarə Heyəti, Redaksiya Heyəti, maliyyə və nəzarət komissiyaları, həmçinin AXC-nin sədri seçilmişdir. Konfransın iştirakçıları tərəfindən bir neçə qətnamə qəbul edilmişdir. **AXC-nin sədri vəzifəsinə tarix elmləri namizədi, şərqşünas Əbülfəz Əliyev seçilmişdir.** Konfransda Azərbaycan KP BK-nın (Bakı Şəhər Komitəsi) katibi S.G.Qasımova və başqa rəsmilər iştirak etmişlər.

Konfransın sədri, yazıçı Yusif Səmədoğlu, katibləri Ruhəngiz Hüseynova, Lətifə Məmmədova idi.

### ADR-İN (AXC-NİN) YARANMASI İLƏ BAĞLI QƏTNAMƏ

**Azərbaycan Demokratik Respublikası**(Azərbaycan Xalq Cümhuriyyətinə) münasibət haqqında qətnamədə qeyd edilirdi ki, ADR-in yaranması, Azərbaycan xalqının milli mənliyinin hüquqi və siyasi cəhətdən təsdiqi, Azərbaycan milli hərəkatının qələbəsi, bu hərəkatın siyasi təşkilatı olan **Azərbaycan milli xalq firqəsi - Müsavatın** tarixi xidməti olduğu elan edildi.

Qeyd edək ki, ADR-ə münasibət haqqında qətnamə faktiki olaraq AXC-nin müsavatçılıq ideoloji sisteminə keçdiyini göstərdi. 1991-ci ildə bu, rəsmən AXC Məramnaməsində təsbit edildi.

**Təsis konfransında "Türk xalqlarının müasir dövrdə vəziyyəti və problemləri haqqında" məruzəni İsa Qəmbərov etdi.**

Kərkicahandan Qasım Qırxqızlı, Şuşadan Məmməd Umudvar çıxış etdilər. Qarabağ məsələsinə dair Qətnamənin əsası kimi Təşəbbüs Mərkəzi nəzəri qrupunun hazırladığı **"Qarabağ konsepsiyası"** qəbul edildi.

Təklif əsasında hər bir rayon şöbəsindən bir nəfər olmaqla və AXC Təşəbbüs Mərkəzi tam heyətdə Məclisə seçildi. Məclis üzvləri sayının 75 olduğu qeyd edildi.

**İsa Qəmbərovun təklifi ilə Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğludan və Tağı Xalisbəylidən ibarət tərkibdə Ağsaqqallar Şurası seçildi.** İdarə Heyətinə isə 16 nəfərdən ibarət namizədlərin verilməsi təklif olundu.

**Konfransda "Siyasi vəziyyət haqqında" əsas məruzəni Əbülfəz Elçibəy etdi.** Onun bu mövzudakı məruzəsi siyasi vəziyyət haqqında qətnamə layihəsi üçün əsas qəbul olundu.

**"Azərbaycanda iqtisadi inkişaf haqqında"** olan qətnamə Zərdüşt Əlizadənin müəllifliyi ilə müzakirəyə çıxarılıb qəbul edildi.

AXC-nin təsis olunması haqqında Azərbaycan Xalq Cəbhəsi dayaq qrupları və rayon təşkilatları nümayəndələrinin təsis konfransı Azərbaycan Xalq Cəbhəsinin yaradıldığını elan edir" fikrindən ibarət olan qətnaməni də **Zərdüşt Əlizadə** oxudu.

Konfransda 5 nəfərdən ibarət tərkibdə Nəzarət Təftiş Komissiyası seçildi, 3 nəfərdən ibarət isə maliyyə qrupu seçildi.

**Baş redaktor Nəcəf Nəcəfov olmaqla Ağamalı Sadiq Əfəndi, Səfər Alışarlı, Xaliq Hacıyev, Əhməd Cavadov, Tariyel Allahverdiyevdən ibarət AXC mətbuat orqanlarının redaksiya heyəti seçildi.**

Gündəliyə uyğun olaraq AXC-yə sədr seçkiləri keçirildi.Birinci təklifi Zərdüşt Əlizadə irəli sürdü: "Gürcüstanda Xalq Cəbhəsi ilə ağır şəraitdə keçən görüş göstərdi ki, bizə **Yusif Səmədoğlunun sədr seçilməsi** lazımdır".Rəhim Qazıyevin təklifi: "**Əbülfəz Əliyevin namizədliyini** təklif edirəm".Səfər Alışarlı: "**İsa Qəmbərovu ağıllı, hörmətli bir yoldaş kimi** tanıdığımız üçün, onun namizədliyini təklif edirəm".İsa Qəmbərov öz namizədliyini geri götürdü.Qızğın mübahisələr oldu və buna görə də Yusif Səmədoğlu öz namizədliyini geri götürdü. **Açıq səsvermədə Əbülfəz Əliyevin əleyhinə 9 nəfər, lehinə isə əksəriyyət səs verdi.**

Qeyd edək ki, Konfransa qədər və Konfransda ən ciddi diskussiya predmeti olan **Azərbaycanın suverenliyi haqqında qətnamə** layihəsini Pənah Hüseynov təqdim etdi. Həmin qətnamə o dövrdə Azərbaycanın dövlət müstəqilliyi və suverenliyi məsələsinə münasibətdə fərqli mövqelərin kompromisi olaraq hazırlanmışdı. Lakin bu, AXC-nin milli-demokratik platformaya əsaslanan təşkilat kimi yaranmasını şərtləndirirdi.

Qətnamədə aşağıdakı tezislər irəli sürülürdü:

"- Milli respublikalarda, o cümlədən Azərbaycanda sosial və iqtisadi tərəqqi, demokratiya və aşkarlıq uğrunda aparılan mübarizə milli hərəkat forması alaraq, milli suverenlik uğrunda mübarizə ilə sıx surətdə bağlıdır. Milli varlığın, milli mənlik şüurunun məntiqi nəticəsi olaraq milli suverenlik tələbi irəli sürülür;

- Müstəqil suveren dövlətə malik olmaq hər bir millətin tərəqqisi üçün ən əlverişli şərait yaradır, demokratik prosesləri, onun sosial və iqtisadi inkişafının optimal variantını təmin edir;

- Azərbaycanda demokratik respublika quruluşu sovet sosialist quru-

luşu ilə əvəzləndikdən sonra onun suverenliyi ləğv edilib və indiyə qədər bərpa olunmayıb;

- Azərbaycan SSR-nin dövlət hüquqlarının qaytarılıb onun suveren statusunun bərpa olunması AXC-nin proqram məqsədini təşkil edir;

- AXC SSRİ tərkibində qalmaqla respublikanın suverenliyinə nail olmaq perspektivini yalnız inqilabi yenidənqurma proseslərinin davam etməsi şəraitində mümkün hesab edir. Yenidənqurma baş tutacağı halda Azərbaycanın tam dövlət suverenliyi uğrunda mübarizəyə başlayacaqdır".

Qətnamə ətrafında müzakirələr aparıldı. Qətnamə əleyhinə 5 nəfər olmaqla, sonradan üzərində hüquqşünaslar işləmək nəzərə alınmaqla qəbul edildi. Qətnamə haqqında müzakirələrdə Naxçıvandan olan Sərdar Əkbərov "Azərbaycan Respublikasının SSRİ tərkibində qalması barədə maddə çıxarılsın" təklifini irəli sürmüşdü. Qətnamə səsə qoyulub qəbul edildikdən sonra ADR haqqında qətnamə müzakirə edildikdə, Etibar Məmmədov yenidən tam suverenlik məsələsini qaldırdı. Sonra çıxış edən Əbülfəz Elçibəy dedi: "Biz ilk şərt kimi indiki mərhələdə Azərbaycanın SSRİ tərkibindən çıxması məsələsini qoya bilmərik".

Bu məsələnin müzakirəsində aşağıdakı məqamlar əsas götürüldü: "Son dövrün hadisələri göstərir ki, milli respublikalarda, o cümlədən Azərbaycanda sosial və iqtisadi tərəqqi, demokratiya və aşkarlıq uğrunda aparılan mübarizə milli hərəkat forması olaraq milli suverenlik uğrunda mübarizə ilə sıx surətdə bağlıdır. Milli varlığın, milli mənlik şüurunun məntiqi nəticəsi olaraq milli suverenlik tələbi irəli sürülür. Bu anlayış hazırda cəmiyyətin müxtəlif kateqoriyaları və təbəqələri tərəfindən müxtəlif cür başa düşülüb şərh olunur.

AXC yaranmış vəziyyətdə Azərbaycan SSR-nin suverenliyi barədə öz baxışlarını şərh etməyi lazım bilir: AXC Azərbaycan xalqına deməyi zəruri sayır ki, Azərbaycanda Demokratik Respublika quruluşu sovet sosialist quruluşu ilə əvəz edildikdən sonra onun suverenliyi böyük dövlətçilik siyasəti nəticəsində ləğv edilmiş və indiyə qədər bərpa olunmamışdır... Azərbaycan SSR-nin dövlət statusu bu tələblərə cavab vermədiyi üçün o, suveren dövlət sayıla bilməz..."

Sənədin sonunda AXC-nin mövqeyi belə yazılırdı: "AXC SSRİ tərkibində qalmaqla, respublikanın suverenliyinə nail olmaq perspektivini yalnız inqilabi yenidənqurma proseslərinin davam etməsi şəraitində mümkün

hesab edir. AXC SSRİ-nin federativ sisteminin təkmilləşdirilməsini zəruri hesab edir.

**Yenidənqurma baş tutmayacağı halda, AXC Azərbaycanın tam dövlət suverenliyi uğrunda mübarizəyə başlayacaqdır".**

---

***Qaynaq:***
*1. Azərbaycan Xalq Cəbhəsinin Bülleteni. 1989, N3.*
*2. P.Hüseyn. Varlıq. "Yeni Müsavat qəzeti, №183, 17 iyul, 2009.*

## AXC İDARƏ HEYƏTİNİN İLK ÜZVLƏRİ

1. Əbülfəz Elçibəy – Azərbaycan Xalq Cəbhəsinin sədri 2; Tofiq Qasımov; 3. İsa Qəmbərov; 4. Pənah Hüseynov; 5. Sabit Bağırov; 6. Hikmət Hacızadə; 7. Leyla Yunusova; 8. Zərdüşt Əlizadə; 9. Sülhəddin Əkbərov; 10. Əlikram Hümbətov; 11. Rəhim Qazıyev; 12. Etibar Məmmədov; 13. Nəcəf Nəcəfov; 14. Nemət Pənahov: 15. Yusif Səmədoğlu; 16. Canbaxış Umudov.

***Qeyd:*** *AXC-nin Təsis Konfransında nizamnaməyə uyğun olaraq Əbülfəz Elçibəy sədr seçildikdən sonra İdarə Heyəti tərkibindən çıxdı. Belə olduqda Oktyabr rayon şöbəsinin nümayəndə heyəti Rəhim Qazıyevin namizədliyini irəli sürdü və təklif verdi. Rəhim Qazıyev barədə təklifin yekdilliklə keçməsində əvvəlcədən sədrin İdarə Heyətindən çıxmasının məlum olması əhəmiyyətli rol oynadı. Beləliklə, sədr (Əbülfəz Elçibəy) istisna olmaqla, İdarə Heyəti üzvlərinin sayı 15 nəfər oldu.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN QEYDƏ ALINMASI

Azərbaycan SSR Nazirlər Sovetinin Azərbaycan Xalq Cəbhəsi haqqında **404 nömrəli qərarı**

Bakı şəhəri, **5 oktyabr, 1989-cu il.**

Azərbaycan SSR Nazirlər Soveti qərara alır:

"1. Azərbaycan MİK (Mərkəzi İcraiyyə Komitəsi) və Azərbaycan XKS-nin 26 may 1932-ci il tarixli 675 nömrəli qərarı ilə təsdiq olunmuş



АЗӘРБАЈЧАН ССР
Назирләр Совети
Совет Министров
АЗЕРБАЙДЖАНСКОЙ ССР

ГӘРАР
ПОСТАНОВЛЕНИЕ № 404

„5“ октября 1989 ил Бакы г. Баку

О Народном фронте Азербайджана

Совет Министров Азербайджанской ССР постановляет:

I. На основании Положения о добровольных обществах и союзах, утвержденного постановлением Аз.ЦИКа и СНК АССР от 26 мая 1932 г. № 675, удовлетворить обращение Народного фронта Азербайджана (НФА) о его регистрации как общественного формирования.

2. Согласиться с проектом Устава НФА, утвержденного учредительной конференцией НФА 16 июля 1989г., приняв к сведению, что при его принятии на съезде будут учтены замечания и рекомендации, высказанные Советом Министров Азербайджанской ССР по этому проекту.

3. Утвердить текст соглашения между Советом Министров Азербайджанской ССР и учредителями НФА (прилагается).

Председатель Совета Министров Азербайджанской ССР — А.Муталибов

Управляющий Делами Совета Министров Азербайджанской ССР — М.Назаров

***AXC-nin tanınması qərarı***

könüllü cəmiyyətlər və ittifaqlar haqqında Qaydaya əsasən Azərbaycan Xalq Cəbhəsinin (AXC) bir ictimai təşkilat kimi qeydə alınmaq üçün müraciəti təmin edilsin.

2. Azərbaycan Xalq Cəbhəsinin 16 iyul 1989-cu il tarixli təsis konfransında qəbul edilmiş nizamnamə layihəsi ilə o şərtlə razılaşılsın ki, o, qurultayda qəbul edilərkən Azərbaycan SSR Nazirlər Sovetinin qeyd və məsləhətləri də nəzərə alınacaq.

3. Azərbaycan SSR Nazirlər Soveti və AXC təsisçilərinin razılaşdığı məsələlərin mətni təsdiq edilsin (mətn əlavə olunur).

*Azərbaycan SSR Nazirlər Sovetinin sədri — A. Mütəllibov*
*Azərbaycan SSR Nazirlər Sovetinin İşlər Müdiri — M. Nəzərov”*

**AZƏRBAYCAN KP MK RƏHBƏRLİYİ İLƏ AXC ÜZVLƏRİNİN BİRGƏ İCLASININ PROTOKOLU (5 OKTYABR 1989-CU İL)**

İclasın gedişində aşağıdakı məsələlər razılaşdırılmışdı:

“1. Azərbaycan SSR Nazirlər Soveti AXC nümayəndələrinin AXC-nin qeydiyyata alınması barədə müraciətini təmin etdi.

2. 6 oktyabr 1989-cu ildən dəmir yolunda blokadanın götürülməsi və 8 oktyabr 1989-cu ildən saat 22:00-dan bütün növ yüklərin daşınmasının təmin edilməsi haqqında qərar qəbul edildi.

3. 9 oktyabr 1989-cu ilə qədər Bakı şəhərində komendant saatı ləğv edilir.

4. Azərbaycan SSR Ali Sovetinin hüquq şöbəsində Sovet hakimiyyəti dövründə Azərbaycanın ərazisinin dəyişdirilməsi məsələsinin öyrənilməsi ilə əlaqədar, ictimaiyyətin iştirakı ilə komissiya yaradılır.

5. Mehri və Barxudarlı - İcevan magistralında hərəkətin təhlükəsizliyinin təmin edilməsi barədə tədbirlər görülsün.

***V. P. Polyaniçko R. Ə. Əliyev Əbülfəz Elçibəy”***

---

***Qaynaq:***
*“Meydan” qəzeti, oktyabr, 1989-cu il.*

## AXC-NİN PROQRAMI

1989-cu ilin iyul ayının 16-da keçirilən Azərbaycan Xalq Cəbhəsinin Təsis Konfransında təşkilatın proqram və nizamnaməsi qəbul edildi. Təşkilatın proqramı 9 bölmədən ibarət idi: 1) Ümumi prinsiplər. 2) AXC-nin siyasi vəzifələri. 3) AXC-nin əsas fəaliyyət formaları. 4) İqtisadiyyat. 5) Sosial ədalət. 6) İnsan hüquqları. 7) Milli münasibətlər. 8) Mədəniyyət və təhsil. 9) Ekologiya.

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN PROQRAMI

*"El gücü – sel gücü"*

Bir insan ömrü ərzində üçüncü dəfədir ki, cəmiyyətimizi inzibati-amirlik sisteminin boyunduruğundan xilas etmək üçün partiyanın sağlam qüvvələri yenilik hərəkatına başlayır. İki dəfə mühafizəkarlar üstün gəlib ölkəmizi indiki acınacaqlı vəziyyətə salıblar. Dünyanın ən varlı ölkəsinin vətəndaşlarının kasıb yaşaması quruluşumuza ar gətirir, onun sonsuz imkanlarına şübhə oyadır. Xalqımız bu ləkəni yumaq üçün yenidənqurmanın əsas yükünü və məsuliyyətini öz üzərinə götürərək partiya daxilindəki sağlam qüvvələrlə birlikdə köklü islahatların vaxtında, ardıcıl və qətiyyətlə keçirilməsini təmin etmək üçün vahid cəbhə yaradır. Yenidənqurma hərəkatı xalq naminə başlandığı üçün yalnız xalqın gücü ilə bu yolda müvəffəqiyyət qazanmaq olar.

Keçmiş məğlubiyyətlərin acısı və qarşıda duran çətinliklərin ağırlığı bizi əzmimizdən saqındırmır. Bu çətinliklər xalqımıza azad vətəndaşların Azərbaycanda ədalətli cəmiyyətini qurmaq üçün tarixin yaratdığı daha bir imkandan istifadə etməyə mane ola bilməyəcək.

### 1. ÜMUMI PRİNSİPLƏR

1.1. **Azərbaycan Xalq Cəbhəsi (AXC)** respublika əhalisinin yenidənqurma və ölkənin həyatının demokratikləşdirilməsi uğrunda mübarizə aparan ictimai təşkilatıdır.

1.2.Cəmiyyətin bütün sağlam qüvvələrini yenidənqurma prosesinin dönməzliyinin təşkili üçün səfərbər etmək, Azərbaycanın sosial, siyasi və iqtisa-

di həyatının bütün normalarının və təcrübəsinin respublikanın əsas qanunu olan Azərbaycan SSR Konstitusiyasının məzmununa və ruhuna uyğun şəkildə dəyişdirmək AXC-nin əsas məqsədidir. AXC-nin son məqsədi **hüquqi dövlətin** və **vətəndaş cəmiyyətinin** yaradılması, tam hüquqlu vətəndaşın təşəkkülüdür. AXC-nin əsas məqsədləri, qarşıya qoyduğu məsələlər və siyasi fəaliyyətinin əsasları onun Nizamnaməsində təsbit edilmişdir.

1.3. AXC qanunda yol verilən ictimai-siyasi mübarizə formalarından istifadə edir, SSRİ-nin, Azərbaycan SSR-nin mövcud konstitusiyalarına əsaslanır və onların demokratikcəsinə daha da təkmilləşdirilməsi uğrunda mübarizə aparır.

1.4.**AXC zorakılığı siyasi mübarizə forması və məqsədəçatma üsulu kimi qətiyyətlə pisləyir, ümumbəşər sərvətləri olan humanizmə, sosial ədalətə, demokratiyaya, rəy azadlığına, beynəlmiləlçiliyə və insan hüquqlarına əsaslanır.**

1.5. AXC-də iştirak ictimai, partiya, milli və dini mənsubiyyətlə məhdudlaşdırılmır. AXC-də iştirak etmək üçün onun demokratik prinsiplərinə əməli yardım göstərmək, məqsəd və vəzifələrini tanımaq tələb olunur.

## 2. AXC-NİN SİYASİ VƏZİFƏLƏRİ

2.1. AXC-nin siyasi fəaliyyətinin əsas məqsədi SSRİ tərkibində Azərbaycan SSR-nin siyasi, iqtisadi və mədəni suverenliyinə nail olmaq, onu hüquqi dövlətə çevirməkdir. Azərbaycan SSR suveren dövlət kimi beynəlxalq təşkilatlarda da təmsil edilməlidir (BMT, YUNESKO və b.).

2.2.Mövcud siyasi sistem çərçivəsində respublikanın suverenliyini gerçəkləşdirmək üçün AXC SSRİ qanunçuluğuna və idarə quruluşu prinsiplərinə yenidən baxılmasına nail olmağı bir məqsəd kimi qarşısına qoyur.

2.3. AXC qanunverici, icraedici və məhkəmə hakimiyyətinin ayrılmasını zəruri hesab edir.

## 3. AXC-NİN ƏSAS FƏALİYYƏT FORMALARI

3.1. Azərbaycan SSR-ni hüquqi dövlətə çevirmək məqsədi ilə yerli Sovetlərdən tutmuş SSRİ Ali Sovetinədək bütün Sovetlərə namizədlərin (o cümlədən AXC-nin özü tərəfindən) azad irəli sürülməsi, bütün namizədlər üçün ən geniş seçki kampaniyası aparılması.

3.2. Seçkilərin keçirilməsinə və səslərin hesablanmasına ictimai nəzarətin təşkili.

3.3. Dövlət hakimiyyəti: qanunverici, icraedici və məhkəmə orqanlarının fəaliyyəti üzərində ictimai nəzarətin təşkili.

3.4. Həm dövlət və həm də özünün informasiya vasitələrindən istifadə edərək xalqın xəbərdarlığının artmasına çalışmaq.

3.5. Dövlət əhəmiyyətli qanun layihələrinin ümumxalq müzakirəsinin təşkili, qanunverici və icraedici orqanlara təkliflərin verilməsi.

3.6. İctimai rəyin öyrənilib xalqa çatdırılması, iqtisadi, siyasi, sosial və mədəni sahələrdəki mühüm proqram və layihələrin müstəqil elmi ekspertiza tərəfindən qiymətləndirilməsinin təşkili.

3.7. Mitinqlərin, kütləvi çıxışların və digər tədbirlərin təşkili.

## 4. İQTISADİYYAT

Respublika iqtisadiyyatının inkişafı bütünlüklə xalqın rifahının yüksəldilməsinə və insanların tam və səmərəli şəkildə işlə təmin edilməsinə yönəldilməlidir. AXC-nin son məqsədi olan **hüquqi dövlətə** və inkişaf etmiş **vətəndaş cəmiyyətinə** çatmaq üçün əsas şərt iqtisadiyyatın çiçəklənməsi, cəmiyyətin və vətəndaşın iqtisadi müstəqilliyidir. İqtisadiyyatı demokratikləşdirmək və təbiəti qoruyan texnologiyaları tətbiq etmək üçün respublikanın sərvətlərini amansızcasına istismar edən nazirliklərin hökmranlığına son qoyulmalıdır.

4.1. Azərbaycan SSR-nin ərazisində yerləşmiş bütün müəssisə, təşkilat və idarələr respublika Ali Sovetinin tabeliyinə keçirilməli, Azərbaycanın Ali Sovetinin torpaq, meşə, sular, mineral xammal və digər təbii sərvətlər üzərində tam iqtisadi suverenliyi bərpa edilməlidir.

## 5. SOSİAL ƏDALƏT

5.1. AXC ictimai ədaləti sosializmin əsas prinsipi olan "hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" şüarının sözsüz həyata keçirilməsində görür. Belə olan tərzdə hər kəsin istədiyi sahədə iqtisadi fəaliyyət göstərmək hüququ təmin edilmişdir.

## 6. İNSAN HÜQUQLARI

Cəmiyyətimiz öz vətəndaşlarının iqtisadi və sosial hüquqlarını qorumağa böyük səy göstərmişdir. Lakin vətəndaşların dövlət qanunlarında elan edilmiş siyasi hüquqlarının və azadlıqlarının təmin edilməsi arxa cərgəyə keçmişdi. Əslində xalq dövlətin idarəsində iştirak etmək imkanından

məhrum olmuşdu. Bu, bizim siyasi sistemin humanizmdən uzaqlaşmasına və iqtisadiyyatımızın dərin böhranına gətirib çıxarmışdır. Belə şəraitdə vətəndaşların iqtisadi və sosial hüquqları da artıq qorunmur. Aydın olmuşdur ki, siyasi azadlıqlar və iqtisadi nailiyyətlər üzvi vəhdət təşkil edir və buna görə də cəmiyyətimizin ən əsas vəzifəsi vətəndaşların bütün hüquq və azadlıqlarının genişləndirilməsi və təmin edilməsidir.

6.1. AXC insan azadlığını ən qiymətli və ən yüksək ümumbəşəri sərvət hesab edir. Cəmiyyətimizin siyasi-hüquqi quruluşu şəxsiyyətin azadlığını və vətəndaşlıq hüquqlarını təmin etməlidir.

**7. MİLLİ MÜNASİBƏTLƏR**

7.1. AXC öz fəaliyyətində xalqların bərabərlik, öz müqəddəratını azad təyinetmə, suverenlik və milli ehtiyacların ödənilməsi prinsiplərinə sadiqdir. Azərbaycan xalqı çoxluq təşkil etdiyi üçün respublikada milli münasibətlərin vəziyyəti üçün məsuldur. AXC Azərbaycan SSR-də yaşayan rus, yəhudi, talış, erməni, gürcü, kürd, ləzgi və digər milli azlıqların mədəniyyətinin, dilinin və milli ənənələrinin qorunması və inkişaf etdirilməsi üçün hər cür şəraitin təmin olunmasını özünə vəzifə sayır.

**8. MƏDƏNİYYƏT VƏ TƏHSİL**

8.1 AXC, bütün ictimai təbəqələr və etnik qrupların mədəni özünüifadəsi və təkmilləşməsi üçün bərabər imkan yaradılmasını müasir dövrdə ictimai həyatın inkişaf və yeniləşməsinin əsas şərtlərindən biri hesab edir. AXC mədəniyyətin inkişafının zəruri şərtini respublikada müstəqil regional mədəniyyət siyasətinin aparılmasında görür.

**9. EKOLOGİYA**

Azərbaycanın barlı-bəhərli torpağı vəhşicəsinə istismar nəticəsində səxavətini itirmiş, vaxtilə ərazimizi örtən meşələr nadanlar tərəfindən qırılmış, laqeyd bürokratların ağalığı təbiətimizin nizamını pozub indiki və gələcək nəsillərin sağlamlığını və həyatını təhlükə altına almışdır. Heç bir ağıllı insan öz evini viran etmir. Təbiətimizin korlanmasının əsas səbəbi ondadır ki, Vətənimizi xalqımızdan təcrid edib, bizim yiyəlik hissimizi öldürüblər. Xalq Cəbhəsi təbiətimizin qorunması üçün ilk şərti xalqda bu torpağa yiyəlik hissini oyatmaqda və ona bu yiyəliyi həyata keçirməyə imkan yaratmaqda görür.

9.1. AXC təbiətin qorunması sahəsindəki mövcud qanun və normaların yerinə yetirilməsi və bu qanunların tələblərinin sərtləşdirilməsi naminə çalışır.

***Qaynaq:***
*Azərbaycan Xalq Cəbhəsinin proqram və nizamnaməsi. "Azadlıq" qəzeti, №1, 24 dekabr, 1989-cu il.*

***Qeyd:*** *Proqram ixtisarla çap olunub.*

## AXC MƏCLİSİ I SESSİYASININ PROTOKOLU
***28-29 oktyabr 1989-cu il, BAKI şəhəri***

Azərbaycan Xalq Cəbhəsi təşkilatının fəaliyyəti tarixində AXC Məclisi I sessiyasının çox önəmi vardır. 1989-cu ilin iyulun 16-da yarandıqdan sonra bu sessiyanın keçirilməsi çox vacib idi. Məhz həmin sessiyada təşkilatdaxili problemlər, münasibətlər aydınlaşdırıldı, İdarə Heyətinin səlahiyyətlərinə, ayrı-ayrı şəxslərin fəaliyyətlərinə toxunuldu.

Oktyabrın 28-29-da Bakı şəhərində keçirilən sessiyanın protokolundan məlum olur ki, AXC-nin səsvermə hüququna malik məclis iştirakçılarının sayı 106, iştirak edənlərin sayı isə 92 nəfərdir. **Sessiyaya sədrlik edən Rəhim Qazıyev, katiblər Səfər Alışarlı, Mirbaba Babayevdir.**

Məclis üzvlərinin təklifləri əsasında müəyyənləşdirilən gündəlik:

1. Məclis haqqında. Məclisin tərkibi, funksiyaları, vəzifələri. Təşkilati məsələ və AXC qərargahında vəziyyət. 2. AXC İdarə Heyətinin ayrı-ayrı üzvlərinin məlumatı və İdarə Heyəti daxilində vəziyyət haqqında. 3. AXC-nin I Qurultayına hazırlıq.4. Azərbaycan SSR Ali və yerli sovetlərinə seçkilərə hazırlıq.

Sessiyanın birinci günü (oktyabrın 28-də) müzakirəyə səbəb olan məsələlərdən biri məclisin nə üçün çağırılması idi. Qeyd edildi ki, məclisin çağırılışı oktyabrın 22-də olmalı idi, lakin hamının bir yerə toplaşması mümkün olmadı. Həmin vaxt 30-dan çox məclis üzvünün çağırılması haqqında elan da verilmişdi.

Müzakirələrdə AXC Məclisi üzvlərinə vəsiqələrin verilməsi, səlahiyyət və məsuliyyət məsələlərinin, eləcə də İdarə Heyətinin hansı üzvünün şəxsiyyəti şübhə doğurursa, bunun təhlil edilib nəticə çıxarılmasına da diqqət yetirildi.

Müzakirələrdə Zərdüşt Əlizadə, Oruc Şirinov, Əmrulla Məmmədov, Daşqın Ağalarov, Vurğun Əyyubov, Fəxrəddin Ağayev, Becan Fərzəliyev, Emin Əhmədov, Leyla Yunusova, Vaqif Səmədoğlu, Cabbar Cəlilov, Mirbaba Babayev, Səfər Alışarlı, Fəzail Ağamalıyev, Xaqani İsmayılov, Mehdi Məmmədov, Xudadat Xudiyev, Sabit Bağırov, İsa Qəmbərov, Nemət Pənahov, Əbülfəz Əliyev, Ramiz Tağıyev, Yusif Salmanov, Təhmasib Novruzov, Şəmsəddin Ümidov, Canbaxış Umudov, Fərəməz Allahverdiyev, Tofiq Qasımov çıxış etdilər.

AXC-nin I qurultayına hazırlıq məsələsi ilə əlaqədar məruzə xarakterli çıxışı AXC İdarə Heyətinin üzvü Pənah Hüseynov etmişdi. **Qurultaya hazırlıq komissiyasına sədr Əbülfəz Əliyev seçilmişdi.**

DQMV-də vəziyyətin normallaşdırılmasının plan-layihəsi haqqında məruzə ilə AXC İdarə Heyətinin üzvü Tofiq Qasımov çıxış etmişdi. Layihə bütövlükdə Məclis tərəfindən bəyənilmiş və onun son redaktəsi AXC İdarə Heyətinin üzvləri Etibar Məmmədova, Hikmət Hacızadəyə, Sabit Bağırova və Məclis üzvü Qurban Məmmədova tapşırıldı. Respublikada baş verən son təqiblər haqqında qətnamə layihəsini AXC İdarə Heyətinin üzvü İsa Qəmbərov oxudu. Qətnamə layihəsi yekdilliklə qəbul edilir və onun kütləvi şəkildə əhali arasında yayılması AXC Redaksiyası Heyətinə tapşırılır. Respublika gənclərinin Sovet Ordusu sıralarına çağırılşı məsələsi haqqında AXC İdarə Heyətinin üzvü Etibar Məmmədov çıxış etmişdi. Bu məsələ ilə əlaqədar sənədin hazırlanması və onun Respublika Ali Sovetinə təqdim olunması AXC İdarə Heyətinin üzvü Etibar Məmmədova tapşırılmışdı.

Sessiyada İsa Qəmbərov yekun sözü söyləmişdi.

---

***Qaynaq:***

*AXC Məclisi I Sessiyasının protokolu. 28-29 oktyabr 1989-cu il. Bakı şəhəri. Bakı – 1990.*

## AXC-NİN II KONFRANSI
### *(dekabr 1989-cu il, İdarə Heyəti buraxılır)*

Azərbaycan Xalq Cəbhəsinin idarəçiliyində ilk ciddi problem 1989-cu ilin dekabrında yaşandı. 1989-cu ilin 10 dekabrında Azərbaycan Dövlət Dram Teatrının binasında AXC-nin II konfransı keçirildi. Fövqəladə çağırılmış konfransın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdi: 1) AXC-nin sədrinə etimad məsələsi; 2) Nizamnamənin təkmilləşməsi üçün

komissiya seçilməsi; 3) Respublikada pambıq işi ilə əlaqədar tutulmuş şəxslərin bağışlanması haqda Az.SSR Ali Sovetinə vəsadət qaldırılması; 4) DQMV-də yaranmış vəziyyətin müzakirəsi və s. (ümumilikdə 6 məsələ).

Birinci məsələ ilə bağlı qeyd olundu ki, yaranmış ziddiyyətli vəziyyətə görə İdarə Heyətinin fəaliyyəti dondurulur, yeni İdarə Heyəti seçilənə qədər bütün səlahiyyətlər AXC sədrinə verilir. E.Məmmədov, R.Qazıyev, S.Əkbərov İdarə Heyətindən istefa verdiklərini bildirsələr də, P.Hüseynov, T.Qasımov istefa ilə razılaşmadıqlarını söylədilər.Eyni zamanda İdarə Heyəti səlahiyyətində olan 5 (bəzi mənbələrdə 7) nəfərdən ibarət müvəqqəti təşkilati qrup (bunu rəyasət heyəti də yazırlar-red)yaradıldı.

Təşkilati məsələni isə iki həftə sonra keçiriləcək konfransda müzakirə etməyi qərara aldılar.

---

***Qaynaq:***
*"Yurdum" Xəbərlər Bülleteni, dekabr, 1989, №1.*

## AXC-NİN III KONFRANSI
***(6-7 yanvar 1990-cı il)***

**1990-cı ilin yanvarın 6-7-də** Respublika Elmlər Akademiyasının dairəvi zalında Azərbaycan Xalq Cəbhəsinin qurultay səlahiyyətli III konfransı keçirilib.

Konfrans AXC qarşısında duran bir sıra məsələləri müzakirə edib. Respublikada və AXC-də vəziyyətin müzakirəsi bir gündən artıq çəkib. Müzakirələr gərgin, eyni zamanda işgüzar mübahisələr, ən müxtəlif rəylərin toqquşması şəraitində davam edib.

Konfrans AXC nizamnaməsinə əlavələr və dəyişikliklər etdi.

Yanvarın 8-də məclisin toplantısı oldu. AXC-nin yeni İdarə Heyətinin seçilməsinə baxıldı. 40 namizəddən yarıdan çox səs toplayan 14 nəfər İdarə Heyətinə üzv seçildi. İdarə Heyətinə aşağıdakılar seçildi: **Sabit Bağırov, Rəhim Qazıyev, Tofiq Qasımov, İsa Qəmbərov, Vurğun Əyyubov, Kərbəlayı Əlikram Əliyev, Dilarə Əliyeva, Etibar Məmmədov, Arif Paşayev, Sabir Rüstəmxanlı, Yusif Səmədoğlu, Firidun Səməndərov, Hikmət Hacızadə, Pənah Hüseynov.**

Konfrans Azərbaycan xalqına müraciət qəbul etdi.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, 14 yanvar 1990-cı il, N2 (4).*

**MİLLİ MÜDAFİƏ ŞURASI**
***(Etibar Məmmədovun 13 yanvar 1990-cı ildə Azadlıq meydanındakı çıxışı)***

AXC liderlərindən olan **Etibar Məmmədov 1990-cı il 13 yanvardakı mitinqdə** çıxış edərək, **Milli Müdafiə Şurasının** yaranması haqqında bu məlumatı verdi: "Respublikamızın milli mənliyini qorumaq üçün artıq bütün siyasi vasitələrdən istifadə edilmişdir. İndi artıq həmin vasitələrdən tamamilə istifadə olunduğu üçün və bundan bir nəticə əldə edilmədiyi üçün Milli Müdafiə Şurasının yaranması zərurəti ortaya çıxmışdır.

Bu təşkilat siyasi təşkilat deyil. Bu, Azərbaycanın, bir daha təkrar edirəm, ərazi bütövlüyünü, milli mənliyini qorumaq üçün fövqəladə vəziyyətdə yaradılmış **Hərbi Şuradır.** Bu Şuranın işində dövlət aparatı da, ictimai təşkilatlar da, nazirliklər də, Azərbaycanın bütün vətənpərvər qüvvələri də iştirak etməlidirlər. Məhz bunun əsas vəzifəsi, Azərbaycanda indi fövqəladə vəziyyətin olduğunu elan etmək və bu fövqəladə vəziyyətdən çıxış edərək, Azərbaycanın müdafiəsini təşkil etməkdir".

---

***Qaynaq:***

*1. Azərbaycan Xalq Cəbhəsi Məclisinin Fövqəladə Sessiyasının Bülleteni, №1. Ağdaş, 5 fevral, 1990.*

*2. M.Zülfüqarlı. İstiqlal tarixini yaradanlar. (1972-1992-ci illər). Bakı, 2003.*

**AZƏRBAYCAN XALQ CƏBHƏSİ MƏCLİSİNİN FÖVQƏLADƏ SESSİYASI** ***(5 fevral 1990-cı il, Ağdaş)***

1990-ci ilin 20 yanvar hadisələrindən sonra AXC-də vəziyyəti aydınlaşdırmaq, yaranmış şəraitə siyasi qiymət vermək, əlaqələri bərpa etmək, fəaliyyət taktikasını müəyyənləşdirmək zərurəti meydana çıxmışdı. AXC İdarə Heyəti 26 yanvar 1990-cı il tarixdə məclis üzvlərindən bir neçə nəfərin də iştirak etdiyi növbəti iclasında fevral ayının 10-da Ağdaş şəhərində məclisin sessiyasını keçirmək haqqında qərar qəbul etmişdi. Məclis üzvlərindən təşkil olunmuş Təşəbbüs Qrupu (F.Ağamalıyev, Q.Məmmədov,-Çingiz F.) sonradan məclisin sessiyasının fevralın 5-nə keçirilməsini təklif etmiş və bunu İdarə Heyəti ilə razılaşdırmışdılar.

**Ağdaş sessiyasında 48 rayon nümayəndəsi** (həlledici səslə 43) iştirak etmişdi. Məclis AXC-də fövqəladə vəziyyət elan edərək, İdarə Heyətinə məclisin növbəti sessiyasına qədər fövqəladə səlahiyyət vermiş, 20 Yanvar hadisələrində və Milli Müdafiə Şurasında AXC-nin rolunu öyrənmək üçün xüsusi komissiya yaratmış, məclisin işini qurmaq üçün 3 ay müddətinə katiblik seçmişdi.

Məclisə sədrliyi **Qurban Məmmədov** etdi. Məclisin Ağdaş sessiyası AXC-nin təşkilat kimi qorunub saxlandığını, siyasi fəaliyyətə qüvvə olduğunu sübut etdi.

Sessiyanın işində AXC İdarə Heyətinin üzvləri İsa Qəmbərov, Pənah Hüseynov geniş çıxış etdilər və sualları cavablandırdılar. AXC-nin Ağdaş sessiyasında aşağıdakı qərarlar qəbul edildi:

1. Cəbhədaxili fövqəladə vəziyyət elan olunur və məclisin növbəti iclasına qədər Cəbhənin bütün qərarları aşağıdakılar üçün məcburi sayılır.

2. Yerlərdə olan asayiş qrupları AXC rayon şöbələrinə tabe idilər. İsa bəy bu qərara əlavələr edir və yaxud düzəliş verir (bəzən Müdafiə Komitələri adlandırılan). Hər bir rayon və şəhərdə asayiş dəstələri müvafiq İdarə Heyətinə tabe edilir və şəraitə uyğun olaraq fəaliyyət göstərir.

(Bu qərar da səsə qoyulur və tam səslə qəbul olunur).

3. AXC-yə qəbul yazılı surətdə keçirilsin, partiya prinsipi ilə olsun, zəmanət də verilsin və sınaq müddəti də keçirilsin (Pənah bəyin təklifidir. Bu təklifə Pənah bəy şərhlər verir. Bu təklifin təhlilini verir). Bu qərar səsə qoyulur və qəbul edilir.

4. Hər həftənin 5-ci günü – siyasi gün elan olunsun. Fevral ayının 9-u Ümumrespublika siyasi günü elan olunur (qəbul edilir).

Məclisin sessiyasına İdarə Heyətindən İ.Qəmbərov, P.Hüseynov, V.Əyyubov dəvət edilmişdi. Nəzarət komissiyasından isə **A.Salamov** iştirak edirdi.

AXC Məclisinin sessiyasındakı müzakirələrdə aşağıdakılar çıxış etdi: Sahib bəy, Tofiq Rzayev (Oğuz rayonu), Yusif bəy (Sumqayıt), Fəzail bəy, Yusif Mürşüdov, Üzeyir bəy, İlham Həsənov (Kəlbəcər), Sabir Məmmədov (Şamaxı), Nadir Rzayev (Qazax), Polad bəy (Bərdə), R.Ağayev (Beyləqan), Hüseyn Mustafayev (Şəki), Səməd Pənahov (Bakı şəhəri, Nəsimi rayonu), Qarayev (Mingəçevir), Mirzə Qəhrəmanov (Bakı, Nərimanov rayonu), Əli Rəsulov, Qabil Məmmədov (Bakı şəhəri, Oktyabr rayonu), Rafiq bəy (Yevlax), Yusifov (Füzuli), Rasim bəy (Gəncə).




*AXC-nin sorğu kitabçası*

**AXC-nin Ağdaş sessiyasında SSRİ-də yaşayan bütün millət və xalqlara AXC Fövqəladə məclisinin müraciəti qəbul edildi.**

Müraciətdə yazılırdı ki, 1990-cı ilin 19 yanvarından 20 yanvarına keçən gecə suveren Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yüzlərlə günahsız insanın, uşaqların, qadınların və qocaların qanı axıdılıb. Sovet qoşunlarının Bakını işğal etməsi XX əsrin ikinci yarısında Macarıstan, Çexoslovakiya, Polşa və Əfqanıstanda baş vermiş cinayətlər silsiləsinin davamıdır. Bakıda axıdılan qanlar Alma-Atada, Tbilisidə tökülən günahsız qanlar selinə qovuşmuşdur...

Müraciət bu sonluqla yekunlaşırdı: "**Bu gün Azərbaycan xalqı təkdir. Onun düşmənləri isə olduqca güclü və amansızdır.** Ancaq xalqımızın azadlıq eşqi sönməz, istibdaddan qurtuluş əzmi yenilməzdir. Biz içində yaşadığımız əsrdə azadlıq uğrunda dörd dəfə inqilab etmiş, dörd dəfə də məğlub olmuşuq. Ancaq bu dəfə hökmən qalib gəlməliyik!..Biz Sizi Azərbaycan xalqının haqq işi ilə, onun demokratiya uğrunda mübarizəsi ilə həmrəy olmağa çağırırıq".

AXC-nin Ağdaşda keçirilən məclisinin Fövqəladə sessiyasında ayrıca qətnamə də qəbul edildi. **9 maddədən ibarət olan qətnamədə** Bakıda Sovet Ordusunun törətdiyi vəhşiliklər, axıdılan qanların Kremlin və şəxsən M.Qorbaçovun əvvəlcədən düşünülmüş planı əsasında baş verməsi, Azərbaycandakı siyasi böhranın başlıca səbəbinin DQMV-nin separatçılarının olması, həbs edilənlərin dərhal buraxılması, Bakı faciəsinin əsl səbəbkarları və qatilləri olan M.Qorbaçov, V.Yazov, Ə.Vəzirov, V.Polyaniçko, Primakov, Çernenko və başqaları haqqında cinayət işinin qaldırılması və onların Beynəlxalq məhkəmə qarşısında mühakimə edilməsi tələbi qeyd edilmişdi.

Qətnamənin sonunda bu tələb yazılmışdı: "**Azərbaycan Sovet Sosialist Respublikasının İttifaq dövlətinin tərkibində qalmasına nə hüquqi, nə siyasi, nə də mənəvi haqqı yoxdur.** AXC respublikanın demokratik yolla İttifaq tərkibindən çıxması konsepsiyasını irəli sürür və bunun məqsədəuyğunluğunu AXC-nin təşkilat quruluşunun bütün səviyyələrində müzakirəyə qoyulmasını tövsiyyə edir.

Azərbaycan Xalq Cəbhəsi Məclisinin Ağdaşda keçirilən Fövqəladə sessiyasında müzakirə olunan bir məsələ də Milli Müdafiə Şurası idi. Qeyd edildi ki, belə bir Şuranın yaradılması təklifi ilə 1989-cu ilin yayında MK-dan Ə.Vəzirovun adamları AXC-yə müraciət etmiş və belə izah verilmişdi ki, Şuraya hər cür kömək ediləcək, Qarabağı xilas etmək üçün zavodlarda silah istehsal ediləcək və s. O zaman dövlət adamlarına belə cavab verilmişdi ki, Qarabağı xilas etməyin ən düzgün yolu Azərbaycan dövləti miqyasında tədbirlərin görülməsidir.

Qeyd edildi ki, Milli Müdafiə Şurası İdarə Heyətinin rəyindən asılı olmadan yaradılmışdı (buraya Etibar Məmmədov, Rəhim Qazıyev və Nemət Pənahov daxil idi). Sonradan Xalid Hacıyev də oraya qoşuldu. Müdafiə Şurasını AXC-nin nəzarətində saxlaması üçün İdarə Heyətinin təklifi ilə AXC sədri Əbülfəz Əliyev də oraya daxil oldu.

---

***Qaynaq:***

*Azərbaycan Xalq Cəbhəsi Məclisinin fövqəladə sessiyasının Bülleteni. №1, Ağdaş, 5 fevral 1990.*

## AXC–NİN BİRİNCİ QURULTAYI

Azərbaycan Xalq Cəbhəsinin I Qurultayı 1991-ci ilin 13-17 iyul tarixində M.F.Axundov adına Opera və Balet Teatrında keçirildi. Qurultaya yalnız Türkiyədən 21 qonaq gəlmişdi. İyulun 16-da AXC sədri Ə. Elçibəy iki saatlıq məruzə etdi. O, məruzəsində aşağıdakı problemlərə toxundu: 1) Dünyada, SSRİ-də və Azərbaycanda siyasi vəziyyət; 2) Kommunist Partiyasının sıradan çıxması, Sovet İttifaqının mərhələ-mərhələ dağılması; 3) Azərbaycanın birliyi; 4) AXC-nin məqsəd və vəzifələri.



Qurultayda Cəbhənin Proqram və Nizamnaməsində müəyyən dəyişikliklər edildi. Qurultayda 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması qərara alındı.




***AXC-nin üzvlük vəsiqəsi***

Lakin qurultay öz işini başa çatdıra bilmədi. Qu-

rultayın davamı 1992-ci ilin 25 yanvarında Milli Elmlər Akademiyasının zalında oldu. Qurultayın davamında təşkilatın məramnamə və nizamnaməsinin qəbulu və bəzi təşkilati məsələlər müzakirə edildi.

**Qurultay öz işini yanvarın 27-də bitirdi.**

### AXC STRUKTURUNDA DƏYİŞİKLİK

1991-ci ilin dekabrın 2-də AXC sədri Ə.Elçibəy, AXC sədr müavinləri, şöbə müdirləri və sədrin təyin etdiyi şəxslərdən ibarət AXC İcraiyyə Komitəsinin yaradılması haqqında sərəncam verdi və **Pənah Hüseynov İcraiyyə Komitəsinin sədri oldu.**

### A.MÜTƏLLİBOV MÜHÜM QƏRARLAR QƏBUL EDİR

**1. 1991-ci il dekabrın 29-da referendum elan olundu.**

**2.** 1991-ci ilin **dekabın 29-da keçirilən** referendumla xalqımız Azərbaycan Respublikasının **Dövlət Müstəqilliyi Haqqında Aktı qəbul etdi.**

**Qeyd:** *21 dekabr 1991-ci ildə SSRİ-nin dağılması ilə dekabrın 25-də M.Qorbaçov SSRİ prezidentliyindən istefa verdi.*

### AXC ALİ MƏCLİSİNİN QƏRARI
***15-16 fevral 1992-ci il***



***AXC Məclisinin toplantısı***

1992-ci ilin 15-16 fevralında keçirilən AXC Ali Məclisinin sessiyası artıq hakimiyyət məsələsini müzakirə edib qərara aldı:

1. Prezident başda olmaqla ali icra hakimiyyətinin istefası və bütün hakimiyyətin müvəqqəti olaraq Azərbaycan Respublikası Milli Şurasına verilməsi qəti tələb edilsin.

3. AXC-nin bütün strukturlarında bir ay müddətində fövqəladə vəziyyət elan edilsin.

6. AXC İcraiyyə Komitəsinə və AXC Ali Məclisinin Rəyasət Heyətinə kütləvi tədbirlərin hazırlanması və həyata keçirilməsi tapşırılsın.

## AXC ALİ MƏCLİSİNİN AĞDAM SESSİYASI *(16-17 mart 1992-ci il)*

Həmin dövrdə Qarabağ bölgələrində Rusiyanın xüsusi xidmətləri şayiələr yayıb, erməni xofu yaratmaqla əraziləri boşaltmağa çalışırdı. Bunun qarşısını almaq və Qarabağ əhalisini ruhlandırmaq üçün AXC Ali Məclisinin növbəti sessiyası **martın 16-17-də Ağdam şəhərində** keçirildi və bütünlüklə hərbi məsələlərə həsr edildi.

## AZƏRBAYCANDA MİTİNQLƏR. AXC-NİN FƏALLIĞI *(İyul 1989 – Yanvar 1990: Ümumi xronika)*

1989-cu ilin iyul-avqust aylarından başlayaraq Azərbaycan milli-azadlıq hərəkatının yeni mərhələsi başlayır. **Belə ki, 1989-cu ilin iyulun 29-da, avqustun 5-də və 12-də Bakıda mitinqlər keçirildi.** Həmin vaxt Bakıda xüsusi vəziyyət mövcud idi. Lakin Azərbaycanın rəsmi rəhbərliyinin bu mitinqlərə maneçilik törətməməkdə başlıca məqsədi Moskvaya və Ermənistan SSR-ə müəyyən təsir göstərmək cəhdi idi. Bu mitinqlərdə aşağıdakı tələblər irəli sürülürdü**: 1)** SSRİ Ali Sovetinin növbədənkənar sessiyasını çağırmaq və orada DQMV-nin (Dağlıq Qarabağ Muxtar Vilayəti) Xüsusi İdarə Komitəsinin ləğvi; **2)** Azərbaycanın DQMV üzərindəki suverenliyinin bərpasını tələb edən fəallara qarşı məhkəmə işlərinin dayandırılması**; 3)** Xüsusi vəziyyət rejimində Azərbaycandan "seçilmiş" SSRİ Xalq deputatlarının saxta seçki nəticələrinin ləğvi**; 4)** Bakıda və Azərbaycanın digər rayonlarında xüsusi vəziyyətin və komendant saatının götürülməsi; **5)** AXC-nin rəsmi olaraq tanınması.

Qeyd edək ki, respublika rəhbərliyi bu tələblərə əhəmiyyət vermirdi. Bunun nəticəsində bir günlük tətil keçirildi. 14 avqustda keçirilən mitinqdə çıxış edən T. Orucov xalqın əsas tələblərinin müdafiə edildiyini bildirərək, AXC İdarə Heyətini respublika rəhbərliyi ilə dialoqa çağırdı (bu təbii ki, keçirilən tətilin həm də nəticəsi idi).

**Avqustun 15 və 16-da Birinci katib Ə.Vəzirovla danışıqlar aparıldı**. Lakin bu danışıqlar bir nəticə vermədi.

**Belə bir vaxtda DQMV-də olan erməni separatçıları 1989-cu ilin avqustunda Xankəndində (Stepanakertdə) "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı"nı keçirdilər. Həmin qurultayda**


30 нојабр. 1989

АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИНИН СЕЧКИЛИ ҺЕЈ'ӘТЛӘРИНИН БӘЈАНАТЫ

Дағлыг Гарабағда вә Ермәнистанла һәмсәрһәд рајонларда ермәни милләтчиләринин фитнәләри вә мәркәз тәрәфиндән республикамызын суверенлијинә тәчавүз ичтимаи-сијаси вәзијјәти хејли кәркинләшдирмишдир. Бүтүн бу мәсәләләрин јеканә вә гәт'и һәллини Азәрбајчан Халг Чәбһәси халгы өз әтрафында сых бирләшдирмәкдә, гаршыдакы сечкиләрдә халг намизәдләринин гәләбәсиндә, республикамызын һүгугларынын Али Советимиздә гејрәтли вәтән өвладларынын чыхардығы ганун вә фәрманларла өзүмүзә гајтарылмасында көрүр. Ачыг сијаси мүбаризәдә лабүд мәғлубијјәтини һисс едән партија-дөвләт бүрократијасы өз ән'әнәви "ајыр-бујур" сијасәтинә әл атмышдыр. Бу ишдә онлара Чәбһәнин сечкили һеј'әтләриндә идеја мүбаризәсинин кәскинләшмәси дә көмәк етмишдир. Бу идеја мүбаризәсиндә инандырычы дәлил вә кифајәт гәдәр тәрәфдар тапа билмәјән азлыг зоракылыға вә бөһтана әл атыр, бәләликлә дә Низамнамәни кобуд вә ачыг сурәтдә позур.

Октјабр ајынын 28-29 - да ишчи комиссијалар вә групплар тәшкил етмәк мәгсәдилә чағырылмыш АХЧ-нин мәчлисинин I сессијасында Не'мәт Пәнаһов идарә һеј'әтинин бир нечә үзвүнә гаршы әсассыз вә мәс'улијјәтсиз тәрздә чыхыш етмишдир. Н.Пәнаһов вә Е.Мәммәдов нојабрын 25-дә митингдә тә'тил һәрәкатынын форма вә мәрһәләләри мәсәләсиндә мүәјјән фикир ајрылығыны бәһанә кәтирәрәк Чәбһәни парчаламаг чәһди көстәрмишләр. Нәһајәт, нојабрын 29-да Е.Мәммәдов мејданда Милли Чәбһә е'лан етмәклә халг һәрәкатынын ики һиссәјә парчаланмасыны керчәкләшдирмишдир. Азәрбајчан Милли Чәбһәсинин Мәрамнамәси вә Низамнамәси мүәјјән олунмајынча АХЧ бу тәшкилата өз мүнасибәтини билдирмир.

Идарә һеј'әтинин 15 үзвүндән үчү - Не'мәт Пәнаһов, Е'тибар Мәммәдов вә Рәһим Газыјев билдирмишләр ки, Идарә һеј'әтинин гәрарларына табе олмајачаглар вә АХЧ Низамнамәсини ади кағыз һесаб едирләр. Идарә һеј'әти АХЧ-нин Низамнамәси вә Мәрамнамәсинә садиг галараг мүбаризәни давам едир. Чәбһәнин үмдә вәзифәләри Дағлыг Гарабағда суверенлијимизин бәрпасы, сечкиләрдә бүрократија үзәриндә гәләбә, игтисади мүстәгиллијимизин тә'мин олунмасыдыр.

Јаранмыш вәзијјәтдә идарә һеј'әти Чәбһәнин үзвләринин јени гејдијјатыны зәрури һесаб едир. Чәбһә үзвләринин гејдијјаты вә үзвлүк вәсигәләринин верилмәсинә гәдәр Чәбһәнин һәр бир үзвү Низамнамә вә Мәрамнамәјә садиг олдуғуну өзү үчүн мүәјјәнләшдирмәлидир.

Чәбһәнин демократик принсипләри, онун әсл халг тәшкилатына чеврилмәси вә әлдә етдији наилијјәтләр идарә һеј'әтинә бүтүн һәмвәтәнләри Чәбһә әтрафында бирлијә чағырмаға ихтијар верир.

Идарә һеј'әтинин тә'тил барәдә чағырышы хүсуси көстәриш оланадәк гүввәдә галыр.

Идарә һеј'әти — Мәшвәрәт Шурасы — Нәзарәт комиссијасы

*AXC seçkili heyətlərinin bəyanatı*

**Dağlıq Qarabağın Azərbaycanın tərkibindəki Muxtar Vilayət statusundan imtina etdiklərini bildirdilər.**

Belə şəraitdə AXC xalqa çağırış edərək, avqustun 21 və 22-də iki günlük xəbərdarlıq tətili etdi. Sentyabrın 4-də isə əhalinin yaşamını təmin edən müəssisələrdən başqa bütün respublikanı əhatə edən həftəlik ümumrespublika tətillərinə başlanıldı. Azərbaycan dəmiryolçularının bu tətillərə qoşulması isə Zaqafqaziya və Şimali Qafqaz dəmiryollarının fəaliyyətsiz vəziyyətə saldı.

Belə vəziyyətdə respublika rəhbərliyi AXC rəhbərliyi ilə danışıqlara məcbur oldu. Bakıda sentyabrın 9-da keçirilən çoxminlik mitinqdə isə Azərbaycan KP MK-nın ikinci katibi **V. Polyaniçko** iştirak edib, 15 sentyabrda keçiriləcək Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin növbədənkənar sessiyasında iştirak üçün AXC və ictimai təşkilatların nümayəndələrini dəvət etdi.

Sentyabrın 10-da **AXC sədri Ə. Elçibəy, AXC İdarə Heyətinin üzvləri E.Məmmədov və Y.Səmədoğlu**, televiziyadakı çıxışlarında respublika rəhbərliyi ilə əldə olunmuş razılıq haqda ictimaiyyəti məlumatlandırdılar. Onlar çıxışlarında respublika rəhbərliyinin AXC-ni rəsmi tanımağa və onun nümayəndələrinin respublika Ali Sovetinin növbədənkənar sessiyasında iştiraka razılıq verdiyini qeyd etdilər. Lakin Ə.Vəzirov həmin görüşün nəticələrinə yenidən baxmaq istədikdə tətillərə başlamaq məsələsi ortaya çıxdı. Bu təzyiqin nəticəsində Ə.Vəzirov Azərbaycan KP MK ilə AXC arasında razılıq protokolu imzaladı.

Qeyd edək ki, sentyabrda keçirilən tətillər AXC-nin Azərbaycan cəmiyyətində nüfuzunun daha da artmasına səbəb oldu.

1989-cu ilin sentyabrın 15-də respublika Ali Sovetinin növbədənkənar sessiyası keçirildi. Sessiyada Ə.Vəzirov razılaşmadan kənara çıxaraq, Xüsusi İdarə Komitəsinin ləğvini yox, onun fəaliyyətinin inkişafını sessiyanın sonunda deputatlara təklif etdi. Belə vəziyyətdə AXC İdarə Heyətinin üzvləri ümummilli tətilin başlanacağını bildirib, Ali Sovetin zalını tərk etdilər. Sessiyada 15 dəqiqəlik fasilə elan edilsə də, bu, yarım saata qədər uzandı. Bu müddətdə Ə.Vəzirovla AXC İdarə Heyəti arasında danışıqlar aparıldı. **Gecə saat 1:30-da sessiyada Xüsusi İdarə Komitəsinin ləğv edilməsi ilə bağlı Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qarşısında məsələ**



**qaldırıldı.** Həmin sessiyada suverenlik, vətəndaşlıq və respublikanın iqtisadi müstəqilliyi haqqında qanun layihələrinin ümumxalq müzakirəsinə çıxarılması ilə bağlı qərar qəbul edildi.

Suverenlik haqqında qanun mətninin hazırlanmasında iştirak edən AXC mütəxəssisləri tərəfindən qanun mətninə respublikanın SSRİ tərkibindən çıxması reqlamenti haqqında maddə əlavə edildi.

**1989-cu ilin sentyabrın 23-də Ali Sovetin sessiyası "Azərbaycan SSR-nin suverenliyi haqqında" Konstitusiya qanununu qəbul etdi.**

1989-cu ilin 11 sentyabrında ümummilli tətil dayandırılsa da, Naxçıvan istiqamətinə olan dəmir yolu sistemi hələ də işləmirdi. Bu dəmir yolunun isə Qarçıvan-Mehri hissəsi Ermənistana aid idi. Bu yolu isə həmin bölgədəki erməni ekstremistləri bağlamışdı. Nəticədə Naxçıvan mühasirədə qalmışdı. Belə vəziyyətdə sentyabr ayında AXC Ermənistanla bütün iqtisadi əlaqələrin kəsilməsi haqqında çağırış etdi. Bu çağırış Moskva və dünya mətbuatında Ermənistanın mühasirəyə alınması kimi təbliğ olunmağa başladı.

Ermənilərin məharətlə dünya ictimaiyyətinə yaydığı bu məsələ 1989-cu ilin oktyabrında SSRİ Ali Sovetinin II sessiyasında müzakirə edildi. 1989-cu ilin sentyabrın sonlarında Moskvada AXC İdarə Heyətinin üzvləri ilə Regionlararası deputat qrupunun təmsilçiləri arasında danışıqların aparılması, yaranmış vəziyyət haqqında obyektiv bilgilərin çatdırılmasına imkan verdi.

**1989-cu ilin oktyabr ayının 5-də AXC respublika Nazirlər Soveti tərəfindən rəsmi olaraq qeydiyyata alındı. Respublika rəhbərliyi ilə olan razılaşmaya əsasən 1989-cu ilin dekabrın 24-dən "Azadlıq" qəzeti 200 min tirajla nəşr edilməyə başladı.**

Bu dövrdə AXC bir təşkilat sərhədlərindən çıxaraq Ümummilli hərəkata çevrilmişdi.

Artıq hərəkatda radikallaşma başlayırdı. 1989-cu ilin 29 noyabrındakı mitinqdə sərt və radikal şüarlar eşidilirdi: "İndi yolumuz yalnız SSRİ-dən ayrılmaqdır", "Tətil davam etməlidir" və s.

1989-cu ilin 2 dekabrında keçirilən mitinqdə isə Nemət Pənahov AXC İdarə Heyətindən istefa verdiyini bildirdi.




Bundan əvvəl, 1989-cu ilin oktyabrın 27-28-də AXC-nin Bakıda keçirilən birinci Məclisində məlum oldu ki, AXC rəhbərliyində ciddi fikir ayrılığı vardır. **Hər iki qrup bir-birlərini ittiham edirdilər: “radikallar” “liberallar”ı cəsarətsizlikdə və hətta satqınlıqda günahlandırırdı.**

AXC-nin nüfuzunun xalq arasında gücləndiyi bir zamanda İdarə Heyətində **“liberallar”la “radikallar“** adlanan qruplar arasında ziddiyyətlər daha da kəskinləşdi. Başlıca problemlərdən biri hakimiyyətə təzyiq vasitəsi ilə məsələlərin həlli idi. “Radikallar” da məhz buna üstünlük verirdilər(“liberallar”a - İsa Qəmbərov, Tofiq Qasımov, Sabit Bağırov, Hikmət Hacızadə və b., “radikallar”a isə - Etibar Məmmədov, Nemət Pənahov, Rəhim Qazıyev daxil idi). AXC sədri Əbülfəz Elçibəy isə “liberallar”ın mövqeyində dayanırdı.

“Radikallar” AXC-nin fövqəladə konfransının keçirilməsinə və yeni rəhbərliyin seçilməsinə çalışırdılar. Konfransa seçkilərdə “liberal” tərəfdarlarının uzaqlaşdırılmasını gördükdə 1989-cu ilin dekabrın 9-da AXC İdarə Heyəti dekabrın 10-da konfransın keçirilməsini məqsədəuyğun saymadı. Bununla yanaşı “liberallar” “radikallar”a güzəştə getmək məcburiyyətində qaldılar. Sonda AXC İdarə Heyətinin fəaliyyəti dayandırıldı və İdarə Heyəti səlahiyyətində olan 5(bəzi mənbələrdə 7 ) nəfərdən ibarət müvəqqəti təşkilati qrup(bunu rəyasət heyəti də yazırlar-red)yaradıldı. Bu qrup iki həftə müddətində AXC-nin təşkilat konfransının keçirilməsini təşkil etməli idi. Müvəqqəti təşkilat qrupunun 18 dekabr 1989-cu il tarixli qərarına əsasən konfransın 1990-cı ildə 6-7 yanvarda Bakı şəhərində keçirilməsi nəzərdə tutulurdu.

1990-cı ilin yanvarın 8-də AXC-nin yeni seçilmiş Məclisinin sessiyası keçirildi. Yeni seçilən 14 nəfər İdarə Heyətindən əksəriyyəti “liberallar” oldu. Radikalların liderlərindən biri olan Nemət Pənahlı İdarə heyətinə seçilmədi. Leyla Yunusova və Zərdüşt Əlizadə isə “radikallar”a qarşı olan hücumlara etiraz əlaməti kimi AXC-dən çıxdılar və sosial-demokrat qrupu yaratdılar.

1990-cı ilin 8 yanvarında E.Məmmədov və R.Qazıyev birgə AXC İdarə Heyətindən çıxıb, N.Pənahov da daxil olmaqla Milli Müdafiə Şurası

yaratdıqlarını bildirirdilər. Onlar bu qərarlarını 1990-cı ilin 13 yanvarında keçirilən mitinqdə elan etdilər.



***AXC mitinqi***

Vəziyyətin gərginliyini görən AXC İdarə Heyəti proseslərə təsirini saxlamaq məqsədi ilə Respublika Hərbi Müdafiə Şurası yaratmaq və onun işində iştirak üçün E. Məmmədov və R. Qazıyevə lazımi səlahiyyətlər verməyə məcbur oldu. Eyni zamanda hadisələrə təsir edə bilmək üçün AXC sədri Ə. Elçibəyin də həmin Şuraya daxil edilməsinə nail oldular. N. Pənahovun təşəbbüsü ilə Müdafiə Şurasının qərargahı Səttarxan adına zavodda yerləşdirildi.

---

***Qaynaq:***

*1. A.Balayev. Azərbaycan Milli Hərəkatı: Müsavatdan Xalq Cəbhəsinə qədər. Bakı, 1992. (rus dilində)*

*2. "Bakinskiy raboçiy", 19 may 1990-cı il.*

*3. "Bakinskiy raboçiy", 23 iyun 1990-cı il.*

*4. "Kommersant", N27, 1990-cı il.*

*5. "Azadlıq", 13 iyul 1990-cı il.*

*6. "Azadlıq", 15 sentyabr 1990-cı il.*

*7. "Azadlıq", 25 avqust 1990-cı il.*

*8. "Azadlıq", 27 sentyabr 1990-cı il.*

*9. "Azadlıq", 25 oktyabr 1990-cı il.*

*10. "Azadlıq", 17 yanvar 1991-ci il.*

*11. "Azadlıq", 17 may 1991-ci il.*

*12. "Azadlıq", 19 aprel 1991-ci il.*

*13. "Svoboda", 12 sentyabr 1991-ci il.*

*14. "Svoboda", 17 oktyabr 1991-ci il.*

*15. "Azadlıq", 29 noyabr 1991-ci il.*

## NAXÇIVAN. CULFA TƏTİLLƏRİ

**1989-cu ilin ortalarından başlayaraq Azərbaycanın Naxçıvan bölgəsində - Culfada tətillər başladı**. Bu tətillər Azərbaycanda mütəşəkkil tətil hərəkatının başlanğıc nöqtəsi oldu. AXC Culfa rayon şöbəsinin əlaqəçisi **Ramiz Tağıyev** bildirir ki, Culfa tətilləri dəmiryolçuların haqlı tələbləri və mütəşəkkil çıxışları ilə başladı. Belə ki, Naxçıvan Muxtar Respublikası ilə sərhəd rayonlarında, xüsusilə Meğri rayonunda ermənilərin törətdikləri özbaşınalıqlar Ermənistan tərəfindən Naxçıvanın felən blokadaya alınması demək idi. Qatarlar müntəzəm olaraq dayandırılıb geri qaytarılır, maşinistlər döyülür, onlara atəş açılır, respublikadan gələn qatarlar buraxılmır və s. Bu da Culfa lokomotiv deposu işçilərinin narazılığına səbəb olmaya bilməzdi. Odur ki, iyunun 22-də başladığımız tətillə əlaqədar SSRİ Yollar nazirinin müavini Pinqaryovun Meğri rayonuna getməsi və vədlər verməsindən sonra iyunun 28-də tətil müvəqqəti olaraq dayandırıldı. Lakin vəziyyət yenə normallaşmadı və avqustun 2-dən yenidən tətil davam etdirildi.

**Dekabrın 2-də** səhər saat 5 radələrində dəmiryolçuların tətil komitəsinə silahlı şəxslər hücum etmiş, komitə üzvlərini döymək cəhdləri olmuşdu. Bu hadisə bütün Culfa camaatında hiddət doğurmuş və güclü etiraz mitinqləri keçirilmişdi.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, №2, 30 dekabr, 1989-cu il*

## CƏLİLABAD HADİSƏLƏRİ

1989-cu ilin sentyabrından Cəlilabadda hadisələr daha da gərginləşməyə başladı. Xalqın yerli hakimiyyətdən narazılığı, bürokratik rejimə qarşı etirazı, siyasi mühitin sağlamlaşmağı uğrunda mübarizə istəyi, sosial ədalətsizlik, iqtisadi əziyyət Cəlilabad hadisələri üçün səciyyəvidir. Rayonda 136 min əhalinin yaşamasına baxmayaraq, onun 25 mini işsiz idi. Xalq acınacaqlı vəziyyətdə yaşayırdı.

Sentyabrın əvvəllərində Cəlilabad Rayon Partiya Komitəsinin keçmiş

birinci katibi Eybalı Ağayevin AXC rayon şöbəsinin təşkil etdiyi mitinqdə çıxış edənlərdən birini vurması xalqın qəzəbinə səbəb olmuş, nəticədə AXC rayon şöbəsi E.Ağayevin istefaya çıxması tələbi ilə mitinqlər keçirməyə başlamışdır. Tezliklə rayonda katib dəyişdirilmişdir. Yeni birinci katib təyin edilən Ə.Qocamanovun da vəzifə müddəti 57 gün çəkdi. Belə ki, o, **dekabrın 8-də** keçirilən mitinqə 300 nəfərə yaxın dəmir dəyənəkli "qvardiyaçı" gətirmiş və onlar əhali üzərinə hücum etmişlər. Sonda həmin "qvardiyaçı" dəstələr xalqın tərəfinə keçmişlər. Mitinq iştirakçılarının tələbi ilə birinci katib, rayon prokuroru, rayon daxili işlər şöbəsinin rəisi xalq qarşısında istefa vermişlər.

Lakin mitinqlər fasilə vermədən davam edirdi. Onların tələbi rayon partiya komitəsinin birinci katibliyinə rayon kommunistlərinin tanıdığı və inandığı adamın tam demokratik qaydada seçilməsidir. Lakin respublikanın bürokratik partiya aparatı xalqın ədalətli istəyinə əhəmiyyət vermədən yeni katibi - X.Əliyevi seçdirmişdir. Xalq isə son seçkinin antidemokratik xarakter daşıdığına əsaslanıb plenumun buraxılmasını, rayon kommunistləri konfransının keçirilməsini və yeni tərkibdə plenumun seçilməsi şərti ilə katib məsələsinin həllini tələb edir.

Cəlilabad rayonunda baş verən son hadisələrlə əlaqədar ümumrayon kommunistlərinin **1989-cu il dekabrın 25-də** keçirilmiş yığıncağı da mitinqdə irəli sürülən tələblər məzmununda qərar qəbul etmişdi. Sonradan mitinqlərə qarşı zor tətbiq edib dağıtmışdılar.

---

***Qaynaq:***

*1. F.Rəhimoğlu. Cəlilabadın haqq səsi. "Azadlıq" qəzeti, №2, 30 dekabr, 1989. 2. Q.Əzizxanlı. Mollanı Həkim xilas etdi. "Azadlıq" qəzeti, №1(3), 6 yanvar 1990.*

## LƏNKƏRAN HADİSƏLƏRİ (11 YANVAR 1990-cı il)

20 Yanvar ərəfəsində 1990-cı ilin 11 yanvarında Lənkəranda da vəziyyət gərginləşmişdi. Lənkəran Xalq Cəbhəsinin yerli radio ilə əhaliyə müraciətində bildirilirdi: "Hörmətli xanımlar və bəylər! Lənkəran Xalq Cəbhəsi DQMV məsələsi, respublikanın suveren hüquqlarına hörmət edilməsi ilə əlaqədar olaraq, yanvarın 11-dən bütün hakimiyyət orqanlarının, şəhər və rayon partiya komitələrinin, DIŞ-nin fəaliyyəti dayandırılır".

Müraciətdə qeyd olunurdu ki, bununla əlaqədar Müvəqqəti Müdafiə Komitəsi yaradılır. Müvəqqəti Müdafiə Komitəsi respublikanın mərkəzi və rayonun yerli hakimiyyət orqanlarını tanımadığını, təcili olaraq Respublika Ali Sovetinin DQMV-nin muxtariyyətini ləğv etməsini, onun yerinə respublikanın tabeliyində olan rayonlar yaradılmasını tələb edir. Bu tələblərin yerinə yetiriləcəyi halda hakimiyyətin Müvəqqəti Müdafiə Komitəsinə təhvil veriləcəyi bildirilirdi.

## ARİF ABDULLAYEVİN QƏTLİ



*Arif Abdullayev*

1990-cı ilin sentyabr ayının 26-da AXC Təşkilat şöbəsinin müdiri **Arif Abdullayev** yaşadığı mənzildə vəhşicəsinə qətlə yetirildi. Onun ölümü haqqında məlumat isə sentyabrın 27-də, bir gün işə çıxmayandan sonra bilindi. A.Abdullayev AXC rəhbərliyi birliyinin möhkəmləndirilməsində, AXC sıralarının şübhəli, başıpozuq ünsürlərdən təmizlənməsində, AXC liderlərinin və təşkilatın mühafizəsində ciddi rol oynayırdı. Xüsusilə, onun "Azadlıq" qəzetindəki son çıxışları Azərbaycan Xalq Hərəkatı düşmənlərini bərk narahat edirdi.

Arif onu tanıyanların yaddaşında boylu-buxunlu, pəhləvan gövdəli, qartal baxışlı bir igid kimi yaşayır. 37 yaşlı A.Abdullayevin qətli ilə bağlı AXC İdarə Heyətinin bəyanatında yazılmışdı: "AXC öz açıq və gizli əleyhdarlarını xəbərdar edir ki, terror yanğını başlasa, bu alovda çoxları məhv olar, nəticədə isə hamı, eləcə də xalq məğlub olacaq!AXC İdarə Heyəti AXC üzvlərini, xalq hərəkatındakı bütün məsləkdaşlarımızı ruhdan düşməməyə, sıralarımızı daha sıx birləşdirməyə, mübarizəni daha qətiyyətlə və əzmlə davam etdirməyə çağırır.Bütün cəbhəçiləri, xalqımızı əmin edirik ki, heç bir sui-qəsd bizi qorxudub vahiməyə sala, yolumuzdan döndərə bilməz!Mübarizə davam edir! Müqəddəs şəhidlərimizin sırasına qovuşmuş Arif bəyi biz ölmüş saymırıq. O, bizimlədir və həmişə də azadlıq mübarizləri ilə birgə olacaqdır!"

Sentyabrın 29-da AXC qərargahının geniş iclas zalında saat 15:00-da mərhum A. Abdullayevlə vida mərasimi oldu. Mərhumun cəbhədaşları

Arif bəyin qohumlarına başsağlığı verdilər. RSFSR xalq deputatı, moskvalı L. Ponomaryov başsağlığı verdi və dedi: "Siyasi terror aktları ölkəni bürüyür. Mən inanıram ki, bizim də, Sizin də azadlıq uğrunda apardığımız mübarizə qarşısıalınmazdır. Bu yolda hədələr, təqiblər, qətllər bizi qorxutmamalıdır".

AXC sədri Əbülfəz Elçibəy hüznlü danışdı: "Arif özünü demokratik mübarizəyə həsr eləmişdi. O, səadətini bu mübarizədə tapmışdı. Arifin bir sözünü gənclərimizə çatdırmaq istəyirəm: "Ağır gündə sınmamaq, əyilməmək". Qardaşı Cavanşirin məzarı önündə də mən onu beləcə əyilməz gördüm. Cavanşir Əfqanıstanda aparılan haqsız müharibənin günahsız qurbanı oldu. Arif də qurbandır – azadlığımız yolunda gedən mübarizənin qurbanı".

***Qeyd:*** *Təəssüflər ki, Arif Abdullayevi qətlə yetirənlər sonrakı illərdə də tapılmadı.*

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, 4 oktyabr 1990-cı il, №15(17).*

## ELDAR BAĞIROVUN QƏTLİ
***(AXC Ağdam rayon şöbəsinin sədri)***



***Eldar Bağırov***

E.Bağırov 1953-cü ildə Ağdam şəhərində anadan olub. 8 saylı orta məktəbdə təhsil alıb. 1988-ci ildən Xalq Hərəkatına qoşulub. 1989-cu ilin avqustunda AXC rayon şöbəsinin təsis konfransında sədr seçilib. Azərbaycan Ali Sovetinin deputatı olub. 1991-ci ildə müəmmalı şəkildə qətlə yetirilib. Bir ehtimala görə ermənilərin Dağlıq Qarabağdan köçürülmələri ilə bağlı Ali Sovetin toplantısında çıxış etməyə hazırlaşıbmış və bu da müəyyən dairələri narahat edirmiş. Bəzi fikirlərə görə Ağdamdakı müəyyən varlı klanlar da Eldarın milli yönümlü fəaliyyətindən narahat idi.

## 20 YANVAR HADİSƏLƏRİ ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN XALQ CƏBHƏSİ



СООБЩЕНИЕ ВОЕННОГО КОМЕНДАНТА

ГРАЖДАНЕ Б А К У !

Объявляю Вам, что чрезвычайное положение, введенное в г.Баку Указом Президиума Верховного Совета СССР, будет отменено как только органы советской власти возьмут под свой контроль положение в городе, установят правопорядок и законность, обеспечат безопасность населения.

Все усилия должны быть направлены на обеспечение нормальной работы транспорта, промышленных предприятий, учреждений, школ, восстановление нормального ритма жизни города.

В целях обеспечения порядка и спокойной обстановки в городе требую от лиц, незаконно владеющих оружием, сдать его представителям районных военных комендатур до $9^{00}$ 24 января с.г. Все добровольно сдавшие оружие в этот срок не будут привлекаться к ответственности и не подлежат задержанию.

***Bakıda fövqəladə vəziyyət haqqında məlumat. Həmin dövrdə təyyarədən atılmış vərəqə***

1990-cı ilin **yanvarın 11-də AXC İdarə Heyətinin I iclası keçirildi**. Məqsəd – Xalq Cəbhəsinin işini canlandırmaq, təşkilati işi gücləndirmək idi. İclasda İdarə Heyətinin daxili iş bölgüsü, seçki platformasının hazırlanması üçün qrup yaradılması, Proqram və Nizamnamədə dəyişikliklər üçün, layihənin hazırlanması ilə bağlı qrup yaradılması, deputatlığa namizədlərin siyahısının hazırlanması və qərargahın fəaliyyətindən narazılıqlar çox olduğundan onun işinin qaydaya salınması da məsələlərin müzakirəsi oldu. Bu istiqamətdə iş bölgüsü aparıldı və tapşırıqlar verildi. **İdarə Heyətinin ikinci iclası yanvarın 13-də oldu**. 13-də həm də mitinq olmalı idi. İkinci iclasda İdarə Heyətinin bəzi üzvləri bildirdilər ki, **Milli Müdafiə Şurası** yaradılır və onlar müvəqqəti olaraq İdarə Heyətinin işindən ayrılıb Qarabağ hadisələri ilə əlaqədar Milli Müdafiə ilə məşğul olacaqlar. İclasda müəyyən fikir mübadilələri olsa da, konfransdan yenicə çıxmış Xalq Cəbhəsində parçalanma əhvali-ruhiyyəsi olmaması üçün qərar qəbul edildi. Qərarda göstərilirdi ki, İdarə Heyəti hazırkı vəziyyətdə Milli Müdafiə Şurasının yaranmasını lazım bilir və həmin Şuranın işini təşkil etmək, Şura ilə respublika rəhbərliyi arasında lazımi əlaqələr yaratmaq və bu proseslərə



Экз.N_____

П Р И К А З
Коменданта особого района г.Баку

[illegible] января 1990 г. N 1 г.Баку

В соответствии с решением Президиума Верховного Совета СССР от 20 января 1990 г. действие Указа Президиума Верховного Совета СССР от 15 января 1990 г. " Об объявлении чрезвычайного положения в Нагорно-Карабахской автономной области и некоторых других областях " распространено на г. Баку.

В целях поддержания общественного порядка, пресечения противоправных действий, обеспечения безопасности жизни граждан, нормальной работы предприятий и учреждений с 23:00 20 января 1990 г. вводится комендантский час. Время его действия с 23 часов до 6 часов утра.

П Р И К А З Ы В А Ю :

1. Создать управление коменданта особого района г. Баку в составе:
   - заместителя коменданта - генерал-майора Солодкова В.Д.;
   - заместителя коменданта по политической части - генерал-майора Кирилюка А.И.;
   - начальника штаба - полковника Сабусова В.В.;
   - заместителя коменданта по тылу - полковника Ляха П.И.;
   - заместителя начальника штаба по авиации - подполковника Туркина А.М.;
   - начальника связи - полковника Ярового Е.Н.

2. В составе особого района г. Баку образовать одиннадцать комендантских участков:

N 1 - район имени 26 Бакинских комиссаров.
Комендант - полковник Рубцов И.Н.
N 2 - Октябрьский район.
Комендант - полковник Бондарев П.Т.
N 3 - Насиминский район.
Комендант - полковник Корольков Е.Н.
N 4 - Наримановский район.
Комендант - подполковник Лисюк Р.И.
N 5 - Кировский район.
Комендант - полковник Пономаре[illegible] Г.В.
N 6 - Ленинский район.
Комендант - подполковник Толмач[illegible] В.В.
N 7 - Низаминский район.
Комендант - полковник Бунцев А.Н.
N 8 - Хатаинский район.
Комендант - подполковник Столяров А.А.
N 9 - Орджоникидзевский район.
Комендант - майор Демидов Б.А.
N10 - Карадагский район.
Комендант - подполковник Дзантие[illegible] К.Б.
N11 - Азизбековский район.
Комендант - полковник Бойко М.Г.
- Аэропорт "Бина"
Комендант - майор Тихонов А.В.

***Bakıda Fövqəladə vəziyyət haqqında Dubinyakın əmri***



*M.Qorbaçovun portreti yandırılır*

AXC ümumi siyasi rəhbərliyini cəlb etmək məqsədi ilə İdarə Heyətinin iki üzvünə və Xalq Cəbhəsi sədrinə lazımi səlahiyyətlər verilsin.

**1990-cı ilin yanvarın 13-də** Bakıda mitinq keçirildi və elə həmin gün hökumətin müxtəlif dairələri tərəfindən hazırlanmış hadisələr başladı. Ayın 13-dən başlayaraq təxribat məqsədi ilə şəhərdə ermənilərə qarşı müəyyən hərəkətlər oldu və Xalq Cəbhəsinin İdarə Heyəti bu hadisələrin qarşısını almağa cəhd etdi. AXC-nin fəaliyyəti nəticəsində çoxlu sayda ermənin həyatı xilas edildi. Dağıntılar yanvarın 16-da dayandırıldı.

1990-cı ilin **yanvarın 15-də** SSRI Ali Soveti Rəyasət Heyətinin "DQMV"-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin elanı haqqında" sərəncamından sonra(sərəncamın 7-ci maddəsində Azərbaycan Ali Soveti Rəyasət Heyətinə Bakıda və Gəncədə komendant saatı yaradılması təklif edilirdi) AXC İdarə Heyəti yanvarın 18-nə qədər bu fərmanın respublka hakimiyyəti tərəfindən dəqiqləşdirilməsi və ondan Azərbaycan mənafeyinə düzgün istifadə edilməsi uğrunda mübarizə apardı. Qərarın şərhi verilir, təbliğat aparılır, görkəmli ziyalılarla əlaqə yaradılırdı. Eyni zamanda, Bakıda olan Moskva nümayəndələri ilə müəyyən danışıqlar da aparılırdı.

**Yanvarın 17-dən 19-na qədər** İdarə Heyətinin əsas iş istiqamətlərindən biri də ordu ilə qarşıdurmanın, əhalinin qırılmasının qarşısını almaq cəhdləri olub. Bundan ötrü yanvarın 18-də bütün rayonlara telefonoqramlar verildi ki, orduya qarşı heç bir müqavimət göstərilməsin. **Yanvarın 19-da, saat 20-də dəqiq məlum oldu ki, saat 24-də ordu hissələri insanların qırılmasına baxmadan hərəkətə keçəcək.** Həmin saatdan başlayaraq İdarə Heyətinin respublika rəhbərliyi ilə dialoqa girmək cəhdi baş tutmadı. Milli Müdafiə Şurası ilə birgə fəaliyyət də mümkün olmadı. Bakı şəhərinin müəyyən yerlərində ordunun qarşısını alan piketlərdən insanların dağılışmasının qarşısını almaq mümkün olsa da, müəyyən yerlərdə mümkün olmadı.

Yanvarın 20-dən, gecə saat 1-dən, qırğın başlayandan İdarə Heyəti üzvləri səhər saat 6-ya qədər dünyanın müxtəlif informasiya mərkəzlərinə



АЗӘРБАЈЧАН СОВЕТ СОСИАЛИСТ РЕСПУБЛИКАСЫ
АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА

АЛИ СОВЕТИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ | ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА

370152, Бакы, Нәриманов проспекти, 1 | 370152, Баку, проспект Нариманова, 1

№ ________ „20" января 1990 года

ЗАЯВЛЕНИЕ

Председателя Президиума Верховного Совета Азербайджанской ССР Кафаровой Э.М.

От имени Азербайджанского народа, всех граждан республики заявляю решительный протест в связи с грубым нарушением суверенитета Азербайджанской ССР и объявлением Президиумом Верховного Совета СССР чрезвычайного положения в столице республики г.Баку, во исполнение которого была проведена жестокая акция против мирного населения с применением тяжелой боевой техники и автоматического оружия, приведшая к многочисленным человеческим жертвам, среди которых молодежь, женщины, старики и дети.

Со всей ответственностью заявляю, что высшими органами власти и управления Азербайджанской ССР не принималось решения о введении чрезвычайного положения в г.Баку и не давалось согласия на принятие подобного решения Президиумом Верховного Совета СССР. Вся ответственность за пролитую кровь лежит на тех органах и тех должностных лицах СССР, которые принимали это решение и обеспечивали его непосредственное исполнение.

Азербайджанский народ никому не простит трагической гибели своих дочерей и сыновей.

Э.Кафарова

***E.Qafarovanın 20 Yanvarla bağlı etiraz sənədi***

Bakıda baş vermiş hadisələr və qırğınlar haqqında məlumat yaydı. Bu hücum nəticəsində 145  günahsız insan qətlə yetirildi, çoxlu sayda insanlar isə ağır yaralandı. Bu hadisədə ən çox AXC günahlandırıldı və 200-ə qədər hərəkat fəalı həbs edildi.

Qeyd edək ki, həmin dövrdə Azərbaycana rəhbərlik etmiş  şəxslərdən biri, Azərbaycan Nazirlər Sovetinin sədri olmuş Ayaz Mütəllibov sonradan mətbuata maraqlı açıqlamalar vermişdi. O, bildirmişdi  ki, Azərbaycan KP MK-nın o dövrdə Birinci katibi olmuş Ə. Vəzirov hələ 1990-cı ilin yanvarın 16-da vəzifədən uzaqlaşdırılıb Moskvaya getmişdi. Ölkəni Moskvadan gələn Primakovun rəhbərliyi ilə yüksək şəxslər idarə edirdi. Azərbaycanın bütün rəhbərliyi vəzifədən uzaqlaşdırılmışdı. Ordunun Bakıya girəcəyi xəbərini AXC liderlərinə həmin bu qrup demişdi. Hətta Mərkəzi Komitənin qarşısındakı mitinq zamanı camaatın qarşısında çıxış edən Primakov etiraf etmişdi ki, qoşunlar Bakıya girəcək, dağılın! Bundan əlavə, Primakov və Moskvadan gələnlər AXC liderləri ilə görüşlərində də bunu vurğulamışdılar. Onlar xalqı Mərkəzi Komitənin qarşısından uzaqlaşdırmaq istəyirdilər. Müxalifət buna rədd cavabı vermişdi. Maraqlısı budur ki, Azərbaycan rəhbərliyinin bu danışıqlardan xəbəri 20 Yanvardan sonra oldu. Əbdürrəhman Vəzirov Qırmızı Ordunun Bakıya daxil olacağını ehtimal edirdi, ancaq buna inanmırdı.

Yanvarın 20-də səhər Mərkəzi Komitə qarşısında mitinq keçirildi. Burada bir qadın da dünyasını dəyişdi. Mitinqlərdə çıxışlar edildi, hadisələrə siyasi qiymət verildi.

**1990-cı ilin yanvarın 20-də Bakı şəhərinin komendantı general-leytenant V. S. Dubinyakın 1 saylı əmri verildi**. Həmin əmrdə yazılırdı: “SSRİ Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 20 yanvar tarixli qərarına müvafiq olaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin 15 yanvar 1990-cı il tarixli “Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa vilayətlərdə fövqəladə vəziyyətin elan edilməsi haqqında” sərəncamı Bakı şəhərində də yayılmışdır.

İctimai qaydaların qorunması, qanunazidd hərəkətlərin qarşısının alınması, vətəndaşların həyati təhlükəsizliyinin təmin edilməsi, müəssisələrin normal işləməsini müdafiə məqsədi ilə **1990-cı ilin 20 yanvarından saat 23:00-dan komendant saatı** tətbiq edilir. Onun fəaliyyət vaxtı saat 23-dən səhər saat 6-ya qədərdir".

Yanvarın 21-dən başlayaraq AXC İdarə Heyəti Akademiyanın Rəyasət Heyətinin binasında fəaliyyətini davam etdirdi.

Yanvarın 21-də axşam saat 19-dan yanvarın 22-si səhər saat 6-ya qədər Ali Sovetin sessiyası keçirildi. Bu sessiyanın çağırılmasında, onun işinin baş tutmasında və lazımi qərarların qəbul edilməsində Xalq Cəbhəsinin böyük rolu oldu. Orada qəbul edilən qərarın isə ciddi əhəmiyyəti var idi. Həmin qərarda baş verən hadisələr Azərbaycanın suverenliyinə qarşı təcavüz və Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirilir. Sessiyada bu hadisələri araşdırmaq üçün deputat komissiyası yaradıldı. Komissiyaya AXC İdarə Heyətinin iki üzvü və Məclisin bir üzvü daxil edildi.

**Yanvarın 22-də AXC İdarə Heyətinin əksər üzvləri şəhidlərin dəfn mərasimində iştirak etdi.**

**Fevralın 2-də** Azərbaycana buraxılmış xarici jurnalistlərlə AXC birgə mətbuat konfransı keçirdi. AXC İdarə Heyətinin altı nəfər üzvü bu mətbuat konfransında iştirak etdi, jurnalistlərin suallarını cavablandırdı, əsl səbəblər haqqında mövqelərini şərh etdilər.

***Qaynaq:***

*1.http://modern.az/az/news/ Ayaz Mütəllibov: "Vəzirov Qırmızı Ordunun Bakıya girəcəyini ehtimal edirdi" - müsahibə 18.01.2017, 09:05*

*2. www.sherg.az/site/id-25096/Ayıbına_kor_olub,_sussun!19 yanvar, 2017-*

***Qeyd:*** *A.Mütəllibovun açıqlamalarına bəzi müxalifət təmsilçiləri narazılıq edərək onu qeyri-obyektivlikdə günahlandırmışlar.*

## AXC-NİN ACLIQ AKSİYALARI

1990-cı ilin 20 Yanvar hadisələrindən sonra Azərbaycan xalqının həyatında və ictimai-siyasi mühitdə çox ağır vəziyyət yaranmışdı. Hadisədən ötən bir neçə ay ərzində hadisəni törədənlər cəzalandırılmamış, Azərbaycanda demokratik hərəkatın boğulması prosesi sürətlənmiş, hərəkat fəalları qanunsuz olaraq təqib və həbs olunmuşdular. Hakimiyyət tərəfindən milli barışığa doğru addım atılmamışdı.




***AXC fəallarının aclıq aksiyası - İ.Qəmbərov və P.Hüseynov***

Mövcud vəziyyətdə mübarizə formalarından biri də aclıq aksiyalarının keçirilməsi idi. Bununla əlaqədar 1990-cı ilin iyulun 18-də AXC İdarə Heyətinin üzvləri Pənah Hüseynov və İsa Qəmbərov aclıq aksiyasına başlanılması ilə bağlı Prezident A. Mütəllibova müraciət etdilər.

**Həmin müraciətdəki tələblər:**

**1.** Azərbaycanda insan hüquqlarının pozulması, xalq hərəkatı fəallarının təqibi dayandırılsın. Siyasi motivlərə görə tutulmuş E.Məmmədov, R.Qazıyev, Q.Məmmədov, F.Allahverdiyev, S.Qafarov və başqaları azad edilsin.**2.** Demokratik seçki qanunu qəbul olunsun və demokratik seçki kampaniyasının əsas şərti kimi fövqəladə vəziyyət ləğv edilsin. **3.**Azərbaycan vətəndaşlarının təhlükəsizliyi, sərhədlərimizin bütövlüyünü təmin edən təsirli tədbirlər görülsün.

---

***Qaynaq:***
*Azərbaycan SSR Prezidenti A.N.Mütəllibova AXC İdarə Heyətinin üzvlərinin – P.Hüseynov və İ.Qəmbərovun müraciət. 18.08.1990" (P.Hüseynovun şəxsi arxivindən).*

## MƏSLƏHƏT ŞURASI

AXC yarandığı gündən bütün milli qüvvələri birləşdirmək, hakimiyyətlə müxalifətin Vətənin problemlərinin həlli naminə bir fəaliyyət göstərmək xəttinə üstünlük verib.

1990-cı ilin 20 Yanvar faciəsindən sonra isə belə münasibətlərin formalaşmasına ciddi ehtiyac var idi. Azərbaycanın tanınmış ziyalılarından yazıçı Anar, akademiklərdən Eldar Salayev, Azad Mirzəcanzadə, Şeyxülislam Allahşükür Paşazadə və digərləri AXC-yə iqtidarla danışıqlara getməyi təklif etdilər. 1990-cı ilin mayın 10-da Ali Sovet binasında dövlət rəhbərlərinin,

ziyalıların və AXC rəhbərlərinin görüşündə onların təmsilçilərindən ibarət **Məsləhət Şurası** yaradıldı. Mayın 17-də isə ölkə başçısı A. Mütəllibovun iştirakı ilə Məsləhət Şurasının ilk iclası keçirildi. Burada bir çox məsələlər (həbs olunanların azadlığa buraxılması, AXC-yə münasibət, fövqəladə vəziyyətin ləğv edilməsi, Ali Sovetə seçkilər, əsgərlik və s.) müzakirə edildi. Eyni zamanda hakimiyyət dairələri "Azadlıq" qəzetinin yenidən nəşrinə icazə verdi və AXC ilə hakimiyyət dairələri arasında isə Prezident İnstitutunun yaradılması razılığına gəlindi. **Mayın 18-də Azərbaycan Ali Sovetinin sessiyasında A.Mütəllibov Azərbaycan Prezidenti seçildi. Mayın 21-də isə o, 1 saylı fərmanını verdi: "Azərbaycan Demokratik Respublikasının elan olunduğu 28 May günü Azərbaycan dövlət quruluşunun dirçəliş günü elan edilsin".**



***AXC-nin qərargahı qarşısında mitinq. Əbülfəz Elçibəy çıxış edir***

Lakin bir müddət sonra A.Mütəllibov Məsləhət Şurasının yığıncaqlarında özü iştirak etmədi və Şura da səlahiyyətsiz bir quruma çevrildi. Bu, həm də AXC ilə hakimiyyət arasında münasibətləri daha da gərginləşdirdi.

Sonradan AXC Nəzarət Təftiş Komissiyası Məsləhət Şurasında iştirakına görə Əbülfəz bəyə töhmət elan etdi.

---

***Qaynaq:***

*Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999.*

## DEMOKRATİK AZƏRBAYCAN SEÇKİ BLOKU

1990-cı ilin iyulun 8-də Bakıda Azərbaycan Demokratik Qüvvələrinin forumu keçirildi. Forumda 40-dan çox ictimai təşkilat, cəmiyyət, partiya, milli azlıqların mədəni mərkəzləri və başqa birliklərin nümayəndələri iştirak edib.

Azərbaycan Demokratik Qüvvələri forumunun bəyanatı qəbul edildi və Suverenlik Uğrunda Demokratik Azərbaycan Seçki Bloku yaradıldı. Bloka 50-dən artıq təşkilat daxil oldu. Bundan əlavə Demokratik Azərbaycan Seçki Blokunun manifesti hazırlanıb "Azadlıq" qəzetində çap edilib.

Namizəd göstərilənlər: AXC Ağsaqqallar Şurasının üzvlərindən, İdarə Heyətinin üzvlərindən, "Azadlıq" qəzetinin redaksiyasından və AXC rayon şöbələrinin fəallarından ümumilikdə 122 nəfər namizəd irəli sürülmüşdü.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, 13 iyul, 1990, №5 (8).*

**17 MART REFERENDUMU**

1991-ci ilin martın 7-də Azərbaycan Ali Soveti Müstəqil Azərbaycan blokunun etirazına baxmayaraq, SSRİ-nin saxlanması məqsədi ilə 17 Martda referendum keçirməyi qərara aldı. AXC Məclisi bu qərarı Azərbaycan xalqının mənafeyinə zidd adlandırdı və aclıq edən Müstəqil Azərbaycan bloku deputatlarını dəstəklədi. Həmin günlərdə AXC-nin təşkilatçılığı ilə referendum əleyhinə yüz minlərlə imza toplandı.

Azərbaycan hakimiyyətinin 95 faizlik referendumu AXC– hakimiyyət ziddiyyətlərini daha da kəskinləşdirdi.

**AXC RƏHBƏRLİYİNDƏKİ GƏRGİNLİYƏ ETİRAZ. "SƏKKİZ İŞIQ" QRUPUNUN BƏYANATI**

AXC rəhbərliyində, xüsusən İdarə Heyəti üzvləri arasında olan münaqişələrə etiraz olaraq təşkilatda üç fəal cəbhəçi (Yunus Oğuz, Arif Rəhimoğlu, Aydın Kərimov) "Səkkiz işıq" qrupunun bəyanatı" adlı sənəd hazırlayıb müzakirəyə verdilər. Həmin bəyanatın sonunda 8 prinsip verildiyindən, sənədi də "Səkkiz işıq" adlandırdılar. Həmin prinsiplər: 1) Milliyyətçilik; 2) Məfkurəçilik; 3) Dövlətçilik; 4) Həmrəylik; 5) Xalqçılıq; 6) Demokratiya və hürriyyətçilik; 7) Sosial ədalətçilik; 8) Öncülçülük.

Bəyanatda yazılırdı: “Artıq uzun müddətdir ki, AXC-nin İdarə Heyəti üzvləri arasında gedən münaqişələrin acı nəticələrini dadmaqdayıq. Münaqişələrdə strategiya və taktikanın adları çəkilsə də, əslində bütün ziddiyyətlər üzvlərin xarakter və müxtəlifliyindən doğmuş və min təəssüflər ki, indiyədək ortaq məxrəc tapılmamışdır. Tərəflərin bir-birinə qarşı olan münasibətləri sübut edir ki, hələlik onların ortaq məxrəcdə birləşə bilməsi də gerçək deyil. AXC-nin seçkili orqanlarında bir neçə dəfə bu münaqişələr müzakirə edilsə və onların aradan qaldırılmasına cəhd göstərilsə də, uğur qazanılmamış, əksinə, İdarə Heyətindəki münaqişələr AXC-nin sıravi üzvlərinə də sirayət etmiş, nəticədə AXC-də barışmaz qütblənmə yaranmışdır. Halbuki vaxt gözləmir və indiki mürəkkəb siyasi proseslərin gedişində, müstəmləkələrin azadlığa çıxdığı bir vaxtda xalqımızın birləşmiş qüvvəyə ehtiyacı gündən-günə artmaqdadır”.

Bəyanatın sonunda “Səkkiz işıq” qrupunda birləşənlər ümumi platformalarının aşağıdakı tezislərini bəyan edirdilər: “Strategiyamız: 1. Yaxın məqsədimiz – müstəqil, demokratik Şimali Azərbaycan Respublikası; 2. Bölücülük və parçalanmalar (yerliçilik, tayfabazlıq, məzhəbçilik, mafiyaçılıq, dəstəbazlıq və s.); 3. Siyasi demokratik təşkilatlanmanın zəifliyi; 4. Müxtəlif qüvvələrin pərakəndəliyi; 5. Saxta beynəlmiləlçilik və manqurtçuluq; 6. Yoxsulluq, işsizlik və s. Azərbaycanın xarici hədəfləri – İttifaq, dövlət və müstəmləkəçilik; 2. Sov.İKP. 3. Totalitar rejim. 4. Millətlərarası münaqişə və s.”

Bu sənəd mətbuatda çap edilmiş, sonradan 1991-ci ildə AXC-nin Birinci qurultayında oxunub qəbul edilmişdir.

***Qaynaq:***
*Yunus Oğuzun şəxsi arxivi.*

## DÖVLƏT FÖVQƏLADƏ VƏZİYYƏT KOMİTƏSİ (QKÇP) AXC-NİN MÖVQEYİ (19 Avqust 1991-ci il)

**1991-ci ilin 19 avqustunda Dövlət Fövqəladə Vəziyyət Komitəsi** (QKÇP) çevriliş edərək SSRİ Prezidenti M.S.Qorbaçovu devirdi və yenidən diktatura rejimi yaratmaq cəhdində oldu. AXC rəhbərliyi bu çevrilişə

rəsmən etirazını bildirdi. Qeyd edək ki, bu hadisəyə SSRI respublikaları içərisində ilk dəfə olaraq Litva Ali Sovetinin sədri Vitautas Landşbergis və AXC sədri Əbülfəz Elçibəy etiraz bildirmişdi. O dövrdə İranda səfərdə olan A.Mütəllibov isə QKÇP-ni dəstəklədiyini söyləmişdi. **Avqustun 22-də** M.Qorbaçov yenidən hakimiyyətə qayıtdıqda A.Mütəllibov çıxılmaz vəziyyətə düşmüşdü.

Ondan bir gün sonra –avqustun 23-də A.Mütəllibova yaxın **Qardaşlıq** və **Tövbə** cəmiyyətlərindəki qüvvələr AXC-nin Sovetski (indiki Nərimanov) küçəsində yerləşən qərargahını dağıdıb, cəbhəçiləri (o cümlədən Ə.Elçibəyi) döydülər.

**Avqustun 26-da** fövqəladə vəziyyət şəraitində acıqlanmış xalq kütləsi əliyalın zirehli maşınların cərgəsinə hücum etdi. Axşama yaxın isə Azadlıq meydanında mitinq keçirildi. Mitinqdə bu tələblər irəli sürüldü: **1)** Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası çağırılsın**. 2)** Bakıdan fövqəladə vəziyyət götürülsün. **3)** Prezident seçkiləri dayandırılsın; Kommunist partiyası ləğv edilsin; Ali Sovet buraxılsın; seçkilər haqqında yeni qanun qəbul edilsin; Milli Ordu yaradılsın.

AXC-nin təzyiqləri altında hakimiyyət güzəştə getmək məcburiyyəti qarşısında qaldı. **Mitinqin səhərisi günü "Kommunist" qəzetinin adı dəyişdirilib "Xalq qəzeti" oldu. Lenin meydanı "Azadlıq" meydanı adlandırıldı. Həmin meydandan AXC-nin 28 avqustda keçiriləcək mitinqinədək Leninin heykəli götürüldü.**

Sabahı günü Ali Sovetin növbədənkənar sessiyası çağırıldı və 30 avqustda Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edərək fövqəladə vəziyyəti götürdü, milli özünümüdafiə qüvvələri yaratmağa razılıq verdi.

Qeyd edək ki, hadisələrə təsir edən bir amil də həmin ilin avqustun 24-də Ukraynanın öz müstəqilliyini elan etməsi idi.

## 8 SENTYABR 1991-Cİ İL, PREZİDENT SEÇKİLƏRİ

SSRİ Prezidenti M.S.Qorbaçovun QKÇP dövründən sonra A. Mütəllibovla münasibət gərginliyi aradan götürülmüşdü. Qorbaçovun dəstəyini qazanan A.Mütəllibov 1991-ci ilin sentyabrın 8-də alternativ namizədlərin

olmadığı seçkidə 98,5 faiz səs "toplayaraq" yenidən Azərbaycanın prezidenti "seçildi".

Bakıda isə 8, 13, 20, 21 sentyabrda güclü etiraz mitinqləri keçirildi.

---

***Qaynaq:***
*Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999.*

## MİLLİ ŞURA YARADILIR

Prezident Ayaz Mütəllibovla AXC rəhbərliyi arasında 1991-ci ilin 3-4 oktyabrında aparılan danışıqlarda ayın 8-də Ali Sovetin sessiyasının çağırılması və orada bəzi məsələlər razılaşdırıldı. Bu razılaşma əsasında Ali Sovetin sessiyası 8-11 oktyabrda 1991-ci ildə Milli Məclis yaradılmasının müzakirəsinə başladı, 9 oktyabrda isə Milli Ordunun yaradılması haqqında qərar qəbul etdi.

Sessiyyanın 16-19 oktyabrda davamı zamanı Milli Şura yaradılmasına razılıq verildi. Orada SSRI ilə iqtisadi müqavilə bağlamaq ideyası rədd edilərək, Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. 30 oktyabrda Milli Məclis "Ali Sovetin Milli Şurası" kimi təsdiq edildi. 50 deputatdan (25+25) ibarət Milli Şuranın 27 noyabrda ilk iclası keçirildi.

## 27 FEVRAL 1992-Cİ İL

AXC sədri Əbülfəz Elçibəy bəyanat verərək, Qarabağda azərbaycanlılar yaşayan **47-dək yaşayış** məntəqəsinin dağıdıldığını bildirdi.

AXC-nin fevralın 29-na təyin etdiyi mitinq təxirə salınır.

**1992-ci ilin martın 4-də** AXC Ali Məclisinin sessiyasında Prezident seçkilərinə münasibət aydınlaşdırıldı. Məlum oldu ki, AXC-nin 49 rayon şöbəsi bunun lehinə, 4-ü əleyhinədir və razı olanlar prezidentliyə Ə. Elçibəyin namizədliyini irəli sürmək istəyir.

Müxalifətin tələbi ilə martın 5-də çağırılan Ali Sovetin fövqəladə sessiyasında sədr E. Qafarova istefa verdi və onun yerinə Yaqub Məmmədov seçildi. Martın 6-da həm müxalifət deputatlarının, həm də Ali Sovet binası qarşısına yığışmış xalqın təzyiqi altında **prezident Ayaz Mütəllibov istefa verdi, prezident səlahiyyətlərini Yaqub Məmmədov icra etməyə başladı.**

Azərbaycan Ali Sovetinin 6 mart tarixli qərarı ilə Ali Sovet Prezident institutunu ləğv etməyi tələb edən AXC-yə koalisyon hökumətə qatılmağı təklif etdi. AXC Ali Məclisinin 8 Mart sessiyası bu təklifin müzakirəsinə həsr olundu. Məclisin toplantısından sonra koalisyon hökumət yaradılması haqqında **Baş Nazir Həsən Həsənovla AXC-nin sədri Əbülfəz Elçibəy** arasında razılaşma protokolu imzalandı. Sonradan Ali Sovet müxtəlif bəhanələrlə bu fikirdən uzaqlaşdı və AXC-nin milli razılıq hökuməti qurmaq istəyi gerçəkləşmədi.

## PREZİDENT SEÇKİLƏRİNƏ DOĞRU
***(7 İyun 1992-ci il)***

Azərbaycan Ali Sovetinin **25 martda** keçirilən fövqəladə sessiyasında Rəhim Qazıyev prezidentin elə bu yığıncaqda seçilməsini təklif etsə də, qızğın mübahisədən sonra prezident seçkilərinin **7 iyun 1992-ci ildə** keçirilməsi qərara alındı.

**27 mart 1992-ci il**

"AXC Ali Məclisinin 27 martda keçirilən sessiyası prezident seçkilərində AXC-nin iştirak etməsini qərara aldı, ancaq Ə.Elçibəyin namizədliyinin rəsmən irəli sürülməsini sonraya saxladı".

"AXC-nin **4 apreldə** keçirdiyi mitinqində İsa Qəmbərov bəyan etdi: "Biz qərara gəlmişik ki, hakimiyyət Ə.Elçibəyin şəxsində xalqın əlinə keçsin".

"**9 apreldə** AXC Ali Məclisinin fövqəladə sessiyası Əbülfəz Elçibəyi Azərbaycan prezidentliyinə rəsmən namizəd göstərdi"."Ə.Elçibəyin prezident seçilməsi üçün müdafiəsinə **690 min imza** toplanır." "**Hakimiyyət təmsilçiləri** (təbii ki, Rusiyanın təhriki ilə) seçkiləri dayandırmaq üçün müxtəlif bəhanələrə əl atırlar."

"AXC-nin **27 aprel** mitinqində bildirildi ki, hakimiyyət prezident seçkilərini zorakılıqla yarımçıq saxlasa, biz Əbülfəz bəyi prezident elan edəcəyik".

"**Mayın 2-də** Süleyman Dəmirəllə MHP başqanı Alparslan Türkeş Bakıya gəlir və mayın 3-də Azadlıq meydanında AXC-nin mitinqində çıxış edib Elçibəyi dəstəklədiklərini bildirirlər".

"Seçkini pozmaq üçün Rusiya hərbçiləri **mayın 8-də** Şuşanı ermənilərə təslim edirlər. Şuşanın əldən getməsi ilə Azərbaycanda sabitlik ciddi

olaraq pozulur. Lakin AXC-nin bütün mərkəzi və yerli qurumlarının fəallığı ilə ölkədəki gərginliyin qarşısı alınır”.

## AXC SƏDRİ ƏBÜLFƏZ ELÇİBƏY PREZİDENTLİYƏ NAMİZƏD GÖSTƏRİLİR

1992-ci ilin aprelin 9-da AXC Ali Məclisinin fövqəladə sessiyasında Azərbaycan Respublikası prezidentliyinə seçkilərə AXC namizədinin irəli sürülməsi müzakirə edildi.

**Respublika prezidentliyinə namizəd göstərilməsi üçün ilk söz alan Bakı və Kəndlər Birliyi cəmiyyətinin sədri Nəsir Ağayev oldu.** O, prezidentliyə AXC sədri Əbülfəz Elçibəyin namizədliyini təklif etdi. Ondan sonra söz istəyənlər də DQB-dən Abbas Abdulla, AXC Zəngilan rayon şöbəsi təmsilçisi, Nardaran kəndinin ağsaqqallarından Mustafa kişi, AXC Abşeron rayon şöbəsindən M.Axundov, Qax (Oğuz) rayonundakı cəbhəçilərlə birgə həmin ərazidə yaşayan 8 min nəfər gürcünün adından AXC Qax rayon şöbəsinin nümayəndəsi, Azərbaycandakı 12 siyasi partiyanın adından F.Ağamalıyev və əksər natiqlər Ə.Elçibəyin namizədliyinə tərəfdar çıxdılar.

AXC Ağdam rayon şöbəsinin əlaqəçisi Təhmasib bəy **Tofiq Qasımovun namizədliyini** irəli sürdü. Lakin ondan sonra çıxış edən İsgəndər Həmidov bildirdi ki, Tofiq Qasımov İsgəndər Həmidovdan xahiş edib ki, namizədliyi irəli sürülsə, Ə. Elçibəyin xeyrinə onun adından namizədlikdən imtina etsin. Ə. Elçibəyin namizədliyini Ali Məclisin bütün üzvləri müdafiə etdiyi üçün təklif edilib ki, namizədlik açıq səsvermə yolu ilə səsə qoyulsun. Respublika prezidentliyinə **Ə. Elçibəyin namizədliyinin yekdilliklə** qəbulundan sonra ikinci məsələ üzrə Sabit Bağırov çıxış etdi.

---

***Qaynaq:***

*İ. Musayev. Mən xalqımın əsgəriyəm. “Azadlıq”, №29(129). 10 aprel, 1992.*

## AYAZ MÜTƏLLİBOVUN QAYIDIŞI

**1992-ci İL 14 MAY.**

1992-ci ilin mayın 14-də Azərbaycan Ali Soveti bir qərar qəbul etdi. Ali Sovet Ayaz Mütəllibovun istefası haqda öz qərarını ləğv etmiş və Par-

lament ətrafında toplanmış silahlıların təzyiqi altında onu yenidən prezidentliyə qaytarmışdır. Qeyd olunurdu ki, Ali Sovetin bu qərarı milli mənafeyimizə xəyanət olmaqla bərabər, həm də qeyri-qanunidir. Erməni təcavüzünün dəstəyinin, vəziyyəti gərginləşdirməyin məqsədi odur ki, Azərbaycan MDB-yə məcburən daxil edilsin. Çünki mayın 15-də Daşkənddə müqavilə imzalanmalıdır.

Mayın 14-də Respublika Ali Sovetinin fövqəladə sessiyasında çevriliş baş verdi. Martın 6-da xalqın tələbi ilə mövcud Konstitusiyaya uyğun olaraq istefa vermiş keçmiş prezident Ayaz Mütəllibovu partnomenklatura yenidən hakimiyyətə gətirdi.

A. Mütəllibovu müdafiə edən **Hacı Əbdülün və Ağa Axundovun** silahlı dəstələri **11 (on bir) gün Ali Sovetin qarşısında fasiləsiz mitinq keçirdilər** (onlar əvvəl buraya Murtuz Ələsgərovun başçılığı ilə toplaşıb, Heydər Əliyevin seçkidə iştirakına şərait yaratmaqdan ötrü seçki qanunundan yaş senzi ilə bağlı maddənin çıxarılmasını tələb edənləri qovmuşdular). Onların tələbi ilə guya Xocalı faciəsinin səbəblərini araşdırmaq üçün Ali Sovetin sessiyası çağırıldı və burada A. Mütəllibov yenidən Prezidentliyə qaytarıldı. O, ilk çıxışında ölkədə diktatura quracağını bildirdi.

Həmin vaxtda AXC binası qarşısında xalqın əzəmətli izdihamı toplaşdı. Bu vəziyyəti görən **A.Mütəllibov AXC rəhbərliyi ilə əlaqələr qurmağa başladı.** A.Mütəllibovun yaxını sayılan **Maştağalı Tarixlə Ə.Elçibəy arasında** olan danışıqlar faydasız oldu. Bir qədər sonra **A.Mütəllibov Xalq şairi B.Vahabzadəni** və XTMD-nin (Xüsusi Təyinatlı Milis Dəstəsi) rəisi **Rövşən Cavadovu** danışıqlara göndərdi. Bu danışıqlar da nəticə vermədi.

AXC rəhbərliyində hadisələrin sonrakı inkişafı müzakirə edildi və qərara alındı: "A.Mütəllibova qarşı xalq etirazı təşkil etmək!" Ə.Elçibəy, İ.Həmidov və T.Seyidov isə xalq yürüşünün istiqamətini müəyyənləşdirdilər (qeyd edək ki, bu hadisələrdə AXC mövqeyindən çıxış edən Bakı Kəndlər Birliyi və onun aparıcı şəxslərindən olan Hacı Zakir və digərləri mühüm rol oynadılar).

Həmin vaxt AXC üzvü **Qurban Məmmədov da Naxçıvana zəng edib Heydər Əliyevlə danışmış** və onun buraya toplaşmış insanlarla həmrəy olduğunu bildirmişdi.

Həmin gün AMİP sədri E.Məmmədovun adından qərargaha gələn partiya üzvləri – Nazim İmanov və Babək Hüseynoğlu Etibar bəyin Türkiyədən gələ bilmədiyini, onun da Mütəllibov iqtidarını tanımayaraq AXC-ni dəstəklədiyini rəsmən bəyan etdilər.

AXC rəhbərliyi planlı hərəkət edirdi. Belə ki, etiraz yürüşü zorakılqla dayandırılsa və AXC rəhbərləri məhv edilərdisə, Cəbhəyə başçılıq bir səfirlikdə yerləşəcək Tofiq Qasımova tapşırılmış, hadisələr haqqında dünyaya məlumat yaymaq üçün Nəcəf Nəcəfov və Sabit Bağırov Türkiyəyə göndərilmişdi.

**AXC qərargahı qarşısına toplaşmış on minlərlə insan burada mitinq keçirərək izdihamlı nümayişə çıxdı və "Rəşid Behbudov" – "Abbasqulu ağa Bakıxanov" – "İnşaatçılar" – "Hüseyn Cavid" prospekti ilə yürüş edərək,** öncə Ali Sovetin və Teleradio şirkətinin binalarını, daha sonra MTN və Prezident Aparatını, başqa mühüm obyektləri tutdu. A.Mütəllibov Rusiyanın hərbi təyyarəsi ilə Moskvaya aparıldı.

**Həmin gün – 1992-ci ilin mayın 15-də gecə yarısı AXC sədri Ə.Elçibəy xalqa müraciət edib, 15 may qələbəsi münasibəti ilə təbrik etdi.**

---

***Qaynaq:***

*Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999.*

## 1992-Cİ İL 15-19 MAY HADİSƏLƏRİ

A.Mütəllibovun hakimiyyətdən getmək məcburiyyətindən sonra mayın 16-da Ali Sovetin sədri, prezidentin səlahiyyətlərini icra edən Yaqub Məmmədov, Baş Nazir Rəhim Hüseynov, AXC rəhbərliyi və AMİP rəhbərliyi arasında görüş keçirildi və yeni hökumət kabinetinin formalaşdırılması müzakirə edildi.

Müzakirədə Yaqub Məmmədov MTN rəhbəri vəzifəsinə Fəxrəddin Təhməzovun namizədliyini irəli sürdü. Yaqub Məmmədov və Rəhim Hüseynov - hər ikisi Müdafiə Naziri Rəhim Qazıyevin yenidən vəzifədə qalmasını tövsiyə etdilər. Daxili İşlər Naziri vəzifəsinə AXC nümayəndəsi İsgəndər Həmidovun namizədliyini İsa Qəmbərov irəli sürd. Sonra İsa Qəm-



*İlk mitinqlərdə bayraq sancan fədakar*

bərov, Arif Hacıyev AXC nümayəndəsi Sülhəddin Əkbərovun Təhlükəsizlik Nazirinin birinci müavini olmasını təklif etdilər. Yığıncaqda Vahid Əhmədov Baş Nazirin birinci müavini, Məmməd İsmayıl Teleradio Şirkətinin sədri vəzifəsinə irəli sürüldülər və elə həmin gün Y. Məmmədovun fərman və sərəncamları ilə vəzifələrə təyin edildilər.

**Mayın 18-də** keçirilən Ali Sovet sessiyasında AXC sədrinin müavini, millət vəkili **İsa Qəmbərov Ali Sovetin sədri** seçildi və eyni zamanda Prezident səlahiyyətlərini icra etməyə başladı.

Ə.Elçibəy Baş Nazir vəzifəsinə AMİP sədri Etibar Məmmədovun namizədliyini təklif etsə də, E.Məmmədov güc qurumlarının da ona tabe olması şərti ilə bu vəzifəni qəbul etməyə razılaşdı. E.Məmmədov bu tələbi yerinə yetirilmədiyindən , sonrakı müzakirələrə qoşulmadı. Baş Nazir vəzifəsinin icra edilməsi Rəhim Hüseynova tapşırıldı.

---

***Qaynaq:***
*Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999.*

## AZƏRBAYCAN KP MK-NIN BİRİNCİ KATİBLƏRİ İLƏ PROBLEMLƏR

1988-ci ilin may ayının 21-də Sov. İKP MK-nın katibləri E.Liqaçov və G.Razumovskinin iştirakı ilə keçirilən plenumda K. Bağırov səhhətinə görə Azərbaycan KP MK-nın Birinci katibliyindən azad olundu. Onun yerinə Ə.Vəzirov təyin edildi.

Ə.Vəzirov Azərbaycanda fəaliyyətə başladığı gündən **"Əliyevçiliklə"** də mübarizəyə başladı ("Əliyevçilik" - Azərbaycana uzun müddət başçılıq etmiş Heydər Əliyevin idarəçiliyi). Bu tapşırığı o, təbii ki, həm də SSRİ dövlətinin başçısı M.Qorbaçovdan almışdı.

Ə.Vəzirovun bu fəaliyyəti Heydər Əliyevə yaxın olan adamları, xü-

susən **Naxçıvan bölgəsindən olan** vəzifə sahiblərini narazı salırdı (hətta bir əmrlə h.Əliyevə yaxınlığı söylənilən dörd rektoru işdən uzaqlaşdırmışdı). Həmin adamlar Ə.Vəzirova qarşı etirazlara açıq formada olmasa da, alt qatlardan dəstək verirdilər. Bu adamların uzun müddət vəzifə tutduqlarını, böyük maddi sərvətə sahib olduqlarını da buraya əlavə etsək, onda Ə.Vəzirovun ciddi problemlə üzləşdiyi qeyd edilməlidir. Digər tərəfdən həmin adamların dəstəyini hiss edən müəyyən insanlar AXC sıralarında olaraq, bu təşkilatın fəaliyyətindən bəhrələnib Ə.Vəzirova qarşı da çıxışlar edir, onu zəiflədirdilər.

H.Əliyevə yaxın insanlar, müxtəlif qruplar noyabr mitinqlərindən öz maraqları üçün faydalanmağa çalışırdı. Əgər buraya mitinqin son günündə hamının dağılışması razılığının pozulub yenidən davam etdirilməsi qərarına gətirilub çıxarılmasına diqqət etsək, maraqlı situasiyalar görərik.

Ə.Vəzirovdan sonra hakimiyyətə gələn **A.Mütəllibovla** isə **Ermənistandan qaçqın düşən həmyerlilərimizin** problemləri yaşandı. Onların Bakıda yerləşdirilməsinə mane olan A. Mütəllibova qarşı bu bölgənin insanları aqressiv münasibətdə oldular. Həmin bölgənin də AXC sıralarında olan müəyyən insanları bu təşkilatın gücündən A. Mütəllibova qarşı da istifadə etdilər.A.Mütəllibova yaxın olan **"Qardaşlıq"** təşkilatı isə haqsız əməllər törədib cəmiyyətdəki qarşıdurmanı artırırdı.

Sonradan hakimiyyətə gətirilən H.Əliyev isə Naxçıvan və Ermənistan bölgələrindən olan insanların, eləcə də keçmiş Kommunist Partiyası kadrlarının gücündən faydalanıb, Azərbaycana ikinci dəfə yenidən rəhbərlik etdi.

## ƏBDÜRRƏHMAN VƏZİROVUN AXC İLƏ İŞLƏMƏK CƏHDLƏRİNİN POZULMASI

AXC-nin bəzi yaradıcıları **Ə.Vəzirovla** işləməyin mümkünlüyünü qeyd edirdilər. Hər halda, AXC bir təşkilat olaraq Ə.Vəzirovun dövründə qeydə alındı. AXC rəhbərliyinə daxil olan şəxslərlə Ə.Vəzirov mütəmadi olaraq görüşür, problemləri birgə həll etmək təklifini irəli sürürdü.

Azərbaycanın müstəqilliyi ilə bağlı addımların tədricən atılmasını istəyən, yəni Moskva ilə ehtiyatlı davranmağın tərəfdarı olan Ə.Vəzirov bəzən düzgün anlaşılmırdı. Ə.Vəzirov müstəqillik məsələsi ilə bağlı müraciət formasını seçir, bəzi AXC liderləri isə mütləq bunun qanun formasında qəbulunu tələb edirdilər.



2 -

6. АХЧ рәсми гејдијјатдан кечирилсин вә онун нормал фәалијјәти үчүн шәраит јарадылсын.

7. Сессијада Ерменистандан вә Гарабагдан олан гачгынлар мәсәләси илә мәшгул олан депутат комиссијасы јарадылсын.

8. Әмәк коллективләринин вә һәмкарлар иттифагынын гәрары илә тә'тил күнләринин орта әмәк һагги өдәнилсин.

9. Митинг вә тә'тил иштиракчыларынын тә'гиб олунмасына јол верилмәсин. Тәһтил күнләри тутуланлар сессијајадәк азад олунсунлар.

10. Сессијанын кедиши телевизија илә ~~[illegible]~~ трансијасија едилсин.

Бу протоколун мәтни сентјабрын 13-дә телевизија вә радио илә халга чатдырылсын. ~~[illegible]~~

Кәстәрилән шәртләрә риајәт олундугу тәгдирдә тә'тилләр дајандырылыр.

РАЗЫЛАШДЫРЫЛМЫШДЫР

ИЧРАСЫ ТАПШЫРЫЛМЫШДЫР:

В.П.Полјаничко

Р.Ә.Әлијев

***AXC-Ə.Vəzirov razılaşma protokolu, 13 sentyabr 1989-cu il***

Azərbaycan Ali Sovetinə keçiriləcək seçkilərdə Ə.Vəzirov “**360 yerdən 100-150-si sizin olsun”** təklifini irəli sürmüşdü. Lakin bəzi AXC liderləri “yox, biz buna razılaşmırıq, **100 faiz yer hamısı bizim olmalıdır”.** Ə.Vəzirov demişdi: “Xalqımıza hörmət etmək istəyirdim, imkan vermədilər. Heyif!”. Ə.Vəzirov - AXC yaxınlaşmasını istəməyən müəyyən qrup insanlar sanki bilərəkdən və kimlərinsə tapşırığı ilə mitinqlərdə, toplantılarda qışqırırdılar: “Vəziryan, Vəziryan!”

Ə.Vəzirov isə hər ayda bir dəfə, bəzən həftədə bir dəfə AXC liderləri ilə görüşür, onlarla məsləhətləşirdi. Sonradan başda Ə.Elçibəy olmaqla bəzi AXC liderləri də Ə.Vəzirovla, bəziləri isə A.Mütəllibovla da birgə fəaliyyətin davam etdirilməməsindən təəssüfləndiklərini bildirirdilər.

## ƏBÜLFƏZ ELÇİBƏY PREZİDENT SEÇİLİR
### *(7 İyun 1992-ci il)*

1992-ci ilin 15-19 may hadisələrindən sonra Əbülfəz Elçibəyin prezident seçilməsi uğrunda gərgin mübarizə başladı. Mayın 21-də Nizami Süleymanov öz namizədliyini yenidən irəli sürdü. O, bir qədər əvvəl – Ayaz Mütəllibovun qayıdacağı ərəfədə – 11 mayda seçkiləri təxirə salmaq, müvəqqəti koalisiya hökuməti yaratmaq tələbləri ilə namizədliyini geri götürmüşdü. AMİP sədri Etibar Məmmədov da “İndi seçki keçirmək vaxtı deyildir” bəyanatı ilə namizədliyini geri götürdü. Bundan sonra demokratik qüvvələrə qarşı olanlar N.Süleymanovu dəstəkləməyə başladılar.

İyunun 6-da prezidentliyə namizəd Ə.Elçibəy AXC qərargahında mətbuat konfransı keçirdi.İyunun 7-də isə Azərbaycanda keçirilən prezident seçkilərində AXC sədri Ə.Elçibəy qalib gəldi.

ABŞ Dövlət Departamenti ertəsi gün bəyan etdi: Azərbaycanda ilk dəfə demokratik seçkilər keçirilib, bizim müşahidəçilər qrupundan və ABŞ-ın Bakıdakı səfirliyindən seçkilərdə qanun pozuntusuna dair heç bir məlumat alınmayıb; bu bir daha Azərbaycanın yeni rəhbərliyinin beynəlxalq hüquq və qanun normalarına sadiq olduğunu təsdiq edir”.

İyunun 13-də Mərkəzi Seçki Komissiyası prezident seçkisinin nəticələrini rəsmən açıqladı. Əbülfəz Elçibəy – 59,4 faiz, (1.829.448 nəfər), Rafiq Abdullayev (Turabxanoğlu) – 0,5 faiz, İlyas İsmayılov – 0,7 faiz, Yaqub Məmmədov – 1,7 faiz, Nizami Süleymanov – 33 faiz. Prezidentin 45 dəqiqəlik andiçmə mərasimi 1992-ci ilin iyunun 16-da Milli Məclisin binasında keçirildi.



***Əbülfəz Əliyev (Elçibəy)***

---

***Qaynaq:***
*Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999.*

**ƏBÜLFƏZ ELÇİBƏY** ***(24 iyun 1938-22 avqust 2000)***

Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) 24 iyun 1938-ci ildə Naxçıvan MR-nın Ordubad rayonunun Kələki kəndində anadan olub. 7 illik Unuskənd məktəbini bitirdikdən sonra Ordubad şəhər 1 saylı orta məktəbində təhsilini davam etdirib. 1957-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olub. Buranı bitirdikdən sonra (1962) təyinatla SSRİ Hidrolayihə İnstitutunun Bakı şöbəsində tərcüməçi işləyib. 1963-cü ilin yanvarında Misir Ərəb Respublikasına göndərilən Əbülfəz bəy 1964-cü ilin okyabrına kimi Asuan bəndinin tikintisində tərcüməçi kimi çalışıb. Xarici ezamiyyətdən dönərək 1965-ci ildə BDU-nun aspiranturasına daxil olub və aspirantura təhsilini 1968-ci ildə uğurla tamamlayıb. “Tulunilər dövləti (868-905)” mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb (1969). BDU-nun “Asiya və Afrika ölkələri tarixi” kafedrasında müəllim və baş müəllim işləyib (1968-1975).

1975-ci ilin yanvarında Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi onu tələbələr arasında millətçi və antisovet təbliğatı aparmaq adı ilə həbs edir və 17 iyul 1976-cı ilədək siyasi dustaq olaraq azadlıqdan məhrum edir. Həbsdən

buraxıldıqdan sonra bir müddət işsiz qalır. 1976-cı ilin dekabrında Azərbaycan EA Əlyazmalar İnstitutunda kiçik elmi işçi kimi elmi fəaliyyətə başlayır (16.07.1992-ci ilədək). 1988-ci ildə Azərbaycan Xalq Hərəkatı başlayanda məhz Elçibəy onun liderlərindən biri oldu. O, hərəkatın təşkilatlanmış forması olan Azərbaycan Xalq Cəbhəsinin sədri seçildi.

## GİZLI TƏŞKİLATLARDA FƏALİYYƏTİ (1960-1970-Cİ İLLƏR)

1960-cı ildə Əbülfəz Elçibəy (o zaman - ADU) tələbə yataqxanasının 40 saylı otağında yaşayan yoldaşları – Rafiq İsmayılov, Zakir Məmmədov, Malik Mahmudov və başqaları ilə birgə gizli siyasi dərnək yaradaraq, universitet tələbələri arasında təbliğat aparmağa, onları Azərbaycandakı müstəmləkə siyasətinə qarşı mübarizəyə çağırmağa başladı. Yataqxana sakinlərindən Rüstəm Eminov və Alim Xasayev də onlarla əməkdaşlıq edirdi.

1962-ci ildə həmin şəxslər (Əbülfəz bəy, Malik Mahmudov, Alim Xasayev və Rafiq İsmayılov) gizli təşkilatın özəyini yaratdılar. Azərbaycanın Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Nurəddin Rzayev kimi görkəmli ziyalılarını da cəlb etməklə, onların ağsaqqallığı altında xüsusən gəncləri vətənin və millətin azadlığı işinə hazırlamaq istəyində idilər. Ancaq çox çəkmədən onlar universiteti bitirərək ayrı-ayrı yerlərə göndərildi və təşkilatın işində fasilə yarandı. Ə.Əliyevi (Elçibəyi) 1968-ci ildə BDU-nun (o vaxt – ADU) "Asiya və Afrika ölkələri tarixi" kafedrasında müəllim vəzifəsində çalışdı.

Bu vaxt artıq gizli təşkilatın üzvləri yenidən Bakıya dönmüş və öz fəaliyyətlərini bərpa etmişdilər. Malik Mahmudov işlədiyi ərəb ölkələrindən gələrkən oradan Müsavat Partiyasının Proqramını da taparaq özü ilə gətirmişdi (o, bu proqramı ərəb dilindəki materialların arasında ərəb əlifbası ilə türkcə köçürmüşdü). Təşkilatın fəaliyyətinin əsasında məhz Müsavatın Proqramı dayanırdı.

1970-ci ildən isə Əbülfəz bəy tələbələr arasında təbliğat işini daha da sistemli şəkildə aparır, gizli tələbə qruplarının yaradılmasına çalışırdı. Həmin qruplardan birinin başçısı olmuş,keçmiş tələbəsi Ələsgər Siyablı yazır:" Məlum oldugu kimi hələ 60-ci illərdə Əbülfəz Elcibəy öz yaxin dostlari olan Rafiq bəy Ismayılov, Abbas Musayev, Zakir Məmmədov və basqaları ilə birlikdə gizli bir milli təskilat yaratmısdi.70-ci illərdə o bu təskilatın öz tələbələrindən və digər gənclərdən ibarət beslik, üclük və yeddiliklərdən ibarət alt qruplarını da yarat-

mısdı. Bu qrupların birində tarix fakültəsindən mən, Mehdi Məmmədov, Xudu Məmmədovun yaxın qohumu, tarix fakültəsində agdamlı Akif Məmmədov, o zaman Politexnik institutunun tələbəsi olan sair Vaqif Cəbrayılzadə-Bayatlı və onun tələbə dostu fəaliyyət göstərirdik. Digər bir qrupda mən rəhmətlik tələbə dostum Yadigar Babayev, Filologiya fakültəsinin tələbəsi əslən Gədəbəydən olan Zirəddin bəy, İsmayil Musayev, Ələsgər Quliyev, Sərraf Kərimov, İlyas Məmmədovla birlikdə fəaliyyət göstərirdik. Fəaliyyətimizin əsas məqsədi Azərbaycanın müstəqilliyi və güneyli-quzeyli Azərbaycan ideyasının təbligi, sovet rejimini zəiflətmək yolunda təbligat fəaliyyəti idi".

---

***Qaynaq**:*

*1. Ə.Tahirzadə. Elçi bəy. Bakı, 1999. 2. Ələsgər Siyabovun şəxsi arxivindən. 3. https://az.wikipedia.org/wiki/Əbülfəz_Elçibəy*

## AXC TOPLANTILARININ MƏXFİ KEÇİRİLDİYİ ÜNVAN:
### 2-ci Yasamal, ev 26. Bu evə partlayıcı fişəngin atılması



Bu ünvan tarixi bir yerdir. AXC-nin qərargahı olmadığından təşkilatın rəhbərliyi, sonradan isə İdarə Heyətinin üzvləri 2-ci Yasamaldakı 26-cı evə toplaşır, burada toplantılarını keçirirdilər. Evin sahibi AXC-nin MNTK-nın sədri **Becan Fərzəliyev (İbrahimoğlu)** idi. Bu evdə B.Fərzəliyevin həyat yoldaşı **Zəminə xanım** Ağamalı Sadiq Əfəndinin həyat yoldaşı Nabat xanımla üçrəngli bayrağımızı tikib hazırlayır,həmin bayraqlar mitinqlərdə, nümayişlərdə iştirakçılara paylanılırdı.

Bu ev getdikcə nəzarətə götürülür, sahiblərinə isə təzyiqlər güclənirdi. Hətta bir dəfə bu evə bir mərmi də atılmış, sadəcə insan itkisi olmamışdı.

---

***Qaynaq**:*

*Becan Fərzəliyevin şəxsi arxivi.*

# AZƏRBAYCAN XALQ CƏBHƏSİ İDARƏ HEYƏTİNİN İLK ÜZVLƏRİ



*İsa Qəmbər*

**İsa Yunis oğlu Qəmbər** (24 fevral 1957, Bakı,) – azərbaycanlı, ictimai-siyasi xadim; tarixçi; Milli Strateji Düşüncə Mərkəzinin sədri.

**Təhsili:** İsa Qəmbər 1964-cü ildə Bakı şəhəri 62 saylı orta məktəbə daxil olub və 1974-cü ildə oranı bitirib. 1974-1979-cu illərdə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) də təhsil alıb. 1979-1982-ci illərdə AMEA Naxçıvan Elm Mərkəzində, 1982-1990-cı illərdə AMEA Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi və elmi işçi vəzifələrində çalışıb.

**İctimai-siyasi fəaliyyəti.** Fəal siyasətə 1988-ci ildən qoşulub. 16 iyul 1989-cu ildə yaradılmış Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri, ilk İdarə Heyətinin üzvü, 1990-1991-ci illərdə AXC təşkilat şöbəsinin müdiri, sonra isə sədr müavini olmuşdur.1992-ci ildə Müsavat Partiyasının bərpa mərkəzi yaradılmış və İsa Qəmbər ona rəhbərlik etmişdir. 1992-ci ilin noyabr ayında Müsavat Partiyasının III Bərpa Qurultayı keçirilmiş və İsa Qəmbər partiyanın başqanı seçilib.

**Diplomatik fəaliyyəti.** 18 may 1992-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib. İ.Qəmbər Ə.Elçibəyin 17 iyun 1992-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti seçilməsinə qədər Azərbaycan Respublikası Ali Sovetinin sədri olaraq Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icraçısı olub. 4 iyun 1993-cü il Gəncə qiyamından sonra, 13 iyun 1993-cü ildə Milli Məclisdə qiyamla bağlı müzakirələr başlamış və müzakirələr əsnasında parlamentin sədri İ.Qəmbər Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsindən istefa verib. Bundan sonra o həbs edilib və bir müddət həbsxanada saxlanılıb.

***Qaynaq***:
*https://az.wikipedia.org/wiki/İsa_Qəmbər*



*Etibar Məmmədov*

**Etibar Səlidar oğlu Məmmədov** (2 aprel 1955, Bakı) - Azərbaycan Milli İstiqlal Partiyasının qurucusu və ilk sədridir.

Etibar Məmmədov 1955-ci il aprel ayının 2-də Bakı şəhərində anadan olub. Hələ kiçik yaşlarından siyasətə marağı olan Etibar Məmmədov 1973-cü ildə ADU-nun (BDU-nun) tarix fakültəsinə daxil olur. Universitetdə təhsil alarkən Cənubi Azərbaycan məsələsi ilə bağlı universitetin divar qəzeti üçün məqalə yazır və bu yazıya görə universitetdən xaric edilir. Bir çox çətinliklərdən sonra o yenidən universitetə bərpa edilir və 1978-ci ildə bu ali təhsil ocağını bitirir. Universitetdə müəllim kimi fəaliyyətə başlayan E.Məmmədov 1985-ci ildə namizədlik dissertasiyası müdafiə edərək elmlər namizədi elmi dərəcəsi alıb.

**İctimai-siyasi fəaliyyəti.** E.Məmmədov Azərbaycan milli-azadlıq hərəkatının liderlərindən və müstəqillik aktına imza atan siyasətçilərdəndir. 1990-cı ilin Qanlı Yanvar hadisələrindən sonra həbs edilərək Moskvada "Lefortovo" həbsxanasında saxlanılıb. 26 noyabr 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil edilib.

O, 1991- ci ildə Azərbaycan Milli İstiqlal Partiyasının yaradıcılıarından biri olub və partiyanın ilk sədri seçilib.1990-1995-ci illərdə Azərbaycan Parlamenində fəaliyyət göstərib. 2005-ci il parlament seçkilərindən sonra Etibar Məmmədov fəal siyasətdən uzaqlaşıb.

---

***Qaynaq*:**
*https://az.wikipedia.org/wiki/Etibar_Məmmədov*

**Hikmət Əbdürrəhim oğlu Hacızadə** – Azərbaycanın Rusiyadakı keçmiş səfiri.1954-cü ildə Bakıda anadan olub.1977-ci ildə ADU-nun fizika fakültəsini bitirib, 1983-cü ildə Moskvada fizika-riyaziyyat elmləri namizədi adını almaq üçün dissertasiya müdafiə edib.Azərbaycan EA-nın Fizika İnstitutunda böyük elmi işçi vəzifəsində işləyib. 1988-ci ildə başlayan Azərbaycanın istiqlal hərəkatında fəal iştirak edib, Azərbaycan Xalq



Hikmət Hacızadə

Cəbhəsinin yaradıcılarından biri, birinci İdarə Heyətinin üzvü, AXC-nin "Svoboda" qəzetinin redaktoru olub. Xalq Cəbhəsinin hakimiyyəti dövründə Baş nazirin müavini və Azərbaycanın Rusiyada səlahiyyətli nümayəndəsi işləyib.

1993-cü ildən Müsavat partiyasının və onun Divanının üzvü olub. Demokratiya və İnsan haqları barəsində biliklərin yayılması ilə məşğul olan İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin (FAR-Centre) qurucusu və vitse-prezidentidir.

Demokratiya problemlərinə həsr olunmuş Azərbaycanda ilk esse olan "Demokratiya haqqında 150 000 işarə" kitabı 1995-ci ildə nəşr edilib. "İnsan haqları - bəşəriyyətin əsas ideyası" (1997), "Demokratiya: Gediləsi uzun bir yol" (Demokratiya Antalogiyası) və başqa kitabların müəllifidir.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Hikmət_Hacızadə*



Leyla Yunus

**Leyla Yunus** — Azərbaycanlı hüquq müdafiəçisi, Sülh və Demokratiya İnstitutunun rəhbəri, Milli Şuranın üzvü. 21 dekabr 1956-cı ildə Bakıda doğulub. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib, antik ədəbiyyat üzrə ixtisaslaşıb.

1980-ci illərin sonunda Azərbaycanda başlayan demokratik hərəkatın fəal iştirakçısı olub. Azərbaycan Xalq Cəbhəsinin və Azərbaycan Sosial Demokrat Partiyasının yaradıcılarından biri sayılır. 1992-1993-cü illərdə Dağlıq Qarabağda hərbi əməliyyatlar gedərkən, Leyla Yunus Müdafiə Nazirliyində İnformasiya və Təhlil Mərkəzinə rəhbərlik edib.

Azərbaycanın ilk hüquq müdafiəçilərindən olan Leyla Yunus 1994-cü ildən bütün fəaliyyətini, əsasən, bu sahəyə yönəldərək siyasi məhbus

problemi ilə məşğul olub. Leyla Yunus sonradan həbs edilib və həbsdən azad olunduqdan sonra Hollandiyaya getmiş, hazırda mühacirətdə yaşamaq məcburiyyətindədir.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Leyla_Yunus*



*Pənah Hüseynov*

**Pənah Çodar oğlu Hüseynov** — Azərbaycan Respublikasının Baş Naziri (aprel 1993 – iyun 1993-cü il), Azərbaycan Respublikası III çağırış Milli Məclisinin deputatı (2005-2010). 1957-ci il oktyabrın 28-də Sabirabad rayonunun Qaraqaşlı kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib.

1980–1983-cü illərdə Sabirabad rayonunda kənd orta məktəbinin müəllimi, rayon tarix muzeyinin işçisi olub. 1986-cı ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda laborant, kiçik elmi işçi, elmi işçi vəzifələrində çalışıb.

1988-1991-ci illərdə azadlıq hərəkatında iştirak edərək, Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri olub. 1992-ci ildə Azərbaycan Respublikasının Dövlət katibi, 1993-cü ildə qısa müddətdə (aprel 1993 – iyun 1993-cü il) Azərbaycan Respublikasının Baş Naziri işləyib.

Azərbaycan Xalq Partiyasının ilk sədri olub. P.Hüseyn sonrakı dövrlərdə siyasi fəaliyyətinə görə azadlıqdan məhrum edilib və həbsxanada saxlanılıb.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Pənah_Hüseyn*

**Nəcəf Adil oğlu Nəcəfov** — görkəmli Azərbaycan jurnalisti, müasir Azərbaycan mətbuatının banilərindən biri. 1955-ci il iyunun 24-də Bakıda fəhlə ailəsində anadan olub. Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1980-ci ilin əvvəllərindən "İnşaatçı" qəzetində jurnalist fəaliyyətinə başlayıb. Sonra "Vışka" qəzetində şöbə müdiri işləyib və 1986-cı ilə kimi bu vəzifə-



*Nəcəf Nəcəfov*

ni yerinə yetirib. Həmin il N.Nəcəfov "Molodyoj Azerbaydjana" qəzetinə redaktor təyin edilib. 1986-1989-cu illərdə "Molodyoj Azerbaydjana" faktiki olaraq respublikanın mərkəzi qəzetinə çevrilib. N.Nəcəfovun və qələmdaşlarının prinsipial mövqeyi respublikanın kommunist rəhbərliyini razı salmayıb və 1988-ci ildə o, vəzifəsindən azad edilib. Həmin vaxtdan başlayaraq N.Nəcəfov faktiki olaraq siyasi fəaliyyətə keçib və Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs qrupuna daxil olub. "Azadlıq" qəzetini təsis edən (1989-cu il) N.Nəcəfov, respublikanın suverenliyinə və ərazi bütövlüyünə təhlükənin artdığı bir vaxtda, AXC liderlərindən biri kimi, siyasətlə daha fəal məşğul olmağa başlayıb. 1990-cı ilin yazında N.Nəcəfov bir qrup müstəqil jurnalistlə birlikdə "Turan" informasiya agentliyinin təsisçilərindən olub. 1992-1993-cü illərdə N.Nəcəfov Azərbaycanın o vaxtkı prezidenti Əbülfəz Elçibəyin mətbuat katibi vəzifəsində işləyib. Ömrünün son illərində N.Nəcəfov Müstəqil Sahibkarlığa Yardım Fondunun vitse-prezidenti olub.

N.Nəcəfov 1999-cu il dekabrın 17-də uzun sürən ağır xəstəlikdən sonra vəfat edib. Bakı şəhərində köhnə qəbiristanlıqda dəfn olunub.

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Nəcəf_Nəcəfov*



*Tofiq Qasımov*

**Tofiq Məsim oğlu Qasımov** (10 aprel 1938, Ləki, Ağdaş) — Azərbaycanın keçmiş xarici işlər naziri (04.07.1992 - 26.06.1993). 10 aprel 1938-ci ildə Ağdaş rayonunun Ləki kəndində anadan olub. 1945-1955-ci illərdə Ağstafa dəmir yol məktəbində oxuyub. 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil alıb. 1969-cu ildə Leninqrad Yarımkeçiricilər İnstitutunun elmi şurasında namizədlik dissertasiyası müdafiə edib, fizika-riyaziyyat

elmləri namizədi adı alıb. 1970-ci ildən Azərbaycan EA-nın Fizika İnstitutunun elmi işçisi olub. 1987-ci ildən siyasətlə məşğuldur. Bakı Alimlər Klubunun yaradılmasının təşəbbüskarlarından biridir.1989-1990-cı illərdən Azərbaycan Xalq Cəbhəsinin İdarə Heyətinin üzvüdür.

Azərbaycan SSR-i xalq deputatı seçilib, Azərbaycan SSR Ali Sovetinin 1990-cı ilin yanvarın 22-də çağırılmış fövqəladə sessiyasının işində iştirak edib. Həmin sessiyada Sovet Ordusu və Daxili Qoşunlarının Bakıda törətdikləri cinayətləri tədqiq etmək üçün yaradılmış Azərbaycan Ali Sovetinin İstintaq Komissiyasına üzv seçilib.

1992-ci ilin mayında Azərbaycan Respublikasının Xarici İşlər naziri təyin olunub, 1993-cü ilin aprelinə qədər bu vəzifədə işləyib. T.Qasımov sonradan H.Əliyev dövründə ittiham edilərək həbsxanada saxlanılıb.

Hazırda həyat yoldaşı və qızları ilə İsveçrənin Lütsern şəhərində yaşayır.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Tofiq_Qasımov*

**Yusif Səməd oğlu Vəkilov (Yusif Səmədoğlu)** — Azərbaycanın xalq yazıçısı, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Komsomolu mükafatı laureatı (1970), Azərbaycan SSR Əməkdar İncəsənət xadimi (1979), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990).



*Yusif Səmədoğlu*

Yusif Səmədoğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində anadan olub. Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olub (1953). Həmin İnstitutun IV kursundan ADU-nun filologiya fakültəsinin beşinci kursuna dəyişilib (1957-1958). “Azərbaycan” jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1960-1965), C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü (1965-1969), baş redaktoru, “Azərbaycanfilm” kinostudiyasının direktor müavini (1969-1976), “Ulduz” jurnalının baş redaktoru (1976-1987), “Azərbaycan” jurnalının baş redaktoru (1987-ci ildən) vəzifələrində işləyib. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyə-

tinə (nəsr üzrə katib) seçilib. (1991). "220 saylı otaq" (1960), "Qalaktika" (1973), "Qətl günü" (1987) kitablarının müəllifi olub.

1998-ci il avqustun 17-də vəfat edib.

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Yusif_Səmədoğlu*



***Zərdüşt Əlizadə***

**Zərdüşt Məmməd Mübariz oğlu Əlizadə** – Azərbaycan Sosial Demokrat Partiyasının qurucusu və ilk sədri. 1946-cı ildə Bakı şəhərində anadan olub. 1964-cü ildə 132 №li orta məktəbi, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsini bitirib.

1969-1971-ci illərdə Misirdə hərbi mütərcim, 1973-1976-cı illərdə Cənubi Yəməndə tərcüməçi işləyib. 1971-ci ildən 1990-cı ilə kimi Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda elmi işçisi olaraq çalışıb. Filologiya elmləri namizədidir.

1969-1990-cı illərdə Sov.İKP üzvü olub. 1988-1989-cu illərdə Azərbaycan Xalq Cəbhəsində, 1990-2000-ci illərdə isə Sosial-Demokrat Partiyasında fəallıq göstərib.

İki kitab, yüzlərlə məqalə müəllifidir.

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Zərdüşt_Əlizadə*

**Sabit Aydın oğlu Bağırov** 1948-ci ildə Gəncə şəhərində anadan olub. 1971-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 1972-ci ildə isə həmin institutun aspiranturasını bitirib. 1987-ci ildə SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunda elmi dissertasiyanı müdafiə edib. 1971-1972-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda mühəndis vəzifəsində çalışıb. 1974-1977-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat və Neft Maşınqayırma Texnologiyaları İnstitutunun laboratoriya müdiri olub. 1977-1992-ci illərdə **AZNEFTKİMYAMAŞ** Konsernin Məlumat Hesablama Mərkəzinin layihələndirmə üzrə direktor müavini vəzifəsində çalışıb.



*Sabit Bağırov*

1992-1993-cü illərdə Strateji Proqramlar üzrə Dövlət Müşaviri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti vəzifələrində işləmişdir. 1993-1994-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının departament rəhbəri vəzifəsində çalışmışdır.

1994-cü ildən Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun və İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin prezidenti vəzifələrində çalışır.

Hazırda Şəffaflıq-Azərbaycan təşkilatının İdarə Heyətinin və EİTİ-Azərbaycan QHT Koalisiyası Şurasının üzvüdür.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Sabit_Bağırov*



*Sülhəddin Əkbərov*

**Sülhəddin Bayram oğlu Əkbərov** 1960-cı ildə Şərur rayonunda anadan olub. İxtisasca həkimdir. 1992-ci ildən Müsavat partiyasının üzvüdür.

1992-1993-cü illərdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi nazirinin müavini olub.1995-ci ildə Müsavat partiyası başqanının siyasi məsələlər üzrə müavini işləyib.

Sülhəddin Əkbər həm də 1997-ci ildə Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasını yaradıb və hazırda onun prezidentidir. 2010-cu ildə Müsavatdan gedib. 2012-ci ildən Açıq Cəmiyyət Partiyasının sədri, 2013-cü ilin mayından isə demokratik qüvvələrin milli şurasının üzvüdür. 26 noyabr 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil edilib.

Hazırda Azad Demokratlar Partiyasının sədridir.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Sülhəddin_Əkbər*



*Nemət Pənahlı*

**Nemət Pənahlı** 1962-ci ildə Naxçıvan Muxtar SSR-in İliç rayonunda anadan olub. L.Şmidt adına maşınqayırma zavodunda tokar (çilingər) işləyib. 1987-ci ildə yaradılmış Çənlibel Birliyinin üzvü olub. 1988-ci ilin noyanrın 17-dən dekabrın 5-dək o, Bakıda Lenin (indiki "Azadlıq") meydanında icazəsiz keçirilən mitinqə rəhbərlik edib.

1985-ci ildən isə çalışdığı Səttarxan (o vaxt L.Şmidt adına zavod) adına zavodda haqsızlığa qarşı ilk açıq mübarizəsinə başlayıb. O, artıq Hatəmi, Xəlil Rza, Əbülfəz Elçibəy, İsmayıl Təriqpeyman kimi tanınmış siyasətçilərlə görüşür, fikir mübadiləsi edirdi. 1988-ci ildə noyabrda başlanan meydan mitinqlərində Nemət qəhrəmana çevrildi, böyük insan kütləsi ona inandı.

Meydan hadisələrindən sonra 7 ay həbsdə qaldı. 1989-cu ildə yaradılan AXC-nin İdarə Heyətinin ilk üzvlərindən oldu.

1990-cı ilin 20 Yanvar hadisələrindən sonra təqib olunduğundan İrana getdi, 4 ay yarım orada edam altında həbsdə yatdı, oradan Türkiyəyə getdi və 6 ay bu ölkədə yaşadı. 1990-cı ilin dekabrında Bakıya qayıtdı. Burada yenidən siyasi fəaliyyətini davam etdirdi.

1990-cı illərin əvvəllərində Heydər Əliyev tərəfdarlarına qoşulub, onun hakimiyyətinin ilk illərində Prezident Administrasiyasında çalışdı. 1995-ci ildə parlament seçkisinin saxtalaşdırılacağını iddia edərək istefa verdi. Son illərdə fəal siyasətə qayıdan N.Pənahlı 2011-ci ilin yanvar ayında "silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə xuliqanlıqda müqəssir bilinərək" 6 il müddətinə azadlıqdan məhrum edildi. 17 mart 2016-cı il tarixdə prezident İlham Əliyevin imzaladığı sərəncamla əfv olundu. Hazırda Azərbaycan Milli Dövlətçilik Partiyasının sədridir.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Nemət_Pənahlı*

**Rəhim Həsən oğlu Qazıyev** 1943-cü ildə Şəkidə anadan olub. 1988-ci ildə başlanan Azərbaycan milli-azadlıq hərəkatının liderlərindən olub.



*Rəhim Qazıyev*

1992-ci il martından 1993-cü il fevralına qədər Azərbaycan Respublikasının Müdafiə naziri vəzifəsində çalışıb.

1993-cü ildə Şuşanın işğalında və Vətənə xəyanətdə ittiham edilərək haqqında ölüm hökmü çıxarılıb. Sonradan ölüm cəzası ömürlük həbslə əvəz edilib. 2005-ci ildə əfv fərmanı ilə azadlığa buraxılıb.

---

*Qaynaq:*
*https://az.wikipedia.org/wiki/Rəhim_Qazıyev*



*Ələkrəm Hümbətov*

**Ələkrəm Hümbətov** — 1948-ci ildə Lerikdə anadan olub. Azərbaycan Politexnik İnstitutunu bitirib, daha sonra Lənkəranda avtonəqliyyat müəssisəsinin direktor müavini işləyib.

Azərbaycan Xalq Cəbhəsinin təsisçilərindən biri və idarə heyyətinin üzvü olub. 1990-cı ildə Azərbaycanda antisovet iğtişaşları zamanı yanvar ayında Lənkərana 10 gün şəhərə rəhbərlik edib. 1990-cı ilin avqustundan 1991-ci ilin dekabrına kimi Azərbaycan Sosial Demokrat Partiyasının üzvü olub.

1992-1993-cü illərdə Azərbaycan Müdafiə nazirinin müavini olub, 1993-cü ildə qondarma Talış-Muğan Muxtar Respublikasının prezidenti elan edib. 2004-cü ildən Hollandiyada mühacirətdə yaşayır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 12 fevral 1996-cı il tarixli hökmü ilə məhkum edilib, Azərbaycan Respublikasının Prezidentinin 3 sentyabr 2004-cü il tarixli 119 nömrəli Fərmanı ilə əfv olunub. 2005-ci ildə Azərbaycan vətəndaşlığından çıxarılıb.

2013-cü il sentyabrın 24-də İrəvana separatçı Talış-Muğan Respublikasının prezidenti kimi səfər edərək İrəvan Dövlət Unversitetinin iranşünaslıq kafedrasında talışşünaslıq üzrə magistr pilləsinin açılışını edib və

daha sonra işğal altında olan Dağlıq Qarabağa səfər edərək Xankəndində yerləşən unversitetlərin birində çıxış edib.

**Qaynaq:**
*https://az.wikipedia.org/wiki/Ələkrəm_Hümbətov*



*Canbaxış Umudov*

**AXC-nin ilk İdarə Heyətinin üzvü olan Canbaxış Umudov** 1943-cü ildə Bakıda anadan olub. 1961-ci ildə Azərbaycan dilli orta məktəbi bitirib. Moskvada İnstituta daxil olub və mühəndis-fizikası ixtisası alıb. İnstitutda oxuyarkən iki il zavodda fəhlə işləyib. İnstitutu bitirdikdən sonra Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda çalışıb, iki il də Sovet Ordusunda zabit kimi tank bölmə komandiri vəzifəsində qulluq edib. 1974-cü ildə Moskvada aspiranturanı bitirdikdən sonra Rusiyanın Voloqda şəhərindəki Politexnik İnstitutuna təyinatla işləməyə göndərilib və orada 1987-ci ilədək müəllim, dosent vəzifələrində işləyib. 1987-ci ildə Bakıya qayıdıb və iki il Elmlər Akademiyasında çalışıb. Akademiyanın nəzdində "Ekoloq" kooperativinin sədri olub. Fizika-riyaziyyat elmləri namizədidir. Dosent elmi adı var. İngilis və alman dillərindən faydalana bilir. İyirmidən çox dərc olunmuş elmi işin müəllifidir.

İctimai fəaliyyətə 1988-ci ildə başlayıb. Azərbaycan Xalq Cəbhəsi Təşəbbüs Qrupunun, sonra İdarə Heyətinin üzvü olub. AXC-nin Abşeron şöbəsinin də İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərib. Bakı kəndlərində Cəbhənin təşkilatlanmasında onun böyük rolu və nüfuzu olub.

Hazırda ailəsi ilə birlikdə Belçikada yaşayır.

**Qaynaq:**
*C.Ümidovun şəxsi arxivindən.*

**Tamerlan Qarayev**
**(AXC Məclisinin ilk sədri)**



*Tamerlan Qarayev*

Tamerlan Qarayev 1952-ci il yanvarın 30-da Azərbaycan SSR-nin Ağdam rayonunun Qasımlı kəndində anadan olub. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. Hüquq elmləri namizədidir.

1990-cı il 22 yanvar tarixində AXC Məclisinin üzvü və ADU hüquq fakültəsinin dosenti olan T.Qarayev ictimaiyyət nümayəndəsi kimi 20 Yanvar hadisələrini təhqiq edən Azərbaycan SSR Ali Sovetinin deputat-istintaq komissiyasına üzv seçilib və məlum komissiyanın sədr müavini təyin edilib. 1990-cı il 30 aprel – 1 may tarixində Göyçayda baş tutan AXC Məclisinin iclasında AXC Məclisinin ilk sədri seçildi. 1990-1991-ci illərdə AXC Məclisinin sədri olub. 1990-cı il Azərbaycan Ali Sovetinə seçkilərdə Azərbaycan deputat seçilib. 1991-1992-ci illərdə Ali Sovet sədrinin müavini, 1992-1993-cü illərdə isə Ali Sovet sədrinin I müavini olub. T.Qarayev 26 noyabr 1991-ci ildə təşkil olunan Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının tərkibinə daxil edilib. 1992-ci ildə T.Qarayev AXC-dən çıxaraq öz siyasi partiyasını – Doğru yolu (DYP) yaradıb, 1992-ci ilin prezident seçkilərində AXC sədri Əbülfəz Elçibəyə qarşı öz namizədliyini irəli sürüb. T.Qarayev 1992-ci ildə prezidentliyə 7 namizəddən biri olub, lakin 1992-ci il iyunun 5-də öz namizədliyini geri götürüb.

1993-2001-ci illərdə Çində, 2004-2011-ci illərdə isə Hindistanda Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri işləyib. 2011-ci ildən İndoneziyada səfirdir.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Tamerlan_Qarayev*



*Arif Hacılı*

**Arif Hacılı**
**(AXC Ali Məclisinin sədri)**

Arif Mustafa oğlu Hacılı 1962-ci il Yanvar ayının 22-də Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsəni bitirib.

Xalq hərəkatına tələbə ikən – 1988-ci ildə Bakıda keçirilən noyabr mitinqləri zamanı qoşulub. 1989-cu ildə Zaqatalada AXC-nin yerli təşkilatının yaradıcılarından biri və lideri olub. 1989-cu ilin sentyabr ayında AXC Ali Məclisinin üzvü seçilib.1990-cı ildə 204 saylı Zaqatala seçki dairəsindən Azəbaycan Ali Sovetinin deputatı seçilib. 1991-ci ildə yaranan Azərbaycan Ali Soveti Milli Şurasının və Milli Məclisin üzvü olub.Həmin il AXC Ali Məclisinin Rəyasət heyətinin üzvü, sonra isə AXC Ali Məclisinin sədri (T.Qarayevin istefasından sonra) seçilib. Arif Hacılı Ə.Elçibəyin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Ərazi Hakimiyyət və İdarəetmə Orqanları ilə İş üzrə Dövlət Müşaviri vəzifəsində yerli icra hakimiyyəti strukturlarının işinə rəhbərlik edib.

O,1992-ci İldə Müsavat partiyasının Bərpa Mərkəzinin üzvü, 2006-cı ildən Müsavat partiyası Mərkəzi İcra Aparatının rəhbəri olub. 1998-ci və 2000-ci ilərdə keçirilən kütləvi aksiyaların, mitinq və nümayişlərin əsas təşkilatçılarından biri kimi dəfələrlə saxlanılıb və həbs edilib.

Hazırda Müsavat partiyasının Başqanıdır.

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Arif_Hacılı*

## AXC-NİN İLK NƏŞRLƏRİ - "SAMİZDATLAR"

Azərbaycan cəmiyyətində getdikcə böyük nüfuz qazanan **Azərbaycan Xalq Cəbhəsinin** yayım orqanlarının yaranmasına ciddi ehtiyac vardı. Bununla əlaqədar Azərbaycan Xalq Cəbhəsinin I Konfransında Redaksiya Komissiyası yaradılmışdı. **Redaksiya Komissiyasına aşağıdakı şəxslər daxil idi: Nəcəf Nəcəfov, Ağamalı Sadiq Əfəndi, Səfər Alışarlı, Xalıq Bahadır, Əhməd Əhmədov, Tariyel.**

Azərbaycan Xalq Cəbhəsi Təşəbbüs Mərkəzinin 1 saylı bülleteni **1989-cu** ildə çap edildi. Bülletenin 1-ci sayı AXC Təşəbbüs Mərkəzinin üzvləri tərəfindən hazırlanmış və xüsusən **Sabit Bağırovun** təşkilatçılığı ilə onun işlədiyi Neft Maşınqayırma Elmi-Tədqiqat İnstitutunun EVM maşınında hazırlanmışdı. Bülletenlərin 1,2 və 3-cü sayları **Ağamalı Sadiq Əfəndi, Səfər Alışarlı** və digərləri tərəfindən M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun, Ticarət Nazirliyinin, Maarif Nazirliyinin mətbəələrində çap edilir, çoxaldılıb yayılırdı.

Lakin getdikcə bülletenin formatını böyütmək zərurəti ortaya çıxırdı. Bununla əlaqədar A-4 formatlı bülletendən A-3 formatlı yeni yayım orqanına keçmək qərara alındı. Lakin Bakıda bu formatda qəzetin mətbəədə çapı mümkün deyildi. Təhlükəli olduğundan mətbəələr bu işə razılıq vermirdi. Belə olduqda Tovuz rayon cəbhəçiləri bu qəzetin Tovuz mətbəəsində çapını mümkün saydılar. Bu işə Tovuz məbəəsində çalışan Hüseyn bəyin də köməyi oldu. Bu məqsədlə Səfər Alışarlı Tovuza getdi, orada qəzetin nəşri prosesi başa çatdırıldı, lakin məlum oldu ki, kağız yoxdur. Bakıda kağız axtarışına başlanıldı. Maarif Nazirliyinin Yasamaldakı mətbəəsindən lazım olan kağızı almaq mümkün oldu. Kağızın Tovuza göndərilməsində problemlər yarandı. 20 Yanvar hadisələrindən sonra sovet ordusu əsgərləri hər bir hərəkəti nəzarətdə saxlayır. Odur ki, jurnalist Elçin Səlcuq ağ xalat geyinib (guya həkimdir, nəzarəti yayındırmaq üçün) Təcili Yardım maşınında həmin kağızı Tovuza apardı. Beləliklə, **"Meydan"** qəzetinin Tovuzda çap edilən 1-ci sayı gətirilib Bakıda yayıldı. Qeyd edək ki, 1-ci say Azərbaycan Xalq Cəbhəsinin qəzeti olaraq 10 000 (on min) tirajla nəşr edilmişdi.

Sonradan ciddi axtarışlar başladı. Çünki, qəzetin Tovuza aparılıb, orada nəşr edilməsi, sonradan gətirilib Bakıda yayılması böyük çətinliklər ya-

radırdı. Gərgin çalışmalardan sonra Əliheydər Qarayev adına Neftayırma zavodunda (indiki "AMAY" Ticarət Mərkəzi yanında) bir çap maşını olduğunu S.Alışarlı aşkarladı. O dövrdə zavod oradan köçsə də, həmin yer kooperatorlara verilmişdi.

Beləliklə, "Meydan" qəzetinin 2-ci sayı 2 min tirajla orada çap edildi. Qəzetin nəşri orada da təhlükəli idi. Həmin yerə yaxın ərazidə 20 Yanvar hadisələri zamanı gətirilmiş sovet əsgərləri müvəqqəti olaraq məskunlaşmışdı. Çap maşınının, xüsusən də kompressorun səssiz olması üçün oradakı buxar trubasını deşirdilər ki, onun səsi kənara yayılmasın.

Artıq həmin mətbəədə "FV-CP" - "Fövqəladə Vəziyyət – Çrezvıçaynoe Polojenie" Bülleteninin 3 sayı çap edildi. AXC-nin bəzi rayon təşkilatları da gətirib qəzetləri orada çap edirdilər. Bu rayon qəzetlərinin yazılarının hazırlanmasına, materialların redaktəsinə yazıçı-jurnalist S.Alışarlı böyük köməklik edirdi. Həmin mətbəədə aşağıdakı rayon qəzetləri çap edilmişdi: 1. "Ana Torpaq" qəzeti – Ağdam rayonu. 2. "Hasıllı" qəzeti – Cəlilabad rayonu. 3. "Demokrat" qəzeti – Sabirabad rayonu və s.

**1989-cu ilin dekabrında Nəcəf Nəcəfovun redaktorluğu ilə "Azadlıq" qəzeti nəşr edildi.**

AXC-nin Redaksiya Şurasının üzvlərinə aşağıdakı ziyalılar da yaxından kömək edirdi: Azər Əbilbəyli, Məti Osmanoğlu, Vəli Vəliyev, Elçin Səlcuq və b.

Qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsinin "Bülleten"inin nəşr edilməsində əvəzsiz xidmətləri olanlardan biri də **şair-jurnalist Ağamalı Sadiq Əfəndi** idi. Ağamalı bəy həmin o təqiblər dövründə böyük cəsarət göstərərək "Bülleten"in öz evində hazırlanmasını təmin edir və ünvan olaraq evinin yerləşdiyi yeri, telefonlarını da qeyd edirdi. Həmin ünvan (yəni Ağamalı bəyin evi və "Bülleten"in redaksiyası) belə idi: "Indeks: 370130, Bakı, 8-ci mikrorayon, 13-cü bina, 99-cu mənzil. Telefonlar: 61-62-42; 38-51-53; 92-83-15. AXC Redaksiya heyəti".

---

***Qaynaq:***
*Səfər Alışarlının şəxsi arxivi.*

## AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN BÜLLETENİ

Azərbaycan Xalq Cəbhəsi Bülleteninin ilk sayının hansı ayda nəşri qeyd olunmasa da, bu tarixin 1989-cu ilin iyun ayına aid olması daha məntiqə uyğundur. Çünki Bülletenin 1-ci sayında başlıqda belə yazılıb: Azərbaycan Xalq Cəbhəsi Təşəbbüs Mərkəzinin Bülleteni. Bülleten bu şüarla nəşr edilib: "El gücü, sel gücü!"


Ел күчү - сел күчү
Азәрбајҹан Халг Ҹәбһәси
Тәшәббүс Мәркәзинин
№ 1
1989
БҮЛЛЕТЕНИ

АЗӘРБАЈҸАН ХАЛГЫНА !

РЕСПУБЛИКАНЫН БҮТҮН ВӘТӘНДАШЛАРЫНА !

Азәрбајҹан Халг Ҹәбһәсинин
Тәшәббүс Мәркәзи.

АЗӘРБАЈҸАН ХАЛГ ҸӘБҺӘСИ ТӘШӘББҮС МӘРКӘЗИНИН
ДАҒЛЫГ ГАРАБАҒ ВӘ ОНУН ӘТРАФЫНДА БАШ ВЕРӘН
ҺАДИСӘЛӘР ҺАГГЫНДА

БӘЈАНАТЫ

*Təşəbbüs Mərkəzinin Bülleteni, 1989-cu il*

Bülletenin ilk sayında Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzinin "Azərbaycan xalqına! Respublikanın bütün vətəndaşlarına!" başlıqlı müraciəti çap olunub.

**Həmin müraciətdən:** "...Həyat yenidənqurmanın nəhəng enerjisinin daxili çəkişmələrlə, sosial, etnik-milli problemlər ətrafında əmələ gələn fikir ayrılıqlarına, münaqişələrə hədər sərf olunmaması üçün yenidənqurma və milli suverenlik uğrunda çıxış edən bütün mütərəqqi, demokratik qüvvələrin təşkilatı birliyinin yaradılmasını tələb edir.

**Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi** tam məsuliyyətlə bildirir ki, bu vəzifəni öz üzərinə götürməyə hazırdır. Xalqımızın taleyi və varlığı üçün yaranmış ciddi təhlükə qarşısında bu günümüz və gələcəyimiz naminə, partiyalılığından, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün yenidənqurma tərəfdarlarını Azərbaycan Xalq Cəbhəsində birləşməyə çağırırıq.

Tarix bizi çətin imtahan qarşısında qoyub. Bu imtahandan ləyaqətlə və üzüağ çıxmaq üçün bir yolumuz var: bütün Azərbaycan vətəndaşlarının birliyi və həmrəyliyi, demokratiya və milli suverenlik! **Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi".**

**Birinci** sayda Azərbaycan Xalq Cəbhəsi Təşəbbüs Mərkəzinin Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr haqqında bəyanatı da çap edilib. Bildirilir ki, Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni millətinə mənsub vətəndaşlarının separatçılıq hərəkətləri və Ermənistan SSR hökumətinin Azərbaycan SSR-nin daxili işlərinə qarışması nəticəsində vəziyyət gərginləşmişdir. Bunu nəzərə alaraq bəyanatda bildirilir:

**"1. Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi** Dağlıq Qarabağın milli dövlət statusunun dəyişdirilməsi və ya Vilayətin Azərbaycan SSR tərkibindən çıxarılmasını nəzərdə tutaraq hər cür tələbləri, təklifləri və qərarları qeydsiz-şərtsiz, birdəfəlik və qəti şəkildə rədd edir və bu məsələ barədə heç bir müzakirəni mümkün hesab etmir.

AXC Təşəbbüs Mərkəzi münaqişənin tezliklə və ədalətlə nizama salınmasında maraqlı olan bütün tərəfləri dövlətlər arasında tarixən qərarlaşmış müasir sərhədlərin pozulmazlığını nəzərdə tutan beynəlxalq hüquqi aktları, SSRİ yaradılması haqqında İttifaq Müqaviləsini, SSRİ Konstitusiyasını, həmçinin oxşar münaqişələrin həlli sahəsində beynəlxalq təcrübəni əsas götürməyə çağırır.

**2. Azərbaycan Xalq Cəbhəsinin Təşəbbüs Mərkəzi** Azərbaycan SSR Dağlıq Qarabağ Vilayətində yaşayan erməni millətindən olan Azərbaycan SSR vətəndaşlarının separatçılıq hərəkətlərinin millətlərin öz müqəddəratını təyin etməsi prinsipi mövqeyindən qiymətləndirilməsini qəbul etmir. AXC Təşəbbüs Mərkəzinin bu mövqeyi ona əsaslanır ki: "**a)** Dağlıq Qarabağda yaşayan ermənilər əlahiddə, müstəqil etnik varlıq olmayıb, erməni xalqının bir hissəsidirlər, erməni xalqı isə öz milli müqəddəratını müasir Ermənistan SSR formasında dövlət yaratmaqla təmin etmişdir**; b)** Ermənilər Dağlıq Qarabağ Vilayəti əhalisinin yalnız bir hissəsini təşkil edir..."

Göründüyü kimi, AXC Bəyanatı olduqca sərt və ciddi tarixi faktları özündə əks etdirirdi.

Bülletenin **2-ci sayı 1989-cu ilin iyulunda** nəşr edilib. Bülletendəki ilk baş məlumatda (belə adlanır: **"AXC təsis edildi") bildirilir ki, 1989-cu ilin iyulun 16-da Bakıda AXC-nin Təsis Konfransı keçirilib.** Qeyd olunur ki, Konfransın işində Azərbaycanın 30 rayonundan məşvərətçi səslə 240, səsvermə hüququ ilə 196 nəfər iştirak edib. Konfransda AXC-nin Mərkəzi Məclisi, İdarə Heyəti, Redaksiya Heyəti, Maliyyə və Nəzarət komissiyaları, həmçinin AXC-nin sədri seçilib. Eyni zamanda konfran-

sın iştirakçıları tərəfindən bir neçə qətnamənin də qəbul edildiyi bildirilir. Məlumat verilir ki, **AXC-nin sədri vəzifəsinə tarix elmləri namizədi Əbülfəz Əliyev seçilib.** Konfransın işində Azərbaycan KP BK-nın katibi S.C.Qasımova iştirak edib.

Bülletendə nəşr edilən 2-ci məlumat belə adlanır: **"Azərbaycanın Xalq şairi".** Qeyd olunur ki, Xalq şairi Bəxtiyar Vahabzadə Xalq Cəbhəsinin yaranması münasibəti ilə Azərbaycan xalqını təbrik edərək demişdir: "Xalq Cəbhəsinin bütün proqram müddəaları ilə razıyam və bu Cəbhənin üzvü olmağı özümə şərəf bilirəm. Xalq Cəbhəsinin yaranmağına mane olanlar Azərbaycan xalqının düşmənidir".

Bülletendə verilən digər məlumat bu başlıqda verilib: **"1989-cu ildə nə etməli? Azərbaycan Xalq Cəbhəsi Dayaq Dəstələrinin vəzifələri".** Bu məlumatda qeyd edilir ki, fəal və təşəbbüskar ziyalıların böyük bir qrupu tərəfindən irəli sürülən Azərbaycan Xalq Cəbhəsi ideyası real həqiqətə çevrilməyə başladı. AXC-nin proqramında və nizamnaməsində ifadə olunan ideyalar ümumxalq rəğbəti qazandı. Məlumatda yazılır ki, Azərbaycanın əsl vətənpərvərləri Bakı müəssisələrində, başqa şəhər və rayonlarda AXC-nin Dayaq Dəstələri (DD) yaratmağa başladılar. Beləliklə, Hərəkatımızın birinci mərhələsi başa çatdı. İndi qarşımızda yeni vəzifələr, bilavasitə DD-nin fəaliyyətilə bağlı vəzifələr durur. DD-lər AXC-nin təşəbbüskarlarına haqlı suallar verirlər: "Niyə hökumət AXC-ni rəsmi qeydiyyatdan keçirmir, onun proqramını dərc etmir?"

Bülletenin bu sayında AXC Təşəbbüs Mərkəzinin üzvü, yazıçı-jurnalist Ağamalı Sadiq Əfəndinin Qazax, Ağstafa, Tovuz, Gədəbəy əhalisinə müraciəti çap edilib. Ağamalı bəy müraciətində bu torpaqların dəfələrlə qonşu respublikaların millətçi ünsürləri tərəfindən mənimsədildiyini, regionun əhalisinin iş və çörək dalınca İttifaq boyu səpələndiyini, işsizlik və qayğısızlıqdan gənclər arasında narkomanlıq və alkoqolizm meyllərinin gücləndiyini, rüşvətin həddini aşdığını bildirir. O, müraciətinin sonunda bu yerlərin sakinlərini son dərəcə fəal olmağa, Azərbaycan Xalq Cəbhəsi ətrafında birləşməyə çağırır.

AXC-nin Bülleteninin **3-cü sayı 1989-cu ilin sentyabrında** nəşr edilib. Bu sayda AXC-nin Təsis Konfransının materialları çap edilib. Qeyd olunur ki, **iyul ayının 16-da (1989-cu il) Bakıda AXC-nin Təsis Konfransı keçirilib və aşağıdakı məsələlər müzakirə edilib: 1. AXC Təşəbbüs Mərkəzinin hesabatı. 2. Azərbaycanda siyasi vəziyyət. 3. AXC Təşəb-**

**büs Mərkəzinin mətbuat vasitəsi ilə əlaqəsi. 4. AXC məramnaməsinin təsdiqi. 5. AXC nizamnaməsinin təsdiqi. 6. Təşkilat məsələləri.**

Məruzələrlə Tofiq Qasımov, Əbülfəz Əliyev, Leyla Yunusova, Zərdüşt Əlizadə, Sabit Bağırov, İsa Qəmbərov çıxış etmişlər.

Eyni zamanda konfrans adından aşağıdakı qətnamələrin qəbul edildiyi bildirilir: **1.** Azərbaycan Xalq Cəbhəsinin təsisi haqqında. **2.** Azərbaycan SSR-nin dövlət suverenliyi haqqında. **3.** Azərbaycan SSR-nin iqtisadiyyatı haqqında. **4.** Azərbaycan Demokratik Respublikası haqqında. **5.** DQMV-də Xüsusi İdarə forması haqqında. **6.** Siyasi məhbuslar haqqında. **7.** Türk xalqlarının müasir dövrdə vəziyyəti və vəzifələri haqqında. **8.** SSRİ-də milli münasibətlər haqqında. **9.** Ölkədəki istimai-siyasi vəziyyət haqqında.

Bülletenin **2-ci** səhifəsində "Mitinq və tətillər haqqında", "Atəş altında mitinq" başlıqlı yazılar verilib. Bu yazılarda Bakıda iyul və avqust aylarında keçirilmiş (29 iyul, 5, 12, 14 və 22 avqust) mitinqlər haqda informasiyalar vardır.

**3-cü** səhifədə çap edilən geniş yazı belə adlanır: "Respublikadan kənara aparılan məhsullardan rüsum alınması barədə fərmanın mahiyyəti haqqında". Bu məqalənin müəllifi Pənah Hüseynovdur.

Məqalənin davamı **4-cü** səhifədədir. 4-cü səhifədə olan digər yazı bu başlıqda verilib: "Moskva, Vəzirov və AXC". Bu yazının müəllifi Səfər Alışarlıdır.

**5-ci** səhifədəki "Niyə cəbhə və niyə məhz xalqın cəbhəsi?" yazısının müəllifləri isə Hikmət Hacızadə və Zaur Əliyevdir.

**6-cı** səhifədə AXC İdarə Heyətinin üzvü İsa Qəmbərovun çap olunan məqaləsi bu başlıqdadır: "AXC və Dağlıq Qarabağa Yardım Komitəsi". Həmin səhifədə "Əgər sözün varsa" (müəllifi Qaratel), "Neftli atalıq qayğısı" (müəllifi Zəminə) yazıları da çap olunub.

**7-ci** səhifədə 1916-cı ildə "Dirilik" jurnalından götürülmüş **"I Pyotrun vəsiyyətnaməsi" (1725-ci ildə yazılmış, 1738-ci ildə elan edilmiş),** yazıçı-publisist Sirusun Azərbaycan KP MK-ya, 26 Bakı Komissarı rayon partiya komitəsinə, Yazıçılar İttifaqı ilk partiya təşkilatına "İzahatı", "Xarici xəbər" yazı və məlumatlar çap edilib.

**8-ci** səhifədə "Bolqarıstan-Türkiyə", "Müdafiə Komitəsi yaradılmışdır", SSRİ və Azərbaycan SSR-nin yaşayış səviyyəsi ilə xarici ölkələrin (ABŞ, Fransa, İtaliya, Yaponiya) müqayisəli təhlilini verən cədvəl çap edilib.

**9-cu** səhifədə "Diqqət! Faşizm" (azərbaycanlı Orduxan və Əlinin ermənilər tərəfindən öldürülməsi ilə bağlı) yazısı, Ağacavadın "İşığı da bizdən, qaşığı da" məqaləsi və bir elan çap edilib.

**10-cu səhifədə** isə sumqayıtlıların Azərbaycan Xalq Cəbhəsinə göndərdiyi "Narahat olmağa dəyməz" başlıqlı məktubu, Bəxtiyar Vahabzadənin "Deputata məktub" şeiri, AXC-nin Bakı rayon şöbələrinin əlaqə telefonları, H.Z.Tağıyevin doğum günü ilə bağlı (1 sentyabr) "Diqqət" məlumatı, cəbhəçi Əli Aslanovun vəfatı münasibəti ilə nekroloq və AXC-nin hesab nömrəsi verilib. Həmin səhifədə "Soruşuruq, bilirik, dünyaya çatdırırıq" məlumatında isə 1989-cu ilin dekabrın 4-dən 5-nə keçən gecədə ordu ilə dinc nümayişçilərin toqquşmasında ölən olub-olmadığı ilə bağlı faktlar toplanıldığı bildirilir.

Sonda belə bir replika da verilib: "Azərbaycan xalqının son günlərdə keçirdiyi mitinq və tətillər barədə dünya ictimaiyyətinə məlumat verildiyi halda, Amerikanın ən iri teleşirkətləri bizi göstərdiyi halda, Moskva susur... Bərəkallah, belə aşkarlığa!.."

Qeyd edək ki, 1990-cı ilin fevralın 5-də Ağdaş rayonunda Azərbaycan Xalq Cəbhəsi Məclisinin Fövqəladə sessiyası haqqında **1 saylı Bülleten** nəşr edilib. Bülletenin giriş hissəsində belə bir məlumat vardır: "19-20 Yanvar hadisələrindən sonra AXC-də vəziyyəti aydınlaşdırmaq, yaranmış şəraitə siyasi qiymət vermək, əlaqələri bərpa etmək, fəaliyyət taktikasını müəyyənləşdirmək zərurəti meydana çıxmışdı. AXC İdarə Heyəti 26.01.1990-cı il tarixdə, Məclis üzvlərindən bir neçə nəfərin də iştirak etdiyi növbəti iclasında fevral ayının 10-da Ağdaş şəhərində Məclisin sessiyasını keçirmək haqqında qərar qəbul etmişdi. Məclis üzvlərindən təşkil olunmuş Təşəbbüs Qrupu (F.Ağamalıyev, Q.Məmmədov, Çingiz F.) sonradan Məclisin sessiyasının fevralın 5-nə keçirilməsini təklif


АЗӘРБАЈҸАН ХАЛГ ҸӘБҺӘСИ
МӘҸЛИСИНИН
ФӨВГӘЛ'АДӘ СЕССИЈАСЫНЫН
БУЛЛЕТЕНИ
№ 1.

АҒДАШ. 5 ФЕВРАЛ 1990.

*AXC Məclisinin sessiyasının Bülleteni, Ağdaş 1990*



АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИНИН СӘНӘДЛӘРИ

АХЧ МӘЧЛИСИ
І СЕССИЈАСЫНЫН
ПРОТОКОЛУ

«28-29 октјабр 1989-чу ил. Бакы ш.»

БАКЫ-1990

***AXC Məclisi I sessiyasının protokolu***

etmiş və bunu İdarə Heyəti ilə razılaşdırmışdılar.

Ağdaş sessiyasında 48 rayon nümayəndəsi (həlledici səslə 43) iştirak etmişdi. Məclis AXC-də fövqəladə vəziyyət elan edərək İdarə Heyətinə Məclisin növbəti sessiyasına qədər fövqəladə səlahiyyət vermiş, Yanvar hadisələrində və Milli Müdafiə Şurasında AXC-nin rolunu öyrənmək üçün xüsusi komissiya yaratmış, Məclisin işini qurmaq üçün 3 ay müddətinə katiblik seçmişdi.

Məclisin Ağdaş sessiyası AXC-nin təşkilat kimi qorunub saxlandığını, siyasi fəaliyyətə qədər qüvvə olduğunu sübut etdi.

Sessiyanın materialları AXC-də gedən prosesləri başa düşmək üçün böyük əhəmiyyət kəsb edir.

Bundan əlavə **"Azərbaycan Xalq Cəbhəsinin sənədləri"** seriyasından 1990-cı ildə "AXC Məclisi I sessiyasının protokolu. 28-29 oktyabr 1989-cu il. Bakı ş." adından ayrıca kitabça da nəşr edilib.

---

***Qaynaqlar:***

*1. Azərbaycan Xalq Cəbhəsinin Bülleteni. 1989-cu il,iyun, №1.*

*2. Azərbaycan Xalq Cəbhəsinin Bülleteni.1989-cu il, iyul, № 2.*

*3. Azərbaycan Xalq Cəbhəsinin Bülleteni. 1989-cu il, sentyabr, № 3.*

## "MEYDAN" QƏZETİ

AXC Bülletenlərinin nəşrindən sonra geniş formatda (Ax3 formatı, "Bülleten" Ax 4 formatında çıxırdı) nəşr edilən ikinci mətbuat orqanı **"Meydan" qəzeti** idi Bu, həm də nəşr tarixi etibarı ilə AXC-nin ilk qəzetidir. Qəzetin ilk sayı 1989-cu ilin sentyabrında gizli olaraq Tovuz rayon mətbəəsində çap edilib. Qəzetin ilk sayı 10 000 tirajla nəşr olunub (qiyməti 1 manat) və gizli olaraq gətirilib Bakıda yayılıb.

**Redaksiya Heyəti olaraq nəşr edilən qəzetin baş məqaləsini yazıçı-jurnalist Səfər Alışarlı yazıb. Baş məqalədə yazılırdı:** "Bəylər və



МЕЈДАН

АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИНИН ГӘЗЕТИ. №1 СЕНТЈАБР 1989-чу ИЛ. ГИЈМӘТИ 1 МАНАТ.

**БӘЈЛӘР ВӘ ХАНЫМЛАР!**

Һәләлик гејри-формал характер дашыјан бу гәзети «Мејдан» адландырмағымыз тәсадүфи дејил. бу ады биз ағлымыза кәлән, гулағымыза пычылдајан, бәзән зарафатјана дејилән јүзләрлә адын ичиндән сечиб хошламышыг. Ону да нәзәрә алмышыг ки, сон ики илдә мејдан мәфһуму бизим тәфәккүрүмүздә һагг, әдаләт, мүбаризә, азадлыг сәсинин тәчәссүмү кими өзүнә јер едајиб. «Мејдан» дејәндә биз хәјалән Ленин адына Бакы мејданыны «Азадлыг» мејданы кими көрүрүк. «Мејдан» дејәндә биз јалныз рајком бинлары гаршысындакы асфалтлы кенишликләри јох, бир адамын да ајаг гојуб, мүбаризә үчүн үстүндә дајана биләчәји һәр гарыш Азәрбајчан торпағыны нәзәрдә тутуруг. «Торпаг, уғрунда өлән варса, Ватандыр!» Мејдан бу күн АХЧ-нин вурушдуғу сијаси дөјүшләр мәканыдыр.

Сон јетмиш илдә илк дәфә 19 феврал вә 18 мај 1988-чи илдә халгымызын бирлијиндән доған севинч һисси мәһз Мејданда бизим көзләримизи јашартды. 5 декабр 1988-чи илдә исә Азәрбајчанын мәрд, намуслу оғул вә гызларынын көзүнү мејданда рус ордусунун атдығы зәһәрли газ пакетләри јашартды. 5 декабр кечәси, ора төкүлән ган да. орада галхан налә-нифрин дә. гадын вә ушаглара да рәһм етмәдән енән резин дәјәнәкләр дә бизим мејданымызы мүгәддәсләшдирди, ону бүрократик дөвләт апаратынын тәһгирамиз нүмајишләр, парадлар јериндән һәмишәлик ајырараг халгын азадлыг, һагг иши уғрунда мүбаризәсинин тәркиб һиссәсинә чевирди. Она көрә дә инди «Мејдан» дејәндә биз вахтилә о трибунадан мүгәвва кими халга әл едајән нөкәр рәһбәрләри јох, Нәмәт Пәнаһову, Мәһәммәд һатәмини, Әбүлфәз Әлијеви, Сијамәки, Хәлил Рзаны, Бәхтијар Ваһабзадәни, Сәмәд Вурғунун оғулларыны вә онларла дикәр вәтәнпәрвәрләри хатырлајырыг.

Нојабр митингләринин 17 күнү әрзиндә Мејдан Азәрбајчан ичтимаи фикринин, Азәрбајчан әдәбијјатынын он илләр боју көрә билмәјәчәји сијаси маарифләндирмә просесини гәти шәкилдә јеринә јетирди, ону ирәли апарды, халгын кәлә вәзијјәтини. империјанын сүртүк идејаларла бәзәдилмиш сојучу сијасәтинин ич үзүнү ачды вә ону ифша етди. Мәһз буна көрә ССРИ прокурорлуғу вә ДТК һәлә митингләр гуртармамыш өзүнүн ән бич вә јыртычы гүввәләрини ДИН гошунлары илә бирликдә тәчили Бакыја. Азәрбајчан халгынын азадлыг идеалларына диван тутмаға көндәрди.

Вә демәк лазымдыр ки, бу диванын әзабыны төкчә һәбсхана күнчләринә атылмышлар јох, бүтүн Азәрбајчан халгы —тәһгирлә вәзифәдән чыхарылмыш Статистика рәһбәриндән тутмуш, узун муддәт сәһәр-ахшам өз евиндә кенерал тјагуновларын ифтира вә бөһтанларла долу «рәсми» мәлуматларыны ешидә-ешидә бағры ган олан ана-бачыларымыза, күтбејин командирләрин јолларда ләјагәтсизликлә тәһгир етдији көрпәләримизә гәдәр һамымыз чәкдик. Мәтбуатымыз боғулду, гејрәтли оғул вә гызларымыз истинтагларда алчалдычы сорғу-суаллара тутулду, бүтүн Азәрбајчан халгыны, Вагиф Сәмәдоғлунун сөзләрилә десәк, јенидән милли тәнһалыг вә кимсәсизлик кәфәнинә бүрүмәјә чалышдылар. Буна там мүјәссәр ола билмәсәләр дә, мүбаризәмизи хејли зәифләтдиләр, ҹәмәли Худу Мәммәдовлар тәрәфиндән гојулан Азәрбајчан Халг Чәбһәсинин мүстәгил ичтимаи-сијаси тәшкилат кими формалашмасыны нә аз, нә чох, дүз бир ил ләнкитдиләр. АХЧ исә һәлә онда республиканын кәркин вәзијјәтиндә сијаси вә ичтимаи фәаллығы артмыш халг күтләләрини өз архасынча милли мәгсәдләрә доғру апарачаг јеканә тәшкилат ола биләрди.

Халгын чәтин вә мүтәшәккил мүбаризәси өнүндә АХЧ-нин бу күн ғазандығы илк гәләбәләр һамыја ашкардыр. Бунлардан ән башлычасы сонунчу сессијада республиканын сијаси суверенлији һаггында конститусија сәвијјәли ганунун гәбул едилмәси, ДГМВ-дә Хүсуси Идарә Комитәсинин ләғв едилмәси гәрарыдыр. Бу сессијада, бу депутат корпусу илә бундан артыг мүтәрәгги ганунлар гәбул етмәк мүмкүн дејилдир. Нөвбәти ганунларысызын. јәни бүтүк Азәрбајчан халгынын кәләчәк талејини мүәјјән едәчәк ганунларын гәбулу јени сечиләчәк Азәрбајчан ССР Али Советинин депутатларындан асылыдыр. Она көрә дә халг өз истәдијини, онун ирадәсини ифадә едән адамлары депутат сечмәлидир вә сечмәји дә бачармалыдыр. Бүтүн бу мүбаризәләримизин мәркәзиндә өзүнүк биринчи гурултајына һазырлашан АХЧ дајаныр.

**С. АЛЫШАРЛЫ.**

10. Сессијанын кедиши телевизија илә | АЗӘРБАЈЧАН КП МК-нын | сијаларын јолу тутулуб. ин-

*“Meydan” qəzeti*

xanımlar! Hələlik qeyri-formal xarakter daşıyan bu qəzeti **“Meydan”** adlandırmağımız – təsadüfi deyil, bu adı biz ağlımıza gələn, qulağımıza pıçıldanan, bəzən zarafatyana deyilən yüzlərlə adın içindən seçib xoşlamışıq. Onu da nəzərə almışıq ki, son iki ildə “meydan” məfhumu bizim təfəkkürümüzdə haqq, ədalət, mübarizə, azadlıq səsinin təcəssümü kimi özünə yer eləyib. “Meydan” deyəndə biz xəyalən Lenin adına Bakı meydanını “Azadlıq” meydanı kimi görürük. “Meydan” deyəndə biz yalnız raykom binaları qarşısındakı asfaltlı genişlikləri yox, bir adamın da ayaq qoyub, mübarizə üçün üstündə dayana biləcəyi hər qarış Azərbaycan torpağını nəzərdə tuturuq. **“Torpaq – əgər uğrunda ölən varsa, Vətəndir!”** Meydan bu gün AXC-nin vuruşduğu siyasi döyüşlər məkanıdır!”

**Qəzetin ilk sayında** Azərbaycan KP MK ilə AXC İdarə Heyəti arasında 1989-cu il sentyabrın 13-də aparılmış danışıqlar haqqında və ictimai-siyasi vəziyyətlə bağlı məlumatlar da vardır.

**Qəzetin 2-ci sayı 1989-cu ilin oktyabrında çap edildi.** Bu dəfə qəzet Azərbaycan Xalq Cəbhəsi Oktyabr (İzmir) rayon şöbəsinin orqanı kimi çap edildi. Qəzetin şüarı belə idi: **“Bayraqları bayraq yapan üstündəki al qandır, Torpaq – əgər uğrunda ölən varsa, Vətəndir!”**

Bu saydakı AXC-nin qeydiyyata alınması haqqında məlumat verilirdi. Bildirilirdi ki, 1989-cu ilin oktyabrın 5-də Azərbaycan SSR Nazirlər Sovetinin 404 saylı qərarı ilə Azərbaycan Xalq Cəbhəsinin qeydiyyata alınmaq müraciəti təmin edilirdi.

Qəzetin bu sayında Azərbaycan KP MK rəhbərliyi ilə AXC üzvlərinin birgə iclasının protokolu da çap edilmişdi.

1990-cı ildə Azərbaycan Ali Sovetinə seçkilərdə “Meydan” qəzetinin xüsusi buraxılışı nəşr edilib. AXC namizədlərinin təbliği məqsədi ilə çap edilən buraxılışda onların qısa tərcümeyi-halları və fotoları çap edilib.

***Qaynaq:***

*1. “Meydan” qəzeti, sentyabr, 1989-cu il, N1*

*2. “Meydan” qəzeti, oktyabr, 1989-cu il, N2*

## “AZADLIQ” QƏZETİ


Ел күчү — сел күчү!

АЗАДЛЫГ

АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИНИН ГӘЗЕТИ

№ 1 24 ДЕКАБР 1989-ЧУ ИЛ. ГИЈМӘТИ 20 ГӘПИКДИР.

ТОФИГ ФИКРӘТ

МИЛЛӘТ ШӘРГИСИ

Чејнәнди, јетәр, варлығымыз чәһл илә гәһрә,
Доғранды мүбарәк Вәтәнин бағры сәбәбсиз.
Бирликдә бу күн тапмалыјыг дәрдинә чарә,
Чан гардашы, ган гардашы, шан гардашыјыг биз.
Милләт јолудур, һагг јолудур тутдуғумуз јол,
Еј һагг, јаша! Еј севкили милләт, јаша, вар ол!
Кәл, гардаш, анан халг сәнә мөһтач, ону гуртар.
Јардым она, гуртармаг о бәдбәхти вәзифән.
Гаршында анан бағры ачыг, хәстә, зарылдар,
Көрмәк буну, дурмаг бизә бәдтәрдир өлүмдән!
Һәр ан о көзәл синәни хәнчәрләјир әлләр,
Имдадына чатмазсаг әкәр — маһви мүгәррәр.
Зүлмүн тopy вар, күлләси вар, гәлʼәси варса
Һаггын да бүкүлмәз голу, дөнмәз үзү вардыр.
Көз јумма күнәшдән, нә гәдәр нуру гаралса
Сөнмәз әбәди, һәр кечәнин күндүзү вардыр.
Милләт јолудур, һагг јолудур тутдуғумуз јол,
Еј һагг, јаша! Еј севкили милләт, јаша, вар ол!
Вахтилә атан кимсәјә миннәтми едәрди?!
Јох, галмады һәшә сәнә зилләт падәриндән.
Дүнјада шәрәфдир јашадан милләти, фәрди,
Силкин, бу зәлаләт тозу учсун үзәриндән.
Инсанлығы памал едән алчаглығы јых, әз!
Биллаһ јашамаг! Јердә сүрүкләнмәјә дәјмәз!
Һәр рәнк илә һагсызлығы көрдүн... Буму гануи?
Ән гәмли сәфаләтләрә дүшдүн... Буму дөвләт?..
Дөвләтсә дә, ганунса да артыг јетәр олсун,
Артыг јетәр олсун бу дәни зүлмү чәһаләт...
Милләт јолудур, һагг јолудур тутдуғумуз јол,
Еј һагг, јаша! Еј севкили милләт, јаша, вар ол!

*“Azadlıq” qəzetinin ilk sayı*

Azərbaycan Xalq Cəbhəsinin qəzeti kimi nəşrə başlayan **“Azadlığ”ın ilk sayı 1989-cu ilin dekabrın 24-də** çap edildi. “El gücü - sel gücü” şüarı ilə çap edilən bu qəzetin baş redaktoru Nəcəf Nəcəfov idi. Qəzet Azərbaycan SSR Dövlət Mətbuat Komitəsinin 4 saylı mətbəəsində çap edilmişdi. Qəzetin ilk sayının ümumi tirajı 200 min idi. Qeyd edilirdi ki, qəzet həftədə bir dəfə - cümə axşamları çıxmalı idi. Qəzetdə belə bir maraqlı məlumat verilmişdi: “Redaksiyanın hazırda nə yeri var, nə də telefonu. Ona görə də bizə yazmaq istəyənlərə bu ünvanı veririk: 370008, Bakı, tələb olunanadək N. Nəcəfov”. Qəzetin satış qiyməti 20 qəpik göstərilirdi.

İlk sayın baş səhifəsində meydana toplaşmış insan kütləsinin - böyük bir izdihamın fotosu verilib. Həmin fotonun altında isə böyük türk şairi Tofiq Fikrətin “Millət Şərqisi” şeiri çap olunub:

Çeynəndi yetər, varlığımız cəhl ilə qəhrə,
Doğrandı mübarək vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün tapmalıyıq dərdinə çarə,
Can qardaşı, qan qardaşı, şan qardaşıyıq biz.
Millət yoludur, haqq yoludur, tutduğumuz yol,
Ey haqq, yaşa! Ey sevgili millət, yaşa, var ol!..

Qəzetin 2-ci səhifəsindəki ilk yazı belə adlanır: “Azad düşüncə, azad söz uğrunda”. Əslində bu müəllifsiz, Baş məqalə məzmununda olan yazıda “Azadlıq” qəzetinin başlıca məqamı və fəaliyyət istiqamətləri açıqlanır: “Azadlıq” xalqımızın bugünkü qayğıları ilə bağlı respublikanın ən ucqar guşələrindən belə operativ söz açacaq, Azərbaycan Xalq Cəbhəsinin fəaliyyətini işıqlandıracaq, respublikamızda, ölkədə və xaricdə baş verən demokratik hərəkatlar haqqında məlumat verəcək.

**Azərbaycan Xalq Cəbhəsinin banisi xalqın özü oldu, Cəbhənin qəzetini də xalq yaradacaq - burada yalnız xalqın istək, arzu və tələbləri əks olunmaqla yanaşı, başlıca müəllif də elə xalqın özü olacaq".**

Həmin səhifədə **Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M. Ə. Rəsulzadənin "Haqsız qan yerdə qalmaz"** başlıqlı yazısı verilib (əslində bu yazı onun 1920-ci ilin iyulunda Lahıcda gizlin olaraq yaşadığı dövrdə yazdığı "Əsrimizin Siyavuşu" əsərindən bir parçadır). Həmin əsərdən seçilmiş bu təsirli yazıdakı fikirlər 1989-cu ildə Azərbaycan xalqının apardığı azadlıq mübarizəsi üçün olduqca xarakterik idi: "Bəli, ey vətəndaşlar! Və dolayısı ilə Sizlər - ey gələcək nəsil, ey Gənclik! Ey əsrimizin Siyavuşunun böyümüş oğlu! Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir Bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min bir müşkülatla yüksəldərək dedi ki: **Bir kərə yüksələn Bayraq, bir daha enməz!"**

Qəzetin həmin səhifəsinin sonunda Azərbaycan Xalq Cəbhəsinin II (Fövqəladə) Konfransının qətnaməsi və AXC İdarə Heyətinin qərarı (9.XII.1989) çap edilib. AXC Təşkilat qrupunun qərarında isə (18. XII.1989) AXC-nin təşkilat konfransının 1990-cı ilin yanvar ayının 6-7-də keçiriləcəyi bildirilir.

Qəzetin 3-cü səhifəsi bütöv olaraq AXC-nin sədri Əbülfəz Əliyevlə müsahibəyə həsr edilib. Ə.Əliyevin **böyük şair M.Ə.Sabirdən gətirdiyi "Hürriyyət olan yerdə də insanlıq olur"** fikri müsahibənin başlığı üçün seçilib. Həmin müsahibəni qəzetin Baş redaktoru Nəcəf Nəcəfov aparıb. Müsahibədə Əbülfəz bəy, AXC hansı tarixi-siyasi prosesin nəticəsidir, bugünkü demokratik hərəkatda Azərbaycan milli hərəkatlarının ənənəvi rolu, AXC-nin gələcəyi necə ola bilər və digər suallara ətraflı, məzmunlu və maraqlı cavablar verib.

Qəzetin ilk sayının **4-5-ci** səhifələrində Azərbaycan Xalq Cəbhəsinin Proqramı və Nizamnaməsi verilib. Proqramda aşağıdakı bölmələr əksini tapıb: 1.Ümumi prinsiplər; 2.AXC-nin siyasi vəzifələri; 3.AXC-nin əsas fəaliyyət formaları; 4.İqtisadiyyat; 5.Sosial ədalət; 6.İnsan hüquqları; 7.Milli münasibətlər; 8.Mədəniyyət və təhsil; 9.Ekologiya.

Qəzetin **6-cı** səhifəsindəki yazılar bu başlıqlar altında verilib: 1. Xalq deputatları: nüfuz bərpa olunmalıdır; əksəriyyətin fikri: Konstitusiya Qanunundan imtina; 2. "İnşallah, bu dəfə keçməyəcək!.. Azərbaycan SSR xalq deputatlarının seçkiləri qarşısında". Sonuncu yazının müəllifi **Tofiq Qasımovdur**.

Həmin səhifədə Ü. Hacıbəyovun 1907-ci ildə "Irşad" qəzetində çap edilmiş "Duma yaxınlaşır" felyetonu verilib. Səhifənin sonunda **rəssam Gündüz Əliyevin** seçilən yox, təyin edilən deputatlar haqqında çəkdiyi maraqlı bir karikatura verilib.

Qəzetin **7-ci** səhifəsində şair **Vaqif Səmədoğlunun** "Milli tənhalıqdan qurtulmalıyıq" məqaləsi, Arif Aslanovun "Nə vaxtadək aldadılacağıq?" (bu məqalənin davamı 8-ci səhifədədir), Rəhim Qazıyevin isə "Köhnə siyasət yeni cilddə" yazıları çap edilib.

Qəzetin **8-ci** səhifəsində yuxarıda "Şanlı günlərdən bir foto-xatirə" adlı foto təqdim edilib. 1988-ci ilin noyabr-dekabr aylarında Azadlıq Meydanında yandırılan tonqalın ətrafına toplaşmış bir qrup insanın həmin fotosu çox təsirli görünür. **Fotonun müəllifi S. Rasimdir**.

Eyni səhifədə Azərbaycan Xalq Cəbhəsinin Litvada çıxan "Soqlasiya" qəzetində çap edilən bir yazı ilə bağlı bəyanatı (həm Azərbaycan, həm də rusca), "Əlifbada inqilab olurmuş", "Günahkar inqilabdır!" adlı yazılar və elanlar çap edilib.

Göründüyü kimi, "Azadlıq" qəzeti elə ilk sayından ictimai-siyasi mühitə ciddi təsir edən mətbuat orqanına çevrildi. Qəzetin sonrakı saylarında da maraqlı və oxunaqlı yazılar çox idi.

**2-ci sayda** 1-ci səhifədə Lenin Meydanına (indiki Azadlıq Meydanı) toplaşmış böyük bir izdihamın fotosu (foto müəllifi Etibar Cəfərov), Molla Pənah Vaqifin "Bayram oldu" şeiri ("Bayram oldu heç bilmirəm neyləyim" misraları ilə başlayan-*red.*), "Mübarizəni şüurla aparaq" adlı yazı və Azərbaycan Xalq Cəbhəsinin bəyanatı (Son günlər Bakı şəhərində baş verən xoşagəlməz hadisələr və bir qrup adamın AXC-nin adından və üçrəngli bayrağından istifadə edib, qeyri-humanist hərəkətlərə yol verməsi ilə bağlı); 2-ci səhifədəki yazılar: 1) "Cəlilabadın haqq səsi" - müəllif Fəzail Rəhimoğlu; 2) "Cəlilabad rayonunda baş verən son hadisələrlə əlaqədar Ümumrayon kommunistlərinin 1989-cu il dekabrın 25-də keçirilmiş yığıncağının qərarı; 3) AXC Qərargahından məlumatlar;

**3-cü səhifədəki** yazılar: 1) "Zaman ən obyektiv hakimdir" (AXC Culfa rayon şöbəsinin əlaqəçisi Ramiz Tağıyevlə Gündüz Tahirlinin müsahibəsi; 2) AXC təşkilat qrupunun məlumatı; 3) Azadlıq, yoxsa azad birlik?" (müəllif Bahəddin Musaoğlu);

**4-cü səhifədəki** yazılar: 1) "Partokratiya, yoxsa demokratiya?" (müəllif -hüquqşünas Fuad Ağayev); 2) "Müxalifətdən qorxmamalıyıq. AXC-

nin daxili siyasi qurumu gələcəkdə necə ola bilər?” (müəllif Yunus Oğuz);

**5-ci səhifədəki** yazı: “Azadlığın çətin yolu” (Seçici üçün yaddaş. Azərbaycan Ali Sovetinə seçkilər üçün);

**6-cı səhifədəki** yazılar: 1) “Ekologiya və cəmiyyətimizin vəzifələri” (müəllif - Hikmət Hacızadə); 2) “Ancaq bizim rəssamlar dözür” (Rus dilində, Azərbaycan Rəssamlar İttifaqına açıq məktub. T.Bəkirov, Moskva); 3) “Gecə quldurları və ya hər gecənin bir gündüzü olur” (müəllif - Arif Aslanoğlu);

**7-ci səhifədəki** yazılar: 1) AXC İdarə Heyətinin daxili nizamnaməsi (layihə); 2) “Türkün sözü” başlıqlı yazı; 3) “Eyni taleli binəvalar”; 4) “Qaçqınlar” **haqqında müəllifsiz yazı və fotolar;**

**8-ci səhifədəki** yazılar: 1) “Bir daha mülkiyyət haqqında (müəllif Əli Məsimov); 2) “Yuxusuz qaranquşun cəhcəhi” (müəllif - Ədalət Tahirzadə); 3) “Elanlar”; 4) “Müğənninin xalq işinə töhfəsi” (Özbəkistanın Xalq artisti Nəsibə Allahverdiyevanın konsertlərindən birində toplanan pulun Azərbaycan Xalq Cəbhəsinin hesabına keçirməsi münasibəti ilə).

Qeyd edək ki, “Azadlıq” qəzetinin 2-ci sayı da **200 min tirajla** nəşr edilib və redaksiyanın ünvanı və telefonu bildirilir. Ünvan olaraq belə yazılıb: 370008, Bakı, tələb olunanadək, N.Nəcəfov.

Qəzetin **3-cü sayı** 1990-cı ilin yanvarın 6-da çap edildi. Birinci səhifədə bütövlükdə rəssam Gündüz Əliyevin “Tələb və Təklif” karikaturası çap olunub. Karikaturanın yuxarı “Tələb” hissəsində meydana toplaşmış çoxlu insan kütləsi - izdiham verilib, digər - aşağı “Və Təklif” yazılan yerdə əl şəklinin içində, müxtəlif adlar (hamam, mənzil, qoz ağacı, kompüterləşdirmə, Novruz Bayramı, sağlamlıq proqramı və s.).

Qəzetin **2-ci** səhifəsindəki yazılar: 1) “Dünya dəyişir” başlığı altında - a) “Məftilarası görüş”; b) “Sərhəd dirəkləri yandırıldı” (Xaliq və Ələsgər Siyablının yazıları); 2) “Zəka? Şərəf? Vicdan? - bu yazı 3-cü və 4-cü saylarda da davam edir (Müəllif A. Quliyevdir); 3) AXC qərargahından məlumatlar” başlıqlı xəbərlər və “Aldana-aldana alçalırıq, alçala-alçala aldanırıq” adlı yazı (müəllifi - Qasım Qırxqızlı, Kərkicahan qəsəbəsi göstərilib) çap edilib.

**3-cü** səhifədə başlıqda “Bir günün sualları” (müəllif - Səfdər Nəhmətov), “Qardaş harayı” (müəllifi - Qardaşxan) və əvvəli 2-ci səhifədən başlayan “Zəka? Şərəf? Vicdan?” yazıları çap edilib.

**4-cü** səhifədə Cəlilabad hadisələrinin qeyri-obyektiv qiymətləndirilməsi ilə bağlı 103 nəfərin imzası ilə Azərinforma etiraz məktubu çap

edilib. Həmin səhifədə verilən "Mollanı həkim xilas etdi" (Cəlilabad hadisələrinə dair) yazının müəllifi isə Q. Əzizxanlıdır. 4-cü səhifədə "Zəka? Şərəf? Vicdan?" yazısının (2-ci və 3-cü səhifələrdə davam edən) davamı və müəllifi A. Quliyev olan "Qarşı tərəf nə deyir" yazısı (bu yazıda müəllif "Azadlıq" qəzetində xalqı düşündürən və narahat edən məsələlərlə bağlı yazıların nəşrini vacib sayır) çap olunub.

**5-ci** səhifədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə", Azərbaycan Xalq Cəbhəsi adından ünvanlanmış müraciət yazı verilib. Elə həmin səhifədə "Xalqın mənafeyinə dönük çıxmayaq" başlığı altında AXC İdarə Heyətinin üzvü Sabit Bağırovun Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı çıxışının mətni verilib.

**6-cı** səhifədə "Azərbaycanın Moskvanın əmri ilə təşkil olunmuş blokadası" başlıqlı arayış - məlumatlar verilib. Digər yazı belə adlanır: "Türkün yanğısı" (müəllif - Təmkin Səbirli). Həmin səhifədə verilən BDU-nun hüquq fakultəsinin IV kurs tələbələri Əhməd Nurməmmədov və Bahadur Şükürovun yazısı belə başlıqda verilib: "Bu, suverenliyimizi danmaqdır".

**7-ci** səhifədə Mehman Əliyevin "Ehtiyatlı olun: təxribat və ya bir kitabın xülasəsi" məqaləsi çap edilib. Digər tarixi məqalə Londonda nəşr edilən "Sentral Eyşn Nyusletter" jurnalının 1988-ci ilin may (№2) sayından götürülüb və belə adlanır: "İki inqilab arasındakı dövrdə Rusiyada türk xalqlarının mübarizəsi" (bu yazının davamı 8-ci səhifədədir). 7-ci səhifədə Dilavər Əzimovun "Mən partiyadan niyə çıxdım?" ərizəsi və izahatı çap edilib.

**8-ci** səhifədə tanınmış şair Xəlil Rzanın "Əli qələmli əsgər" başlıqlı yazı olan böyük fotosu verilib. Həmin səhifədə "B. C." imzası ilə "Elanlar" başlıqlı məlumatlar çap olunub. Professor Yusif Seyidovun "Azadlıq sadəcə söz deyil" yazısında isə "Azadlıq" sözünün mənası açıqlanır.

**8-ci sayda "Azadlıq"sevərlərə bir məlumat da verilib:** "Azadlıq" bu saydan başlayaraq "Soyuz peçat" (Mətbuat yayımı idarəsinin adı) xətti ilə yayılacaq. 3-cü sayın tirajı isə 170 000 olaraq göstərilib.

***Qaynaq:***

*1. "Azadlıq" qəzeti,24 dekabr,1989-cu il,N1*
*2. "Azadlıq" qəzeti,29 dekabr,1989-cı il,N2*
*3. "Azadlıq" qəzeti,6 yanvar,1990-cı il,N3*

## “AZADLIQ” RUS DİLİNDƏ



Ел күчү—сел күчү!

АЗАДЛЫГ

АХЧ-нин Мәчлиси вә Идарә һеј'әти сон күнләрдә ермәни екстремистләринин силаһлы тәчавүзү нәтиҹәсиндә һәлак олмуш вәтәнпәрвәрләримизин аиләләринә дәрин һүзнлә башсағлығы верир, онларын дәрдинә шәрик олур. Вәтән јолунда шәһид оланларын хатирәси гәлбимиздән һеч вахт силинмәјәҹәк.

ГАЗЕТА НАРОДНОГО ФРОНТА АЗЕРБАЙДЖАНА

АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИНИН ГӘЗЕТИ

№ 1. 18 ЯНВАРЯ 1990 г.

ЦЕНА 20 КОП.

### ЗАЯВЛЕНИЕ ПРАВЛЕНИЯ НАРОДНОГО ФРОНТА АЗЕРБАЙДЖАНА

Вечером 13.01.90 г. и в ночь с 13.01.90 г. на 14.01.90 г. в г. Баку имели место акты насилия по отношению к армянскому населению г. Баку. Преступления продолжались и на следующий день, но в меньших масштабах. Всего за два дня по официальным сообщениям убиты 32 человека армянской национальности. Имеются жертвы и среди лиц азербайджанской национальности.

Правление НФА гневно осуждает совершенные ...

... шения Азербайджанской ССР, дискредитацию азербайджанского народа в глазах мировой общественности;

— осуществляют неприкрытые действия по выводу НКАО из-под юрисдикции Азербайджанской ССР;

— поддерживают своим бездействием прямое неповиновение местных властей НКАО органам управления Азербайджанской ССР;

— содействуют сепаратистским намерениям ар...

... созданной и искусно раздуваемой проблемы НКАО, умножающей жертвы азербайджанского народа и не только азербайджанского. Эта проблема, уже полностью превратившаяся из политической в хорошо координируемую крупномасштабную вооруженную агрессию против Азербайджана, провоцирует на акты отчаяния безоружных беженцев из Армении и НКАО, мирное население многих районов республики, разуверившихся в защите и справедли...

... десятков мирных жителей и захват 40 заложников (стариков, женщин и детей), с применением вертолетов и современного оружия.

Мы ни в коей мере не оправдываем последовавшие за этим события, речь может идти лишь о выявлении причин, нормализации обстановки в г. Баку и обеспечении защиты всех его граждан. Правление Народного фронта Азербайджана использует для этого все имеющиеся у него возможности и координирует свои действия с правоохранительными органами.

Предварительный анализ фактов показывает, что преступления инициировались определенными людьми, быстро исчезающими с места преступле...

### ВЕСТИ ИЗ ШТАБА НФА

**14.01.90. 4.30.** В селении Туг Гадрутского района произошло столкновение между армянами и военными. Доставленный в Физулинскую городскую больницу раненый солдат (по национальности—чеченец) скончался. В селении Хохулу армяне вместе с солдатами напали на азербайджанцев.

**13.30.** Положение в Ханларском районе — сложное. В перестрелке с армянскими вооруженными бандами ранены трое. Они доставлены в больницу города Гянджа. Из Еревана и Степанакерта бандитам доставляется помощь. Число раненых среди азербайджанцев достигло 7 человек.

**14.00.** Армянские банды совершили нападение на азербайджанские села Ханларского, Гюлистанского (бывшего Шаумяновского) районов. Мирное население обстреливается минометами и пулеметами с вертолета (бортовой номер — 32). Село Шафаг находится в окружении.

**14.30.** Число вертолетов, атакующих селения Ханларского района, дошло до четырех.

**18.40.** Селение Ашыглар Ханларского района обстреливается с вертолета. Погиб один человек, много раненых. В селении Тогана взяты в плен 7 азербай...

*“Azadlıq” qəzeti rus dilində*

“Azadlıq” qəzetinin **rus dilində** çıxan ilk sayı (№1) 1990-cı ilin 18 yanvarı olaraq göstərilir. Qəzetin adı Azərbaycan dilində “Azadlıq” verilsə də, yazılar rus dilində çap olunub. Yalnız qəzetin 2-ci səhifəsinin bütün yazıları, 7-ci səhifədəl yazı müsahibə (“Dostluğumuzu, qardaşlığımızı itirməyək”); 8-ci səhifədə isə 3 yazı (“Sov. İKP üzvlüyündən imtina edirəm” - G. Qurbanov; “Bəsdir!!!”, “Arazın göz yaşları” - çapa hazırlayan Qulu Kəngərli) çap edilib.

Bu sayda rus dilində verilən yazılar: 1) “AXC-nin bəyanatı”; 2) “AXC Qərargahından xəbərlər”; 3) “Demokratiya təhlükədədir”; 4) “Ağıl? Şərəf? Vicdan?”; 5) “Müstəqillər”; 6) “Partokratiya yoxsa demokratiya?”; 7) “Bəs bizdə?”; 8) “Azadlığa gedən çətin yol”; 9) “Mərkəz nə edir?”; 10) “Biz hamımız birlikdəyik”; 11) “Siz kimsiniz Əbdürrəhman Vəzirov?”; 12) “Bir daha özəlləşdirmə haqqında”; 13) “Azərbaycanın Moskva tərəfindən mühasirəsi”; 14) “Sınmış güzgü”.

Rus dilində nəşr edilən yazıların müəllifləri aşağıdakılar olaraq göstərilir: **Ələsgər Siyablı, Arif Aslanoğlu, Bahəddin Musaoğlu, Fuad Ağayev, Valentina Sergeyevna Nikolayeva, Zaur Akifoğlu, Əli Məsimov, Zaur Abdullayev.**

“Azadlıq” qəzetinin rus dilində çapının redaktoru Nəcəf Nəcəfov idi. Qəzet 50 min tirajla yayınlanmışdı və ünvan olaraq yeri belə göstərilmişdi: 370008, Bakı-8, Vannikov küçəsi-23, Tel: 66-05-44.

“Azadlıq” qəzetinin rus dilində nəşri rusdilli əhaliyə yönəlmiş və bu baxımdan insanların obyektiv məlumatlandırılmasında əhəmiyyətli rol oynayırdı.

***Qaynaq:***

*“Azadlıq” qəzeti,18 yanvar,1991-ci il N1(rus dilində).*

## "AZADLIQ" QƏZETİNİN XÜSUSİ BURAXILIŞLARI



Ел күчү — сел күчү!

АЗАДЛЫГ

АЗӘРБАЈҸАН ХАЛГ ҸӘБҺӘСИНИН ГӘЗЕТИ

№ 28 (30) 31 декабр 1990-ынҹы ил. Гијмәти 30 гәпикдир.

Ајрыҹа бурахылыш

Азадлыг дәрсликләри: № 1

Милли Азәрбајҹан нәшријјаты: сајы 3

ИСТИГЛАЛ МӘФКУРӘСИ ВӘ КӘНҸЛИК

Әсбабы-һәзиметләримизә аид бир мүталиә

(Азәри кәнҹләр иҹтимаиндә верилмиш бир конфранс)

Мүһәррири

РӘСУЛЗАДӘ МӘММӘДӘМИН

Истанбул — Амеди мәтбәәси

1925—1341

استقلال مفکوره‌سی

وگنجلک

Нәшрә

тарих елмләри намизәди

Нәсиб НӘСИБЗАДӘ

һазырлајыб

*"Azadlıq" qəzetinin əlavəsi, 1990-cı il*

"Azadlıq" qəzeti öz ətrafına daha geniş auditoriya yığmaq və oxucuları maarifləndirmək məqsədi ilə "Azadlıq dərslikləri" seriyası ilə ayrıca buraxılış da hazırlamışdı. Qəzetin 1990-cı ilin 31 dekabrındakı (№28(30) sayı "Azadlıq dərslikləri: №1" olaraq nəşr edilmişdi. Ayrıca buraxılışda **M. Ə. Rəsulzadənin "İstiqlal məfkurəsi və gənclik" əsəri** oxuculara təqdim olunub. Əsəri nəşrə hazırlayan **tarix elmləri namizədi Nəsib Nəsibzadədir.** Sayı 100 000 tirajla çap olunan buraxılışı çapa hazırlayanlar: **Ədalət Tahirzadə və Azər Qüdrətoğludur.**

## "XÜSUSİ BÜLLETEN"LƏR

Qeyd **edək ki, AXC-nin Bülletenlərindən əlavə "Xüsusi Bülleten"ləri də nəşr edilirdi. "Xüsusi Bülleten"in** 1-ci buraxılışı belə adlanır**: "Tribuna №1".** Bu buraxılışın üz səhifəsində belə məlumat verilib: "AXC-də parçalanmanın səbəbləri"(AXC-nin 9 dekabr 1989-cu il müşavirəsində Pənah Hüseynovun, Əbülfəz Əliyevin, Etibar Məmmədovun çıxışlarının stenoqrafik yazıları). Buraxılışın nəşr tarixi və nəşriyyat yeri belə göstərilib: Bakı, 1989. "Dirçəliş" nəşriyyatı.

Bülletenin ilk səhifəsində oxuculara belə müraciət ünvanlanıb: "Hörmətli oxucular! "Xüsusi Bülleten"in redaksiya heyəti 9 dekabr 1989-cu ildə AXC İdarə Heyətinin 8 nəfəri tərəfindən çağırılmış AXC müşavirəsinin və AXC Məclisinin üçdə biri tərəfindən 10 dekabr 1989-cu ildə çağırılmış konfransının stenoqrafik yazılarını Sizə təqdim edir. Qabaqcadan re-

daksiya heyəti Sizdən üzr istəyərək bildirir ki, müşavirədə və konfransda çıxış edənlərin hamısının stenoqrafik yazısını verə bilməyəcək. Lakin əsas çıxışlar və alınan müsahibələr bütünlüklə veriləcək.

Müşavirənin və konfransın materialları qabaqcadan nəzərdə tutulmuş "Xüsusi Bülleten"in "Tribuna" və "Açıq Söz" seriyalarında veriləcək. "Tribuna"nın birinci nömrəsində AXC-nin müşavirəsində məruzəçi Pənah Hüseynovun, məruzə ətrafında çıxış edən Etibar Məmmədovun və AXC-nin sədri Əbülfəz Əliyevin stenoqrafik yazıları veriləcək.




*"Xüsusi Bülleten", "Tribuna"*

**"Tribuna"nın** ikinci nömrəsində Xəlil Rzanın, Əbülfəz Əliyevin, Etibar Məmmədovun və başqalarının, eyni zamanda konfrans materialları və konfransın qətnaməsi veriləcək.




*"Xüsusi Bülleten", "Açıq Söz"*

**"Açıq Söz"** seriyasının nömrəsində AXC-nin müşavirə və konfrans zamanı "Xüsusi Bülleten"in müxbirləri tərəfindən, AXC-nin vəziyyəti və onun təşkilatının yenidən qurulması barədə alınmış müsahibələri dərc edəcəyik. Müsahibələrdə Əbülfəz Əliyev, Sabir Rüstəmxanlı, Abbas Abdulla, Fərəməz, Xudu, "Dirçəliş" Partiyasının birinci katibi Odər Azər (Azər Qasımzadə) və başqaları iştirak edirlər. Müsahibə zamanı onlar Hərəkat üzvlərinin siyasi portretləri, onlara münasibət,

gələcək Xalq hərəkatının perspektivləri haqqında öz mülahizələrini söyləyirlər.

"Açıq Söz" seriyasının ikinci nömrəsində biz müşavirənin və konfransın obyektiv şərhini verəcək, oxucuların nəzərinə AXC-nin yuxarı qurumu haqqında redaksiya heyətinin nəzdində nəzəri qrupun verdiyi təhlili çatdıracağıq.

Gələcəkdə çalışacağıq ki, AXC-nin üstqurumu haqqında məlumatları "Xüsusi Bülleten"in "Tribuna" və "Açıq Söz" seriyaları vasitəsi ilə sizə çatdıraq.

Bir də Müşavirə və Konfrans materiallarının hazırlanmasında iştirak edən A.Pünhani, E.Qafarovaya və Y.Nikbinə dərin minnətdarlığımızı bildiririk.

**Hörmətlə, "Xüsusi Bülleten"in redaktoru: Yunus Oğuz".**

***Qaynaq:***

*1. "Xüsusi Bülleten" "Tribuna" seriyası, 1989-cu il, №1.*
*2. "Xüsusi Bülleten" "Tribuna" seriyası, 1989-cu il, № 2.*
*3. "Xüsusi Bülleten" "Açıq Söz" seriyası, 1989-cu il. №1.*
*4. "Xüsusi Bülleten" "Açıq Söz" seriyası, 1989-cu il. 2.*

## "FV-ÇP" (FÖVQƏLADƏ VƏZİYYƏT - ÇREZVIÇAYNOE POLOJENİYE) BÜLLETENİ

**Azərbaycan Xalq Cəbhəsinin daha bir nəşr orqanı "FV-ÇP" (Fövqəladə Vəziyyət - Çrezvıçaynoe Polojeniye (rusca) adlanırdı.** Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni olaraq nəşr edilən bu mətbu **orqanın 1-ci sayı 1990-cı ilin fevralın 1-də** çap edildi. 1990-cı ilin 20 Yanvar hadisələrindən sonra gizli olaraq nəşr edilən bülletenin ilk sayında AXC İdarə Heyətinin qərarı çap olunmuşdu. **Həmin qərarda yazılırdı**: "1990-cı ilin 19-da Bakıda və respublikamızın digər rayonlarında baş verən hadisələr SSRİ-də irticanın hücuma keçdiyini nümayiş etdirir. Demokratiya və milli suverenlik uğrunda çıxış edən qüvvələrlə dinc siyasi mübarizədə uduzduğunu görən imperiya istibdadı tankların və avtomat silahların dili ilə danışmağa başlamışdır. İstibdad yalançı demokratiya pərdəsini öz üzərindən atmağa məcbur olmuş və bununla da öz məğlubiyyətini etiraf etmişdir.

Azərbaycan xalqı yaranmış şəraitdə yüksək siyasi yetkinlik və təmkin göstərərək Moskva imperializminin və daşnak dairələrinin xalqımız

üçün hazırladığı və milli xainlərin, liderlik azarına tutulmuş maymaqların köməyi ilə həyata keçirdiyi fəlakət ssenarisini pozmuşdur...”

Bununla əlaqədar AXC İdarə Heyəti aşağıdakıları qərara alırdı: 1. AXC üzvlərindən, (rayon, şəhər) şöbələrindən, ilk dayaq dəstələrindən tələb olunsun ki, təcavüzə qarşı mübarizəni dinc siyasi üsullarla davam etdirsinlər; 2. Ən yaxın günlərdə Azərbaycan SSR Ali Soveti Fövqəladə Sessiyasının işinin bərpa olunması və Mərkəzin təcavüzünün nəticələrinin aradan qaldırılması üçün sentybarda təsirli qərarların qəbul olunması istiqamətində iş aparılsın. 3. **Azərbaycan xalqına qarşı cinayətdə** Sov.İKP və Azərbaycan KP rəhbərliyinin oynadığı rolun aydınlaşdırılması və belə bir partiyaya üzv olmağın mənəvi və siyasi məqsədəuyğunluğunun müzakirəsi davam etdirilsin...”




№1 феврал 1990-чы ил

АХЧ Идарә һеј'әтинин
ГӘРАРЫ

1990-чы ил јанварын 19-да Бакыда вә республикамызын дикәр рајонларында баш верән һадисәләр ССРИ-дә иртичанын һүчума кечдијини нүмајиш етдирир. Демократија вә милли суверенлик уғрунда чыхыш едән гүввәләрлә динч сијаси мүбаризәдә удуздуғуну көрән империја истибдады танкларын вә автомат силаһларын дили илә данышмаға башламышдыр. Истибдад јаланчы демократија пәрдәсини өз үзәриндән атмаға мәчбур олмуш вә бунунла да өз мәғлубијјәтини е'тираф етмишдир.

Азәрбајчан халгы јаранмыш шәраитдә јүксәк сијаси јеткинлик вә тәмкин көстәрәрәк Москва империализминин вә дашнак даирәләринин халгымыз үчүн һазырладығы вә милли хаинләрин, лидерлик азарына тутулмуш мајмагларын көмәјилә һәјата кечирдији фәлакәт ссенарисини позмушдур.

Гәзәб вә нифрәтин ашыб-дашмасына бахмајараг халгымыз

ГӘРАРА АЛЫР

1. АХЧ үзвләриндән (рајон, шәһәр) шө'бәләриндән, илк дајаг дәстәләриндән тәләб олунсун ки, тәчавүзә гаршы мүбаризәни динч сијаси үсулларла давам етдирсинләр.

2. Ән јахын күнләрдә Азәрбајчан ССР Али Совети Фөвгәл'адә Сессијасынын ишинин бәрпа олунмасы вә Мәркәзин тәчавүзүнүн нәтичәләринин арадан галдырылмасы үчүн Сессијада тә'сирли гәрарларын гәбул олунмасы истигамәтиндә иш апарылсын.

3. Азәрбајчан халгына гаршы чинајәтдә Сов. ИКП вә Азәрбајчан КП рәһбәрлијинин ојнадығы ролун ајдынлашдырылмасы вә белә бир партијаја үзв олмағын мә'нәви вә сијаси мәгсәдәујғунлуғунун мүзакирәси давам етдирилсин.

4. Азәрбајчан халгына гаршы чинајәтә јол вермиш Мәркәзи һөкумәтлә әлагәләрин кәсилмәсинин ифадәси кими Азәрбајчандан

АХЧ ИҺ-нин КҮТЛӘВИ ИНФОРМАСИЈА ВАСИТӘЛӘРИ ҮЧҮН БӘЈАНАТЫ

(26. 01. 90-чы ил мәчлисиндә гәбул едилмишдир).

Харичи информасија васитәләринин вердији мә'лумата әсасән бир сыра рәсми шәхсләр (Бакатин, Нечајев) АХЧ илә диалога кирмәјин мәгсәдәујғун олмасы барәдә фикир

***“FV-ÇP” (Fövqəladə Vəziyyət - Çrezvıçaynoe Polojeniye)***

Bülletenin həmin sayında AXC İdarə Heyətinin Kütləvi İnformasiya Vasitələri üçün də Məclisin yanvarın 26-da qəbul edilmiş bəyanatının mətni çap edilmişdi.

**Bülletenin mart ayında nəşr edilən 2-ci sayında** Azərbaycan KP MK-nın əsas binasının fotosu verilmiş və şəklin üzərinə o dövrdə divarlara rus dilində yazılmış sözlər həkk edilmişdi: “Krovovavıy Qorbaçov - palaç! Sovetskaya armiya - faşistskaya Armiya!. “Qeneralnıy qolovorez, uberi svoy palaçey!”. (Qanlı Qorbaçov - sən quldursan! Sovet ordusu - faşist ordusudur! Əsas başkəsən, quldurlarını götürüb apar!”

**Bülletenin 3-cü sayı da 1990-cı ilin martında nəşr edilmişdi.** Bülleten “El gücü, sel gücü!” şüarı ilə çap olunmuşdu. Qzəetin ilk səhifəsinin Başlıq yazısı belə adlanır: “Mübarizə davam edir. Bu başlıqdakı məlumatlarda AXC Məclisinin Şamaxıda keçirilmiş növbəti yığıncağı haqqında məlumat verilir. 3-cü sayda AXC-nin Respublikada mövcud, formalaşan və yaranacaq ictimai-siyasi qurumlara (partiyalar, cəmiyyətlər, klublar və s.) münasibəti haqqında AXC İdarə Heyətinin bəyanatı da çap olunub.

**Bülletenin 4-cü sayının (1990, aprel)** baş səhifəsində sovet pasportunun (şəxsiyyət vəsiqəsi) surətləri, xəstəxanada olan yaralı Azərbaycan

vətəndaşlarının fotoları verilib.

**Bülletenin 5-ci sayında** isə (may, 1990; Azərbaycan və rus dillərində) baş səhifədə əllərində aşağıdakı məzmunda şüarlar tutmuş insanların fotoları verilib: 1) Da zdravstvuyet Azerbaydjan vne SSSR" ("SSRİ-siz Azərbaycana eşq olsun!"); 2) "Rədd olsun qırmızı kommunist imperiyası!"; 3) "28 Aprel - Azərbaycanın işğal günü kimi rəsmi qeyd edilsin və elan olunsun!".

**Bülletenin 6-cı sayının** Baş məqaləsi belə adlanır: "Kimdir müqəssir?" Bu məqalə **Azərbaycanın həqiqi suverenliyi, müstəqilliyi, azadlığı uğrunda ölümə də hazır olan Azərbaycan Neft və Kimya İnstitutunun tələbəsi Ağabəy Novruzov haqqındadır.** Məqalədə qeyd edilir ki, 20 Yanvar hadisələri vətənpərvər gəncə çox pis təsir etmişdi. Hətta iki dəfə Azərbaycan Ali Sovetinə məktub yazmışdı. Özünə qəsd ərəfəsində yazdığı vida bəyanatında Ağabəy intiharın səbəblərini göstərmir. Sadəcə olaraq mübarizəni yarımçıq qoyduğu üçün əzizlərindən və bütün xalqımızdan üzr istəyir. **Ağabəyin özünə qəsd etməsinin səbəbləri isə aşağıdakılardır: Azərbaycan xalqının son illərdə məruz qaldığı təcavüzkarlıq, respublikanın iqtisadi-siyasi suverenlikdən məhrum edilməsi, Bakıda 20 Yanvar faciəsi, qeyri-qanuni fövqəladə vəziyyətin davam etməsi, Mərkəzin açıq-aşkar koloniya münasibəti və yaranmış vəziyyətdə yerli rəhbərliyin, deputat korpusunun acizliyi və bu səbəblərdən də Ağabəydə yaranmış tənhalıq duyğusu.**

**Əslində gənc tələbə Ağabəyin bu hərəkəti sovet rejiminə qarşı bir etiraz və nifrət idi.**

---

***Qaynaq:***

*1. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №1, fevral, 1990-cı il.*

*2. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №2, mart, 1990-cı il.*

*3. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №3, mart, 1990-cı il.*

*4. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №4, aprel, 1990-cı il.*

*5. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №5, may, 1990-cı il.*

*6. "Fövqəladə Vəziyyət (FV)" - "Çrezvıçaynoye Polojeniye (ÇP". Azərbaycan Xalq Cəbhəsinin Xüsusi Bülleteni. №6, iyun, 1990-cı il.*

## "SVOBODA" QƏZETİ RUS DİLİNDƏ (HİKMƏT HACIZADƏNİN REDAKTORLUĞU İLƏ NƏŞR EDİLƏN QƏZET)




***"Svoboda" qəzeti***

Azərbaycan Xalq Cəbhəsinin rus dilində nəşri olan "Svoboda" ("Azadlıq") **1991-ci ildən** çap edilməyə başlayıb. Qəzetin redaktoru **Hikmət Hacızadə** idi. "Svoboda" "Azadlıq" qəzetinin redaksiyasındakı kompyuterlərdə yığılıb hazırlanır və "Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilirdi. Qəzetin ilk sayları 19.015 (on doqquz min on beş) olaraq göstərilir. Qəzetin ünvanı belə qeyd edilib: İndeks: 370009, Bakı-9, Akademik Ş.Əzizbəyov 62. Telefon: 94-28-42.

**Qəzetin ilk saylarında** bu yazılara rast gəlmək mümkündür: **1)** Qanuni diktator və demokratik xunta" (№2, 10 yanvar, 1991-ci il). Bu yazıda Gürcüstanda baş verən hadisələr, Gürcüstan prezidenti Z. Qamsaxurdiyanın ölkəni tərk etmək məcburiyyətində qalması əks edilib; **2)** "Kim məsuliyyət daşıyır?" (Azərbaycan üçün gürcü variantı?) (№2, 10 yanvar, 1991-ci il).

AXC sədrinin müavini olan Niyazi İbrahimlinin müəllifi olduğu bu məqalədə əhalidən silahların alınıb Müdafiə Nazirliyinə verilməsi ilə bağlı respublika əhalisinin narazılığı (xüsusən Qarabağ bölgəsində yaşananlar) əks edilib; **3)** Kamal Əmiranov adlı bir ziyalı isə Azərbaycan Respublikasının prezidenti Ayaz Mütəllibova "Hər şey hazır olmalı" başlıqlı açıq məktubla müraciət etmişdir. Açıq məktubda Ermənistanla müharibə vəziyyətində olduğumuz və vacib sayılan problemlərin həll edilməsi sadalanır №2, 10 yanvar, 1991-ci il); **4)** Vurğun Əyyubovun "Xalqın dözümü həddsiz deyil" başlıqlı yazısı 3-cü səhifədə verilib (N2, 10 yanvar, 1991-ci il). Məqalədə ölkə rəhbərliyinin əhalinin maddi vəziyyətini ağırlaşdırmaqla

siyasi demokratiyaya nifrət yaratmaq siyasəti tənqid edilir; **5)** Hikmət Hacızadənin “İngilis Parlamenti necə işləyir” yazısının 2-ci hissəsi də 3-cü səhifədə verilib və davamlı olduğu qeyd edilib (№2, 10 yanvar 1991-ci il); **6)** Aydın Hacıyevin “Türkiyə bu gün onlara lazımdır” məqaləsində isə (yazı 4-cü səhifədədir) “Demokratik islahatlar uğrunda hərəkat” təşkilatı üzvlərinin başda Arkadi Çerkasov olmaqla Türkiyə haqqında yaxşı fikirləri təhlil edilir (№2, 10 yanvar 1991-ci il). Qəzetin sonuncu – **4-cü səhifəsində** müxtəlif elanlar verilib.

**Qəzetin 3-cü sayında** (№3, 17 yanvar 1991-ci il) aşağıdakı yazılar verilib**: 1)** Salyan Kazarmalarında” (20 Yanvarla bağlı); **2)** Seyidbikə Qədirovanın “Bizi unutmayın” yazısı (20 Yanvarla bağlı); **3)** Ədnan Ağayevin “Vacib deyil ki, hamı dostluq addımları ilə bir istiqamətdə addımlasın” (SSRİ-nin dağılması, MDB-nin yaradılması haqqında (№3, 17 yanvar 1991-ci il); **4)** Hikmət Hacızadənin “İngiltərə Parlamenti necə işləyir?” məqaləsi (№3, 17 yanvar 1991-ci il); **5)** Azərbaycan İslam İnkişaf Partiyasının sədri Hacı Sabir Həsənli ilə “İslam İnkişaf Partiyası hakimiyyətə tələsmir” başlıqlı müsahibə” (№3, 17 yanvar 1991-ci il).

“Svoboda” qəzetinin bütün saylarında maraqlı yazılar vardır.




***“Svoboda” qəzetinə əlavə***

---

***Qaynaq:***

*1. “Svoboda” qəzeti, №2, 10 yanvar, 1991. 2. Yenə orada, №3, 17 yanvar, 1991. 3. Yenə orada, №10, 14 yanvar, 1991. 4. Yenə orada, №11, 22 dekabr, 1991.*

## “SVOBODA” QƏZETİNİN RUS DİLİNDƏ NƏŞRİNƏ ƏLAVƏ

**“Svoboda” (“Azadlıq”)** qəzeti Hikmət Hacızadənin redaktorluğu ilə rus dilində nəşr edilib. Azərbaycan Xalq Cəbhəsinin qəzeti olub.

Qəzetin rus dilində bir əlavəsini tapmaq mümkün olub. Əlavə nəşr belə adlanır: Azərbaycan Xalq Cəbhəsi. 1988-1992-ci illər. Bu yazının müəllifi Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun baş elmi işçisi Aydın Balayevdir. Əlavə nəşr 30 000 tirajla çap olunub.

## ELMLƏR AKADEMİYASINDA AXC NƏŞRLƏRİ

**"Azad Fikir" bülleteni -** Azərbaycan Xalq Cəbhəsi Azərbaycan SSR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutu özəyinin orqanı olub. 1989-cu ildə Yunus Oğuzun rəhbərliyi altında çap edilib. Bülletendə AXC daxilində cərəyan edən proseslər, ziyalı problemi, əski mətbuatda dərc olunmuş və öz aktuallığını saxlayan məqalə və tarixi sənədlər əksini tapıb.




*"Azad Fikir" bülleteni, 1989-cu il*

**"Azərbaycan" məcmuəsi -** Azərbaycan Xalq Cəbhəsi Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu özəyinin orqanı olub, həftəlik ictimai-siyasi-tarixi məcmuə olaraq 1989-cu ildə nəşr edilib. Məcmuə Azərbaycan və rus dillərində çıxıb. Baş redaktor Elmar Məhərrəmov olub. Məcmuədə əsasən 1988-89-cu illərdə həm Bakıda, həm də əyalətlərdə cərəyan edən ictimai-siyasi proseslər əksini tapıb.

Məcmuənin Redaksiya Şurasının üzvləri aşağıdakılar idi: Arzu Abdullayeva, Faiq Babayev, İradə Bağırova, Şirin Bünyadova, Nərgiz Əliyeva, Elmar Məhərrəmov (redaktor), Təranə Musayeva, Yunus Nəsibov, Hacı Həsənov, Şahin Fazil.

"Azərbaycan" məcmuəsində maraqlı yazılara rast gəlmək mümkündür. Məcmuənin 9-cu sayında ilk səhifələrdə AXC Elmlər Akademiyası Tarix İnstitutu özəyinin AXC Məclisi və İdarə Heyətinə Açıq məktubu çap edilib.




*"Azərbaycan" məcmuəsi*

Məktubda AXC rəhbərliyini "bürokratiyadan uzaqlaşıb, ümumi işin xeyrinə olaraq" lazımi tədbirlər görməsi vacibliyi vurğulanır.

Növbəti yazının müəllifi AXC İdarə Heyətinin üzvü Leyla Yunusdur. L.Yunus "Buzlaq dövrünün sonu" (əvvəli 8-ci sayda) məqaləsində Azərbaycanda gedən prosesləri təhlil edir və belə yekun vurur: "... Hər yerdə olduqca gərgin mübarizə və iki qüvvə arasında qarşıdurma gedir. Bir tərəfdən demokratiya və fikirlərin plüralizmi, digər tərəfdən isə hakimiyyətin bilərəkdən başlı-başına buraxdığı qarışıq mitinqlər və tətillər zamanı lümpenləşmiş təbəqə: "Güc varsa, ağıl lazım deyil". Müəllifin bu yazısının 30 sentyabr 1989-cu ildə yazıldığı qeyd olunur.

Bu sayda Dağlıq Qarabağla bağlı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bəyanatı layihəsi hazırlanıb və təqdim olunub.

Eyni sayda Riqadakı Azəri cəmiyyətinin sədri Faiq Səfərovun AXC sədri Ə.Elçibəyə  Zərdüşt Əlizadə və Leyla Yunusovanın Latviyaya uğurlu səfərləri ilə bağlı təşəkkür məktubu çap olunub. Sayda Ş.Fərzəliyevin "Gəncə bayatıları", "Ekspress-informasiyalar" dərc edilib. Məcmuənin bu sayı 16 səhifə həcmindədir. Sonuncu səhifədə "Uşaqların gözü ilə" başlıqlı karikatura çap edilib.

Qeyd edək ki, "Azərbaycan" məcmuəsi rus dilində də çap edilir və SSRİ-nin 14 respublikasına göndərilirdi.

Məcmuənin rus dilində olan saylarındakı yazılar, əsasən, Azərbaycan nəşrindən tərcümə edilib nəşr olunurdu.

---

***Qaynaq:***

*1."Azad Fikir" bülleteni,1989-cu il.*

*2. "Azərbaycan" məcmuəsi, 15 noyabr, 1989-cu ul, №9.*

*3. "Azərbaycan" məcmuəsi, 27 sentyabr-5 oktyabr, 1989-cu ul, №2.*

## "AXIN" QƏZETİ

**"Axın"** – Azərbaycan Elmlər Akademiyası Xalq Cəbhəsinin qəzeti olaraq 1990-cı ilin əvvəllərindən yayımlanıb. 6 səhifə həcmində, Ax3 formatda olan bu qəzetin tirajı 15 min idi. Qəzet "redaksiya heyəti" tərəfindən nəşr edilir, redaktorun şəxsiyyəti haqqında məlumat verilmirdi. Qəzetin ümumi şüarı belə idi: "El gücü – sel gücü!"


МАРТ 1990-чы ИЛ. ЕЛ КҮЧҮ—СЕЛ КҮЧҮ!

АХЫН

№3. АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИ ЕЛМЛӘР АКАДЕМИЈАСЫ ХАЛГ ЧӘБҺӘСИНИН ГӘЗЕТИ. ГИЈМӘТИ 25 ГӘПИКДИР.

Дағлалан шәфәгләрдә еј чанлы һилал
Өлсүн Вәтән јолунда төкүлән ганым һалал
МЕҺМЕТ АТЫФ ГАНСУ

Азәрбајчан халгына, дүнјанын демократик гүввәләринә, БМТ-нин Баш катиби Чәнаб Перес де Куелјара МҮРАЧИӘТ!

Милләтимизин бу ағыр фачиәли күнләриндә өзүнү топлајыб әлә гәләм алмаг, нә дејиб, нә јазмаг үчүн һәмишә олдуғу кими јенә дә үмидимиз гәһрәман милләтимизә бағлајырыг вә ОНУН мәрһәмәтинә сығынырыг!

Ики јүз илдир ки, Азәрбајчан ән варлы мәмләкәт кими вә тутдуғу чоғрафи мөвгеји илә бағлы олараг дүнјанын ири вә хырда дөвләтләринин һәррач базарына чеврилмиш, онун јурдундан-јувасындан дидәркин салынмыш өвладлары Јер үзүнә сәпәләнмиш, јурдда галан вә гырғынлара, таланлара синә кәрәнләр гырылмыш, сағ галанлар исә мә'нәви вә физики көләјә чеврилмишди.

Өлкә јанмыш, Вәтән јанмыш
Тикә-тикә хырдаланмыш
Дөвләт кетмиш, вар таланмыш
Һәм бу тајда, һәм о тајда.

Азәрбајчан ики јүз илдир азадлыг уғрунда чарпышан өвладларынын шәһид ганы илә суварылыр!

Кимә баш сағлығыны верәчәјими билмәдим?! Инсан өзү-өзүнә нечә баш сағлығы ...

... бөһтана әл атмышдыр. Бәли, биз мүсәлманыг! Анчаг, Горбачов вә онун бә'зи көмәкчиләри Азәрбајчан милләтинин мүсәлман дујғусуну јараламагла нә демәк истәјирләр? Бәс, Иран Ислам Республикасы илә Москванын достлуғуну нечә баша дүшәк? Бизи Ислам дөвләти јаратмагда тәгсирләндирәнләр христианлара јени бир ујдурма «дүшмәними» танытмаг истәјирләр? Горбачов билмир ки, бөјүк бир дөвләтин башчысы кими, бөјүк дә сәһвә јол вермишдир: мүсәлман дөвләтләри Горбачовун бу ујдурма «тәшвишинә» нечә бахачаглар?!

Јох, чәнаблар, јанылырсыныз!

...

... чан Халг Чәбһәсими кәтирмиш, күнаһсыз инсанларын үзәринә танклары Халг Чәбһәсими сүрмүш, гадынлары, ушаглары танкларын алтына Халг Чәбһәсими салмыш, күчәдә, артырмада, ејванда дуран гадынлара, ушаглара ким атәш ачмыш, онлары ким сусдурмушдур?

Азәрбајчана дөрд гошун нөвү көндәрилмишдир: 1—һәрби гүввәләр, 2—дахили гошун гүввәләри, 3—дөвләт тәһлүкәсизлији комитәсинин гошунлары, 4—хүсуси орду (спес. војска).

Бу дөрдүнчүсүнүн—спес. наз.-ын нә олдуғуну heч ким билмир. 30 јанвар 1990-чы ил «Бакинскиј рабочиј» гәзетиндә ССРИ халг депутаты ...

... бу чүр сәһләнкарлығын нәләчәкдә даһа нә чүр фачиәләр төрәдәчәјини баша дүшмәк истәмирләр. Мәкәр онлар билмирләр ки, зүлм илә јашадылан бир дөвләт әдаләтлә јыхылыр бир күн!

Азәрбајчан халгы, дүнја демократик гүввәләри, азадлыг уғрунда мүбаризә апаран халглар, ајыг олун!

Һөрмәтли баш катиб, чәнаб Перес де Куелјар. Сизин башчылыг етдијиниз Бирләшмиш Милләтләр Тәшкилаты дүнјанын ән нүфузлу Тәшкилатыдыр. 35 милјонлуг Азәрбајчан милләтинин бу нүфузлу тәшкилатдан кәнарда галмасына Сиз нечә бахырсыныз?

Сизи анд верирәм милләтләрин горудуғунуз һаггына, Азәрбајчан милләтинин Азадлыг һаггыны мүдафиә етмәкдә гүввәнизи әсиркәмәјин! Бу күн Вәтән ешгиндән бизим чанымызда ашкар бир дәрдимиз вар, дәрманы Азадлығдыр! Демократија дүнјанын бир сыра хошбәхт халглары үчүн мә'нәви гидадырса, Азәрбајчан халгы үчүн дәрмандыр!

Бабалардан бизә бир јадикар галан Вәтән Ешгини көксүндә кәздирән Азәрбајчанлылар Азадлығын ишығына доғру дурмадан јүјүрәчәкләр! Бу јүрүшү дүнјада heч бир гүввә сахлаја билмәјәчәк!

АМИН!

Азәрбајчан Халг Чәбһәсинин сәдри
АБУЛФӘЗ ӘЛИ ЕЛЧИБӘЈ.
30.01.90 Бакы.

МӘРСИЈӘ

ГАБИЛ.

Кечәни атәш илә гырмызы ган ејләдиләр.

*"Axın" qəzeti*

Qəzetin əldə olunan 3-cü sayında (mart, 1990-cı il) aşağıdakı yazılar verilib; 1) AXC sədri Ə.Elçibəyin "Azərbaycan xalqına, dünyanın demokratik qüvvələrinə, BMT-nin Baş Katibi Peres de Kullyara müraciəti" (1-ci səh.); 2) Şair Qabilin "Mərsiyə" şeiri (1-ci səh.). "Mərsiyə" şeiri 20 Yanvar şəhidlərinə həsr olunub və bu misralarla başlanır:

**Gecəni atəş ilə qırmızı qan eylədilər,**
**Xalqımı, millətimi gülləbaran eylədilər...**
**Öz Qızıl Ordumuzun yurdumuza qəsdinə bax,**
**Üstümə tank yeridən fitnəkarın şəstinə bax...**

**2**-ci səhifədə – Elmlər Akademiyası İctimai Rəyi Öyrənmə komissiyasının nəticələri və M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" kitabından bir hissə çap edilib.

**3**-cü səhifədə – Etibar Məmmədovun Moskvada mətbuat konfransındakı çıxışının mətni (rusca); 4-cü səhifədə – 20 Yanvar hadisələrinin təhqiqatını aparan komissiyanın məlumatı (rusca);

**5-**ci səhifədə – sovet ordusunun vəhşilikləri ilə bağlı zərər çəkmiş şahidlərin fotoları və ifadələri;

**6**-cı səhifədə – Y.Oğuzun "Ekstremizm nədir?" yazısı və digər məlumatlar çap olunub.

---

***Qaynaq:***
*"Axın" qəzeti, 1990-cı il, mart, №3.*

## "İSTİQLAL" BÜLLETENİ


Милләтләрә истиглал, инсанлара һүрријјәт!

истиглал

АХЧ М.Ә.Рәсулзадә адына БДУ тарих факултәсинин тәләбә ДД бүллетен

Әзиз охучулар! Ханымлар вә бәјләр! Сизин әлиниздәки бу гәзәт Азәрбајчан Халг Чәбһәсинин Азәрбајчан Дәвләт Университетинин Тарих факултәсиндәки тәләбә Дајаг дәстәсинин органыдыр. Сон ики әсрин әрзиндә Азәри түркләринин башына чох бөјүк бәлалар, бөјүк фачиәләр кәлиб. Онун 1813-чү илдән милли мүстәгиллији әлиндән алыныб парчаланыб вә Вәтәнимиз Ленинин "милләтләр зинданы" адландырдығы Русијанын мүстәмләкәсинә чеврилиб вә бу мүстәмләкәчилик халгымызын инкишафыны бир нечә әср дала атыб. Амма халгымыз 95 илдән сонра өзүндә дахили гүввә, гүдрәт топлајыб 1918-чи илин мај ајынын 28-дә Русијадан ајрылыб милли мүстәгил Азәрбајчан Демократик Республикасыны гурду. О һөкумәт 1920-чи илин апрел ајынын 27-нә гәдәр өмүр сүрдү. Чәми ики-чә илин ичиндә, бүтүн сијаси кәркинликләрә бахмајараг, халгымыз өз инкишафында бөлкә дә јүз ил ирәли кетди. Бә'зи мәнфур "тарихчиләр" АДР-ны буржуа, милләтчи адландыраraг ону һәр васитә илә көздән салмаға чалышырлар. Лакин онлар билмирләр ки, (даһа доғрусу чох көзәл билирләр ки) о һөкумәт һәр шејдән әввәл, милли, мүстәгил дөвләт иди вә халгымыз тарихинин һеч бир дөврүндә о ики илдә олдуғу гәдәр инкишаф јолу кечмәмишди. Лакин 1920-чи илин апрел ајынын 27-дән 28-нә кечән кечә Азәрбајчан сәмасыны јенидән гара булудлар бүрүдү. Рус ордусу јенидән Азәрбајчаны ишғал етди. Вә сон јетмиш илин әрзиндә халгымызын башына нә фачиәләр кәлмәди. Совет һөкумәтинин илк илләриндән башлајараг халгымызын бүтүн савадлы, өз дүшүнчәси, өз дүнја көрүшү олан оғулларыны, онун "гајмагларыны" мәһв етдиләр. Мин һектарларла барлы-бәрәкәтли торпағымыз өлү зоналара чеврилди. Халгымызын бүтүн мадди сәрвәтләри, вар-дөвләти Коммунист Партијасынын чибинә, орадан да силаһланмаја кетди вә кедир. Бәшәр тарихиндә көрүнмәјән һадисәдир ки, Азәри түркләринин милли адны дәјишдирилиб, мән һәлә әлифбаны демирәм. Азәрбајчанда Хијабани вә Бөјүк Пишәвәри һәрәкатынын ганла боғулмасында Русијанын ролу һеч дә сонунчу олмамышдыр. Сон јетмиш илин мүстәмләкәчилик системи "ингилабдан әввәлкиндән" даһа дәһшәтли, даһа елдүсүчүдүр.

Шимали Азәрбајчанын әразиси 1920 илдә 114 мин кв.км. олдуғу һалда, инди 86 мин кв.км.-дир. Онун торпаглары һиссә-һиссә Русијаја, Ермәнистана, Күрчүстана пај верилмишдир. Азәрбајчанын гәдим мәдәнијјәт мәркәзләриндән олан Зәнкәзур, Көјчә маһалы, Гарагојунлу дәрәси, Дәрбәнд маһалы әлимиздән алынмышдыр. Сон јетмиш илдә тоталитар режим горху сијасәти ирәли сүрмүшдү. Һеч кәс үрәјиндә оланы дејә билмирди, дәрдини ача билмирди. Бу да шәхсијјәтин деформасијасына, кирләнмәсинә кәтириб чыхарырды. "Мәрди гова-гова намәрд едәрләр" дејибләр аталарымыз. Доғрудан да үрәјиндә бир сөз, дилиндә исә башга сөз олан кәсдән һеч вахт сәдагәт, чүр'әт кәзләмә. О адам нә гәдәр чүр'әтли, виҹданлы, тәмиз олса да, ријакарлыға, виҹдансызлыға мәһкумдур. Будур милләтин сүмүјүнү гыран, ону робота, чанлы мејидә, манкурта дөндәрән!

Лакин сон ики-үч ил әрзиндә мөһтәрәм Горбачев јолдашын јеритдији јенидәнгурма вә ашкарлыг сијасәти, бизә бу итирилмиш имтијазлары гајтармагда кениш имканлар јарадыр. Биз бу имканлардан истифадә етмәлијик. Елә бунун нәтиҹәсидир ки, Азәрбајчанда чох кениш Халг һәрәкаты, милли дирчәлиш һәрәкаты башламышдыр. Бу һәрәкатын башында Азәрбајчан Халг Чәбһәси дурур. Бизим јеканә чыхыш јолумуз АХЧ-нин әтрафында сых бирләшмәкдир. Кәрәк ганында түрк ганы ахан һәр бир азәрбајчанлы АХЧ-нә әлиндән кәлән јардымы етсин. Бу демократик һәрәкатда мәтбуат хүсуси рол ојнајыр. Буна көрә дә биз чалышачағыг ки, гәзетимизин сәһифәләриндә АХЧ-нин фәалијјәтиндән сөз ачаг, гаршымызда дуран мәсәләләри ишыгландыраг вә полемикада онларын һәјата кечмәси јолларыны ахтарыб тапаг.

ЈОЛУМУЗ ИСТИГЛАЛ ЈОЛУДУР!

ГУРДОҒЛУ.
(Идарә һеј'әтинин үзвү Һәсәнов Паша бәј.).

*"İstiqlal" bülleteni*

**"İstiqlal" bülleteni** – bu bülletenin ilk sayı 1989-cu ilin sentyabr-oktyabr aylarına təsadüf edir. Bülleten Azərbaycan Xalq Cəbhəsinin M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarix fakultəsinin tələbə dayaq dəstəsi tərəfindən nəşr edilib. Qəzetin aparıcı şüarı belə olub: **"Millətlərə istiqlal, insanlara hürriyyət!"** (bülletendə belə yazılıb – *red.*). Bu şüarın qarşısında ay-ulduz və səkkizguşəli ulduz verilib.

Bülletenin redaktoru Elman Paşayevdir. Baş məqalənin müəllifi isə Paşa Həsənovdur. P.Həsənovun bu yazısında ölkədə gedən Yenidənqurma və aşkarlıq prosesinə toxunulur, Azərbaycanda xalq hərəkatının, milli dirçəliş hərəkatının başlanması qeyd edilir. Məqalədə yeganə çıxış yolunun AXC-nin ətrafında sıx birləşməkdən ibarət olduğu vurğulanır. Müəllif sonda yazır: "...Bu demokratik hərəkatda mətbuat xüsusi rol oynayır. Buna görə də biz çalışacağıq ki, qəzetimizin səhifələrində AXC-nin fəaliyyətindən söz açaq, qarşımızda duran məsələləri işıqlandıraq və polemikada onların həyata keçməsi yollarını axtarıb tapaq. Yolumuz istiqlal yoludur!".

"İstiqlal"ın birinci sayında "Bizə təşkilat nə üçün lazımdır?" (müəllifi – Müşfiq Məmmədov, "Həqq" imzası ilə) yazısı çap edilib. "Dəli Domrul" imzalı bir müəllifin yazısı isə tarixi mövzuya həsr edilib. Bu yazıda Azərbaycanın 1920-ci ildə XI ordu tərəfindən işğalı xüsusi olaraq qeyd edilir.

Bülletenin sonuncu 4-cü səhifəsində SSRİ-də əhalinin artımı, ölkədə gedən toqquşmalarda ölənlərin sayı, iqtisadiyyatda olan itkilər, Azərbaycanın büdcəsi haqqında məlumatlar vardır.

Bülletenin 2-ci sayı 1989-cu ilin dekabrında nəşr edilib. Birinci səhifədə AXC-nin II konfransı haqqında məlumat verilib. Bu mövzudakı yazının

müəllifi Qələndər Muxtarlıdır. 2-ci səhifədə Elman Paşayevin "Pantürkizm probleminə dair" yazısı çap olunub. Bu yazı "ardı var" olaraq qeyd olunub. Bülletenin 3-cü və 4-cü səhifələrində Cavid Bayramlının "Velikorus şovinizmi – müstəmləkə siyasətinin davamıdır" adlı geniş yazısı çap olunub.

Bülletenin 2-ci sayının son səhifəsində ağ-qara rəngdə Azərbaycanın dövlət gerbinin şəkli verilib.

---

***Qaynaq:***

*1. "İstiqlal", bülleten №1, oktyabr, 1989.*
*2. "İstiqlal", bülleten №2, dekabr, 1989.*

## "QURTULUŞ" JURNALI

Azərbaycan Xalq Cəbhəsinin "Qurtuluş" jurnalı 1992-ci ilin may ayında çap edilib. Jurnalın ilk sayında A.Balayevin AXC-nin yaranması və fəaliyyəti (1988-1991) məqaləsi, E.Məmmədovun məhkəməsində çıxışının (30-31 oktyabr, 1991-ci il) stenoqramı, Y.V.Çəmənzəminlinin "Ayılın, toplaşın" məqaləsi və digər materiallar dərc olunub. Jurnalın redaktoru Aydın Balayev idi.




***"Qurtuluş" jurnalı***

## AXC-NİN BÖLGƏ QƏZETLƏRİ

Qeyd edək ki, AXC-nin yalnız paytaxt şəhər olan Bakıda deyil, eyni zamanda **bölgələrdə də qəzetləri** çıxırdı. Bu qəzetlər də mövzu rəngarəngliyinə, məzmunluğuna və problemlərin qoyuluşuna görə rayonda Rayon Partiya Komitəsinin orqanlarından fərqlənirdi. "Samizdat" olaraq nəşr edilən bu mətbuat orqanlarının da öz oxucuları və auditoriyası var idi.

Bu qəzetlərdən aşağıdakıları göstərmək mümkündür: "Meydan" (Bakı, Oktyabr rayonu), "Vətən" (Gəncə), "Elin səsi" (Lənkəran), "Hasıllı" (Cə-

lilabad), "Ədalət" (Quba, Qusar, Dəvəçi, Xaçmaz), "Haqqın səsi" (Göyçay), "Əqidə" (Neftçala), "Alov" (Ağdaş), "Tərtər" (Mirbəşir), "Oğuz harayı" (Oğuz), "Varlıq" (Naxçıvan), "İki sahil" (Culfa), "Gün aydın" (Şərur), "Haray" (Sumqayıt), "Demokrat" (Sabirabad), "İstiqlal" (Şəki).

Bu qəzetlərdə ayrı-ayrı rayonların ictimai-siyasi həyatında baş verən hadisələr Azərbaycandakı proseslərlə əlaqəli formada təqdim edilirdi. Qanunsuzluq, ədalətsiz yanaşma halları mövcud siyasi quruluşun problemi olaraq dəyərləndirilirdi. Bu qəzetlərdə 20 Yanvar hadisələrinə, ölkədə keçirilən Ali Sovetə seçkilərə diqqət yetirilirdi. Qəzetlərin yazılarında əyalətçilikdən uzaqlaşma halları, xalqı narahat edən problemlər təhlil edilirdi. Sağlam fikir müxtəlifliyi, demokratik mübarizə, Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlı yazılar qəzetlərdə çap olunurdu. Qəzetlərdə lirik şeirlərlə də rastlaşmaq mümkündür. Bəzi qəzetlərdə isə rayon rəhbərliyinin xalqın əksinə olan mövqeyindən yazılar çap edilirdi.




**"Ağdam" qəzeti – AXC Ağdam rayon** şöbəsinin orqanı olub. 1990-cı ildə "Haqqın yoludur tutduğumuz yol!" şüarı ilə nəşr edilib. Redaktoru T. Dədəbəyli olub. Qəzetdə əsasən Azərbaycan Xalq Cəbhəsi Ağdam rayon şöbəsinin fəaliyyəti, Azərbaycanda və regionda baş verən ictimai-siyasi proseslər işıqlandırılıb.




**"Demokrat" qəzeti – AXC Sabirabad rayon** şöbəsinin orqanı olub. 1990-cı ildə çap edilib. Redaktoru Ş. Qafarov olub. Qəzetdə AXC-nin rayon şöbəsinin fəaliyyəti və rəsmi müraciətləri, eləcə də ölkədəki siyasi vəziyyətlə bağlı xəbərlər, dövlətçilik tariximiz və Xalq Cümhuriyyətinin dövlət atributları haqqında yığcam məlumatlar verilib.


Инсанлара һүррийјәт, милләтләрә истиглал!

Кирдиман

1990

**"Girdiman" qəzeti – AXC İsmayıllı rayon** şöbəsinin orqanı olub. Redaktorluğunun kimliyi haqqında məlumat verilməyib. 1990-cı ildə "İnsanlara hürriyyət,

millətlərə istiqlal!" şüarı ilə çapdan çıxıb. Qəzet daha çox analitik yazılara üstünlük verib.

**"Haqqın səsi" – AXC Göyçay rayon** şöbəsinin orqanı olub. Redaktorunun kimliyi haqqında məlumat yoxdur. 1990-cı ildə "Millət yoludur, haqq yoludur tutduğumuz yol!", "Ey haqq, yaşa!" "Ey sevgili millət, yaşa, var ol!" şüarları ilə çapdan çıxıb.







**"Hasıllı" – AXC Cəlilabad rayon** şöbəsinin orqanı olub. 1991-ci ildə nəşr edilib. Redaktoru haqqında məlumat yoxdur. Qəzet materiallarının əksəriyyəti ictimai-siyasi və milli problemlərə həsr edilib.

**"İki sahil" – AXC Culfa rayon** şöbəsinin orqanı olub. 1989-cu ildə "O tay, bu tay - hər ikisi Vətəndir!" şüarı ilə çap edilib. Redaktoru Abbas olub. Qəzetdə milli-azadlıq hərəkatı ilə yanaşı Cənubi Azərbaycanda cərəyan edən proseslər də işıqlandırılıb.



О тај, бу тај һəр икиси Вəтəндир!

# ИКИ САҺИЛ

№ 1 АХЧ Ҹулфа рајон шө'бəсинин газети гијмəти 50 гəп.

Редакторадан




**"İstiqlal" —AXC Şəki şəhər** şöbəsinin orqanı olub. Redaktorunun kimliyi bilinmir. 1989-cu ildə "Azad və müstəqil Vətən uğrunda!" şüarı ilə çapdan çıxıb. Qəzetdə Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərlə bağlı materiallara geniş yer verilib.

**"Qeyrət" - AXC Balakən rayon** şöbəsinin orqanı olub. 1990-cı ilin mayında çıxıb. Redaktoru Zeynəddin Həsənli olub. Qəzetdə AXC-nin fəaliyyəti və onun daxilində cərəyan edən proseslər, habelə Parlament seçkilərinə hazırlıq məsələlərinə də geniş yer verilib.




ULU YOL
АХЧ ӘЗИЗБӘЈОВ ШӨ'БӘСИНИН ДӘРКИСИ

**“Ulu Yol” – AXC-nin Bakının Əzizbəyov rayon** şöbəsinin orqanı olub. 1990-cı ilin yanvar ayında “Millət” nəşriyyatında “İnsanlara hürriyyət, millətlərə istiqlal!” şüarı ilə çapdan çıxıb. Redaktorunun kimliyi haqqında məlumat yoxdur. Dərgidə əsasən Azərbaycanda və Sovet İttifaqında baş verən hadisələr haqqında ən son məlumatlar və şərhlər dərc edilib.


Ел күчү, сел күчү!
ВАРЛЫГ
АХЧ Нахчыван Вилајәт Шө'бәсинин гәзети №1 Апрел 1990
МӘГСӘДИМИЗ
28 Апрел
тәбрикләр!

**“Varlıq” qəzeti – AXC Naxçıvan Vilayət** şöbəsinin xüsusi buraxılışı olub. “El gücü, sel gücü!” şüarı ilə çapdan çıxıb. 1990-cı ildə nəşr edildiyi ehtimal olunur. Redaktoru haqqında məlumat verilməyib. Qəzetdə ölkədəki ictimai-siyasi proseslərlə yanaşı, Naxçıvanda cərəyan edən hadisələrə də geniş yer ayrılıb.


ВӘТӘНӘ СӘН ЈАН КИ, ВӘТӘН ЈАНМАСЫН!
ВӘТӘН
15-16 20 ИЈУЛ 1990
АХЧ КӘНЧӘ ШӨБӘСИНИН ГӘЗЕТИ
ВӘТӘН ГӘЗЕТИНИН БӘЈАНАТЫ
ҺӨРМӘТЛИ ОХУЧУЛАР!

**“Vətən” qəzeti – AXC Gəncə şəhər** şöbəsinin orqanı olub. 1989-cu ilin dekabrında “Vətənə sən yan ki, Vətən yanmasın!” şüarı ilə çapdan çıxıb. Redaktoru G. Firidunoğlu olub. Qəzetin sonrakı sayları artıq AXC-nin orqanı kimi nəşr edilib. Qəzetdə daha çox ölkədəki ictimai-siyasi durumla analitik yazılara yer verilib. Qəzetin ilk sayında “Gəncədə Gəncə adına yalnız Gəncə “layiqdir” məqaləsi çap edilib və burada şəhərin doğma adının qaytarılması problemi işıqlandırılır.


ЕЛ КҮЧҮ—СЕЛ КҮЧҮ!
ЕЛИН СӘСИ
АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИ ЛӘНКӘРАН ШӨ'БӘСИНИН ГӘЗЕТИ
№ 2 • 16 ЈАНВАР 1990-чы ИЛ. • Гијмәти 10 гәпик.

**“Elin səsi” qəzeti** - Azərbaycan Xalq Cəbhəsi Lənkəran şöbəsinin qəzeti olan “Elin səsi” 1989-1990-cı illərdə yayınlanıb. Qəzetin 2-ci sayı 1990-cı ilin 16 yanvarında nəşr edilib. Qəzetin redaktoru Əli Nasir bəy göstərilib. Qəzetdə rayondakı ictimai-siyasi proseslər haqqında yazılar verilib. Qəzetin 2-ci sayında oxuculara müraciətdə yazılıb: “Onun məqsədi bu gün səbri aşıb-daşan, daha haqsızlığa dözməyən xalqına xidmət etməkdir...”

**“İnam” qəzeti – AXC Zaqatala rayon şöbəsinin** orqanı olub.1990-cı ilin martından Arif Hacılının ümumi rəhbərliyi və Nüsrət Musayevin redaktorluğu ilə nəşr edilib.


Ел күчү, сел күчү
ИНАМ
2 март 1990-чы ил
(№ 1) АХЧ ЗАГАТАЛА РАЈОН ШӨ'БӘСИНИН ГӘЗЕТИ
Бакы шәһәриндә фөвгәл'адә вәзијјәтин ләғв едилмәси һаггында
Азәрбајчан ССР Али Советинин гәрары


Ел күчү-сел күчү!
ОРДУБАД
„Бир кәрә јүксәлән бајраг бир даһа енмәз!"
М. Ә. РӘСУЛЗАДӘ
АЗӘРБАЈЧАН ХАЛГ ЧӘБҺӘСИ ОРДУБАД РАЈОН ШӨ'БӘСИНИН ГӘЗЕТИ
№1 ЧҮМӘ, 16 феврал 1990-чы ил ГИЈМӘТИ 20 ГӘПИК.
БМТ-нин баш катиби Перес Де Куељара Азәрбајчан Халг Чәбһәсинин сәдри ӘБУЛФӘЗ БӘЈИН МУРАЧИӘТИ

**“Ordubad” qəzeti** – Azərbaycan Xalq Cəbhəsi Ordubad rayon şöbəsinin orqanı olaraq nəşr edilirdi. Qəzetin ilk sayı 1990-cı ilin fevralın 16-da çap olunub. Qəzet “redaksiya heyəti” olaraq nəşrə imzalanırdı. Qəzetin şüarı belə idi: “El gücü – sel gücü!”

İlk sayında, başlıqda M.Ə.Rəsulzadənin bu sözləri yazılıb: “Bir kərə yüksələn bayraq bir daha enməz!”Qəzetin **1-ci** səhifəsində AXC sədri Əbülfəz Elçibəyin BMT-nin Baş Katibi Peres de Kuillyara müraciəti çap olunub.

**2-ci** səhifədə Xalq yazıçısı İsmayıl Şıxlının Azərbaycan KP MK-nın plenumundakı çıxışı, AXC Ordubad rayon şöbəsinin əlaqələndiricisi F.Quliyevin müraciəti, Ordubad XDS İcraiyyə Komitəsində qeydiyyatda olan kommunistlərin bəyannaməsi;

**3-cü** səhifə bütövlükdə 20 Yanvar faciəsinə həsr olunub. “Ölən biz, qırılan biz, tuturlar bizi qanlı” başlığı ilə yazılar və fotolar çap edilib.

**4-**cü səhifədə Ordubad qadınlarının bütün dünya qadınlarına, xalqlarına müraciəti, “Şəhidimiz Rahimin xatirəsinə” yazısı, “Nahaq qan yerdə qalmaz” məqaləsi nəşr olunub. **Son** səhifədə qəzetin həftədə bir dəfə çıxacağı qeyd edilib.

“Ordubad” qəzetinin ilk sayları samizdat olaraq çap edilsə də, sonradan qeydə alınıb. Qəzetin redaktoru Abbas Seyidov olsa da, gizlilik məqsədi ilə “redaksiya heyəti” yazılırdı. Qəzetin ilk sayı Bakıya gətirilmiş və Şəhidlər Xiyabanında insanlara paylanılmışdı.

**“Bizim şərh” qəzeti -** 1990-cı ilin 18 mayında nəşr edilib. Hansı təşkilat və kim tərəfindən buraxıldığı haqqında məlumat yoxdur. Burada AXC İdarə Heyətinin Respublika Məşvərət Şurasının 17.05.1990-cı il tarixli məlumatı haqqında bəyanat, AXC İdarə Heyətinin üzvləri İ. Qəmbərov, P. Hüseynov, və H.Hacızadənin AKP MK-nın Birinci katibi A. Mütəllibovun Prezident seçilməsi ilə bağlı rəyləri, ermənilərin Dağlıq Qarabağ və Ermənistanla sərhəddə yerləşən rayonlara hücumları və törətdikləri vəhşiliklərlə bağlı yazılar verilib.


БИЗИМ ШӘРҺ

## AXC MƏTBUATININ ƏSASINI QOYANLAR

## AĞAMALI SADİQ ƏFƏNDİ (1947 -1995)



*Ağamalı Sadiq*

**Ağamalı Sadiq** 1947-ci il martın 8-də Qazax rayonunun Qaymaqlı (İncə dərəsi) kəndində ziyalı ailəsində anadan olub. Burada orta məktəbi bitirib . BDU-nun jurnalistika fakültəsində təhsil alıb. "Yazıçı" nəşriyyatında korrektor, "Maarif" nəşriyyatında redaktor, "Ulduz" jurnalında ədəbi işçi, Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini vəzifələrində çalışıb (1992-1993). "Müxalifət" qəzetini 1991-ci ildə yaradıb və onun ilk baş redaktoru olub.

1979-cu ildən şeir, hekayə və publisistik yazıları ilə dövri mətbuatda müntəzəm çıxış edib. Əsərləri türk, rus və özbək dillərinə tərcümə olunub.

Ağamalı Sadiq Əfəndi 1988-ci ildə Azərbaycanda başlanmış milli-azadlıq hərəkatının fəal öncülü, müasir, demokratik mətbuatın məşhur yaradıcılarından biri olub. Azərbaycan Xalq Cəbhəsinin təşəbbüs qrupunun qurucularından biri və onun təsis konfransının təşkilatçısıdır.

1990-cı il 20 yanvar faciəsindən sonra üzvü olduğu SSRİ Yazıçılar İttifaqından istefa vermiş, ona kəsilmiş yüksək təqaüddən imtina etmiş, o zamankı rejimin təqib və təzyiqlərinə baxmayaraq informasiya blokadasını yarmaq üçün qeyri leqal (samizdat) FV-ÇP "fövqəladə vəziyyət" qəzetlərini və bülletenləri məxfi şəkildə nəşr etdirərək xalqa yaymışdı. Onun imzası "Asəf" kimi tanınırdı, bu elə Ağamalı Sadiq Əfəndi demək idi.

1990-cı ildə Ağamalı Sadiq Azərbaycan Ali Soveti deputatlığına doğulduğu Qazaxdan namizədliyini irəli sürərək xalqın səsini alsa da nəticələr kəskin şəkildə saxtalaşdırıldı.

**1995-ci il dekabrın 12-də 48 yaşında vəfat edib.**

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Ağamalı_Sadiq*

## SƏFƏR ALIŞARLI (1954)

**Səfər Alışarlı** 12 avqust 1954-cü ildə Naxçıvan MR Şərur rayonunun Alışar kəndində doğulub. 1976-1980-cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda oxuyub. 1980-



***Səfər Alışarlı***

1985-ci illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.

1985-ci ildən etibarən Bakıda əmək fəaliyyəti ilə aşağıdakı müəssisələrdə məşğul olub: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında kiçik redaktor, "Gənclik"-"Molodost" jurnalında şöbə müdiri, "Səs" qəzetində baş redaktor müavini, Naxçıvan MR Dövlət Teleradio Verilişləri Komitəsində sədr, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində sədr müavini.2008-ci ildən aylıq, ictimai-siyasi "Vətəndaş cəmiyyəti" jurnalının baş redaktoru.

İlk hekayələri 1981-ci ildə "Azərbaycan" jurnalında çap olunub. O vaxtdan mütəmadi olaraq bu və digər ədəbi-bədii jurnal və qəzetlərdə öz hekayələrini çap etdirib.

AXC-nin ilk mətbuat orqanlarının yaranmasında və nəşrində böyük fəaliyyəti olub.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Səfər_Alışarlı*

**NƏCƏF NƏCƏFOV(1955- 1999)**

"Azadlıq" qəzetinin ilk sayı 1989-cu ilin dekabrın 24-də çıxdı. Qəzetin redaktoru N.Nəcəfov bir qrup jurnalistlə nömrənin maketini hazırladı, məqalələri redaktə etdi, Əhmədlidəki 4 saylı mətbəədə iki gecə çalışdı. "Azadlıq" qəzeti 200 000 tirajla nəşr edilməyə başladı.

Bir müddət sonra N.Nəcəfov AXC-nin rusdilli nəşrinin yaradılmasını vacib sayıb "Azadlıq" qəzetinin rus dilində də nəşrinə nail olur.

"Turan" İnformasiya Agentliyinin də təsisçilərindən biri N.Nəcəfov idi.

AXC hakimiyyətə gəldikdən sonra N.Nəcəfov əvvəlcə prezidentin mətbuat katibi, sonra isə müşaviri oldu. 1993-cü ilin yazında o, dövlət katibi vəzifəsinə təyinatdan imtina etdi, mayda isə müşavir vəzifəsindən istefaya getdi.

O, bir müddət ARDNŞ-də (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ictimaiyyət və xarici neft kampaniyaları ilə əlaqələr üzrə vitse-prezident işlədi. Həmin ilin iyununda isə o, təmsil olunduğu AXC hökumətinin üzvləri ilə birlikdə istefaya getdi.

1993-cü ildə "Azadlıq" qəzetinə redaktor müavini təyin olundu. Bir qədər sonra fikir ayrılığı üzündən qəzetdə parçalanma oldu. N.Nəcəfovun dövründə redaksiyaya gəlmiş bir neçə əməkdaş qəzeti tərk etdi.

1994-cü ildə qəzetin redaktoru dəyişdirildi.

Həmin dövrdə AXC daxilində keçmiş jurnalistlərlə yeni nəsil arasında fikir ayrılıqları da meydana çıxmışdı. N. Nəcəfov isə mətbu orqanın siyasi liderlərin kəskin nəzarəti altında olmasına razı deyildi.

1995-ci ildən başlayaraq o, "Molodyoj Azerbaydjana"dan olan keçmiş həmkarları ilə birlikdə yeni gündəlik qəzetin nəşri məsələsini müzakirə edirdi. O, qəzetin ilk sayını 2000-ci il yanvarın 1-də nəşr etmək istəyirdi. Lakin xəstəliyi buna imkan vermədi.

***Qaynaq:***

*"İlk xatirələr". (Dostlarının Nəcəf Nəcəfov haqqında xatirələri)."Yeni Nəsil", Bakı, 2000.*

**Qeyd:** *N.Nəcəfovun bioqrafiyası "AXC İdarə Heyətinin ilk üzvləri" başlığında verilib.*

## ELMAR MƏHƏRRƏMOV



***Elmar Məhərrəmov***

Tarix üzrə fəlsəfə doktoru E.Məhərrəmov 1949-cu ildə anadan olub. 1973-1979-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsində təhsil alıb. 1975-ci ildən AEA Tarix İnstitutunda işləyir. 2002-ci il dekabrın 25-dən İnformasiya mərkəzinin rəhbəridir. Tarix üzrə Problem Şurasının elmi katibidir.

Azərbaycan Xalq Cəbhəsi Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu özəyinin həftəlik ictimai-siyasi-tarixi məcmuəsi olan "Azərbaycan" 1989-cu ildə onun redaktorluğu ilə nəşr edilib. Məcmuə Azərbaycan və rus dillərində çıxıb.

## ÇİNGİZ FİRUDİNOĞLU

Gəncədə 1989-cu ilin noyabr-dekabr aylarından nəşr edilən "Vətən" qəzetinin redaktoru olub. Həmin qəzet rus dilində də çap olunub. Ç.Firidunoğlu sonradan bir müddət ABŞ dövlətinin müəyyən layihələrində çalışmış və hazırda xaricdə yaşayır.



***Çingiz Firudinoğlu***

# QARABAĞ MÜBARİZƏSİ

## QARABAĞIN AZƏRBAYCANA MƏXSUSLUĞU

Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu bölgə Kiçik Qafqaz dağlarından başlamış, Kür və Araz çayları arasındakı ərazini əhatə edir. “Qarabağ” adı mənbələrdə XII əsrdən başlayaraq çəkilir. SSRİ ərazisində ən qədim insan məskənlərindən biri Qarabağda aşkar olunub (Azıx mağarası). Şərqi Zaqafqaziyada geniş yayılmış Xocalı-Gədəbəy Mədəniyyətinin zəngin abidələri də ilk dəfə Qarabağda tapılıb.

Qədim dövrdə və erkən orta əsrlərdə Qarabağ Qafqaz Albaniyasına daxil idi. Qarabağda alban tayfaları (qutilər və qarqarlar) yaşayırdı. Qarabağ uzun müddət Sasani əsarətinə qarşı mübarizə aparıb.

Ərəb işğalından sonra (VII əsr) Qarabağın düzənlik hissəsində və şəhərlərdə yaşayan əhali İslam dinini qəbul edib. Qarabağın dağlıq hissəsində Artsaxda yaşayan əhali isə xristianlığı saxlayıb. Bu bölgə X əsrdə Şəddadilərin, XI əsrdə Səlcuqilərin hakimiyyətinə keçib. XII əsrin sonu – XIII əsrin əvvəlində Qarabağın dağlıq hissəsində Xaçın feodal knyazlığı yarandı. Sonrakı əsrlərdə bu knyazlıq Xəmsə adlanan beş məlikliyi birləşdirdi.

XVII əsrin sonundan XVIII əsrin ortalarınadək Azərbaycanın feodal dövlətlərə – xanlıqlara parçalanması zamanı Qarabağ bəylərbəyliyi ərazisində Qarabağ xanlığı və Gəncə xanlığı yarandı.

XVIII yüzilin sonları – XIX yüzilin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi. **İbrahim xan** Rusiya qoşunlarının komandanı R.D.Sisiyanovla (1802-1806) Kürəkçayda müqavilə bağladı. **Kürəkçay müqaviləsinə** əsasən, Qarabağ xanlığı məhz müsəlman – Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu.

Beləliklə,tarixi azərbaycan torpaqlarında ikinci bir erməni dövlətinin yaradılmasına real şərait yaradıldı.

**Qeyd:** Qafqaz adına isə ilk dəfə Esxilin “Zəncirlənmiş Prometey” əsatirində rast gəlirik. Sahəsi 440 min kv km-dir. Qafqaz adlanan (hetlərdə) xalqla əlaqədardır.

---

***Qaynaq:***
*https://az.wikipedia.org/wiki/Dağlıq_Qarabağ*

## ERMƏNİLƏRİN QARABAĞ İDDİALARI

**XIX əsrin əvvəllərindən**, xüsusən Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra Azərbaycan ərazilərinə – əsasən Qarabağ bölgəsinə ermənilər köçürülməyə başladı (qeyd edim ki, bu faktı təsdiqləyən çoxsaylı arxiv sənədlərinin olmasına baxmayaraq, ermənilərin Mardakert rayonu ərazisində buraya gəlmələrinin 150 illiyi münasibəti ilə qoyulan abidəni xatırlamaq yetərlidir).

Rusiya dövlətinin başlıca məqsədi müsəlman olmayan, xristian dininə bağlı bu toplumdan özü üçün baza yaratmaq və ondan faydalanmaq idi. 1813-cü ildə bağlanan "Gülüstan" və 1828-ci ildə imzalanan "Türkmənçay" müqavilələrindən sonra bu istiqamətdə ermənilərin də fəaliyyəti gücləndi. Bunun nəticəsi idi ki, 1828-ci ildə ermənilərin daha təsirli bir gücə çevrilməsi üçün "Erməni vilayəti" ərazisi də müəyyənləşib onlara verildi.

1920-ci ilin aprelində Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra vəziyyət kəskinləşdi. Bu dəfə "bolşevik" qiyafəsində olmağı bacaran (lakin mahiyyətcə "daşnak" olan) ermənilər Sovet Rusiyasından, az sonra "SSRİ"-dən öz məqsədləri üçün bəhrələndilər. Hər yerdə "azərbaycanlılardan bolşevik olmaz" təbliğatı ilə "SSRİ"-nin dövlət, güc, hüquq-mühafizə orqanlarında mövqelər qazanıb, bolşevik Moskvasının himayədarlığı ilə yenidən Azərbaycan torpaqlarını ələ keçirməyə başladılar.

**1920-ci illərdə,** yəni Sovetlər Birliyinin idarəetmə və strukturları formalaşmağa başlayanda ermənilər (təbii ki, daşnakların proqramı əsasında) Azərbaycan əraziləri olan Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın adını daha çox çəkirdilər (əslində o dövrdə Ermənistan Azərbaycan ərazilərini özünə birləşdirmək siyasətini gücləndirdikcə, daşnak ermənilər də inzibati vahid kimi Dağlıq Qarabağ adını uydurmuşdular. Hətta Dağlıq Qarabağ işləri üzrə Komissiyanın və Komitənin təşkili haqqında Azərbaycan MİK və XKS-nin dekreti 1922-ci ildə dekabrın 19-da mətbuatda dərc olunanda ictimaiyyətdə müxtəlif rəylər doğurmuş, Qarabağın iki inzibati orqana – "Dağlıq" və "Düzən" Qarabağa bölünməsinin süni olduğunu isbat edirdilər. Qeyd edilirdi ki, Qarabağ xanlığının ərazisi Rusiyanın istilasından sonra inzibati ərazi vahidləri olan qəzalara bölünmüşdü).

Ermənilərin, daşnakların və Moskvanın ciddi təzyiqləri nəticəsində 1923-cü ilin iyulun 7-də Azərbaycan SSR MİK "Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında" dekret verdi. Bu dekret əsasında Azərbaycan Sovetlərinin Mərkəzi İcraiyyə Komitəsi aşağıdakı qərarı qəbul etdi:

**1.** Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi Mərkəz olmaqla, Azərbaycan SSR-nin tərkib hissəsi kimi, muxtar vilayət təşkil edilsin.**2.** Muxtar vilayətin idarəetmə orqanları Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərdir".



***Ermənilərin 150 il əvvəl Qarabağa köçürülməsi haqqında abidə***

1924-cü ilin noyabrın 26-da “Dağlıq Qarabağ Muxtar Vilayəti Haqqında Əsasnamə” çap edildi. Həmin Əsasnamədə qeyd edilirdi ki, DQMV Azərbaycan SSR-nin tərkib hissəsidir, bütün kargüzarlıq, məhkəmə işləri və DQMV-nin məktəblərində tədris ana dilində aparılır.

“Əsasnamə”yə görə, Şuşa qəzasından Şuşa şəhəri və Xankəndi olmaqla, 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-nə verildi.

1924-cü ildə yanvarın 8-də Zaqafqaziya MİK Q. M. Musabəyovun məruzəsini və Azərbaycan SSR MİK-nin vəsatətini dinləyərək, Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan etdi”.

Ermənilər isə sovet rejiminin himayədarlığı altında məkrli niyyətlərini həyata keçirirdilər. Azərbaycanda bütün kitabxanalardan milli türk şairlərinin əsərləri toplanıb məhv edilsə də, Muxtar Qarabağ Vilayətinin kitabxanaları Avdolbekyan, Çubaryan, Kaçarnuni kimi şovinist daşnak yazarlarının əsərləri ilə dolu idi.

**1945-ci ilin payızında** Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Arutinov Ümumittifaq Kommunist Partiyası Mərkəzi Komitəsinə baxılmaq üçün Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil olması təklifini irəli sürdü.

**Arutinovun** məktubunu aldıqdan sonra ÜK(b)P MK-nın katibi **Malenkov** Azərbaycan KP(b) MK-nın birinci katibi Bağırova sorğu göndərib, Ermənistan KP(b) MK-nın təklifi ilə bağlı fikrini bildirməyi xahiş etmişdi. Bu suala cavab olaraq Bağırov Arutinovun məktubdakı fikirlərinə etiraz etmiş, sonda Dağlıq Qarabağ Muxtar Vilayətinin (azərbaycanlılar yaşayan Şuşa rayonu istisna olmaqla) Ermənistan SSR-nin tərkibinə daxil edilməsinə bir şərtlə razılıq verə bilər ki, azərbaycanlılar yaşayan və Azərbaycana yaxın olan Ermənistan SSR-nin üç rayonu Azərbaycan SSR-nin tərkibinə daxil edilsin. Eyni zamanda, Bağırov Zaqafqaziya sovet respublikalarının və Qafqazın ərazi sərhədlərinin dəyişdirilməsi məsələsini təklif **edirdi.**

Belə bir vəziyyətin gərginləşməsindən narahat olan Sovet dövləti rəh-

bərliyi Arutinovun məktubunu və Bağırovun təklifini cavabsız qoymuşdu.

Lakin ermənilər sakit dayanmayıblar. Erməni mətbuatında, Sovet Ermənistanı dərsliklərində, elmi və elmi kütləvi ədəbiyyatda ərazi məsələlərini keçmişin ədəbi abidələri formasında diqqətə gətirmiş, erməni millətçilərinin "Böyük Ermənistan" ideyalarını dəstəkləmişlər.

**Həmin kitablar:1**. Erməni xalqının tarixi. I hissə. Yerevan, 1951, səh. 37, 81, 115 və b.**2.** S. T. Yeremyan. Erməni xalqının tarixi. I hissə kitabına (1951-ci il nəşrinə) Atlas. Yerevan, 1952.**3**. Erməni xalqının tarixi. Birinci hissə. Yerevan, 1958, səh. 330-410.**4**. Erməni xalqının tarixi. Birinci hissə. Yerevan, 1963, səh. 24, 28, 32, 33, 154.**5.** T. Yeremyan. Ermənistan "Aşxarguyg üzrə" ("7 əsrin erməni coğrafiyası") . Yerevan, 1963-cü il.**6.** Erməni-rus münasibətləri XVIII əsrin III dövründə. Sənədlər toplusu. II cild, I hissə. Aşot İoanisyanın redaktorluğu ilə. Yerevan, 1964 (müxtəlif səhifələr).**7.** A. S. Mnakasanyan. Qafqaz Albaniyası ədəbiyyatı haqqında. Yerevan, 1966-cı il.

**Azərbaycan SSR Dövlət Təhlükəsizlik naziri S. F. Yemelyanovun hazırladığı məxfi arayışda yazılıb:** "Bu məqsədlə, daşnakların xarici bürosunun üzvü Kanayan Dro amerikalıların tapşırığı ilə Beyrutda xüsusi daşnak dağıdıcı mərkəzini yaradıb ki, onun vəzifəsi SSRİ-yə qarşı casusluq işi təşkil etməkdir".

S.F.Yemelyanovun arayışında bir məqam doğru olaraq vurğulanır: **"Onların əsas üsulu terror və təxribatdır".**


АЗӘРБАЙЧАН ССР
ӘВЛӘТ ТӘҺЛҮКӘСИЗЛИЙИ НАЗИРЛИЙИ

АЗЕРБАЙДЖАНСКАЯ ССР
МИНИСТЕРСТВО ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ

15 августа г. БАКУ 1951 г.

экз. №1

ЦК КП(б) АЗЕРБАЙДЖАНА

товарищу БАГИРОВУ М.Д.

При этом препровождаем для ознакомления, справку о структуре, составе и задачах разведывательных органов созданных Загранбюро дашнаков.

ПРИЛОЖЕНИЕ: по тексту на 4-х листах.

МИНИСТР ГОСБЕЗОПАСНОСТИ АЗЕРБ ССР С. ЕМЕЛЬЯНОВ

ЦК КП(б) Азерб.
ОСОБЫЙ СЕКТОР
СЕКРЕТНАЯ ЧАСТЬ
№ 893-с
15 VIII 1951 г

*Dövlət Təhlükəsizlik naziri S.F.Yemelyanovun məxfi arayışı*

Arayışdan məlum olur ki, 1951-ci ilin martında Dağlıq Qarabağın Mardakert rayonunun Talış kəndində düşmənçilik məqsədi ilə hətta heyvanları güllələyirlər. Bu işləri isə daşnak təşkilatının üzvü A. K. Abramyan həyata keçirir.

**Şaumyan rayonunun Buzluk kəndinin feldşeri** S.U.Verdiyan (1896 təvəllüdlü) ona yaxın insanlar arasında bu təbliğatı aparmışdır: "Yazıq erməni xaqlı, o, həmişə azərbaycanlıların zülmü altında inləmişdir. O, indi də ona görə əziyyət çəkir ki, bu respublika Azərbaycandır və onun rəhbərləri azərbaycanlıdır".

**DQMV-nin Hadrut rayonunun Tuğ kənd sakini**, Lenin adına


АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА
ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА

22. Декабря 9

№01/168

ЦК КП АЗЕРБАЙДЖАНА

Исполнительный комитет областного Совета депутатов трудящихся НКАО принял решение об отнесении центров Мардакертского и Мартунинского районов НКАО селений Мардакерт и Мартуни к категории посёлков городского типа.

В селении Мардакерт 3.910 человек жителей, из них 2.218 человек /57 процентов/рабочих и служащих с членами их семей; в селении Мартуни 3.912 человек жителей, из них 3.156 человек /81 процент/ рабочих и служащих с членами

***Ermənilərin Mardakert və Martuninin şəhər tipli qəsəbəyə çevrilməsi haqqında məktubu***

Azərbaycan Pedaqoji İnstitutunun dosenti Ruben Zorabyan (1896 təvəllüdlü) narazılıq edib belə fikirlər söyləyirdi: "Azərbaycanda yaxşı çalışan ermənilərin sıxışdırılması davam edir. Bu, açıq millətçilik siyasətidir".

**Şamxor (Şəmkir) rayonunun Borsunlu kənd sakini, ÜIK(b)P üzvü, yazıçı Qurgen Şahnazarov (1914 təvəllüdlü)** isə belə təbliğat aparırdı: "Biz ermənilər böyük şəxsiyyətlərimizi dəyərləndirmirik. Lakin bizim qonşularımız fars şairini azərbaycanlaşdırıblar. Məgər Nizami Azərbaycan yazıçısıdır? Axı o, fars şairidir və hər addımda allahsızcasına insanlıq tarixini təhqir edir. Bizim yazıçımız, tarixçi-linqivist Antonyan azərbaycanlılar qarşısında yaltaqlıq edir və bir qədər əvvəl 1919-1920-ci illər Azərbaycan ədəbiyyatının ermənilərə təsiri haqqında broşura yazıb".

Ermənilər yalnız bu əhvalda qalmırdı, DQMV-dəki ərazi iddialarını da davam etdirirdilər. **Məsələn 1950, 1960, 1970-ci illərdə petisiyalar hazırlayır,** azərbaycanlıların Qarabağ bölgəsindən çıxıb getməsini tələb edən yazıları evlərə verirdilər.

Ermənilər 1950-ci illərdə də fəallaşmış, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təklifi ilə çıxış etmişdilər. 1958-ci ildə Bakıya səfəri zamanı erməni katalikosu II Vazgen Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmişdi, rədd cavabı almışdı.

**1960-cı illərdə i**sə Stepanakertdə (Xankəndində) bir neçə azərbaycanlını onlar qətlə yetirmişdi.

Dağlıq Qarabağda azərbaycanlılarla ermənilər arasında münasibətin gərginliyi sovet rəhbərliyində narahatlıq doğurmuş və müvafiq qərar qəbul edilmişdi.

---

***Qaynaq:***

*1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 31, iş 186, v. 2.*

*2. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 31, iş 186, v. 3-6.*

## ERMƏNİLƏRİN 1967-Cİ İLDƏ XANKƏNDİNDƏ TÖRƏTDİKLƏRİ İĞTİŞAŞLAR



*Xankəndi məhkəməsində öldürülən azərbaycanlı, 1967*

Ermənilər 1967-ci ilin iyul ayının 3-də Xankəndində çaxnaşma yaradıb, azərbaycanlıları buradan qovmaq istəyirdilər. Bundan ötrü onlar hər cür təxribata əl atırdı.

1966-cı il oktyabr ayının 22-də erməni daşnakları Martuni rayonunun Qarakənd kəndindəki S.M.Kirov adına kolxozun aqronomu Benik Movsesyan adlı bir erməninin 8 yaşlı oğlu Nelsonu xüsusi amansızlıqla qətlə yetirdilər. Sonra onun cəsədini aparıb əsasən azərbaycanlılar yaşayan və Ərşad Məmmədovun direktoru olduğu Kuropatkino kəndi ərazisinə atdılar (qeyd edək ki, Beniklə Ərşadın yaxın dostluq münasibətləri var idi). Erməni qatillər Beniki inandırmaq istəyirdilər ki, uşağın qatili Ərşad və qohumu Ələmşaddır.

Bu işə maliyyə sərf edən erməni daşnaklar Moskvaya, Yerevana, dünyanın müxtəlif ölkələrinə məlumatlar yayıb, azərbaycanlıları qatil kimi təqdim etməyə başladı.Saxta cinayət işi əsasında Ərşad Məmmədov, Ələmşad Məmmədov və Söhrab Məmmədov həbs edildi. Həbsxanada onlara işgəncələr verilib, zorla cinayəti qəbul etdirdilər.

1967-ci ilin iyunun 12-də başlanan məhkəmənin son iclası iyulun 3-də Stepanakert (Xankəndi) şəhərində çağırıldı. Məhkəmə prosesi M. Əzizbəyov adına Mədəniyyət və İstirahət parkının yay zalında keçirildi. Səkkiz mindən çox erməni məhkəmə prosesini izləmək üçün binaya toplaşmışdı. Məhkəmənin qərarı ilə Ələmşad Məmmədov güllələnməyə məhkum edildi. Ərşad Məmmədova on beş il həbs cəzası verildi, Söhrab Məmmədov isə bəraət aldı.

Bu qərardan sonra ermənilər zala hücum etmiş, Ələmşad və Ərşadı öldürmüş, Söhrabın olduğu dustaq maşınına od vurub yandırmışdılar.Sonra Ərşa-

dın və Ələmşadın cansız meyitlərinə bıçaqla, ağacla zərbələr vurub, ayaqları ilə tapdaladılar.Yandırılmış maşından Söhrabın meyitini məftillə sürüyüb, o biri iki meyidin yanına qoyub, üzərlərinə benzin tökərək od vurdular.Yerli hökumət və dövlət adamları bundan sonra yanan meyidləri söndürdülər.

Bu cinayətlə bağlı yetmiş üç nəfər məsuliyyətə cəlb edilsə də, sonradan onlardan əlli üç nəfəri azadlığa buraxıldı. Qalan cinayətkarlara isə iki ildən on beş ilə qədər cəza verildi.

Sonradan həmin uşağı oğurlayıb öldürənin ermənilərin özləri olduğu bilindi. Azərbaycanın hökumət rəhbərləri isə buna qarşı təsirli tədbirlər görə bilmədi.

---

***Qaynaq:***

*1. V.Quliyev. Biz gedəsiyik, dünya qalan. "Şuşa" nəşriyyatı, Bakı, 2001.*
*2. Azərbaycan" qəzeti, 3 dekabr, 2011-ci il*

## XANKƏNDİNDƏ ABİDƏLƏR
***(erməniləşdirilən şəhər)***

Xankəndinin Azərbaycana aid olmasına baxmayaraq, Sovet hakimiyyəti illərində şəhər tamamilə erməniləşdirilmişdi. Küçə adları ermənicə yazılır (sonradan rusca da yazıldı), Azərbaycan dilində sənədləşmə və dövlət yazışmaları getmir, bu bölgə demək olar ki, Ermənistanın bir əyalətinə çevrilmişdi. Azərbaycan rəhbərliyi isə Moskvadan ehtiyatlanıb, bu haqda susmağa üstünlük verirdi.

Sovet dövründə Xankəndində yalnız bir yerdə M. Əzizbəyovun büstü var idi. Şəhərdə kimlərə abidələr, büstlər, qorelyeflər qoyulmuşdu?

1. S.Şaumyan; 2. Boqdan Knunyants; 3. Aleksandra Myasnikova; 4. A. Akopyan; 5. Muradyan; 6. A. Saturyan.

V.İ.Leninə və XI Orduya qoyulan heykəllərin də tarix və mədəniyyət baxımından bizə aidiyyatı yox idi.Şəhərdə əsas küçə adları da ermənilərə aid idi: S. Şaumyan, Atarbəyov (Atarbekyan) və s.

---

***Qaynaq:***

*"Dağlıq Qarabağ". B., "İşıq" nəşriyyatı, 1983-cü il.*

## XANKƏNDİNİN QISA TARİXİ VƏ İNKİŞAFI
### *(erməni bəhanələrinə faktlarla cavab)*

Aşağıda təqdim olunan faktlar əslində Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyən ermənilərə ciddi cavabdır. Onlar ictimai fikri aldadaraq, guya ermənilər yaşayan bu bölgənin yetərincə inkişaf etdirilmədiyini, "problemlərin" olduğunu qeyd edirlər. Faktlar isə sübut edir ki, Dağlıq Qarabağda, xüsusən onun mərkəzi şəhəri Xankəndində (Stepanakertdə) olan inkişaf yalnız Azərbaycanın deyil, eləcə də SSRİ-nin əksər bölgələrində yox idi.


СОВЕТСКИЙ КАРАБАХ

НАСТУПИЛ ЧАС РАЗУМА

*"Sovetskiy Karabax" (rus dilində)*

Ermənilərin məqsədi SSRİ və dünya ictimaiyyətini bu "problem"lə məşğul edib, Azərbaycan ərazilərini, xüsusən də Dağlıq Qarabağı işğala məruz qoymaq idi.

Bu yer 1923-cü ilədək Xankəndi adlanıb. 1923-cü ilin iyun ayında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda 26 Bakı komissarlarının başçısı S. Şaumyanın şərəfinə vilayət mərkəzi Stepanakert adlanıb. Şəhər sovet dövründə DQMV-nin ümumi sənaye məhsulunun yarıdan çoxunu təmin edib. Burada Qarabağ İpək Kombinatı, Ayaqqabı və Tikiş fabrikləri, Xalça emalatxanası (yüngül sənaye), yeyinti sənayesinə aid olan Şərab zavodu, Süd və ət kombinatları, Elektronika (işıq texnikası avadanlığı), Avtomobil təmiri, Asfalt-beton zavodları və s. var idi.


Говорит Степанакерт

15 ФЕВРАЛЯ
ПОНЕДЕЛЬНИК

14.00 — Последние известия.
14.10 — Человек и закон.
14.25 — «Понедельник—день веселый» (сатира, юмор, шутка).
14.35 — Поет Н. Саркисян.
18.30 — Областные новости.
18.40 — Областные новости (на азербайджанском языке).
18.50 — Фортепианные этюды.
19.10 — Наш ленинский университет.
19.25 — «В последний час» (международная информация).
19.30 — У микрофона этнографический ансамбль «Акунк».

16 ФЕВРАЛЯ
ВТОРНИК

14.00 — Последние известия.
14.30 — Эстрадные обработки армянских народных песен.
18.30 — Областные новости.
18.40 — Областные новости (на азербайджанском языке).
19.15 — Передача для работников агропрома.
19.25 — «В последний час» (международная информация).
19.30 — Концерт для тружеников села.

17 ФЕВРАЛЯ
СРЕДА

14.00 — Последние известия.
14.10 — Обзор газеты «Советакан Карабах».
14.15 — Радиожурнал «Артутик».
14.35 — Поют Л. Хамянц и А. Аветян.
18.30 — Областные новости.
18.40 — Областные новости (на азербайджанском языке).
18.50 — И. С. Бах. Сюита № 1.
19.25 — Отчетно-выборные собрания в колхозах.

*Xankəndində radio verlişləri proqramı*

Şəhərdə Pedaqoji İns-

titut, Müəllimləri Təkmilləşdirmə İnstitutu, sovxoz-texnikum, Tibb, 2 musiqi, Orta-texniki peşə, Uşaq İncəsənət məktəbləri, Texniki Məktəb, Tarix-ölkəşünaslıq muzeyi, Dram teatrı, Konsert zalı, Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ filialı, Vilayət kitabxanası, Qış və yay kinoteatrları, Mədəniyyət sarayı və s. var idi. "Sovetakan Karabax" (erməni dilində), "Sovetskiy Karabax" (rus dilində) qəzetləri çıxırdı. Yerli televiziya və radio verilişləri (erməni dilində) yayınlanırdı.

Şəhərdə 800 çarpayılıq 8 xəstəxana, 35 feldşer-mama məntəqəsi, 2 dispanser (dəri-zöhrəvi, vərəm), Sanitariya-epidemioloji stansiya, 210 həkim, 540 orta tibb işçisi var idi.

Şəhərdə 1973-cü ildə V.İ.Lenin adına APİ-nin filialı əsasında Sovet Azərbaycanının 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutu yaradılmışdı. Təhsil erməni və Azərbaycan dillərində aparılırdı.

Erməni dilində olan **"Sovetakan Karabax"** qəzeti 1923-cü ilin iyunundan, onun materiallarının tərcüməsi olaraq nəşr edilən "Sovetskiy Karabax" isə rus dilində 1980-ci ilin yanvarından çap edilirdi.

Qeyd edək ki, ilk dəfə olaraq 1929-cu ildə Şuşada ictimai, siyasi, ədəbi qəzet olan "Qarabağ" adlı mətbuat orqanı üç dildə (eyni qəzet olaraq) - Azərbaycan, rus və erməni dillərində nəşrə başlayıb. Əldə olan 3-cü sayında (6 noyabr 1929-cu il) ədəbiyyat, mədəniyyət məsələləri ilə yanaşı beynəlxalq vəziyyəti şərh edən materiallar da verilib.

---

***Qaynaq:***

*1. Azərbaycan Sovet Ensiklopediyası. I cild, 1976-cı il.2. "Dağlıq Qarabağ" (rus dilində). B., 1983.*

## SOV. İKP MK ERMƏNİ ALİMLƏRİNİN SAXTAKARLIĞINA QARŞI QƏRAR QƏBUL EDİR

Ermənilərin yazdıqları kitablarda və araşdırmalardakı saxtakarlıqlar 1980-ci illərdə Sovet dövlətinin rəhbərliyini narahat etmişdi. Bu məqsədlə 1984-cü ilin oktyabrında Sov. İKP MK "Sov. İKP MK iyun (1983-cü il) Plenumu qərarlarının Ermənistan respublikasının partiya təşkilatında yerinə yetirilməsi gedişi haqqında" qərar qəbul etdi. Həmin qərarda qeyd olunur: "Ayrı-ayrı elmi araşdırmalarda, bədii əsərlərdə tarixi hadisələrin və şəxsiyyətlərin qiymətləndirilməsində qeyri-sinfi münasibət müşahidə edilir".

---

***Qaynaq:***

*"Pravda" qəzeti, 21 oktyabr, 1984-cü il*

## VARDES PETROSYANIN ZƏRƏRLİ KİTABININ AZƏRBAYCANA GƏTİRİLMƏSİ VƏ QADAĞAN EDİLMƏSİ



Секретно
Экз.№ 2

ЦК КП АЗЕРБАЙДЖАНА

.85 10/365

КГБ Азерб.ССР располагает данными о том, что в январе с.г. на базу "Азеркитаба" поступила книга Первого секретаря Правления Союза писателей Армении Вардгеса Петросяна "Армянские эскизы" в количестве 480 экземпляров, выпущенная в 1984 году издательством "Советакан Грох" (г.Ереван) тиражом 30000 экз., идейно-ущербного содержания.

Для проверки поступившего сигнала от ряда писателей, журналистов и ученых республики были получены квалифицированные отзывы, свидетельствующие о том, что данное произведение написано в националистическом духе и содержит ряд тенденциозных моментов. Через ... марксистско-ленинской идеологией.

В книге автор акцентирует внимание читателя на образе Андраника, которого преподносит как национального героя, полководца, человека, отдавшего якобы свою жизнь в борьбе за свободу армянского народа (стр.26,45,65,68,106,110,170 и др.).

Настоящая книга по своему идейному содержанию и замыслу в определенной степени перекликается с ранее опубликованными произведениями А.Барсегяна "Пыль Пути" и З.Балаяна "Очаг".

С учетом изложенного полагали бы допущение книги В.Петросяна "Армянские эскизы" в торговую сеть республики нецелесообразным.

Председатель Комитета З.М.Юсиф-заде

О/7 5 отделения 5 отдела
КГБ Азерб ССР
Капитан

***Azərbaycan DTK sədri Z.M.Yusifzadənin Azərbaycan KP MK-ya 10/365 saylı məktubu***

Ermənistan Yazıçılar Birliyinin Birinci katibi Vardes Petrosyanın 1984-cü ildə Yerevanda "Sovetakan Qrox" nəşriyyatında 30 000 tirajla nəşr edilmiş kitabı ilə bağlı Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Z. Yusifzadə Azərbaycan KP MK-ya 1985-ci ildə məktub yazıb, bu kitabın zərərli olduğunu, müəllifin hər yerdə erməni izləri axtardığını, quldur Androniki qəhrəman kimi təsvir etdiyini bildirir. Qeyd edir ki, 480 ədəd bu kitabdan "Azərkitab" vasitəsi ilə Azərbaycana gətirilib. Bu kitabın respublikada satışa buraxılması məqsədəuyğun sayılmır.

---

***Qaynaq:***

*Sabir Rüstəmxanlının şəxsi arxivi. Azərbaycan DTK-nin sədri Z. M. Yusifzadənin Azərbaycan KP MK-nə 10/365 saylı məktubu. 5. 03. 1985-ci il.*

## ZORİ BALAYANIN "OCAQ" KİTABI.
### (1984-cu il, Yerevan)

Erməni millətçilərindən və yazarlarından olan, "Literaturnaya qazeta"nın Ermənistan SSR üzrə müxbiri Zori Balayan 1981-ci ildə yazdığı "Ocaq" essesini 1984-cü ildə Yerevanda "Sovetakan qrox" nəşriyyatında rus dilində ayrıca kitab olaraq nəşr etdirdi. 421 səhifəlik bu kitabın hər bir səhifəsi təhriflərlə dolu idi. Kitabda qədim Azərbaycan torpaqlarının – Zəngəzurun, Naxçıvanın, Qarabağın ermənilərə məxsusluğunu saxta fakt-

larla təqdim edən müəllif bu fikrini də ortaya qoyur və yazırdı: "Sovet Ermənistanı "Həqiqi böyük Ermənistanın cüzi bir qalığıdır". Bu kitabda o, azərbaycanlıları təhqir edir, "vəhşi", "barbar" adlandıraraq rusları türklərə qarşı mübarizəyə çağırır, "əzabkeş"erməni xalqı obrazını yaradır, Qarabağ torpaqlarını ən qədim erməni mədəniyyəti ocağı olaraq təqdim edir.

---

***Qaynaq:***
*Zori Balayan. Ocaq. Yerevan, 1984.*

### ZORİ BALAYAN KİMDİR?

Z.Balayan 1935-ci ilin 10 fevralında Azərbaycan SSR-nin Dağlıq Qarabağ Vilayətinin Stepanakert (Xankəndi) şəhərində doğulub. Erməni yazıçısı, siyasi və ictimai xadimdir. "Baykal Hərəkatı" Beynəlxalq Ekoloji hərəkatın həmsədrlərindən biridir. "Ermənistan" gəmisində dünyanı üzmək ekspedisiyasının rəisi və təşkilatçısıdır. 1963-cü ildə Ryazan Tibb İnstitutunu bitirib. 1963-1973-cü illərdə Kamçatkada (Rusiyada) işləyib. 1974-cü ildən Yerevanda yaşayıb.1975-ci ildən "Literaturnaya qazeta"nın xüsusi müxbiri işləyib. 1989-cu ildə DQMV Milli Şurasının, eyni zamanda SSRİ Ali Sovetinin deputatı olub. 1981-ci ildə yazdığı "Ocaq" essesini 1984-cü ildə ayrıca kitab olaraq Yerevanda rus dilində nəşr etdirib. İngilis jurnalist Tomas de Vaalın fikrincə Z.Balayan bu kitabı Azərbaycanda narazılıq və etiraz dalğası yaratmaq məqsədi ilə yazmışdı. Bundan sonra Z.Balayan Qarabağ separatçılarına qoşularaq "Miatsium" hərəkatının liderlərindən biri olur.

Zori Balayanın 3 iyul 1994-cü ildə Bakı metropolitenində, "Gənclik" və "28 May" metrostansiyaları arasında baş vermiş partlayışda (bu partlayış zamanı 12 nəfər həlak olmuşdu) iştirakının olması da qeyd olunur. Bununla əlaqədar ona cinayət işi də açılıb.

---

***Qaynaq:***
***İnternet.*** https://az.wikipedia.org/wiki/Zori_Balayan

### A. AĞANBEKYANIN "QARABAĞ" ÇIXIŞI

Erməni millətçilərinin fəaliyyətində **"Qarabağ" problemi** yeni deyildir. Lakin bu məsələnin SSRİ-nin çökməsi dövründə "qızışdırılmasında" A.Ağanbekyanın "Humanite" qəzetindəki çıxışı təsirli rol oynadı. 1987-ci ilin noyabrında yenidənqurmaya həsr olunmuş kitabının çıxması

şərəfinə Fransa “Erməni İnstitutu” və “Erməni Veteranlar Cəmiyyəti”nin təşkil etdiyi qəbula dəvət alan bu sovet alimi Qarabağa aid olan suala belə münasibət bildirmişdi: “Mən istərdim ki, respublikanın (Ermənistanın - N. Y.) şimal - şərqində yerləşən Qarabağ Ermənistanın olsun. Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, o, iqtisadi cəhətdən Azərbaycana nisbətən Ermənistanla daha çox bağlıdır. Bu istiqamətdə mən bir təklif irəli sürmüşəm. Əminəm ki, bu problem yenidənqurma və demokratiya şəraitində öz həllini tapacaqdır” (“Humanite”, №13450, 18.11.1987).

Onun bu fikirləri Fransa Kommunist Partiyasının orqanı olan “Humanite” qəzetinin 1987-ci il, 18 noyabr sayında nəşr edildi (№13450).Əslində onun bu sözlərindən sonra Mərkəzi mətbuatda (Moskvada) Azərbaycan əleyhinə yazılar, çıxışlar başladı. Hər məsələdə azərbaycanlıları günahkar çıxarmaq, “ermənipərəst” mövqe tutmaq bir ənənə halını aldı.

Azərbaycan ziyalılarından bir dəstəsi tezliklə onun çıxışının əleyhinə imza toplamağa başladı.

---

***Qaynaq:***
*“Humanite”, №13450, 18.11.1987.*

## ERMƏNİ KATALİKOSU I VAZGENİN ERMƏNİSTAN TELEVİZİYASI İLƏ ÖZ XALQINA MÜRACİƏTİ

1988-ci ildə fevral ayında (hələ 26 fevral Sumqayıt hadisəsi başlamayıb) Erməni Qriqoryan kilsəsinin və bütün ermənilərin katalikosu I Vazgenin Ermənistan televiziyası ilə öz həmvətənlərinə azərbaycanlı- erməni münasibətlərini daha da gərginləşdirən müraciəti oldu. Televiziya ilə müraciətində o, deyirdi: **“Bütün erməni kilsələri adından Sizə Eçmiədzindən böyük salam yetirirəm. Dağlıq Qarabağın Sovet Ermənistanının tərkibinə daxil edilməsi məsələsinin bu şəkildə həll olunması məni də möhkəm sarsıtmışdır. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini mən tamamilə qanuni, Konstitusiyaya uyğun və təbii hesab edirəm.** Və mən inanıram ki, hazırki demokratiya və yenidənqurma şəraitində Sovet hökuməti bu məsələyə çox ciddi yanaşacaqdır. Bu günlər mən bizim xaricdəki kilsə təşkilatlarından çoxlu məktub alıram. Onlar mənə zəng vururlar ki, Sovet hökumətinə müraciət edim və xahiş eləyim ki, onlar Dağlıq Qarabağ məsələsini Sovet İttifaqının Konstitusiyasına və DQMV Xalq Deputatları Sovetinin qərarına əsasən ədalətlə həll etsinlər.

Mən bu bəyanatları da işə qoşmuşam və bizim hörmətli Mixail Qorbaçova teleqram vurub xahiş etmişəm ki, bu məsələnin DQMV erməni əhalisinin xeyrinə həll olunmasına kömək etsin. Həm Sovet Ermənistanında, həm də xaricdə erməni xalqı dünya xalqları ilə rus xalqı arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işinə həmişə sədaqətli olmuşdur.

Mən sizi əmin edirəm ki, DQMV məsələsi Moskvada, yüksək səviyyədə SSRİ-də millətlərin öz müqəddəratını  təyin etmək hüququna əsasən həll olunacaqdır. Sizin bu günlərdə keçirdiyiniz həyəcanları və xalqın çıxışlarını mən yüksək qiymətləndirirəm”.


Указ Президиума Верховного Совета СССР

О награждении верховного патриарха—католикоса всех армян Вазгена I орденом Трудового Красного Знамени

За миротворческую деятельность и в связи с восьмидесятилетием со дня рождения наградить верховного патриарха—католикоса всех армян Вазгена I орденом Трудового Красного Знамени.

Председатель Президиума Верховного Совета СССР
А. ГРОМЫКО.
Секретарь Президиума Верховного Совета СССР
Т. МЕНТЕШАШВИЛИ.
Москва, Кремль.
19 сентября 1988 г.

***Sovet rəhbərliyi Vazgeni mükafatlandırır***

## ERMƏNİLƏR QARABAĞDA FƏALLIĞI GÜCLƏNDİRİR

**1987-ci ildə** erməni separatçıları Dağlıq Qarabağda və Ermənistanda Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi tələbi ilə kütləvi şəkildə əhalidən imza toplamağa başladı. Bu işin təşkilatçıları həmin kampaniyanı “referendum” adlandırırdı. 1987-ci ilin dekabrın 1-də Qarabağ ermənilərinin nümayəndələri toplanan imzaları, məktub və tələblərini Moskvada Sov. İKP MK-nın qəbul otağına çatdırdılar. Bəzi mənbələrdə həmin müraciət üçün **75-80 min** imzanın toplandığı qeyd olunur. 1988-ci ilin yanvarında yazıçı Zori Balayanın və İqor Muradyanın fəallığı ilə Qarabağ ermənilərinin yeni nümayəndə heyəti Qarabağ ermənilərinin müraciəti ilə yanaşı Dağlıq Qarabağın tarixinə, etnoqrafiyasına, iqtisadiyyatına və mədəniyyətinə aid **84 sənədi** də özləri ilə Moskvaya apardılar. Nümayəndə heyətinin üzvləri Sov. İKP MK-nın qəbul şöbəsinin müdiri A. Kriqinlə, Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd P.M.Demiçevlə, Sov. İKP MK Millətlərarası Əlaqələr Şöbəsinin bölmə müdiri V.A.Mixaylovla görüşdülər.




***Erməni saxtakarlığı: Dağlıq Qarabağda azərbaycanlılara Ermənistan SSR adından verilən attestat***

1988-ci ilin fevralın əvvəlində isə Qarabağdan olan daha bir nümayəndə heyəti Moskvada yenidən V.A.Mixaylovla, sonra isə SSRİ Xarici İşlər Naziri A.A.Qromıko ilə təmasda oldular.

**1988-ci ilin yanvarında** ermənilər DQMV-də aşağıdakı məzmunda vərəqələr yaymışdılar: "Vaxt gəlib çatıb ki, Qarabağın ana vətənlə birləşdirilməsi məsələsi vilayətin aparıcı müəssisələrində, kolxoz və sovxozların ümumi partiya, həmkarlar və komsomol yığıncaqlarında gündəlik məsələyə daxil edilsin. Aşkarlıq və demokratiya ruhlu bu məsələ açıq şəkildə müzakirənin impulsuna çevrilməlidir. Bu yığıncaqların qərarlarından çıxarışları müvafiq möhürlərlə təsdiqləyib Sov. İKP MK-ya göndərmək lazımdır".

**1988-ci ilin fevralın 13-də Stepanakertdə (Xankəndi) kütləvi mitinq təşkil edildi.** Həmin mitinqin təşkilatçılarından biri İqor Muradyan idi. Fevralın 14-də isə şairə Silva Kaputikyan Ermənistan Yazıçılar İttifaqının yığıncağında çıxış edib Qarabağ ermənilərini dəstəklədi. Fevralın 16-dan martın 2-nə qədər Stepanakertin Mərkəzi meydanında mitinqlər fasiləsiz olaraq davam etdi.

Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin Stepanakertdə keçirilən növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR-nin tərkibinə daxil edilməsi ilə bağlı Azərbaycan və Ermənistan SSR Ali Sovetləri qarşısında öhdəlik haqqında" qərar qəbul edildi. Elə həmin gün Yerevanda bu öhdəliyin dəstəklənməsi ilə bağlı mitinq keçirildi.

Ermənistan DQMV-nin Azərbaycanın tərkibindən çıxarılması qərarından sonra Bakıda vəziyyət gərginləşdi.

---

***Qaynaq:***

1. *18 il əvvəl, yanvarda. C. Martirosyanla müsahibə. Azat Artsax, 17 yanvar 2006-cı il. WWW. artsakhte rt.com (rus).2. Sultanov Ç. A. İmperiyaya sonuncu zərbə (Sultanov. azeriland. com) (rusca).*

## AZƏRBAYCAN SSR-NİN DAĞLIQ QARABAĞ VİLAYƏTİNDƏ HADİSƏLƏRİN BAŞLANMASI VƏ DAVAMI XRONİKASI

**1988-ci il 8-11 fevral:**

DQMV-də müəyyən şəxslərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı insanları kütləvi tədbirlərə çağıran milli-ekstremist ruhlu dağıdıcı fəaliyyətləri başlayır.

**1988-ci il 11 fevral:**

Azərbaycan KP MK-nın ikinci katibi V.N.Konovalovun başçılığı ilə bir qrup partiya işçisi və bir gün sonra isə MK katibləri T.Orucov, R.Mehdiyev DQMV-nə gəlib vəziyyəti normallaşdırmaq üçün müvafiq operativ tədbirlər gördülər.

**1988-ci il 12 fevral:**

Stepanakert Şəhər Komitəsində və DQMV-nin bütün beş rayon partiya komitələrində DQMV Partiya Komitəsi Bürosu üzvlərinin iştirakı ilə keçirilən müşavirədə, yayılan şayiələrin əsası olmadığı fəalların diqqətinə çatdırıldı. Elə həmin gün Əsgəranda, Hadrutda, Mardakertdə, Martunidə yüzlərlə adamın iştirakı ilə kütləvi yığıncaqlar keçirildi.

**1988-ci il 13 fevral, saat 11:00:**

Stepanakertdə, Vilayət Partiya Komitəsinin qarşısında, saat 11:00-da əsasən yeniyetmələrdən ibarət olan minə qədər insan toplaşdı. Əldədüzəltmə plakatlarla, DQMV-nin Ermənistana birləşdirilməsini tələb edən çağırışlar səslənirdi. Həmin gün 300-ə qədər adam Hadrutun Mərkəzi meydanına gəlib, hədə-qorxu ilə Rayon İcraiyyə Komitəsinin sədrini, onların yuxarı orqanlara olan müraciətini Komitənin möhürü ilə təsdiqləməyə məcbur ediblər.

**1988-ci il 14 fevral:**

Azərbaycan KP MK-nın bürosunda Dağlıq Qarabağda yaranmış vəziyyətə baxılıb və ilk tədbirlər müəyyənləşib. DQMV-nə aid bütün rayonlara izahedici işlərin görülməsi və qanunların pozulmaması üçün MK-nin məsul işçiləri göndərilib.

**1988-ci il 15-18 fevral:**

DQMV-də gərgin vəziyyət saxlanılır. Şuşadan başqa bütün rayonlarda çoxsaylı kütlənin təzyiqi ilə DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb Ermənistan SSR-nin tərkibinə daxil edilməsi ilə bağlı rayon sovetlərinin sessiyaları keçirilir və qanunsuz qərar qəbul edilir.

Vilayətdə narahatlıq və həyəcan artır, əhali arasında ermənilərin azərbaycanlılara qarşı, azərbaycanlıların da ermənilərə qarşı fiziki güc işlədəcəyi şayiəsi yayılır.

DQMV məsələsinin belə hallanması Bakıda, Kirovabadda (Gəncədə), Sumqayıtda, Naxçıvan Muxtar Respublikasında və digər şəhərlərdə, rayonlarda yaşayan Azərbaycanın ziyalıları, gəncləri və digər insanları arasında neqativ reaksiyalar, qəzəb yaradır.

**1988-ci il 19 fevral:**

Səhər, əsasən gənclərdən ibarət böyük bir qrup "Qarabağ bizimdir!", "Erməni şovinistlərinə ar olsun!", "Qarabağ bizim vətənimizdir!" və digər şüarlarla Bakıda, Azərbaycan Dövlət Universitetinin yataqxanalarının qarşısına toplaşır. Sonra izdiham Lenin meydanına (indiki Azadlıq – *red.*) tərəf hərəkət edir. Orada ayrı-ayrı şəxslər DQMV-dən çıxan ayrı-ayrı millətçilərin qarşısını almaq tələbi ilə çıxışlar edir. Bunun ardınca izdiham Azərbaycan KP MK binasının qarşısına gedir. Onların qarşısına MK katibi S.Qasımova, MK aparatının işçiləri çıxırlar. Toplananlar qarşısında yazıçılardan M.İbrahimov, S.Rüstəm, Anar və başqaları çıxış edirlər.

Bildirilir ki, DQMV-nin Ermənistana verilməsi məsələsinə baxılmayıb və baxılmayacaq. 5-7 dəqiqə müddətində izdiham dağılır.

Həmin mitinqdə çıxış edən yazıçı Anar bu sözləri söylədi: "Bu gün xalqımızın bayramıdır, milli birlik bayramı, özünüdərk etmə bayramı!.."

Saat 17:30-da Azərbaycan KP MK Bürosu üzvlərinin iştirakı ilə respublika partiya fəallarının müşavirəsi keçirilir və MK-nın Birinci katibi K.Bağırov çıxış edir. Bütün məsələlər üzrə vacib izahlar verilir və vacib vəzifələr müəyyənləşir. Belə müşavirələr bütün şəhər və rayon komitələrində keçirilir. Respublikanın bütün rəhbər heyəti ezamiyyətdən çağırılır. Axşam Azərbaycan Televiziyası ilə Azərbaycanın DQMV-nin Ermənistana birləşdirilməsi məsələsinə baxılmasının şayiə olması məlumatı verilir. İctimai asayişi qorumaq, xalqlar dostluğunu möhkəmlətmək çağırışı edilir.

**1988-ci il 20 fevral:**

Səhər, Azərbaycan KP MK-nın Birinci katibi K.Bağırov Stepanakertə gəlib, Vilayət Komitəsi Bürosunun iclasını keçirir və Milli dövlət quruculuğunun dəyişməzliyi məsələsi ilə bağlı Sov.İKP MK-nın prinsipial mövqeyini izah edir.

Günortaya yaxın, Azərbaycan KP MK-ya Ermənistan SSR-nin Qafan rayonundan bir dəstə qaçqın gəlib, azərbaycanlı əhalinin orada sıxışdırılması barədə şikayət etdilər. MK katibi R.Mehdiyev onları qəbul edib, evə qayıtmağı, məsələni orada həll etməyi təklif edir.

Həmin gün səhərdən Vilayət Partiya Komitəsinin qarşısında – Stepanakertin (Xankəndinin) mərkəzi meydanında çoxlu insanlar toplaşır. İz-

diham qışqırır: “Sessiya! Sessiya!”. Tələb edilir ki, Vilayət Sovetinin sessiyası keçirilsin və orada DQMV-nin Ermənistan SSR-nə verilməsinə baxılsın. Axşam, izdihamın təzyiqi ilə 87 deputat İcraiyyə Komitəsinin zalına toplaşıb, növbədənkənar sessiyanın keçirilməsini tələb edirlər.



СОВЕТУ СССР УТВЕРДИТЬ ЭТО РЕШЕНИЕ. ТОЛПА ВСТРЕТИЛА ЭТО СООБЩЕНИЕ ЛИКОВАНИЕМ И ВСКОРЕ ОЧИСТИЛА ПЛОЩАДЬ.

РЕШЕНИЕ

ВНЕОЧЕРЕДНОЙ СЕССИИ СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ НКАО XX СОЗЫВА О ХОДАТАЙСТВЕ ПЕРЕД ВЕРХОВНЫМИ СОВЕТАМИ АЗЕРБАЙДЖАНСКОЙ ССР И АРМЯНСКОЙ ССР О ПЕРЕДАЧЕ НКАО ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОСТАВ АРМЯНСКОЙ ССР

ЗАСЛУШАВ И ОБСУДИВ ВЫСТУПЛЕНИЯ ДЕПУТАТОВ ОБЛАСТНОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ НКАО О ХОДАТАЙСТВЕ ПЕРЕД ВЕРХОВНЫМИ СОВЕТАМИ АЗЕРБАЙДЖАНСКОЙ ССР И АРМЯНСКОЙ ССР О ПЕРЕДАЧЕ НКАО ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОСТАВ АРМЯНСКОЙ ССР, ВНЕОЧЕРЕДНАЯ СЕССИЯ НАГОРНО-КАРАБАХСКОГО ОБЛАСТНОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ РЕШИЛА:

ИДЯ НАВСТРЕЧУ ПОЖЕЛАНИЯМ ТРУДЯЩИХСЯ НКАО, ПРОСИТЬ ВЕРХОВНЫЙ СОВЕТ АЗЕРБАЙДЖАНСКОЙ ССР И ВЕРХОВНЫЙ СОВЕТ АРМЯНСКОЙ ССР ПРОЯВИТЬ ЧУВСТВО ГЛУБОКОГО ПОНИМАНИЯ ЧАЯНИЙ АРМЯНСКОГО НАСЕЛЕНИЯ НАГОРНОГО КАРАБАХА И РЕШИТЬ ВОПРОС О ПЕРЕДАЧЕ НКАО ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОСТАВ АРМЯНСКОЙ ССР, ОДНОВРЕМЕННО ХОДАТАЙСТВОВАТЬ ПЕРЕД ВЕРХОВНЫМ СОВЕТОМ СОЮЗА ССР О ПОЛОЖИТЕЛЬНОМ РЕШЕНИИ ВОПРОСА ПЕРЕДАЧИ НКАО ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОСТАВ АРМЯНСКОЙ ССР.

***Ermənilərin separatçı qərarı: “DQMV Ermənistan SSR-nin ayrılmaz tərkib hissəsidir!”***

Axşam, saat 20:00-da K. Bağırov və Sov. İKP MK-nın bölmə müdiri V.A.Kondratyev zala daxil olub, toplantı iştirakçılarına sessiyanın hüquqi əsasının və İcraiyyə Komitəsinin bu sessiyanın keçirilməsi ilə bağlı qərarının olmadığı, bu məsələnin SSRİ və Azərbaycan SSR Konstitusiyalarına görə sərhədlərin və Muxtar Vilayət statusunun dəyişməzliyi qaydalarına uyğun gəlmədiyi, bunun sessiyanın səlahiyyətinə daxil olmadığı söylənilir. Lakin deputatlar məsələni müzakirə etməyi qərara alırlar. Nəticədə Vilayət Sovetinin 150 deputatından 110 nəfəri gecə qanunsuz bir qərar qəbul etdilər: DQMV-nin Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə verilməsi ilə bağlı Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında məsələ qaldırılıb, bu qərarın SSRİ Ali Soveti tərəfindən təsdiq edilməsi xahişi edilsin”.

İzdiham bu qərarı alqışlarla qarşılayır və tezliklə meydanı boşaldır.

**1988-ci il 20 fevral:**

**Səhər tezdən, Vilayət Komitəsinin qarşısındakı meydanı xalq dövrəyə alıb qışqırmağa başladı: “Möhür!” Möhür!”.** Onlar bununla sessiyanın dünən qəbul etdiyi və Vilayət qəzetlərinin nəşr etdiyi qərarı qanuniləşdirmək istəyirdilər. İzdihamın üzərində Ermənistan SSR-nin bayrağı, M.S.Qorbaçovun portreti, “DQMV – Ermənistan SSR-nin ayrılmaz tərkib hissəsidir!”, “Qarabağ – yox, Artsax – hə”, “Milli siyasətdə yenidənqurmaya eşq olsun!” şüarları qaldırılmışdı. Xalqın belə toplaşmaları rayon mərkəzlərində də var idi.

Həmin gün, saat 12:00-da Ağdam rayon Partiya Komitəsinin qarşısındakı meydanda 10 minə qədər Ağdam və ətraf kəndlərin, rayonların sakini toplaşdı. Bir saatdan sonra qəzəbli izdiham etiraz şüarları ilə Stepanakertə tərəf hərəkət etdi. Onları saxlayıb mitinq gedən Ağdam meydanına qaytarmaq mümkün oldu.

Axşam, saat 21:00-da Dağlıq Qarabağ Muxtar Vilayətinin büro iclasında K.Bağırov Moskvadan yenicə alınmış Sov.İKP MK Siyasi Bürosunun "Dağlıq Qarabağda hadisələr haqqında" qərarını açıqladı. Həmin qərarda yazılırdı: "Sov. İKP MK Siyasi Bürosu Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətindəki hadisələr haqqında informasiyanı müzakirə edib, yaranmış vəziyyəti siyasi baxımdan ciddi qiymətləndirir. Bu regiondakı mövcud milli-ərazi quruluşuna istiqamətlənmiş fəaliyyətlər və tələblər Azərbaycan və Ermənistan SSR-nin zəhmətkeşlərinin maraqlarına uyğun gəlmir, millətlərarası münasibətlərə ziyan vurur. Əgər vacib tədbirlər görülməzsə, bu məsələ gözlənilməz və çətin həll edilən nəticələrə gətirib çıxarar".

Qərarda hər iki respublikanın rəhbərlərinə çatdırılırdı ki, Dağlıq Qarabağla əlaqədar sosial-iqtisadi xarakterli tədbirlərin hazırlanması tövsiyyə edilirdi. Sov.İKP MK rəhbərliyi Q.Razumovskini, P.Demiçevi və F.Bobkovu Moskvada bu işə təhkim edərək göndərirdi. Nəticə bu idi ki, sovet rəhbərliyi ermənilərin provokator xarakterli qərarını qəbul etmirdi.

Vilayət Partiya Komitəsinin Bürosu Sov.İKP MK Siyasi Bürosunun bu qərarı bəyəndiyini bildirdi.

**1988-ci il 21 fevral:**

Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Sov.İKP MK katibi Q.Razumovski, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini P.Demiçev, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini F. Bobkov, Sov.İKP MK və digər Mərkəzi orqanların işçiləri gəldilər.

Həmin gün gecə saat 22:00-da Respublika partiya fəallarının toplantısında iştirak edib, ilk görüləcək işləri müəyyənləşdirdilər.

**1988-ci il 22 fevral:**

Azərbaycan KP MK Siyasi Bürosu Sov.İKP MK-nın qərarına müvafiq "Dağlıq Qarabağda hadisələr haqqında" qərarını qəbul edib, yerlərdəki bütün partiya komitələrinə göndərdi.

**1988-ci il 22 fevral, gündüz, ilk şəhidlər:**

Ağdam və Əsgəran rayonları sərhədində, bu rayonların çoxlu sayda əhalisinin toplaşdığı yerdə, izdihamın içindən atılan güllə ilə iki nəfər Ağdam sakini öldürüldü: 16 yaşlı Quliyev Bəxtiyar Zahid oğlu (50-ci Peşə məktəbində oxuyan), 25 yaşlı Hacıyev Əli Kamal oğlu (Ağdam İnstrumental zavodunun fəhləsi). Ümumilikdə 19 nəfər zərər çəkdi.

Televiziya və radio ilə K. Bağırovun və P. Demiçevin respublika əhalisinə müraciəti verildi.



3

- 2 -

13 ФЕВРАЛЯ

В СТЕПАНАКЕРТЕ, НА ПЛОЩАДИ ПЕРЕД ОБКОМОМ ПАРТИИ, В 11.00 СОБРАЛОСЬ ДО ТЫСЯЧИ ЧЕЛОВЕК, В ОСНОВНОМ ПОДРОСТКИ. БЫЛИ РАЗВЕРНУТЫ САМОДЕЛЬНЫЕ ПЛАКАТЫ, РАЗДАВАЛИСЬ ВОЗГЛАСЫ С ТРЕБОВАНИЕМ О ПРИСОЕДИНЕНИИ НКАО К АРМЕНИИ. В ЭТОТ ЖЕ ДЕНЬ ОКОЛО 300 ЧЕЛОВЕК, ПРИШЕДШИХ НА ЦЕНТРАЛЬНУЮ ПЛОЩАДЬ В ГАДРУТЕ, ПУТЕМ УГРОЗ ВЫНУДИЛИ ПРЕДСЕДАТЕЛЯ РАЙИСПОЛКОМА ЗАВЕРИТЬ ИСПОЛКОМОВСКОЙ ПЕЧАТЬЮ ИХ ОБРАЩЕНИЕ В ИНСТАНЦИИ.

14 ФЕВРАЛЯ

НА БЮРО ЦК БЫЛО РАССМОТРЕНО ПОЛОЖЕНИЕ, СОЗДАВШЕЕСЯ В НАГОРНОМ КАРАБАХЕ, НАМЕЧЕНЫ ПЕРВООЧЕРЕДНЫЕ МЕРЫ. ВО ВСЕ РАЙОНЫ, ПРИЛЕГАЮЩИЕ К НКАО, ДЛЯ РАЗ'ЯСНИТЕЛЬНОЙ РАБОТЫ, НЕДОПУЩЕНИЯ НАРУШЕНИЯ ПОРЯДКА НАПРАВЛЕНЫ ОТВЕТСТВЕННЫЕ РАБОТНИКИ ЦК.

15-18 ФЕВРАЛЯ

ОБСТАНОВКА В НКАО СОХРАНЯЛАСЬ НАПРЯЖЕННОЙ. ПРИ ЯВНОМ ПОПУСТИТЕЛЬСТВЕ ПАРТИЙНЫХ КОМИТЕТОВ, СОВЕТСКИХ ОРГАНОВ, КОТОРЫЕ НЕ СМОГЛИ ПОВЛИЯТЬ НА ХОД СОБЫТИЙ, ПОД ДАВЛЕНИЕМ МНОГОЛЮДНОЙ ТОЛПЫ ВО ВСЕХ РАЙОНАХ, КРОМЕ ШУШИНСКОГО ПРОШЛИ СЕССИИ РАЙСОВЕТОВ, ПРИНЯВШИЕ НЕПРАВОМОЧНЫЕ РЕШЕНИЯ О ХОДАТАЙСТВЕ О ВЫХОДЕ НКАО ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР И ВКЛЮЧЕНИИ ЕЕ В СОСТАВ АРМЯНСКОЙ ССР.

В ОБЛАСТИ НАРАСТАЕТ ОБЕСПОКОЕННОСТЬ И ТРЕВОГА СРЕДИ АЗЕРБАЙДЖАНСКОЙ ЧАСТИ НАСЕЛЕНИЯ В СВЯЗИ С РАСПРОСТРАНЯЮЩИМИСЯ СЛУХАМИ О ЯКОБЫ ГОТОВЯЩЕЙСЯ ФИЗИЧЕСКОЙ РАСПРАВЕ АРМЯН НАД АЗЕРБАЙДЖАНЦАМИ. СЛУХИ АНАЛОГИЧНОГО ХАРАКТЕРА ПОЛУЧАЮТ РАСПРОСТРАНЕНИЕ СРЕДИ АРМЯНСКОЙ ЧАСТИ НАСЕЛЕНИЯ.

БУДИРОВАНИЕ ТАК НАЗЫВАЕМОГО ВОПРОСА ОБ НКАО ВЫЗЫВАЕТ НЕГАТИВНУЮ РЕАКЦИЮ И ВОЗМУЩЕНИЕ СРЕДИ АЗЕРБАЙДЖАНСКОЙ

***İlk erməni mitinqləri haqqında sənəd***

**1988-ci il 22 fevral, saat 17:00:**

Vilayətin partiya fəallarının toplantısı gecə saat 22:40-a qədər davam etdi. Toplantıda Q.Razumovski, P.Demiçev, K.Bağırov və digər MK bürosu üzvləri iştirak etdilər. Toplantı iştirakçılarına izah edildi ki, yaxın günlərdə DQMV-nin sosial-iqtisadi inkişafı ilə bağlı Respublika MK-nın və Nazirlər Kabinetinin xüsusi qərarı qəbul ediləcək.

Toplantı fəalları Sov.İKP MK-nın Dağlıq Qarabağla bağlı qərarını bəyənən qərar qəbul etdi və Vilayətin bütün kommunistlərini, zəhmətkeşlərini ona əməl etməyə çağırdı.

**1988-ci il 22 fevral:**

Fevralın 22-dən 23-nə keçən gecə izdiham meydandan çəkilmədi və Moskvadan gələn yoldaşların onların qarşısına çıxmalarını tələb etdi.

Saat 12:00-dan 3:30-a qədər P. Demiçev nümayişçilərin nümayəndələrini qəbul edib, onlarla ətraflı söhbət etdi. Rayon mərkəzlərində gərginlik qalırdı və səhərdən izdiham rayon partiya komitələrini mühasirəyə almış, partiya fəallarının toplantısına imkan verməmişdilər.

**1988-ci il 23 fevral:**

Saat 14:00-da meydana toplaşan 40-50 minlik insan Q.Razumovskiyə müraciət etdilər. O, Sov.İKP MK Siyasi Bürosunun Dağlıq Qarabağla əlaqədar qərarı haqqında məlumat verdi, bildirdi ki, Sov. İKP MK DQMV-də sosial-iqtisadi xarakterdə yığışıb qalan problemlərdən məlumatlıdır, onların yerinə yetirilməsi tapşırığını verib.

Saat 15:00-da Vilayət Partiya Komitəsi Bürosunun iclasında Q. Razumovskinin təklifi ilə işindəki nöqsanlara görə B.Gevorkov Birinci katib vəzifəsindən və Vilayət Partiya Komitəsi Bürosu üzvlüyündən azad edilir.

Vilayət Partiya Komitəsinin Birinci katibi vəzifəsinə, əvvəllər Vilayət İcraiyyə Komitəsinin müavini işləmiş H.A.Poqosyan təklif olunur. Büro iclasında P.Demiçev, K.Bağırov çıxış edirlər. Axşam moskvalılar çıxıb getdikdən sonar Vilayət Partiya Komitəsinin plenumunda Büronun qərarı təsdiq edildi. Plenumda K.Bağırov çıxış etdi.

Yeni Birinci katib seçilən Henrix Andreyeviç Poqosyan 1931-ci ildə Stepanakertdə doğulmuş ermənidir. 1961-ci ildən Sov.İKP üzvü olub. Ali təhsillidir–Moskvada Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrofikasiyası İnstitutunu bitirib. Hadrut rayonunda, Stepanakertdə müxtəlif vəzifələrdə çalışıb.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 206, v.4, 5,6,7.8,11,12,13..*

## XARİCİ RADİOSTANSİYALARIN DQMV-DA İLK ERMƏNİ MİTİNQLƏRİ VƏ ƏTRAF BÖLGƏLƏRDƏKİ HADİSƏLƏR HAQQINDA MƏLUMATI




***Qarabağ hadisələri ilə bağlı məxfi arxiv sənədləri***

**1988-ci ilin fevralın 12 və 13-də** Stepanakertdə Qarabağın Ermənistana verilməsi ilə bağlı nümayişlər keçirilir. Fevralın 18 və 20-dən başlayaraq Yerevanda da belə nümayişlərə başlanıldı. Əslində ermənilərin Qarabağla bağlı ilk nümayişləri 1987-ci ilin noyabrında başlamışdı.

Qeyd edək ki, Dağlıq Qarabağ hadisələri nə Mərkəzin – Moskvanın, nə də xarici ölkələrin mətbuatında, televiziya və radiosunda obyektiv işıqlandırılmırdı. İstər Moskvada, istərsə də xarici ölkələrdəki güclü erməni lobbisi baş verən hadisələri ermənilərin xeyrinə təbliğ edirdilər.

Xarici radioların məlumatlarından:

**18 fevral 1988-ci il. Kanada radiosu:** “Toronto Star” qəzetindəki məqalədən aydın olur ki, digər sovet respublikalarından fərqli olaraq Ermənistanda milli hisslər siyasi istiqamətə yönəlmir, onları ümummilli faciələrinin dərin hissləri birləşdirir”.

**20-22 fevral 1988-ci il. Kanada radiosu:** “Ermənistanda fevralın 18-dən başlayan böyük nümayişlər haqqında məlumat verilir. Nümayişçilər Yerevan yaxınlığında biokimyəvi zavodun tikilməsinə etiraz edib, eyni

zamanda Dağlıq Qarabağ Vilayətinin Ermənistana qaytarılmasını tələb edirdilər. Radiostansiyanın məlumatına görə, belə nümayişlər fevralın 12 və 13-də DQMV-nin paytaxtı Stepanakertdə (Xankəndində) keçirilmişdi.

**Fransa radiosu:** "Bildirilir ki, Ermənistanın "Milli Müqəddəratını Təyinetmə Uğrunda İttifaq" Yerevanda Qarabağ Vilayətinin Ermənistana qaytarılması tələbi ilə nümayiş keçirilmişdir. Bu nümayişlərin fevralın 12-də keçirilən sonuncu dalğasında minlərlə insanın vilayətin Ermənistan SSR-nin tərkibinə qaytarılması ilə bağlı imzaladığı petisiyanı Moskvaya, Sov.İKP-yə çatdırmaq üçün Qarabağ ağsaqqallarına müdafiə etmək çağırışı edilmişdir.

**24 fevral 1988-ci il."Amerikanın səsi":** Moskvadakı mənbələrə əsasən Ermənistanda artıq bir neçə gündür ki, Dağlıq Qarabağın Ermənistana verilməsinə etirazla bağlı nümayişlər davam edir.

Fevralın 13 və 14-də DQMV-də Vilayət Sovetinin fövqəladə sessiyası çağırılıb və Dağlıq Qarabağın Ermənistan SSR-nin tərkibinə qaytarılması haqqında qərar qəbul edilmişdir.

"Qlasnost" ("Aşkarlıq") Bülletenindən, "Referendum" jurnalından alınmış məlumatlara görə və erməni hüquq müdafiəçiləri dairələri adından mətbuata informasiya çatdıran keçmiş siyasi dustaq P.Ayrikyandan alınan məlumatlara görə, son 10 gündə Ermənistanda çox mürəkkəb vəziyyət yaranıb.

Erməni Milli Müqəddəratı Təyinetmə Birliyi fevralın 20-də A.Qromıkoya (o zaman SSRİ Ali Sovetinin sədri - *red.*) aşağıdakı məzmunda teleqram göndərmişdi: "Erməni əraziləri Moskvanın iradəsi ilə başqa respublikalara verilmişdir. Moskva indi bu səhvini düzəltməlidir".

Teleqramın mətni 10 min nüsxədə bütün Ermənistan ərazisinə yayılmışdır.

**"Bi-Bi-Si":** Fevralın 20-də Yerevanda Dağlıq Qarabağ Vilayətinin Ermənistana qaytarılması şüarları ilə nümayişlər keçirilib. Bu nümayişlər eyni tələblərlə 1987-ci ilin oktyabrında da keçirilmişdi.

**25 fevral 1988-ci il. "Azadlıq" (Azərbaycan dilində):** Yerevanda Dağlıq Qarabağ Vilayətinin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb Ermənistan SSR-nə birləşdirilməsi tələbi ilə həyəcanlar davam edir. DQMV hadisələri ilə bağlı Sov.İKP MK Siyasi Bürosunun nümayəndələri Azərbaycana göndərilib. Siyasi Büronun bu məsələ ilə bağlı qərarında göstərilir ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi mümkün ola bilməz.

Məlumat verilir ki, ermənilərlə azərbaycanlılar arasında baş verən toqquşmalara görə Dağlıq Qarabağa qoşun yeridilib.




***Xarici radiolar Qarabağ hadisələri haqqında (arxiv qovluğu)***

**“Qolos Ameriki” (Rus dilində):** “Artıq üç gündür ki, Yerevanda məqsədi Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən çıxarılması olan çoxminli etiraz nümayişləri davam edir.

Erməni dissidenti Paruir Ayrikyan bildirdi ki, etiraz dalğası Ermənistanın digər şəhərlərini də silkələyib. Gevorkov Vilayət Komitəsinin birinci katibliyindən azad edilib və onun yerinə Poqosyan təyin olunub: “Ayrikyan bildirir ki, çoxlu sayda ermənilər DQMV-dən qaçırlar. Onun sözlərinə görə, Milli Müqəddəratı Təyinetmə Assosiasiyası və eləcə də ermənilərin haqqını müdafiə tədbirlərində iştirak edən digər təşkilatlar dördüncü gün BMT-nin Baş Katibi Peres de Kullyara teleqram göndəriblər.

**“Amerikanın səsi” (Azərbaycan dilində):**

Sovet İttifaqının iki cənub respublikasının hökuməti əhalini sakitləşdirib, getdikcə mühafizəkar və milli xarakter alan erməni nümayişlərini dayandırmaq istəyirlər.

Yerevandan məlumat verilir ki, hər gün Ermənistanın paytaxtındakı mərkəzi meydana minlərlə insan toplaşır. DQMV-nin Ermənistana verilməsini tələb edir və öz yazılı tələblərini erməni hökumətinə təqdim etməyə çalışırlar.

**“Amerikanın səsi” (erməni dilində):** Dağlıq Qarabağ hadisələri ilə bağlı Sovet Ermənistanı ilə həmrəylik nümayişi keçiriblər. Parisdə yerləşən, erməni radiostansiyası olan “Radio Ayb” Ermənistanda baş verən hadisələrlə bağlı Yerevanla əlaqə saxlamışdır. Bu günlərdə fransız qəzetləri Ermənistandakı nümayişlər və tətillərlə bağlı səhifələrində məlumatlar yerləşdirir.

Fevralın 24-də Parisdəki erməni katalikosu Moskvada erməni nümayəndələrinin Qorbaçovla görüşü ilə eyni vaxta təsadüf edən mitinq təşkil etmişdir. Fevralın 25-də Fransada yaşayan 300 min erməni Parisdəki sovet səfirliyi qarşısında nümayiş keçirib, sovet səfirinə məktub təqdim etmişlər.



"Голос Америки" 19.

29 марта в Нагорно-Карабахской автономной области в Азербайджане продолжалась всеобщая забастовка.

Советские средства массовой информации в течение последних двух дней сообщают о невыходах на работу в Нагорном Карабахе, однако из диссидентских кругов в Москве сообщают, что всеобщая забастовка началась еще 24 марта, день спустя после того, как Президиум Верховного Совета СССР принял решение, касающееся Нагорно-Карабахской автономной области.

В Степанакерте пятый день продолжается забастовка, Бастуют все предприятия, не работает никто.

В Ереване 28 марта в 5 часов вечера у Совета Министров на площади Ленина была демонстрация. В ней участвовала примерно 1000 человек. Над толпой были плакаты: "Прекратите репрессии!" и "Мы еще верим в демократию!"

Би-Би-Си

Согласно московскому корреспонденту "Таймс", продолжающаяс[ся] забастовка в Нагорном Карабахе – еще один удар по попыткам справиться с кризисом в Армении и Азербайджане, чтобы не допустить его распространения в другие районы страны.

Немецкая волна

Московский корреспондент "Зюддойче цайтунг" сообщает:

"По сведениям московских диссидентов, лидер протестующих армян Мурадян находится под арестом.

Продолжающаяся забастовка в Карабахе вызывает тем большее удивление, что туда, по имеющимся сообщениям, переброшено 15 тыс.азербайджанских милиционеров.

30 марта 1988 года

"Голос Америки"

Как известно, лидерами армянских националистов был объяв[лен] мораторий на выступления в связи с обещанием кремлевского ру[ко]водства рассмотреть претензии армян. Президиум Верховного Сов[ета]

**"Bi-Bi-Si" (fars dilində):** Ermənistanda millətçi çıxışlar davam edir. Sovet hökuməti rəsmi olaraq təsdiq edir ki, ermənilər və azərbaycanlılar arasında toqquşmada ölənlər var. Qeyd edək ki, Ermənistan hakimiyyəti nümayişlərin dayandırılması üçün heç bir tədbir həyata keçirmir. Onlar yalnız deyirlər ki, nümayişlər antisovet xarakteri daşımır.

**"Türkiyənin səsi" (türk dilində):** Azərbaycan SSR-nin tərkibində olan Dağlıq Qarabağda azərbaycanlılarla ermənilər arasında baş verən toqquşmada iki azərbaycanlı həlak olmuş, 16 erməni yaralanıb. Dağlıq Qarabağdakı qanunsuzluqlar erməni əhalisi tərəfindən bu bölgənin Ermənistana birləşdirilməsi məqsədi ilə təşkil edilib. Ermənistanda qanunsuzluqlar davam edir. Bu mübahisəli məsələ ilə Sov. İKP MK məşğul olur.

**"Amerikanın səsi" (erməni dilində):** "Vaşinqton Post" qəzeti yazır ki, sovet partiya lideri, başda Silva Kaputikyan və Zori Balayan olmaqla sovet erməni təmsilçilərindən ibarət olan nümayəndə heyətini qəbul edib. Onlar Yerevanda çoxminlik nümayişlər haqqında Qorbaçova məlumat veriblər.

Qəzet "Ermənistan və onun qonşuları" başlıqlı illüstrasiyalı xəritəli məqalə çap etmişdir. Məqalənin müəllifi Kaliforniya Universitetinin professoru Riçard Ovanesyan faktlara əsaslanaraq sübut edib ki, Dağlıq Qarabağ 20-ci illərdə səhvən Azərbaycanın tərkibinə daxil edilib. O, qeyd edib ki, Dağlıq Qarabağın əhalisi Sovet hakimiyyətinə qarşı deyil, onlar yalnız Ermənistana birləşmək təklifi ilə çıxış edirlər. Onların bu çıxışı Qorbaçovun elan etdiyi aşkarlıq və demokratiyanın birbaşa davamıdır".

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 206,v.21,22,25.*

## SUMQAYIT HADİSƏLƏRİ
### *(1988-ci il)*

Hadisənin başlanmasına əsas səbəb Ermənistanın Qafan bölgəsində yaşayanların erməni təcavüzünə məruz qalması olub. **Fevralın 27-də Qafandan Sumqayıta gələnlərin ağır və təhqir olunmuş vəziyyəti** yerli əhalini gərginləşdirib. Məlum olub ki, ermənilər Qafanda azərbaycanlıları döyüb, təhqir edir, xüsusilə qadınlara qarşı daha amansız olublar**. Fevralın 28-də bu** hadisələr nəticəsində Sumqayıtda bərk toqquşma baş verib. Əsasən, gənclərdən ibarət Sumqayıt camaatı əvvəl şəhər partiya komitəsinin qarşısına toplaşıb. Birinci katib Cahangir Müslümzadə onları sakitləşdirmək üçün dəniz kənarına aparıb. Orada insanlar başa düşüblər ki, məqsəd onları qisasdan yayındırmaqdır. Bundan sonra əsasən gənclər şəhərə qayıdıb və ermənilər yaşayan evlərə daxil olaraq bir çox ermənini öldürüb, maşınlarını yandırıblar. Oradakı vəhşiliyin əvəzini çıxmağa çalışıblar. Həmin gün otuza qədər adam həbs edilib. Sonra şəhərə qoşun hissələri yeridilib, tanklar, zirehli transportyorlar daxil olub. Şəhərdə hərbi vəziyyət elan edilib.

Əslində, Azərbaycan – Ermənistan qarşıdurmasını daha da gərginləşdirmək məqsədi ilə, Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlıların yaşadıqları yerlərdən qovulmasından diqqəti yayındırmaq üçün ermənilər və onların separatçılığını dəstəkləyən müxtəlif qüvvələr Sumqayıtda bir faciə törətdilər. Nə üçün bu hadisə Sumqayıtda törədildi? Məlumdur ki, Sumqayıtda çoxlu sayda millətlərin nümayəndələri yaşayırdı və bu şəhər dərin sosial-iqtisadi problemlərə malik idi. Digər tərəfdən Sumqayıt hadisələrinin əsl təşkilatçılarının erməni mərkəzlərinin olmasına aid də mətbuatda və elmi ədəbiyyatda faktlar göstərilmişdir. Hadisədən iki gün əvvəl varlı erməni əhalisinin əmanət banklarından pullarını çıxararaq şəhəri tərk etmələri, hadisənin səhəri günü DQMV-də Sumqayıt faciəsi qurbanlarına abidə ucaldılması, hadisədən əvvəl Sumqayıta göndərilmiş operatorların şəhərə gətirilmiş təxribatçıların köməyi ilə çəkdikləri lentlərin tələsik Qərb ölkələrində nümayiş etdirilməsi, həbs olunanlar arasında əsl təşkilatçı erməni Qriqoryanın olması və s.

Təəssüf ki, həmin hadisələrin qarşısını alacaq real bir qüvvə də ölkədə hələ formalaşmamışdı.

1988-ci ildə baş verən Sumqayıt hadisələrinin mahiyyəti ilə bağlı Azərbaycan mətbuatında **akademik Ziya Bünyadovun "Niyə Sumqayıt?"** məqaləsi dərc edildi və o,bu yazıda baş vermiş hadisələrin əsl ma-

hiyyətini aşkara çıxarmağa çalışdı. Z.Bünyadovun sözlərinə görə: ***“Nə üçün Sumqayıt? Ona görə ki, daşnaklarda yenidən, ozü də neçənci dəfə, rəssam Vereşşaginin «Müharibənin apofeozu» əsərini «erməni kəllələrilə» müasir fotoqrafiyaya çevirmək istəyi vardı”.***

Ziya Bünyadov, eyni zamanda, üzə çıxarmışdı ki, Bakı və Sumqayıta erməni emissarlarının gəlməsi, fevral ayında ermənilərin banklardan əmanətlərini çıxarması bu hadisə ilə sıx bağlıdır.

---

***Qaynaq:***

*1.https://www.ziyabunyadov.com/ 2. M. Zülfüqarlı. İstiqlal tarixini yaradanlar (1972-1992-ci illər). Bakı, 2003.*

## SUMQAYIT HADİSƏLƏRİ XARİCİ MƏTBUATDA VƏ RADİOSTANSİYALARIN MƏLUMATLARINDA

Əslində, ermənilərin azərbaycanlılara qarşı başladığı ərazi iddialarının bir hissəsi olan Sumqayıt hadisələri də dünya ictimaiyyətinə obyektiv çatdırılmırdı. Bu da xüsusi ölkələrdəki erməni lobbisinin bu ölkələrin informasiya sisteminə güclü təsiri ilə bağlı idi.

**1-2 mart, 1988-ci il.“Amerikanın səsi” radiosu:** Sumqayıtda etnik zəmində (Azərbaycan SSR) baş verən qanunsuzluqdan sonra sovet hakimiyyəti fevralın 28-də komendant saatı tətbiq etdi.


Секретно
Экз.№
Зарубежная информация
О событиях в НКАО и Сумгаите
/февраль-апрель 1988 г./
На 75 листах.
Фонд № 1
Опись № 83
Дело № 206
№ 16
г.Баку, 1988 г.

*Xarici radiolar Sumqayıt hadisələri haqqında*

**Moskvadakı xarici informasiya:**Azərbaycandakı mənbələrə istinad edən Moskvadakı qərbi informasiya agentliklərinin məlumatına görə, Sumqayıta hər gün səhərdən qüvvəyə minəcək 11 saatlıq hərbi komendant saatını qorumaq üçün Sumqayıta zirehli maşınlar və qoşunlar göndərilib.

Sumqayıtdakı qanunsuzluqlar, əhalisinin 2/3-ni ermənilər təşkil edən Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində ikihəftəlik həyəcanlarla davam etmişdir.

"Bi-Bi-Si", "Alman dalğası" və "Kanada Radiosu" eyni məlumatları yayımlamışlar.

**Kanada radiosu:**"Sovet Respublikası olan Azərbaycanda qanunsuzluqlar davam edir. Bütün əlamətlərə görə onlar əsasən Sumqayıt şəhərində cəmləşib.

Belə məlumatlar da daxil olur ki, Sumqayıtdakı dağıntılar nəticəsində 2 nəfər öldürülmüş və yaralılar vardır.

**"Bi-Bi-Si":** "Erməni və Azərbaycan millətçiliyi arasında Kremlə hakim rolunda çıxış etmək lazım gələcək. O, eyni zamanda həmişə Sovet Ermənistanına böyük maraq göstərən, xaricdə yaşayan 2 milyon erməninin də əhvalını nəzərə almalıdır.Eyni zamanda o (yəni Kreml – *red.*) müsəlmanların da düşmənçiliyini qazanmamalı və diqqətə almalıdır ki, İranda yaşayan çoxsaylı azərbaycanlılar həmişə Sovet Azərbaycanına qarşı dost münasibətdə olublar".

**Kanada radiosu:**"Moskva mənbələrinə uyğun olaraq SSRİ yəqin ki, ermənilərə və onların Dağlıq Qarabağ Vilayətini Ermənistanın tərkibinə qaytarmaq tələbinə qarşı mövqeyini dəyişəcək. Ancaq Kremlin milli azlıqlarla bağlı problemi bununla qurtarmayacaq.

**"Amerikanın səsi" (Azərbaycan dilində):**

"Ermənilərin Azərbaycan SSR-nin tərkibinə daxil olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi tələbindən sonra baş verən hadisələr Amerika mətbuatında geniş səs-küyə səbəb olub.

"Nyu-York Tayms" qəzeti Sumqayıt hadisələrini işıqlandırarkən Sergey Qriqoryantsdan aldığı məlumatlara əsaslanır. Bu faktlar sübut edir ki, bazar günü fevralın 28-də azərbaycanlılarla ermənilər arasındakı toqquşmada 17 nəfər həlak olmuş, 70 nəfər yaralanmışdır. Azərbaycan SSR-nin Sumqayıt şəhəri Ermənistandan gələn məsuliyyətsiz adamların hərəkətləri nəticəsində, Azərbaycan əhalisinin kütləvi iğtişaşlarına səhnə oldu.

Sergey Qriqoryants məlumat verir ki, hazırda yenidən Azərbaycanda və Ermənistanda iğtişaşlar güclənib. Bakı-Yerevan qatarına basqın olub, eləcə də Yerevanda naməlum şəxslərin dağıdıcılıq hərəkətləri baş verib.

"Vaşinqton Post" qəzeti isə Sumqayıt hadisələri ilə bağlı məlumat verərək erməniləri tələblərinə və Yerevandakı nümayişə görə kəskin tənqid edir, qeyd edir ki, Sumqayıt hadisələri onların Yerevanda və Dağlıq Qarabağdakı məsuliyyətsiz hərəkətlərinin birbaşa davamıdır.

**"Amerikanın səsi" (rus dilində):**

Azərbaycan SSR-nin tərkibinə daxil olan, erməni əhalisi sayca çox olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi məsələsi hakimiyyətin yuxarı dairələrində baxılacaq. Hazırda Muxtar vilayət statusu olan bu ərazi XIX əsrdən Azərbaycanın tərkibinə daxildir.

1964, 1975, 1977 və 1987-ci illərdəki petisiyalarda, eləcə də bir qədər əvvəl keçirilən nümayişlərdəki tələblərdə qeyd olunub ki, Dağlıq Qarabağın əksər erməniləri Ermənistanın tərkibində olmağı arzulayırlar.

Dağlıq Qarabağın Ermənistana qaytarılması tələbləri ilə keçirilən nümayişlər antisovet və antirus deyildir. Ermənilərin çoxu ruslarda və Sovet İttifaqında özünün yeganə müdafiəsini görür. Əgər Moskva Dağlıq Qarabağın erməni əhalisinin tələblərini yerinə yetirməzsə, hər şey dəyişə bilər".

**4 mart, 1988-cu il: "Amerikanın səsi" (erməni dilində): "**...Sergey Qriqoryanın məlumatına görə, Yerevan ictimaiyyəti, xüsusən qadınlar, 8 martı Sumqayıtda öldürülən qardaş və bacılarına görə matəm günü kimi qeyd etməyi qərara alıblar.

...Siyasi Büro üzvlüyünə namizəd Demiçev Azərbaycan KP MK-nın birinci katibi Bağırovla Sumqayıtda vəziyyətin normallaşması üçün tədbirlər görürlər.

..."Vaşinqton Post" qeyd edir ki, Qarabağdakı hadisələrlə bağlı oraya hərbi bölmələr göndərilir və komendant saatı ləğv edilir.

...Erməni mühacir təşkilatlarının nümayəndələri bu günlərdə SSRİ-nin ABŞ-dakı səfiri Aleksandr Dubininlə görüşmüşlər və mühacirətdəki bütün ermənilərin DQMV-nin Ermənistana birləşdirilməsi tələbi olan müraciəti ona vermişlər".

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 206, v. 1, 2, 3, 4, 5, 6.*

## ERMƏNİLƏR DAĞLIQ QARABAĞ İDDİALARINDAN ƏL ÇƏKMİR. MOSKVADA ERMƏNİ MİTİNQİ

**Moskvada – Vozneseniya kilsəsinin yanındakı erməni qəbiristanlığında** 300-ə qədər ermənin iştirakı ilə mitinq keçirildi. Mitinqdə çıxış edən tarixçi Ayrapetyan narazılığını bildirib ki, aşkarlıq dövründə belə insanlar vacib hadisələr haqqında məlumatı şifahi olaraq başqalarından alır.

Həmin mitinqdə iştirak edən T.Qriqoryants (S.Qriqoryanın həyat yoldaşı – *red.*) demişdi: hazırda Yerevanda ictimaiyyətin bütün fəaliyyətini koordinasiya edən iki təşkilat komitəsi var: biri – rəsmi komitədir, sədri S.Kaputikyandır. İkincisi – ictimaiyyətin yaratdığıdır ki, sədri Qarabağdan olan 1957-ci il təvəllüdlü, iqtisadçı Muradyandır.

**1988-ci ilin martın 8-də** Moskvada yaşayan ermənilərə DQMV hadisələri ilə bağlı film göstərildi.

## MOSKVA CƏHDLƏR EDİR


Пролетарии всех стран, соединяйтесь!
Коммунистическая партия Советского Союза

ПРАВДА

Орган Центрального Комитета КПСС

Газета основана 5 мая 1912 года В. И. Лениным

№ 202 (25554) Среда, 20 июля 1988 года Цена 4 коп.

Сообщение ТАСС

Стартовал «Прогресс-37»

В соответствии с программой дальнейших работ научно-исследовательского комплекса «Мир» 19 июля 1988 года в 1 час 13 минут московского времени в Советском Союзе произведен запуск автоматического грузового корабля «Прогресс-37».

УРОЖАЙ-88

ВЫРАЩЕННОЕ — СОХРАНИТЬ!

Во время заседания.

Фото В. Кузьмина и В. Мусаэльяна (ТАСС).

ЗАСЕДАНИЕ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР

*"Pravda" qəzeti Qarabağ hadisələri haqqında 20 iyul 1988-ci il*

**Baş verən hadisələr** sovet rəhbərliyini narahat edirdi. 1988-ci ilin martın 9-da Qafqazdakı vəziyyəti öyrənmək üçün SSRİ rəhbərləri Moskvaya toplaşdı. Siyasi Büro Dağlıq Qarabağla bağlı problemi diqqətlə öyrənmək və öz təkliflərini Sov.İKP MK-ya və hökumətə təqdim etməyi MK katibliyinə tapşırdı.

Sovet dövlətinin başçısı M. Qorbaçov isə partiya rəhbərləri ilə Azərbaycan və Ermənistandakı vəziyyəti müzakirə etmişdi. O, bu müzakirədə hər iki ölkə rəhbərliyini iki xalq arasında dostluğu möhkəmlətməyə çağırmışdı.

Moskvanın atdığı adddımlar: **1)** 1989-cu ilin yanvarın 10-da Mokvada Sov.İKP MK-nın plenumu olmuş, burada da DQMV məsələsinə baxılmışdır. **2)** 1989-cu ilin yanvarın 12-də Moskvada Sov. İKP MK-nın Baş katibi M. S. Qorbaçov Azərbaycan və Ermənistan SSR-dən SSRİ Ali Sovetində təmsil olunan deputat qrupları ilə görüş keçirdi.

**Statistika:Hadisələr başlayandan 1988-ci ilin 18 iyuluna qədər 37 azərbaycanlı, 32 erməni, 4 hərbçi həlak olub.**

S.Kaputikyanın sədrlik etdiyi rəsmi komitənin iclasında hakimiyyət orqanlarına dağıntılar olmaması üçün Azərbaycanın erməni rayonlarına qoşunlar yerləşdirilməsi xahişi ilə müraciət qəbul edildi.

## ERMƏNİLƏR BEYNƏLXALQ İCTİMAİYYƏTİ ALDADIR

Ermənilər geniş imkanlarından istifadə edərək beynəlxalq ictimaiyyətə yalan məlumatlar yayırdılar. Onlar xüsusən tarixi faktları təhrif edirdilər. Belə fikirlər yayırdılar ki, Qarabağ nə zamansa qədim erməni çarlığına daxil olmuş və XI əsrdən başlayaraq bu vilayət erməni xalqının tarixində, ədəbiyyatında və mədəniyyətində böyük rol oynamışdır. Türk mənşəli söz olan Qarabağ Rusiya imperiyasına daxil olana qədər 500 il Azərbaycan xanlarının idarəçiliyində olub. Azərbaycanlıların Qarabağı Ermənistana

vermək istəməməsi başa düşüləndir və təbiidir. Əgər DQMV-ni Ermənistana versələr, onda bu regionun iqtisadi, siyasi və coğrafi birliyi pozulacaq.

ABŞ-da erməni dilində nəşr edilən **"Amares"** və **"Xayririk"** qəzetləri Erməni Qriqoryan kilsəsinin başçısı I Vazgenin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müraciətini çap edib yaymışdılar.

## ERMƏNİ DAŞNAKI, QARABAĞ FƏALI – İQOR MURADYAN (İLK QARABAĞ ÇAĞIRIŞLARI)

**"Nyu-York Tayms"** qəzetinin məlumatına görə, atası Dağlıq Qarabağdan olan, özü isə Bakıda doğulan 30 yaşlı gənc erməni iqtisadçısı **İqor Muradyan** daşnak qruplarından birinə daxil olaraq, SSRİ-də başlanan Yenidənqurma, demokratiya və aşkarlıq siyasətindən istifadə edərək DQMV-nin Azərbaycandan ayrılıb, onun Ermənistanla birləşməsi xahişi ilə M. Qorbaçova müraciət üçün əsas hazırladı. Bu qrup xüsusi qərargah yaradıb, bu çağırışla imza toplamağa başlayır. Sonra onun nümayəndələri Moskvaya getdilər. Qəzet müxbirləri ilə söhbətində Muradyan bildirmişdi ki, o, təsəvvür etməzdi ki, erməni xalqı bu problemi qəlbinə belə yaxın buraxır.

1986-cı ilin mayında Muradyanın başçılıq etdiyi daşnak qrupu fəallaşaraq öz çağırışları ilə DQMV əhalisi arasında 90 min (bu 120 minlik Dağlıq Qarabağ əhalisinin əksər əhalisidir) imza topladı.

1987-ci ilin noyabrında Muradyan və onun qrupundan olan əlavə 11 nəfər Moskvaya getdilər. Bu gediş bir nəticə vermədi.

1988-ci ilin fevralında onlar yenidən Moskvaya getdilər və indi onları xoş qarşıladılar. Yerevana qayıtdıqda, erməni jurnalistlərindən Qorbisyanın qeyd etdiyi kimi, onlar qələbəni bayram etdilər. Bu danışıq DQMV-nə qədər gedib çıxdı. Burada partiya və dövlət orqanları DQMV-nin Ermənistana birləşdirilməsi ilə bağlı əmrlər və qərarlar verməyə başladılar. 1988-ci ilin fevralında DQMV-də sessiya çağırıldı və DQMV-dən olan deputatlar qəbul edilən qərarı Moskvaya göndərdilər.

Fevralda Yerevanda Opera Teatrının qarşısında Kimya Kombinatının tikintisi əleyhinə mitinq keçirildi. Həmin mitinqdə də DQMV-nin Ermənistanla birləşdirilməsi vacibliyi səsləndi. Bir həftə sonra Yerevanda nümayişlər dalğası başladı.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 206, v. 8,9,29, 30.*

## ABŞ SENATORLARI ERMƏNİLƏRİ DƏSTƏKLƏYİR

ABŞ-da güclü erməni lobbisi vardı və onlar ABŞ senatorlarının da müəyyən hissəsini erməni maraqlarından çıxış etməyə cəlb etmişdilər.

Senator Bob Deyl DQMV hadisələri ilə bağlı M.Qorbaçova müraciət göndərmişdi. Müraciətdə bildirilirdi: "Sizin yürütdüyünüz siyasət erməni xalqının maraqlarını sıxışdırır. DQMV-də yaşayan ermənilər öz milli mədəniyyətlərini, tarixlərini qoruyub saxlamaq istəyir və qanun əsasında Azərbaycandan ayrılıb, Ermənistanın tərkibinə keçmək istəyir".

Digər senator Ley Foster isə martın 16-da Konqresdə çıxış edib bildirirdi ki, Amerika mətbuatı Ermənistanda gedən prosesləri geniş işıqlandırır.

1988-ci ilin 11 martında isə ABŞ-ın Miçiqan ştatından olan Karl Levid ABŞ-ın böyük torpaq sahibkarı Aleks Manukyanın, DQMV-də yaşayan ermənilərin Ermənistanla birləşmək tələbi ilə bağlı xahiş-məktubunu Baş katib M. Qorbaçova təqdim etmişdir.

1988-ci ilin 15 və 16 martında ABŞ konqresmenləri Paşayan və Toni Kullon DQMV-nin Ermənistana birləşdirilməsi xahişi ilə M.Qorbaçova müraciət ediblər.

## AKADEMİK A.SAXAROV ERMƏNİLƏRİ MÜDAFİƏ EDİR (26 MART, 1988-ci il)

**Akademik A. D. Saxarov "Sovetskiy Tsirk" ("Sovet Sirki") qəzetinin 1988-ci ildəki 18 fevral sayında (№8) xoşagəlməz mövqe bildirmişdi:** "Ermənilər DQMV-də milli zülm altında qalıblar, mən hesab edirəm ki, Azərbaycan xalqı bunda maraqlıdır ki, onlar zülmkar xalq olmasınlar" (v. 21).

(*Qeyd:* yəqin ki, akademik Saxarovun bu fikrə düşməsində onun oxuduqlarının yox, həyat yoldaşı, milliyyətcə erməni olan Yelena Əlixanyan Bonerin xüsusi rolu olmuşdu).

Tanınmış sovet akademiki Andrey Saxarov M.Qorbaçova məktub göndərib, əhalisinin əksəriyyətini ermənilər təşkil edən Dağlıq Qarabağ məsələsinə obyektiv baxmağa və DQMV sakinlərinə öz gələcək taleyini müəyyənləşdirmək imkanı verilməsi ilə bağlı xahiş etmişdir.

## SOVET DÖVLƏTİ TƏZYİQİ ARTIRIR. ERMƏNİ FƏALLARI HƏBS EDİLİR

Sovet dövləti baş verən hadisələri nəzarətdə saxlamaq üçün müəyyən addımlar atmalı oldu. **Əvvəl 1988-ci ilin martında "Pravda" qəzetində "Emosiya və ağıl" məqaləsi çap edildi.** Martın 24-də axşam Yerevandakı kütləvi çıxışların əsas fəallarından olan Paruir Ayrikyan həbs edildi. Ermənilərin "Qarabağ" Komitəsi buraxıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sərəncamı ilə ermənilərin "Krunk" Komitəsi də DQMV-də qanunsuzluqların təşkilatçısı olaraq ləğv edildi. Yerevana isə müxtəlif rayonlardan xüsusi hərbi hissələr gətirilməyə başlandı. Buna cavab olaraq "Qarabağ" Komitəsi xalqa müraciət edərək, 26 martda mitinqə çıxmamağı və etiraz əlaməti olaraq Yerevanı "Ölü şəhər" elan etməklə bağlı erməni xalqına müraciət etdi.

Erməni liderlərindən olan İ.Muradyan da tezliklə həbsə alındı (1957-ci il təvəllüdlü, iqtisad elmləri namizədi İ.Muradyan sonradan Ermənistan SSR Dövlət Plan Komitəsinin Planlaşdırma və İqtisadiyyat şöbəsinin böyük elmi işçisi oldu).

## QARABAĞ MƏSƏLƏSİNDƏ FƏAL TƏBLİĞAT APARAN ERMƏNİ QƏZETLƏRİ

Dünyanın aparıcı mətbuat orqanları ilə yanaşı, ayrıca erməni qəzetləri də ermənilərin mövqeyindən çıxış edir, onların Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə keçirdikləri mitinq və nümayişlərinə dəstək verirdi.

**Həmin qəzetlər: 1.** "Aspares" – ABŞ-ın Los-Ancelos şəhərində nəşr edilir. **2.** "Hop genk" – Los-Ancelos şəhərində nəşr edilir**. 3.** "Ayrikik" – Boston şəhərində nəşr edilir. **4**. "Paykar" – Boston şəhərində nəşr edilir. **5**. "Qorizont" – Kanadada nəşr edilir. **6.** "Armeniyar" – Argentinada nəşr edilir. **7.** "Qlasnost" jurnalı (bəzi mənbələrdə: bülleten) – Moskva (redaktoru: Sergey Qriqoryans). **8.** "Amares" – ABŞ-da nəşr edilir. **9.** "Hayririk" – ABŞ-da nəşr edilir.

## DAĞLIQ QARABAĞIN ERMƏNİSTANA BİRLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI ERMƏNİLƏRİN MİTİNQLƏR, NÜMAYİŞLƏR KEÇİRDİYİ ÖLKƏLƏR, ŞƏHƏRLƏR (1988-Cİ İL)

**1.** Kanada: Monreal, Toronto.**2.** Uruqvay.**3**. Montevideo ( buradakı SSRİ səfirliyinin qarşısında).**4**. ABŞ-da: San-Fransisko, Los-Ancelos, Nyu-York, Vaşinqton (hər üçündə 1988-ci ilin martın 13-də keçirilib).**5.** SSRİ – Moskva (8 mart, 1988-ci il).**6.** Fransa, Paris (24 fevral, 1988-ci il).**7.** Ermənistan, Yerevan, 20 fevral, 1988-ci il (*Qeyd:* DQMV-nin Ermənistana qaytarılması şüarı ilə bağlı ilk nümayiş 1987-ci ilin oktyabrında da Yerevanda keçirilmişdi).**8.** Azərbaycan, Stepanakert (Xankəndi), 12, 13 fevral, 1988-ci il – nümayiş.**9.** Ermənistan, Yerevan, 18 fevral, 1988-ci il.**10.** Ermənistan, Yerevan, 12 fevral, 1988-ci il.

**11.** Livan, Beyrut (30 mart, 1988-ci il, SSRİ səfirliyi qarşısında daşnak təşkilatlarının mitinqi).**12.** Avstraliya, Sidney (30 mart, 1988-ci il).**13.** Iİaliya, Milan, Venetsiya (mart, 1988-ci il).**14.** Fransa, Lion (mart, 1988-ci il).

**ERMƏNİ FƏALLARI:**

**1.** Rafael Papoyan – Yerevanda erməni hərəkatının rəhbərlərindən biri.**2**. Zori Balayan –**3.** Silva Kaputikyan –

## DAĞLIQ QARABAĞIN ERMƏNİSTANA BİRLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI NÜMAYİŞ VƏ MİTİNQLƏRDƏ ERMƏNİLƏRİN SƏSLƏNDİRDİKLƏRİ ŞÜARLAR:

**1.** “Qırğınları dayandırın!” **2.** “Biz hələ demokratiyaya inanırıq!” **3.** “Qarabağ ağlayır, Moskva isə susur!” **4.** “Moskva göz yaşlarına inanmır”.**5.** “Dağlıq Qarabağ – Ermənistana!” **6.** “Qarabağ – yox, Artsax – hə”.**7.** “Milli siyasətdə Yenidənqurmaya eşq olsun!” **8.** “DQMV – Ermənistan SSR-nin tərkib hissəsidir”

## DAĞLIQ QARABAĞIN ERMƏNİSTANA BİRLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI FƏALLIQ GÖSTƏRƏN ERMƏNİ TƏŞKİLATLARI

1. **Qarabağ Komitəsi** – fəallar: Qalustyan. Komitənin sədri əslən Dağlıq Qarabağdan olan, Bakıda doğulan, iqtisadçı, 30 yaşlı İqor Muradyan olub.

2. **Milli Öz Müqəddəratını Təyin Assosiasiyası** – sədr: Paruir Ayrikyan

3**. SSRİ-də Yaşayan Ermənilərin Hüquqlarını Müdafiə Komitəsi** – sədr: Paruir Ayrikyan.

**Əlavə:** 1988-ci ilin martın 8-də Moskvada erməni qəbiristanlığında keçirilən mitinqdə Tamara Qriqoryans (Sergey Qriqoryansın həyat yoldaşı) belə məlumat da vermişdi: "Hazırda Yerevanda ictimaiyyətin bütün fəaliyyətini koordinasiya edən iki təşkilat komitəsi var – biri rəsmi komitədir ki, sədri S.Kaputikyandır. İkincisi, ictimaiyyətin formalaşdırdığı komitədir ki, sədri Qarabağdan olan mühəndis Muradyandır."

4**. Kilikiya təşkilatı** – ABŞ-da, Nyu-Yorkda fəaliyyət göstərib.5. **Ermənistanın Öz Müqəddəratını Təyinetmə İttifaqı,** Ermənistan, Yerevan.

6. **İnqilabi Daşnak Partiyası** – Beyrutda, Livanda.7**. Milli -azadlıq Partiyası** – Beyrut, Livan.8**. Sosial Demokrat Partiyası** – Beyrut, Livan.9. **Krunk Təşkilatı** – Stepanakertdə (Xankəndində) yaradılıb. 55 üzvündən 40-ı Sov.İKP üzvü olub. Sənaye müəssisələrinin direktoru, partiya işçiləri, mədəniyyət xadimləri bu təşkilatın üzvü olub. 1988-ci ilin əvvəllərində Stepanakert şəhər İcraiyyə Komitəsinin qərarı ilə təşkilatın fəaliyyəti leqallaşıb.

## KRUNK TƏŞKİLATI

Ermənistan hökumətinin və Azərbaycan SSR DQMV rəhbərliyinin köməyi ilə 1987-ci ildə Stepanakertdə (Xankəndi) gizli erməni təşkilatı olan **Krunk** yaradıldı (təşkilatın adı rus dilində olan sözlərin baş hərflərindən götürülmüşdü – **Komitet Revolyutsionnoqo Upravleniya Naqornoqo Karabaxa (KRUNK) –** Dağlıq Qarabağın İnqilabi İdarəçilik Komitəsi). Bəzi erməni mənbələri isə "Krunk" sözünün – ermənicədən olan "Durnalar" mənasında, yəni, kədər, ayrılıq rəmzi olaraq adlandırıldığı yazılır.

Azərbaycan Milli Məclisinin keçmiş deputatı, **DTK polkovniki Aydın Abdullayev yazır ki,** Azərbaycan DTK-sının Stepanakert bölməsi Yerevandan gələn emissarların və Krunkun, eləcə də DQMV-nin erməni rayonlarının partiya rəhbərliyinin fəallığı haqqında 1987-ci ildə daimi olaraq Azərbaycan DTK-sını məlumatlandırırdı. Azərbaycan və SSRİ DTK-ları da müvafiq olaraq Sov. İKP MK-ya bu haqda məruzə edirdilər. Oradan isə Azərbaycan DTK-sına "qarışmayın" tapşırığı verilirdi. Azərbaycan KP MK-ya Moskvadan verilən tapşırıq belə olurdu: **"Heç bir tədbir görülməsin!".**

Tez bir zamanda Krunk fəalları Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılması üçün cinayətlər və teraktlar törətməyə başladılar. Məhz Krunkun təşkilatçılığı ilə Sumqayıt şəhərində erməni dağıntıları başladı. Bu hadisədən əvvəl Krunkçular Sumqayıtın erməni əhalisindən pul yığıb, imkanlı adamlara isə şəhəri tərk etməyi məsləhət bilmişdilər. Sumqayıtdakı dağıntılara isə erməni millətindən olan cinayətkar Eduard Qriqoryan başçılıq etmiş, şəxsən bir neçə ermənini öldürmüş, zorlamışdı.

DQMV-nin ilk separatçı liderlərindən biri, Elektrotexnika zavodunun direktoru **Albert Seyranyan** olmuşdur. Hələ 1970-ci illərdə o, "Miatsuma" (Ermənistan və DQMV-nin birləşdirilməsi) məsələsini qaldırmışdı. Onun ölümündən sonar Krunkun lideri, mərmər-daş karxanasının **direktoru Arkadiy Manuçarov** oldu.

**1988-ci ilin fevralın 12-dən isə Stepanakertdə ilk mitinqlər başladı.** Eyni zamanda Stepanakertdə "Paralelnolesnaya" və "Məlik Paşayev" küçələrində birgə yaşayan azərbaycanlılara təzyiqlər edildi. 1988-ci ilin martın 1-də Stepanakertdə A.Manuçarov (sonradan – Stepanakert Tikinti Malları Kombinatının direktoru) dəstələr təşkil edib, şəhərin küçələrində gözətçilik edirdilər. Bu "könüllü dəstələr"in başçısı Şaumyan adına Stepanakert stadionunun direktoru (sonradan Qarabağ separatçıları özünümüdafiə könüllü dəstələrinin ilk qərargah rəisi olub) Razmik Petrosyan idi. Krunkun "ideoloji bölmə" komitəsinə Stepanakert İpəktikmə fabrikinin partiya katibi Robert Koçaryan rəhbərlik edirdi (o, sonradan Ermənistanın prezidenti oldu).

**1988-ci ilin 23 martında** Stepanakertdə davamlı tətillər başladıqda və DQMV-dəki həyatı iflic vəziyyətinə saldıqda martın 24-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Krunkun və onun rəhbər orqanlarının buraxılması haqqında qərar qəbul etdi.

**1988-ci ilin noyabrın 28-də** A.Manuçarov SSRİ Prokurorluğu tərəfindən böyük məbləğdə dövlət əmlakını dağıtmaqda günahlandırılaraq 14

nəfərlə birgə həbs edilib, Şuşa həbsxanasına salındı. Onun həbsdən azad edilməsi üçün SSRİ prokuroru A.Suxarev, Sov.İKP MK-nın Büro üzvü A. Yakovlev cəhdlər göstərdilər. Moskvanın yardımı sayəsində hərbi vertolyotla onu prokuror sanksiyası olmadan Şuşa həbsxanasından "qaçırdılar". Bir qədər də Moskvada Lefortovo həbsxanasında saxlanıldıqdan sonra A. Manuçarov həbs müddətini (1,5 il) başa vurub Ermənistana getdi. Burada onu Respublika Ali Sovetinin deputatı seçmişdilər (həbsdə olarkən 1989-cu il 27 avqust və 20 may 1990-cı il).

Separatçı İqor Muradyan isə Britaniya jurnalisti Tom de Vaalaya bildirirdi ki, 1986-cı ilin yayından daşnakların köməyi ilə bizə xaricdən silahlar alıb, DQMV ərazisinə gətirirdilər. Ermənistana, oradan isə DQMV-nə Livandan professional terrorçular da gəlməyə başladı.

Ermənistanın Daxili İşlər Naziri L. Qalstyanın 11 iyul 1990-cı ildə verdiyi rəsmi məlumata görə, həmin dövrdə **Ermənistanda qeyri-rəsmi silahlı dəstələr** mövcud idi: 1) **Erməni Milli Ordusu;** 2) **Respublika Partiyasının Müstəqil Ordusu,** 3) **Milli İttifaq Hərəkatı;** 4) **David Sasunlu;** 5) **Qisasçılar;** 6) **Ay Dat** (ermənicədən tərcüməsi – Erməni məhkəməsi və digər mobil silahlı qruplaşmalar.

Bu dəstələrin ümumi sayı 10 minə yaxın idi və hər bir dəstənin öz geyim forması, rabitə əlaqəsi, nəqliyyatı, Yerevanda qərargahı var idi. Onların fəaliyyətinin koordinasiya edilməsi üçün Ermənistan SSR rəhbərliyinin iştirakı ilə "Hərbi Şura" yaradılmışdı. Bu quldur dəstələrinin fəaliyyəti nəticəsində yüzlərlə günahsız Azərbaycan vətəndaşı həlak oldu.

1991-ci ilin noyabrın 20-də erməni terrorçularının atdıqları yandırıcı raketlə Xocavənd rayonunun (ermənicə - Martuni rayonu) Qarakənd kəndi yaxınlığında Azərbaycana məxsus "Mi-8" hökumət vertolyotu vuruldu. Nəticədə 22 nəfər həlak oldu. Onların arasında Azərbaycanın görkəmli dövlət və hökumət xadimləri, Rusiyadan və Qazaxıstandan olan müşahidəçilər də var idi. Onlar Qarabağ erməniləri ilə Qarabağ konfliktinin sülh yolu ilə həll edilməsi üçün görüşə gedirdilər.

Azərbaycan Hava Qüvvələrinin polkovniki Məmməd Qədirovun məlumatına görə, hadisə beynəlxalq erməni terrorçusu Abo Monte Melkonyan tərəfindən törədilib.

---

***Qaynaq:***

*Vikipediya – "Karabaxskoye dvijeniye".*

## ERMƏNİLƏRIN QARABAĞ KOMİTƏSİ

Yerevanda tez bir zamanda (1988-ci ildə) DQMV-nin erməni əhalisinin müdafiəsi ilə bağlı hərəkat başladı. **Yerevanda Qarabağın birləşdirilməsi üçün Təşkilat Komitəsi** yaradıldı. Qarabağ Komitəsi ictimai firkin qeyri-rəsmi ifadəsinə çevrildi və Kommunist Partiyasını kölgədə qoydu.

**1988-ci ilin martında "Pravda" qəzetində** "Hiss və ağıl" ("Emotsiya İ razum") adlı məqalə çap olundu və bu yazıda Ermənistanda və Azərbaycandakı hadisələr, insanların hisslərini alovlandıran məsuliyyətsiz ekstremistlərin fəaliyyətinin nəticəsi olaraq qəbul edildi. Martın 23-də isə məhz bu məqalə əleyhinə Stepanakertdə aprelin 5-nə qədər davam edən çoxgünlük tətillər başladı. **24 martda isə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Krunk təşkilatı buraxıldı.**

1988-ci ilin mayında Qarabağ Komitəsinin tərkibində radikal dəyişiklik edildi. Təşkilatın tərkibindən Qarabağ ermənilərinin iki təmsilçisi olan komitənin keçmiş liderləri – İqor Muradyan və Zori Balayan çıxarıldı. **Yenilənmiş Qarabağ Komitəsi** əsasən tanınmış elm xadimlərindən ibarət olan Yerevan ziyalılarından formalaşdı. Tom de Vaal "Qara bağ" kitabında bu haqda yazırdı: "**Onların məxsus olduğu nəsil 1965-1967-ci illərdə Yerevan millətçilərinin keçirdikləri nümayişlərdə formalaşmışdı. Onların bu çıxışlarının nəticəsi olaraq, şəhərdə 1915-ci il soyqırımı qurbanlarının xatirəsinə "Əbədi alov" memorialı açıldı. Aprelin 24-də isə Ermənistan "Soyqırımı günü" elan edildi. Onlar "Erməni mühakiməsi" və "Ay Data" ideyasının daşıyıcıları idilər: yəni bütün dünya ermənilərinin (Beyrutdan – Los-Ancelosa qədər) ümumi millətçilik məqsədləri ətrafında birləşdirilməsi" (1).**

Bu Komitə həm də Ermənistanın Dağlıq Qarabağla birləşdirilməsi uğrunda Erməni Ümummilli Hərəkatına başçılıq etmişdir. Qeyd edək ki, bəzi hallarda Qarabağ Komitəsinə qarşı SSRİ Prokurorluğu tərəfindən qadağalar qoyulmuş, həbslər də olmuşdu.

1990-cı ilin avqustunda Erməni Ümummilli Hərəkatı Ermənistan Ali Sovetinə seçkilərdə qalib gəldi və Qarabağ Komitəsinin çoxlu sayda üzvləri nazir və dövlət xadimi oldular.

**Levon Ter- Petrosyan** (Suriya Kommunist Partiyasının əsasını qoyanlardan birinin oğlu idi, qədim semit dili mütəxəssisi olmaqla Komitənin əsas strateqi idi). O, Tom de Vaala müsahibəsində demişdi: Birinci Qarabağ Komitəsinin üzvləri – İqor Muradyan, Zori Balayan, Silva Kaputikyan və başqaları ancaq Qarabağ haqqında düşünürdülər. Onlar üçün Ermənistanın müstəqilliyi və demokratiyası məsələsi yox idi. Bu da parçalanmaya səbəb oldu. Onlar hiss edəndə ki, biz sovet sistemi üçün təhlükə

yaradırıq, onda onlar geri çəkildilər. Və təbii yeniləşmə baş verdi. Onlar düşünürdülər ki, Qarabağ məsələsi yalnız sovet sisteminin sərhədləri çərçivəsində həll edilə bilər. Biz isə o fikrə gəldik ki, Qarabağ məsələsinin həlli bu sistemin mövcudluğu reallığında mümkün olmayacaq, əksinə, Qarabağ probleminin həlli üçün sistemi dəyişmək lazımdır.

**QARABAĞ KOMİTƏSİNİN ÜZVLƏRİ:**

1**. Akopyan Aleksan Akopoviç** (1955-ci il təvəllüdlü), tarix elmləri namizədi, Ermənistan SSR Şərqşünaslıq İnstitutunun böyük elmi əməkdaşı.

2. **Araksyan Babken Qurqenoviç** (1944-cü il təvəllüdlü) fizika-riyaziyyat elmləri namizədi, dosent, Dövlət Universitetində tətbiqi riyaziyyat kafedrasının müdiri.

3. **Vardanyan David Manukoviç** (1950-ci il təvəllüdlü), fizika-riyaziyyat elmləri namizədi, Dövlət Universiteti Bərk cisimlər fizikası kafedrasının elmi əməkdaşı.

4. **Qalstyan Ambarsum Paylakoviç** (1950-ci il təvəllüdlü), tarix elmləri namizədi, Yerevandakı "Servis" kooperativinin elmi məsləhətçisi.5. **Gevorkyan Samvel Vladimiroviç** (1949-cu il təvəllüdlü), SSRI Jurnalistlər İttifaqının üzvü, Ermənistan Dövlət Teleradio Komitəsinin şöbə müdiri.6. **Kazaryan Rafael Avetisoviç** (1924-cü il), texnika elmləri doktoru, Ermənistan SSR Elmlər Akademiyası yanında kvant elektronikası şöbəsinin müdiri, müharibə veteranı.7. **Kazaryan Samson Sergeyeviç** (1953-cü il təvəllüdlü), 183 saylı məktəbin müəllimi, "Avanqard" qəetinin ştatdankənar əməkdaşı.8. **Manukyan Vazgen Mikaeloviç** (1946-cı il təvəllüdlü), fizika-riyaziyyat elmləri namizədi, Dövlət Universiteti rəqəmli təhlil kafedrasının dosenti.9. **Manuçaryan Aşot Qarnikoviç** (1954-cü il təvəllüdlü), 183 saylı orta məktəbin tədris şöbəsinin müdiri, Ermənistan SSR Ali Sovetinin deputatı.10. **Siradekyan Vanik Sumbatoviç** (1946-cı il təvəllüdlü), yazıçı, SSRİ Yazıçılar İttifaqının üzvü.11. **Ter-Petrosyan Levon Akopoviç** (1945-ci il təvəllüdlü), biologiya elmləri doktoru, Ermənistan SSR Nazirlər Soveti yanında Qədim Əlyazmalar İnstitutunun (Matenadaran) böyük elmi əməkdaşı.

---

***Qaynaq:***

*1. Karabaxskoye dvijeniya – Vikipediya.2. Tom de Vaal. Gyornıy sad. Qlava 1. Fevral 1988 qoda.*

*3. Tom de Vaal. Gyornıy sad. Qlava 2. Fevral 1988 qoda. Azerbaydjan. Qlava 4. 1988-19189. Krizis v Armenii.4. Sultanov G. Posledniy udar imperii.*

## ŞUŞA – TOPXANA MEŞƏSİ



12 НОЈАБР 1988-чи ИЛ.

«Коммунист» №263

Һәјәчанлы сәтирләр

# ТОПХАНАНЫН ҺАРАЈЫ

Топхана мешәсини гырырлар! Доғрусу, көзүмүзлә көрә-көрә бу һадисәјә инанмағымыз кәлмир. Она көрә јох ки, еколокијанын өлүм-дирим проблеминә чеврилдији бир вахтда мешәни гырмаг икигат чинајәтдир. Бизи гәзәбләндирән будур ки, Топхана мешәси тәкчә шушалылар, гарабағлылар үчүн дејил, һәм дә бүтүн Загафгазија халгларындан өтрү мүгәддәс, тарихи абидәдир. Ону да дејәк ки, һәм Шуша галасынын, һәм дә онун зүмрүд чәтири олан Топхананын ады јаделли ишғалчылара гаршы биркә мүбаризә тарихи илә бағлыдыр. Мешә дар ајагда һәм халгларымыза сығнаг олмуш, мејвәләри илә әһалинин дадына чатмышдыр. Топхананын тарихи вә еколожи әһәмијјәти барәдә данышмагла гуртаран дејил. Гарабағда јашајан азәрбајчанлылар, ермәниләр көзәл билирләр ки, Топхана мешәси надир ағачларын, дәрман биткиләринин, ән нәһајәт, ше'рләрдә, маһныларда вәсф олунан, Јер үзүндә јалныз бурада битән әфсанәви Харыбүлбүл чичәјинин јеканә мәсканидир. Биз һәлә ону демирик ки, Топхана мешәсинин јаратдығы саф иглим Үмумиттифаг курорту олан Шушанын, еләчә дә бурада истираһәт едән хәстәләрин надир мәлһәмидир. Тәбиәтә әл галдыранлар билмәлидирләр ки, онлар тәкчә ағача әл галдырмыр, һәм дә Совет Иттифагынын һәр јериндән кәлән гонагларын сағламлығына гәсд едирләр. Ачыначаглы бурасыдыр ки, бу илин ијун ајындан шәфа мәнбәјинин мәһвинә јөнәлән инсафсыз чәһдләрә ара верилмир. Республика Тәбиәти Мүһафизә Комитәсинин ики дәфә чидди хәбәрдарлығына, һәтта вилајәт прокуроруна көндәрилән сәнәдләрә бахмајараг, Топхана мешәсинин амансызчасына гырылмасы дајандырылмыр. Нечә һектар саһә нәһәнк булдозерләрин чәнкинә верилиб. Ағачлар көкүндән чыхарылыр, јерләри һамарланыр. Баш вермиш бу чинајәтә сәбәб нәдир? Мешәни нәјин наминә мәһв едирләр? Чыдыр дүзүнүн гәншәриндә нә мәгсәдлә үрәк буландыран мәнзәрә јарадырлар?

Әскәран рајон рәһбәрләринин изаһы беләдир: «Бурада Ермәнистан ССР-ин алүминиум заводларындан бири сех вә пансионат тикәчәкдир».

Белә ағласығмаз ишин республикамызын башчы үзәриндән көрүлмәси ганунла бир араја сығмыр. Икинчиси, әкәр Енкелс адына колхоз үчүн сех вә пансионат тикмәк (?!) лазымдырса, башга мүнасиб јер тапмаг олмаздымы?

Прокурорлуғун мөвгеји дә тәәччүб доғурур. Азәрбајчан ССР Тәбиәти Мүһафизә Комитәсинин тәләбләриндән сонра прокурорлуг куја ишдә чинајәт тәркиби тапмамышдыр. Һаглы олараг сорушуруг: тапмамышдыр, јохса тапмаг истәмәмишдир?

Ичтимаијјәтин һаглы е'тиразларына бахмајараг, сон күнләр Топхана мешәсинин мәһви даһа да кенишләнмишдир. Булдозерләр чәмән гатына, надир чичәкләрин мәсканинә, торпаға, хүсусән курорт микроиглиминә зәрбә вурур. Ачығыны дејәк ки, бу тәкчә тәбиәтә гаршы барбарлыг дејил, ејни заманда халгларымызын тарихи кечмишинә, зәвгүнә, руһуна гаршы гәсддир.

Кәләчәк нәсилләр буну һеч кәсә бағышламаз!

**Вагиф ӘМРАҺОВ — Шушадакы 92 нөмрәли тикинти идарәсинин ишчиси, Азәрбајчан ССР Али Советинин депутаты, Ашхен ГРИГОРЈАН — механикләшдирилмиш чөрәкхананын илк партија тәшкилаты катиби, Аршавир ДАНИЕЛЈАН — шәһәр мәнзил истисмары идарәсинин чилингәри, Пелакеја ТРОЈАНОВА, Лјубов ПОПОВА, Раиса РАТУШНАЈА — «Шуша» ушаг санаторијасынын ишчиләри, Илһами ЧӘФӘРОВ, Намиг БАБАЈЕВ — филолокија елмләри намизәдләри, Хәлил БАБАЈЕВ — әмәк ветераны, Әли МАҺМУД — «Шуша» гәзетинин редактор муавини, Фирудин РӘСУЛОВ — «Коммунист»ин хүсуси мүхбири.**

*Редаксијадан:*

**Гәзет чапа имзаланаркән алдығымыз мө'тәбәр мә'лумата көрә, Ермәнистан һөкумәти рәһбәрлијинин көстәриши илә Назирләр Советинин сәдр муавини вә јухарыда ады чәкилән заводун директору Топхана тикинтисини дајандырмагла бағлы мәсәләни һәлл етмәкдән өтрү бу күн Степанакертә кәләчәкләр.**

***"Kommunist" qəzetində "Topxana harayı" məqaləsi, 12 noyabr 1988***

1988-ci ilin noyabrında Bakıda gərginlik xeyli dərəcədə artmışdı. Buna səbəb Əsgəran Rayon İcraiyyə Komitəsinin **28 oktyabr 1988-ci ildə Şuşanın Topxana sahəsində Ermənistanın Knaker alüminium zavodunun fəhlələri** üçün pansionat və həmin zavodun məişət əşyalarının istehsalı sexinin filialı üçün tikinti sahəsinin təmizlənməsi qərarı olmuşdu. Ermənistan Respublikasındakı alüminium zavodu üçün Azərbaycanın ən gözəl meşəsini qırıb, yerində qab-qaşıq istehsalı sexinin tikilməsi xalqımız üçün bir təhqir idi.

## SSRİ RƏHBƏRLİYİ DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN XÜSUSİ İDARƏ KOMİTƏSİNİ YARADIR

**1989-cu ildə** Respublikada və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda vəziyyət olduqca gərginləşdi. Bu vəziyyətin qarşısını almaq üçün SSRİ rəhbərliyi **A.Volskinin başçılığı altında DQMV-nin "Xüsusi İdarə Komitəsi"ni yaratdı**. Komitənin yaradılması rəsmi olaraq respublika orqanlarını Muxtar Vilayəti idarəçilikdən uzaqlaşdırdı. Dağlıq Qarabağ ərazisindəki müəssisələr Rusiyanın müxtəlif şəhərlərindəki zavod və fabriklərlə birbaşa əlaqələr qurdu. Bu açıq şəkildə Dağlıq Qarabağın Azərbaycanın idarəçiliyindən uzaqlaşdırılması demək idi. Nəticədə DQMV ilə bütün iqtisadi, siyasi və mədəni əlaqələr kəsildi. Ermənistandan bu əraziyə

silahlı quldurlar daxil olub, yerli azərbaycanlı əhalini sıxışdırmağa başladı. Bunun nəticəsi idi ki, iyulun 29 və 5, 12 avqustda "Azadlıq" meydanında keçirilən mitinqlərdə AXC, SSRİ Ali Sovetinin növbədənkənar sessiyasının çağırılmasını və orada DQMV-nin "Xüsusi İdarə Komitəsi"nin ləğvini tələb etmişdi.

## SSRİ XALQ DEPUTATI İGİTYAN AZƏRBAYCAN XALQINI TƏHQİR EDİR

SSRİ Xalq Deputatlarının birinci qurultayında rəssam İgityan Azərbaycan xalqını faşistlərlə eyniləşdirərək təhqir etmişdi. Bununla əlaqədar Moskvadan T. Bəkirov adlı bir mühəndis Azərbaycan SSR Rəssamlar İttifaqına açıq məktub göndərib, İgityanın Xalq deputatları sıralarından geri çağırılması üçün SSRİ Rəssamlar İttifaqı qarşısında məsələ qaldırılmasını tələb edib.

Açıq məktubda yazılıb: **"1.**Ölkənin Ali Orqanında onları təmsil edən bir şəxsin xalqımızı faşistlə eyniləşdirməsinə onlar necə dözürlər? **2.** Əgər SSRİ Rəssamlar İttifaqının plenumunda İgityanın məsələsinə baxılmazsa, onlar SSRİ Rəssamlar İttifaqının tərkibindən çıxmaq haqqında düşünmürlərmi?"

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, N2. 30 dekabr, 1989-cu il.*

## ERMƏNİLƏRİN SAXTA TƏBLİĞATINA QARŞI AZƏRBAYCANDA FƏALİYYƏTİN BAŞLANMASI

### ZORİ BALAYANIN "OCAQ" KİTABINA CAVAB VERİLİR

Z. Balayanın "Ocaq" kitabındakı zərərli və həqiqəti əks etdirməyən bəzi məqamlara diqqət edək:

1. **Səh. 15-də** – "Böyük Ermənistanın müqəddəs şəhəri" olan Naxçıvan;2. "Eramızdan əvvəlki II əsrdən başlayaraq Arsax ((yəni Qarabağ-red.) öz erməni əhalisi və aborigen knyaz sülaləsi (Aranşaxikilər) ilə birlikdə Ermənistanın tərkibində olub".3. **Səh. 42-də –** "Məhz bu cür vəziyyətdən yararlanan köçəri qəbilənin başçısı Sarıcalı Pənah XVIII əsrin ortaların-

da Qarabağa soxularaq Şoş (Şuşa) qalasını öz iqamətgahına çevirmişdi.4. **Səh. 43-də** – "Ötən yüz ilin əvvəlində Ermənistanın tarixi vilayətlərindən olan Qarabağda 98%, hətta 1919-cu ildə 96% erməni var idi. Beləliklə, bir ovuc köçəri gəlmə birdən-birə yad bir ölkəni könüllü olaraq Rusiyanın tərkibinə daxil etmək qərarına gəldi". 5. **Səh. 15-16-da** – "1918-ci ilin iyulunda görkəmli sərkərdə, xalq azadlığı hərəkatının öndəri, general Andronik Naxçıvanda Sovet hakimiyyətini elan etdi". 6. **Səh. 299-da** – "İstər Avropa xristianları, istərsə də Suriya, Ərəbistan və Afrika müsəlmanları arasına türk yalnız dağıntı gətirirdi".

"Ocaq" kitabında nəinki mövcud faktlar saxtalaşdırılırdı, eyni zamanda bu kitabda ümumi insanlığa bir nifrət çağırışı hiss olunur. Yəni bu həm də bəşər mədəniyyəti üçün zərərli bir nəşrdir.

**1985-ci ilin yanvarında** Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun elmi işçisi **İsa Qəmbərov** (sonradan tanınmış siyasi xadim, Müsavat Partiyasının Başqanı, AXC liderlərindən biri) Z.Balayanın bu kitabına əsaslı cavab yazmışdı**: "Köhnə bayatılar və yeni əfsanələr"** (Z.Balayanın "Ocaq" kitabı haqqında). Həmin elmi məqalənin nəşrinə hökumət orqanları icazə verməsə də, əlyazısı və makinada çap formasında xalq arasında oxunub çox məşhurlaşdı.

İsa Qəmbərovun rusca yazdığı 60 səhifəlik məqaləsi yalnız 1988-ci ildə "samizdat" nəşr olan "Vətən" məcmuəsində, 1991-ci ilin mart-aprel aylarında "Səs" qəzetində, 2003-cü ildə isə müəllifin "Azadlığa doğru" kitabında çap olundu (Bax: **İsa Qəmbər.** Azadlığa doğru. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003, səh. 11-55). Şair Eldar Baxış da "Ocaq"ın əleyhinə təsirli bir şeir yazmışdı

Z.Balayanın bu ekstremist ruhlu kitabına isə Moskvadakı dairələr reaksiya vermədi, əksinə, onu müdafiə etdilər. Ermənistan Jurnalistlər İttifaqı onu bu əsərə görə mükafatlandırdı.

Bir müddət sonra isə yazıçı Mirzə İbrahimov və şair-publisist Sabir Rüstəmxanlı etiraz yazıları ilə mətbuatda çıxış etdilər. S. Rüstəmxanlının 1987-ci ildə nəşr edilən "Ömür kitabı" isə xalq arasında çox məşhur oldu.

Bir qədər sonra Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və coğrafiyası" əsəri çap edildi (Bu, Z.Balayana birbaşa cavab olmasa da, lakin əsaslı faktlarla yazılmış elmi mənbə idi və erməniləri də ciddi narahat etmişdi).

Sovet Azərbaycanında bu əsərin əleyhinə çıxışlar və cavablar qadağan edilmişdi. Xalqımızın vətənpərvər insanları isə SSRİ-nin müxtəlif mətbuat orqanlarına çoxlu sayda etiraz məktubları göndərirdilər.

---

***Qaynaq:***

*1. Z.Balayan. Ocaq. Yerevan, 1984.2. İ.Qəmbər. Azadlığa doğru. Bakı, 2003. 3. Ə.Əliyev. Meydan sirləri. Bakı, 2012.4. Ə. Tahirzadə. Meydan: 4 il 4 ay. I cild. Bakı, 1997.*

**Eldar Baxış**

### ZORİ BALAYANA MƏKTUB

Dünya nə haydadı,sən nə haydasan,
A köhnə palazı sırıyan oğlan.
İrəvan dilində xoruzlanırsan,
Moskva dilində zarıyan oğlan.

Havayı axıtma göz yaşlarını,
Yaş görən adamlar yaşı tanıyır.
Moskva min ilin Moskvasıdır,
Səni də, məni də yaxşı tanıyır.

Sən – Zori Balayan,
Mən – Eldar Baxış,
Baxıram eləcə zoğallayırsan,
Keşiş zurna çalır, sən də keşişin,
Qara zurnasını sığallayırsan,

Sığalla, sığalla – qara zurnalar,
Yastı balabanlar yatır sığala.
Deyəsən, bir azca qolun ağrıdı,
Allahın altında kərə yağ ola.

Günah məndədi ki, ”Kiçiyim” – deyib,
Durub oynayıram hər havana mən.
Sevan söyləyirəm Göyçə gölünə,
Yerevan deyirəm İrəvana mən.

Qaxdan İrəvana, Qaxdan Qafana
Fındıq göndərirəm, qoz göndərirəm.
Mənim kəndlərim var odun yandırır,
Sənin kəndlərinə qaz göndərirəm.

Hələ yüzdən biri, mindən biridi
Bu mənim dərdimin, mənim sərimin,
Samvel Azərbaycan xalq şairidir,
Ancaq adı yoxdu Əli Kərimin.

Bax bir ürəyimin genişliyinə,
De kimə lazımdı bu haray-həşir?..
Sənin ürəyinə bir ovuc torpaq,
Mənim ürəyimə dünya yerləşir.

O nədir yazmısan Zori Balayan,
“Bala” da bizimdir, “zor” da bizimdir,
Ölmək istəyirsən, gəl Qarabağa,
Kəfən də bizimdir, gor da bizimdir.

Ordan apararam öz kəndimizə,
Tutub apararam göyə çıxasan.
Ancaq qorxuram ki, gedəsən ora
Mənim kəndimə də yiyə çıxasan.

O nədir yazmısan Zori Balayan?
Kür-Araz deyirsən-kəkələyirsən.
Xırda budaqların üstə oturub,
Böyük budaqları silkələyirsən?

Böyük budaqların böyük qolu var,
O qolun önündə qol dura bilməz.
Atandan, dədəndən, babandan soruş,
Hər adam hər daşı qaldıra bilməz.

Daş daşa söykənib, qaya qayaya,
Söz şeirə bu daşdan, qayadan gəlir,
Azar var, adamın öz azarıdı,
Azar var, toxumdan,mayadan gəlir.

Tamam unutmusan vaxtı, zamanı,
Bir də görmüsən ki, iş işdən keçib.
Bu azar tək sənin azarın deyil,
Bu azar hampadan,keşişdən keçib.

Nə isə sənə bir qarmaq atıblar,
Nə isə sənə bir yanaşan olub.
Yazıq Araz çayı nə vaxtdan axı,
Erməni dilində danışan olub?

Suyun su dili var, adamın adam,
Tənək yaranıb ki, qora yaranıb.
Adamın ki dili,suyun dilindən,
Küləyin dilindən sonra yaranıb.

Hələ biz doğulub dil açmamışdan,
Ayaq açmamışdan, qol açmamışdan,
Xetlər dənizlərə, Hunlar dağlara,
Şumerlər düzlərə yol açmamışdan.

Ağaclar küləklə danışırdılar,
Arılar çiçəklə danışırdılar,
Durnalar lələklə danışırdılar,
Qartallar fələklə danışırdılar...

...O nədir yazmısan, Zori Balayan,
Kür-Araz deyirsən-kəkələyirsən.
Xırda budaqların üstə oturub,
Böyük budaqları silkələyirsən?

Böyük budaqları silkələməklə
Könlün istəyəni ala bilməzsən.
Bircə qanadımı, bircə çöpümü,
Bircə yarpağımı sala bilməzsən.

Böyüyün dünyada böyük dərdi var,
Xırda gərək dura xırda yerində.
Dəniz gərək dura dəniz yerində,
Ada gərək dura ada yerində.

Dəniz qala-qala dənizliyində,
Adalar döyməyə döşünə gərək.
Heç vaxt qarışmaya xırda budaqlar
Böyük budaqların işinə gərək.

Böyük budaqların böyük işi var,
Bu dünya bu saat od içindədi,
Silah düzəldirlər silah dalınca,
Azot içindədi, yod içindədi.

Bu dünya bu saat hər həftəsinin,
Gününün, ayının dərdini çəkir,
Kökünün, soyunun dərdini çəkir,
Qışının, yayının dərdini çəkir,
Otunun, suyunun dərdini çəkir...

## ERMƏNİ AĞANBEKYANA CAVABLAR

Abel Ağanbekyanın "Humanite" qəzetində çap olunan təxribatçı fikrinə ilk olaraq 1987-ci ilin dekabrın 17-də Azərbaycan Elmlər Akademiyası Partiya Komitəsinin XVII Konfransında akademik **Ziya Bünyadov** reaksiya verdi. O, iclasda iştirak edən, **Azərbaycan KP MK-nın katibi Ramiz Mehdiyevdən A.Ağanbekyanın qarşısını almağı tələb etdikdə, belə cavab almışdı: "Ağanbekyanın çıxışı şəxsi fikridir".**

A.Ağanbekyana etiraz səsini ucaldanlardan biri Anar, onun başçılıq etdiyi Yazıçılar İttifaqının üzvləri oldu.

1988-ci il yanvarın 15-də Akademik Ziya Bünyadov "Ədəbiyyat və İncəsənət" qəzetində "Doğruya zaval yoxdur" adlı bir yazı nəşr etdirdi. Bu yazısında o, Qarabağın Azərbaycan torpağı olduğunu elmi əsaslarla izah edən Fəridə Məmmədovanı müdafiə edirdi.

## QARABAĞIN İLK ŞƏHİDLƏRİ
## ƏSGƏRAN HADİSƏSİ

Ermənilərin azərbaycanlılara qarşı başladığı, törətdiyi hadisələr (onların sıxışdırılması, təhqir edilməsi, torpaq iddiaları) o bölgəyə yaxın olan Ağdam camaatını bərk qəzəbləndirmiş və şəhər əhalisi qonşu kəndlərdən də gələnlərlə birlikdə Xankəndinə istiqamət götürüb, erməniləri "sakitləşdirmək" istəmişdilər. Əsgəran rayonunda onların qarşısı sovet əsgərləri tərəfindən kəsilmiş və qəzəbli insanlara binadan atəş açılmışdı. Nəticədə iki nəfər həlak olmuş, 10-15 nəfər isə yaralanmışdı. Güllənin sovet ordusundakı ermənilər tərəfindən atıldığı məlum olmuşdu. Böyük toqquşmanın baş verməməsi üçün silahsız ağdamlılar geri qayıtmışdı.

Bu cinayəti törədənləri isə cəzalandırmadılar. Sovet əsgərləri (oxu - rus əsgərləri) bilavasitə bu cinayətin törədilməsinə şərait yaratmışdı. Azərbaycan Ali Sovetinin deputatı olan Xuraman Abbasova isə kəlağayısını yerə atıb qəzəblənmiş insanların qarşısını almağa çalışmışdı.



*Əli Hacıyev*

### ƏLİ HACIYEV

1965-ci ildə yanvarın 2-də Ağdam rayonunun Əlimərdanlı kəndində anadan olub. İlk təhsilini Ağdam şəhər 5 saylı məktəbdə alıb. İqtisad Universitetinə sənəd versə də, daxil

ola bilməyib. Sonra hərbi xidmətdə olub. Hərbi xidməti başa vurduqdan sonra Ağdam dəzgahqayırma zavodunda çilingər işləyib və oradakı 70 saylı Orta Texniki Peşə Məktəbində təhsil alıb.1988-ci ilin 22 fevralında Əsgəran rayonu yaxınlığındakı izdihama atılan gülllədən həlak olub.

**BƏXTİYAR QULİYEV**



*Bəxtiyar Quliyev*

1972-ci ilin aprelin 3-də Ağdam rayonunda anadan olub. Ağdamdakı 3 saylı orta məktəbdə oxuyub. Sonradan Ağdamdakı 50 saylı Peşə məktəbində təhsil alıb və eyni zamanda çilingərlik sənətini öyrənib.1988-ci ilin fevralında qəzəblənmiş insanlar Əsgəran rayonuna yaxınlaşarkən binadan atılan güllə Bəxtiyarın gicgahından dəydi (gülləni atanın İşxanyan familiyalı bir erməni olduğu sonradan aydınlaşsa da, heç bir tədbir görülmədi).Ağır yaralanmış Bəxtiyarı şəhər mərkəzi xəstəxanasına çatdırsalar da, xilas edə bilmədilər. Onu Ağdamın Şıxbabalı kəndi qəbirstanlığında dəfn etdilər.

Ölümündən sonra – 1993-cü ilin aprelin 4-də "Qarabağ Nicat Cəmiyyəti"nin sədri Famil Mehdi tərəfindən "General Məhəmməd Əsədov" mükafatına layiq görüldü.

---

***Qaynaq:***

*1. Əkbər Vəliyevin şəxsi arxivindən. 2. Bəxtiyar və Əlinin qohumlarının şəxsi arxivi.*

**DAĞLIQ QARABAĞIN AZƏRBAYCANLI ƏHALİSİNİN ETİRAZLARI**

**(MOSKVA ERMƏNİLƏRƏ DİQQƏT EDİR, AZƏRBAYCANLILARI UNUDUR)**

Maraqlıdır ki, 1988-1992-ci illərdə istər Sovet rəhbərliyi (Moskva), istərsə də Azərbaycan rəhbərliyi yalnız Dağlıq Qarabağın erməni əhalisinin problemləri haqqında düşünür, orada yaşayan azərbaycanlı əhalinin həyatı və yaşamağı haqqında isə qəsdən danışmaq belə istəmirlər. Qəbul edilən sənədlər, proqramlar, qərarlar yalnız sayca azsaylı olan ermənilər üçündür. Bəs azərbaycanlılara niyə diqqət edilmir?Aşağıda təqdim olunan sənəddə həmin problemlər haqqında yetərincə məlumatlar vardır.

"Azərbaycan KP MK-nın Birinci katibi Ə.X.Vəzirov yoldaşa.Surəti: Dağlıq Qarabağ Xüsusi İdarə Komitəsinin sədri Volski yoldaşa

Əsgəran rayonu Xocalı kənd sakinləri tərəfindən

**Ə R İ Z Ə**

"Dağlıq Qarabağın İttifaq tabeçiliyinə keçirilməsində azərbaycanlıların rəyi ilə hesablaşmamağınız kəndin əhalisini əsəbiləşdirmişdir. Bu necə demokratiyadır ki, səndən bir söz soruşmamış taleyini yad əllərə tapşırırlar?

Dağlıq Qarabağın minlərlə azərbaycanlı əhalisi işsiz qalıb. Onların taleyi ilə maraqlanan yoxdur. Onları kim işə bərpa edəcək? Bizi ixtiyarına verdiyiniz komitəmi?

Məlumunuz olsun ki, komitə bizim yox, vilayətin erməni əhalisinin tələblərini yerinə yetirməklə məşğuldur. Onlar vilayət partiya komitəsinin işçilərinin tələbi ilə Xocalıda gedən tikintiləri dayandırmaq üçün sifariş göndərir.

Stepanakertdə (Xankəndində) iş yerinə dönən azərbaycanlı fəhlələr təhqir olunur. Onlar yenidən işdən qovulurlar. Ermənistanın radio və televiziyası, "Sovetakan Karabax" qəzeti dilimizə, tariximizə böhtan atır. Kəndin məktəb və bağçaları acınacaqlı vəziyyətdədir. Əsgəran rayonu məktəblərə dərslik, metodik vəsait göndərmir.

Belə hesab edirik ki, kəndin əhalisini tezliklə öz doğma yurdundan köçürülmək təhlükəsi gözləyir. Əgər vaxtında tədbir görülməsə yəqin ki, kənd bir neçə ilə tamamilə boş qalacaq.**Tələb edirik**: Bizi Şuşa rayonuna verilməklə respublika tabeliyinə keçirəsiniz.430 nəfərin imzası əlavə olunur. 1988-ci il".

## KƏRKİCAHAN SAKİNLƏRİNİN ETİRAZI: "BİZƏ MÜSTƏQİL QƏSƏBƏ SOVETİ VERİLSİN" "KONSTİTUSİYA HÜQUQLARINDAN MƏHRUM EDİLMİŞİK"

Dağlıq Qarabağda mövcud vəziyyət bütün azərbaycanlıları narahat edirdi. Sovet hakimiyyətinin Azərbaycanda yarandığı gündən 1988-ci il hadisələrinə qədər burada yaşayan azərbaycanlılar ciddi problem içərisində olmuş, lakin Moskva və Azərbaycan rəhbərliyi onlara laqeyd yanaşmışlar.

Stepanakertə bitişik bölgə olan Kərkicahan sakinlərinin Azərbaycan rəhbərliyinə ünvanladığı ərizədə mövcud problemlərdən şikayət edilir.

"Azərbaycan SSR Nazirlər Sovetinin sədri A. Mütəllibov yoldaşa

Surəti: Dağlıq Qarabağ Xüsusi İdarə Komitəsinin sədri Volski yoldaşa

## STEPANAKERT ŞƏHƏRİ 26-CI MƏHƏLLƏ (KƏRKİCAHAN) SAKİNLƏRİ TƏRƏFİNDƏN ƏRİZƏ

"Yazıb Sizə bildiririk ki, Dağlıq Qarabağın İttifaq tabeçiliyinə keçirilməsi vilayətin erməni millətindən olan əhalisinin tələbinə əsasən həyata keçirilmişdir. Onsuz da xalqın tələblərinə uzun illərdir məhəl qoymayan vilayət rəhbərləri yenə də öz bildiklərini irəli sürməkdə davam edirlər. Artıq ikinci ildir ki, bütün Konstitusiya hüquqlarından məhrum edilmişik. Azərbaycanlılar Stepanakert və onun ətrafındakı müəssisələrindən kütləvi şəkildə işdən qovulublar. Hər cür təhqir və əzablarla üzləşiblər. Yuxarı və yerli təşkilatlara yazdığımız ərizə və materiallara heç bir cavab verilmir.


Азәрбајҹан ССР Назирләр Советинин сәдри А. Мүтәллибов јолдаша
Сурәти: Дағлыг Гарабағ хүсуси идарә комитәсинин сәдри Волски јолдаша
Степанакерт шәһәри 26-ҹы мәһәллә (Кәркиҹаһан) сакинләри тәрәфиндән
Әризә

*Sakinlərin ərizəsi*



*Sakinlərin imzası*

Vilayətin təbliğat orqanları milli hisslərimizlə oynayırlar. Qədim yer adları əsassız şəkildə dəyişdirilib erməniləşdirilir. Adi insan kimi yaşamağa heç bir şəraitimiz yoxdur. Məktəb, xəstəxana, poçt şöbəsi, telefon, yol, hamam, su, abunə yazılışı bizim üçün əlçatmaz bir xəyaldır. Qəsdən kəndimizin ətrafında tikinti işləri aparırlar ki, bizi sıxışdırıb çıxarsınlar. Nəticədə onlar ata-baba yazılarımız olan "Xoylu" adlı qə-

birstanlığımızı dağıdıb yerində evlər tikiblər. Bizim heç bir çıxış yolumuz yoxdur. Ya köçüb getməliyik, ya da qırılmalıyıq. Hara köçməliyik və niyə? Ekstremistlərə haqq qazandırmaq üçünmü?

SSRİ Prokurorluğunun istintaq qrupu ərizə və şikayətlərimiz üzrə apardıqları işlərin hamısına xitam veriblər ki, milli münasibətlərin pozulmasına aid heç bir fakt tapmadıq. Onlara bir sual verən yoxdur ki, əgər milli münasibətləri pozan faktlar yoxdursa, bəs azərbaycanlılar ikinci ildir niyə işləmirlər və kütləvi şəkildə ata-baba ocağını, qəbirstanlığımızı qoyub hara köçürlər? Bizim vəziyyətimizi gözü ilə görənlər susursrlar və faktiki materialları gizlədib ümumittifaq miqyasına çıxarmaq əvəzinə ermənilərin problemlərindən gen-bol danışırlar.

Kərkicahan zəhmətkeşləri milli münasibətlərin düzgün, obyektiv həllini onda görürlər ki, onun tabeçiliyini İttifaqa vermək həqiqət yox, ədalətsizlikdir.

Ümidvarıq ki, bizə müstəqil qəsəbə soveti vermək, 800 nəfərlik iş yeri açmaq üçün tədbir görüb, bizim Azərbaycan Respublikasına tabeçiliyimizi təmin edəcəksiniz və bununla da ədalətli haqqımızı özümüzə qaytaracaqsınız. İmzalar" ***1989-cu il".***

---

***Qaynaq:***
*Xalq şairi Sabir Rüstəmxanlının şəxsi arxivindən.*

## AZƏRBAYCAN PARTİYA FƏALLARININ TOPLANTISI (24 fevral 1988-ci il)

Toplantıda 455 nəfər iştirak edir. Toplantını **Azərbaycan KP MK-nın Birinci katibi K.Bağırov** açır.

Gündəlikdə duran məsələ: "Dağlıq Qarabağda vəziyyət haqqında və respublikada ideoloji işin, kütləvi-siyasi işin kökündən yaxşılaşdırılması, Dağlıq Qarabağda vəziyyətin sağlamlaşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlər".

Məruzəçi: **Q.P.Razumovski,** Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, Sov. İKP MK katibi.

Q.P.Razumovskinin çıxışı: "Hörmətli yoldaşlar! Son vaxtlar Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin ünvanına Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni əhalisindən Ermənistan SSR-nə birləşməklə bağlı çoxsaylı ərizələr daxil olur. Dağlıq Qarabağın özündə, indi bilmək olar ki, belə hallar yoxdur, çıxışlarda bu tələblər irəli sürülüb. Sov. İKP MK Siyasi Bürosu öz iclasında xüsusi olaraq bu məsələyə baxmış və növ-

bəti qərar qəbul etmişdir (o, Sov.İKP MK-nın qərarını oxuyur).

Bu məsələ yeni deyil. Dağlıq Qarabağın ərazi məxsusluğu problemi Zaqafqaziya xalqlarının millətlərarası münasibətlər tarixində mürəkkəbdir. Keçmişdə bu məsələ çoxlu konfliktlərə səbəb olmuşdur ki, bundan hər iki xalq – ermənilər və azərbaycanlılar əzab çəkmişlər”.

Bilirsiniz ki, 1923-cü ilin noyabrında Dağlıq Qarabağın Xalq Komissarlar Soveti öz qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdı. Azərbaycan SSR-nin tərkibində DQMV-nin yaradılması Lenin milli siyasətinin böyük nailiyyəti idi.

…Biz bütün xalq tərəfindən qəbul edilmiş Konstitusiya sərhədləri çərçivəsində hərəkət etməliyik”.



Бүтүн өлкәләрин пролетарлары, бирләшин!

СОВЕТ ИТТИФАГЫ КОММУНИСТ ПАРТИЈАСЫ

АЗӘРБАЈЧАН КП

МӘРКӘЗИ КОМИТӘСИ

Пролетарии всех стран, соединяйтесь!

КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ СОВЕТСКОГО СОЮЗА

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

КП АЗЕРБАЙДЖАНА

ӘН МӘХФИ

СОВЕРШЕННО СЕКРЕТНО

ПРОТОКОЛ

собрания актива партийной организации республики, представителей общественности и творческой интеллигенции Азербайджана

от 23 октября 1989 года

Собрание открыл первый секретарь ЦК КП Азербайджана т.Везиров А.Х.

В президиуме собрания – члены Бюро ЦК КП Азербайджана тт.Гасанов Г.А., Гусейнов В.А., Зейналов Р.Я., Кафарова Э.М., Мамедов М.Р., Муталибов А.Н., Оруджев Т.Х., Поляничко В.П., Попов Н.И., Раси-заде А.Т.; кандидаты в члены Бюро ЦК КП Азербайджана тт.Алекперов С.Н., Ахундов Р.В.; ответственный работник ЦК КПСС т.Афанасьев Д.С.

На собрание актива приглашены члены и кандидаты в члены
ЦК Компартии Азербайджана, члены Ревизионной комиссии Компар-
тии республики, секретари горкома и райкомов партии, председа-
тели райисполкомов г.Баку, партийные, профсоюзные, комсомоль-
ские работники, руководители министерств и ведомств, объеди-
нений и предприятий, высших учебных заведений, общественных
организаций, ветераны партии и труда, командиры и политработ-
ники, представители средств массовой информации-до 500 человек.

ПОВЕСТКА ДНЯ:

Об итогах обсуждения положения в НКАО на заседании Президиума Верховного Совета СССР (20 октября 1989 г.) и первоочередных мерах по выполнению поставленных задач.

Докладчик – первый секретарь ЦК КП Азербайджана т. Вези

***Respublika ictimaiyyətinin toplantısı haqqında sənəd***

**Ayriyan A.A.** (Azərbaycan SSR Meşə və Ağac Emalı Sənayesi naziri, Azərbaycan KP MK üzvlüyünə namizəd): “Yoldaşlar, sovet xalqları ailəsində Azərbaycan və erməni xalqlarının zəhmətkeşləri yaşayır. Onları çoxəsrlik dostluq birləşdirir. Bu dostluq Böyük Oktyabr inqilabından sonra möhkəmləndi və əsl qardaşlığa çevrildi.

Dinamik inkişaf edən Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsidir. DQMV-nin iqtisadiyyat və mədəniyyətinin dinamik inkişafına inamla konkret statistika göstəriciləri sübutdur .

**Babayan S.A**. (Stepanakert Ayaqqabı fabrikinin fəhləsi, Azərbaycan KP Təftiş Komissiyasının üzvü): “Bizi ekstremistlər, millətçilər adlandırırlar. Bizim çıxışlarımız, nümayişlərimiz, hətta tətillərimiz tam dinc xarakterlidir. Burada heç bir millətçilik yoxdur. Biz həmişə Azərbaycan xalqı ilə sülh və dostluq şəraitində yaşamışıq və gələcəkdə də yaşayacağıq.

… Əgər nəzərə alsaq ki, vilayətin 83-84% əhalisini ermənilər təşkil edir, onda onların Ermənistana birləşməklə bağlı təbii istəklərini başa düşmək mümkündür. Bu, təbii arzudur və burada qanunazidd heç nə yoxdur .

**Zaldan səs: “Kəsin!” (***Zalqa səs-küy***)”.**

**Nersisyan V. A.** (Bakı Şəhər Kirov rayon Partiya Komitəsinin Birinci katibi, Azərbaycan KP MK üzvlüyünə namizəd): “Yoldaşlar, mən ilk

növbədə belə bir çıxışı eşidib, danışmaq istəyirəm. Bilmirəm ki, belə bir adamı kim hazırlayıb? O, bura necə gəlib, burada nə dedi…

Mənim Babayan kimilərə və onu hazırlayanlara belə sualım var: Siz bu Bakıda yaşayan erməniləri hara aparmaq istəyirsiniz? Bakıdan hansı ərazini alıb kimə verəcəksiniz? Mənim kimi minlərlə qanında həm azərbaycanlı, həm də erməni qanı olanlar hara gedəcəklər? Həm rus, həm azərbaycanlı, həm də ermənilər yaşayan ailələr, yüz minlərlə insanlar necə olacaq? Bu ailələri dağıdacayıqmı?.

**Rzayev Anar** (Azərbaycan Yazıçılar İttifaqının birinci katibi): "Hörmətli yoldaşlar! Belə gərgin günlərdə biz sözümüzün və ifadəmizin xüsusi məsuliyyətini hiss etməliyik.

Yoldaş Babayanın çıxışı məni təəccübləndirdi. Mən onun öz fikirlərini söyləməsinə rəğbətlə yanaşıram. Lakin eyni zamanda hesab edirəm ki, sadəcə məsuliyyətsiz bir çıxışdır. Bu, hər şeydən əvvəl elə erməni xalqının özünə qarşı məsuliyyətsizlikdir.

Bu günlərdə Azərbaycan yazıçıları, ziyalılar, biz hamımız neçə gündür ki, yatmırıq, yataqxanalarda, mitinqlərdə çıxışlar edirik, xalqı sakitləşdiririk.

Burada isə Siz qızışdırırsınız. Əgər Siz öz xalqınızı sevirsinizsə, məgər bilmirsiniz ki, bu, hansı nəticələrə gətirəcək? Orada xalq yaşayır, Siz isə onları quldur adlandırırsınız.

Siz partiya üzvüsünüz. Diskussiyanın necəliyindən asılı olmadan Dağlıq Qarabağın məxsusluğu haqqında Siyasi Büronun birmənalı qərarı var. Burada heç bir diskussiyaya ehtiyac yoxdur (*alqışılar*).

Əlbəttə, bizi o fakt narahat etməyə bilməz ki, son on illərdə beş yüzdən çox  azərbaycanca olan şəhər, kənd, göl, dağ, çay adları Ermənistanda "xoş səslənməyən adlar olaraq" dəyişdirilib…" .

**Galyan T.A.** (*Azərbaycan Teleradio Komitəsinin böyük redaktoru*): "İlk olaraq partiyamıza minnətdaram ki, mənim Dağlıq Qarabağımla əlaqədar düzgün qərar qəbul etdi.Bakıda minlərlə qarabağlı yaşayır. Qoy onlardan heç olmasa biri desin ki, Ermənistanla birləşməyə razıdırmı? Burada çoxlu erməni oturub, qoy onlardan biri bu haqda desin. Heç kim. Bəs Qarabağda yaşayan ermənilərin taleyini həll edən bu adamlar kimdir? .

Müharibə vaxtı biz Bərdə şəhərinə gəldik. Mən on bir yaşımda Bərdədə tək qaldım. Azərbaycanlılar mənim üçün ata və ana oldular" .

Sonda Azərbaycan partiya təşkilatı fəalları yığıncağının ümumi qərarı qəbul edildi. Qeyd olundu ki, yığıncaq iştirakçıları Sov.İKP MK-nı inandırırlar ki, respublikanın bütün zəhmətkeşləri yüksək şüurluluq və məsuliyyət göstərib, Azərbaycan və erməni xalqları arasındakı ənənəvi dostluq

tellərini, Böyük Oktyabrın élan etdiyi beynəlmiləl birliyi və qardaşlığı möhkəmləndirəcəklər.

Qeyd edək ki, bu tədbirlər nəticəsiz qalır, ermənilər fəallaşırdı. Sovet rəhbərliyi azərbaycanlıları "beynəlmiləl dostluq"dan danışmağa məcbur edir, ermənilərə isə Azərbaycan torpaqlarının işğalı üçün şərait yaradırdı.

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 184,v.1-2,51,53,56,67.68.69,70,71,72,73,75.76.*

## AZƏRBAYCAN PARTİYA FƏALLARININ TOPLANTISI (29 FEVRAL 1988-ci İL)

**Toplantını** Azərbaycan KP MK-nın Birinci katibi K. Bağırov açır. Çıxışında M.S.Qorbaçovun müraciətinin vacibliyindən və bu müraciətdən çıxış edərək bildirir ki, bütün partiya, sovet xadimləri, təsərrüfat orqanları bütün yaşayış məntəqələrində, müəssisələrdə, təşkilatlarda qayda-qanunu təmin etməlidir.

Ötən gün ərzində isə vəziyyət qəfildən kəskinləşmişdir. Stepanakertdə və DQMV-nin digər rayon mərkəzlərində əhalinin kütləvi çıxışları davam edir… vəziyyəti daha da gərginləşdirən isə Bakıya və Respublikanın digər rayonlarına Ermənistan Respublikasından çoxlu sayda şikayətlərlə qaçqın qruplarının gəlməsidir.

Toplantıda Azərbaycan KP MK-nın ikinci katibi V.N.Konovalov bu sözləri söylədi: "Ötən gecə bizə çox şeyi öyrətdi… Təəssüflər ki, Sumqayıt təşkilatı belə olmadı… Biz dünən kommunistlərə, Şəhər Komitəsinin üzvlərinə, partiya təşkilatı rəhbərlərinə müraciət etdik ki, xalqın arasına gedin. Öz xalqlarından qorxdular… Bizim əlimizdə Sov.İKP MK-nın sənədi var, Sov.İKP MK-nın Baş Katibinin müraciəti, heç bir diqqət yetirilmir. Ancaq hansısa S.Kaputikyan boşboğazlıq edir, bu bizim üçün bir sənədə çevrilir. Bəs hanı bizim ideyalılığımız, inamlılığımız?"

**Səlimova (**Azərbaycan Dövlət Konservatoriyasının kafedra müdiri): Mən kommunistlərə müraciət etmək istəyirəm. Yoldaşlar, indi vəziyyət daha pisdir, nəinki müharibə vaxtı. Hanı bizim ictimai təşkilatlar? İndi biz kiminlə vuruşuruq?.."

**Musayev F.E. (**Bakı Şəhər Partiya Komitəsinin Birinci katibi): "Biz çox çətin vəziyyətə düşmüşük. Bu gün bizim Azərbaycan torpağında fəlakət olub, biz isə qaçqınlar haqqında danışırıq. Məgər bu doğrudurmu? Nə qədər ki, Ermənistanda sakitlik olmayacaq, burda da olmayacaq…

Əgər iki milyon əhali ayağa qalxsa, siz nə deyəcəksiniz, onları necə saxlayacaqsınız? İzah edəcəksiniz ki, niyə küçə adlarını dəyişmədilər?..”

**Bəxtiyar Vahabzadə** (Azərbaycanın Xalq şairi): Əziz yoldaşlar! İnternasionalizm yaxşı şeydir. Mən artıq 40 ilə yaxındır ki, universitetdə internasionalizmdən mühazirə oxuyuram. İnternasionalizm bizim ədəbiyyatdadır, bizim poeziyada və digər sahələrdədir. Ancaq internasionalizm o zaman həqiqi olur ki, o, ikitərəfli olsun. Birtərəfli internasionalizm mümkün deyil. Mən səni sevirəm və sən məni sev. Əgər mən səni sevirəmsə, ancaq sən məni yox, onda bu, qorxuludur. Bizim MK katibi Əsgəran rayon Partiya Komitəsinin Birinci katibi Qriqoryan yoldaşa zəng edir. Yoldaşlar, təsəvvür edirsinizmi, Əsgəran rayon Partiya Komitəsinin katibi mənim Azərbaycan rayon Partiya Komitəsinin Birinci katibi ilə necə danışır? Birbaşa deyir ki, geri qəbul etmirəm. Məgər buna dözmək olar? Mən bir vətəndaş və şair kimi təhqir olunuram ki, mənim MK katibimin rayon partiya komitəsi katibi qədər nüfuzu yoxdur.

**İkincisi, yoldaşlar!** İllərlə yığılıb qalan çoxlu problemlər var. Yoldaş Bağırov, mən neçə dəfə Sizin yanınıza bu suallarla gəlmişəm. Necə dözmək olar ki, öz paytaxtında küçələr öz xalqının nümayəndələrinin adı ilə adlanmasın?..

Bir də yoldaş Bağırov, daha dözmək mümkün deyil. Bunlar sadəcə məsələlər deyil. Onlar indi yaranmayıb. Son 10-15 ildə yığılıb qalıb. Bütün nöqsanlarda biz özümüzünküləri günahlandırırıq: “İnternasionalist olun, internasionalist olun”. Beləliklə öz xalqımızı qorxutduq.

**Yoldaş Bağırov, dünən Sumqayıtdakı hadisə nə ilə bağlıdır**? İş ondadır ki, bizim azərbaycanlılar oradan qoltuqlarında matrasları və adyalları ilə gəliblər. Onların yazıq görkəmini görən hər kəs qəzəblənir. Bizim çoxlu azərbaycanlıları orada öldürür, atəşə tuturlar, orada yaşaya bilmədiklərindən bura qaçırlar. Burda hər şey qarşılıqlıdır. Ermənistanda yanan od sönməzsə, burdakı odu da söndürmək olmaz.

Daha bir məsələ. Sizə məlumat verim ki, (Ermənistan SSR Elmlər Akademiyasının “Vestnik”ində) Ermənistanda bir il ərzində **2200 yaşayış məntəqəsinin adını dəyişdilər,** əvvəlki adlar azərbaycanca idi. Bu, məgər internasionalizmdir? Bu, bəlanın yarısıdır. Bizdə Dağlıq Qarabağda Xankəndini Stepanakert adlandırırıq, onlar isə yer adlarını başqa cür adlandırır. Beləliklə, heç bir internasionalizm olmayacaq (*alqışlar*).

---

***Qaynaq:***

*Azərbaycan Respublikasl Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 184, v. 1, 25, 26, 27*

## AZƏRBAYCAN PARTİYA FƏALLARININI YIĞINCAĞI
**(13 yanvar 1989-cu il)**

Yığıncağı Azərbaycan Kommunist Partiyası MK-nın Birinci katibi Ə. X. Vəzirov açır. Yığıncaqda 900-ə qədər adam iştirak edir. Gündəlikdə duran məsələ:

"Sov.İKP Mərkəzi Komitəsinin DQMV və onun ətrafında vəziyyəti normallaşdırmaq haqda göstərişləri ilə bağlı respublika partiya təşkilatının vəzifələri haqqında və Sov.İKP MK plenumunun partiyaya və sovet xalqına müraciəti".

*Məruzəçi:* Azərbaycan KP MK-nın Birinci katibi Ə.X.Vəzirov.

*Sədrlik edir:* V.P.Polyaniçko – Azərbaycan KP MK-nın ikinci katibi.

Ə.Vəzirov çıxışında Sov.İKP MK-nın yanvarın 10-da keçirilən plenumu haqqında məlumat verir. Qeyd edir ki, plenumda "Partiyaya, sovet xalqına" müraciət qəbul olundu. Ə.Vəzirov məlumat verir ki, yanvarın 10-da Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında Moskvada görüş keçirildi. Regionda vəziyyətin normallaşması tədbirlərinə baxıldı. Azərbaycan KP MK Bürosu iki qardaş xalq arasında dostluğu, ənənəvi əlaqələri dirçəltməklə bağlı konkret təkliflər irəli sürdü. S,Q.Arutunyan yoldaş bunu müdafiə etdi və razılaşdıq ki, birgə tədbirlər hazırlayaq. Bundan ötrü respublikalararası komissiya yaratdıq. Sov.İKP rəhbərliyi, M.S.Qorbaçov bu addımı yüksək qiymətləndrdi.

Yığıncağın sonunda kommunistlərin, respublikanın bütün zəhmətkeşlərinin yenidənqurmanı təmin etmək, social iqtisadiyyatı inkişaf etdirmək, Sovet xalqlarının qardaşlıq dostluğunu möhkəmlədəcəyi ilə bağlı qərar qəbul edilir.

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 84, iş 161,v.3-4,7,62.*

## AZƏRBAYCAN RESPUBLİKA PARTİYA TƏŞKİLATI VƏ YARADICI ZİYALILARININ, İCTİMAİYYƏT TƏMSİLÇİLƏRİNİN YIĞINCAĞI (23 oktyabr 1989-cu il)

Yığıncağı Azərbaycan KP MK-nın Birinci katibi Ə.X.Vəzirov açdı. Gündəlikdə aşağıdakı məsələ dayanırdı: "SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında DQMV-də vəziyyətin müzakirəsinin nəticələri və qarşıya

qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ilkin tədbirlər haqqında (20 oktyabr, 1989-cu il)".

Yığıncaqda əsas məruzəni Azərbaycan KP MK-nın Birinci katibi Ə.Vəzirov etdi. 500-ə qədər insanın iştirak etdiyi tədbirdə Sov. İKP MK-nın məsul işçisi D.S.Afanasyev də var idi.

Ə.Vəzirov bildirdi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasından sonra 4 saata qədər M.S.Qorbaçovla söhbət edib. Həmin söhbətdə Dağlıq Qarabağdan olan bütün deputatlar da çıxış ediblər. Müzakirənin sonunda belə nəticəyə gəlinib ki, Dağlıq Qarabağ Muxtar Vilayətinə Respublika özü rəhbərlik etməlidir. DQMV bizim respublikanın ərazisidir və orada SSRİ-nin və bizim respublikanın konstitusiyası fəaliyyət göstərməlidir.

Yığıncaqda qəbul edilən qərarda qeyd olunurdu: "Yığıncaq Azərbaycan KP MK-nın vəziyyətin normallaşdırılması və Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisinin vəziyyətini yaxşılaşdırmaq, onun muxtariyyət hüquqlarını – geniş istifadə etmək, yenidənqurma maraqlarına uyğun social-iqtisadi və mədəni inkişaf ilə bağlı bəyannaməsini müdafiə edir" (v. 23, 24).

---

***Qaynaq:***

*Azərbaycan Respublikasl Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 84, iş 170,v.19.20,23,24.*

## AZƏRBAYCANDA İLK MİTİNQLƏR
## (19 fevral 1988)

Bakıda ilk mitinq cəhdlərinə 1988-ci ilin fevralın 18-də başlanıldı. Həftənin dördüncü günü günortaya yaxın Azərbaycan Elmlər Akademiyasının qarşısına xeyli adam toplaşdı. Bakı Dövlət Universitetinin müəllimləri və ətrafdakı institutların tələbələri də burada idi. Camaat çoxaldığı üçün yolun əks tərəfinə – H. Cavid bağına keçdilər. Çox da davam etməyən toplantıda əsas söhbət Dağlıq Qarabağdan, ermənilərin bu torpağı Azərbaycandan almaq istəyindən danışıldı. Bir neçə qısa çıxışdan sonra qərara alındı ki, iki gün sonra − həftənin şənbə günü hamı Lenin (indiki Azadlıq − N. Y.) Meydanına toplaşsın.

Lakin 20-nə nəzərdə tutulan mitinq fevralın 19-da başladı. Universitet yataqxanalarından dərsə gedən tələbələr mitinqin məhz bu gün olacağını bildirirdilər. Nümayişçi tələbələr Akademiyanın qarşısından N.Nərimanov (indiki H.Cavid) prospektinə çıxdılar və burada onlara İnşaat Mühəndisləri və Politexnik İnstitutunun çox sayda tələbələri də qoşuldular. Prospektlə

hərəkət edən tələbələr **"Qa-ra-bağ!" "A-zər-bay-can!"** – deyə qışqırırdılar. M. Əzizbəyovun heykəlinin yanında 1000-1500-ə qədər nümayişçi var idi. İran konsulluğunun yanında isə nümayişçilər **"Təb-riz!", "Təb-riz!"** deyərək qışqırırdılar.

Nümayişçilərin Mərkəzi Komitənin binasına doğru getmək istədiyini hiss edən milislər yolu bağladılar və iştirakçılar Kommunist (indiki İstiqlaliyyət) küçəsi ilə aşağıya – Sabir bağına endilər. Yolboyu nümayişçilərə Iqtisad Universitetinin (o zaman Xalq Təsərrüfatı İnstitutu − N. Y.) tələbələri və yeni insanlar qoşulurdu.

Nümayişçilər Nizami Muzeyinin yanından sağa dönüb, "Azərbaycan" kinoteatrının yanı ilə (köhnə Univermaq və Natəvanın heykəlinin yanından) Neftçilər prospektinə çıxdılar. Sayca 3-4 mindən çox olan nümayişçilər Lenin Meydanına çatdılar.

**Mitinqdə ilk çıxışa başlayan Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun elmi işçisi Mənsur Əliyev oldu.** O, Qarabağ, onun tarixi, oranın heç vaxt ermənilərə mənsub olmaması və onlara verilməyəcəyi haqqında danışdı. Mənsur Əliyev çıxışında ermənilərin tarixi cinayətlərindən danışaraq, Muxtar Vilayəti adi bir rayona çevirmək təklifini irəli sürdü.

Gənc şair **Rüstəm Behrudi** "Vətən" şeirini oxudu. Bir neçə nəfər də sonradan çıxış etdi.Yazıçılardan **Anar və Elçin** də çıxış etdilər. Yazıçı Anar bu sözləri söylədi: "Bu gün xalqımızın bayramıdır, Milli Birlik bayramı, özünü dərketmə bayramıdır!"

Sonra təklif olundu ki, respublika rəhbərliyinin eşitməsi üçün mitinq Mərkəzi Komitənin qarşısında keçirilsin. MK qarşısına toplaşan on minə qədər adamın olduğu mitinqdə ilk olaraq **Mənsur Əliyev** danışdı. Sonra Xalq yazıçısı **Mirzə İbrahimov** xalqlar dostluğu mövzusunda çıxış etdi. Onun çıxışını camaat fitə basdı. Anar və Elçin burada da çıxış etdilər. Şair Süleyman Rüstəmin "dağılmaq" təklifi də etirazla qarşılandı. Azərbaycan KP MK-nın İnzibati orqanlar şöbəsinin müdiri **Məhəmməd Əsədov** da cəsarətli bir çıxış etdi. Günortadan az keçmiş camaat ümumi razılaşma ilə nizamla dağılışmağa başladı.

**(24 FEVRAL 1988-ci il)**

**1988-ci il, Fevralın 24-də** Azərbaycan Elmlər Akademiyasının dairəvi zalında növbəti bir mitinqi xatırladan toplantı oldu. Zalda çox sayda insan var idi. **Akademik Ziya Bünyadov** ermənilərin fitnələrini, məkrli planlarını açıqlayan cəsarətli bir çıxış etdi. **Mənsur Əliyev** isə respublika

rəhbərliyini fərasətsizlikdə, maymaqlıqda günahlandırdı, ermənilərə tutarlı cavab olan tarixi materialların nəşrinə kömək edilmədiyinə görə onları təqsirləndirdi.

Qeyd edək ki, bir neçə gün sonra Sumqayıtda hadisələr başladı. Hadisələrin ilk günündən başlayaraq həftədə bir, bəzən iki dəfədən az olmayaraq Elmlər Akademiyasının dairəvi zalında toplantılar davam edirdi. Buraya Bakı Dövlət Universitetinin müəllimləri, tələbələri toplaşır, alimlər isə tutarlı dəlillərlə çıxış edirdilər.

***Qaynaq:***

*1. Ə.Tahirzadə. Meydan 4 iyul 4 ay. Bakı, 1997. 2. Azərbaycan Xalq Cəbhəsi bülleteni. 1989, №3.3. "Meydan". AXC-nin qəzeti. Sentyabr 1989. 4."Vətən" məcmuəsi.Bakı, 1988.*

## MAY MİTİNQLƏRİ (18 MAY 1988- ci il)

Azərbaycan rəhbərliyinin gördüyü tədbirlərə baxmayaraq, səhər vaxtı Bakıdakı tədris müəssisələrinin böyük qrupları küçələrə çıxıb Lenin adına meydana(Azadliq meydanı) doğru istiqamətləndilər.

**Saat 10:00-dan 14:30-a qədər mitinq oldu.** Mitinqdə 30 mindən çox adam iştirak edirdi. Mitinqdə hökumət təmsilçilərindən S.Tatlıyev, H.Seyidov, V.Konovalov, R.Mehdiyev, F.Musayev iştirak edirdilər. Nümayişçilərin əllərində aşağıdakı şüarlar var idi: "Azərbaycan xalqına eşq olsun!" "Bizim səbrimiz tükəndi!", DQMV ətrafında demaqoqiyaya son qoyulsun!", "Azərbaycan xalqına qarşı istehzaya son qoyulsun!", "Qarabağ bizim olub və bizim olacaq!", "Vətəni heç kimə verməzik!", "Sumqayıtın həqiqi günahkarlarının cəzalandırılmasını tələb edirik!".

Mitinqdə 48 adam çıxış etdi. Onların arasında aşağıdakılar var idi: S.Tatlıyev, B.Vahabzadə, Z.Xanlarova, Müharibə və əmək veteranları, alimlər, artistlər, yazıçılar, jurnalistlər, tələbələr, DQMV-nin azərbaycanlı əhalisinin nümayəndələri. Bütün çıxışlar müsbət xarakterli idi. Çıxışlarda təmkin və sakitliyə çağırış, təxribata uymamaq, qanunazidd hərəkətə yol verməmək fikirləri səslənirdi.

Saat 16:00-dan 17:30-a qədər MK binası qarşısında az məsafə ilə iki gənclər qrupu toplaşdı (bir qrup 2000 nəfər, digər qrup 500 nəfər). Onlar qışqırırdı: "Dağlıq Qarabağ!", "Müslümzadə!"

Şüarlar qaldırırdılar: "Stepanakertdəki qanunsuzluğa son qoyulsun!", "Azərbaycan dili milli dil olmalıdır!", "Şuşa – Qarabağın Mərkəzi!",

"Vremya", bizi göstərin!", "Pravda", bizim haqqımızda yazın!". Toplaşanlarla B. Vahabzadə, Anar söhbət edirdilər.

Eyni zamanda, Azərbaycan Dövlət Universitetində (3 min nəfər) mitinq oldu və yazıçı Anar çıxış etdi. Mingəçevirdə isə 2000-ə qədər adamın iştirakı ilə mitinq keçirildi. Axşam Televiziya Azərinformun məlumatını verdi və sabahı gün qəzetlərdə yayıldı.

**19 may 1988-ci il:**

Respublikada vəziyyət gərgin olaraq qalır. Mingəçevirdə, Kirovabadda (Gəncə), Şuşada çoxminli mitinqlər keçirilir və iştirakçılar Bakıdakı mitinqin tələblərini irəli sürür.

22 mayda mitinq keçirilməsi ilə bağlı Stepanakertdə 4 müəssisə (800 nəfər iştirakçı) şəhər İcraiyyə Komitəsinə müraciət etdi.

Ağdam rayon İcraiyyə Komitəsinə isə 18 müəssisə (7.750 insanı əhatə etməklə) 21 mayda mitinq keçirməklə bağlı müraciət etdi. Hər iki müraciət qəbul edilmədi. Muxtar Vilayət Partiya Komitəsi Bürosunun qərarı ilə Stepanakertdə özünümüdafiə postları ləğv edildi.

**20 may 1988-ci il:**

Respublikada gərginlik azalmır. Naxçıvanda, Mingəçevirdə, Qubadlıda məlum tələblərlə icazəsiz mitinqlər keçirilir.

Gündüz Siyasi Büro üzvü, Sov İKP MK katibi E.Liqaçev, Siyasi Büro üzvlüyünə namizəd Q. Razumovski Bakıya gəldilər. Saat 17:00-da MK Büro iclasını keçirib, 21 mayda Azərbaycan KP MK-nın plenumunu keçirməyi razılaşdılar.

**21 may 1988-ci il:**

Saat 11:00-da Azərbaycan KP MK-nın plenumu açıldı. Plenum təşkilati məsələyə baxdı. Plenum, səhhəti ilə bağlı təqaüdə çıxdığı üçün K. Bağırovu Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsindən və Büro üzvlüyündən azad etdi. Ə. X. Vəzirov Birinci katib və Azərbaycan KP MK-nın Büro üzvü seçildi.

---

***Qaynaq:***

*Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. Fond 1, siyahı 83, iş 206.v.80-110*

## NOYABR MİTİNQLƏRİ
## (17 noyabr – 5 dekabr 1988-ci il)



***Bakıda noyabr mitinqləri***

1988-ci ilin noyabr mitinqlərinin başlanması və təşkili ilə bağlı müxtəlif fikirlər söylənilir. Qeyd olunur ki, bu mitinqlərin təşkilində Azərbaycan hakimiyyətinin - Ə.Vəzirovun maraqları var idi. Belə ki, mitinqlərdən əvvəl "Kommunist" qəzeti (redaktoru Ə.Vəzirovun yaxın dostu Cəmil Əlibəyov idi) "Topxana harayı" adlı məqalə çap edib ictimaiyyəti qızışdırmaq məqsədi güdmüşdü. Mitinqlərin başlanmasında Moskvanın marağı bu idi ki, Bakıda qarışıqlıq yaransın və ordu şəhərə girsin. Ermənilər isə ciddi təsir altında saxladıqları M.S.Qorbaçovun vasitəsi ilə azərbaycanlıları Ermənistandan qovub çıxarmağı planlaşdırırdı və həmin mitinq günlərində bu işi həyata keçirdilər: yəni 300 minə qədər azərbaycanlını Ermənistandan qovdular. Rus hərbçiləri isə bu məsələdə ermənilərə dəstək oldu. Onlar Sovet ordusuna məxsus hərbi yük maşınları ilə azərbaycanlıları kəndlərdən yığaraq Ermənistandan çıxarırdılar.

**Lakin necə yanaşmadan və hansı faktların mövcudluğundan asılı olmayaraq noyabr mitinqləri Azərbaycan xalqının yaşadığı şərəfli bir tarix idi. Məhz bu mitinqlərdə insanlara üçrəngli bayrağımız haqqında, Müsəlman Şərqində yaradılmış ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti haqqında, onun qurucusu M.Ə.Rəsulzadə haqqında geniş bilgilər verildi. Noyabr mitinqləri insanlarda güclü milli ruh yaratdı, Vətən sevgisini gücləndirdi. Azərbaycanın ayrı-ayrı bölgələrindən gəlmiş insanlar burada daha da doğmalaşdı və bir-birinə bağlandı.**

Bu gün həmin mitinqləri Ənvər Əliyevin başlaması, Nemət Pənahlının orada liderə çevrilməsi, tələbə təşkilatlarının mitinqə insanları toplaması (xüsusən "Yurd"u) haqqında, hətta hökumətin belə bir mitinqin keçirilmə-

sində maraqlı olması ilə bağlı önəmli fikirlər söylənilir. Hər halda, 1988-ci ilin 17 noyabr – 5 dekabrda keçirilən mitinqlərinin xalqımızda milli ruhun oyanmasındakı rolu inkaredilməzdir.

## 1988-Cİ İLİN NOYABR MİTİNQLƏRİNİN TƏLƏBLƏRİ

1. Sovet hakimiyyətinin DQMV-də bərpasını, ciddi və qanun çərçivəsində vilayət rəhbərliyinin cəzalandırılmasını tələb edirik.

2. Millətlərarası ayrı-seçkilik salan Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya və sovet rəhbərliyinin buraxılmasını tələb edirik.

3. Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsi dayandırılsın.

4. Mərkəzi ittifaq informasiya vasitələrindən Azərbaycanda və DQMV-dəki hadisələri birtərəfli və ermənipərəstcəsinə işıqlandırılmasını dayandırmağı tələb edirik.

5. Zaqafqaziya xalqları arasında millətlərarası düşmənçilik yayan katalikos Vazgenin "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmasından narazılığımızı bildiririk.

6. DQMV-də və Sumqayıtda öldürülənlərin bu günədək aşkarlanıb cəzalandırılmamasına cavab tələb edirik.

7. Ermənistanda yaşayan azərbaycanlıların həyatının və əmlakının təhlükəsizliyinin təminatını, erməni ekstremistləri tərəfindən yandırılmış evlərinin bərpasını, azərbaycanlılara vurulan ziyanın ödənilməsini və onların doğma yurdlarına qayıtmasına şərait yaradılmasını tələb edirik. DQMV ərazisində yerləşən, Azərbaycanın milli-tarixi abidəsi olan Topxananın cinayətkarcasına dağıdılmasında bütün iştirakı olanların ciddi cinayət məsuliyyətinə cəlb edilməsini tələb edirik.

8. Əsas qızışdırıcı və millətlərarası nifaq salan DQMV-nin Vilayət Komitəsinin Katibi Poqosyanın və onun başçılıq etdiyi ekstremist qrupun fəaliyyətinin cinayət məsuliyyətinə cəlb edilib ciddi partiya cəzası verilməsini tələb edirik.

---

***Qaynaq:***

*Roza Arazovanın şəxsi arxivi. 1988-ci ilin noyabr mitinqlərinin tələbləri yazılmış vərəqə.*

## MİTİNQLƏR DAVAM EDİR

1989-cu ilin 29 iyunundan Azadlıq meydanında başlanan mitinqlərə Azərbaycan Xalq Cəbhəsi başçılıq edirdi.



# Баку. Площадь Ленина. 13 июня

МИТИНГ трудящихся Баку, состоявшийся в этот день, прошел под девизом «За перестройку, демократию и интернационализм». И как органично рожденное временем это единство! Революционное переустройство общества невозможно без демократии, без истинной свободы, невозможно оно без интернационализма — родника, генерирующего нашу силу... Вот потому и лозунги были такие: «Наша сила в дружбе», «Требуем спокойной жизни и работы», «Долой подстрекателей, врагов перестройки»...

Первый секретарь ЦК КП Азербайджана А. Х. Везиров, выступая на митинге, прочел собравшимся волнующий документ, призыв бакинских комиссаров, этих истинных интернационалистов, адресованный нашим дедам и прадедам, призыв, мобилизующе прозвучавший эхом и в нашем сегодня. Слушайте, слушайте, потомки, те, кому были завещаны ими такие высокие ценности: вера в разум человека, вера в справедливость, вера в интернационализм. Они надеялись на нас... Слушайте и не оставайтесь равнодушными к этим словам: «...В надежде на широкую поддержку рабочих масс, на их живую творческую самодеятельность Бакинский Совнарком приступает к своей работе».

Разве не к каждому из нас, из тех, кто пришел на митинг, разве не к тем, кто, делегировав товарищей, остался на своем рабочем месте, — обращены эти слова, пережившие время. Ведь и сейчас, в период переустройства общества, главная надежда — это наша общая с вами заинтересованность, наше горячее непосредственное участие в обновлении жизни, надежда, что не останется среди нас сторонних наблю...

**...без оскорбительных выкриков. Об этом говорят красноречиво и плакаты. С особым волнением, — продолжает она, — слушала речь первого секретаря ЦК. Очень правильно он говорил, о самом главном, конкретно. Дал принципиальную оценку событиям, происшедшим в НКАО и вокруг нее. Полностью хочу присоединиться к его призыву: успокоиться, не давать повода разгулу эмоций. Беречь в себе и взращивать чувство интернационализма. Должны прекратиться забастовки в Степанакерте, должны, наконец-то, утихнуть страсти и у нас. На душе неспокойно, когда все это происходит. Два братских народа — азербайджанцы и армяне — верю, будут и дальше жить в дружбе, трудиться во славу нашей общей Родины. Ведь сколько у нас накопилось проблем. О них со всей прямотой сказано первым секретарем. Они имеются во всех областях нашей жизни. Даже на работу без протекции невозможно устроиться — это куда годится! Уже не говорю о том, что не хватает жилья, продуктов, цены на базаре безумные... Вот где нужны наши усилия. Вот область, где необходимо проявить свою энергию. А что будет, если мы пойдем на поводу подстрекателей! Это приведет только к хаосу. Поэтому нашу дружбу просто необходимо беречь. И пусть это поймет каждый.**

ВЫСКАЗЫВАЯ эти мысли, мать то и дело озабоченно отыскивала глазами своего сына в толпе. Она и сегодня еще обеспокоена. И это понятно. Так и хочется вновь и вновь повторить слова, прозвучавшие с трибуны: успокойтесь люди, справедливость восторжествует, не поддавайтесь призывам подстрекателей, сами помогайте нормализации обстановки. Все мы, азербайджанцы, армяне, русские, евреи...

...ответственности. Но бдительности мы не должны терять: каждый провокатор должен получить решительный отпор.

**Алекпер Мамедов — инспектор Главного управления народного образования Бакгорисполкома. Он сказал:**

**— Я впервые на таком митинге. Понятно, что невозможно ответить сразу на все вопросы, а тем более — сразу решить. Для этого нужны время и, конечно, поддержка всех нас, жителей республики. Один руководитель, будь он хоть семи пядей во лбу, ничего не сделает, и это здорово, что все присутствующие единодушно выразили готовность помочь в решении проблем, накопившихся за долгие годы застоя, ...**

...тинга говорили, что только такой подход отвечает подлинным интересам всех народов СССР, способствует успеху развернувшихся в стране процессов революционной перестройки. Все участники были едины в одном: когда мы говорим о необходимости быстрейшего налаживания спокойствия и порядка в Баку, не можем забывать о том, что очень необходимо призвать к порядку и законности людей в НКАО и Армении.

**— Развитие событий в НКАО и вокруг нее показывает, что они тщательно организованы, — говорил заместитель генерального директора объединения «Азеравторемонт» Г. Алимов.**

...но ворвавшаяся в нашу жизнь. Она внесла, конечно же, и хаос и смятение в души тех, кто растерялся, кто оказался не так уж «силен духом», а потому во всем нам надо тщательно разобраться. Но разобраться так, как сказал Михаил Сергеевич Горбачев: «Нельзя отдавать серьезнейшие вопросы народной судьбы во власть стихии и эмоций».

Но эмоций все равно было море и в тот день. Конечно, это можно понять. Сколько боли, сколько тревог, нерешенных проблем. Но разве можно решить их одной только «митинговой демократией», где и спора-то нет, а уж истины... Может, потому и остаются некоторые вопросы...

***Bakıda etiraz mitinqi***

1989-cu ilin avqustun 5-də Azadlıq meydanında keçirilən mitinqdə respublika rəhbərliyinə yeni tələblər verildi: 1) Dağlıq Qarabağda Azərbaycanın suverenliyi bərpa edilməlidir. 2) Dağlıq Qarabağ hadisələrindən sonra həbs olunanlar azad edilməlidir. 3) Hərbi vəziyyət ləğv edilməlidir. 4) Yeni seçkilər keçirilməlidir. 5) AXC rəsmi olaraq qeydə alınmalı, onun fəaliyyəti üçün şərait yaradılmalıdır.

Tələblərə əhəmiyyət verilmədiyindən avqustun 12-də 150 mindən çox insanın iştirakı ilə Bakı şəhərində mitinq keçirildi.

Avqustun 14-də, birgünlük xəbərdarlıq tətilinin nəticələri müzakirə edilən mitinqdə respublika rəhbərliyinin nümayəndəsi iştirak edərək, AXC İdarə Heyətini Azərbaycan KP MK-nın rəhbərliyi ilə danışıqlara dəvət etdi. Bu danışıqların və xalqın təzyiqi nəticəsində Azərbaycan SSR Ali Sovetinin "Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında" qərarı (15 avqust 1989) qəbul edildi. Bu qərar sonradan reallaşmadı.

1989-cu ilin avqustun 19-da 500 minə qədər insanın iştirakı ilə Bakıda mitinq keçirildi. Mitinqdəki tələblər bu idi: "DQMV-də xüsusi komitə ləğv edilməli, milli milis bölmələri və müəssisələrdə yaradılmış milli drujina dəstələri silahlandırılıb Qarabağa göndərilməli və siyasi məhbuslar azad edilməlidir".

Mitinqlərdəki tələblər yerinə yetirilmədiyinə görə, avqustun 21-22-də iki günlük, sentyabrın 4-dən 11-nə kimi bir həftəlik Ümumrespublika tətili keçirildi. Bu kütləvi tədbirlərdən sonra Azərbaycan KP MK ilə AXC İdarə Heyəti arasında 13 sentyabr 1989-cu il tarixdə danışıqlar aparılaraq, 10 maddədən ibarət razılaşma protokolu imzalandı. Protokolda DQMV-

də fəaliyyət göstərən xüsusi İdarə Komitəsinin ləğv olunması, Azərbaycan SSR-nin dövlət suverenliyi və iqtisadi müstəqilliyi haqqında qanun layihələrinin müzakirə edilib, İdarə Heyətinin müəyyən etdiyi qanunların qəbul olunması və s. məsələlər barədə razılıq əldə olunduğu qeyd edildi.

15 sentyabr 1989-cu il tarixdə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası öz işinə başladı və razılaşma protokolunun DQMV ilə bağlı 1-ci maddəsi qismən, AXC İdarə Heyətinin sessiyaya dəvət olunması, sessiyanın gedişinin televiziya ilə birbaşa translyasiyası nəzərdə tutulmuş 2 və 10-cu maddələrinə tam əməl olunmuşdu. 23 sentyabrda öz işini başa çatdıran sessiyada keçmiş SSRİ ərazisində ilk dəfə olaraq Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında "Azərbaycan SSR-nin Konstitusiya Qanunu" qəbul olundu.

1991-ci ilin avqustunda baş verən FVDK (Fövqəladə Vəziyyət Dövlət Komitəsi) hadisələrindən sonra Müstəqillik haqqında bəyannamə Ali Sovet tərəfindən elan edildi və 1991-ci ilin oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə nəticələndi.

1989-cu ilin noyabrından ölkədə yenidən mitinqlər dalğası başladı.

***Qaynaq:***
*1. Ə.Tahirzadə. Meydan 4 il 4 ay. Bakı, 1997.*
*2. Azərbaycan Xalq Cəbhəsi bülleteni. 1989, №3*

## SİYAMƏKƏ AZADLIQ

Meydan mitinqlərində bir şəxsin adı da daha çox eşidilirdi: **Siyamək! Siyaməkə azadlıq!**

**Bəs kimdir Siyamək?** O, Cənubi Azərbaycanda inqilabi hərəkatın fəal iştirakçısı olub. Ciddi təqiblərə məruz qalaraq, 1986-cı ilin oktyabrında yoldaşları ilə birgə Azərbaycana gəlib. Burada isə inam bəslədiyi marksizm-leninizm təliminin insanlara azadlıq vermədiyinin şahidi olub. Siyamək burada başa düşdü ki, hamının xalq partiyası kimi tanıdığı "Tudə" partiyası Moskvanının əli ilə idarə olunan bir vasitədir.

Azərbaycan Xalq Hərəkatının fəallarından olan, İran siyasi mühaciri Siyamək Rəhbəri Nasir 1988-ci il dekabr ayının 23-də naməlum inzibatçı tərəfindən Bakıda bir xüsusi maşında oğurlanmışdı. Bu quldurluq Azərbaycanda və xaricdə yaşayan soydaşlarımızın qəzəbinə səbəb olmuş, daxildən və xaricdən Azərbaycan KP MK-ya etiraznamələr göndərilmişdi. Siyaməkin üzv olduğu "Fədailər" partiyasının rəsmi nümayəndələri Bakının müxtəlif əmniyyət idarələrinə eyni məzmunda müraciət etmiş və heç bir cavab almamışdılar.



***Siyamək***

"İcazəsiz mitinqlərdə iştirak etdiyinə görə" həbs olunaraq, Siyamək bir ay DTK zindanında saxlanandan sonra "işə yaramayan adam kimi" SSRİ ərazisindən çıxarıldı. Lakin başqa bir Avropa ölkəsinə yox, məhz İrana göndərmək qərara alındı. Məhkəmədə çıxış edən DTK əməkdaşı Siyaməkin İran kəşfiyyatının casusu olduğu fikrini söyləmişdi.

Şahid sifəti ilə dindirilən iki nəfər partiyadaşı isə Siyaməkin onlarla birgə İranda öz partiyalarının tapşırığı ilə göstərdiyi fəaliyyətdən və dəhşətli təqiblərə məruz qaldıqlarından danışdılar. Onlar Siyaməkin İran casusu olması iddiasını partiya rəhbərinin xəyanəti və DTK əməkdaşlarının növbəti böhtanı kimi qiymətləndirdilər.

Məhkəmə işin əlavə ibtidai istintaqa göndərilməsi barədə qərardad çıxardı. Siyaməkin zaminliyə verilməsi barədə müdafiəçi tərəfindən qaldırılan vəsatət təmin olunmadı. Doqquz aydan artıq DTK zindanında əziyyət çəkən Siyamək azadlığa buraxılmadı. Şair Vaqif Səmədoğlu bu məhkəmə haqqında belə demişdi: "Siyaməkin məhkəməsi Azərbaycan xalqının məhkəməsidir".

***Qaynaq:***
*1. F.Qəzənfəroğlu. "Siyaməkə azadlıq!". "Meydan" qəzeti, oktyabr 1989.*
*2. Azərbaycan Xalq Cəbhəsinin Bülleteni. 1989, №2.*

## RUS MİLLƏTİNDƏN OLAN VALENTİNA NİKOLAYEVNA SERGEYEVANIN SSRİ PREZİDENTİ M.S.QORBAÇOVA AÇIQ ETİRAZ MƏKTUBU

Azərbaycanda yaşayan, "Bakmil" müəssisəsinin əmək və maaş üzrə mühəndisi (po trudu i zarplatye) Valentina Nikolayevna Sergeyeva SSRİ Prezidenti M.S.Qorbaçova "Mərkəz axı nə bacarır" adlı açıq məktub ünvanlayıb. Açıq məktubda yazılıb: "Mən rusam və Azərbaycan mənim vətənim deyil. Lakin bu respublikada 12 ildir yaşayıram və Bakı şəhərinin bir sakini olaraq yazıram...

Azərbaycanda kiçikdən böyüyə hamıya aydındır ki, Ermənistan Dağlıq Qarabağda nəyə iddia edir. Bu da məlumdur ki, öz həyatı kimi, öz torpağını da heç kim könüllü verməz...

...Mixail Sergeyeviç, necə olur ki, Siz bu amansızlıqları görmürsünüz? Siz görmürsünüz ki, "saqqallılar" adlandırdığınız cavan oğlanlar balaca uşaqları, qocaları və qadınları güllələyir? Məgər mərkəz iki il ərzində Dağlıq Qarabağda vəziyyəti normallaşdıra bilməzdimi?

Göründüyü kimi, Dağlıq Qarabağ problemini artıq Azərbaycanın özünün həll etməsi zamanı gəlib çatmışdır. Bu yolda, bu müqəddəs işdə bizə mane olanları isə kənara atmağı özümüz bacaracağıq. Və biz bir Azərbaycanda yaşayan azərbaycanlının, rusun, tatarın, ləzginin və digərlərinin qəlbi bu istəklə döyünməkdədir. Bizim hər birimiz bu gün deyirik: **"Biz səninləyik, Respublika! Biz səninləyik, Azərbaycan!"**

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, N1, 18 yanvar, 1990.*

## AXC QƏRARGAHINDAN MƏLUMATLAR

**20.12.89.** Şuşada atışma olub. 1 nəfər ağır, 4 nəfər yüngül yara alıb.

**22.12.89.** Mardakert rayonunun Umudlu və Kərəmli kəndlərində atışma gedir. Sabirabadın Qaratəpə kəndinin sakini Əhmədov İlham ağır yaralanmışdır.

**22.12.89.** Füzuli rayonunun Hadrutla həmsərhəd kəndlərinə ermənilər avtomatdan və başqa silahlardan atəş açmışlar. Bununla əlaqədar olaraq rayon partiya komitəsinin qarşısında etiraz mitinqi keçirilib.

**22.12.89.** Xanlar rayonunun Çaykənd kəndində azərbaycanlı maşınına atəş açıblar. İki nəfər – Məhərrəmov Oruc Mehdi oğlu və Orucova Firəngiz ağır yaralanıb.

**23.12.89.** Xanlar rayonunda Azadkənd-Hacıkənd körpüsünü partlatmaq istərkən 2 erməni ölmüş, 2-si ağır yaralanmışdır.

**24.12.89.** Şuşanın Cəmilli məntəqəsinə hücum edilib. Kəndin müdafiə komitəsi hücumu dəf etmişdir.

**25.12.89.** Mardakertin ermənilər yaşayan kəndlərinə ardı-arası kəsilmədən vertolyotlar gəlir. Silahlı adamlar gətirilir. Qadın və uşaqları hava ilə Ganar, Zərxac, Hatret, Mest kəndlərinə aparırlar.

---

***Qaynaq:***
*"Azadlıq" qəzeti, №2, 30 dekabr, 1989-cu il.*

## ERMƏNİ İŞĞALLARI XRONİKASI

**1990-cı ilin iyulun 11-də** Kəlbəcərə gedən sərnişin avtobusu Mardakertdən keçərkən erməni quldur dəstəsi tərəfindən atəşə tutuldu. Nəticədə 3 nəfər ölmüş (biri müşayiət edən əsgərdir), 20-dən artıq adam yaralanmışdı.

**1991-ci ilin sentyabrın 14-18-də** ermənilər Goranboy bölgəsində Erkeç, Manaşid, Buzqov, Baş Qışlaq kəndlərini ələ keçirdilər. Bu döyüşlərdə

yerli özünümüdafiə dəstələri fədakarlıqla müqavimət göstərsələr də, güclü hücumların qarşısını almaq mümkün olmadı.

**1991-ci ilin oktyabrın 28-də** Tuğ kəndi, 31-də Salaketin kəndi düşmənlər tərəfindən ələ keçirilib yandırıldı. Noyabrın 18-də isə ermənilər güclü artilleriya atəşindən sonra Xocavənd qəsəbəsini tutdular. Burada iki sakini və bir yaşlı körpəni diri-diri yandırdılar.

**Noyabrın 20-də** Zamzur, 23-də Əmiranlar kəndləri işğal edildi.

**Dekabrın 23-də** ermənilər Meşəli kəndində dinc, köməksiz əhalini güllələbaran etdi. 33 nəfər, o cümlədən 29 sakin öldürüldü, üç ailə evində yandırıldı.

**1992-ci ilin yanvarın 13-də** isə kənd tamamilə dağıdıldı.

**Dekabrın 23-də** Daşbaşı, Axullu kəndləri işğal edildi, yandırıldı.

**1991-ci ilin dekabrın sonlarında** erməni quldur dəstələri Xankəndi yaxınlığındakı Kərkicahan qəsəbəsinə hücum etdilər. Qanlı döyüşlərdə qəsəbə dəfələrlə əldən-ələ keçdi. Burada ilk dəfə odatan silahdan istifadə etdilər. Döyüşlərdə 30 azərbaycanlı əsgər qəhrəmancasına həlak oldu.

**1992-ci ilin yanvarın 19-da** Kərkicahan düşmən əlinə keçdi və tamamilə yandırıldı.

**1992-ci ilin yanvarın 21-də** Qeybalı, fevralın 21-də Şuşanın Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndləri işğal edildi.

**1992-ci ilin yanvarın 25-dən 26-na keçən gecə** Azərbaycan Ordu hissələrinin Şuşanın mühasirəsini yarmaq üçün **Daşaltı tərəfdən** keçirdiyi əməliyyatlar uğursuzluğa düçar oldu. Satqınlıq etmiş bələdçilər bir taqım əsgəri və zirehli maşınları minalanmış əraziyə saldılar. Nəticədə 33 nəfər həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı. Döyüşlərdə düşmən tərəfdən də 150 nəfərin itki verdiyi qeyd olunur.

Bir neçə gün sonra Şuşanın mühasirəsinin Ağdam istiqamətində yarılması məqsədi ilə keçirilən Xromot-Xanabad əməliyyatı da nəticə vermədi.

**1992-ci ilin yanvarın 29-da** Xankəndi üzərində uçan Ağdam-Şuşa vertolyotu ermənilər tərəfindən vuruldu. Vertolyotdakı 40 nəfərədək adam (bütün sərnişinlər və heyət üzvləri) həlak oldu.

**1992-ci ilin fevralın ortalarında** ermənilər Qarabağlı kəndinə hücum etdilər. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən döyüşdən sonra ermənilər Qarabağlını ələ keçirib, onun 92 müdafiəçisini və 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. Qalan əhali əsir alındı.

---

***Qaynaq:***

*Azərbaycan tarixi (1941-2002-ci illər). Yeddi clddə. VII cild. Bakı, "Elm", 2008.*

## XOCALI QƏTLİAMI



1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə erməni quldur silahlı dəstələri Rusiya Federasiyasının Xankəndində (Stepanakert) yerləşən 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinə hücum etdilər. Erməni quldur silahlı dəstələri və rus motoatıcı alayının hərbçiləri yerli əhaliyə qarşı amansız qəddarlıq etdilər.

Erməni quldurlarının və 366-cı alay hərbçilərinin qəddarlığını sübut edən aşağıdakı faktlar da vardır: **1)** Qadınların döşlərini kəsirdilər. **2)** Kişilərin cinsiyyət üzvləri kəsilirdi. **3)** İnsanların gözləri çıxarılırdı**. 4)** Qəbiristanlıqda başlarını kəsirdilər**. 5)** İnsanların dırnaqlarını qoparırdılar.

Xocalının qorunması da çox çətin idi. Buraya hücumun əsas qüvvə mərkəzi Rusiyaya məxsus 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən) və xaricdən gətirilmiş quldurlarla Xocalıya hücum etdilər.

Şəhəri müdafiə edənlər isə mərdliklə mübarizə aparırdılar. **Bu döyüşlərdə xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüşdə xüsusi fərqləndi.** Onun rəhbərlik etdiyi 22 nəfərlik dəstə düşmən hücumlarının qarşısını üç dəfə ala bildi. Ə.Hacıyev sonda vəziyyətin çıxılmaz olduğunu görüb Hava limanının dispetçer məntəqəsini partlatdı, düşmən əlinə keçməsinə imkan vermədi. Döyüşlərdə ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.



*Əlif Hacıyev*

**Tofiq Hüseynovun rəhbərlik etdiyi ərazi özünümüdafiə taburunun (batalyonu) döyüşçüləri də düşmənlə qəhrəmancasına döyüşdülər.** Tofiq son nəfəsinə qədər döyüşüb, onlarla ada-



*Çingiz Mustafayev - Xocalı hadisəsini dünyaya yayan jurnalist*

mın mühasirədən çıxmasına şərait yaratdı. Sonda özü də mühasirəyə düşdü, düşmənə təslim olmayıb, son gülləni özünə vurdu. Ölümündən sonra T. Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Xocalı soyqırımında 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü. - 8 ailə tamamilə məhv edildi;- 27 ailədə (hər birində) yalnız bir nəfər sağ qaldı; - 25 uşaq hər iki valideynini itirdi;- 130 uşaq hər iki valideynindən birini itirdi;- 230 ailə başısız qaldı; 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər əsir alındı. - 150 nəfər itkin düşdü. Bəzi ailələr bütövlükdə məhv edildi. 56 nəfərə qədər adam xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, gözləri çıxarıldı, başları kəsildi və s.




***Xocalı soyqırımı haqqında ilk kitab (1992-ci il) - müəllifi N.Yaqublu***

---

***Qaynaq:***
*N. Yaqublu. Xocalı soyqırımı. Bakı, 1992.*

## ŞUŞANIN İŞĞALI

Qarabağin, eləcə də dünyanın gözəl şəhərlərindən olan Şuşa dəniz səviyyəsindən 1400-1800 metr yüksəklikdə yerləşir. Əsası 1750-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan bu şəhərdə dağlar arasından Qarqar çayı axır. 200 hektara yaxın ərazini Şuşa qoruğu əhatə edir.

**Şuşada görkəmli Azərbaycan yazıçı və şairləri – M.P.Vaqif, X. Natəvan, Q.Zakir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, müğənni Bülbül, dahi bəstəkar Ü.Hacıbəyov, dirijor Niyazi, görkəmli elm və siyasi xadimlər – Əhməd Ağaoğlu, Behbud Cavanşir yaşayıb yaratmışlar.**

1992-ci ilin mayın 8-də Azərbaycanın gözəl guşəsi və tarixi şəhəri olan Şuşa ermənilər tərəfindən işğal edildi.

Şuşanın müdafiəsində də ciddi səhvlərə yol verildi. Mühasirədə qalan Şuşanı isə müdafiə etmək getdikcə mümkün olmurdu. Bununla bağlı Dövlət Müdafiə Komitəsində 1992-ci ilin martın 12-də Şuşadakı vəziyyət müzakirə edildi və aprelin 26-da buradakı bütün hərbi qüvvələr ümumi komandanlığa tabe edildi. 1992-ci ilin aprelin 30-da Müdafiə naziri Rəhim Qazıyevin əmri ilə Şuşa və Laçında Xalq Cəbhəsi könüllülərindən ibarət hərbi hissələr




buraxıldı. Şuşa taburunun komandiri Ramiz Qəmbərov müəmmalı şəkildə döyüşdə həlak oldu. 1992-ci ilin mayın 3-5-də Ağdamda Qarabağ uğrunda döyüşən könüllü hərbi hissə komandirlərinin müşavirəsi keçirildi. Müşavirə iştirakçılarının xalqa müraciətində həmin hərbi hissələrin Hərbi Birliyi və Birliyin Hərbi Şurasının təsis olunduğu bildirilirdi. Nəzarət, təşkilat və təchizat işləri ilə Birliyin səlahiyyətli nümayəndəsi Surət Hüseynovun məşğul olacağı qeyd edilirdi. Beləliklə, Rəhim Qazıyevlə Surət Hüseynov qarşıdurması yaranırdı.



***Ramiz Qəmbərov***

Aprelin 25-də eks-prezident A.Mütəllibov Şamaxıda öz tərəfdarları qarşısında çıxış edib, qeyri-qanuni yolla devrildiyini söyləmişdi. Burada o fikir də səslənmişdi ki, onun istefa verməsində Şuşanın ermənilərə veriləcəyi faktı da olmuşdu. Mayın 2-də A.Mütəllibovun silahlı tərəfdarları Azərbaycan Teleradio şirkətinə gələrək birbaşa efirə çıxmağı tələb etsələr də, niyyətləri baş tutmamışdı.



БҮТҮН ӨЛКӘЛӘРИН ПРОЛЕТАРЛАРЫ, БИРЛӘШИН!

**Шуша**

АЗӘРБАЈЧАН КП ШУША РАЈОН КОМИТӘСИ ВӘ РАЈОН ХАЛГ ДЕПУТАТЛАРЫ СОВЕТИНИН ОРГАНЫ | ОРГАН ШУШИНСКОГО РАЙКОМА КП АЗЕРБАЙДЖАНА И РАЙОННОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ

1932-чи илдән чыхыр. № 78 (5689) | Ҹүмә ахшамы | 30 ијун 1988-чи ил. | Гијмәти 3 гәпик.

**Рајонумузун әмәкчиләри, јенидәнгурманын икинчи мәрһәләсиндә даһа фәал иштирак едәк, он икинчи бешиллијин үчүнчү илини јүксәк наилијјәтләрлә баша вураг!**

**Сов.ИКП XIX ҮМУМИТТИФАГ КОНФРАНСЫ ИШӘ БАШЛАДЫ**

**МОСКВА (СИТА).** Ијунун 28-дә сәһәр саат 10-да Кремлин Гурултајлар сарајында Совет Иттифагы Коммунист Партијасынын XIX Үмумиттифаг конфрансы ачылды. Салондакылар Сов.ИКП МК Сијаси Бүросунун үзвләри **М. С. Горбачову, В. И. Воротникову, А. А. Громыкону, Л. Н. Зајкову, Ј. К. Лигачову, В. П. Никонову, Н. И. Рыжкову, Н. Н. Слјункову, М. С. Соломентсеви, В. М. Чебрикову, Е. А. Шеварднадзени, В. В. Шербитскини, А. Н. Јаковлеви** алгышларла саламладылар.

Конфрансы **М. С. Горбачов** ачды. Онун тәклифи илә нүмајәндәләр конфрансын рәјасәт һеј'әтини сечдиләр.

**Ј. К. Лигачовун** тәклифи илә конфрансын катиблији, редаксија вә мандат комиссијалары сечилир.

Конфрансын күндәлији вә иш гајдасы тәсдиг едилир. Конфрансын мүзакирәсинә ашағыдакы мәсәләләр верилди:

1. Сов.ИКП XXVII гурултајы гәрарларынын һәјата кечирилмәси кедиши, он икинчи бешиллијин биринчи јарысынын әсас јекунлары вә јенидәнгурма просесини дәринләшдирмәк саһәсиндә партија тәшкилатларынын вәзифәләри һаггында;

2. Партијанын вә ҹәмијјәтин һәјатыны даһа да демократикләшдирмәк тәдбирләри һаггында.

Күндәлијин һәр ики мәсәләси барәсиндә ваһид мә'рузә динләмәк гәрара алынды.

Сов.ИКП МК-нын Баш катиби М. С. Горбачов «Сов.ИКП XXVII гурултајы гәрарларынын һәјата кечирилмәси кедиши вә јенидәнгурманы дәринләшдирмәк вәзифәләри һаггында» XIX Үмумиттифаг партија конфрансына Сов.ИКП Мәркәзи Комитәсинин мә'рузәси илә чыхыш етди.

Мә'рузә диггәтлә динләнилди вә дәфәләрлә алгышларла гаршыланды.

Сонра нүмајәндәләр мә'рузәнин мүзакирәсинә башладылар.

Үмумиттифаг партија конфрансы ишини давам етдирир.

**ҮРӘКДӘН БӘЈӘНИРИК**

***"Şuşa" qəzeti, 30 iyun 1988-ci il***

Bu ərəfədə Şuşada minalanmış sahələr zərərsizləşdirilmiş, xeyli döyüşçü qısa müddətə məzuniyyətə buraxılmışdı. Şuşa taburu ştatında 1500-ə yaxın döyüşçü olduğu halda, hücum günü

500 döyüşçü var idi. 200 könüllü əsgər sılahı ilə şəhəri tərk etmişdi. Xüsusi milis taburunun döyüşçüləri mayın 4-də Şuşanı tərk edib, Böyük Kirsdə mövqe tutmuşdular.

Mayın 7-dən 8-nə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu. Hücumda 80 T-72 tankı, 6000-ə yaxın döyüşçü, o cümlədən xarici muzdlular iştirak edirdi. Şuşadakı milli qüvvələr qəhrəmancasına döyüşdülər. Lakin onlara kömək gəlmədi. Axşam şəhərdə qalan 30-40 müdafiəçi də şəhəri tərk etdi.

**Döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü.**

Şuşanı müdafiə etməkdə cavabdeh olan Azərbaycan Ordu hissələri Elbrus Orucovun komandanlığı altında düşmənə ciddi müqavimət göstərmədən Şuşadan bir qədər aralıdakı Turşsu kəndində mövqe tutdular. Şuşanı döyüşsüz tərk etmək əmrinin verilmə səbəbində isə heç şübhəsiz siyasi məqsədlər var idi (sonradan Şuşanı müdafiə etməyən Elbrus Orucova general rütbəsi və Milli Qəhrəman adı verildi).

Şuşanın işğalı ilə erməni quldurları Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını başa çatdırdılar.

---

***Qaynaq:***

*Azərbaycan tarixi (1941-2002-ci illər). VII cilddə. VII cild. Bakı, "Elm", 2008.*

## LAÇININ İŞĞALI

Şuşanın işğalından sonra 1992-ci ilin mayın 18-də Azərbaycanın gözəl bölgələrindən biri olan Laçın rayonu ermənilər tərəfindən işğal edildi. Beləliklə, Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqəni təmin edən dəhliz yarandı.

**Həm Şuşa, həm Laçın həqiqətən həm də siyasi proseslərin qurbanına çevrildi. Mayın 8-dən mayın 18-nə qədər, yəni Şuşanın işğalından Laçının işğalına qədərki proseslərin Bakıdakı gedişatına diqqət etsək, işğalın çox səbəbləri aydın olar.**

***Hadisələrin xronikası:***

**8 may 1992-ci il** - Şuşa işğal edildi.

**12 may 1992-ci il** - A. Mütəllibovun qüvvələri mayın 3-dən başlanan fasiləsiz piketlərdən sonra Milli Şuranın iclas salonuna girib Şura üzvlərini silahla hədələdilər, Ali Sovetin sessiyasını çağırmağı tələb etdilər. 26 nəfər Şura üzvü sessiyanın çağırılmasına səs verdi.



120 + 200

3.

0151 №-ли әмрлә Лачын әрази мүдафиә полку бурахылмышдыр. Һәмин әмри тәгдим едирәм:

Приказ от 30 апреля 1992 года
№ 0151

"О расформировании отдельного полка территориальной обороны в/ч 811"

1. Расформировать отдельный полк Территориальной Обороны в/ч 811 и ввести /!/ в состав отдельной бригады в/ч 704.

С 1-го мая 1992 года прекратить пользоваться прежним условным наименованием в/ч 811 Отдельный полк ТО.

.
.
.

5. Командиру полка, числящуюся технику, вооружение, имущество передать командиру в/ч 704 к 5 мая.

МО: Р. Казиев.
НШ: Ш. Мусаев

Көрүндүјү кими, әмрин ичрасы мәнә јох, коменданта, 704 №-ли һәрби һиссәнин командиринә мәхсусдур. Мәндән јалныз техника, силаһ вә аваданлығы тәһвил вермәк тәләб олунмушдур. Һеч ким нә мәндән, нә дә Бакыја кәләркән јеримә тә"јин етдијим мүавинимдән силаһ вә с. тәһвил вермәји тәләб етмәмишдир. 0151 №-ли әмрдә һаггында данышылан МН комиссијасы исә һеч јерлијдибли Лачына кәлмәмишдир.

30 апрел 0151 №-ли әмрин мәтни илә мән јалныз истинтаг изолјаторунда таныш олмушам.

Мән, о вахтлар Бакыда оларкән мәнә дејилди ки, 0151 №-ли әмрлә Лачын полку бурахылыб. Вәссалам!

Иттиһамнамәдә көстәрилир:

А.Пашајев "Мүдафиә Назири Р.Газыјевин иш јеринә кәлиб, МН-ин биринчи мүавини вә Баш Гәраркаһын рәиси кенерал-мајор Ш.Мусајевин јанында Е.Оручовун бригада командири тә"јин олунмасына е"тираз едиб онун һәмин вәзифәдән көтүрүлмәсини тәләб етмиш вә экс тәгдирдә она табе олмајачағыны ачыг ашкар билдирмишдир.

Лакин Ш.Мусајев Назир Р.Газыјевин отағында А.Пашајевин һәмин һәрәкәтләрини һәрби интизамсызлыг кими гијмәтләндирмиш она кәскин ирад тутмуш вә тә"чили олараг кери, јә"ни хидмәт етдији һәрби һиссәјә гајыдыб бригада командиринин әмрләрини јеринә јетирмәји тәләб етдикдә, А.Пашајев онун көстәришләрини јеринә јетирмәјиб мүбаһисә етмишдир..."

*Laçın alayının ləğv edilməsi sənədi.*
*30 aprel 1992-ci il*

**13 may 1992-ci il** - Milli Təhlükəsizlik naziri İ. Hüseynov televiziya ilə çıxış edib, böhrandan çıxmaq üçün ölkədə nizam-intizam yaradılmasının vacibliyini bildirdi.

**14 may 1992-ci il** - Ali Sovetin sessiyası azlıqda qalan "Demblok"un etirazına baxmayaraq Ayaz Mütəllibovu vəzifəsinə qaytardı. A.Mütəllibov fövqəladə vəziyyət tətbiq edilməsi, siyasi azadlıqların məhdudlaşdırılması ilə bağlı fərman verdi. Milli Şura buraxıldı. Prezident seçkiləri ləğv edildi. Eyni zamanda AXC ilə əməkdaşlıq üçün Xalq şairi B.Vahabzadəni vasitəçi olaraq danışıqlara göndərdi. AXC sədri Ə. Elçibəy təşkilatın bəzi üzvləri vasitəsi ilə (Qurban Məmmədov) Naxçıvanla – H. Əliyevlə əlaqə saxladı. H. Əliev A.Mütəllibovla danışıqlardan imtina etməyi tövsiyə etdi. AXC rəhbərliyi onun mövqeyini qəbul etdi.

**15 may 1992-ci il** - AXC qərargahı qarşısında (indiki Bülbül prospekti) mitinq keçirildi, orada H.Əliyevin etiraz bəyanatı dəfələrlə səsləndirildi (bu və digər faktlar sübut edirdi ki, H.Əliyevin AXC-yə güclü təsir imkanları olub). AXC fəalları A. Mütəllibovun danışıq aparmaq təklifini rədd edib, saat 16-dək Prezident iqamətgahını tərk etməsi tələbini irəli sürdülər. Saat 16-dan sonra AXC fəalları si-




*11 maydan 15 mayadək hərbi qüvvələrin vəziyyəti.*
*1992-ci il*

lahlı qüvvələrin, zirehli texnikanın müşayiəti ilə Parlament binasına hücum etdi. Atışmada bir nəfər öldü, üç nəfər yaralandı. Parlamentin, Dövlət Teleradio Şirkətinin binaları, Prezident sarayı zəbt edildi. A.Mütəllibov gizlicə Rusiyaya qaçdı.




***16 may 1992-ci il. Müdafiə Nazirliyinin qüvvələri əhəmiyyətli mövqeləri tərk edir***

**16-17 may 1992-ci il** - Yaranmış böhrandan çıxmaq üçün koalision hakimiyyət yaradılması və AXC namizədi İsa Qəmbərovun Ali Sovet sədrliyinə namizəd göstərilməsi qərara alındı.

**18 may 1992-ci il** - Ali Sovetin sədri Y.Məmmədovun istefası qəbul edildi. İ.Qəmbərov Respublika Ali Sovetinin sədri seçildi. Yeni seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirmək ona həvalə edildi. Ali Sovetin Milli Şurası "Milli Məclis" adlandırıldı, parlament səlahiyyətləri ona verildi. Yaradılan koalision hökumətə isə AXC və keçmiş kommunistlər daxil idilər.

**Bu proseslərin getdiyi dövrdə, mayın 18-də Laçın işğal edildi.**

Qeyd edək ki, sonrakı dövrdə də Azərbaycanda siyasi hakimiyyətdə gərginlik yaranan kimi ermənilər torpaqlarımızı işğal etdilər (yada salaq: 1993-cü ildə baş verən iyun hadisələrini. Həmin dövrdə S.Hüseynov qiyamı, Ə.Elçibəyin Prezident və Ali Baş komandan səlahiyyətlərindən istifadə etmədən Bakını tərk etməsi, Rusiyanın təzyiqləri, nəticədə ermənilər tərəfindən beş rayonun işğal edilməsinə gətirib çıxardı).

***Qaynaq:***

*Azərbaycan tarixi (1941-2002-ci illər). VII cilddə. VII cild. Bakı, "Elm", 2008.*

## ERMƏNİ İŞĞALÇILARINA QARŞI MÜQAVİMƏT. RUSİYA HƏRBÇİLƏRİNİN ERMƏNİLƏRƏ DƏSTƏYİ. ÖZÜNÜMÜDAFİƏ DƏSTƏLƏRİNİN YARADILMASI

Ermənilərin 1988-ci ildən DQMV-ni Azərbaycandan ayırıb Ermənistana birləşdirmək istiqamətindəki siyasi və separatçı fəaliyyətləri bir qədər sonra hərbi müstəviyə keçdi. **Dağlıq Qarabağın siyasi yolla ələ keçirilməsinin qeyri-mümkünlüyünü başa düşən ermənilər zora, gücə, silaha üstünlük verdi. Bu "fəaliyyətdə" isə onlara əsas dəstəyi verən Rusiya hərbçiləri idi.**

Ermənilər rus hərbçilərindən həm silah əldə edərək Azərbaycan torpaqlarını işğala məruz qoyur, həm də onların birbaşa iştirakı ilə bu cinayətləri törədirdi. Rusların ermənilər tərəfindən bu əməliyyatlarda iştirakını sübut edən çoxlu sayda faktlar vardır. Xocalı qətliamında 613 nəfər dinc sakinin qətlə yetirilməsində Rusiyanın Stepanakertdə (Xankəndində) olan 366-cı motoatıcı alayının iştirakı və Xocalını məhz onların dağıtması təsdiq olunub. Həmin alayın Tuşev familiyalı kapitanının ələ keçirilərkən aqressiv ifadələr işlətməsi faktı da vardır. Təəssüflər ki, sonradan kapitan Tuşev müəmmalı şəkildə Azərbaycandan qaçırıldı.

**Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə SSRİ-ni (oxu: Rusiyanı) ciddi narahat edirdi.** Bu nəhəng imperiya Azərbaycan kimi vacib əhəmiyyəti olan, strateji mövqeyinin olduğu bölgəni əldən vermək istəmirdi. Bu planın gerçəkləşməsində isə həmişə olduğu kimi erməni amilindən istifadə edirdi. Müəyyən məqamlarda isə ermənilər Rusiyanın mövqeyinə qarşı çıxanda onları cəzalandırırdı (yada salaq: Çaykəndin və digər kəndlərin ermənilərdən azad olunmasında Rusiya həbçilərinin rolu).

Azərbaycanın keçmiş Prezidenti A.Mütəllibov da sonrakı müsahibələrində vurğulayırdı ki, Xocalının geriyə qaytarılması üçün Moskva ilə (yəqin ki, əsas da Rusiya hərbi dairələri ilə) razılaşma olmuşdu. Bir azərbaycanlı hərbçi isə bildirirdi ki, bundan ötrü rus hərbçilərinə verilməsi üçün böyük məbləğdə maliyyə də ayrılmışdı. Lakin 1992-ci ilin martın 6-da A.Mütəllibovun zorla istefaya göndərilməsi ilə əməliyyat dayandırıldı.

Eyni situasiya Şuşanın işğalı zamanı baş verdi. Əslində Şuşaya əsas giriş yolu minalandığından şəhərə hücum etmək qeyri-mümkün idi. Hə-

min günlərdə baş verən təxribatlardan biri, "guya ATƏT-in Minsk Qrupunun nümayəndələrinin Şuşaya getməsi üçün minaların təmizlənməsi" idi. Şuşanın müdafiəsinə bilavasitə cavabdeh olan Azərbaycan hərbçisi, sonradan general rütbəsi olan E.Orucov (əslində o, Sovet ordusunun bir zabiti idi) demişdi: "Biz Şuşadan çıxmışıq ki, əlverişli vəziyyətdə yenə qayıdaq". Döyüşsüz, müqavimətsiz Şuşanı tərk edən bu hərbçinin "müdafiəçiləri" kimlər idi?

Sonradan məlum olur ki, A.Mütəllibovun 1992-ci ilin mayın 14-də hakimiyyətə yenidən qayıdışından sonra Şuşanın qaytarılması da Rusiya hərbçilərinin planında varmış.

Yəni Azərbaycanda özünümüdafiə dəstələrindən nizami ordunun yaradılmasına keçid vacib bir proses olsa da, bu nizami orduya Sovet Ordusunda xidmət etmiş, Rusiyanın Hərbi dairələrinə birbaşa bağlı olan zabitlərin gətirilməsi etimadı doğrultmadı. Hətta bir zabitin Moskvadan – Müdafiə Nazirliyi sistemindən gələn telefon zənginə ayağa qalxıb rus "çesti" (zabit salamı-*red.*) verməklə cavablandırdığını da görənlər olub. Rusiya üçün ən münasib olanı Azərbaycanda tezliklə nizami ordunun yaradılması idi. Çünki **könüllü dəstələr öz kəndini, rayonunu, torpağını qorumaqda cəsarətli idi və sonadək döyüşürdü.** Onların bu fədakarlığından erməni quldurları da, onlara dəstək verən rus hərbçiləri də ehtiyatlanırdı. Lakin Rusiyada yetişib formalaşmış zabitlərdən ibarət olan bir ordu rəhbərliyini nəzarətdə saxlamaq daha asan idi (şübhəsiz ki, Qarabağ savaşında, Azərbaycan torpaqlarının ermənilərdən azad edilməsində Sovet və Rusiya ordusundan gəlib qəhrəmanlıqla savaşmış azərbaycanlı zabitlər də olmuşdu).

Nizami ordu rəhbərliyi Könüllü müdafiə dəstələrinin gücündən sonralar faydalanmadı. Az hallarda isə onlara sonradan imkan yaradılanda uğurlu nəticələr alındı. Məsələn, **Tərtər batalyonunun Ağdərənin düşmənlərdən azad edilməsindəki rolu danılmazdır. Arif Paşayevin Laçında, Allahverdi və Eldar Bağırovların Ağdamda, Əliyar Əliyevin Qubadlıda, Elçin Əmiraslanovun Tovuzda, Qazaxlı Alikin Qazaxda, Maşallahın Abdullayevin Goranboyda, Ramiz Qəmbərovun Şuşada yaratdıqları könüllü dəstələrin vətənimizin torpaqlarını qəhrəmanlıqla müdafiə etməsi heç vaxt unudulmayacaq!**

# MİLLİ ÖZÜNÜMÜDAFİƏ QÜVVƏLƏRİNİN YARADILMASI

Erməni işğalı getdikcə genişlənirdi. Bu vəziyyətdə Xalq Cəbhəsindəki müəyyən qüvvələr Milli Ordu yaradılması ilə bağlı tələblər irəli sürdü. 1991-ci ilin avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti A. Mütəllibov Milli ordu deyil, Milli qvardiya yaradılması təklifi ilə çıxış etdi. Onun bu təklifi Ali Sovetdə keçmədiyindən, Milli özünümüdafiə qüvvələri yaratmaq haqqında qərar qəbul olundu**. Həmin ilin sentyabrın 5-də isə Müdafiə Nazirliyi təşkil edildi.** 1991-ci ilin oktyabrın 9-da isə Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikası Silahlı Qüvvələri Haqqında Qanun qəbul etdi. Həmin ilin **noyabrın 19-da 22 rayon və şəhər özünümüdafiə taburu yaradılması haqqında əmr verildi.** Təklifi yerli əhalidən olan Qazax, Ağstafa, Ağdam, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Ucar, Gədəbəy və Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində, 1992-ci ilin fevralında isə Ağcabədi və Beyləqanda ərazi özünümüdafiə taburları yaradıldı. Həmin ilin martında Bakı, Gəncə, Laçın, Göyçay, Ucar, Ağdam və Mingəçevirdə xüsusi təyinatlı reyd dəstələri təşkil olundu. Bu qüvvələr müvəqqəti sayılır, yerli imkanlar hesabına saxlanırdı.

**1992-ci ilin fevralında** yerli əhalidən ibarət müstəqil hərbi hissələr təşkil olunurdu.

**1991-ci ilin sentyabrın 29-da** paritet əsasında iqtidar və müxalifəti təmsil edən 8 nəfərdən ibarət Milli Müdafiə Şurası yaradıldı. Bir qədər sonra Milli Müdafiə Şurasında olan bəzi şəxslərin silahlı dəstələr yaratması, hərbi hissələri öz nəzarəti altına alması səbəbindən Respublika Prezidenti 1992-ci il yanvarın 3-də bu qurumun buraxılması haqqında Fərman verdi. Dövlət Müdafiə Komitəsi təsis edildi.

Qısa müddətdə bir neçə Müdafiə nazirinin dəyişilməsi ordu quruculuğuna və nizami ordunun yaradılmasına mane olurdu. Azərbaycanın ilk Müdafiə Naziri general-mayor Valeh Bərşadlı olmuş – bir ay müddətinə; sonra polkovnik Tacəddin Mehdiyev başçılıq etmiş – iki ay müddətinə; mayor Tahir Əliyev – iki həftə müddətinə. Sonradan isə Hərbi təhsili və hərbi savadı olmayan, peşə etibarı ilə riyaziyyat müəllimi olan Rəhim Qa-

zıyev Müdafiə Naziri təyin edilmişdi. Rusiya hərbi dairələrinə, xüsusən Müdafiə Naziri Pavel Qraçova yaxınlığı ilə seçilən R. Qazıyevin nazir olduğu dövrdə Şuşa, Laçın kimi bölgələrimiz ermənilər tərəfindən işğal edildi.

1992-ci ilin fevralın 14-də MDB ölkələri başçılarının Minsk görüşündə Ukrayna, Belorus, Azərbaycan və Moldova qəti şəkildə Milli Ordu yaratmaq istədiklərini bildirdilər və keçmiş sovet ordusundan paylarını tələb etdilər.

1990-cı ildə imzalanmış, Avropada adi silahlı qüvvələr haqqında müqavilə şərtləri əsasında bu mirasdan, əhalinin sayı və digər göstəricilər nəzərə alınmaqla Azərbaycana 4,3 faiz, Ermənistana isə 2,8 faiz düşməsi nəzərdə tutulurdu.

1992-ci ilin mayın 15-də Daşkənd görüşündə Müdafiə naziri R. Qazıyev hər iki respublikaya bərabər sayda, özü də Azərbaycana əvvəl nəzərdə tutulduğundan xeyli az silah ayrılmasına razılıq verdi.

***Qaynaq:***
*1. Azərbaycan tarixi (1941-2002-ci illər). Yeddi clddə.Bakı, 2008.*
*2. M. Süleymanov. Azərbaycan Ordusu: 1991-1993. B., 1994.*
*3. TİEA, f. 1, s. 19, i. 8961, v. 22. 4. TİEA, f. 1, s. 19, i. 8953, v. 130.*

## LAÇINDA YARADILAN MÜVƏQQƏTİ FÖVQƏLADƏ KOMİTƏ. GİZLİ SİLAHLI TƏŞKİLAT – YENİLMƏZ LAÇIN BATALYONU

**1988-ci ilin fevralın 12-də** Arif Paşayevə və onun dostlarına məlumat çatdı ki, ermənilər etiraz mitinqlərinə hazırlaşır. Fevralın 13-də onlar Xankəndində oldu və ermənilərin aksiyalarını müşahidə etdilər. Oradan Ağdama gəlib Sadıq Murtuzayevlə görüşdülər və məsələnin ciddiliyini ona çatdırdılar. Eyni vəziyyəti Laçın rayonuna qayıdıb Birinci katib Xanlar Məmmədova da danışdılar.

Ermənilərin isə Laçın torpaqlarına maraqları çoxdan başlamışdı. Onlar yaşadıqları ərazilərdən daşları bizim kəndlərə doğru itələyir, torpaq sahələrini genişləndirməyə çalışırdılar. Malıbəyli və Cağazur kəndlərində bu, daha çox hiss olunurdu.



Laçın batalyonunun döyüşçüləri

Laçının vətənpərvər oğulları (başda Arif Paşayev olmaqla) dostları İsmayılın evinə toplaşıb müzakirələrə başladı. Yığışanlar arasında Tofiq Abdullayev, Teyyub Məmmədov, Rauf İsmayılov və digərləri var idi. Qərara aldılar ki, Müvəqqəti Fövqəladə Komitə adlanan gizli silahlı təşkilat yaratsınlar. Komitənin başlıca vəzifəsi rayon əhalisini silahla təmin etmək idi. Eyni zamanda Xankəndində ermənilərin özbaşınalığına cavab olaraq 1988-ci ilin fevralın 15-də 3-4 min adamın iştirakı ilə küçə yürüşü keçirildi. Yürüşün şüarları bu idi: "Çiçəklən, doğma Azərbaycan!", "Torpağımızın bir qarışını kimsəyə vermərik!"

Yürüşü təşkil etdiklərinə görə təşkilat üzvlərini həm milis idarəsinə, həm də DTK-nın rayon şöbəsinə çağırıb sorğu-suala çəkdilər.

Fevralın 17-də təşkilat sədri A. Paşayev Salyana gəlib, burada bir dostunun köməyi ilə silahlar əldə etməyə çalışdı. Eyni vaxtda o, Maştağaya gedib Zakir, Tarix adlı şəxslərlə danışıb, Laçına silahlar gətirdi. Gürcüstanın Qaraçöp bölgəsindən də Laçına silahlar göndərildi.



***Laçının igid döyüşçüləri*** *(soldan Arif Paşa dostları ilə)*

Təşkilata yer də alındı. Laçında Veteranlar Bağında, onlara məxsus yerdə bir otaq aldılar və ora qərargaha çevrildi. Təşkilat ətrafında bir neçə minlik silahlı dəstələr



*Cəsur döyüşçülər*

toplaşmışdı. Aprelin 29-da Gəncədəki Tikiş kombinatı Laçın döyüşçüləri üçün şinel materialdan paltarlar göndərdi. Laçın döyüşçüləri qollarına ağ parçalar da bağlayırdı.

Laçının bütün sərhəd kəndləri istiqamətində gözətçi məntəqələri təşkil olunmağa başladı. Rayon rəhbərliyi ilə də münasibətlər quruldu. Rayon Polis idarəsinin rəisi "Müdafiə Komitəsi" sədrinin (Arif Paşayevin) müavini oldu.

1988-ci ilin 28 May İstiqlal gününə də təşkilat fəalları ciddi hazırlıq gördü. M.Ə.Rəsulzadənin, yaxud M.B.Məmmədzadənin hansı kitabındansa üçrəngli bayrağın şəklini tapıb 400-ə qədər bayraq hazırladılar. Laçın Univermağının direktoru Rövşən Əsgərov bir top yaşıl, bir top da qırmızı parça verdi. Göy rəngli parçanı isə gedib Yevlaxdan aldılar. 350 ədəd bayrağı Laçın Məişət Xidmətinin dərzisi Vaqif Hacıyev, 50 ədədini isə A.Paşayevgilin evində hazırladılar. Mayın 28-də səhər saat 4-də üçrəngli bayraqları işıq dirəklərindən və rayon Partiya Komitəsinin binasından asdılar. Günorta məcbur olub bayraqları yığışdırdılar.

**1988-ci ilin may-iyun aylarında Laçın rayonda Xalq Cəbhəsi Komitəsi yaradıldı.**

Laçın döyüşçüləri "əfqanka" adlanan sovet əsgəri forması geyinir, papaqlara isə aypara və ulduz işarəsi qoyurdular.

Laçın döyüşçüləri aypara-ulduzlu formada köməyə gedəndə, rus əsgərləri qorxuya düşüb "gələn Türk əsgərləridir" – demişdilər.

Laçın ərazisindəki idarə və təşkilatların da köməyi ilə mükəmməl xalq müdafiə sistemi yaradıldı. Laçın döyüşçülərindən Vaqif Salmanov, Mübariz Əsgəran, İsabala Əsgərov, Qambay Məmmədov, Qalib Abdullayev, Elçin Abbasov, İlhami Şükürov, İldırım Məmmədov, Ovçu Tahir, Şakir və digərləri xüsusi fərqlənirdilər. Ermənilərin istənilən basqıları bu igid insanlar tərəfindən dəf edilirdi.

**1991-ci ilin sentyabrın 28-də** həmin döyüşçülərin bazası və Laçın rayon Müdafiə Komitəsinin əsasında Laçın Rayon Ərazi Müdafiə Ba-

talyonu yaradıldı. Laçın rayon İnternat məktəbinin binası təmir edildi və batalyon orada yerləşdirildi.

**1991-ci ilin oktyabrın 1-də** general V.Bərşadlının əmri ilə Laçında kazarma şəraiti tətbiq edildi. Batalyon komandiri Arif Paşayev Rafiq Nağıyevi, Aydın Alıyevi, Şikar Məmiyevi özünə müavin təyin etdi. Sovet ordusundan qaçıb gələn laçınlı əsgərlər batalyona qoşuldular. 1991-ci ilin oktyabrın 3-dən əsgərlik yaşı çatanları isə səfərbər edib öz bölgələrinə göndərdilər.

1991-ci ilin oktyabrın 15-də 560 nəfərin andiçmə mərasimi oldu. Əsgərlər isə hərbi marş olaraq “Sıravi Əhməd”i oxuyurdular. Həmin vaxt Türk marşlarından olan “Arş irəli” marşını tapdılar və Laçın Musiqi Məktəbinin direktoru Vəli Məmmədov ona musiqi bəstələdi. O dövrdə bəstəkar Cavanşir Quliyev Laçına gəlmişdi və batalyonun əsgərləri (əsasən Əhliyyət adlı birisi) həmin marşı ona verdilər (sonradan C.Quliyev marşa təsirli və coşqulu musiqi bəstələdi).

**Laçının “Qayğı” qəsəbəsində** olan rus hərbi batalyonu ilə də danışıqlar aparıldı ki, onlar Laçın döyüşçülərinə hazırlıq keçsinlər. Ruslar buna razı oldu. Burada məqsəd rusların silahlarını əldə etmək idi.

Batalyon komandiri A. Paşayev bir neçə dostu ilə rus hərbçilərinin məclisinə gedib, onlarla bir yerdə oldu. Sonra fürsətdən istifadə edib ərazini minaladılar. Rus hərbçilərinə şərt qoyub onları tərksilah etdilər. Rus generalı Şerbakın desant göndərmək “əməliyyatı” da baş tutmadı. Həmin silahlardan Qubadlı batalyonuna da verildi.

Laçın batalyonu isə erməniləri və onlara dəstək verən rus hərbçilərini narahat edirdi. Azərbaycanın Müdafiə Nazirliyi sistemini isə rus hərbçiləri tədricən nəzarətlərinə alırdı.

1992-ci ilin martın 27-də Müdafiə Nazirliyinin əmri ilə Laçın Ərazi Müdafiə Batalyonu bazasında 4 batalyon birləşdirilib hərbi hissə – **Laçın alayı** yaradıldı.

1992-ci ilin aprelin 24-də Müdafiə Nazirliyindən (Müdafiə Naziri isə heç bir hərbi savadı olmayan Rəhim Qazıyev idi) gəlib Laçın alayındakı zirehli texnikanın Bakıya göndərilməsini tələb etdilər. Laçın alayını isə Laçından çıxarıb Cəbrayıla – Ziyarət dağı istiqamətinə göndərmək cəhdi də oldu. Komandir A. Paşayev narahatlıq hissi ilə Bakıya gəlib problemi aydınlaşdırmaq istədi. Şikar Şikarov ona məlumat verdi ki, hərbi hissə aprelin 30-da ləğv edilib və ehtiyatlı olun. Həmin 1992-ci il 01(351) saylı

əmri Baş Qərargah rəisi Şahin Musayev hazırlamış, R. Qazıyev isə "Laçın alayı" bizə tabe olmur – demişdi.

**Ləğv edilmiş Alayın döyüşçülərini "guya Laçına dörd yerdən hücum olacaq" adı ilə əsas mövqedən, zərbə istiqamətindən çıxarıb, Ermənistanla sərhədə göndərdilər**. Mayın 15-də isə Laçının Dağlıq Qarabağ istiqamətindəki bütün qüvvələri əmrlə buradan uzaqlaşdırıldı, qalanlar isə mühasirəyə düşdü. Rus hərbçilərinin dəstəyini alan doqquz minə qədər erməni döyüşçüsü 50 zirehli texnikanın köməyi ilə Laçına hücuma keçib rayonu işğal etdilər.

***Qaynaq:***
*Arif Paşayevin şəxsi arxivi.*

## KƏLBƏCƏR KÖNÜLLÜ MÜDAFİƏ DƏSTƏSİ. KOMANDİR İLHAM HƏSƏNOV

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlananda Kəlbəcərdə də özünümüdafiə dəstələri yaradılmağa başladı. İlk belə dəstələr AXC dövründə (1989-1992-cü illərdə) Kəlbəcərin İcra Başçısı olmuş İlham Həsənovun fəallığı ilə yaradılmışdı.



***İlham Həsənov döyüşdə yaralanmış Azərbaycan əsgəri ilə***

**İlham Həsənovun** məlumatına əsasən, ilk özünümüdafiə dəstəsi yarananda, onların sayı 25-30 nəfər olsa da, az keçməmiş bu rəqəm 350-400-ə çatdı. SSRİ rejiminin mövcudluğu və sərt qaydaları çərçivəsində silah əldə etmək çətin olduğundan, ilk vaxtlar ov tüfəngləri ilə silahlanırdılar. Sonradan – 1990-cı ildən başlayaraq – Sovet Ordusundan - rus zabitlərindən silah almaq mümkün oldu. Bir qədər sonra könüllü müdafiə dəstələri batalyon olaraq for-

malaşdı. Bu dövrdə Azərbaycanda Müdafiə Nazirliyi yaradılmışdı. Odur ki, Kəlbəcər döyüşçülərindən ibarət olan ikinci batalyon da formalaşdırılıb Nazirliyə təhvil verildi.

İ.Həsənov qeyd edir ki, bu silahlı qüvvələrin formalaşmasında kəlbəcərli döyüşçülərdən Asif Süleymanovun, Tahir Mehdiyevin (rəhmətə gedib), Səlim Əsgərovun, Rüstəm Orucovun, Zamin Həmidoğlunun və digərlərinin böyük rolu olub. Eyni zamanda, bu silahlı dəstələrin formalaşmasına Kəlbəcər camaatı da ciddi dəstək verirdi. 1993-cü ilə qədər ermənilər Kəlbəcərin bir kəndini belə işğal edə bilməmişdi (yalnız Ağdaban faciəsi istisna olmaqla. Oradan da ermənilər qovulub çıxarılmışdı).

Kəlbəcər batalyonundakı döyüşçülər Ağdərənin azad edilməsində, "Atek" əməliyyatında böyük fəallıq göstərmişdi. Döyüşçülər İ.Həsənovun başçılığı altında 12 nəfərə qədər itki versələr də, erməniləri daha ağır itkiyə məruz qoyaraq, Laçına daxil olmuş, lakin sonradan kömək göstərilmədiyindən oranı tərk etmişdilər.

**Ağdərənin Narışlar kəndinin azad edilməsində də kəlbəcərli döyüşçülərin fəallığı olmuşdu.**

***Qeyd: əlavə edək ki, Bakıda çap edilən "Azadlıq" qəzetini də Kəlbəcər rayon Xalq Cəbhəsinin sədri və sonradan rayonun İcra Başçısı olmuş İlham Həsənov həftədə bir dəfə gətirib Tərtər, Yevlax, Bərdə, Kəlbəcər cəbhəçilərinə paylayırdı.***

---

***Qaynaq:***
*İlham Həsənovun şəxsi arxivindən.*

## AĞDAM ÖZÜNÜMÜDAFİƏ DƏSTƏLƏRİ
**(Uğurlu döyüşlər. Kəndlərin erməni quldurlarından azad edilməsi)**

Ağdamda könüllü müdafiə dəstələrinin yaradılmasına 1988-ci ilin 20 fevralından başlanıldı. Həmin gün Ağdamda mitinq keçirildi. Mitinq iştirakçıları ermənilərin Dağlıq Qarabağda törətdikləri özbaşınalığa etiraz olaraq Əsgərana yürüş etdilər. Əsgəranın yaxınlığında erməni tərəfi ilə üzüzə dayandılar. İki ağdamlı – Bəxtiyar və Əli ermənilərin və sovet hərbiçilərinin atdığı güllədən həlak oldular.

Bu hadisədən sonra 50 saylı Peşə Məktəbinə toplaşan fəallar (sonradan cəbhəçilər) kiçik müdafiə dəstələrini yaratmağa başladı. **İlk fəallar**

**– Eldar Bağırov, Əkbər Rüstəmov, Rüstəm Hacıyev və digərləri idi.**

Bir qədər sonra isə AXC-nin dayaq dəstələri nəzdində kiçik dəstələr formasında sərhədyanı kəndləri qorumağa başladılar.



*Ağdam döyüşçüləri*

Ağdam könüllüləri Xankəndində və ətraf bölgələrdə ermənilərin təzyiqlərinə məruz qalan soydaşlarımıza ərzaq, sursat aparıb paylayırdı.

Eyni zamanda Ağdama Azərbaycanın müxtəlif bölgələrindən könüllü dəstələr gəlir, kömək göstərirdilər.

1991-ci ildə sentyabr-oktyabr aylarında könüllü özünümüdafiə dəstələrinin bazasında Ağdam özünümüdafiə batalyonu yaradıldı və hərbçi **Şirin Mirzəyev** komandir təyin edildi. Komandir müavinləri aşağıdakılar idi: **Fəxrəddin Rəcəbov, Şahin Nəzərov.**

1992-ci ilin iyunun 18-də Ağdamda Ərazi batalyonu əsasında polk (alay) yaradıldı. Polkun nəzdində 3 batalyon və tədris batalyonu da var idi (836 saylı). Tədris batalyonunun komandiri isə polkovnik-leytenant **Mustafa Əliyev** idi. Qısa müddətdə burada 1500-ə qədər əsgərə təlim keçildi.

**Bu işlərin həyata keçirilməsində Eldar Bağırovun böyük xidmətləri var idi. O, həm AXC Ağdam şöbəsinin sədri, həm də Milli Məclisin deputatı idi.**

**1992-ci ilin 21 martında isə Allahverdi Bağırovun komandirliyi ilə 845 saylı, 2-ci Ağdam Ərazi özünümüdafiə batalyonu yaradıldı.**



*Allahverdi Bağırov*

Yaradılan bu silahlı dəstələr uğurlu döyüş əməliyyatları keçirdi. Əsgəranın ermənilər yaşayan 5 kəndi – Aranzəmin, Pircamal, Naxçıvanik, Ağbulaq, Dəhraz 2 saat 40 dəqiqə ərzində tamamilə azad edildi. Ermənilər 7 dəfə hücum etsələr də, geri çəkilməyə məcbur oldu. Hətta radiasiya ilə deyirdilər: “Arə, bu tiplər, o tiplərdən deyil”.

Ağdam döyüşçüləri sonradan Qazançı, Ballıqaya, Sırxəvənd, Umudlu kəndlərinin azad edilməsində, qorunub saxlanılmasında fədakarlıqlar göstərdi.

**Ağdamın müdafiə olunmasında Yaqub Rzayevin (Ala Yaqub), Asif Məhərrəmovun (Fred Asif) da böyük xidmətləri vardı.**

***Qaynaq:***

*1. Əkbər Rüstəmovun şəxsi arxivi.*

*2. Fəxrəddin Rəcəbovun şəxsi arxivi.*

## İLK ÖZÜNÜMÜDAFİƏ BATALYONLARI. ETİBAR ƏMİRASLANOV



***Etibar Əmiraslanov***

1988-ci ildə, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlayanda ilk özünümüdafiə dəstələri yaradanlardan biri **Etibar Əmiraslanov** oldu. Onun yaşadığı Əlibəyli kəndi ermənilərin altı kəndi ilə üz-üzədir. Vəziyyət gərginləşəndə və ermənilər fəallaşanda E.Əmiraslanov öz təşəbbüsü və vəsaiti hesabına Əlibəylidə müəyyən yerlərdə səngərlər qazdırdı. Bütün sərhəd boyu qurğular qurdurdu. Tez bir zamanda 200-dən çox könüllü E.Əmiraslanovun dəstəsinə qoşuldu. Belə bir vaxtda – 1990-cı ildə sərhəd boyu (Tovuzun ermənilərlə 96 km sərhədi var) həm Ermənistan tərəfə, həm də Azərbaycan tərəfə rusların sülhməramlı əsgərləri yerləşdirildi. Həmin vaxtdan ermənilər rus əsgərlərinin köməyi ilə Əlibəyli kəndini gülləbaran edirdi. Tovuz rayonunda o zaman Sovet ordusunun iki bölüyü vardı: biri Tovuzun Ağdam kəndində, digəri Əlibəylidə idi. E.Əmiraslanovun başçılıq etdiyi dəstə əvvəl Ağdam kəndinə hücum edib, bütün bölüyü ələ keçirdilər və xeyli silah-sursat götürdülər. Əlibəyli kəndində olan sovet hərbçilərinə pul təklif edib silahları aldılar. Bundan sonra bütövlükdə Tovuzun müdafiəsi təmin edildi.

Azərbaycanda Milli Ordu yaradıldıqdan sonra E.Əmiraslanov batalyon komandiri kimi fəaliyyət göstərdi. İlk ciddi uğuru  dəniz səviyyəsin-

dən 1500 metr yüksəklikdə olan Çənlibel yüksəkliyini itkisiz götürmək oldu ("Çənlibel" yüksəkliyi qərb zonasının açarı sayılır).

E. Əmiraslanov 1961-ci ildə Tovuz rayonunun Əlibəyli kəndində doğulub. Əfqanıstanda hərbi xidmətdə olub. Tovuzda ilk özünümüdafiə batalyonunu yaradıb. Milli Ordu yaradıldıqdan sonra hərbi xidmətini batalyon komandiri kimi davam etdirib. Döyüşlərdə dörd dəfə ağır yaralanıb. **"Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.**

1995-ci ilin noyabrından könüllü olaraq ordudan uzaqlaşıb.

## TƏLƏBƏLƏRDƏN İBARƏT İLK RƏSMİ SİLAHLI DƏSTƏLƏRİN YARADILMASI

Dağlıq Qarabağda ermənilərin vəziyyəti kəskinləşdirməsi ilə bağlı çoxlu sayda könüllülər Vətən torpaqlarını qorumağa hazır olduqlarını bildirirdilər. Onlar müxtəlif hərbi dəstələrə qoşulur, döyüşür, böyük şücaət göstərirdilər.



"УТВЕРЖДАЮ"
Начальник Главного Штаба Министерства Обороны Азербайджанской Республики
генерал-майор Ш.МУСАЕВ

СОГЛАСОВАНО
Руководители ВУЗов
"___" ______ I992 г.

ШТАТ
отдельного усиленного взвода студентов
при 808-м Кедабекском территориальном батальоне самообороны

| №№ пп | Должность по штату | Воинское звание по штату | Воинское звание фактич. | Ф.И.О. | Должност. оклад | Примечан. |
|---|---|---|---|---|---|---|
| I | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| I. | Командир взвода | ст.л-т. | ряд. | Мамедов Сабир Рза оглы | | АК.ПМ.Б. |
| 2. | Зам.ком.взвода | ст.л-т | ряд. | Рагимов Физули Якуб оглы | | АК |
| 3. | Ст.стрелок-радио-телефонист | ефр. | ряд. | Гусейнов Казым Оруч оглы | | АК |
| 4. | Стрелок-санитар | ряд. | ряд. | Абдуллаев Эйваз Исмаил оглы | | АК |
| | I-ОЕ ОТДЕЛЕНИЕ | | | | | |
| 5. | Командир отделения | с-нт | ряд. | Мусаев Азер Гусейн оглы | | АК |
| 6. | Снайпер | ряд. | с-т. | Гасымов Гасан Рафаил оглы | | СВД |
| 7. | Гранатаметчик | ряд. | ряд. | Абдуллаев Джаваншир Галиб оглы | | РПГ-7 |
| 8. | Помошник-гранатомет. | ряд. | ряд. | Шакиев Ибрагим Шамил оглы | | АК |
| 9. | Пулеметчик | ряд. | ряд. | Юсифов Эльдар Ибрагим оглы | | РПК |
| I0. | Стрелок-радиотелеф. | ряд. | ряд. | Гасымов Физули Джаваншир оглы | | АК |
| II. | Стрелок | ряд. | ряд. | Мамедов Бахман Башир оглы | | АК |
| I2. | Стрелок | ряд. | ряд. | Рабиев Видади Нариман оглы | | АК |

***808 saylı Gədəbəy özünümüdafiə batalyonuna (taburuna) tabe olan ayrıca tələbə bölüyü***

1992-ci ilin martın 16-da Azərbaycan Respublikası Müdafiə Naziri Tahir Əliyevin "078" saylı əmri ilə 808 saylı Gədəbəy özünümüdafiə batalyonuna (taburuna) tabe olan ayrıca tələbə bölüyü yaradıldı. Bu, o dövrdə Azərbaycanda yaradılan ilk rəsmi könüllü silahlı tələbə dəstəsi idi. **Yaradılan könüllü tələbə bölüyünün komandiri Baş leytenant Sabir Məmmədov (Bakı Dövlət Universitetinin müəllimi),** Bölüyün müavini Baş leytenant Füzuli Rəhimov, radio-telefonçu Kazım Hüseynov, atıcı-sanitar Eyvaz Abdullayev, Azər Musayev, Qalib Mehralıyev, Fuad Quliyev, Ələddin Orucov idi.

---

***Qaynaq:***
*Sabir Məmmədlinin şəxsi arxivi.*

## LEYTENANT BABAK



***Leytenant Babak***

Azərbaycan xalqının apardığı Qarabağ mübarizəsinə başqa xalqların da qəhrəman oğulları dəstək verib.Onlardan biri də leytenant Barakdır.

**Leytenant Babak** Xarkov şəhərində doğulub. Sovet Ordusunun zabiti olub. Qubadlı rayonunda yerləşən hərbi hissədə xidmət edib. 1990-cı ildə Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin əhalisini qoruyarkən şəhid olub. **Qatili – hərbi məktəbdəki sinif yoldaşı idi.** 1990-cı ildə ölümündən sonra, Sovet İttifaqı Qəhrəmanı (sonuncu) adı verilib. Onun haqqında geniş məlumatı İBS telekanalından almaq olar.

***Qaynaq:***
*Yaşar Türkazərin şəxsi arxivi*

## AZƏRBAYCAN ORDUSUNA XALQ YARDIMLARI

Azərbaycan xalqı  torpaqlarını qoruyacaq güclü bir ordunun yaranmasına çalışırdı. Bu orduya övladlarını göndərir, ona yardım da edirdi. Bu, əsl xalq sevgisi və vətənpərvərlik nümunələri idi. Aşağıda təqdim edilən sənədlər bu faktların əyani sübutudur:

**1.** Naxçıvan Muxtar Respublikası Culfa kənd xəstəxanasının kollektivi adından yun corablar gətirilmişdir.

**2.** "Bizim göndərdiyimiz bu kiçik hədiyyəni böyük hədiyyə kimi qəbul etməyinizi xahiş edirik. Allah müharibədə vuruşan kişi və qadınlarımıza kömək olsun, onların qollarına qüvvət, dizlərinə taqət versin. Şamaxı rayon Muğanlı kənd orta məktəbinin müəllim və şagird kollektivi".

**3.** Bakı Baş Səhiyyə İdarəsi bildirir ki, tabeçiliyimizdə olan tibb müəssisələri tərəfindən Milli Müdafiə  Fonduna 1. 246 891 manat köçürülmüşdür. Hal-hazırda pul köçürülməsi davam edir. Abdullayev K. İ.

**4.** "İnter-Turan" Elmi-Tədqiqat İstehsalat Konserninin prezidenti Sa-

day Əhmədov tərəfindən 1 milyon 20 manatlıq dəyərində (107.730 qutu “Dımok”) filtrsiz siqaret gətirilib təqdim edilib.

**5.** Hacıyev Elşən Kərəm oğlu (Şəmkir rayonu, Qaracamirli kəndi) Milli Müdafiə Fonduna 100.000 min manat pul keçirib. 27 iyul, 1992-ci il.

**6.** “Azərbaycan Əzilmiş Günahsız Siyasi Qurbanlar Assosiasiyası”: “Rayonun müdafiəçilərinin maddi-məişət şəraitinə sərf etmək məqsədi ilə özümün və uşaqlarımın əmək haqqından 2000 manat pul baratı göndərdim. Haqq bizimlədir, qələbəmizə şübhə yoxdur.

**7.** Cəlilabad Xalq Cəbhəsinin sədri Miralim Bəhrəmov Cəlilabad Xalq Cəbhəsinin adından 50 min manat yardım edir. 27 iyun, 1992-ci il.



Азәрбајҹан Республикасы
«Хәзәр» Сәһмдар Ҹәмијјәти
«БУЛЛУР»
кичик мүәссисәси
Азербайджанская Республика
Акционерное Общество «Хазар»
Малое предприятие
«БИЛЛУР»
Р-с. № в Гянджинском
отд. Банка
№
На № от
Кәнҹә шәһәри — город Гянджа

СУМГАЈЫТ СӘҺМДАР ҸӘМИЈЈӘТИ "ХӘЗӘР"ИН КӘНҸӘ "БИЛЛУР4 КИЧИК МҮӘССИСӘСИНИН ФӘҺЛӘ ВӘ ГУЛЛУГЧУЛАРЫНЫН ГАРАБАҒЫН МҮДАФИӘСИНДӘ ҸАНЛАРЫНДАН КЕЧӘН МИЛЛИ ОРДУНУН ДӨЈҮШЧҮЛӘРИНӘ ЈАРДЫМ!

| | | |
|---|---|---|
| I. | Иманов Иман Гулу оғлу | 500 ман. |
| 2. | Иманов мобил Гулу оғлу | 500 ман. |
| 3. | Аллаһјарова Меһрибан Имран гызы | 500 ман. |
| 4. | Гулијев Илһам Нурәддин оғлу | 500 ман. |
| 5. | Әмраһов Әли Әмраһ оғлу | 500 ман. |
| 6. | Әскәров Елчин Фахрәддин оғлу | 500 ман. |
| 7. | Јусубов Исрәфил Исрәфил оғлу | 500 ман. |
| 8. | Мәммәдәлијев Шөһрәддин | 650ман. |
| 9. | Исмајлов Ариф Нәби оғлу | 500 ман. |
| IO. | Рзајев Мәһәммәд Һүсејнгулу оғлу. | 500 ман. |

ҸӘМИ: 5I50 ман.

(беш мин јүз әлли манат) гәбз № I, һ/һ II46IO

ДИРЕКТОР: И.ИМАНОВ.
МҮҺАСИБ: М.АЛЛАҺЈАРОВА.

*Milli Orduya xalq yardımları. 1992-ci il*

**8.** Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarını Müdafiə Cəmiyyəti Qax (Oğuz) rayon şöbəsinin təşəbbüsü ilə cəbhədə vuruşan əsgərlər üçün toplanmış və Respublika Müdafiə Nazirliyinə göndərilən vəsait, corab, siqaret, sabun, əlcək, meyvə, kibrit və s. siyahısı.

**9.** Sumqayıt Səhmdar Cəmiyyəti “Xəzər”in “Gəncə” “Billur 4” Kiçik Müəssisəsinin fəhlə və qulluqçularının Qarabağın müdafiəsində canlarından keçən Milli Ordunun döyüşçülərinə yardım!

1. İmanov İman Qulu oğlu – 500 manat. 2. İmanov Mobil Qulu oğlu – 500 manat. 3. Allahyarova Mehriban İmran qızı – 500 manat. 4. Quliyev İlham Nurəddin oğlu – 500 manat. 5. Əmrahov Əli Əmrah oğlu – 500 manat. 6. Əsgərov Elçin Fəxrəddin oğlu – 500 manat. 7. Usubov İsrafil İsrafil oğlu – 500 manat. 8. Məmmədəliyev Şöhrəddin – 650 manat. 9. İsmayılov Arif Nəbi oğlu – 500 manat. 10. Rzayev Məhəmməd Hüseynqulu oğlu – 500 manat.

Cəmi: 5150 man. Qəbz N1. h\h 114610.

Direktor: İ.İmanov, mühasib: M.Allahyarova. 15.07.92.



Азәрбајҹан ССР
Тикинти Назирлији
Мәнзил-коммунал
контору

Азербайджанская ССР
Министерство строительства
Жилищно-коммунальная
контора

373202 Сумгајыт, 9 квартал тел. 3-61-38 Сумгаит, 9 квартал Сумгаитский промстройбанк р-с № 281803

3234—1000

Исх. № 61 040 «03» 06 1992 г.

Хүсуси олараг Азәрбајҹан телевизијасынын „Күн" хәбәрләр програмы үчүн.

Азәрбајҹан республикасы Мүдафиә Назирлији Мәтбуат хидмәти идарәсинин тәлиматчысы лејтенант ӘДАЛӘТ ТЕЈМУРОВ јолдаша

Сизә мә"лум едирик ки, Азәрбајҹан Сәнајетикинти истеһсалат бирлијинин Сумгајытдакы Мәнзил Коммунал конторунун әмәк коллективи 10 апрел 1992-чи ил тарихдә мүдафиә фондуна 000583103 нөмрәли һесаба шифрә 501930, 3791 манат 71 гәпик мәбләғиндә вәсаит көчүрмүшләр.

Мә"луматын доғрулдуғуну имзамызла тәсдиг едирик.

Мәнзил Коммунал конторунун рәиси Бабаханов Х.А.

Баш мүһасиб Мурадова М.М.

**_Milli Orduya xalq yardımları. 1992-ci il_**

Qarabağ müharibəsi dövründə torpaqlarımızın müdafiəsi zamanı yaralanan döyüşçülərimizin adına hesab açılır, onlara yardımlar edilirdi.

1. Kərimov Faiq Rasim oğlu – gözlərinin işığını itirib. Bakı şəhəri Yasamal rayonu, 3540\0250 N saylı Əmanət Bankı: şəxsi hesab №-si: 46609; hesablaşma №-si164801: kod:501822.

2. Mirzəyev Yaşar Yusif oğlu – Xocalı faciısi zamanı onurğa beyni zədələnib. Doqquz aydır ki, xəstəlikdən əziyyət çəkir. Bakı şəhəri, Nəsimi rayonu, 7996\045 №-li əmanət bankı: şəxsi hesab №-si:86126; hesablaşma №-si:164501.

3. Nəsirov Nail Nemət oğlu – Baş beyin yarası alıb. Sağ qolu və iki ayağı işləmir. Bakı şəhəri, Yasamal rayonu, 3540\0250N-li əmanət bankı. Şəxsi hesab №-si:137021; MFO: 164801; kod: 501822.

---

***Qaynaq:***

*Ədalət Teymurlunun şəxsi arxivi (Müdafiə Nazirliyinin Analitik İnformasiya Xidmətinin keçmiş zabiti, istefada olan mayor. Ə.Teymurlu müharibədə itkin düşənlərlə bağlı sənədləri də şəxsi arxivində qoruyub saxlamaqdadır).*

## BEŞ GÜN ERMƏNİLƏRLƏ TƏK DÖYÜŞƏN, ÜÇRƏNGLİ BAYRAĞI ONLARA VERMƏYƏN NATİQ QASIMOV: "BAYRAĞI VƏ POSTU QOYUB GEDƏ BİLMƏRƏM"


***Natiq Qasımov - sol şəkildə erməni əsirliyində üçrəngli bayrağımızla***

Moskvada nəşr edilən "Oqonyok" jurnalının 1992-ci il aprel ayında (№14-15) müxbir Konstantin Smirnovun "Qorxu" məqaləsi çap olunub. Həmin məqalədə italiyalı fotomüxbir Enriko Sarrininin çəkdiyi bir görüntü verilib. Bu fotoda **azərbaycanlı döyüşçü Natiq Qasımov** ermənilərin əhatəsində olmasına baxmayaraq, üçrəngli bayrağı əlində saxlayıb.

Bu, savaşlar tarixində baş verən çox heyrətamiz bir hadisədir.

**Natiq Qasımov** 1971-ci ildə yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramuradlı kəndində anadan olub. Sonradan ailəsi ilə Mingəçevir şəhərinə köçüb. Məktəbi bitirdikdən sonra Azərbaycan DRES-də çilingər, "Kosmos" kinoteatrında kinomexanik işləyib. Rusiyanın Krasnoyarsk vilayətində Daxili Qoşunlarda hərbi xidmətdə olub. 1991-ci ildə ordudan tərxis olunduqdan sonra könüllü olaraq Vətənin müdafiəsinə gedir, Ağdamda Yaqub Rzayevin ("Ala Yaqub") başçılıq etdiyi Qarabağ Şahinləri batalyonunda vuruşur. Döyüş bölgəsindən evə qayıtdıqdan az sonra Xocalı soyqırımı baş verir. O, yenidən Qarabağ savaşına qatılır.

1992-ci ilin martında Qarabağ Şahinləri batalyonundan olan 31 nəfərlik dəstə Ağdamın Xramort kəndi yaxınlığındakı əhəmiyyətli bir yüksəkliyi ələ keçirir. Döyüşdə həlak olanlar da olur, digərləri isə geri qayıdır. Həmin yüksəklikdəki qədim alban kilsəsində Natiqlə birlikdə altı nəfər dostu qalır. Onlara kömək göndərilmir. Bütün dostları həlak olan Natiq beş gün təkbaşına ermənilərlə döyüşür və mövqeyi tərk etmir. Sonda ermənilər əsir götürdükləri iyirmi nəfər Xocalı sakinini o təslim olmayacağı halda qətlə yetirəcəklərini bildirirlər. Bu xəbəri Natiqə əsir götürülmüş, Xocalıda məktəb direktoru işləmiş Cəfər Cəfərov çatdırır.







***"Oqonyok" jurnalının Natiq haqqında məqaləsi. Aprel 1992-ci il***

C.Cəfərovun dedikləri: "... Yuxarı baxdım. Gecədən islanmış üçrəngli bayraq ağır-ağır yellənirdi. Bayrağa baxa-baxa ağladım. O, üzü üstə yıxılmışdı. Yaxınlaşıb yaralı olub-olmadığını soruşdum. Güclə cavab verdi ki, yaralı deyil. Su istədi. Su olmadığından ona bir neçə parça quru çörək verdim. Könülsüz də olsa çörəyi yedi. Dedi ki, komandirim məni altı nəfərlə bura göndərib. Yoldaşlarımdan üçünü ermənilər öldürdü, üçündən isə xəbərim yoxdur. Beş gündür ki, tək qalmışam.

Natiqdən niyə postu tərk etmədiyini soruşdum. Dedi ki, komandirə söz vermişəm, bayrağı və postu qoyub gedə bilmərəm. Kömək gözlədim, gəlmədi.

Natiqə ermənilərin tələbini çatdırdım. Eşitdiklərinin ürəyincə olmadığını hiss etdim. Dedi ki, iki gülləsi qalıb, axıradək vuruşacaq. Xahiş etdim ki, məni vur, qoy heç olmasa özümüzünkünün gülləsindən ölüm. Bir anlığa xəyala daldı: tutaq ki, Sizi vurdum, bəs mənə görə iyirmi nəfər əsirin güllələnməsinə necə razı olum? Natiq bayrağı endirdi, bir əlində avtomat, o birində bayrağı göyə qaldırdı, dalbadal havaya iki güllə atdı, ermənilərə tərəf qışqırıb onları yanına çağırırdı. Ermənilər əvvəlcə tərəddüd etsələr də, məni görüb tökülüşdülər. Natiqin üst-başını axtardılar. Onun bir neçə gün burada təkbaşına vuruşmasına heç cür inana bilmirdilər. Kilsəni aramsız avtomat atəşinə tutdular. Heç kimin olmadığını görəndə pərtliklərindən daha da qəzəbləndilər.

**Natiq əlində üçrəngli bayrağımız erməni yaraqlılarının arasında irəliləyərkən orada olan xarici jurnalistlər sözügedən məşhur fotonu çəkdilər.".**

Natiqin sonrakı taleyindən isə məlumat olmadı.

---

***Qaynaq:***

*1. N.Qurbanova. Bayrağı düşmənə verməyən oğul. Karabakhinfo. 09. 11. 2015. 2. Ü.Tahirqızı. Əlində üçrəngli bayraqla düşmən qarşısına çıxan döyüşçü. "Xalq Cəbhəsi" qəzeti, 20. 04. 2013.*

*3. "Oqonyok" jurnalı, 1992-ci il 4-18 aprel, № 14-15*

## BİRİNCİ BATALYONUN YARADILMASI

Nə qədər sizi xatırlayan var,
Nə qədər gözü yolda qalan var,
O qara geyimli sevgiliniz var,
Siz cavan qalacaq, yaşayacaqsınız –
Birinci batalyon, Birinci batalyon.
Birinci batalyon!
**(Ş. Musaoğlunun "Birinci batalyon" şeirindən)**

Azərbaycanda ordunun yaradılması əmrindən sonra ilk rəsmi olaraq formalaşan 18110 saylı hərbi hissə oldu. Bunun "Şıxov" adlanan keçmiş sovet hərbi hissəsinin olduğu yerdə və onun bazasında formalaşması nəzərdə tutulmuşdu. Sonra bu hissə 701 saylı adlandı.



*1-ci batalyonun əsgərləri*

Milli Ordunun yaradılmasından qürur keçirən, yeni formalaşan Birinci batalyonun ("Şıxov" batalyonu) zabitlərindən olan, birinci bölüyün komandiri Seyidağa Mövsümlünün təklifi ilə andiçmə mərasimi Şəhidlər Xiyabanında keçirildi. 1991-ci ilin dekabrın 8-də Bakının Azneft meydanında əsgər və zabitlər maşından düşüb sıraya düzüldü. Onlar "Dönmərik biz, dönmərik biz" mahnısını oxuyaraq, indiki Prezident Aparatının qarşısından keçərək müqəddəs Şəhidlər Xiyabanına getdilər. Batalyon əsgərlərini yolda görənlər göz yaşları içərisində "Şükürlər olsun, bizim də öz ordumuz var" deyirdi.


*1-ci batalyonun döyüşçüləri 26 ildən sonra*

Təntənəli andiçmə mərasimindən sonra batalyona Şuşada, Ma-

lıbəylidə vəziyyətin ağırlığını nəzərə alıb oraya getmək tapşırıldı. İstefada olan general-mayor Zaur Rzayev də orada idi. Döyüşçülər üçrəngli bayrağı qollarına, papaqlarına tikmişdilər. Onlarda böyük coşqu var idi. Ermənilərlə döyüşdə bu cəsur əsgərlər heç bir qorxu hissi keçirmirdilər.

---

***Qaynaq:***

*1. Seyidağa Mövsümlünün şəxsi arxivi. 2. Ş.Musaoğlu. Ağ Ümid. Bakı, 2017. 3. S.Səfərli. Lentə köçürülmüş həqiqətlər. "Azərbaycan" qəzeti, 6 may, 1997-ci il, №89 (1610).*

## "İGİD ƏSGƏR, MÖHKƏM DAYAN!" HƏRBİ MAHNISI

Bu şeirin və mahnının müəllifi Şahin Musaoğlu xatırlayır: "1990-cı illərin ağır, mürəkkəb, təlatümlü günləri idi. Təzə-təzə ordu quruculuğu formalaşırdı. Birinci batalyon deyilən ("Şıxov batalyonu") ilk əfsanəvi taborun qəhrəman döyüşçüləri Şəhidlər Xiyabanında and içərək, birbaşa cəbhəyə yollanırdı. Hamıda böyük ruh yüksəkliyi, qələbə əzmi, döyüş ruhu var idi. Mən də orada idim. O oğulların çoxu hazırda aramızda yoxdu, çoxu şəhid oldu... Bəziləri qazi olaraq dünyasını dəyişdi. Allah hamısına rəhmət eləsin. O hisslərin təsiri ilə bu şeiri yazdım. Amma anlatmaq istədiyimi verə bilmirdim. Çox işlədim, çalışdım, ora-burasına əl gəzdirdim, yenə razı qalmadım. Ağlıma bir fikir gəldi: "Bəlkə, bu hisslərimi əsgər nəğməsi və ya marşı kimi musiqi dilinə salım, - deyə düşündüm. Elə də etdim... "İgid əsgər" melodiyası bu mənada əlimdən tutdu".

Ş. Musaoğlu bu mahnını ilk olaraq ifa etmək üçün respublikanın xalq artisti Faiq Ağayevə müraciət edir. F.Ağayev Sankt-Peterburqa getdiyindən vəziyyət dəyişir. O dövrdə Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyev Şahinin işlədiyi xəstəxanada müalicə olunurdu. Hərbi diktor Şəmistan Əlizamanlı isə tez-tez xəstəxanaya gəlib Yusifə baş çəkirmiş. Ş.Əlizamanlı orada belə bir mahnının yazıldığını öyrənir və tez bir zamanda onun əvəzsiz ifaçısına çevrilir.

Bu mahnı ilk dəfə Milli Qəhrəman Yusif Mirzəyevə həsr edilmiş verilişdə səslənib. Sonra hər iki yaradıcı dost "Birinci batalyon", "Cənab leytenant" və digər hərbi-vətənpərvərlik mahnılarını ictimaiyyətə təqdim etdilər.

---

***Qaynaq:***

*Ş.Musaoğlu. Ağ ümid. Bakı, 2017.*

## İGİD ƏSGƏR, MÖHKƏM DAYAN!

***Sözləri və musiqisi Şahin Musaoğlunundur***
***(Mahnı ilk dəfə hərbi diktor Şəmistan Əlizamanlının ifasında səslənib)***

Çox sınadı bizi zaman,
Neçə şəhid getdi qurban.
Sinəsiylə sipər olan –
İgid əsgər, möhkəm dayan!

Ya azad ol, ya candan keç,
İki yoldan birini seç.
Azadlığın şərbətin iç,
İgid əsgər, möhkəm dayan!

Salam Vətən, salam ana,
Çətin gündə bizi sına.
Qanla cavab verək qana –
İgid əsgər, möhkəm dayan!

Şəhid qanı axan torpaq,
Yad ayaqda qalmaz tapdaq.
Düşmənlərin qan qusacaq –
İgid əsgər, möhkəm dayan!

## ŞAHİN MUSAOĞLU

Şahin Musa oğlu Əbilov 1963-cü il iyulun 11-də Masallı rayonunun Qızılağac kəndində anadan olub.


*Şahin Musaoğlu*

1992-ci ildə Ş.Musaoğlu özünün ilk türküsünü bəstələyir. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr olunmuş bu mahnı – "İgid əsgər, möhkəm dayan!" ilk dəfə televiziya ekranında səslənir. Sonradan o,

20 Yanvar şəhidlərininin xatirəsinə həsr olunmuş "Qərib karvan", Milli Ordunun ilk batalyonu haqda yazılan "Birinci batalyon" , "Cənab leytenant" mahnılarını da bəstələyir.

**ŞƏMİSTAN ƏLİZAMANLI**



*Şəmistan Əlizamanlı*

Əlizamanlı Şəmistan Hüseyn oğlu 1959-cu il fevralın 4-də Gürcüstan Respublikasının Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olub. 1979-81-ci illərdə Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrında aktyor işləyib.

Şəmistan Əlizamanlı bir çox tanınmış hərbi-vətənpərvərlik mahnılarını ("Əsgər marşı", "And içirik", "Çağırır Vətən", "Qalx, Azərbaycan!", "İgid əsgər", "Vətən əmanəti", "Öncə Vətəndir", "Can Azərbaycan!", "Birinci batalyon", "Cənab leytenant", "And içirəm", "İgid oğlum, leytenantım", "Sıravi Əhməd", "Çırpınırdı Qara dəniz", "Dağlar", "Azərbaycan-Türkiyə", "Ana yurdum", "Tanrı türkə yar olsun", "Heyran türkün bayrağına", "Qafqaz dağı, yol ver bizə" və s.) ifa edib.

**QARABAĞDA DÖYÜŞƏN HƏRBİ HİSSƏLƏR, BATALYONLAR VƏ HƏRBİ DƏSTƏLƏR**

Bu siyahı 1992-ci ilin iyun ayını əhatə edir. Ərazi özünümüdafiə batalyonları 1992-ci ilin aprel ayından briqadalara tabe edilmişdi. 1992-ci ilin iyul ayında Müdafiə Naziri Rəhim Qazıyev könüllü özünümüdafiə dəstələrinin nizami ordu hərbi hissələrinə daxil edilmələri haqqında əmr verdi. 1992-ci ilin avqust ayından başlayaraq könüllü özünümüdafiə hərbi hissələri, batalyon və dəstələri briqadaların tərkibinə ştat batalyonlar kimi daxil edildi.

**Briqadalar:**

701 saylı briqada - komandir Zaur Rzayev (Kəlbəcər-Laçın).

702 saylı briqada - komandir İsa Qasımov (Füzuli-Cəbrayıl-Beyləqan-Xocavənd).

703 saylı briqada - komandir Nəcməddin Sadıqov (Goranboy-Tərtər-Ağdərə).

704 saylı briqada - komandir Elbrus Orucov (Şuşa).

706 saylı briqada - komandir Nüsrət Namazov (Qubadlı).

707 saylı briqada - komandir İsa Sadıqov (Qazax-Tovuz-Gədəbəy-Şəmkir).

708 saylı briqada - komandir Elxan Orucov (Ağdam).

123 saylı zərbə-həmlə alayı - komandir Rəsul Süleymanov.

811 saylı Laçın alayı - komandir Arif Paşayev.

OMON – komandir Rövşən Cavadov.

**Batalyon və hərbi dəstələr:**

844 saylı Kəlbəcər Xalq Cəbhəsi batalyonu – komandir İlham Həsənov.

710 saylı batalyon - komandir Nəriman Zeynalov.

711 saylı batalyon - komandir Qorxmaz Qarayev.

712 saylı batalyon - komandir Balay Nəsibov.

713 saylı batalyon – komandir Süleyman Əhmədov.

714 saylı batalyon - komandir Çingiz Əliyev.

772 saylı batalyon - komandir İlqar Qəhramanov.

**Qeyd:** *Bu batalyonlar 1992-ci ilin avqust ayında 701 saylı briqadanın tərkibinə daxil edildi. Bu batalyonlardan əlavə Azərbaycan Milli Ordusunun həmin ərəfədə komandir Viktor Mudrakın rəhbərliyi ilə bir desant batalyonu da var idi.*

723 saylı batalyon – komandir Vahid Osmanov.

805 saylı Cəbrayıl ərazi müdafiə batalyonu - komandir Kamil Məmmədov.

Ziyalı batalyonu - komandir Mahir Həsənov.

831 saylı Xocavənd özünümüdafiə batalyonu – komandir Əbdürrəhman Əsgərov.

849 saylı Beyləqan özünümüdafiə batalyonu – komandir Elçin Hüseynov.

814 saylı Füzuli özünümüdafiə batalyonu – komandir Mobil Yusifov.

720 saylı batalyon – komandir Akif Məmmədov.

839 saylı Tuğ özünümüdafiə batalyonu – komandir Rasim İbrahimov.

848 saylı Axullu özünümüdafiə batalyonu – komandir Zahir Həsənov.

771 saylı batalyon – komandir Əzizağa Qənizadə.

776 saylı batalyon – komandir Eldar Ağayev.

702 saylı briqadanın artilleriya diviziyası – komandir Nizami Mirzəməmmədov.

721 saylı batalyon – komandir Aybar Vəliyev.

Ağcabədi özünümüdafiə batalyonu – komandir Tofiq Cəfərov.

23 saylı Quba-Qusar özünümüdafiə batalyonu - komandir Əli Eyvazov.

Küdrü qartalları (İmişli) batalyonu-Tariyel Şirinli.

**Qeyd:** *Bu batalyonlar 1992-ci ilin avqust ayında 702 saylı briqadanın tərkibinə daxil edildi. Ziyalı batalyonu isə DİN-in nəzdində yaradıldı.*

1-ci Goranboy batalyonu - komandir Azərbaycanın Milli Qəhrəmanı Məhəmməd Həsənov.

2-ci Goranboy batalyonu - komandir Azərbaycanın Milli Qəhrəmanı Rasim Əkbərov.

Gəncə özünü müdafiə batalyonu - komandir Mehman Ələkbərov.

Xanlar batalyonu- komandir Saleh İlyasov.

778 saylı xüsusi təyinatlı batalyon – komandir Viktor Mudrak.

235 saylı batalyon – komandir Rəsul Süleymanov.

224 saylı batalyon – komandir Camal Əliyev.

733 saylı Bərdə özünümüdafiə batalyonu – komandir Elçin Əliyev.

Azadlıq Bərdə özünümüdafiə batalyonu – komandir Ələmşah Məmmədov.

Milli Qurtuluş batalyonu – komandir Azərbaycanın Milli Qəhrəmanı Şahin Tağıyev.

Mingəçevir-1(MB-1) batalyonu – komandir Alı Yəhyayev.

Mingəçevir-2(MB-2) batalyonu – komandir Şaiq Mustafayev.

Tərtər özünümüdafiə batalyonu – komandir Elman Hüseynov.

Goranboy özünümüdafiə batalyonu – komandir Tacir Adıgözəlov.

Boz Qurd rezerv-həmlə batalyonu – komandir Nurəddin İsmayılov.

20 Yanvar batalyonu - komandir Rüstəm Rüstəmov.

**Qeyd:** *bu batalyonlar 1992-ci ilin avqust ayında 703 saylı briqadanın tərkibinə daxil edildi. 776 və 778 saylı batalyonlar isə hərbi hissə kimi formalaşdırıldı. Boz Qurd batalyonu Daxili İşlər Naziri İsgəndər Həmidovun şəxsi sərəncamında idi və heç bir briqadaya tabe deyildi.*

777 saylı batalyon - komandir Elçin Məmmədov.
Şuşa ərazi müdafiə batalyonu - komandir Fəxrəddin Səfərov.
Azərbaycan Qarabağ Könüllü batalyonu - komandir Tofiq Oğuz.
Yevlax özünü müdafiə batalyonu – komandir Cəlal Verdiyev.
Şuşa Rayon Xalq Cəbhəsi batalyonu – komandir Ramiz Qənbərov.
820 saylı Lənkəran batalyonu - komandir Mikayıl Hacıyev.
Kərkicahan özünümüdafiə batalyonu - komandir İslam Quliyev.
864 saylı batalyon - komandir Nail Kazımov.

**Qeyd:** *Bu batalyonlar 1992-ci ilin aprel ayında 704 saylı briqadanın tərkibinə daxil edildi.*

810 saylı Qubadlı özünümüdafiə batalyonu - 1991-ci ilin oktybarından 1992-ci ilin may ayına qədər komandir Dağbəyi Məhyəddinov idi. 1992-ci ilin may ayından etibarən batalyon komandiri şəhid Milli Qəhrəman Əliyar Əliyev oldu.
851 saylı batalyon - komandir Adil Həşimov.
843 saylı batalyon - komandir Dağbəyi Məhyəddinov.
846 saylı batalyon - komandir Aydın Şükürov.

**Qeyd:** *bu batalyonlar 1992-ci ilin avqust ayında 706 saylı briqadanın tərkibinə daxil edildi.*

Tovuz batalyonu - komandir Etibar Əmiraslanov.
Şəmkir batalyonu - komandir Cahangir Rüstəmov.

**Qeyd:** *Bu batalyonlar 1992-ci ilin avqust ayında 707 saylı briqadanın tərkibinə daxil edildi.*

836 saylı Ağdam özünümüdafiə alayı- komandir Azərbaycanın Milli Qəhramanı polkovnik-leytenant Şirin Mirzəyev.

868 saylı Qatır Məmməd adına Ağdam özünümüafiə batalyonu- komandir Yaqub Rzayev.

845 saylı Eldar Bağırov adına Ağdam özünümüdafiə batalyonu- komandir Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov.

859 saylı Ağdam mühəndis-istehkam batalyonu- komandir: Azərbaycanın Milli Qəhramanı Asif Məhərrəmov.

18112 saylı batalyon - komandir Xudu Xuduyev.

44060 saylı hərbi hissə - komandir Camal Əhmədov.

Qeyd: *Bu batalyonlar 1992-ci ilin avqust ayında 708 saylı briqadanın tərkibinə daxil edildi.*

Qeyd: *Həmin dövrdə yaradılan Zəngilan özünümüdafiə batalyonunun komandiri Bayram Məmmədov və digərləri idi.*

123 saylı zərbə-həmlə alayı və Gəncə batalyonu 1 aprel 1993-cü ildə yaradılan 709 saylı briqadanın tərkibinə daxil edildi. 1992-ci ildə komandir Mətləb Mustafayev Milli Qəhrəman Allahverdi Bağırov adına Artilleriya diviziyası yaratmışdı və onun müavini Tofiq Uğurluyev idi. Sonralar M.Mustafayev "Fədailər" dəstəsinin komandiri olduğuna görə, Artilleriya diviziyasının komandiri Milli Qəhrəman Elbrus Allahverdiyev təyin edildi. Bu batalyonlardan başqa aşağıda adı keçən Ağdamın polis dəsətələri də (DİN) Qarabağ savaşında iştirak edirdi.

Ağdam polis batalyonu - komandir Faiq Baxşəliyev.

Daxili qoşunlar alayı - komandir polkovnik Sabir Şabanov.

Polis alayı – komandir Fətulla Hüseynov (Qara polkovnik).

Qeyd edək ki, 1989-cu ilin sonları və 1990-cı ilin əvvəllərində Ermənistanla sərhədyanı ərazilərdə etnik toqquşmalar, ermənilərin vaxtaşırı sərhəd rayonlarımıza hücumları Bakı Dövlət Universitetinin tələbələrini tələbə rotaları (bölükləri) yaratmağa vadar etdi. BDU tələbələri könüllü rotalar (bölüklər) yaradaraq Qubadlı və Laçın rayonlarına ezam olundular.

BDU tələbə rotası (Laçın) - komandir Əli Kərimli.

BDU tələbə rotası (Qubadlı) - komandir Qənimət Zahid.

**Qeyd:** *Bu materialların araşdırılması yazar Elbrus Vahidov tərəfindən aparılıb.*

***Qaynaq:***

*teref.info/.../2122-qarabagda-doyushen-herbi-hisselerbataly. 6 may 2015*

## QARABAĞ MÜHARİBƏSİNİN SALNAMƏÇİSİ HƏRBİ OPERATOR VƏ BİRİNCİ BATALYONUN BÖLÜK KOMANDİRİ SEYİDAĞA MÖVSÜMLÜ



***Seyidağa Mövsümlü***

**Seyidağa Mövsümlü** 1954-cü ildə avqustun 1-də anadan olub. Bakıdakı Dəmiryolu Texnikumunu bitirdikdən sonra 1970-ci ildən Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində fəaliyyətə başlayıb. Bir müddət sonra Moskvada Ümumittifaq Teleradio İnstitutunun teleoperator kursunu bitirib.

1988-ci ildə Azərbaycanda başlanan milli-azadlıq hərəkatının salnaməsini də yaradanlardan biri o olub. 1988-ci ildə dekabrın 5-dən 6-na keçən gecə operator Nizami Abbas və rejissor Zaur Məhərrəmovla birgə "Abşeron" mehmanxanasından "Azadlıq" meydanında baş verənləri onlar birgə çəkmişdilər.

1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecə televiziyanın enerji bloku partladıldığından o, radiodan operator assisenti Azər Muradovla birgə "Mayak" dalğası vasitəsilə qanlı hadisələr haqqında məlumatı ictimaiyyətə çatdırdı. Yanvarın 21-də Azərbaycan Ali Sovetinin qanlı hadisələrlə bağlı keçirilən fövqəladə sessiyasının da çəkilişini (Xalq artisti Zeynəb Xanlarovanın göndərdiyi kameranın da köməyi ilə) təşkil edənlərdən biri Seyidağa Mövsümlü oldu. Yanvarın 22-də isə şəhidlərin dəfn mərasimini də lentə köçürənlərdən biri S.Mövsümlü idi. 1991-ci ilin dekabrında könüllü olaraq Milli Ordu sıralarına qoşuldu. Həmin vaxt Şuşaya getmək üçün 24 nəfərlik bir hərbi dəstə formalaşdırdı (Bu dəstə Birinci batalyonun tərkib hissəsi idi). S.Mövsümlü Daşaltı və Kərkicahan döyüşlərində iştirak etdi, yaralandı. 1992-ci ildə baş verən Xocalı soyqırımını da tarixi lentə köçürən ilk operatorlardan biri Seyidağa Mövsümlü idi.

Uzun müddət Müdafiə Nazirliyində Mətbuat və İnformasiya Mərkəzinin operatoru olaraq çalışmış S.Mövsümlü çoxlu sayda hərbi vətənpərvərlik ruhunda sənədli filmlər hazırlayıb. Həmin filmlərdən: "Xocalı– əsrin faciəsi", "Qan yaddaşı", "Cümhuriyyət ordusu", "Səməd bəy Mehmandarov", "Sərkərdə" və s.

S.Mövsümlü hazırda Azərbaycan Dövlət Televiziya və Radio Şirkətində çalışır.

---

***Qaynaq:***
*Seyidağa Mövsümlünün şəxsi arxivindən.*

## MÜSTƏQİLLİYƏ DOĞRU GEDƏN YOLUN QISA XRONİKASI




***Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, 1991-ci il***

**21 may 1990-cı il -** Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovun fərmanı ilə 1918-ci ilin 28 Mayında Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün “Azərbaycan Dövlət Quruluşunun Dirçəliş Günü” élan edilir.

**28 may 1990-cı il -** Demokratik qüvvələr Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını keçmiş Azərbaycan Parlamenti binası üzərində yenidən qaldırır. Fövqəladə vəziyyətin mövcudluğuna baxmayaraq, Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində 28 May münasibəti ilə mitinqlər, nümayişlər keçirilir.

**28 iyul 1990-cı il -** Respublika demokratik qüvvələrinin forumunda 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi Demokratik Blok (Demblok) yaradılır.

**30 sentyabr 1990-cı il -** Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirilir. Demblokun 30 nümayəndəsi (360 yerdən) Azərbaycan SSR xalq deputatı seçilir.

**17 noyabr 1990-cı il -** Naxçıvan MSSR Parlamenti Xalq Cəbhəsi üzvlərinin xüsusi fəallığı və təsiri ilə keçirilən sessiyada muxtar respublikanın adından “sovet sosialist” sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında məsələ qaldırılması haqqında qərar qəbul edir.

**17 mart 1991-ci il -** SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün Azərbaycanda referendum keçirilir. Səsvermənin saxtalaşdırılmış nəticələrinə görə səsvermədə iştirak edənlərin 93,3 faizi SSRİ-nin saxlanılması lehinə olur.

**5 fevral 1991-ci il -** Demokratik qüvvələrin tələbi ilə Azərbaycan Ali Sovetinin sessiyası tarixi qərarlar qəbul edir:

1. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırılır.
2. Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi təsdiq olunur.

**23 aprel 1991-ci il -** SSRİ-nin saxlanılması referendumunda iştirak etmiş 9 respublikanın yüksək vəzifəli şəxsi (Azərbaycandan) Moskva yaxınlığındakı Novo-Oqaryova president iqamətgahında tezliklə yeni ittifaq müqaviləsi - Suveren Dövlətlər İttifaqı müqaviləsinin bağlanacağı haqqında niyyət protokolu imzalayır.

**18-19 avqust 1991-ci il -** Sovet dövləti rəhbərliyinin bir qrup şəxsləri Forosda (Krımda) istirahət edən SSRİ prezidenti M.S.Qorbaçovu "neytrallaşdırıb" Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaradır. Avqustun 19-da Boris Yeltsinin başçılığı ilə bütün demokratik qüvvələr birləşib ayağa qalxır. Avqustun 21-də A.Mütəllibov respublika televiziyası ilə çıxış edir bu komitəni dəstəklədiyini bildirir.

**1991-ci il avqustun 23-də** AXC qərargahı qarşısındakı insanlara güc tətbiq edilir, qərargahdakılar döyülür.

**1991-ci il avqustun 25-27-də** Bakının Azadlıq Meydanında bir milyona yaxın adamın iştirakı ilə mitinqlər keçirilir.

**1991-ci il avqustun 30-da** Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat – Azadlıq Bəyannaməsini qəbul edir.

**1991-ci il sentyabrın 8-də** Azərbaycanda Prezident seçkiləri keçirilir. Demokratik qüvvələr bu seçkiləri boykot edir. A.Mütəllibov prezident seçilir.

**1991-ci il sentyabrın 14-də** Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb fəaliyyətini dayandırır.

**1991-ci il 3 oktyabr -** Prezident və Xalq Cəbhəsi liderlərinin görüşündə Milli Şura yaradılması haqqında razılıq edilir.

**1991-ci il oktyabrın 18-də** rayonlarda, şəhərlərdə, şəhər rayonlarında İcra Hakimiyyəti başçıları vəzifəsi təsis olunur (əvvəllər mövcud olmuş Rayon Partiya Komitəsi Birinci Katibinin əvəzinə).

**1991-ci il oktyabrın 18-də** Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı" qəbul edilir.

**1991-ci il noyabrın 14-də** Moskva yaxınlığında Novo-Oqaryovada yeddi respublika - Rusiya, Belorus, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan rəhbərləri yeni dövlətlərarası birlik - Suveren Dövlətlər İttifaqını yaratmaq niyyətlərini bildirirlər. Respublikalarda, o cümlədən Azərbaycanda demokratik qüvvələr buna etiraz edir. Sənədə imza atılmır.

**1991-ci il noyabrın 26-da** paritet əsasında 25 nəfər Demblok nümayəndəsindən və 25 nəfər başqa deputatlardan ibarət Milli Şura yaradıldı.

**1991-ci il dekabrın 8-də** Brest şəhəri yaxınlığındakı Viskuli iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belorus respublikaları rəhbərləri Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə bağlayır. "Belovejsk sazişi" adlı müqavilədə SSRİ-nin hüquqi subyekt kimi mövcudiyyətinə son qoyulduğu bildirilir.

**1991-ci il dekabrın 29-da** respublikanın dövlət müstəqilliyi ilə bağlı ümumxalq səsverməsi - referendum keçirilir. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxır.

**1992-ci il mayın 27-də** Milli Məclis Azərbaycan Respublikasının dövlət himnini, 1993-cü ilin fevralın 23-də isə üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli dövlət gerbini təsdiq edir.

## İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN TORPAQLARI

1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi – təxminən 410 min kv km.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan sahəsi – təxminən 280 min kv km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan sahəsi – təxminən 130 min kv km.

1918-ci ildə təzyiqlərlə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9 min kv km.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7 min kv km.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu ərazinin sahəsi – təxminən 114 min kv km.

**1920-ci ildə AXC-ni işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:**

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı – birlikdə sahəsi: təxminən 27,4 min kv km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – 86,6 min kv km.

Azərbaycanın 1988-1994-cü illərdə işğal etdirilmiş əraziləri: (cəmi: 13,110 kv km)

Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) – işğal tarixi – 1988-1994-cü illər (sahəsi – 4400 kv km)

Şuşa – 08 may 1992-ci il – sahəsi 289 kv km

Laçın – 18 may 1992-ci il – sahəsi 1835 kv km

Kəlbəcər – 3-4 aprel 1993-cü il – sahəsi 1936 kv km

Ağdam – 23 iyul 1993-cü il – sahəsi 1094 kv km

Cəbrayıl – 23 avqust 1993-cü il – sahəsi 1050 kv km

Füzuli – 23 avqust 1993-cü il – sahəsi 1386 kv km

Qubadlı – 31 avqust 1993-cü il – sahəsi 802 kv km

Zəngilan – 30 oktyabr 1993-cü il – sahəsi 707 kv km

# AZƏRBAYCAN TARİXİ HAQQINDA HƏQİQƏTLƏRİ ƏKS ETDİRƏN İLK KİTABLAR

## FƏRİDƏ MƏMMƏDOVA. “AZƏRBAYCANIN SİYASİ TARİXİ VƏ TARİXİ COĞRAFİYASI (E. Ə. III - E.VIII ƏSRİ)”.

**Bakı, Azərnəşr, 1993, 262 səh.**




Kitabda antik və orta əsr mənbələri əsasında antik və erkən orta əsrlər Azərbaycanın ictimai-siyasi və sosial iqtisadi həyatında baş verən hadisələr, onun mədəniyyət və ideologiya məsələləri işıqlandırılır. F.Məmmədova kitabın girişində yazır: “Erməni ənənələrinə görə Albaniya “Böyük Ermənistan”ın ayrılmaz hissəsi kimi verilir, “Şərqi Ermənistan” adlandırılır, albanlar isə etnik, mədəniyyət və konfessional (dini baxımdan erməni) sayılırdılar”. Müəllif qeyd edir ki, son illərdə, nəhayət, Azərbaycan alimləri də albanların Azərbaycan xalqının soy köklərinə mənsubluğu, Albaniya tarixinin Azərbaycanın əcdadı olması fikrinə gəlmişlər. Kitabın redaktoru – akademik Ziya Bünyadovdur.

Qeyd edək ki, Fəridə Məmmədova hələ 1960-cı illərin sonlarından, 1970-ci illərindən əvvəllərindən bu dəyərli tədqiqatları ilə ermənilərə əsaslı cavablar vermişdir.

## MANAF SÜLEYMANOV “EŞİTDİKLƏRİM, OXUDUQLARIM, GÖRDÜKLƏRİM”




Bu kitab 1987-ci ildə Azərnəşrdə çap olunub. Əlli min tirajla yayımlanıb. Bakının qədim keçmişindən, inqilab dövründə “Neft səltənətində” baş verən hadisələrdən, Bakının keçmiş günlərindən, imkanlı milyonçularından bəhs edir.




## RAFAEL HÜSEYNOV “VAXTDAN UCA”

Rafael Hüseynovun bu kitabı 1987-ci ildə “İşıq” nəşriyyatında çap olunub. Əvvəl on min tirajla nəşr edilən kitab, sonradan on minlərlə artıq sayda təkrar çap edilib. Bu kitabın qəhrəmanları – Müslüm Maqomayev, Hüseyn Cavid, Ərtoğrul Cavid istedadları ilə, sənətə sonsuz sevgiləri ilə, solmaz yadigarları ilə dünənin, bu günün və sabahındırlar.

Kitabda bu insanların ömrünün maraqlı səhifələri vərəqlənir.

## SABİR RÜSTƏMXANLI
## “ÖMÜR KİTABI”




Sabir Rüstəmxanlının bu kitabı 1988-ci ildə “Gənclik” nəşriyyatında otuz min tirajla nəşr edilib. Sonradan kitabın rus dilində nəşri ilə birgə tirajı on minlərlə olub. Əsərdə maraqlı bədii bir dillə Azərbaycanın bu günündən və keçmişindən danışılır. Kitabda xalqın yaddaşı, mifik düşüncəsi, gözəl folklor nümunələri verilir. Doğma yurd və vətən haqqında təsirli fikirlər yer alır.




## NƏSİMAN YAQUBLU
## “MƏMMƏD ƏMİN RƏSULZADƏ”

Nəsiman Yaqublunun bu tarixi-publisistik kitabı 1991-ci ildə “Gənclik” nəşriyyatında otuz min tirajla nəşr edilib (sonradan əlavə tirajla da kitab yayılıb). Bu, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə haqqında Azərbaycanda çap olunmuş ilk kitabdır. 1991-ci ilin QKÇP dövründə kitabın nəşri dayandırılmış, sonrakı hadisələr dövründə çap olunmuşdu.

## NƏSİB NƏSİBZADƏ
## “AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI”




Nəsib Nəsibzadə 1990-cı ildə “Elm” nəşriyyatında əlli min tirajla “Azərbaycan Demokratik Respublikası” kitabını nəşr etdirdi. Məqalələr və sənədlər toplusundan ibarət olan bu kitabda Azərbaycan Demokratik Respublikası haqqında maraqlı məlumatlar və fotolar da verilib.




## “AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI. AZƏRBAYCAN HÖKUMƏTİ: 1918-1920”

Bu kitab 1990-cı ildə iyirmi min tirajla “Gənclik” nəşriyyatında çap edilib. Kitabda əsasən N.Nəsibzadənin və M.Əliyevin məqalələri toplanıb. Bu yazılarda Azərbaycan Xalq Cümhuriyyətinin təməlini qoyanlar, Azərbaycan Parlamenti və onun işi haqqında məlumatlar verilib.




**ZİYA BÜNYADOV**
**"QIRMIZI TERROR"**

Akademik Ziya Bünyadov 1993-cü ildə on min iki yüz tirajla Azərnəşrdə "Qırmızı terror" kitabını nəşr etdirdi. Kitabda, əsasən, 1937-1939-cu illərdə stalinizmin amansız repressiyalarının qurbanı olmuş xalqımızın çoxlu görkəmli elm, incəsənət və mədəniyyət xadimləri haqqında oxuculara bilgilər verilib.

**AYDIN BALAYEV**
**"MÜSAVATDAN XALQ CƏBHƏSİNƏ QƏDƏR"**

Aydın Balayevin bu kitabı rus dilində 1992-ci ildə "Elm" nəşriyyatında beş min tirajla nəşr edilib. Kitabda Azərbaycan milli hərəkatı ideologiyasının nəzəri əsasları ilə yanaşı, erməni silahlı dəstələrinin XX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı soyqırım siyasəti açıqlanır. Kitabda AXC-nin də fəaliyyətinin qısa xronikası oxuculara təqdim olunur.




**ƏDALƏT TAHİRZADƏ**
**"MEYDAN: 4 İL 4 AY"**




Ədalət Tahirzadənin bu kitabı 1997-ci ildə "Ay-Ulduz" nəşriyyatı tərəfindən iki yüz nüsxə tirajla çap edilib. İki cilddən ibarət olan kitablar Azərbaycan Xalq Hərəkatı haqqında gündəlik qeydlər formasındadır. "Çağdaş Azərbaycanın sənədli tarixi" seriyası ilə çap edilən bu kitablar Azərbaycan Xalq Hərəkatı haqqında oxuculara geniş bilgilər verir.

**Kitabın müəllifi haqqında bilgi:** Ədalət Tahirzadə 1951-ci ildə Qəbələdə doğulub. BDU-nun filologiya fakultəsini bitirib. "Azadlıq" qəzetinin qurucularındandır. 1992-1993-cü illərdə Təhsil Nazirinin müavini vəzifəsində çalışıb. Hazırda Azərbaycanın XX əsr tarixi ilə bağlı dəyərli tədqiqatlar aparır.

# MÜƏLLİFİN ŞƏXSƏN GÖRÜŞDÜYÜ, ARXİV VƏ SƏNƏDLƏRİNDƏN FAYDALANDIĞI İNSANLAR

**a) Türkiyə**

1. Məhəmməd Kəngərli (Ankara – Azərbaycan Kültür Mərkəzinin başqanı).
2. Əhməd Qaraca (Ankara – Azərbaycan Kültür Dərnəyinin Baş katibi).
3. Məhəmməd Azər Aran (Ankara – Müsavat Partiyasının mühacirətdəki başqanı).
4. Turan Yazqan (İstanbul – Türk Dünyası Araşdırmalar Vəqfinin başqanı).
5. Feyzi Aküzüm (Ankara – Azərbaycan Kültür Dərnəyinin başqanı).
6. Səbahəddin Şimşir (İzmir – tədqiqatçı, Balıkəsir Universitetinin professoru).
7. Cəmil Ünal (Ankara – Azərbaycan Kültür Dərnəyinin başqanı).
8. Yusif Gədikli (İstanbul – tədqiqatçı, tərcüməçi).
9. Nəsrin Ünal (Ankara – Azərbaycan Kültür Dərnəyinin təmsilçisi).
10. Aybikə Qaraca (Ankara – Azərbaycan Kültür Dərnəyinin təmsilçisi)
11. İsa Yaşar Tezəl (Ankara – Azərbaycan Kültür Dərnəyinin təmsilçisi)
12. Səlcuq Önal (Ankara – Azərbaycan Kültür Dərnəyinin təmsilçisi)
13. Tuncər Kirhan (Ankara – Azərbaycan Kültür Dərnəyinin təmsilçisi)
14. İbrahim Yıldırım (İstanbul – həkim, tədqiqatçı).
15. Yavuz Akpınar (İzmir – professor, tədqiqatçı).
16. İldəniz Qurtulan (İstanbul – M.B.Məmmədzadə irsini toplayıb saxlayan).
17. Şəfiqə Ataman (Ankara – Həmid Atamanın həyat yoldaşı).
18. Əhməd Rza (İstanbul – azərbaycanl rəssam).
19. Zaur Məhərrəmov (Ankara – azərbaycanlı rejissor).
20. Becan Fərzəliyev (Ankara – xalq hərəkatı fəalı, Naxçıvanın Baş naziri).
21. Sevil Kəngərli (Ankara – Məhəmməd Kəngərlinin qızı).
22. Səbiha Kəngərli (Ankara – M.Kəngərlinin həyat yoldaşı).

**b) Almaniya**

1. Bəşir Gəncəçay (Münhen – Noy Olm, keçmiş legioner).
2. Firəngiz xanım (Münhen – Süleyman Təkinərin qızı).
3. İlham Həsənov (Frankfurt – azərbaycanlı, calq hərəkatı fəalı).
4. Ələsgər Siyabov (xalq hərəkatı fəalı).

**c) Rusiya**

1. Ramiz Abutalıbov (Moskva – diplomat, tədqiqatçı).
2. Salavat İshakov (Moskva – professor).
3. Çingiz Hüseynov (Moskva – yazıçı).

**d) Polşa**

1. Yan Malitski (Varşava – professor).
2. Pavel Libera (Varşava – professor).

**e) ABŞ**
1. Tadeuş Svyatoxovski (professor).
2. Cavanşir Qarabağlı (Nevada ştatı – azərbaycanlı).

**ə) Fransa**
1. Georgi Mamuliya (Paris – tədqiqatçı).
2. Zərifə xanım (Ə.M.Topçubaşovun nəvəsi).

**f) Qazaxıstan**
1. Azər Rəsulzadə (M.Ə.Rəsulzadənin oğlu, Karaqanda).

**Azərbaycan**
1. Əbülfəz Elçibəy (AXC sədri, Azərbaycanın keçmiş prezidenti).
2. İsa Qəmbər (AXC liderlərindən biri, Azərbaycanın keçmiş Milli Məclis sədri).
3. Pənah Hüseyn (AXC liderlərindən biri, Azərbaycanın keçmiş Baş Naziri).
4. Etibar Məmmədov (AXC liderlərindən biri, AMİP başqanı).
5. Məhəmməd Hatəmi Tantəkin (Azərbaycan xalq hərəkatı liderlərindən biri).
6. Nemət Pənahlı (AXC liderlərindən biri).
7. Əli Kərimli (Azərbaycan Xalq Cəbhəsi Partiyasının Başqanı).
8. İsgəndər Həmidov (AXC liderlərindən biri, Azərbaycanın keçmiş Daxili İşlər naziri).
9. Fazil Qəzənfəroğlu (AXC fəallarından, millət vəkili).
10. Bünyamin Qəmbərli (AXC fəallarından).
11. Sərdar Cəlaloğlu (Azərbaycan Demokrat Partiyasının Başqanı).
12. Fərəc Quliyev (AXC liderlərindən biri, millət vəkili).
13. Yunus Oğuz (AXC fəallarından, yazıçı-jurnalist).
14. Rafiq İsmayılov (tarixçi).
15. Xanım Xəlilova (Azərbaycan Qadın Hüquqları Cəmiyyətinin həmsədri).
16. Novella Cəfəroğlu (Azərbaycan Qadın Hüquqları Cəmiyyətinin həmsədri).
17. Sabir Rüstəmxanlı (Azərbaycan xalq hərəkatı liderlərindən biri, VHP Başqanı).
18. Vurğun Əyyub (Çənlibel təşkilatının sədri).
19. Rauf Arifoğlu ("Yeni Müsavat" qəzetinin baş redaktoru).
20. Yaşar Türkazər (Azərbaycan xalq hərəkatı fəallarından – bayraqdar).
21. Ənvər Börusoy (Azərbaycan xalq hərəkatı fəallarından).
22. Ənvər Əliyev (Azərbaycan xalq hərəkatı fəallarından).
23. Qələndər Muxtarlı (Azərbaycan xalq hərəkatı fəallarından).
24. Nəsir Ağayev (Bakı Kəndlər Birliyinin sədri).
25. Aida xanım (Azər Qasımzadənin həyat yoldaşı).
26. Roza Arazova (Azərbaycan xalq hərəkatı fəallarından).
27. Sabir Məmmədli (Azərbaycan xalq hərəkatı fəallarından, siyasi elmləri doktoru).
28. Səfər Alışarlı (Azərbaycan xalq hərəkatı fəallarından biri, yazıçı).
29. Rizvan Hüseynov (Azərbaycan xalq hərəkatı fəallarından).

30. Baba Allahnəzərov (Azərbaycan xalq hərəkatı fəallarından).
31. Əkbər Vəliyev (Ağdam Könüllü Özünümüdafiə Batalyonu).
32. Arzu Səmədbəyli (Azərbaycan xalq hərəkatı fəallarından).
33. Oqtay Qasımov (Azərbaycan xalq hərəkatı fəallarından, Ə.Elçibəyin köməkçisi).
34. Arif Paşayev (Laçın alayının komandiri).
35. Elçin Mirzəbəyli (Azərbaycan xalq hərəkatı fəallarından, şair).
36. Sabit Bağırov (AXC qurucularından).
37. Hikmət Hacızadə (AXC qurucularından).
38. Arzu Abdullayeva (AXC qurucularından).
39. Zərdüşt Əlizadə (AXC qurucularından).
40. Rafiq Turabxanoğlu (Azərbaycan xalq hərəkatı fəallarından).
41. Fuad Ağayev (Azərbaycan xalq hərəkatı fəallarından).
42. Mirbaba Babayev (Azərbaycan xalq hərəkatı fəallarından).
43. Teyyub Qurban (tədqiqatçı, şair).
44. Rəfiqə xanım (Oktay Eldəgəzin həyat yoldaşı).
45. Abid Qayıbov (Əbdürrəhman Fətəlibəyli-Düdənginskinin bacısı oğlu).
46. Rəfiqə xanım (Ə.F.Düdənginskinin bacısı qızı).
47. Hacı Zakir (Bakı Kəndlər Birliyinin fəallarından).
48. Əliyar Əliyev (Milli Qəhrəman).
49. Şəmistan Əlizamanlı (hərbi diktor).
50. Bədrəddin Quliyev (Azərbaycan xalq hərəkatı fəallarından).
51. Aydın Şükürov (Azərbaycan xalq hərəkatı fəallarından).
52. Ədalət Teymurlu (hərbçi-jurnalist).
53. Şahin Musaoğlu (həkim, şair, hərbi mahnılar müəllifi).
54. Seyidağa Mövsümlü (hərbi operator).
55. Nizami Abbas (hərbi operator).
56. Fəxrəddin Səfərov.
57. Səidə Qocamanlı (Qadınlar Cəmiyyəti fəallarından).
58. Firuzə Bəyməmmədqızı (jurnalist, Qadınlar Cəmiyyəti fəallarından).
59. Ramiz Tağıyev (Azərbaycan xalq hərəkatı fəallarından).
60. Şirməmməd Hüseynov (professor).
61. Bəxtiyar Vahabzadə (xalq şairi).
62. Gülhüseyn Hüseynoğlu (yazıçı).
63. Nurəddin İsmayılov (Günəşli) – dissident).
64. Sabir Azəri (yazıçı).
65. Mürşüd Məmmədli (Azərbaycan xalq hərəkatı fəallarından).
66. Manaf Süleymanov (yazıçı).
67. Mövlud Süleymanlı (yazıçı).
68. Anar (yazıçı).
69. Rafael Hüseynov (akademik).
70. Cəfər Rəmzi (şair).
71. Rəis Rəsulzadə (M.Ə.Rəsulzadənin nəvəsi).

72. Sara Zeynalova (Hacı Zeynalabdin Tağıyevin qızı).
73. Sara Hüseynova (akademik Heydər Hüseynovun qızı).
74. Talə Hüseynova (akademik Heydər Hüseynovun həyat yoldaşı).
75. Zəhra Göygöl (Nəsib bəy Yusifbəylinin qızı).
76. Tamara xanım (Fətəli xan Xoyskinin qızı).
77. Şükriyyə xanım (Əhməd Cavadın həyat yoldaşı).
78. Dəmir Gədəbəyli (şair).
79. Firəngiz Şərifova (Abbas Mirzə Şərifzadənin qızı, Azərbaycanın xalq artisti).
80. Nəcibə Məlikova (Ruhulla Axundovun bacısı qızı, Azərbaycanın xalq artisti).
81. Frida Şlyomova (Ruhulla Axundovun həyat yoldaşı).
82. Şəhla xanım (Salman Mümtazın qızı).
83. Yılmaz Axundzadə (Əhməd Cavadın oğlu).
84. Niyazi Axundzadə (Əhməd Cavadın oğlu).
85. Fuad Zeynallı (Əski Müsavatçılar Nəsli Cəmiyyətinin sədri).
86. Cavanşir Quliyev (bəstəkar, hazırda Kiprdə yaşayır).
87. Nadir Ağayev (dissident)
88. İdris Alakollu (aşıq).
89. Ceyhun Nəbi (tədqiqatçı).
90. Ruslan Rəhimov (jurnalist).
91. Müsəllim Həsənov (jurnalist).
92. Natiq Cavadlı (jurnalist).
93. Vasif Babayev (jurnalist).
94. Dilavər Əzimli (tarixçi).
95. Boran Əziz (tarixçi, BDU-nun dosenti).
96. Aydın Kərimov (Azərbaycan xalq hərəkatı fəallarından, Ədliyyə nazirinin keçmiş müavini).
97. Mehman Əliyev ("Turan" İnformasiya Agentliyinin baş direktoru).
98. Vaqif Səmədoğlu (şair).
99. Xəlil Rza Ulutürk (şair).
100. Xəliyəddin Xəlilli (tədqiqatçı, Azərbaycan xalq hərəkatı fəallarından).
101. Salman Hüseynov (Azərbaycan xalq hərəkatı fəallarından).
102. Elman Türkoğlu Bayraqdar (Azərbaycan xalq hərəkatı fəallarından).
103. Arif Hacılı (Müsavat Partiyasının Başqanı).
104. Ədalət Tahirzadə (tədqiqatçı-alim).
105. Aydın Balayev (tədqiqatçı-alim).
106. Asif Rüstəmli (tədqiqatçı-alim).

***Qeyd:*** *Ensiklopediyanın müəllifi bu insanlarla onların yaşadığı ölkələrdə görüşmüş (ABŞ istisna olmaqla, T.Svyatoçovski ilə Polşada görüşülüb), bu görüşləri təsdiq edən əksər fotoları isə şəxsi arxivində saxlayır.*



**Nəsiman Qara oğlu Yaqublu** Zəngilan rayonunda anadan olub. Həmin rayonda orta məktəbi bitirib. 1980-1983-cü ilərdə Bakı Dövlət Universitetində oxuyub,1983-1986-cı illərdə isə Sankt-Peterburq Universitetində təhsilini davam etdirib.1986-1992-ci illərdə "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışıb.1993-cü ildə könüllü olaraq Azərbaycan Ordusunda xidmətə başlayıb və "Azərbaycan Ordusu" qəzetinin Baş redaktoru olub. 1993-cü ildən Bakı Dövlət Universitetində müəllim olaraq çalışır. Tarix elmləri doktorudur.

N.Yaqublu Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin üç dildə (Azərbaycan,Türkiyə türkcəsi və rus dillərində) biblioqrafiyasını nəşr etdirib.Bundan əlavə o, M.Ə.Rəsulzadənin mühacirətdə yazdığı əsərlərdən ibarət olan "Əsərlərinin 10 cildliyi"ni nəşrə hazırlayır. Onun hazırladığı 1-ci cild artıq nəşr edilib.

N.Yaqublu rus dilindən və Türkiyə türkcəsindən bir çox əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

**N.Yaqublunun nəşr edilmiş kitabları:**

1. "Ağrılı ömürlər". Bakı,1990.
2."Məmməd Əmin Rəsulzadə". B., 1991.
3."Xocalı soyqırımı". B., 1992.
4."Müsavat Partiyasının tarixi". B., 1997.
5."Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan istiqlalı". B., 2001.
6."Azərbaycan legionerləri". B.,2002.
7."Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan-Polşa əlaqələrində rolu". B., 2007.
8."Bakının Qurtuluşu".B., 2008.
9."Əbdürrəhman Fətəlibəyli-Düdənginski". B., 2008.
10."Azərbaycanda yaşayan milli azlıqların nəşrləri". B., 2011.
11."Müsavat Partiyasının tarixi" (yenidən işlənilmiş və əlavələrlə). B.,2012.
12."Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi (sovet dövrü:1920-1991). B., 2013.
13."Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası". B., 2013.
14."Ermənilər türklərə qarşı". B., 2014.
15."Azərbaycan mühacirət irsi". B., 2014.
16."Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası" (rus dilində). Moskva, 2015.
17."Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası" (Türkiyə türkcəsində). Ankara, 2015.
18."Məhəmməd Əmin Rəsulzadə"(Azərbaycan və ingilis dillərində biblioqrafik məlumat). B., 2014.
19."Azərbaycan mühacirət mətbuatı"(dərslik). B., 2015.
20."Qafqaz İslam Ordusunun Azərbaycanda izləri". B., 2017.